AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN 80 İLLİYİNİN
KEÇİRİLMƏSİ ÜZRƏ DÖVLƏT KOMİSSİYASI

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİ
YANINDA BAŞ ARXİV İDARƏSİ

# AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ
# (1918-1920)

## Parlament
*(Stenoqrafik hesabatlar)*

# I cild

BAKI-1998

Diqqətinizə təqdim olunan bu çoxcildli sənədlər toplusu Azərbaycan Xalq Cümhuriyyətinin 80 illiyinin keçirilməsi üçün Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin 30 yanvar 1998-ci il tarixli sərəncamı ilə yaradılmış Dövlət Komissiyasının qərarı ilə çap olunmuşdur. Müsəlman Şərqində ilk dəfə olaraq demokratik respublika qurmaq prinsipini qarşısına məqsəd qoymuş Azərbaycan Xalq Cümhuriyyətinin (1918-1920) dövlət quruculuğu, xarici siyasət, ordu quruculuğu və başqa sahələrdə gördüyü işlər, qanunvericilik fəaliyyəti sənədlər toplusunda öz geniş əksini tapmışdır. Buradakı arxiv sənədləri və materiallarının böyük əksəriyyəti ilk dəfədir ki, çap olunur. Çoxcildli sənədlər toplusu elmi işçilər, tədqiqatçılar, ictimai elmlər üzrə mütəxəssislər, ali məktəb müəllimləri, aspirant və tələbələr, habelə Azərbaycan tarixi ilə maraqlanan geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

P21(98)

**Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920), Parlament** (Stenoqrafik hesabatlar). I cild.— Bakı, "Azərbaycan" nəşriyyatı, 1998. — 976 səh.

**4804000000-021(98)**
**P —— ------- —** **Sifarişlə**
**M670(07)-98**

© "Azərbaycan" nəşriyyatı, 1998.

## "Azərbaycan Xalq Cümhuriyyətinin 80 illiyinin keçirilməsi haqqında"

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN S Ə R Ə N C A M I

1998-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 80 ili tamam olur. Bu tarixi gün Azərbaycan xalqının həyatına böyük və əlamətdar hadisə kimi daxil olmuşdur. Şərqdə ilk demokratik dövlət quruluşunu yaratmış Azərbaycan Xalq Cümhuriyyəti istiqlaliyyətimizi elan edərək xalqımızın müstəqillik əzmini nümayiş etdirmişdir.

Azərbaycan Xalq Cümhuriyyəti ölkənin daxilində və xaricində yaranmış gərgin və mürəkkəb ictimai-siyasi şəraitdə fəaliyyət göstərmişdir. Bu dövlətin qısa bir müddətdə həyata keçirdiyi tədbirlər xalqımızın tarixində böyük iz buraxmışdır. Milliyyətindən, siyasi və dini mənsubiyyətindən, cinsindən asılı olmayaraq bütün vətəndaşlara bərabər hüquqlar verilməsi, dövlət sərhədlərinin müəyyən olunması, Azərbaycan dövlətçiliyi atributlarının qəbul edilməsi, ana dilinin dövlət dili elan olunması Azərbaycanın gələcək müstəqilliyi üçün möhkəm zəmin yaratmışdır. Demokratik dövlət quruculuğu, iqtisadiyyat, mədəniyyət, təhsil, hərbi quruculuq sahələrində atılmış addımlar Azərbaycan Xalq Cümhuriyyətinin 23 aylıq fəaliyyətini əks etdirən əsas istiqamətlərdir.

Azərbaycan Xalq Cümhuriyyəti 1920-ci ilin aprelində süqut etdi, Azərbaycanda sovet hakimiyyəti quruldu. 1922-ci ilin dekabrında [3-4] Sovet Sosialist Respublikaları İttifaqı yarandı və Azərbaycan bu ittifaqa daxil oldu. SSRİ-nin tərkibində olduğu dövrdə Azərbaycan bir çox dövlətçilik atributlarını saxlaya bilmiş, iqtisadiyyatını, elmini və mədəniyyətini inkişaf etdirmişdir. 1918-ci ildə Azərbaycanda yaranmış respublika müstəqil dövlət kimi süqut etsə də, respublika quruluşu yaşamış, müstəqillik hissləri xalqımızı heç vaxt tərk etməmişdir.

1991-ci ildə dövlət müstəqilliyini bərpa edən xalqımız Azərbaycan Xalq Cümhuriyyətinin qısa müddətli fəaliyyətinin zəngin ənənələrindən istifadə etmiş və bu tarixi varislik üzərində müstəqil Azərbaycan dövlətini yaratmışdır.

Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının xalqımızın tarix salnaməsində xüsusi yer tutduğunu nəzərə alaraq qərara alıram:

1. Azərbaycan Xalq Cümhuriyyətinin 80 illiyi respublikada geniş qeyd edilsin.
2. Yubiley tədbirlərinin hazırlanıb həyata keçirilməsi məqsədilə Dövlət Komissiyası yaradılsın.
3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 30 yanvar 1998-ci il*

## MÜQƏDDİMƏ

Şərqdə ilk demokratik dövlət quruluşu olan Azərbaycan Xalq Cümhuriyyətinin xalqımız qarşısındakı ən böyük xidməti ondadır ki, o özünün qısa müddətli (çəmi 23 ay) fəaliyyəti dövründə xalqımızın istiqlaliyyətini elan etmiş, xalqın milli mənlik şüurunu özünə qaytarmış, onun öz müqəddəratını təyin etməyə qadir olduğunu əyani şəkildə sübuta yetirmişdi.

"Azərbaycan Xalq Cümhuriyyətinin 80 illiyinin keçirilməsi haqqında" Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin 1998-ci il 30 yanvar tarixli sərəncamında deyilir: "Azərbaycan Xalq Cümhuriyyəti ölkənin daxilində və xaricində yaranmış kərkin və mürəkkəb ictimai-siyasi şəraitdə fəaliyyət gostərmişdir. Bu dövlətin qısa bir müddətdə həyata keçirdiyi tədbirlər xalqımızın tarixində böyük iz buraxmışdır. Milliyyətindən, siyasi və dini mənsubiyyətindən, cinsindən asılı olmayaraq bütün vətəndaşlara bərabər hüquqlar verilməsi, dövlət sərhədlərinin müəyyən olunması, Azərbaycan dövlətçiliyi atributlarının qəbul edilməsi, ana dilinin dövlət dili elan olunması Azərbaycanın gələcək müstəqilliyi üçün möhkəm zəmin yaratmışdır. Demokratik dövlət quruculuğu, iqtisadiyyat, mədəniyyət, təhsil, hərbi quruculuq sahəsində atılmış addımlar Azərbaycan Xalq Cümhuriyyətinin 23 aylıq fəaliyyətini əks etdirən əsas istiqamətlərdi".

Azərbaycan Xalq Cümhuriyyəti və onun parlamenti çox çətin və mürəkkəb bir tarixi dövrdə meydana gəlmişdi. Rusiyada 1917-ci ilin fevralında baş vermiş inqilab nəticəsində əsrlərlə ömür sürmüş mütləqiyyət quruluşu devrilir. Zaqafqaziyada Dövlət dumasına seçilmiş deputatlardan ibarət Zaqafqaziyanın idarəsi üzrə xüsusi komitə, noyabrda isə Zaqafqaziya Komissariatı yaradılır. Zaqafqaziyadan Rusiyanın Müəssislər Məclisinə seçilmiş və bolşeviklərin oktyabr çevrilişindən [5 - 6] sonra onda iştirak edə bilməyən nümayəndələr 1918-ci il fevralın 14-də Tiflisdə toplaşırlar və Zaqafqaziyada ali hakimiyyət orqanı olan Zaqafqaziya Seymini yaradırlar. Azərbaycan nümayəndələrinin təkidilə Zaqafqaziya Seymi aprelin 9-da Zaqafqaziya Cümhuriyyətinin yaranması daxili və xarici siyasət sahəsində heç bir əsaslı Yenilik həyata keçirə bilmir. Seymdə iştirak edən və müxtəlif millətlərdən olan nümayəndələr arasındakı daxili ziddiyyətlər və xarici oriyentasiya məsələlərindəki əskiliklər onların ümumi dil tapmasına imkan vermirdi.

Zaqafqaziya Seymində və hökumətində fəaliyyət göstərən hər üç millətin nümayəndələrindən hər biri öz millətinin mənafeyini ümumzaqafqaziya mənafeyindən üstün tuturdu. Onların ümumi platforması yox idi. 1918-ci il may ayının 25-də Zaqafqaziya Seyminin son iclası keçirilir. Gürcüstan Zaqafqaziya Seymindən çıxaraq may ayının 26-da öz istiqlaliyyətini elan edir.

Gürcüstanın ardınca Ermənistan da öz istiqlaliyyətini elan etməyə hazırlaşır. Belə bir şəraitdə Zaqafqaziya Seyminin müsəlman fraksiyası da hərtərəfli müzakirədən sonra belə bir qərara gəlir ki, "Əgər Gürcüstan öz istiqlaliyyətini elan edərsə, onda bizim tərəfimizdən də Azərbaycanın istiqlaliyyəti elan olunmalıdır".

Zaqafqaziya Seymi dağıldıqdan bir gün sonra, mayın 27-də Azərbaycanın istiqlaliyyətini elan etmək və ilk Azərbaycan hökuməti yaratmaq üçün Seymin bütün müsəlman nümayəndələri Tiflisdə toplanır. Hərtərəfli müzakirədən sonra onlar belə ağır bir zamanda Azərbaycanın idarə olunmasını öz üzərilərinə götürmək qərarına gələrək özlərini Azərbaycanın Milli Şurası elan edirlər.

Bu iclasda Milli Şuranın rəyasət heyəti seçilir. Rəyasət heyətinə "Müsavat" partiyası və partiyasızların demokratik qrupu tərəfindən M. Hacınski, N. Yusifbəyov, X. Xasməmmədov, M. Y. Cəfərov, müsəlman sosialist partiyalarından X. .Məlik Aslanov, C. Hacınski, sosial-demokrat (menşevik) "Hümmət" qrupundan Ə. Şeyxülislamov, Rusiya müsəlmanlarının "İttihad" partiyasından isə doktor X. Sultanov daxil olur. Gizli səsvermə yolu ilə M. Ə. Rəsulzadə Azərbaycan Milli Şurasının sədri seçilir. [6 - 7]

May ayının 28-də keçmiş Qafqaz canişinin iqamətgahında doktor Həsən bəy Ağayevin sədrliyi ilə Azərbaycan Milli Şurasının iclası keçirilir. Uzun və hərtərəfli müzakirədən sonra Milli Şura çox böyük ruh yüksəkliyi ilə, ayaq üstə və sevinc yaşları içərisində Azərbaycanın istiqlaliyyəti haqqında bəyannaməni qəbul edir. Bəyannamədə deyilirdi:

"Böyük Rusiya inqilabının cərəyanı ilə dövlət vücudunun ayrı-ayrı hissələrə ayrılması ilə Zaqafqaziyanın rus orduları tərəfindən tərkinə mövcud bir vəziyyəti-siyasiyə hasil oldu. Kəndi qəvayi-məxsusələrinə tərk olunan Zaqafqaziya millətləri müqəddəratlarının idarəsini bizzat kəndi əllərinə alaraq Zaqafqaziya Qoşma Xalq Cümhuriyyətini təsis etdilər. Vəqayi-siyasiyənin inkişaf etməsi üzərinə gürcü milləti Zaqafqaziya Qoşma Xalq Cümhuriyyəti cüzindən çıxıb öz müstəqil Gürcü Xalq Cümhuriyyəti təsislini səlah gördü.

Rusiya ilə osmanlı imperatorluğu arasında zühur edən müharibənin təsviyəsi üzündən hasil olan vəziyyət hazireyi-siyasiyyə və məmləkət daxilində bulunan misilsiz anarxiya Cənubi-Şərqi Zaqafqaziyadan ibarət

bulunan Azərbaycana, dəxi bulunduğu daxili və xarici müşkülatdan çıxmaq üçün xüsusi bir dövlət təşkilatı qurmaq lüzumunu təlqin ediyor.

Buna binaən arai-ümumiyyə ilə intixab olunan Azərbaycan Şura milliyeyi-islamiyyəsi bütün cəmaətə elan ediyor ki:

1.Bu gündən etibarən Azərbaycan xəlqi hakimiyyət həqqinə malik olduğu, Cənubi-Şərqi Zaqafqaziyadan ibarət Azərbaycan dəxi kamil-əl-hüquq müstəqil bir dövlətdir.

2.Müstəqil Azərbaycan dövlətinin şəkili-idarəsi Xalq Cümhuriyyəti olaraq təqərrür ediyor.

3.Azərbaycan Xalq Cümhuriyyəti bütün millətlər və bilxassə həmcüvar olduğu millət və dövlətlərlə münasibəti-Həsənə təsisinə əzm edər.

4.Azərbaycan Xalq Cümhuriyyəti millət, məzhəb, sinif, silk və cins fərqi gözləmədən qələmrəvində yaşayan bütün vətəndaşlarına hüquqi-siyasiyyə və vətəniyyə təmin elər.

5.Azərbaycan Xalq Cümhuriyyəti ərazisi daxilində yaşayan bilcümlə millətlərə sərbəstanə inkişafları üçün geniş meydan buraxır. [7 - 8]

6.Məclisi-müəssisan toplanıncaya qədər Azərbaycan idarəsinin başında arai-ümumiyyə ilə intixab olunmuş Şurai-Milli və Şurai-Milliyə qarşı məsul hökuməti-müvəqqəti durur"[1].

Sonra Milli Şura bitərəf Fətəli xan Xoyski başda ol-maqla Azərbaycan Xalq Cümhuriyyətinin ilk hökumətini təşkil edir.

Azərbaycan Milli Şurasının və hökumətinin yaranmasını, onların məqsəd və vəzifələrini izah etmək məqsədilə Zaqafqaziyanın azərbaycanlılar yaşayan şəhər və qəzalarına nümayəndələr göndərmək qərara alınır. N. Yusifbəyov, Ş. Rüstəmbəyov və doktor X. Sultanovdan ibarət ilk nümayəndə heyəti Gəncəyə göndərilir.

Azərbaycan Xalq Cümhuriyyəti Azərbaycan üçün çox mürəkkəb bir tarixi şəraitdə fəaliyyətə başlayır. Bu vaxt Bakıda S. Şaumyan başda olmaqla Azərbaycana qarşı düşmənçilik mövqei tutan Bakı Xalq Komissarları Soveti fəaliyyət göstərirdi. S. Şaumyanın rəhbərliyi ilə 1918-ci ilin martında Bakı-da, Şamaxıda, Qubada törədilən azərbaycanlı qırğınlarından sonra Bakı kommunası azərbaycanlı əhali arasında öz nüfuzunu tamamilə itirmişdi. Onların hakimiyyəti Bakıdan kənara çıxa bilməmişdi. Azərbaycanın qəzalarında isə tam hakimiyyətsizlikdi və hərc-mərclik hökm sürürdü. Öz təsir dairəsini bütün Azərbaycan ərazisində yaymaq məqsədi ilə 1918-ci il iyunun 16-da Azərbaycan Milli Şurası və hökuməti Tiflisdən Gəncəyə keçir. Bu vaxt Gəncədə real hakimiyyət hələ may ayının axırlarında 300 nəfərlik hərbi təlimatçılarla Gəncəyə gəlmiş Türkiyənin Qafqaz ordusunun baş komandanı Nuru Paşanın əlində idi. O, tezliklə Gəncədə hərc-mərcliyə son qoymuş, şəhərdə ciddi qayda-qanun yarada bilmişdi. Azərbaycan Milli Şurası və hökumətinin həyata keçirməyə çalışdıqları tədbirlərin "həddindən artıq demokratik istiqamətindən" narazı qalan Azərbaycan burjuaziyası və mülkədarlarının müəyyən dairələrinin təsiri ilə Gəncədə real hakimiyyətə malik olan Nuru paşa buraya gəlmiş Azərbaycan Milli Şurası və hökumətini şübhə ilə qarşılayır. Hətta o, milli şura və hökumətin rəhbərlərini qəbul etməkdən belə imtina edir. Nəticədə Azərbaycanın müstəqilliyi məsələsi böyük təhlükə qarşısında qalır. Uzun danışıqlardan sonra Nuru paşanın müşaviri və onun yanında böyük nüfuz sahibi olan Əhməd bəy Ağayev qarşılıqlı güzəştlər əsasında ümumi razılığa gəlməyi təklif edir. Bu təklifə görə Milli Şura buraxılmalı və bütün hakimiyyət yeni yaradılacaq hökumətə həvalə olunmalı idi. Bu məsələlərin müzakirəsi üçün 1918-ci il iyunun 17-də keçmiş şəhər idarəsinin binasında M. Ə. Rəsulzadənin sədrliyi ilə Milli Şuranın növbəti yeddinci iclası keçirilir.

Həmin iclasda Azərbaycan Milli Şurasının buraxılması, bütün qanunverici və icraedici hakimiyyətin Azərbaycan müvəqqəti hökumətinə verilməsi haqqında iki mühüm qətnamə qəbul edilir.

Milli Şuranın buraxılması haqqındakı birinci sənəddə göstərilirdi ki, həm daxili və həm də xarici siyasət sahəsində Azərbaycanda yaranmış ağır vəziyyəti nəzərə alaraq Azərbaycan Milli Şurası bütün hakimiyyəti F. X. Xoyskinin sədrliyi ilə yaradılmış hökumətə həvalə edir və ona tapşırır ki, öz hakimiyyətini qısa müddətdə çağırılacaq Müəssislər Məclisindən başqa heç kimə güzəştə getməsin.[2]

Müvəqqəti hökumətin hüquq və səlahiyyətlərinə aid ikinci sənəddə isə qeyd olunurdu ki, Azərbaycan hökuməti Azərbaycanın dövlət istiqlaliyyətini və mövcud siyasi azadlıqları ləğv edə bilməz, aqrar və digər bu kimi mühüm inqilabi əhəmiyyətli qanunların dəyişdirilməsinə hökumətə səlahiyyət verilmir. Azərbaycan hökuməti altı aydan gec olmayaraq Müəssislər Məclisi çağırmalıdır. Qalan məsələlərdə hökumətə bütün hüquqlardan istifadə üçün səlahiyyət verilir.[1]

İclasda çıxış edən F. X. Xoyski bildirir ki, onun yaratdığı yeni hökumətin başlıca vəzifəsi Azərbaycana azadlığı və istiqlaliyyəti uğrunda mübarizə olacaqdır. F. X. Xoyski hökuməti Gəncədə çox çətin bir şəraitdə fəaliyyətə başladı. Yaranmış mürəkkəb şəraitdə hökumətin ilk tədbiri iyunun 19-da [9 - 10] bütün Azərbaycanda

[1] ARDA: f.894, siy,10, iş 192, vər.1.
[2] Azərbayçan Cumhuriyyəti hökumətinin qanun və binagüzarlıqları məcmuəsi, 1919, № 1, səh.9.
[1] Yenə orada səh.8-9.

hərbi vəziyyətin elan edilməsi haqqında qərar oldu. Avqustun 11-də isə hərbi mükəlləfiyyət haqqında qərar qəbul olundu. Eyni zamanda Azərbaycan hökuməti Gəncədə dövlət aparatının təşkili işini də davam etdirir. Azərbaycan dili dövlət dili elan olunur. F. Xoyski hökumətinin mühüm tədbirlərindən biri də 1918-ci il iyul ayının 15-də Fövqəladə Təhqiqat Komissiyasının yaradılması haqqındakı qərarıdı. Bu qərarla komissiya qarşısında Birinci dünya müharibəsi illərində Zaqafqaziya ərazisində yerli müsəlmanlara qarşı törədilən vəhşiliklər və onların əmlakına edilən qəsd ilə bağlı məsələləri araşdırmaq, bu işdə günahkar olanları aşkar etmək və onların məhkəmə məsuliyyətinə cəlb olunması vəzifəsi tapşırılmışdır.

Ümumiyyətlə paytaxt Bakıya köçürülənə qədər Azərbaycan hökuməti Gəncədə ölkənin siyasi və iqtisadi həyatı, dəmir yolunun bərpası, ölkənin ayrı-ayrı bölgələri arasında poçta-teleqraf əlaqələrinin yaradılması işində və sair sahələrdə də bir sıra digər mühüm tədbirlər həyata keçirmişdi. Azərbaycan hökumətinin ən böyük vəzifələrindən biri ölkənin siyasi, iqtisadi və mədəni mərkəzi olan Bakı şəhərini 1918-ci il iyulun axırlarında süqut etmiş Bakı kommunasından sonra şəhəri ələ keçirmiş eser-menşevik və daşnak nümayəndələrindən ibarət "Sentrokaspi diktaturası"ndan təmizləmək idi.

Qızğın döyüşlər nəticəsində 1918-ci il sentyabrın 15-də Bakı Qafqaz İslam ordusu tərəfindən azad olunur. Sentyabrın 17-də F. Xoyski hökuməti Gəncədən Bakıya köçür. Bakı Azərbaycan Xalq Cümhuriyyətinin paytaxtı elan olunur.

Bakıya köçdükdən sonra Azərbaycan Xalq Cümhuriyyəti hökuməti istər ictimai-siyasi, istərsə təsərrüfat və mədəni quruculuq sahəsində daha mühüm tədbirlər həyata keçirməyə başlayır. Müəssislər Məclisinin çağırılması işinin təşkili üçün Nazirlər Şurasının sədri, daxili işlər və xalq maarif nazirlərindən ibarət komissiya yaradılır.

1918-ci il iyunun 17-də Gəncədə öz fəaliyyətini dayandırmış Azərbaycan Milli Şurası həmin il noyabrın 16-da Bakıda öz işini yenidən bərpa edir. İclasda çıxış edən Azərbaycan hökumətinin sədri F. X. Xoyski Milli Şura üzvlərinə müraciət [10 - 11] edərək bildirir ki, hökumətin Müəssislər Məclisini çağırmaq üçün hazırlıq işinə vaxtı çatmadığından Milli Şura bu işi öz öhdəsinə götürsün. Milli Şura bu təkliflə razılaşır. Noyabrın 19-da Milli Şuranın M. Ə. Rəsulzadənin sədrliyi ilə keçən iclasında bu məsələ geniş müzakirə olunur. Milli Şuranın həmin iclasında qeyd olunur ki, hələ 1917-ci ilin axırlarında Cənubi Qafqaz müsəlman partiyaları tərəfindən Rusiya Məclisi Müəssisanına ümumi səsvermə yolu ilə seçilmiş 14 müsəlman nümayəndələrinin siyahısı seçkilərdə iştirak etmiş partiyaların qazandıqları səslər müqabilində genişləndirilərək 44-ə çatdırılmışdı. Azərbaycanda Məclisi-Müəssisan toplamağın qeyri-mümkün olduğunu görən Cənubi Qafqaz Mərkəzi Müsəlman Komitəsi bu məsələnin həllini Zaqafqaziya Seymində Azərbaycanı təmsil etməkdə gördü. Çünki bu nümayəndələr Zaqafqaziyadakı müsəlman əhalisi arasındakı müxtəlif siyasi cərəyanları təmsil edirdi və bir milyondan yuxarı müsəlman əhalisinin səslərini qazanmış nümayəndələr idi. Ona görə də Zaqafqaziya Seymi və Zaqafqaziya Cümhuriyyəti hökuməti öz işinə xitam verdikdə Zaqafqaziya Seymindəki 44 müsəlman nümayəndələri özlərini Azərbaycan Milli Şurası elan etmiş və Azərbaycanın idarəsini öz üzərlərinə götürmüşdülər.

Milli Şuranın 19 noyabr tarixli iclasında qeyd olunurdu ki, Azərbaycan yalnız azərbaycanlılarla məskun deyildir. Ona görə də Azərbaycan Milli Şurası Azərbaycan ərazisində yaşayan bütün millətləri təmsil etməlidir. hazırda Milli Şurada olan 44 nəfər nümayəndə onları təmsil etmir. Digər tərəfdən müxtəlif siyasi partiya nümayəndələrindən başqa Azərbaycan xalqının müxtəlif təbəqələrinin nümayəndələrinin də belə bir təşkilatda təmsil olunmalarına böyük ehtiyac vardır. Milli Şurada bildirilir ki, Bakı quberniyası ilə Gəncə quberniyası Zaqatala dairəsi və İrəvan ilə Tiflis quberniyalarının bir hissəsi Azərbaycan ərazisini təşkil edir. Bu ərazilərdə Qafqaz təqvimində verilmiş məlumatlara əsasən 2.750.000 nəfər əhali var. Onlardan 1.900.000 nəfəri müsəlman, 500.000 nəfəri erməni, 230.000 nəfəri isə ruslardı. hər 24 min nəfərdən bir nümayəndə hesabı ilə müsəlmanlar-80, ermənilər-21, ruslar-10, [11 - 12] almanlar-1, yəhudilər-1 nümayəndə göndərməlidirlər. Azərbaycan Parlamentini 120 nəfərdən ibarət formalaşdırmaq qərara alınır.[2]

Milli Şuranın bu məsələ ilə bağlı qəbul etdiyi qanunda göstərilirdi ki, azlıqda qalan millətlərin bütün nümayəndələri yeni nümayəndələr olacaq. Müsəlmanlardan isə 44 Milli Şura üzvü ümumi səsvermə yolu ilə seçildikləri üçün yeni Parlamentə üzv daxil olurlar. Qalan 36 nəfər isə əlavə şəxslər cəlb olunur. Qanunda Azərbaycanın ayrı-ayrı şəhər və qəzaları üzrə əlavə göndəriləcək nümayəndələrin miqdarı da müəyyən edilmişdir.[1]

Qanunda Parlamentə seçiləcək 21 erməni nümayəndəsindən 8-i Gəncə, 8-i Şuşa i 5-i isə Bakı erməni komitələrindən seçilməli idi. Bakıdakı rus əhalisindən Rus Milli Şurası 10, alman əhalisi milli təşkilatından -1, yəhudi Milli Şurasından -1, gürcü komitəsindən - 1 və polyak komitəsindən -1 nəfər nümayəndə göndərilməli idi. Bundan əlavə qanunda Azərbaycan Cümhuriyyəti Parlamentinə Bakı həmkarlar Təşkilatı Şurası tərəfindən-3, Bakı Sənaye-ticarət tərəfindən isə 2 nümayəndənin göndərilməsi də nəzərdə tutulurdu.

---

[2] ARDA: f.894, siy,10, iş 187, vər.1-2.
[1] Yenə orada iş 7, vər.1-2.

Azərbaycan Cümhuriyyəti Parlamentinin çağırılması ilə əlaqədar Azərbaycan Milli Şurası adından, onun sədri, M. Ə. Rəsulzadənin imzası ilə 1918-ci il noyabr ayının 29-da Azərbaycan və rus dillərində "Bütün Azərbaycan əhalisinə!" Müraciətnaməsi dərc edilir. Müraciətnamədə deyilirdi: "Vətəndaşlar! Müharibə və inqilab zamanının fövqəladə əhvalını nəzərə alaraq tətil etmiş olan Azərbaycan Şurai-Millisi iqtizai-zaman ilə təkrar Azərbaycanın paytaxtı Bakıda toplandı. Şurai-Millinin ən əvvəl qəbul etdiyi qanun sırf Azərbaycan müsəlmanlarına məxsus olan Şurai-Millini milli bir şəkildən çıxarıb da dövləti bir şəkilə salmaq oldu. Bu ayın 19-da qəbul etdiyi qanunnaməyə görə Şurai-Milli dekabrın 3-nə qədər 120 əzalıq bir Məclisi-Məbusan (Parlament) halına gələcəkdir. Bu məclisə azlıqda qalan millətlərdən nümayəndələr cəlb olunduğu kimi, məmləkətin vilayətlərindən [12 - 13] də vəkillər çağırılmışdır. Bu surətlə yığılacaq məbusan irəlidə ümumi intixab üsulu ilə Azərbaycan Məclisi Müəssisanı yığışıncaya qədər yurdumuzun sahibi olacaq, onun müqəddəratını həll, hökumətini təşkil və mənafeini müdafiə edəcək..."[2]

Sənəddə Azərbaycan vətəndaşlarına müraciətlə deyilirdi ki, bizə fəlakət və səfalətdən başqa bir şey verməyən ədavət və ixtilafı bir tərəfə qoyaq. Tarix bizdən asılı olmayaraq hamımızı bir yerdə yaşamaq məcburiyyətində qoyub. Yeni başlayan həyatın təbii məşəqqətlərini asanlıqla çəkmək üçün yaşayışımızı ağıl və insani əsaslar üzərində quraq, bir-birimizi sevək, ehtiram edək. "Bütün Azərbaycan vətəndaşları bilafərq millət və məzhəb, bir vətənin övladlarıdırlar. Ümumi vətəndə müştərək həyatlarını qurmaq və bərabərlikdə kəndi-səadətlərini hazırlamaq üçün onlar bir-birlərinə əl uzatmalı və yardım etməlidirlər."[3]

Müraciətnamədən də göründüyü kimi, Parlamentin açılışı 1918-ci il dekabrın 3-nə təyin olunmuşdu. Lakin Bakıda fəaliyyət göstərən rus və erməni Milli Şuraları əleyhinə olduqları Azərbaycan Parlamentinin açılmasına hərtərəfli mane olmaq üçün bu ərəfədə Bakıya gəlmiş Müttəfiq qoşunlarının baş komandanı general Tomsondan istifadə etməyə çalışırlar. General Tomsonla aparılan danışıqlarla əlaqədar və qəzalardan bütün deputatların Bakıya gələ bilməməsini nəzərə alaraq Parlamentin ilk iclasının açılışı dekabrın 7-nə keçirilir. Həmin gün gündüz saat birdə H. Z. Tağıyevin Nikolayev küçəsində yerləşən keçmiş qız məktəbinin binasında müsəlman şərqində ilk parlamentin birinci iclası təntənəli şəraitdə açılır. Parlamenti açan Azərbaycan Milli Şurasının sədri M. Ə. Rəsulzadə böyük təbrik nitqi söyləyir.

"Müsavat" fraksiyasının təklifi ilə Əlimərdan bəy Topçubaşov Parlamentin sədri, doktor Həsənbəy Ağayev isə sədrin birinci müavini seçilirlər. Ə. Topçubaşov bu vaxt İstanbulda olduğu üçün Parlamentə H. Ağayev sədrlik edir. 1919-cu ilin yanvarında Ə. Topçubaşov Paris sülh konfransında Azərbaycan nümayəndə heyətinin başçısı təyin olunaraq Parisə getdiyi [13 - 14] üçün o, hətta 1920-ci ilin yanvarında yenidən parlamentin sədri seçilirsə də təəssüflər olsun ki, ona bir gün də olsun belə rəhbərlik etməmişdir. Parlamentin üç nəfərdən ibarət katibliyi də seçilir. Mehdi bəy Hacınski baş katib seçilir.

Sonra Azərbaycan Cümhuriyyəti müvəqqəti hökumətinin sədri Fətəli Xan Xoyski öz hökumətinin fəaliyyəti haqqında hesabat verir və öz hökumətinin istefasını qəbul etməyi Parlamentdən xahiş edir.

Parlament F. Xoyski hökumətinin istefasını qəbul edir. Parlamentin tapşırığı ilə sədrlik edən H. Ağayev yeni hökumətə rəhbərlik etməyi və yeni hökumət heyətinin tərkibini formalaşdırmağı yenə də F. Xoyskiyə tapşırır. Dekabrın 26-da Fətəli Xan hökumət proqramı və hökumətin tərkibi barədə parlamentdə məruzə edir. Geniş müzakirələrdən sonra Parlament F. Xoyski hökumətinin proqramını bəyənir və yeni hökumətin tərkibinə etimad göstərir.

Parlamentin açılış və fəaliyyəti ilə əlaqədar mühüm bir məsələyə də xüsusi diqqət yetirməliyik. Bu da ondan ibarətdir ki, Parlament haqqında qanunda erməni nümayəndələri üçün 21 yer, rus nümayəndələri üçün isə 10 yer, həmkarlar ittifaqı nümayəndələri üçün 3 yer ayrıldığına baxmayaraq onlar Azərbaycan Parlamentinin ilk iclasının açılışında iştirak etmirlər.

Belə ki, Bakı Rus Milli Şurası Azərbaycandakı rus əhalisi adından danışmaq üçün heç bir mənəvi hüququ olmadığı halda Parlamentdə iştirak etməmək haqqında qərar qəbul edir. Onlar sübut etməyə çalırlar ki, Azərbaycan öz müstəqilliyini elan etməkdə "Vahid və bölünməz Rusiya" ideyasına xilaf çıxmışdı. Guya Rus Milli Şurasının Parlament və hökumətdə iştirakı "Azərbaycanın Rusiyadan ayrılması faktının tanınması" demək olardı və bu da Azərbaycanın beynəlxalq aləmdə tanınması işini asanlaşdırırdı.[1]

Rus Milli Şurasının qəbul etdiyin qərar Azərbaycan parlamentinin çağırılması və orada öz nümayəndələrinin iştirakını müdafiə edən rus əhalisinin fikrini əks etdirmirdi. Belə ki, Bakıda fəaliyyət göstərən "Rus-slavyan Cəmiyyəti" Azərbaycan Milli Şurasının sədri M. Ə. Rəsulzadəyə müraciət [14 - 15] edərək həmin cəmiyyətin nümayəndələrinin Azərbaycanda "ümumi dövlət quruculuğu işlərində iştirak etmək üçün onların" Parlamentə daxil olmalarına razılıq verməyi xahiş edirlər.[2]

---

[2] ARDA: f.895, siy.1, iş 25, vər.3,4,5.
[3] Yenə orada.
[1] ARDA: f.895, siy.3, iş 7, vər.29.
[2] Azərbayçan" qəz. 6 dekab, 1918.

"Rus-slavyan Cəmiyyəti" üçün Azərbaycan Parlamentində 5 deputat yeri ayrılır. Buna cavab olaraq 1918-ci il dekabrın 4-də Rus Milli Şurası göstərilən cəmiyyətlə bütün işgüzar əlaqələrini kəsmək haqqında qərar qəbul edir. Lakin Azərbaycanda yaşayan rus əhalisinin təzyiqi ilə Rus Milli Şurası 1919-cu il yanvar ayının 31-də Parlamentin işində iştirak etmək haqqında qərar qəbul etməyə məcbur olur.

Rus Milli Şurasının bu şovinist böyük dövlətçilik ideyalarının "Böyük Ermənistan" xülyaları ilə yaşayan və tarixin onlara verdiyi əlverişli şəraitdən öz xeyirlərinə maksimum dərəcədə istifadə etməyə çalışan Erməni Milli Komitələri tərəfindən də müdafiə olunur. Onlar da Azərbaycan Parlamentinin açılışına öz nümayəndələrini göndərmirlər. Onlar Azərbaycanın Müstəqilliyi ilə heç cür razılaşmaq istəmirdilər.

Ermənilərin Azərbaycan Parlamentində iştirak etməmək taktikası iki aydan çox davam edir. Nəhayət onlar da Parlamentdə iştirak etmək haqqında qərar qəbul edirlər. Onlar Azərbaycan Parlamentində iki fraksiya - erməni və "Daşnaksutyun" fraksiyalarını yaradırlar. Parlamentdə onların sonrakı fəaliyyətləri göstərdi ki, ermənilərin Azərbaycan Parlamentində iştirak etmələrinin başlıca səbəbi Azərbaycan dövlətçiliyinin yaranmasına, Azərbaycan iqtisadiyyatı və mədəniyyətinin inkişafına xidmət etmək üçün deyil, özlərinin şovinist separatçı "Böyük Ermənistan" ideyalarının təbliği məsələlərinə yeni bir tribuna əldə etmək olmuşdu.

Azərbaycan Parlamenti yarandığı ilk gündən öz işlərini demokratik cümhuriyyətlərə xas təşkilati prinsiplər əsasında qurur. Onu da qeyd edək ki, Parlamentin təşkili haqqında qəbul edilmiş qanunda Parlamentin 120 nəfərdən ibarət olması nəzərdə tutulmuşdursa da müxtəlif səbəblərdən heç vaxt Parlamentdə bu sayda deputat olmamışdır. [15 - 16]

Artıq 1919-cu ilin axırına yaxın Parlamentə II müxtəlif partiya fraksiyası və qrupunu cəmi 96 deputat təmsil edirdi. Parlamentdəki siyasi partiyalar və qrupların qüvvələr nisbəti aşağıdakı kimi idi: "Müsavat" və birtərəflər fraksiyası (39 nəfər), "İttihad" (13 nəfər), "Əhrar" (6 nəfər), sosialistlər bloku (13 nəfər), partiyasızlar (4 nəfər), müstəqillər (3 nəfər), erməni fraksiyası (5 nəfər), daşnaksutyun fraksiyası (6 nəfər), azlıqda qalan millətlər fraksiyası (4 nəfər).

Azərbaycan Parlamentinin ilk iclaslarında onun işində iştirak edən partiya fraksiya və qrupları özfəaliyyət proqramları haqqında bəyanatlar verirlər. Bu bəyanatlarda ümumi bir məqsəd diqqəti cəlb edirdi - gənc Azərbaycan Cümhuriyyətinin müstəqilliyi və ərazi toxunulmazlığını, milli və siyasi hüquqlarını qoruyub saxlamaq Azərbaycan xalqının və hökumətinin digər xalqlar və hökumətlərlə, xüsusilə qonşu hökumətlərlə dostluq əlaqələrini yaratmaq və möhkəmləndirmək, respublikada hüquqi-demokratik dövlət quruluşunu bərqərar etmək, geniş sosial islahatlar həyata keçirmək, ölkəni müdafiə edə biləcək güclü ordu yaratmaq.

Azərbaycan Cümhuriyyəti Parlamentində fəaliyyət göstərən partiya fraksiya və qrupları onun iclaslarında həm də öz partiya və qruplarının mənafeyi və ideologiyası istiqamətindən çıxış edirdilər. Onların arasında ən iri və aparıcı partiya Azərbaycan xalqının Milli mənafelərinin daşıyıcısı və parlamentdə əksəriyyət çoxluğu təşkil edən "Müsavat" partiyası idi.

Bu partiya fraksiyası demokratik bitərəflər qrupu ilə demək olar ki, Parlamentin və hökumətin fəaliyyətinin əsas istiqamətlərini müəyyən edirdi. "Müsavat" partiyası Parlamentdə çoxluq təşkil etməsinə baxmayaraq respublikanın ümumi mənafeyini nəzərə alaraq həmişə çalışırdı ki, digər partiya fraksiyaları və qrupları ilə təmas və koalisiyada işləsin.

Parlamentdə "Müsavat"dan sonra çoxluğu "İttihad" fraksiyası təşkil edirdi. Özünü Azərbaycanda İttihadi-İslam tərəfdarı hesab edən bu fraksiya 1919-cu ilin dekabrına qədər daimi hakim milli-demokratik cərəyana qarşı müxalifətdə olmuş və hökumət təşkillərində iştirak etməmişdir. Parlamentdə [16 - 17] hökumətin fəaliyyətini daim tənqid edən fraksiyalardan biri də "İttihad"olmuşdur.

Azərbaycan Parlamentində son dərəcə solçuluq istiqamətində fəaliyyət göstərən fraksiyalardan biri də Sosial-demokrat oriyentasiyalı nümayəndələri özündə birləşdirən sosialistlər bloku idi. Buraya hümmətçilər, menşeviklər və eserlər daxil idi. Parlament iclaslarının stenoqrafik hesabatlarından da göründüyü kimi özlərini zəhmətkeşlərin, ilk növbədə isə fəhlə sinfi və yoxsul kəndlilərin mənafelərinin müdafiəçisi elan edən sosialistlər fraksiyası Parlament tribunasından və hökumətdə iştiraklarından maksimum dərəcədə öz siyasi məqsədləri üçün istifadə etməyə çalışmışlar. Bu müddət ərzində onlar həmişə Sovet Rusiyasının xeyrinə işləmiş və Azərbaycanın Sovet Rusiyasına birləşdirilməsi, yalnız Qızıl Ordunun Azərbaycana həqiqi azadlıq gətirə biləcəyini, iqtisadi və sosial sahədə islahatların yalnız sosializm quruluşu şəraitində mümkün olacağını təbliğ etmişdilər. Parlamentdə iştirakları müddətində onlar yalnız 1919-cu ilin yayında Azərbaycanın Denikin könüllü orduları tərəfindən işğal ediləcəyi təhlükəsi yarandıqda "Müsavat" və digər milli partiyalarla birlikdə çıxış etməyə məcbur olmuşdular.

Parlamentdə "Əhrar" partiyasının fraksiyası əsasən kəndlilərin mənafelərinin müdafiəçisi kimi çıxış etmiş, digər partiyalara nisbətən daha çox "Müsavat"a yaxın olmuşdur.

Yuxarıda deyildiyi kimi Parlamentdə ermənilər iki fraksiya - erməni və "Daşnaksütyn" fraksiyaları adı altında fəaliyyət göstərsələr də əslində onlar həmişə eyni mövqedən — Azərbaycan Parlamentində Ermənistan Ararat Respublikası və ermənilərin Azərbaycana qarşı ərazi iddialarına haqq qazandırmaq mövqeindən çıxış etmişlər. Parlamentin ilk iclaslarında əsas siyasi partiyaların fraksiyaları və qrupları öz bəyanatlarında gələcək fəaliyyət proqramlarını, habelə Parlament və hökumətə öz münasibətlərini bildirirlər.

Cəmi 17 ay fəaliyyət göstərməsinə baxmayaraq Azərbaycan Xalq Cümhuriyyətinin Parlamenti özünün həyatiliyi və yüksək işgüzarlıq qabiliyyətini sübut etdi. O göstərdi ki, Azərbaycan xalqı həqiqətən parlament idarəçiliyi səviyyəsinə yüksəlmişdir. [17 - 18] O vaxt Azərbaycan Cümhuriyyəti bütün müsəlman şərqində yeganə parlamentli respublika idi.

Özünün 17 aylıq fəaliyyəti dövründə Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin 145 iclası keçirilmişdir. İlk iclas 1918-ci il dekabrın 7-də, son iclas isə 1920-ci il aprelin 27-də olmuşdur. Yetərsay olmadığı üçün bu iclaslardan 15-i baş tutmamışdır. Qalan 130 iclasdan ikisi tarixi a 28 may və 15 sentyabr 1919-cu il a Azərbaycanın İstiqlalının və Bakının azad edilməsinin birinci ildönümləri münasibətilə; dördü təntənəli 12 mart 1919 və 12 mart 1920-ci illər a Böyük Rus İnqilabının 2-ci və 3-cü ildönümləri; 27 iyun 1919-cu il Azərbaycanla-gürcüstan arasında hərbi əməkdaşlıq haqqında müqavilə bağlanması və 14 yanvar 1920-ci il Paris sülh konfransı iştirakçısı olan dövlətlər tərəfindən Azərbaycanın müstəqilliyinin de-fakto tanınması münasibətilə keçirilmişdir. İkisi isə fövqəladə a 1918-ci il dekabrın 20-də Ermənistanın Gürcüstana müharibə elan etməsi və 1920-ci il martın 17-də Gürcüstanla-Azərbaycan arasında bağlanmış iqtisadi əməkdaşlıq haqqında müqavilələrin təsdiqi münasibətilə keçirilmiş iclaslardı. Qalan iclaslarda ölkənin daxili və xarici siyasəti, iqtisadiyyat və maliyyə məsələləri, qanunvericilik aktlarının müzakirəsi və qəbulu, ordu quruculuğu və sair məsələlər müzakirə olunmuşdur. Parlamentdə müzakirə olunan qanunlar bir qayda olaraq yalnız üçüncü oxunuşdan sonra qəbul olunurdu.

Öz fəaliyyəti dövründə Azərbaycan Cümhuriyyəti Parlamentinin müzakirəsinə 270-dən yuxarı qanun layihəsi çıxarılmışdır ki, onlardan da 230-a yaxın təsdiq edilmişdir. Parlamentin fəaliyyəti bilavasitə onun nizamnaməsi rolu oynayan "Azərbaycan Parlamentinin nakazı (təlimatı)" ilə tənzimlənirdi.

Parlamentdə 11 komissiya fəaliyyət göstərirdi. Bunlar aşağıdakılar idi: Maliyyə-büdcə, qanunvericilik təklifləri, Müəssislər Məclisinə seçkilər keçirmək üzrə mərkəzi komissiya, mandat, hərbi, aqrar məsələlər: sorğular üzrə, təsərrüfat-sərəncamverici, ölkənin istehsal qüvvələrindən istifadə üzərində nəzarət, redaksiya və fəhlə məsələləri üzrə komissiyaları idi.

Azərbaycan Xalq Cümhuriyyəti hüquqi dövlət yaratmaq üçün hakimiyyətin qanunvericilik, icraedicilik və məhkəmə orqanlarına [18 - 19] bölünməsi prinsipi də nəzərdə tutulurdu. Azərbaycan Cümhuriyyəti Parlamenti öz varlığı zamanı bütün fəaliyyətini daha çox ölkənin sosial-iqtisadi və maliyyə problemlərinin həllinə, ölkənin siyasi və ərazi toxunulmazlığını təmin etməyə, vətəndaşların hüquqlarını qorumaq, dövlətin demokratik və hüquqi əsaslarını möhkəmləndirmək, Azərbaycan Cümhuriyyətinin dünya dövlətləri tərəfindən tanınması üçün lazımi şərait yaratmaq, onun xarici ölkələr, ilk növbədə isə yaxın qonşuları ilə siyasi, iqtisadi və ticarət əlaqələri yaratmağa yönəltmişdir.

Əlbəttə Azərbaycan Parlamentinin qəbul etdiyi qanun və qərarların hamısı müstəqil ölkənin ilk qanun və qərarları olduğu üçün çox əhəmiyyətli idi. Lakin onların arasında elə qanunlar vardı ki, ölkə üçün onların əhəmiyyətini xüsusilə qeyd etmək lazımdır. Çünki bunların Azərbaycan Cümhuriyyətinin fəaliyyətini, strateji istiqamətlərini müəyyən etməkdə mühüm rolu olmuşdur. Bunlardan Vətəndaşlıq haqqında ümumi hərbi mükəlləfiyyət haqqında, mətbuat haqqında, Milli Bankın təsisi haqqında, Bakı Dövlət Universitetinin yaradılması haqqında, gomrük və poçta-teleqraf xidmətinin təkmilləşdirilməsi haqqında, məhkəmə qanunvericiliyi haqqında və sair qanunları göstərmək olar. Parlament öz fəaliyyəti zamanı ən çox diqqət yetirdiyi mühüm məsələrdən biri də Azərbaycanda ordu quruculuğu olmuşdur. Parlament üzvləri başa düşürdülər ki, ölkənin siyasi və ərazi müstəqilliyini qoruyub saxlamaq üçün güclü ordu lazımdır. Ona görə də Azərbaycan Cümhuriyyəti parlamentində demək olar ki, mübahisəsiz və ümumi razılıq əsasında yalnız ordu quruculuğuna aid qanunların müzakirəsi keçir və qəbul olunurdu.

Azərbaycan Cümhuriyyəti hökuməti ilə yanaşı Azərbaycan Parlamentinin fəaliyyətində də ölkədə xalq maarifinin inkişafı məsələlərinə mühüm yer verilmişdir. Tədris və teatr-tamaşa müəssisələrinin milliləşdirilməsi, yeni tədris müəssisələrinin açılması, orada dərs deyən müəllimlərin maddi vəziyyətinin yaxşılaşdırılması məsələsi daim Azərbaycan Cumhuriyyəti Parlamentinin diqqət mərkəzində olmuşdur. Xüsusilə Bakı Dövlət Universitetinin açılıb-açılmaması məsələsi demək olar ki, bir neçə ay müddətində Azərbaycan Parlamentinin [19 - 20] iclaslarında qızğın müzakirəyə səbəb olmuş və dəfələrlə bu haqda böyük mübahisələr getmişdi. Buna da səbəb universitetdə dərs demək üçün yüksək ixtisaslı hazırlıqlı milli kadrların olmaması səbəbindən universitetin rus dilində açılmasının nəzərdə tutulması idi. Bu işə xüsusilə "İttihad", "Əhrar" partiyalarından olan nümayəndələr ciddi müqavimət göstərirdilər. Onlar Universitetin rus dilində açılmasını Azərbaycanda ruslaşdırma siyasətinin davam etdirilməsi kimi başa düşürdülər. "Müsavat", Sosialistlər fraksiyasından olan deputatlar isə universitetin rus dilində açılmasının heç bir təhlükə törətmədiyini qeyd edərək göstərirdilər ki, Universitetə daha çox azərbaycanlı tələbələr cəlb olunmalı, onlar tərbiyə edilib milli kadrlar yetişdirildikdən sonra tədricən universitetdə tədrisin azərbaycanlaşdırılması prosesinə keçilməlidir. Qızğın müzakirələrdən sonra parlament 1919-cu il sentyabr ayının 2-də Bakı Dövlət Universitetinin təsisi haqqında qanun qəbul edir. Bu gün Azərbaycanda ali təhsil müəssisələrinin və ali təhsilli kadrların yaranmasının

beşiyi başında dayanan Bakı Dövlət Universitetinin tarixi onun yaradılmasını təkid edənlərin nə qədər düzgün mövqe tutduqlarını bir daha sübut etdi.

Azərbaycanda elm və təhsilin inkişafı, milli kadrların yetişdirilməsi üçün xarici ölkələrin müxtəlif ali məktəblərində təhsil almaq üçün azərbaycanlı tələbələrinin xaricə göndərilməsi sahəsində də Azərbaycan Cümhuriyyəti Parlamenti və hökuməti mühüm işlər görmüşdür. Azərbaycan hökuməti tərəfindən yüz nəfər azərbaycanlı gənci xarici ali məktəblərdə təhsil almaq üçün dövlət hesabına xarici ölkələrə göndərmək haqqında hazırlanmış qanun layihəsi Parlamentdə geniş müzakirə edilərək qəbul olunur. Xaricə göndəriləcək tələbələri seçmək üçün parlament üzvləri a Məmməd Əmin Rəsulzadə, Mehdi bəy Hacınski, Əhməd bəy Pepinov, Qara bəy Qarabəyov və Abdulla bəy Əfəndiyevdən ibarət xüsusi komissiya yaradılır. Abituriyentlər arasından seçilmiş yüz nəfər daha çox ümidverici gəncdən 45-nəfəri Fransanın, 23-nəfəri İtaliyanın, 10-nəfəri İngiltərənin, 9-nəfəri isə Türkiyənin müxtəlif ali məktəblərinə göndərilir. Rusiyada təhsil almaq üçün göndərilməsi [20 - 21] nəzərdə tutulan 13 nəfər gənc Rusiyada vətəndaş müharibəsinin davam etməsi ilə əlaqədar olaraq oraya gedə bilmədi.

Azərbaycan Parlamenti və hökumətinin qarşısında duran mühüm vəzifələrdən biri də Azərbaycanın istiqlaliyyətinin beynəlxalq aləmdə tanınmasına nail olmaqdan ibarət idi. Bunun üçün hələ 1918-ci ilin yayında M. Ə. Rəsulzadənin rəhbərliyi ilə İstanbula nümayəndə heyəti göndərilmiş, sentyabrında isə Ə. M. Topçubaşov da onlara qoşulmuşdur. Bu nümayəndələrin məqsədi İstanbulda olan xarici ölkələrin diplomatik nümayəndəliklərinin vasitəsi ilə həmin ölkələrlə əlaqələr yaratmaq və onların ölkələri tərəfindən Azərbaycanın müstəqilliyinin tanınmasına nail olmaq idi. 1918-ci ilin payızında Almaniyanın və onun müttəfiqlərinin birinci dünya müharibəsində məğlub olması vəziyyəti çətinləşdirir. 1918-ci il oktyabrın 30-da Türkiyə ilə İngiltərə arasında bağlanan Mudros sazişinə görə türklər Zaqafqaziyanı, o cümlədən Azərbaycanı boşaldırlar. Onların yerini general Tomson başda olmaqla ingilis orduları tutur. Azərbaycan hökumətinin və 1918-ci il dekabrın 7-də açılan Azərbaycan parlamentinin ümdə vəzifəsi Paris sülh konfransının iştirakçısı olan qalib dövlətlər tərəfindən Azərbaycanın müstəqilliyinin tanınmasına nail olmaq idi. Buna görə də 1918-ci il dekabrın 28-də Azərbaycan hökuməti Parlamentin ağsaqqallar şurası nümayəndələrinin iştirakı ilə Paris sülh konfransında iştirak etmək üçün Azərbaycan Cumhuriyyəti Parlamentinin sədri, cümhuriyyətin beynəlxalq aləmdə tanımasında əvəzsiz xidmətləri olmuş Ə. M. Topçubaşovun sədrliyi ilə Fransaya nümayəndə heyəti göndərilir. Böyük əziyyətlərdən və erməni təbliğati ilə uzun müddətli mübarizədən sonra nəhayət ki, həmin nümayəndə heyəti 1920-ci il yanvar ayının 12-də Sülh konfransındakı əsas ölkələr tərəfindən Azərbaycanın de-fakto tanınmasına nail oldular.

1920-ci il aprelin 22-də öz süqutundan beş gün əvvəl Azərbaycan Cümhuriyyəti Parlamenti Paris sülh konfransında öz missiyasını yerinə yetirmiş Azərbaycan nümayəndə heyətini buraxmaq və Qərbi Avropa ölkələrində (İngiltərə, Fransa, İtaliya, İsveçrə, Polşa) və ABŞ-da diplomatik nümayəndəliklər açmaq haqqında qanun qəbul edir. [21 - 22]

Bu müzakirələr zamanı sosialistlər blokundan olan deputatlar Almaniyada və Azərbaycan hökumətinin bütün ciddi səylərinə baxmayaraq onu de-fakto belə tanımayan sovet Rusiyasında da belə nümayəndəliklərin açılmasını təkid edir və onların da qanuna daxil edilməsinə nail olurlar. Lakin XI Qızıl Ordu tərəfindən Azərbaycanın işğalı bütün bu işləri yarımçıq qoyur.

Azərbaycan Xalq Cümhuriyyəti Parlamenti və hökumətinin fəaliyyətinin daim diqqət mərkəzində olmuş nisbətən daha kəskin və həlli olduqca çətin və mürəkkəb məsələlərdən biri də Zaqafqaziyada yeni yaranmış üç respublika - Azərbaycan, Gürcüstan və Ermənistan arasında sərhəd məsələlərinin həlli idi. Bu məsələlər dəfələrlə müxtəlif komissiyalarda, ümum Zaqafqaziya iclas və konfranslarında müzakirə olunmuş və həmişə də sərhəd məsələlərinə münasibətdə bu respublikaların fikirləri bir-birlərinə əks olmuşdur. Özlərinin şovinist "Böyük Ermənistan" yaratmaq xülyasından çıxış edən Ararat respublikası öz qonşularına, xüsusilə Azərbaycana qarşı böyük ərazi iddiaları irəli sürürdü.

Azərbaycan Xalq Cümhuriyyəti ərazi məsələlərinə münasibətdə reallıqlardan çıxış etmək tərəfdarı idi. Azərbaycan Xalq Cümhuriyyəti xarici işlər nazirliyinin məlumatlarına görə 1919-cu ilin axırlarında Azərbaycan Cümhuriyyətinin ərazisi 113.9 v. kilometr idi ki, ondan 16,6 min v. kilometr isə mübahisəli ərazilər idi. Ərazi və sərhəd məsələləri ilə əlaqədar Azərbaycanla Gürcüstan arasında gedən danışıqlar nəticəsində ümumi razılığa gəlmək mümkün olursa da Ermənistanla heç cür razılığa gəlmək mümkün olmamışdır.

Azərbaycan Cümhuriyyəti hökuməti Gürcüstanla 1919-cu ilin yayında Denikinə qarşı birlikdə mübarizə, 1920-ci ilin martında isə iqtisadi və siyasi əlaqələr haqqında müqavilələr imzalamış və onlar Parlamentdə təsdiq olunmuşdur.

İranla münasibətlərdə də Cümhuriyyətin varlığı dövründə böyük dəyişikliklər baş vermişdi. Azərbaycan öz müstəqilliyini elan edərkən İran onun müstəqilliyini tanımaqdan imtina etmişdi. Azərbaycan Cümhuriyyəti hökumətinin İranla münasibətlərə dair apardığı ardıcıl, məqsədyönlü siyasət nəticəsində artıq 1919-cu ilin dekabr ayından Ağa Seyid Ziyəddin Təbətəbainin başçılığı ilə Azərbaycana gələn İran nümayəndə [22 - 23] heyəti ilə Adil xan Ziyadxanov başda olmaqla Azərbaycan nümayəndə heyəti arasında aparılan uzun müddətli ikitərəfli danışıqlar uğurla nəticələnir. 1920-ci il martın 20-də İran ilə Azərbaycan arasında ilk dəfə olaraq

Azərbaycanın de-yure tanınmasını sübut edən dostluq haqqında saziş və habelə konsulluq haqqında, ticarət, poçta-teleqraf əlaqələri, məhkəmə qərarlarının icrası və sair haqqında bir sıra ikitərəfli müqavilələr imzalanmışdır və parlament tərəfindən həmin saziş və müqavilələr 1920-ci il aprel ayının 15-də təsdiq olunur.

Bununla yanaşı Azərbaycan Xalq Cümhuriyyəti Parlamenti öz fəaliyyəti dövründə bir sıra günün vacib tələbləri ilə bağlı məsələləri həll edə bilməmiş və ya onların həllini uzatmışdır. Nəticədə həmin məsələlərlə əlaqədar Parlament və hökumətə qarşı narazılıqların yaranmasına səbəb olmuşdur. Müxalifətdə olan qüvvələr, ilk növbədə isə parlamentin sosialistlər bloku Azərbaycan Parlament və hökumətinə qarşı bu məsələlərdən məharətlə istifadə edərək xalq arasında ona qarşı geniş təbliğat aparır, narazılıqlar yaradır, hətta hökumətə qarşı tətillər belə təşkil etməyə müvəffəq olurdular.

Torpaq islahatı və sənaye fəhlələrinin həyat şəraitini yaxşılaşdırmaq üçün tələb olunan islahatlar Azərbaycanda həyata keçirilməsi vacib olan köklü məsələlər idi. hələ Zaqafqaziya Seymi bunu nəzərə alaraq torpaq islahatı haqqında qanun vermiş, həmin qanun Azərbaycan mülkədarlarının açıq narazılığına səbəb olmuşdur. Ona görə də F. Xoyskinin Gəncədə təşkil etdiyi hökumətin ilk qərarlarından biri 1918-ci il iyun ayının 22-də Azərbaycanda torpaq islahatı haqqında Zaqafqaziya Seyminin qəbul etdiyi qanunun icrasını dayandırmaq haqqındakı qərarıdı. Həmin qərarda göstərilirdi ki, Azərbaycanda Müəssislər Məclisi çağırılana qədər həmin qanunun ölkədə icrası dayandırılır, tutulmuş istər xüsusi istərsə də xəzinə torpaqları geri qaytarılır. Qərarda əkinçilik nazirinə tapşırılırdı ki, yeni çağırılacaq Müəssislər Məclisinə təqdim etmək üçün torpaq məsələsinin həllinə aid lazımi materiallar toplasın, qısa müddətdə yeni yaradılmış torpaq komitələrinin ləğvi və ya yenidən [23 - 24] qurulmasına və torpaqların satınalma qiymətləri haqqında təklifləri hazırlayaraq Nazirlər Şurasına təqdim etsin.[1]

Baxmayaraq ki, 1919-cu ilin yayından torpaq haqqında islahat məsələsinin müzakirəsi Azərbaycan Parlamentinin iclaslarının gündəliyinə daxil edilmişdir, təəssüflər olsun ki, bütün fəaliyyəti müddətində parlament həmin məsələni müzakirə etməmişdir.

Məhz bu məsələnin həllinin çətinliyini hiss edən sosialist fraksiyasının üzvləri S. Ağamalı oğlu, Ə. H. Qarayev, İ. Əbilov, Ə. C. Pepinov və başqaları ondan Parlament tribunasından Parlament və hökumətə qarşı təziq vasitəsi kimi istifadə edirdilər. hər dəfə Parlament iclasının gündəliyi müzakirə olunarkən onlar bu məsələni qaldırır, ilk növbədə daha vacib olan torpaq məsələsinin müzakirəsini keçirməyi təklif edirdilər. Onların gündəliyə aid bu təklifləri uzun müddət müzakirə olunur, sonra səsə qoyularaq rədd edilirdi. O da maraqlıdır ki, torpaq haqqında islahat məsələsi parlamentin gündəliyindəki məsələlər sırasında irəli çəkilmək əvəzində getdikcə geriyə keçirilirdi.

"Müsavat" partiyası və partiyasızlar fraksiyası tərəfindən torpaq İslahatı haqqında 29 maddədən ibarət qanun layihəsi ümumxalq müzakirəsi üçün 1920-ci il fevral ayının 21-də "Azərbaycan" qəzetində dərc olunur. Həmin qanun layihəsinə görə torpaq üzərində xüsusi mülkiyyət hüququ saxlanmaqla torpaqların onların sahibləri tərəfindən istifadə olunmayan hissəsi hökumət tərəfindən pulla alınaraq torpaqsız kəndlilərə paylanmalı idi. Digər tərəfdən isə kəndlilərə həmin torpaqları almaq üçün dövlət tərəfindən güzəştli şərtlərlə kreditlər verilməsi nəzərdə tutulurdu. Təəssüflər olsun ki, aprel çevrilişinə qədər bu qanun layihəsi parlament iclaslarında müzakirə olunmayaraq kağız üzərində qalmışdır.

Sənaye müəssisələri üzərində də xüsusi mülkiyyət hüququnun qorunub saxlanılması hökumətə və parlamentə bu sahədə də az-çox köklü dəyişikliklər həyata keçirməyə imkan vermirdi. Dəfələrlə sosialistlər fraksiyası parlamentdə bununla əlaqədar məsələlər qaldırır, onların həll olunmamasından istifadə edərək fəhlələr arasında təbliğat aparır, fəhlə tətilləri təşkil edirdilər. Sovet [24 - 25] Rusiyasında torpağın, sənaye müəssisələrinin milliləşdirildiyi, onların fəhlə və kəndlilərə verildiyi haqqında sosialistlər fraksiyası açıq-açığına təbliğatla Azərbaycan Xalq Cümhuriyyəti hökumətinə və Parlamentinə qarşı pozuculuq siyasəti yeridir, Azərbaycanın nicatını yalnız Sovet Rusiyası ilə birləşməkdə olduğunu açıq və gizli şəkildə təbliğ edirdilər. Bütün bunlara baxmayaraq Azərbaycan Xalq Cümhuriyyəti və onun Parlamentinin xalqımızın dövlətçilik və ictimai-siyasi fikir tarixində rolu əvəzsizdir.

Azərbaycan Parlamentinin yaranması və fəaliyyətində Azərbaycan Xalq Cümhuriyyətinin liderləri – M. Ə. Rəsulzadənin, Ə. M. Topçubaşovun, F. X. Xoyskinin, N. Yusifbəylinin, H. Ağayevin, M. Y. Cəfərovun, M. H. Hacınskinin və başqalarının böyük xidmətləri olmuşdur.

Əlbəttə 70 ildən sonra yenidən öz müstəqilliyini əldə etmiş Azərbaycan Respublikası Parlamentinin öz sələfindən öyrənə biləcəyi çox şeylər var. Bununla yanaşı yuxarıda deyildiyi kimi həmin parlamentin öz işində buraxdığı nöqsanlar da az olmamışdır. Bu gün Azərbaycan Xalq Cümhuriyyəti Parlamenti protokollarının əsillərini çap etməkdən məqsəd bir tərəfdən xalqımızın tarixinin bu şanlı səhifələrini doğru-düzgün işıqlandırmağa kömək göstərməkdirsə, digər tərəfdən bugünkü parlamentimizin öz sələfinin işlərinin müsbət cəhətlərindən bəhrələnməsinə şərait yaratmaq, onların təcrübəsindən istifadə edərək buraxdıqları nöqsanları görmək və onları təkrar etməyə yol verməməyə gömək etməkdir.

---

[1] Azərbaycan Cumhuriyyəti hokumətinin qanun və binaküzarlıqları məcmuəsi. № 1, mad. 12, səh.12.

Yuxarıda deyildiyi kimi Azərbaycan Xalq Cümhuriyyəti Parlamentin öz varlığı müddətində 145 iclas keçirmişdir. Bu iclaslardan dördü təntənəli, ikisi tarixi, ikisi fövqəladə, 122-si isə işgüzar iclaslar olmuşdur. Qalan 15 iclas yetərsay olmadığından baş tutmamış, lakin onlar protokollaşdırılmışlar.

Axırıncı dörd iclasdan başqa Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin iclas protokolları və stenoqrafik hesabatları Azərbaycan Respublikasının Dövlət Arxivində (ARDA) qorunub saxlanılır. Bundan əlavə Azərbaycan Cümhuriyyəti Parlamentinin iclaslarının stenoqrafik hesabatlarının əksəriyyəti o vaxt Azərbaycan və rus dillərində nəşr olunan rəsmi dövlət qəzeti "Azərbaycan"da da dərc edilmişdir.

Parlamentin 1918-1919-cu illərdə keçirilmiş 113 iclasından 18-in, 1920-ci ildə keçirilmiş 32 iclasından isə [25 - 26] 14-ün stenoqrafik hesabatları arxivdə qalmamışdır. Lakin axırıncı dörd iclas istisna olmaqla parlament iclaslarının bütün protokolları dövlət arxivində saxlanılır. Digər tərəfdən bu iclaslardan elələri də vardır ki, əgər onların stenoqrafik hesabatları arxivdə yoxdursa da onlar "Azərbaycan" qəzetində çap olunmuşdur. Stenoqrafik hesabatların özləri olduqda nəşr üçün biz onları əsas götürmüşük. Çünki "Azərbaycan" qəzetində dərc etmək üçün hazırlanan stenoqrafik hesabatlar parlamentin iclaslarında gedən müzakirələri özündə tam əks etdirmir. Əgər stenoqrafik hesabatların özləri qorunub saxlanılmamışdırsa, onda onların qəzet variantları əsas götürülmüşdür. Bunların hər ikisi olmadıqda isə iclasın protokolu dərc olunur. Bu protokollarda müzakirə olunan məsələlər haqqında ümumi məlumat verilir. Burada müzakirə olunan məsələlər, bu və ya digər məsələ haqqında çıxış edənlərin adları, bəzən isə çıxışlarının məzmunu və qəbul edilmiş qərar haqqında qısa məlumatlar verilir.

Azərbaycan Cümhuriyyəti Parlamentinin iclasları Azərbaycan dilində aparılmışdır. hətta Azərbaycan dilini yaxşı bilməyən azərbaycanlı nümayəndələr öz dillərində danışmağa məcbur idilər. Yalnız Parlamentin başqa millətdən olan nümayəndələri və xarici qonaqlar rus dilində danışırdılar. Parlamentin protokolları iki dildə - Azərbaycan və rus dillərində rəsmiləşdirilirdi. Azərbaycan dilində olan protokollarda rus dilində danışan natiqin çıxışları bəzən tərcümə edilərək Azərbaycan dilində verilmiş, bəzən isə onun adının qabağında mötərizədə yalnız "rusca" sözü yazılmışdır. Rus dilində olan protokollarda isə əksinə Azərbaycan dilində çıxış edən natiqin adının qabağında mötərizədə — "türkcə" sözü yazılmışdır. Azərbaycan Cümhuriyyəti Parlamentinin protokollarının rus dilində də nəşr olunduğunu nəzərə alaraq rus dilində çıxış edən natiqlərin rus dilindəki nitqləri bu məcmuəyə daxil edilməyib yalnız çıxış edən natiqin adının qabağında "rusca" sözü saxlanılmışdır. İstisna olaraq 1919-cu il iyul ayının 7-8-də Qarabağda baş vermiş milli münaqişə ilə əlaqədar Parlament tərəfindən təyin olunmuş həmin hadisələri təhqiq edən kommisiya üzvlərinin (Q. Qarabəyov, Ş. Rüstəmbəyov, P. Çubaryan və İ. Xocayevin) məruzələri "Azərbaycan" qəzetindən götürülərək stenoqrafik hesabata əlavə edilmişdir. Arxivdə Parlamentin bəzən bir iclasının stenoqrafik [26 - 27] hesabatının bir neçə variantı saxlanılır. Onlar stanoqrafistlər tərəfindən yazılmış, üzərində parlament katiblərinin apardıqları təshihlər olan və nəhayət üzü köçürülmüş variantlardır. Belə olduqda nəşr üçün axırıncı üzü köçürülmüş variant, o olmadıqda isə üzərində katiblər tərəfindən təshihlər aparılmış stenoqrafist variantları əsas götürülmüşdür.

Parlamentin 1920-ci il 15, 22, 26 və 27 aprel tarixli iclas protokolları və onların stenoqrafik hesabatları arxivdə qalmayıbdır. Lakin 15 aprel tarixli protokolun bir hissəsi "Azərbaycan" qəzetinin 1920-ci il 26 və 27 aprel tarixli nömrələrində dərc olunub. 1920-ci il 28 aprel çevrilişindən sonra qəzetin bağlanması ilə əlaqədar olaraq onun dərci yarımçıq qalıb. Rus dilində "Azərbaycan"qəzetinin həmin il 21 aprel tarixli nömrəsində isə həmin stenoqramma tamamilə dərc olunub. Bundan əlavə rus dilində "Azərbaycan" qəzetinin həmin il 24 aprel tarixli nömrəsində 22 aprel tarixli, 28 aprel tarixli nömrəsində isə 26 aprel tarixli parlament iclaslarının stenoqrafik hesabatlarının xülasələri verilmişdir. Parlament protokollarının Azərbaycan dilində nəşrində boşluq qalmasın deyə həmin materiallar da rus dilindən tərcümə edilərək bu nəşrə əlavə olunmuşdur.

Parlamentin hakimiyyətin bolşeviklərə təhvil verilməsinə həsr olunmuş son 1920-ci il 27 aprel tarixli iclasının protokolu və stenoqrafik hesabatı da arxivdə saxlanılmadığı üçün mərhum akademik Ziya Bünyadovun Respublika Dövlət Təhlükəsizlik Komitəsinin arxivindən götürərək "Elm" qəzetində nəşr etdirdiyi stenoqrafik hesabatın mətni də bu nəşrə daxil edilmişdir.

Dərc edilən protokol və stenoqrafik hesabatların əsilləri ərəb əlifbasındadır. Həmin materialları ərəb qrafikasından yeni qrafikaya köçürmək zəhmətini Bakı Dövlət Universitetinin baş müəllimi, mərhum Səfər İbrahimov öz üzərinə götürmüşdü. Həm də o, bu protokollarda olan çoxlu ərəb və fars tərkibli sözlər üçün lüğət də tərtib etmişdi. Sənədlərin nəşrə son hazırlıq işləri zamanı onların mətnlərinin yenidən əsilləri ilə tutuşdurulması və lüğətdə təshihlər aparmaq və əlavələr etmək işini tarix elmləri doktoru, professor Seyidağa Onullahi yerinə yetirmişdir. Əlbəttə, bu materialların çapa hazırlanması arxiv əməkdaşlarının gərgin əməyi və zəhməti hesabına başa gəlmişdir. [27 - 28]

Məcmuəyə daxil edilmiş sənədlər tarixi sənədlərin nəşrə hazırlanmasına dair əsas qaydalara müvafiq surətdə həyata keçirilmişdir. Məcmuəyə daxil edilmiş protokol və stenoqrafik hesabatların məzmunlarına toxunulmamış, yalnız lazım gəldikdə bəzi sözlər cüzi şəkildə müasir stilistik və fonetika qaydalarına uyğunlaşdırılmışdır. Mətndə ərəb əlifbasından çevirmədən irəli gələn təhrif və yanlışlıqlar da təshih edilmişdir. Bu təhriflər daha çox yer və insan adlarının yazılışı zamanı buraxılmışdır. Mətndə edilən hər hansı düzəliş və

əlavələr haqqında ətək yazılarında qısa məlumatlar vermiş, mətndə çatışmayan sözlər böyük mötərizələrdə mətnə əlavə olunmuşdur.

Sənədlər məcmuədə iclasların keçirildiyi tarixlərin xronoloji ardıcıllığı ilə yerləşdirilmişdir. Protokolların mətnlərində onların tarixləri müxtəlif stillə (hicri, miladi köhnə, təzə) göstərilsə də məcmuədə sənədlərin tarixi müasir stillə göstərilmişdir.

Məcmuəyə daxil edilmiş protokollar oxşar sənədlər olduqları üçün onların başlıqları ümumiləşdirilmiş şəkildə verilmişdir. Protokolların əvvəlində iclasın sədri və katiblərinin adları göstərildiyindən təkrara yol verməmək üçün sənədin sonunda onların imzaları buraxılmışdır. Bütün sənədlər bir arxivdən - Azərbaycan Respublikası Dövlət Arxivindən götürüldüyü üçün mənbə kimi arxivin tam adı deyil, yalnız "Arxiv" sözü yazılmış fondun, siyahının, işin və vərəqlərin nömrələri göstərilmişdir. İstifadə olunmuş mətbu mənbə isə yalnız "Azərbaycan" qəzeti olduğundan qəzet sözü buraxılaraq "Azərbaycan" gün, ay, il və nömrə göstərilmişdir.

Məcmuənin elmi-məlumat aparatına qeydlər və çətin başa düşülən sözlərin lüğəti daxil edilmişdir. Qeydlər əsasən sətraltı qeydlərdi. Məcmuədə dərc olunan sənədlərin arxeoqrafik qaydalarla işlənilməsi, ona elmi məlumat aparatının hazırlanması və müqəddimənin yazılması Baş Arxiv İdarəsinin rəisi, tarix elmlər namizədi A. Ə. Paşayev tərəfindən yerinə yetirilmişdir.

Sənədlərin nəşrə hazırlanmasında Baş Arxiv İdarəsinin əməkdaşları F. Ə. Aslanova, F. M. Səfərov, C. R. Abbasova, və L. A. Quliyeva iştirak etmişlər. [28 - 29]

## AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANI TƏSİSİ HAQQINDA QANUN*

GİRİŞ

1917 sənəsi aprel ayında toplanan Ümum Qafqaziya müsəlmanları qurultayı Cənubi Qafqaziya islamları ümumi milliyyə və mədəniyyətlərini idarə və mənafei-siyasiyyələrini müdafiə etmək üzrə bir Mərkəzi Komitə təşkili tərhini cızaraq müvəqqətən Mərkəzi Komitə İcraatını Bakıda inqilab təriqilə təşəkkül edən Bakı komitəsinə tərk etmişdi. Bakı komitəsi bir zaman Mərkəzi Komitə vəzifəsini idarə edərək mətruh bulunan Mərkəzi Komitəni təsis və vəzifəyi müvəqqətəsini məzkur Komitəyə todi eyləmişdi. Mərkəzi komitə keçən sənə noyabr ayında dəvət edilən milli komitələr konfransının qərarına görə Azərbaycan Məclisi-Müəssisanını bir ay sonraya qədər toplamalıydı. Fəqət əhvali-siyasiyyə və ovzuözi daxiliyyə, zühur edən həvadisi fövqəladə buna imkan verməyərək Cənubi Qafqaziyadan Rusiyə Məclisi-Müəssisaninə gedəcək əza Rusiya Məclisi-Müəssisani dağıldığından dolayı Tiflisdə cəm olaraq firqə siyahıların təbiri məxsus ilə dərinləşdirmək təriqilə Cənubi Qafqaziya "Seymini təşkil etdilər. Cənubi Qafqaziya müsəlman firqələri tərəfindən Rusiya Məclisi-Müəssisanına seçilən 14 müsəlman məbusu siyahılarının firqələr tərəfindən dərinləşməsi surətilə 44-ə qədər çoxaldı. Azərbaycan Məclisi-Müəssisanını toplamaq qeyri-mümkün olduğunu nəzərə alaraq Cənubi Qafqaziya Mərkəzi Müsəlman Komitəsi bu məsələnin həllini "Seym" müəssisəsində bulunan müsəlman əzayə vaküzar etməyi münasib gördü. Çünki bunlar Mövərayi Qafqaz Əhaliyi islamiyyəsi [29 - 30] arasında mövcud bulunan müxtəlif siyasi cərəyanları təmsil edir və əhalinin milyondan ziyadə rəini qazanmış müvəkkillərdi, deyə iqtidlal ediyor: Təşkilati milliyənin təini istiqaməti üçün bu zövat ən ziyadə səlahiyyət sahibidir deyə tərəqqi ediyordu. Bu surətdə Mavərayi-Qafqaz islamilərinin təşkilati Mərkəziyyələrinə təvaoüs edən Mavərayi-Qafqaz "Seym"i müsəlman əzaları da Məclisi-Müəssisan toplanıncaya qədər kəndlərini Mavərayi-Qafqaz Müsəlman Şurası deyə elan etdilər. Şura "Seym"ə daxil olan müsəlman firqələri nümayəndələrindən mütəşəkkil bir heyəti icraiyyə dəxi intixab əylədi. Gürcüstanın Mavərayi- Qafqaz ittifaqından çıxaraq ayrıca elani istiqlal etməsi üzərinə Mavərayi-Qafqaz Müsəlman Şurası bittəb, kəndisini Azərbaycan Şurayi-Millisi və buna mütəaqib Azərbaycanın istiqlalını elan və Azərbaycan hökuməti cümhuriyyəsini təşkil etdi. Mavərayi-Qafqaz qitəsi birlikdə ikən və burada bulunan başlıca üç millət arasında təyini -hüdud yox ikən Milli Şuralar birər Milli müəssisələr idi. Vəzifələrində bittəb məhdud və mədud idi. Elani istiqlal keyfiyyəti ilə Şuralar birər müəssisə halından çıxaraq dövlət müəssisi şəklini alyorlardı. Azərbaycan yalnız türklərlə məskun deyildir. Bunun üçün də Azərbaycan Şurayi-Millisi Azərbaycan ərazisi üzərində yaşayan bütün millətləri təmsil etməli idi. Həm Şurayi-Milli, həm də hökumət bunun lüzumunu idrak ediyorlardı. Fəqət əhvali fövqəladə və məmləkətin ərazisini düşmənlərdən təmizləmək keyfiyyəti bir aralıq qüvvəyi təşriyyənin tətiləti belə muceb oldığından bu əməliyyənin tətbiqinə şimdi təvəssül olunuyor. Müəyyən bir ərazi üzərində icrayi hökm edəcək qəvanin vəz edən bir məclisi təşriyyə üçün yalnız bir milləti təmsil etmək kafi olmadığı kimi 44 kişilik ufaq bir məclis halında olmaq daxi mümkün deyildir. Əlavə bərin Azərbaycan müsəlmanlarının həyati xüsusiyyələri nöqteyi-nəzərindən məclisimizdə bulunan müxtəlif siyasi cərəyan nümayəndələrindən başqa cəmaət müəssisələri ilə doğrudan-doğruya vilayətlərdən göndərilən nümayəndələrin vücuduna böyük bir lüzum vardır. Bakı quberniyası ilə Gəncə quberniyası, Zaqatal okruqu və İrəvan ilə Tiflis quberniyalarından birər hissəsi Azərbaycan ərazisini təşkil etməkdədir. Bu ərazi üzərində Qafqasiya təqviminin hesabı üzərinə tamam rəqəmlə 2.750.000 nüfus vardır. Bundan 1.900.000 islam, 500.000-i erməni, 230.000-i rus, hər məbus üçün 24.000 nüfus miqyas alarsaq müsəlmanlar 80, ermənilər 21, [30 - 31] ruslar 10, almanlılar 1, yəhudilər 1 məbus çıxarılır. Digər xırda millətlər isə miqyas təşkil edəcək dərəcədə olmayıblar. Fəqət gürcü ilə polyak digərlərinə nisbətən daha ziyadə bir əqəliyyət təşkil eylədiklərindən onlara daxi betore istisna birər nümayəndəlik verilə bilər.

Əqliyyətdə bulunan millətlərin hissələrinə gələn nümayəndələr cəlb olunmaq lazım ikən bittəb, müsəlmanlardan mövcud bulunan 44 Şura əzası təfriq olunaraq yalnız 36 zat yenidən cəlb olunacaqdır. Cəlb etmək həqqini Şurayi-Milli şəhər idarələri ilə milli komitələrə müraciətlə tətbiq ediyor. Yalnız mərkəzi məmləkət bulunan Bakıda bir istisna olaraq şəhər idarəsindən əlavə sinfi müəssisələrdən daxi nümayəndə istənilər.

### II

1 — Azərbaycan parlemanı (Məclisi-Məbusan) 120 əzadan ibarətdir.

---

* Azərbaycan Milli Şurasının 1920-ci il 20 noyabr tarixli iclasında qəbul edilmişdir.

2 — Azərbaycan parlemanı Azərbaycan Məclisi-Müəssisanı dəvət oluncaya qədər aşağıdakı tərtiblə intixab olunmuş əzadan təşəkkül edir:

a) Rusiya Məclisi-Müəssisanına dörd müxtəlif siyasi firqə siyahıları mucibincə Mavərayi-Qafqaz əhaliye islamiyyəsi tərəfindən intixab olunub da sonra Mavərayi-Qafqaz "Seym"ində əza sifətilə bulunmuş və bədə Azərbaycan Şurayi-Millisini təşkil eyləmiş 44 zatdan;

b) Azərbaycan bələdiyyələri müsəlman əzasilə əskidən mövcud bulunan Milli müsəlman komitələri əzası tərəfindən intixab olunmaq surətilə cəlb olunacaq zəvatdan;

p) Əqəliyyətdə bulunan millətlərin səlahiyyətdar müəssisəyi-milliyyələrindən cəlb olunacaq zəvatdan;

t) Bakı Həmkarlar Şurası ilə Sovet siyezd, ticarət və ərbabi sənaye ittifaqından cəlb olunacaq zəvatdan.

3 — Əsasən mövcud olan 44 əzayə əlavə olunacaq əza bu nisbətlə cəlb olunacaq:

a) Əhaliye islamiyyə tərəfindən: Bakı — 5; Göyçay uyezdi — 2 (biri şəhər, biri uyezd); Cəvad — 2 (biri şəhər, biri uyezd); Quba — 3 (biri şəhər, ikisi uyezd); Lənkəran — 2 (biri şəhər, biri uyezd); Şamaxı — 2; Gəncə — 3 (biri şəhər, ikisi uyezd); Ərəş — 2; Cavanşir — 1; Zəngəzur — 2; Qazax — 1; Cəbrayıl — 1; Nuxa — 2 (biri şəhər, biri uyezd); Şuşa — 2 (biri şəhər, biri uyezd); Zaqatala — 2 (biri şəhər, biri mahal); [31 - 32] İrəvan vilayətinin Azərbaycana keçən hissəsi — 3; Tiflis vilayətinin Azərbaycana keçən hissəsi — 1.

Qeyd: a) Bakı hissəsinə düşən 5 zat Bakı bələdiyyəsi müsəlman əzası tərəfindən seçiləcəkdir. Digər şəhərlərdə daxi şəhər hissəsinə düşən nümayəndəyi — ümumi intixabla seçilmiş müsəlman qlasnılarını seçəcəklərdir. Uyezd nümayəndələri isə uyezd milli komitələri tərəfindən intixab olunacaqdırlar.

b) Seçkilər gizli olacaq;

p) Əqəliyyət təşkil edən millətlərdən: erməni əhalisi tərəfindən 21, 8-i Gəncə erməni əhali komitəsindən, 8-i Şuşa erməni əhali komitəsindən, 5-i də Bakı erməni əhali komitəsindən; rus əhalisindən Bakıdakı rus milli şurasından — 10; alman əhalisi təşkilati-milliyyəsindən — 1; yəhudi şurayi milliyyəsindən —- 1; Gürcü komitəsindən — 1; Polyak komitəsindən — 1.

t) Bakı həmkarlar Cəmiyyəti Şurasından — 3, Bakı Sovet siyezd və ticarət-sənaye cəmiyyətlərindən müştərəkən — 2.

Qeyd: 1 — Bələdiyyəsi və milli komitəsi olmayan qəzalar nümayşndələrini köy obşestva nümayəndələrinin ictimaində təyin edə bilərlər. Bir ictimai hər obşestvadan birər nümayəndə göndərilmək surətilə hasil olur.

Qeyd: 2 — Əhvali fövqəladə məruz bulunan yerlərin nümayəndələrini Şurayi-Milli bizzat təin edər.

Qeyd: 3 — Şurayi-Millinin əsaslı üzvlərini təşkil edən 44 əzadan biri istefa edər, mərhum olur və yaxud başqa bir səbəblə məclisdən çıxarsa, onun əvəzinə mənsub bulunduğu siyahının mərtəbi bulunan firqəyi müəssisani tərəfindən başqa birisi təyin olunur.

Qeyd: 4 — Cəlb olunacaq şəxasın intixabati şəhərlərdə bələdiyyə rəisləri, uyezdlərdə mirovoy sudyalar və ya onların müavini və əqəliyyətə mənsub millətlərdə Milli Şura rəislərinin təşəbbüs və nəzarəti ilə icra olunur və intixab olunacaq zəvaətə kəndi imzaları ilə keyfiyyət intixabi müvəzzəh və müsəddiq etimadnamələr verilir

.

Şurayi-Milli rəisi Məmməd Əmin Rəsulzadə

**Arxiv, f. 895, siy. 3, iş. 7, vər. 1-2, iş. 187, vər. 1-2.**

## № 1

## Azərbaycan parlamentinin açılışı

*7 dekabr 1918-ci il*

İclas günorta saat 1-25 dəqiqədə Şurayi-Milli rəisi Məmməd Əmin Rəsulzadə əfəndinin nitq iftitahilə açılır.
**Məmməd Əmin Rəsulzadə** — Möhtərəm məbuslar! Azərbaycan Cümhuriyyətinin ilk Məclisi-Məbusanını açmaq yomi-səadəti, siz möhtərəm məbusları təbrik etmək şərəfinin öhdəmə düşməsilə müftəxirəm. (Alqışlar).

Əfəndilər! Rusiyada zühur edən inqilabi-kəbir digər həqiqətlər arasında bir həqiqəti-bahirəyi dəxi elan etmiş idi. Bu həqiqət millətlərin həqqi-hürriyyət və istiqlalları idi. Rusiya inqilabı təbiətində mövcud olan ruhə sadiq qalaraq təbii yolu ilə inkişaf etsə idi, millətlərin hüququnu təmin ilə muxtariyyətlərdən mütəşəkkil azad və demokratik bir Rusiyəyi bir an əvvəl təsis edəcək idi. O vaxt təbii idi ki, Rusiyada yaşayan müsəlmanların da həyati-siyasiyyələri digər məhkum millətlərlə bərabər, başqa bir təriqdə cərəyan edəcəkdi. Millətlərə kəndi müqəddəratının təyinini pək səmimanə bir surətdə Rusiya Məclisi-Müəssisəsanından gözlədilər. Fəqət, Rusiyada inqilab və demokratik naminə zühur edən məkus bir istibdad nə kimi xarabalıqlar yaratdıqını bilirsiniz. İnqilab naminə hökmfərman olan anarxiya və millətlərin hüququ elanından sonra verilən qatı mərkəziyyətçilik Zaqafqaziya millətlərini kəndi başlarının çarəsinə baxmaya sövq etdi. Zaqafqazyada Rusiya Məclisi-Müəssisasına intixab olunan məbuslar kəndilərini vəkil edən cəmaətin hüququnu Zaqafqaziya "Seymini" təşkil və onun istiqlalını elan etməkdə gördülər. [33 - 34]

Eyni məntiq nəhayət Azərbaycan əhalisi tərəfindən seçilən vəkillərin Şurayi-Milli təşkilinə sövq etdi, bu Şurayi-Milli isə Azərbaycan istiqlalını elan etmək zərurəti qarşısında qaldı. Azərbaycan istiqlalı elan olundu. (Alqışlar).

Bu gün əqəliyyət təşkil edən millətlərin nümayəndələri ilə qəzaların yeni nümayəndələri dəvət olunmaq üzrə iştə bu məclis təşkil etmişdir. Bu məclis ümumi seçki üsulu ilə toplanaraq Azərbaycan Məclisi-Müəssisanı toplanıncaya qədər məmləkətimizin sahibi olacaq. Burada Azərbaycanda bulunan bütün millətlərin, təbəqələrin və müxtəlif cərəyanların nümayəndələri olduğundan bu məclis vətənimizi tamamilə təmsil edə bilər.

Əfəndilər! Bilirsiniz ki, bizim Rusiya cəmaətinə qarşı heç ədavətimiz və nifrətimiz yoxdur. Bezar olduğumuz Rusiya, çarizm Rusiyası, Rusiya istibdadır. Rusiyaya nifrətimiz Rusiya istibdadı altında inləyən Rusiya cəmaətına nifrət demək deyildir. Bizcə, mənfur olan Rusiya, millətləri əzən və hüquqlarını verməyən rəsmi Rusiyadır, hər bir millət müstəqil və hürr olmalı, hürr olduqdan sonra digər millətlər ilə ürəyi istədiyi kimi əqdiittifaq etməlidir. Bütün dünya millətlərinin "Cəmiyyəti-əqvam" vücudə gətirməsi bizim ən müəzziz fikirlərimizdəndir. Bu "Fedarasiyon"çularla deyil, təbii, bir meyl və arzu ilə hasil olmuşdur. (Alqışlar).

Ərz etdim ki, biz Rusiya camaatının düçar olduğu fəlakətdən qurtulmasını ürəklə istəriz. Biz Rusiya hökumətinin həqiqi rus demokratiyası əlinə keçməsi tərəfdarıyız. Çünki, Qafqaziya dağlarının şimalında təşəkkül edən müstəbid və təcavüzkar bir hökumətə biz laqeyd qala bilməriz. (Alqışlar). Biz Rusiyanın səadətini istəriz, Rusiya camaatını sevəriz, fəqət, kəndi istiqalalımızı da əziz tutarız. (Alqışlar). Cəbr ilə qəbul etdirilən bir şeydə səadət olmaz. Çünki səadət və hürriyyət istiqlaldır. (Alqışlar). İştə bunun üçün əfəndilər, müstəqil Azərbaycanı təmsil edən o üç boyalı bayrağı Şurayi-Milli qaldırmış, türk hürriyyəti, islam mədəniyyəti və müasir Avropa iqtidarı — əhrarınəsini təmsil edən bu üç boyalı bayraq daima başlarımızın üstündə ehtizaz [34 - 35] edəcəkdir. Bir dəfə qaldırılmış bayraq bir daha enməyəcəkdir. (Məbuslar yerlərindən qalxır, şiddətli alqışlar uzun müddət dəvam edir).

Mən buna iman edirəm. Mənim bu imanımı millətlərin qəlbində doğmuş olan əməl günəşi işıqlandırır. Bu günəş bir daha üful etməyəcək. Mən vicdani-bəşəriyyətə inanıram. Milyonlar ilə insan bahasına mal olan qitali-ümumidən sonra vicdanı-bəşər qazandığı həqiqətləri asanlıqla əlindən verəmməz. "Cəmiyyəti-əvvam" fikri bu gün hərkəscə qəbul edilmiş bir fikirdir. Bu mənə ümid verir, qüvvətlə inanıram ki, artıq milləti öldürmək, millətin hüququnu pamal etmək qətiyyən mümkün deyildir. Qaliblər də, məğlublar da millətlərin hüququ təslim ediləmməz deyirlər. (Alqışlar). Yaxında açılacaq sülhi-ümumi konfransında bu fikir qətiyyən hakim olacaq. Bu gün əhvala hakim olanlar müttəfiqlərdir. İngiltərə, Amerika, Fransa dövlətlərinin bayraqlarında millətlərin təmini-hüququ və "Cəmiyyəti-əqvam" şüarı yazılıbdır. Dövlətlərin Bakıda bulunan nümayəndələri naminə general Tomson Qafqaziya məsələlərinin sülhi-ümumi konfransında həll olunacağını rəsmən elan etmişdir. Biz azərbaycanlılar bütün mövcudiyyətimiz ilə kəndi müqəddəratımızı, kəndi istiqlalımızı müdafiə və mühafizədə israr edər, səbat və mətanət göstərər isək, heç şübhəsiz ki, Azərbaycan Cümhuriyyəti payidar olar. Fəqət, bunun üçün, təkrar edirəm səbat və mətanət, fədakarlıq istər. İstər ki, biz kəndimizin istiqlala layiq olduğumuzu isbat edəlim. Bu oldumu, sizi əmin edirəm ki, kimsə hüququmuzu təslim etməmək cəsarətində bulunmaz. Hanki vicdandır ki, istiqlal istəyən və ona ləyaqətini isbat edən bir milləti qəhr etsin. (Alqışlar).

Əfəndilər! Bizə Zaqafqaziya əqvamı ruhunda hər zaman hürriyyət və istiqlal fikri hakim olmuşdur. Hürriyyət fikrinin müməsili olan "Prometey" Qafqaziya dağlarında zəncirə bənd edilmiş idi. O daima zəncirlərini qırmaq təşəbbüsündə idi. "Prometey"in ruhu Qafqaziyanın bütün millətlərində vardır. Qafqaziya millətlərinin istiqlal və bərabərlikdə müstəqil olaraq yaşamaları bir xəyali-bənd deyildir. Qardaş millətimiz olan Şimali Qafqaziya, qapıbir qonşumuz ermənilər münasibəti [35 - 36] dostanəmiz bütün cüziyyata rəğmən daima səmimi qalan gürcülər, bizə bir çox mədəni xidmətləri toxunmuş rus camaatının mühüm bir qismi ilə əl-ələ verərək, biz Zaqafqaziyanın müqəddəratını bu qitə üzərində yaşayan millətlərin arzusu vəchilə təmin edə bilərik. (Sürəkli alqışlar). Diplomat lojalarına müraciətlə uzun alqışlar.)

Əfəndilər! Mən buraya qədər sizə ümüdlü sözlər söylədim. Buna iman edirəm. Fəqət nəzərinizi əhvalın ağırlığına dəxi cəlb etməz isəm, vəzifəmi hüsn ifa etməmişəm deməkdir. Zaman ağır, gedəcəyimiz yol çox tikanlı və arizəlidir. İrəlidə bir çox müşkülat və maneələri dəxi gözə almalıyız. Dumanlı yolları keçmək və sər mənzil məqsədə irmək üçün siz, məbus əfəndilər, bir çox fədakarlıqlar etməli, təmsil etdiyiniz millətə səbat, mətanət göstərmək üzrə bir nümuneyi-əmsal təşkil etməlisiniz. Bu nümunəni göstərəcək iqtidar və istedada malik oldunuzsa, yolun yarısı gedilmiş deməkdir. Əvət, əfəndilər bu gün firqə ehtirasları, şəxsi qərəzləri və bütün bu kimi vətən və millət qayəsi qarşısında səqit qalan qərəzlər atılmalı, vətən qayğısı, millət duyğusu hər şeydən yüksək tutulmalıdır. (Sürəkli alqışlar).

Əfəndilər, bu gün Azərbaycanın paytaxtında Məclisi-Məbusan iftitahındayıq. Azərbaycan bir atəş mənbəidir. Vətənimiz hər zaman kəndi sinəsində bir atəşi-müqəddəs bəsləmişdir. Bu atəş əski zamanlardan bəri həqiqətpərəstlərə rəhbər şəkil ümid və iman təşkil eyləmişdir. O atəş ki, bu gün də sərvət və saman səbəbi və baisi-təməddüdündür. Qəvi bir atəş Azərbaycan övladının sinələrinə düşən milyonlar ilə bürkü yağan bu atəş əbədən sönməz, bir müşkül təşkil edib də hürriyyət və istiqlalə doğru getdiyiniz maneəli yolları işıqlandırsın. (Sürəkli və uzun alqışlar). Bu atəş sönməmək üçün əl-ələ verib müttəhidən çalışalım, Əfəndilər! Mən sizi belə bir ittihadə dəvət edirəm. (Alqış). Müsaidəniz ilə əfəndilər, bu gün məclisi iftitah etdik. Şimdi bu məclisə bir rəis və bir baş müavin intixab edilməsi lazımdır. Namizədləri göstəriniz.

**Şəfi bəy Rüstəmbəyov** — 5 dəqiqə tənəffüs elanını təklif edirəm. [36 - 37]

**Sədr** — Varid olan təklifə görə 5 dəqiqə tənəffüs elan edirəm.

(Tənəffüsdən sonra Məmməd Əmin bəy yenə iclası açır).

**Sədr** — Əfəndilər, Məclisi-Məbusana sədr və sədr müavini olacaq namizədlərin adlarını deyiniz.

**Şəfi bəy** — "Müsavat" və bitərəflər namından rəisliyə Əlimərdan bəy Topçubaşov, birinci müavinliyə doktor Həsən bəy Ağayevin namizədliyini təklif edirəm.

**Sədr** — Başqa namizəd təklif edən və bu barədə söz söyləyən yoxmu? Yoxsa, Əlimərdan bəy ilə Həsən bəyin namizədlikləri qəbul olunacaq.

**Əhməd Cövdət** — Müsəlman sosialistlər ittifaqı tərəfindən "Müsavat"ın göstərdiyi bu namizədlərə etiraz yoxdur.

**Heybətqulu Məmmədbəyov** — "İttihad" firqəsi tərəfindən Əlimərdan bəy Topçubaşovun namizədliyinə etiraz yoxdur, fəqət Həsən bəyin gostərildiyinə rəy verməyəcəyik.

**Şeyxislamov** — Sosialist "Hümmət" firqəsi tərəfindən "Müsavat"ın namizədlərinə etiraz yoxdur.

**Sədr** — Şu sürətlə məsələni səsə qoymalıdır. Hər kəs bu namizədliyə razıdır, əlini qaldırsın. (İttihadi-ara ilə Əlimərdan bəy sədrliyə seçilir.)

**Sədr** — Deməli, Əlimərdan bəy həzrətləri rəisliyə intixab edilmiş olur. Fəqət Əlimərdan bəy həzrətləri burada yoxdur. Şimdi isə baş müavin intixab edəlim. Hər kəs Həsən bəy Ağayevin baş müavinliyinə razı isə əlini qaldırsın.

("İttihad" firqəsindən başqa ittifaqa-ara ilə Həsən bəyin namizədliyi keçir. Alqışlar altında Həsən bəy movqei-sədarəti işğal edir).

**Həsən bəy** — Möhtərəm, parlament üzvləri: Bu dünkü tarixi gündə mənim boynuma böyük bir şərəf, böyük hir iqdam düşdü. İzhari-etimad ilə məni uca mənsəbə layiq bildiyinizdən dolayı bilaistisna hamınıza təşəkkür edirəm. Məni sərəfraz parlament birinci müavinliyə intixabla minnətdar buyurdunuz. Rəis cənabları gələnə kimi onun ağır vəzifəsinin ifası öhdəmə buraxıldı. Bu ağır vəzifəni ifa edə biləcəkmiyəm, yoxmu, bunu deməyə cəsarət edəmirəm. Zira vəzifə xeyli məsuliyyətli və ağırdır. Burası hamınıza məlumdur. Fəqət hamının məqsədi sevgili Azərbaycanın səadəti, buraya toplanmamızdan murad [37 – 38] əziz vətənimizi sahili-nicata çıxarmaq olduğundan ümidvaram acizləriniz sizinlə bərabər məqsədə nail və sizin müavinətiniz ilə vəzifəmi hüsnü-ifayə müvəffəq olacağam. Binaən-ileyh dübarə təşəkkürümü bəyan ilə sizi ittihadə dəvət və xudayi-təaladan istirham edirəm ki, parlamantımız öz məqsədlərinə qolaylıqla nail olsun. Bu günün münasibətilə Azərbaycanın müxtəlif yerlərindən bir çox təbrik teleqramları alınmışdır ki, qismən oxumaq istəyirəm, fəqət bundan hala bir katib intixabini təklif edirəm. Ümum parlamentlərdə qaydadır. Müvəqqət katibliyə ən gənc məbus intixab edilir və siyahidən anlaşıldığı üzrə məbuslarımızın ən cavanı Rəhim bəy Vəkilov olduğundan onun namizədliyini təklif edirəm. (Təklif ittihadi-ara ilə keçir. Rəhim Vəkilov katib mövqeinə keçir).

**Sədr** — Şimdi təbrik teleqramları oxunacaq, müsaidənizi istərəm.

(Azərbaycanın müxtəlif nöqtələrindən və müxtəlif müəssisələrdən alınmış teleqramları oxuyur).
**Sədr** — Ruzinameyi-müzakiratda olan məsələlərə keçəlim. Söz Vükəla rəisinindir.
(Fətəli Xan Xoyski mərkəz və sağların gurultulu alqışları arasında kürsüyü-xitabata çıxır).

**Fətəli Xan** — Möhtərəm Azərbaycan parlamenti əzası! Bu günkü gün Azərbaycan üçün boyük, əziz mübarək gündür ki, yuxumuzda görməzdik, əqlimizə gəlməzdi. Bu gün o gündür ki, muxtariyyəti əlinizə aldınız. Hökumət vəkalətilə özümüzü də sizinlə bərabər təbrik edirəm. (Alqışlar). Hökumətin borcudur hüzurunuzda olsun, əski fəaliyyəti və hanki övza altında işlədiyini sizə ərz etsin. Mən bu gün hər nəzarət haqqında sizə məlumat verə bilərəm. Ancaq mən bu gün hökumətin tarixini və nə kimi övza altında təşkil etdiyini ərz edəcəyəm. Azərbaycan hökuməti o vaxt təşkil etdi ki, Gürcüstan Zaqafqaziyadan ayrılıb elani-istiqlal etmiş idi. O bir məqam idi ki, Türkiyə ilə Hənuz hərb halında idik. Sülh əhdnamələri hənuz bağlanmamışdır. Batumda sülh müzakirəsi gedirdi. O vaxt Qafqaziya cəbhəsinin təsviyyəsi və Türkiyə ilə mübahisəli məsələlərin həlli lazım idi. Xarici işlərimiz belə, daxili işlərimiz məlumdur. Bir vaxt idi ki, bir kənddən o biri kəndə getmək qorxulu idi, gecə yatanda sabaha çıxmaq ümidi yox [38 - 39] idi. Heç kəsin irz və namusu əmniyyətdə deyil idi. Dəmir yollarında rus qoşunları qayıdarkən nə hallar oldu. Başımıza nə fəlakətlər gəldi, dəmir yolları təmamilə yatmışdı. Poçta, teleqraf yox idi, Bir kağız yollamaq mümkün deyil idi. O vaxt idi ki, maliyyatdan hökumət əlində heç bir şey yox idi. Hökumətə lazım olan idarələrin hamısı başdan-başa dağılmış idi, xidmətçilər qaçmışdılar. İdarələrin adı var isə də, özü yox idi. Hərə başına beş-on adam yığıb hökumət bir qanun düzəltmiş idi . Güclü olanlar özünü ağa hesab edirlərdi. Daxili işlər böylə ikən Azərbaycan istiqlalı elan edilmiş isə də, heç bir hökumət tərəfindən təsdiq edilməmişdi. O zaman bütün Azərbaycan tərəfindən seçilmiş milli komitə (soldan: doğru deyil!) bu hökuməti təyin edib idarə işlərini ona tapşırdı. Məni rəis seçərək idarəyə başladıq. Türkiyə ilə sülh əhdnaməsi tezlik ilə bağlandı. Bununla bərabər hökumət qanun və qayda barəsində aciz idi. Zira heç bir tədbir qüvvəmiz və silahımız yox idi. Aşkar hökumət təşkil etməyə məcbur idik, lakin bunu da edə bilməz idik. Ona binaən bir qüvvəyə lüzum görürdük, sülh müzakirəsi vaxtı türklərdən bir qədər əsgər almaq iltizam edildi. Sülhnamədə bir fəsl var ki, Azərbaycan hər vaxt lazım görsə müdafiə hüququ üçün Türkiyə bir qədər əsgər versin. hökumət bu carəyə təvəssül etdi. Özünüz bilirsiniz Türkiyə öz borcunu yerinə yetirdi. Qonşumuzun köməkliyi ilə mümkün olmayan bir çox şeylər çətinlik ilə yavaş-yavaş əldə edilirdi. Bu təklif ilə başqasına müraciət etmək mümkün deyil idi. İstəsək də bir fayda olmaz idi. Türkiyə həmdinimiz, həmvətənimiz idi. Ona görə ondan gemək istədik. Bu altı ay müddətindəki hökumət idarə eyləmişdir. Siz görürsünüz ki, çox şeylər tazə təşkil olubdur. Daxildə hərcimərcdən başqa heç bir şey yox idi. Hətta polis də yox idi. Ona görə hamıdan artıq polis işlərinə diqqət etdik. İndi allaha şükür olsun ki, Azərbaycanın hər yerlərində lazımi qədər olmasa da xalqın malını, canını müdafiə edəcək təşkilatımız var. Bu xüsusda çox sözlər ola bilər. Fəqət vaxta baxıb tərəziyə qoyulmalıdır ki, bu işləri hansı hökumət və nə vaxt etmişdir? Tarixi, sabiqəsi, əsgəri və xəzinəsi olan hökumətmi? Yaxud iki gündə təşkil olunmuş pulsuz və əsgərsiz hökumətmi? Əgər burasını nəzərə alsanız gorərsiniz ki, nə qədər [39 - 40] zəhmət lazım idi. Dəmir yolları işləmirdi, dağılmışdı, vaqon, filan yox idi. Məmləkətin dolanacağı buna bağlı idi. Ona binaən hökumət buna vaxt verdi. Doğrudur, indi mümkün və lazım olan bir çox şey yoxdur. Lakin nə qədər olsa, allaha şükür yaz, qış dəmir yolları düzəlib idarə olunur. Teleqraf yox idi, bir kağız göndərmək mümkün deyil idi. İndi qüvvəmiz çatan qədər işləyib tamamilə olmasa da çox yerdə poçta, teleqraf açılmışdır. İstənilən yerlərə teleqram, məktub göndərmək olar. Vacib məsələlərdən birisi də maliyyat məsələsi idi ki, onsuz işləmək mümkün deyil idi. Hökumət bir zamanda təşkil olundu ki, Batum nümayəndələrinə pul göndərmək lazım olduğu halda, on min manat toplayıb Tiflisdən borc axtarılırdı. Bu xüsusda hökumət mümkün qədər çalışmışdı. hökumət üçün para buraxmağa da bir yer yox idi, o zaman heç paytaxtımız da əlimizdə deyil idi, ona görə pul kəsilməz idi. Biz məcbur olduq başqaları ilə şərik olaq. Gürcüstan və Ermənistan ilə şərik olaraq Zaqafqaziya (bon)ları buraxdı. Bədə Bakı alındıqdan sonra Bakı bonu buraxıldı. Eyni zamanda hökumət başqa yerlərə adam göndərib ki, Azərbaycanın öz pulu kəsilsin. Bu saat işləməyir. İnşallah ən yaxın zamanda o da olacaqdır.

Möhtərəm məbuslar! Əlbəttə ki, bu işlər az idi. Və öhdəmizə düşən vəzifənin bir zərrəsidir. Yalnı böyük zəlalət bu idi ki, hökumətimiz hədər olan kimi idi. Bayrağında hürriyyət və əxvət yazmış olan firqələr Bakını əlimizdən almış idi, bizim paytaxtımız buraxılmış idi. Azərbaycanın köksü, paytaxtının sahibi olan müsəlman milləti qətli-am edilmiş idilər. Baş bilənlər Dağıstan, İran və Turana dağılmışlar idi. Şəhərdə bir kişi yox idi ki, bunları bir yerə toplasın, bir iş görsün, bəylə olan surətdə bu məsələdən başqasına artıq əhəmiyyət vermək olurmu idi? Türkiyəyə müraciətimizin əsil səbəbi də paytaxtımızı əlimizə qaytarması idi. Bu barədə çox əziyyətlər çəkildi, imdi şükür olsun allaha məqsədə çatdıq, Bakı əlimizə keçdi. Burası hazırən xırda bir şey görülür. Amma o zəlalət yada gətirilsə, nə qədər zəhmət çəkdiyimiz anlaşılar. Bəlkə vəzifəmizi lazımınca ifa etmədik, bəlkə boynumuzda böyük günahlar var. Amma o zəhmətimiz nəzərə alınsa təqsirimiz bir az yüngülləşər. [40 - 41]

Doğrudur, möhtərəm əzalar! Şəhər alınarkən nalayiq hərəkətlər olmuşdur. Hökumət bunu gizləmir. Layiq də bilmir ki, gizlətsin. Bəlkə bir çoxlarına əziyyət, bəlkə də cəfa olmuşdur. Lakin mümkün idimi, hökumət bunun qarşısını saxlasın. Zənnimcə insaf ilə baxılsa, Azərbaycan deyil, heç bir hökumət bunun qabağını almağı

bacarmazdı. Burada müsəlmanlar qırılsın, namusuna, canına təcavüz edilmiş, əlindən ixtiyarı qoparılmış, bunu da nəzərə almalı ki, üç gün davadan sonra şəhər alınmış, əhali və qoşun şəhərə acıqlı girmiş idi. Hökumət acıqlı deyil idi, açıqlanmazdı, hökumət bu acığı saxlaya bilmirdi. Hökumət bacardığını etdi. Yüzədək müsəlman asdırdı. Çox tərəfdən hökumət barəsində sözlər deyirlər. Amma demək asandır. Deyə bilərsiniz bunu eyləmədik, eyləməli idik, fəqət bu asanı idi.

Möhtərəm, parlament əzaları! Özünüzə məlumdur ki, hökumət üç gündən sonra Bakıya girdi. O vaxtadək nə olmuşdusa da hökumət gəldikdən sonra bu işləri dayandırdı və bundan artıq bacarmazdı. Bu övzailə bərabər hökumət qarşısında bir çox sair məsələlər də var idi. Xarici işlər bilirsiniz ki, nə halda idi. Zülmət zamanı qayalıq içində nazik taxta bir qayığa bənzər idi ki, hər dəqiqə qayalara toxunub dağılmaq təhlükəsi var idi. Fikir etsəniz gerərsiniz ki, böylə idi. Mən tərif etmirəm. İştə bizim vəzifəmiz bu idi ki, qayığı qayalar arasından keçirə idik. Əhvali-xariciyyəmiz elə idi ki, hökumət çox müşkülata uğrayır idi, hökumət çox çarpışırdı özgələri daxili işlərimizdən uzaqlaşdırsın. Lakin özümüz gətirmiş olduğumuz adamlara demək olmazdı ki, o vaxt sizi çağırmış idik, indi də sizi istəmirik, çıxın gedin. Sonra evza dəyişdi, gözlənilməyən bir vaqiə oldu, təzə məsələlər çıxdı, bir zaman gəldi ki, hökumət nə edəcəyini bilməyirdi, ola bilir idi ki, bir addım ilə hər şey dəyişsin. Xalq yeni işlərə razı olacaqmı, yoxmu? Təzə yol ilə getmək istəyəcəkmi? Hökumətə məlum deyildi, burada xalqın öz rəyini bilmək lazım idi, bu lap axırıncı məqam idi. Binaən-ileyh hökumət parlament dəvətini lazım gördü. Fəqət tez parlament çağırmaq mümkün deyil idi. hökumət təsis olunandan altı ay müddətində Məclisi-Müəssisan çağırmağa söz vermişdi. Bu vaxtadək hələ Məclisi-Müəssisan çağırılmamış, bu bizim təqsirimiz [41 - 42] deyildir. Çünki, torpağımızın yarısı və paytaxtımız əlimizdə yox ikən Məclisi-Müəssisan dəvəti fikrinə düşmək belə gülünc idi. Şəhər alınandan sonra da dəvət etmək və hazırlaşmaq mümkün deyil idi. Bununla belə hələ Bakı alınmadan iki gün əvvəl Gəncədə komissiya təşkil edildi ki, Məclisi-Müəssisan dəvətinə hazırlıq işləri görsün. Məulumdur ki, Məclisi-Müəssisan əsas qanun qoymaq üçündür. Böylə bir məclisə malik olmaq üçün qabaqca Azərbaycan istiqlalının dövlətlər tərəfindən qəbul və təsdiq edilməsi lazım idi. Əlbəttə, əsas qanunu qoyub sonra da ləğv etmək böyük ayıbdır. Binaən-ileyh biz müvəqqəti Məclisi-Müəssisansız qalmağı dəvətinə tərcih etdik. Hələ mənim yadımdan çıxdı sizə qabaqca deyim ki, o vaxt İstanbulda mərkəzi dövlətlər nümayəndələrinin iştirakı ilə konqıra dəvət edilmiş idi. Haman konqırada Zaqafqaziya millətlərinin iştirakı ilə bizim istiqlalımızı qəbul və tərzi idarəmiz məsələsi həll edilmiş idi. Sonra məlumunuzdur ki, övza dəyişdi və bundan dolayı konqıra də dəvətini və Məclisi-Müəssisan çağırılmasını istəmirdik. İndi də tazədən Məclisi-Müəssisan dəvəti üçün qanun hazırlamaq və sair işləri 5 ay çəkər idi. Ona görə biz Milli Şuranı dəvət etdik ki, parlament çağırsın. Noyabrın 17-sində Milli Şura çağırılaraq o dəxi bu sistemi qəbul edərək işbu parlamana dəvət etdi. Bir hal idi ki, mərkəzi dövlətlər məğlub oldular, bütün tədbirlər yox oldu. Həm də o dərəcədə məğlubiyyət üz verdi ki, dünyaya hakim olan Almaniya o qədər zəlil oldu ki, ən rəzil dövlət qəbul edəməyəcəyi şərtlərə razı oldu. Vilhelm xəl edildi. Almaniya donanması təslim oldu. Bunlar bu dərəcə məğlub olaraq qabiliyyət tərəf müqabilə keçdi. İngiltərə, Amerika və Firənkistanın bir qədər qoşunları bizim yaxınımızda (Ənzəli)də idi. İngilislər buraya qabaqcadan gəlmişlər idi, lakin o vaxt paytaxtımız Azərbaycan qoşunları tərəfindən mühasirə edilmişdi. O zaman bizim davamız ingilis ilə deyil idi. Ancaq hüqutumuz uğrunda hərb edirdik və ingilislərin vürudi ilə hüququmuzdan əl çəkib qaça bilməzdik. Binaən — ileyh ingilislər burada olduqları halda da müharibə etdik, tarixdə görülməmişdir. Və demək olmaz ki, bu hökumətlər millətlərin həqq və hüququnu almaq istəsinlər. İngilislər ən qədim mədəni və hüquq muxtariyyəti müdafiə edən bir millətdir. İngiltərənin hakimiyyəti altında hamıdan çox müsəlman [42 - 43] var. Onlar ingilislər ilə çiyin-çiyinə dava edir idilər. Burası gostərir ki, ingilislər onların hüququna təcavüz etmir və özlərindən incitmiyorlar. Bizimlə də onlar arasında heç bir inciklik ola bilməz. Bundan naşıdır ki, Amerika, İngiltərə, Fransa dövlətləri ümumi sülh konfransında vəkilən Azərbaycanda asayişi müdafiə üçün buraya əsgər göndərmək istədikdə, hökumət etiraz etmədi və hökumət ilə Milli Şura onların gəlmələrinə razı oldular. Çünki, onların vürudundan millətin hüququna və Azərbaycanın istiqlalına zidd və xəta görülməyirdi. Bizim rizamız ilə müttəfiqlər gəldilər. Şimdi görürsünüz ki, heç bir zərər də olmadı və hüququmuzu əlimizdən almaq istəməmişlərdi. Millətin həqq və hüququ və havadarı olan daxili işlərimizə əsla əl uzatmırlar. Bunlar elə millətdir ki, bir təhlükə baş verməz. Bununla bərabər öhdəmizə düşən vəzifələrdən birisi də Qafqaziyada bəzən din və qan qardaşlarımızın və bəzən də qonşularımız tərəfindən təşkil edilmiş olan hökumətlər ilə dostanə əlaqə və münasibətimiz məsələsi idi. Hökumət dostluq hüslu üçün var qüvvəsilə çalışdı. Gürcüstan ilə aramızda heç bir ixtilaf vaqe olmamışdır. İki qardaş arasında da mübahisə olar. Lakin mübahisəli məsələlərin həpsi dostanə bir tərzdə həll edilir. Şimali Qafqaziya bizə daha yaxındır. Həmişə sözümüz, yolumuz, işimiz bir olmuş, bir-birimizə mütəqabil komək etmişdik. Aramızda heç bir mübahisə olmamışdır. Ermənistan ilə də aramızda elə mühüm bir ixtilaf olmamışdır. Doğrudur, məzkur iki dövlətlər ilə olduğu kimi Ermənistan ilə dostluq hasil olmamışdır. Bunun da səbəbi şahid olduğumuz hadisələrdir. Bu hadisələrin vüquna biz təəssüf ediriz. Və, heç kəs təəssüf etməyə bilməz. Kim təəssüf etməz ki, axır aylarda ermənilər ilə müsəlmanların arasında müharibə vaqe olub, biri-birlərinin qanlarını tökmüş, biri-birini incitmiş, zülm etmiş kimi hallar yetirmişlərdir. Hansı tərəfin daha artıq zülm etdiyini indi tərəziyə vurmaq vaxtı deyil, bu gələcəyin işidir. Bu səbəblərdir ki, iki dövlətin dostluğuna mane olmuşdur.

Lakin yenə aramızda elə bir ixtilaf vaqe olmamışdır. Hal-hazırda hər nəzarətdən ayrı-ayrı bəhs edə bilməyəcəyəm. Ancaq bunu deməliyəm ki, o vaxt nə məktəb var idi, nə ədliyyə idarələri var idi. Hökumət buna da diqqət etməli idi. Çünki, ədliyyə idarəsi olmayınca məmləkəti polis qüvvəsi [43 - 44] ilə idarə etmək olmaz. Bu iki birdir ki, əvvəl başdan milliləşməli idi. Şimdi məktəblər milliləşdilər. İbtidai məktəblər və bəzi siniflər milliləşmişlər, bir çox yeni məktəblər açılmışdır. Bundan əlavə hökumət əldən gələn qədər çalışaraq yox olan ədliyyə idarələrini təcdid etdi. İndi allaha şükürlər hər yerdə olmaz isə də bir çox ədliyyə idarələrinə türk dili bilən adamlar təyin edilmişlər. Qüvvəmiz qədər vəzifəmizi ifa etdik. Hələ çox şey edə bilməmişik, amma bunu cürətlə deyə bilərəm ki, hökumətin nöqsanları ilə bərabər yol göstərən işıqlı ulduzu bu şüar olmuşdur. MİLLƏTİN HÜQUQU, İSTİQLALI, HÜRRİYYƏTİ!

Fəaliyyətimizdə xətalar işləmişiksə də həmişə fikrimiz bu olmuşdur. Hökumət çalışmışdır ki, öz nüfuzunu millətin gözündə itirməsin. Biz xahiş edirik ki, nöqsanlarımızı bizə göstərəsiniz, tənqidə ixtiyarınız var və tənqid xeyirli şeydir. Parlamentin əsas vəzifəsi də yol göstərməkdir. hər nazir o nəzarətləri barəsində bəyanat verəcəklər. hökumətin ixtiyarı bu günə qədər idi, şimdi siz yığıldınız. hökumət başında parlamentin etimadinə müzəhhər və parlamentə istinad edən bir kabinə olmalıdır. heç bir hökumət parlament açıldıqdan sonra iş başında qalamaz. Ona görə mən bütün yoldaşlarım tərəfindən xəbər verirəm, hökumət hüzurunuzdə istefasını verir. (Alqış).

**Sədr** — Rəisi vükəlanın bəyannaməsini dinlədiniz. Bu xüsusda danışan varsa, söyləsin.

**Məmməd Əmin** — Təklif edirəm ki, hökumət təşkilinə vəkil şimdiki hökumət iş başında qalsın.

**Sədr** — Buna etiraz edən yoxdur? Deməli təklif qəbul olunur.

Əfəndilər! Üç komisyon intixabini təklif edirəm. Etimadnamə komisyonu, tərtibat və ləvazimat komisyonu, nizamnamə komisyonu. hər komisyona neçə üzv intixab edilməsi barəsində rəyinizi deyiniz.

**Camalbəyov** — hər firqədən bir nəfər.

**Səfikürdski** — hər komisyon beş nəfərdən ibarət olmalıdır.

**Məmməd Əmin** — hər firqədən birər, "Müsavat" və bitərəflərdən isə ikişər nəfər intixab olmağını təklif edirəm. Zatən "Müsavat" firqəsi ən böyük firqədir. [44 - 45]

**Miryəqub** — hələlik şəkli-fraksiyon məlum olmadığından naşi hər firqədən bir nümayəndə, əyalət, şəhərlər nümayəndələrindən isə bir nəfər üzv təklif edirəm.

(Sədr təklifləri ruscaya tərcümə edir).

**Məmməd Əmin** — Mən təklifimdə israr etmirəm.

**Səfikürdski** — Mən təklifimi geri götürürəm.

**Sədr** — Demli "İttihad" firqəsinin təklifi qalır. Rica edirəm, namizədlərinizi göstəriniz. İşbu namizədlər təklif edilir:

"Müsavat" və bitərəflərdən: Şəfi bəy Rüstəmbəyov mandat komisyonuna, Məmməd Yusif Cəfərov Nizamnamə komisyonuna, Kazımzadə tərtibat və ləvazim komisyonuna; sosialistlər ittifaqı tərəfindən: Məhərrəmov mandat, Səfikürdski Nizamnamə, Hacınski tərtibat və ləvazim komisyonuna; "Hümmət" firqəsindən: Qarayev etimadnamə, Camalbəyov tərtibat və ləvazim, Şeyxülislamov Nizamnamə komisyonuna! "İttihad" firqəsindən Vəzirov Zeynal bəy — etibarnamə, Məhəmmədbəyov — tərtibat və ləvazim, Qarabəyov Nizamnamə komisyonuna;

Sair əqəliyyət təşkil edən millətlərdən: Xahman (yəhudi) etibarnamə, Vanseviç (leh) Nizamnamə, Tsixokaya (gürcü) tərtibat və ləvazim;

Slavyan-rus cəmiyyətindən: Mixaylov — etibarnamə, Klinyevski Nizamnamə, keşiş Kravçenko — tərtibat və ləvazim komisyonuna. Daha namizəd göstərən yoxdur ki? Bu namizədləri tək-tək və yaxud birdənmi səsə qoyalım?

**Səslər** — Birdəndir.

**Sədr** — Buna etiraz edən var isə əlini qaldırsın! Deməli, təklif qəbul olunur. "İttihad" firqəsi tərəfindən təklif vardır.

**Qarabəyli** — Məclisi-Məbusanına güşadı münasibətilə "İttihad" firqəsi siyasi məhbuslar üçün əfvi-ümumi elanını təklif edir.

**Şeyxülislamov** — "Hümmət" firqəsi "İttihad"ın arzu etdiyi təklifi qəbul və təbrik edir. Bu məsələni fraksiya da qaldırmaq istəyirdi. Fəqət bugünkü iclasda müzakirə edilməyəcəyini nəzərə alaraq qaldırmadı. Bu məsələni firqələrin deklarasiyasında oxunmasına təsir etdik. Hər halda əfvi-ümumi [45 - 46] əleyhinə heç kəs etiraz etməz. Biz təbrik və "İttihad"a təşəkkür edirik.

**Məmməd Əmin** — Təbiidir ki, Məclisi-Məbusan yığıldığı zaman əfvi-ümumidən sərfi-nəzər etməyəcəkdir. Şübhəsiz ki, Məclisi-Məbusan əfvi-ümumi məsələsinə yanaşacaqdır. Fəqət, bunu hər fraksiya öz deklarasiyasında bildirəcəkdir. Bununla belə, mən "Müsavat" və bitərəflər namindən "İttihad" firqəsinin işbu təklifini təbrik edirəm. Əfvi-ümumiyə heç kəs etiraz etməz. Fəqət, hələ bu xüsusda qəti bir qərarnamə qəbulundan sərfi-nəzər ilə bəyannamələrin nəşrinə təkin bu məsələni təxir edəlim.

**Səfikürdski** — Gözəl təklif edildi. Şükürlər olsun ki, biz burada şimdi yığılıb danışa biləriz. O qanlar ki, tökülməyilə bizi bu günə çıxarmışdır və bayrağımızı qaldırmışdır; onları unutmayalım. Hürriyyət və inqilab şühədasının istirahət ruhları üçün təvəqqe edirəm ayağa durasınız. (hamı qalxır). Mən sosialistlər tərəfindən bu təklifi təbrik edirəm! Arkadaşımız Məmməd Əmin buyurduğu kimi bu məsələni hamımız istədik, fəqət, bizim firqəmiz bunu bir brilyant kimi pambıq arasında saxlayıb, təntənəli bir surətdə araya çıxaracaqdır. Millət uğrunda, müqəddəs fikir yolunda çalışanlar müqəssir hesab edilməməlidirlər. Bu gün kiçik bir türk parlamenti açılıbdır. Bizim bu parlamentimiz gözlərdə bir ağ kimidir. Çox imperialistlər onu görmək belə istəmirlər. Cümhuriyyətimizə Türk Cümhuriyyəti deyil, Azərbaycan Cümhuriyyəti dedik ki, hamı vətəndaşlara ümumi bir vətən olsun. (Alqış). Azərbaycanda hamı hürr yaşamalıdır. Heç kəsə fərq qoyulmamalıdır. Bizim sosialistliyimizə şübhə edənlərə sübut olunsun ki, kim həqiqi sosialistdir.

**Sədr** — (zəng çalır). Rica edirəm{ mətləbdən danışasınız. Siz "İttihad"ın təklifi haqqında danışmalısınız.

**Səfikürdski** — Xülasə, fikrimiz budur ki, hürriyyət və inqilab yolunda toqif edilənlər azad edilsinlər. (Alqış, soldan).

**Sədr** — Əsasən, bu təklifə etiraz yoxdur. Bunun süni cəhəti qalır. Fəqət icrasını indiki hökumətmi, yoxsa gələcək hökumətə tapşıraq? [46 - 47]

**Qarabəyli** — "İttihad" firqəsi təklif edir ki, bu məsələni qanuni bir surətə salmaq üçün bir parlament komisyonu intixab olunsun.

**Məmməd Əmin** — Müariz yoxdur. Fəqət, bunu təklif edən firqə bu məsələni qanun yapması surətində sədarətə verməlidir ki, müzakirə edilsin.

**Sədr** — Buna etiraz edən yoxdur ki?

**Qarabəyli** — Mən təklif edirəm ki, bu gün, burada bir komisyon seçilsin ki, bu məsələni qanun surətində tərtib versin.

**Qənizadə** — Parlamentin vəzifəsi qanun qoymaqdır. İndidən bu işə başlasın, vaxta ki, bu gün bu məsələyə baxılmayacaq, mən təklif edirəm ki, bütün millətlər nümayəndələrindən mürəkkəb bir komisyon seçilsin ki, bunu bir qanun şəklinə salsın.

**Sədr** — Layihə hazırlamaq üçün komisyon təşkili barəsində "İttihad"ın təklifinə etiraz yoxmudur?

**Məhərrəmov** — Böylə işlər çox olacaqdır. Hər birisi üçün bir komisyon seçmək olmaz. Binaən-ileyh bütün böylə işlərə baxmaq üçün bir ədliyyə komissyonu seçilməlidir ki, daima surətdə işləsin.

**Sədr** — Təklif edilir ki, ədliyyə komisyonu seçilsin.

**Miryəqubov** — Təklif edirəm ki, bu məsələni Nizamnamə komisyonuna verək.

**Sədr** — Bu məsələnin Nizamnamə komisyonuna dəxli yoxdur.

**Məmməd Əmin** — Bu təklifi edən fraksiya bir qanun layihəsi surətində vermiş olsa idi, əlbəttə qəbul edər idik. Fəqət, şimdi bunu Nizamnamə komisyonuna vermək olmaz. Zira Nizamnamə komisyonu öz işinəmi baxsın və yaxud ədliyyə işlərinəmi baxsın? Məsələ əsas etibarilə qəbul olunur. Lakin digər firqələr miyanında həll edilməmişdir. Bu xüsusda bir layihə hazırlamaq lazımdır. Bunu bir komisyon yaxud bir fraksiya və yaxud bir şəxs də edə biləcəkdir. Binaən-ileyh və ya "İttihad" firqəsi özü bir layihə hazırlasın və yaxud fraksiyon intixabi üçün tənəffüs elan edilsin. Layihə bir günə yazılar.

**Sədr** — Məlumat almaq üçün, mən burasını sizə ərz etmək istəyirəm ki, Azərbaycan həbsxanalarındakı məhbusların hesabı on nəfərdən ziyadə deyil. Söz Şeyxülislamovundur. [47 - 48]

**Şeyxülislamov.** — Bu məsələ əsasən qəbul olunur. Bu qanun deyil bir manifestdir. Binaən-ileyh layihəsini hazırlamaq üçün üç adamdan ibarət bir komisyon seçilsin ki, bir də parlamentə müraciət etmədən ətrafına teleqram çəkərək məhbusları buraxdırsın.

**Sədr** — Bu barədə daha danışan varmı?

**Səmədağa Ağamalov** (yerindən) — Təklif edirəm ki, komisyon indi seçilsin.

**Qarabəy** — Bir komisyon lazımdır ki, məhbusların dərəceyi-təqsirini təhqiq etsin, iki günə qədər parlamentə məlumat versin. Məhbusların azad edilməsi də bu komisyona həvalə edilsin. Bəzi məsələ var ki, təhqiqi ixtilafa bais olar.

**Sədr** — Məsələ yalnız siyasi məhbuslara aiddir. Başqa təklif var isə söyləyiniz.

**Şəfibəy** — "Müsavat" və bitərəflərcə komisyona etiraz yoxdur.

**Sədr** — Komisyonun əzası barəsində iki təklif vardır. Beş və üç.

Kim beş tərəfdarıdır? Əlini qaldırsın. (Əllər qalxır). Kim üç tərəfdarıdır? Əlini qaldırsın. (Əllər qaldırılır).

**Sədr** — Əksəriyyətlə beş nəfər qəbul olunur. Rica edirəm, namizədlərini göstərəsiniz.

**Əhməd Cövdət** — Sosialistlər ittifaqı tərəfindən Aslan bəy Səfəkürdski təklif olunur.

**Şəfi bəy** — "Müsavat" və bitəraflər tərəfindən Qardaşov və Abdulla bəy Əfəndiyevin namizədliyi təklif olunur.

**Heybətqulu** — "İttihad" tərəfindən Zeynal Tağıyev.

**Şeyxülislamov** — "Hümmət" tərəfindən Səmədağa Ağamalov.

**Məmməd Əmin** — Təklif edirəm məclisi bitirmədən ikinci məclis vaxtı təyin edilsin.

**Sədr** — Gələn iclasın vaxtını müəyyən ediniz.
**Məmməd Əmin** — O birisi gün saat 12-də.
**Sədr** — Etiraz yox isə iclas düşənbə günü, dekabrın onunda saat 12-də təin edilir.
(İclas saat 5-in yarısında qapanır).

**Arxiv, f. 895, siy. 1, iş. 1, vər. 5-10.** [48 - 49]

## № 2

## İkinci iclas

*10 dekabr 1918-ci il*

İclas Həsən bəy Ağayevin sədarəti və Rəhim bəy Vəkilovun katibliyi ilə açılır.

**Sədr** — Parlamentin iclası açılır. Ruzinameyi-müzakiratda olan məsələlər bunlardır: Daxil olan işlər, deklarasiyalar elami, natiqlərin nitqi. Bir neçə kağız və teleqramlar varid olmuşdur. Lakin hamısını elan etmək mümkün deyil. Ancaq bir neçəsini elan etmək istərdim.

(Dağıstan hökuməti namindən: Yeni hökumətin təşkil etməsi haqqındakı bəyanatı oxuyur).

**Məmmədov Mustafa** — Bu teleqramın böyük mənası var. Təvəqqe edirəm ki, məclis buna cavab versin.

**Sədr** — Təklif olunur ki, bu kağıza cavab verilsin. Etiraz yox isə qəbul edildir. (Göyçaydan gələn teleqramı oxuyur). Bundan əlavə bir çox dikər teleqramlar gəlmişdir. Məsələn, Səlyandan, Tərtərdən, Gəncə rəfahi dəstəsindən, Bakı İranlı İttihad və səadət cəmiyyətindən, Suraxanı, Əmirhacıyan, Nügədi, Ağdərə kəndlərindən və i. a. Növbədə deklarasiyaların elanidir. Söz "Müsavat" firqəsindən Məmməd Əmin Rəsulzadə əfəndinindir.

**Məmməd Əmin** — Bəyannaməmizi elan etmədən əvvəl müqəddimə olaraq bəyan etmək istəyirəm ki, keçmiş hökumətin fəaliyyəti haqqında vaxt müsaidə etmədiyindən firqəmiz ayrı bir zaman bəyanatda bulunacaqdır. Şimdi, Türk ədəmi-mərkəziyyət "Müsavat" firqəsi tərəfindən tərtib verilmiş deklarasiyaya keçəlim. (Oxuyur). Möhtərəm məbuslar! Türk ədəmi-mərkəziyyət "Müsavat" firqəsinin Məclisi-Məbusan şöbəsi tərəfindən hüzurunuza ərz etməliyəm ki, "Müsavat" firqəsi bu vaxta qədər gərək Rusiya Məclisi-Müəssisan seçkilərindən, gərək Zaqafqaziya "Seym"ində bitərəf adilə məruf olan müstəqil cəmaət xadimləri ilə bir fraksiyan təşkil edərək, onlar ilə birlikdə hərəkət etmiş idik. Bu gün isə firqə müstəqil bir fraksiyon şəklində hüzurunuzda çıxaraq məruzatda bulunur. [49 - 50]

Möhtərəm məbuslar! Yəqin siz "Müsavat" firqəsinin bu hərəkətində bir tərzi-hərəkət dəyişikliyi görürsünüz. Həqqaki elədir. Əcəba böyük məclis quran müxtəlif firqələrdə proqram dəyişikliyi gorürmüsünüz?.. Bizim yaxın məqsədlərimizdən biri olan Azərbaycan muxtariyyətini tələb edərkən həm sağdan, həm də soldan hücumlara düçar oluruq. Sağdakılar bir nöqtədən, soldakılar da başqa bir nöqtədən Azərbaycan muxtariyyətini inkar edirlər. Sağdan deyirlər ki Azərbaycan, Azərbaycan deyə—deyə müsəlmanları parçalayır, türklük bayrağını qalxızarkən — nüfuzu bala — İslama xətər vurursunuz. Soldan daxi iddia edirdilər ki, Azərbaycan davası bizi inqilabçı hürriyyətpərvər Rusiya demokratiyasından ayırır, xan, bəy hökuməti düzəltməyə səbəb olur. Fəqət, bu gün nə görürsünüz? Onlar da Azərbaycanı, Azərbaycan istiqlalını. bizim bu dünənki münqadlarımız bu günnə olanca qüvvətləri ilə bir baxışda, hətta bizdən daha ziyadə bir şiddətlə müdafiə edirlər. Biz Azərbaycan muxtariyyəti şüarını ilk dəfə ortaya atan Türk ədəmi-mərkəziyyət "Müsavat" firqəsi bu gün beş ilə yaxın aləmi-şümul bir döyüşdən sonra qalib və məğlub, bütün zehinlərdə yerləşmişsə "Cəmiyyəti-əqvam" fikrinə inanmış idi. "Müsavat" firqəsincə bu cəmiyyət milli dövlətlərin ittifaqından ibarət olmalı, bu dövlətlər ədəmi-mərkəziyyət və muxtariyyət əsasları üzərinə qurulmalı idi. Bu idrakinə ürəyi ilə inanan firqəmiz Rusiya inqilabının ilk aylarında Petroqrad mərkəziyyətinə şiddətlə ərzi kəsən olan sosialist cərəyanların uymadığı kimi, əksər zehinləri tutan bir növ ruh xəstəliyi kimi şiddətli surətdə sirayət edən "İlhaqçılıq" mərkəzində mübtəla olmadı. Öz-özünə sadiq olaraq həmişə ədəmi-mərkəziyyətçi qaldı. (Mərkəzdən alqış). Əvvəla, ədəmi-mərkəziyyət, sonra muxtariyyət. Daha sonra cərəyana təbən istiqlaliyyət tərəfdarı, daima Azərbaycan məfkurəsinin müdafei olan firqəmiz üçün bu gün o böyük məqsəd hasil olmuşdur. Çünki artıq gərək sağlar, gərəksə sollar Azərbaycanı inkar deyil, var qənaətlərilə isbat edirlər. Çünki, artıq Azərbaycan fikri üzərinə müsəlman firqələri arasında ixtilafi-nəzər yoxdur. Çünki, artıq cəmatimizin zehnində Azərbaycan istiqlalının fikri yer tutmuş, yerləşmişdir. Çünki üç rəngli o məğrur bayraq artıq siyasətən həpimizi birləşdirmişdir. (Alqış). [50 - 51]

Əvvəlcə, firqə Azərbaycan fikrini yalnız xaricdə deyil, daxildə də isbat etmək məcburiyyətində idi. Bu gün isə firqəmiz daxilən isbat olunmuş müstəqil bir Azərbaycanın Məclisi-Məbusanında bulunur. Şimdi firqə felən mövcud olan Azərbaycan istiqlalının hüquqca möhkəmləşməsi, xaricdə müdafiəsi, daxildə təşkili üçün çalışmasıdır. Əgər bu vaxta qədər "Müsavat" başlıca məqsədi olan Azərbaycan fikrinə maddi bir vücud qazandırmaq niyyətilə sabit bir mərkəz vücuda gətirmək üçün bu məsələdə kəndisilə müttəfiq bulunan bitərəflərlə bir qəlibdə bulunur idisə, şimdi artıq buna ehtiyac yoxdur. Azərbaycan hər kəs üçün müdafiə olunur, qüdsi və müştərək bir sitareyi-ümid halına gəldikdən sonra təbiidir ki, mərkəz məbusan təbdil, proqramlarda təbdil etməlidir. Firqə proqramımız ilə tanış olanlar bilirlər ki, biz federalist, türkçü və demokratizm məsləkimiz milli-demokrat məsələsidir. Demokratlığımız radikalizm dərəcəsinə qədər vardır. Millətin qüvvətli bir cəhəti-camiəsi yalnız dində deyil, xalqın "dili dilimdən, dini dinimdən" deyə kəndinə məxsus sağlam hiss ilə dərk eylədiyi düsturda goruriz. Bu mülahizə ilə biz məfkurəmizdə böyük türk millətini bu gün gəlibdə bir türk

federasiyonu (mərkəzdən Alqış) qurmaqla bütün görmək istəriz. Bu ittihadın mədəniyyəti bəşəriyyə sərgisinə qiymətdar bir hers (kultur) bəxş edəcəyinə əminiz. İştə məqsəd iqtisadımızın digər dərəcəsi fəqət bu məqsədlərin fövqində ülvi bir məqsədimiz daha vardır ki, o da bütün cahan federasiyonu "Cəmiyyəti əqvam"dan ibarətdir. (Alqış).

Bunun bir müqəddiməsi olmaq üzrə Rusiya inqilabı zamanında yazılan firqə proqramımız, Rusiyada milli və məhəlli muxtariyyətlər əsası üzərinə qurumu, qoşma xalq cümhuriyyəti üzərində israr edir idi. Müsaid bir zamanda, mətlub şərtlər altında, təkrar böylə bir ittifat əqd eyləmək bizcə yabançı bir fikir deyildir. Bilxassə ki, proqramımız vəchilə muxtariyyətlərini tələb etdiyimiz Türküstan, Qırğızıstan, Başqırdıstan, Volqaboyu və Krım türkləri ilə biz bu surətlə təkrar əlaqə və irtibat peyda edə biləriz. Müstəqil Azərbaycan digər müstəqil Rusiya millətləri ilə azadanə bir surətdə bağlaşaraq qoşma bir hökumət vücuda gətirə bilər. Yalnız bu qədər varki bu ittifaqı azərbaycanlılar deyil, Azərbaycan yapa bilər. Vəziyyəti [51 - 52] beynəlmilləliyyəmiz aydınlaşınca kəndi həqqimizi kəndimizi təinə səlahiyyətdar olduğumuzu Rusiya ilə bərabər, bütün cahan mədəniyyəti qəbul etməyincə toplanacaq sülh konfransında diləyimiz istiqlal təsdiq olmayınca — bir kəlmə — hürriyyətimiz beynəlmiləl bir təminat almayınca, bittəb heç bir ilhaqdan, heç bir ilhaqdan, heç bir federasiyondan bəhs olunmaz. (Alqış).

Azərbaycan məsələsi kim nə deyir isə desin, artıq beynəlmiləl bir məsələdir. Müstəqil Azərbaycanın xaricən müdafiəsi, hüququn təsdiq edilməsi yenidən düzələcək hökumət məramnaməsinin baş sətrini təşkil etməlidir. Məclisimiz açıldığı gündə söylənilmiş "BİR DƏFƏ YÜKSƏLƏN BAYRAQ ENDİRİLMƏZ!" sözü dildə deyil işdə də görülməlidir. Bu xüsusda ciddi çalışmaq əzmində bulunan hökumət vəziyyətə hakim bulunan müttəfiq hökumətlərin haqqımızda göstərdikləri dostanə təvəccöhdən son dərəcədə istifadə edə bilər. Amerika rəisi-cümhuri (Vilson) əsasları: Azərbaycan kimi kiçik məmləkətlərin də böyük məmləkətlər kimi haqq və ixtiyara malik olduqlarını elan eyləmişdir. Amerika rəisi-cümhurinin elan etdiyi millətlərin kəndi müqəddəratını həll etmək ixtiyarına malik oldutları düsturunun hakim olacağını elan etmişlərdir. Buna əlavə olaraq paytaxtımızda əmniyyət və asayişi təmin üçün müsafir olaraq gələn müttəfiq ordusu komandan general (Tomson) Qafqaziya məsələlərinin sülh məclisində həll olacağını rəğmən bəyan etmişlərdir. Belə müsaidə gah bir əsəri-təvəccəhdən istifadə etmək və hər bir vasilə ilə bütün cahan mədəniyyəti hüzuruna, bilxassə dövəli-müttəfiqə mühafilində müstəhəqqi istiqlal olduğumuzu isbat eyləmək Azərbaycan hökumətinin "bismilə" siyasətini təşkil eləməlidir. Bu məsələdə qəvi bir əzm və sarsılmaz bir səbatla hərəkət edəcək hökumət hər hanki firqəyə mənsub olursa olsun, hər növ müavinət və mühafizəmizə əmin olsun. Müstəqil bir cüzvünü təşkil eylədiyimiz Qafqaziya öylə siyasi bir vəziyyət qarşısındadır ki, buradakı cavan cümhuriyyətlər, Azərbaycanda daxil olduğu halda ancaq ittifaq və yalnız dostluq rəftar edə bilər. Və belə rəftar edə biləcəkləri gündən etibarən xilas olurlar. Buna görə də xarici siyasətimizin "əlhəmdulla"sını Qafqaziya ittifaqı təşkil etməlidir. Siyasətə və iqtisadiyyata [52 - 53] su ilə havaya olduğu kimi möhtac bulunduğumuz bu ittifaq xatirinə aramızda bütün ixtilaflı məsələləri sülh, müsalimət və qarşılıqlı güzəşt və ən sonu hökm vasitəsilə həll etmək tərəfdarıyıq. Hər halda həqiqi və həyatı müttəfiqlərimizi fəda etməmək şərtilə bu kimi məsələləri qansız həll edən hökumət ən ziyadə himayə edəcəyimiz hökumətdir. (Alqış). Bizimlə həmdərd olan Gürcüstan, Ermənistan dövlətləri ilə hüsnü-münasibətlərimizin könül arzu eylədiyi dərəcədə səmimiyyətləşdirilməsi şərtilə arzu edəriz. (mərkəz və soldan alqışlar.) Fəqət, bununla bərabər istərdik ki, Qafqaziya millətlərinin hürriyyət və istiqlalına gələcək zərbəyə hər kəsdən ziyadə və həpimizdən əvvəl məruz qalacaq Şimali Qafqaziyalı qardaşlarımızın müqəddəratı hər zaman nəzərimizdən uzaq qalmasın. Biləlim ki, orada "qəlyanaltı" edəcək "bolşevik" burada "nahar" edəcəkdir. Bunu qətiyyən unutmamalı, ona görə də tədarük görməlidir. (Alqış).

Digər dövlətlər ilə dəxi münasibətə kirişmək bilxassə yeni vücuda gəlmiş dövlətlər nəzdində nümayəndələr göndərib, onların nümayəndələrini nəzdimizə cəlb etmək xariciyyə nəzarətimizin ilk dərəcədə görüləcək işlərindən olmalıdır. Xaricən sülh və müsalimətlə hərəkət edəcək hökumət, daxilən də hürriyyət, müsavat, ədalət və əmniyyət təsisinə cəhd etməlidir. Haqqımızı isbat etmək, istihaqqımızı göstərmək nöqteyi-nəzərindən dəxi daxili işlərimizi yoluna qoymaq, bütün idarələrimizi tənzim etmək məcburiyyətindəyiz.

Böyük Rusiya inqilabından qazanılan söz, yazı, vicdan, ictimai ittifaq kimi əhlivətən hürriyyətləri tamamilə təhti-təinə alınmalı. Azərbaycan müsalihəkar, hürriyyətpərvər bir hökumət olmalıdır. Əgər bu günə qədər hərb və inqilab əhvali fövqüladəsindən naşı bu kimi məqsədlər könül dilədiyi kimi hasil olmuşsa, bunun bir an əvvəl qövldən felə gətirilməsinə çalışmalıdır. Eyni səbəbə bu vaxta qədər yalnız müsəlmanlardan təşkil edən heyəti-vükəla dəxi üzərinə müstəqil müştərək bir hökumət şəklində olmalıdır. Millət məhkumluğu acısını dadmış olan Azərbaycan türkü məhkum millət yaratmaz. (Şiddətli alqış).

Azərbaycan Cümhuriyyəti övladını ögey-doğmaya ayırmaz: erməni, rus, yəhudi, gürcü, nemes, polyak və sair azlv.tda qalan [54 - 55] millətlər Azərbaycan vətəndaşı olmaqla bərabərmilli-mədəni muxtariyyətə malik olub kəndi ümuri-məzhəbiyyə, milliyə və mədəniyyələrini kəndiləri idarə etməlidirlər. (Mərkəz və soldan alqış).

Keçmişin məşum tərkəsi olan erməni-müsəlman hadisati-ələmiyyəsinə bir daha meydan verilməmək üçün hökumət hər növ fədakarlığa təhəmmül etməli, burada dağıdıcı ədavətin izaləsinə səy etməlidir. Bu xüsusda qəti

və bitərəfanə qərar və tədbirlərilə hökumət mart və sentyabr hadisələri kimi qəmgin faciələrin bir daha təkrar edilməyəcəyi haqqında təminat verməlidir. (Alqış).

Bütün aləmi istila edən demokratik bir cərəyanın yol alıb getdiyi belə bir zamanda Rusiya inqilabi-kəbiri kimi müdhiş bir ixtilal məşiməsindən doğmuş bir cümhuriyyəti təsis və idarə edəcək hökumət daxili siyasətində hər şeydən ziyadə demokratiya sinfinə, köylülər ilə əməllərə istinad etməlidir. (Mərkəz və soldan alqış). Fövqəladə bir surətdə bahalaşan məişətin ən ağır yükü millətin əksəriyyəti-əzəməsini təşkil edən bu iki sinfin umuzundadır. Binaən-ilhey əkinçiyə yer, əmələyə iş verilməlidir. (Sürəkli alqışlar, mərkəzdən və soldan). Yeri bəs necə verir, iş üçün nə düşünür, deyə vaqe olan suala firqə proqramımızı nəql ediriz.

### "Torpaq məsələsi"

22). Xəzinəyə, sabiq padşaha və padşah nəslinə mənsub xanədanə; elə də mülkədarla xüsusi malikələrə məxsus olan bütün torpaqlar pulsuz və əvəzsiz olaraq zəhmətkeş və rəncbər xalqa veriləcəkdir. (Şiddətli alqış, soldan bravo!)

23). Bu surətlə zəhmətkeş və rəncbərlərə veriləcək torpaq onların kəndi mülkiyyətlərinə verilib, həmin yer üzərində bütün hüquqa malik olacaqdır. (Mərkəzdən alqış).

24). Hər bir əldə qalacaq və ya bulunacaq torpağın ən çox miqdarı qanunən təin olunub, ondan artıq kimsəyə torpaq sahibi olmaq haqqı verilməyəcəkdir. (Soldan bravo, alqış).

25). Torpağın pulsuz və əvəzsiz surətdə rəncbərlərə verilməsi üzərində xəsarətdidə olan xüsusi maliklərə gördükləri ziyan müqabilində xəzinə tərəfindən, mütərəqqi gəlir vergisi [54 - 55] əsasilə varlı siniflərdən alınan verdi pulu ilə hasil olmuş xüsusi bir məbləğ (fond) hesabına olaraq mükafat veriləcəkdir.

26). Malikiyyət torpağın üzərinə olub, altındakı mədəniyyat isə beytülmal (muxtariyyət xəzinəsinə) məxsusdur ki, hu surətlə istifadə olunması dövlət tərəfindən qoyulacaq xüsusi nizam və qanuna bağlıdır.

27). Meşələr, cəngəllər, göllər, duzlaqlar və axar sular ümumidir. Onların idarəsi məhəli idarələrin əlində olub, xüsusi adamların onlardan faydalanmasının tərtibi dəxi məzkur idarələrə bağlıdır.

### "İşçi məsələsi"

İşçilərin zəhmətin ağır məşəqqətindən daim rahat etmək üçün firqə aşağıdakı maddələri tələb edir:

28). (Hər bir muzdur, qulluqçu, əmələ və fəhlə üçün iş günü səkkiz saatdan artıq olmamalıdır. (Alqış mərkəzdən və soldan).

29). Hər bir muzdur, qulluqçu, əmələ və fəhlə üçün, ərkək-qadın-fasiləsiz surətdə həftədə 24 saatlıq istirahət qanunən müqərrər olmalıdır. (Alqış, soldan bravo).

30). Qanunən müəyyən olunan iş günündən artıq işləmək qaydası tamamilə mən edilməlidir.

31). Gecə qulluğu axşam saat doqquzdan saat 6-ya qədər yasaqdır. Fəqət, işin texnikası tələb eylədiyi təqdirdə və əhd təşkilatı tərəfindən caiz görüldüyü halda gecə xidmətigkörülə bilir.

32). On altı yaşına qədər məktəb sinnində olan balaların çalışdırılması məmnudir. 16 yaşından 18 yaşına qədər olan cavanların iş günü isə altı saatdan artıq olamaz.

33). Qadınların səhhət və vücudlarına zərərli olan işlərdə çalışdırmaq məmnudir. (Mərkəzdən alqış, soldan bravo). Hamilə olan qadın xidmətkarlar doğulduqlarından dörd həftə əvvəl və altı həftədə sonra xidmətdən azad edilib və bu azadlıqları müddətində dəxi muzd və məvaciblərini tamamilə alacaqlardır.

34). Qadın əmələ və fəhləsi olan hər bir fabrika, zavod və sair karxanalar yanında südəmər uşaqlara məxsus tərbiyəxanalar [55 - 56] yapılacaq. (Alqış soldan). Uşaq əmizdirən ana qulluqçular hər üç saat arasında yarım saatdan az olmamaq şərtilə xidmətdən azad ediləcəklərdir.

35). tamamilə və ya qismən işləmək qabiliyyəti itmiş olan əmələlər dövlət tərəfindən xüsusi bir fond (sərmayə) hesabına sığorta olunacaqlardır. Bu fond dəxi sərmayədarlardan alınan xüsusi bir vergi hasilatından əmələ gələcəkdir.

36). Muzd və məvacib müqabilində nəqd əvəzinə cins vermək qaydası tamamilə mən ediləcək, muzd və məvacib isə həftədə bir dəfə iş müddəti əsnasında veriləcəkdir.

37). Cərimə və xarab olan, bəyənilməyən mətaiq mayasını qaytarmaq və sairə kimi hər növ ittifaq və səbəblərdən ötəri olsa da fəhlələrin haqqi-hesabından pul çıxmaq qaydası kökündən mən edilməlidir.

38). Hər növ emalatxana, kəsbxana, fabrika, zavod və sairəyə kifayət edəcək qədər fabrika təftişçiləri (inspektorlar) təin edilməlidir. Dövlətə məxsus olan sənətxanalar, xadim və qulluqçusu olan kasbxanalar dəxi bu müfəttişlərin nəzarətinə tabedirlər. Bu cümlədən olaraq ev qulluqçuları, ev nökərləri dəxi fabrika müfəttişliyinə tabedirlər. Qadınların çalışdığı yerlərə qadın müfəttişlər təyin olunmalıdır. Fabrika, zavod və zəhmətin müdafiəsinə məxsus nəşr olunan qanunların kamilən yerinə yetirilməsinə baxmaq üçün əmələlər tərəfindən seçilmiş vəkillər dəxi iştirak etməlidir. (Alqış.) Bu vəkillərə dövlət tərəfindən maaş veriləcəkdir. Əmələlər

tərəfindən seçilən bu vəkillər, əmələyə verilən materiallara onların (brakovka) yaramazlığına və ələlümum işlərin nəticəsinə nəzarət etməlidirlər.

39). Sahibkarlar tərəfindən əmələlərə məxsus olaraq verilən evlər ilə mənzillərin səhhətə müvafiq olub olmamasına, məzkur otaqların daxili sıxlığa və tərtibatına, onların kirayə verilmək şəraitinə baxmaq və həmçinin iş sahiblərinin, əmələlərin ev işlərinə müdaxilə etmələrinə meydan verməmək üçün bu mənzillər məhəlli idarələr tərəfindən təftişə alınıb, nəzarət altına alınmalı, bu nəzarətə əmələlərin vəkilləri də iştirak etməlidirlər.

40). Hər bir kargah, fabrika və emalatxanada müntəzəm surətdə iş sahiblərinin nüfuzundan azadə səhiyyə nəzarətləri [56 - 57] təsis olunmalıdır. İş sahiblərinin hesabına olaraq əmələlərə müftə dərman verməli və azarladıqları müddətcə məvacibləri özlərinə yetişçilməlidir.

41). Səy və zəhmət qanununu sındıran iş sahibləri cinayət Qanunu mocibincə məsuliyyətə alınmalıdır.

42). Hər bir kargah və kəsbxanada yarısı iş sahiblərindən, yarısı da əməllərindən ibarət xüsusi mühakimə heyətləri təşkil olunmalıdır.

43). Yerli və xaricdən gəlmə əmələ və işçilərə qulluq tapmaq üçün kontorları (məsai birjası) təsis etmək işi məhəlli idarələrə həvalə olunmalı, bu kontorlarda əmələ təşkilatı tərəfindən seçilmiş vəkillər dəxi iştirak etməlidirlər. Millətin özəyini təşkil edən fəhlə baxımsızlıq üzündən müzür xəstəliklərə tutularaq minlərlə qırılırlar. Təbiidir ki, tədabiri-səhiyyə etmədiyindən daha ziyadə bir ciddiyyətlə əvəz olunmalıdır. İaşə (ərzaq) məsələsinin islahı, bu xüsusda ən təsirli çarə ola bilər. Fəqət bunun üçün də yolların tərtib və əmniyyəti, başqa millətlər ilə ticarət mübadiləsini təşkil və əmniyyət əlzəmdir. Maarif daha ziyadə yapmalı və daha ziyadə millíləşməlidir. Göylər məktəb şəbəkələri ilə, şəhərlər də darülmüəlliminlər ilə dolmalıdır. Dövlət müəssisələri ilə təhrirati-rəsmiyyənin mümkün olduqca milliləşməsinə cəhd etməlidir. Əlbəttə unutmamalıdır ki, hökumət qurmaq bir tərəfdən xalqın etimadını qazanmaqla olursa, dikər tərəfdən dəxi cəbr və qüvvəyə istinad etməklə olur. Bunun üçün də əsgəri təşkilata son dərəcədə əhəmiyyət verilməlidir. Dövlətin xaricən müdafiəsi, daxilən müsaliməti bunu iqtiza edir. Xidməti-əsgəriyyə bütün xalqın üzərinə deyil, daha ağ gün, daha zəngin siniflərə təhəmmül olunmalıdır. Yeni qurulacaq hökumətdən daxilən və xaricən bu proqram daxilində fəaliyyət istəyəcək məclisi-məbusan, eyni zamanda kəndisini dəxi bizat Azərbaycan məclisi-müəssisanı dəvət etmək üçün indidən təşəbbüsdə olmalı, qanuni-intixab yazılması üçün bir ay əvvəl məxsusi bir komisyon ayrılmalıdır.

Bayaqdan bəri zikr etdiyim mətləbləri, məmləkətin istiqdalını müdafiə və millətin həyatını mühafizə etmək üçün əzm qəvasilə təşkil edəcək bir hökumətdir ki, vücuda gətirilə bilər . Böylə bir hökumət içində bulunduğumuz şəraiti-hazirəyə [57 - 58] görə yalnız tərəqqipərvər bir koalasiyon surətlə təşkil edə bilir.

Bu surətlə qurulacaq bir hökumət firqə və milliyyət etibarilə müştərək olmalı və hər bir cəhətcə parlament hüzurunda məsul bulunmalıdır. Yalnız böylə bir əhval ilə təşkil olunacaq hökumətdir ki, əlbirliklə xilasına borclu olduğumuz vətəni qurtarıb, hürriyyət və istiqlalımızı təmin ilə bizi həm məclisi-müəssisan hüzuruna çıxarar, həm də istiqlalımızın beynəlmiləllik təsdiqini asanlaşdırar. (Şiddətli və sürəkli alqışlar).

**Sədr** - Söz sosialistlər ittifaqı tərəfindən Səfikürdlü Aslan bəyindir...

**Aslan bəy** — Yüz ildən bəri bizim vətənimiz, indiki Azərbaycan olan, İran padşahının istibdadindən qurtarıb rus padışahının əlinə keçdi. Bir qədər keçdikdən sonra camaat anladı ki. Rusiya müstəbid hökumət əlinin altında işləmək mümkün olmayacaqdır. Hamıdan qabaq fəhlə və köylülər anladı ki, belə Rusiya kimi böyük səltənət ki, bir çox millətlərdən mütəşəkkil bir dövlətdir. Heç kəsin hüzurunda məsul olmayan bir adam tərəfindən idarə oluna bilməz. Ona görə fəhlə qardaşlar siyasi firqələr əmələ gətirib qət etdilər ki, Rusiya gərək cümhuriyyət olsun, iştə o yerin əhalisi, millətləri asudə, vətənləri abad ola bilər ki, oranın zəhmətkeş əhalisindən eyiləşsin; Onun cismani xəstəliklərinə əlac və ruhani tərəflərinə müavinət edilsin. O zaman rus sosialistləri ilə bərabər bizim firqəmiz də çalışır idi. Hətta Rusiya çarının güclü vaxtında çalışır idi. Özünüz bilirsiniz ki, o zaman biri "cümhuriyyət" sözünü işlətmək nə qədər təhlükəli idi. Lakin o qorxulu vaxtda bizlər yenə işləyir idik, çünki məsləkimizə inanırdıq və bilir idik ki, ən yaxşı tərzdə idarə ancaq cümhuriyyətdir. İndi məqsədimizə çatdıq, cümhuriyyət alındı, nəinki Rusiyaya və Rusiyada yaşayan demokratiyaya, hətta başqa dövlətlərdə yaşayan xırda millətlər də istiqlaliyyət almağa müvəffəq oldular. Bu işə hamıdan artıq biz sosialistlər şad oluruq. Ona görə mən bu gün sosialistlərimiz tərəfindən deyirəm: "Yaşasın, Azərbaycan Cümhuriyyəti!"(Alqışlar).

Bəzi vaxtlar istibdad altında olurdu ki, biz aşkar işləyə bilmir idik,. Gizlicə işləyir idik. Özünüz bilirsiniz ki, [58 - 59] bizim qardaşlarımız yaşayan ölkələrdə, bu beş il müharibədə müfəttinlik nəticəsi olaraq Kars, Ərdahan, Acarıstanda nə qədər qanlar töküldü. Müsəlmanlar barəsində zülmlər oldu. O vaxt bizim sosialist yoldaşlar oraya getmiş idi. Həpsi orada çalışır idi. Ola bilər ki parlamentdə bizim firqədə oturanların həpsi orada çalışırdı, işləyirdilər. Bacardığımız köməkləri edirdik. Sonra müharibənin ortasında inqilab oldu. Nikolay taxtdan salındı, əski idarə yerində inqilabçılar təşkilatları əmələ gəldi. Hökumət idarələri demokratiya əlinə keçdi. Digərləri o idarələrdə işləmirdilər. Çünki buna inanmırdılar, deyirdilər ki, bu idarələr daima deyil, bunlar bir şey bacarmayacaqlar. Hər kəs orada çalışır, müttəfiqlərimiz Rusiya fəhlələrinə, Rusiya demokratiyasına "sizin və bizim mətləbimiz birdir, siz azad olmaq istəyirsiniz, biz dəxi azad olmaq istəyiriz", deməsə idilər əhval başqa dürlü olacaq idi. Siz gördünüz ki, rus ordusu cəbhədən qayıdarkən soldatlar bütün müsəlmanlara düşmən

kimi baxırdılar. Sosialistlər Gəncə və Tiflis arasında canları təhlükə altında olduqları halda, soldatlar içinə gedib müsəlmanların onlarla düşmən olmadığını isbat edirdi. Gördük ki, hər tirendə sosialist ittifaqından bir-iki adam olurdu. Əsgərlər keçirdilər. Sonra Rusiya məclisi-müəssisanına intixab zamanı Gəncədəki müşavirədə müsəlman sosialistləri bir ittifaq təşkil edib bir taqım səbəblərə görə xüsusi bir müsəlman sosialistləri adına bir ittifaq təşkil ediblər. O zaman sosialistlər ittifaqı Zakafkaziya seyminə və hökumətə daxil olub anarxiya müqabilinə mübarizə edirdi. Sonra Batum, Trabzon, İstanbul konqreləri dəvət edildikdə işbu konqrelərdə (konfranslarda) iştirak etdik. Və bu çılışmaqları ilə sosialistlər başqa millətlər ilə müştərək hökumət təşkilinə tərəfdar olduqlarını göstərmək istəyirdilər. Gürcüstan ayrıldı. Sair millətlər elani-istiqlal etməyə məcbur oldular. Əz cümlə Zakafkaziya seyminin müsəlman fraksiyası Azərbaycan Cümhuriyyətini elan etdi. Azərbaycan müstəqil oldu. Fəqət biz Rusiya ilə Azərbaycan demokratiyasının faydalarını birlikdə bilirdik və biliriz. Ona görə də hamıdan axırda (elani istiqlal etməyə) məcbur olduqumuz üçün elan etdik. Bununla bərabər zənn ediriz ki, Rusiya demokratiyası ilə Azərbaycan xalqının [59 - 60] əl-ələ çalışmaları olacaq birliyinə kimsə mane olmaz. Çünki, Rusiyadakı demokratiyanın hamısının qayəsi, faydası bizimkilər ilə yenə də birdir. Biz müttəfiq sosialistlər Azərbaycan Cümhuriyyəti yolunda əvvəldə işləmiş idik, imdi də var-qüvvəmizlə onun üçün çalışmacayız. Azad dövlətimiz gərək yaşasın. Bizim proqramımızın başında yazılmışdır ki, millətlər bərabərdir. Bu millətlərin biri yaşamaz isə heç digərləri yaşamaz. Rusiya istibdadı dövründən bəri bizim proqramdan heç bir şey dəyişməmişdir. Bizim torpaq haqqındakı proqramımız görün nə qədər doğru idi ki, ona əsla razı olmayan sağ firqələr də buna razı oldular.

**Torpaq məsələsi:** (Seym)də həll edildiyi zaman Zaqafqaziyada olan müsəlman firqə nümayəndələri torpağın köylülərə əvəzsiz verilməsinə bir səs ilə rəy verdilər. (Hər tərəfdən alqış). Bir ayrı fikir də ola bilməz idi. Çünki ayrı fikirdə olsa idilər ümumrusiya demokratiyası bu fikirdə olduğu üçün düşünürdülər ki, nə üçün hamı Rusiyadakı millətlər bu fikirdə olduğu halda iki quberniyada başqa məslək çıxdı. (Alqış, solda gülüş.) Mən bilən millətçilər də bu fikrə şərik olmalıdırlar. (Soldan: Olubdurlar da). Biz hamıdan əvvəl kəndçilərin halına baxmalıyız. Kəndçilərin qarnı tox olmazsa, kəndimiz abad olmaz isə nə edə biləriz? O millətdən nə ola bilər? Ümum Azərbaycan əhalisinin yüzdə doxsanı çöllüdür. Bunlar əksərən: ac, çılpaq, xəstə və kasıbdarlar. Biz onların dərdlərini bilib, əlac aramalıyıq. (Soldan alqış). Onlar nə qədər eyi yaşasalar, o qədər cümhuriyyətimiz üçün xeyirlidir. (alqışlar.) Onlar tox olub, azardan az qırılsalar, kənardan heç bir qüvvə hürriyyətimizə təcavüz edə bilməz. (Alqış). Torpaq və fəhlə məsələsi haqqında bizim proqramımız məlumdur. İzahına hacət yoxdur. Amma kəndli və fəhlə yoldaşlarımız bunu bilib bizə yardım etməlidirlər). (Soldan: Edəcəklərdir). Əlbəttə, bu işlə həpsi qəzetdə yazıracaqdır, gizli qalmayacaqdır. Siyasi məsələlər otaqlarda, lokontalarda, örtülü yerlərdə deyil, açıq surətdə həll edilməlidir. (Hər tərəfdən alqış). (Əlini nazirə uzadaraq). Onu zati-aliləri bilirdilər, ona görə də Gəncədə bizim Şurayi-millimizi qovdular. Bir firqə ki, sosialist olduğunu istibdad hökumətindən gizləmirdi. Əlbəttə cümhuriyyət zamanında gizləməyəcəkdir. Biz kürsüyi-xitabatda [60 - 61] açıq danışmaq haqqını tələb edirdik. Öylə bir minbər ki, hamı orada dərdini söyləyə bilsin. Qanunsuzluq bütün millət nümayəndələri fikirlərini deyə bilsinlər, siz də fikrinizi deyə bilin, biz də fikrimizi deyək, millət də görsün kimin göstərdiyi yol yaxşıdır. Millət xəbərlidir (soldan: Doğrudur). O yandan maida belə şeylərdə mübarizə olmalıdır. Çünki belə olmaz isə, işlər düz getməz, nə millət, nə demokratiya yaşaya bilməz. Demokratiya daima əzilər. Mart hadisatında qırılan ancaq fəqir-füqəra oldu. Pulu olan qaçdı (Soldan: Qaçdılar, sağ olun). Mən özüm də dövlətli olsa idim, belə olardım. Bu xüsusda əhəmiyyətsizləri sonraya buraxaraq hazırda mühüm məsələləri müzakirə etməliyiz. Məsələn, bütün kəndlərdə eylə şeylər var ki, heç bizim xəbərimiz yoxdur. Kəndlilər tələf olurlar, spanka deyilən bir azardan gündə hər köydə on-on beş adam ölür. Həkim və dərman adı olduğunu heç kimsə bilmir. Hərçəndi rəisi-vükəla deyir ki, nazirlər bu xüsusda işlər görürlər. Amma biz bir şey görmüyoruz. (Soldan: gülüş, alqış). Həkimləri məcburən əsgər kimi toplayıb, böyük para vermək, kəndlərə göndərmək lazımdır. Qoy on gün gedib kəndlərdə qalsınlar. Barı camaət özünü azardan nə töhr saxlamağı söz ilə də olsa öyrənsinlər, və illa millət qırılıb gedir. (Mərkəz və soldan: Doğrudur, alqış). Başqa yerlərə verilən pullardan bu işə də bir qədər pul buraxılsa idi minlərlə kəndlərə təbib göndərmək mümkün olar idi və on minlərlə əhalimiz qırılmaz idi. Bunlar heyvan deyillər. Hökumətin sütunu bunlardır. Bizi də, hökuməti də saxlayan çöldür, çiftçidir... Kəndlərdə eylə əvamlıqdır ki, dostları ilə düşmənlərini tanımırlar. Hər kəs nə deyir, ona inanırlar. Maarif yox, dərman yox, təbib yox. Gələcək cəmaət buna çox diqqət etməlidir. Təbiblər orada dərman da verməz isələr, barı dil ilə özlərini hifz etməyi xalqa anlatsınlar. Yeni hökumət hamının rəyi ilə parlamentdən seçilsə və parlament qarşısında məsul olmalıdır. Keyfi istədiyi kimi idarə edən hökumət məmləkəti bərbad edər. Hökumət məsul olmaz isə vətənə mənfəəti dəyməz. Ona görə də məmləkətdə hökumət dəvam etdikcə, parlamentdə davam etməlidir. Hərçəndi ki, hökumət üçün bu iş çox çətin olacaqdır. Bu neçə ayda bizim parlamentimiz açıq olsa idi, çox sözlər danışılardı. Çox adam qırılmazdı. Adamın [61 - 62] qiyməti millətdən ötəri çox bahadır. Biz hökuməti ziyadəsilə tənqid etmək istəmirdik. Lakin indi xarici böyük məsələlər var ki, köhnə hökumət məsələlərinə o qədər irad etməyə vaxt qalmır, (keçən keçmiş) hər kəs öz insafı hüzurunda cavabdeh olsun, biz isə keçəni tənqiddən ziyadə, artıq gələcəyi düşünməliyiz. Gələcəkdə nə etməliyiz ki, irəliki kimi olmasın. Gələcəkdə hökumət parlament hüzurunda məsul olmalıdır dedim. Təbii hər bir iş qanunsuz,

parlamansız görülməməlidir. Qanun özü də bunu tələb edir. Əhalidən yığılan pullar: özlərinə xərc olunmalı. Hər nəzarət bir illik smeta tərtib verib, onun üzərinə para istəməlidir. Dəftərxanaya lazım olan xırda xərclikdən və irəlidə təsəvvür olunmayan məsarifdən başqa hökumət öz tərəfindən heç bir qanun qoya bilməz. Məsələn, sözsüz, qanunsuz iş aparmaq olmaz. (Mərkəzdən: Olmaz daş). Doğrudur, neçə müddətdir deyirlər ki, adam asılmaq ilə işlər düzəlməz (Soldan: asmaq düz deyildir). Məncə asmaq ilə camaatı düzəltmək olmaz. Məktəb və tərbiyə ilə düzəltmək olar. Heç vaxt allah verən canı bəndənin almağa haqqı yoxdur. (soldan: alqış.) Bunu ələlxüsus dindarlar bilməlidirlər. Özümüzü başqalarına doydürməmək üçün edam və cismani cəzalar ləğv edilməlidir. (Alqış). Məsələn, ingilislər buraya gələndə zopa vuracaqlarını elan etdilər. Bunun da səbəbi o idi ki, biz irəlidə zopanı çox yaxşı qanuni bir qərar, bir cəza hesab edirdik. Biz onlara belə qanun olmaz desək, nə üçün türklərdən zopa qəbul edirdiniz, bizdən də qəbul etməlisiniz deyəcəklər. Bunu anlamayanlar da bu altı aydı qanunsuzluq üzündən zopa dəydikcə bu qanun ləzzətini çox gözəl anladılar. (Alqış). Parlament vücudilə heç kəs asılmaz, hətta heç bir kimsəyə qanunsuz, istintaqsız həbs və təçziyə etmək olmaz. Fraksiyamız tələb edir ki, siyasi məhbuslar azad edilsinlər. Bunu təklif edib ittihad fraksiyası məzkur məsələsinin həlli üçün təyin edilmiş iclasa gəlmədi. Hər gün bir nəfər, iki nəfər komissiya üzvlərindən gəldi, qalanı gorünmədi. Axırda birisi o vaxt gəldiki, parlament iclası başlanacaqdı. Əlbəttə ki, böylə işlər yaramaz. Mənim təsəvvürümcə hökumətə təklif etməlidir ki, bu vaxtatəkin təqsirnamə verilməmiş olan məhbuslar bu gün buraxılsınlar. (Alqış). Bizim əsl fikrimiz millətlərin qardaşlığıdır. Binaən-ileyh biz rus demokratiyasını da [62 - 63] unutmamalıyız. Azərbaycan hürriyyətinə Rusiya demokratiyası böyük yardım etmişdir. Bundan əlavə yüz illərlə qonşu yaşayan rus, erməni, gürcü, yəhudi, polyak, xüsusən Şimali Qafqaziya demokratiyası ilə qardaşca dolanmalıydız. Bəylə mehribançılıq Azərbaycan hürriyyətini də möhkəmləndirər. Azərbaycan, Gürcüstan, Ermənistan arasında olan sərhəd məsələsi də həll edilməlidir. Məsələ üstündə bəzi anarxiya olur, qanlar tökülür. Bunlar həll edilməyincə bu qanlar kəsilməz. Bu barədə Qafqaziya millətlərinə də təklif edilməlidir ki, onlar bir araya gəlib bu ixtilaflı məsələləri həll etsinlər. Böylə olmaz isə bizim onların və ümumi Rusiyanın azad yaşamağına ümid yoxdur. Görürsünüz ki, cürbəcür bandalar baş qaldırıblar, cümhuriyyətimiz onların gözlərinə batır və tarixin geri qayıtmasına inanırlar. Amma mən deyərdim ki, onlar səhv edirlər, Nikolay getdi, gələsi deyil! (əlini sağ tərəfə uzadaraq) Qətiyyən ümidinizi kəsiniz! (Alqışlar). Yaşasın demokratiya! Axırıncı dəfə olaraq deyirəm ki, yaşasın Rusiya və Azərbaycanda yaşayan erməni, gürcü, rus və türk demokratiyasının qardaşlığı! (Sürəkli alqışlar).

**Sədr** — Söz Hümmət fraksiyası tərəfindən Şeyxülislamovundur.

**Şeyxülislamov** — Möhtərəm parlament əzası! Bu gün möhtərəm və səmimi revolyusionerlər üçün böyük gündür. Bu asılan bayraq o inqilabın atəşidir. (Alqışlar). Biz sosialistlər məramnaməmizin üçüncü maddəsində ümum millətlərin azadəliyini və qardaşlığını yazmış və şüarı bayrağımızda qaldırıb yürümüşük və yürüyürük. Mən üzümü o şəxslərə tuturam ki, bizi beynəlmiləlçilikdə müttəhim və millətə zidd hesab edirlər. Beynəlmiləlçilik ümum bəşəriyyətin azadə yaşaması və işləməsi deməkdir. (Alqış).

Biz deyiriz ki, millətin yaşaması mədəni və iqtisadi tərəqqi ilə ola bilər. Müsəlman qövmlərini o yerə yetirməliyik ki, başqaları da müsəlmanların varlığına və onun hüququnun olduğunu anlasınlar. İnqilab genişlənir. İnqilab atəşindən ruh veriləcək. Və bunun bizə köməkliyi var. Hüququmuzu əlimizdən almaq və bayrağımızı yatırmaq, istənilən müharibə meydanında birinci cərgədə biz sosialistləri körəcəksiniz. (Alqışlar). Bizim iki düşmənimiz var: biri xarici, biri də daxili. [63 - 64] Xarici düşmən o qədər qorxulu deyildir. Daxili isə xarici düşməndən qüvvətlidir. Bunlar Tomsonun yanına qaranlıq bucaqlardan keçib Azərbaycanı yıxmaq və milli müqəddəratımızı əlimizdən almaq istəyirdilər. (Sürəkli alqışlar). Biz sosialistlər Azərbaycan Cümhuriyyəti yolunda atdığımız addımları bir daha geri götürməyəcəyiz. (Alqışlar). Biz demişik ki, idarələrin fəhlə və kəndçilər sinfi iştirakilə təşkil edilən millətlər yaşayacaqdı. Cəmaət hökuməti işindən heç bir zaman kənar və bixəbər qalmamalıdır. İndi hamı millətlər bizim əsasları qəbul etmişlərdir. Almaniya imperatorluğu da yıxılıb demokratik şəklinə düşmüşdür. Və eşitdiyiniz Vilson prinsipləri, Vilsonun deyil, bütün dünya sosialistlərinin prinsipidir. (Alqışlar). İnsan bu cərgəyə daxil olmaq üçün bir sinfə malik olmalıdır. İndi bizə nəsil, sənət lazımdır ki, insanlar cərgəsinə daxil olaq. Cümhuriyyət inama daxil olmaq üçün bu yolda çalışdıq, şəxsi mənfəətlərdən ötəri bizləri millətə düşmən hesab edənlər milli komitəni dağıtdılar. Onların səhvi məsum oldu. Çox təəssüf olsun ki, erməni qonşularımız parlamentimizdə iştirak etmirlər. Biz yenə ruhumuzu sındırmamalıyız. Çünki, bir millət ruh sağlamlığı sayəsində yaşar. Ən əvvəl əmələ və fəhlələrin hüququ həll olunmalıdır. Bu barədə sağda oturan firqəni təbrik edəcəyiz ki, vəzifəmizi yüngülləşdirdilər. Ümidvaram ki, daha sağdan gələnlər təzə proqramları ilə vəzifəmizi daha yüngülləşdirəcəklər. (Soldan alqış). Fəqət, bu proqramlar kağız üzərindən həyata keçirilməlidir. Biz fəhlələrin hüququnu müdafiə edirik. Zira iqtisadi cəhətdən qüvvətli olan bir millət yaşaya bilər. Millətpərəstlər millətindən ötəri çalışırlar. Böylə isə əmələ və kəndlilərə hamıdan çox kömək verməlidirlər.

Məndən irəli nitq söyləyən arkadaşım unutdu, desin ki, bütün millət azad olmalıdır. Millətimizin yarısını təşkil edən qadınlar qul sifətindədirlər. Biz onlara insan surətində baxmalıyız. (Sürəkli alqışlar). Millətin yarısı işləyib, yarısı işləməsə o millət çolaqdır. Üzərinə heç bir xeyir yetirə bilməz. Bu gün qadınlarımız gələcək

övladlarımıza tərbiyə verməkdədirlər. Əgər onlar azadə olmasalar dövlət və vətənimizi [64 - 65] müdafiə edən azad fikirli övlad dəxi yetirə bilməyib, özləri qul və əsir insanlar yaradarlar. (Alqışlar).

Torpaq və fəhlə məsələsi burada həll olunmayacaqdır . Biz ancaq "Seym"də həll olunan müəyyən məsələləri icraya qoymalıyız. Fəhlə məsələsində müştərək müqavilə (kollektiv doqovor) payidar olmalıdır. Mövcud ali imarətlər tikilib rahatlanmağımıza bais olan fəhlələrə köməklik edib, tezlik ilə onları aclıqdan qurtarmalıyız. (Alqışlar). Biz ümumi seçki əsasilə bu tezlikdə Məclisi-Müəssisan çağırılmasını tələb edəcəyik. Özgə millətlər ilə əlaqəmizə gəldikdə deyə bilərəm ki, "qardaşlıq ilə bir-birini anlamaq" sözlər yazılmış olan beynəlmiləl bayrağı altında gedənlərin məqsədi, rəyi məlumdur. Biz bu yolda durub və məqsədimizə nail olacağımıza da ümidvariz. Bir neçə söz də sosializm haqqında soyləməliyəm. Deyirlər ki, sosialistlər dovlətli: əri və mülkədarları qırmağa dəvət edirlər. Mən bu mənbəri-alidən deyirəm ki, bizlər bəylər və dövlətlilər ilə mübarizə etmirik. Torpaqdan və ziraətdən mənfəətbərdar olmaq üçün mülkədarlıq və sərvətdarlıq əsası ilə mübarizə etmişik. Biz tokülmüş mülkədar qanlarının axıdılmasına nifrət və etiraz ediriz.

Qadınlar məsələsində bir şeyi unutmuş idim. Gərək bir qanun verilsin ki, o qanun üzrə hər kişinin bir nəfər[dən] artıq [arvad] almağa ixtiyarı olmasın. (Gülüş, alqış).

Gələcək hökumətdən tələbimiz bunlardır:

1). Hökumətə daxil olanlar Azərbaycanın istiqlalını müdafiə etməlidir.

2). Hökumət zor ilə deyil, qanun ilə iş görməlidir.

3). Bu hökumət məclisi-müəssisan qarşısında məsul olmalıdır.

4). Hökumət əcnəbi siyasi ilə əlaqədar olmalıdır.

Bu barədə indiki hökumətdən biz narazıyıq ki, indiyə qədər Avropa ilə münasibət peyda etməmişdir.

İstiqlalımıza inanmayanlar hər firqədən olsalar da hökumətimizə daxil olmamalıdır. (Alqışlar).

Yaşasın, Azərbaycan Cümhuriyyəti, Gürcüstan, Ermənistan cümhuriyyətləri, Şimali Qafqaziya cümhuriyyəti və millətlərin qardaşlığı!... (Alqışlar). [65 - 66]

**Sədr** — Söz sosialistlər ittifaqı tərəfindən Əhməd Cövdət əfəndinindir.

**Əhməd Cövdət** — Əfəndilər! Müsəlman sosialistlər ittifaqı və demokrat "Hümmət" firqəsi tərəfindən yoldaşlarımız Səfikürdski və Şeyxülislamov tərəfindən müfəssələn bəyan edilən nöqteyi-nəzərini aşağıdakı deklarasiyon şəklində yetirmək niyyətindəyəm. Biz sosialistlərin parlamentə girməkdə məqsədimiz parlament ideyasına və məclisi-müəssisanın tezlik ilə çağırılmasını bu kürsüdən müdafiə etməkdir. Bu məqsəd ilə biz hökumətin yürüdəcəyi siyasət haqqında şu surətlə bəyan ediriz. Firqə və fraksiya nümayəndələrindən mürəkkəb və müştərək bir hökuməti qəbul edir və onun proqramına demokratik əsaslara müvafiq olmasını arzu ediriz. Gələcək hökumətin əvvəlinci vəzifəsi Azərbaycan Cümhuriyyətinin istiqlalına bütün qüvvəsilə müdafiə etməkdir. Biz inanırıq ki, Azəri türklərinin istiqlalı təin və təsdiq olunandan sonra "yalançı millətçilik" ortadan çıxar və şimdiki əsrin məhsulu olan sinif ayrılığı və sinif mübarizəsi qolaylıqla bizim də camaətin içinə girər ki, bu da ümumi demokratiyanın xeyrinədir. (Alqış). Fəqət istiqlaliyyəti mühafizə etmək öz kabinetinə girib də qapanmaq deyil, bir çox tarixi, mədəni və ən ziyadə ekonomik əsaslar Zakafqaziya millətləri və cumhuriyyətləri və əski Rusiya torpağı üzərində əmələ gələn hökumətlərini biri-biri ilə sıxı münasibətdə bulunmaya məcbur edir. Buna binaən biz Zakafqaziya cumhuriyyətlərini bir-birilə həm siyasi və həm də iqtisadi cəhətdən sıxı bir münasibətdə bulunmalarını arzu ediriz.

Bundan əlavə Rusiyada əmələ gələn müstəqil parçaların bir-birilə yaxınlaşıb da hər tərəf üçün mənfəətli ittifaq yapmağın da tərəfdarıyıq. Xarici siyasətimizi gözdən keçirdikdə qonşularımız ilə olan münasibətlərimizin heç də yaxşı olmadığını, Avropa millət ve dövlətləri ilə lazım olan münasibətə girilmədiyini görürüz. Şimali Qafqaz cumhuriyyəti ilə sıxı münasibətin saxlanmasını arzu edəriz.

Bizə dost və mehriban olan demokratik Gürcüstan Cümhuriyyəti ilə siyasi, iqtisadi ixtilafların bərtərəf edilməsini, ixtilaflı məsələlərin ədalət üzrə həll edilməsini və tez bir zamanda ən səmimi münasibətin qurulmasını arzu edəriz. Yaxın [66 - 67] qonşumuz olan Ermənistan Cümhuriyyəti ilə şimdiyə qədər heç bir münasibata girilməmiş və mövcud olan münasibət isə pək gərgin, heç dostanə deyil, halbuki, hal və vəziyyət bizim ilə Ermənistan arasında həqiqi dostluğun bərpa edilməsini tələb edir. Bu iki cümhuriyyətdə yaşayan millətlər ən ziyadə ermәni və türklərdir. Əgər bu hökumətlər arasında hüsnümünasibət olmaz isə, orada yaşayan millətlərin arasında da dostluq olamaz. Və əksinə orada həll edilməmiş ərazi məsələsi vardır. Böylə ixtilaflı məsələrin silah gücüylə həll olmayacağını qət edib anlaşma və uzlaşma ilə həll etməyə çalışmalıdır. Buna görə biz hökumətdən Ermənistan ilə sıxı münasibata kirişməsini və cumhuriyyəti ilə ən dostanə münasibətin vəz edilməsinə çalışmasını tələb edirik.

Başqa hökumətlər ilə münasibat peyda etmək üçün oraya parlament heyətinin göndərilməsini münasib görürük. Daxili işlərimizə keçdikdə biz əvvəl bütün böyük və əhəmiyyətli işlərimizi həll etməyə haq və səlahiyyəti olan məclisi-müəssisana dörd əsaslı üsul üzrə tez bir zamanda çağırılmasını tələb edirik. Bu işin parlament kəndi əlinə almasını istəriz.

Şimdiyə qədər bu məmləkətdə qanuni bir həyatın olmadığını, keyf və təzyiqin, xüsusən ayrı-ayrı cərəyanlara və millətlərə qarşı hökm sürdüyünü etiraf ilə gələcək hökumətdən daxildə qanun dövrünün qurulmasını və

inqilabın fütuhatından olan cümlə hürriyyətləri ifadə edilməsini tələb edəriz. Mart və sentyabr hadisatını istintaq etmək üçün xüsusi bir parlament istintaq komisyonunun seçilməsini və qeyri siyasi firqələr ilə bu yolda işlənməsini lazım biliriz.

Qəvi bir hökumət olmasını arzu edəriz.

Fəqət, biz bunu inqilabdan əvvəl mövcud olan müəssisələrin yenidən qurulması ilə, köhnə adları dirildib, köhnə formaları ifadə etməkdə görmürük. Köhnə idarə bütün boşluğumuzu göstərdi. Onun dalınca qaçmaq həyati anlamamaqdır. (Alqış). Biz idarələrin camaata yaxın olmasını, camaata etimad etmiş istəriz.

İdarələrdə bulunan bir çox yaramaz üzvlərin kənar edilməsini və sağlam bir idarə qurulmasını tələb ediriz. (Alqış). Bu axır illərin bütün ağırlığı ən ziyadə fəhlə və kəndlilə-rin boynuna düşmüşdür. Bunların halı pək ağır və pərişandır. [67 - 68] Buna görə də bu siniflərə yardım etmək gələcək hökumətin borcudur. Bütün Azərbaycanda 8 saatlıq iş müddəti qəbul olunmalıdır. Şimdiyə qədər inqilab əsasında fəhlələr ilə yapılan müşahidələr kəndi qüvvətini saxlamalı və fəhlə məssisələri və təşkilatları yapmaq üçün heç bir müavinət olmamalı və qeyri-maddi yardımlarda bulunmalıdır.

Torpaq qanunu daha Zaqafqaz "Seym"ində bütün müsəlman fraksiyalarının iştirakı ilə qəbul edilmiş, şimdiyə qədər hökumət onu tətbiq etməmişdir. Biz təklif ediriz ki, torpaq komitələri təşkil olunsun və qəbul olunmuş torpaq qanunu tətbiq olunmaya başlansın.

Camaat təşkilatlarının artması üçün bütün qüvvətimizi sərf etməliyiz və bunun üçün köhnə qəbul olunmuş "Zemstvo" qanunu tezlik ilə tətbiq etməli və zemstvo təşkilatlarının tezliklə vücuda gəlməsinə çalışmalıdır. Mövcud olan hökumət müəssisələri pək çox, pək böyük və pək də ağırdır. Bu müəssisələrin bəzilərini qaldırmaq və çoxlarının imtiyazlarını azaltmaq lazımdır. Camaat bu ağır və bahalı idarələrə tab gətirə bilməz. İdarələri yüngülləşdirmək və ucuzlaşdırmaq lazımdır.

Maliyyə işlərimiz pək qarışıq və dolaşıqdır. Gələcək hökumət bu işləri düzəltmək və sistemə qoymaq məcburiyyətindədir. Daxildə ticarəti canlandırmaq üçün iqtisadi müşahidələr yapmalı və hüdudlarımızı açmalıyız. Müdafiə edəcəyimiz məsələlərdən biri də qadınlarımızın haqq və səlahiyyəti kişilər ilə bərabər olmaqdır. (Alqış). Bizim qənaətimiz budur ki, iştə bu əsasların qəbul və tətbiqi cumhuriyyətimizi ağır günlərdə aydınlığa çıxarar. Bu yolda Azərbaycanın zəhmətkeş kəndi və fəhlələrinin bizə yardımçı olacaqlarına inanırız.

Yaşasın Azərbaycan Demokratik Cümhuriyyəti!

Yaşasın Qafqaz millətlərinin dostluğu!

Yaşasın cəmiyyəti-əqvam!

Yaşasın sosializm!

(Şiddətli, sürəkli alqışlar).

**Sədr** — Söz "İttihad" firqəsi tərəfindən Qara bəy Qarabəyov əfəndinindir.

**Qara bəy** — Azərbaycanın müxtəlif kuşələrindən təşrif gətirmiş olan camaat nümayəndələrini təbrik etməklə bərabər [68 - 69] "İttihad" firqəsi hakimiyyəti-milliyyə ideyasının (yəni millətin öz üzərinə hakim olmaq üsulunun) qismən isə vücudə gəldiyi üçün bəyani məmnuniyyət edər. Zira zənciri-əsarət altında yaşayan müsəlman millətinin hüququnun müdafiəsi çün ixtiyar etdiyi mübarizədə firqə daima bu məqsədi tətbiq etmiş idi. Lakin şəraiti siyasiyyə hazırda da nəşət edən müşkülat qarşısında şu parlamentin surəti-təşkilini firqə idealına tamamilə təcəssüm edəməz. Məamafiyə üzərində Azərbaycan bayrağı tümuc edən və əsas etibarilə hər bir müsəlman üçün müqəddəsədd edilməsi lazım gələn bir müəssisədə bizlər firqə və sinif mənfəətinin müdafiəsi üçün deyil, milləti təşkil etmək üçün toplanmışız. Onun üçün də ən qərib bir zamanda burada demokratik üsul ilə intixab edilmiş əsl Məclisi-Müəssisan üzvlərinin ərseye vücud etmələrini mütalib və məqasidimizin müqəddəsi kimi tələqqi edəriz. Bu arzumuz vücud bulduqca və Azərbaycan millətinin təkmil hüququ kəndinə təslim edilməyincə bu ideyanın vücudi-nazir olması yolunda möhtərəm Rusiya demokratiyasının əlilə qazanılmış və bizə ehsan edilmiş qənimətləri, vətən düşmənlərilə etdikləri müharibədə müsəlmanların özlərinin tökdükləri qanlar müqabilində əldə etmiş olduqları həqqi firqə bütün qüvvətilə müdafiə və mühafizə edəcəyini bəyan edir. O haq isə Azərbaycanın istiqlalıdır. Yəni başımızın üstündə əməvvüc edən günə, gün rəngli milli sancağımızdır. İştə bunları firqə təhti-təsərrüfinə olan bütün vəsait qüvvətilə hər dürlü tərizdən üstün tutmağa əzm etdiyini ələnən iqrar edir. Firqənin zənnimcə Azərbaycan millətinin bu haqqına demokratik ünvani və qəlbin daşıyan heç bir fərd etiraz edəməz. (Sağdan alqış). Məgər ki, batində onun ruhi səltənəti mutləqə (velikoderjavi)yə mərəzilə məlul olmasın və bir milləti digər millətin təhkimi altında yaşatmaq meyli mənhüsəsinə qapılmış olmasın. (Sağdan alqış). Bu yollu ictihadında firqə demokranın yalnız rəğbəti deyil, hətta ciddi müavinətinə ümid ediyor. Fəqət ümum demokratiya deyil yalnız bunların o qisminə etimad edir. Hanki ki, millətlərin kəndi-kəndlilərinə hakim olmaları xüsusunda namuskaranə və səmimanə hərəkət edir və müsəlman əksərinin haqqını inkar və ləğv edərək, onun səadət və istiqlalını öz [69 - 70] qövminin ən cüzi bir mənfəətinə qurban etmək əməlini bəsləmir.

Ayaqlar altında əzilən millətlərin xilası naminə vaqe olmuş milyonlarca qurbanlara, milyardlar ilə paralara mal olan və Amerikanın böyük övladı (Vilson)un 14 maddəsini meydani-tədavülə çıxaran bu çahan müharibəsi nəticəsində ümum mədəni millətlərə nəsib olan həqlərdən müsəlman millətini məhrum qılmaq niyyətini

bəsləməyən sadiq və həqiqi demokratları firqə özünün ən yəqin və mötəbər dost və arkadaşı tanımaq istəyir. (Sağdan bir nəfər alqış). Və bunlar ilə əl-ələ verib müttəfiqən salışmağı da hər kəsə tərcih edir. Fəqət əsl Azərbaycan istiqlalının zikrinin belə bəzi adamları öyrətdiyi kimi müsəlmanlara qarşı bəzi mühafildə və hüsnü-xüsumat oyandırdığı anlaşılır.

Bu isə firqə təvaccöhünü mocib olacaq bir əmrdir. Rusiya inqilabı kəbirini mütəaqib tarix nəzəri-tədqiqindən keçirilir isə hər kəsə Azərbaycanın elani-istiplal etmək keyfiyyəti layiqincə təqdir edilə bilər. Rusiyada vaqe olan anarxiya mərkəzi hökumətin büsbütün aradan qaldırılması, Rusiya ilə əlaqənin bilmərrə kəsilməsi, hərci-mərcin Qafqaziyaya sirayət edib, burada daha müdhiş bir tufan və fırtına peyda etməsi. Müsəlman aləmini əzim fəlakətlərə düçar etdiyi hər kəsçə məlum və inkar edilməz bir həqiqətdir. O halda tədarüksüz və aciz olan müsəlman millətini bilkülliyyə məhv etməyə əzm etmiş olan düşmənlərin qarşısında bizim yeganə çarəmiz elani istiqlal etmək ələləbəd mədyun olacağımız, həmcinslərimiz və sevgili qardaşlarımızın müavinətinə müraciətlə təhlükədə olan müqəddəratımızı öz əlimizə almaq və istiqlalımızın təmininə müstəqilən çalışmaq ola bilirdi. (Sağdan yüngül alqış).

Elani-istiqlal ilə də millətimiz iktifa edəməz idi, çünki vətənimizin ən mühüm qəmləri düşmən əlində idi. Vətəni istibdad üçün yenidən qurbanlar vermək və övlad qanı tökmək lazım gəlir idi. Bu halların cümləsini nəzəri-etibarə alan, insaf əhli Azərbaycan istiqlalının bizim üçün zəruri bir əmr olması keyfiyyətini bila tərəddüd qəbul etmək məcburiyyətində qalır. Bu xüsusda bizə qarşı ibrazi-xüsumət edən taqımın qətiyyən ədalət və məntiqlə münasibəti olduğuna hökm edər. [70 - 71] Qonşumuzda bizim kimi daha müstəqil dövlətlər vücuda gəlmişlər və onların da əsbabi hədəfi yuxarıda zikr etdiyimiz maddələrdir.

Gürcüstan, Ermənistan və Şimali Qafqaziya cumhuriyyətləri bizim fikrimizi müəyyəd və təsdiq edir. Bu dövlətlərdə öz varlıqlarını isbat etməkdə davam edirlər və qan bahasına qazandıqları istiqlaliyyət və təyini-müqəddərat haqlarını əldən verməyəcəklərini elan edirlər. Kəndi müqəddəratını təyin etmiş olan qonşularımız gürcü, erməni və Şimali Qafqaziya millətlərinin bu yolda əfkar və amalının tamamilə bizimkinə müşabeh olduğuna inandığı üçün firqəmiz bunları Azərbaycanın xeyirxahı və müqəddəs vətənimizin hürriyyətinin müdafiəsi naminə ixtiyar etdiyimiz mübarizədə cəhr və yoldaş, ədd edib bunlar ilə sıxı münasibət və rabitə əqdini iltizam ediyor. (Sağdan yüngül alqış). Əlan müdafiə etdiyimiz möhsünatı bizə bəxş etmiş olan Rusiyanın müəzzəm demokratiyasına firqəmiz daha çox inanır və bilir ki, Rusiyanın həqiqi demokratları müsəlman millətini özlərinə küçük və mədyun qardaş nəzərində görüb və onun haqqına heç bir vaxt təcavüz etmək istəməzlər. (Soldan, sağdan yüngül alqış). Şu beş sənəlik cəsim mübarizəni zəlil millətlərin xilası naminə vaqe olmuş müharibə adlandıran, imperializmin ən qəvi istinadkahı olub, cəbr, zülm və əsarətin mənbə və məbdəi olan Prusiya militarizminin rişələrini qıran etilaf dövlətlərinə firqətimiz hakəza inanır və elə bir qənaət hasil etmişdir ki, imdilik ümum millətlərin müqəddəratlarının hakimi olan hürriyyət beşiyi ədd edilən İngilis, Firənkistan və Amerika məmləkətlərində pərvəriş bulmuş olan millətlər mədəni, hürr və parlaq həyatə hərəkət etdiyimiz bir yola bizə sədlər qurmazlar , sülh konfransına qədər əmin və asayiş içərisində yaşadığımıza və əqd ediləcək sülh fonransında hüququmuzu müdafiə üçün iştirak etməyimizə mane olmazlar. Digər məsələlər keçər ikən firqəmiz əvvəlcə Azərbaycandakı millətlər münasibətindən bəhs etməyi lazım bilir. Bu məsələnin böyük əhəmiyyəti vardır.

Milliyyət münasibatı, daha doğrusu müsadimatı bizim başımıza çox qayiələr gətirmişdir. Və indi də bir çox müşkülat çıxarır. Firqənin qərarı qonşular ilə möhkəm bir sülh istehsalına [71 - 72] çalışma və bu yolda heç bir fədakarlıqdan çəkinməyib elə bir şərait yaratmaqdır ki, istibdad və şovinizm xadimlərinin təhrik və təşviqilə mükərrər vücuda gələn və hər iki tərəfi də biməna və mühüm xəsarətə uğradan bu hadisələrin artıq meydan almasına imkan qalmasın. (Alqış). Firqə bu ictihadında da yenə namuskar və həqiqi demokratların müavinətinə göz tikmişdir. Çünki səmimi əxəvatın tərəfdarı yalnız bunlar ola biləcəyinə firqənin qənaəti vardır. Zəhmətkeşlər məsələsi: Firqə üçün dəxi mühüm bir maddə təşkil edir. Bu xüsusda firqə tamamilə menşeviklərin proqramını qəbul etmişdir. (Alqış). Və geniş bir dairədə fəhlələrin səadətini təmin etməyə səy edəcəkdir. Yalnız iş və sənaye aləmində anarxiya və keyfi mayəşdə meydan verməmək üçün sərmayə ilə cəmaət miyanında vaqe olan mübarizənin qanun üsuluna tabe olmasını tələb edir.

Xüsusi əmval və əmək firqənin nəzərində hər dürlü tərifdən müsəmməldir. Torpaq məsələsində ümmum rəncbərlərin hər bir çalışqan fərdinə müsavi miqdarda və dərəcəyi kafiyədə xəzineyimiri hesabına məccanən ərazi verilməsini firqə tələb edir. Maliyyə işində firqə gəlirlərindən doğru bir vergi alınmasının və birinci lazım olan şeylərdən komisyonnı naloq adlanan xərc alınmasının tərəfdarıdır. Qəhətlik və bahalığın önünü almaq üçün firqə ticarətin bilkülliyyə sərbəst olmasını, yolların bilatəxir təmirini tələb edir, ərzaq məsələsinin qorxunc bir halda olduğu üçün bu babda ciddi tədabirin dərhal ittixaz edilməsi və möhtəkirlər haqqında şiddətli qanunlar və cəzaların icra edilməsini tələb edir.(Alqış).

Məmləkət sarı mərəzə tutuşmuş olduğundan sahibsiz cəmaətin səlaməti üçün meydanda heç bir təşəbbüsün görüldüyü müşahidə edildiyindən, bu xüsusda səhiyyə müəssisələrinin ciddi surətdə ibrazi fəaliyyət etməsini qəti surətdə tələb edir. (Alqış).

Maarif haqqında firqə ümumi məcburi, rüşdü və ibtidai məktəblərdə məccani tədrisin və məktəblərin cümləsinin milli olmasının tərəfdarıdır.

Bələdiyyə idarələri və zemstvo təşkilatı demokratik üsuluna tabe olmalıdır. ( Sağdan alqış). [72 - 73]

Dövlət təşkilatına gəlincə firqə cumhuriyyət tərəfdarı və bir müəssiseyi-təşriyyə və buna qarşı məsul qüvveyi-icraiyyə olmasını tələb edir. Hökumət mümkün olduqca ucuz və sadə olub klasnıları üsulixəfif və məhdud olmalıdır. İntixab ümumi, dofu, gizli və müsavi, hər bir təşkilatda cari olmalıdır.

Ümum əhali qanuna qarşı müsavidir. Milliyyət və sinif fərqi yoxdur.

Əqliyyəti təşkil edən qövmlərin haqqına təcavüz edilməmək üçün hər dürlü intixabatda qövmlərin miqdarı nəzərə alınıb, hər birinin miqdarinə nisbətən yer veriləcəkdir. Erməni və müsəlman arasında indiyə kimi dəvam edən xüsumatın səbəbləri işhas dəstələrə bu iki milləti bunca xəsarət, tələfat və qailərə düçar edən amillərə izharinifrət edər. Bu babda mükəmməl surətdə təftiş və istintaq qurmasını məsum müsəlmanlar və ermənilərin başına bu rəzalətləri gətirən canilərin şiddətlə cəzalanmaları, zərərdidələrə geniş dairədə yardım olunmasını, dağılmış şəhərlər və köylərin təcdid və təmirini tələb etməklə bərabər firqə gözəl Qafqaziyanın övladına belə vəhşilik və qan içicilik xasiyyətini əbədən tərk etməyi təklif edir. (Sağdan yüngül alqış). Və insan şəklində olan vücudların cümləsini qardaş və insan tələqqi etməyə dəvət edər. İnşallah ki, mədəniyyət və hürriyyətin qabili-inkar olmayan nişanəsi olan şu mübarək müəssisə və məclis bu yolda kəfil və zamin olub bizim sevgili vətənimiz və millətimizi hidayət və səlamətə doğru sovq etməyə istedad və iqtidarə malik olduğunu surətlə ibraz edər. (Sağdan alqış).

Hökumətimizin hərəkət və fəaliyyətinin şəyani-tənqid bir çox noqtələrinin movcud olduğunu indilik ixtar etməklə iktifa edərək bu babda münasibət bir zaman iradi kəlam edəcəyini firqəədd edib bəyannaməsinə keçir. (Sağdan yüngül alqış).

**Sədr** — Söz əqəliyyət təşkil edən millətlərdən slav-rus cəmiyyət nümayəndəsi Vinoqadovundur.

**Sədr** — Fraksiyalar və əqəliyyət təşkil edən millət nümayəndələri tərəfindən oxunan və soylənən bəyannamələri dinlədiniz. "Müsavat" firqəsi tərəfindən belə bir təklif vardır. Bütün fraksiyaların bəyanatını eşitdikdən sonra Azərbaycan Məclisi-Məbusanı rəyasət vəzifəsini ifa edən rəis müavininə [73 - 74] tapşırır ki, hökumət təşkil etmək üçün kəndi mülahizəsinə görə bir rəis dəvət edib təsdiqini (gələcək) heyəti-vükəla təşkilini məzkur rəisə təklif eləsin.

(Sədr bu formulanı rus dilinə tərcümə edir).

**Sədr** — Bu təklif, etiraz edən yoxdur ki?

**Səslər** — yoxdur.

**Sədr** — Demək bu təklif ümumiyyətlə qəbul olunur.

**Məmməd Əmin Rəsulzadə** — Təklif edirəm məclis rəisinə ixtiyar verilsin ki, Azərbaycan parlamentinin açılması xüsusda bütün cahan parlamentlərinə və qonşumuz Şimali Qafkaziya, Gürcüstan, Ermənistan parlamentlərinə bir teleqram çəksin.

**Sədr** — Bu təklifə etiraz yox isə qəbul olunur.

Məclisi qapamadan əvvəl rica edirəm ki, parlament olan fraksiyalar öz rəislərini heyəti rəyasətə xəbər versin. Bundan əlavə tərtibat və ləvazimat komisyonunun sabah saat 12-də iclası dəvət edilir, etibarnamələri təhqiq və təsdiq etmək üçün etimad komisyonu parlament işlərini təxirə salmamaq üçün tezliklə işə başlasın. Kələcək məclisin gününü və saatını təin ediniz.

**Məmməd Əmin Rəsulzadə** — Mən təklif edirəm ki, məclisin dəvəti rəyasətə mühəvvəl olunsun, məclisin dəvəti lazım olduqda elan etsin.

**Sədr** — Bu təklifə etiraz yoxdur, qəbul olunur.

İclas saat 4-ün yarısında qapanır.

**Arxiv: f. 895, siy. I, nş. 1, vər. 12-21.**

**№ 3**

**Üçüncü iclas**

*15 dekabr 1918-ci il.*

İclas saat 1 tamamda Həsən bəy Ağayevin sədarəti və Əhməd Cövdət bəyin katibliyi ilə açılır.

**Sədr** — Rica edirəm yerinizi tutasınız. Ruznameyi-müzakirata aşağıdakı məsələlər qoyulmuşdur: [74 - 75]

1). Daxil olan kağızlar; 2) Etibarnamə komisyonunun məruzəsi; 3) Tərtibat və təzminat komisyonunun məruzəsi; 4) Heyəti rüsayə baş katib seçilir; 5) Büdcə komisyonu intixabi; 6) Fəhlə komisyonu intixabi; 7) Məclisi-müəssisan dəvəti üçün intixabat qanunu verəcək komisyon seçkisi.

Hərgah bu qaydaya etiraz yox isə qəbul olunur. Etiraf yoxdur ki? Deməli qəbul olunur.

Şimdi teleqramları oxuyalım. Teleqram çox gəlmişdir. Bir neçəsini oxumaqla iktifa edəcəyiz. Oxuyur:

Şamaxı müsəlmanlarından, birinci Azərbaycan topçu zabitanından, Şamaxı qəzası malikanlarından, Şamaxı qəzası ermənilərindən varid olan teleqramları oxuyur. Bir də əhraf fraksiyasından bir məktub gəlmişdir, məzmunu belədir.

Parlament sədri hüzuri-alilərinə! Əhrar fraksiyası tərəfindən aitdə əsamisi məzkur zatlar parlament komisyonlarına intixab edildi. Ləvazim komisyonuna Hacı Molla Əhməd Nuruzadə, etimad komisyonuna Abdulla bəy Əfəndizadə, intizamat (nakaz) komisyonuna Hacı Hüseyn Əfəndizadə göstərildi.

Söz etimadnamə komisyonu məruzəçisi Məhərrəmova verilir.

**Məhərrəmov** — Parlament təşkili barəsindən şurayi milli tərəfindən verilmiş qanuna görə parlament milli şura əzasından, ictimai müəssisələrdən və qəzalardan göndərilmiş nümayəndələrdən təşkil edilməlidir. Milli şura əzası bu xirqələrdən ibarətdir: Hümmət, İttihad, Müsavat, bitərəflər və sosialistlər ittifaq fraksiyalarından.

**Etimadnamə komissiyonunun məruzəsi:**

Dörd fraksiyadan mütəşəkkil sabit Azərbaycan milli şurası tərəfindən bu günə təkin parlamentə əza sifətilə daxil olmuş əşxas barəsindən ancaq hümmət və Sosialistlər ittifaqı tərəfindən siyahı verilmişdir. Müsavat, İttihad və bitərəflər fraksiyaları tərəfindən etibarnamə komisyonuna hələlik siyahı daxil olmamışdır. Bakı şəhər idarəsi tərəfindən intixab edilmiş 5 əza ki, ibarət olsuq Qara bəy Qarabəyov, Ağazeynal Tağıyev, Ağa Aşurov, Ağabəy Səfərəliyev və Əliağa Həsənov cənablarının etimadnamə və protokolları [75 - 76] düzgün və qanuna müvafiq olduğundan etibarnamə komisyonunu qəbul və təsdiqini təklif edir.

2). Əqəliyyət təşkil edən millətlərə Bakı şəhərində mövcud cəmiyyətlərdən parlamentə intixab edilmiş əza: alman milləti tərəfindən Lorens Kun, lehlər tərəfindən Stanistlav Vanseviç, gürcü milli şurası tərəfindən Tsixokaya, yəhudi milli şurası tərəfindən doktor Koxman etibarnamə protokolları qanuna təsdiqini təklif edər.

3). Qafqaziyada Slav-rus cəmiyyəti tərəfindən parlamentə 5 əza göndərilmişdir: Vinoqradov, Mixaylov, Kravçenko, Kolesnikovski və Ollenqron. Bunların etimadnamələri Qafqaziya milli şurası tərəfindən olduğuna binaən və seçki protokolları olmadığından etimadnamə komisyonu qərara almışdır ki, yuxarıda adları zikr olunan əşxasa təklif olunsun ki, seçki protokolu və Azərbaycanda işləyən şura tərəfindən etibarnamə təqdim etsinlər. O vaxtadək onların təsdiqindən çekinilsin.

4). Bakı ticarət və sənaye ittifaqı tərəfindən: Yusif Əhmədov, Bakı neft mədənçilər sovet syezdi tərəfindən Mirzə Əsədullayev intixab edilmişlərdir. Bunların etibarnamələri qanuna müvafiq və düzgün olduğundan qəbul və təsdiqini parlamentə təklif edər.

**Bakı vilayətindən intixab edilmiş üzvlər:**

1). Quba şəhəri tərəfindən Quba sakini Murtəza Axundov, Quba qəzası tərəfindən Həmdulla əfəndi Əfəndiyev və Əli bəy Zizikski, etibarnamələri qanuna müvafiq və düzgün olduğundan təsdiqi təklif olunur.

2). Salyan şəhər tərəfindən və Cavad qəzasından Baxış bəy Rüstəmbəyov və Rəşid bəy Axundzadə intixab edilmişlərdir. Bu günəcən etimadnamə və seçki protokolları gəlmədiyindən təklif edilməməlidir, bu barədə həmin şəxslər təşəbbüsatda bulunsunlar.

3). Göyçay şəhəri tərəfindən Sadıx bəy Ağabəyov və qəzasından Hacı Hüseyn Əfəndiyev intixab edilmişlərdir. Etimadnamələri qanuna müvafiq və düzgün olduğundan təsdiqi təklif edilir. [76 - 77]

4). Şamaxı şəhəri tərəfindən Şeyxəlibəyov şurayi-milli tərəfindən intixab edilmişdir. Şamaxı qəzası tərəfindən əza intixabi haqqında bu vaxta qədər bir xəbər gəlməmişdir.

5). Lənkəran şəhər və qəzası haqqında hələ bir xəbər gəlməmişdir.

**Gəncə vilayətindən:**

1). Gəncə şəhəri tərəfindən Əbuzər bəy Rzayev, Gəncə qəzası tərəfindən Hacı Əli Qasım oğlu və Hacı Molla Əhməd Nuruzadə, seçki protokolları qanuna müvafiq tərtib olunub. Etibarnamələri isə nahiyyə müdiri tərəfindən verildiyindən təsdiq olunması parlamentə mühəvvəl edilir.

2). Qazax qəzasından Hacı Kərim Saniyev intixab edilib, etibarnaməsi qanuna müvafiq olduğundan təsdiqi təklif edilir.

3). Cəbrayıl qəzasından Bəhram bəy Vəzirov seçilmişdir. Etibarnaməsi qanuna müvafiq olduğundan təsdiqi təklif edilir.

4). Şuşa şəhəri qəzası tərəfindən Ağdamdan milli şuraya Qara bəy Əliverdiyev cənabları intixab edilmişdir. Etibarnamə və protokol nahiyyə naçalnikinin hüzuruna da və onun imzası ilə verilmiş olduğundan əlavə olaraq bu xüsusda material təqdimi təklif olunur. Fəqət müvəqqət olaraq təqdim edilən, kağızlar isə iktifa etməkdə məqbuldur.

5). Şəki şəhər idarəsi tərəfindən Abdulla bəy Əfəndiyev və qəza tərəfindən Qərib Kərimov intixab edilmişlər. Etibarnamələri düzgün olduğundan təsdiqləri təklif edilir.

6). Ərəş qəzası tərəfindən Ağdaşdan Əşrəf Tağıyev və uyezdindən Cəmil Süleymanov etibarnamələri olmayır, seçki protokolları da bütün-bütünə müğayir olduğundan mandat komisiyası təklif edir ki, əvvəla bunlar etibarnamə və qanuna protokol təqdim edənədək təsdiqlərindən çəkilmək təklif olunur.

7). Zakatala nahiyyəsi tərəfindən Bayram Niyazi Kiçikxanov etibarnaməsi qubernator tərəfindən imza edilmişdir və şurayi-milli tərəfindən seçki protokolu yoxdur. Ona görə etibarnamə [77 - 78] komisyonu təklif edir ki, seçki protokolu təqdim etsinlər.

**Sədr** - Bakı bələdiyyəsi tərəfindən Əliağa Həsənov unudulmuşdur. (Məhərrəmov adları bir də oxuyur). Bəli, Əliağa Həsənov dəxi var.

**Sədr** - Söz Yusif Əhmədovundur.

**Əhmədov** - Milli məclisin möhtərəm əzalarına məlum olsun ki, Şirvan şəhəri tərəfindən Şirəli Bəyovski parlamentə üzv intixab edilməsi məəruzədə göstərilir. Şirvanovların Bakıda çoxdan bəri həmtorpaqlılar (zemlyaçestvo) təkilatı vardır. Bundan əlavə Şirvan əhalisi bu axırıncı hadisələrdən və Şirvan şəhərinin dağılmasından naşı Şirvan milli komitəsi və bələdiyyə idarəsi üzvləri Bakıdadırlar. Bu üç təşkilatın igrimi nəfərə qədər olan üzvləri cəm olub şamaxılılar tərəfindən parlamentə üzv intixab edilmişlərdir. Bunların intixab protokolları və etibarnamələri etimadnamə komisyonuna verilmişdir. Nədənsə etimadnamə komisyonu bu etimadnamə haqqında bir söz söyləmədi. Bu şəhərin qanun üzrə seçilmiş milli komitəsi və Bakıda çoxdan bəri yaşayan şirvanlıların cəmiyyəti və bələdiyyə idarəsi üzvləri olduğu halda bunların intixab etdikləri üzvün ədd olduğu ədalətsizlikdir. Elə bir ədalətsizlik cümhuriyyətin adını daşıyan bir məmləkətdə şirvanlılar haqqında layiq deyildir. Möhtərəm üzvlərin buna diqqətlərini xahiş edirlər. Təqazayi-zəmanədən dolayı şamaxılıların kəndləri dağılmış, kəndləri yer altına buraxılmış isə də onların hüququna təcavüz edib, kabinetdə oturub, onların tərəfindən üzv seçilmişlərdir. Bu haqda rica seçkini qanunsuz hesab edib yenidən şamaxılılar tərəfindən seçilmiş üzvü qəbul edəsiniz.

**Sədr** -Aslan bəy Səfikürdski.

**Aslan bəy** - Seçki barəsində milli şura qanun qoymuşdur. Bu qanun üzrə seçilib parlamentə gələnlərin etimadnamələri vardır. Etimadnamə komisyonu bunlara baxıb bəzilərini qanunsuz görmüşdür. Mən təklif edirəm müvafiqi-qanun olan etimadnamələr qəbul edilsin, şübhələrə parlament baxsın. Təklifim budur ki, parlament komisyonunun rəyini təsvib etsin.

**Sədr** - Söz Abdulla bəy Əfəndiyevindir.[78 - 79]

**Abdulla bəy** - Möhtərəm məbuslar! Bu etimadnamə komisyonunu seçib bir neçə zavatın etimadnamələrini qanuna müvafiq görmür. Bu qanun hansıdır, heç kimə məlum deyil. Ancaq teleqraf ilə xəbər vermişlər ki, parlamentə üzv seçin göndərin. O qanun elan edilməli idi, sonra intixab olmalı idi. Hərgah seçkilərə diqqətlə baxsaq həpsi şübhəlidir. Bu parlamenti inqilab surətində təşkil olunmuş ədd edən və qanunsuzluğu kənara qoyaq. Bilatəvafüt sözlərim nə indiki, nə də keçmişdəki demokrat üsulu ilə deyildir. Nə üçün Zakatala camaəti ümumi iclasda seçilmiş nümayəndələrin etimadnamələrinə inanmamalıdır? Sədrdən təvəqqə edirəm danışıq qət olunsun və etimadnamələrin həpsi qəbul olunsun. Vaxt bunu tələb edir ki, cüziyyat ilə uğraşmayaq, başqa müzakirata köçək.

**Sədr** - Söz Aslan bəy Qaraşovundur.

**Qaraşov** - Mən irəlidəki natiqin sozünə şərikəm. Zaqatala və Ərəş qəzalarından danışacağam. Etimad komisyonu məruzəsindən belə məlum olur ki, işbu qəzalardan seçilmişlərin qanuna müvafiq etimadnamələri yoxdur ki, qəbul olunsun. Abdulla bəy dedi ki, teleqraf ilə xəbər verilibdir ki, parlament üzvləri intixab olunsun. Odur ki, intixablar hər kəsin öz bildiyi kimi olmuşdur. Zaqataladan hərçəndi məbuslar milli komitə tərəfindən seçilmiş isə etimadnamə komisyonu tərəfindən rəsmiyyətcə qəbul edilməyib. Həmçinin Ərəş uyezdi tərəfindən

məbusların intixabnamələri. Zaqatalada qubernator, Ərəşdə qəza qaimməqamı təsdiq etmişlərdi. Təklif edirəm seçkilər şübhə altında olduğundan Məclisi-Müəssisan cəm olunanadək qəbul edilsin, əks surətdə şübhəlilər üçün məlumat istənilsin.

**Sədr** - Söz Məmməd Əmin Rəsulzadənindir.

**Rəsulzadə** - Məsələ, bizim məclisi-məbusanın nə şəkildə təşkil olunmasıdır. Məclisi-məbusanımızın seçkilərinin qanun üzrə olmadığını söylədirlər. Ümum əsas üzrə seçilmiş parlamentimiz yoxdur. Şimdi parlamenti də tənqid etməyə vaxt yoxdur. Şurayi-milli parlament təşkili üçün əsas qəbul etmişdir, və bu da etibarlıdır hərgah bu inkar edilər isə milli şuranın nüfuzu itmiş olur. Qanuna müvafiq etimadları təsdiq etməli, şübhəlilərin icrasına baxmalı. Rəsmiyyətə bilməmişlərə vaxt veriblər. Lakin qanun iqtiza etmiş kibi etimadnamələr pişnihad etsinlər. Qanun qəzetlərdə nəşr [79 - 80] edilsin, qubernator və naçalniklərə protokolun forması göndərilmişdir. Bir çox yerlərdə belə də olmuşdur. Fəqət, bəziləri başa düşməmişlər. Biz buna laübəli baxa bilməriz. Özümüz qəbul etdiyimiz qanunu pozmamaq üçün şübhəlilərə müsaidə verilsin. Sonra Şirvan haqqında Əhmədov izahatda bulundu və şirvanlıların haqqına təcavüz edildiyini söylədi. Mən şurayi-millinin sabiq rəisi olmaq sifətilə deyirəm ki. şurayi-millinin qətinə məbna o yerlərdə hərci-mərclik idi. O, yerlərin məbuslarını şurayi-milli ozü təyin etsin. Bu maddə tətbiq ediləcək hansı yer olduğu müzakirə edildikdə ittifaqi-ara ilə yalnız Şamaxı qəzası fovqəladə əhval altında olduğu qəbul olunur, oradan da məbus təyin edilməyi qət olunmuş idi. Qanunun bu maddəsinə etiraz etmək üçün mümkün deyildir. Çünki qanun cari isə hamı maddələri qəbul edilməlidir. Bir qanunu təmamilə qəbul və ancaq bir maddəsini rədd etmək qabil deyildir. Bu məsələyə dərin baxsalar isə heç bir təcavüz olmadığı anlaşılar. Şıxəlibəyov şamaxılı, Gncə məşvərət məclisində Şamaxı əhalisi tərəfindən göndərilmiş idi. Məclisi-Müəssisan intixabında dəxi siyahı ilə seçilənlər cümləsindən olmuşdur. Fəqət, Şıxəlibəyov dəxi məzkur qanuna görə ixrac edilmiş idi. Bir dəfə şamaxılılar onu seçib göndərmişlər və şəkil etibarilə, mahiyyət nəzərilə Şeyxəlibəyovun namizədliyinə etiraz edilməmişdir. Bu gün biz Şamaxı həmtorpaqlar İttifaqı tərəfindən məbus qəbul edəcək olursaq, o vaxt sair ittifaqlar dəxi istəyəcəklər və belə təbilərin həpsinə əməl edildikdə parlament təşkili qanunu əsasından xələldar olar. Mən təklif edirəm bu məsələ haqqında müzakirata xitam verilsin. Müzakirat qət olunur.

**Sədr** - Söz məruzəçinindir.

**Məhərrəmov** - Zaqataladan məbuslara verilən etibarnamə milli şura tərəfindəndir. Deməli, Zaqatalada milli şura var. Şübhəsiz ki, Şuranın sədri, müavini və katibi tərəfindən imza olunmalı idi. Halbuki, ancaq qubernator imza etmişdir. Buna körədir ki, qubernatorun imzalaması qeyri-məqbulədd edilməlidir. Komissiya təsdiq edir ki, bunların etibarnaməsi nəzərə alınsın. İkinci təhqiqə möhtac etibarnamə Ərəş nümayəndəliyinidəndir. Əvvəla, bu məbusların seçdikləri məclisin protokolları bizə verilməmişdir. Saniyən etibarnamələri milli şuraya başqa bir ictimai müəssisə namindən [80 - 81] yazılmayıb, ancaq xüsusi bir şəxs tərəfindən yazılmışdır. Bu məclisin kimlərdən ibarət olduğu, vəkil edildikləri barəsində bir məlumat verilmir.

Üçüncü Şirvan məsələsidir. Şamaxı həmvilayətləri tərəfindən məbus təyini haqqında varid olan təklif parlament qanununa müğayirdir. Zira qəza vəkilini kəndi nümayəndələri, kənd cəmiyyətləri seçməli və onlar göndərməlidirlər. Etibarnamə komisyonu qanuna müvafiq və düzgün olan məbuslar təsdiq edilib, yerdə qalanlarına təklif edilsin ki, protokol və etibarnamə əldə etmək üçün komisyon ilə bərabər təşəbbüsatda bulunsunlar.

**Sədr** - Müzakiratdan hasil olan nəticə belədir. İki təklif varid olur. Birincisi: etibarnamə komisyonu tərəfindəndir ki, etibarnaməsi şübhəli və xətalı hesab olunan əza qəbul və təsdiq edilmək üçün şübhənin izalı və xətaların təshihi üçün bir təşəbbüsatda bulunsun. İkinci təklif: Aslan bəy Qaraşov tərəfindən varid olubdur və şübhəli, şübhəsiz xətalı və düzgün ümum etibarnamələrin qəbul təsdiqini tələb edir. İndi bu iki təklifi səsə qoyuram. (Ruscaya tərcümə edir). Əvvəlcə birinci təklifi səsə qoyuram.

**Məmməd Əmin Rəsulzadə** - Fəqət vaxtsız və müəyyən möhlət qərarlaşdırılmadan olmaz.

**Sədr** - Mən də deyirəm vaxt təyin edilsin.

**"İttihad" fraksiyasından** - Möhlət on gün olsun.

**Mərkəzdən** - Bir ay.

**Soldan** - Üç ay.

**Sədr** - Bir ay möhlət verilməsinə etiraz yoxmu?

**Cəfərov** - Onlar iclasda iştirak edəcəklərmi?

**Sədr** - Bəli, edəcəklər.

**Əhməd Cövdət** - Söz istəyirəm.

**Sədr** - Səsə qoymaq barəsindəmi?

**Əhməd Cövdət** - Mən Məmməd Əmin bəyin əleyhinə danışmaq istəyirəm.

**Sədr** - Buyurunuz.

**Əhməd Cövdət** - Etibarnaməsi düz olmayan zavatın parlamentdə qalmaları və səs verilmələri haqqında Məmməd Əmin tərəfindən verilən təklif hüquq nöqteyi-nəzərindən dürüst deyildir. Zira hüquqi noqteyi-

nəzərindən bunlar iclasda iştirak [81 - 82] və səs haqqına malik deyillər. Xüsusən səs verə bilməzlər. Binaən-ileyh bu təklif heç səsə toxunula bilməz.

**Sədr** - (Ruscaya tərcümə edir).

**Məmməd Əmin** - Əhməd Cövdət təklif etdikdə guya benim təklifimi təshih surətində demiş oldu, Fəqət mən onların səs haqqına malik olmaları barəsində bir söz belə demədim.

**Qaraşov** - Parlament üsulunda heç vaxt belə təklif ola bilməz ki, filan-filan məbuslar iclasda iştirak etsinlər. Fəqət qətiyyətli səs hüququna malik olmasınlar. Madam ki, bunlar parlamentdə qalırlar, təklif edirəm ki, onlara qətiyyətli səs ixtiyarı da verilsin.

**Cəfərov** - Parlament təcrübələri haqqında mən bir qədər məlumat verməк istərdim. Adət belədir ki, əzanın etibarnaməsindən şübhə olduğu məclisdə danışılan gündən etibarən o şəxs məclisdə iştirak edəməz. (Solda: bəli). Bir adamın etibarnaməsi şübhəli olsa belə məclis bu xüsusda məsələ qaldırmasa o adam parlamentdə qala bilər. Lakin o gün ki, məclis şübhə bəyan etdi, dərhal o adam parlamentdə iştirak haqqından məhrum olur. Məsələn, dövlət dumasında Odessa məbusu etibarnaməsi təsdiq edilənədək 3 ay iştirak etdi və müddətdən sonra etibarnamənin şübhəli olduğu haqqında 15-ci iclasda məsələ qaldırıldı. həmin gün məbus dumadan getdi. Mənim zənnimcə biz bu məsələyə ümum parlamentlər kimi baxmalıyız.

**Sədr** - Söz Abdulla bəy Əfəndiyevindir.

**Abdulla bəy** - haman təklif ya qəbul olunmayacaq, ya qəbul olunacaq. Fəqət burada iki şey olmalıdır. Bütün gördüklərimiz ya fel, ya təsəvvürdür. Bundan kənar bir şey olar isə məntiqən qəbul edilməz.

**Sədr** - Natiq əfəndi, rica edirəm səsə malikiniz olun barəsində danışasınız.

**Əfəndizadə Abdulla bəy** - O barədə...

**Əfəndizadə Abdulla bəy** - Bu barədə söyləyirəm.

**Sədr** - Onun müzakirəsi yoxdur.

**Sədr** - Bu barədə danışasınız.

**Əfəndizadə** - Mən təklif edirəm ki, nümayəndələrin hamısı qalsın, nəinki bir Zaqatala, hamı nümayəndələr gedəcəklər.

**Sədr** - Təklif olunur ki...

**Məmməd Əmin Rəsulzadə** - Səsə qoymadan əvvəl mən məruzəçiyə bir sual verəcəyəm. [82 - 83]

**Sədr** - Buyurunuz.

**Rəsulzadə Məmməd Əmin** - Etimadnamə bilaşübhəli varmı?

**Məhərrəmov** - Vardır.

**Rəsulzadə Məmməd Əmin** - Pək əla, bilaşübhəliləri qəbul edəlim, fəqət şübhəliləri baxılmamış hesab edərək buraxalım.

**Sədr** - Tənəffüsə ehtiyac varmı?

**Məhərrəmov** (yerindən) - Yoxdur, yoxdur.

**Sədr** - Birinci təklifi səsə qoyuram.

**Məhərrəmov** - Səsə qoymaq olmaz.

**Cəfərov** - Qanundan kənar bir yolla getmək olmaz, əfəndim.

**Sədr** - Məmməd Əmin öz təshihlərini mənə yazıb vermisiniz? Bu cür təklif olunur.

**Tsixakaya** - (rusca)

**Məhərrəmov** - Şübhəsiz, etimadnamə sahiblərini qəbul edib şübhəlilər var isə bir ayın müddətində etibarnamə təqdimi üçün vaxt verilməlidir. Əlbəttə, bunlar burada qalacaqdır və səslərdə iştirak edəcəklərdir.

**Sədr** - Məruzəçi təklif edir ki, şübhəsiz, bu gün təsdiq edilsin. O vaxtadək bunlar parlamentdə qalıb səslərdə iştirak edəcəklər. Bu təklifi səsə qoyuram.

(Qarışıqlıq, səs - Qoyun.)

**Rəsulzadə Məmməd Əmin** - Bir təklifdir şübhəli deyil, yaxşı təhqiq edilmişdir.

**Qarayev** - Mən etibarnamə komisyonunun üzvü olmaq üzrə yoldaşımın bu təklifinə razı deyiləm.

**Sədr** - Səsə qoyuram. Hər kəs bu təklifin tərəfdarıdır...

**Məmməd Əmin** - Mən etibarnamə komisyonunun təklifini böylə anlayıram ki, heç kəsin qəti surətdə rəyini tələb etməyərək deyilir ki, etibarnamələri düzgün olanları təsdiq, yerdə qalanlarının etibarnamələri təhqiq edilsin və etibarnaməsi təhqiq olmayanlar qəti surətdə rədd təklifi var və onlar da parlamentdə qalsınlar.

**Sədr** - Təvəqqe edirəm, təklifləri təhriri surətdə verəsiniz.

**Əhməd Cövdət** (yerindən) - İzin verin, sözümü deyim. Sonra təklifi yazılı surətdə verərəm. (Qarışıqlıq, səs-küy). [83 - 84]

**Tsixakaya** (rusca) - Məncə məsələni belə qoymaq olmaz ki, təklif edilsin, filan şəxs təsdiq edilsin, filan şəxs yox. Adət belədir ki, parlament filan millətin, filan nahiyənin bütün məbuslarını sayaraq təsdiq etdiyini elan edər, yerdə qalanların təsdiqi isə etibarnamənin təhqiqinədək müvəqqəti təxir edilir.

**Mərkəzdən** - doğrudur.

**Sədr** - Məlumat var ki, Zakatala tərəfindən kələn məbusların etibarnaməsi yoldaşlarında qalıbdır, yaxın zamanda gələcəkdir. Deməli, məsələ bununla bitmiş olur.

**Soldan:** səs.

**M. Rəsulzadə** - Rica olunur komisyon qərarları yenidən oxunsun.

**Sədr** - Rica edirəm oxuyasınız.

**Məhərrəmov** (oxuyur) - Bakı bələdiyyə idarəsi tərəfindən 5 nəfər seçilmişdir: Qarabəy Qarabəyli, Ağa Aşurov, Zeynal Tağıyev, Həsənov, Səfərəliyev. Bunların həpsinin etibarnamələri qanuna müvafiq düzgün olduğundan komissiya bunların təsdiqini təklif edir.

(Soldan: bərkdən).

**Sədr** - Buna etiraz yox isə deməli qəbul olunur.

**Məhərrəmov** - Əqəliyyat təşkil edən millətlər nümayəndələrinin etibarnamələri dürüst və qanuna müvafiq olduğu üçün təsdiq edilməsi komisyon tərəfindən təklif olunur. Məzkur məbuslar bunlardır: almanlardan Kun, yəhudilərdən Koxman, löhələrdən Vanseviç, ruslardan Vinoqradov, Kraçkov, Mixaylov.

**Sədr** - Etiraz yoxmu? Deməli, qəbul olunur.

**Məhərrəmov** - Quba şəhərindən Zizikski və qəzadan Həmdulla əfəndinin etimadnamələri düzgün, qanuna müvafiq olduğundan təsdiqləri təklif olunur.

**Sədr** - Etiraz yoxmu? Deməli, qəbul olunur.

**Məhərrəmov** - Göyçay nümayəndələri: Sadıq bəy Ağabəyov və Hacı Hüseyn Əfəndiyev etibarnamələri düzgün və qanuna müvafiq olduğundan təsdiqləri təklif olunur. Mərkəzdənsə soldan: təsdiq olunsunlar.

**Sədr** - Etiraz yox isə qəbul olunur.

**Məhərrəmov** - Şirvan tərəfindən Şeyxəlibəyov məbusdur. [84 - 85]

**Sədr** - Etiraz yox isə deməli qəbul olunur.

**Məhərrəmov** - Gəncə qəzasından göndərilən Hacı Əli Qasım oğlu və Hacı Molla Əhməd Nuruzadə əfəndilərin protokolları qanuna müvafiqdir, fəqət etibarnamələri nahiyə müdiri tərəfindən verildikdən təsdiqi parlamana həvalə olunur.

**Məmməd Əmin** - Fəqət sonraya buraxın.

**Sədr** - Etiraz yox, qəbul olunur.

**Məhərrəmov** - Qazax qəzası tərəfin Hacı Kərim Sanıyev, seçkisi qanun üzrə olduğundan, təsdiqi təklif olunur.

**Sədr** - Etiraz yox isə qəbul olunur.

**Məhərrəmov** - Cəbrayıl qəzasından Bəhram bəy Vəzirovun etibarnaməsi düzgün və mütabiqi-qanun olduğundan təsdiqi komisyon tərəfindən təklif olunur.

**Sədr** - Etiraz yoxmu? Deməli qəbul olunur.

**Məhərrəmov** - Qarabağ qəzasından Ağdam milli şurası Qarabəy Əliverdibəy cənablarını seçmişdir. Etibarnamə və protokolları nahiyə naçalniki hüzurunda yazılmış və onun imzası ilə olduğundan bu barədə əlavə material təklif olunur. Fəqət müvəqqəti olaraq təqdim edilən kağızlar ilə iktifa etmək məqbuldur.

**Sədr** - Etiraz yox isə qəbul olunur.

**Məhərrəmov** - Şəki şəhərindən Abdulla bəy Əfəndiyev və qəzasından Qarabəy Kərimov əfəndilərin etimadnamələri qanuna müvafiq olduğundan təsdiq edilmələrini komisiyon tərəfindən təklif olunur.

**Məhərrəmov** - Təsdiqi qəbul olunan məbuslar bunlardır. Şimdi oxuyacağız. Məbusların etibarnamələri haqqında əsaslı məlumat olduğundan bunların təsdiqinin müvəqqəti təxirə salınması təklif edilir.

**Məmməd Əmin Rəsulzadə** (yerindən) - Hələ sonra baxarız.

**Sədr** - Buna etiraz yoxmu? Təklif ümumiyyətlə qəbul olunur.

**Sədr** - Növbədəki məsələ tərtibat və ləvazimat komisyonu tərəfindən məruzədir.' Söz komisyon sədri Kazımzadə Abbasqulunundur.

**Kazımzadə Abbasqulu** - Parlamentin bir illik büdcəsini möhtərəm parlament üzvlərinə təqdim ilə qəbulunu rica edirəm. [85 - 86]

**Məclisi - Məbusan idarəsi məsarifinin**
**Smetası**

| Mənsəblərin iemi | neçə nəfər | bir ayın haqqı | cümlətanı | iIllik haqqı | 16 noyabr 1918 -dən başlamış |
|---|---|---|---|---|---|
| Dəftərxana müdiri | 1 | 2.500 | 2.500 | 30.000 | 22.750 |

| | | | | | |
|---|---|---|---|---|---|
| Dəftərxana müdiri köməkçisi | 1 | 2.000 | 2.000 | 24.000 | 25.400 |
| Şöbə müdiri | 2 | 2.000 | 4.000 | 48.000 | 57.000 |
| Sədr katibi | 1 | 2.000 | 2.000 | 24.000 | 26.000 |
| Kargüzar | 5 | 1.400 | 7.000 | 84.000 | 96.500 |
| Dilmanc | 2 | 1.400 | 2.800 | 33.600 | 47.800 |
| Mühasib | 1 | 1.500 | 1.500 | 18.000 | 24.200 |
| Sanduqlar | 1 | 1.200 | 1.200 | 14.400 | 17.000 |
| Müqəyyid | 2 | 1.000 | 2.000 | 24.000 | 28.000 |
| Dəftərxana qulluqçusu | 5 | 750 | 3.750 | 45.000 | 50.625 |
| Stenoqraf rusca | 4 | 1.200 | 4.800 | 57.600 | 67.200 |
| türkcə | 6 | 1.200 | 1.200 | 86.200 | 96.200 |
| Makinaçı rusca | 1 | 1.200 | 1.200 | 14.400 | |
| türkcə | 1 | 1.500 | 1.500 | 18.000 | 20.250 |
| Remontçu | 2 | 750 | 1.500 | 18.000 | 20.250 |
| Kuster | 1 | 1.200 | 1.200 | 14.400 | 16.200 |
| "_" müavini | 2 | 1.000 | 2.000 | 24.000 | 27.000 |
| Ləvazim müdiri | 1 | 1.000 | 1.000 | 12.000 | 13.000 |
| Xidmətkarlar | 10 | 550 | 5.500 | 44.000 | 74.250 |
| Telefonçu | 2 | 550 | 1.100 | 12.200 | 14.850 |
| Cümlətani | | | 55.750 | 449.000 | 752.820 |

| | |
|---|---|
| Dəftərxana məxarici | 100.000 rublə, |
| vaxt müəyyəndən artıq məşğələyə | 15.000 |
| xüsusi ittifaqlarda müavinət və yol məsarifi | 20.000 |
| Məmurla bayramlıq | 61.675 |
| | 909.200 |

1). Yuxarıda zikr olunan siyahıdə adlanan hesab dövlət qulluğundan hesab edilir.

2). Məclisi-Məb'usan idarəsinə maarif üçün təxsisat: a) dəftərxana və ləvazim məxarici üçün; b) vaxtı müəyyəndən artıq və axşam məşğələlərinə mükafat vermək üçün; v) bəzi ittifaqlarda ikramiyyə yol məsarifi üçün. [86 - 87]

3). Məzkur siyahidə adlanan məmurlar müsəlmanlar Novruz bayramında, xariclər isə pasxa bayramında zirdəki qərar üçün ikramiyyə almalıdır. a) hər ay min rubləddən artıq alanlara bir ayın məvacibini, b) hər ay min

manatdan aşağı alanlara bir ay yarımın məvacibini - bu şərtlə ki, min manatdan yuxarı olmasın. Məclisi-Məbusan riyasəsi ilə ləvazim heyəti tərəfindən parlamentdən rica olunur ki;

1) yuxarıda zikr olunan məmurlar siyahısı qəbul edib 16 noyabr 1918-ci il tarixdən başlamış həyata tətbiq etsin;

2). Xəzinədən mövcud olan təqdirdən fövquzzikr (1) maddəli krediti əncama yetirmək üçün zeyldəki, miqdar üzrə təxsis olunsun;

| | |
|---|---|
| a). Məmurların maaşı üçün | 752.625 rubl |
| b). Dəftərxana məsrafi üçün | 100.000 "-" |
| v). bəzi məxaric vaxt mulyinəsi, artıq məsələlərə müaqçnət | 15.000 "-" |
| d). xüsusi ittifaqlarda müavinəti nəqdiyyə və məsariflər üçün | 20.000 "-" |
| e). məmurlara ikramiyyə vermək üçün | 61.675 "-" |
| Yekuni | 959.700 rubl. |

**Milli şura əzasının maaş smetası**

Xəzinədə mövcud olan nəqdiyyədən milli şura əzasına on yeddi günlük maaş üçün hər kişiyə gündəlik yüz manatdan 74.800 rublə buraxılması Məclisi-Məbusan rəisi ləvazim heyəti tərəfindən parlamentdən rica olunur.

Məclisi-Məbusan əzasının maaşı, ezam (komandirovka) və yol məsarifinin smetası Məclisi-Məbusan riyasəsi ilə ləvazim heyəti xəzinədə mövcud olan nəqdiyyədən zeyldə göstərilən məbləğin buraxılmasına parlamandan rica edirlər.

| | |
|---|---|
| 1). Əzanın maaşı üçün | 4.656.000 rubl |
| 2). Ezam (komandirovka) üçün | 100.000 rubl |
| 3). Hər bir dövrənin (sesiya) əvvəlində və axirində əzanın yol məsrafi | 12.000 rubl [87 - 88] |
| 4). Rəisi məclisi məbusana gündəlik | 30.000 rublə |
| 5). Rəisin iki müavininə nümayəndəlik əcri | 36.000 rublə |
| *Cəmi* | 4.942.000 rublə. |

**Sədr** - Kimin bu barədə sözü vardır, söyləsin.

**Şeyxülislamov** (yerindən) - Tərtibat və ləvazim komisyonunun məruzəsində göstərilən beş yüz əlli min rubl miqdarında məvacib kimlərindir.

**Kazımzadə Abbasqulu** - Parlament xadimlərinin.

**Şeyxülislamov** - həmin məvacib məsələsi müzakirə olunduğu zaman hansı əsaslar nəzərə alındığını bilmirəm, hökumət 550 rublə məvacib təyin edibsə də yenə də azdır. Belə bir zamanda, belə bir az məvacib ilə dolanmaq olmaz. hərgah ərzaq işlərində bir qanun olsa idi, bəlkə də dolanmaq imkanı var idi. Lakin elə bir qanunsuz halda yaşayırız ki, möhtəkirlər geniş bir surətdə müamilədə bulunurlar. Zəhmətkeş əziyyət çəkib müşkilat içərisində yaşayırlar. Əmələ və xadimlərin mənfəətini nəzərə alıb onların yaarım insanca dolanması üçün hər halda məvaciblərini artırmalıyıq. (Soldan: düzdür). Təkrar edirəm ki, ərzaq qanunu yoxdur. Xidmətçilərin məvacibini 680 rublədən əskik olmamaq şərtilə təyin edilməsini təklif edirəm. Onun üçün bu qanuna ya bu saat bu gün burada baxılsın, ya komisiya özü dübarə (soldan: bu saat) bu məsələyi müzakirə etsin. (Alqış - soldan).

**Sədr** - Başqa irad, nitq edən yoxdur ki?

**Məmməd Əmin Rəsulzadə** - 550 rublə azdır, 650 rublə bəsdirmi? Bunu hansı səbəbdən söylədilər? Bu maaşların az-çoxluğu haqqında bəhs etməyəcəyəm. Elə bu kimi havada tutma rəqəmlər ilə bunun az-çoxluğunu göstərmək olmaz. Bunu söyləyənlərin əlində rəqəm olmalıdır ki, bəsdir, ya yox deməyini isbat etsin. Bu gün bütün hökumət müəssisələrinin xadimləri 550 rublə alırlar. Şimdi bura xadimlərinin məvacibini dəyişib, hökumət idarələrində onların məvacibi başqa olar isə fəhlələr arasında bir təzad, bir ixtilaf da ola bilər. Lakin gələcəkdə büdcə tərtib verilib meydana gələcəkdir. O zaman bu məsələ bir qanun şəklində həll və qəbul ediləcəkdir. Deyirlər ki, [88 - 89] ərzaq qanunu yoxdur. Təsəvvür olunur ki, sonra dövlət xidmətində olanlar üçün ərzaq qanunu çıxarmalıyız. Bütün dövlət müəssisələrində xadimlərin məvacibi 550 rublə və dövlətin məsarifində intizamı gözləmək üçün ahəngi ümumini pozmayaraq qərar verilmiş məvacibi təbdil etməməliyiz. Bu əsas üzrə layihənin ümumiyyətlə qəbulunu təklif edirəm.

**Sədr** - Aslan bəy Səfikürdski.
**Səfikürdski** - Əkbər ağanın dediyini başa düşmədilər. Onun fikrini anlamadılar. O dedi ki, bu qədər az məvacib ilə dolanmaq çətindir. Elə bir şərait yaranmalıdır ki, onlar da yarım insan kimi yaşasınlar. Məmməd Əmin deyir ki, belə havadan tutma rəqəmlər ilə bu əsası dəyişmək olmaz, bunun üçün sübut lazımdır. Bunu isbat etmək çətin deyil. Çörəyin girvənkəsi şimdilikdə beş manatdır. Burada xidmət edən qulluqçunu götürəlim. hərgah belə bir xadimin bir arvadı, bir anası və yaxud uşağı olur isə buna ən azı gündə altı girvənkə çörək almaq lazımdır. Bu hesab ilə 900 rublə ancaq çörək üçün məsarif lazım gəlir. Bir hərgah bu hesabın yarısını götürmüş olarsaq, ayda 450 rublə xərc olacaq. Fəqət bir çörək ilə dolanmaq olmaz. Bunun başqa xərcləri də olacaqdır. Hərgah ərzaq ucuz olsa idi, o zaman 550 manat kifayət edərdi. Bu səbəblə ən azı əndazə olaraq Əkbər ağanın təklif etdiyi 650 rublə ilə həlalik şərik oluram.
**Sədr** - Şeyxülislamov, buyurun.
**Şeyxülislamov** - Mən 650 rubləyi qəti surətdə demirəm. Əlbəttə siz artıra bilərsiniz. Burada başqa xadimlər tərəfindən etiraz ola dedilər. Lakin mən deyirəm, bu qanun bu gün burada qəbul edilirsə ümum fəhlələrə aid olar.
**Sədr** - Söz Cəmo bəyindir.
**Cəmo bəy** - Mən özüm tərtibat və ləvazimat komisyonun üzvüyəm. Bu məvacib müzakirə edildikdə parlament üzvlərini də nəzərə aldıq. Komissiyon qərar verdi ki, nəinki qulluqçular və bəlkə üzvlər də lazım olan bir para şeyləri ucuz ələ gətirsin. O cümlədən aşbazxana açılması dəxi arzu olundu. Budur ki, xadimlərə 550 manat təyin etdik. İndi sözümü özüm başa düşdüm. Biz söylədiyimiz sözə əməl etmirik. Bizim xadimlərin ucuz çörək , ucuz aşbazxanadan nə mənfəətdar olacaqlarına da ya qismət, ya nəsib! [89 - 90]
**Sədr** - Söz Məlikyeqanovundur.
**Məlikyeqanov** - Burada möhtərəm parlament əzası hamı artıq vermənin tərəfdarıdır. Biz də bununla şərikik. Fəqət, bunu nəzəri-etibarə almalıyız ki, bütün fəhlələr əziyyət altında yaşayırlar. Biz hökumət qulluqçularına artıq verməklə iş artmaz. Bir fəhlə komisyonu təşkil edilməlidir ki, bunların hamısının dərdlərini nəzərə alsın.
**Sədr** - Təklif var ki, müzakirat qət edilsin. (Soldan: bu barədə).
**Sədr** - Bu barədəmi? Buyurun! Söz Abbasqulu Kazımzadənindir.
**Abbasqulu Kazımzadə** - heç söz yoxdur ki, bizim fəhlə qardaşlarımızın halı yaxşılaşmalıdır. Bizə göstəriyorlar ki, əsas olaraq qəbul edilsin. Burada bir şəxs, iki şəxs iştirak etmir. Əlbəttə ki, məclisdə iştirak edən əzanın cümləsi buradakılardır. Məvacibləri 550 rublə olan hökumət qulluqçularının kooperativləri də vardır. Biz istərdik ki, bura qulluqçuları da oraya daxil olsunlar. Biz deyiriz ki, bura qulluqçuları ləvazim komisyonundan çörək istiyorlar, hamı acdır. haman məvacib burada artırılsın, bir daha komisyona verilsin.
**Sədr** - Tənzimat komisyonu təklif edir ki, bunlar burada qəbul edilsin. (Oxuyur). Necə deyirlər bir-bir səsə qoyacağam, yaxud hamısını birdən?
**Vinoqradov** - (rusca)
**Sədr** - Bunu qəbul edirsinizmi? (Mərkəzdən: qəbul.)
**Əhməd Cövdət** - Bu məsələnin əleyhinəyiz.
**Məmməd Əmin Rəsulzadə** - Səsə qoyurlar. Şimdi vaxtı yeyidir.
**Əhməd Cövdət** - Rica edirəm, yerinizdən göstərmiyəsiniz. Burada sədr vardır. Bəxşiş məsələsinin əleyhinəyiz. Məvacibləri az olanların məvacibləri çoxalmalıdır. Fəqət, bəxşiş olmalıdır.
**Sədr** - Mənim əqidəmcə bəxşişin başqa əhəmiyyəti vardır.
**Məlikyeqanov** - Bəxşiş məsələsi bir yoldur. Əgər bir sənə işləsələr ondan sonra alırlar, yaxud bəxşiş bulunsun məvacib artırırlar.
**Məmməd Əmin Rəsulzadə** - Sollar məsələni əngələ salırlar. Tənzimat komisyonunda solların nümayəndələri vardır. Mən onların təklifləri ilə əsas etibarilə şərikəm. Fəqət, [90 - 91] bir şey var ki, fraksiyada müzakirə olunarkən danışmalıdı. Şimdi yeri deyldir.
**Əhməd Cövdət** - Görünür ki, "Müsavat" firqəsinin acığına gəldi. (Məmməd Əmin yerindən: Danışır!)
**Sədr** (zəng çalır) - Ola bilir ki, bundan sonra elə məsələlər olsun, müsavatın lap acığına gəlib. Fəqət bu barədə söyləmək bicadır. (Soldan alqış).
**Hacınski** - Üçüncü üsul fraksiyanın cərgəsində mən də varam, onlardan komisiyaya nümayəndə olaraq sədr də, katib də iştirak etmişdir. Mən sədr olduğuma görə təbiidir ki, etiraz edənlərə deyil, qulluqçular mənə müraciət edəcəklər, ona görə də mən burada smetanın təsdiqini təklif edirəm. Beləliklə, smeta geri qaytarılmaz. (Mərkəzdən: alqış).
**Şeyxülislamov** - Smetanı burada qəbul edək, bəxşiş məsələsi qalsın sonraya.
**Sədr** - Hər kəs qəbul edir isə əlini qaldırsın! (Salonda danışıq) hər kəs əleyhinədir, əlini qaldırsın. (Qaldırırlar, qarışıqlıq). Təklif olunur ki, bəxşiş çıxmaqla smeta qəbul edilsin.
**Məmməd Əmin Rəsulzadə** - Mən təklif edirəm ki, bəxşişsiz məvacib az olacaqdır. Binaən-ileyh smeta geri qaytarılsın. Mən bunun əleyhinəyəm. Bəxşişi mütənasib surətdə məvacib üzərinə artırılsın. (Soldan: qəbuldur).
**Sədr** - Təklifi ruscaya tərcümə edir. Bu qəbul olunurmu? (Səslər: qəbul).

**Abbasqulu Kazımzadə** - Möhtərəm parlament əzası! Əzalarımıza gərək maaş təmin edilsin. Buna görə də ləvazim komisyonu parlament sədri ilə bərabər qəbul etdi ki, gündəlik olaraq üzvlərə yüz rublə maaş təyin edilsin.

**Sədr** - Tərcümə edir. Bu barədə kim danışmaq istəyir, etiraz yoxsa, qəbul olunur.

**Abbasqulu Kazımzadə** - Milli Şura əzasının məruzəsi vardır. Noyabrın 16-dan Milli Şura toplanan gündən onlara da məvacib verilsin. Milli Şura əzasının smetasını oxuyam. Xəzinədə mövcud olan nəqdən Milli Şuranın əzasının 17 günlük maaş üçün hər kişiyə gündəlik yüz manat hesabından 74.800 rublə buraxılması Məclisi-Məbusan divani-rəyasətinə və ləvazim heyəti tərəfindən parlamentdən rica olunur. [91 - 92]

**Şəfi bəy** - Bəzi üzvlər vardır ki, buradan başqa hökumətin digər qulluğunda da olurlar. Ona görə iki yerdən məvacib alacaqlar. Belə olan surətdə bunlar birini almalıdırlar.

**Məmməd Əmin Rəsulzadə** - İki yerdən məvacib alan qullutçular üzvlər bu məvacibin təfavütünü almalıdırlar.

**Şəfi bəy** - Digər vaxt qulluq edirlər. Gələcəkdə qanun çıxacaqdır ki, üzvlər qulluq etməməlidirlər.

**Əhməd Cövdət** - Mən Şəfi bəyin təklifini belə qəbul edərəm. O adamlar ki, bunlar camaat vəkili olduqlarından, birinci işlərini buraxıb, vaxtlarını fəqət, parlamentə münhəsir etməlidirlər, xüsusi işlərindən əl çəkib hökumətin qanununu düzəltməyə məşğul olmalıdırlar. Dövlət qulluğunda ancaq nazir və nazir müavinləri qala bilərlər. 17 gün məsələsi qaldırılmasın, qanun ancaq bundan sonra üçündür.

**Məmməd Əmin Rəsulzadə** - Burada iki məsələ vardır. Parlament üzvlləri başqa yerlərdə xidmət edə bilərlərmi, ya yox? Bu bir qanun şəklində məclisdən keçməlidir. Bu qanunu təklif kimi qəbul edək, ya qanun şəklində məclisə götürək? Əlbəttə, bu bir qanun olmalıdır. Dövlət xidmətində olanlar başqa yerlərdə parlament maaşından çox olar isə buradan almamalıdır. Əks surətdə təfavütünü alacaqlardır. Bunu da məruzəçi əlavə olaraq bir təshih şəklində qəbul etməlidir.

**Əhməd Cövdət** - Mən təklifin nakaza qoyulmasına razıyam.

**Cəmo bəy Hacınski** - Mən elə zənn edirəm. O nakaz ki, hazır olacaqdır, o, iki ay çəkəcəkdir. Belə bir nakaz seymdə hazırlanmadı. Təklif edirəm bu məsələni əsasən qəbul edək, o üzvlər ki, başqa xidmətdədirlər, qulluqlarından əl çəkməlidirlər; nazir və nazir müavinlərindən başqa.

**Sədr** - Təklif var ki, parlament üzvləri başqa hökumət qulluğunda olmasınlar.

**Mirmehdiyev Miryəqub** - Bu məsələ növbədə yoxdur?

**Sədr** - Xeyr! Bu məsələ məruzədən doğma bir məsələdir ki, gərək həll olunsun. Bir təklif də var. Bu qanun qəbul edilməyənəcən təxir edilsin.

**Axundzadə Rəşid bəy** (yerindən) - Gərək müəyyən olsun ki, üzvlər hanki qulluqdan çıxmalıdır. (Adminstrativni) yaxud başqa qulluqdan? [92 - 93]

**Sədr** - Təklif müəyyəndir. Dövləti və içtimai müəssisələrdə olanlar. Bir şəxs iki yerdə dövlətdən məvacib ala bilməz.

**Əhmədov Yusif** - Söz veriniz.

**Yusif Əhmədov** - Burada təklif odur ki, parlament üzvləri hökumət və ya ictimai xidmətlərdə olsalar məvaciblərinin təfavütünü alsınlar. Qulluq qulluqdur. Hər yerdə qulluq etmiş olsa bir təfavütü yoxdur. Nə səbəbə dövləti və ictimai müəssisələrdə olanlar məvacib almasın, başqa yerdəkilər alsın.

**Sədr** - Təklif belədir. (Oxuyur). Məclisi-məbusan əzaları nazir və nazir müavinlərindən başqaları qulluqdan əl çəkməlidirlər. Bu təklifi səsə qoyuram.

**Mir Mehdiyev** - Müzakirə olmamış bu təklifi səs qoymaq olmaz.

**Məmməd Əmin** - Hərgah istəyirsiniz müzakirəyə qoyaq.

**Səfikürdski** - Məsələni iki yerə bölmək lazımdır ki, iki yerdə qulluq edib məvacib almaq olmaz. Xəzinəmiz birdir. Qulluqdan çıxmaq məsələsi hələlik qalsın. Bəzi qulluqlar vardır ki, ikisini bərabər ifa etmək mümkündür. Amma zabitiyyə və nəzarətdə çalışanlar isə əlbəttə qulluqdan xaric olmalıdır. Parlament iclasında nazirləri tənqid edəcək və buradan çıxdıqca nazirin əmrini necə yerinə yetirməyə onun qüvvəsi çatacaq.

**Vinoqradov** - (rus dilində)

**Sədr** - Mən təklifi yenə səs qoyuram. Hər kəs istər ki, bu məsələ bu gün burada həll olunsun, əlini qaldırsın. İstərsəniz başqa iclasa qoyalım. (Ləhinə 1 nəfər, əleyhinə isə əksəriyyət).

**Məmməd Əmin Rəsulzadə** - Burada təshih var idi. İki yerdən məvacib alınmasın. Təklif belədir. Parlament üzvləri bu dövlət qulluğunda olsalar və orada da buradan çox məvacib alır isə, buradan məvacib almağa hədləri yoxdur. Yox, əks halda buradan təvafutü alacaqdır.

**Sədr** - Etiraz edən yoxdur ki? Səsə qoyur, təklif qəbul edilir.

**Abbasqulu Kazımzadə** (oxuyur).- Məclisi-Məbusan binası təmiri üçün mühəndislərin smetasına görə 80 min rubl pul lazımdır. İstəsəniz maddə-maddə oxuyaram. [93 - 94]

**Sədr** - Təmiart üçün müfəssəl smeta vardır. İstəsəniz maddə-maddə oxunsun. Etiraz yoxsa, qəbul edilsin. Səslər - ümumən qəbul edilir.

**Sədr** - Smeta qəbul olunur.

Rəyasətə bir müavin, bir baş katib və iki katib müavini seçilməlidir. Buplardan əlavə fəhlə komisyonu, büdcə komisyonu, Məclisi-Müəssisan üsuli intixab layihəsini tərtib vermək üçün müvəqqəti bir komisyon intixab edilməlidir. İstəsəniz tənəffüs elan edək.

**Səfikürdski** - Bu məsələ gələn iclasa qalsın. Dustaqlar, məsələsi mühümdür. Bu barədə də bu gün danışılsın. Bu məsələdə birinci iclasda qaldırılıb, indiyə qədər əncampəzir olmamışdır. Bu barədə rəylər birdir. Mən dustaqlar məsələsinin həll edilməsini təklif edirəm.

**Sədr** - hələ bugünkü növbəti məsələlər qurtarmamışlar.

**Məmməd Əmin Rəsulzadə** - Mən təklif edirəm ki, hər fraksiya bir nümayəndə göndərsin və komisyonlar təşkil olunsun, qeyri məsələlər bu gün qalsın.

**Sədr** - Mən təklif edirəm ki, tək olduğum üçün bu gün rəyasətə müavin və baş katib seçilsin.

**Cəfərov** - Bu komisyonları qəbul edək, intixabını gələn məclisə qoyaq. Və əlavə qapunları təshih və tərtib edici bir komisyonun təşkilini təklif edirəm.

**Səfikürdski** - Məclisi-müəssisanin seçki komissiyası dəxi intixab olunsun.

**Sədr** - Var, var, təklif var ki, dörd komisyon təşkil olunsun. Bu komisyonlara hər fraksiya bir nümayəndə göndərsin. Xahiş edirəm mövcud fraksiyalar hərgah yeni vücuda gəlmiş fraksiyalar varsa, da özləri haqqında dəftərxaiaya məlumat versinlər.

**Cəfərov** - Bu komisyonları əsasən qəbul etmək, bu komisyonlarda neçə nəfər iştirak edəcək|lər, mütənasib surətdə seçilsin.

**Sədr** - Elə isə bu məsələ gələn iclasa qalsın. İndi baş katib seçilsin. Namizəd göstərmənizi xahiş edirəm.

**Mir Mehdiyev** - Mübadileyi - əfkar üçün fraksiyalara vaxt verilsin. Ta ki bunlar müəyyən bir namizəd göstərsinlər.

**Sədr** - Bunun üçün tənəffüsmü istəyirsiniz? [94 - 95]

**Mir Mehdiyev** - Yox, gələn iclasa qoyaq.

**Məmməd Əmin Rəsulzadə** (yerindən) - Tənəffüs elan edilsin.

**Sədr** - Beş dəqiqə tənəffüs elan edir. Tənəffüsdən sonra.

**Sədr** - Rica edirəm, katibliyə namizəd gostərəsiniz.

**Mir Mehdiyev** - "İttihad" fraksiyası Əhməd Cövdət əfəndini təklif edir.

**Məmməd Əmin Rəsulzadə** - Müsavat firqəsi bu təklifə iştirak ilə təbrik edər.

**Sədr** - "İttihad" fraksiyası Əhməd Pepinovu katibliyə təklif edir.

"Müsavat" qəbul edir.

**Əhməd Yusif** - Bitərəflər fraksiyası da bu namizədliyə razıdır.

**Sədr** - Deməli, müttəhidür-rəy Əhməd Cövdət baş katib seçilir. (Alqış) Bununla məclisi bitmiş hesab edib gələn iclası təyin etmənizi rica edirəm.

**Səslər** - Heyəti rüəsa ozü təyin və elan etsin.

İclas saat 4 tamamda qapanır.

**Arxiv: f. 895, siy. 1, iş, 1, vər. 29-36.**

## № 4

## Dördüncü fövqəladə iclas

*20 dekabr 1918-ci il*

Gündüz saat 1 tamamda Həsən bəy Ağayevin sədarəti və Əhməd Cövdət bəyin katibliyi ilə açılır.

Möhtərəm parlament əzası! Bu gün parlameitin fövqəladə iclası çağırmasına səbəb, iki fevqəladə hadisədir. Bu iki məsələ bir-birinə o qədər mərbut, sıxı surətdə əlaqədardır ki, bunları bir-birindən ayırmaq qabil deyildir. Bunlardan biri bir neçə gün bupdan qabaq vaqe olmuşdur. O biri isə bir neçə müddət bundan qabaq başlamış və indiyədək davam etməkdədir. Hamınıza məlumdur ki, iki həmsayə qövm olan gürcü və [95 - 96] erməni millətləri arasında əlaqə pozulub. Hətta müsadiməyə müncərr olmuşdur. Rəsmi surətdə elani hərb edilməmiş isə də, müharibə qeyri-rəsmi surətdə başlanmışdır. Yenə də qan çay kimi axır. Göylər dağılır, şəhərlər yanıb dağılır, yenə də toplar partlayır, yüzlərlə adam top və mitralyoz qurbanı olur. Guya beş sənəlik müharibədən vəhşilər doymamış, guya beş sənəlik qitaldan bayquşlar qane olmadı. Biz müsəlmanların nümayəndələri, firqələri Tiflisdə, Seymdə ikən demişdik ki, həmsayələrimiz ilə sülh və müsalimətlə yaşamaq istəriz. Bu quru söz olmayıbsa felən işlərimiz ilə də isbat etmişik. Gürcü qonşularımız da bu fikirdə idilər və belə də siyasət yürütməyə çalışırdılar. Qonşumuz olan ermənilərin bəzi məsuliyyətsiz dəstləri vəhşiliklərini yürüdərək təqsirsiz gürcü qonşularımızın hüququna təcavüz edirlər. Məsələn, Gəncənin üç qəzasında Ağdam, Susa, Cəbrayıl,və Zəngəzur mahallarında, Tiflisin Sənaen tərəflərindən toplar partlayır qurşun yağır. Həmin bu iki məsələdir ki, bizi buraya cəm olmağa vadar etdi. Bu münasibətlə əvvəl Şuşa məbusları və sonra da sosialistlər fraksiyası hökumətə müraciətlə istizah etmişlərdir. Müsaidənizlə oxusunlar.

**Əhməd Cövdət** (oxuyur) - Bu axır vaxtlarda varid olan xəbərlərə görə Andranik təhti-komandasındakı qoşun ilə Azərbaycan Cumhuriyyətinin hüdudunu keçib, Zəngəzur, Şuşa və Cəbrayıl qəzalarında bir çox kəndləri xarab edib, köməksiz xalqı bəzən qırıb, bəzən də səhralara salırlar. Bu əhvalat hökumətə məlumdurmu? Əgər məlum isə nə binagüzarlıqda olubdur.

**Sədr** - İstizah verənlər bunun təcili surətdə müzakirəsini istəyirlər. Hər kəs bu barədə danışmaq istəyir. Məhərrəmov, buyurun!

**Məhərrəmov** (yerindən) - Bu istizahani müzakirədən əvvəl hökumət cavab verməli idi.

**Sədr** - Siz buyurunuz, görək, təcili surətdə müzakirə olunmasını istəyirsinizmi?

**Məhərrəmov** - Əlbəttə, təcili surətdə olmalıdır.

**Sədr**- Buyurunuz, kürsüdən söyləyiniz.

**Məhərrəmov** - Möhtərəm parlament məbuslarına məlumdur ki, axır vaxtlar Qarabağ, Cəbrayıl və Zənkəzur uyezdlərindən [96 - 97] bir çox teleqraflar gələrək, orada icra olunan vəhşiliklərdən əhali şikayət etməkdədir. O yerlərdə Andronik dəstələri bir çox göylər dağıdıb, evlər xəraba qoymuşdur. Biz xahiş ediriz ki, hökumət bu xüsusda nə kimi təşəbbüsatda bulunduğu halda məlumat versin.

**Sədr** - Məsələnin təcili surətdə müzakirəsinə etiraz yox isə təklif edilir. (rusca tərcümə edir). Təklif qəbul edilir. Söz rəisi vükəlanındır.

**Fətəli Xan Xoyski** - Zəngəzur əhvalatı təzə bir şey deyil. Bu çoxdan başlamış bir işdir. Burada oturan məbuslara məlumdur ki, vaxtilə bir para ermənilər tərəfindən Qarabağ haqqında bir məsələ qaldırılmış idi. Hələ iyul ayında Andranik başına bir dəstə çiteçi yığaraq İrəvan quberniyasından Gəncə quberniyasının hüduduna keçdi. Buranı deməliyəm ki, Andranik Türkiyə təbəəsidir. O vaxt Azərbaycan hökuməti hələ Gəncədə ikən erməni hökumətinə müraciətlə isticvab etmişdi ki, Andranik sizin tərəfinizdən iş görür, yoxsa bu hərəkətlər onun öz təşəbbüs dürmü və onun qoşunları erməni hökumətinə tabedirmi, yoxsa onun hərəkətləri, şəxsi təşəbbüsləri və adi üsyan kimidirmi? Erməni hökuməti cavab verdi ki, Andranikin erməni hökuməti ilə heç bir əlaqəsi yoxdur, özü də bir asidir. Erməni hökuməti özü də onun rədd edilməsini və üsyanın yatırılmasını istəyir. Fəqət, gücü yoxdur, iş görə bilmir. Sizə məlumdur ki, Andranik iyil ayında Zəngəzur mahalında böyük fənalıqlar yaparaq bir çox göylər dağıtdı, nəhayət Şuşa qəzasına keçərək Əsgəran yolunu bağladı. O zaman böyük fəlakətlər çıxırdı. Fəqət Azərbaycan hökumətinin əsgəri qüvvəsi o zaman yalnız Bakı məsələsinə münhəsir idi. Ona görə də ancaq Gəncədən iki dəfə erməni, müsəlman deliqasiyonu göndərdi. Lakin bundan bir şey çıxmadı. Andranik öz işində dəvam edirdi. Sentyabr ayında Bakı alınandan sonra hökumət buraya koçdü və dərhal bu məsələyə diqqət verərək, özünə borc bildi ki, Andranik məsələsinə xitam versin. Ona görə də çeteçilər müqabilinə bir miqdar əsgəri dəstə göndərdi. Qoşunumuz müharibə nəticəsində Andraniki Əsgərandan çıxarıb, tamam Şuşa uyezdindən və Zəngəzur mahalının çox yerindən qovdu. Andranik qaçdı. Demək istəmədiyim bəzi səbəblərə görə biz bundan sonra artıq yürüşümüzü dəvam [97 - 98] etdirə bilməz idik. Bu oktyabr ayında idi. O zaman sakitlik hökmfərma idi. Andranik Gorusda idisə, heç bir fəaliyyətdə bulunmurdu. Noyabrın ortalarında işlər tamamilə dəyişdi və muttəfiqlərin təklifinə Görə türk əsgərləri Azərbaycanın hər yerindən çıxıb getdi. Ovza

dəyişib əhval qeyri-müəyyən oldu. Noyabrın 20 və 23 dən sonra Andpranik yenə baş qaldırıb, ayın 25-dən sonra fəlakətlər çıxarmağa başladı, böyük xətalar əmələ gəldi. Bu xüsusda mənə gələn teleqramlar qəzetlərdə vardı, hamınıza da məlumdur ki, Zəngəzur malahında nə qədər kəndlər dağıldı, yandı, əhaliyə nə qədər böyük zərər və xəsarətlər dəydi, şübhəsiz ki, bu işlərə hökumət laqeyd baxa bilməzdi. Biz öz tərəfimizdən lazım və mümkün olan qədər çalışıb tədbirlər gördük. Onların müqabilinə əsgəri qüvvə göndərilməsi barəsində teleqrafən binagüzarlıq etdik. Eyni zamanda borc bildim, müttəfiqlər nümayəndəsi general Tomsona məlumat verim.

Çünki, o mənə də deyib, qəzetlərdə də xəbər veribdir ki, müttəfiqlərin məqsədi Qafqaziyada sülh və müsalimi dəvam etdirməkdir. Binaən-ileyh mən teleqramların bir surətini və bir məktub general Tomsona göndərdim. Tomson dərhal ənvan tədbirlər görməyi vacib bildi. Mən general Tomsona məktubu ancaq xəbərdarlıq kimi yazmışdım, daha yazmamışdım ki, təvəqqe edirəm, bizə kömək edin. O, özü lazım bildi ki, Qarabağa bir heyət göndərsin ki, onun məktubunu Andronikə yetirsin. Heyət ingilis, müsəlman və erməni nümayəndələrindən ibarət idi. Bundan əlavə Tomson bir çox teleqramlar çəkdi. Noyabrın 27-də bu deleqasiya Şuşa və Zəngəzura əzimət etdi. Bir neçə gün Şuşada qalıb heyəti ümum qəza əhalisinə təklif etdi ki, əmin və asayişlə yaşasınlar və xəbər verdi ki, ingilislər və onların müttəfiqləri heç bir vaxt xəta və iğtişaş törətməyə razı olmayacaqlardır. Bir neçə gün Şuşada qaldıqdan sonra deleqasiya Zabuğ deyilən yerə getdi ki, haman yerdə müharibə gedirdi. İngiltərə nümayəndəsi "Andranikin yanına gedib məktubu vermiş və bildirmişdir ki, asayiş bərpa edilməsə bütün məsuliyyət onun öhdəsinə düşəcəkdir. Bundan əlavə Tomson bir neçə teleqramlar daha vurdu, çünki o zaman ermənilər çox yerdə baş qaldırıb Gəncə, Qazax,Cavanşir və Cəbrayıl qəzalarında quldur dəstələri kimi iş görürdülər. hər yerdə Tomson [98 - 99] teleqramlar çəkdi və eyni məzmunda Andranikə məktub yazdı, məktubu mən görmüşəm. Ancaq özlərinin dediklərinə görə bu məktub bu məzmunda imiş: Hamı ermənilər öz yerlərində sakit oturub, hüçum və təcavüzatda bulunmasınlar. hərgah ermənilər tərəfindən belə hərəkət baş verərsə, məsuliyyət təmamən onların öhdəsinə düşəcəkdir.

Bundan sonra general Tomson teleqrafən və məktubən Şuşa və Zəngəzura göndərilmiş heyətə Tərtərə və başqa qəzalara getməsini təklif eyləmiş, onların məzmunu belə imiş. (Oxuyur). Mən sizə ərz eləyirəm ki, bu işlərdən sonra iki-üç günlük sakitlik oldu. Elə bil ki, heç şey yox imiş. Daha Zəngəzur və Şuşa uyezdlərindən bir xəbər gəlmədi, hamı da arxayın oldu. Fəqət, yenə iki-üç gün keçmədi ki, teleqram, teleqram üstündən gəlməyə başladı ki, Andranik baş qaldırıb, ermənilər ilə bərabər yenə öz hərəkatında davam edir. Müsəlmanlar ingilis heyətinə inanıb, öz sərngərlərindən çıxıb getmişlər. Ermənilər haman saat başlamışlar kəndləri yandırıb dağıtmağa, belə ki, arvad-uşaq bağlara, meşələrə dağılıb sərkərdən qalmışdır. Bu xəbər belə yetişən kimi bizdə olan hər növ tədbirləri gördük və dekabrın 3-də Tomsona belə bir məktub yazdım. (Oxuyur). Aldığımız teleqramların surətini məktubla göndərmişəm. Teleqramları oxumağa ehtiyac yoxdur, çünki qəzetlərdə çap edilmişdir. Biz öz tərəfimizdən qoşun qüvvəmizi onun qarşısına göndərməklə bərabər Tomsona da təklif etdik ki, bu barədə tədbirlər görsün. Tomson Zəngəzura təzədən heyət göndərməyi lazım bilib, mənə də xəbər verdi ki, bu dəfə heyət əvvəlki kimi olmayıb, bir qədər əsgəri surətdə olmalıdır.

Ona görə də iki zirehli avtomobil, on beş ingilis əsgər və zabiti, bir nəfər bizim nümayəndəmiz Rüstəmbəyovdan ibarət olaraq "heyət göndərdi və Andranikə yenə kağız göndərdi. Heyət hələ qayıtmayıb, kim ilə görüşüb, nə ediblər, hələ bilmirik. Şuşadan ətrafa getmələri haqqında hələ bir xəbər yoxdur. Bu barədə məlumatlar olar isə borcluyam ki, sizə xəbər verəm. Burasını ərz etməməliyəm ki, bu müddət arasında qəzetdə də oxuduğumuz üzrə bir xəbər çıxdı ki, guya Tomson tərəfindən əvvəl dəfə göndərilən heyət və məktub ilə guya Tomson Qarabağın ixtiyarını və idarəsini Andranikə tapşırmış [99 - 100] imiş. Şübhəsizdir ki, əgər belə olsa idi, burası bizim üçün böyük bir iş idi. Əgər burası belə olsa idi, onda hökumətimizin kökünə əl atılmış olur, bu iş Azərbaycanın hüququna təcavüz olur idi. halbuki, biz var-qüvvəmizlə Azərbaycanın hüququnu müdafiə edəcək və heç kəsə yol verməyəcəyiz ki, kənardan gələnlər Azərbaycanın hüququna təcavüz etsinlər. (Alqış).

Hökumət aşkar baxa bilməzdi ki, başqası gəlib Azərbaycanda hakim olsun. Mən bu xəbərləri eşidib o zaman təhqiqata başladım. Mən heç vaxt özümü inandıra bilməzdim ki, ingilis və müttəfiqlər mədəni bir hökumət olduqları halda hüququmuzu, ixtiyarımızı belə bir məqamda təpik vurub əlimizdən alır məqaminə gəlsinlər. Mən əminəm ki, belə olmaz. Mənim fikrim dürüst oldu. Buna çox sübutlar var ki, sizə söyləmək istəmirəm.

Əmin ola bilərsiniz ki, Tomson tərəfindən qəzetlər yazdığı məzmunda Andranikə məktub yazılmamışdır. Andranikə bayaq oxuduğum məzmunda Tomson tərəfindən məktub yazılmışdır ki, hamı ermənilər öz yerlərində sakit oturub hücum və təcavüzata bulunmamalıdırlar. Hərgah ermənilər tərəfindən belə hərəkət baş verər isə məsuliyyət bütünlüklə öhdəsinə düşəcəkdir. Tomson tərəfindən yazılan kaqız bu məzmunda olmuşdur. Qəzetlərdə yazılan yanlış məktuba həmin qəzetlər vasitəsilə etiraz olacaqdır.

Qarabağa zirehli avtomobillər və əsgərlər ilə heyət gedən vaxtda istərəm Tomsona yazıb xəbər verəm ki, Qafqaziya əhalisi bu tövr heyətləri çox görmüşdür. Bunlar ilə iş düzəlməyib nəticəsiz qalacaqdır. Burada iş görmək üçün söz ilə deyil, başqa yol ilə təsir etməlidir. Göndərilən heyətin nə iş gördüyü və nəticəsi məlum deyildir. Məlum olduğu üzrə heyət Şuşaya çatıb və oradan keçmiş də olsun. Görünür ki, ermənilər öz hərəkətlərində davam edirlər. Neçə gün əvvəl alınan teleqramları oxuyalım. Bu teleqram kanun əvvəlin 14-də alınmışdır. Sabahı dəxi belə bir teleqram gəlmişdir. (Oxuyur).

Deyilənlərdən əlavə bir çox digər teleqramlar da vardır ki, erməni hərəkatının davamını göstərir. Sizə məlum olduğu üzrə ingilis və müttəfiqlər ilə lazım olan tədbiri görmüşəm və indiyə qədər erməni hərəkatı haqqında alınan məlumatı [100 - 101] müttəfiqlərə göndərmişəm. Bunlardan savayı indi öhdəmizdə öz vəzifəmiz vardır. Bacardığımız qədər tədbirlər ittixaz olunubdur. General Tomeona lazım gələn məktublar yazılıb, əsgəri qüvvələrimizin silah gücü ilə hərəkət etməsi əmri verilib, bir çox başqa tədbirlər də görülmüş, onların hamısını burada söyləməyə lüzum görmürəm. Andranikin başında olan dəstə çetə və quldur dəstələrindən ibarətdir. Bunlların_nə fikrdə olduqları və bu fikrin də müəyyən olduğu məlumdur. Bunların aşkar fikirləri budur ki, Zəngəzur və Şuşa uyezdlərini Azərbaycandan ayırıb. Ermənistana mülhəq etsinlər. Bacardıqları qədər bu yolda işləyirlər. Bunların qarşısına qüvvə göndərdikdə bir müddət sakit olub, yenə fürsət taptıqda öz "fikirlərində sabit olub əməllərinə nail olmaqdan ötəri işə başlayırlar. Azərbaycan hökuməti nə keçmişdə, nə də indi ixtilaflı məsələləri silah gücü ilə həll etmək arzusunda olmamışdır. Hərgah belə bir məsələnin həlli üçün silaha sarılmaq lazım gəlmiş isə də, biz özümüz deyil, bizi məcbur etmişlər.

İxtilaflı sərhəd məsələlərinin sülh yolu ilə həll olunmasını təklif etmişik. Başqaları ilə hər bir məsələni sülh ilə həll etməyə çalışmış. Azərbaycanda nə erməni, nə müsəlman, nə də başqalarının qanı tökülməmək üçün əlimizdən gəldiyi qədər səy etmişik. İndi də heyət göndərib məsələlərin sülh ilə həll olunmasına mümkün qədər çalışmalıyıq. Lazımi təqdirdə silaha sarılsaq, hamı bunu bilir ki, bizi belə vəsiləyə əl uzatmağa məcbur ediblər. hökumət tərəfindən ərz edirəm ki, mümkün qədər zərərsiz, qansız, sülh ilə hər məsələnin xitamə yetməsinə çalışmaq, hökumət şimdi də belə müamilədə bulunacaqdır. Əks surətdə hökumət özü öz gücü ilə, qövvəsilə Azərbaycan Hökumətinin hər bir təcavüzdən mühafizə edəcəkdir. (Mərkəzdən, sağdan alqış).

**Sədr** - Söz Əhməd Cövdətindir.

**Əhməd Cövdət** - Əfəndilər! Bugünkü iclasın təcili surətdə çağrılmasına səbəb iki məsələ haqqında Məclisi-Məbusan sədrinə sosialistlər namindən verilən məktub olmuşdur. Bu iki məsələnin həlli bütün Zaqafqaziya demokratiyası üçün mühümdür. Bu iki məsələ bir-biri ilə əlaqədardır. Birinci məsələ Qarabağ hadisatı və ikincisi isə Gürcüstan ilə Ermənistan [101 - 102] arasında vaqe olan müsadimədir. Qarabağ məsələsi ikinci məsələ ilə mahiyyətcə əlaqədar və şəkilcə birdir. Fəqət, biz Qarabağ məsələsini əlahiddə qoymuşuq. Qarabağda məlum olduğu üzrə 3-4 aydır ki, sakitlik yoxdur. Andranik başına bir dəstə cəm edib kəndləri dağıtmaqla məhv və tələf etməkdədir. Andranik üzərinə hökumət qoşun dəstələri tərəfindən hücum olduğundan Andranik çəkilməyə məcbur olub, sonra da yenə də öz işinə başlayır. Bunlar nə üçün olur? Dəstə başında duran kimdir? Məqsəd nədir? Andranikin məşhur olduğu məlumdur. Andranik Türkiyədə çetebaşı idi. Osmanlılar ilə uzun müddət müharibə etmiş, müsəlman və erməni qanlarının tökülməsinə səbəb olmuşdur. Avropa müharibəsi başladıqda Andranik Qafqaziya cəbhəsində Türkiyə əleyhinə mübarizədə bulunmuşdur. Andranikin məqsədi Osmanlı ermənilərinin haqq və hüququnu müdafiə etmək idi. Hərb zamanında bunun hərəkatı hərbə yaraşan sifətdə olmamışdır, bunun zülmü hər yerdə məlumdur. Qəzetlərdə bu barədə bir çox dəfələr yazılmışdır.

Sonra Andranik İrəvan, Naxçıvan və Ordubad mahallarına və oradan da İrana keçmişdir. Yolda müsəlman kəndlərini dağıdıb xarabazara döndərmişdir, hər tərəfdən qovulmuş olduğundan axırda Qarabağa gəlmişdir.

Andranikin dediyi nədir? O deyir ki, mən buranı Ermənistana tabe etmək istəyirəm. Hökumət rəisi dediyi kimi Andranikin kim olduğu erməni hökumətindən soruldugda, Ermənistan hökumət onunla əlaqədar olmadığını və onu bir quldur kimi tanıdığını deyib, onunla bildiyiniz kimi rəftar edin deyə cavab vermişdir.

Andranikin qarşısına əsgəri qüvvə göndərildikdə geri çəkilib sakit olmuş, qarşıdakı qüvvə azadlıqda yenə baş qaldırıb kəndləri dağıtmağa başlamışdır.

Andranik Türkiyə ermənisidi. Bura erməniləri ilə əlaqədar deyildir. Odur ki, onun tökülən qanlara heyifi gəlmir. Bu dağılan xanimanalara ürəyi yanmır. Burada bir şey demək istərəm. Özü insaniyyət düşməni olmaqla bərabər Andranik bir tək müsəlman kəndlərini deyil, bəlkə erməni kəndlərinin də dağılmasına səbəb olur. Burada gizli bir məsələ vardır. O da Qarabağ mahalının Ermənistana ilhaq edilib Azərbaycan idarəsi təhtində olmasına mümaniət göstərməkdir. Bu fikir ermənilərin [102 - 103] baş firqəsi olan daşnakasakanların məramidir. Bu firqə hətta Petroqrada Zaqafqaziyanın təqsim edilməsi məsələsi həll edildikdə bir layihə (proje) təqdim edib Zəngəzurun Ermənistana ilhaqini tələb etmişlər idi. Bu məsələyə Tiflisdə baxılıb əmələ və saldat vəkilləri şuralarının nahiyə mərkəzi tərəfindən rədd edilmiş idi. Torpaq və sərhəd məsələlərini həll etmək üçün bir komissiya təşkil edilmişdi.

O zaman bu millətlər ayrılıb hökumət təşkil etməmişlərdi. Məsələ ümumi bir məsələ idi. İndi isə bu hökumət məsələsi olmuşdur. Hərçəndi ki, Ermənistan hökuməti rəsmən bizə, "Qarabağda işimiz yoxdur, Qarabağı istəmirik və Andranik ilə əlaqəmiz yoxdur" deyir, lakin işlərin mahiyyəti bundadır. Əfəndilər, bizim firqəmiz və ümum sosialistlər camaatin və bütün kəndlilərin mənfəətini nəzərə almışdır. Biz hər vaxt böylə məsələlərin silah gücü ilə deyil, sülh ilə həll edilməsinə çalışmışıq, bu məsələlər yenə sülh vasitəsilə həll edilməlidir. Bu gün cahan müharibəsi bitmiş, bir çox qurbanlar verildi. Lakin dövlətlər arasında olan məsələlər həll olunmadı. Bunların həlli üçün ümumi konfrans olacaqdır. Cəmiyyəti-əqvam təşkil olunacaqdır. Bu gün hər bir tərəf məsələlərin silah gücü ilə həll olunmasını görür. Hərgah Azərbaycan ilə Ermənistan və Gürcüstan arasında hərb olur isə bura millətləri məhv olurlar. Bu, hərb, hərb deyildir. Çünki müharibə edən bütün dövlətlər öz aralarında

hərb qanunu göz-əyirlər. Müharibədən sonra hər iki dövlət təbəəsi sülhdən sonra yenə dövlət ola bilir. Lakin Qafqaziyada vaqe olan bu müharibə millətləri zəhərləyib, özlərini fəlakətə düçar edər. Qafqaziya müharibəsi rəsmi müharibəyə bənzəməz. Qarabağda dava olur, erməni müsəlman ilə vuruşurlar. Böylə müamilələrin bitməsini tələb ediriz. Bizim fikrimiz məsələlərin həlli ilə orada yaşayan millətlərin gözəl surətdə idarə olunmaları idi. Erməni və müsəlman üçün istər Ermənistanda, ya Azərbaycanda yaşamasının heç bir təfavütü yoxdur. Əlbəttə, bu millətdən ötrü öz iradəsi altında yaşamaq daha yaxşıdır. Fəqət, həyat məsələsi araya gəldikdə bu fikirlərdən əl çəkilməlidir. Qarabağda bir tək müsəlmanlar deyil, ermənilər də zərər görürlər. Teleqramlarda müsəlmanlar döyülür isə də, ermənilərə [104 - 105] də xəsarət toxunması aşkardır. Vükəla rəisinin oxuduğu axırıncı teleqramlardan görünür ki, Qarabağda məhəlli ermənilər də müharibə əleyhinədirlər. Bu gün bir müsəlman kəndi, sabah bir erməni kəndi dağılmaqdadır. Buralarda yaşayanlar hamısı insanlardır. Hər iki tərəf zərər görüb, can tələf olur. Bizim təklifimiz bu məsələləri silah ilə deyil, sülh ilə müəyyən bir məqsədi vardır. O da erməni ünsürünü Azərbaycandan ayırıb, Ermənistana tabe etməkdir. Lakin belə olsa, onu yenə sülh yolu ilə etmək olardı. Lakin o cürə ki, Andranik başlamış, belə olmaz. Bizim fikirlərimiz burada yenə bu işi sülh ilə bitirməkdir. Rəisi-vükəla söylədi ki, göndərilən nümayəndələrdən bir fayda çıxmamışdır. Fəqət, zənnimcə mürəxxis heyətlərindən bəzən ziyadəsilə faydalar çıxır. Madam ki, erməni camaatinin burada razılığı yoxdur, deməli mürəxxislər heyətlərindən bir fayda çıxar. Bir vaxtlar Andranik ingilis qulluğunda olurdu, onlardan pul alırdı. Məlum ki, bir qədər də ingilislərin sözünə qulaq asa bilir. Deməli ki, onların vasitəsilə Andranikə təsir yetirmək mümkündür. Gərək onu Zəngəzurdan çıxaraq, əks halda nə müsəlman, nə də, erməni xalqı rahat olacaqdır. Amma əfəndilər, biz belə nümayəndələr göndərmək tərəfdarı olmaq ilə bərabər, ondan istəriz ki, bu məsələnin sülh üzrə həll edilməsi təşəbbüsü ermənilər tərəfindən görülmüş olsun. Ancaq biz buna tərəfdar ikən Qarabağda olan tufana, evlərin dağılmasına, ailələrin kəsilməsinə göz qapaya bilmərik. Qarabağda, bu kimi yerlərdə olan və müsəlman camaatini müdafiə etmək üçün hər vaxt qüvvəmiz hazır olmalıdır. (Alqışlar.) Oraya iki zirehli avtomobillərin getməsi azdır. O yerdə ingilislər qüvvəsinin oraya getməsini biz istəməz idik. Biz oraya Azərbaycan qüvvəsinin getməsini istər idik. (Alqışlar). Oraya gedən qüvvə camaatin öz içindən çıxmış olsun. Gərək, camaat anlasın ki, ora gedən qüvvə onun hüququ müdafiə edəcəkdir. Biz nə qədər hərb tərəfdarı olmasaq da fəqət, bu vaxtda qüvveyi-cəbriyyənin bütün-bütünə Qarabağda icra olunmasını rədd etməyir, istəriz.

**Sədr** - Söz Mahmudov Mustafaya verilir.

**Mahmudov Mustafa** - Möhtərəm məbuslar! Qarabağ məsələsi barədə o ki, lazım idi söylədim. Bu barədə sizin fikrinizi bir nöqtəyə cəlb edirəm. Rəisin və natiqlərin nitqlərindən [104 - 105] bu anlaşıldı ki, Andranik ilə guya erməni xalqı arasında heç bir əlaqə yoxdur. Andranik bir Türkiyə təbəəsidir ki, işi bir çete düzəldib müharibə etməkdir. Bəs belə olanda kimdir o? (Soldan: daşnaq). Belə olanda onun tutulub öldürülməsi lazımdır. Bu bir quldur, bir asidir. Lakin belə bir adam ilə müttəfiqlər nümayəndəsinin mərsulu görünür. Və ona görə Qarabağ ətrafının mühafizəsi tapşırılır.

Doğrudur, bizi rəisi-vükəla inandırır ki, onunla belə bir irsal-mərsul heç olmayıbdır. Fəqət, o kimdir və nədir ki, həm özü sakit olsun və həm də camaati mühafizə etsin. Əgər böylə isə bunun ağır nəticələri ola bilər.

**Sədr** - Rəisi-vükəla elə bir irsal mərsulun olmadığını söylədi. Andranikə sakit olması əmr olunmuşdur. (Doğrudur, alqışlar).

**Mahmudov** - Çox gözəl, arzu olunar idi ki, bu irsal mərsul olmaya idi. Bu məsələ barəsində müsavat fraksiyası tərəfindən qəbul olunmuş və parlamana təklif olunan qərarnamə bu-dur. (Oxuyur). Vaqe olan istizahə cavabən hökumət rəisinin Qarabağ məsələsi və bu vilayətdə vəhşiliklər icra edən Andranik çetesi haqqında verdiyi izahatı dinləyərək Azərbaycan Məclisi-Məbusanı vətənin təkmamiyyəti-mülkiyyəsi, Azərbaycan Cümhuriyyəti əhalisinin təmini-əsayişi və hürriyyətinə aid olan bu məsələdə bu vaxta qədər görülmüş olan tədbirlərdən əlavə hökumətin daha şiddətli və daha qəti siyasi və əsgəri tədbirlər icrasında məbusan heyətinin daima himayəti etibarinə məzhər olmağını bəyan ilə növbədəki məsələlərin müzakirəsinə keçir.

**Sədr** - Söz Vinoqradova verilir.

**Vinoqradov** - (rusca)

**Sədr** - Daha natiq olmadığından müsavatın bu təklifini səsə qoyuram.

**Şeyxülislamov** (yerindən) - Söz veriniz.

**Sədr** - Danışmaq istəyirsiniz?

**Şeyxülislamov** - Bəli, Söz istəyirəm.

**Sədr** - Buyurunuz.

**Şeyxülislamov** - Möhtərəm məclis əzaları! Bizim sosialistlər mənə bir ağır vəzifə vermişdir. Bu vəzifə bir millətin təqsirləndirilib, o birini müdafiə etmək deyil, borcum [105 – 106] deməkdir ki, həqiqəti ayaqlayırlar. Qafqaziya millətləri Rusiya inqilabından sonra öz muxtariyyətlərini əllərinə aldıqda bir yerə toplanıb, öz müqəddəratlarını qüvvətli bir əsas üzərində tikib gözəl surətdə qurmalı idilər. (Soldan: düzdür). Fəqət, bu olmadı. Qafqaziya millətləri içində milli şovinizm baş qaldırır. (Soldan: düzdür). Yenə də qanlar çay kimi axıdıldı. Biz sosialistlər bu qiyamətləri qoparanlara qarşı öz etirazımızı buradan bəyan edirik. Əgər bunların

qabağı alınmaz isə Qafqaziya qitəsi Balkan yarımadası kimi qan dəryasına dönə bilər. Burada görünür ki, balaca millətlərdə böyük impizm vardır. (Soldan: düzdür). Necə ki, Əhməd bəy yoldaşımız söylədi. Burada dava olmayır, fəqət, burada bir-birini düşünməməzlik var. Hökumət rəisi burada deyir ki, burada hökumət çalışır. Amma biz bunu qəbul etməyəcəyiz. Hərgah çalışılsa idi, böylə qital qurtarmış olar idi. Əsl məsələ hüdud məsələsidir. Bu məsələdən ötəri qanlar tökülür. Burada hökumət rəisi deyir ki, biz Andranikin erməni hökuməti ilə heç bir əlaqəsi olmadığını xəbər almadıq. Lakin mən bununla razı olmaram. Zira dağlar başında yaşayan xüsusi dəstlərin bir-birilə dava edib qan tökməsi, özü-özündən vücuda gəlməsinə heç bir vaxtda inanılmaz. Məlum olur ki, bu hərəkətin bir hazırlanmış layiləsi, projesi vardır ki, Sinaen dağlarından Şuşa dağlarına təkin toplar guruldayır, qanlar sel kimi axır. Bu layihə ermənilər üçün böyük əhəmiyyəti haiz daşnaq firqəsi tərəfindən hazırlanmışdır. Çünki demokratik müşavirəsində Tiflisdə aşkar oldu. Burada daşnaqlar dəstələri hüdud proqramı müşavirədə göstərəndə ona baxdılar, qəbul edilmədikdə, onların nümayəndəsi (Kirçikyan) söylədi ki, bu proqram qəbul edilməz isə, onlar bir də müşavirədə iştirak etməyəcəklər. İndi Azərbaycan və Sinaen dağlarında tökülən qanlar onun nəticəsidir. İnsaniyyət noqteyi-nəzərindən baxılsa, bu proqram qəbul ediləsi bir şey deyil idi. Biz də heç bir zaman razı olmarız ki, Azərbaycan yerləri onların proqramları ilə Ermənistana verilsin. Biz zənn ediriz ki, bu axıdılan qanların günahı milli firqələrin ümum demokratiyanın qabağında cavab da alacaqlar. (Alqış). Cavab da verməlidirlər. Biz gərək çalışaq ki, qan tökülmədən bu hüdud məsələsi sülh təriqilə həll bulsun. Bu yolda işləməyi də gələcək hökumətdən tələb edəcəyiz. Bu qiyamətləri qoparan, bütün Qafqaziya sülhünü pozan, qanlar ilə dağları boyayan ancaq daşnaklar firqəsi olmuşdur. Məəttəssüf burada daşnak yoxdur ki, mən açıq sözümü onların üzünə deyim. Gərək hökumət ermənilər ilə əlaqə peyda etsin. Ona görə oraya səfir göndərmək və çalışmalı ki, onların da burada səfirləri olsun. Biz sosialistlər müharibəyə zidd olduğumuz ilə bərabər, rəsmi bir müharibəyə şükür etməliyiz. Çünki orada dinc əhalinin hüququnu mühafizə edici qanun vardır. Burada isə müharibə deyil, qoca, qarı, övrət, uşaq qırılır. Dinc əhalinin xanimanları dağılıb, özləri çöllərə buraxılır. Bizim parlamana qəti təklifimiz budur ki, hökumət ermənilər ilə əlaqəsini aşkar edib sülh üzrə bu məsələni həll edib qurtarsın. Biz zənn ediriz ki, bu yaxında Qafqaziya millətlərinin konqresi vaqe olacaqdır və ümum Qafqaziya millətləri bir-birilə əlaqəni sazlaşdırıb bir konfederasiyon meydana gətirəcəklərdir. Əgər belə olsa, nahaq qanlar tökülməyəcək. Onu da xahiş edəcəyik ki, kənardan qüvvət almağa çalışmayıb, Azərbaycan buradakı olan millətlərin fikirləri ilə həmrəy olmalıdır.

**Sədr -** Söz Qara bəy Qarabəyovundur.

**Qarabəyli Qara bəy -** Möhtərəm məbuslar! Rəisi-vükəlanın verdiyi izahatdan görünür ki, hökumət lazım gələn tədbirləri görmüşdür. Biz də buna inanmalıyız ki, bu hökumət buna etidal dəm ilə baxmazdı. Fəqət rəis deyir ki, əlimizdə olan qüvvət ilə nə qədər lazım idi çalışıb və yenə də çalışacağız. Doğrudanda əllərində nə qədər qüvvələri var isə çalışıblar. Fəqət, bununla bərabər Qarabağda Andranik dəstəsi tərəfindən müsəlman kəndləri dağılmada, evlər, xanimanlar bərbad olmaqdadır. Arvad, uşaqlar qaçır. Rəisi-vükəla bunların bir daha olmayacağını bizə təminat vermədi və bir təminat da verə bilməz idi. Biz də bundan artıq təxmin edə bilməriz. Zira bir adam əlində olan qüvvət qədər iş görə bilir. Bu qüvvənin olmağını bilməklə bərabər mən vətənimi də çox istəyirəm, millətimi də çox istəyirəm. Vətənimin bir qarışını ermənilərə vermək istəmirəm. Görükdə ki, ingilislər oraya nümayəndələr göndərdilər, bir iş görüldüyü hələ yoxdur. Deməli, bizim öz qüvvəmiz olmalıdır. Əlimizdə olan qüvvənin həpsini əldə etmək lazımdır ki, bunların qarşısını özümüz alalım. (Mərkəzdən: [107 - 108] səhihdir, doğrudur). Hökumətə gərək deyək, onun əlində bir qüvvə olmalı idi, gərək bu vaxta kimi bir tədarük oluna idi. Olmayıbsa da bundan sonra olunmalıdır. (Mərkəzdən: səhih). Rəisi-vukəla verdiyi məlumata görə razılıq etməklə bərabər parlament gərək qüvvə düzəltməyi də ondan tələb etsin, taki Andranikin qabağını saxlaya bilək. Onun qabağını indi də saxlaya bilməsək, bəlkə daşnakların layihəsində olan hüdudunda durmadı, adlayıb bəriyə keçdi. Sonra gəlib əlimizdən Gəncəni də alar, o vaxt istiqlaliyyətimiz də olmaz. Belə ki, qəti surətdə onun üçün indidən hazırlıq olsun gərək. (Sağdan, mərkəzdən: alqışlar).

**Sədr -** Söz Abdulla Bəy Əfəndiyevindir.

**Əfəndiyev Abdulla bəy -** Möhtərəm məbuslar! Bu aləmşümul cahan müharibəsi yavaş-yavaş qurtarmağa üz tutur. Ümum millətlər müharibə meydanından çəkildikdə yavaş-yavaş bu müharibə dalğaları vətənimiz olan Azərbaycanı da adlayıb keçmişdir. Vətənimiz bir çox müddət müharibə ağırlığı altında inləyir idi. Nəhayət, dava yatırılaraq mütarikə elan edildi. Fəqət, bu mütarikə hələ bizə qarşı ədavət göstərən millətlər və tərəflər bilküllliyyə vətənimizdən çıxarılmamış əqd edildi. Bununla bərabər millətimiz bu mütarikəyə qane olmağı lazım bilərək heç bir ədavətkaranə hərəkətdə bulunmadı. Bu fikir ilə ki, qoşunlarımız ilə aramızda ixtilaflı məsələlərimiz həll edilməyib qalıb isə də eybi yoxdur, sülh konfransında həll edilər. Biz tabe olduq və insaniyyətdə bunu tələb edir idi. Zira böyük millətlər, Avropanın möhtəşəm topları ilə həll edilmədiyi məslələyi biz dəxi silah gücü ilə həll etməzdik. Biz belə zənn etdik ki, qonşularımız dəxi mütarikəyə razı olacaq. Və olmalı milliyyələrinə tamamilə çatmayıblar isə, istədikləri tamamilə hasil olmamışsa, bu məsələnin həllini onlar sülh konfransına mühəvvəl edəcəklərdir. Məəttəsəsüf, zənnimiz yanlış çıxdı. Zira az bir zaman keçməmiş ixtilaflı məsələlərin həlli üçün Gürcüstan hökumətinin təşəbbüsü ilə Tiflisdə bir konfrans dəvət edildikdə ermənilər gəlmədilər. Bu konfransda ixtilaflı məsələlər həll olunaraq, ümumsülh konfransında Zaqafqaziya

millətlərinin müttəhidən çalışıb, kəndi istiqlaliyyətlərini müttəfiqən müdafiə etmək və cumhuriyyətlərin təsdiqinə çalışmaq [108 - 109] üçün zəmin hazırlamalı idi. Lakin sonra dəvətə baxmayaraq Ararat cümhuriyyəti konfransa nümayəndə göndərmədi və nəticədə konfrans baş tutmadı. Bununla aşkar.oldu ki, erməni hökuməti Qafqaziya millətlərinin sülhçüyanə siyasətinə ziddir. Biz yenə inanır idik ki, bu qədər danışdıqdan sonra yenə saziş hasil olacaq. Lakin zənnimiz batil oldu. Son hadisat göstərir ki, bunlar saziş və etilaf axtarmırlar. İxtilaflı məsələləri sülh təriqilə həll etmək istəmirlər. Açıq deyəlim ki, hal-hazırda vaqe olan hadisə ən adi əsgəri plan ilə icra olunan bir davadır. Sinaen ilə Qarabağ arasındakı vaqiə müəyyən məqsəd ilə müəyyən plan üzərinə icra olunur. Burası quldur işi deyildir. Bunlar vəziyyətdən biaistifadə naili məram olmaq istəyirlər. Biz bu hərəkətlərin müqabilinə var qüvvəmizlə protest edək və hökumətimizdən dəxi tələb edirik ki, lazımı tədbirlər görsün, mümkün olan qədər məsələnin sülh təriqilə həllinə çalışsın. Belə mümkün olmaz isə sair çarələrə təvəssül etsin. Deyirlər, hazırda bizim qüvvəmiz yoxdur. Lakin bu səhvdir. Millət böyük bir qüvvədir. Millət görsə ki, vətən və istiqlalın müdafiəsinə durmaq lazımdır, dərhal çeteçilərin müqabilinə cümhuriyyətimizi müdafiə və mühafizə etməyə hazırdır. hökumətimiz millətin belə hazırlığına istinad edərək məsələni sülh ilə həll etmək mümkün olmasa, qüvvə müqabilinə qüvvə çıxara bilər.

**Sədr** - Təklif var ki, bu xüsusda müzakirata xitam verilsin. Etiraz yox isə müzakirə kəsilir, son söz hökumətindir.

**Fətəli Xan Xoyski** - Sosialistlərin birisi burada dedi ki, hökumətin gördüyü təbdbirlər kafi deyildir. Çünki kafi tədbirlər görülsə idi bu vaxta təkin ixtilaflı məsələlər sülh ilə həll edilərdi. Halbuki bu vaxtadək iş qurtarmamışdır. Fəqət, mən dedim, yenə də deyirəm ki, hökumət var qüvvəsilə çalışmışdır. Hələ iyul ayında Azərbaycan hökuməti qonşu millətlərin hamısına müraciətlə təklif etmişdi ki, sərhəd məsələsin sülh yolu ilə həll etmək üçün bir komisyon təşkil olunsun və bu məsələnin bu komisyon həll edə bilməz isə hakim təyin edilsin. O vaxt bizim təklifimizə bir cavab çıxmadı. İkinci dəfə biz Gürcüstandakı səfərimiz vasitəsilə yenə təşəbbüsatda bulunduq. Səfərimiz gürcülər ilə bahəm layihə hazırladı ki, Tiflisdə beynəlmiləl Zaqafqaziya konfransı [109 - 110] çağırılsın. Sizə məlum olsun ki, bu konfransın çağırılmasını biz özümüz təklif etmişdik. Konfransın layihəsi hazırlandı, təşrini saninin 10-na təyin edildi Sonra 17-si-nə, 20-nə, 30-na olmaq üzrə dörd dəfə təxir edildi. Fəqət bununla bərabər konfransa gəlmədilər. Hökümət belə işləri təklif edib, bu xüsusda yazar, xəbər verər, daha gedib özgə hökumətlərin qolundan tutub gətirə bilməzdi. Bu surətlə hökumət çox çalışmışdır. Digər tərəfdən Qara bəy deyir ki, əsgəri işlərə diqqət verilməmişdir. Xeyir, belə deyildir. hökumət bu xüsusda çox çalışmışdır. Bu xüsusda müfəssəl məlumat verməyi bəzi səbəblərə görə lüzum görmədim. Bəlkə görülən işlərin nəticəsi hələ gözə çarpmır. Bəlkə deyməyi mümkün olmayan bəzi səbəblərə görə, bizim çalışmağımızdan elə bir nəticə çıxmayıbdır. Lakin yenə deyirəm ki, bu barədə dəxi çox işlər görülübdür. Nələr edildiyini bu gün parlament hüzurunda demək istəmirəm. Lakin, ancaq burasını qeyd edirəm ki, bütün təşkilati işləri məşhur general Mehmandarova tapşırılmışdır və əsgəri tədbirlər ittixazı üçün pul müzayiqə edilmir.

**Sədr** - İndi bir təklif var.

**Məhərrəmov** - Belə təklif var.

**Əhməd Cövdət** - Sosialistlər ittifaqı parlamentə belə bir təklif edir. (Oxuyur).

Məclisi-məbusanın sosialistlər fraksiyonu hökumət rəisinin Qarabağ mahalında Andranikin elədiyi zülmlər və bunların əleyhinə görülən tədbirlərin haqqındakı izahatı kafi bilməyib, həqiqi və qəti tədbirlər ittixazini tələb etməklə bərabər növbədəki məsələlərin müzakirəsinə köçməyi təklif edir.

**Sədr** - "Müsavat" firqəsi də bu təklifi edir: (oxuyur.) Vaqe olan istizah və cəvabən hökumət rəisinin Qarabağ məsələsi və bu vilayətdə vəhşiliklər edən Andranik çetesi haqqında verdiyi izahatı kafi görməklə bərabər, Azərbaycan Məclisi-Məbusanı vətənin təmamiyyəti mülkiyyəsi, Azərbaycan cümhuriyyətinin heysiyyəti, cümhuriyyət əhalisinin təmini-asayişi icratına aid olan məsələlərdə görcəyi daha qəti siyasi və əsəgəri tədbirlər icrasında məbusan heyətinin daima himayat və etibarına məzhər olacağını bəyan ilə növbədəki məsələnin müzakirəsinə keçməyi təklif edir. [110 - 111]

**Əhməd Cövdət** - (Sosialistlərin formulunun rusca tərcüməsini oxuyur).

**Sədr** - (Müsavatın formulunu rusca tərcümə edir).

**Qara bəy** - "İttihad" firqəsi sosialistlərin təklifinə iştirak edir.

**Sədr** - Şimdi bu iki təklif (səsə) qoyulur. Birinci təklif müsavatındır.

**Sədr** - Əvvəlcə bu təklif varid olmuşdur. Binaən-ileyh onu səsə qoyuram.

**Səfikürdlü** - Məntiq sosialistlər təklifinin qısaca səsə qoyulmasını tələb edir.

**Şəfi bəy** - "Müsavat" firqəsi təklif edir ki, 5 dəqiqə tənəffüs elan edilsin, bəlkə ümumi bir qərarnamə çıxarmaq mümkün oldu.

**Sədr** - 5 dəqiqə tənəffüs elan edilir.

Tənəffüsdən sonra.

**Sədr** - İclas davam edir.

**Məmməd Əmin** - Müsaidə ilə tənəffüsdə ümum fraksiyalar miyanında etilafla qəbul edilmiş bir formayı oxuyuram. (Oxuyur). Vaqe olan istizaha cəvabən hökumət rəisinin məsələsi bu vilayətdə vəhşiliklər icra edən

Andranik çetası haqqında verdiyi izahatı eşidərək Azərbaycan Məclisi-Məbusanı vətənin təmamiyyət mülkiyyəsini, cümhuriyyətin heysiyyəti və cümhuriyyət əhalisinin təmini-asayiş və hürriyyətinə aid məsələlərdə daha qəti və daha şiddətli siyasi və əsgəri tədbirlər görməsini qeyd edərək, belə tədbirlərin icrasında daimi məbusan heyətinin himayət və etibarinə məzhər olacağını bəyanla növbədəki məsələlərin müzakirəsinə keçməyi təklif edir.

**Sədr** - Bu təklifi eşitdiniz. Etiraz yox isə səsə qoyuram. hər kəs bu təklifə razıdırsa əl qaldırsın.

**Səslər** - Təklifi rusca tərcümə ediniz.

**Sədr** - Haman bayaqkıdır. Tərcüməyə ehtiyac yox, təvəqqe edirəm razı olanlar əl qaldırsınlar. İttifaqı ara ilə təklif qəbul olunur.

**Sədr** - Şimdi ikinci məsələyə keçiriz. [111 - 112]

**Əhməd Cövdət -** Sosialistlər tərəfindən verilmiş istizahı oxuyur.

Bu vaxtlarda Tiflisdən alınan xəbərlərə görə iki qonşu hökumət olan Gürcüstan ilə Ermənistan dövlətləri arasında ixtilaf əmələ gəlib, qanlı toqquşmaya səbəb olmuşdur. Bu vaqiənin Zaqafqaziya millətləri üçün böyük əhəmiyyəti olub, onları fəlakətlərə düçar edə biləcəyindən müsəlman sosialistləri fraksiyonu bu məsələnin parlamentdə müzakirə edilməsini və böyük lüzumu təşəbbüsatda bulunmasını təklif edər.

**Bir səs** - Tərcümə ediniz.

**Sədr** (tərcümə edir) - Söz Səfikürdlü Aslan bəyindir.

**Səfikürdlü** - Əfəndilər! Avropa cahangirlərinin yürütdükləri siyasət nəticəsində bütün Avropa, Asiya və sair qitələrdə yaşayan millətləri imperializm fikrinə xidmət üçün bir-birilə vuruşdurdu. Bir yer qalmadı ki, dağılmasın. Sosialistlər yüz illərdən bəri xüsusən, fransız inqilabından sonra deyirdilər ki, bu cahangirlik siyasəti axırda belə fəlakət açacaq. Onlar görürlər ki, belə siyasət nəticəsində analar oğulsuz, bacılar qardaşsız, oğullar atasız, uşaqlar sahibsiz qalacaq, xalq çöllərə düşəcəkdir. Elə də oldu. Sosialistlərin o vaxt dedikləri şimdi eynilə əmələ gəlmişdir**.** Avropa müharibəsi başlandı, şəhərlər dağıldı, göylər xaraba oldu, uşaqlar sahibsiz, bütün ailələr yiyəsiz qalıb çöllərə düşdülər. Mədəni millətlərin çoxu bunu anlamış idi ki, bihudə yerə böyük bir qoşun qüvvəsini uzaq məmləkətlərə atmaq olmaz. Belə anlamazlıq nəticəsində idi ki, burada Rusiya bolşevizmi baş qaldırdı heç gözlənilmədiyi halda Almaniyada dəxi bolşevizim hərəkatı başlandı. halbuki, heç gözlənilməz idi ki, alman milləti arasında bolşevizm intişar tapsın. Bu hərəkətə səbəb verən yenə böyük dövlətlərin cahangirlik siyasəti oldu. Cahangirlik fikirlə siyasət yürüdənlərin ən böyüyü Rusiya idi. Ərazisinin böyüklüyünə, nüfusunun çoxluğuna baxanda heç kəs zənn etməzdi ki, Rusiya bu qədər zəif düşə bilər. Həmçinin Almaniyanın texnikasını nəzərə aldıqda hamı deyirdi ki, Almaniya siyasiyyunu heç şübhəsiz cahangirlik politikasını yürütməkdə müvəffəq olacaqdır. Amma şimdi görürsüz ki, məzkur dövlətin hər ikisi necə dağıldı. Berlində hal-hazırda böyük nizamsızlıq olur. Bu saat Almaniyada inqilab Rusiya [112 - 113] bolşevizminin tərzilə cari olur. hazırda hürriyyəti-mətbuat yoxdur. Həqiqət haqda məlumat verilmir. Ancaq "yoffe"nin və bir çox sairələrinin Almaniyaya getməsi, ara bir alınan bəzi xəbərlərdən analaşılır ki, bu saat Almaniya dəx Rusiya halındadır. Petroqradda nə olur isə eyni Berlində də olur. Əgər Avropada sosializmin xəbər verdiyi bu amillərə nanmamış nə qalan qoşunu uzaq kaloniyalara göndərən və bu vaxta təkin inqilab girdabına düşməmiş bu iki hakumət qalıbsa və ümid ediriz ki, onlar da bu yaxınlarda inqilab dövrünə daxil olarlar. Böyük millətlər bu halda, bu fikirdə ikən cahangirlik çəkməsi altından təzə çıxmış Rusiya qəhərindən yenicə qurtulmuş xırda millətlər birdən cahangirlik fikrinə düşərək imperializm müharibəsi edirlər. Ümum millətlər ixtilaflı məsələlərin qılınc gücünə həll ediləcəyinə inanmağa başladıqları bir zamanda bunları ixtilaflı hərb ilə həll etmək istəyirlər. Biz əvvəlcə sinaində ermənilər ilə gürcülər arasında müsadimə vaqe olduğunu eşitdikdə bunu əhəmiyyətsiz bir məhəlli hadisə edərək etina etmək istəmədik. Lakin indi görürüz ki, iş böyüyür. Əhvalı elə görüncə firqəmiz yığışıb erməni və gürcü parlamentlərinə protesto göndərməyə qərar verdi. Əgər onlar anlamamışlar isə qoy şimdi anlasınlar ki, böyük səhv edirlər. Fraksiyamız təklif etdi ki, Azərbaycan parlamenti yığışaraq bu məsələyi müzakirə etsin. Böylə hərəkətlərin, belə müsadimələrin qan ilə zülmdən başqa heç bir nəticəsi olmadı. Haman millətpərəstlik yek-digərlərinə görə, onlar qüvvələrini artırmamışlardır. Fəqət, qonşu millətin müsadiməsi bizə də sui-təsir edə bilər. Bəlkə tərəfeyindən birisini tutmaq, yaxud açıq-açığa müharibəyə girmək kimi fəna nəticə verə bilir. Ona görə də biz tələb ediriz: bu məsələlər təmamilə icraçılıqla müzakirə olunsun; biz gərək var-qüvvəmiz ilə çalışaq ki, müharibə olmasın. Əlbəttə, biz demiriz bu müsadimədir, hanki tərəf haqlıdır, hansı haqsızdır, biz demiriz Axalkaaq və Axaska kimin olsun. Bizim məsləkimiz bunu tələb edir ki, belə yerlərin hansı dövlətə və millətə tabe olmaları məsələsi rəyi-ammə müraciətlə həll edilməlidir. Fəqət, biz hazırda səsimizi ucaltmalı, protesto etməliyiz. Bir hökumətin başında Ermənistandakı gibi ançaq millətçilər durarsalar, əlbəttə belə fəna nəticələr verər. Bu [113 - 114] ağır nəticələrin təsiri qonşu millət kimi onların özünə də ağır olar. İndi al bayrağımız olan sosialist bayrağımızı onların arasına atmalıyız. (Soldan alqış). Bayrağımızı bihörmət etdilər isə nizəsini onlara çevirəcəyiz. (Soldan alqış). Azərbaycan Cümhuriyyətində bayrağımızı uca qadırıb kəllələrə sipər olsa da onların arasında durmalıdır. (Mərkəzdən: alqış). Hər iki tərəf qılıncı qına qoymalıdır. Kiçik millətlərin müharibəsi böyük dövlətlərə nisbətən çətindir. Çünki böyük dövlətlər müharibə qanununa müvafiq müharibə edirlər. Müharibə qanunlarına

toxunmayır, əsirlərə və bitərəf duran əhaliyə əl uzatmırlar. Kiçik millətlər isə bunu gözləmirlər. Bu hadisələrin qarşısını almaqdan ötəri növbənöv yollar, çarələr vardır ki, bu da protesto etmək və protestodan hasil olan nəticələrdir. Bundan əlavə konfrans dəvət edib bu ixtilaflı məsələlər orada həll edilməlidir. Bu da olmazsa, Qafqaziyada təşkil olunmuş üç hökumət nümayəndələri yığışıb bu məsələlərə baxmalıdır. Bu barədə də parlamentimiz çalışmalıdır. (Alqış).

**Sədr** - Söz Məmməd Əmin Rəsulzadəyə verilir.

**Məmməd Əmin Rəsulzadə** - Bu gün Azərbaycan məclisi-məbusanının iztirab qəlbilə cəm olmasına səbəb qonşularımız arasında vaqe olan qanlı müsadimələrdir. Bu hadisələr yanı yaşımızda deyil, uzaqda yaşayan digər millətlər arasında da çıxsa idi, insaniyyət növqeyi-nəzərindən qəlbimizi cərimədar edib qan ilə dolduracaq idi. Fəqət, məlumdur ki, biz göylərdə deyil, yerdə yaşayırız. həqiqəti düşünəlim, vaqe olan hadisələr elə iki qonşu millətlər arasında vaqe olmaqdadır ki, biz müqəddəratımızı dünən onlar ilə bərabər həll edirdik, yarın da müştərək həll edəcəyiz. Bunun üçün də biz bu millətlər arasında çıxan hadisələrə. yabançı qala bilməriz. Biz qitə və həyati surətdə əlaqədarız. Ona görə də səsimizi yüksəltməli, aman nə yapırsınız deməliyiz. (Soldan mərkəzdən alqış).

Əfəndilər! Çox qəribədir, bir zamandakı hərbi-ümumi axıra yetişir, bir zamandakı dünyanın cəngavər və təpədən-dırnağa qədər müsəlləh olan millətləri məsələlərin artıq sülh və müsalimətlə həll və qət olunmasını istəyirlər, bir zamandaki istiqlala layiq olduğunuzu isbat üçün bu gün biz kiçik Qafqaziya millətlərinin əlində qüvvətli bir sübut vardır ki, o da sülh və müsalimət, ancaq qan tökməmək. (Sürəkli alqışlar).

Əvət, əfəndilər! Belə bir zamanda kı, biz Zaqafqaziya millətləri iştirakı ilə əqd olunacaq ümumsülh konfransına qol-qola olaraq bir qapı, dost bir surətdə girəcək olmaz isək, bütün əməllərimiz məhv və nabud qalar. İştə belə bir zamanda Ermənistan ilə Gürcüstan arasında qan tökülür, bu qanlar dayanmalıdır, çünki hürriyyət və istiqlal haqqında bəslədiyimiz uğursuz və müqəddəs məqsədlərimizi qara yerlərə gömməmək üçün sülh masası başında müttəhidən oturmağa layiq olduğumuzu göstərməliyiz. İştə bu qanunların dayandırılmasına bir təsir icra etmək bütün Azərbaycan demokratiyasını yüksəltməlidir. (Alqışlar).

Əfəndilər! Bu fikir, bu ixtilaflı məsələlərin müsali-mətlə həlli fikri, heç bir vaxt Azərbaycan cəmaətinə yabançı qalmamışdır. Azərbaycan demokratiyasını hər zaman töhmətləndirmişlər. Ona dildə bir, məqsəddə bir deyə böhtan etmişlərdir. Buna dəlil olaraq, millətləri bizim xaricimizdə olan hadisələri üzümüzə vurub, erməni, müsəlman kimi müəssif hadisələrə meydan olduğundan Azərbaycanı təqsirləndirmişdir. Fəqət, həqiqət, hal bu nəyi gostərir. Azərbaycan müqəddəratını öz əlinə alıb da müstəqil yaşamağa başladığı andan bəri siyasətini müvafiq qurmuşdur. Azərbaycan hökuməti ibtidai bir sülh tərəfdarı olub da müsalimət siyasətindən ayrılmışdır. Azərbaycan hökuməti əvvəl təsisindən bəri Qafqaziya millətləri arasında olan ixtilaf və mübahisəli məsələlərin cəbr ilə deyil, sülh ilə həll olunmasına calışmışdır. Azərbaycan siyasi nümayəndələri hər zaman və hər məkanda mübahisəli məsələlərin sülh ilə həll olunması təklifində bulunmuşlardır. Qafqaziya millətləri bu məsələləri oz aralarında həll edə bilməzlər isə başqa bitərəf bir hakimə müraciət etməlidirlər. İyun ayının ibtidalarında idi. Gürcüstan hökuməti Borçalının müsəlman əhalisinin arzusuna rəğmən cəbrən Gürcüstana ilhaq edirdi. Azərbaycan buna protesto edərək məsələnin beynəlmiləl bir komisyon vasitəsilə həllin [115 - 116] təklif elədi. Məəttəssüf, bu təklifinə müvafiq cavabi deyil, müxalifət gördü. Bu təklifini Azərbaycan hökuməti sonra yenə təkrar etdi, nəticə alammadı. Son günlərdə isə Gürcüstan hökuməti bu nöqteyi-nəzəri qəbul ilə rəsmən bu təşəbbüsdə bulundu və təşəbbüsə birinci "ləbböyk" deyən Azərbaycan hökuməti oldu. Gürcüstan və Ermənistan hökumətini də Zaqafqaziya konfransına dəvət etmişik, günlər, həftələr ilə bəkləmişik, lakin Ermənistan nümayəndəsi gəlməmişdir. Gürcüstan ilə Ermənistan arasında bu məsələ üzərində təati eyləmiş bu gün nəşr edilmiş teleqramlardan anlayırız ki, Gürcüstan hökuməti hətta bu müzakirə əsasında bizdən bixəbər olaraq Ermənistanın təklifinə görə əvvəlcə bu məsələləri yalnız Ermənistan ilə öz arasında həll etməyə razı olmuşsa da yenə vəziyyəti qurtarmamış, məqsədinə müvəffəq olmamışdır. Şimdi isə bu iki millət oz aralarında olan mübahisəli məsələlələri qan ilə həll etməyə başlamışlar. Arada ixtilaflı olan topraq məsələsidir. Əz cümlə “Borçalı” uyzdi süni bəhsidir. Biz biliriz ki, Borçalının türk və müsəlmanlar ilə məskun olan qismi Azərbaycandan ayrılacaq bir qitədir. (Şiddətli alqışlar). Zəngəzur, Qarabağ yezdi, yenə Azərbaycandan Ayrılmayacaqdır. (Alqışlar). Elə bu mübahisəli məsələlərin demokratik noqteyi nəzərilə, qılınc ilə deyil, sülh ilə həll olunmasını hər zaman istəmiş, indi də istəyirsiz. Fəqət, heyhat ki, bizim bu arzumuz havada çağırılan boş sədadan ibarət qalmışdır. Biz zikr olunan yerlər üzərindəki hüququmuzu hər vasitəyə müraciət edilə, eşidiləcəyinə qənaətimiz bərkəmal ikən Qafqaziyanın ümumi müqəddəratını nəzərə alaraq biz həmişə mübahisəli məsələlər kibi bu məsələnin də sülh ilə həll olunmağını gözləmişik. Arzu edirik ki, Gürcüstan və Ermənistan hökumətləri dəxi bu əsası ilə öz aralarındakı ixtilaflı məsələləri sülh və müsalimət ilə həll etsinlər. Məəttəssüf, bu gün meydanda nahaq qanlar töküldüyünü gerürüz. Azərbaycan Məclisi-Məbusan Gürcüstan və Ermənistan hökumətlərinin daxili işlərinə qarışması üçün deyil, bütün Qafqaziyaya yağacaq, o cümlədən Azərbaycanı da qanlara boyayacaq bir fəlakətin onünü almaq üçün bu məsələyə icrayi-təsir [116 - 117] etmək istər. İnanımız bundadır ki, Gürcüstan, Ermənistan cəmaəti dəxi bizim kimi düşünür.

Azərbaycan xalqının təmsili-ruhi olan Məclisi-Məbusanımızda hökmü-fərma olan bu ruh və müsalimət əminəm ki, bütün cəmaətimizin duyğusu olduğu kimi gürcü və erməni cəmaətində də eyni təbidir. Gürcüstan və Ermənistan məclisi-məbusanları dəxi öz millətlərinin vicdanını etdiklərindən sülhamiz bir səciyyə intibahilə kəndilərinə müraciət edəlim və deyəlim ki, Qafqaziya millətləri sülh və müsalimətə möhtacdırlar. Bütün səy və iqtidar və nüfuzlarını hökumətimiz üzərində icra ediniz, tökülən nahaq qanlar dayansın, çünki bu qanlarda bulunacaq hürriyyətlərimiz, çünki, bu yanan neftlərdə yanacaq yurdlarımızdır. (Alqış).

**Sədr** - Söz Tsixakayanındır. (rusca).

**Sədr** - Söz Qara bəy Qarabəylinindir.

**Qarabəyli Qara bəy** - Həzərat! Ermənilər ilə gürcülər arasında cərəyan edən ixtilaflı hadisələr haqqında bir çox fəsahət və bəlağət ilə nitqlər irad edildi. Mən belə nitqlərdən söyləməyəcəyəm. Mən ancaq bir şeyi söyləyəcəyəm ki, bu cərəyanların bizə maddi bir zərəri, yaxud başqa bir təsiri olmayacaqdır. Bu qədər ki, qanlar axıdılır, Qarabağ dökülməkdədir. O biri cəhətdən dəxi müsəlman qanları tokülə bilərmi? Bu saat ermənilər ilə kürcü miyanında olan hadisələr nəticəsindən yenə müsəlman qanları axıdıla biləcəyini gorürüz. Çünki toqquşma vaqe olan yerlər Borçalıdır. Burası müsəlman yerləridir. Burada ən əvvəl müsəlman qanları axacaqdır. (Bitərəflərdən: sağ ol!). Hüdudu aşıb keçmiş erməni qoşunlarının ayağı altında yenə də müsəlman qalacaqdır. (Bitərəf: sağ ol). Qarşısında qüvvə gormədikdə ermənilər gəlib bizim aramıza keçəcəkdir. O zaman bizim halımız vəxim olacaqdır. Buna görə hökumətə müraciət ilə soruşuruz ki, bu ixtilafın bitməsi üçün burada müsəlman qanlarının tokülməsi ilə hüdudumuzu müdafiə etmək üçün nə tədbirlər olmuşdur? Və yaxud olacaqdırsa, hansı qüvvə ilə?

**Sədr** - Daha natiq yoxdur ki, Ona gorə hökumət rəisinə söz verilir. [117 - 118]

**Fətəli Xan Xoyski** - Hökumət tərəfindən bu barədə tədbirlər olubdurmu? Sual olundu... Doğrudan da suala haqları vardır. Hökumət də bunu düşünürdü. Bu hüdud barəsində ki, buyurdular, heç bir məlumat yoxdur. Bir elə xəbər çıxmış idi ki, ermənilər hüdudluğu keçmişlər. Mən o saat teleqraflar ilə əhval bilmək istədim, cavab gəldi ki, heç bir şey yoxdur. Hökumət bütün stansiyalara tapşırıbdır ki, elə bir hadisə olsa, tez xəbər versinlər, hüdudumuzun başqa bir tərəfdən keçilməməsi üçün bir çox əsgəri tədbirlər görülmüşdür. Qüvvə də hazırlamışıq.

**Sədr** - Müzakirə olunan istizah barəsində müsavat fraksiyonu tərəfindən təklif olunur.

**Əhməd Cövdət** - (oxuyur).

Kürcüstan və Ermənistan parlamanlarına Azərbaycan məclisi-məbusanı tərəfindən göndəriləcək müraciətlərinin "Müsavat" şobəsi tərəfindən təklif olunan layihəsi:

Bütün dünya millətlərinin silahlarını- ataraq sülh və səlah ilə aradıqları belə bir zamanda, bir zamanda ki, Qafqaziyada təşkil edən cumhuriyyətlərin yekdikəri arasında sülh və müsalimətlə yaşamaları, elan etdikləri istiqlala layiq olduqları yeganə bir kiliddir. Azərbaycan məclisi-məbusanı qonşularımız Ermənistan cumhuriyyəti ilə Gürcüstan cumhuriyyəti arasında zühr edən qanlı hadisat ədavətkarının əsrarəngiz xəbərini iztirablı bir qəlblə tələqqi etdi. İşbu iztirabının tərcümana təsiri olan 20 dekabr tarixli fovqəladə iclasında Ermənistan və Gürcüstan parlamentlərinə müraciət edərək hər iki hökumətin bu təhlükəli qədəmdən saxlanması üçün var-qüvvət və nüfuzları ilə səy aləmlərini dostluq məqamında rica etməyə qərar verdi.

Bütün Qafqaziya demokratiyasının ürək arzusu: qonşular arasında bütün ixtilaflı məsələləri uyuşmaq, barışmaq, və nəhayət hakim vasitəsilə həll etməkdir. Bunun xaricində olacaq hər bir tədbir hansı dovlət tərəfindən görülmüş olur isə olsun Azərbaycan hökumətinin vicdanının zəxmdar etdiyi kimi, Gürcüstan ilə Ermənistan cəmaətlərini də rəncidə edəcəyinə qaneiz. Bunun üçün də millətin təmsili vicdanı olan Məclis-Məbusan heyətinə müracətlə qardaşca tövsiyyə ediriz: [118 - 119]

Amandır, durunuz, Qafqaziya təkrar qanlara boyanmasın, odlara yanmasın, çünki bu qanlarda boğulacaq hürriyyətimiz, bu yanğınlarda yanacaq-yurdlarımız.

**Sədr** - Sosialistlər ittifaqı tərəfindən təklif olunan layihə:

**Əhməd Cövdət** - (oxuyur).

Məclisi-Məbusanda bulunan sosialistlər fraksiyonunun Gürcüstan ilə Ermənistan millətləri arasında baş verən hadisə haqqında məruzənin müzakirəsindən sonra Azərbaycan məclisi-məbusanı aşağıdakı maddələri qərara alır:

1). Bizim ilə qonşu və qardaş olan Gürcüstan və Ermənistan millətlərinə və onların parlamanlarına rica olunsun ki, onlar öz hökumətlərinə təsir edib tezliklə dava hərəkətlərinin dayandırılmasına çiddi surətdə çalışmaları təklif olunsun.

2). Zaqafqaziya dovlətləri arasında olan bütün mübahisəli məsələlərin həlli bu hərəkətlərin konfransına və beynəlmiləl arbitraja mühəvvəl olunması təklif olunsun.

3). Zaqafqaziyada yaşayan üç boyük millətlər bir-birilə sıxı surətdə əlaqədar olduqlarından Ermənistan və Gürcüstan ixtilafı ümum cəmi Qafqaziya millətlərini böyük fəlakətə düçar edə bilər. Buna binaən hər tərəfki bu millətlərin sülh ilə yaşamalarına tərəfdar olar isə, onda cahan demokratiyası qarşısında öz ohdəsinə boyük məsuliyyət alacağını bəyan etməlidir.

**Sədr** - Təklif olunan formulaları dinlədiniz.

**Məmməd Əmin** - Bizim təklif müraciətnamənin layihəsidir. İkinci təklif isə maddə-bəmaddə bunu soyləyir. Bu iki təklifdən bir xülasə, nəticə çıxarmağı rüəsaya tövsiyə edəriz.

**Aslan bəy** (yerindən) - Mən təklif edirəm ki, hökumət onları birləşdirsin, göndərsin. Əgər bunu qəbul edərsəniz, göndərsin.

**Səslər** - Qəbuldur, qəbuldur.

**Cəfərov** - Bir şey var ki, "protest" sozü gərək çıxarıla idi.

**Ağamalov** (yerindən) - Yox, çıxarmaq lazım deyil.

**Əhməd Cövdət** - Burada bir təklif rüəsa tərəfindən verilmiş, biri də müsavat, üçüncü də sosialistlər tərəfindən təqdim edilmişdir. Təklif edirəm ki, bunlar və sonra verilənlər [119 - 120] hamısı birləşdirilib ümumi müraciətnamə halında göndərilə idi.

**Sədr** - Deməli ki, rüəsaya mühəvvəl edildi.

**Məhərrəmov** (əvvəl yerindən, sonra minbərdən) - Mən təklif edirəm ki, nahaq qanları tökülənlərin ruhunu yad etmək üçün ayağa qalxsınlar. (Məbuslar qalxırlar).

**Sədr** - Məclisi bununla bağlanmış elan edirəm.

Məclis saat 2,50 dəqiqədə xitam bulur.

**Arxiv, f. 895, siy. 1, iş. 1, vər. 38-48.**

## № 5

## Beşinci içlas

*26 dekabr 1918-ci il*

İclas 1918 sənəsi 26 dekabr saat 12.20 dəqiqədə Həsən bəy Ağayevin sədarəti və Əhməd Cövdət bəyin katibliyi ilə açılır.

**Sədr** - Parlamentin iclası açılır. Bugünkü ruznameyi-müzakirat heyəti-rəyasət tərəfindən bu qayda ilə tərtib olunmuş.

1. a) heyəti-rəyasətə varid olan kağızlar; b) Məclisi-Məbusan üzvü Mahmudbəyovun istefa ərizəsi; v) Məclisi-Məbusan üzvü Qasım bəy Cəmalbəyovun məzuniyyət istidası; s) Əhməd bəy Ağayevin Zəngəzur uyezdi tərəfindən Məclisi-Məbusana nümayəndə intixab edilməsi; ç) Məhəlli Ukrayna Radasının ərazisi "İttihad" fraksiyasının təklifi olaraq Bakı uyezdindən nümayəndə intixab edilməsi.

2). Komissyonlar seçkisi: fəhlə, maliyyə və Məclisi-Müəssisan seçkilərinə layihə hazırlayan komisyalarına.

3). Yeni hökumət təşkili.

4). İki istizah: a) həbs və tətil barəsində; b) dəmir yollarında hökmfərma olan rüşvət haqqında. E'tiraz yoxdur ki? Ruzinameyi-müzakirat qəbul olunur.

Parlaman üzvlərindən Əliəsgər bəy Mahmudbəyov bəzi səbəblərə görə istefa verir. Onun əvəzinə Musa bəy Rəfiyev parlaman üzvlüyünə daxil olur. Parlaman üzvlərindən Camalbəyovun [120 - 121] ailəsi naxoş olduğundan Tiflisə getmək üçün bir həftəlik məzuniyyət verilir. Əhməd bəy Ağayevin Zəngəzur uyezdi tərəfindən parlamentə məbus intixab edilməsi haqqında heyəti-rəyasətə göndərilən teleqraf etimadnamə komisyonuna verilir. Məhəlli Ukrayna Radasının Məclisi-Məbusana iki yer istədiyi ərizəsində e'timadnamə komisyonuna verilir. İttihad fraksiyasının Bakı uyezdindən parlamentə nümayəndə intixab edilməsi təklifi də etimadnamə komisyonuna verilir. Hərgah etiraz yox isə ərz eylədiyim təklif qəbul olunur. Etiraz yoxdur ki, Qəbul olundu. Binaən-ileyh etimad komisyonu üzvlərindən rica edirəm ki, sabah saat 12-də iclasa gəlsinlər. Söz, katib Əhməd Cövdət bəyə verilir.

**Əhməd Cövdət** - Xahiş edər idim, daxil olan kağızlar burada oxunsun. Bəlkə kağız haqqında etiraz, ya müzakirat ola bilsin.

**Sədr** - Bu kağızların burada oxunmasını artıq bilib etimad komisyonuna verilməsini münasib gördük. Etimad komisyonu daxil olan kağızlar barəsində çıxardığı nəticə parlamentə məlum olacaqdır.

**Cəfərov** (yerindən) - Elədir.

**Sədr** - Keçən iclasda əmələ, maliyyə və məclisi-müəssisan seçkiləri hazırlayan komisyalara əqəliyyat təşkil edən firqələr tərəfindən Tsaxakaya fəhlə, Koxman maliyyə, Vanseviç Məclisi-Müəssisan seçkiləri üçün layihə tərtib komisyonuna namizəd göstərilmişdir. Xahiş edirəm ki, başqa fraksiyalar da öz namizədlərini köstərsinlər, tainki məclisin axırında komisyalar təşkil olunsun. Dekabrın 10-da parlamentin təklifinə görə, parlament rəisinə həvalə olunmuş ki, səlahiyyətilə hökumət təşkilini bir nəfər şəxsə tapşırsın. Parlamentin qərarı mocibincə mən öz tərəfimdən millət və vətən yolunda çalışmış Fətəli Xan Xoyski cənablarını layiq görüb ona müraciət etdim. Bu cənab iki həftənin ərzində bir çox zəhmətdən sonra tazə kabinə müvəffəq olmuşdur. Bu babda söz hökumət rəisi Fətəli Xan Xoyski cənablarına verilir.

**Fətəli Xan Xoyski** (Sol tərəfdən başqa ümumi alqış) -Möhtərəm məbuslar! Sizin rəisinizin xahişinə görə və mühüm, çətin və qorxulu vaxta tazə kabinə təşkili mənə rücu olundu. Vəziyyətin nə halda olmasını aşkardır ki, siz məndən yaxşı bilirsiniz. Və tazə kabinə təşkilini öhdəmizə götürdükdə nə qədər məsuliyyət olduğu da sizə məlumdur. Siz bilirsiniz ki, [121 - 122] beş illik çahan müharibəsindən sonra sülh konfransı qarşısında bizim ən mühüm məsələmiz, istiqlalımız məsələsi olacaqdır. Bu istiqlaliyyəti təsdiq etdirməyi bu halətdə siz bu hökumətə tapşırırsınız. Bu ağır vəzifəni öhdəmizə alırıq. Hökumət hamı vəzifələrdən qabaq, bu istiqlaliyyəti göz bəbəyi kimi müdafiə və mühafizə etməyi özünə borc bilir. (Ümumi alqış). Keçənlərə burada hər firqə tərəfindən deklarasiyalar bu vəzifəni boynumuza götürüb əmələ gətirmək üçün bizə cürət verir.

Azərbaycan istiqlaliyyəti ondan ibarət deyil ki, özümüz ilə özgə dövlətlər arasında bir divar yapaq. Aşkardır ki, müstəqil Azərbaycan hökuməti özgə dövlətlər ilə rabitəyə girməyə çalışacaqdır. Bu rabitə əvvəlcə qonşu Rusiyada təşkil olunan məmləkətlər və Rusiyanın özü də olacaqdır. Özgə məmləkətlər ilə olacaq rabitə bir tək hökumətin vəzifəsi olmayıb, sizin qüvvəniz və göstərdiyiniz yol ilə hasil olacaqdır. Bu istiqlaliyyətin hamımız üçün əziz və sevgili olduğuna əminiz.

İstiqlalımız sülh konfransında qəbul olunub və tanınacaqdır. Biz ümidvarıq ki, sülh konfransı da və Amerikanın rəisi bütün cahana elan etdiyi deklarasiya ilə demokratik İngiltərə və Fransa cumhuriyyəti öz istiqlalına cəhd ilə bir millətin hüququ tapdalanmayacaqdır. Bu cür hökumət nümayəndələrindən ibarət cahan məhkəməsi olan sülh konfransında bizim sözümüz eşidiləcəkdir. Bunu deməyə mənə ümid verən, bizə güman

verən şəhərimizdəki müttəfiqlər nümayəndələrinin hərəkətidir. Mən özümə borc bilirəm deyim ki, onlar bizim ilə heç bir pis rəftar etməyiblər. Onlar bizimlə həmişə istiqlaliyyətimizi almaq yolunda rəftar ediblər. (Alqış). Mən ümid edirəm ki, gələcəyə baslədiyimiz amal və ümid vücudə gəlmişdir.

Möhtərəm məbuslar! Hökumət çox şadlıq ilə gərək sizə bildirsin ki, hamımız işlərimizi sülh ilə aparmağı və aparmaq da istəyirsiniz və heç vaxt qan tökülməz tərəfdarı deyildiniz. Aşkar şeydir ki, sizin bu göstərməniz yol olaçaqdır. Hökumət həmişə çalışacaqdır ki, özgə məmləkətlər ilə aramızda olan məsələləri sülh yolu ilə həll edib, sülh ilə qurtarsın. Fəqət, bizi çox məyus edən bir şey varsa, o da ermənilər və gürcülər arasında torpaq üstündə qan tökülməsindədir. Hökumət çalışır ki, bu mübahisəli məsələlər sülh ilə qurtarsın. [122 - 123] Bu bizim xariciyyə nəzarətinin vəzifəsidir. O da bundan ibarətdir ki, xarici dövlətlər ilə daima bir rabitə yapsın ki, onlar ilə aramızda qalxan məsələlər sülh ilə xitampəzir ola bilsin. Məlumdu ki, xariciyyə nəzarəti başqa dövlətlər ilə həm siyasi, həm ticari rabitə yapmalı və həmdə sülh ilə işləri əmələ gətirməlidir. Amma sülh ilə əmələ gətirmək o deyildir ki, hökumət özü üçün bir qüvvə hazırlamayacaq. Gərək hər bir dövlət daima özünü müdafiə etmək üçün qüvvə hazırlasın. Ona görə bizim də həm xarici düşmənlərimizə qarşı bizim istiqlalımıza hücum edənlərə qarşı müdafiə edəcək bir qüvvəmiz olsun. (Mərkəz və soldan alqışlar). Keçmişdə sabiq hökumət belə bir qüvvə təşkili üçün çalışmışdır. Bunun üçün bir təşkilat, bir hazırlıq yapmışdır. İş başında adam qoymuşdur. Şükürlər olsun ki, bir az vaxtdan sonra bunlar əmələ Gələcəkdir. Keçmişdə xətalar olmuşsa, şimdidən sonra heç bir xəta olmamalıdır. Əsgəri qüvvə təşkili üçün lazımi tədbirlər ittixaz edilmişdir. Ona görə də ümidvar oluruq ki, parlament bizə yardım edib lazım gələn büdcəni qəbul edəcəkdir.

Möhtərəm məbuslar! Mən borc bilirəm başqa nəzarətlərdən də sizə məlumat verəm. Daxili işlərimizdə çox nöqsanlar vardır. Heç bir hökumət olmaz ki, onun belə nöqsanları olmasın, hökumət özü yaxşı bilir ki, bu daxiliyyə işlərinin başında duran adamlardan asılıdır. O adamlar gərək yaxşı adamlar, millətpərəst adamlar olsun. Ondan maəda millət gərək özü hökumətə müavinət etsin. Təəssüf olsun ki, millət lazım gələn bu qüvvəti verə bilmir. O iqtidarı göstərdi. Lazımi adamlar isə iş başına gəlməyib, qırağa qaçdılar. Fəqət, millət nümayəndələri bilsin ki, bu cəmaət işidir, millət və vətən işidir. Bundan boyun qaçırmaq olmaz. Ümidvar oluruq ki, bundan sonra çağıranda heç kəs boyun qaçırmayacaqdır. Bununla da inşallah hər bir şeyi əmələ gətirib, hər şeyi daxilimizdə yoluna gedəcəkdir. Hökumət özünü borclu bilir ki, Rusiya inqilabından alınmış bütün hürriyyətləri: hürriyyəti vicdan, kəlam, məkan və sairə hüriyyətlər. Üzr istəyirəm. O qədər də ibarə ilə sözlərimi deyəmiyəcəyəm. (Soldan: "Bu dil ana dilimizdir! Çox yaxşı dildir!" və ümumi alqış). Hökumət lazım bilir ki, bu hüriyyətləri müdafiə eləsin. Bu işlərdə hökumət [123 - 124] yalnız iş görə bilməz. Millət özü hökumətə kömək etməlidir. (Soldan, doğrudur!), (sol və mərkəzdən alqış) Onu da bilirik ki, hökumət tərəfindən bu hüriyyətlər verilsin, bu ixtiyarı verməlidir. Bu hüriyyət imtiyazları verilməz isə dövlət işləri düz getməz. (Soldan: olmaz, qoymarıq).

Bir də daxili işlərimizdə mühüm bir məsələ var. Bir məmləkətdə yaşayan millətlər özlərini o dövlətin övladı kimi görməlidirlər. Biz müsəlman türk milləti də heç bir zaman özümüzü vətənə övlad görməmişik. İndi hamı millətləri bir vətənin övladı kimi körməli və bizlər özlərimizə istəməyə-cəyiz şeyləri dikərlərinə də istəməməliyik. (Mərkəzdən və soldan: alqışlar). Bizim içərimizdə yüz illərlə yaşayan millətlər var. O millətlərdən biri də erməni millətidir. Onlar bizim aramızda bir para ixtilaflar sadir olmuşdur. (Soldan: külüş). Gərək erməni milləti də türk milləti də unutmayalar ki, bunlar min illər ilə yaşayacaqlar. Bunların hamısını hökumət gərək nəzərdə götürsün. (Soldan və mərkəzdən alqış).

Maarif Nəzarəti haqqında da bir neçə kəlmə söyləməliyəm. Maarif nəzarəti hər kəsə imkan verməlidir ki, öz ana dilində məktəb açıb oxusun. Oxumuz mənim sizin ilə danışdığım kimi olar. (Soldan: yaxşı dildir). Maarif nəzarəti ana dilində milli məktəblər ilə bərabər sənət məktəblərinə də böyük əhəmiyyət verməlidir. Çünki bizə hamıdan artıq sənət məktəbləri lazımdır.

Möhtərəm məbuslar! Bir mühüm məsələ var ki, o hər bir hökumətlərdə birinci ədd olunur. Hətta hamı böyük dövlətlərdə buna diqtət etməlidir. Bu məsələ sabiqdə olmayıb, fəqət, müharibə zamanı irəli sürülmüş. Bu ərzaq məsələsidir. Onu da bilirsiniz ki, hər bir məmləkətdə ərzaq məsələsi üstündə aclıqdan ixtilaflar, iğtişaşlar və başqa şeylər olur. O hökumət ki, ərzaq məsələsini nizama saldı, o, öz məsələsinin yarısını həll etmiş olur. hökumət özünü;borclu bilir ki, cümlə ərzağı ədalətlə, cümlə millətlər və cəmi füqəranın arasında bölsün. Bu barədə hökumətin nə qədər qüvvəsi var çalışdı. Fəqət ərzaq məsələsi, başqa məsələlər ilə bərabər bitişikdir. Xüsusən dəmir yol ilə böyük rabitəsi vardır. Əgər sənin yolun olmaz isə, ərzaq gətirmək də mümkün olmaz. Əgər ticarət nəzarəti başqa məmləkətlərdən mal alıb gətirmək məsələsini nizama salmaz isə və vətənimizə ərzaq da az gələcəkdir. Bu [124 - 125] da asılıdır dəmir, dəniz və qara yollarının qaydaya salınmasından. Keçmiş hökumət zamanında dəmir yollarında bir çox xətalar, nöqsanlar, hətta xəyanətlər də var idi. Hökumət bunu heç bir zaman sizdən gizlətmək istəmir. O vaxt bir deyil, dörd dəfə bizim dəmir yollarına təpik dəymişdir. Birinci təpik gərək xatirinizdə olsun - dəmir yollarından beş yüz min qoşun keçib gedən zamanı dəymişdir. Özünüz bilirsiniz ki, bunlar yolları söküb, dağıtmaq ilə keçdilər. İkinci təpik öz tərəfimizdən dəydi. Millətimiz özü öz yollarımızı dağıtmağa başladı. (Soldan: eyib olsun!). Üçüncü təpik Bakı müharibəsi zamanı, paytaxtımızı almaq istədiyimiz vaxt dəydi. Onlardan sonra türk qardaşlarımız qayıdıb gedərkən, bunu da gizlətmək lazım deyil,

çünki əsgər gedərkən ola bilir ki, dağıtsın, yıxsın. Bizim yola dördüncü təpik belə dəydi. Bu qayda ilə bu yola dörd dəfə təpik dəymiş olur. İndi belə bir yoldan nə gözləmək olar? Özünüz bilirsiniz ki, yollarda qulluqçular da xaricidir, özümüzünkü deyildir. Bunlardan olmazın əziyyətlər olur. Qulluqçular özlərini pis aparırlar. Belə olduqda mə'lumdur ki, işlər yollarda daha da yaman olacaqdır. Bununla belə höku-mət sizə söz verir ki, bu qaydasızlıqlar tezliklə düzəlib, cinayətlər də rəf ediləcək. Bir neçə məsələlər daha var. Maliyyə nəzarəti haqqında bir neçə söz söyləməliyəm. Özünüz bilirsiniz ki, bizim heç paramız yoxdur. Bir qədər (bon)umuz vardır ki, onlar da müvəqqəti idi, tezliklə dəyişməli idi. Bu aşkar şeydir ki, Azərbaycanın öz pulu olsun. Bunu demək lazım degil. Bunu da təkrar etmək ehtiyacı yoxdur ki, tezlik ilə naloqlar cəm olmalıdır. Naloqlar da gəlirə münasib olub, kasıblarınkını götürüb, varlıların, sərvətlilərin üzərinə yıxmalıdır. (Mərkəz və soldan alqış).

Bir neçə söz ədliyyə nəzarəti barəsində demək istəyirəm. Özünüz bilirsiniz ki, ədliyyə nəzarəti olmalıdır. Bu olmaz isə heç bir dövlətin işi yürüməz, nə qədər tənbeh və cəza olsa da yenə də ədliyyə nəzarəti olmalıdır. Bu olmaz isə əhali bilməz ki, neçin və nədən ötəri onu cəzalanldırırlar, səbəblərini anlamaz. O halda ki, sənin sözünü məhkəmələr danışırlar, özün də görürsən ki, cəzanın səbəbi nədir? Ədalətə müvafiq olduğu orada görüləcəkdir. Bu mühüm şeydir. Ədliyyəsi olmayan məmləkətdə tərəqqi dəxi olmaz, məmləkət irəliləməz. Məhkəmələr də o dildə olmalıdır ki, orada isə olan [125 - 126] adamlar hökmləri anlaya bilsinlər. Məhkəmənin dilini başa düşmədikdə məhkum da öz işinin doğru olduğuna heç zaman əmin olamaz. Fəqət bunu bu vaxta təkin etmək mümkün degil idi. Hökumətimiz də bu barədə çalışır ki, o qayda ilə getsin, çünki bunu ümum cəmaət üçün uyğun olmaqlıq tələb edir. Bu məsələlərdən sonra bir neçə məsələlər daha vardır ki, onların haqqında uzun danışıb başınızı ağrıtmaq istəmirəm. Bunlardan bir poçta-teleqraf və səhiyeyi-ümumiyyə nəzarəti olmasıdır. Bunların hamısı haqqında lazımi qədər tədbirlər görməyi özümüzə borc biliriz. Bunlardan başqa iki məsələ də vardır ki, onlardan bir fəhlə, digəri əkinçi məsələsidir. Hökumət millət üçün olduğu aşkardır. Millətin əksəriyyəti fəhlə və kəndçidən ibarətdir. (Sol və mərkəzdən alqış). Hökumət bilir ki, torpaq əkinçiyə verilməz isə, fəhlənin həyatı təmin edilməz isə o hökumət yürüməz. (Mərkəz və soldan alqış). Hökumət bunun üçün bir məsai nəzarəti düzəltməyə qərar verdi, taki fəhlələr də insan surətində dolana bilsinlər. (Alqış mərkəzdən və soldan). Onların həyatı təmin olunsun. Onu da təkrar edirəm ki, onlar lazımdır səkkiz saat işləsinlər, ondan artıq onları işləməyə qoymasınlar. (Alqışlar). Bu vəzifələri əminəm ki, məsai nəzarəti başa yetirəcəkdir. Qaldı ki, torpaq məsələsi: hökumət bunu da sizə şadlıq ilə deyəcək ki, bu barədə parlament fraksiyaları həmrəydirlər. Hökumət buna binaən lazım bilir ki, torpaq əvəzsiz olaraq əkinçiyə verilsin. (Soldan və mərkəzdən sürəkli alqışlar).

Möhtərəm məbuslar! O hökumət ki, sizin rəyinizlə işləyir üzərinə başqa yol götürmür və götürə də bilməz. (soldan: qoymarıq). Onu da bilirsiniz ki, elə böyük və mühüm məsələdir ki, onu bu vaxta kimi heç bir millətdə lazımı qaydaya salan olmamışdır. Bu bir qələm cızmaqla həll edilən məsələ deyildir. Bunu gərək qaydaya salaq. Millətin ixtiyarında nə olduğunu, kimə nə qədər verilməsini bilsək və gərək bunun barəsində böyük materiallar toplansın. Bunu da hökumət tezlik ilə başa gətirməyi öhdəsinə alır. (Mərkəzdən və soldan alqış). Ona görə sizin xahişiniz ilə nə qədər mümkündür Məclisi-Müəssisan çağrılana qədər torpaq məsələsini hökumət qəti surətdə həll etməyə çalışacaqdır. Məclisi-Müəssisan dəvət edilənədək əkinçilər həyatını yaxşılaşdırmaqdan ötəri lazımi materialları [126 - 127] hökumət hazırlayacaqdır ki, o məclis yığışılana qədər birinci növbədə bunu həll etmiş olsun.

O fikirləri hökumət ərz etməyi borclu bilir ki, söylədim. Aşkardır ki, hökumət parlament deyən qayda ilə getməlidir. Bununla da sözümü qurtarmaq istəyirəm. Fəqət, kəndi sözümü bitirmədən əvvəl başladığım sözü ərz etməliyəm. Hökumətin qabağında mühüm bir məsələ var isə o da istiqlaliyyət məsələsidir. Bizim birinci məsələmiz budur. Buna da diqqət edəcəyiz. Sizlərdə buraya hər bir yerdən gəlmiş olduğunuz onu göstərir ki, bu istiqlaliyyət tək adamların dediyi olmayıb, bütün millətin xahişidir. Bir yerdə millətin xahişi olsa və o yolda çalışsa, o millət azadə olsa öz məsqədinə çatacaqdır. (Soldan və mərkəzdən alqış). Özünüz bilirsiniz ki, hökumət boynuna böyük qorxu ilə yeni kabinənin işini aparmaq vəzifəsini götürübdür. Çox vaxt mənim ozümün və yoldaşlarımın da fikrinə gəlir ki, bəlkə boynumuza çox ağır yük gotürmüşük. Fəqət bir şey vardır ki, bizdə ümid oyadan sizin kömək və etimadınızdır. Hökumət xüsusunda sözümü qurtarmaqdan irəli Allahdan tofiq və sizdənn kömək istəməklə yeni hökumətin əzalarını sizə bildirmək istəyirəm.

Təşkil etmək istədiyim kabinə işbu zəvatdan mürəkkəbdir. Mən rəisi-vükəla və xariciyyə naziri, Xasməmmədov daxiliyyə naziri, Mehmandarov Səməd bəy hərbiyyə naziri, Məhəmməd Həsən Hacınski dovlət müfəttişi, Burutalov maliyyə naziri, Səfikürdski Aslan bəy poçta və teleqraf, Mirzə Əsədullayev ticarət naziri, Məlikaslanov təriq və müabir naziri, Nəsib bəy Yusifbəyov maarif naziri, Lizqor ərzaq naziri. Bunlardan əlavə dörd nazir də boş qalmışdır. Siz bilirsiniz ki, erməni qonşularımız da bizimlə hökumət parlamentində iştirak etməlidirlər. Fəqət, bu vaxtadək onlar gəlməmişlərdir. Bu dörddən üçünü erməni namizədlərinə, biri isə rus millətinə məxsusdur. Biz də isə biliriz ki, onlar bizim ilə iştirak etmək istəyəcəklər. Bu sırada bu yerlər onlara veriləcəkdir. Şimdi kabinəyə etimad etmək sizdən asılıdır.

**Sədr** - Hökumət bəyənnaməsini müzakirədən əvvəl beş dəqiqə tənəffüs elan edirəm.

**Məmməd Əmin Rəsulzadə** - Belə təklif olubmu?

**Sədr** - Mən ozüm təklif edirəm.

5 dəqiqə tənəffüs elan edildi. [127 - 128]

Tənəffüsdən sonra.

**Sədr** - İclasın davamına şüru edilir. Söz Əhməd bəy Ağayevə verilir. (Əhməd bəy məclisdə yoxdur). Söz Məmməd Əmin Rəsulzadənindir.

**Məmməd Əmin Rəsulzadə** - Yeni təşkil olunmuş hökumətin bəyənnaməsini nə kimi bir zamanda eşitdiyimizi, bəyannaməni müzakirə etməkdən əvvəl qeyd etmək istəyirəm. Xaricən məmləkətimizin nə kibi bir vəziyyətdə olduğu bəllidir. Fəqət, bu müşkül vəziyyət yalnız xaricdə olmayıb daxildə də belədir. Bu müşkülat qarşısında olduğumuz bu gündə icra olunacaq hadisələrdən aşkardır. Bu gün şəhər həyatı büsbütün dondurulmuşdur. Hökumətimizin bəyənnaməsində deyildiyi kibi əhalinin bir hissəsi burada hazır deyildir. Gərək məclisimizin bu nöqsanı gərək daxili işlərimiz nə tör müşkülat qarşısında olduğumuzu isbat edir. Əvət! Müxtəlif cərəyan və hərəkətləri ruhlandıran bir ruh, bir əməl vardır. Onlara istinadda bulunmaq istəməli. Bu kürsü böhtandan uzaq qalmalıdır. Və əldə isbat olmadan söz söyləməmək əxzi-amalımızdır. (Alqışlar).

Bu gün ortada olan həbsləri bəhanə edərkən şəhərimizin həyatı durdurulmuşdur. Bunlar nəşr etdikləri bəyənnamələrində və qəzetlərində nə deyirlər? Bunlar deyirlər ki, bizim düşmənimiz aclıq və aclıq qədər müdhiş Azərbaycan hökumətidir. (Soldan: doğrudur, eyibdir). Böylə mühüm bir zamanda hökumət rəisinin istiqlalımızın göz bəbəyi kimi mühafizə olunacağını söyləməsi kibi münasib bir zaman olamaz. (Sürəkli alqışlar).

**Sədr** (zəngi vuraraq) - Parlamanda əza olmayanlardan rica edirəm nə əl vurmaqla, nə də qeyri hərəkətlər ilə öz hissiyyatlarını bəyan etməsinlər.

**Rəsulzadə** (sözünə dəvam ilə) - Əsl məqsədləri bu ikən siyasi hürriyyətlərdən bəhs edirlər. Batil məqsəd üçün haqqa söz söyləyirlər. Göz bəbəyi kimi mühafizə olunacaq istiqlalımızın hər fitnəyə qarşı müdafiə olunacağına ümid edilim. Bu əzmdə yalnız bir hökumət deyildir. Bütün millət bu əzmdədir. Bu gün bizim istiqlalımızı tanımaq istəməyənlər həqiqi demokratlar deyildir. Çünki həqiqi demokrat və həqiqi sosialistlər üçün qara cins, ağ cins yoxdur. Bunlar üçün ancaq haqq və hüquq vardır. Bütün əmələlər və zəhmətkeşlər bilməlidir ki, bütün Azərbaycanın da buna haqqı vardır. Bu xüsusda bütün həqiqətpərəstlər bizimlədir. Bunlar hürr bir millətin istiqlalını göz bəbəyi kimi sevən hökumət ilə də bərabər olacaqlardır. Hökumətin bəyənnaməsində mühüm bir nöqtə görürüz ki, o da biz müsavat firqəsi və digər demokratik firqələr nöqteyi-nəzərindən diqqətə şayandır. Hökumət bir millətin süqutunu təşkil edən əmələlər ilə kəndlilərdən ibarətdir deyir. Haqqi müdafiə etmək əmələ, fəhlə və köylüləri müdafiə etmək deməkdir. Hökumət bu xüsusda bizi daima özü ilə bərabər görəcəkdir. Fəqət lazımdır ki, bu sözdə qalmayıb işə keçsin. Hökumət rəisinin ağzından eşidilən sözlər bunu isbat edir. Müsavat fraksiyasının deklarasiyasındakı bir çox maddələri [hökumət] bəyannaməsində də gördüyümüzdən məmnun oluruz. Hökumət bəyannaməsinə sadiq qaldığı müddətcə tamamilə müsavat firqəsi və əzasının etimadına məzhər olur. (Alqışlar).

**Sədr** - Söz Əhməd bəy Ağayevindir.

**Əhməd bəy Ağayev** - Möhtərəm əfəndilər! Məndən əvvəlki natiq möhtərəm rəfiqim hökumətin haqqında həssas pək sıcaq bir nitq irad etdi ki, möhtəviyyatına şərik oluram. Fəqət, onunla mənim aramızda bir fərq var ki, onun atəşi çox, mənim atəşim sönmüş, o gəncdir, mən ixtiyar, onun bir az göylərdə gəzməyə haqqı var, mən isə yeri görməyə məcburam. Hökumətin bəyənnaməsində söylədiyi Azərbaycan istiqlalı bizim həpimizin əfzəl amalımızdır. Hər bir kəndi şərəfini, kəndi amalını bilən azərbaycanlı bunu duymalı və bu yolda olmalıdır. (Alqışlar). Lakin bu əməlin ölməmiş və onun qövldən felə keçməsi üçün birinci amil (faktor) var isə o da hökumətin kəndisidir. Bunu unutmamalıyam ki, məmləkətimiz qayət böyük təhlükələr ilə əhatəlidir. Gecə qara gələn fırtına oynayır. Biz də bir taxta para kibi bu fırtınalar içində yuvarlanırız. Bunu qurtaracaq yenə hökumətdir. Bunu qurtarmaq üçün də mən bir əzmkar hökumət istərəm. Fəqət, söylədiyim taxta para təkcə bizdən ibarət deyildir ki, onun üçün düşünmədən işə başlayalım. Bu taxta paranın özü də 3 milyonluq Azərbaycan, onun şərəfi qadın və cocuqları bulunur. Bunları xilas etməklə böyük bir vəzifə ifa etmiş oluruz. Rəisi-vükəla bir qism bir vəzifeyi öhdəsinə götürdüyü xüsusunda bəyan etdiyi bütün fikrinə iştirak edirəm. Bununla bərabər hökumətin dəxi bir proqramı olmalıdır. O da bu taxta parayi aparmaq üçün sərməkan təşkil edəcəkdir. O sükan üzrə sağa-sola baxmayaraq düz [129 - 130] doğru amalına doğru kürəklərini çəkib o taxta parayi əzmkaranə bir sahili nicata çıxarmaqdır. Əcəba hökumətin sükana və əlindəki kürəklər nədən ibarət ola bilər? Biri kəndi üçün yapdığı proqramdan, dikəri o barədə (volya)dan ki, o da Bəyənnamədən məlum oldu. İstiqlalımızı xaricə qəbul etdirmədən əvvəl hökumətimizi daxildən təsdiq etdirməliyiz. Ona görə hökumətimiz daxili və xarici düşmənləri məhv edəcək bir hökumət olmalıdır. (Mərkəzdən alqış).

Məəttəssüf, hökumət iradəsini göstərdiyi zamanı olmamışdır. (Mərkəzdən: düzdür). Məəttəssüf ələmlə deyəcəyəm ki, hokumət daxilində işlər lazım olmayan adamlar əlinə tapşırılmışdı. Binaən ileyh daxildə hökuməti düzəldəcək qəti tədbirlərə müraciəti lazım bilirəm. Ən layiq, ən müdəbbir adamların iş başına götürülməsini arzu edirəm. Yalnız, bu vasitələr ilədir ki, sui-istemala xitam verilir. Və hökumət nahiyələrdə, hər yerdə varlığına ehsas etdirir. Bir də rəis tərəfindən bir ordunun təşkilinin lüzumu göstərildi. Onsuz da hökumət

özünü heç kimsəyə ehsas etdirəməz. Onun üçün lazım bilirəm ki, heç bir sinif fərqi olmadan hər kəs əskərə alınsın. Heç bir yuxarı, aşağı tərəhhüm edilməsin. (Ümumi alqışlar). Nəzarətlərə sıxılmış, gizlənmişlərin kaffəsi alınmalı (Mərkəzdən və soldan alqışlar). Belələrinə şiddətli cəza verərək həp ordu içərisinə atmalıdır. Əks halda çüftçinin cocuğu alınsa verməməyə haqqı vardır. Bu növ ilə hökumətdən əzm və səbat istərəm.

Xariciyyə gəldikdə yenə də keçmişdən şikayətə məcburam. Şimdiyə qədər lazım gələn xarici tədabir ittixaz edilmədi. Qonşularımızdan Ermənistan ilə bizim yekdiklərimizə mürəxxis göndərməmiz lazım idi. (Soldan: Doğrudur, bu keçmiş dövlətdir). Halbuki, erməni-müsəlman münasibəti və bütün Zaqafqaziya millətlərini barışdırmaq bizim üçün ən böyük məsələ, ən birinci vəzifədir. (Alqışhar). Burada hər iki tərəfdən nümayəndə olması ilə başa gələn bir iş deyildir. Ancaq biz istiqlalımızı Avropaya tanıtdırmış idik. Azərbaycan bir coğrafi ism deyil, yer üzərində yaşayan bir millətin olduğunu onun qulağına yetişdirmək, Azərbaycan öz mövcudiyyətini Avropaya bu vaxtadəkin andırmamışdır. (Soldan: Vaxtları yoxdur).

**Əhməd bəy** - Nələri yox idi?

**Soldan** - Vaxtları. [130 - 131]

**Əhməd bəy** - Halbuki iki vəzifə vardır. Məndən irəlidəki rəfiqim bir az idealist olaraq demokratlıqdan bəhs edərək böyük imkanda bulunur. Heyhat! Zənn edirəm ki, kəndisini bildirməyənlər üçün böylə bir naticənin əldə edilməsi bənddir. Mahaldır. Kimin dostu, nufuzu var o tanılar. Dostluqdan irəli qüvvətdi düşünülür. Binaən ileyh Avropada satqın propaqandalar vasitəsilə kəndimizə nüfuz qazanılmağını bəyani təəssüf etməmək qabil deyildir.

Avropa ilə yolumuz bağlıdır. Orada nə olduğunu bilmiriz. Halbuki Avropada "vüqu" olan hadisatdan müqəddəratımız asılıdır. Avropada nə olduğunu bilməli, ona münasib də siyasətimiz olmalıdır. Ona görə də Avropa ilə kuryerlər olmamasına təəssüf etməyə məcbur oluram. Burada beş il mahudlu masalar ətrafında kənardan xəbərsiz siyasət yürüdülməz. Bütün keçmişə aid bu xətaları soyləməkdə məqsədim atidə bunların bir daha təkrar olmaması üçündür. Ümid edirəm ki, hökumət öz deklarasiyasının həyata tətbiqində təmamən təzyiq etməklə əzmkar olmasının dilərik. Bitəraflər naminə etimad edirəm. (Alqışlar).

**Sədr** - Söz "Əhrar" fraksiyasından Abdulla bəy Əfəndiyevindir.

**Abdulla bəy** (oxuyur) - 1914 sənəsində alovlanmış və get-gedə bütün yer üzünü əhatə etmiş millətlər müharibəsi hənuz təmamilə qurtarmayıbsa da fəqət qurtarmağa üz qoyubdur. Aləmşümul müharibə tarixi-bəşəriyyətdə misli görünməyən və ölçüyə, çəkiyə yerləşməyən can, mal və pul tələfatına səbəb olmuş isə də digər tərəfdən mənhus istibdadın və qaniçən millitarizmin əsaslarını dağıtdı, usuli-idarələrin mahiyyəti dəyişdi, yüz sənələrcə demokratizm gəlməsindən qorxan və həmişə onun əleyhinə qalxışan cəmaət siniflərini bu gün istər-istəməz demokratizm tərəf etdi. "Hər millət öz müqəddəratını təmin etməyə haqlıdır" kimi müqəddəs və ali fikirlər doğurub meydana gətirdi. Həyati bəşəriyyəni əsarət zəncirindən qurtarıb təbii yoluna qoydu. Daha bu gündən sonra millətlərin təkamülü onların diriliyindən və fədakarlığından asılıdır. Daha fərdi millətlər namə ilə kəndini keçindirmək imkanı-namalik olacaqdır. Bu xüsusda fraksiyamızın imanı kamildir. Lakin fraksiya burasını da yəqin bilir ki, "Haqq alınar, verilməz!" Hüquqi-bəşəriyyəyi ancaq ləyaqəti olan, onun yolunda qurbanlar verən və hava su kimi onun qədr və qiymətini bilən [131 - 132] millətlər malik olacaqlar. Əks surətdə yəni azadlıq yolunda heç bir fədakarlıqda bulunmayan millətlər yenidən qəyyum altında yaşamağa məcbur olacaqlardır. Hüquqi-bəşəriyyədən məhrum qalacaqdır. Keçmişdən daha şiddətli bir əsarətə kiriftar olacaqlar. Xoş o millətlərin halına ki, müəzzəm və mədəni millətlər ilə həmhüquq olmaq şərti ilə onların sırasında məqam tutmağa müvəffəq olacaqlar. Vay o millətlərin halına ki, bu səadətdən, bu xoşbəxtlikdən məhrum qalacaqlar. Tarixi bəşəriyyətdə parlaq ad qazanmış türk milləti niəcibiyyeyi-əzəməsinin bir kütləsini təşkil edən Azərbaycan türkləri bu axırıncı vüquat tarixinə də azacıq olsa kəndi diriliyini və dirilik sayəsində hər hüquqa malik ola biləcəyini kərrat ilə isbat etmişdir. Deməli, bu millət hər bir cəhətdən müstəqil yaşamaya layiq millətlərdəndir. Bina bərin pişrovları, millət ziyalıları, milləti-əhvali ruhiyyəsini öyrənir isə onun ayəndəsi üçün heç fədakarlıqdan geri duramaz isə onun xəstəliyini tədqiq və müayinə edib müalicəsinə səmimiyyətlə çalışır isə və həmin səmimiyyət qarşısında əhalinin etimadını qazanır isə o surətdə demək olar ki, bizlərdə yaşarız; mədəni millətlər sırasında məqam tutmağa bizim də haqqımız vardır. Buna binaən başqa millətlərdə olduğu kimi bizim də rical hökumətimiz belə adamlarda mütəşəkkil olmalı idi. Heyfaki, altı-yeddi aylıq tərcübə azacıq olsa da bizlərə əmniyyət verdi. Təəssüflər olsun ki, millətimizdə gördüyümüz diriliyi, fədakarlığı bu ana kimi hökumətimizdə görmədik. Fəqət, nə etməli keçən keçibdir. Hal-hazırımızın siyasəti böyük əhəmiyyət kəsb etməklə bərabər öylə nazik öylə incə məqamlara varıb ki, həm parlament və həm hökumət tərəfindən böyük çalışqanlıq və həkimanə bir taktika istər. Daha bu gündən belə yoxlamaq qəbul edilməz. Bir xəyanət bir cinayətdə. Əgər mən fəaliyyətsizlik üzündən bir bədbəxtliyə uğraramsa, əmin olun ki, bütün məsuliyyət parlament əksəriyyətinin və əksəriyyət təşkil etdiyi hökumətin üzərinə gələcəkdir. Parlamentimizdə baxılır isə buna məmləkətimizdə mövcud olan cəmaət təbəqələrinin nümayəndələri ictimai, müəyyən seçki qanunu mocibincə və ədalətnamə ilə intixab edilmiş millət məbusları palatası dəyəmiyəcəyi ümum parlament fraksiyalarının diqqətini cəlb etmişdir. Bina bizim şimdiki parlamentimizə, biz fəqət vaxtın təqazası mocibincə və inqilab sotilə [132 - 133] təşkil olunmuş parlamentin önü deyə biləriz. Belə parlamentin ümdə vəzifələri

müvəqqəti və motəbər, möhkəm bir hökumət təşkil etməkdir. Cümhuriyyətin həqiqi sahibi olanlar məclisi-müəssisanı intixab üçün ədalətli bir seçki qanunu tərtib etməkdir və həmin qanun üzrə məclisi-müəssisan toplanıb vətənə sahib oluncaya qədər davam edib durmaqdadır. Ancaq bu təriq ilə toplanmış məclis, vətənin ağır vəzifələrini daşımağa haqlıdır. Ancaq belə bir məclisi ümum vətənin havadarı, hər sinif, hər millət və hər təbəqənin müvərriçi əfkarı və ayineyi-həyatı ola bilər. Əvət, parlamentimizin ümdə vəzifələri bunlardan ibarətdir. Hökumətimizə gəldikdə bu təşkilatın sağlamlığını əhəmiyyətini bu gün bilməyənlər yoxdur. hökumət, parlament indində məsul olmalı və parlament göstərdiyi yollar ilə getməli isə də müstəqil, müttəhid, möhkəm, mötəbər və mükəmməl bir qüvveyi-icraiyyə təşkil etmişdə onun birinci vəzifələrindəndir. Hökumət borcludur, sarsılmaz bir xətti-hərəkət kötürüb vətəni adilanə və aqilanə bir surətdə idarə etsin. Daxili və xarici siyasəti-vətəniyyəyi sağlam bir fikir sayəsində yürüdüb, hər daim millət və vətəninin namusunu mühafizə etsin. Ancaq belə bir hökumət arxasında parlament və onun vasitəsilə bütün vətən övladını görə biləcəkdir. Böylə olmayan hökumət vətən xaini və millət düşməni namını daşımaya müstəhəq olacaqdır. Cümhuriyyətimizin diri bir vücud kimi fikrimizdə mücəssəm edər isək o vücudun baş məclisi-məbusan havası zahirə və batinəsi və ya başqa əhəmiyyətə hayiz əzası ilə hökumətdir: necə ki göz görmək, qulaq eşitmək, əl işləmək, dil danışmaq üçündür. Bu üzvlərdən və ya başqalarından hər biri öz işlərində mütəxəssisdilər, və ancaq oz işlərinə məşğuldurlar. Fəqət, ümum üzvlərin yeganə məqsədləri yalnız bir bədənə, bir ruha xidmət etməkdir; həmçinin hökumət üzvləri də özlərinə vaküzar edilmiş vəzifələri və hər kəs öz vəzifəsini daşımağa məcburdur. Və necə ki, bədən üzvləri öz vəzifələrindən imtina etdikdə bu fəlakətə səbəb ola bilər. həmçinin ricali hökumət öz vəzifələrini daşımazlar isə vətəni və milləti böyük-böyük fəlakətlərə düçar edə bilərlər. Buna binaən əvvəla, nazirlərdən hər biri təhti-idarəsinə verilmiş şöbənin mütəxəssisi olmalıdır. Saniyən hər nazir kəndi müəyyən vəzifəsini vətənin hal və ezayi siyasiyyəyə müvafiq yürütməyə borcludur. Salisən nazirlər öz [133 - 134] fəaliyyətsizliyi "Əhvali-siyasətdən naşıdır" - deyə doğrultmaqdan qəti surətdə vaz keçməlidirlər. Daxili işlərə məşğul olmayan nazirin daxili naziri namini daşımağa həqqi yoxdur. Maarif işləri ilə məşğul olmayan nazir maarif naziri namini daşıyamaz və həkəza bunlar sabiq hökumət tərəfindən bizə verilən bəyənatın ziddinə olaraq hərəkət etməlidir. Yəni siyasət incəliyinə hər nazir ixtisas dairəsində fəaliyyətini çoxaltmalıdır. Rabiən ayrı-ayrı nazirlərin yürütdüyü siyasət ümumi vətən siyasətinə zidd olmamaq şərti ilə onların bütün heyəti yəni heyəti-vükəla ümumi işlərdə bir vücud kimi hərəkət etməlidirlər. Belə olmaz isə övzayi-vətən şimdiki halından dəxi fəna hallara düşəcəkdir. Bir baxın görün ki, biçarə vətən bu saat bir məzarıstana bənzəyir. Yollarımız xarabazara dönübdür. Poçta-teleqrafımız hənuz intizama düşməyibdir. Əhalinin əlindən mal-qarası çıxıbdır, taxıl günü-gündən bahalanır, odun-kömür, qənd, neft, çay kimi ləvazimat məhz bu gün dövlətlilərə məxsus olubdur; soyğunçuluq, rüşvətxorluq, ədalətsizlik və özübəylik saatbasaat kəsbi şiddət edir. Türklər yerlərinə çəkildikcə ümumi pozğunluq yavaş-yavaş baş qaldırmaqdadır. Əsgərlik üsulu əhalini bu müqəddəs vəzifədən nifrətləndirdi. Varlılar rüşvət və tərəfkirlik sayəsində əsgərlikdən qaçdılar, hər yerdə bu ağır vəzifə yalnız füqəranın üzərinə atıldı. Bunun ilə bərabər həmçinin füqəra üçün yeməyə çörək yox, qənd, çay və libas yox, öləndə də bürünməyə kəfən yox. Xəstəliklər əhalini ot biçən kimi qırıb tökür. Ölənlərin sayı yüz mini təcavüz etdi. Dünənki on-on beş sayından ibarət ailənin qapısına bu gün qıfıl vuruldu. Əhalisi minləri təcavüz kəndlər bu gün başdan-başa bayquşlar çövlangahi olubdur. Həkim yox, dərman yox, xəstələrə yemək yox, həkim olan yerlərdə də ona rücu" etməkdənsə xəstə üçün ölüb qurtarmaq daha ucuz oturur. Möhtəkirlərin fəaliyyət sahəsinə heç bir yerdə nə sərhəd var və nə əleyhinə tədbir. Məmləkətimizin daxili işlərinin bu cəhətlərinə böyük əhəmiyyət verilməlidir. Hər şey nizam və intizam təhtinə alıb şimdidən ümumi fəlakətin və tarixi bədbəxtliyin önünü almalıdır.

İşbu mülahizələri nəzərdə tutub fraksiyamızın verdiyi qərar vətən məsul mötəmid və mükəmməl bir hökumətə təslim üçün yardım etməkdir. Vətənin istiqlalını və cümhuriyyət [134 - 135] anam əsaslı surət idarəsini var qüvvəsi ilə müdafiə etməkdir. Əqəliyyətin həqqini təmin edici və məhəllərdə məskun əhalisinin nüfuzuna mütənasib seçki qanunu tərtib edib vətənin həqiqi sahibi olan məclisi-müəssisanı ən yavuq zamanda iş başına dəvət etməkdir. Bunun ilə bərabər bu gün biz inqilab surətilə elan edilmiş Azərbaycan istiqlalını bütün aləm qarşısında uca bir səslə alqışlayırız və səmimi qəlb ilə elan ediriz ki, vətənimiz övladının ədalət və bilafərq din və millət hər hüquqa malik olması qayeyi amalımızdandır. Millətimizin şərəf və namusunu bir an unutmayaraq, qonşu millətlər və dövlətlər ilə əlaqeyi dustananə möhkəmləndirməyi hökumətimizin vəzaifi aliyəsindən ədd ediyoruz. Vətən və millətimizin nümayəndələrini qonşu cümhuriyyətlər nümayəndələri ilə müttəfiqən sülh konfransına iştirak etdirməyə və istiqlalımızı təsdiq etdirməyə var-qüvvəmiz ilə çalışacağıq. Başqa hüquqi maliyyəyə qərarımız belədir ki, hüriyyətlər qanunən başdan-başa təmin edilməlidir, amma kin və heysiyyəyi şəxsiyyəyə tərizdən məsun olmalıdır. Əkinçilərin və fəhlələrin halı lazımi dərəcədə yüngülləşdirilməlidir. Qanun öz təhti qərarı alınmış xırda mülklərdə həqiqi təkamülü olmalıdır. İri topraqları sabiq padişaha və onun nəslinə böyük mülkədarlara və xüsusi maliklərə mütəəlliq topraqları xəzinəyə gətürüb əkinçi ailələrinin nüfuzuna mütənasib məccanən paylanmalıdır. Xüsusi topraqları əvəzində xəzinədən bədəl vermək məsələsini Məclisi-Müəssisana həvalə edilməlidir. Topraqlar sərvətdarlar əlinə keçməsin deyə əkinçilər aldıq-ları topraq payını satmaq ixtiyarına malik olmamalıdır. Fəhlə sinfinin yomiyyə zəhmətinin müddəti 8 saatdan ziyadə olmamalıdır. Onların keçinəcəyi hifzi — səhiyyələri, maarif işləri, kassaları və başqa tələbatı

adilanə bir surətdə qanunən təmin edilməlidir. Füqərayi-kasibə sinfini bir çox hərracdan azad etmək üçün vergilərin küllüsü gəlirə gorə vergi ilə əvəz edilməlidir.

Tədris ibtidai, ümumi, məccani və məcburi olmalıdır. Azərbaycan cumhuriyyətinin maarifə olan ehtiyacını və başqa ehtiyacatın fövqindədir. Ümum fəlakətlərin birinci səbəbi maarif yoxluğudur. Buna görə müəllimlərin məişətini təmin etməklə, onları dilənçilik halından xilas etməlidir. Müəllimlər məktəblərdən başqa darülmüəllimlər, rüşdi, edadi [135 - 136] və hərbi məktəblər, sənaye və ticarət, ziraət məktəbləri açmalıdır. Şimdiki məktəblər mümkün olduqca tez bir zamanda milliləşdirilməlidir. Cəmaət anlayacaq şivədə də siyasi, elmi və fənni-risalələr, jurnallar üsuli-təlim və tərbiyəyə dair əsərlər tədbir edib əhvan qiyməti ilə və geniş bir miqyasda intişar etdirilməlidir. Bunlardan əlavə cümhuriyyət daxilində bu sənədən etibarən darülfünün təsis edilməlidir. Hökumət idarələrini keçindirmək üçün xüsusi kurslar açıb bütün hökumət idarələrində və şəbələrində işləməyə xidmətçilər hazırlanmalıdır və həmin idarələri tez bir zamanda milliləşdirməlidir və bütün risaaltı türk dilində aparmalıdır. Məhkəmə ədliyyələr demokratik bir üsul üzrə təsis edilib hər bir fərd bilafərq din və millət ancaq cümhuriyyət qanunu müqabilində məsul tutmalıdır. Təcili surətdə məhəllərə təftiş komisyaları göndərib rüşvətxor və xain xidmətçiləri məqamlarından kənar etdirməli və divani-ədalətə verilməlidir.

Ərzaq məsələsi: möhtəkirlər və müstəbidlər əlindən xilas edilməlidir. Taxıl, çit, yağ, qənd, çay, sabın və başqa ləvazimatı həyatiyyənin imdidən tədbirinə düşməlidir. Əski şosa yolları lazımınca təmir edilməli, hər yerdə yeni yollar açılmağa sərfihümmət etməlidir. "Orta Qafqazda dəmir yolu namində hazırlanmış əski projeni qövlədən felə götürməlidir. Ucuz fiyatlə dəva-dərman gotürüb məhəllərə göndərməlidir. Məhəldə parasız müalicəxanalar açmalı və hər yerə həkimlər göndərilməlidir. Bu yollar ilə külliyyətli el qırğınının onünü almalıdır. İstiqlaliyyeyi-milliyənin birinci sütunu ədd olunan sağlam və müdhiş bir orduya malik olmalıdır. Cümləmizə məlumdur ki, yeni doğulmuş əsgəri təşkilatımız adilavə bir surətdə icra edilməklə bərabər bir çox təbii fəlakətlərə uğrayıblar. Buna görə cəmaətimiz bu işdən tənfir olubdur. Əsgərlik vəzifəsi vətənin ən müqəddəs vəzifələrindən olduğunu nəzərdə tutub, yeni təşkilati-əsgəriyyəyi mükəmməl bir əsgəri qanuna müvafiq düzüb qoşmalıdır. Əsgərlərin yeyəcəyinə, yatacağına, libasına və həkim dərmanına boyük diqqət etməlidir. Dovlətliyə, fəqirə, böyükə, kiçiyə təvafüt qoymamalıdır. Bu qədər bilməlidir ki, bizləri Azərbaycana sahib edəcək, qüvvə, bizə ordumuz olacaqdır. Ordu sağlam və mohkəm bir qüvvə təşkil edirsə hökumət də ona istinadən [136 - 137] iş görə bilir, millət də onun sayəsində tərəqtiyə üz qoyub millətlər sırasına keçir.

Nəhayət, yeni hökumətin bu günkü bəyanatının qarşısında fraksiyamızın cavabı budur ki, millətin vətənin mənafeinə işləmək quru sözlərdən və boş vədlərdən ibarət olub qalmamalıdır. Əgər hökumət ciddi fəaliyyət və fədakarlıq etməyə doğrudan-doğruya hazır isə, arxasında əhrar fraksiyasını görəcək və onun müavinətini qazanacaqdır. Ancaq bu şərti ittixaz edərək vaxtın əhəmiyyətini, siyasətin nazikliyini nəzərdə tutub yeni hökumətə fraksiyamız izhari etimad etsin.

**Sədr** - Söz "İttihad" fraksiyasından Qara bəy Qarabəyliyə verilir.

**Qara bəy** - Bu gün minbərə çıxıb söyləmək istəyirdik. Zira da görürüz ki, daima söylüyürlər. Acı-acı sozlər də soylənilir. Gələcəyi yaxşı görən də var, pis görən də var. Natiqlər həpsi halımızdan soyləyirlər. Halımızın nə qədər ciddi olduğunu təsvir edirlər. Hətta Əhməd bəy əfəndi bizi taxtaparaya mindirib mərkəzə tullayır. Doğrudur, halımız fənadır. Hər kəs çalışır ki, aradakı qara divardan bir işıq nöqtə bulsun. Bizi xilas edəcək bir kimsəyi arayır. O da hökumətdir. O hökumətin borcudur ki, beyləlik ilə bulunmuş yol ilə getsin, millət də onu təqibən nicata doğru yürüsün. Bakalım bu asanmı? Siz hökumətin söylədiklərini eşitdiniz. Fəqət, biz bunu keçmişdə də eşitdik. Əhval fəna imiş, ölkəmizdə heç bir şey yox imiş, övza" namüsaid imiş və qeyrə. Biz hökumətdən böyük məsələlərin həllini istəmirdik. Fəqət az şeylər var ki, hökumətdən tələb etməyə ixtiyar var idi. Elə bir kiçik binalar var idi ki, küçük yəni ən ufa, ən balaca, o binaları qoymuşlarmı, əcəba? Bunu həkumət etməmişdir. Bunu yapmaq boyük məsələlərə nəzərən ən əfv edilməyəcək günahi-kəbirlərdəndir. Andranik bəlasından macərapərəstlikdən milləti azad etmək, Ermənistan ilə əlaqeyi-siyasiyyə peyda etmək və başqaları köhnə hökumətin işi idi. Fəqət, düşünüləmədi. Şimdi inanılım ki, düşünüləcək, fəaliyyət də bulunacaqdır. Zira ki, altı ayın zərfində düşünmüşlər, öyrənmişlər. Şimdi o qəqəd çalışa biləcəklər. Bu millətə xidmət etmək lazımdır, bu millət sahibsiz bir millətdir. Bu millət ingilis deyil, fransız deyil. Hökumət başında olanlar sidqidil ilə vaxtlarını buna sərf edərək çalışacaqlar. Ağır vəzifəni döröhdə [137 - 138] edərək, gecə-gündüz səy və qeyrət edəcəklər. Biz onlara mütəşəkkir olmalıyız. Biz ümid ediriz ki, böylə olacaq, bu barədə də biz bəkləriz. Hökuməti feildə görürüz. Hökumət feil ilə müftəər olmalıdır. Vaxt lazım gəlmiyor ki, biz də bəkləyə bilək. Zira şəhərimizdə tətil dəvam ediyor. Tətil şəhərimizi oldürmüş, həyatı adi çərçivədən çıxarıb başqa bir hala salmışdır. Bakalım, hökumət başqa bir şey yapa biləcəkmi? Bir iş görərəcəkdirmi? Bineən ileyh bizim firqə hökumətə o vaxt etimad verəcəkdir. Hökumət bir iş gorsün, ozünü gostərsin, biz fəqət şimdi bəkliyoruz. hökumətdə sabiq əza qalmışdır. Biz onların keçmişindən bir şey görmədik. Bəlkə gələcəkdə bir şey yapacaqlar. Bakalım, şimdi biz etimadnaməmizi cibimizdə qoyub saxlayırız. Nə vaxt hökumət ozünün layiqli olduğunu göstərər isə, biz etimadnaməmizi hazır etməyə hazırız.

**Sədr** - Natiqlər sırası bitmiş, hərgah daha soz istəyən yox isə (sola müraciətən) sozünüz varsa, buyurunuz.

**Məhərrəmov** - Parlmanda təşkil olunmuş sosialistlər ittifaqı fraksiyası tərəfindən yeni hökumətə etimad bəyan edəriz. (Alqış).

**Şeyxülislamov** - Parlamentin hümmət fraksiyası yeni hökümətə etimadını izhar ediyor. (Alqış).

**Sədr** - Söz istəyən yox isə, müsavat fraksiyonu tərəfindən daxil olmuş təklifi elan edəlim.

**Əhməd Cövdət** (oxuyur) - Hökumət bəyənnaməsini dinləyərək Azərbaycan məclisi-məbusanı Fətəlixan Xoyski hökumətinə etimad eylədiyini bəyan ilə növbədəki məsələlərə keçir. (Alqış).

**Sədr** - Başqa bir təklif yoxdur. Binaən-ileyh mən bu təklifi səsə qoyuram. Hər kəs bu təklifin tərəfdarıdır əlini qaldırsın. (Əllər qalxır). Hər kəs əleyhinədir? (Əllər qalxır). Hər kim iştirak etmir? Əlini qaldırsın. (Əllər qalxır). Deməli, parlament istizah firqəsi iştirak etməzsiz bu təklifi qəbul edib növbədəki məsələlərə keçir. (Soldan: gələcək). İltifat ediniz. İkinci istihzah barəsində deyirəm ki, müəllifi geri götürür.

**Əhməd Cövdət** - Komisyonlar tərəfindən təklif edilən namizədlər bunlardır: [138 - 139]

"İttihad" fraksiyonundan: Maliyyə komissiyasına Mehdiyev; Məclisi-Məbusan seçkilərinə Qazi Əhməd Məmmədbəyov, Əmələ komisyonuna Heybətqulu Məmmədbəyov;

"Əhrar" fraksiyasından: Məclisi-Müəssisan seçkiləri komisyonuna Abdulla bəy Əfəndiyev, maliyyə komisyonuna Hacı Molla Əhməd Nuruzadə, fəhlə komisyonuna Bayram Niyazi Kiçikxanov.

"Sosialistlər İttifaqı" fraksiyasından: fəhlə komisyonuna Rza Qaraşov, maliyyə-büdcə komisyonuna Məmməd Məhərrəmov, Məclisi-Müəssisan seçkiləri komisyasına Cəmo bəy Hacınski;

Müsavat fraksiyasından: Məclisi-Müəssisan seçkiləri komisyonuna Məmməd Əmin Rəsulzadə, maliyyə komisyasına Nərimanbəyov, fəhlə komisyasına Məlik Yeqanov;

Sosial-demokrat fəhlə firqəsi "hümmət" fraksiyasından: fəhlə komisyonuna Əliheydər Qarayev, maliyyə komisyonuna Əkbərağa Şeyxülislamov;

Əqəliyyət təşkil edən millətlərdən: fəhlə komisyonuna Tsixakaya, maliyyə komisyonuna Koxman, Məclisi-Müəssisan seçkiləri komisyonuna Vanseviç;

Birtərəflər fraksiyonundan: fəhlə komisyonuna Abuzər bəy, maliyyə komisyonuna Əliağa Həsənov, Məclisi-Müəssisan seçkiləri komisyasına Teymur bəy Makinski.

Sədr - Bu namizədlərə etiraz yox isə qəbul olunur. Sabah etimadnamə komisyonu və başqa komisyonlarda saat 11-də buraya cəm olsunlar. Rica edirəm gələcək məclisin vaxtını müəyyən edəsiniz. (Səslər: Heyəti rüsa təyin edər). Qalıb bir məsələ: əfvi-ümumi istizah barəsində. İstizah hər kim bunun təxiri tərəfdarıdır əlini qaldırsın. (Mərkəzdən: Şimdi əksinə). Rica edirəm, mane olmayasınız, hər kim bunun əleyhinədir əlini qaldırsın. Deməli, məsələ keçmədi, qalır.

Məclis saat 4.20 dəqiqədə qapanır.

**Arxiv: f.895,siy. 1 ,iş. 1, vər.50-57.**

## № 6

## Altıncı iclas

*30 dekabr 1918-ci il*

Məclis saat 1 tamamda doktor Həsən bəy Ağayevin sədarəti və Əhməd Cövdətin katibliyi ilə açılır.

**Sədr** - Parlamentin iclası açılır. (rusca tərcümə). Bu günkü ruznameyi müzakirat heyəti rüəsa tərəfindən belə tərtib verilmişdir:

1.Parlament əzasından Mehdi bəy Hacıbabəyov ilə Hacı Kərim əfəndilərin hərəsinin 10 gün məzuniyyət istəməsi; 2.Gürcüstan parlamentinin təbriki; 3."Əhrar" fraksiyasıın ərzi-halı; 4.Son həbslər haqqında istizah; 5.Əfvi ümumi layihəsi; 6.Sair məsələlər.

Fəqət ruznamədəki məsələlərin müzakirəsinə şüru" etmədən əvvəl ərz etməliyəm ki, əfv ümumi layihəsinin müəllifləri onu yenidən nəzərdən keçirərək, yenidən tərtib vermək üçün geri götürmüşlərdir. Şimdi bu ruznaməyə etiraz yoxsa, qəbul edəlim.

**Əhməd bəy** (yerindən) - Rica edərdim bir kaç söz müsaidə buyurasınız.

**Sədr** - Buyurunuz, buyurunuz.

**Əhməd bəy** - Əfəndilər! Qəzetdə general Tomsonun son bəyannaməsini oxudunuz və əhəmiyyətini təqdir etdiniz. Bu bəyannamə həqiqətən şayani təqdirdir. Bunun bu gün bizim üçün nə qədər əhəmiyyəti olduğu məlumdur. Onun məzmunu millət və hökumətimiz üçün şayani təbrik bir müvəffəqiyyətdir. Daha Ənzəlidə Müttəfiq dövlətlərin nümayəndələri ilə müzakirə olunarkən Azərbaycan bəzi müşkülat çıxara bilərdi. Və öz paytaxtını müdafiə müqtədir bir halda idi. Fəqət Azərbaycan üç böyük dövlət ilə qovğa etmək fikrini hələ ibtidaidən bərtərəf etmişdi. Çünki bu dövlətlər böyük müharibəyə girmədən əvvəl ufaq məmləkətlərin azadlığı, onların hüququnu müdafiə uğrunda müharibəyə girişdiklərini mütəmadiyən elan etməkdə idilər. Daha sonra məzkur hökumətlər Amerika cəmahiri müttəhidəsi rəisi-cümhuri cənab Vilsonun dünyaya atmış və bəşəriyyətə təbəşşür etmiş olduğu 14 maddəni kəndilərinə şüar [140 - 141] və bir bayraq edərək meydana çıxarmışdılar. Binaən-ileyh İngiltərə, Fransa və Amerika nümayəndələri Ənzəlidə müzakiratda bulunan zaman biz bilirdik ki, gəldikləri yerlərdə yaşayan kiçik millətləri əzmək üçün deyil, o millətlərin haqq və mövcudiyyətlərini təmin edəcəklərdir. Biz buna əmin idik. Ona görədir ki, azərbaycanlılar hələ Ənzəlidə ikən qovğayi birtərəf edərək müttəfiqlərin şərəf və namusuna inanıb da vətənimizin geniş bucaqlarını onların üzərinə açdılar. Onlar burada bulunurlar. Mən bunu qeyd etmək istəyirəm ki, müttəfiqlər qüvvəsinin rəisi general Tomson bu vaxtadək Ənzəlidə vermiş olduğu sözlərin heç birindən inhiraf etməmişdir. Rəisi-vükəla dediyi kimi bizə rəayət etmişdir. Bizə verdiyi sözlərin heç birisinə əks iş görməmişdir. Bu yolda general Tomsonun son bəyənnaməsi sözlərimin doğruluğunu isbat etdi. Tomson cənablarının bəyənnaməsindən iki nöqteyə parlament əzalarının diqqətini cəlb etməyə, bu iki mühüm nöqtənin bütün parlament və millət tərəfindən qeyd edilməsini təmənna edirəm. Tomson cənabları Azərbaycan dairəsində qanuni və məşru" bir hökumət olmaq üzrə yalnız Azərbaycan hökumətini tanıyır. Və ona kömək, yardım, müavinətdə bulunacağı qeyd edilir. Əfəndilər! Azərbaycan milli mövcudiyyətin mühafizə yolunda bu birinci qədəmidir. İşbu birinci qədəmi biz təbrik ediriz. (Alqış). haqq heç vaxt payimal olmaz. Müttəfiqlər nümayəndələri hələ Ənzəliyə gələrkən bizim barəmizdə böhtani və iftira ilə zəhərlənmiş və başqa bir fikirdə idilər. Amma yalnız gələrkən bizi başqa bir şəkildə gördülər. gəlib yaxından tanıdılar. Sülh və müsalimət hanki tərəfdə olduğunu anladılar. Bizi tanıdılar. Şimdiki müttəfiqimiz də haman bundandır. Bizə qarşı çıxarılan süni cəbr və provakasiyaya cavab verdik, çünki haqlı olduğumuza əmin idik. Şimdi də nəticəni görüriz. Azərbaycan istiqlaliyyəti yolunda köksümüzü gərərək daima eyni mətanət, eyni əzmkarlığımızı göstərərək müstəqil yaşamağa layiq və müstəhər olduğumuza səbat edəcəyiz. (Alqış).

**Məmməd Əmin Rəsulzadə** - Möhtərəm Əhməd bəy həzrətləri tərəfindən şayani-qeyd görülən məsələlər həqiqətən calibi diqqət və məclis tərəfindən qeyd olunacaq mühüm məsələdir. Daha ingilis və sair müttəfiqlər qoşunu paytaxtımıza daxil olan zaman Azərbaycan paytaxtında yaşayıb da "Azərbaycan" fikrinə [141 - 142] muariz və qüvvəyə tabe olaraq məqami-təslimdə bulunanlardan kənardan başqa bir qüvvə gəlir ki, ruhlanıb tərizə başladılar. Bir çox ünsürlər və onların gəlməsindən bir ruh alaraq Azərbaycanın kökünü baltalamağa başlamışlar. Əhməd bəy kimi azərbaycanlılar özlərinin haqlı olduqlarına və müttəfiqlərin öz qövllərinə sadiq qalacaqlarına əmin olduqlarından Azərbaycan paytaxtında baş qaldıran intriqadan müztərib idilərsə də lakin naümid deyildilər. Lakin nə qədər ümid varlıq hasil olsa da bundan belə Azərbaycanı tanıyanların artıq bir daha iş körməyəcəklərinə inanmaq səhvdir. Əvvəlinci günlərdə biz burada xof ilə rica arasında idik. Biz ozümüzün haqlı olduğumuza görə ixtilal çıxarmağa qadir idiksə də yenə ixtilal çıxarmadıq, zira ki, hüququmuza əl uzadılmayacağına inanırdıq. Lakin əhvalın belə olduğunu yalnız iş başında duranlar, yalnız siyasilər bilirlər. Amma cəmaət, cəmaətin böyük kütləsi əhvaldan bixəbər olduğundan Azərbaycan fikri əleyhinə də bulunanların hərəkətlərini görüb şübhədə idilər. Müttəfiqlərin vürudindən sonra birinci hərəkətlər şübhəyi daha da artırdı.

Çünki, burada baş qaldırmış ünsürlər Azərbaycanın istiqlaliyyəti əleyhinə iş görmək istəməmişlərdi. Müttəfiqlər və ingilis Ənzəlidə olduqları vaxt belə dost olmayan mənbələrdən alınan başqa məlumat və fikirlər üzərinə bəyannamə nəşr etdilər. Tomsonun bəyənnaməsi müttəfiqlərin həqiqi əhvaldan bixəbər olduğunu göstərirdi. Fəqət, sonradan həqiqət hala bələd olmaq nəticəsində çıxardığı və nəşr etdiyi ikinci bəyənnaməsi birincini rədd etdi. Bu bəyənnamədə Kafkaziya məsələsinin sülh konfransında həll ediləcəyi aşkar olundu. Bu bəyənnamə bizim azərbaycanlıların sülh və müsalimət tərəfdarı olduqlarını yaxından öyrənilmiş təcrübə sayəsində atılmış bir qədəm idi. Bu qədəm atıldı. Bu gün həqq məşrurəyə layiq yeganə bir hökumət olmaq üzrə Azərbaycan hökumətinin tanındığını eşidirik. Bu gün ingilis və müttəfiqlər nümayəndəsinin belə bəyənatı və ondarın bizə qarşı belə münasibətini belə açıq təyin qılması məmləkətimizdə mövcud olan anlışılmazlıq rəf edilir. Bu gün burada qonaq şəklində olan ingilis və sair müttəfiqlər bizə mühazirat göstərilir və bizim istiqlaliyyətimizi istəməyənlər bu gündən etibarən aşkar görəcəklər ki, buradakı qüvvələr Azərbaycanı təsdiq etməyə təmayül edən bir qüvvətdir. Xaricdən gələn qüvvəyə istinadla [142 - 143] Azərbaycanı dağıtmaq istəyənlər gördülər ki, o qüvvə Azərbaycanın əleyhində deyildir. Şimdi Azərbaycan xarici qüvvələrdən məzahir almaq xəyalilə Azərbaycanı yıxmaq istəyənlər artıq görəcəklər ki, o xəyal puçdur və Azərbaycanın xalqı öz istiqlaliyyətini var-qüvvəsilə müdafiə edəcəkdir. Bu da ona qüvvətlər verərək bir dəfə cızmış olduğu istiqlaliyyətimizi o stra-teji amalımızı müdafiə etmək məsələsində bizə bir daha qüv-vət verir və inamımızı artırır. General Tomson tərəfindən nəşr edilmiş olan bəyənnamə bu yolda bizə daha böyük bir ümid verir ki, bu gün biz ingilis komandanı tərəfindən qəbul olunan yeganə məşru" bir hökumət nümayəndələrimizin sülh konfransında çalışmaları sayəsində o komandanlıqların hökumətləri tərəfindən də etiraf və təsdiq ediləcəkdir. (Sol və mərkəz: alqış).

**Sədr** - Söz Əhməd Cövdət bəyindir.

**Əhməd Cövdət** - Əfəndilər! Əhməd bəy Ağayev cənabları İngiltərə [nin] general Tomson tərəfindən verilmiş bəyənnaməsi haqqında danışdı və bu bəyənnaməni təqdirə də dəvət etdi. Nə olmuş əfəndim! İngilis generalı öz qoşunu ilə buraya gəlmiş məhəlli hökuməti tanıyır. Əcəba, bunu genaral öz rəyilə etmiş və bizə səmimiyyət göstərmiş və yaxud bunun dərin bir əsası vardır. İştə o dərin bir əsası vardır. İştə o dərin əsaslar haqqında burada bir neçə kəlmə söyləməliyəm. Məlumdur ki, general Tomson İngiltərə hökumətinin əsgəri nümayəndəsidir. Hərb zamanı bu qədər qanlar töküldü, müttəfiqlər demokratiyası oz səsini qaldırıb xırda millətlərə hürriyyət və azadlıq istədi. Müttəfiqlər nümayəndəsi olan general Tomson hər millət kəndi müqəddəratını həll edəcək deyilən demokratiyanın arzusunu da verə bilməz və Azərbaycan istiqlaliyyətini tanımıram deyə bilməzdi. Çünki generala bu əmri verən ingilis və ümumcahan demokratiyasıdır. Ona əmr edir ki, tanısın. (Soldan və mərkəzdən alqış).

Əfəndilər! İngilis generalı xalqımızı tanır isə bizim demokratiyamızı qaldırıb ingilis və ümumcahan demokratiyasına deyir ki, məgər bu sözlər yalan iymiş İngiltərə demokratiyasının əmrini yerinə yetirməlidir. (Alqışlar).

Müstəqil-tərzi idarə qurularsa bu general alardı o millət haqqını və istiqlaliyyətini etiraf etməlidir. Buna görə bu gün burada təqdir ediləcək xırda millətləri əsarətdən qurtarır. [143 - 144] O da ingilis deomkratiyası ümumcahan demokratiyasıdır. Buna görə ingilis və ümumcahan demokratiyasına salam verməliyiz. (Alqış). Sabah Avropaya azim olacaq nümayəndələrimiz bizim bu salamımızı haman demokratiyaya yetirib söyləməlidir. İmdi [hər] bir xırda millət öz istiqlaliyyətini öz əlinə almışdır.

**Sədr** - Danışan varmı? Deməli yoxdur. Ona görə təklif edirəm ki, parlament qanun-əvvəlin 29-da general Tomson tərəfindən verilən bəyənnaməni kəmali-məmnuniyyət ilə dinləyib növbədəki məsələlərə keçir. Buna etiraz yox isə qəbul olunur.

Parlament üzvü Mehdi bəy Hacıbabəyovun ərzaq nəzarətinin Gəncə vəkili olduğuna görə işlərini bitirmək üçün 10 gün məzuniyyət istəyir. (Katib Mehdi bəyin ərizəsini oxuyur).

Buna etiraz yox isə qəbul olunur. (Rusca tərcümə edir).

Qazax qəzasının nümayəndəsi Hacıkərim Saniyev ailə işlərinə görə 10 gün məzuniyyət istəyir.

(Katib Saniyevin ərizəsini oxuyur).

Etiraz edən yox isə qəbul olunur. Üç gün əvvəl Gürcüstan parlamentindən təbrik teleqramı gəlmişdir.

**Katib** - (oxuyur).

**Məmməd Əmin** (yerindən) - Mən təklif edirəm ki, bundan belə parlamentə gələn teleqraflar qabaqca türkcəyə tərcümə edilib oxunmalı və lazım gələrsə, rusca da oxunsun. Burası Azərbaycandır. Lisanirəsmimiz türkdür. (Alqış).

**Sədr** - "Əhrar" fraksiyası tərəfindən təklif vardır.

**Katib** - (oxuyur).

*Azərbaycan Parlament rəyasətinə "Əhrar"*
*fraksiyası tərəfindən təklif*

Qafqaz 1917 sənəsi təqvimindən alınmış rəqəmlərə görə Nuxa şəhərində 52.343, qəzasında isə 133.505 adam vardır ki, cümlətanı 185.748 adam edir. Bunlardan yalnız islam əhalisi 145.209-dan ibarətdir. Axırıncı ərzaq

siyahisinə baxılır isə bütün əhali 200 minə mütəcavuzdur. Qabaqkı seçkilərdə bu yerin haqqı mülahizəyə alınmadığı kimi bu axırıncı dəfə də islam əhalisindən üç nümayəndə əvəzində iki nümayəndə dəvət olunubdur. Təklif olunur ki, Nuxa qəzasından bir vəkil daha təcili surətdə dəvət olunsun. dekabr 25, sənə 1918. Bakı. Fraksiyanın sədri Aslan bəy Qardaşov.[144 - 145]

**Sədr** - Heyəti-rəyasət təklif edir ki, bu təklif etibarnamə komisyonuna verilsin. (Rusca tərcümə edir). Etiraz yox isə qəbul olunur.

Növbədəki məsələ sülh barəsində sosialistlər fraksiyonu tərəfindən parlamentə verilmiş estizahdır.

**Katib** (oxuyur). 26 dekabr 1918, təcili.

Azərbaycan Məclisi-Məbusan hüzuri-alilərinə.

Məclisi-Məbusanda sosialistlər fraksiyonu tərəfindən hökumət naminə estizah:

Bu günlərdə Bakı şəhərində bəzi siyasi firqələrin bir kaç nəfər əzası təqsirnamə vermədən həbs olunmuşlar. Bu həbslər Azərbaycan polis məmurları vasitəsilə icra olunmuşdur. Bu əhvalat hökumətə məlumdurmu? Və əgər məlum isə səbəb nə olmuşdur?

Sosialistlər fraksiyonu katibi: M. Məhərrəmov.

**Sədr** - Söz Məmməd Məhərrəmovundur.

**Məhərrəmov** - Möhtərəm, parlament əzaları məncə məlumdur neçə gün bundan əvvəl estizahda deyildiyi kimi bir neçə firqələrin nümayəndələri həbs edilib Ənzəliyə göndərilmişdir. Demokratiya təşəbbüsatda bulundusa da bu təşəbbüsatlar əhəmiyyətsiz qalıb nəticə vermədi. Ona görə Bakıda böyük bir tətil əmələ gəldi. Bu tətilin Bakı və Azərbaycan üçün zərər verdiyi məlumdur. Biz sosialist firqəsi deklarasiyamızda demişik ki, müqəssirlərin təqsirnaməsi 24 saat ərzində özlərinə mə'lum edilməlidir. Yığıncaqlar açıq olmalıdır. Bu mühüm maddələr pozulmuşdur. Bu tətil qurtarıbsa da gələcəkdə ola bilər. Biz təklif ediriz ki, bu tövr işlərin qabağını almaq üçün parlament bu məsələni geniş surətdə müzakirə edib özünün fikrini bəyan etsin.

**Sədr** - Bu barədə danışmaq istəyən varsa, buyursun!

(Məclisdə qar-qarışıqlıq).

Rica edirəm, yerinizdən danışmayasınız. Təklif edilir ki, bu məslə müzakirəyə qoyulsun. (Soldan: Bu barədə hökumət məlumat verməlidir ). Bu barədə danışmaq istəyən var isə buyursun. Söz Şəfi bəyindir.

**Şəfi bəy** - Mən bilmirəm bu estizah parlamentə və yaxud hökumətə verilir? (Soldan: hökumətə). Tətil qurtarıb, məsələ bitmişdir. Bu barədə Tomson tərəfindən bəyannamə dəxi [145 - 146] nəşr edilmişdir. Bu məsələni müzakirə etmək rəyimizdə artıqdır.

**Sədr** - Söz Məhərrəmovundur.

**Məhərrəmov** - Düzdür, tətil bitib, həbs edilənlər azad edilmişlərdir. Ola bilir ki, gələcəkdə bu müamilə təkrar olunsun. Ona görə hökumət məlumat verməlidir. Parlament də öz fikrini söyləməlidir.

**Sədr** - Söz Əhməd Cövdət Əfəndinindir.

**Əhməd Cövdət** - Əfəndilər! Doğrudur, tətil bitib, tutulanlar azad edilmişdir. Fəqət, bu estizah parlamentə veriləndə tətil davam edirdi. Azərbaycan paytaxtında da bu işi gözü yumulu keçirə bilməzdik. Bu adamların Azərbaycan polis məmurları tərəfindən tutulduğu isnad olnur. Ona görə biz istərdik ki, hökumət gəlib parlament kürsüsündən cavab versin ki, bu işlə əlaqədardır, ya yox? Bu sualın vaxtı keçmiş də olsa, parlament üçün təzədir. Bu işə Biçeraxov və rus milli ordusu qarışır. İndiyə qədər bu barədə hökumət tərəfindən bir cavab almamışdır. hökumət bu barədə məlumat verməlidir. Təklif edirəm ki, bu estizah qəbul olunsun, bu məsələ həll edilsin.

(Soldan: alqış).

**Rəsulzadə** (yerindən) - Bir sualım vardır.

**Sədr** - Buyurunuz, mənbərdən söyləyiniz.

**Məmməd Əmin Rəsulzadə** - Bilmirəm bu estizah təcilidir, ya yox? (Soldan: təcilidir). O vaxt əsas etibarilə hökumət bu saat gəlib cavab verməlidir. Tətil bitib, həbsdə olanlar azad edildiklərinə görə bu estizah təcililiyini itirmiş olur. Bir də bu estizahi verənlər onun təcili olduğunu nə üçün vaxtında tələb və müdafiə etmədilər. Estihzahi verənlər sadə əl qaldırmaq ilə məsələni həll etmiş oldular. Deməli onlar üçün də bu məsələ o qədər təcili deyil imiş. Yoxsa sol tərəfdə oturan hərarətli qardaşlarımız təcililiyində israr edirlər. İmdi ki, təcililiyini itirmişdir. O vaxt ümumi qayda üzrə hökumət gələr cavab verər. Və biz də bu tətilin tarixi cəhətindən xəbərdar olarıq.

**Sədr** - Söz Qaraşovundur.

**Qaraşov** - Bu estizah keçən iclasda da təcili idi. Fəqət o vaxt səsə qoyulduqda müsavat üzvlərinin çoxluğundan bu məsələ təxirə salındı. (Soldan alqış). [146 - 147]

**Sədr** - İki təklif vardır: Biri budur ki, estizah parlament tərəfindən qəbul olunurmu? (Soldan: Eşitmədik.)

**Sədr** - Rica edirəm mənə mane olmayasınız.

**Qarayev** - Bağışlayınız.

**Sədr** - Nə barədə danışmaq istəyirsiniz?

**Qarayev** - Bu barədə.

**Sədr** - Buyurunuz.

**Məmməd Əmin** (yerindən) - Səsə qoyulan vaxtda edirsiniz.

**Qarayev** - Keçən iclasda bu olunmuşdu, daha bunu səsə qoymaq lazım deyildi.

**Sədr** - Mən təshih etməliyəm ki, keçən dəfə qəbul olunmamışdı. Ona görə şimdi səsə qoyuram. Əvvəlinci təklifin birinci hissəsini səsə qoyuram. Təklif olunur ki, estizah qəbul edilsin. hər kəs estizahın tərəfdarıdır, rica edirəm əlini qaldırsın. (Əllər qaldırılır). Hər kəs əleyhinədir əlini qaldırsın. (Əllər qalxır). Təklif əksəriyyət ilə qəbul olunur. Şimdi təklifin ikinci qismini səsə qoyuram. Hər kəs bu estizahın təcili olmasına tərəfdardır əlini qaldırsın. (Əllər qalxır). Kim əleyhinədir əlini qaldırsın. (Əllər qalxır)- (Kənara) Saydınızmı? Deməli, əksəriyyət ilə təklif qeyri-təcili hesab olunur.

Bununla bu günkü ruzanaməmiz bitir. Fəqət, iclası qapamadan əvvəl heyəti rüəsa təklif edir ki, məclisi-məbusanın nizamnaməsi tərtib və qəbul olunanadək müvəqqət məşrut bir əksəriyyət nisab tə'yin edilsin. Heyəti rüəsa təklif edir ki, ümum əzanın bir sülusu nisab təyin edilsin. (Rusca tərcümə edir.)

**Məhərrəmov** - İzin veriniz.

**Sədr** - Heyətin təklifi budur. Danışmaq istəyirsiniz, buyurunuz. Məmməd Əmin!

**Məmməd Əmin Rəsulzadə** - Məclisi-Məbusanın əzasını yüz yikirmi hesab edərək bunun da sülsünü nisab qərar vermək doğru deyildir. Çünki, həqiqətən yüz iyirmi əza yoxdur. Əvvəla, 20 erməni məbusu gəlmir. Saniyən bəzi qəzalarda hələ nümayəndələrin çoxu gəlmir. Salisən bəzi qəzalarda hələ nümayəndələrin çoxu gəlməmişdir. Binaən-ileyh zahirdə həqiqətən 90 əza vardır. Biz əsas etibarilə nisab olmaq üzrə bir süls qəbul etsək bu rəqəm 90 nisbətilə olmalıdır. Zira 90 üzvə qırx əksəriyyət təyin etmək çoxdur. Hazır əzayi təyin ilə bir [147 - 148] sülsü qərar verməlidir. Çünki 90-da sülsü 30 elər, bu da azdır. Buna binaən biz təklif edəridik ki, hazır əzanın nisfi kvorum hesab edilsin.

**Qənizadə Sultan Məcid** - Söz istəyirəm.

**Sədr** - Sultan Məcid!

**Qənizadə Sultan Məcid** - Hərçəndi zahirdə 90 əza varsa da amma rəsmən əzanın hesabı 120-dir. Bunun sülsü ilə hər məsələ həll olunmaz. Doğrudur, bir çox məsələləri 40 səs ilə həll etmək olar. Amma böyük mühüm məsələlər 40 səsin əksəriyyəti ilə həll ediləməz.

**Sədr** - Daha kim danışmaq istəyir? Əhməd Pepinov.

**Əhməd Cövdət** - Əfəndilər! Mən Rəsulzadə ilə razıyam, gərək 120-dən deyil, qəbul olunmuş məbusların (qanuni) bir sülsü təyin edilsin. Qaldı ki, Sultan Məcid deyir ki, mühüm məsələlər 30-40 səslə həll ediləməzlər. Məsələnin mühüm və qeyri-mühüm olduğunu təyin etmək qeyri mümkündür. Çünki hazır əzadan bir çoxu Avropaya gedir, bəziləri məzuniyyətə buraxılır. Əgər əksəriyyəti nisfidən ibarət qəbul edər isək o halda iclaslarımız baş tutmaz. Zira o vaxt kvorum yığmaq mümkün olamaz. Sabiq Zaqafqaziya Seymində böylə qərar qoyulmuş idi. Şimdi biz də təklif ediriz ki, kvorum əzanın bir süasündən ibarət olsun.

**Sədr** - Əlavə etmək istəyirəm ki, hazırda mövcud əzanın miqdarı 737-dir. Bunun sülsü ilə 267. Ona görə mən də sülsə razı deyiləm.

**Soldan** - Buna söz ver.

**Sədr** - İltifat ediniz.

**Ağamalıyev** (yerindən) - Mən istəyirdim ki...

**Sədr** - Buyurunuz buradan deyiniz.

**Ağamalov** - Mən təklif edirəm ki, bu məsələ təxirə salınsın, çünki heç bir firqələrdə danışılmamışdır. hətta mən bilirəm ki, necə təklif edim. Sultan Məcid doğru deyir, böyük məsələlərin həlli 40 səsə mühəvvəl olamaz. Ona görə bu məsələni təxir ediniz. Bu çox mühüm məsələdir. (Soldan alqış).

**Qardaşov** - Bir şeyi edə bilərik. Böylə qərar qoyaq ki, həmişə birinci iclasda kvorum əzanın yarısından ibarət olsun, şayəd əksəriyyəti yığılmayaraq iclas baş tutmazsa, ikinci dəfə təyin edilsin və kvorum bir sülsdən ibarət olsun. [148 - 149]

**Sədr** - Heyəti-rəyasət əza haqqında məlumat toplamaq üçün öz təklifini geri götürür. Bu barədə gələn iclasda məlumat verəriz. İclası qapamadan əvvəl təvvəqqə edirəm, fəhlə komissiyası bu gün saat 6-da əfvi-ümumi komissiyasıda yarın axşam saat 6-da buraya gəlsinlər. İndi rica edirəm, gələn iclasın vaxtı təyin edilsin.

**Qara bəy** ("Qruziya" qəzetəsini göstərərək) - Burada müfəttinlik aparılır. Lazımdır burada danışılsın.

**Sədr** - Onun buraya dəxli yoxdur.

**Qara bəy** - Lazımdır, məlumat verək.

**Sədr** - Buyurunuz.

**Qara bəy** - Keçən fövqəladə iclasda Qarabağ, erməni-gürcü davası məsələlərinin parlamentimizdə müzakirəsi haqqında "Qruziya" qəzetəsi otçet verir. Fəqət həqiqət hal barəsində bir söz deməyib tam əksinə yazılır. Oxuyalım, baxınız. (Oxuyur). Mən parlamentdə belə söyləməmişəm, belə sözlər danışmamışam və bunun müqabilinə protesto edirəm.

**Səslər** - Siz bu barədə yazıb təkzib etməlisiniz.

**Qara bəy** - Mən yazacağam. Fəqət, qoy parlament dəxi şəhadət versin ki, mən burada belə soz deməmişəm.

**Sədr -** Heyəti-rüəsa təsdiq edir ki, burada belə sözlər deyilməmişdir. (Soldan: Deyilə də bilməz).
**Məhərrəmov -** Rica edirəm, söz veriniz.
**Sədr -** Nə barədə danışmaq istəyirsiniz? Buyurunuz.
**Məhərrəmov -** "İttihad" və "Sosialistlər" fraksiyaları...
**Sosialistlər** (yerlərindən) - Adə, gəl bu yana.
**Sədr -** Gələcək iclasın təyini heyəti-rüəsayəmü həvalə edilir.
İclas saat 2 2/1-də xitami-nəzir olur.

**Arxiv, f.895, siy.1,vər.59-64.**

## № 7

## Yeddinci iclas

*8 yanvar 1919-ci il*

İclas saat 2-dən 20 dəqiqə işləmiş doktor Ağayev həzrətlərinin sədarətilə açılır. Katib Əhməd Cövdət cənablarıdır.

Diplomatlar lojasında Dağıstanlılar cumhuriyyətinin Azərbaycan nümayəndəsi və Dağıstan hökuməti nazirliyindən müsafirətən şəhərimizdə bulunan İbrahim bəy Heydərov həzrətləri və qeyriləri əyləşmişdilər.

Rəisi vükəla Fətəli Xan Xoyski həzrətləri başda olmaq üzrə nazirlər dəxi ümumiyyətlə isbati-vücud edirlər. Tamaşaçılar üçün təyin edilmiş yerlər doludur. Xanımlar üçün ayrılmış lojalar dəxi xanımlar ilə dolu idilər.

Doktor Ağayev iclası açaraq ruznameyi-müzakiratı elan edir.

Növbədəki məsələlər:

1. Varid olan teleqramlar və kağızlar; 2. İki məbusun ərzi-halı; 3.Etibarnamə komisyonunun məruzəsi; 4. İrəvan quberniyası müsəlmanlarının əhvalı haqqında bir ərzi-hal; 5. Əfvi-umumi haqqında qanun layihəsi; 6.Fəhlələr məsələsi haqqında türk ədəmi-mərkəziyyət "Müsavat" firqəsinin məsai nəzərinə xitabən estihzahi; 7. Lənkəran və Muğan məsələsi haqqında türk ədəmi-mərkəziyyət firqəsinin hökumətə xitabən estizahı; 8. Hacıqabul moqefindəki hadisə xəbəri münasibətilə parlamanın "sosialistlər" fraksiyası tərəfindən hökumətə xitabən estizahi.

Sonra Ermənistan cumhuriyyəti və erməni milli şurası tərəfindən və Ağdamdan alınmış teleqramlar oxunur.

Azərbaycan Məclisi-Məbusanı açılan zaman ümum parlamanlar və əzcümlə Ermənistan parlamanına çəkmiş olduğu teleqrafa şimdi Ermənistan milli şurası tərəfindən cavab alınmışdır:

***"Azərbaycan Məclisi-Məbusanı sədri Həzrətlərinin hüzuri-alilərinə***

Azərbaycan cumhuriyyəti idarəsi, vilayətin hakimi olan məclisi-məbusanın təhti-idarəsinə keçməsi münasibətilə [150 - 151] Ermənistan milli şurası səmimi qəlbdən şad və məsrur olmuşdur.

Parlamanın güşadini zati-aliləri tərəfindən çekilibdə yanvarın birində bizə vüsal olmuş teleqramlardan öyrəndik. Əsrlərdən bəri iki həmsayə arasındakı dostluğu bir feyzi ziqiymətədd edərək Ermənistan milli şurası həmin dostluğun davam və bəqası məsələsini təqib edəcək və iki dost hökumətin dövləti mənafeini birləşdirmək üçün daha müəssir vəsilələr aramaqda qüsur göstərməyərək bunları yekdigərilə yaqlaşdıracaqdır.

*"Ermənistan Şurayi-milisi rəisi Saakyan."*

Bədə Ağdamdan alınmış zoyldə yazılan təbrik teleqramı oxunur:

*Azərbaycan Məclisi-Məbusanı sədri Həzrətlərinə:*

Əziz vətənimiz Azərbaycanın təşkilinin böylə və mühüm, müşkül bir dövründə biz Ağdam mahalının nümayəndəlri; müstəqil Azərbaycanımızın mənafei və onun parlamentini müdafiə və mühafizə səmimi qəlb ilə hazır olduğumuzu öz parlamentimizə izhar etməklə bərabər əmin oluruz ki, ən yaxın bir zamanda Məclisi-Müəssisan dəvəti ilə müstəqil yaşamağımız üçün demokratik əsaslar həmişəlik bərpa olacaq, hər şeydən ziyadə daxildə asayiş və əmniyyət üçün və xaricdən olan təərrüzlərin olan dəfi üçün əsgəri bir qüvvə lazım olduğundan həmin qüvvənin əcələ ilə təşkil tapmasını arzu ediriz.

***İldırım xan, Hidayət, Həmid,***
***Muxtar, Zeynal və başqaları".***

Bu teleqramlardan sonra Cavanşir qəzası məbusu doktor Cəmil bəy Ləmbəranski və Səlyan məbusu Baxış bəy Rüstəmbəyov cənabları tərəfindən verilmiş ərzi-hallara baxılır. Bu məbuslar 10 gün məzuniyyət istəyirlər.

"Sosialistlər" fraksiyası tərəfindən Qarayev təklif edir ki, məbuslardan bir çoxu məzuniyyətə gedib, bəziləri də hökumət və parlaman tərəfindən Avropaya və sair işlərə göndərilmiş olduqlarından müvəqqəti olaraq heç bir kəsə məzuniyyət verilməsi və məzkur iki məbusun ərzi-halı qəbul edilməsin.

Səs qoyulduqda əksəriyyət ilə bu təklif qəbula keçir.

Bədə etibarnamə komissyonu tərəfindən Rüstəmbəyli Şəfi bəy məruzə verərək bəyan edir ki, komissiyaya yenidən bir [151 - 152] neçə qanun üzərinə tərtib verilmiş etibarnamə varid olmuşdur ki, onların qəbul və təsdiq edilməsini parlamana təklif edir. Bu cümlədən olmaq üzrə Cavanşir qəzasından seçilmiş doktor Cəmil bəy Ləmbəranski, Qubadan seçilmiş Əli bəy Zizikski, rus milli şurası tərəfindən seçilmiş beş məbusun etibarnaməsi şuraya-milli qanuninə müvafiqdir. Əlavə Səlyandan iki məbus seçilmişdir: Rəşid bəy Axundzadə və Baxşı bəy Rüstəmbəyov. Bunlardan birisini qəza milli şurası, digərini bələdiyyə idarəsi intixab etməli idi. Halbuki ikisi də milli şura tərəfindən seçilmişdir. Ona görə etibarnamə komissiyası Baxış bəy məsələsini açıq buraxaraq, qəza tərəfindən seçilmiş olan Rəşid bəy Axundzadənin təsdiqini təklif edir. Bir də Şamaxı əhalisindən bir ərzi-hal varid olaraq bələdiyyə idarəsinə bir məbus seçilməsi üçün izin verilməsini istida" edirlər. Bu istid"a şurayi-milli qanununa ziddir. Zira milli şura parlament qanun verən zaman Şamaxı şəhrini xüsusi şərait altında bulunduğunu

nəzərə alaraq məbus intixabini ancaq milli şuraya mühəvvəl etmişdir. Binaən ileyh etibarnamə komissiyası şamaxılıların istidasını qəbul etməyəcəkdir.

Bundan mayda Şəki qəzası müsəlmanları və yəhudilər parlamentə ərzi-hal verərək məbuslarının miqdarının artmasını və Azərbaycanda sükunət edən ukraynalılar məclisi-məbusanda kəndilərinə iki yer verilməsini istid"a etmişlərdir. Ukraynalıların ərzi-halı milli şura tərəfindən deyil, konsul tərəfindən verilmiş olduğundan rəsmi cəhətdən qeyri-məqbul ədd olunaraq rəsmiyyət ifasınadək məsələ açıq buraxılır, Şəki müsəlmanları və yəhudilərin istidası isə rədd edilir. Çünki, əvvəla parlamanımız çalışmalıdır və çalışır ki, ən yaxın bir zamanda məclisi-müəssisan çağırılsın. Digər tərəfdən də şurayi-milli qanununa görə parlament məbuslarının miqdarı 120 olmalıdır. Şimdi bunların ərzi-halına əməl edildikdə və belə olarsa gələcəkdə sair əyalətlərdən də belə istid"alar varid olacağını nəzərə aldıqda anlaşılır ki, biz şurayi-milli qanununun miqdar haqqındakı maddəsini tez-tez dəyişməli olacağız. Bu isə mümkün və məmul deyildir.

**Qara bəy Qarabəyli -** Bakı qəzası tərəfindən verilən istid"anın cavabını istəyir.

**Rüstəmbəyli -** Cavab verir ki, bu dəxi ümumi məsələdən ol-duğundan üzvlərin miqdarı qanuna görə qəbul ediləməz. Lazım [152 - 153] gələrsə bunu məclisi-məbusan ancaq qanun təriqi ilə keçirə bilər. Qarabəyli Qara bəy müxtəsər bir nitq irad edərək deyir ki, əlbəttə parlament əzasının 120 olması bir qanundur və biz də bu qanunun xilafinə iş görmək istəməriz, fəqət 24 para kənddən ibarət və 84.000 nüfuza malik olub da heç bir intixabatda iştirak etməmiş olan əhalinin ixtiyarı var özünə yer tələb etsin. Bakı qəzası sairləri kimi nümayəndəsinin çoxaldılmasını deyil, ancaq yer verilməsini istəyir. Zənnimcə Məclisi-Məbusan bu məsələdə Bakı qəzasının xahişini nəzərə alaraq qanundan müstəsna olmaq üzrə qəzaya istədiki yeri verə bilir. Mən "İttihad" firqəsi tərəfindən təklif edirəm ki, onlara yer versin, bilxassə ki, onlar məbuslarını seçmişlərdirdə. Nümayəndələri hazırdır.

Bundan sonra da bir neçə natiq danışaraq istidalara əməl olunmasını istəyirlər, əzcümlə Abdulla bəy Əfəndiyev Şəki müsəlmanlarının istidasını müdafiə edir. Və Əhməd Cövdət həm mandat komitəsi məruzəsində bəzi anlaşılmaz cəhətlər olduğunun və sabiq natiqləri tənqid edir. Çox mübahisədən sonra qərar verilir ki, etibarnamə komissiyasının təklif etdiyi etibarnamələr təsdiq və açıq buraxılan məsələlər isə fraksiyalarda danışılmaq üzrə gələn iclasda qəti surətdə həll edilsin. Növbədə İrəvan müəlmanları nümayəndələrinin ərzi-halıdır. Sədrin təklifi üzrə katib ərzi-halı oxuyur:

***"Azərbaycan parlamenti rəisinin hüzurinə***
***İrəvan quberniyası musəlmanlarının zeyldə***
***imzaları mundəriç nümayəndələrindən ərzi-hal***

1917 sənəsi dekabrdan 1918 sənəsi iyuna qədər İrəvan quberniyası dairəsində erməni qoşunları tərəfindən iki yüzdən ziyadə müsəlman kəndləri atəşə tutulub tar-mar olub, bunların əhalisi isə qismən qətl, qismən də dağlara qaçıb buralarda səvuq və aclıqdan tələf olmuşlar. İrəvan quberniyasının müsəlmanlar ilə tamamən məskun qəzaları ki, ibarət ola bütün Sürməlidən, İrəvan, İçmiyədzin, Şərur və Naxçıvan qəzalarının bəzi hissələrindən Osmanlı ordusu tərəfindən işğal olunduqdan sonra burasında yaşayan ermənilər yeni təşkil olunmuş Erməni cumhuriyyətinin dairəsinə hicrət etmişlər. Digər tərəfdən osmanlılar işğal etdikləri mahallarda da 100 minə qədər müsəlman İrəvan quberniyasının başqa yerlərindən [153 - 154] köçmüşlər. Bunları da hicrətə 80 ziyadə müsəlman kəndlərini atəşə tutub talan edən ermənilər məcbur etmişlər. Bu münval ilə burasında sırf müsəlmanlar ilə məskun 500 min əhali havi bir məhəl törəmiş, müstəqil bir hala düşdükdən sonra da bu müsəlmanlar burada kəndlilərinə bir hökumət təşkil etməyə də müvəffəq olmuşlar isə də kəndlilərinin həmişə Azərbaycanın ayrılmaz bir parçası ədd edilmək ilə bərabər və bunu ancaq arzu edirlər ki, gələcəkləri və taleləri ümum sülh konfransında həll olancaya qədər təhti-asayişdə yaşamalarına mane olmasınlar.

Əlyom erməni qoşunları Sürməli qəzasını təmamən, İrəvan, Şərur və İçmiyədzin qəzalarının müsəlmanlar ilə məskun mahalını işğal edib Naxçıvan tərəfə yürüş etməkdədirlər. Yürüşlərdə bərabər yerli müsəlmanları qismən kəsib, qismən köylərindən çıxarıb İrana hicrət etmək məcburiyyətinə salırlar. Belə sui-rəftardan müsəlmanların təmanən tələf və məhv olması şübhə xaricində müsəddiq bir şeydir. Məcburiyyət ilə müsəlmanlardan təmizlənmiş mahallara Osmanlı Ermənistanından zar etmiş erməniləri köçürürlər.

İrəvan quberniyasının bəzi mahallarının təmamilə müsəlmanlar ilə məskun olduğu bu mahalların tarixən və başqa şərait üzrə Azərbaycanın ayrılmaz hissəsi ədd olunmasını nəzərə alıb və məcburən bu mahalları müsəlmanlardan təmizləyib onların yerinə erməni mühacirlərinin oturmağı xilaf və ziddi-qanun hesab edərək bu mahallar məsələsini qəti surətdə həllini sülh konfransına buraxaraq bu imzaları zilrdə mündəric İrəvan müsəlmanları nümayəndələri cənabi rəisi zati alilərinizdən İrəvan müsəlmanları mövcudinin mühafizəsi üçün lazım gələn tədabir ittixaz etmənizi rica ediriz.

4 yanvar 1919.

**İmzalar: Parlament üzvü *Teymur bəy Makinski***
**parlament üzvü *Məhərrəmov,*parlament üzvü**
***Əkbəraqa Şeyxulişlamov, Rəşid bəy İsmayılov,***
***Ə. Makinski, Yusif Tahirov, A. Sultanov, Paşa bəy."***

İrəvan quberniyası müsəlmanlarının nümayəndələri tərəfindən verilmiş ərzi-hal oxunduqdan sonra məbus Vinoqradov söz alır.

**Vinoqradov** - qardaş müharibəsi hələ təmamilə qurtarmamış yenə qardaş qanı axıdılır. Əhalinin bir qismi digər [154 - 155] qismini öz xərabazarından qovur. Biz ruslar belə hərəkətlərə belə müdhiş və təcavüzlərə protesto edərək hər dövlətin xətti hüdudini təyin etmək ixtiyarına malik olan ümum cahan konfransının qərarınadək hər kəsin öz yerində qalmasını tələb ediriz.

**Rəsulzadə Məmməd Əmin bəy** - burada yenə imdad naləsi eşidiriz. Məlumdur ki, millətlərin həqqi və hüququ gözlənilsin gərək. Hər kəs nerdə yaşayırsa o yerə malik olmaq həqqinə hayizdir. Təbii millətdaş, dindaş və irqdaşımız olan İrəvan quberniyası müsəlmanlarını bunca müsibətinə millət mənafeyi naminə təhəmmül edən qardaşlarımızın çəkdikləri bəlalara biz biganə qalamayız. Onlar ümummillət mənafeyi yolunda bunca əzab və cəfalar çəkirlər. Binaən-ileyh millət dəxi onları müdafiə etməlidir. Azərbaycan hökuməti onlara feylən müavinət göstərə bilməz, lakin mənəvi, siyasi və bəlkə də qismən maddi yardım edə bilər. Binaən-ileyh Azərbaycan hökuməti məsələnin sülh konfransı tərəfindən həllinə və Qafqaziya millətləri bir yerə yığışıb ixtilafi bitirməsinədək millətdaşımızın və irqdaşımızın düçar olduqları ələmlərini yüngülləşdirməlidir. Yalnız ora deyil, Lənkəran müsəlmanları da bu haldadırlar. Etiqad ediriz ki, bu xüsusda hökumət ciddi tədabir görmüşdür. görmüşsə şimdi bizə məlumat versin, məlumat verməyə hazır deyilsə bu yaxın iclasdan birində bəyanat verər. Azərbaycan parlamenti bu dərəcə zülm və qəddarlara düçar olan qardaşlarımıza müavinətini dəriğ etməz.

**Sultan Məcid** - İrəvan quberniyası müsəlmanlarının faciəsi məlum oldu. Rusların nümayəndəsi də burada protesto etdilər. Əlbəttə, onlar belə faciələrin oyammasına razı olammazlar. Ancaq bu bizim yaramızı sağaltmaz. Bu gün biz yalnız protesto və nifrətlər izharı ilə qənaət edə bilməriz. Zira onunla müsəlman qardaş və bacılarımızın dərdinə əlac olmaz. Bundan müsibətzədələrə təsəlli olmaz. Bu saat onların ismətləri, namusları payımal olur. Quru protestdən bir şey çıxmaz. Qonşularımız Gürcüstan və Ermənistanda külli miqdarda islam əhalisi olub öz hökumətlərinə tabedirlər. Gürcüstan və Ermənistanda müsəlman olduğu kimi bizim də məmləkətimizdə əhalinin həpsi türk-islam olmayıb, bir çox erməni, gürcü, rus və s. var. Biz onların həpsi ilə ədalətlə rəftar ediriz. Qonşu hökumətlər də belə etməlidirlər. Ermənilər bunu anlamırlarsa, [155 – 156] biz onlara icrayi təsir edə biləriz. Ermənistandakı müsəlmanlar haqqında rəva görülən zülmlər barəsindəki təkliflərimizi qanmayırlarsa, güc ilə qandıra biləriz. Güc ilə icrayi-təsir etmək bu deyil ki, onlar kimi atəş açaq, qan tökək, xayır! Bizə atəş açmaq, qan tökmək lazım deyildir. Şimdi İngiltərə, Fransa və Amerika nümayəndələri yaxınımızdadırlar. Bunlar millətlər hüququnun və əmin-asayişinin təmini dəröhdə etmişlərdir. Əvvəl onlara müraciətən təklif, rica və hətta tələb ediləm ki, bilatəxir bu faciələrə, bu məzalimlərə mane olsunlar, qardaşlarımızı bu fəlakətdən qurtarmaq üçün tədbir görsünlər. Əgər onlar tədbir görməsələr aşıkardır ki, o vaxt biz də öz hüququmuzu nə yol ilə müdafiə edəcəyimizi sonra danışarız. hərgah biz fəryad etsək, bir tədbir görərlər. Hökumətimizin borcudur bu barədə təşəbbüslər etsin.

**Qarayev** - Biz təklif edərdik hökumətə tapşırılsın ki, gələn iclasadək lazımi tədbirlər görsün və bu xüsusda gələn iclasda məlumat versin.

**Əhməd Covdət** - "Müsavat" tərəfindən böylə bir təklif varid olmuşdur: "İrəvan nümayəndələrinin İrəvan quberniyasında düçar olduqları məzalim haqqındakı ərzi-hal və istidalarını dinləyərək Azərbaycan Məclisi-Məbusanı bu xüsusda hökumətin hər növ tədbirə müraciətlə bu müsibətlərin dayandırılması üçün təşəbbüsati-lazimədə bulunmasını təklif ilə növbədəki məsələlərin müzakirəsinə keçir.

Təklif səsə qoyularaq ittifaqi-ara ilə qəbul olunur. Nevbə-də siyasi məhbuslar haqqında parlament komissiyası tərəfindən tərtib edilmiş əfv-ümumi qanun layihəsidir. Layihə budur: Qardaşov, Əfəndizadə, Ağa Zeynal Tağıyev, Aslan bəy Səfikürdlü və Ağamalov cənablarından təşkil edən "Əfv-ümumi" komisyonu Azərbaycan Məclisi-Məbusanın 7 dekabr 1918-ci sənəsi qərarına binaən komieyona verilən siyasi "Əfv-ümumi" qanun layihəsini dekabrın iclaslarında müzakirə edərək, aşağıdakıları qərara aldı:

Azərbaycan Məclisi-Məbusanın açılması münasibəti ilə siyasi əfv-ümumi elan olunur.

Buna binaən Məclisi-Məbusan qərar verir ki; 1. a/-cəha qanunnaməsinin 129-133 maddələri.

/məcəlleyi-qəvanın 18 cilid 1909 sənəsi nəşri./ [156 - 157]

b/-cinayət və tədib. cəzası qərarnaməsinin 262, 272, 273, 275, 276, 280, 281, $281^1$, $286^1$-maddəsinin 2-ci qeydi, 318, 328, $987^1$, 1358, $1358^1$, $1358^2$, $1359^3$ $1359^{10}$ maddələri (məcəlleyi-qəvanın 15-ci cild 1885 sənəsi nəşri və məxirəsi.)

t/ sülh hakimlərinin tətbiq ediləcəkləri çəzalar haqqındakı nizamnaməsinin /xüsusi ev sahibinə dəyən xəsarətin tədiyəsi istisna olmaq üzrə/ $29^2$ 33, $39^4$, $48^1$, $48^5$ $51^2$, $51^3$, $51^4$, $57^2$ $57^8$, 58, 59, $51^1$, 61-63 (I-II hissələr), 143, $155^2$ 168 məcəlleyi-qəvanın 15 cild 1885 və 1914 sənələri nəşri/ maddələri mövcibincə vaqe olan əfalarından dolayı məhkum olan şəxsləri məsuliyyət və cəzadan və bunun hər növ nəticələrindən azad etməlidir. Bu qərarın hökmü şu fəsildə göstərilən əfalın icrası əsnasında cinayət qanunlarının mən edildiyi dikər əfalın ümumisinə dəxi şamildir.

II. Baxılmamış və yaxud hali-təqidə bulunmuş 1918 sənəsi dekabrın 7-dən əvvəl icra edilmiş 1 fəsildə köstərilən əfal haqqındakı işlər təsdiq edilməli və əbədiyyən unudulmalıdır.

III. Əgər qərar verilməmiş, yaxud qanun gücünə gəlməmiş və yaxud tətbiq edilməmişsə bu qanunun 1-ci və 2-ci fəsillərində göstərilən tədbirlərin icrası aid olan ədliyyə məhkəmələrinə və s. bilcümlə xüsuslarda müddəyi-ümumi dairəsinə həvalə olunur.

IV 1918 sənəsi dekabr 7-dən əvvəl siyasi və dini amillər üzərinə bu qanunun 1-ci fəslində bulunmayan digər cinayət qanunlarının mən' eylədiyi əfala mürtəkib olan şəxslərə aid olan ədliyyə məhkəmələri hüzurində bu qanunun 1-ci və 2-ci fəslində olan tədbirlərin kəndlilərinə dəxi təslim edilməsi üçün istidadə bulunmaq haqqı verilir.

Bu istidalar tərtibat iclaslarında həll olunur. Bu içlaslarda təhriri və şifahi bizzat və yaxud vəkil vasitəsilə istida edənlər bəyanatda buluna bilərlər. Bu qəbil işlər haqqında verilən ədliyyə məhkəmələrinin qərarları mühakimati-çinaiyyə nizamnaməsinin 893-899 maddələri mocibincə şikayət edilər bilir.

V. Cəhəti-mülkiyyə və əskəriyyənin qərarlarınca ədliyyə məhkəmələri xaricində bu qanun məlhuz olan və öylə də siyasi məzlumluğuna görə 1918 sənəsi dekabrın 7-dən əvvəl vəz olunan [157 - 158] cəzalar ləğv edilir. Bu qərar aid olduğuna görə daxiliyyə və hərbiyyə nazirləri tərəfindən icra olunur.

Bəzi məbusların xahişinə görə Səfikürdski Həzrətləri əfv-ümumi qanunun maddələrini şərh edir və qabaqcadan xəbər verir ki, hökumət qanunu qəbul edir. Qanun bir səslə qəbul olunur.

## Fəhlə məsələsi

Bundan sonra "Müsavat" şöbəsi tərəfindən masai nazirinə xitabən böylə bir sorğu verilir: Azərbaycan Məclisi -Məbusan Rəyasət Alisinə, "Müsavat" şöbəsi aşağıdakı sualını məsai nəzarətinə verilməsini təklif edir:

***Azərbaycan Masai Naziri bəy əfəndi Həzrətlərinə!***

Masai naziri yəqin bilir ki, Bakı əmələlərinin halı olduqca müşkül vəziyyətdədir ki, əvvəlcə "Sovet syezd" tərəfindən təsis olunmuş xəstəxanalar indi xarab bir haldadırlar, əmələlər dava-dərman tapa bilmirlər, əmələ mənzilləri hifzi-səhhə nöqteyi-nəzərindən fəna bir haldadır, zavod komissi-yaları ilğa edilmiş, bu üzdən ərzaq paylamaq və s. bu kimi xüsuslarda fəhlələr bir çox təhsilatdan məhrum qalmışlardır (kollektivnı doqovor). Yoxluğu üzündən əmələnin məvacibini azaltmışlar, verilən gündəlik maaş zəmanəmizdəki bahalığa nisbətlə məsarifin yarısını belə ödəmir. Bundan əlavə ümumi işsizlik üzündən əmələlər ac qalır, tədricən ölür, min cürə xəstəliklərə düçar olurlar. Əmələnin maddətən halı belə pərişan ikən mənəvi halı da qaranlıqdır. Gecə kursları, məktəblər, xalq yurdları yoxdur. Əmələ mühiti qaranlıq bir aləm təşkil edir. Bu zülmətdən istiqlalımıza, hürriyyətimizə düşmən olanlar istifadə edirlər.

Əcəba, məsai nəzarəti əməlinin maddi və mənəvi ehtiyacını rəf' eləmək, eyni zamanda da maaşını yoluna qoymaq və məsainin mənafeyinin qanunən mühafizə eyləmək üçün nə kimi planlar və tədbirlər düşünməkdədir?

***"Müsavat" şöbəsinin rəisi: Məmməd Əmin Rəsulzadə.***

Sorğu oxunduqdan sonra Abbasqulu Kazımzadəyə söz verilir. [158 - 159]

**Abbasqulu Kazımzadə** - Qızğın və həssas bir nitq söyləyərək fəhlələrin cahan hadisatındakı mövqeyi, demokratiya nümayəndəsi olan müttəfiqlər nümayəndələrinin Azərbaycanı qəbul və parlamenti mühafizə etmələri xırda millətlər və yeni hökumətlərin bu gün ancaq demokratiya, fikir hakimliyi nəticəsi olaraq sülh konfransında yer almağa müvəffəq olduqlarını, bu cür cahan əmələ və zəhmətkeşlərinin "istəsələr yaparlar, istəsələr yıxarlar" dərəcəsində mətin bir vəziyyət aldıqlarını qeydlə Azərbaycan fəhlələrinə nəqlikəlam edərək deyir ki, fəhlə Azərbaycanda da az deyildir, mis mədənlərində, balıq vətəkələrində, Bakı neft mədənlərində, Şəki ipək zavodlarında, təmbəki fabriklərində və s. yerlərdə işləyən on minlərlə fəhlələrin halı Azərbaycan hökumətini düşündürməlidir. Körürsünüz ki, bunlar hökumətin sütunu, istiqlalımızın əsgər məqamında xadimləridir. Hökumət onların istirahət və ehtiyaclarını təmin edərsə, haman o fəhlələr istiqbalda hökumətə zahir olurlar. (Mərkəzdən alqış). Madam ki, böylə bir qüvvəyə möhtacız, şimdidən bu qüvvənin yaşayışını, həyatını tənzim üçün yaxşı əsaslar hazırlamağı düşünməlidir. Möhtərəm məbuslar buna diqqət edilirsə bu məsələyə çox əhəmiyyət verər, bu qüvvəyə pasiban olarsınız. Kontrol qoymalıdır ki, onların hüququna təcavüz edilməsin, bu gün cahanda ədalət, ixvət, müsavat şüarı atan onlardır, onlar cəmi dünyaya "Yaşa, özgəyə də yaşamağa müsaidə ver!" deyirlər. Sorğumuzda bu gün biz onların fəna halını ancaq müxtəsərən yazmışıq. İnanırız ki, məsai naziri bu barədə təşəbbüslər etmiş, düşünmüşdür. Bu məsələyə əcələn baxılmalıdır. Biz deyiriz ki, fəhlənin ruhuna əza verən məktəblər, xalq yurdları qapalıdır, gecə kursları yoxdur. Yemək - içməkdən böyük əsirət çəkirlər, ucuz xörək məəttəssüf verilmir, yaşadıqları yerlər hifsi-səhiyyəyə müqayirdir, istinad etdiyimiz o qüvvə bu gün məhv olub gedir. Səfalət və aclıq bəlasına düçar olur; uşaqları məktəbsiz, xəstələri mərəzxanəsizdir. Hətta uşaqları məktəbə, xəstələri xəstəxanaya aparmaq üçün araba verilirdi. İndi bu da yoxdur. Xəstəxanaların çoxu işləmir. Fəhlə hücrələrdə ölür. Kömək edilmir. Aldığımız məlumata görə xırda mədənlərdə 51, 16, 24-cü uçastoklarda fəhləiəri işdən çıxarır və bəzi [159 - 160] mədənlər 8 saat əvəzinə 14 saat işlədirlər. Bunların həpsi bir yerə toplandıqda görürüz ki, fəhlə məhv olub gedir. Ona görə ciddi çalışmaq lazımdır. Məsai naziri bunlar haqqında qəti və ciddi tədbirlər görməlidir.

**Qarayev** - Bu məsələdən təəccüblənir, çünki bu məsləni "Müsavat" firqəsi qaldırıb, müsavatçılar fəhlənin dərdinə qalırlar. Amma bununla bərabər natiq məsələnin məğzini axtardığı üçün bu fikri o da müdafiə edir. Zavod, fabrika komitələrini dağılmasından şikayətlə məsai naziri yoxluğunda fəhlələrin dərdlərini deməyə yer tapmadıqlarını bəyanla bundan belə məsai nəzarətinin təşkili ilə fəhlələrin dərdlərinə qalacağını göstərir və rica edir ki, "Hər halda" Müsavat" böylə məsələləri tez-tez qaldırsın.

**Rəhim Vəkilov** - Qarayevə cəvabda fəhlələrin hərəkəti və "Müsavat"ın fəaliyyətini dəlil gətirərək deyir ki, həmişə "Müsavat" fəhlə ilə, fəhlə də "Müsavat" ilədir. Fəhlə hər zaman kəndi hüququnu hər yerdə, hər dəqiqə müdafiə edən "Müsavat" ilə bərabərdir. Bizim firqəmiz fəhlələrdə sinif hissindən başqa bir də milli hiss oyadacaqdır. Onlar artıq qoy-mayacaqlar beynəlmilliyyət adı ilə kəndilərini aldatsınlar. Gözü açıq ora gələn fəhləmiz həmişə kəndi mənafei ilə bərabər millətin də mənafeini gözləyir. Ona görə də hansı firqə ətrafına toplanmağı bilirlər.

**Kiçikxanov** - "Müsavat" fraksiyasının fikrinə təmamilə şərik olaraq xahiş edir ki, Azərbaycanın hər yerində fəhlələrin dərdinə çarə edilib, ehtiyacları nəzərə alınsın.

**Səfikürdski** - Varid olan sorğuya Məsai nazirini əvəz edən Səfikürdski Həzrətləri cavab verərək belə bəyanat verir, deyir ki, möhtərəm məbuslar! Siz bilirsiniz ki, keçən hökumət zamanında məsai nəzarəti yox idi. Ancaq yeni hokumət fəhlə məsələsinə diqqət verərək məsai nəzarəti təşkil etməyə qərar verdi. Ozünüz gorürsünüz ki, şimdi hökumət fəhlə məsələsinə nə qədər məna və əhəmiyyət verir. Müvəqqəti olaraq bu vəzifə 5-10 gündür ki, mənə tapşırılmışdır. Bu isə mənim üçün zəhmət olmayıb, şovqlə qəbul etdiyim bir vəzifədir. Yaxın vaxt-da təşkil etmiş olduğundan məsai nəzarəti haqqında mən müfəssəl mə'lumat verə bilməyəcəyəm. Çünki təzə gəlmişəm. [160 - 161] Nitqlərdə soylənilənlər tamamilə doğrudur. Hətta elə şeylər var ki, bilsəniz başınızın tükü ayağa durar. Doğrudan fəhlənin halı dedikcə həmişə zəhmətin ağırı fəhlənin üzərinə düşmüşdür. Ona görədir ki, axır zamanlar fəhlə məsələsinə çox artıq əhəmiyyət veririz. gündə ortaya bir məsələ çıxıb bizi işğal edir. Əlavə burada fəhlə konfransı vardır. Orada fəhlə tərəfindən gələn nümayəndə hər nə danışılırsa, ancaq Azərbaycan istiqlalı, Azərbaycan hökuməti zərərinədir. Bunlardan Azərbaycan istiqlalını müdafiə nöqteyi-nəzərində bulunan yoxdur. İçlərində müsəlman fəhləsi də var. Amma azdır. Biz təşəbbüs ediriz ki, konfransda müsəlman fəhləsi nümayəndələrinin miqdarı artıq olsun. Konfransda müsəlman fəhləsinin miqdarı çox olarsa, o sozləri ki, parlamentə, istiqlalımıza toxunur müsəlman nümayəndələri orada müdafiə edə bilərlər.

Bəzi mədənlərdə konfransa gedən fəhləyə ayrı nəzərlə baxaraq hətta onları qulluqdan çıxarırlar. Bu xəbər yetişcək mən əmr etdim təhqiq olunsun, məlum oldu ki, fəhləni ancaq siyasi mülahizə ilə çıxarırlarmış.

Binaən-ileyh qovulan fəhlələrin geri qəbul edilmələri haqqında əmr verdim. Əgər əməl edilməsə ciddi tədbir görəcəyəm. Çünki mən deyirəm, bilir və inanıram ki, hökuməti və parlamenti ancaq fəhlənin köməyilə saxlaya biləriz. Bunu bilən bir hökumət əlbəttə fəhləni nəzərdən uzaq tutmaz. Ona körədir ki, bütün nazirlərin həmrəy olduqları halda bacardığı qədər fəhlələrə mənzil, xəstəxana, məvacib və məktəb məsələləri uğrunda çalışır. Bunu nəzərdə tutunuz ki, yalnız Azərbaycan fəhləsi deyil, sayır məmləkət fəhlələri də bundan yaxşı halda deyillər. Doğrudur, bu saat ancaq bolşevik fəhlələrin halı yaxşıdır. Amma onların da yaxşı halı çox çəkə bilməz, bir ay, iki ay. Sonra onların halı sayirlərinkindən betər olacaqdır. Mən hər şeydən ziyadə fəhlə təşkilatlarına əhəmiyyət verərək əmr etdim yarısı fəhlə, yarısı iş sahibləri nümayəndələrindən olmaq üzrə 10 nəfərdən ibarət komissiya seçilsin. Bu komissiya fəhlə işlərinə baxaraq məsai nəzarətinə təqdim etməlidir. Komisyonun sədri də məsai naziri olacaqdır. Komissiyanın qərarı nə olsa, mən onu edəcəyəm. Bundan [161 - 162] əlavə qarşımızda bəzi böyük məsələlər var, əzcümlə müştərək müqavilə (kollektivnıı doqovor) ki, hazırda fəhlə konfransında da müzakirə edilməkdədir.

Parlament boyük xidmət gostərmiş nazirin bəyanatından sonra sədr cənabları "Müsavat" tərəfindən verilmiş olan təklifi oxuyur:

"Müsavat" fraksiyonu tərəfindən Bakı əmələlərinin əhvalı haqqında məsai nazirinin vermiş olduğu bəyanatı kafi görməklə və təqdir etməklə bərabər Məclisi-Məbusan nazirin ümumi surətdə söylədiyi əsasların tezlik ilə qövldən felə gətirilməsini təklif ilə növbədəki məsələlərin müzakirəsinə keçir.

Təklif ittifaqı-ara ilə qəbul olunur.

## Lənkəran və Muğan məsələsi

Bundan sonra türk ədəmi-mərkəziyyət "Müsavat" firqəsi tərəfindən Lənkəran və Muğan haqqında rəisi-vükəla həzrətlərinə xitabən verilmiş olan zeyldəki sorğu oxunur:

Azərbaycan Məclisi-Məbusan rəisi həzrətlərinə.

"Müsavat" şöbəsi aşağıdakı istizahın hökumət rəisinə verilməsini təklif edir:

Azərbaycan heyyəti-nazir rəisi Fətəli Xan Xoyski həzrətlərinə.

Vətənin ayrılmaz bir cüzini təşkil edən və paytaxtımızın böyründə bulunan Lənkəran uyezdinin bir takım özübaşına şəbilər əlində hər növ zülm və cəbrlərə məruz qaldığı, bura müsəlman əhalisinin min dürlü təcavüzlərə, işgəncələrə, haqsızlıqlara giriftar olduqları, Muğan cumhuriyyəti adı ilə tuğyan edən şəbilərin kəndlilərini Muğan hökumətini tanımağa icbar eylədikləri hökumətə məlum olmaya bilməz. Hökumətin bu zavallı uyezdi, bu qəddar şəbilər təsəllüətindən qurtarmaq üçün nə kimi tədbirlərə müraciət eylədiyini bilmək istəriz.

**"Müsavat" şöbəsinin rəisi *Məmməd Əmin Rəsulzadə."***

**Hacı Mirzə Səlim Axundzadə** (Lənkəran nümayəndəsi) -sorğuyu müdafiə edərək çox qızğın və səmimi bir nitq söyləyərək Lənkəran və Muğan müsəlmanlarının halını təsvir, sabiq [162 - 163] hökuməti tənqid edir və əhali islamiyyətinin əhvali-əsəfnakını təsvir üçün böylə bir məruzə oxuyur.:

## Lənkəranda olan əhvalat

Lənkəranda xərabə və payimal oymayan bir ev mövcud deyil, Lənkəranın vəziyyətini mülahizə edən insanın ürəyi ya gərək erməni ürəyi və ya xaxol ürəyi, yainki gərək daş olsun. Şəhərin üzərinə bilmərrə xaraba olub əsər qalmayan ev yoxdur. Biçarə Yusif bəy Bayramalıbəyov ki, məktəbi ibtidai olan ali müəllimidir. "Müsavat" firqəsinə mənsub olmaq cəhətinə evi xaraba və cəmi malı payimal və qarət edilib, əhli-əyalı, uşaqları onun-bunun qapılarında səfil-sərkərdan, ac-yalavac dolanır. Dəfələrlə istəyib şəhərə gəlsin, onun üçün mümkün degildir.

Şəhərimizin ulu zənginlərindən Əsgər xan Talışinski İran guşələrində qalıb öldü. İmarətləri təmamən qarət edilib viran edildi. İmarəti də bilmərrə yanıb kül oldu. Buna da iktifa etməyib əvvəllərdə ermənilər, sonralar da xaxollar o gözəl imarətləri at və heyvan yatağı qərar verdilər. Habelə İsa bəy Əlibəyovun da evi bilmərrə zirü və zəbərdir. Əgər bu təriqlə adbaad Lənkəran şəhərinin xarabalarını siyahı eyləmək lazımdır ki, hamı əhalinin adların bir-bir zikr edəm. Lənkəran deməli ikinci Şirvandır. Amma bu qədər deyə bilərəm ki, qələdə Tura xanımın imarətindən başqa cəmi erməni, rus, cühud evləri abad və avadanlıqları salamatdır. Lənkəranda məşhur Əkbərovların cəmi mülkləri, evləri xaraba və yainki erməni və xaxol mənzilidir. Qələdə soldat mənzili, yəni əsgərə lazım olan mənzillər mövcud ola-ola yenə də şəhərin içində Əkbərovların öz arvad-uşağına məxsus olan mənzildə xaxollar əyləşib bu qışın şiddət vaxtında əhli-əyalları bunun, onun qapısındadırlar. Şəhərimizin fəqir, yetim və dul arvadlar, əlsizayaqsızların xəzinəsi və soykənəcəyi və pənəkahı olan Abdullayevlər, Kərimovlar, Kazımovlar, Ağayevlər, Nəsirovlar, Qurbanovlar, Daşdəmirovlar bilmərrə talan və qarət olub fəlakət və əsirətlə kəndlərdə gün keçirirlər. Lənkəranın füqəra və məsakin və əlsiz-ayaqsızlarının da cangüdaz və cigər yandıran olan aclıqda və susuzluqda ah və oylası şəhərin fəlakətdə olan tuccar və əyan və əşrafı uçün daha bir artıq cigər parçalayan müsibətdir. Şəhərin xoxol hökuməti [163 - 164] gündə bəhanə gətirib şəhərin zənginlərini cürbəcür əziyyət və möhnətlərlə incidib qism və qism vergilər adlandıraraq növbənöv xərclər alırlar. Xaxollar da buna da iktifa etməyib gecələr hər bir şəxs ki, qədimdə varlı idi, onun evinə gedib təmdid və təxviflərlə hər şey istəyirlər, olmazın bəlaləri ev sahibinin başına gətirirlər. Hətta namuslara təcavüz edirlər.

Xaxollar əvvəl özlərini Muğan Əski Respublikası adı ilə adlandırıb, sonra bilmirəm hansı tək səbr kəlibsə, Muğan Əski Respublikasını məsləhət körməyib özlərini Rusiya hiss-səsi sayıb UFA hökumətinə tabe edirlər. Xaxollar aşkar deyirlər ki, biz Azərbaycan hökumətini bilmək istəmiriz və ingilisi də tanımırıq.

Keçən həftə Muğan xoxolları şura əzası və hökumət icrası düzəltmək üçün syezd tərtib vermişdilər. Bu ənval ilə ki, hər beş min beş yüz nəfər müsəlman bir nəfər nümayəndə və hər əlli nəfər xoxola da bir nəfər nümayəndə təyin edib 120 ədəd dürüst olandan sonra hökumət təşkil etsinlər.

Bu hökumətlə bərabər yanvarın 4-ü gecəsi xoxollar Məhəmməd ağa qəssabın evinə tokülüb Məhəmməd ağanın gəlininin 2 nəfər balaca uşaqları ilə bərabər qoyun kimi başlarını kəsib evlərində olan nəqdiyyə on min manatdan başqa lazım olan şeylərini də qarət ediblər, yenə haman gecə (Dəriğli Məşədi) İsmayıl uşaqlarını evlərindən bittamam oğurlayıblar. Lakin bura şəhərin bir miqdar içərisi olduğu üçün adam oldürməyə fürsət tapmamışlardır. Lənkəranın hadisatı saya gəlməz. Səlyan sərhəddindən tutmuş xaxol təkləsindən 100-cü yaşından tutub Prim Biləcənni iki böyük pristav mahalı biri Sehidaşt, birisi də Ərkivan uçastkasıdır. Nə qədər müsəlman kəndləri var isə bittamam xarabazar evlər və göylər hamı yanıb və yerlərinə də xaxollar malik olub əkiblər. (Məgər Qızılağac) kəndi ki, həqiqətlə. (Qızılağac) camaatı namuslu camaat olduğu üçün xaxollarla əlbir olub sair müsəlmanları qətl və qarət etməkdən xaxollar ilə bərabər heç bir zərrə qədəri həya etməyiblər. (Səslər: eyib olsun).

Axundzadənin nitqindən sonra sorğu səsə qoyularaq qəbul edilir. [164 - 165]

## Ermənilərin qətl məsələsi

Bədə sosialistlər tərəfindən ixtar edilmiş zeyldəki sorğu oxunur:

*Azərbayçan Məçlisi-Məb'usan rəisi çənablarına!*

hökumət naminə sosialistlər fraksiyonu tərəfində işbu sorğuya (istizah) Məclisi-Məbusanın əvvəlinci cələsində qoymamızı rica edirəm.

"Qəzetlərdə dərc olunan xəbərlərə görə Azərbaycan dəmir yolu hacıqabul stansiyonunda vaqondan Sarkisyan namində bir erməni əsgərlər tərəfindən çıxarılmış və nerəyə göndərildiyi belə bir hadisənin vaqe olduğu hokumətə məlumdurmu və əgər məlum isə böylə təhəmmül olunmaz hadisələrin bir daha təkrar etməməsi və günahkarın qəti tənbehi üçün nə yolda tədbirlər görmüşdür".

**Sosialistlər fraksiyonu katibi**
***Abbas Aqşşalıyev.***

**Əhməd Cövdət** (sosialistlər fraksiyonu tərəfindən) sorğuyu müdafiə edərək çox hərarətli bir nitq söyləyərək belə hərəkətlər sağdan hücum edən bolşeviklərin vətəni, Azərbaycanın, Azərbaycan istiqlalını baltalayan qara güruhların əməli olduğunu qeydlə cahan mühakiməsində belə əməllərin 3-5 müqəssirə deyil, bütün millət ohdəsinə atılacağını, millət hesabına yazılacağını, millətimiz, hökumətimiz və istiqlalımızı qaralayacağını, ləkə edəcəyini, qeydlə soldan gələn qırmızı bolşevik kimi saqdakı bolşeviklərlə də mübarizə edilməsini tələb edir, deyir ki, Azərbaycan məmləkətində millətlər arasında nifaq salan bu cür hərəkətlərə yer verilməz. Millətlər münasibəti gərgin olan bir belə bir zamanda erməninin vaqondan çıxarılmasına laqeyd baxmaq olmaz. hökumətimiz böylə hərəkətlər müqabilinə qəti tədbirlər görüb müqəssirlərə şiddətli cəzalar verilməlidir.

**Fətəli Xan Xoyski** - Sorğuya rəisi-vükəla Fətəli Xan Xoyski Həzrətləri cavab verərək bəyan edirlər ki, guya Sarkisyan nam bir şəxsin vaqondan çıxarılıb aparılması haqqında verilən bəyanat əsassızdır. Qəzetlər yazırlar ki, guya Sarkisyanın aparılmasında Azərbaycan əsgərləri də iştirak etmişlərdir. Bu xəbəri eşitcək mən Hacıqabulda duran əsgərlərimizin [165 - 166] komandanına teleqram çəkərək istizah etdim, cəvab aldım ki, əsgərlər tərəfindən heç vaxt belə iş görülməmişdir. Hətta Hacıqabulda belə iş olduğu ona məlum deyildir. Sonra bizə xəbər verdilər ki, Sarkisyan adlı bu erməni zabiti raqi aparırmış. Özünü də, malını da vaqondan düşürmüşlər, bəratül-qövl yazıb raqını saxlamışlar, Sarkisyan isə o biri qatar ilə yola düşmüşdür. Son zamanlarda bəzi bədxahlar hökuməti ləkələməyə çalışdıqlarından mən bu işə ciddən baxdım. Qəzetlərdə bir xəbər var idi, (Hacıqabulda) 13 ermənini vaqondan çıxarıb güllələmişlər, ancaq Qriqoryan adlı birisi qaçıb qurtarmışdır. General Tomson da bunu mənə yazmışdı. Dərhal daxiliyyə naziri, qubernatoru, erməni milli şurası nümayəndəsi və haman Qriqoryan ilə bərabər təhqiqat üçün Hacıqabula göndərildi. Orada bütün əsgərləri, zabitləri və s. şəxsləri göstərmişlər, amma qatil dediyi adamları tanıya bilməmişdir. Bununla bərabər qubernator təhqiqat icra edib bütün dəmiryol qulluqçularını, xüsusən, müsəlman olmayanları danışdırmışdır. Məlum olmuşdur ki, bu şayiə qətiyyən həqiqətə uyğun deyildir. Böylə bir şey olsa da müqəssirləri tapıb cəzalandırardılar. Bu xəbərləri bədxahlar Azərbaycan hökumətini ləkələndirmək üçün buraxırlar. Hökumətimiz bütün caniləri təqib edir. Və hökumət nəzərində hamı millət, hamı və Azərbaycan vətəndaşı bərabərdir.

Rəisi-vükəlanın nitqindən sonra sosialistlər tərəfindən verilmiş zeyldəki formula oxunur. Sosialistlər fraksiyonu tərəfindən hökumət hacıqabul stansiyonunda Sarkisyan adlı bir şəxsin vaqondan çıxarılması haqqında hökumətə verdiyi sorğu xüsusunda hökumət rəisinin verdiyi bəyanatı dinləyib və hökumətin gördüyü tədbirləri təqdir edib növbədəki məsələlərin müzakirəsinə keçir.

### *"Əhrar" fraksuyası bəyənnaməsi*

Fraksiyanın üzvü Abdulla (bəy Əfəndizadə oxuyur: 1914 sənəsində alovlanmış və get-gedə bütün yer üzünü əhatə etmiş millətlər müharibəsi hənuz təmamilə qurtarmayıbsa, fəqət qurtarmağa üz qoyubdur. Bu aləmşümul müharibə tarixi-bəşəriyyətdə misli görünməmiş və ölçüyə çəkilməmiş can, mal və pul tələfatına səbəb olmuşsa da, digər tərəfdən məlhuz istibdadın və qan içici militarizmin əsaslarını dağıtdı, üsuli-idarələrin [166 - 167] mahiyyətini dəyişdi, yüz sənələrə demokratizm gəlməsindən qorxan və həmişə onun əleyhinə qalxışan camaat siniflərini bu gün istər-istəməz demokratizm tərəfdarı etdi. "Hər millət oz müqəddaratını təyin etməyə haqlıdır" kimi müqəddəs və ali fikirlər doğurub meydana gətirdi, həyati-bəşəriyyəti əsarət zəncirindən qurtarıb təbii yoluna qoydu. Daha bundan sonra millətlərin təkamülü onların diriliyindən və fədakarlığından asılıdır, daha xırda millətlər istiqlaliyyəti - tammə ilə kəndini keçindirmək imkanına malik olacaqdırlar. Bu xüsusda fraksiyamızın imanı kamildir, lakin fraksiya burasını da yəqin bilir ki, "haqq alınar, verilməz!" Hüquqi-bəşəriyyə ancaq ləyaqəti olan, onun yolunda qurbanlar verən və hava, su kimi onun qədr-qiymətini bilən millətlər malik olacaqdır. Əks surətdə, yəni azadlıq yolunda heç bir fədakarlıqla bulunmayan millətlər yenidən qəyyum altında yaşamağa məcbur olacaqlar, hüquqi-bəşəriyyədən məhrum qalacaqlar, keçmişdən də şiddətli bir əsarətə giriftar olacaqlar. Xoş o millətlərin halına ki, müəzzəm və mədəni millətlərlə həmhüquq olmaq şərti ilə onların sırasında məqam tutmağa müvəffəq olacaqlar. Vay o millətlərin halına ki, səadətdə, bu xoşbəxtlikdən məhrum qalacaqlar.

Tarixi bəşəriyyətdə parlaq ad qazanmış türk millət nəcibeyi-əziməsinin bir kütləsini təşkil edən azərbaycan türkləri bu axırıncı vüquatı-tarixiyyədə azacıq olsa kəndi diriliyini və diriliyi sayəsində hər hüquqa malik ola biləcəyini kərrat ilə isbat etmişdir. Deməli, bu millət hər çəhətdən müstəqil yaşamaya layiq millətlərdəndir.

Binaən bir millət pişəvərləri və millət ziyalıları millətin əhvali-ruhiyyəsini öyrənirsə, onun ayəndəsi üçün heç bir fədakarlıqdan geri durmazsa, onun xəstəliyini tədqiq və müayinə edib müalicəsinə səmimiyyətlə çalışarsa və həmin səmimiyyət qarşısında əhalinin etimadını qazanırsa, o surətdə demək olar ki, bizlər də yaşayırız; mədəni millətlər sırasında məqam tutmağa bizim də haqqımız vardır. Buna binaən başqa millətlərdə olduğu kimi bizim də ricali hökumətimiz belə adamlardan mütəşəkkil olmalı idi. Heyf ki, 6-7 aylıq təcrübə azacıq da olsa bizlərə əmniyyət vermədi, təəssüflər olsun ki, millətimizdə gordüyümüz diriliyi, fədakarlığı bu ana kimi hökumətimizdə gormədik. Fəqət, nə etməli keçən keçibdir. Hal-hazırımızın siyasəti [167 - 168] böyük əhəmiyyət kəsb etməklə bərabər elə nazik, elə bir incə məqamlara varıb ki, həm parlament və həm də hökumət tərəfindən böyük çalışqanlıq və həkimanə bir taktika istər, daha bu gündən belə yoxlamaq qəbul edilməz bir xəyanət və cinayətdir. Əgər millət fəaliyyətsizlik ucundan uğrarsa, əmin olun ki, bütün məsuliyyət parlament əksəriyyətinin və əksəriyyət təşkil etdiyi hökumət üzərinə düşəcəkdir.

Parlamentimizə baxılırsa buna məmləkətimizdə mövcud camaat təbəqələrinin nümayəndələri, ictimai, müəyyən seçki qanunu mövcubincə və ədaləti-tama ilə intixab edilmiş, millət məbusları palatası deyilməyəcəyi ümum parlament fraksiyalarının diqqətini cəlb etmişdir.

Bəna bərin şimdi ki, parlamentimizdə biz fəqət, vaxtın təqazası mövcubincə və inqilab surəti ilə təşkil olunmuş parlament onu deyə biləriz. Belə bir parlamentin ümdə vəzifələri müvəqqəti mötəbər və möhkəm bir hökumət təşkil etməkdir, cümhuriyyətin həqiqi sahibi olan Məclisi-Müəssisan intixab üçün ədalətli bir seçki qanunu tərtib etməkdədir və həmin qanun üzrə Məclisi-Müəssisan toplanıb vətənə sahib olancaya qədər davam edib durmaqdadır. Ancaq bu təriq ilə toplanmış məclis vətənin ağır vəzifələrini daşımağa haqlıdır, ancaq belə bir məclis ümum vətənin havadarı, hər sinif, hər millət və hər təbəqənin mürəvvici—əfkari və ayineyi-həyati ola bilir. Əvət, parlamentimizin ümdə vəzifələri bunlardan ibarətdir. Hökumətimizə gəldikdə bu təşkilatın sağlamlığının əhəmiyyətini bu gün bilməyənlər yoxdur. Hökumət, parlamentində məsul olmalı və parlament göstərdiyi yollar ilə getməli isə də, müstəqil, müttəhid, möhkəm, mötəbər və mükəmməl bir qüvveyi-icraiyyə təşkil etməsi də onun birinci vəzifələrindəndir. Hökumət borcludur sarsılmaz bir xətti-hərəkət götürüb vətəni adilanə və aqilanə bir surətdə idarə etsin, daxili və xarici siyaseyti vətəniyyəni sağlam bir fikir sayəsində yürüdüb hər daim millət və vətənin namusunu mühafizə etsin. Ancaq belə bir hökumət arxasında parlamenti və onun vasitəsi ilə bütün vətən övladını görə biləcəkdir. Belə olmayan hökumət vətən xaini və millət düşməni namini daşımağa müstəhəqq olacaqdır.

Cümhuriyyətimizin diri bir vücud kimi mücəssəm edərsək, o vücudin başı Məclisi-Məbusan, Xəvassi zahirə və batiləsi [168 - 169] və başqa əhəmiyyəti hayiz əzası isə hökumətdir, necə ki, göz görmək, qulaq eşitmək, əl işləmək, dil danışmaq üçündür, bu üzvlərdən və başqalarından hər biri öz işlərində mütəxəssidirlər və ancaq öz işlərilə məşğuldurlar, fəqət, ümum üzvlərin yeganə məqsədləri yalnız bir bədənə və bir ruha xidmət etməkdir. Həmçinin hokumət üzvləri də özlərinə vagüzar vəzifələri və hər kəs oz vəzifəsini daşımağa borcludur. Və necə ki, bədən üzvləri oz vəzifələrindən imtina etdikdə bədənin həlakına səbəb ola bilirlər, həmçinin ricali hökumət öz vəzifələrini daşımazlarsa, vətəni və milləti boyük fəlakətlərə düçar edə bilərlər. Buna binaən, əvvəla nazirlərdən hər təhti idarəsinə verilmiş şöbənin mütəxəssisi olmalıdır. Saniyən hər nazir kəndi müəyyən vəzifəsini vətənin hal və övzayi-siyasiyyəyə müvafiq yürütməyə borcludur. Salisən nazirlər öz fəaliyyətsizliyini "əhvali-siyasiyyədən naşıdır" deyə doğrultmaqdan qəti surətdə vaz keçməlidirlər, daxili işlərlə məşğul olmayan nazirin daxiliyyə naziri namini daşımağa haqqı yoxdur, maarif işlərilə məşğul olmayan nazir maarif naziri namini danışmağa və hakəza bunlar sabiq hökumət tərəfindən bizə verilən bəyənatın ziddinə olaraq hərəkət etməlidir, yəni siyasət incəlikdə hər nazir ixtisası dairəsində fəaliyyətini çoxaltmalıdır. Rabiən, ayrı-ayrı nazirlərin yürütdüyü siyasət ümumi vətən siyasətinə zidd olmamaq şərti ilə onların bütün heyəti, yəni heyəti-vükəla ümumi işlərdə bir vücud kimi hərəkət etməlidirlər. Belə olmasa ovzayi-vətən şimdiki halından dəxi fəna hallara düşəcəkdir. Bir baxın görün ki, biçarə vətən bu saat bir məzarıstana bənzəyir.

Yollarımız xarabazara donübdür, posta-teleqrafımız hənuz intizama düşməyibdir, əhalinin əlindən mal-qarası çıxıbdır, taxıl gün-gündən bahalaşır, odun, kömür, neft, qənd, çay kimi ləvazimati mühümmə bu gün dövlətlilərə məxsus olubdur, soyğunluq, rüşvətxorluq, ədalətsizlik və özübəylik saatbasaat kəsbi şiddət edir; türklər yerlərinə çəkildikcə ümumi pozğunluq yavaş-yavaş baş qaldırmaqdadır. Əsgərlik usuli əhalini bu müqəddəs vəzifədən nifrətləndirdi, varlılar rüşvət və tərəfgirlik sayəsində əsgərlikdən qaçdılar; hər yerdə bu ağır vəzifə yalnız füqəranın üzərinə atıldı, bununla bərabər həmin füqəra üçün yeməyə çörək yox, qənd, çay və libas yox, öləndə də bürünməyə kəfan yox:. Müsri xəstəliklər əhalini ot kimi [169 - 170] qırıb tökür, ölənlərin sayı yüz minləri təcavüz etdi. Dünki on, on beş candan ibarət ailənin qapısına bu gün qıfıl vuruldu: əhalisi minləri mütəcaviz kəndlər bu gün başdan-başa bayquşlar cövlankahi olubdur. həkim yox, dərman yox, xəstələrə yemək yox. Həkim olan yerlərdə də ona rucu etməkdənsə, xəstə üçün ölüb qurtarmaq daha ucuz oturur. Möhtəkirlərin təməyilə və fəaliyyəti-xainasinə heç bir yerdə nə sərhəd var, nə əleyhinə tədbir. Hökumətimiz daxili işlərin bu cəhətlərinə böyük əhəmiyyət verməlidir, hər şeyi nizam-intizam təhtinə alıb şimdidən ümum fəlakətin və tarixi bədbəxtliyin önünü almalıdır.

İşbu mülahizələri nəzərdə tutub fraksiyamızın verdiyi qərar vətəni məsul mötəmid və mükəmməd bir hökumətə təslim üçün yardım etməkdir. Vətənin istiqlalını və cümhuriyyətin inam əsaslı surəti-idarəsini var-qüvvə ilə müdafiə etməkdir, əqəliyyətin haqqını təmin edici və məhəllərdə məskun əhalinin nüfuzuna mütənasib seçgi qanunu tərtib edib, vətənin həqiqi sahibi olan Məclisi-Müəssisanı ən yavuq zamanda iş başına dəvət etməkdir.

Bunun ilə bərabər biz inqilab surətilə elan edilmiş Azərbaycan istiqlalını bütün aləm qarşısında uca bir səslə alqışlayırız və səmimi qəlblə elan ediriz ki, vətənimiz övladının ədaləti-tammə ilə bilafərq dil və millət, hər hüququa malik olması qayeyi-amalımızdandır. Millətimizin şərəf namusunu bir an unutmayaraq qonşu millətlər və dövlətlərlə əlaqeyi-dustanəni möhkəmləndirməyi hökumətimizin vəzaifi-aliyəsindənədd ediriz. Vətən və millətimizin nümayəndələrini qonşu cümhuriyyətlər nümayəndələri ilə müttəfiqən sülh konfransına iştirak etdirməyə və istiqlaliyyətimizi təsdiq etməyə var qüvvəmizlə çalışacağız. Başqa hüquqi-malliyəyə qarşı qərarımız beylədir ki, hürriyyətlər qanunən başdan-başa təmin edilməlidir, amma kin və heysiyyəti-şəxsiyyə tərzdən məsum olmalıdır. Əkinçilərin və fəhlələrin halı lazımı dərəcələrdə yüngülləşdirilməlidir. Qanun üzrə təhdti qərara alınmış xırda mülklərdə həqqi təməllük olmalıdır. Miri torpaqları, sabiq padşaha və onun nəslinə mənsub, böyük mülkədarlara və xüsusi maliklərə mütəlliq torpaqları xəzinəyə götürüb əkinçilərə ailələrinin nüfusinə mütənasib məccanən paylaşmalıdır. Xüsusi torpaqların əvəzində onlara xəzinədən [170 - 171] bədəl vermək məsələsini Məclisi-Müəssisaənə həvalə etməlidir. Torpaqlar sərvətdarlar əlinə keçməsin deyə əkinçilər aldıqları torpaq paylarını satmaq ixtiyarına malik olmamalıdırlar. Fəhlə sinfinin və yomiyyə zəhmətinin müddəti 8 saatdan ziyadə olmamalıdır, onların keçinəcəyi, hifzi sahiyyələri və maarif işləri kassaları və başqa tələbatın aqilanə bir surətdə qanunən təmin edilməlidir. Füqareyi-kasibə sinfinin bir çox xəcalətdən azad etmək üçün vergilərin gəlisi gəlirə görə vergi ilə əvəz edilməlidir.

Tədrisi-ibtidai ümumi məccani və məcburi olmalıdır. Azərbaycan Cümhuriyyətinin maarifə olan ehtiyacı başqa ehtiyacının fövqündədir. Ümum fəlakətlərin birinci səbəbi maarif yoxluğudur. Buna görə müəllimlərin məişətini təmin etməklə onları dilənçilik halından xilas etməlidir, müəllimlər guruhuna bacarıqlı qüvvələr soxulmalıdır. İbtidai məktəblərdən başqa, darülmüəllimlər rüşti, ədəd və hərbi məktəblər, sənaye, ticarət və ziraət məktəbləri açılmışdır. Şimdiki məktəbləri mümkün olduqca tez bir zamanda milliləşdirilməlidir. Camaat anlayacaq şivədə də siyasi, elmi və fənn risalələr, jurnallar, usuli-təlim və tərbiyəyə dair əsərlər tədbir edib əhvən qiymət ilə və geniş bir miqyasda intişar etdirməlidir. Bunlardan əlavə cümhuriyyət daxilində bu sənədən etibarən darülfunun təsis etməlidir. Hökumət idarələrini genişləndirmək üçün xüsusi kurslar açıb, bütün hökumət idarələrində və şöbələrində xidmətçilər hazırlamalıdır və həmin idarələri tez bir zamanda milliləşdirməli və bütün mürasilanı türk dilində aparmalıdır. Məhkəmeyi-ədliyyələr demokratik bir üsul üzrə təsis edilib hər fərd bilafərq din və millət ancaq cümhuriyyət qanunu müqabilində məsul tutmalıdır.

Təcili surətdə məhəllə təftiş komisyonları göndərib rüşvətxor və xain xidmətçiləri məqamlarından kənar etdirməli və divani ədalətə verdirməlidir.

Ərzaq məsələsi möhtəkirlər və müstəbidlər əlindən xilas edilməlidir. Taxıl, çit, ağ, qənd, çay, sabun və ləvazimati-həyatiyənin indidən tədbirinə düşməlidir.

Əski şosse yollar açmağa sərfi-hümmət etməlidir. "Orta Qafqaz" dəmir yolu naminə hazırlanmış əski projeni qövldən [171 - 172] felə gətirməlidir. Ucuz fiyatlə dava-dərman kətirib məhəl-lərə və hər yerə həkimlər göndərilməlidirgvə bu yollar ilə kilidli el qırğınının önünü almalıdır. İstiqlaliyyəti-milliyənin birinci sütunu ədd olunan sağlam və müdhiş bir orduya malik olmalıdır, ümumizin məlumdur ki, yeni doğulmuş əsgəri təşkilatımız aqilanə bir surətdə icra edilməklə bərabər bir çox təbii və ərazi fəlakətlərə uğrayıbdır. Buna görə camaatımız bu işdən mütənəffir olubdur. Əsgərlik vəzifəsi vətənin ən müqəddəs olduğunu nəzərdə tutub, yeni təşkilati-əksəriyyəti mükəmməl bir əsgəri qanuna düzüb qoşmalıdır. Əsgərlərin yeyəcəyinə, yatacağına, libasına və həkim-dərmanına böyük diqqət yetirməlidir, dövlətliyə, fəqirə, böyüyə, kiçiyə təfavüt qoymamalıdır. Bu qədər bilməlidir ki, bizləri Azərbaycana sahib edəcək qüvvə bizim milli ordumuz olacaqdır. Ordu sağlam və möhkəm bir qüvvə təşkil edərsə, hökumət də ona istinadən iş görə bilir, millət də onun sayəsində tərəqqiyə üz qoyub mədəni millətlər sırasına keçir.

Nəhayət, yeni hökumətin bugünkü bəyanatının qarşısında fraksiyamızın cavabı budur ki, millətin və vətənin mənafeyinə işləmək quru sözlərdən və boş vədlərdən ibarət olub qalmamalıdır. Əgər hökumət ciddi fəaliyyət və fədakarlıq etməyə doğrudan doğruya hazır isə arxasında "Əhrar" fraksiyasını görcək və onun müavinətini qazanacaqdır. Ancaq bu şərti əsas ittixaz edərək siyasətin nazikliyini nəzərdə tutub fraksiyamız yeni hökumətə izhari eimad ediyor.

**"Azərbaycan", 10, 12, 13, 15 yanvar 1919, № 84, 85, 86, 88.**

## № 8

## Səkkizinci iclas

*16 yanvar 1919-cu il.*
**Rəis** - Doktor Həsən bəy Ağayev.
**Katib** - Əhməd Cövdət Pepinov.
İclas saat 12.40 dəqiqədə açılır.
Müzakirə ediləcək məsələlər: [172 - 173]

1. Nuxa və Bakı qəzalarının yəhudi cəmiyyətlərinin və ukraynalıların məbusluğu mövqe məsələləri; 2. İclaslarda iştirak edəcək əzanın qanuni və kafi miqdarı təyini (kvorum); 3. İclaslarda isbati-vücud etməyən məbuslar haqqında; 4. Hökumət məmurluğu ilə məbusluğunun ədəmi-ictimai xüsusunda; 5. Heyəti-Rüəsanı təkmil etmək; 6. Komissiyaları təkmil etmək; 7. Məclisi-Məbusanın 15 dekabr tarixli iclasının qərarı; 8. Məclisi-Məbusan dairəsinin mühafizəsi; 9. Məclisi-məbusan imarəti məsarifi haqqında smeta; 10. Nuxa və Zaqatala qəzalarının adi yolları haqqında "Əhrar" komisyonunun hökumətə təqdim etdiyi sorğu.

Ruznameyi-müzakirat elan edildikdən sonra Qarayev növbədən xaric səs alaraq sosialistlərin fraksiyaları tərəfindən bəyan edir ki, bir neçə müddətdir ki, Tağıyev fabrikasının bəzi əmələri müdiriyyət tərəfindən işdən çıxarılmışlardır. Masai naziri burada bəyan etmişdir ki, məzkur fəhlələrin 7 günədək geri qəbul edilmələri barəsində binaküzarlıq etmişdir. Şimdi 7 gün qurtarmış, amma fəhlələr geri qəbul olunmamışlardır. Topladığımız məlumatdan anlaşılır ki, bu fəhlələr sırf siyasi məsələdən dolayı xaric edilmişlərdir, belə işlər fəhlə məsələsində bizə böyük zərbə vura bilər. Biz razı olmarız ki, fəhlə nahaq yerə mütəzərrir olsun. Sizə məlumdur ki, fəhlələrin halı haqqında keçən iclasda məsai nazirinə xitabən istizah verilmişdir. ("Müsavat" tərəfindən). Fəhlə işsiz qalmışdır. Çalışmalıdır ki, tətil olmasın. Əgər tezliklə ciddi tədbirlər görülməsə, biz sosialistlər məsuliyyəti öz öhdəmizdən atırız.

### Etibarnamə komissiyonunun məruzəsi.

Bundan sonra etibarnamə komissiyonunun sədri Şəfi bəy Rüstəmbəyli bəzi məbuslar haqqında məlumat verib deyir ki, məlum olduğu üzrə parlamentin keçən iclaslarından birisində məbusların etibarnaməsi məsələsi müzakirə edilərkən bəzi məbuslara möhlət verilmişdir ki, bir ay zərfində düzgün etibarnamə təqdim etməyə çalışsınlar. Şimdi bir ay bitmiş, fəqət, bu xüsusda komissiyona məlumat varid olmamışdır. Ona görə də etibarnamə komissiyonu təvəqqe edir ki, [173 - 174] bu məbuslara təzədən üç həftə möhlət verilsin. Bundan əlavə Şuşa qəzasından seçilmiş olan Zeynal bəy Vəzirov ilə Əhməd bəy Ağayevin etibarnamələri düzgün və qanuna müvafiq olduğundan komissiyon bunların təsdiqini təklif edir. Əhməd bəy imtina etmişdir. Qalır Vəzirov cənabları. Həmçinin Zaqatala nahiyyəsindən seçilmiş Bəhram Niyazi Kiçikxanov və Kabudov cənablarının etibarnamələrini təsdiq etməlidir.

Səsə qoyularaq etibarnamə komissiyonunun məruzəsi ittifaqi-ara ilə təsdiq olunur.

### Kvorum

Sədr bəyan edir ki, nizamnamə komissiyonu tərəfindən bu vaxtadək kvorum haqqında bir qanun verilməmiş olduğundan heyəti rüəsa təklif edir bu gün kvorum təyin olunsun.

**Cəmo bəy Hacınski** (sosialist) - Məlum olduğu üzrə parlament məbuslarının bir qismi hökumətə daxil olub, bir qismi də Avropaya getmişdir. Ona görə də sosialistlər fraksiyonu təklif edir ki, kvorum hazır məbusların yarısı, yəni 33 təyin olunsun.

**M. Ə. Rəsulzadə** ("Müsavat") - yenidən təklif edir ki, parlamentə nə qədər məbus seçilmiş və hazır olduğu göstərilsin.

**Sədr** - bəyan edir ki, bu vaxtadək 82 məbus seçilmişdir.

**Rəsulzadə** - təklif edir ki, bu surətdə kvorum seçilmiş əzanın yarısı (yəni 41). Qərar qəbul olunur.

Səsə qoyulduqdan əksəriyyət - ara ilə ikinci təklif qəbul olunur.

**Cəmo bəy** - Bu surətdə çünki şimdi kvorum yoxdur, ona görə də iclas davam edəməz.

(Səs-küy qalxır. Məbuslar sayırlar, məlum olur ki, kvorum varımış. İclas davam edir).

### Parlamentdə hazır olmayan məbuslar haqqında qanun layihəsi

Türk ədəmi-mərkəziyyət "Müsavat" firqəsi tərəfindən parlamentə idxal edilmiş olan zeyldəki qanun layihəsini katib oxuyur: [174 - 175]

1. 1918 sənəsi dekabr ayının 7-dən yəni parlament açılan gündən etibarən bir ay yarım zərfində parlamentə gəlməyib də səbəbini də bildirməyən məbuslar parlamentdən xaric edilirlər.

2. Parlamentdən gedibdə bir ay zərfində heyəti-rüəsayə bu xüsusda məlumat verməyən məbuslar parlamentdən çıxmış hesab edilirlər.

3. Bu surətlə parlmentdən kənar olan məbusların yerinə onu seçmiş olan fiqrə yaxud təşkilat tərəfindən yeni məbus intixab ediləcəkdir.

**M. Ə. Rəsulzadə** - Layiheyyi-qanuniyyəyni müdafiə edərək deyir ki, mən elə bilirəm layiheyi-qanuniyyənin məqsədi möhtərəm məbuslara aydındır və bu xüsusda elə ciddi və müfəssəl bəyanata ehtiyac yoxdur. Məbuslardan bir qismi firqə siyahıları üzərinə Zaqavqaziya Seyminə daha sonra seçilərək sonra Azərbaycan Məclisi-Məbusanına daxil olmuşlardı. Bunlardan bir çoxları Bakıya gələ bilmirlər.

Görürsünüz ki, indi az qalmışdı kvorum düzəlməyib iclas qapansın, madam ki, onlar siyahı üzərinə seçki üsulu ilə məbus seçilmişlərdir, yəqindir ki, siyahiyi verən firqə, kənaa olan məbusun yerinə başqa namizəd göstərə bilir. Siyahı ilə keçən məbusların bəziləri əsla Bakıya gələ bilmirlər. Binaən-ileyh də siyasi məbussuz qalır. Ona görə mən bu qanunun qəbul olunmasını təklif edirəm.

**Qarabəyli** (İttihad) - Məlumdur ki, belə bir qanuna ehtiyac vardır. Çünki biz gözləyə bilmərik məbus nə vaxt gələcək, bəkə imkanı yoxdur gəlməyə, fəqət, ikinci maddəni bir qədər təshih etməlidir. Zira gedən əzani bir ay gözləmək olmaz. Bu çox uzun müddət və böyük möhlətdir. Binaən-ileyh mən təklif edirəm möhlət az olsun, - 15 gün.

**Kiçikxanov** (Əhrar) - Lahiyeyi-qanuniyyənin bəzi maddələri aydın deyildir. Ona görə xahiş edirəm bundan belə qanun yazılanda maddələri aydın olsun.

**Rəsulzadə** - "Parlament açılan gündən" deyildikdə yəqin ki, bu maddə əsası siyahı ilə parlamentə seçilib də bu vaxtadək Bakıya gəlməyə imkanı olmayan məbuslara aiddir. Bir ay parlamentə gəlməyib də bu xüsusda məlumat verməyən məbusların xaric hesab olunmaları haqqındakı ikinci maddəyə gəlincə [175 - 176] biz bunu nəzərdə tutmuşuq ki, bir məbus Bakıdan gedər, lakin ola bilir ki, iki həftə müddətində məlumat verə bilməsin. Yolların, poçta və teleqrafın halı özümüzə məlumdur. Birdən bir adam çəkir, lakin özü teleqrafdan qabaq gəlir. Bu mülahizədir ki, bir ay möhlət təyin elədik. Təshih məsələsinə kəlincə məlumdur ki, həmin komissiya bunu icra edəcəkdir.

**Cəmo bəy** - Biz hələ təklif ediriz bu layihəyə belə bir maddə də əlavə edilsin:

Bakıda olub da parlament iclasına gəlməyən məbuslara o günün maaşı verilməsin.

**Qarabəyli** - Bir çox yerlərdən məbus gəlməmişdir. Biz bilmiriz o yerlər məbus seçməmişlərdir, yoxsa seçmişlərdir. Ona görə təklif ediriz daxiliyyə nəzarətinin əli ilə bir komisyon təşkil olunsun ki, o yerlərdən məbusların nə üçün gəlmədikləri barəsində təhqiqat icra edilsin. Belə təhqiqat icra edilmədən idxal olunan qanun layihəsi qəbula keçərsə, bəzi yerləri nümayəndəlikdən məhrum qalmış olarız. Bu cəhətə böylə qanun vermək hələ tezdir.

**Rəsulzadə** - Göstərir ki, bu məsələ ilə qanun maddəsi arasında heç bir əlaqə yoxdur, bu müstəqil bir məsələdir, ona görə də müstəqillən müzakirə edilə bilər.

Qanun layihəsi maddə-maddə oxunur. Əksəriyyəti-ara ilə qəbul olunur. İkinci maddə iki həftə möhlət verilmək üzrə təshih edilir.

**Cəmo bəy** - Sosialistlər tərəfindən təklif olunan 4-cü maddənin qəbulunu israr ilə tələb edir.

**Rəsulzadə** - Məclisi-Məbusan üçün daxili nizamnamə tərtib vermək, iclasları nizama salmaq, gəlməyən məbuslar haqqında qanun vermək və sairə üçün parlamentin nizamnamə komissiyası var. Bu komissiya daxili nizam haqqıda müfəssəl qanun verəcəkdir. Şimdi isə belə təsərrüfatı qanunla əlavə etmək münasib deyildir.

**Cəmo bəy** - Nizamnamə komisyonu bu vaxtadək hələ qanun verməmişdir, bəlkə bir ay, iki aydan bir iş görməyəcək.

**Rəsulzadə** (yerindən) - Elə isə komisyona cəza verilməlidip ki, işləsin.

Səsə qoyulduqda sosialistlərin əlavə etdiyi 4-cü maddə əksəriyyəti ara ilə rədd edilir. [176 - 177]

### Ədəmi-ictimai

Bundan sonra katib cənabları "Müsavat" fraksiyonu tərəfindən idxal edilmiş "Ədəmi-ictimai" layiheyi-qanuniyyəsini oxuyur- Bu qanuna görə Məclisi-Məbusan əzası heç vaxt hökumət məmuriyyətində ola bilməzlər.

**Vanseviç** - Fransa, Amerika və İngiltərə məşrutələrindən misal gətirərək bu məmləkətlərdə qüvveyi-təşriiyyə və qüvveyi-icraiyyətinin qəti aydın və qəti surətdə təyin edilmiş olduqlarını göstərərək deyir ki, ədəmi-ictimai məsələsinə Azərbaycanda belə baxmaq olmaz. Məsələn, dövlət xidmətində elə məbuslar var ki, qanun vəzinə heç xələl vermədən məbus ola bilərlər. Ona görə natiq təklif edir ki, bu layiheyi-qanun vəz edici komisyona verilsin.

**Vinoqradov** - Sabiq natiqin rəyinə şərik olaraq belə bir qanun cavan Azərbaycana zərər verər. Hazırda Azərbaycanda işləyən pək azdır; şimdi onların da hüquqi təhdid edilərsə məmləkət quruluşuna sui-təsir edər.

**Əfəndizadə** - Əvvəlki natiqlər layihənin komisyona təhvil verilməsini istədilər. Məncə bu doğrudur. Məbusları təhdid edərsək böyük müşkülat çıxar; məsələn müəllimlər var ki, 30 il xalq içində qulluq edib nüfuz və etibar qazanmışlardır. Onları təhdid etsəniz, bu qanuna görə məbus olub parlamentdə işləyə bilməzlər. Məncə komissiyon bəzi istisnalar etməlidir.

**Rəsulzadə** - Sabiq natiqlərə cavab verərək İngiltərə məşrutəsində qüvveyi-təşriyyənin qüvveyi-icraiyyədən təmamilə ayrılmış olduğunu göstərərək, layihənin komissiyona verilməsinə razı olmaqla bərabər deyir ki, fəqət, əvvəlki natiqlərin dediklərindən anlaşıldı ki, onlar layihəni basdırmaq üçün komissiyona vermək istəyirlər, mən isə komissiyona verilməsinə razıyam bu şərtlə ki, müəyyən bir vaxt qoyulsun. O vaxtadək layihə basdırılmayıb baxılsın və parlamentə qaytarılsın. Məsələnin əsası cəhətinə gəlincə deyə bilərəm ki, Azərbaycanda qanuni-əsasi hələ tərtib verilməmişdir. Biz parlamen-tarizmi qəbul etmişik və qanun əsasiyimizin baş xəttini parlamentarizm təşkil edəcəkdir. Madamki, belədir biz bu üsulun məntiqi tərəflərinə əməl etməliyiz. Bu üzdən sair təfər-rüatda da biz parlamentarizm qəbul etmiş olan məmləkətlərin, [177 - 178] əzcümlə İngiltərənin qanunlarından qolaylıqla istifadə edə biləriz. Parlament məbusu milləti təmsil edir, binaən-ileyh o həmişə azad olmalıdır. Bir məbus eyni zamanda hökumət məmuru olarsa heç vaxt azad danışa bilməz. Bəziləri deyirlər ki, bu xüsusda Azərbaycan müstəsna bir mövqe tutmalıdır, çünki mədəni qüvvəmiz azdır. Mən zənn etməm Azərbaycan mədəni qüvvədən o qədər məhrum olsun ki, parlamentə 60 məbus göndərdikdə artıq hökumət məmurluğuna mədəni qüvvəsi qalmasın. Əgər bunca qüvvəsiz isək, onda heç bizə parlament lazım deyil (Soldan və mərkəzdən alqış). Parlamentsiz məmləkət istibad olar; Halbuki biz parlament və cumhuriyyət əsası ilə yanaşmalı və məmləkətimizi bu əsas ilə idarə etməliyiz. Ancaq natiqlərdən birisinə cavab olaraq deyə bilərəm ki, bəzi istisnalar ola bilər. Məsələn, hökumət xidmətində olan yurist-konsult və təbiblər, heç vaxt hökumət onlara icrayi-təsir və təzyiq edə bilməz. Biləkəs, belə adamlar hökumət məmuriyyətindən azad işləməklə bərabər qanun vəzi işlərində səlahiyyətdar mülahizələrini bəyanla qüvveyi təşriyyəyə mühazirat edə bilərlər. Fəqət, mən digər natiqi anlayamam. Əgər bir elə müəllim varsa ki, xalqın etibar və etimadını qazanıb parlmentə seçilməli olsun, belə müəllim heç vaxt müəllimliyə geri qəbul olunmamasından qorxmaz, çünki bu kimi zəvata böyük ehtiyacımız var. Millət həmişə beləlarinə "Gözümüz üstündə yerin var!" deyir. (Alqış). Təkrar deyirəm, layihənin komissiyona verilməsinə mən də razıyam, amma müəyyən möhlət şərti ilə.

Təklif olunur ki, komissiyon layihəsi tez baxıb gələn iclasadək qaytarsın parlamentə. Sair səslər bir həftə və 10 gün təklif edirlər.

Səsə qoyulduqda 10 gün qəbul olunur. Bundan sonra qanunverici komissiyon intixab edilir. Seçilən üzvlər bunlardır:

**Məmməd Əmin bəy Rəsulzadə** ("Müsavat") - Vinoqradov (russlav), Aslan bəy Qardaşov ("Əhrar"), Vanseviç (azlıqda olan millətlərdən), Qarabəyli Qara bəy ("İttihad"), Əhməd Cövdət (sosialistlər ittifaqı), Əliheydər Qarayev ("Hümmət"), Xosrov bəy Sultanov (bitərəflər).

Qanun layihələrinin müzakirəsindən sonra növbədə parlament baş katibinə iki müavin seçmək məsələsidir. [178 - 179]

### Katib müavinləri

Sədr təklif edir baş katibə müavinlər seçilsin.

"Müsavat" nümayəndəsi təklif edir ki, müavinlərin biri "Əhrar" fraksiyasından, digəri də azadlıqda qalan millətlər fraksiyonundan olsun.

**Koxman** - azlıqda olan millətlər komissiyonu tərəfindən bəyan edir ki, onlar namizəd verməkdən imtina edirlər.

Vinoqradov bəyan edir ki, slavyan-rus nümayəndələri də müavini katibliyə namizəd göstərməyəcəklərdir.

**Məmməd Əmin** - o halda bitərəflərdən olsun.

Bitərəflər dəxi namizəd vermir.

**Şəfi bəy** - o biri firqələr namizəd köstərmək istəməzsələr biz "Müsavat"dan göstərəriz.

Nəticədə "Əhrar" fraksiyonunudan Bayram Niyazi Kiçikxanov və "Müsavat"dan Hacınski Mehdi bəy əfəndilərin namizədləri qoyularaq əksəriyyəti-ara ilə məzkur iki zat baş katibə müavin seçilirlər.

### Komissiyaların təkmili

Bundan sonra sədr bəyan edir ki, komisyon əzalarından bəziləri nazir, digərləri heyəti-mürəxxəsəyəyə təyin edildiklərindən, bəziləri məzuniyyətə getdiklərindən məzkur əzaların yerinə yeni adamlar göndərərək komissiyaları təkmil etmək lazımdır. Binaən-ileyh xahiş olunur firqələr, yeni namizədlər göstərsinlər. (Sədr hansı komissiyondan kimlərin getdiklərini elan edir). Məclis yeni namizədlər göstərir.

## Məclisi-Məbusan mühafizəsi

Növbədə məclisi-məbusan mühafizəsi üçün qvardiya təşkili məsələsidir.

**Məmməd Əmin Rəsulzadə** - Həzarat! Bilirsiniz ki, Məclisi-Məbusanın mühafizəsi məsələsinin həlli lazımdır. Bizə bir qüvvə lazımdır ki, iclas günlərində hətta sair vaxtlarda Məclisi-Məbusan binasını mühafizə etsin. Hazırda şəhərimizdə polis nəfəratı var, şəhərin asayişini gözləyir. Fəqət, [179 - 180] bunlardan bir dəstə ayıraraq Məclisi-Məbusan qarovulu təyin etmək mümkün deyildir. Zira belə olsa, şəhərin mühafizəsi zəifləşər.

Binaən-ileyh başqa bir çarəyə təvəssül etməliyiz, bilxassa ki, ümumiyyətlə parlamentlərin ixtiyari var kəndi mühafizələri üçün xüsusi dəstə təsis və təşkil etsinlər. Biz də lazımdır belə bir bölük təşkil edək. Bu surətlə təşkil olunan mühafizə bölüyü Məclisi-Məbusana tabe olur və həmişə parlamenti mühafizə edir, onun məxaricini də parlament öhdəsinə alır. Bölük Məclisi-Məbusan mühafizəsi ilə bərabər ümumi asayişi də düşünməlidir. Zikr olunan işlərə baxmaq üçün hər parlamentdə bir müdafiə komisyonu təşkil olunur ki, mühafizə bölüyünü tənzim edir və bu məsələyə aid işlərə baxır. Bunun üçün ayrıca bir qanun layihəsi lazım görülməyəcək ancaq təklif ediriz 5 nəfərlik bir müdafiə komissiyonu seçilsin.

Sədr namizədlər köstərilməsini təklif edir.

Bitərəflər namindan Əbuzər bəy Rizayev belə bir siyahı göstərir: Musa bəy Rəfiyev ("Müsavat"), Cəmo bəy Hacınski (sosialist), Qara bəy Qarabəyli ("İttihad"), Aslan bəy Qaraşov ("Əhrar") və Xosrov bəy Sultanov (bitərəf). Təklif və siyahi ittifaqi-ara ilə qəbul olunaraq divani-riyasətə tapşırılır ki, mühafizə bölüyü təşkili üçün smeta hazırlayaraq parlamentə təqdim edilsin.

## Kredit

Ləvazim komissiyonu sədri C. Hacınski parlament binasında təmirat işləri üçün 50 min manat avans buraxılmasını təklif edir. Təklif qəbul olunur.

## Şəki yolları haqqında

"Əhrar" fraksiyası tərəfindən yollar naziri naminə Şəki-Zakatala ətrafındakı yollar haqqında verilmiş bir sorğunu katib oxuyur.

Abdulla bəy Əfəndiyev və Kiçikxanov sorğunu müdafiə edərək birər nitq söyləyir. Ümumiyyətlə hər bir məmləkət üçün yolların əhəmiyyətini göstərərək məhsul nöqteyi-nəzərində Azərbaycanın ikinci Bakısı hesab etdiyi Şəki və Zakatala [180 - 181] yollarının qeyrət fəna olduğunu qeydlə deyirlər ki, orada neçə ildir ki, yollar təmir edilmir, kəndlilər böyük xəsarətə düçar olurlar; milyonlarca pud meyvə yolsuzluqdan xarab olub çürüyür, əhalisi isə bundan boyük zərərlər çəkir. Halbuki, məsələn, Zakataladan Gəncəyə gedən qısa bir yol təmir edilərsə, meyvələr bazara gətirilərək satılar. Bu yolu təmir etmək hökumət xəzinəsinə də güc olmaz, çünki Gürcüstana gondərilən mallardan 200 min manat gömrük haqqı bu məqsədə sərf edilə bilər.

**Məlikaslanov** - sorğuya hökumət tərəfindən təriq və müabir naziri Xudatat bəy Məlikaslanov həzrətləri cavab verərək bəyan edirlər ki, adətən yollara iki nöqteyi-nəzərdən baxılır. Sovqilçeyşi və ticarət nəzərindən birinci yollar həmişə hökumət xərci ilə təmir edilir, ikinci isə Zemski xərcindən, Azərbaycan yollarının həpsi bu vaxtadək (15 versti müstəsna olmaq üzrə) canişinlik vasitəsilə zemstvo xərcinə təmir edilirdi və bu yollara əhəmiyyət verilməzdi. Şimdi məzkur yollar Azərbaycan hökumətinə keçdikdə işlər dəyişmişdir. Mən özüm bu xüsusda hökumətə bir qanun layihəsi vermişəm, bu günlərdə hökumətdə qəbul və parlamentə idxal ediləcəkdir. Məzkur qanuna görə yolların həpsi təriq və müabir nəzarəti idarəsinə keçəcək və xəzinə xərci ilə təmir ediləcəkdir.

## Ümuri-xeyriyyə nazirinin məktubu

Bundan sonra katib ümuri-xeyriyyə nəzarətindən varid olmuş bir məktub oxuyur. (Məktub ruscadır).

**M. Ə. Rəsulzadə** (yerindən) - O nədir mən anlamıram. Nə üçün yabançı dildədir?

**Səslər** - Qaytarın, öz dilimizdə yazsınlar. Əsas etibarı ilə kağızın geri qaytarılması qərarlaşdırılmaqla bərabər məktubun məzmununa əməl olunur və Zəngəzur qaçqınlarının əsəf-əngiz bir halda yaşadıqları nəzərə alınaraq qərar verilir ki, məbus Klinovskinin qaçqın işlərinə baxmaq üçün göndərilməsinə etiraz edilməsin. Amma bu iş üçün bir də ayrı bir məbus köndərilməyəcək, nəzarətə tapşırılsın ki, lazım olsa oraya başqa bir təbib də göndərsin. [181 - 182]

## Bitərəflər deklarasiyası

Axırda Yusif Əhmədov növbədən xaric səs aralaq müqəddimədən sonra bitərəflər fraksiyonu tərəfindən zeyldəki deklarasiyonu oxuyur:

Keçirdiyimiz ağır tarixi bir zamanda bizim siyasi və ictimai həyatımızda Azərbaycanın istiqlalını və bu istiqlaliyyəti mühafizə etmək ən əsaslı məsələlərdən olsun gərək. Bu məsələyi layiqincə ifa etmək üçün məmləkətin daxilində və xaricində camaatın etibarını qazanan hökumət olacağı aşkardır. Bu hökumət kəndi fəaliyyətində istiqlaliyyətə və maarif-mədəniyyətə çıxmağa çalışan məmləkət parlamentindəki bitərəf nümayəndələri dəstəsinə dayaqlanmalıdır.

Fikrimizcə bunlar cəmiyyətimizin səlahiyyətli və məmləkət əfkarını düzgün əks əndaz edici bir dəstədir. Dolayı parlamentdə hazır olan bitərəf üzvlər xüsusi bir dəstə təşkil edərək, Azərbaycanın istiqlaliyyətini hər növ ilə müdafiə və istər daxildən və istərsə xaricdən üzərinə gələn qara qüvvələrdən mühafizə edəcəkdir. Bununla belə bitərəf dəstəsi aşağıdakı məqsədləri təqib edəcəkdir:

1. Tez bir zamanda istiqlalımızı müdafiə edə biləcək qüvvətli ordu təşkil edilsin;
2. Dörd quyruqlu üsul ilə seçilmiş qanunverici bir palata elə təşkil ediləcək parlamentolu və demokratik cümhuriyyənin xalq hakimiyyəti əsaslı ilə möhkəmlənməsinə var qüvvəsi ilə çalışacaqdır.
3. Hər növ zəhmətin mühafizəsi və yaxşılaşması üçün bütün yerlərin, hətta xüsusi əmlakın dəxi, kəndlilər arasında təslim edilməsi üçün məmləkətimiz həyatında ictimai təyiratın geniş surətdə tətbiq edilməsini tələb edəcəkdir.
4. Məmləkətimizdə Rusiya inqilabi-kəbirinin qazancları (Hürriyyət, mətbuat, kəlam, ittifaq və qeyrə). Həyata tətbiq edilməlidir.
5. Vergilər füqəra sinfi öhdəsindən götürülüb sərvətdarlar boynuna atılmalıdır.
6. Qonşu millətlər ilə sülh və müsalimətlə yaşamalı.
7. Hökumət və ictimai həyatın hər bir dairələrində əqliyyət təşkil edən millətlərin hüquqi təmin edilməlidir.
8. Tez bir zamanda Məclisi-Müəssisan çağırılmalı. [182 - 183]

Həmin bitərəflər dəstəsi məzkur əsasları həyata tətbiq etdikdə keçirdiyimiz zamanın şəraiti nəzərə alıb, əhalinin bir və ya digər dəstəsi və sinfi deyil, bəlkə ümumi camaatın mənafeyini gözləyəcəkdir. Biz anlayırız ki, ümumi bəşəriyyət amalına yetmək üçün camaat nifaqla deyil, bəlkə bütün yaradıcı qüvvələri birləşib millətin parlaq bir surətdə Nəşvü numa tapmasına səbəb olmalıdır.

**"Azərbaycan", 20 yanvar 1919, № 92.**

**№9**

**Doqquzuncu iclas**

*25 yanvar 1919-cu il*

Şənbə günü yanvarın 25 də saat 12.00-da bir saatdan ziyadə təxirlə açıldı. Növbədəki məsələlər:

1. Hökumət ixtiyarına 20 milyon manat kredit buraxılması haqqında qanun layihəsi; 2. Gəncə bələdiyyə idarəsinə 450 min manat faizsiz borc verilməsi; 3. Bakı bələdiyyə idarəsinə 2 milyon 300 min manat borc verilməsi; 4. Ədəmi-ictimai qanun layihəsi; 5. Məsai nəzarəti təşkilatı; 6. Ticarət və sair (məsələlər) müəssisələr vəkalətnamələrinin təcdidi məsələsi;

7. "İttihad" fraksiyonunun neft, bez və qeyri şeylər ehtikarı haqqında sorğusu;

8. Bakı və Şəki qəzaları ilə yəhudi və ukraynalıların məbusluq yeri istəmələri haqqında; 9. Daxil olmuş kağızlar; 10. Məsai nəzarətinə istizah; 11. Dağıstan cumhuriyyəti parlamentinin güşadı münasibəti ilə təbrik teleqrafı göndərilməsi; 12. Məbus Bağır Rzayevin yerinə İbrahim Əbilovun namizədliyi.

**20 milyon təxsis**

Ruznameyi-müzakirat qəbul edildikdən sonra hökumət 20 milyon manat kredit buraxılması haqqındakı məsələyə keçərək katib əfəndi idxal edilmiş olan zeyldəki qanun layihəsini oxuyur: [183 - 184]

**İzzahatnamə**

Hökumətin banikүzarlığına 20 milyon rubladək kredit açılmaq xüsusunda qanun layihəsi. Keçirməkdə olduğumuz əhvali fövqəladə zeyldə mühərrir qanun layihəsinin natiq bulunduğu fonddan təsisini tələb edir. Əsas fonda məhsub ediləcək məsafirin smetaya idxalı icab etdiyi halda lüzumu sırası ilə yəni müəssisələr açıldıqça müsərrəhən təyin ediləcəyindən məzkur məsarif bir dəfəlik müntəzəm tərtib edilmiş müəssisələr smetasına düşməməklə bərabər heç bir vəchlə kecikdirilməyəcək bir mahiyyətdədir.

Hal-hazırda gərək mərkəzi, gərək məhəlli müəssisələrin bir çoxu yenidən yapılmaq yaxud kökündən dəyişmək dovrəsində bulunduğu üçün məzkur müəssisələrin smeta layihələri də hənuz qüvveyi-təşriyyə təsdiqinə məzhər olmadıqlarından aid bulunduqları daireyi-səlahədidinə təqdim olunmamışdır.

Məəmafiyə çox vaxt təxiri əsla mümkün olmayan məsarif mütəaqibən zühul etməkdə və layənhəl buraxmaları da qeyri-qabil bulunmaqdadır. Ələləksər bu kimi dövlət üçün zəruri bulunan məsafir bir gün belə olsun təxir edilməzlər. Halbuki onları qüvveyi-təşriyyətdən keçirmək pək çox zamana mütəvəqqif olduğundan dövlət mənafeyinə son dərəcə sui-təsir göstərə bilər.

Zikr olunan mülahizələri Heyəti-Vükalə bərvəchizir qanun layihəsini Azərbaycan Məclisi-Məbusanı səvabdidinə təqdim etməyi təhti qərara aldı.

1. 1919-cu sənəsində vaqe olacaq və şimdidən təyini qeyri-adi olmaqla bərabər müstəcəl bulunan və gələcəkdə smetaya idxal ediləcək olan məsarif üçün Azərbaycan hökumətinin bina-güzarlığına 20 milyon rübladək kredit açılsın.

2. Fövqəlzikr kreditdən opunacaq məsarif hər dəfə heyəti-vükalə qərarı ilə ifa edilsin.

**Rəisi vükəla *Fətəli Xan Xoyski,***
**Maliyyə naziri.**

Layihə maddə-maddə müzakirə edilməyə başlayır.

Birinci maddə oxunur.

**Əhməd Cövdət** - söz alaraq əsas etibarı ilə hökumət ixtiyarına kredit açılmasını haqlı görür, hər dəqiqə hər məxaric [184 - 185] üçün parlamentdən pul istəmək mümkün olmadığından bir dəfəlik hökumət ixtiyarına bir məbləğ buraxılmasına razı olur, fəqət, 20 milyonu çox görərək deyir ki, hökumət üçün beylə fond lazımdır. Fəqət, mən və zənnimcə yoldaşlardan bir çoxu da bu rəydəyik ki, birdən-birə 20 milyon verilməsin hələlik fövqəladə məsarif üçün 10 milyon kifayətdir zənnindəyiz. İndi 10 milyon buraxılsın, gələcəkdə hökumətin fəaliyyətinə gərək nə lazım olarsa, yenə müraciət edər, yenə pul buraxarıq.

**Məmməd Əmin Rəsulzadə** - Kredit açılması məsələsinə əsas etibarı ilə Əhməd bəy də etiraz etmir, fəqət, onun çoxluq, azlığından bəhs edir. Yalnız burası var ki, hökumətin ehtiyacını onun fəaliyyəti ilə əlaqədar tutmaq istəyirlər. Amma məncə hökumətin etibarını büdcə ilə əlaqədar tutub milyonlarla ölçmək olmaz. hökumətə etimad və etibar bəyan edilmişdir. Beylə isə təxsisat məsələsini onun fəaliyyəti ilə əlaqədar tutmaq müvafiq deyildir. Biz anlayırız ki, hökumətin bir aylıq fövqəladə məsarifi 10 milyondan fəzlə olmaz, fəqət milyonun mahiyyəti nədir? Əski qiymətlə götürülürsə 20 milyon manat 200 min manat hökmündədir. Bu isə

hökumət üçün deyildir. Bilxassə bir ayadək hökumətin smetası hazır olacaqdır. O vaxt təxsisat dəxi smeta üzərinə olar. Amma indilik 20 milyon çox deyildir. Həm də bu məsələyi hökumətin fəaliyyəti ilə əlaqədar tutmağı mən münasib körmürəm.

**Sədr** - hər iki təklifi səsə qoyur.

Əksəriyyəti-ara ilə 20 milyon buraxılması haqqındakı tək-lif qəbul olunur.

Sonra qanun layihəsi maddəbəmaddə oxunaraq ittihadi-ara ilə qəbula keçir.

### Gəncə bələdiyyə idarəsinə 450 min rubla borc verilməsi

Bundan sonra Gəncə bələdiyyə idarəsinə sarı xəstəliklərlə mübarizə üçün 450 min rublə borc verilməsi haqqındakı layiheyi-qanuniyyə müzakirə olunur.

**Doktor Rəfiyev** - məruzəçi sifəti ilə çıxaraq bəyan edir ki, daxiliyyət nəzarəti vasitəsi ilə parlamentə bir layiheyi-qanun idxal edilmiş və parlamentin maliyyə komissiyonunda baxılaraq bu gün Məclisi-Məbusan iclasına təqdim olunur. Layihə budur: [185 - 186]

*"Azərbaycan Cumhuriyyətinin daxiliyyə nəzarəti.*

*16 yanvar 1919.*

*Azərbaycan Məclisi-Məbusanına.*

Gəncə bələdiyyə idarəsinə faizsiz olaraq 450 min manat verilməsi layiheyi-qanuniyyəsi.

Bakıdan gəlmiş erməni mühacirləri vasitəsilə Gəncədə 1918 sənəsi dekabrın əvvəlində səpmə yatalaq xəstəliyi zühur edib, həmin ayın axırında o xəstəlik öylə bir dərəcədə şiddət kəsb etmiş ki, şəhərin ermənilərlə məskun ikinci hissəsində xəstələrin miqdarı 500 nəfərə çatmış, şəhərdə xəstəxanalar olmadığından xəstələrin mənzillərində qalmaqla digərlərini də haman xəstəliyə salıb xəstəliyin intişarına səbəb olurlar.

Bələdiyyə idarəsi 29 dekabr tarixli fövqəladə iclasında şəhər doxturlarının əksərinin iştirakı ilə, xəstəliyə qarşı tədabir məsələsi müzakirəsi əsasında belə bir qərara gəlmişlər ki, şəhərin yalnız 25 xəstə üçün sari xəstəxanası hal-hazırın ehtiyacını heç bir vəchlə dəf etməyə kafi deyildir. Müsiri xəstələr ehtiyacı üçün şəhərin digər xəstəxanasından istifadə edilməz. Çünki xəstəxanada yataqlar məhdud olduğundan savayı, bu xəstəxanaya yalnız məcruh ilə müsri olmayan xəstələr qəbul etməkdədir. Bunları nəzərə alaraq və müsri xəstəliklərin önünü alıb əhaliyə tibbi müavinət etmək üçün bələdiyyə idarəsi indilik olaraq əqəllən 50 xəstə üçün yeni bir xəstəxana güşadına qərar verməşdir. Bununla bərabər xəstələrin mənzil və əşyalarını təthir üçün də ənvayi tədabir görülüb şəhəri səhiyyə nöqteyi-nəzərindən lazımi bir hala gətirmək fikrindədir.

Məzkur təbatiri qövüdən felə gətirib üç ay ərzində bu təşkilati (xəstəxana təthirat və dəstəsi və ilaxır) saxlamaq üçün şəhərə təxminən 450 min manat pul lazımdır ki, əlyom şəhərin qüvvəsindən xaric olan bir məsafirdir.

Müsri xəstəliklər dəfi, xüsusən səpmə yatalaq dəfi məhəlli idarələrə deyil, hökumətə aid bir vəzifə olduğundan Gəncə bələdiyyə idarəsi imkanı olduğu qədər bu yolda çalışmaqla bərabər əlyom müsri xəstəliyin önünü almaq üçün fəqət, 25 min manat buraxmaqla bərabər hökumət xəzinəsində eyni məqsəd və mətləb üçün 340 min manat pul verilməsini istida edir. [186 – 187]

Gəncə şəhərində hökmfərma olan müsri səpmə yatalaq xəstəliyi ilə mübarizədə bulunmanın xəstəliyin yalnız Gəncə şəhərində əsasından qaldırmanın deyil, fəqət, Bakıya keçməsinin dəxi önünü almaq lazım olduğunu düşünərək zira xəstəliyin guya sirayət etdiyi təqdirdə kəndisi ilə mübarizədə bulunmamış haman qeyri-mümkün və xəstəliyin o vaxt minlərcə insan tələfatına bais olacağından daxiliyyə nəzarəti bələdiyyə idarəsinin bəalada məzkur iqdamatının şayan qəbul olunduğunu etiraf edərək aşağıdakı dərc olunan layiheyi-qanuniyyəyi Məclisi-Məbusanın təsdiqinə təqdim eləyir.

1. Gəncə idareyi-bələdiyyəsinə əmrazı-sariya ilə mübarizədə bulunması üçün xəzineyi-dövlətdən bilafaiz olaraq 450 min manatlıq bir borcun verilməsi.

2. Məzkur idareyi -bələdiyyənin işbu borcu şəhərin varidat və məsarifat dəftərinə qeyd edilərkən hər sənə müsavi hissələrlə üç il zərfində xəzineyi-dövlətə verilməsi üçün kəndisini müvəzzəf qılmaq.

**Daxiliyyə naziri (imza), İdarə müdiri (imza),**
**Üçüncü şöbə müdiri (imza).**

Maliyyə komissiyonu bu məbləğin borc təriqi ilə buraxılmasını lazım bilərək layiheyi-qanuniyyənin qəbul və təsdiqini təklif edir.

**Sultan Məcid Qənizadə** - Əlbəttə Gəncə şəhərinə bu borcu vermək lazımdır. Hal-hazırda müsiri xəstəliklər o qədər şiddət etmişlər ki, hökumətlə bərabər camaatın da işləməsi icab edər. Hökumət əgər [həqiqi] hökumət isə camaatın dərdinə qalmalı, onu mühafizə etməlidirlər. Bunun üçün də yalnız Gəncə deyil, qeyri şəhərlərə də pul buraxılmalıdır ki, müsiri xəstəlik ilə mübarizə etsinlər; ancaq bu məbləğin miqdarı barəsində bir qədər danışmaq istərdim. Mən bilmirəm nə üçün Bakı şəhər idarəsi 600 yataqlıq xəstəxana açmaq üçün 2 milyon 200

min manat istəyir, amma Gəncə 50 yataq üçün 450 min manat. Bu iki məbləğ müqayisə edilirsə böyük fərq görülər. Belə ki, yataq hesabatı Gəncəninki neçə dəfə artıq çıxar. Əgər məzkur məbləğ yalnız xəstəliklə mübarizə və xəstəxana təsisi üçün çoxdur; başqa işlər üçün isə əlahiddə məsələdir. Ona görə bu xüsusda tövzihat verilməsini xahiş edirəm. [187 - 188]

**Abdulla bəy Əfəndizadə** - Gəncə və Bakı şəhərlərinə füqərayi-kasibənin müalicəsi üçün para buraxılmaq məsələsinə fraksiyamız zidd deyildir və ola da bilməz. Doğrudan da, şimdiki müalicə ehtiyacı hər yerdə olduğu kimi bu şəhərlərdə də böyük bir miqyasda hökumətimiz və parlamentimiz tərəfindən qarşılanmalıdır. Bizim rəyimizcə belə bir lazımlı tədbirə bir an əvvəl girişilməli idi. Hər halda təşəbbüsün hökumət tərəfindən deyil, əhali tərəfindən olması bizi xeyli təəccübləndirdi. Ehtiyac məgər yalnız bu iki şəhərdəmidir? Vətənimizin hər yeri xəstəlik fəlakətinə giriftar olmuyubmu? Yüz minlərcə övladı vətən kəndlərdə, başqa şəhərlərdə müalicəsiz, müavinətsiz qırılıb bərbad olmuyurmu? Millət bu hal ilə məhv olub gedərsə, hökumət və parlament kimilər üçün yaşamalıdır? Nə üçün hökumət hər yerin halından xəbərdar olmur? Əgər biz yalnız bu iki şəhərə kömək verməklə kifayətləniriksə, bütün bir xəstə vücudun yalnız bir-iki üzvünə müalicə edib ən ziyadə müalicəyə möhtac üzvlərini buraxmış oluruz. Vətənin canı kəndistandadır. Ehtiyac da orada çoxdur. Heç bir kəndlinin bu gün xəstəsi üçün uzaq şəhərlərdən həkim, dərman kətirməyə imkanı yoxdur; bütün var-yoxunu satarsa, yenə mətləbinə nail olmaz. Məzkur şəhərlərdə həkim, dərman, həm də füqarəyə müalicə müavinəti az-çox vardır. Başqa yerlərdə o da yoxdur. Sabiq istibdad dövründə belə hökumət müsiri xəstəliyinin qabağını böyük bir fəaliyyətlə almağa çalışırdı, həm də güclü məsariflər edirdi. Bizim doğma hökumətimiz nə üçün bu anacan bir təşəbbüs etmir?

Bu mülahizələrlə fraksiyamız Gəncə və Bakı şəhərləri istədiyi qərzi qəbul etməklə bərabər hökumətə təklif edir ki, təcili surətdə parlamentə bir layihə təqdim etsin, vətənin hər yerinə müavinət lazımdır; gərək böyük məsariflər olunub məhəllərə səyyar həkimlər heyəti və müalicə ləvazimatı göndərilsin, lazımi məqamlarda məccani aşxanalar və müalicəxanalar açılsın. Bu işin təxirə buraxılmağı əsla qəbul edilməyəcəkdir. Millətin parası millətin özünə məsrəf olunmalıdır.

**Ağa Aşurov** - layihənin nə üçün səhiyyə nəzarəti vasitəsi ilə deyil, daxiliyyə nəzarəti vasitəsilə daxil olduquna təəccüblənərək istənilən pulu buraxmağa razı olmaqla bərabər, qeyd edir ki, şəhərlərə buraxılan pulların istənilən mənfəəti [188 - 189] olamıyacaqdır, zira xəstəliyini kökündən qazmaq, geniş miqyasda böyük çarələr görmək lazımdır.

**Yusifbəyli Nəsib bəy** - Hökumət namindən izahat verərək bəyan edir ki;

Natiqlərin dediklərindən belə anlaşılır ki, guya hökumət kəndləri unudaraq ancaq şəhərlərə kömək edirmiş. Əlbəttə, bu barədə də səhiyyə nəzarəti özü izahat verər. Amma şimdi mən bunu demək istəyirəm ki, hökumət köyləri unutmamışdır və bu gün kəndlər ehtiyacı üçün təxsisat istəmirsə, səbəbi budur ki, parlament açılmadan bu məqsəd üçün hökumət ixtiyarına pul var idi. Səhiyyə nəzarəti köylərdə müsiri xəstəliklərlə mübarizə ehtiyacına öz binagüzarlığında bulunan 3-4 milyonluğundan sərf edir və bu yolda ciddi tədbirlər görür və işləyir. Mənə məlumdur ki, səhiyyə nəzarəti köylərdə xəstəliklə mübarizə üçün ciddi tədbirlər görmüşdür. Əzcümlə bu xüsusda bir layihə hazırlanmışdır. Nazir kəndlərə göndərmək üçün təbib, feldşer və sairələrdən mütəşəkkil səyyar dəstələr təşkil edir. Bunlar yaxın zamanda hətta köylərə göndəriləcəkdir. Nəinki yalnız kəndlərə, şəhərlərə də səhiyyə nəzarəti tərəfin-dən ayrıca olaraq pullar sərf edilir və ediləcəkdir. Ancaq şimdi hökumət şəhərlərə yardım üçün məbləğ istəyir. Səbəbi də budur ki, şəhərlər sari xəstəliklərlə mübarizə işlərində nəzarətə kömək edirlər, fəqət, pula mohtacdırlar. Ona görə bizdən borç pul istəyirlər. Buna görədir ki, hökumət parlamentə müraciətlə para təxsisinə izin istəyir.

**Əhməd Cövdət** - uzun bir nitqindən əsas etibarı ilə paranın buraxılması lazım olmaqla bərabər sarı xəstəliklə mübarizə işlərində hökumətlə bir yerdə camaatın da ciddi çalışmasını lazım görərək bunun üçün də bu xəstəliklərin qaçqınlardan sirayət etdiyini göstərir. Hökumətin qaçqınların əhval, səhiyyə və sairələrinə diqqət edilmədiyi üçün hökuməti tənqidlə lazımi və ciddi tədbirlər görməsini tövsiyə edir və bildirir ki, bununla belə əlbəttə hökumətlə bərabər camaat dəxi çalışmalıdır. Və əgər bu gün bələdiyyə idarələri çalışır və kəndlər çarəsiz qalırsa, bunun da səbəbi kəndlərdə idareyi-məhəliyə yoxluğundan görərək tələb edir ki, hökumət tezlik ilə kəndlərdə zemstvo idarələri təşkilinə çalışsın, tainki kəndlər dəxi öz dərdlərini bilib çarələrini araya bilsinlər. [189 - 190] Bir də natiq əfəndi səyyar dəstələrin təşkilini gec hesab edərək "bunlar indi kəndlərdə olmalı idilər" - deyir.

**Doktor Rəfiyev** məruzəçini müdafiə edir və izahat verir.

Layihə səsə qoyularaq eynilə qəbul olunur. 2200 min rublə təxsisi.

Bundan sonra doktor **Musa bəy Rəfiyev** eyni məqsəd üçün Bakı bələdiyyəsinə 2 milyon 200 min rublə təxsisi haqqında aşağıdakı layiheyi-qanuniyyəyi oxuyur:

***"Azərbaycan Cümhuriyyəti Daxiliyyə Nəzarəti***
***1919 sənə, yanvar 15.***

Azərbaycan parlamentinə.

Bakı bələdiyyə idarəsinə faizsiz borc olaraq 2 milyon 200 min manat verilməsi qanun layihəsi əvaxir vaxtlar ənvayi xəstəliklər, xüsusən yatalaq xəstəliyi Bakı şəhərində şiddətli bir hal kəsb etmiş, bunun səbəbi mühacirlər cərəyanı olmuşdur. Gərək şəhərin mövcud xəstəxanaları xəstələrin həpsini qəbul etməyə kafi olmadığından bunların bəziləri bütün dolmuş, belə ki, 19-cu xəstəxanada hal-hazırda 600 xəstə üçün yer olduğu halda 700-dən ziyadə xəstə yatmaqdadır. Mixaylovski xəstəxanasının halı daha betərdir, bu vəziyyətdən doğan qələbəlik nəticəsi olaraq xəstəxana doktorları və başqa məmurları kəndisini mühafizə edə bilmirlər. Və müsri xəstəliklərə düçar olurlar ki, yenə həmən qələbəlik nəticəsi olaraq yüzlərcə xəstə xəstəxanaya düşməyib mənzillərdə tədavisiz qalıb, digərlərini xəstəliyə salırlar və tələf olurlar. Şəhərdə mövcud əsgəri xəstəxanalarda yerlər artırmaqla bir nəticə hasil edilməmişdir, zira əsgəri xəstəxanalarda yerlər az olduğundan bir az müddətdə dolmuş şəhər idarəsinin zənnimcə bu ağır vəziyyətin çarəsi müsiri xəstələr üçün 600 yataqlıq yeni bir xəstəxana açmaqdır. Şəhər idarəsinin mülahizəsi ilə bu xəstəxananın təşkili üçün 600 min manat lazım olduğu kimi xəstələrin xərci ilə başqa məsarifə də,«4 ay ərzində 400 min manat lazım olacaq. (nəzərə 19-cu xəstəxananın məsarifi alınır).

May, yaxud iyul aylarında xəstəliyin tamam olmamasından azalması məlhuz olunarsa və 4 ay ərzində idarənin təsəvvürüncə xəstəxananın bütün məxarici 2 milyon 200 min manata varacaq, şəhər idarəsinin təsəvvürüncə elə böyük xərc idarənin imkanı xaricindədir. Ələlxüsus Mixaylovski xəstəxanasından [190 - 191] başqa 19-cu xəstəxana da şəhərin öhdəsindədir. Bundan qəti nəzər edərək bilməlidir ki, hal-hazırda yatalaq, xəstəliyi bir hal kəsb edib ki, onunla mübarizədə bulunub dəf etmək dövlətə aid olmalıdır. Buna binaən bələdiyyə idarəsi 2 yanvar tarixli qərarına istinad edərək daxiliyyə nəzarətindən məzkur məqsəd üçün təcili surətdə 2 milyon 200 min manat verilməsi rica olunur. Şəhər idarəsinin rədd etdiyi mülahizatı tamamilə mühəqqət və binaən-ileyh bu xüsusdakı iqdamad şəyani qəbul bulunduğundan daxiliyyə nəzarəti aşağıdakı layiheyi-qanuniyyəyi Məclisi-Məbusanın təsdiqinə təqdim eylər.

1. Bakı şəhər idarəsinə əmrazi-sariyyə ilə mübarizədə bulunması üçün 2 milyon 200 min manat bir borcun verilməsi.

2. Məzkur şəhər idarəsinin işbu borcu şəhər varidat və məsarifat dəftərinə qeyd edilərək hər sənə müsavi hissələr-lə 3 sənə zərfində xəzneyi-dövlətə verilməsi üçün kəndisini müvəzzəf qılmaq.

**"Daxiliyyə naziri; İdarə müdiri;**
**3-cü şöbənin müdiri."**

Bu qədər mülahizədən sonra bu layihə dəxi qəbul olunur.

## Ədəmi-ictimai

Bundan sonra "Müsavat" fraksiyonu tərəfindən idxal edilib də parlament komissiyonunda baxılmış olan aşağıdakı ədəmi-ictimai qanun layihəsi təqdim olunur. Məruzəçi Məmməd Əmin Rəsulzadə idi.

## Məbusluq və məmurluq haqqında layiheyyi-qanuniyyə

Qüvveyi-qanuniyyə ilə qüvveyi-icraiyyə və ədliyyənin bir-birindən kamilən ayrı və müstəqil olması cumhuriyyət idarə əsaslarından olmaq həsabi ilə-məbusluq vəzifəsi ilə məmuriyyət vəzifələrinin bir şəxsdə ictimai qalib olmadığından Azərbaycan Məclisi-Məbusanı aşağıdakı məvaddi qəbul eləmişdir:

1. Məclisi-Məbusan əzalığı ilə hökumət mə'murluğu bir zat öhdəsində ictimai ödəməz. Fəqət, nazirlərdən intixab olunanların əzalığı haizdir. Sair məmurlardan biri məbusluğa intixab olunmuşsa və intixab olunursa qəbul edib-etməmək [191 - 192] öz ixtiyarındadır. Fəqət, qəbul etdiyi halda məmurluqdan ayrılır.

Qeyd: a - idarə xidmətini ifa etməyən məktəb müəllimləri ilə professorlar, eləcə də ixtisas iqtiza edən məsələlərdə əhli-xübrəlik sifəti ilə dövlət müəssisələri nəzdində bulunan şəxslər yuxarıdakı məmnuniyyətdən istisna təşkil edirlər;

b - bu istisna yalnız Məclisi-Məbusanın bulunduğu məhəldə ifayi-vəzifə edən şəxslərə aiddir.

2. Məclisi-Məbusan əzası nazir mövqeyində bulunduqları müddətcə maaşlarını yalnız nazirlər heyəti təxsisatından alarlar.

3. Bu qanun nəşr edilən gündən etibarən məriül icradır.

4. Bu qanunun nəşrindən etibarən dövlət xidmətində bulunan məbuslar Bakıda isə 3 gün, xaricdə isələr 10 gündən sonra bulunduqları xidmətdən istefaları haqqında Məclisi-Məbusan divani-riyasətinə ərzi-bəyanda bulunmasalar məməriyyəti təchir eyləmiş kimi tələqqi və məbusluqdan ayrılmışədd olunurlar.

Layihə bir qədər mübahisəyə bais olur. Rəsulzadə cənabları müdafiə edirlər. Nəhayət, maddə-maddə bir yerdə səsə qoyularaq əksəriyyət-ara ilə qəbul olunur.

## Məsai nəzarəti təşkilatı

Növbədə məsai nəzarəti təşkilatı haqqındakı qanun layihəsidir. Məruzəçi sifəti ilə Musa bəy Rəfiyev çıxır. Və aşağıdakı layiheyi-qanuniyyə maliyyə komissiyonu tərəfindən təqdim və təsdiqini təklif edir.

Məsai-nəzarəti təşkili haqqında layiheyi-qanuniyyə: Məsai nəzarətinin dəftərxanasında bulunacaq xidmətçilərin müvəqqəti layihəsinə aid sənəd və zəhmət qanunnaməsinin şərtlərinə görə (Rusiya qanynnaməsinin XI cildi ikinci his sə 1913 sənəsinin mətbu) bütün fəhlə və sənət işçilərini idarələnməsi və saxlanması, həm də iş verənlər ilə fəhlələr arasındakı münasibətin üzərindəki nəzarət işləri büsbütün Rusiya hökumətinin ticarət və sənaət nəzarətinin fəhlə və sənət şöbəsində toplanmışdır. Bundan əlavə [məzkur] vüzarzətın mərkəzi deyilən müəssisələri ki, fəhlə məsələlərinə dair işlər ilə məşğul idilər, bunlar idi: [192 - 193]

1. Birinci və baş idarə fabrika və mədəniyyət işləri müəssisəsi idi ki, həmin bu müəssisənin öhdəsinə fabrikalarda və mədəniyyət dairələrində qollanılacaq qanunnamələrin vəziyyəti və qaydalı surətdə icra edilməsini buraxmışdılar.

2. Fəhlələrin sığortası üçün qurulmuş şura idi ki, 1913 sənədə təsis edilib fəhlələri xəstə vaqisindən, yaxud bəd-bəxtdanə hadisələrdən sığorta və təmin edirdi. Ticarət və sənaət nəzarətinin məhəlli təşkilatı isə fabriçni inspeksiyadan və məhəlli fabrik və mədəniyyət işlərinə baxan həm də fəhlələri sığorta edən quberniya müəssisələrindən ibarət bir idarə idi.

Burada gərək diqqətə alınsın ki, yuxarıda adlandırdığımız fəhlə və zəhmət mühafizəsinə qurulmuş müəssisələr bir-birindən bu halda asılı idilər ki, hərgah mərkəzi müəssisə bir səbəbdən dolayı işdən qalsaydı, eyni zamanda hamı kiçik müəssisənin də işdən qalmasına bais olurdu. Həmçinin fəhlə sığortasına təsis edilmiş şura fəaliyyətdən qalsaydı dərhal adi sığorta müəssisəsinin işləməyi qeyri-mümkün idi.

Hal-hazırda Azərbaycan Cümhuriyyəti daxilində təsis edilməkdə olan məsai nəzarətində bütün fəhlə və sənət mühafizəsinə lüzum görülən mühafizə və nəzarət işləri həmin nəzarətdə toplansın və get-gedə fəaliyyət və nəzarətini böyüdüb, axırda bütün fəhlə və zəhmətkeş dairələrini bittamam əhatə edəcəkdir.

Şübhəsiz ki, fəhlə və zəhmət mühafizəsinə təsis olunan məsai nəzarətində sabiq ticarət və sənət nəzarətinin də haman mərkəzi və məhəlli müəssisələri daxil olmalıdır. Fəqət məzkur müəssisələrin əski qanunnamələri bu halda buranın iqtisadi və məmləkəti əhvalına həm də hüquqları tanınmış kütlə arasında təhsis və baxılmamış icra etmək imkanı xaricindədir.

Əlavə, sabiqki fəhlə və zəhmət mühafizəsinin müəssisələri qanunnamələrinin dağılmasına daha bundan aşkardır ki, bu müəssisələrin qanunnamələri 1917 sənəsinin fevral hadisə-sindən sonra dəyişməmiş, öz qanuni gücündə baş. qaldırmışdır. Bu cəhətdən naşi bu müəssisələrin mövçud təlimatları, konstruksiyaları hazırkı məişət və zindəganlıq şəraitinə müğayir, həm də hüququni düşünənlərə qeyri müvafiqdir, həmçinin o qanunnaməlәriin çoxu fəhlə iqtisadi təşkilatları tərəfindən baxılmaz qalmışdır. [193 - 194]

Yuxarıdakı əhvallardan naşi məsai nəzarətinin qanunnaməsi həm də onun sair müəssisə və təşkilatlarının qanunnamələri orada daxil olacaqlardır. Bu idarənin ştat siyahısı ancaq fəhlə məsələləri üzərində veriləcək əhəmiyyət və diqqətdən sonra hazırlandı. Məsai nəzarətinin hazırkı davamı isə hələlik yalnız mövcud olan fabriçni inspeksiya ilədir. Və fəhlə məsələsinə ətraflıca baxılmağa xüsusi şuranın təsisinə başlanmışdır. Yeni müəssisənin isə layihəsi qanun qoyan məclisin baxılmasına verilib ki, təsdiqindən sonra dərhal və fəhlə zəhmətkeşlərin mühafizəsinə lüzum görünəcəyi tədbirləri və materialları hazırlasın.

Biləxərə məsai nəzarətinin öz iradəsidir ki, kəndi tərəfindən gərək sair müəssisə və idarələrlə əlaqədə bulunsun. Və bunun üçün də dəftərxanası təsis edilib də işə salınsın. Bu səbəbdən layihəsi (ştat siyahısı) ilə bərabər təqdim edilir.

Dəftərxana ştatı (məsai nəzarət üçün əlahiddə qanunnamə buraxılana qədər) sair nəzarətlərin ştatına müvaifq təşkil edilir. Bunlara verilən aylıq maaş yenə başqa nəzarətlərdə verilən maaşa bərabərdir. Əlavə sair nəzarətlərin dəftərxana xərcləri və təchizat xərcləri kimi bu nəzarətin də olacağı mühəqqəqdir. Bu xərclərdən savayı xüsusi fəhlə məsələsi şurasının üzvlərinə veriləcək 60 min manatlıq mükafatdır ki, hər dəfə şurada iştirak etmiş üzvə 50 manatdan olaraq veriləcək və bu məbləği də məsai naziri özü qət edəcəkdir.

Layihə bir qədər müzakirata bais olur. Xüsusən nəzarət nəzdində şura təsisi şiddətli mübahisəyə mövcib olur. Nəhyət şura haqqındakı qismə ayrıcı baxılmaq şərti ilə layihənin yerdə qalan maddələri qəbul olunur.

**Rəisi-vükəlanın bəyanatı**

Bundan sonra rəisi-vükəla Fətəli Xan Xoyski həzrətləri söz alaraq Balkan yarımadası və Qafqaziyada müttəfiqlər qoşunları baş komandanı və İngiltərə kralının nümayəndəsi olan (ser Corc Milin) ilə mülaqatı hapqında məlumat verərək bəyan edirdilər ki, görüşdüyümüz zaman general Milin Azərbaycan tərəfindən gördüyü hüsnü-istiqbal və ehtiramatdan pək razı qalmış və təşəkkür etdi. Azərbaycanın hal ovzaindən çox razı qaldığını bildirərək hətta Azərbaycandan heç belə şey gözləmədiyini bildirdi; müsahibənin ibtidasında şübhəsiz, ki, [194 - 195] birinci məsələ olaraq Azərbaycanın istiqlaliyyətindən danışdıq. General bəyan etdi ki, İngiltərə hökuməti Azərbaycan Cümhuriyyəti hökumətini tanıyır və bundan başqa bir hökumət tanımayacaqdır. (Şiddətli

alqış). Onların rəyincə Azərbaycan hökumətindən başqa hökumət ola bilməz, olmayacaqdır da. Biz həmişə bu hökumətə kömək edəcəyiz. Müttəfiqlər qanunu komandanı General Tomsona və sair idarələrə də bu məzmunda əmrlər verilmişdir. İkinci məsələ İngiltərənin ümumiyyətlə xırda millətlərin hüquq və arzularına nə nöqteyi-nəzərdə olmalarına aid idi. Bu xüsusdakı sualına cavabən general bəyan etdi ki, İngiltərə hökuməti bu rəydədir ki, kiçik millətlərin özlərini müstəqilən idarə etməyə, xırda millətlərə təyini-müqəddarat ixtiyarı verilməsini müdafiə edəcəkdir (Alqış). Ona görə inanıram ki, bu məsələdə siz dəxi öz arzunuza nail olacaqsınız.

Üçüncü məsələ İngiltərə və müttəfiq qoşunlarının Qafqaziyaya nə məqsədlə gəldiklərinə aid idi. Bu barədə general belə bəyanat verdi: "Mən sizi qəti surətdə inandırıram ki, biz sizin daxili işlərinizə əsla qarışmaq fikrində deyiliz. Əgər bəzi vaxt bir adam müdaxilə edirsə bu yek digərini anlamamaqdan, yaxud bu və ya o məmurun kəndi vəzifəsini bilməməsindən nəşət edir. Belə təsadüflər barəsində məlumat olsa, bu kimi hərəkətlər kökündən kəsilər. Bizim Qafqaziyaya gəlməkdə məqsədimiz asayiş və müsalimatı payidar etməkdir. Yenə təkrar edirəm sizin daxili işlərinizə qarışmayacağız".

Bundan sonra sair məsələlər haqqında da müsahibəmiz oldu; fəqət, hələlik bu barədə məlumat verməyi lazım görmürəm. Ancaq onu deyirəm ki, generalın bizə qarşı bir xeyirxahlıq və gələcəyimizə, tərəqqimizə ümid bəslədiyi görülməkdə idi. General təzə şəhərə gedəcəyini bəyanla qayıtdıqdan sonra yenə də görüşəcəyimizi bəyan etdi.

### "Müsavat" fraksiyonunun təklifi

Rəisi-vükəla Fətəli Xan Xoyskinin bəyanatından sonra Məclisi-Məbusanın "Müsavat" fraksiyonu tərəfindən belə bir təklif varid olur:

"Hökumət rəisinin İngilis orduları komandanı və Britaniya hökumətinin nümayəndəsi olan (Milin)nin Azərbaycan hökumətini tanıması və İngiltərə hökumətinin Qafqaziya millətlərinin [195 - 196] kəndi başlarına yaşamaq haqlarını müdafiə edəcəyi vədini bildirən bəyanatını böyük bir məmnuniyyətlə dinləyərək məbusan rəyasətinə təklif edir ki, generalın evdə-tində məclisin təşəkkülünü bizzat kəndilərinə bildirsin".

Təklif bütün Məclisi-Məbusan tərəfindən alqışlarla qarşılanır.

### Növbədən xaric bəyanat

**Məmməd Əmin Rəsulzadə** - növbədən xaric söz alaraq çox qızğın və səmimi bir nitqlə deyir ki; Şimdi hökumət rəisinin ağzından İngiltərə komandanlığının Qafqaziyada əmniyyət və asayiş bərpası məqsədi təqib etdiyi sevinc ilə eşitdik. Bu sözlərin səmimi və doğru olduğuna inanırız. Bunu bizə Gürcüstan ilə Ermənistan arasındakı dava dəxi isbat etdi. Bir dərəcə Qarabağ məsələsi də bunu göstərdi. Fəqət, şimdi məni bu kürsüyü-xitabatdan danışmağa vadar edən bir fəqərətdir ki, o əmin və asayiş istəyənlərin xəbərsizliyindən irəli gəlir. O da tökülən qanlardır.

Vətəndaşlar! Naxçıvan və Şərur uyezdlərində və İrəvan quberniyasının sair yerlərində müsəlmanlar türklər başında yenə təzədən top qumbaraları partlayır, müsəlmanlar min dürlü əzab və cəfalara düçar olurlar. Hələ erməni-gürcü konfransında əsgər təxrisi müzakirə edildikdə ermənilər demişlər ki, bizim daxili düşmənlərimiz var, asilərimiz var, onları tabe və tədib üçün əsgər lazımdır, ona görə qanunumuzu muzdu buraxa bilməyəcəyiz. Məgər bu düşmənlər yazıq, torpaqlarından əl çəkmək istəməyən zavallı naxçıvanlılar imiş, məgər bu düşmənlər istiqlaliyyət istəyən, heç kəsə qul olmaq istəməyib, müstəqil yaşamaq arzusunda olan müsəlmanlar imiş? Əlbəttə, hökumət bu xüsusda tədbirlər görməli, nahaq tökülən qanların onünü almağa çalışmalıdır.

### Dağıstan parlamentini təbrik

Vaxt gec olduğundan növbədəki məsələlər təxir edilib iclasın qapanması haqqında bir təklif vadir olur. Dağıstan Cümhuriyyəti Məclisi-Məbusanına təbrik teleqramı həmin gün çəkilmək şərti ilə təklif qəbula keçir. Dağıstan [196 - 197] parlamentinə bu məzmunda bir teleqram çəkilməsi təhti-qərara alınır:

"Dağıstanlı qardaşlarımız Cümhuriyyətinin parlamentinin güşadi münasibəti ilə Azərbaycan parlamenti 25 yanvar tarixli iclasında belə qərara almışdır: Səmimi qəlbdən və məsruriyyətnamə ilə qardaşlarımızı parlamentlərinin güşadi münasibətilə təbrik edir, yeni dövlət üsulunun payidar və qəvi olmasından yalnız kəndilərinin deyil, bəlkə hümayə tayfalarının da hüquqlarını daima müdafiədə bulunan qeyrətli dağıstanlıların sədaqətini görərək Azərbaycan parlamenti qardaşlarının bu qüvvə və ehtişamında kəndi ehtişamını dəxi mülahizə edir və binaən-ileyh var qüvvəsi ilə Şeyx Şamilin qeyrətli və layiq övladlarının qayələrinin əncama yetməyinə yardımçı olacaq, iki müttəhid qonşu Cümhuriyyətlər əl-ələ verərək kəndi istiqlaliyyətlərinin hər bir ədudan müdafiəyə qadir olub bütün ədədən kiçik, məna böyük millətlər təqib etdikləri amal və qayəyə nail olmaları dəxi şübhədən xaricdir."

**"Azərbaycan", 27 - 28 yanvar 1919, №98, 99.**

## №10

## Onuncu iclas

*27 yanvar 1919-cu il*

**Rəis -** Rəis müavini doktor Həsən bəy Ağayev. Katib **-** Əhməd Cövdət Pepinov.

İclasda 33 nəfər (otuz üç) məbus hazırdır. Rəis kafi miqdarı (kvorum) olmadığından məclisi qapamasını və gələcək iclasın təyin edilməsini elan edir. İclas saşənbə günü yanvar ayının 28-nə tə'in edilməsi, bu barədə qəzetlərdə elan edilməsi təklif edilir.

Təklif qəbula keçir. Rəis iclası qapayır.

Azərbaycan.SSR OİMDA, f.895, sih.1, iş 5, v.47.

Mətbəə nüsxəsi.

**Arxiv: f.895, siy.1, iş.5, vər.47.** [197 - 198]

**№11**

**On birinci iclas**

*28 yanvar 1919-cu il*

**Sədr** - doktor Həsən bəy Ağayev.
**Katib** - Əhməd Cövdət Pepinov.
Baxılan məsələlər:
1. Daxil olan kağızlar; 2. Ticarət və xüsusi işlər idarəsinə dair vəkalətnamə vədlərinin təmdidi haqqında qanun layihəsi (izahat naməsi ilə); 3. Etimadnamə komissiyonunun məruzəsi; 4. "İttihad" fraksiyonu rəisi tərəfindən neft, bez, buğda və sair ehtikarı haqqında hökumətə xitabən verilmiş olan sorğu; 5. Tağıyev fabrikasından xidmətdən qovulmuş olan fəhlələr haqqında sosialistlər fraksiyası tərəfindən verilmiş olan sorğu; 6. İctimayun-inqilabiyun firqəsi Bakı komitəsinin Azərbaycan parlamentində iştirakı haqqında divani-rəyasətə məktubu. Sədr varid olan kağızları iclasa təqdimlə bəyan edir ki; Birinçisi budur ki, Qazax milli komitəsi əzasından bir neçəsinin imzası ilə bir teleqram alınmışdır ki, Hacı Kərim Saniyev parlamentə qanuni bir surətdə seçilməmişdir. Ona görə xahiş olunur Hacı Kərim Saniyev parlament məbusluğundan xaric və Qazax qəzasından yeni məbus seçilməsi təklif edilsin. Mən təklif edirəm bu məsələni etibarnamə komissiyonuna verək.
Təklif bilaetiraz qəbul olunur.
Bundan əlavə Gənçə qəzası məbusu Hacı Molla Əhməd Nuruzadə və Hacı Əli Qasımoğlu və Cavanşir qəzası məbusu doktor Cəmil bəy Ləmbəranski divani-rəyasətə ərizə verərək 15 gün məzuniyyət istəyirlər.
Ərizələr qəbul olunur.
Bir də parlament məbuslarından Sultan Məcid Qənizadə parlamentin qanununa görə maarif nəzarətində məmurluqdan istefa verib, məbusluğu qəbul etdiyini bildirdi.
"Sosialist" fraksiyasından Bağır Rzayev Məclisi-Məbusan əzası haqqını qeyb etdiyindən onun yerinə İbrahim Əbilovun namizədliyi göstərildi.
Nəhayət, divani-rəyasətə təklif edilmişdir ki, Məclisi-Məbusan nəzdində torpaq və sorğu məsələlərinə birər komissiya [198 - 199] intibah olunsun. Təvəqqe edirəm, iclasın axırında və komissiyaların neçə nəfər olacağını qərarlaşdıraraq namizədlər göstərəsiniz.
Bir də parlamentin qanununa görə Bakı qubernatoru dəxi özünün məmurluqda qalacağını, ya istefa verdiyini bildirməli idi, fəqət xəstə olduğundan xəbər verə bilməmişdir. Mən təklif edirəm qubernatora bir neçə gün (3-4 gün) möhlət verilsin, sağalanadək. Ancaq şifahi xəbər vermişdir ki, o məbusluqla qalmağı tərcih edir.
Axırda sədr hər fraksiyaya öz əzaları və hər əzaya hansı fraksiya olduğu haqqında məlumat vermələrini təvəqqe edərək ikinci məsələyə keçir:

**Vəkalətnamə vədlərinin təmdidi**

Növbədə ticarət və xüsusi işlər idarəsinə dair vəkalətnamə vədlərinin təmdidi haqqındakı qanun layihəsidir. Layihə ilə bərabər izahatnaməsi dəxi təqdim olunur.
Katib izahatnamə və layihəni oxuyur.
Bakı neft tacirlərinin ictimai vəkili hakəza bir çox firmalar və mutəəddid əşxas vəkilləri tərəfindən ticarət-sənaət və daxiliyyə nazirləri hüzurunda məzkur vəkillərə səhmdarlar cəmiyyətləri və başqa ticarət və sənaət təşkilatı idarə və təşkilat sahibləri tərəfindən əta olunmuş vəkalətnamələrin vədlərinin təmdidi məsələləri haqqında təşəbbüsatda bulunub müvəkkillərin uzaq bir məmləkətdə bulunduqlarını, bu məmləkətlərlə hal-hazırda hadisatından dolayı əlaqə və mürasilat qət olunduğunu və fövqüdətedad olunan vəkalətnamələrin vədələri 1918 sənəsi dekabrın 31 bulunduğunu bəyan etmişlər.
İşbu məsələnin müzakirəsi əsnasında mülahizə ediləcək xüsusiyyat:
1. Hüquq elmi nəzəriyyatı mövcibincə vəkalətnamə bir müqavilənamə dərəcəsində olduqda onun vədəsi tərəfeyi idarəsi üzrə vəkalətnamə dövründə göstərilmiş tarixi ilə bəyan edilir, fəqət ticarətə məxsus vəkalətnamələrdə tarix göstərilmədiyi halda qanun qüvvəsi ilə vəkalətnamənin kəndi tarixindən hesab edilmək vədə üç sənə təkmilinə qədərdir. (1903 sənəsində nəşr edilmiş ticarət qanunun 41-ci maddəsi və senatın [199 - 200] mülki istikaf dairəsinin 1916 sənəsindəki 30 nömrəli qətnaməsi).
2. Müqavilənamələrdə, xüsusən vəkalətnamələrdə, vədə bunların mühüm bir hissəsi ədd olunduqundan vədə xitamında məzkur övraqin kəndiləri də qüvvədən saqit olurlarsa da, məamafiyə hüquq elmi nəzəriyyatı və qanun tərəfeynin rizası olmaqsızın da müqavilə və vəkalətnamələrin vədələrinin təmdidini müvafiq görürlər. Məsələn, ticarət qanunun qərarnamələrində ticarət işləri müdiriyyəti və deyn tədiyəsinin tə'cili (1905, 1906, 1915 və

bundan sonrakı sənələrin) hərbi vüquatdan dolayı basəid olan bir tədiyəsinin təcili haqqında xüsusi qanunnamə (mirotvari) və həkazə Moqilyov şəhərinin yanğından mükəmmələn məhv olması və başqaları kimi fövqəladə vüquata dair (1910 sənədə hökumət qanunnamə və tədbiri cümləsinin nömrə 104, maddə 1097).

3. Azərbaycan səhmdarlar cəmiyyətləri və başqa ticarət və sənaət idarələri və təməkkülat sahiblərinin bulunduqları mövqeyi ilə Azərbaycanın əlaqəsi qət olunduğundan hal-hazırda fövqəladə keyfiyyət Azərbaycanda da mövcuddur.

4. Binaən-ileyh ticarət və xüsusi işlər idarəsinə məxsus və vədələri qutarmış yaxud yaxın zamanda qurtaracaq vəkalət-namələrin təmdid və ədd edilməsinə həm mühüm bir əsas, həm də zəruri ehtiyac vardır.

5. Fəqət, vədənin bu sürətlə təmdid müəyyən bir vaxt ilə təmdid edilməlidir. Bunun üçün də 6 ay vədə kafidir.

6. İşbu təmdid vədə mövcud ikən müvəkkil və vəkil xahiş etdikləri halda və qəbul etdikləri vəkalətnamələri vədədən əqdəm də qüvvədən saqit etmək haqqına malikdirlər.

7. İşbu üsul üzrə vəkalətnamə vədələrinin təmdidi başqa bir surətlə olmayıb da, fəqət, qanun üzrə olmalıdır. Yuxarıda yazılmış izahata məbni bunun zəminində mövcud qanunnamə inşa edilmiş olduğu surətdə nəşr edilməsi müvafiq körünür.

**Ədliyyə nəzarəti müdiri: *Teymur bəy Makinski* tərəfindən imza edilmişdir.**

Ticarət və xüsusi işlər idarəsi üçün olan vəkalətnamələrin təmdidi haqqında qanun layihəsi:

1. Ticarət və xüsusi işlər üçün verilən vəkalətnamələrdən vədeyi-vəkalətləri əski qayda 1917 sənəsi 25 oktyabr, 1918 sənəsi [200 - 201] 31 dekabr və yeni qayda 1919 sənəsi 13 yanvar tarixləri aralarında xitam bulmuş olanları və yaxud təzə qayda ilə 1919 sənəsi 14 yanvar, 14 iyul arasında qurtaracaq olan vəkalətnamələr 1919 sənəsi iyul ayının 14-dək öz qüvvələrində baqi qalırlar.

2. Vəkalətnameni verən və vəkilliyi qəbul edən əşxas xahiş etdikləri halda 1919 sənəsi 14 dən müqəddəm də olsa vəkalətnamələrini kəndi qüvvəsindən saqit etmək ixtiyarına malikdirlər.

Qanunnamə maddəbəmaddə müzakirəyə qoyulduqda təklif olunur, əvvəlcə parlament komissiyasına verilsin.

**Şəfi bəy Rüstəmbəyli** - məsələyə fraksiyalarda baxılmış olduğunu qeydlə bəyan edir ki, komissiyaya verilməyə ehtiyac yoxdur.

**Qaraşov** - Komissiyaya verilməsində israr edir.

**Yusif Əhmədov** - göstərir ki, bu qanun ələlümdə səhmdaran cəmiyyətlərinə və bir çox sair müəssisə firmalara aiddir ki, bunların mərkəz idarəsi Petroqradda, Moskvada və qeyri yerlədədir ki, şimdi ora ilə əlaqə olmadığından vəkalətnaməni vermək qeyri-mümkündür; təzələnməsə də bunların fəaliyyəti yatar. Ona görə Məclisi-Məbusan onların vədlərinin təmdidi haqqındakı qanunu qəbula məcburdur. Bu mülahizə ilə natiq təklif edir ki, layihəni komissiyaya vermədən bu gün parlament qəbul etsin.

**Makinski Teymur bəy** (ədliyyə naziri müavini) - Qanun layihəsinin həmən bu iclasda qəbulunu təklif edərək deyir ki, əgər bu qanun qəbul edilməsə və şəraiti hazirədən dolayı bir çox cəmiyyət və firmalar vəkalətlərini təzələyə bilməzlər: o halda fəhlələrə də muzd verməyə imtiyazları olmaz, bunun da ağır nəticələr, hətta tətil ilə təhdid etdiyi aşkardır. Nəhayət maddə-maddə səsə qoyularaq, qanun qəbul olunur.

## Etibarnamə komissiyasından

Bundan sonra etibarnamə komissiyası tərəfində Şəfi bəy Rüstəmbəyli məruzə təqdim edir. İrəlicə Ukrayna konsulu parlamentə ərzi-hal verərək ukraynalılar üçün iki yer istəmişdir. Rəsmiyyət cəhətindən parlament bu məsələni açıq buraxmışdır. Şimdi Bakı ukraynalılar Radası eyni məqsədlə ərzi-hal vermişdir. Etibarnamə komissiyonu lazım bilir onlara [201 - 202] yer verilsin, çünki Bakıda və Muğan kəndləri miyanında çox ukraynalı var. Şurayi-milli ruslara 10 yer verərkən, ukraynalıları Velikoruslardan ayırmamışdı. Şimdi özləri ayırır, sair əqəliyyət təşkil edən bir millət olmaq üzrə yer istəməyə haqları var. Fəqət, iki yer vermək olmaz, çünki o qədər nüfusları yoxdur. Binaən-ileyh komissiya təklif edir ki, azlıqda qalan bir millət olmaq hesabı ilə ukraynalılara 1 yer verilsin və bu yer rus milli komitəsinə ayrılmış olan yerlər hesabına çıxılsın.

Bakı və Şəki qəzalarına və yəhudilərə gəldikdə bunların haqqında komissiyonun rəyi qabaqca xəbər verilmişdir.

**Abdulla bəy Əfəndizadə** ("Əhrar") - Yer haqqındakı maddənin əhəmiyyətindən bəhs ilə onun Şəki şəhər və qəzası haqqında bu maddənin tətbiq edilmədiyini aşağıdakı rəqəmlərlə göstərərək deyir ki, şəhərimizin islam əhalisini götürdükdə nüfusca Bakı birinci, Nuxa ikinci, Gəncə üçüncü yer qazanacaqdır. Deməli, Bakı şəhəri paytaxt olduğu üçün istisna edilirsə, birinci yer Nuxa şəhərinindir.

Bu şəhərdə 52 min 243 candan 43 635-i islamdır.

| | |
|---|---|
| Gəncədə - | 38 331 "-" |
| Şamaxıda - | 21 172 "-" |
| Şuşada – 1 | 19 136 "-" |

Lənkəranda - 15 329 "-"
Qubada - 11 465 "-"

Yerdə qalan şəhərlərin əhalisi 5-6 mindən ibarətdir. Əgər şəhərlər üçün yalnız şəhərdirlər deyə birər nümayənədə ixtiyara verilibsə, böyük bir ədalətsizlik icra edilmiş olur. Çünki o surətdə 5 min əhali də 1 nümayənədə vermiş olur, 50 min də. həm də 5 min əhalidən 1 nümayəndə dəvəti heç bir məmləkətin qanunnaməsində olması gərəkdir. Belə olursa, Şəki tək başına 10-12 islam nümayəldələri göndərməli idi. Qısası isə 100 mindən ziyadə islam əhalisinə malik olduğundan tək başına 57 min miqyas üzrə 2 nümayəndə göndərməli idi. İş belə olmadığı aşkardır. Həm də eşitdiyimizə görə qanunnamədə şəhərlərə məxsus ayrıca maddə yoxdur. Həqiqət belə isə yəqindir ki, şəhər və qəza əhalisini bir yerə qatıblar və ümumi əhaliyə miqyas tətbiq ediblər, ancaq nümayəndələrin birini şəhərə məxsus ediblər. [202 - 203]

Bu nöqteyi-nəzərə gəldikdə məsələni bir az daha aydın etmək üçün 2 nəfər nümayəndə verən qəzaları yek digəri ilə müqayisə etməlidir.

Nuxa şəhəri qəzası ilə birlikdə 101574 can islam əhalisinə malikdir. Göyçay şəhəri 117.732, Şuşa 85.661, Ərəş 79.090, Qazax 6.818 islam əhalisinə malikdirlər. Görürük ki, Şəki bunların ən böyüyündən 30 minə və ən kiçiyindən 80 minə qədər artıqdır. Yalnız Şəkinin xətm olunmuş haqqı özünə qaytarılmaqla ədaləti bərpa etmək təklifini ediriz. Əks surətdə dəfəat ilə rəva görülmüş ədalətsizliyi bir dəxi parlament təsdiq etmiş olacaqdır. Hələ firqə seçkisi prinsipinə gəldikdə Şəkinin 12 min fəhlə sinfinə ayrıca bir yer vermək təklifi də qəbul edilə gərəkdir. Əgər mandat komissiyonu "parlament üzvləri 120-dən ziyadə olmalıdır" iddiasını bir daha edərsə, mən onun cavabında təkrar edirəm ki, seçki maddəsinin tək bir məhəl üçün tətbiq olunmaması böyük ədalətsizlikdir. Fəqət, 120 ədədi 121 ilə əvəz etməyə ədalətsizliyin dəxli yoxdur.

**Sultan Məçid Qənizadə** ("İttihad") - Əfəndiyev cənablarının nitqinin qisminə iştirak edərək deyir ki, əlbəttə parlament qəsdən ədalətsizlik buraxa bilməz, lakin bununla belə səhv həmişə mümkündür. Ona görə mən təklif edərdim, parlament Şəki qəzasına yer versin. Əlavə Bakı qəzasının parlamentdə əsla nümayəndəliyi yoxdur. Hərçəndi, natiqlərdən birisi deyib ki, biz ümum əhali və ümum qəzaları təmsil ediriz. Amma qəzaların parlamentə nümayəndə seçmələrində böyük əhəmiyyəti vardır.

**Məmməd Əmin Rəsulzadə** ("Müsavat") - Mən bir parlament üzvü və parlamenti təşkil edən sabiq milli şura sifəti ilə etibarnamə komissiyonunun nöqteyi-nəzərini doğru olduğu barəsində bir qədər izahat verməliyəm. Deyirlər Bakı qəzasında 70 min nüfus var. Əgər Bakı qorodonaçalstvası çıxılsa Bakı qəzasında 15 mindən ziyadə nüfus yoxdur. Məbusluq haqqını 58 min səs götürdükdə, əlbəttə ki, 15 min nüfusa yer verilmədikdə böyük xəta işlənməmiş olur. Dikər tərəfdən Bakı həmişə qəza ilə çox yaxın əlaqədədir. Binaən-ileyh, Bakı milli komitəsi qəzanı da təmsil edə bilər, bilxassə ki, diqtət edilərsə görünür ki, burada əyləşən məbusların bir çoxu o göydən, bu [203 - 204] göydəndir. Məsələn, hazırkı məbsulardan birisi Məşqətəli, digəri Şağanlı, o birisi Novxanılıdır. Bu nöqteyi-nəzərdən qəza nümayəndəsiz deyildir. Əlbəttə, mən demərəm parlamentin qanunu nöqsansızdır. Bu qanunu verilən mütləq sərih qanun verdiklərini iddia etmirlər. Parlament ümumi seçki əsası ilə seçilmişdir; onun bir çox nöqsanı ola bilər. Ancaq nəzərə almalıdır ki, bu parlament əsl Məclisi-Məbusan olmayıb, onun bədəli və müvəqqət bir müəssisəsidir. Fəqət, Məclisi-Müəssisan dəvətinədək müvəffəq olmaqla bərabər bu parlament məmləkətin ən səlahiyyətdar bir müəssisəsidir, ona görədir ki, biz parlament qanununu tənqid edərək ədalətdən ya ədalətsizlikdən deyil, bu nöqteyi-nəzərdən baxılmalıdır ki, qaldırılan məsələ məqsədə müvafiqmidir, deyilmidir. Bu gün parlament məsələsi yalnız Bakı və ya Şəki qəzası ilə həll olunsaydı, bəlkə də müvafiq görülərdi. Fəqət, bizə məlumdur ki, Gəncə qəzası da naməlumdur. Ağdaş dəxi nümayəndəlik artırılmasını tələb edir. Bu gün biz Bakı və Şəki qəzasının istədiyinə əməl edərsək, əlbəttə sairlərinin də tələbini qəbula məcbur olarız. Heç kəsə demək olmaz ki, Bakının, Şəkinin tələbinə əməl ediriz, sizinkini yox. Əgər desəniz ki, bu iki qəza müstəsna tutulsun, o vaxtlar qəzalar da tələb edərlər, deyə bilməzsiniz ki, Bakıya Şəkiyə istisna olar, sizə ola bilməz. Bu surətlə hamının tələbinə əməl etmək lazım gələr, bu talda qanun həftədən-həftəyə dəyişərək qanunluqdan çıxar, Məclisi-Məbusan da bir mitinq şəkli alar. Buna görədir ki, biz Məclisi-Məbusanın kökünü laxlatmağa heç vaxt razı olmamalıyız, bəlkə Şəki haqqında ədalətsizlik olmuşdur da, lakin bütün məmləkətə nisbətlə Şəki bir cüzvüdür. Cüvzün mənafeyi namirə küllün mənafeyini pozmaq olmaz. Həmişə cüvz küllə fəda edilir. Binaən-ileyh, Şəki haqqında bir ədalətsizlik olmuş isə belə bütün məmləkət xeyri üçün qanuna tabe olmalıdır ki, parlamentin nüfus və heysiyyəti rəxlənənməsin. (Alqış).

**Abdulla bəy** - təklif edir ki, məsələ komissiyaya verilsin, o halda sübut edir ki, Bakı ilə Şəkidən başqa heç qəza haqqında ədalətsizlik olmamışdır.

**Soltan Məçid Qənizadə** - Mən zənn edirəm ki, parlament qanunu dəyişsə, nüfuzu azalmaz. Biləks, nöqsanı düzəltməlidir. [204 - 205]

**Rüstəmbəyli Şəfi bəy** - Etibarnamə komissiyonu bu məsələni müzakirə edərkən və ya o qəzanın haqqı nöqteyi-nəzərindən deyil, ancaq əsas nöqteyi-nəzərindən yaxalammışdır. Komissiyanın zənnincə məbusun miqdarını təyin edən qanunu pozmaq olmaz. Bu qanun rəqəmləri deyil, idareyyi-mülkiyyə vahidlərini nəzərə almışdır. İşdə bu nöqteyi-nəzərdəndir ki, etibarnamə komissiyonu qəza və cəmiyyətlərin qərarını rədd edir.

Sədr məsələni iki qismə ayırır, əvvəla ukraynlara yer vermək məsələsini səsə qoyur, əksəriyyət-ara ilə bir yer verilməsi qəbul olunur.
İkinci: parlament məb'uslarının miqdarını səsə qoyur. İttifaqi-ara ilə təklif rədd olunur.

**"İttihad" rəisinin sorğusu**

Bundan sonra "İttihad" firqəsi rəisi tərəfindən hökumətə xitabən verilmiş olan bir sorğu katib oxuyur:
1. Qara və ağ neft alış-verişinin ümumqafqasiya əhalisi üçün müzürr bir şəkil aldığı məmləkətin bu mühüm sərvətinin möhtəkirlər və aferistlər əlində əhalini soymaq üçün alət olub dövlətə möhtəkirlərin qazanclarına nisbətən cüzi bir mənfəət verdiyi hökumətə məlumdurmu, məlum isə bu yolda hökumətin fikri nə mərkəzdədir?
2. Əsgər naminə ucuz fiyatlə, yaxud parasız əhalidən olan zəxirə haqqında məmurların icra etdikləri sui-istemal hökumətə məlumdurmu, məlum isə bu xüsusda hökumət nə kimi tədbirlər ittixaz etmişdir və müqəssirlər haqqında nə kimi iqdamatda bunmaqdadır?
3. Hacı Zeynalabdin Tağıyevin fabrikasında hökumətin icazəsi ilə əhali naminə buraxılan malların möhtəkirlər tərəfindən yüksək qiymətə satıldığı, bu münasibətlə ehtikarə və sui-istemala geniş meydan aldığı, bez və ağın arşınının füqarəyə 15-17 manatan mal olduğu, bir çox hökumət ətrafında dolaşan adamların bu sui-istemalda iştirak etdikləri hökumətə məlumdurmu? Məlum isə bu yolda nə kimi tədbirlər ittixas edilmiş və müqəssirlər haqqında nə kimi təşəbbüssatda bulunmuşdu.

"İttihad" firqəsi rəisi: doktor ***Qarabəyli Qara bəy.***

[205 - 206]

**Qarabəyli Qara bəy** - uzun bir nitqlə sorğunu müdafiə edərək deyir ki, bizim nöqsanımız yalnız bu deyil, çox nöqsanlarımız var. Fəqət, bu üç məsələ həyatımızda qayət mühüm məsələdir. Azərbaycan ən zəngin məmləkətlərdən biridir. Sərvətimizin də birisi neftdir ki, bütün cahan ona möhtacdır. Fəqət, bu sərvətlə bərabər qonşumuz olan məmələkətlərdə Azərbaycandan çox ucuzluqdur. Neft ticərət və ixracının məni haqqında çox qanunlar var. Fəqət, bəzi xoşbəxtlər bilmirəm nüfuzlarıynamı, qohumluğamı ya xüsusi himayəyə görə lazım olan icazənaməni alır və alış-verişlərini edirlər. Bizim ayrı-ayrı şəxslərlə işimiz yoxdur, ancaq qaydanın pis götürüldüyünü görmək istəyirik. Neft incazənaməsi ələni surətdə bazarda satılır. (Mərkəzdən və soldan: doğrudur, doğrudur). Ona görədir ki, neftin putu 10 manat olduğu halda Bakının özündə 20, Gəncədə isə 120 manata satılır. Həm də bu qədər qazanclar bir neçə möhtəkirin cibinə girərək barı hökumət və millət xəzinəsinə bir mənfəət dolmur. Bu gün hər kəs istəyir, gedən birjadan mən ona bir neçə vaqon neft icazəsi istəsə alım.
İkinci mühüm məsələ, Tağıyev fabrikasında buraxılan bez məsələsidir. Məmləkətimizdə özümüzə məxsus fabrikamız mövcuddur və bezin arşınını beş manata buraxmaqda ikən, fəqir əhali aylar ilə fabrikanın və nəzarətin qapısında dayanaraq əliboş qayıdır. Amma bəzi məsullar burada da işlərini düzəldə bilirlər. Bəzi adamlar fabrikadan bez buraxılması üçün tezcə icazənamə alır və bez əlinə keçən kimi fabrikanın qapısındaca arşınını 12 manatdan satır, onu alan da aparıb yəqin ki, 15-17 manata satır. Bu sürətlə heç ehtiyacı olmayan bez alır mənfəətinə satır, amma möhtac olan fəqir əhali ala bilməyib bazarda 15-17 manata almağa məcbur olur. Ona görədir ki, fəqir camaat ac, çıplaq qalıb, içlərində yatalaq xəstəliyindən qırılır. Bu gün biz bunun qabağını almazsaq, bu hərəkətlərə sədd çəkməzsək, vətənin böyük xaini və xəstəlikdən qırılanların qanına məsul olacağız. Bu məsələ tezliklə bir qaydaya salınmalıdır. Hərçəndi biz belə məsələlərdə mütəxəssis deyiliz, amma yenə bəzi çarələr göstərməyi lazım biliriz. Məsələn, hökumət bütün neft alış-verişini öz əlinə alaraq sonra müntəzəm mübadileyi-əmval təyin edə bilər ki, bu da şübhəsiz ümumi malların ucuzlaşmasına səbəb olar. Yaxud hökumət neft alış-verişini azad elan edərək hamıya izin versin və bu surətlə rəqabət çıxarsın. Bu dəxi əlbəttə malların ucuzlaşmasına bais olar. Biz bunu mütəxəssis kimi demiriz, təklif edirik ki, hökumət parlamentin iştirakı ilə və mütəxəssislər dəvət edərək bu işləri bir yaxşı nizama salsın.
Sorğumuzun üçüncü maddəsi buğda məsələsidir. Hamımıza məlumdur ki, türklər burda olan zaman qoşun ehtiyacı üçün fəqir kəndlilərdən xüms, zəkad və üşr adı ilə külli miqdarda buğda yığılmışdır. Aldığımız məlumata görə buğda işlərində də böyük bir sui-istemallar olur. Hökumət məmurları da sui-istemalda iştirak edirlər. Məsələn, Quba uyezdində camaatdan külli miqdarda buğda yığılıb, hələ pulu da verilməmişdir. Həmin buğda tələf edilmişdir. Hökumət məmurların iştirakı ilə bir neçə adam Qazax uyezdində daha da bədtərdir. Orada elə böyük həngamələr olub ki, heç inanmazsınız. Eşitdiyimizə görə orada hökumət məmurlarından ibarət dəstələr əmələ gəlmişdir ki, Azərbaycandan özgə məmləkətlərə neft və sair qadağan edilmiş şeylər aparırlar. Gəncə polismeysteri özü yazır ki, onun məmurlarının əksəri sui-istemal edirlər. Hökumət və parlament çamaat nəzərində nüfuzlarını saxlamaq və yüksəltmək üçün tədbirlər görməlidirlər. Hökumət məmurları özləri qanunu pozduqda və sui-istemala yer verdikdə dəxi camaatdan nə tələb etmək olar. Burası hərc-mərc başlanğıcıdır və hökumət buna bir sədd çəkməlidir.
**Sədr** - Sorğunu səsə qoyur, sorğu təcili olaraq qəbul edilir.

## İctimaiyyun-inqlabiyyun komitəsi təklifi

Bundan sonra katib Bakı ictimaiyyun-inqlabiyyun komitəsi tərəfindən göndərilmiş olan bu məktəbu oxuyur: "Azərbaycan Məclisi-Məbusanı rəisinə.

Pralament təşkili qanununa görə məbuslar milliyyət əsası ilə seçilirlər. Bizim firqəmiz beynəlmiləl olduğuna görə milliyyət əsası ilə məbus keçirmək imkanımız yoxdur, ancaq firqə tərəfindən nümayəndə verə bilərik.

Bütün millətlərin zəhmətkeş siniflərini təmsil edən ictimaiyyun-inqlabiyyun firqəsi kəndli və fəhlələrin hüququnu hətta təşkili əsasını düzgün olmayan müəssisələrdə də müdafiə [207 - 208] etməyi özünə borc bilir. Bakı və Gəncə quberniyalarında bizim firqəmizi Məclisi-Müəssisan seçkilərində aldığı səsləri Azərbaycan Məclisi-Məbuasında da bizə beş yer haqq verir.

Bununla bəyan edirik ki, ictimaiyyun-inqlabiyyun firqəsi Azərbaycan parlamentində iştirak etməyi təhdi-qərara almış və qanuni həqqi olan 5 yerin firqəyə verilməsini təkid edir. Bizim bu bəyannaməmizi cənabi sədr, təvəqte edirik ki, parlamentin iclasına təklif edəsiniz.

***Zaqafqaziya ictimaiyyun-inqlabiyyun komitəsinin Bakı murəxissləri:***
***Dimitr Sərxaliyev, Sako Saakyan, ictimaiyyun-inqlabiyyun firqəsi***
***Bakı komitəsi sədri Xristofor Yevanqulov, katib əvəzi L. Umanski.***

**Rüstəmbəyli Şəfi bəy** ("Müsavat") - Həmişə parlamentd birkə işləmək üçün millətlərin parlamentdə bulunmaları tərəfdarı olduqları qeyd ilə təklif edir ki, ictimaiyyun-inqlabiyyun firqəsi təklifi əsas etibarilə qəbul etdirməklə milli komitələr hesabına onlara bir yer verilməsinə razı olara yerlərin miqdarını təyin etmək üçün məsələnin etibarnamə komissiyonuna verilməsini təklif edir.

**Qardaşov** - "Əhrar" fraksiyası tərəfindən məzkur firqənin müraciətini təbriklər bərabər deyir ki, bu təklif qəbul ediləməz. Çünki azlıqda qalan millətlərin yerləri milli şuralara verilmişdir. Bu gün o yerlər firqələrə verilərsə, yer sahibi gəldikdə ixtilaf çıxar.

**Əhməd Cövdət** (Sosialistlər ittifaqından) - Həmişə siyasi firqələr və azlıqda qalan millətlərin parlamentdə bulunmalarını arzu etdiklərini və öz firqələrinin daima sosialist firqələrini parlamentdə iştiraka tərcih və təşviqə çalışdıqlarını qeydlə təklif edir ki, ictimaiyyun-inqlabiyyn firqəsinə Rusiya məclisi-müəssisanı seçkisində almış olduğu səslərə nisbətən malikyolduğu haqqa görə yer verilsin.

**Ağa Aşurov** - Təklif edirəm ki, bu müraciətə rədd cavabı verilsin. Çünki, gəlmək istəyənlər özlərini başqa bir hökumət üzvü hesab edirlər.

(Məmməd Əmin yerindən: Şimdi o hökuməti ləğv etmişlər.¨Bir də əgər onlar beynəlmiləl bir sosialist firqəsi kimi gəlmək istəyirlərsə, parlamentdə solsialist fraksiyası var. Bir millət kimi gəlirlərsə, milli şuralar vasitəsilə gəlsinlər. [208 - 209] Lakin milli şuraların yerlərini onlara verməyi mən qeyri-mümkün rədd edirəm.

**Qarayev** ("Hümmət") - Ağa Aşurov cənablarının sosialistlərin parlamentə gəlməsinə razı olmaması təbiidir. Yoldaşımız Əhməd bəy dediyi kimi sosialistlər milli şuralara daxil deyildilər. Hətta mən deyirəm ki, rus milli komitəsi "Yedinaya Rossiya" qəzetəsinin müdir və mühərrirlərindən ibarət olub da, həmişə yatıb yuxusunda böyük Rusiya görənlərdir. Onlar Azərbycan parlamentinə gəlməzlər. Ona görədir ki, biz var qüvvəmizlə ictimaiyyun-inqlabiyyun firqəsinin parlamentə daxil olmaq hüququnu müdafiə edəcəyiz.

**Rəsulzadə Məmməd Əmin** - Məlumdur ki, ümum cərəyanlar, millətlər və firqələr parlamentdə iştirak etsinlər. Lakin biz o nikbinlərdən deyiliz ki, deyək hamı bir dərəcədə bizimlə bərabər Azərbaycan əməlini müdafiə edəcəkdir. Yenə də biz nikbinlik istəmiriz. Fəqət, istərdik ki, fəaliyyətimizi tənqid, hərəkətlərimizə etiraz edənlər parlament xaricində olmayıb, parlament kürsüsündən tənqid etsinlər və buradan da cavablarını alsınlar. İctimaiyyun-inqlabiyyun firqəsinin parlamentə daxil olması barəsində burada bəzi mülahizələr bəyan edirlər. Biz milli şuralara yer verdikdə həmin şuraların siyasi firqələrdən mütəşəkkil olduğunu təsəvvür edirik. Biz milli şuraların əhəmiyyətini təşkil etdikləri siyasi firqələr və Rusiya məclisi-müəssisan seçkisində onların almış olduqları səsin miqdarı ilə ölçə bilərik. Burada Əhməd bəy və Qarayev ictimaiyun firqəsinin parlamentə gəlmək istəməsini öz təşəbbüslərinin nəticəsi kimi istinad verdilər. Fəqət, bu işlə anlı, idraklı türk demokratiyasının təsiri daha böyük olmuşdur. Türk demokratiyası öz istiqlalının və hüququnu var qüvvəsi ilə müdafiə edəcəyini aydın-aşkar elan etdi və bu gün bu müvəffəqiyyət demokratiyanın belə qəti hərəkəti nəticəsidir. (Alqış). İdraklı türk demokratiyasının səsi sair firqələri də parlamentə gəlib bizimlə müttəhidən çalışmaya vadar edəcəkdir. (Alqış). Mən yenə təkrar edirəm, əqəliyyət təşkil edən millətlərin milli şuralarına yer verildikdə seçki vaxtı siyahı çıxarmış və səs almış olan firqələrə yer verilirdi; o cümlədən ictimaiyyun-inqlabiyyun, ictimaiyyun-amiyyun, kadet və daşnaksütun firqələri də siyahı çıxarmışlardır. İctimaiyyun-inqlabiyyun firqəsi siyahı çıxarmış, [209 - 210] müəyyən miqdarda səs almış və bu surətlə bir qism əhalini təmsil edir. Madam ki, bu firqə milli şuralar vasitəsilə gəlmək istəyir, biz borcluyuq onların haqqı olan yerləri özlərinə verək, hətta gələcəkdə sair firqələr də parlamentə daxil olmaq istəsələr onlara yer verək.

**S. M. Qənizadə** - Qarayev deyir ki, rus milli şurası vahid Rusiya halındadır və bizim yanımıza gəlməzlər. Görünür ki, sosialistlər bizim istiqlalımızı qəbul edirlər. Sosialistlərin Cümhuriyyət tərəfdarı olduqlarına biz inanırız. Bəlkə gələcəkdə sair firqələr də bu nöqteyi-nəzəri qəbulla parlamentə gəlmək istəyəcəklər. Əlbəttə, belə isə biz onların həpsinə yer verməliyiz.

**Əhməd Cövdət** - əsl məram məsələsində fəhlə və əkinçi, yəni ümum zəhmətkeşlər məsələsində onların bizimlə bir olacaqlarına mən Soltan Məcid Əfəndiyə söz verə bilərəm. Taktika məsələsində isə əlbəttə, onlar bizdən ayrı gedə bilərlər.

### "Müsavat"ın təklifi

**Hacıbababəyov** - "Müsavat" tərəfindən belə bir təklif edir:

Sosialist-revolyusioner partiyasının Bakı komitəsi tərəfindən Azərbaycan Məclisi-Məbusana daxil olmaq haqqındakı istidanı müzakirə edərək və:

1. Azərbaycan şürayi-məclisi əqəliyyət milli komitələrinə nümayəndəlik haqqı verərkən bütün firqələrin bu komitələrə daxil olduğunu dəxi təsəvvür elədiyini;

2. İctimaiyyun-inqlabiyyun zəmnində malik olduqları haqdarn istifadə etmək istəyi və bunlar vasitəsilə Məclisi-Məbusana vəkil göndərməkdən imtina etdiklərini;

3. Məclisi-Müəssisan intihablarından gördüyü vəch ilə bu firqə az da olsa əhalidən bir qisminin və ələlümdə müsəlman olmayan qismini rə'yini almış olduğunu nəzərə alaraq Məclisi-Məbusan yuxarıdakı istidadan çox xüsusiyyətlərə riayət edərək qərar verir ki, Məclisi-Müəssisan seçkilərində siyahısı olubda Azərbaycan daxilində rəy almış olan və milli komitələr vasitəsilə nümayəndə göndərmək istəyən firqələrə, [210 - 211] aldıqları rəylər nisbətində yer verilib, bu yerlər dəxi müsəlman siyahılarından məbusata girməmiş bir firqə siyahısı olmadığından - yalnız əqəliyyət milli komitələrinə verilən yerlərin hesabına çıxılsın.

İstənilən yerin miqdarı haqqında isə Məclisi-Məbusan etibarnamə komissiyonunu tətqiqi və bu xüsusda gələn məclisi-ümumiyyə verəcəyi məruzəsi üzərinə qərar veriləcəkdir.

### Sosialistlər fraksiyonun sorğuları:

Axırda sosialistlər fraksiyonu Tağıyev fabrikasında çalışan 10 müsəlman fəhləsinin qovulması haqqında məsayi nazirinə xitabən və Ermənistan Cümhuriyyəti ilə bu vaxtadək siyasi əlaqə peyda və diplomatik nümayəndələr təyin edilməməsi haqqında xariciyyə nazirinə xitabən birər sorğu verir.

Fəqət, iclasda kvorum olmadığından iclas qapanır.

**Azərbaycan, 30-31 yanvar, 2 fevral 1919, 101, 102, 103.**

## №12, 13, 14

## On iki, on üç və on dördüncü iclaslar

*4, 5, 6 fevral 1919-cu il*

**Rəis:** rəis müavini doktor Həsən bəy Ağayev.
**Katib:** Əhməd Cövdət Pepinov.
Saat 1 tamamda doktor Ağayev iclası açaraq ruznameyi-müza-kiratı bu qərar ilə təqdim edir:
1. Daxil olan kağızlar; 2. Məsai nazirinə sorğu; 3. Xariciyyə nazirinə sorğu; 4. Torpaq və sorğu komissiyonları intixabı; 5. Dəmir yol qulluqçularının halını yaxşılaşdırmaq üçün qanun layihəsi; 6. Ticarət nazirinə bez, neft və buğda barəsində sorğu.
Ruznameyi-müzakirat qəbul olunur. Dağıstan parlamentinin cavabı.
**Sədr** - Azərbaycan Məclisi-Məbusanı tərəfindən Dağıstan parlamentinə göndərmiş olduğunuz teleqrama belə bir cavab teleqramı alınmışdır: [211 - 212]
"Qafqaziya Cibaliyyun İttihadi" Cumhuriyyətinin müttəhid şurası qardaşımız azərbaycanlılar parlamentinin təbrikini gurultulu alqışlarla qarşılayaraq, mənə tapşırılmışdır dağıstanlıların tarixi bir günü, yaxın zamanda xülya kimi görülüb də şimdi arzularının həqiqət olaraq meydana gəlməsinə nail olmaqları münasibətilə təbrikinizə qarşı dərin və ən səmimil-qəlb təşəkkür edəyim. Dağıstanlılar inanırlar ki, ruh, din, mədəniyyət və tarixi sabiqələri mərbut olan bu iki (millət ən yaxın bir zamanda ən gözəl və xeyirxahanə əsaslar üzərində birləşər və ümumi qüvvə ilə kəndi həyatlarının inqilab fütühatı olan hürriyyət Azərbaycan və Dağıstan cəmiyyəti istiqlallarının möhkəmlənməsi yoluna sövq edərlər. Allah bu işdə kömək eləsin.
***Qafqaziya Cibaliyyun İttihadı şurası sədri Teymurxanov.***

### Xırda kağızlar

Sonra sədr deyir: Ukrayna Radası tərəfindən Vasili Mixayloviç məbus seçilmişdir. Etiraz yoxsa, etibarnamə komissiyasına verək. Bundan əlavə seminariya müdiri Firudin bəy Köçərli və Ədliyyə naziri müavini Teymur bəy Makinski öz xidmətlərində baqi qalaraq məbusluqdan istefa verirlər. Rus-slavyan cəmiyyəti məbusu polkovnik Ollinfron, Abdulla Qəbulzadə, Bəhram bəy Vəzirov, Bayram Niyazi Kiçikxanov, Əli bəy Zizikski, Hacı Hüseyn Əfəndizadə və Rəşid bəy Axundzadə hökumət qulluğundan istefa verərək, məbusluğu qəbul edirlər. Bir neçələri də var ki, hələ xəbər verməmişlərdir. O cümlədən Gəncə qubernatoru İbrahim ağa Vəkilov, Bakı qubernatoru Museyib Axibcanov, Cəmil bəy Ləmbəranski, Əli ağa Həsənov, Sadıq bəy Ağabəyov, Məmmədyusif Cəfərov, Həmid bəy Şaxtaxtinski. Bunlar ədəmi-ictimai qanununa görə parlamentdən xaricədd olunurlar.
Əhməd Cövdət bəy və Cəmo bəy Hacınski təklif edirlər ki, Məmmədyusif Cəfərov ilə İbrahim ağa Vəkilovun möhlətləri qurtarmamış olduqlarından onlar xaric hesab edilməsinlər, yerdə qalanları xaric olsunlar.
Təklif qəbula keçir.
**Sədr** - Bundan maida Ağa Zeynal Tağıyev bir ay və Qara bəy Əliverdiyev üç həftə məzuniyyət istəyirlər.[212 - 213]
**Əhməd Cövdət** - Əgər bunların getməsi parlamentin fəaliyyətinə xələl verməyəcəyinə sədr cənabları soz versələr, ərizələri qəbul olunar. İsbati-vücud etməyənlərə parlamentə qayıdarkən məzuniyyət verilməsin.
**Şəfi bəy** - Qabaqca məzuniyyət alanlar hələ qayıtmamışlardır. Fraksiyamızın zənnincə onlar qayıdanadək heç kəsə məzuniyyət verilməməlidir. Bir də bəzi məbusların etibarnaməsi düz olmadığından islahı üçün üç həftə möhlət verilmişdi. Şimdi möhlət bitmək üzrədir, amma etibarnamələr islah edilməmişlərdir. Binaən-ileyh, bu dəxi nəzərə alınarsa, qorxuram məzuniyyət qəbul edilsə kvorum olmasın. Ona görə təklif edirəm məzuniyyət verilməsin.
Səsə qoyulduqda ərizələr qəbul edilmir.

### Sorqular

**Katib** - Tağıyev fabrikasından qovulmuş müsəlman fəhlələri haqqında sosialistlər fraksiyonu tərəfindən məsai nazirinə xitabən verilmiş sorğunu oxuyur.
**Əhməd Cövdət** - Bu sorğu keçən iclasda oxunmuşdu, müdafiə də edilmişdi. Şimdi isə sorğu gücdən düşmüşdür, çünki qovulan əmələlər geri qəbul edilmişlərdir.
Bundan sonra Azərbaycan ilə Ermənistan arasında siyasi əlaqə peydası və siyasi nümayənədə təyini haqqında yenə sosialistlər tərəfindən xariciyyə nazirinə verilmiş sorğu elan edilir.

**Əhməd Cövdət** - Bu sorğu da gücdən düşmüşdür, çünki artıq Ermənistana siyasi nümayəndə təyin edilmişdir.

**Ədil xan Ziyadxanov** (xariciyyə naziri müavini) - türkcə yaxşı danışa bilmədiyindən üzr istəyərək deyir ki, xariciyyə nəzarəti həmişə Ermənistan ilə siyasi münasibət peyda etmək fikrində olmuşdur. Müsəlmanlar ilə ermənilər miyanındakı bunca nalayiq işlər və kəşmə-kəşlər bizi vadar edirdi hamıdan əvvəl Ermənistan ilə münasibəti-siyasiyyə peydasına çalışaq. Hökumət bu əmrə böyük əhəmiyyət verir, çünki burada Ermənistanın və Ermənistanda Azərbaycanın siyasi nümayəndəsi olsa belə fənalıqlar rəf' edilir. Bir də Ermənistan ilə bizim aramızda ixtilaflı ərazi məsələsi var. Əlaqə peydası ərazi məsələsinin də hüsnü-həllinə bais olar. Buna görədir ki, [213 - 214] əlaqeyi-siyasiyyə məsələsində hökumət bir an qafil olmamışdır. Fəqət, bəzi məsələlər var ki, sizə məlum deyildir.

Bu barədə mən sizə məlumat vermək istəyirəm. 1918 sənəsi oktyabrın 9-da 84 №-li teleqraf ilə xariciyyə nəzarəti Gürcüstan hökuməti nəzdindəki siyasi nümayəndəmiz Cəfərova təklif etmişdi ki, Ermənistan hökuməti nəzdində siyasi nümayəndəlik vəzifəsini qəbul etmək haqqında Məhəmməd ağa Vəkilov cənabları ilə müzakiratda bulunsun. İkinci dəfə oktyabrın 22-də Cəfərova teleqraf çəkilmişdir ki, bu xüsusda Vəkilov ilə təkrar müzairata kirişsin. Cəfərov cavab vermişdir ki, Məmmədrza Tiflisdə olmadığından razılığını ala bilmimişdir. Noyabrın 5-də 243 I-li məktub ilə yenə Cəfərova təklif edilmişdi Ermənistan hökumətinə müraciətlə Məhəmmədxan Təkinskinin Azərbaycan siyasi nümayəndəliyinə erməni hökumətinin razı olub-olmadığını sual etsin. Yanvarın 29-da 178 14-li məktub ilə cavab aldıq ki, Təkinski cənablarının təyin edilməsinə erməni hökumətinin tərəfindən heç bir maniə görülmür. Həmin gün hökumət Məhəmmədxani təuin etmiş, lazım olan vəsiqələri Hazırlamış və orada dəsgahını qurmaq üçün 30 min manat pul təxsis etmişdir. Münasibat peydasının təxirə düşməsinin bir səbəbi də bu olubdur ki, Ermənistan hökuməti Azərbaycan nümayəndəliyinə bəzi namizədlər göstərmiş, amma biz qəbul etmişik.

**Qarabəyli Qara bəy** - Xariciyyə nəzarətinin bəyanatından qənaət hasil olmur. Hamıya məlumdur ki, hökumət ilə bizim aramızda bir çox müşkül məsələlər var ki, teleqraf ilə həll ediləməz. Ona görə böylə böyük məsələdə iki teleqrafa qənaət edib oturmaq olmaz. Böyük məsələlərdə belə təşəbbüslər azdır. Aramızda olan fəna halların önü bununla alınmaz. Ermənistan ilə siyasi münasibəti çoxdan təmin etməli idi. Fəqət, şimdiyədək edilməmişdir. Nazir əfəndinin bəyənatından da burası aşkar görünür. Mən nəzarətin bu bəyanatını kafiədd edirəm.

**Fətəli Xan Xoyski** - hər sozü heccələsək biməna olar. Hərçəndi biz türkcə yaxşı bilmirik, amma burada türkcə deyildi ki, biz Ermənistana nümayəndə təyin etmək istəmişik, amma o hökumət cavab verməmişdir. Təkrar noyabr ayında müraciət edilmiş, yenə cavab çıxmamışdır. Bir də həzərat bunu bilməlisiniz ki, əcnəbi məmləkətlərə nümayəndə təyin etmək məmləkət [214 - 215] daxilində bir məmur təyini deyil ki, bir adam göndərəsən qurtara gedə. Hökumətlər arasında qayda belədir ki, bir məmləkətə siyasi nümayəndə təyin etmək istədikdə həmin məmləkətin hökuməti o şəxsə razı olması lazımdır. Ona görədir ki, bir zatı Ermənistana siyasi nümayəndə bulduqda erməni hökumətinin rizasını hasil etməliydi. Dəfəatla müraciət etdik. Daha gedib onların başının üstündə bir adam da qoya bilməzdik ki, tez olun, bizə cavab verin, əlavə bir sözün üstündə durub yüz dəfə təkrar edilə bilməz. Bu hökumətə layiq bir iş deyildir.

Bu barədə hökumət heç bir noqsan buraxmamışdır. Böylə də olmaz ki, biz müqəssirlər kimi əyləşək, siz də mümkün olan, olmayan hər məsələ barəsində bizə niyə böylə oldu, nə üçün öylə olmadı, deyə bizi töhmətləndirəsiniz. hər işdə qüsur mümkündür; amma bu barədə hökumət əsla nöqsan qoymamışdır. Yenə təkrar edirəm, lazımi təşəbbüslər olunmuş, nəhayət yanvarın 29-da müsbət cavab alınaraq hər dürlü tədbirlər görülmüşdür. Bu barədə iki söz ola bilməz.

## Dəmiryol qulluqçuları haqqında

Dəmiryol xidmətini və əmələlərinin maaşlarının artırılması haqqında hökumət tərəfindən idxal və parlament komissiyaları tərəfindən islah edilmiş layihə oxunur. Təriq və məabir naziri Xudadad bəy Məlikaslanov layihəyi müdafiə edərək yollar haqqında şu surətlə bəyanat verdi:

**Məlikaslanov Xudadad bəy** (Təriq və məabir naziri) - Möhtərəm məbuslar! Siz eşitdiniz o qanun layihəsini ki, hökumət parlamentə idxal və parlament komissiyaları islah etmişlərdir. Hökumət tərəfindən mən bəyan edirəm ki, qanuni komissiyanın dəyişdirdiyi kimi qəbula razıyız. hökumət belə baxırdı ki, o fəhlələrin istədikləri çox deyildir. hokumət bahalığı nəzərə alaraq fəhlələrin maaşının artırılmasını lazım görürdü; fəqət, paramız az olduğundan mümkün olmurdu. Şimdi təvəqqe edirəm komissiyanın qətnaməsini qəbul edəsiniz. Dəmiryolu ilə gedib-gələnlərə bu işlər hamıdan artıq məlumdur. Ancaq təvəqqe edirəm siz bu məsələyə el (obıvatel) nəzəri ilə deyil, dovlət nöqteyi-nəzəri ilə baxasınız, çünki [215 - 216] bir qədər dərindən baxılarsa, dəmir yol məsələsi çox müşkül işdir. Burada texnika var, ticarət var, sənaət var, xozyayestva var... Bunların hamısını birdən düzəltmək çətindir. Sizə məlumdur, dəmiryolu bizim əlimizə nə halda düşmüşdür. Yollar dağılmış, mouqəflər darmadağın edilmiş, qulluqçular qaçmış, vaqonlar, paravozlar xarab olmuş, su kəməri və neft paravozu qırılmış çox

çətinliklə çalışıb, bir vaqon yola salmışıq ki, sərnişin və yük hərəkəti açılsın. Gediş-gəliş olsun və əskəri ehtiyaclar ödənilsin. Yol işlərində çox çalışıb mümkün olan islahatı icra etmişik. Bunu nəzərə almalısınız ki, stansiyalar dağılıb, su, neft, qulluqçu və sairə olmayan yerdə işlərin həpisini birdən-birə görüb, bu binaları təmir etmək olmaz. Bilirsiniz ki, dəmir yolu neçə illərdə inşa edilir. İxtiyarımıza alınmış 230 parovozun ancaq 90-ı yarıyan olub, yerdə qalanı xarabdır. Deməli, parovozun 60 faizi yaramaz idi. Qabaq vaxtlar parovozun 10 faizi xarab olduqda çox hesab edilirdi, amma bizimki 60 faiz idi. Biz çalışıb 50 faizədək parovoz təmir etdik və bu sürətlə 90 yararlı parovozun miqdarı (140) varmışdır. Faizi də 60-dan 40-a düşmüşdür. Texnikanı bilən olsa bilir ki, bu çox işdir, o vaxt biz 3500 vaqon təhvil almışıq ki, bunun da 60 faizi azarlı, adətən vaqonun 3-4 faizi xarab olursa, çox hesab edilirdi, halbuki bizdə 60 faizi xarab idi, çox şeylər tapılmır, vaqon ləvazimati adətən Rusiyadan alınırdı, indi Rusiya ilə əlaqə olmadığından onları da çox çətinliklə tapmaq mümkün olmuşdur. Bunun ilə bərabər biz çalışıb 60 faiz vaqonların miqdarını 10-15 faizə yetişdirmişik. Bundan əlavə Bakı ilə Gəncə arasında 280 ədəd sərnişin vaqonu əlimizə keçmiş idi, bunun da ancaq 5-6-sı sağ olub, 50 faizi azarlı idi. Bunları da çalışıb bir növ islah etmişik ki, 20 faizə çatdırmışıq. Hələ bunlar layiqincə təmir etdirməmişlər. Vaqonlara məxmər çəkilməmiş, bir çox şeyləri əskikdir. Bunun ilə belə bir növ düzəltmişik ki, gediş-gəliş mümkün olmuşdur. Dəmir yol nəzarəti yolları bu halda təhvil almışdı.

Dəmir yolları birinci olaraq əsgəri ehtiyaclara xidmət etməli idi. Türklər burada olanda dəmir yol ələlümdə əsgər üçün işləyirdi. Bununla deməliyiz ki, əsgəri işləri bir dəqiqə belə ləngə düşməyib, dəmiryol əsgəri ehtiyaca münhəsir olduğunyna görə sərnişin və yük qatarı üçün çox az vaqon və parovoz [216 - 217] qalmış idi. Əhali ehtiyacı üçün ancaq bir neçə vaqon və parovoz işləyirdi. Biz ümidvarıq ki, türklər buradan gedəndə apardıqları vaqonu azad edərlər, hərəkət də bir qaydaya düşər, amma ümidimiz doğru çıxmadı. Vaqon və parovozlarımızın çox hissəsi Poyluya getdi, azı qaldı. Kedənlərin də az bir qismi yenə xarabdır, digər qismi də ingilislərin əlindədir. Onların əsgəri işlərinə sərf olunur. Biz ingilislərlə dost olduğumuz üçün onların əsgəri ehtiyaclarını ödəməliyik. Bir dəst şikayətlər var ki, stansiyalarda bir çox mallar yığılıb qalmışdır. Doğrudur, stansiyalarda əhval o qədər fəna idi ki, hər moyqəfdə 300 vaqon yük var ikən, ancaq bir vaqon qəbul edilə bilərdi. Amma indi belə deyildir. Vaqon, parovoz çoxalır, işlər düzəlməkdədir. Yük vaqonu artmışdır, 80-90 yük vaqonu işləyir.

Sərnişin hərəkatı məsələsi daha betərdir. Bizə ən azı Bakı ilə Tiflis arasında hərəkət üçün üç qatar lazımdır. Bir qatar bu işi görüb qurtara bilməz. Biz çox istərdik ki, sərnişin qatarlarını da artıraq. Amma nə qədər vaqon cəm edirsək, gah əsgər ehtiyacına, gah ingilislərə lazım olur. Ümid edirik ki, bu yaxınlarda Tiflislə Bakı arasında üç qatar buraxa bilək. Bu günlərdə Tiflisə bir sürət qatarı buraxılacaqdır. Sərnişin hərəkətini asanlaşdırmaq lazımdır, köhnə qaydalar ola bilməz.

Əvvəl Zaqafqaziya dəmir yollarında 600 paravoz və 15 min vaqon işləyirdi. Bunların bir çoxunu eşalonlar Rusiyaya aparmış. Bunların da qaytarılacağına ümid yoxdur. Fəqət, hər halda ümid ediriz ki, işlər düzəlsin. Bu bəyanatı ondan ötəri verirəm ki, məlumunuz olsun.

Komissiya yolumuzun mədaxilinin artmasına çalışır. Yolumuz onsuz da mədaxillidir, mal çoxdur, sərnişin hərəkəti yaxşıdır, ancaq vəsaili-nəqliyyə azdır, əgər vaqonumuz, parovozumuz və sairə ləvazimatımız lazımi miqdarda olsa, mədaxilimiz çox olar. hərçəndi bu işlərin həpsini düzəltmək müşküldür. Amma düzəlməsinə çalışırıq. Düzələcəkdir.

İkinci məsələ, tarifə məsələsidir. hökumətin nəzəri budur ki, fəhləyə artıq məvacib vermək, əlbəttə lazımdır. Fəqət, bunun mədaxili bir təhərə salınmadıqca, şübhəsizdir ki, məvacibləri də artırmaq qeyri-mümkündür. Deyirlər ki, tarifi artsa hər şey bahalaşacaqdır. Amma söz burasındadır ki, tarifin [217 - 218] artması elə bir şey deyil ki, bazar məsələsinə təsir eləsin. Ona görədir ki, tarif mütləq artmalıdır. Hər bir şey bu vaxtacan 50-100 faiz bahalanıb, amma tarif ancaq 10 faiz artırılıb. Odur ki, bu tarifin artırılmağının o qədər ağırlığı yoxdur.

Bu barədə hökumətin layihəsi vardır, yaxından parlamentə idxal ediləcəkdir. Ancaq bir məsələ vardır ki, Kürcüstan ilə Azərbaycan arasında bağlanmış olan tranzit əhdnaməsinə kö-rə tarif məsələsini bu iki hökumət bir-birinin rizası ilə həll etməlidir. Ona görə də bu məsələdə Gürcüstan ilə müzakiratda bulunmalıdır.

Üçüncü məsələ, dəmiryolunda olan xəyanət məsələsidir. Orasını da deyim ki, dəmir yollarında xəyanət var idi və yenə də var. Bunu kökündən dəmir yolundan rədd etmək lazımdır. Təriq və məabir nəzarəti bu xüsusda tədbirlər körmüşdür. Əlbəttə, çox adam qovulmuş, çox adam tutulmuş və məhkəməyə verilmişdir. Ancaq bu çarələr ilə xəyanət azalar, amma kökündən kəsilməz. Vaqonlar da indi artmışdır.

Əlbəttə, bu da xəyanətin kəsilməsinə bais olacaqdır. Lakin mən həmişə demişəm ki, camaatın özü bu barədə çalışmalıdır, camaat hümmət etməzsə, hökumətin tədbiri ilə xəyanət qurtarmaz, azalar, amma kəsilməz. Yol camaat malıdır, əhali yola öz yolu kimi baxmalıdır. Dəmir yoluna xəyanət edənlər, dövlətə və camaata xəyanət edirlər, çünki dəmir yolunda nə xeyir varsa, camaatın, nə zərər varsa, o da camaatındır. Biz camaata yazıb bəyan eləmişik ki, dəmir yolunda kördükləri əziyyət və xəyanəti yazıb kağız ilə sənədli-sübutlu bildirsinlər. Əlbəttə, xain qulluqçu heç vaxt qulluqda qala bilməz.

Dəmir yol əmələ və xidmətçilərinin fəaliyyətinə gəlincə ki, bunlar yaxşı işləsinlər, mən deyirəm ki, yollarımız Poyludan Bakıyacan qızdırmalı yerlərdən keçirlər. Stansiyaların bir çoxu dağılmışdır. Ona görə

qulluqçuların halı xeyli fənadır. Ola bilir ki, bəzi qulluqçular xəstəlikdən yaxşı işləyə bilmirlər. Bu işləri düzəltmək çətindir də, amma yenə tədbirlər görülür. Bu barədə çalışırıq ki, işlər bu yaxınlarda düzəlsin.

Bir şey var ki, onu da nəzərə almalıyıq, o da məmurlar barəsindədir. Məlumdur ki, müsəlman camaatı bu vaxtadək dəmir yolunda işləməmişlər, indi dəmir yolunda işləyənlərin çoxu [218 - 219] və bəlkə hamısı dostumuz ruslardır. Bunlar da azdırlar, tapmaq olmur. İndi məktəblər açılmışdır. Dəmir yol məmurları hazırlanır ki, öz əhalimiz də məmurluğa girsinlər. Tainki gələcəkdə dostlarımız ruslar getsələr özümüzünkülər işləsinlər. Əlbəttə, bu da çox işlərdən deyil. Dəmir yol məmurluğunu bir gündə öyrənmək olmaz. Maşinist, mouqəf naçalniki olmaq üçün bir neçə ay oxumaq və iki il də təcrübə lazımdır.

Xülasə, mən dübarə təvəqqe edirəm ki, komissiyonun qətnaməsini parlament qəbul etsin.

Hökumət tərəfindən daxiliyyə naziri Xəlil bəy Xasməmmədov cənabları dəxi izahat verir.

**Xəlil bəy** - Möhtərəm məbuslar! Sorğuya cavab verməndən əvvəl bir neçə kəlmə söz soyləmək istərəm. Əvvəla bunu nəzərə almalısınız ki, sorğu parlament əlində boyük bir ixtiyardır. İxtiyar parlament üçün bir kontrol, təftişdir. Sorğu elə bir şeydir ki, onun vasitəsilə hökumətin cəmi işlərini bilə bilərsiniz. Belə də olmalıdır, xüsusən o yerlərdə ki, parlamentarizm üsulu ilə idarə olunurlar. Hər nazir ozünü borclu bilir, varid olan sorğuya cavab versin. Mən daxiliyyə naziri və bütün hökumət o fikirdəyik ki, hökumət düzdoğru və qanuni olsun. Gərək və hər sozü sorğu barəsində doğru cavab versin və sizin fikirlərinizi bilsin. Bunların həpsi məmləkətin səlmət və xeyri üçündür. Siz görürsünüz ki, sorğu nə qədər boyük işdir, həm parlament, həm hökumət buna əhəmiyyət verir. Siz bilirsiniz ki, sorğunun qaydası nədir, nə cür verilə bilir. Əvvəla, sorğu o vaxt verilir ki, qanunsuz ola, xəyanət ola, saniyən daxili və siyasi işlərdə nazirlərin fəaliyyətində məmləkətə zərər yetirilə. Üçüncü, sorğu o vaxtı ola ki, mə'murlar xəyanət işləyirlər. Nəzarət onun müqabilinə çarə görməyə, işlər basdırıq gedə. Bu nöqteyi-nəzərdən baxılsa, sorğunun da böyük xeyri olar. Bu ümumi bir qaydadır. Ancaq bizim parlamentimizin nizamnaməsi olmadığından hər sorğu, qanuni hesab edilərək cavab verirsiniz. Halbuki, adətən belə sorğular olur ki, sorğu dairəsindən çıxır. Belələrinə hökumət əlbəttə cavab vermir, siz söyləyirsiniz ki, Azərbaycan daxilində buğda yığılıb dağıldıqca, hökumət məmurlarının da iştirak etdiyi məlumdurmu? Azərbaycan hökuməti elə bir qanun verməmişdir ki, əhalidən birdən də yığılsın. Siz bilirsiniz ki, buğda yığılıb, türk komandanlığının dovründə əsgər ehtiyacı [219 - 220] üçün və bu işdə hökumətin əli olmamışdır. Ola bilir ki, bu işdə daxiliyyə nəzarəti məmurları komandanlığa kömək etmiş olarlar, amma təkrar edirəm, Azərbaycan hökuməti əhalidən üşr yığmamışdır, bu işlər gedənədək davam etmiş və bu xüsus tamamilə onların öz əllərində olmuşdur. Sonra türk ordusu gedəndə hökumət o şeylərin mövcud olduğunu bildikdən komandanlığa müraciətlə şeylərini bizim məmləkətdən yığılmış və binaən-ileyh, bizə məxsus olduğunu bəyanla təvəqqe elədi ki, hər nə varsa kağız və siyahı ilə bizə təhvil versinlər. Fəqət, rəsmi cavab gəldi ki, türk ordusu getməyəcəkdir, ona görə də heç bir şey verilməyəcəkdir. İş bir mərkəzdə qalmışdır. Biz də məcburən almağı özümüzə rəva görmədik. Bir vaxt eşitdik ki, ordu kedir. Əsgərlər hər şeyi atıb gedirlər, şeylər idarəsiz, başına qalıb. Azuqədən əlavə, ləvazimi əksəriyyəyi də buraxıb gedirlər. Bunu eşidərək daxiliyyə nəzarəti qubernatorlara əmr etdi ki, o şeyləri mühafizə etsinlər ki, talan olmasın, ancaq hökumət heç bilmirdi ki, harada nə qədər nə şey var. Bunlarla bərabər mühafizəsi üçün tədbir görüldü. Deyə bilərəm ki, türklər buraxdıqları əşyanın çoxu əlimizə çatdı. Bir qismi hərbiyə, digər qismi ərzaq nəzarətinə verilmiş, bəzi yerlərdə də bir qədər qalmışdır. Onu daxiliyyə naziri saxlayır. Bu arpa və buğdadır ki, bu mühafizəsi üçün tədbir görülür.

Mənim sözümdən bu çıxır ki, buğdanı, arpanı yığanda həyasızlıq, suyi-istemal olmamalıdır, amma hökumət lazımi tədbir görmüşdür. Hanki yerdə nə olduğunu bilmirdik. Ancaq ən əvvəl bizə xəbər gəldi ki, Quba mahalında yığılan buğdanın bir qismi bizə çatmamışdır, oraya məmurlar göndərdik, hal-hazırda təhqiqat icra olunur. Əgər məmurların günahı olsa, əlbəttə ki, müqəssirlər məhkəməyə veriləcək və qanuna görə cəzalandırılacaqdır. İkinci dəfə Göyçaydan xəbər gəldi ki, orada da belə bir iş olmuşdur. Nəzarət, böyük bir komissiya göndərmişdir ki, orada işi təhqiq etsin görək, müqəssir kimdir. Kəşfi həqiqətdən sonra əlbəttə, orada müqəssirlər məhkəmə və məsuliyyətə cəlb edilib cəzalandırılacaqdır. Yenə bir xəbər varid oldu ki, Gəncə mouqefində olan malları dağıdırlar. Ona görə də bina işgüzarlıq edildi ki, Gəncədə olan mallar məhəlli ərzaq idarəsinə təhvil verilsin, verilmişdir. Türklər getdikdən sonra heç kəsdən pulsuz-parasız buğda və sair [220 - 221] mal alınmışdır. Daxiliyyə nəzarəti bir məmurun suyi-istemalını kəşf etsə dərhal onu cəzalandıracaqdı. Buğda məsələsi bununla qurtarır.

Sorğuda çox hekayətlər göstərilir. Əzcümlə natiqlər dedilər ki, neft məsələsində də məmurların əli var. Doğrudan da neft məsələsi böyük bir məsələdir. Burada dedilər ki, Qazağa külli miqdarda neft aparılmışdır. Həm Gürcüstanda, həm də Ermənistanda neft qəbahətliyi var. Onlar da çalışırlar Azərbaycan neftini aparsınlar. Qazaxda bir vaxt çox neft vardı. Bu miqdardan məmurların əli ilə qanundan xaric olaraq Gürcüstana çox neft aparılmışdır. Bu işdə bir neçə məmurun əli olduğu anlaşılmışdır. Şimdi bu iş təhqiq edilmiş, müstəntiqə verilmişdir. İstintaqdan sonra məhkəmədə baxılacaqdır. Dəmir yolunun başda Qazaxın özündə noyabrın əvvəllərində bəzi şeylər olmuşdur. Söz burasındadır ki, Qazax mahalına çox neft getmişdir. Neft aparılanda həpsi nefti Ağstafaya aparır və böyük pula satırlar. Oradan da çalışıb neftin araba, dəvə ilə, yainki dallarında Gürcüstan və Ermənistana aparırlar. Orada bu iş ətrafında böyük ehtikar dəxi olmuşdur. Böylə ki, daxiliyyə və

bəzi sair nəzarətlər məmurları və türk komandanlığının iştirakı ilə böyük bir komissiya əmələ gətirərək neft aparanlardan puta 20 manat naloq kimi pul alınmışdır. Məzkur pulların nə yerə getdiyini sual etdikdə cavab vermişlər ki, Qazaxdakı qışlalara xərc edilmişdir. Daxiliyyə nəzarəti bu əhvalatı bilər-bilməz dərhal bina-güzarlıq etdi ki, heç kəsdən pul alınmasın və şimdi artıq alınmır. Müqəssirlər ilə də əlbəttə, məmləkətin qanununa müvafiq rəftar ediləcək. Sorğuda daha başqa bir şey yoxdur. Bir neçə söz deyim. Mən sizin hüzurunuzda deyirəm, qüsurlarımız var, nəzarətin hər bir işi düzdür demirəm, ancaq işlərin həpsini son ayda düzəltmək mümkün olmamışdır. Böyük müşkülat vardır. Nəzarət ixtiyarında olan bütün vəsilə və qüvvə ilə bunları düzəltməyə çalışmaya borcludur. Nəzarət çalışır ki, o qüsurlar təshih ola və idarə ilə yola qoyaq ki, camaat razı, məmləkət səlamətdə qalsın.

**Qarabəyov** — Xariciyyə nazirinin bəyanatından kafi olmadığını zikr etdikdə bir qədərən fəalı mövcud oldu və buyurdular ki, bunlar xırda işlərdir, onları qurdalamaq olmaz. Mən mənafeyi-ümumiyyə naminə deyirəm ki, yüz minlərlə müsəlman [221 - 222] qırılması həmən belə məsləhətlərin xırdalanmasından irəli gəlmişdir. Bunlar söz qurdalamaq deyildir. Biz hökumətə sorğu verdikdə məqsədimiz əhvali-hazırı haqqında izahat almaq idi. Nazirlərdən biri deyir, yol yox idi, digəri deyir, bilməm fabrika nə oldu. Mən bu işi başa düşə bilmirəm, ancaq onu bilirəm ki, Azərbaycanın yeganə sərvəti olan neft məmləkətə xeyir vermək əvəzinə, zərər verir və camaatın acından qırılmasına səbəb olur. Belə sərvətə malikkən məmləkətdə ən-vai xəstəlik hökm fərma olub, camaat qırılır, çox ev bağlı qalır, bunlara kömək edə bilmiriz. Aya pulumuz yoxdur, doktorlarımız çatmır ki, bunlara bir kömək edilsin, çörək baha, ət tapılmır, geçi ətinin kirvənkəsi 15 manata qalxmışdır. Bizim borcumuzdur, belə şeylər gördükdə sorğu verək, məlumat alaq. Hökumətin də borcudur izahat versin. Belə şeylərə qarşı nə kimi tədbirlər gördyünü bildirsin. Doğrudur, ola bilər ki, ticarət və sənaye naziri belə şeylərə yer vermir, amma bu iş ətrafında böyük suyi-istemalar olur, əlbəttə burada müqəssir lazım deyildir, ancaq sistem elə qurulmuşdur ki, özü-özündə cinayət törədir. Elə mə'murlar var ki, neçə min manat almış bir kağız vermir, məmur acdır, aldığı maaş çatmır, əlbəttə, veriləcək paranı alacaqdır. Öylə qanun qoyulmalıdır ki, rüşvət verməyə məhəl qoyulmasın. Bu barədə tədbir görmək vəzirətlərin işidir. Lakin bu uğurda heç bir tədbir ittixaz edildiyi görülmür, əhval əsla dəyişilmir, getdikcə daha da fənalaşır, bez kasıblar üçün tutiyaya dönmüşdür. Nazirlər çalışmalıdır ki, bezi fabrika qiyməti ilə 5 manata ala bilsinlər. Amma biləks, biz dövlətlilər bezi 5 manata ala bilər, hətta bir az da mənfəət edəriz. Kasıblar isə 17 manata alırlar. (Alqış). Təkrar deyirəm, tədbirlər görmək lazımdır. Amma hökumət bu barədə heç bir tədbir görmür.

Sorğunun ikinci qismi buğda məsələsinə aiddir. Fəqət, mən deyirəm ki, bu yalnız buğda məsələsi olmayıb, bütün Azərbaycanda gordüyünüz ümumi işlərə aiddir. Nazirlər deyirlər, elə bir irs almışlar ki, az bir zamanda islah qeyri-mümkün idi. Ona görə də işləri tamamilə düzəldə bilməmişlərdir.

Suyi-istemalar haqqında bəzi məlumat verdilər. Bu xüsusda bizim özümüzün də məlumatımız var. Ancaq bunlar bir-birinə müvafiq gəlmirlər. Nazir deyir ki, buğdanı türklər yığmışlardır. Doğrudur, türklər buğdanı yığmışlar, yığmağa da [222 - 223] haqqları vardı. Çox da yaxşı işləmişlərdir, ancaq onlar buradan tələsik getmişlər, gedərkən buğdanı hökumət məmurlarına təhvil vermişlərdir. Onu da deməliyəm ki, buğdanı əşqıya dağıtmayıb, heç bir yerdən xəbər yoxdur ki, buğdanı əhali dağıtmışdır. Mən deyirəm ki, əşçiya da, oğru da daxiliyyə nəzarətinin öz məmurlarıdır. (Şiddətli alqış). Qubadan alınan məlumata görə oradan 15 vaqon buğda gətirilmişdir, ancaq nərəyə ketmiş, pulları nərəyə sərf olunmuşdur, məlum deyildir. Fəqət burası məlumdur ki, bu buğda məmurlar vasitəsilə gətirilərək satılıb, pulları da ciblərə qoyulmuşdur. Quba mahalında bir çox kəndlərdə buğda var idi. Türklərdən sonra yenə yığılmışdır. Məsələn, Rostov mahalında Qursal kəndindən mahal naçalnikinin əmri ilə bir vaqon buğda, bir vaqon arpa yığılmışdır. Bundan əlavə oralarda anbarlar var ki, hökumət əmri ilə türklərdən qalan buğda oraya cəlb edilmişdir, fəqət, məzkur buğdanın necə olduğu məlum deyildir. Bir də Qızılburun mouqəfində türklərdən qalma 40 vaqon odun qalmışdı. Mahal naçalniki məzkur odunu İsmayıl bəy İskəndərbəyova satmışdır. Bu xüsusda ərzaq nəzarəti vəkili Yusifəli tərəfindən üç teleqraf çəkilmişdir. (Teleqrafları oxuyur). Amma heç birinə cavab verilməmişdir. Buğdaların nərədə olduğu gostərilməmişdir, lakin bütün Quba əhalisi göstərə bilir.

Orada olan suyi-istemaların açılmasından qorxaraq hökumət məmurları camaat arasında min cür intriqalar çıxarırlar. Məsələn, sünni-şiə məsələsi salırlar, qoçulardan, quldurlardan dəstə düzəldib əhalini bir-birinin üzərinə saldırırlar, milliyyə naçalniki əhali arasında dəstəbazlıq salır. İş bir məqama çatmışdır ki, qırğınsız yatmayacaqdır. Hər tərəfdən qanlar tokülücəkdir.

Məbusların gətirdikləri məlumata görə Qazax mahalında başqa hənkamələr olur. Yenə təkrar edirəm ki, orada olan məmurlar bir kompaniya qurub gedən-gələn mallardan naloq alırlar. Soruşanda ki, bu pulları nə edirsiniz, deyirlər əsgərlərə sərf ediriz. Halbuki orada olan əsgəri görənlər onların ac, çılpaq, corabsız olduqlarını isbat edirlər. Məsələn, Tislenko nam bir şəxsə neçə vaxt bundan müqəddəm kürü (ikra) aparmaq üçün bir icazə vermişlərdir. Şimdi iki aydır ki, haman icazənamə ilə Tislenko Poyludan Tiflisə hər növ [223 - 224] şeylər daşıyır. Bu vaxtadək bu iş açılmamışdır. Orada isə milyonlar qazana bilər.

Qazax mahalında əhali arasında fitnə-fəsad vardır. Əhali dəstə-dəstə olmuşdur. Bunları da dəstəyə ayıran yenə hökumət məmurlarıdır. Əlbəttə, bu adamlar dəstə düzəltməlidirlər, çünki bilirlər ki, bir vaxt bu işlərin üstü

açılacaqdır. Onda dəstə lazımdır ki, onları müdafiə eyləsin, nümayəndələr göndərsinlər ki, filankəs yaxşı adamdır, biz onu istəyiriz.

Bu işlər ola-ola hökumət bu məmurları yenə öz yerində saxlayır. Gəncə polisinə gəldikdə bunlar hakəza qaçaq quldurlara istinad edirlər. Məsələn, məmurlar qaçaq Qəmbər, qaçaq Ələkbər və sairələrlə əlbir olmuşlardır. Körünür ki, Gəncə polis məmurları quldur, qaçaqsız yaşamırlar. Öz polisimi göz qabağındadır. Gecələr parta-part, soyğuntu və oğurluq kəsilmir. Polismeysteri yerində görmək olmur. Bütün bu əhvalatı görür, eşidərkən nazir əfəndilərin məsələni ehtimal ilə keçməklərini qəbul edə bilməriz. Biz əhali tərəfindən vəkiliz, görürüz ki, hökumət işləmir. Ona görə ki, necə ki, qabaq da hökumətə etimad etməmişdik, şimdi iki ay təcrübədən sonra yenə etimadımızı vermiriz.

**Aslan bəy Qaraşov** ("Əhrar") - Bizim varidatımız qonşu hökumətlərdən neçə qat artıqdır. hətta bizdə olan neft, be qonşularımızda heç yoxdur. Halbuki bizdə olan şeylərdən qonşularımız bizdən daha çox fayda görürlər. Bunun da səbəbi hökumətin bu xüsusda əsaslı bir sistem, doğru bir yol tutmasıdır. "Azərbaycan" qəzetinin 16 №-dən anlaşılır ki, noyabr ayının ibtidasından Tağıyevin manifaktura fabrikası hökumət nəzarəti altına alınmışdır və bu tarixdən dekabr ayının 10-na kimi 469 730 arşın manifaktura buraxılmışdır. "Azərbaycan" qəzetinin 16-cı nömrəsinə diqqət edilərsə, fövdə məzkur miqdardan 130 480 arşını yalnız Bakı daxilinə buraxıldığını görəriz. Bundan əlavə, Bakının 3 məscidinə 5 min, İran konsuluna 3 min, bir naməlum türk zabitinə 5 min, türk ordusuna 65 min, Şuşa, Quba, Zaqatala, Şəki və Lənkəran şəhərlərinə 110 min, Azərbaycanın kənd əhalisi naminə 113 250 arşın və Dağıstana 38 min arşın buraxılmışdır. Bakı daxilində buraxılmış 130 480 arşın bezin [Bakı] əhlinə verilməkdən əlavə, Bakı milyonçularından birinə 10 min arşın benzin verildiyini görərsiniz. [224 - 225]

Bakı məscidlərinə 5 min arşın bezin kimə və nədən ötrü verilməsinin səbəbi nədir? Bakıya manufakturanın çoxu İrandan gəldiyi halda İran konsulunun Tağıyev bezinə ehtiyacı yoxdur. 5 min arşın türk zabitinə verilmişdir. Əcəba, kimdir o türk zabiti? 65 min arşın bezin türk ordusuna deyil, Vəkilov adında bir möhtəkirə verildiyini məndən əvvəlki natiq bəyan etdi. Azərbaycan ilə Lənkəranın heç bir münasibəti olmadığı halda Lənkəran camaatı naminə, bir neçə möhtəkirə bez buraxılmışdır. Zaqatala kooperativlərinə verilən 50 min arşın bezdən Zaqatalaya ancaq 23 min arşın çatmışdır. Şəki hesabına verilən 6 min arşın bez Şəkiyə aparılmayıb, ancaq Salahov familiyasına mənsub bir şəxs tərəfindən kəndi cibi mənfəətinə Bakıda satılmışdır. Əcəba, hökumət buna göz yumur. Azərbaycanın kənd əhalisi namına buraxılan 113 min arşın bez ancaq Bakı ətrafında olan kəndlilərə verilmişdir. Bunun da doğru və dürüst yazıb, kəndlilərə verildiyinə şübhə ediriz. Başqa yerlərdə bulunan kəndlilər isə tamamilə bundan məhrum olmuşlar.

Dağıstana 38 min arşın bezin verilməsinə zidd deyiliz. Fəqət, bizimkilər çılpaq qalıb da Dağıstana verilməsi tühəf bir şeydir. Bu bezin Dağıstan fəqirlərinə, möhtaclarına verilməsinə də şübhə etmək istəyiriz. Ərzaq nazirinin bəyanatından anlaşıldı ki, Şuşa və Gəncə şəhərlərinə 330 min arşın bezə izin verilmişdir. Bizə məlumdur ki, bu 330 min arşının 300 mini yalnız Gəncə şəhərinə təxsis edilib, 100 min Gəncə şəhərinə aparılmışdır da, halbuki Şəki şəhəri Gəncə ilə nüfusca müsavi və ehtiyacına Gəncədən dərəcələrcə artıq olduğu halda, Şəki şəhərinə ancaq 60 min arşın ayrılmışdır. Bir arşın da olsun Şəkiyə və uyezdinə bez verilməmişdir.

Mərkəzdən uzaq və 100 min nüfusa malik Zaqatala əhalisinə 30 min arşın bez izn verilib. Hələ bir arşın da olsun buraxılmamışdır.

İltifat edilsin, hökumətin bu bez fəqərəsində heç ədalət qoxusu varmı? Diqqət edilsin Tağıyevin fabrikasına, noyabrın ibtidasından kontrol altına aldıqdan dekabrın 10-na kimi 469 720 arşın bezin siyahısını göstərir. Halbuki bu qırx gün içində Tağıyev fabrikasında iki milyon [arşından] ziyadə manufaktura emal olunmuşdur. Əcəba, bir milyon yarım manufaktura nereyə və kimlərə verildi? Bundan bu nəticəni [225 - 226] çıxara biləriz ki, hökumətin bu fabrikanı kontrola almasından əhali deyil və bəzi bəxtiyarlar nəfi bərdar olmuşdur.

Bundan başqa hansı adamların əhali tərəfindən həqiqi vəkil olaraq bez almağa gəlmişsə də, bez belələrinə deyil, qurma vəkil olanlara verilmişdir. Bunun isbatı qəzetə oxuyanlara məlumdur.

Ərzaq nəzarəti 24 gündə 22 şəhadətnamə, ticarət nəzarəti 40 gündə 50 şəhadətnamə vermişdir. Bundan bu xatirinizə gəlməsin ki, bez istəyənlər ancaq bu 72 adam olmuşdur. Xeyir, ticarət nəzarəti dəftərxanasında bez haqqında çuvallar ilə etina olunmayan ərzi hallar vardır. Ticarət nəzarəti neft haqqında Gürcüstan və Ukrayna hökumətləri ilə neft mübadiləsi haqqında bəyanat verdi. Lakin müqavilənin nə şərtlər ilə əqd edildiyini və nə kimi mallar ilə mübadilə edəcəyini açıq söyləmədi. Hətta nəzarət tərəfindən verilən bəyanata belə oxşamadı.

Zəkat, üşr haqqında maliyyə naziri deyir ki, üşr Azərbaycan hökuməti əmri ilə deyil, türk komandası əmri ilə yığılmışdır. Bir vaxt eşitdik ki, ordu gedir, əsgərlər hər şeyi atıb gedirlər, şeylər idarəsiz qalır. Üşrin yığılması Azərbaycan hökuməti əmri ilə olmayıb türk komandası tədbiri ilə olması doğrudur. Fəqət, əsgərlər hər şeyi atıb gedirlər, şeylər idarəsiz qalır, cümlələri bir o qədər doğru olmasın gərək. Çünki, toplanan üşr, türk komandanlığı təhti-idarəsinə tabe edilmiş Azərbaycan ərzaq şöbələrinə yığılır idi. Vaxta ki, türklər getdi, toplanan üşrlər yenə haman ərzaq şöbələrinin əlində qaldı. Daxiliyyə nazirinin sözündən, türklər getdikdən sonra guya üşr yığılmır, halbuki, türklər gedəndən sonra Osmanlı hökumətində üşr alınmayan şeylərdən indi Azərbaycan məmurları üşr

yığır. Sözlərimi isbat üçün firqəmizin bir əzası naminə gələn məktubu oxumaq məcburiyyətində bulunuram. Baxın, məktubda nə yazılmışdır?

Məktubu oxuyur, bədə nitqinə davamla deyir ki, daxiliyyə naziri deyir ki, Bakıdan aparılan neft, bez malları qarabağlı, gəncəli, goyçaylı və başqa tacirlər hamısı Ağstafaya aparmışlardır. Və Ağstafaya aparılan neftin, bezin Gürcüstana keçirilməsini açıq-açığına bəyan edir. Mən təəccüb edirəm ki, tacirlərin bezi, nefti Ağstafaya aparmalarına ticarət naziri nə üçün izin vermişdir və böylə bir xəyanətin qabağını [226 - 227] hökumət nə üçün almamışdır? Ağstafa Azərbaycanın mərkəz stasiyonu deyil ki, oraya bu qədər mal buraxılsın.

Yeni kabinet təşkil edildikdə "Əhrar" fraksiyası bu ümiddə deyil idi ki, əski kabinet tutduğu yollar, etdiyi səhv və xətalar bir daha təkrar edilməyəcəkdir, lakin məəttəssüf, yeni kabinetin tutduğu yol əskinin eyni olduğunu görürüz. Hökumətin bu gün verdiyi izahatdan halların islah ediləcəyini də eşitmədik. Ona görə "Əhrar" fraksiyası, bez, neft və ərzaq haqqındakı hökumətin verdiyi izahatı kafi görmür.

## Azərbaycan məclisi-məbusanı və sosial-demokratlar:

Sosial-demokrat firqəsinin fevralın 3-də vaqe olan iclasın 10 səs əleyhinə, 14 əksəriyyət səslə Azərbaycan parlamentinə daxil olması qərara alınmışdır. Həmkarlar İttifaqının parlamentində nümayəndəsi olmaq məsələsinə gəldikdə qərara alınmışdır ki, həmkarlar ittifaqları siyasətcə bitərəf olduqlarından parlamentə daxil olmalıdır.

"Bund" yəhudi təşkilatının fevralın 2-də vaqe olan ümumi iclasında Azərbaycan parlamentinə daxil olmaq məsələsi haqqında Bilyuşqenin məruzəsinə görə bir qətnamə qəbul edilmişdir.

1-Azərbaycana münasibəti olan hamı məsələlərin həllində iştirak edir, fəhlə sinfinin mənafeini müdafiə etmək məq-sədilə sosial-demokratlarının Azərbaycan parlamentində iştirak etmələri lazım görülür.

2-Yəhudi füqərayi kasibəsini və yəhudi demokratiyasını mənafeyini müdafiə etmək naminə "Bund" nümayəndəsinin Azərbaycan parlamentində iştirak etməsi arzu olunur.

3-"Bund" təşkilatı sosial-demokrat firqəsinin muxtar bir hissəsi olduğundan vahid bir firqə bayrağı altında parlamentdə iştirak etməlidir. Bundan ötəri də sosial-demokrat firqəsinə təklif etməlidir ki, haman firqəsinin muxtar bir hissəsi olmaq sifətilə "Bund" üçün parlamentdə əlavə bir yer tələb etsin.

## İkinci gün [5 fevral]:

**Sədr** — İclası açaraq, Məhəmmədağa Vəkilovun qubernatorluqda qalaraq, məbusluqdan istefa verdiyini və Seyidov ilə Tağıyev [227 - 228] Əşrəfin iki aydan bəri gəlmədiklərindən məbusluqdan xaric hesab edildiklərini bəyanla fraksiyalara xahiş edir ki, çıxan məbusların əvəzinə sairlərini göndərsinlər.

**Ağamalov** ("Hümmət") - Dünən nazirlərdən birisi dedi ki, hər şeydən ötrü sorğu vermək olmaz. Nazirin sozündən belə çıxdı ki, sorğu vermək üçün bəzi şərait movcud olmalıdır. Əzcümlə, məsələn, o vaxt sorğu verilir ki, hökumətin ümumi siyasəti xalqa zərər ola, daha məsələn, bir naçalnik rüşvət alıb bu barədə sorğu verməzlər.

Bəli, nəzarətin siyasəti eylə olmalıdır ki, xalqa ondan zərər dəyməsin. Amma bizim nəzarətlərimizin siyasəti böylə deyildir, zərəri var və bu siyasət nə qədər dəyişməyib, belə də olacaqdır. Bu siyasət nə siyasətdir? Buna böyük diqqət vermək lazımdır. Bu siyasət indi deyil, türklər buraya qədəm qoyandan başlayıb davam edir və bir müddətdə edəcəkdir. Bu siyasət xalqı qorxuda saxlamaq siyasətidir. Şimdiki siyasət sabiq hökumətin siyasəti türklərin gəlməsi və onların hərəkəti bir-birinə bağlıdır. Biz burada yoxuyduq, amma eşidirdik ki, türklər ağır yumruqlarını fəhlə və kəndlilərin üzərinə qoyub, onları sıxmışlar. Tərəf müqabil dirilmiş, suvarılmış, yanmış ot kimi yenidən goyərmişdir. O vaxt hökumət tikildi, fəqəq parlament çağırılmadı, çünki tez-tez parlament xalq səsi idi. Əgər hökuməti parlament tiksə idi, belə olmazdı, amma parlament tikmədi. Nuru paşanın qanadı altında tikildi, adını da qoydular... Nə bilim Azərbaycan Cümhuriyyəti. Bu siyasətin ibtidasını o ağalar qoydular ki, indi də gedir. Bu hökumət də o hökumətin tayıdır. Bir məsəl var ki, deyirlər erməninin yaxşısı olmaz, amma bu erməni o ermənidən yaxşı olar. (**Abbasqulu Kazımzadə** yerindən: Siz də yaxşı sosialistsiniz!) Bəli! Bu hökumət o hökumətin tayıdır. Bunun siyasəti onunku kimidir. Bu siyasətdə ibarətdir camaatı əzməkdən. Türklərin zamanında qoyulan siyasət bizim hürriyyət və istiqlalımıza ziddir. (**M. Əmin** yerindən: Sağ ol!) Çünki bu siyasət fəhlə və əkinçini əzir, ölüm verir. O yerdə ki, camaatın əksəri zillətdə oldu, o millətin gücü olmaz. Odur ki, biz deyiriz. Həqiqi istiqlal şəraitində yaşamaq istəyənlər həmişə camaatın asayişini təmin etməyə çalışmalıdırlar, nəinki əqəliyyəti. Mən yenə deyirəm, bu hökumət belə gəlib bir müddətdə davam edəcəkdir. Şimdi məndən soruşa bilərsiniz ki, [228 - 229] hökumət pis isə nə üçün sosialistlər onu qəbul etmişlərdir. Bunun cavabında deyirəm ki, baxdıq gördük hər tərəfdə işlər fənadır, hər tərəf düşməndir (Mərkəzdən və sağdan: bravo!) siyasət barəsində yoldaşım müfəssəl danışacaqdır. Ancaq indi bunu demək istəyirəm ki, məmurlar belə zənn edirlər ki, qüvvəni quldurlarda, qaçaqlarda, adam öldürənlər də tapmaq olar.

(Məmməd Əmin yerindən: Hamı məmurları belədir?)

Bəli! (Ümumi gülüş). Amma camaat qulduru hökumət yanında görəndə hökumətin zəifliyinə istinad edir. Avropada adətdir, bir adamı qulluğa qəbul etdikdə ondan attestat istəyirlər. Bizim də attestatımız oğurluq-quldurluq, adam öldürməkdir. Gəncə tərəfdə polislər və strajniklər belə adamlardandır.

Bizdə bəzi yerlərdə şimdi bir adət var. Hər kəs şikayət etsə, onu döyürlər, xüsusən qulluqçudan heç vaxt şikayət etmək olmaz. Yüzbaşıdan, pristava, pristavdan naçalnikə xülasə, bir qulluqçudan boyüyünə şikayət etmək qadağandır. Bir də Nikolay vaxtında heç hürriyyət olmayan zaman yenə bir kəndxuda seçkisi var idi. Şimdi bu da götürülmüşdür. Mən Qazaxda olanda camaat məscidə yığılmışdır. Yüzbaşı məsələsi var idi. Dedim yüzbaşınız pis isə yenisini seçin, dedilər necə seçək ki, neçə min manat alıb Mahmudu təyin ediblər.

Şimdi gələk sud məsələsinə: məhkəmə işlərinin hamısı polis əlindədir. Sudyalar bekarçılıqdan alış-verişə qurşanmışlar. Sud yoxdur. Keçirəm dünənki sorğu məsələsinə. Sorğuda deyilir ki, məmurlar rüşvət alırlar. Biz də təsdiq ediriz ki, belədir. Sonra polis məmurlarıın fəna hərəkətlərindən iki misal gətirərək deyir ki, rüşvətxorluq yalnız Qazaxda deyil hər yerdə var. Nazirlər bunu bizdən yaxşı bilirlər. Bunun qabağını almaq, çarə qılmaq lazımdır. Lakin çarə bu deyil ki, hökuməti çıxarasan. Bu hökuməti dəyişsən də iş dəyişməz, çünki Həsən keçəl, ya keçəl Həsən. Hökuməti dəyişmək deyil, siyasətin ruhunu dəyişmək lazımdır. Biz burada hökumətə etimad məsələsindən bəhs etmiriz, çünki ümidimiz yoxdur ki, sonra gələn hökumət bundan yaxşı olsun. Bəs nə etməli?

Mən deyirəm xəyanətdə tutulan məmurların həpsinə cəza lazım deyil, var-yoxunu əlindən alıb, qabaqkı halına salmaq lazımdır. Bunun üçün parlamentdə iki komissiyon təşkil edilsin. biri istinad, dikər qanun verən komissiyon ki, cinayət açıldıqda xainlər milyonçu olsalar da milyonları əlindən [229 - 230] [alınıb] altı ay əvvəlki hallarına salınsınlar, yoxsa nə hökumət yaşaya bilər, nə biz.

**Soltan Məcid Qənizadə -** Nazirlərdən birsinin dediyindən belə çıxdı ki, bu işlər həp türklər gələndən bəri, başlamışdır. Deməli, türklərdən əvvəl heç kəs hinə soxulmurmuş, biz istədiyimizi uca kürsüdən danışa bilirmişik. Natiq öz insafı ilə desin, doğurdan da böyləmi idi? Mən bu barədə çox dapışmayacağam. Öz insaflarına buraxıram. Qoy onların cavabını da öz vicdanları versin. Amma mən deyirəm ki, həmin bu istiqlal və hüriyyət biz azərbaycanlılara türklərin əli ilə əta edilmişdir. Azərbaycan, Gürcüstan və Ermənistan hökumətlərinin öz rəsmi kağızları ilə isbat edirəm ki, nəinki Azərbaycan, hətta Gürcüstan və Ermənistanda istiqlaliyyəti türklər vermişdir. (Sağdan: sağ ol!). Burada deyirlər ki, rüşvətxorluq və suyi-istemal çoxluğunu (hərəkətini) türklər vermişlərdir və elmi-təbii qanuna görə həmin təhriq sövqü ilə indi də davam edir. Fəqət, məlumunuzdur ki, o qanuna görə hər talçokun hərəkətini hər kəs talçok saxlar, şimdi əgər o talçok türklərdən isə və türkdən böyük bir qüvvə varsa, buyursun bir əks talçok çıxarsın və birinciyi dayandırsın. Mən danışıqlara Krılovun məşhur sözü ilə cavab verirəm ki, bu adamlar o şeyə oxşayırlar ki, bir meyvədən barlanır, fəqət, bu meyvənin haradan düşdüyünü bilmək istəmir. Biləks bu gün məmləkətdə xəyanət və cinayət varsa, ondadır ki, haman qüvvə ketmişdir. Şimdi biz gərək çalışaq qara qüvvələri rəf və dəf edək. Ancaq o halda millətnərəstçilik dili ilə bu mənbərdən dediyimiz kimi bayrağımız ucalar, cumhuriyyətimiz yaşayar.

**Məmməd Əmin Rəsulzadə** — hökumətə verilmiş olan sorğu müzakirəsi elə bir şəkil aldı, adətən, Məclisi-Məbusanda büdcə müzakirəsi surətinə düşdü. Qaydalar ümumi siyasət və nazirlərin fəaliyyətindən büdcə təsdiqi müzakirəsi əsnasında belə əsaslı bəhslər olunur. Fəqət, sorğular üçün məhdud vaxt verilir. Müəyyən sorğular veriləndə hökumət və millət və parlament qail olar və qərar çıxarar. Fikrimi bəyan üçün mənə

müsaidə verəsəniz.

Əfəndilər! Burada hökumətdən bəhs edilərkən parlamentdən əvvəlki halı da nəzərə almalıdır. Sonrakını da. Məclisi-Məbusan dəvətindən əvvəlki hökumət dövründə olan, sorğu sualını sonrakı hökumətə istinad vermək müvafiq olmaz və [230 - 231] ədalətə uymaz. Əgər parlamentdən əvvəlki hökumətin siyasətində xalqa zərər dəymişsə və şimdi lazım görülürsə, sabiq nazirləri təhti məsuliyyətə alalım, məhkəməyə cəlb edəlim. Fəqət, onların günahı üçün yeni kabinəyə etimad ya ədəmi-etimad məsələsi qaldırmaq heç də münasib şeylərdən deyildir. Keçən natiqlər hökumət siyasətindən çox bəhs etdilər. Ona görə bu xüsusda bir qədər bəyanat verilməzsə, zənnimcə, məsələ birtərəfli tənəvvür edilmiş olar ki, o da mətlub deyildir. Ağamalıoğlu parlamentdən əvvəlki hala və o halın qeyri-təbii olduğunu türklərin buraya gəlmələri ilə əlaqədar tutur. Zopadan və qatı tədbirlərdən şikayətlə Ağamalıoğlu türklərin buraya gəlmələri siyasətin "Müsavat"ın siyasətində görür və deyir ki, türklər gəldilər, bu fəna bünövrəyi qoydular və şimdi haman hal davam edir və bir müddət edəcəkdir də, digər tərəfdən Ağa Aşurov cənabları deyirlər ki, məmləkətimizdə düz adam yoxdur. Bu iki mətləb bir-biri ilə sıxı surətdə mərbuq və hər ikisi yanlışdır. Zira bunların nitqlərinin ruhundan belə anlaşılır ki, biz özümüzü idarə etməyə, müstəqil olmağa layiq deyilmişik. Mən bütün vicdanımla buna protesto edirəm. Bizim şimdi giriftar olduğumuz hal yalnız Azərbaycan deyil, yalnız Ermənistan və Gürcüstan deyil, hətta sabiq Rusiya ərazisində təşkil etmiş bütün dövlətlərdə deyil, əskidən bəri müstəqil yaşayıb özlərini idarə etməyə adət eləmiş olan böyük cahan dövlətləri belə aləmşümul müharibə nəticəsi olaraq təbii halını qeyb etmişdir.

Sənələrdən bəri kəndisini idarə etmək nə olduğunu bilmədiyimiz, əsarətdə yaşayıb miliyyə hissindən məhrum olduğumuz halda hökuməti əlimizə alırız, ona görə biz özümüzü idarə etməyə layiq deyiliz fikri yanlışdır.

Türklərin buraya gəlməsində bir günah təsvir olunur. Guya türklər buraya gəlib zopa işlətmişlər, onları qeyri yolsuzluqlar ilə də töhmətləndirirlər və bu işdə hər nədənsə, natiq əfəndi "Müsavat" firqəsini əlaqədar tutur və buyurur ki, türkləri Azərbaycana "Müsavat" gətirmişdir. Qəribədir ki, digər tərəfdən də "Müsavat" türkləri istəmir deyə bizi ittiham edirlər. Əvət, biz türkləri gətirdik. Bunların ikisi də doğrudur.

"Müsavat" türkləri çağırdı, çünki burada Azərbaycan türklərinin həyatı təhlükədə idi. Bu məsələdə o zamankı Azərbaycan [231 - 232] şurayi-millisi müttəfiq idi. Bu nöqteyi-nəzərdə sosialistlər bu gün peşiman olsalar da o gün bizimlə bərabər idilər. Ağamalıyev də türkləri çağırmışdı, fəqət, olar bundan imtina etsələr də, biz kamali-cəsarətlə deyiriz, türkləri çağırdıq və bununla da iftixar ediriz. (Alqışlar).

Çünki türklər gəlməsəydi Bakıda vüqu bulan mart hadisəsinin təsiri yalnız Bakıda qalmayıb bütün Azərbaycana istila edəcəkdi, millətdə ümumi bir qitalə məruz qalacaqdı. (Mərkəzdən alqış). İşdə bu ali məqsəd üçün türklər buraya dəvət olunmuşlardı və burada əgər bəziləri tərəfindən bir takım üsulsuz hərəkət vaqe olmuşsa, o kimi münfəridən icra olunan ədəbsizlikləri bizi xilasa qoşmaqdan başqa günahları olmayan fədakar Türk Ordusuna, Anadolu Məhmədciklərinə təhlil etmək olmaz. Belə bir nəməkbəhramlığı millət irtixab eləməz! (Mərkəzdən alqış). Əcəba, türk əsgərləri tərəfindən görülən bəzi şiddətləri gorürkən rus inqilabçı ordusunun cəbhədən qayıdarkən bütün dəmir yolu ilə müsəlman füqərayi-kasibəsi üzərinə yapdıqları hədsiz-hesabsız və həqsiz samosudlarını unutduqmu, əcəba. (Mərkəzdən səslər: Doğrudur! Soldan: elə deyildir).

Əfəndilər! Bununla bərabər "Müsavat" türklərin əleyhinə idi. Bu da bir noqteyi-nəzərdən doğrudur. "Müsavat" firqəsi birinci firqədir ki, Qafqaziyada türklüyün bayrağını yüksək qaldırıb, türklüyün hissiyatını oyatmışdır. (Mərkəzdən alqış). Fəqət, bununla bərabər "Müsavat" hər zaman türklərin ittihadını bir konfederasion şəkildə təsəvvür eyləmişdir. Biz bilirdik ki, şimal istibdadından yeni yaxasını qurtarmış Azərbaycan türkünün yüz sənəddən bəri adət eləmiş əhvalları vardır. Biz bilirdik ki, İstanbul doğurdan-doğruya Bakını idarə etmək istərsə, xalq bu idarəyə təhəmmül edəməz. Bakı İstanbula qarşı üsyan edər. „Bunu biz hər zaman bilirik, onun üçün də Azərbaycanın kəndi başına idarə olunmasını istəyirdik.

Biz istəmirdik ki, Azərbaycanın da ağırlığı zavallı Anadolu türklərinin boynuna atılsın və Azərbaycanda bulunacaq Türk Ordusu əfradından bəzilərinin yolsuzluqları Azərbaycan türkləri nəzərində Osmanlı türklərini ləkələndirsin. İşdə bu noqteyi-nəzərdən biz məsələyə idrakla baxaraq türklərin bizləri xilas üçün buraya gəlmələrinə tərəfdar olduğumuz [232 - 233] kimi bizim və onların nəfinə olaraq buraya qanunən idarə etmələrinə dəxi tərəfdar idik. Buna gorə dəxi bu iki məsələ söylədiyim bu tərzdə doğrudur.

Əfəndilər! Bilirsiniz ki, parlamentdən əvvəlki üsul və əhval nə qədər fovqəladə idi. O zaman da siyasi firqə və müxtəlif cəmiyyətlərin nə dərəcə və nə qədər idarəyə nüfuz etdiklərini bilirsiniz. O zaman hokumət ayrı cür idi. Hal-hazırda parlament təşkil olunandan sonrakı hökumət qarşısında məsul olduğu üçün əhval bir dürlü həqq təshihə daha müsaiddir. Bu səbəblə bizim düşündüyümüz bir məsələ var ki, qarşımızda məsul olacaq xalq və hökumətə biz idarəyi nə vaxt və nə kimi halda tapşırmış idik. Əvvəl bunu düşünməli, ondan sonra hökuməti təbdil üçün deyil, ancaq hökumətə doğru bir yol göstərmək və bu yolda bir fayda bəsləmək qəsdi ilə bu kürsüyə çıxıb tənqidat yolunda bulanmaq lazımdır, bir az müddət zərfində imkan daxilində nə ola bildi olmuş. Mümkün ola bilən işlər əcəba olmuşdur və yaxud olacaqsa nə dərəcədə, nə qədər olasıdır. Bunları əvvəla salim bir fikrə sahib olaraq tənqid etmək lazımdır, türklər bir dəqiqədə buradan getməli oldular. Siz bir kərə türklərin buradan çıxdıqları vaxt təsəvvür ediniz o zamandakı hissiyyatımızı əlinizi və vicdanınızı qoyaraq müraciət ediniz və sonra da xaricdən gələn bir qüvvəni və o qüvvə dolayısı ilə doğulan və qorxulu fikirləri düşününüz, tərəziyə qoyaraq çəkiniz. Həyatınız həp böhranlı və nə kimi xof ilə rica arasında idiniz.

Sizi xarici qüvvələrə qarşı müdafiə edən bir qüvvə dolayısı ilə haminiz olan Türk ordusu bilməcburiyyə gedir, əvəzində digər bir qüvvət gəlir ki, sizinlə olan əlaqəsini qətiyyən bilmirsiniz, sizə qarşı nə cür hərəkət edəcək və sizi müdafiə edəcək, yoxsa başqa cür hərəkət edəcək, onun vəziyyəti-siyasiyyəsi nə olacaq, Azərbaycan taxtı salamat olacaqmı, yoxsa yox? İştə öylə təhlükəli bir zamanda Azərbaycan şurayi-millisi parlamenti dəvət etdi.

Parlamentin üzvləri iclas gününə nə kimi xof ilə rica arasında toplandılar, bunu da siz özünüz pək əla bilirsiniz. O zaman təsadüfi olaraq ingilislərdən maiədə bir çox xarici qüvvətlər gəlmiş idilər, paytaxtımızda nələr törətdiklərini də unutmamayınız. Bunların hərəkətləri nə tövr idi. Hər saat hər dəqiqə parlamentimiz hüquqa məruz olacağını düşünməkdə [233 - 234] idik. Paytaxtımızda belə başqa şəhərlərimizdə, vilayətlərimizdə nələr vaqe olduğunu bilmirdiniz. Biz ümidvarıq ki, türk qardaşlarımız gedəndən sonra onların yerində bir Azərbaycan qüvvəsi oturacaq və bizləri müdafiə edəcək. Fəqət, o fikirli həqiqətə müvafiq olmadığı görüldü. Təəssüf ki, Azərbaycanda bir qüvvə də qalmamış idi. Bunu siz də bilirsiniz ki, bu xüsuslarda daha fəzlə danışmağa zaman və məkan müsaidə deyildir. Bilirsiniz ki, türklər burada ikən nümayəndəlik müəssisəsi olmadığından hökumət nə sürətlə idarə edilirdi və nə dərəcəyə qədər idarənin namüsaid olduğunu da bilirsiniz, o zaman işlərin bəzi türk zabitləri ilə nə qədər əlaqəsi var idi. Nəzarətlərin təşkilatları nə sürətlə idi. Sabiq nazirlərdən Ağa Aşurov canabları, bu gün buyurmuş xitabində buyurdular ki, nazirlər xırda işlər ilə məşğul olurlar. Neft, bez və sairə şeylər ilə ərazilərə baxaraq imza edirlər. Sabahdan axşama qədər məşğuliyyətləri ərizəyə baxmaqdır və böyük işlər ilə uğraşmağa vaxtları olmur. Fəqət, Ağa Aşurov cənabları kəndiləri nazir

ikən nəinki bez, neft və sair vəsiqələrə baxmaq, bəlkə də pamidor icazənaməsini kəndi imza edir idi. İşdə ümumi nöqteyi-nəzərdən məsələyə ətraflıca baxılaraq vəziyyəti-siyasiyyəmiz göz önünə kətirilərək bitərəfanə mühakimə etməli və məsələyə öyləcə yanaşılmalıdır.

Şimdi meydandakı əsl mətləbə gələlim. Meydanda olan yalnız sorğu məsələsidir. Bu sorğu əvvəlcə maddələrdən ibarət idi. O maddənin əhəmiyyətli məsələsi məmləkətimizin yeganə sərvəti və bütün dünyada məmləkətimizi mümtaz edən neftin müvafiq üsul ilə satılması və bezin xalqa yaxşıca paylanması idi. Bu sorğu əsas etibarı ilə ticarət və sənaye nəzarətinə aid idi. Fəqət, sorğunu verən əfəndilər əvvəlcə söylədikləri bu oldu ki, onlar heç bir şəxsi ittiham etmək deyil, sistemin əsasən dəyişdirmək istəyirlər və bunun üçün də bir komissiyon təşkilini təklif edirdilər. Fəqət sorğu veriləndən sonra gördük natiqləri, nəzarətləri bütün ayrı tərəfə çəkdilər. Ticarət nəzarətinin üsulsuzluğunu düzəltmək qəsdi ilə neftdən başladıqları halda əsil mətləbin üzünü xəfifcə basdıraraq qaradavoylar üzərində dayandılar. (Alqış). Doğrudur, qaradovoylara əhəmiyyət vermək lazımdır, çünki onlar camaata daha yaxındırlar. Fəqət, bunu bilmək lazımdır ki, hamı məsələlər haqqında birdən danışmaq bir nəticə verməz. Bir məsələ meydanda ikən və həll olunmamışkən digər bir məsələyə keçmək necəki neft xüsusunda danışan natiq əsil məqsəddən ayrılıb şiddətlə qarodovoy üzərində durur, doğru deyildir. (Alqış). Tənqid, parlament əzasının və hər bir vətəndaşın haqqıdır. Sorğunu elə verməli və o məqsədlə sormalıdır ki, hökumətin qüsurunu düzəltmək və hökumətə kömək etmək olsun nəinki hökuməti yıxmaq məqsədi ilə hücum edilsin. Bu sürətlə hökumətə verilən bir sorğu bir nəticə vermədiyi kimi yaxşı bir üsuli-tənqiddə deyildir. Bu hallar ilə irəli gedib, bir yola çıxa bilməriz. Paytaxtımızda bir neçə qəzetə çıxır və hərəsi bir surətdə hökuməti tənqid edir. Fəqət, bu tənqidlər arasında böyük fərq var. Məsələn, bizim sosialistlər müvərrici əfkarı olan "Zarya" qəzetəsinin də tənqidi var. "Yedinaya Rossiya" qəzetində də. Bunların arasında olan təfavütü anlamaq üçün “Y. R. “-dan bir fəqərəyi ərz edəyim. Məsələn, Quba qəzasında hansı bir kənddə isə birisi demiş ki, bizə rus məmuru göndərin. Bunu eşidən "Y. R. " qəzetəsi haman "Azərbaycan camaatı rus hakimiyyəti istəyir" — deyə nəşriyyatda bulunur. Əgər bizim də tənqidatımız böylə olursa vay bizim halımıza, hanki qüvvətlə və kimlə olursa olsun, hökuməti düşürəcəyəm deyə düşünmək və nöqteyi-nəzərdən tənqidatda bulunmaq vətən və millət mənafeyi ilə uymaz. (Alqışlar!).

Siz yenə diqqət etmişsiniz ki, parlament dəvətindən sonra bütün əhval müşkilat içərisində olmaqla bərabər, məmləkət bu hökumətə tapşırılmasından ancaq beş həftəlik bir vaxt keçirmişdir. Bu müddət öylə uzun bir vaxt deyil ki, hökumət əski qüsurları islah edib elə bir vəziyyət vücuda gətirsin ki, qurd quzu ilə otlasın və Ağamalı oğlunun göstərdiyi şeylər olmasın. Bu dərəcəni nəzərə alsaq özümüzü aldatmış olarız. Zira insan imkan xaricində şeylər tələb edərsə, şübhəsiz təbiət onu verməz və nəticədə insan məyus olar. Bu gün bir hökumətdən beş həftə müddətində bütün işlərin dəyişməsini və yenidən bir çox işlər görməsini tələb etsək və bunu nikbinliklə gozləsək şübhəsizdir ki, gözələdiyimiz bu səhrada görünən sərab olub, bizi aldadar. Ağamalıoğlu bu hökuməti keçən hökumətin misalı hesab edərək ya keçəl Həsən, ya Həsən keçəl, nə təfavütü var, o hökumətin o vaxtında nə vardırsa heç dəyişməmişdir deyir. Məsələn deyir ki, Qazaxda şikayət edənləri döyürlər, filankəsi tuturlar, sudyalar yerində tapılmırlar. [235 - 236]

Bunların düzəldilməsi həp bu hökumətdən gözlənir. Köhnə qüsurlar da tamamilə bitəvöcöh olunur. Hər bir şeyin islahı tələb edirlər və az bir müddətdə işlər düzəlməyəndə deyirlər ki, hökumət iş görmür.

Ağa Axundov dəxi hökuməti tənqid edir. Yalnız hökuməti deyil, milləti də tənqid edərək deyir ki, məmurlarımızın əksəri rüşvətxordur. Lakin yaxşı ki, fikrini isbat edərkən deyir ki, məvacibi azdır. Müəllimlərə aldıqları məvacib kifayət etmədiyindən başqa işlər aramağı məcbur olurlar. hökumət onların məvacibini artırmalı, həyatlarını təmin etməlidir. Ağa Aşurovun bu rəyinə mən də şərikəm, bu sözləri mən dörd əl ilə iqamə edirəm. Fəqət, bu işlərin həpsini yalnız hökumətmi görməlidir? Biz bu xüsusda təşəbbüs edə bilməzmiyiz?

Məvaciblərin artırılması haqqında parlament bir qanun vəz edə bilməzmi? Ağa Aşurovun və sair məbusları qanun vəz etmək hüququndan kim məhrum qıldı? Parlament edə bilirdi ki, ümum məmurların təmini üçün bir qanun versin. Odur ki, qüsur yalnız hökumətdə deyil, bizim özümüzdə də böyük qüsurlar var. Siyasi firqələr hər yerdə gerdüyü, eşitdiyi nizamsızlıq və haqsızlığı hökumətə həml və onu tənqid edirlər. Fəqət, mən sual edirəm ki, hökuməti fəaliyyətsiz adlandıran siyasi firqələr əllərini döşlərinə qoyub vicdan rahatlığı ilə deyə bilərlərmi ki, onlar xalq mənfəətinə lazım olan qədər işləmişlərdir? Hanı bu firqələrin xalqa doğru getdikləri, hanı xalq içində təşkil etdikləri şöbələr, bu firqələr camaat üçün nə yapmışlardır. Hansı yolda işləmişlərdir? Tiflisdə oturaraq qəzetə çıxarmaq asandır, kənardan tənqid etmək mümkündür. Odur ki, bunu edirsiniz. Amma xalq içinə getmək, xalq arasında işləmək çətindir. Odur ki, heç bir kəs onun dalınca getmir. Deyirsiniz ki, uyezdin naçalniki quldurlara, adam öldürənlərə istinad edir əgər elə isə yenə təqsir siyasi firqlərdədir. Çünki haman uyezd naçalnikləri ya sair məmurları yanı başında firqə şöbəsi olsaydı şübhəsiz ki, o məmur çalışırdı siyasi firqəyə istinad etsin. Əgər firqələrlə göylərə xalq içinə getmiş ordular çalışmış və xalqı anlamış olsa idilər, yəqin ki, xalq quldurları, qatilləri gəlib hökumət qulluqçusu olmağa qoymazdı. Şimdi bu şeylərin heç biri yoxkən ümumən pərişanlıq vaqe ikən hökumətdən tələb etmək [236 - 237] ki, bir ay zərfində hər işi düzəltsin, hər şeyi islah etsin, bu ona bənzər ki, hökumətdən tələb edəsən kimya ilə, eləksir ilə hər işi düzəltsin, desin sükun olsun. Amma bunu gözləmək quru səhrada su axtarmaq kimi puç ümiddir.

Sonra bir şeyi daha nəzərinizə cəlb edirəm. Əfkarımıza daha artıq icrayi təsir etmək üçün bizə deyirlər ki, Azərbaycanın halı hamı məmləkətlərdən fənadır. Qonşularımız bizdən rahat və ucuz yaşayırlar. Fəqət, bu iddialar əsassızdır. hamınıza məlumdur ki, Ermənistan acından və ənvai xəstəlikdən qırılır. Gürcüstan bundan daha bahalıqdır, orada ağ çörək 7 manata, qara çörək 4 manat yarımdır. Suyi-istemal hər yerdə var. hətta Gürcüstanda bir dərəcəyə varmışdır ki, hökumət xüsusi bir məhkəmə qurmağa məcbur olmuşdur. Suyi-istemallar ittifaqında məmurlardan bu məhkəməyə şikayət verilir. Korürsünüz ki, qonşularımız da mələk deyildirlər. Biz Azərbaycanı qonşularımız ilə müqayisə edərkən görürüz ki, Azərbaycanın halı onlardan yaxşıdır.

Əlbəttə, mən bu iddiada deyiləm ki, bizim hər işimiz mükəmməldir. Amma bunu deyirəm ki, o dərəcə kamalda deyilsə təqsir yalnız hökumətdə deyil, bizdə də var. Gürcüstan ilə özümüzü müqayisə edərkən biz bunu nəzərdə tutmalıyıq ki, əvvəla Gürcüstan hokuməti və parlamenti 7 aydır işləməkdədir. Bizimki isə 1 ay — 1 ay yarımdır. Bundan əlavə onların vəziyyəti-siyasiyyəsi daha yaxşı, daha əlverişli idi. Onların vəziyyətini yaxşılaşdıran boyük bir amil də var ki, o da siyasi firqələri və müntəzəm əsgəri mövcud olmasıdır. Onlar altmış-yetmiş il siyasi həyat keçirmiş firqələrə malikdirlər. Biz onlar ilə bərabər olmaq istəsək onlar kimi uzun müddət bir siyasi həyat keçirməliyiz. Hökumətə etimad ya ədəmi etimad məsələsini müzakirəyə qoymaqdan ötəri bezdən, qaradavoydan başlayıb, bu ikisini bir-birinə bərabər qoymaq əsla dovlət nəzəri deyildir. Həmçinin hökuməti nə olur-olsun düşürəcək və sonra nə olacaqsa təvəkkül Allaha demək, doğru bir nəzər deyildir. Bir məbus heç vaxt bunu belə düşünməz ki, hökuməti hərçe bada-bad yıxsın. [Hər] bir məbus xarici və daxili düşmənləri görməli, hökumətin bu haqda düşünməyi bütün vətənə və millətə nə kimi nəticələr verəcəyini düşünməlidir. Hökumətə etimad məsələsi araya çıxarkən bunu bir ətraflı ölçməli və biçməli. Ətrafa nəzər yetirməli və fikir etməlidir ki, məmləkət və təbəddülatə təhəmmül edə bilərmi? Xaricdəki düşmənlər, daxildəki təşkilatlar hökumət sürənlər nəzərə alınmasında sonra böylə məsələlər araya atılsın. Bu mülahizlərlə də ki, mən deyirəm etimad məsələsi bilmərrə qaldırılsın. Çün məmləkətin vəziyyətinə müvafiq deyildir. Doğrudur, ticarət və sənaye nəzarətində, neft satışında, bez təqdimində, malların mübadiləsində üsulsuzluq vardır. Fəqət, tədqiqat etsəniz görərsiniz ki, bu üsulsuzluqlar yalnız hökumətin təqsiri deyil, fabrikanın özündə də, fabrika məmurlarında da bir çox nöqsan vardır. Tağıyev fabrikasının özünə məxsus bir politikası var ki, xalqı müşkülata salanda udar. Fabrikaya yaxın olan adamları sorsa idiniz onlar daha ətraflı məlumat verərdilər. Hökumətin təqsiri budur ki, fabrika politikasına göz qoymayıb laqeyd baxmış və bu işlərin qabağını almaq təşəbbüsündə bulunmamışdır. Əgər hökumət vaxtlı-vaxtında fabrika politikasına diqqət verib, onu kökündən kəsmiş olsa idi, bu gün belə şiddətli hücum və tənqidlərə məruz qalmazdı. Fəqət, hökumət bunu etməmişdir, əgər etmişsə də bəlkə lazım bilsələr məlumat verərlər. Fəqət, bu gün mən təklif edirəm ki, bu işə baxmaq üçün xüsusi bir komissiyon təşkil etməlidir ki, ümumiyyətlə mal mübadiləsinə və fabrikanın müamilətinə diqqət yetirsin ki, daha belə üsulsuzluqlar olmasın. Məsələn, Bakıda olan neft Bakının içində satılıb qurtaran bir şey deyildir. Allah bərəkət vermiş bir xəzinə ki, yalnız Bakıda deyil, hətta bütün Azərbaycanda satılmaqla qurtarmaz. Nefti xaricə çıxarmalı, daxili məmləkətlərdə satılmalıdır. Nefti də dəmir yolu ilə çıxara bilərik. Yolumuz nə qədər neft çıxarmağa imkan verirsə, hökumət çalışıb o qədər neft buraxmalıdır. Ancaq neft ixracına müsaidə verilərkən heç nəzarətdə baxılmır ki, izin istəyən adam həmişə bunun alış-verişini ödəməlidir ya yox. Çünki, hal-hazırda neft alış-verişi tif xəstəliyi kimi bir xəstəlik olub Azərbaycanı tutmuşdur. Tacir, doktor, müəllim xülasə hər kəs bu alış-verişlə məşğul olub və müsaidə istəyir. Ticarət nəzarəti də hər istəyənə bilatəhqiq və tədqiq izn verir. Belə tədqiqsizlik nəticəsidir ki, müşahidə etdiyimiz üsulsuzluq çıxır. (Alqış).

**Hacı Kərim Saniyev** — sorğunun bir qismi neft barəsində idi. Ticarət naziri buna cavab verərkən nə qədər neft getmiş və gedəcək olduğunu deməli idi. Fəqət, bunun əvəzində kimdən rəhn aldıqları və kimə icazə verdiklərini deməklə izahatını bitirdi. Halbuki, hökumət bina olunandan və türklər dövründə və ondan sonra da bu vaxtadək neftin nerəyə getdiyini bilmək lazımdır. Onu bilməlisiniz ki, Bakı nefti tamamilə gedir Qarabağa, Qazax - Azərbaycanının qapısı, daha doğrusu birjası olmuşdur. Bütün dəmir yolu düşmüşdür möhtəkirlərin əlinə, hər kəsin mayası çoxdur, yaxud qohum əqrabaları da iş başında duranı var, istədiyi qədər neft alış-veriş edə bilər. Bu sürətlə çox pulsuzlar, cibində altı şahısı olmayanlar şimdi milyonçu olmuşlar. Milyonluq mülklər almışlar. Stansiyalardan məlumat toplasanız görərsiniz ki Qazaxdan bəriki stansiyaharda camaat ehtiyacı üçün lazım olan neft tapılmır, çünki oralara neft getmir, ya ipək az gedir. Bəzən icazənamə Tovuz mouqəfinə alınır, lakin neft yenə Ağstafaya gedir, çünki İrəvana Aqstafa təriqi ilə göndərilir. Bizdə olan məlumata görə dekabrın 15-dək Ağstafaya 62 vaqon neft aparılmışdır. Hətta mən ozüm ordan keçərkən 21 vaqon hazır olduğunu gordüm. Bunun hamısı Qazax qəzasından Dilicana getmişdir. Gürcüstan hüduduna keçən neftin hesabı var. Əgər nəzarət arzu etsə müfəssəl hesab ala bilər. O vaxt məlum olar ki, məmurlarımız möhtəkirlər ilə əlbir olub nə qədər yolsuzluqlar yapıyorlar. Hətta hər kəs məmur ilə şərik olmasa neft keçirə bilməz. Yoldaşımız Səməd ağanı həyəcana gətirən həmin bu əhvalatdır. Bunu sübut edəcək dəlillərimiz var. Səməd ağanın işarə etdiyi tacirin əhvalatını mən müfəssəl söyləyim: Haman tacir əvvəlcə burada polismeystr olan Muradovun dəlaləti ilə Ermənistana aparmaq üçün vaqon neftə icazə alır. Yolda neftin bir vaqonu qeyd olur. Neft sərhəddə 70 t, Karvansarada 30, İrəvanda 600 manat qərarı ilə baha qiymətə satılaraq cənab polismeysterin payına yarım

milyon mənfəət düşür. Fəqət, bu mənfəətdən haman qeyb olan vaqonun zərərinin 48 200 manatını çıxmaq istəyir. Muradov buna razı olmayaraq hər işin həmçinin əxzi-əskər məsələsinin bunların əlində olduğundan taciri hədələməyə başlayır. Tacir qorxudan Tiflisə qaçır. Mən Tiflisdə ikən ərizə verilməsini təklif etdim. Tacir cavabında söylədi ki, hər kəsə ərizə versəm axırda yenə Muradova göndəriləcəkdir. Ona görə bir fayda olmayacaqdır. Digər bir dəfə Muradov xəstə ikən öz təhti idarəsində olan strajniklər əli ilə bir vaqon nefti 11 arabaya yığaraq Tiflisə göndərir. Müavini haman arabaları tutub qaytarır. Bunun üstündə naçalnik ilə müavin arasında soyuqluq düşür. Amma nəticədə müavin müqəssir tutularaq qulluqdan çıxarılır, amma Muradov öz yerində qalır. Camaat elə təngə gəlmişdir ki, bundan sonra yolu kəsib aparılan nefti tutacaqdır, çünki neft gecələr daşınır. Bir dəfə də 57 dəvə yükü neft aparılarkən əsgərlərimiz tərəfindən tutulmuşdur, digər bir dəfə yenə əsgərlər neft arabası tuturlar. Strajniklər neftin pristava məxsus olduğunu bildirdilər. Əsgərlər qulaq asmayıb nefti qaytarmaq istəyirlər. Pristava xəbər verdilər. Özü gəlib əsgərlərə 1.800 manat verərək nefti keçirir. Gecələr neft daşınan yolun ağzındakı kəndin yüzbaşısı xəbər verir ki, oradan gizli neft aparırlar. Əmr olunur, tutsun. Bir dəfə tutur məlum olur ki, pristavın əmisi oğlunundur. Pristav deyir, bu dəfə burax, sonra tut. Digər dəfə tutur Muradovun strajniki olur. Xülasə belə-belə. Şu surətdə möhtəkirlərin həpsi daxiliyyə və ədliyyə nəzarəti qulluğunda olan adamlardır ki, Ermənistanda və Gürcüstanda milyonlar qazanıb, ev alır, mülk tikdirirlər. Türklər zamanında nökərçilik ilə dolananlar, şimdi dövlətli, milyonçu olmuşlardır. Qəribədir ki, əski və hazırki hökumət dövründə bu işləri görənlər yenə də öz yerlərində dururlar. Hökumət bu beş həftədə bu işlərin qabağını almamışdır. Halbuki yenə bir qədər iş görmək mümkün idi.

Ərzaq işinə gəldikdə daxiliyyə naziri gərək deməyə türklər ərzağı alıb getdilər və əmrdən xəbərimiz yoxdur. Əvvəla, türklər alıb getməmişlərdir və gedərkən ərzağı bizim məmurlarımıza tapşırmışlardır. Satanda, dağıdan da öz məmurlarımızdır.

Nazir bizə deməli idi ki, filan yerdə filan qədər, filan yerdə filan qədər buğda var, qorxmayın itməyib, xəbərimiz var. Bir də ərzaq nəzarəti Gəncə ərzaq vəkilinə milyon yarım pul buraxmışdı ki, Azərbaycan' əsgərlərinə heyvan alsın. Heyvan alınmış, amma pul ilə deyil, zor ilə qəzadan yığılmışdır. Sənədlər ilə isbat edəriz ki, pul verməmişlərdir.

Bez məsələsinə gəldikdə nəzarət hesab verərək deyir filankəsə filan qədər, filan yerə filan qədər vermişik, fəqət, bunlar camaata vüsal olmur, məsələn, bizim tərəfə göndərilən bez xalqa çatmayıb, yavaşca Tiflisə keçir. Aqstafada bir nəfər [240 - 241] 5 min arşın bez satırdı. (17, 18, 20 rubləyə satılır). Yanaşdım, haradan aldığını soruşdum, dedi 11 min arşındır satıram. Bilməlisiniz ki, ətrafda füqəra 17-20 rubləyə bez ala bilməyib ölənləri əksərən öz libasında dəfn edirlər. Bu hallar haman davam edəcəkmi? Bu işə diqqət edilməzsə axırı fəna olar. Bir də Məmməd Əmin türklərin gəlməsindən bəhslə dedi, onları "Müsavat" gətirdi. Doğrudur, sağ olsunlar əgər onlar 60 min qoşunumuz var...

(**Məlik Yeqanov** — Biz demədik, deyənlər utansınlar!

**Abbasqulu** — Biz dedik gəlib burada düzəldəcəyiz.)

Əgər o vaxt türklər gəlib bizi xilas etdilərsə, şimdi yenə ətrafımızı qara buludlar alır. Bu dəfə kim xilas edəcəkdir? Qafqaziyadakı cumhuriyyətlərin həpsinin ordusu var, yaxşı da saxlanır. Amma biz hamıdan zəngin olduğumuz halda əsgərlərimiz necə saxlanılır? Hətta bir çoxu çörəyi öz evində yeyir. Bəs necə oldu pullar, kimin cibinə girir ki, əsgərlərimizə çatmır. Bunu bilmək, düzəltmək hökumətin borcudur. Düşünərkən firqə çıxıb əskərlərimizin bu halını müdafiə etsin, biz də görək həqiqətən o firqə çalışırmış. Burada dedilər ki, neftdən başlayaraq qaradavoy və fəhlə məsələsində durdular.

**Şəfi bəy** — Fəhlə sözü olmadı.

**Məmməd Əmin** — Demoqoji üçün lazım idi ki, desin.

**Sədr** — Mən təsdiq edirəm ki, fəhlə sozü olmadı.

Bir də dedilər ki, məmləkətdə doğru adam yoxdur. Hərgah buna inansaq, gərək indidən dağılıb gedək. Əgər doğru adam yox isə, yəqin onu deyən natiqin öz dairəsində yoxdur. Sair dairələrdə isə düz adam çox tapılar. Bununla bərabər ümid olur ki, yeni hökumət bu nöqsanları rəf edər, bir az gözləriz. Əgər bir şey çıxmasa onda biz danışarız.*

**Məlikaslanov** (Təriq və məabir naziri) - Möhtərəm məbuslar! Dün möhtərəm məbus Saniyev nitqlərində xətti-hüdudda neft məsələsi ətrafında böyük fənalıqlar olduğunu qeyd etdilər. Bu şeylərin çoxu oktyabr aylarında həqiqətən olmuşdur. Sizə məlumdur ki, o zaman türklər gedərkən bu yolda çox şuluqluq olmuşdur. Belə şeylər yalnız Azərbaycanda deyil, hər [241 - 242] bir məmləkətdə elə hal da bulunduğu zaman olur. Elə halda bəzi adamlar yolsuzluqdan istifadə edərək çox zərərlər yetirirlər. Təriq və məabir nəzarəti bu işləri nəzərə alaraq onları təftiş və haman işlərə baxmaq üçün bir komissyon təyin etmişdir. Məzkur komissiyonunda hər nəzarətdən bir nümayəndə var. Komissyon yolsuzluqları meydana çıxararaq bir neçə adamı qulluqdan qovmuş, məhkəməyə vermişdir. Bunların içində dəmir yol məmurlarından da var. Bundan sonra işlər bizə məlum deyildir. Hökumət lazım gələn tədbiri görmüşdür, gələcəkdə də görəcəkdir.

---

* 1919-cu il fevralın 6-da parlament ayının 5-dəki içlasını davam etmişdir. İlk söz Məlikaslanova verilmişdir.

Neft barəsində hökumət tərəfindən bir neçə söz söyləmək istərəm. Məlumdur ki, bizim məmləkətimizi əhyan edən və hətta bir çox düşmən qazandıran bir sərvətimiz var: neft. İl-də 500 milyon hasil olur. Əvvəlləri bu miqdarın az bir hissəsi Batuma, yerdə qalanı Rusiyaya göndərilirdi. Batuma dəmir yolu ilə 1917-ci ildə 40 milyon, digər illərdə hər il 50-60 milyon pud getmişdir. Şimdi Batuma o qədər neft göndərmək mümkün deyildir, çünki dəmir yolu ancaq 20 milyon apara bilir, əlavə neft provodu ilə də 50 milyon pud göndərilir. Qalan neft gərək burada qalsın, yainki Rusiyaya göndərilsin. Amma yol yoxluğundan Rusiyaya neft göndərmək mümkün deyildir. Bu surətdə nefti sata bilmiriz, burada da az işlənir.

Ona görə hökumət çalışır ki, bir növ ilə bu neftdən çox xeyir alsın, bu xüsusda bir çox mülahizə var. Biri deyir neft inhisar altına alınsın, fəqət, bu mümkün deyil, çünki bunu İnkiltərə, Amerika və sair böyük və müntəzəm hökumətlər güc ilə edə bilirlər, biz isə yeni bir hökumət olduğumuzdan bunu tətbiq etməyi bacarmadıq. Bilxassə bunun üçün müntəzəm yeni idarələr, bir çox təşkilat və külli miqdarda məmur lazımdır.

Bir tərəfdən də təklif edirlər ki, neft satışı sərbəst elan edilsin. Fəqət, bunun bir məhzuri var ki, neft nerəyə aparılsa əvəzində kağız pul gətiriləcəkdir. Kağız pul isə xeyirsiz və heç şeyə lazım olayan bir şeydir, ona görə kağız puldan isə çöhərəmizin məmləkətimizdə qalması faydalıdır. Almanlar burada olan zaman bizə ümid vermişdilər ki, Batumdan bizim neftimizi öz gəmilərində Ukrayna və sair məmləkətlərə daşıyacaqlardır. Paraxodlar da hazırlanmışdır. Fəqət çox çəkmədi ovzayi-siyasiyyə dəyişdi, o ümidlər də pozuldu. Şimdi vəziyyəti siyasiyyəyə görə bizim cövhərimizi aparacaq [242 - 243] olan ingilis və fransız gəmiləri Dardaneldən o yanadır. Digər tərəfdən məlumunuzdur ki, bizim dəmir yolumuz xarab, nizamdan düşmüş, maşınlar yanmış, neftporavod pozulmuşdur. Şimdi çox çalışaraq bunları bir qədər islah edib Batuma neft çıxarmağa müvəffəq olduq. Eyni zamanda əcnəbi məmləkətlərə neft göndərmək qəsdi ilə hamıdan əvvəl Ukrayna ilə bir iş düzəltməyə çalışdıq, müvəffəq də olduq. Şimdi ingilislər bizə söz vermişlər ki, neftimizi daşımaq üçün paraxod versinlər. Fəqət, burada da işimiz fənalaşdı, çünki bu müqavilənamə bağlanan kimi Ukraynada hökumət dəyişdi, ixtişaş başlandı. Hər şəhərdə bir cərəyan bir hökumət var, bilmirik kim ilə danışasan.

Hal-hazırda neftporavod gündə 75 min olmaq üzrə ayda 2 milyon puta qədər neft çəkir. Bu günlərdə 1 milyon 200 min puta qədər artacaqdır. Deməli, Batuma qədər ayda 3 milyon pud neft göndəriləcəkdir.

Bu mülahizələr iladir ki, ticarət və sənaye nəzarəti məzkur iki çarənin heç biri ilə təvəssül etməyərək orta yol ilə getmişdir. Çünki, demək inhisar mümkün deyil, tam sərbəstlik dəxi büsbütün mümkün olmur, mədənçilər nefti sata bilmədiklərindən hökumət onlara, əmələyə məvacib vermək üçün külli miqdarda pul buraxır. Şimdi hökumət çalışmalıdır ki, çox neft satılsın, tainki verdiyi 30-40 milyon paranı geri ala bilsin, mənfəət də hasil etsin. Hökumətin zehni belə dərin məsələlərlə məşğuldur. Təriq və məabir nəzarətinin politi-kası da bundadır. Bir tərəfdən neft lazımi qədər getmir, o biri tərəfdən sərbəst satış elan edilsə, çıxarılan neftin əvəzinə mal gəlmir. Ona görədir ki, bu işlərin nizama salmaq üçün iki həftə bundan əvvəl bir komissiyon təşkil edilmişdir ki, neft işlərinə baxıb ingilis və sairələrlə müzakirata girişsin, sonra hökumətə neft alış-verişi haqqında bir layihə təqdim etsin. Hökumətin ixtiyarı olsa, o vaxt layihəyi özü qəbul edər, olmazsa, parlamentə təqdim olunur bu bir. Digər tərəfdən işlər ona görə ləngə düşürdü ki, bizimlə Batum arasında başqa bir dövlət vardır. Neftin Batuma ucuz çıxmasına bu iş mane olur. Neft məsələsinə məhəlli deyil, cahan nöqteyi-nəzərindən baxmaq lazımdır, çünki Azərbaycandan başqa, Amerika, İngiltərə və Rumıniyada 3 milyard tondan ziyadə neft hasil olur. Buna görə neft bazarında bir rəqabət, [243 - 244] bir mübarizə başlanacaqdır. Hər kəs çalışır ki, nefti ucuz çıxsın. Çalışmalıdır ki, mübarizə meydanında Amerika nefti Bakı neftinə qalib gələ bilməsin. Məsələn, Marselə Amerika nefti də gəlir, Bakı nefti də. Bunların hanki ucuz olsa, əlbəttə onu alacaqlar. Təbii Bakı nefti Marselə gedincə neçə məmləkət keçdiyindən ayrı-ayrı gömrüklər verərək Amerika neftindən baha çıxır, ona görə ilk əvvəl bu barədə Gürcüstan ilə müqavilənaməmiz olmalı idi. Uzun müzakirat nəticəsində nəhayət, şimdi bir tranzit müqavilənaməsi bağlamışıq ki, Gürcüstan bizim neftimizdən vergi almayacaqdır, biz də onlara nefti ucuz buraxacağız. Bu həm bizim üçün xeyirli, həm Gürcüstana faydalıdır. Bu barədə yaxın zamanda layihə təqdim ediləcəkdir. Məlumdur ki, iş müəyyən bir adam, ya bir heyət əlində olmayanda müşkülləşir, bilxassə əhvalatımız elədir ki, azı bir məsələyi başa gətirmək üçün bir neçə qeyri idarələrə müraciət etmək lazım gəlir, bu səbəblərdən bir günə qurtarmalı iş üç həftə çəkir. Hal-hazırda neft işlərində hökumət məzkur məsələyə baxmaq komissiyonun işini gözləyir. Bu günlərdə komissiyon öz rəyini hökumətə bildirəcəkdir. Komissiyonun layihəsinə mütəxəssislər iştirakı ilə baxılacaq, hökumət ya özü təsdiq edəcək yaxud təsdiq edilmək üçün parlamentə təqdim edəcəkdir. Bundan sonra böyük miqyasda neft ticarəti başlanacaqdır.

**Aqamalı oğlu** ("Hümmət") - Əvvəlki natiqlərə cavab verərək deyir ki, mən türk fəhlə və əkinçisinə zidd və bərəks getmirəm, amma türklərin hökumətinə gərəkdir zidd olam. Harada istibdad varsa, biz ona ziddik. Mən dedim ki, o istibdaddan Gəncədə bizim hökumətimizə verildi... (Sədr natiqi mətləbə dair danışmağa dəvət edir.) Bəli, bu axır zamanlarda ehtikar başlanıb Azərbaycanın nefti, bezi və buğdası cürbəcür yerlərə getdi, dün heç bir şeyi olmayanlar bu gün milyona malikdirlər. Bəziləri mənim dediyimi belə başa düşdülər ki, guya biz hökuməti dəyişmək istəyiriz, əlbəttə indiki halda əgər mümkün olsaydı biz bir an dayanmazdıq. Amma iş buradadır ki, nə tövr bir edək az iş görülsün. Məlumdur ki, sorğu hökumət üçün bir dəyənək kimidir, hökumət dəyişmək deyil, işi düzəltməkdir. İşlərimizin nə qədər müşkül olduğu məlumunuzdur. Kabinə təşkil edilərkən nazirlərin bəziləri

yalvarardılar ki, [244 - 245] canım əl çəkin, rədd olun və biz onları güc ilə vadar etdik, şimdi çalışmalıyıq ki, yıxılmasın.

Yollar naziri dedi ki, milyonlar hesabı və əsnasında 3-4 qazan neft bir şey deyildir. Bir də sözündən bu çıxdı ki, nəzarət orta yol ilə göndərmiş elə bil bu orta yoldur ki, xalqı dəli eyləmişdir, sudya, müəllim, çəkməçi hamı işini haman orta yola düşdü. Ehtikara başladı. (Sağdan, soldan alqış.) Bunun qabağını almaq üçün dünkü nitqimdə bir təklif etdim, haman təklifi təzədən deyirəm: gərək elə edək ki, hökumət tərpənsin. Bunun üçün də şahmar lazımdır ki, bu da ali tribunaldan ibarətdir.

**Qarayev** ("İttihad") - Əsas məsələyə keçmədən əvvəl türklükdən bir neçə söz söyləyim: əvvəla onu ixtar etməliyəm ki, türklük nami bizim üçün müqəddəs bir namdır, həməvaxt o nam tənqid yolu ilə çəkilməz. Türklər buraya hökuməti idarə etməyə deyil, əsgər sifəti ilə gəldilər, canlarını verdilər. Qanlar tökdülər, bizə səadət və istiqlal yolu açdılar. Onların boyük xidməti qarşısında ruzi-məşhərədək mədyunuz. Yalnız malımız, canımız deyil, hətta hüququmuzu da onlara fəda etsək, çox deyildir. Nəinki uğurumuzda canını fəda etmiş əsgərlər, hətta paşaların da siyasəti hamı üçün pis olsa da bizim üçün yaxşılıqdan başqa bir şey etməmişlərdir. (Alqış). Bir çox adamlar özləri etmiş olduqlarını qorxudan gizlədərək deyirlər ki, buraya "Müsavat" gətirmişdir. Yalnız "Müsavat" tərəfindən Rəsulzadə cəsuranə bir surətdə dedi ki, bəli biz gətirmişik və buna fəxr ediriz. Həqiqətən haqları da var, zira millət yolunda böyük xidmətdir və millət qarşısında ehtirama layiqdirlər. Fəqət, məncə türkləri buraya gətirən "Müsavat" və sair bir firqə deyil, türk ruhu, islam ruhu, türk qanıdır. Mən şahidəm ki, bu gəlmək 11 il əvvəl qət edilib. İstambulda həmin xalilər, nurular, vahablar birinci imkan bulduqda Qafqaziya islamlarını xilasə yürüməyə Qurani-Şərif hüzurunda yəmin etmişlər. Əhməd bəy də buna şahiddir. Şimdi onların adları məmləkətdə müşahidə olunan üsulsuzluq münasibəti ilə çəkilir, fəqət, biz təsdiq ediriz ki, bu fənalıqlara onlar bais olmamışlardır. Keçəlim mətləbə.

"İttihad" fraksiyonu tərəfindən verilmiş sorğu haqqında fikrimizi soylədik, fəqət, müzakirə əsnasında müxtəlif söhbətlər çıxdı. Hökuməti müdafiəyə qalxan Məmməd Əmin həzrətləri [245 - 246] kinayə ilə buyurdular ki, biz hökuməti dağıtmaq istəyiriz. Bu doğru deyil. Hökumətin lehinə və əleyhinə olanları aşkar etmək üçün uzun danışıq istər.

Sorğu məsələsinə gəlincə iki cəhətə fikir verməlidir. Biri fəlsəfi cəhətdir ki, müharibə nəticəsində aparmış olub, aləm dağılıb, sərvət gedibdir. Bunu təshih üçün bizim nazirlər deyil, daha təcrübəli adamlar, hətta bütün millət çalışsa yenə çətin düzəlir. Bir də Məmməd Əmin həzrətləri istinad vermək olmaz. Mən deyərdim ki, təzə də köhnənin mabə'didir. Amma bunu da demiriz. Fəqət, sorğu verməkdə bizim məqsədimiz hökuməti yıxmaq deyil, başqa bir məsələdir: hökumətin uçuruma getdiyini görərək sual etdik. Əgər hökumət desə idi ki, filan tədbiri görmüşük, biz dəxi qənaət hasil edərdik, fəqət, biz bunu görmədik, şimdi bu parlamentdən sonuncu hökumət barəsində bir qədər danışmaq istəyiriz. Bizim söylədiklərimiz bir həqiqətdir ki, arzu edilsə sübut gətirəriz. Türklər gedəndən sonra müşkülat çıxmışdır, bunu etiraf edəriz, lakin gedərkən əsgər naminə toplanan ərzağı tulladı, demək doğru deyildir. hər yerdə azuqə və sairələrin məmurlarımıza təslim etmişlərdir. Əhali də ərzaq şeylərini dağıtmamışdır. Alan da, toplayan da, satan da doğrudan da məmurlarımız olmuşdur. Əcəba bundan hasil olan məbləğin 15 %-i hökumətə vüsul olmuşdu? Xeyir! Xainlər axtarılıb, müqəssirlər tapıldımı? Əski hökumət zamanında qamçı ilə camaatı sıxanlar, ehtikarla məşğul olanlar, yeni hökumət dövründə də öz işlərinə davam edirlər. Xainlərə qarşı hökumət bir tədbir gördümü, bir məmuru əzl etdimi? Eybi örtmək üçün deyirlər müsəlman arasında düz adam yoxdur. Bu yalandır, doğru isə məmləkətin dirilməsinə ümid qalmaz. Amma ümidimiz var, düz adam çoxdur, hətta birinin yerinə 5 adam da tapılar. Quba, Qazax və Gəncəni götürünüz, sabiq məmurlar yenə haman hərəkətlərində baqidirlər, camaat arasında fitnə-fəsad davam edir, bunu sübut edəcək dəlillərimiz var. Keçəlim siyasi məsələlərə:

Bu barədə dəxi bir çox tədbirlər görülməli idi, görülməmişdir, qonşularımız ilə hüsnü-əlaqə peyda edilməmişdir. Daxili siyasətə gəlincə, hökumət daxili işlərdə gərək əhaliyə istinad etsin. Millət gərək hökumətə etimad və etibar etsin, böylə olmasa hökumət etmək olmaz. Vəz və əhvalı camaata [246 - 247] anlatmaq lazımdır. Hökumət adamları məmləkət daxilinə camaat içinə gedib vəziyyətimizi xalqa anladarsa, əhali nə halda olduğumuzu başa düşər. Hal-hazırda əsgər cəm edilir. Hökumət camaata qandırmalıdır ki, qoşunu nə üçün yığır, onda əhali xoşhallıq ilə gələr. Bu haman camaat deyilmi ki, eşalonların qabağını kəsib 30 minlər ilə saldatın silahını alırdı, Bakı üzərinə müntəzəm qoşun kimi hücum edirdi, Qubanın üstünə 8000 birdən yürüyürdü. Camaatımız əsgərlikdən qaçan deyil, ancaq onlara yaxşı idarə və nizam lazımdır. Bu intizamsızlıq nəticəsidir ki, əhali nifrət edir.

Daxildə əhval necədir? Quba mahalında bir cərəyan var ki, Quba qəzası Dağıstana qoşulsun, Zaqatalada da Gürcüstana qoşulmaq barəsində bəzi danışıqlar var. Qarabağda əski fənalıqlar davam edir. Sabiq hokumət buraya pul və adam göndərməyi qərarlaşdırmışdır. Amma göndərilməmişdir. Neft, bez və sairə barəsində burada çox danışıldı. Hökumət də çavabında sui-istemalar olduğunu etiraf etdi. Ticarət və sənaye nəzarəti Sovet syezdə təklif etmişdir ki, neftin bir əldən satılması üçün bir büro təşkil edilsin və satılan neftlərin həpsi büro vasitəsilə ixrac edilsin. İlk nəzərdə zahirən bu bir gözəl təşəbbüs kimi görünür, həqiqətdə isə məzkur büro adi bir sindiqa olub bir neçə boyük mədənçilərin nefti büro vasitəsilə satılır, xırda neftçilərinki qəbul edilmir. Boyük

mədənçilərin biri də bizim ticarət nazirimizdir. Büro təşkilindən bəri neftin putu 10 manat 80 qəpik olmuşdur. Ondan əvvəl 5 manat idi. Deməli, bu 5 manat camaatın belinə gəlir və bundan hasil olan ayda 4 milyon bir neçə firmanın cibinə girir. Maşın yağının putu 15 manatdan qaldırılmışdır 33 manata, bu da camaatdan çıxır. Hökumətin ticarət işlərindən xəbəri yoxsa, bu işə nə üçün müdaxilə edir. Ticarət işlərini bilirsə, bunun adını nə qoyur? Mən deyirəm bu işdə bacarıqsızlıqdan başqa sui-istemal dəxi görünür.

Sair məsələlərə keçdikdə deməliyəm ki, dövlətlilər əsgər getmirlər, rüşvət verib xilas olurlar. Kasıblar, sahibsizlər əsgər alınırlar. Bunlar da əsirətdə yaşadıqları üçün naxoşlayıb, qırılırlar. Doğrudur, heç bir hökumət yoxdur ki, məmurlarının bəziləri rüşvət almasın, amma bizim sozümüz siyasətin əsasını qoyanlar və sui-istemalara yol verənlərlədir. Böylə bir müşkül halda bu fəaliyyətsizliyin onü alınmazsa, [247 - 248] əhval daha da fənalaşar. Bu fənalıqların önü son dərəcə fəaliyyət ilə alınmalıdır. Biz öz istiqbalımızı bu cür işləyənlərə verə bilmərik. Müqəddəratımız mətin və əzmkar əllərdə olmalıdır. Bu barədə bizə təminat versələr çox gözəl, verə bilməsələr desinlər özümüz tədbir görək. Bizim bu fikrimiz hökuməti yıxmağa bir sui-qəsd kimi təbir edilərsə, cavab verəriz ki, qənaət hasil edənədək fikrimizi yeridəcəyiz. Onun üçün açıq deyiriz: qərarımızda baqi qalır və bu hökumətə belə bağlamırız, ona görə inanmırız.

Əgər hökumət təminat versə ki, siyasət dəyişəcək, cinayətdə, sui-istemalda tutulan xidmətdən qovulacaq, məhkəməyə veriləcək, malı əlindən alınacaq, mühüm xəyanətdə tutulanlar hətta edam ediləcəklərdir, bu halda biz hökumətə bel bağlarıq. Əks surətdə biz istiqlalımızı onlara tapşıra bilməriz və etimadımızı ona verməriz.

**Əbilov İbrahim** (sosialist) - Möhtərəm məbus əfəndilər! Bəhs olunan sorğu məsələsində necə ki, xatirinizdədir, dün yoldaşımız Səməd ağanın işlətdiyi bir neçə sözü mübahisəni dəyişib başqa rəngə saldı. Yoldaşımızın sözü anlaşılmadı və əsl məsələnin ruhuna vaqif olmadan onun işlətdiyi yalnız bir kəlmə türk sözünü alıb natiqlər şiddətli nitqlər söylədilər. Bu gün yoldaşımızın təkrar kürsüyi-xitabətə gəlib türklər haqqındakı fikrini vazeh bir surətdə söylədikdən sonra ümid edərdim ki, artıq bu xüsusda fəzlə danışılmayacaqdır. Çünki anlaşıldı ki, sosialist firqəsi türk sözünə, türk millətinə nə düşməndir, nə də onun əleyhinə danışan. Türkdən məqsəd türk üsul-idarəsi, istibdadı və hökumət siyasəsidir ki, bizim hökumətə də o ruhu verməli olduğunu yoldaşımız söylədi. Zənn edərdim artıq bu barədə danışmaq lazım gəlməz. Fəqət, Qara bəy cənabları türklər haqqında məddahlıq edərək türk milləti müqəddəsdir deyə uzun bir nitq söylədi. Bəli, əfəndilər! Türk milləti, türk füqərayi kasibəsi bizcə müqəddəsdir və heç kəs belə olduğunu inkar etməz. Fəqət bizim tənqid etdiyimiz türk millətini zirzəmilərdə saxlayan hökumətdir ki, onu yıxmaq üçün Türkiyə füqərayi-kasibəsi ilə birləşib bərabər mübarizə etməyə hazırız. (Soldan alqış). Bundan anlaşılır ki, sosialistlər türklərə düşmən deyildirlər. (Sədr: Natiq əfəndi, sosialistlərin düşmən olduğunu heç kəs söyləmədi). Bəli, türk mübahisəsini buraxalım. Keçəlim, əsl [248 - 249] məsələyə. Bu məsələlər gərək sorğudan əvvəl müzakirə ediləydi, bu sorğu barəsində o yerlərə gedib işləri eyni ilə görmüş olan yoldaşlarımızın bəzilərini bəyənatı sübutları daha da qüvvətləndirir. Deməк, sorğuda göstərilən nöqsanlar doğurdan da var. Hətta hökumətdə öz cavabında bu nöqsanları rədd etmədi. Biz etiraf ediriz ki, nöqsan var, fəqət, zaman, məkan və əhval nəzərə alındıqda görünür ki, hökumətin dəyişməsi ilə bu nöqsanlar rəf olmaz. Əgər rəf ediləcək olsaydı, əski hökumət dovründən noqsanlar şimdiki yeni hökumət zamanda daha çox olmazdı. Bu surətdə heç kəs təmin edəməz ki, bir yenisi gəlsə, bundan daha fəna olmayacaqdır. Biz sosialsitlər şəxsi deyil, hökumətin əsas quruluşunu dəyişmək istəriz. Ona görə bizcə tezliklə Məclis-Müəssisan çağırılmalıdır ki, əsasən bir əsl demokratik hökuməti qurulsun. Fənalıqların qabağını ancaq bununla almaq olar. Bu hökumətin əsası puçdur. Kəndlərdə çox boyük zülmlər olur. Bir yoldaşımız dediyi kimi məmurlar quldurları yanlarına alaraq füqərayi-kasibəyi soyub talayırlar. Bir də Məmməd Əmin Rəsulzadə cənabları yoldaşımız Səməd ağanın "Müsavat"a bir balaca toxunmasına cavabən soylədiyi nitqində "Müsavat"ı müdafiə etməklə bərabər onun demokratik bir firqə olduğunu sübuta qalxmışdılar və dedilər ki, kəndlərdə siyasi firqələr şöbələri açaraq bu vasitə ilə nöqsanların önünü almaq lazımdır. Şöbə açılsın, amma məzkur əzasının hər gecə birisini quldur vasitəsilə boğulub öldürülməyəcəyinə əmindirmi? Məmməd Əmin əsl demokrat olsa idi deməli idi ki, bu yolsuzluqların önünü almaq üçün o yerlərdə idarələr dəyişik demokratik üsul ilə zemstovolar açılsın və camaatın idarə və milisləri özlərinin inandıqları tanıdıqları adamlardan olsun, indiki camaatı soyanları tutulsunlar. O halda haqsızlıqların önü alınmış olardı. Lakin bunu demədi. Mən sozümü qurtarmaq üzrə deyirəm ki, sorğu məsələsində nazirlərin cavabı bizi qane etmirsə də yenə biz böhran çıxarmaq tərəfdarı deyiliz. Ancaq təzə bir əsas düzəltmək lazımdır ki, onu da yalnız Məclisi-Müəssisan qura bilər. Ona görə Məclisi-Müəssisan dəvətinədək parlamentdə bu işlərə baxmaq, nəzarət etmək üçün bir komissiyon təşkil edilsin. (Soldan alqış).

(5 dəqiqə tənəffüs elan edilir.)

Tənəffüsdən sonra.

[249 - 250]

**Mürtəza Axundov** — Quba şəhəri üzvü sifəti ilə ərz edirəm ki, natiqlərdən birisi buyurdu ki, Quba şimdiki halda xanlıqdır. Buna çavabən deyirəm ki, Quba xanlıq isə nə üçün Quba qəzası Azərbaycan parlamentinə 3 məbus göndərmişdir. (Alqış!) Bakı Azərbaycanın paytaxtı olduğu halda, burada 3 rəngli bayraqdan ancaq bir dənə görürəm, halbuki Qubada kasıb, dövlətli hər kəsin ipək parçadan tikilmiş 3 rəngli bayrağı var, hər cümə

günü şəhərə təzyin edirlər. Lakin nədənsə bunu Bakıda görmürəm. (Alqış). Sonra buyurdular ki, Qubda məmurlar öz cinayətlərini örtməkdən ötəri özləri üçün dəstə düzəldərək "filan" məsələləri ortalığa salmışlardır. Az qalmışdır ki, nə qədər adam tələf olsun. Mən bu məsələnin nədən ibarət olduğunu belə söyləməkdən həya edirəm. Amma burasını sizə deyirəm ki, Qubada belə şey yoxdur və olmaz da. (Alqış).

Bir də buyurdular ki, Quba qəzası Qəşrəş və Küpçal kəndlərində yığılan zəkat nə olmuşdur. Mən deyə bilərəm ki, o buğda heç yerə, [verilməmiş] kənd vəkillərinin ixtiyarında, kənd anbarlarında öz yerində durur. Mən bu barədə Quba qəza qaimməqamı ilə sual-cavabda bulundum. Qaimməqam buyurdu ki, buğda cəm edildiyi zaman, mən Bakıda olmuşam, mənim müavinim Azərbaycan hökumətinin ərzaq nazirinin teleqrafına görə buğda cəm edibdir. Mən qayıdandan sonra bu əhvalatı mənə söyləmişdir. Mən demişəm ki, Azərbaycan hökumətində zəkat adı ilə buğda yığmaq qanunu yoxdur. Sonra buyurdular ki, 15 vaqon buğda nerəyə getmişdir? Əvvəla 15 vaqon deyil, 18 vaqondur. Bu barədə sənədlər vardır. Bunlardan 2 vaqon qubernatorun əmri ilə Bakıya gətirilib, putu 40 manatdan qubernatora təhvil verilmişdir. Bir vaqon arpa ilə buğda da türklər gedən zaman ingilislərin virudu əsnasında Qubernnatorun əmrinə görə Bakıya gələn pristavlar ilə strajniklər üçün gətirilib, hələ pulu da vüsal olmamışdır. Bundan əlavə 8 vaqon da qubernatorun əmri ilə Bakıya gətirilərək bələdiyyə idarəsi vəkili Klinfiskiyə təhvil verilib, pulu alınmışdır. Məzkur pul dəxi putu 40 manat hesabı ilə buğda alınan əhaliyə paylanmaqdadır.

Buğdanın bir vaqonu da hal-hazırda Xaçmaz mövqefindədir ki, hələ təhvil alınmamışdır. Qalan 6 vaqonu da türklər Dağıstandan qayıdarkən özləri ilə aparmışlardır. Bu barədə noyabrın [250 - 251] 29-da vükəla şurası daxiliyyə və ərzaq nazirləri və qubernator naminə böylə bir teleqraf çəkilmişdir: “Qubernatorun əmrinə görə Xaçmaz mövqefində cəm edilmiş arpa və buğdanı Dağıstandan gəlib keçən türk əsgərləri ilə vaqonlara dolduraraq aparırlar. Camaat pulunu almamışdır. Təvəqqə edirəm, camaat mənafeyini müdafiə edib, türklər tərəfindən aparılan arpa və buğda Biləcəri mövqifində saxlatdırırsınız.

**Uyezd naçalniki *Xoyski”.***

Bir də doğrudur. Uyezd naçalniki Xoyskidən qabaq putu 10 manatdan buğda cəm edilmişdir, pulu da əhaliyə verilməmişdir. Ona görə bu buğda putu 10 manatdan olan məvacib almayan qulluqçulara paylanıb hasil olan məbləq buğda sahiblərinə qaytarılmışdır. Hətta bir dəfə teleqraf məmurlarından birisi şikayət edib ki, buğdadan ona çatmamışdır. Mən təklif edirəm ki, hər fraksiydan bir nümayəndə olmaq üzrə bir komissiya göndərib bu işləri yerində təhqiq edəsiniz, tainki həmin komissiya məhəllində təhqiqat yapıb bu barədə parlamentə məlumat versin.

**Əhməd Cövdət** — Möhtərəm əfəndilər! İki gündən bəri mövzui bəhs olan məsələ haqqında mənə bir neçə dəqiqə soyləməyə müsaidə veriniz, çünki burada sol firqələri bir növ türklərin əleyhinə getməkdə ittiham etdilər. Təəccüblüdür ki, sosialist firqələrini tohmətləndirib türk demokratiyasının müdafiəsini başqaları boyunlarına gotürürlər. Məmməd Əmin əfəndi söylədilər ki, bizim firqəmiz türk firqəsidir. Əfəndilər, siz türkçü isəniz biz də deyiriz ki, biz də türkçüyüz, firqəmiz də türk firqəsidir. (Soldan və mərkəzdən alqış). Fəqət, bizmi ilə sizin aranızda böyük fərq var. (Məmməd Əmin: doğrudur, var!). Bizim firqəmiz türk füqareyi-kasibəsi, türk xalqı, türk demokratiyasının hüququnu müdafiə edən bir türk firqəsidir. (Soldan alqış). Biz kim olur olsun, türk olsun, müsəlman olsun, deyənlərdən deyiliz. Görürsünüz millətin paşası ilə əkinçisini bir dərəcədə tutan firqələrin ardınca gedənlər səhvlərini anlamağa başlamışdır. Türk xalqı da kəndi-kəndisini idarə etmək arzusu bəsləyir və istəyiriz ki, onun zəif əlləri ilə hasil edilən sərvət yalnız bir neçə şəxsə qismət olub qalmasın. Məlumunuzdur ki, Azərbaycan xalqı üçün türk sozü yeni bir şeydir və türk olduğunu yenicə anlamışdır. [251 - 252] Odur ki, türkləri böyük intizar ilə gözləyirdilər. Qara bəy cənabları buyurdular ki, türklər haqqında ehtiramdan başqa bir söz söyləməməli. Bu doğrudur. Fəqət, türklər burada ikən bir kaç zabitanın ədəbsizliyi xalqımızı döyməyə, hətta söyməyə belə məcbur etmişdir. Biz istəmiriz ki, belə fəna hərəkətlər Osmanlı türklərinə qarşı Azərbaycan türklərində nifrət oyatsın. Bunu burada olan bir kaç paşa yapdı, biz o paşa ilə düşməniz. Bizim firqəmiz həm osmanlı xalqının, həm də Azərbaycan demokratiyasının hüququnu müdafiə üçün həmin paşalar ilə mübarizə edəcəkdir.

Əvət! Bunu təsdiq ediriz ki, türk demokratiyası müqəddəsdir, ehtiramlara layiqdir. Fəqət, əfəndilər, burada türk deyə-deyə döşünə deyənlər, məgər türklər gələndə paşaların ayaqlarına sərildikləri halda, ingilislər gəlincə onlara sıxılıb türk tərəfdarı olduqlarını danaraq ingilisə xidmətə girməyə çalışmadılarmı? (Mərkəzdən və soldan alqış). O vaxt Azərbaycan xalqının hüququnu hamıya qarşı müdafiə edən bizim firqəmiz olmadımı? Burada yoldaşımız dedi ki, osmanlılar gəldilər, puç olan əsası idarələri bizimkilərə də təsir etdi. Məgər həqiqətən Osmanlı hökumətinin əsası puç deyilmi?

Əkər Osmanlı məmləkətini gəzmiş olsanız yazıq türk əkinçilərin nə qədər zəlil olduğunu görərsiniz. Buna da səbəb soltanlar və həmin paşalardır. (Soldan: doğrudur!). Mən dediklərimi, osmanlı xalqının ruhunu hər kəsdən artıq bilən, onun dili ilə soyləyən, onun sazını çalan türk şairi Məmməd Əmin bəyin sözləri ilə sübut etmək istəyirəm.

Şair türk hökumətinin istibdadını təsvirlə deyir ki:

"Şu istibdad hökuməti Türkiyəyə təhlükə!"

Baxın məsud etmək üçün hər şeyi olan bir ölkə, hər qüvvəti məqsədinə ram eyləyən bir ümmət. Üç qitədə cahangircə hökm sürən bir dövlət şu saatda bir qaranlıq uçurumun üstündə.)

Əfəndilər, bunu edənlər, bu istibdadı quranlar kəndiləri müsəlman və türk deyillərmi? (Məmməd Əmin: Çox vaxt deyillər!). Mən deyə bilərəm ki, əgər Osmanlı xalqı və kəndçilərini Avropa sərmayədarları əzirlərsə də onlardan daha əvvəl əzən həmən paşalardır. Daima bunlara qarşı üsyan edən şair türk əkinçilərinin halını təsvir edərək deyir ki: [252 - 253]

"Bu yazıqlar Şu zavallı millət üçün məşruttyyət xəyalət, Ədalətli düşmənin başı əzilir, "Müsavat" söyləyən dili kəsilir, hüriyyətdə çarpışan qəlb xaindir. Zindanlarda bu məzlumə zəncirlər, Biçarəyə qızdırılmış dəmirlər, biçarəyə soyuq sular tumruqlar, murdar sözlər, yumruqlar.

Bisarəyə Mərmərədə qanlı-qanlı ölümlər, biçarəyə heç bir yerdə yapılmayan zülmlər."

Kəndilərini və əyalətləri təsvir edərkən şair deyir ki:

"İştə sizə tişarılar ki, hər bucağı bir xaraba, bir məzar,
Göylərində iniltili qəlpələr, hörümcəkli boş xanələr,
Dağlarında dönməz olmuş dəyirmanlar;
soyğun vermiş karvanlar;
Hər yerində yanğın, yəğma zülm var."

Məgər, bunları edən idarənin əleyhinə danışmaq olmazmı? Bir şair bütün qəlbi ilə bunlara qarşı tüğyan edərkən siyasi bir firqənin tüğyan etməyə haqqı yoxmuş? "Məlumunuzdur ki, əfəndilər, burada Qafqaziya içərisində kəndi qardaşlarını xilas etmək kimi müqəddəs işlərə çalışan Məmmədciklər ilə bərabər bir çox fənalıqlar yapan zabitan da olmuşdur. Bunların ədəbsizlikləri zavallı Məmmədciyin boynuna atılacaqdır. Burada ingilislərin bir kontrol komissiyonu var ki, müharibədən nəşət edən və birə on qat artıq gostərilən zərrələri hesab edir ki, canını fəda edən yazıq türk Məmmədciklərinin boynuna yüklənsin. Hətta bir çox müsəlmanlar dəxi var ki, oraya yazılı ərizələr vermişlərdir. Bunlar əleyhinə ilk əvvəl etiraz edən yenə bizim sosialistlər qəzetəsi olmadımı? Artıq türk qarşısında danışmayıb əleyhimizə əsaslı sübutlarla çıxsınlar.

Sorğuya gəldikdə bu barədə deyərdim ki, danışılan bir çox sözlərin doğrusu varsa, bir çoxlarının da doğrusu olduğunu etiraf etmək qeyri mümkündür.

Məmməd Əmin həzrətləri buyurdular ki, hökumət məsələsində iki hal ola bilər. Biri parlamentdən qabaq, digəri sonra və parlamentdən qabaqkı hökumətin nöqsanına təzəyə istinad etmək olmaz. hökuməti tənqid edərkən daxili və xarici düşmənləri, vaxtın az olmasını nəzərə almağı da tövsiyə etdilər. Bu az vaxtda işləri tamamlə düzəltmək qeyri-mümkün olduğunu da əlavə etdilər. Burası doğru, biz də etiraf edəriz. Fəqət, sabiq hökumət ilə yenisi arasında bir təfavüt olmalı idi. Beş [253 - 254] həftə zərfində hökumət barı heç olmasa bir iş görəydi, tədbir görüldü, fəqət, mütəəssifanə bir tədbir ittixaz edilməmişdir. Qara bəyin "hökumət gözlədiyimizi vermədiyinə görə etimad etmiriz" — deməsinə qarşı yoldaşımız Əbilov söylədi ki, hökuməti düşürmək ilə dərdə çarə olmaz. Hər bir işimizi parlament həll etməlidir. Fəqət, dövlət, məmləkət və əkinçinin hüququnu müdafiə edəcək iqdamatı bu parlamentdən gözləmək əbəsdir. Lakin ümidvarız ki, bu yaxında dəvət olunacaq Azərbaycan Məclisi-Müəssisanına həqiqi xalq nümayəndələri cəlb olunacaq və onlar vasitəsilə əsaslı bir xalq hökuməti qurulub Azərbaycan yaşayacaqdır. O vaxtdan demokratik bir hökumət təsviri qeyri-mümkündür. Lakin yenə dərdimizə bir çarə etmək üçün firqəmiz qərar qoydu ki, hökumət ilə bərabər parlament də dəxi işləyib elə fövqəladə tədbirlər görsün ki, hökumətə bir kömək olsun. Hökumət namindən daxiliyyə naziri buyurdu ki, rüşvət alan xain məmurlar məhkəməyə verilib cəzalandırılacaqdır. Fəqət, bu vaxtadək bir məmurun həbs edilərək cəzalandığını görmədik. Deməli, hazırda mövcud olan məhkəmə qanunları kifayət etmir. Ona görə bir Ali Məhkəmə (tribunal) qurmalı ki, bütün möhtəkirlər, xainlər bu ali məhkəməyə verilərək cəzalansınlar, hətta lazım görülsə, bütün əmlakını da əlindən almağa səlahiyyətdar olsun. Yoxsa, şimdiki məhkəmələrə veriləcək olsalar xainlər Azərbaycandan çıxıb Gürçüstan, Ermənistan və sair məmləkətlərə gedərək qanundan qaça bilərlər. Bunun önünü ancaq o Ali Tribunal vasitəsi ilə almaq mümkündür ki, bu da yalnız bizdə deyil, başqa məmləkətlərdə də var. Bütün bu işləri ətraflıca təftiş etmək üçün ikinci parlament komissiyonu dəxi təşkil olunmalıdır. İşdə bu sürətlərdir ki, tamamilə də olmasa əhval bir qədər bəlkə düzəlib Azərbaycan xalqı və kəndlisi üçün rahatlıq ola. (Soldan: alqış!).

**Aslan bəy Qaraşov** ("Əhrar**")** - Bizim dünkü sözlərimizdə hökumətin izahatını kafi görmədiyimiz, bizim hökuməti yıxmaq arzusunda olmağımızdan nəşət etməyib, verilən izahatın doğurdan-doğruya kafi olmamasından irəli gəlmişdir və bir də hökumət əzaları ilə bizim qərəzi şəxsimiz olmadığı ilə bərabər kabinəyə bu haqda daxil olmaq arzusunu dəxi istəmiriz.

Fəqət, biz onu istəyiriz ki, hökumətimizin əsası ədalət, haqqaniyyət üzrə təsis edilsin. Bu əsassızlıq üzündəndir ki, [254 - 255] hökumət idarələrində böyük səhv və xətalar və xəyanətlər sair olmaqdadır. Biz çox şad olardıq ki, hökumət özü sorqudan əv-vəl bu xəyanətlərin önünü alaydı. Bu qədər xəyanətlərə hökumətin göz yumması, barmaq arasından baxması təəccüb olunacaq bir şeydir. Bir para natiqlər bu cür xəyanətlərin önünü almaq üçün, tez bir zamanda Məclisi-Müəssisan çağırılması təklifatında bulundular.

Cavab olaraq mən onu demək istərdim ki, hal belə davam edərsə, Məclisi-Müəssisan çağırılması da mümkün olmaz. Biz xəyanət isminin doğruluğu ilə məşhur olan yollar nazirinin ağzından bu gün eşitmədik.

"Müsavat" fraksiyasının rəisi Rəsulzadə cənabları dünkü qaynar nitqində "Hökumətin səhv və xətaları olmaq mümkündür" deyir. Əcəba, nə cür səhv və xətadır ki, uzun bir müddət davam edir. Nə tühərf bir səhvdir ki, Bakı milyonçusuna, İran konsuluna (10 minlərlə) verilən bezin bir arşını da olsun möhtacına verilmir. "Müsavat"ın rəisi nə üçün bu kimi şeylərə xəyanət deməyib səhv ismi verir.

Hökumətin verdiyi bəyanat bizi razı salmadı, zənn edirəm bu bəyanat "Müsavat"ı dəxi razı sala bilməz.

Biz "Əhrar" fraksiyası əvvəlki "etimadımızı geri almırıq. Məhaza fövqəladə bir komissiyanın təşkilində, sosialist fraksiyalarında iştirak edəriz ki, bəlkə işlər bir növ yolunda gedər.

**Məlikaslanov** (Təriq və məabir naziri) - Ticarət və sənaye naziri burada olmadığından bu məsələ haqqında mən bir neçə məsələ haqqında bir qədər məlumat [vermək] istərəm. Qara bəy yeni təşkil etmiş olan bürodan bəhs etdi. Onun sözündən belə çıxır ki, guya məzkur büro heç bir işə lazım deyilmiş və onun mənfəəti yoxmuş. Fəqət, natiq bu məsələyə bir tərəfli baxır. Amma mən ərz edirəm ki, büronun mənfəəti vardır. Vardı da; ancaq bu mənfəəti xalq hiss etmir, görmür, məzkur büronu neft mədənçiləri Sovet syezdi təşkil etmişdir və hökumət bunu bilir, özü də razı olmuşdur. Onun təşkilində məqsəd budur ki, neft bir yol ilə, bir qayda ilə bir əldən satılsın. Çünki satış sərbəst olub neft ixracı üçün hamıya izin verilsə, o halda düz getməz. Söz burasındadır ki, hal-hazırda Bakıda neft çoxdur və mədənçilərin pula çox ehtiyacı var . hətta o qədər ehtiyac var ki, hökumət onlara pul ilə kömək [255 - 256] edir, etməsə heç bir mədəni işlədə bilməz, fəhləyə maaş verə bilməz. Bundan dolayıdır ki, əgər neft satışında sərbəstlik olsa görərsən bir mədənçinin pula ehtiyacı oldu gətirdi neftin qiyməti 5-6 manat ikən o satdı 3-dən bir qiymətə. Bu surətdə ucuz qiymətlə külli miqdarda neft satılsa, məmləkətin sərvəti hədər olar. Digər tərəfdən sizə bildirməliyəm ki, o neftin həpsi mədənçilərin deyil, üçdən bir hissəsi hökumətindir. Ona görə hökumət neftin dağılmasına heç vaxt razı ola bilməz. İşdə belə şeyləri mülahizə edərək hökumət büronun təşkilinə razı olmağa məcbur idi. Fəqət, bununla bərabər hökumətin fikri var, büronu bir qədər, dəyişsin, qiymət və sairəyi islah etsin, çünki neft işində qeyri-məmul şeylər olur.

**Məmməd Əmin Rəsulzadə** — Bir məsələ üzərində çox mübahisələr edildi. Mən də istər-istəməz intiqam o məsələyə qaytarmağa və cüzi də olsa ondan təkrar bəhs etməyə lüzum görürəm. Çünki, orada bəzi suitəfhim vardır; onlara izah etmək məcburiyyətindəyəm, Ağamalı oğlu türkilər haqqındakı danışığında "Müsavat" da əlaqədar tutdu. Keçən nitqimdə mən, sosialistlər türklərin düşmənidir deməmişdim, mənim sözlərimdən belə bir məna da çıxmazdı. Fəqət, möhtərəm Pepinov cənabları kəndi nitqlərində uzun-uzadı bu xüsusdan bəhs edərək hətta alicənab türk şairi Məmməd Əmin bəy cənablarının qəlbinin tərcümanı olaraq qəlbinin ən dərin guşələrindən qopub gələrək heysiyyatlarını misal gətirib, o möhtərəm şairin sərih vicdanına sığınaraq kəndlərini müdafiəyə qalxmışdı. Fəqət, buna hacət belə yoxdur. Çünki sosialistlər xalq tərəfdarı olduqları üçün heç bir millətə düşmən olmadıqları kimi türklərə də düşmən olmazlar, zatən belə olmasaydı sosialist də olmazdılar, bütün dünya beynəlmilliyyətini müdafiə etməzlərdi. İştə bu nöqteyi-nəzərdən əfkar və səmimiyyətlərinə bütün mövcudiyyəti ilə qətiyyən inanmadığım sosialistləri bu fikirdə təsvir etməzdim. Fəqət ortada bir yanlışlıq görünür ki, bu da türklərin dəvət edilməsi məsələsindədir. Əvət bir millət müşkül vəziyyətdə qaldıqda bir qonşusuna müraciət edər. Yardım, imdad istər. O qüvvə təbii o millətin fəhlə və əkinçiləri deyil, mütəşəkkil və müntəzəm əsgəri olacaqdır. Bu surətlə bir qüvvə tələb edilirsə, ərz etdiyim vəch üzrə o qüvvə türk millətini əkinçi və yaxud başqa bir [256 - 257] sinfi deyil, ancaq o millətin hökumət və müntəzəm qüvvəyi-əksəriyyəsini çağırmaqdan bəhs edilir deməkdir. Əvvəla türk qüvvəsini buraya cəlb üçün hökumətə təhrirən müraciət olunduqda "Müsavat" deyil sosialistlərdən Əhməd Cövdət də mənim ilə bərabər həmin kağızı imza etmişdir. Ağamalı oğlunun dili topuq çala-çala söylədiyi yanlış nitqinə görə deyil, "Hümmət" firqəsinin Tiflisdə nəşr olunan "Probujdenie" qəzetəsində türklərin Azərbaycana çağırılmasını "Müsavat" tərəfindən bir xəyanət kimi tələqqi edərək durmasından dolayı bu örtülü məsələnin bir dəfəlik üstünü açmağa məcbur olduq. Çünki vaxt gəlmişdir, biz bu vaxtı qaçırmayaraq üzərində xəyalı ilə oynalınan əfkarımızı və nöqteyi-nəzərimizi xalqa, Azərbaycan əhalisinə, hətta bütün dünyaya elan edəlim ki, əvət türkləri Azərbaycana biz çağırdıq, bu fikrimizlə də millətimizə fayda təmin etdik və bu çağırmazlığımızdan qətiyyən peşman deyiliz. hətta heç bəyənmədiyimiz "İttihad" və "Tərəqqi" hökuməti idarəsindəki qüvvəni çağırdıq. Lakin Türkiyəyə Soltan hökumətimi, cümhuriyyətimi yaxud başqa bir tərz idarəsi lazımdır? Burası əsaslı bir məsələdir. Biz hələ iki yarım quberniyalı Azərbaycanı idarə etməkdən aciz ikən böyük aləmi şülum bir məsələdən bəhs etməyin nə məkanıdır, nə zamanı. Əhməd bəy cənablarının buyurduğu və şerini sübut gətirdiyi Məmməd Əmin bəy cənabları düşgün türk millətinin kəndilərinin halını ağlamaqla bərabər kəndisi də eyni zamanda Məclisi-Məbusan əzasından biridir və lazım bilsəydim ərz edərdim ki, Əhməd bəyin oxuduğu şerləri də şimdiki hökumətə deyil, Əbdülhəmid istibdadı əleyhinə yazmışdır və Əhməd bəyin bəyənmədiyi hökuməti icraatını təsvib edir. Keçəlim sorğu məsələsinə:

Əlaqədar bulunduğumuz məsələ bizə aydındır. Buraya gələn türk əsgərlərinin hərəkatı tənqid edilməz. Zira onlar əsgər halında gəlmişlərdir, idarə üçün deyil, dedilər. Əvət, bulunduğumuz Türkiyə mərkəzlərindən heç birində heç bir türk siyasisinin azından "biz oraya idarə məqsədi ilə gəlmək istəyiriz" — deyə bir söz eşitmədik. Biz bunu əlbəttə bilirdik ki, türklər burayı idarə etmək və Bakıyı İstanbula qoşmaq istəmirlərdi. Fəqət, burada

bizim öz bəylərimiz və paşalarımız vardı ki, nə sürətlə olsa da türkləri böylə bir siyasi xətaya sövq edir, onları iğfal eliyərlərdi. İşdə bu cərəyana qarşı [257 - 258] idi ki, "Müsavat" mübarizə edirdi. (Alqış). Əvət, türklər vaxtında gəlmiş, bizi ümumi qırğından xilas etmişlərdi. Onların Azərbaycana nisbətən xidmətinə qarşı azərbaycanlıların ürəyində minnətdarlıq hissi o qədər ülvi, o qədər böyükdür ki, necə ki, Bolqariyaya hüriyyət verən və bulqarları xilas edən rus əsgərlərinə qarşı bulqarların hissi alidir. Biz bunların öz xidmətini əbədilik xatirimzdə saxlamaq üçün məmləkətin çox yerində abidələr qoymalıyız. Fəqət, bu o demək deyildir ki, türklər hər bir xətadan mübərraddırlar və onları tənqid etmək olmaz. Böylə bir ehtiram ümumi əski zəmanələrin bütpərəstlərinə məxsus bir ehtiramdır. Müasir bir iş deyildir. Türklərin bəzilərinin işlətdiyi xətaları tənqid etməsək, uğurumuzda canını fəal etmiş türk qəhrəmanlarına səmimi bir ehtiram bəslədiyimiz təsəvvür olunmasın. O fəadirlər belə mərami-ehtiramlara düşgün degillər. (Alqış). Əvət, təbiidir ki, heç bir firqə belə tənqidin əleyhinə olmaz. Fəqət, buna da heç kəs razı olmaz ki, imdad əlini vaxtında bizə yetirilmiş olan fədakar insanlar tənqid əvəzinə təhqir edilsinlər. Qara bəy əfəndi türklərin bu fədakarlıqını hamıdan daha əvvəl bildiklərini söylədilər ki, hələ 11 il bundan əvvəl Tələt paşa, Ənvər paşa və sairləri mənim yanımda Qafqaziyaya gəlməyə and içmişlərdir. Bu ola bilər. Ehtimal ki, doktor Qara bəy xəbəri tezlik ilə yetirmək üçün dəxi yolunu yarımçıq kəsib tezliklə Qafqaziyaya qayıtdı. (Alqış).

Sonra natiqlər burada bir şeyi bizə istinad etdilər. O barədə də fikrimizi təshih etmək istərəm. Deyirlər ki, "Müsavat" hökuməti müdafiə edir. "Müsavat" hökumət firqəsidir. Bunu bilməlisiniz ki, bizim bütün qüvvəmizlə müdafiə edəcəyiz. Hətta bəzən bila şərt və qeyd tabe olacağımız hökumət yalnız tamamilə müsavatçılardan təşkil edəcək hökumətdir. Zamanki hökumət tamamilə müsavatçılardan deyil, və bu saat komissiyon (müştərək)dir. Belə hökumətə biz bəzi şərtlərlə tabe olub, onu müdafiə ediriz. Siz bilirsiniz ki, "Müsavat" parlamentdə əksəriyyət təşkil edən bir mərkəz deyildir. Hökumət hansı firqələrdən təşkil etmişdir. Ona görə heç vaxt "Müsavat" firqəsi hökumət icraatının bütün məsuliyyətini yalnız öz öhdəsinə götürməz. Parlamentimiz və müştərəklik əsası ilə qurulmuş bir hökumətdə də, "Müsavat" əksəriyyət təşkil etmir. Nəinki əksəriyyət, hətta məsuliyyətini ehdəsinə [258 - 259] götürəcək dərəcədə məsuliyyətli surətdə belə iştirak etmir. Açıq söyləyəlim: hökumət baş vəzirini biz vermədik, hətta biz nazir verərkən o, ya bu nəzarəti istəyirik deyə israr etmədik. Əgər hal-hazırda hökumət daxilində bizim nazirlərimiz varsa, onlar da istər-istəməz qalmışlardır. Ona gorə deyirəm ki, bizim müdafiə etdiyimiz hökumət deyil, hökumət fikri, məmləkətdarlıq fikridir. Müsavatçılar bildirir ki, hökumət olmasa, əhval pərişan, vəziyyət fəna olar, məmləkət dağılar. İştə bu mülahizlərdir ki, müsavatçılar qabaqca ölçür, biçir, etimad edər və bir kərə etimad etdikdən sonra onu yarımçıq geri alıb hökuməti düşürərək məmləkəti başsız qoymaz. (Alqış).

Bizə burada dedilər ki, Quba qəzasında Dağıstana meyl olduğu müşahidə edilir. Mən bunu kamali-məmnuniyyətlə qeyd edirəm ki, bu xəbərləri tamamilə təkzib edərək qəzanın bu barədə nə qədər münfəil olduğunu Quba nümayəndəsi söylədi. Zaqatala nümayəndəsinin dəxi borcu idi ki, bu kürsiyi-müəlladən Rəsulzadəyi tənqid etmək əvəzinə bəyan edəydi ki, Zaqatalada qətiyyən Gürcüstana meyl edən bir firqə yoxdur. (Alqış). O bunu unutdusa, mən cəsarətlə deyirəm ki, zaqatalılar haqqında deyilən bu söz qətiyyən yalandır və onlarda belə təmayül olamaz.

Burada sosialist natiqlərdən Əbilov onlar ilə bizim aramızda olan fərqi isbata çalışaraq dedi ki, Rəsulzadə dünki nitqində quldurlara qarşı tədbir görməkdən bəhs edərkən kəndlərdə firqə şobələri açmağı təklif etdi, fəqət, demədi ki, kəndlərdə zemstva qurmaq lazımdır, onlar isə zemstvo tələb edirlər.

Natiq bununla sübut etmək istəyir ki, guya biz kafi dərəcədə demokrat deyilmişiz, çünki zemstvodan əvvəl firqə təşkilatı tələb etdik. Fəqət, bilməlidir ki, zemstvolar, bələdiyyə idarələri və sair ümumi camaat müəssisələri imanı kamil, etiqadı dürüst siyasi məslək xadimlərinin tərvic etdikləri fikir ilə əmələ gələ bilərdilər. Əgər firqə təşkilatı, fədakar xadimlər və demokratik fikir mürəvvicləri göylərə getməmiş, xalq içinə varmamış onları anlatmamışlarsa, demokratik müəssisələr təşkil edilsə belə həqiqi demokratik olmaz və böylə olan surətdə məqsəd əmələ gəlməz. Demokratik firqələrin fikri bir mayadır. Maya vurmadan qatıq gözləməməlidir [259 - 260] Odur ki, xalq ruhuna bu mayəyi vurmalı, sonra demokratik müəssisə təşkilini gözləməlidir.

Əhməd bəy türklükdən bəhslə deyir ki, biz də türküz, bu doğrudur. Amma türklük ilə türkçülük arasında böyük fərq vardır. O fərq nədir? Türkiyəyi bizə misal gətirirlər ki, orada demokratik firqə yoxmuş və o bəlalar onun üçün onların başına gəlirmiş. Lakin mən deyirəm, millətdə milli ruh, milli idrak, etirafi milliyə, şəxsiyyəti milliyə lazımdır. Biz millətə bunu verməyə çalışırız, sosialistlər ancaq proqram üzərinə danışırlar, iştə onlar ilə bizim firqəmiz budur! Əkinçiyə torpaq, fəhləyə iş vermək şüarı hamı demokratik firqələrin proqramında var. Fəqət, sosialistlər ilə bizim fərqimiz bundadır ki, onlar beynəlmiləlçidirlər, biz isə demokratik millətçi, Millətçi demokratlığın nə qədər camaata faydalı, zamanın tələbinə müvafiq olduğunu Qarfqasiya təcrübəsi ilə göstərərək, isbat edərək göstərə bilərəm ki, məsələn, gürcü sosial-demokratiyası camaata nicat vermək üçün nasional-demokratlıq üsulundan başqa bir çarə tapmadı. O da artıq bu yola girdi. (Soldan: yalandır.) Əfəndilər, iştə bu dövləti nöqteyi-nəzərdən məmləkətin əhvalını bilərək, sorulan məsələləri ölçüyə vəz edərək tələb edərdik ki, bütün firqələr hökuməti tənqid edərkən zaman və məkan xaricində deyil, zamanın məkanın daxilində olaraq tələblərini verməlidirlər. Müəyyən bir sorğu varsa əvvəldən bu sorğuya mətləbdən uzaqlaşdırmayaraq məhdud

bir vəziyyətdə müdafiə və müzakirə etməlidir. Məsələn, nəzarətdən bəhs edərkən ümumi siyasətə keçmək və hər şeyə qulp qoymaq, yemək, içmək, yandırmaq şeylərindən bəhs edərkən maarif nəzarətini araya soxmaq səhih olmaz. Necə ki, dün neftdən, bezdən bəhs olunarkən gəlib qaradavoylarda durdular. Bizim söylədiyimiz də üsuli tənqiddir. Bu hallar ilə biz pək irəli gedə bilərik.

Qarabəy bizi dünkü nitqində sindiqat ilə də qorxutdu. Bu xüsusda nazir də bəyanat verdi. Ticarət və sənət nəzarətində üsulsuzluq daha çoxdur. Biz onların üstünü örtmək istəmiriz. Biliriz ki, birisinə məsələn, bir şərt ilə, dikərinə də ayrı bir şərt ilə icazə verilmişdir. Qüvvətli bir tacir asanlıq ilə digər bir tacir isə pək güclülük ilə icazə almağa müvəffəq olur. Siz bu üsulu dəyişə bilərsiniz. Əlinizdə ixtiyar vardır və mümkündür. Xüsusi bir komissiya intixab edərsiniz, [260 - 261] hətta əmr edə bilərsiniz ki, şimdiyə qədər verilmiş icazələr haman bu dəqiqə dayandırılsınlar. Belə ixtiyar və imkan varkən hərçə bada-bad hökuməti düşürəlim, etimad etmiriz deməklə hökumət dəyişdirilirsə, hətta bu hökumət istefa versə ki, onlar belə arzu edirlər, gələcək hökumət dahamı yaxşı olacaq? Və bunların yerində lazım olan bir hökumət bulundura biləcəkmisinizmi? Buna etiqadınız varmı? Madam ki, gələcək hökumətin bunlardan daha fəna olacağını özünüz də etiraf edirsiniz. Bu halda hökumətə ehtiram etməlidir. Biz etimadını ciblərində saxlayan "İttihad"ı söyləyiriz. Hərçəndi onlar belə Zaqatala yolları haqqında formul verərkən və qəbul etdirərkən kəndiləri bilmədən etimadlarını ciblərindən çıxarıb bir kərə hökumətə bəyani-etimad etmiş oldular. Fəqət, onlar etimadlarını ciblərində saxlaya bilərlər. Amma əvvəldən etimad etmiş olan firqələr o vaxt etimadlarını geri götürə bilərlər ki, ortada mühüm bir təbəddülat olsun. Yəni deyə bilsinlər ki, etimad verərkən filan şey vardı şimdi yoxdur, yaxud o vaxt yoxdu, şimdi vardır. İştə məsələyə belə nöqteyi-nəzərdən baxıb bizlər əvvəldən olduğu kimi şimdi də hökumətə etimadımızda baqi qalırız. Ticarət və sənaye nəzarətindən bəzi yolsuzluqlar haqqında isə onların rəfi çarəsinə baxılmalı və bu xüsusda hökumət yolu ilə ixtaratda bulunmalıdır. Kürsüdən düşmədən əvvəl Aslan bəy Qaraşovun bir sözü haqqında bir neçə kəlmə danışmaq istərəm. Aslan bəy söylədi ki, nə üçün "Müsavat" "xəyanət" sözünü işlətmir.

"Müsavat" firqəsi naminə söz söyləyənlər pək əla bilirlər ki, hanki sözü nə vaxt söyləmək olar və nə vaxt olmaz. "Müsavat" söz söyləyərkən söylədiyi sözləri əvvəla vəz edərək olçər, biçər danışar. "Müsavat" xəyanət dedimi, sözünü haman isbata qalxar və isbat edər. "Müsavat" bilir ki, məbusluq sözü və kürsüsü mötəbərdir, məbus söylədiyi sözdən məsul deyildir, hər şeyi söyləyə bilər. Fəqət, məaddətən məsul deyilsə də mənəvi məsuliyyət vardır. Bu etibarla xəyanət sözündən bəhs etdikdə onu havaya tullamayır, məsuliyəti düşünərək sözlərimizi boşuna sərf etməyiz və bunu məbusanə dəxi tövsiyyə etməyiz. (Mərkəzdən alqış).

**Fətəli Xan Xoyski** (Baş vəzir) - Möhtərəm məbuslar! O günlər ki, siz neçə dəfələrlə mənə müraciətən bu hökumətin [261 - 262] təşkilinə məni vadar etdiniz, mən birinci bəyanatımda sizə demişdim, inşallah yadınızdan çıxarmamışdır. Mən o vaxt sizə dedim ki, belə xətləri bir zamanda heç kəs cəsarət edib zimali hökuməti əlinə ola bilməz. Bununla bərabər əgər biz o vəzifəyi öhtəmizə götürürüksə, ancaq sizin sidq dili ilə hökumətin dalında durub kömək edəcəyinizə ümid oluruz. Buna inanıram, əgər görsəm ki, sədaqət yoxdur, bir dəqiqə hökumət başında durmaram. Bunu mən o vaxt dedim və bu sözlər yaddan çıxmazlar. Əlbəttə, mən bilirəm ki, hökumətə kömək cürbəcür olar, sorğu vermək özü də bu cür köməkdir. Bəzi vaxt elə məqam olur ki, bəzi şeylər barəsində tədbir görmək yaddan çıxır, bəlkə hətta hökumətin bəzi şeydən xəbəri olmur. Elə ittifaqlarda gərək məbuslar sorğu vasitəsi ilə əhvalı hökumətə bildirsinlər, borcludurlar soruşsunlar, məsələn, filan kənddə buğda yığırlar, hökumətə məlumdurmu, filan iş niyə belə olur, hökumət buna bir çarə edirmi? Belə sorğular parlament tərəfindən hökumətə bir köməkdir. Heç hökumət belə sorğudan inciməz. Əgər bir əsas doğru deyilsə, parlament sorğu versin, düzəlməsin tələb etsin. Biz sorğuyu həmişə artıq dərəcə məmnuniyyətlə qəbul edəriz. Amma, möhtərəm məbuslar, sorğu da var, sorğu da var. Bir sorğu var ki, atanın oğluna verdiyi nəsihət. Bir sorğu da var ki, zəhərli, bədxahlıq sorğusudur. Zənn edirəm, bu ikinci kimi sorğular ilə iş heç vaxt qabaqca getməz. Belə sorğu parlament ilə hökumətə badalaq vurmaq, biz soxmaq deməkdir. Aya bu zamandır ki, hökumətə badalaq vurulsun? Aya Azərbaycanın halı elədirmi ki, hökumət ilə süpürüşülsün. Belə də sorğu olar?

Bu elə bir zamandır ki, gərək hökumət ilə məhəbbət dili ilə danışasan. Hökumətə deyəsən, filan işdə səhv var, gəl biz də sənə kömək edək düzəldək, bunu belə eləmək lazımdır. Hökumət ilə bu dillə danışmaq gərəkdir. Belə olsa hökumət üçün köməkdir. Mən belə bilirəm ki, heç hökumət ilə özgə dil ilə danışmaq olmaz və hökumət qəbul etməz ki, danışılsın. Mənimi yoldaşlarım burada puldan ötərmi, yaxud yox olan ixtiyardan ötərmi əyləşmişlərdir? Aya bu müqəssirlər skamyasıdırmı ki, hərə gəlib bir söz desin, bir ləkə yapışdırsın? Aya, bizim tərəfimizdən böyük fədakarlıq, millətə böyük xidmət deyilmi ki, öz səlamətliyimizi, bu saat bazarlarda danışılan təmiz adımızı və rahatlığımızı millətə fəda edərək bu skamyalarda [262 - 263] əyləşiriz, hərə bir söz deyir, hətta ixtiyarımız yoxdur onlardan bir qədər ehtiramla davranmağı tələb edək? Doğrudur, çox şeylər olub, nəzarətlərdə çox qüsurlar var, məmurlar rüşvətlər almışlardır, bəzi üsulsuzluqlar olur, bunların heç birini gizləyən, pərdələyən yoxdur. Hökumət bunu bilir, əlindən gələn işləri eyləyir və eyləyəcəkdi də. Müqəssirlərin taqsırını aydınlaşdırmaq üçün istintaq edilir, sonra məhkəməyə veriləcəklərdir. Bu barədə nazirlər bəyənat verdilər. Ancaq mən bunu da deməliyəm ki, bununla bərabər hökumət bir fövqəladə istintaq komissiyonu da təşkil edir ki, bu işlərə baxsın. Çünki adi istintaq və məhkəmələr kifayət etmirlər. Fövqəladə komissiya lazımdır.

Hökumətin borcudur bu işləri görsün, görəcəkdir. Mənim fikrim bunları göstərmək deyil, əsl mətləb sorğunun mahiyyətindədir. Bu sorğu adi deyil, Heç parlamentə belə sorğu görülməmişdir. Adət belədir ki, hökumətə soraq verəndə əvvəlcə deyirlər ki, filan yerdə filan şey olubdur. Filankəs filan işi görübdür, bu hökumətə məlumdurmu və nə tədbir gorür? Sorğu belə olar. Yoxsa heç bir şey göstərmədən sorğu verəsən, hökumətdən cavab aldıqdan sonra başlayasan ki, xeyir belə deyildir, filan-filan olubdur. Bu sorğu deyil, dalında yumruq, cibində daş gizlətməkdir ki, hökuməti qəflətən vurasan, belə sorğuya nə cavab vermək olar. Parlamentdə heç belə adət yoxdur və bu hökumət dili deyildir ki, hökumət ilə bu dil ilə danışırlar. Hər şeyin xasiyyətinə fikir vermək lazımdır. Siz gərək həmişə nəzərdə tutasınız, hökumət ki bu övzanda dolanır, bu nə alimdir, nə övzadır. Bunu siz bilirsiniz, çünki mümkün deyil, parlamentdə oturanlar bilməsinlər. Siz bunu bilirsiniz ki, Azərbaycanın istiqlalı hər dəqiqə təhlükədədir. Bildiniz, indi elə vaxtdır ki, nəinki bez və çit, hətta elə əhval çıxa bilər ki, Azərbaycan belə qalmaz, istiqlalımız gedər. Belə mühüm zamanlarda hökumət işlərini Tağıyev fabrikasının bezi ilə olçmək olarmı? Bu məqamda bu cür sorğu verilir, aşkardır ki, bu xeyirxahlıq fikri ilə verilmiş xeyirxahanə sorğu deyildir.

Bilirsiniz ki, hokumətin həftədə 5-6 iclası olur, gecə saat ikiyədək otururuz, lakin bu neçə vaxtda iş o qədər olmuşdur ki, sıradakı məsələlərə keçmək mümkün olmamışdır. Xarici siyasət o qədər olmuşdur ki, sıradakı məsələlərə keçmək mümkün olmamışdır. Xarici siyasət o qədər hücum edir ki, bu [263 - 264] halda mümkündürmü hökumət gedib sənin bezlərini ölçsün? Azərbaycanın başına bir bəla kələrsə, onda bez nəyə kərək, çit və neft nəyə kərək olar? Gərək elə etməyəsiniz ki, hökumətin səbr kasası dolsun. Belə olsa Azərbaycan üçün çox xətalar çıxar. Hökumət dəyişməklə bir qarışıqlıq çıxarsa, onda bütün millətə deyirəm. Qoy millətin günahı və xətanın məsuliyyəti tamamilə hökuməti yıxanların öhdəsinə düşsün. Qabaqda bu məsələ ayrı cür idi, şimdi dil bir az dəyişibdir, dün hökumətə hamı bir təpik vururdu. Eybi yoxdur, bu da keçər. Sanki belə bir savab mərhəmət etmişlər, elə bil biz öz kafimizlə buraya gəlmişik sanki bizə deyirlər bu dəfə taqsırımızdan keçib sizi dəyişmiriz, gələn səfər belə qələt etsəniz görərsiniz nə edərik? Aya, bu olar? Aya, hökumət ilə bu diləklərlə danışarlar? Mənim qulağıma yetişdiyinə görə parlament üzvlərindən birisi digərinə deyibdir ki, hətta Biçeraxov və Denikinin köməyi ilə də olsa bu hökuməti yıxacağam. (Mərkəzdən və soldan: Eyib olsun, eyib olsun!). Lazım gəlsə o adamın adını da deyə bilərəm. Aya bilirsiniz, Biçeraxov kimdir? Denikin kimdir? Bunlar o adamlardır ki, Azərbaycanın adını da çəkməyə qoymazlar. Aya, hökumət ilə süpürüşmək istəyən bu cür adamlar parlamentdə otura bilərmi? Xayır! (Mərkəzdən, soldan alqış). hökumət ilə parlament arasında qeylü-qal çıxarmaq vaxtı deyil. Möhtərəm məbuslar! Fikirləşin, bu məqam, nə məqamdır, bu məsuliyyət nə məsuliyyətdir? Kördüyünüz işləri düşünmək, fikirləşmək lazımdır. Əgər düşünülsə, bir adam tapılmaz ki, deməsin, bu danışılan dil hökumət ilə danışılan dil deyildir. Belə qorxulu zamanda dalğalar arasında bulunan qayğımızın bir tövr salamata çıxaraq ki, məqsədlərimizə müvəffəqiyyətlə nail ola bilək! (Mərkəzdən, soldan alqış!).

Bu nitqdən sonra zeyldəki üç formula (təklif) varid olur:

\

**Sosialistlərin təklifi:**

"Bizim sənayemizin ən qiymətli məhsulatının alış-veriş və camaat içərisində təqsimi barəsində verilən sorğulara hökumətin izahatını dinləyib Azərbaycan Məclisi-Məbusanı bu məsələnin əhali və cümhuriyyət üçün böyük əhəmiyyəti olduğunu və bunun lazımi surətdə qaydaya qoyulmasını qeyd edərək, əhvali-fövqəladədən [264 - 265] dolayı məmurların xidmətlərində göstərdikləri sui-istemaları və həmçinin möhtəkirlik və əksinqilab hərəkətlərinin şiddətli qanunlar ilə onünü almaq lazım olduğunu nəzərə alıb qət edir ki;

1. Sui-istemallar və ehtikar işlərini müəyyən və istintaq etmək üçün bir fövqəladə parlament komissiyonu intixab etməli və,

2. Məmurların xidmətlərindəki sui-istemalları, möhtəkirliyi və əksinqilab işlərini mühakimə üçün təşkil ediləcək Ali Tribunalın qanun layihəsini düzəltmək üçün bir komissiyon intixab etmək. Və bununla növbədəki məsələlərə keçir.

**"Müsavat"ın təklifi:**

1. Vaqe olan sorğuya qarşı hökumətin verdiyi bəyanatı kafi görərək Məclisi-Məbusan növbədəki məsəllərin müzakirəsinə keçir.

2. Eyni zamanda məmləkət hasilatının eyni bir surətdə idarəsi və ərzaq işinin müvafiq surətdə idarəsi üçün lazım gələn tədbirləri görəmək məqsədi ilə parlament komissiyonunun təşkilinə lüzum gorürüz.

**Ağa Aşurovun təklifi:**

"Hökumətin sorğulara olan cavabını eşidərək, Məclisi-Məbusan hökumət rəisinin göstərmiş olduğu tədbirlərin tezlik ilə görülməsi arzusunu izhar edərək və hökumətin bəyanatını kafi görərək növbədəki məsələlərin müzakirəsinə keçir."

Təkliflər səsə qoyulduqda "Müsavat" kəndi təklifinin birinci qisminin Aşurovun təklifinə dəyişərək, yarısı Aşurov, yarısı "Müsavat" təklifindən ibarət olmaq üzrə aşağıdakı qərarnamə qəbul edilir.

Hökumətin sorğulara olan cavabını eşidərək Məclisi-Məbusan hökumət rəisəsinin göstərmiş olduğu tədbirlərin tezlik ilə gorülməsi arzusunu izhar edərək və hökumətin bəyanatını kafi görərək növbədəki məsələyə keçir.

Eyni zamanda məmləkət hasilatının eyni bir surətdə və ərzaq işinin müvafiq bir surətdə idarəsi üçün lazım gələn tədbirləri [265 - 266] görmək məqsədi ilə parlament komissiyonunun təşkilinə lüzüm görür.

**Azərbaycan, 6,7,9,10,12,13,14,17,18,19 fevral 1919,**
**№107,108,109,110,112,113,114,115,116,117.**

**№15**

**On beşinci iclas**

*18 fevral 1919-cu il*

**Sədr** — Həsən bəyə Ağayev,
**Katib** — Əhməd Cövdət Pepinov.

**Sədr** — Parlamentin iclası açılır. Divani-rəyasət ruzinameyi-müzakiratı bu qərar ilə tərtib etmişdir.

1. Parlamentin mühafizəsi haqqındakı qanun layihəsi; 2. Parlament binasının məxaric smetası; 3. Dəmir yol tarifasının təzyidi haqqındakı qanun layihəsi; 4. İki komissiyon intixabı: ləvayehi-qanuniyyə komissiyonu və məmləkətin hasilatının Hüsnü-idarə və ərzaq işlərini yaxşılaşdırmaq işlərinə baxan komissiya; 5. Varid olmuş kağızlar, o cümlədən, məzuniyyət barəsində ərizələr, məbusların çıxması barəsində kağızlar və "Əhrar" firqəsinin bir təklifi və s.

Əgər bu tərtibə etiraz yoxdursa, qəbul olunur. Söz Aslan bəy Qaraşovundur.

**Qaraşov** — Əvvəla, bütün qanun layihələri müzakirə edilmədən əvvəl birər surətləri ümum fraksiyalara göndərilməlidir ki, fraksiyalar mövqe-müzakirəyə qonulacaq olan məsələrlə qabaqca tanış olsunlar, tainki qanun müzakirə edilən zaman hər fraksiya öz fikrini söyləməyə imkan bulunsun. Saniyən-Əhrar fraksiyasının təklifi Məclisi-Məbusanın ümumi iclasında baxılmaq üçün verilmişdir. Heyəti-rəyasətə vermişik ya qəbul, yaxud rədd edər.

**Sədr** — Deməli, siz təklifinizin parlamentdə müzakirə edilməsini münasib görmürsünüz.

**Qaraşov** — Xeyir!

**Sədr** — Mən özümə borc bilirəm, ərz edirəm ki, "Əhrar" fraksiyası parlament tərəfindən Şəki və Zaqatala mahallarına [266 - 267] bir heyət göndərilməsini təklif edir. Lakin heyəti-riyasət parlamentinin xəbəri olmadan bu məsələyi yalnız öz başına həlak edəməz, binaən-ileyh, heyət göndərilməsi məsələnin Məclisi-Məbusunda müzakirəyə qoymağı münasib bildi. Madam ki, fraksiya öz məsələsinin müzakirəsini arzu etmir, o halda o məsələ qalsın. Keçəlim ikinci məsələyə. Qardaşov cənabları təklif edirlər ki, parlamentə idxal olunan bütün qanuni layihələri müzakirə edilmək üçün qabaqca fraksiyalara göndərilmişlər. Hərgah bu təklifə etiraz yoxsa, qəbul olunur. Deməli qəbula keçir.

Bunu da ərz etməliyəm ki, ruznameyi-müzakirata daxil olanlardan başqa iki layihə varid olmuşdur. Birincisi qonşumuz Cibaliyyun hökumətinə 10 milyon manat pərz buraxılması, ikincisi zavodlardan buraxılan spirtlərin "aksiz" alınması. Razı olsanız, bu məsələləri də daxil edəriz.

**Səslər** — Qəbuldur, qəbuldur.

**Sədr** — Bir də mən özümə borc bilirəm ki, məbusları məlum edim ki, bu gün parlamentə Azərbaycan əhalisinin erməni qismindən də məbuslar gəlmişlərdir. Hələlik 5 məbus gəlmişdir. (Soldan alqış!). Söz maliyyə komissiyonunun sədri Əbuzər bəy Rzayevindir.

**Əbuzər bəy Rzayev** — Məclisi-Məbusanın keçən iclaslarının birisində qət edilmişdi ki, parlamentin mühafizəsi üçün bir qoruyucu bölük təşkil olunsun. Məzkur qoruyucu bölüyün məxaric smetasını tərtib verərək divani-rəyasət maliyyə komissiyonununa həvalə etmişdi. Şimdi komissiya büdcəyi müzakirə etdikdən sonra iclasa təqdim edir. Bölüyün mövcudi 200 nəfərdən ibarətdir. Bunlardan 8-i baş nəfər, 192-si əsgər. Bundan əlavə bölüyün bir komandanı, iki də müavini olur. İstərsənsiz bunların maliyyə xərclərini də ayrı-ayrı oxuyalım. (Oxuyur).

***Azərbaycan Məclisi-Məbusanı xasə qoruyucu bölüyünün təşkili layihəsi:***

Parlamentin kəndinə məxsus qoruyucu bölüyü olmadığından indiyədək bu yüksək idarənin mühafizəsi şəhər nəfərləri vasitəsilə icra olunurdu. Bu gün dəxi onların təhti-mühafizəsindədir. Bu hal şəhərin inzibatını azaltmaqla bərabər, şübhəsiz şəhərin mühafizəsi işlərinə dəxi sui-təsir edir. Bu sui-təsirin önünü almaq üçün və Məclisi-Məbusanın heysiyyətini nəzərə alıb, onun tərəfini mətlub bir dərəcədə saxlamaq üçün Azərbaycan Məclisi-Məbusanının öz təhti-idarəsində bulunacaq bir qoruyucu təşkilatı yapılması lüzumu bədihi bir məsələ dərəcəsindədir. Divani-rəyasətin zənnincə, bu qoruyucu təşkilatı ibtidada 200 nəfərdən əskik olmamaq şərti ilə yapılmalıdır; 200 vücudları sağlam, qeyrətli və əqidəli könüllərdən mütəşəkkil bu bölük təmamilə divani-rəyasət təhti-idarəsində olmaqla bərabər əsgəri cəhətdən bir küllüyə əsgəri komandalarına itaət edib, onların tabeiyyətində və nəzarətində bulunacaqlardır. Bölük bütün məsrəfi Məclisi-Məbusan tərəfindən təmin edildiyi üçün bu təşkilat Məclisi-məbusana məxsus bir əsgəri bölük şəklini alaraq "Məclisi-Məbusan" xassə qoruyucu bölüyü, ismi ilə təsmiyyə bulunur. Bir komandan ilə iki onun müavinindən başqa bölük nəfərləri əlbəsələrini, yatacaq ləvazimatı ilə yeyəcək və içəcəklərini, əsləhə və qeyri mayeyi-ehtiyaclarını hökumət xəzinəsindən

alacaqlardır. Bölüyün daxili nizamı ilə başqa vəzifələrinin tərtibatını divani-rəyasətin öhtəsinə buraxaraq yalnız bölük nəfərlərinin əlbəsələri üçün bir dəfəlik mətbub-məxaric ili bərabər, onları bir sənəlik təyini məsarifi və başqa məxaricin surətini bəyan etməyə keçəlim.

Məclisi-Məbusan bu bölük təşkilatını qəbul edərsə, yuxarıda zikr olan məxarici rəfi üçün iki milyon iki yüz 96 min rubla təxsis etməlidir.

Məxaric surəti:

1. Bölük komandanı: ayda 2000 manat, onun iki müavini: hərəsinə ayda 1500 manat, baş nəfərə (8) hərəsi ayda 250 manat, adi nəfər (192) hərəsi ayda 200 manat,

yekunu ildə 544.800 manat.

2. Hər nəfərə gündə girvənkə yarım çörək, 8 misqal şəkər, yarım misqal çay, 3/4 ət, 5 manatlıq yağ və sair xörək ləvazimatı; hər əsgərə əlbəsə üçün ildə 200 manat. Yekunu 1 milyon 333 min 700 manat.

3. Bölüyün yatacaq, mənzil və sair ləvazimatı;

1-iyirmi otaqdan ibarətdir mənzil, otaqların biri dəftərxana, biri komandan dairəsinə, biri yemək otağı, biri mətbəx mütabiçisi bölük üçün — iyirmi min manat; 2 — işıq və yanacaq iyirmi min manat; 3 — iki yüz dənə doşək, iki yüz üzulə [268 - 269] 5.000 manat, döşək otu 1.800 manat; 4 — altı yüz balış 4.950 manat; 5 — sap və zəhmət haqqı 1208 manat; 6 — balıncın otu 600 manat; 7 — mələfə altı yüz dənə 15.000 manat; 8 —yun yorğan 4.000 manat; 9 — məhrəba iki yüz dənə 1.100 manat.

mətbəx ləvazimatı: cümlətani 178.383 manat 33 qəpik.

Məzkur büdcələrdə mülahizə olunmamış xərclərin unudulmasını nəzərə alaraq və fiyatların günbəgün tərəqqisini dəxi hesaba alsaq fövqəlzikir miqdarı iki milyon yarım manata iblağ etmək lazım gəlir.

İştə iki yüz nəfər ilə 3 zabitanın bir sənəlik bütün məsarifi bu qərar ilədir:

maaşları — 544.800 manat,

təəyyüşləri — 1.610.200 manat,

mənzil ləvazimatı — 178.383 manat 33 qəpik

nəzərə alınmayan məsrəf — 165.616 manat.

yekunu : — 2.500.000 manat.

Əgər iki yüz nəfərin bir yüzü süvari olmasına Məclisi-Məbusan qərar versə, o vaxt fovqəlzikr məsarifə zeyldəki dəxi əlavə olunmalıdır.

1 — yüz at — 400.000 manat; 2 — yüz yəhər — 150.000 manat; 3 — yüz noxta, yüz çul — 15.000 manat; 4 — yüz qılınc və yüz xəncər — 40.000 manat; 5 — ot — 36 — 36.000 manat; 6 — saman — 360.000 manat; 7 — arpa — 360.000 manat; 8 — dörd araba, dörd at — 20.000 manat; 9 — araba atı xərci — 34.200 manat; 10 — qonşqu və sair mayehtiyac — 20.000 manat; yekunu — 1.768.200 manat.

Maliyyə-büdcə komissiyonunun 17 fevral 1919 tarixli bəratülqövlündən iqtibas: Məclisi-Məbusan divani-rəyasəti tərəfindən təqdim olunan Məclisi-Məbusan xassə qoruyucu polkunun təşkili xüsusindəki qanun layihəsi müzakirə olunaraq aqidəki təshih ilə qəbul olunması qət edilir: 1. çörəyin girvənkəsi 3 rüblə şərti ilə bolüyün bir sənəli xərci 33.000 manat; 2. ətin putu 150 manat şərti ilə bölüyün bir sənəlik xərci 202.500 m. 2. bölüyün bir sənəlik təyinin bir məsarifi1 33 700 manat; 4. çəngəl-bıçaq üçün 14.000 manat; 5.çay içməyə qab üçün 600 manat; 6 kağız və qeyri dəftərxana ləvazimatı üçün 6.000 manat: 7. bölüyün yanacaq, mənzil və mətbəx və s. ləvazimat məxarici 138.103 manat; [209 - 210]

8. Bölüyünün bir yüzünün suvari olması qəbul edilmir. Fəqət, bölüyün ehtiyacı üçün 2 araba ilə iki at lazım görülür. Bunların alınması və saxlanması üçün aşağıdakı məxaric qəbul olunur:

1 - iki araba iki at – 10.000 manat; 2 - atlar üçün bir sənəlik yem xərci 21.600 manat; 3 - vedrə və qeyri ləvazim 400 manat. Yekunu – 32.000 manat.

9. Binaən-ileyh bölüyün nəfəratı və komandalarına veriləcək maaş 544.800 manat, bölüyün bir sənəlik təyini məsarifi 133.700 manat, 33 mənzil, yatacaq və sairə 138.103 manat 33 qəpik, iki araba və iki at, onların saxlanılması məsarifi 32.000 manat və nəzərə alınmayan məsarif 151.397 manat 67 qəpik olmaq üzrə bölüyün bir sənəlik məxaricinin yekunu iki milyon yüz min manat (2.100.000) olmalıdır.

**Sədr** - Söz istəyən varsa, buyursun. (Sükut). Bu barədə danışmaq istəyən yox isə ... (Qara bəy yerindən: Var, var!). Söz Qara bəyindir.

**Qara bəy** ("İttihad") - Layihə müfəssələn oxundu. Diqqət ediniz: komandana ayda 2 min; müavinlərinə ayda 1500 təyin edilmişdir. Biz bu maaşı az hesab ediriz. Çünki onlara məvacibdən başqa bir şey verilmir. O məvaciblə xidmət edilməz. Bunların maaşlarını artırıb, yaşayışlarını təmin etməlisiniz. Biz təklif ediriz komandana ayda 3.000 manat və müavinlərinə 2.400 manat maaş təyin edilsin.

**Kazımzadə** - "Müsavat" tərəfindən buna etiraz yoxdur.

**Abuzər bəy** - Mən də təklif edərdim ki, komandana 3.000, müavinlərinə 2.400 manat maaş təyin edilsin.

**Sədr** - Deməli məruzəçi özü də etiraz etmir. Şimdi maddə bə maddə oxuyalım.

**Katib** - Birinci maddəni oxuyur.

**Məmməd Əmin** (yerindən) - Bəzi istilah barəsində bir neçə söz söyləmək istərdim.

**Sədr** - İstilah barəsindəmi?

**Məmməd Əmin** (yerindən) - Əvət, əvət, istilah barəsində.

**Sədr** - Buyurunuz!

**Məmməd Əmin** - Bu alayın xüsusi ismi parlamentdə qəbul edilib qoruqçu bölüyü təsmiyyə edildi. İndi isə parlament xassə - qoruyu oxundu. Təklif edərdim parlamentin əvvəlcə qəbul etmiş olduğu qoruqçu bölüyü sözü qalıb, xassə sözü atılsın. [270 - 271]

**Sədr** - Deməli, siz xassə sözünə etiraz edirsiniz?

**Məmməd Əmin** - Əvət, həm xassə sözünə, həm də qoç olmalısan. Qoç sözü yoxdur, qoruqçudur.

**Sədr** - Xayır, qoç deyil, birinci maddəyi kim qəbul edirsə əlini qaldırsın.

**Məmməd Əmin** - Mən qoç eşitdim.

**Sədr** - Xayır, qoç deyil, birinci maddəni kim qəbul edirsə əlini qaldırsın.

**Məmməd Əmin** - Sözüm var.

**Sədr** - Bu barədə?

**əmməd Əmin** - Bu maddə haqqında.

**Sədr** - Buyurun.

**Məmməd Əmin** - Təklif edirəm bölüyün məxsusi ismi ki, parlament qəbul etmişdi. "Qoruyucu bölüyü" Layinənin hər yerində bu ad ilə yazılsın. Bu oxunan maddədə dəxi xas, qoçu bölüyü nəqdir. Hər yerdə "Qoruyucu bölüyü" əvəz edildiyi kimi bu maddədə də əvəz edilməlidir.

**Aqamalı oğlu** (yerindən) - Doğrudur.

**Sədr** - Birinci maddəni eşitdiniz. Mən onu səsə qoyuram. Hər kəs etiraz etmirsə, əlini qaldırsın. (Əllər qalxır). Etiraz yoxdur. Deməli, müttəhidül qəbul olunur.

**Katib** - ikinci maddəni oxuyur.

**Sədr** - Hər kəs ikinci maddəni qəbul edir əlini qaldırsın. (Əllər qalxır). Deməli, ikinci maddə ittifaqı - ara ilə qəbul olunur.

**Katib** - üçüncü maddəni oxuyur.

**Sədr** - (Əl qaldıran yoxdur). Xahiş edirəm etiraz edən varsa, əlini qaldırsın. Deməli, etiraz edən yoxdur. Müttəhidül rəy qəbul olunur.

**Katib** - Dördüncü maddəni oxuyur.

Səslər: Komandan ilə müavinlərinin maaşını artırdıq. Ona görə bu məbləği də artırmalıdır.

**Abuzər bəy** - Bu smeta bir illikdir. Bir ilin iki ayı da getmişdir. O iki ayın pulu bunun üstünə gələrsə, smetanı artırmaq lazım deyildir.

**Sədr** - Onda nə qədər təvafüd edər?

**Abuzər bəy** – 302.600 manat.

**Sədr** - Axırıncı maddə deməli böylə qəbul olunur. Smeta yekunu 2.200.000 manat, bu şərtlə ki, komandana ayda 3.000, [271 - 272] müavinlərin hərəsinə 2.500 manat verilsin. hər kim bunu qəbula razı deyilsə, əlini qaldırsın. (Etiraz edən yoxdur). Deməli, qəbul olunur. Şimdi qanunu tamamən səsə qoyuram. Hər kim bu qanuna etiraz edirsə, əlini qaldırsın. (Əl qaldıran yoxdur). Deməli, etiraz yoxdur. Qanun müttəhidül rəy qəbul olunur. Qəbul olunan layiheyi-qanuniyyə budur:

1. Azərbaycan Məclisi-Məbusanın müdafiəsi üçün 200 nəfərdən mütəşəkkil bir qoruyucu bölüyü təşkil olunur.
2. Qoruyucu bölüyü Məclisi-Məbusan Divani-Rəyasət təhti-idarəsində bulunacaqdır.
3. Qoruyucu bölüyünə komandanlar və nəfərlər Dəvəti Rəyasət ixtiyarındadır.
4. Qoruyucu bölüyün məsarifi üçün bu layihəyə əlavə olunan məsarif surəti üzrə sənədə 2.200.000 manat dövlət xəzinəsindən buraxılır.

**Sədr** - Növbədəki məsələ parlament mülkünün məxaric smetasıdır. Söz büdcə-maliyyə komissiyonun sədri Abuzər bəy Rzayevindir.

**Abuzər bəy** - (oxuyur).

1. Məclisi-Məbusan nəzarətçisi bir ayda - 1000 manat, nəzarətçi müavini - (1) - 800 manat.

qapıçı - (3) 550 manat; xidmətçi - (3); sil-süpürücü - 550 manat; dalandar (2) - 550 manat.

2. 1919-cu il müddətinə lazım olan yanacaq: 5 ay müddətinə 34 soba üçün: neft – 90.946 manat, faburetka (yağlı) 520 manat.

3. Mənzillərin işığı – 13.000 manat; 4. Zənglərin tərtibi – 4.800 manat; 5. 8 telefon və 5 əlavəsi – 6.500 manat; 6. Təmirati-cariyə 6.000 manat; 7. Su pulu və qapı, pəncərə və sairənin təmizlənməsi – 18.000 manat; 8. Dəftərxana üçün qənd, çay - ildə 8.000 manat; 9. Səndəliyyə və sair ləvazim – 100.000 manat; 10. Xüsusi ittifaqlarda müavinəti-nəqdiyyə 12.000 manat.

Cümlətani yekunu – 286.566 manat.

Maliyyə komissiyonu bu layihəyə baxaraq bəzi yerlərini təshih etmişdir. İşdə protokol: Məclisi-Məbusanə lavazim heyəti tərəfindən parlement mülkünün və onun xadimə və məmurlarının məxarici haqqında təqdim olunan smeta müzakirə edilərək aşağıdakı təshih ilə qəbul olunur: [272 - 273]

1. Birinci maddə 4-cü fəsil: 4 xidmətçi əvəzinə 2 olmalıdır.
2. 3-cü maddədəki işıq xərci 3.000 manat olmalıdır.
3. 5-ci maddə telefon xərci 3.000 manat olmalıdır.
4. 6-cı maddədə göstərilən xərc 3.000 manat olmalıdır.
5. 7-ci maddədəki xərc 1.000 manat olmalıdır.
6. 8-ci maddədən qəndi çıxarmalı və xərc 6.000 manat olmalıdır.
7. 10-cu maddədəki xərc 253.216 manat olmalıdır.

**Sədr** - Bu barədə danışmaq istəyən varsa, buyursun. Parlament etiraz etmirsə, səsə qoyuram. (Rusca tərcümə edir). Parlament binasının məxarici 1918 dekabr ayı ilə bərabər 13 ay müddətinə maliyyə komissyonu tərəfindən 253.216 manat qəbul olunur. Təfsilatı eşitdiniz. Hər kəs bunu qəbul edirsə, əlini qaldırsın. (Əllər qalxır). Deməli müttəhidül rəy qəbul olunur.

**Dəmir yol tərifəsi.**

**Sədr** - Növbədəki məsələ dəmir yol tariflərinin təzyiqi haqqındakı layihədir. Söz maliyyə-büdcə komissiyası tərəfindən Abuzər bəy Rzayevindir.

Rzayev - Məlumdur ki, axır zamanlar dəmir yol xidmətçi və zəhmətkeşlərinin məvacibi artırılmışdır. Ondan bəri dövlət hər ay dəmir yolundan 8 milyon zərər çəkir. Bu zərəri azaltmaq məqsədilə təriq və məabir naziri tariflərin artması haqqında bir layihə hazırlayıb təqdim etmişdir. Büdcə komissiyası məzkur qanun layihəsini müzakirə və bir qədər təshihdən sonra parlamentə təqdim edir.

Layihədə birinci klass qiymətinin 1917-ci il qiymətlərinə nisbətən 10 dəfə artırılması təsəvvür olunurdu. Biz isə 15 dəfə artırırız. İkinci klass nəzarət layihəsində 8 dəfə artırılmışdır, biz 12 qat artırırız. Üçüncü klass 6 dəfə artırılmışdı, biz 10 dəfə artırırdıq. Bir də kasıbları nəzərə alaraq dördüncü klass vaqon buraxılır. Bunun bileti üçüncü klassın yarı qiymətində olacaqdır. Müəllimlər biletinin qiyməti əvvəlki qərar üzrə qalır. Bakı-Sabunçu-Suraxanı yolunda vaqonlar əksəriyyəti fəhlə üçün olduqlarından qiymətləri artırılmır. Baqaj və sərnişin sürəti ilə aparılan yüklərin [273 - 274] kirayəsi köhnə qiymətə qarşı 24 və seym rəqəmlərinə nisbətən 2 dəfə artırılır. Böyük və kiçik sürətlə göndərilən mallara 16 (Seymlə nisbətən 2 qat) artırılır. Malların mühafizəsi üçün alınan 5/1 qəpik vergi şimdi 5 qəpiyədək artırılır. Komissiyon vergiləri 5 qat artırılır. Rayon komitəsi məsarifi üçün neft vaqonları da daxil olaraq hər vaqondan alınan vergi 5 manat artırılır. Əsgəri və xüsusi yüngül şəraitli tarif ləğv edilir. Stansiya məxarici 6 qat artırılır. Mal yükləmək və vaqondan düşürmək xərci 9 qat artırılır. Qapan xərci 9 dəfə artır. Mouqeflərdə yükləri saxlamaq üçün alınan vergi 25 qat artırılır.

Bu layihə üzrə artırılmış tarifə müvəqqətən daxildə tətbiq ediləcəkdir. Beynəlmiləl nəqliyyat haqqında Gürcüstan ilə Azərbaycan arasında əqd edilmiş olan tranzit müqavilənaməsinin 10-cu maddəsi movcubincə bu tariflərin beynəlmiləl bir miqyasda tətbiqi üçün Gürcüstan hökuməti ilə saziş hüsulu lazımdır. Bu barədə müzakirat davam edir. Maliyyə-büdcə komissiyonu bu tarif layihəsinin qəbulunu təklif edir.

**Sədr** - Söz tariq və məabir naziri Xudadad bəy Məlikaslanovundur.

**Məlikaslanov** - Hökumət layihəsi ilə büdcə komissiyonu layihəsi arasında bir qədər təvafüt var. Məsələn, biz birinci və ikinci klass biletini 12 dəfə artırmışdıq; komissiya 15 dəfə artırmışdır. Fəqət, hökumət tərəfindən bu təshihlərə məmainət yoxdur. Burada bir iş varki, Gürcüstan hökuməti ilə bizim aramızda olan tranzit müqavilənaməsinin 10-cu maddəsi mocibincə Azərbaycan ilə Gürcüstan arasında biri-biri ilə göndərilən yüklər tarifin artırılması hər iki tərəfin rizası ilə olmalıdır. Ona görə də layihənin axırında bu xüsusi qeyd edilmişdir. Əgər gürcülər bu layihənin tamamilə qəbul etməsələr, yenidən müzakirat başlamalı olacaqdır. Fəqət, tariflərdən bir neçəsi var ki, Gürcüstan qəbul etmişdir və bu barədə danışmağa məhəl yoxdur. Biz isə müvəqqəti layihəni tamamilə qəbul edib, daxildə tamamilə də tətbiq edə bilərik. Amma beynəlmiləl münasibətdə onlarsız qəbul etmək olmaz.

**Sədr** - Söz Mustafa Mahmudovundur. (Danışmaq istəmir).

**İbrahim Əbilov** (sosialist) - Dəmir yol qulluqçularının məvacibləri artırılarkən tariflərin də artırılması barəsində danışıq olmuşdu. Biz demişdik ki, kirayələrin artırılması [274 - 275] ilə ərzaq şeyləri də bahalanacaqdır. Biz o vaxt dedik ki, kirayə artırılmasın, çünki burası fəhlələrin yeni tələbatına bais olar. Ona görə ərzaq şeylərinin ucuzlaşması üçün tədbir görülsün. Lakin görürsünüz ki, fəhlələrə verilən məvacib onları təmin etmədiyi bir halda kirayələrin artırılması ilə şeylər daha da bahalaşacaqdır. Biz neçə dəfə dedik ki, kirayə bir manat artırılsa, alış-verişçilər bir manat əvəzinə əşyanın üstünə 5-10 manat gələcəklər. Malların qiymətini bahalandıranlar əleyhinə hökumət heç bir tədbir görmür. Möhtəkirlərin iştahasına bir sədd çəkilmir. Bu layihəni qəbul etməklə onların iştahasını daha da artırmış olursunuz. Layihə maliyyə və büdcə komisiyonunda müzakirə edilərkən bizim fraksiyamızın nümayəndəsi iştirak edib, səs verməmişdir. Bir də məzkur layihə heç fraksiyalarda müzakirə edilməmişdir. Neçə dəfə buralarda danışılmışdır ki, parlamentə təqdim olunan layihələr əvvəlcə fraksiyalara göndərilsin, tainki hər fraksiya öz rəyini deyə bilsin. Bir dəfə burada oxumaqla işdən

xəbərdar olmaq mümkün olmadığından fraksiyamız tərəfindən təklif edirəm həm bu layihə, həm də bundan sonra itxal olunacaq ümum layihələrin surəti əvvəlcə fraksiyalara göndərilsin. Bizim fraksiyamız əsasən tariflərin artırılmasına ziddir.

**Sədr** - Söz hökumət üzvü Məlikaslanovdur.

**Məlikaslanov** - Biz bu qanunu hələ çoxləngə salmışıq. Səbəbi də budur ki, Gürcüstan ilə bağladığımız şərtnaməyə görə biz gərək dəmir yolu tarifi haqqındakı tədbirlərimizi bir-birimizin rizası ilə görək. Bu cür bir qanun gərək çoxdan qəbul edilmiş olaydı. Çünki, siz bilirsiniz ki, hər şey bahalaşmışdır. Məvaciblər artırılmışdır. Hətta dəmir yoluna lazım olan şeylər 100-200 dəfə bahalanmışdır. Halbuki biz tarifi 6-7-8 qat artırmışıq. Dəmir yol əmələ və xidmətçilərinin məvacibini artırarkən biz fikir etmişdik ki, tarifi də artıraq, lakin Gürcüstan ilə bağladığımız şərtnamə dolayısı ilə bu vaxtadək gecikmişdir. Bu gecikməyə görə gündə bizim 60, 70, 80 min manata qədər zərərimiz olur. Ona görə də bu qanunu müstəsna tutaraq təcili surətdə qəbul etməniz təvəqqe olunur. Əgər indi bu qanunu qəbul etməsəniz zərər get-gedə artar, zənnimcə bu məsələni fraksiyalara versəniz də heç bir şey dəyişə bilməz. Çünki, büdcə-maliyyə komissiyasında bütün firqələrin nümayəndələri olduğu halda qəbul olunmuşdur. Mən xahiş edirəm, bu gün məsələyə baxıb qurtarasınız ki, xəzinəyə zərər dəyməsin. Möhtərəm məbuslar! Siz bilirsiniz ki, Azərbaycanın mədaxil mənbəyi ancaq neft ilə dəmir yoludur. Hal-hazırda vətənimizdən istədiyimiz qədər neft ixrac edəmiriz. Dəmir yollarımız da bu halda bunca zərər verilir. Və halonki Rusiyanın ən mədaxilli yollarından bir Qafkasiya dəmir yolu idi. Əgər işlər bəylə gedərsə, xəzinə əlbəttə çox zərər çəkər. Tək kağız pul kəsməklə bir nəticə əldə edilməz. Kağız pul nə qədər artıq çıxsa, qiyməti o qədər əksilər və hər şey o nisbətdə bahalaşar. Bunun müqabilində öylə tədbir görülməlidir ki, əhalidən bir şey çıxarıb zərərimizi onunla bir qədər yüngülləşdirək.

**Sədr** - Daha söz istəyən yoxdur ki? Söz doktor Rəfiyevindir.

**Rəfiyev** - Əbilov cənablarının söylədikləri doğrudur. Hər bir qanun parlamentin ümumi iclasında müzakirə edilmədən əvvəl fraksiyalara göndərilməlidir ki, fraksiyalar onunla aşina olsunlar ki, qanunu səsə qoyanda nəyə səs verdiklərini bilsinlər. Amma bu layihə təcilidir. Təriq və məabir naziri söylədi ki, Qafqasiya dəmir yolu həmişə xəzinəyə mənfəət gətirən bir yoldur. Şimdi siz bunun mədaxilinə baxsanız görərsiniz ki, dekabr ayında 5 milyon mədaxil vermişdir, yanvarda da bu miqdardan artıq olmamışdır. Amma yanvardan bəri məvaciblər artırılmış olduğundan məxaric 13 milyona qalxmışdır. Görürsünüz ki, bu sürətdə ayda 8 milyon manat zərər hasil olur. Şimdi əgər bu tariflər artırılmasa o halda, dəmir yolu həmişə mənfəət gətirmiş olduğu halda indi hər ay 8 milyon olmaq üzrə ildə 96, bəlkə 100 milyon manat zərər verəcəkdir. Azərbaycanın cəmi məxarici ayda 600 milyondur. Bunun da beşdə bir hissəsi dəmir yoluna düşür. Heç bir xəzinə buna dayanmaz. Elə isə tədbir görməlidir ki, barı bu vaxtadək, əsasən mənfəət verməkdə olan müəssisələr heç olmasa, mənfəət götürməsə də, zərər də verməsinlər. Binaən-ileyh, mən təklif edərdim təriq və müabir nəzarətinin bu layihəsi qəbul edilsin ki, tezliklə tətbiq oluna bilsin.

**Sədr** - Söz İbrahim Əbilovundur.

**Əbilov** - Mən məsələnin əsası üzərində danışmaq istərdim, yalnız dedim ki, layihə fraksiyalara verilmiş olsaydı, bəlkə dəmir yolu mədaxilinin artırılması barəsində ayrı [276 - 277] yollar tapmaq olar, bu sürətlə də xəzinənin zərəri qapatılardı. Şimdi biz dəmir yolunun sair mədaxillərini bilmiriz ki, fikrimizi bəyan edək. Doktor Rəfiyev layihənin fraksiyalara verilməsi əleyhinə olaraq deyir ki, qanun təcilidir.

Möhtərəm məbuslar! Xatirinizdə varmı ki, keçən iclasın birində də yeni bir qanun lahiyəsi təqdim olunduqda təcilidir deyə təsdiq etdirildi. Hər dəfə də belə ola bilər. Ona görə təklif edirik, qanun layihələri bir həftə qabaq fraksiyalara göndərilsin ki, fraksiyalar qabaqca öz aralarında müzakirə edib parlamentdə də məsələyə baxıldıqda nəyə səs verdikləri bilsinlər. Bir də dedilər qanun fraksiyalara verilsə gecikəcəkdir. Bu qanun nə qədər təcili olsa da,. bir həftə təxir ilə gec olmaz, halbuki təsdiq olunmadan qəbul edilsə, nəticəsi yaxşı çıxmaz. Deyirlər dəmir yolu zərər verir. Lakin gərək sair mədaxil yollarını da düşünək. Məsələn, bilet məsələsindən başqa qeyri işləri dəyişdirmək, vaqonları artırmaq və daha nə kimi yolları varsa, ətraflıca düşünərək tapmaq ilə işi dəxi də yaxşı düzəltmək olar. Heç düşünmürük ki, bilet qiymətlərini artırmaqdan hasil olan kardan daha böyük zərər qaçaq surəti ilə biletsiz gedənlərdən hasil olar, bu qiymətlərin artırılması ilə bəlkə bir paralarının mədaxili daha da artacaqdır. Qeyri bir çox şeylər də var ki, onlardan mədaxil artırmaq olar, nəinki yalnız malların tarifini artırmaqla. Bununla zərər qapanmaz. Tutalım ki, biz tarifi artırdıq, haman dəm alış-verişçilər bundan istifadə edib, siz bir manat artıranda, onlar 5-10 manat artıracaqlar. Yenə fəhlə bahalıqdan dolayı məvaciblərinin artırılmasını tələb edəcəkdir, sonra da yığışıb deyəcəyiz ki, bu fəhlələrə baxın, dünən məvaciblərini artırmışıq, bu gün yenə də tələb edirlər, bu insafsızlıqdır, deyəcəyiz. Layihəyə keçərək deyəriz ki, nə dəmir yolundan xəbərimiz var, nə də qanundan. Ona görə təklif ediriz, bu qanunlar qabaqca fraksiyalara verilsinlər, sonra parlament müzakirəsinə qoyulsunlar. Nə qədər təcili olsa da fraksiyaya göndərmək lazımdır.

**Sədr** - Söz təriq və məabir naziri Məlikaslanovundur.

**Məlikaslanov** - Bu layihə xüsusunda bir qədər məlumat vermək istəyirəm. Məbuslardan Əbilov elə deyir ki, guya bu qanun havadan dəlib buraya düşübdür. Bilməlisiniz bu layihə gəlib buraya çıxanacan bir neçə komissiyadan keçmişdir. Dəmir yol [277 - 278] tariflərinin artırılmasından başqa hər cür mədaxil yolları da,

vaqonun artırılması da, həp nəzərə alınmışdır. Tarifin artırılmasından hasil olan 3.000.000 manat, yəni 8 milyonluq zərəri qapamır, hərgah biz bütün zərərləri çıxarmaq üçün yalnız tarifləri artırmaqla kifayət edib, dəmir yolunun başqa işlərinin düzəltməyə və mədaxilinin çıxmasına çalışmasaydıq, o vaxt tarifi 8 qat artırmaq lazım gələrdi vəhalon ki, biz ancaq 1-dən 2-yə qədər qat artırmışıq. Vaqonların çoxalmasına da çalışmışıq ki, mədaxil artsın. Bunların həpsi nəzərə alındıqdan sonra layihə təqdim edilmişdir. Yenə təkrar edirəm ki, dəmir yolları hər gün 70-80 min manat zərər verirlər. Ona görə rica edirəm, layihəni təxirə salmayıb, bu gün qəbul edəsiniz.

**Sədr** - Söz Əhməd Cövdət əfəndinindir.

**Əhməd Cövdət** (sosialist) - Əfəndilər! Necə ki, nazir əfəndi söylədi, doğrudan da yolların və xəzinənin zərəri o qədər çoxdur ki, bunun qabağını almaq lazımdır. Məlumdur ki, Zaqafqaziya dəmir yolları Rusiya yollarının ən mənfəətlisi idi. İndi isə ayı 8 milyon zərər verir. Bunca zərərə təhəmül edilməz, lakin dəmir yol naziri burada müəyyən bir rəqəm göstərmədi. Dedi ki, dekabr ayı hesabı ilə dəmir yolun zərəri ayda 8 milyondur. Bu doğrudur, amma ayların arasında təfavüt var, o zaman türklər Bakıdan gedirlərdi, vaqonlar onların əlində idi, oktyabr ayı isə ondan da fəna idi. Fəqət, o vaxt əhval qeyri-təbii idi. Amma yanvar ayında böylə deyildir. İrəliki aylara nisbətən əhval yaxşılaşmışdır. Nazir həzrətləri yanvar ayı haqqında bizə məlumat verməli idi, görək yolun mədaxil-məxarici nədir. Bəlkə 8 milyon deyil, azdır. Təssüf ki, bu barədə məlumat verilmədi.

İndi biz burada dekabr ayına ölçü götürürüz, amma bu düz olamaz. Zira dekabr ayında zərər artıq idi, yanvar ayında isə zərər ola bilər ki, az olmuş ola. Hər halda zərəri qapamaq lazımdır. Bunun üçün bilet ilə kirayənin artırılmasını təklif edirlər və deyirlər ki, qanun qəbul olunmadıqça gündə 78-80 min manat zərər verir. Yoldaşımız Əbilov dediyi kimi tarifi artırdıqda malların qiyməti də artacaq, bu da əhali və fəhlə üzərinə gələcək, pul isə möhtəkirlərin çibinə girəcəkdir. Yoldaşımız deyən kimi əgər bilsək ki, bu gün tarifləri artırmaqla işlər tamamilə düzələcək və 100 milyon zərər [278 - 279] olmayacaqdır, o vaxt layihəni qəbul edərdik. Fəqət, biz bilirik ki, bəylə olmayacaqdır. Tarifin artması ilə mallar bahalanacaq, fəhlə də məvacibinin artırılması haqqında layihə təqdim edəcəkdir. Bu sürətlə onlar artacaq, biz artıracağız. Bunların həpsi əsasın düz olmamasındadır. Hökumət çalışıb bahalığın qabağını almalıdır. Bu barədə keçən dəfə burada üç gün danışdıq. Bu qədər danışığın nəticəsi olub-olmadığını biliriz. Hərgah hökumət bu barədə bir tədbir görmüş olsaydı nəticəsini görərdik.

Mərkəzi ev komitəsi kimi bir müəssisənin tədbiri ilə çörəyi ucuzlaşdırmaq mümkünsə, onun sayəsində bazarda malın qiyməti düşərsə, Seltrodomun qüvvəti çatan bir şeyə, hökumətin qüvvəti çatmazmı? Hökumətdə qənd, çay və sair şeyləri özgə yerdən alıb gətirsin, ucuz qiymət ilə əhaliyə satsın və bu sürətlə bazarda malın ucuzlaşmasına səbəb olsun. Və illah həmin stanok yenə işləyib bulaaram pul çıxaracaqdır və bahalığın qabağını almaq mümkün olmayacaqdır. Zənnimcə, dəmir yol ticarəti çalışıb yol ilə gedən ingilis və könüllü əsgərindən para alsa və yoldakı bir para hərəkətlər dəf edilib, işlər nizama salınsa, dəmir yolunun zərəri 3-4 milyondan da əskik olar ki, buna da hökumətimiz təhəmmül edə bilər. Məlumunuzdur ki, oktyabr və noyabr aylarında dəmir yolunun mədaxili yox idi, zərəri var idi. Bu zərər o vaxt təhəmmül olunurdu. İndi isə mədaxilimiz var. Fəqət, burası da nəzərə alınmalıdır ki, dəmir yolunda vəziyyət sabiq Rusiya zamanındakı kimi deyildir. Ona görə nə təhər olsa idi, indi zərər çıxaracaqdır. Bu zərərə də təhəmmül etməliyiz. Məlum olduğu kimi bizim kimi Gürcüstan dəmir yolları da zərər verdiyindən Gürcüstan təriq və müabir naziri də tarifin artırılması haqqında parlamentə bir layihə təqdim etmişdir. Fəqət, parlament tariflərin artırılması qəbul etməyib, yolun nizama salınması və bahalığın önünün alınması üçün tədbirlər görülməsini təklif etdi və bir müddətdə zərərə dözməyi təhti-qərara aldı. Biz dəxi bu zərərə hələlik təhəmmül etməliyiz. Bu layihə büdcə komissiyonunda müzakirə olunan zaman bizim fraksiyanın nümayəndəsi biletlərin artırılması əleyhinə səs vermişdir.

Bizdə layihədə birinci və ikinci klass biletlərinin qiymətinin 50%, amma üçüncü klasın 60% artırılması təklif olunur. halbuki bu klass ilə gedənlər kasıbdır. Ona görə [279 - 280] üçüncü klasın biletini az bahalandırmalıdır ki, gücü çatsın. Əlavə, hökumət o nöqteyi-nəzərdə olmamalıdır ki, hər yerdə qiymət artır, bizdə də artsın. Hökumət ancaq mədaxili artırmaq üçün qəti tədbirlər görməlidir. Bizim fraksiyamız bu rəydədir ki, tarifin artması ilə bu zərərin önünü almaq olmaz. Məsələnin digər cəhətinə gəldikdə deyirlər ki, bu layihə təcilidir. Məlum olduğu üzrə keçənlərdə də bir təcili layihə vardı şimdi büdcə komitəsində yenə bir təcili layihə var. Ola bilər ki, sonralar da olsun, keçənlərdə dediyimiz kimi təklif ediriz ki, qanun layihələri parlament müzakirəsinə təqdim olunmazdan əvvəl fraksiyalara verilsin ki, onlar müzakirə edərək rəylərini deyə bilsinlər.

**M. Ə. Rəsulzadə** ("Müsavat") - Müzakirə edilən məsələdə iki əsas var. Biri budur ki, qanun müzakirə olunmaqdan əvvəl fraksiyalara verilsin. Əvət, fraksiyalara qanun əvvəlcə göndərməlidir ki, məbuslar layihənin məzmunundan xəbərdar olsunlar və parlamentə müzakirə olunarkən idrakla rəy versinlər. Bu məsələ o qədər sərih və aşikardır ki, əleyhində olmaq qeyri-mümkündür. Bu təklif parlament tərəfindən ilk dəfə vaqe olmur. Keçəndə də bir qanun barəsində müzakirə vaxtı qanunların qabaqca fraksiyalara göndərilmələri haqqında bir qərar vaqe olmuşdur. Fəqət, aparatın xarabalığındamı, ya nədən isə qanunlar daima təcili olurlar. Şimdi yenə təcilidir. Deməli, bu da sürətlə təcili qəbul olunsa bir daha təcili qanun təklif edilər və bu sürətlə arxası heç zaman kəsilməz. Sosialistlərin bu xüsusdakı fikirlərinə tamamilə şərikəm. Mümkün olduğu qədər parlamentin

təcili qanunlardan xilas etməlidir. Ona görə şimdi təcili surətdə təklif olunan "tətili" gəlməsində "ə" hərfin "a" ilə əvəz etməklə təcili qanun tacil etsək daha müvafiq olar.

Məsələnin ikinci cəhəti budur ki, sosialist fraksiyası biletlərin qiymətlərinin arırılması əleyhinədirlər. Elə təsəvvür edirlər ki, bu sürətlə bahalığa səbəb olunar və nəticədə təkrar əmələlərin məvacibinin artırılmasını möcüb olaraq pul kəsən makina daha ziyadə işləyəcəkdir. Bu elə bir məsələdir ki, ona artıq dərəcədə ehtiyat ilə yaxınlaşmalıdır. Fəqət mənə öylə gəlir ki, vaqe olan təklif ilə pul makinası daha çox işləyə bilər. Çünki əgər məvaciblərin artırılması gəlirdən deyil, xəzinədən veriləcək olursa, o zaman [280 - 281] makina daha çox işləyəcək. Kağız pulun miqdarı çoxalacaq, eyni zamanda qiyməti də əksilərək, şeylər daha da bahalanacaqdır. Burada deyirlər ki, biletlərin qiyməti artırılmaqla, bahalıq daha da artar, bu doğru deyildir.

Əlbəttə, mümkündür ki, başqa vasitələr və yollar ilə bu zərərin önü alına bilinsin. Dəmir yolunun xərci yalnız 8 milyon deyil, bəlkə daha fəzlədir. Burada yalnız biletin qiymətini 10 dəfə artırmaqla 100 qat artırmış məsafiri ödəmək olmaz, məsələyə diqqət ilə yanaşılmalıdır. Əsa etibarı ilə biletlərin artırılması həyatı zərərləndirərsə, kağız pul miqdarının artması daha da zərərdir. Fəqət, bununla bərabər qanun layihəsinin fraksiyalara verilməsi haqqındakı təklifə israr edən olursa biz də iştirak edərik.

**Sədr** - Söz Yusif Əhmədovundur.

**Əhmədov** (bitərəf) - Zənnimcə, məcburuz bu layihəyi qəbul edək. Ona görə ki, buyurdular ki, gündə 80 min manat zərər var. Qanun nə qədər gec qəbul edilsə, zərər o qədər artıq olacaqdır. Lakin onu çox saxlamaq ilə yenə də bahalığa bir çarə edilməz. Bahalığın şiddət etməsinin səbəbləri burada deyildir, başqa cəhətlərdədir və bu səbəbləri əksiltmək, baha şeyləri ucuz etmək, zənnimcə təriq və məabir nazirinə deyil, ərzaq nəzarətinə aid bir məsələdir. Bu bir azardır ki, illət harasında olmağı tapmaq qəzetlərdə də çox yazılır, cəmi Avropa əqilliləri və tacirləri də bundan acizdirlər. Bu bir çətin məsələdir. O vaxt ki, mal olmadı, əlbəttə bahalanacaqdır. Mal olsa, təbii özü-özlüyündə ucuzlaşacaqdır. Malların məmləkətdə idxalı məsələsində təriq və məabir nazirinin əlində bir çarə varsa, o da yolların yaxşılaşdırılması və ərzaq gətirməyin asanlaşdırılmasıdır. Bahalığa qarşı tədbirləri gərək ərzaq naziri görsün. Əhliye-xibrədən lazım olan adamları çağırsın, işləsin. Odur ki, mən keçən dəfə də söyləmişdim ki, ticarət nəzarəti nəzdində tacirlərdən ibarət bir komisyon olsun. O komisyon təşkil edilsə, əlbəttə, nazirin işi asan olar. Mən sizi inandırıram ki, xəstənin həkimə nə qədər ehtiyacı varsa, ərzaq işlərini də tacirlərə o qədər ehtiyacı var. Mən özüm tacirlər nümayəndəsi olduğum üçün təkrar parlamentə təklif edirəm, bu məsələlərə baxmaq üçün bir komisyon təşkil olunsun və məsələ ətraflıca müzakirə edilsin. O vaxt bahalığın önü alınar. Mən yenə təklif edirəm ki, təriq və məabir nəzarətindən [281 - 282] varid olmuş qanun layihəsini parlament tamamilə də qəbul etməsə də barı Gürcüstan hökumətinin qəbul etmiş olduğu maddələri qəbul etsin, çünki məzkur maddələri gürcülər fevralın birindən etibarən daxildə tətbiq edirlər və beynəlmiləl tətbiqi üçün bizim qərardadımıza mətəldilər.

**Sədr** - Bu barədə danışmaq istəyən varmı? Söz təriq və müabir naziri Məlikaslanovdur.

**Məlikaslanov** - Əhməd bəy həzrətləri dedilər ki, bu məsələ komissiyonda müzakirə olunarkən nazir bizə lazımınca məlumat vermədi. Doğrudan da müfəssəl məlumat verilməmişdir, səbəbi də budur ki, yanvar ayının mədaxil və məxracinə baxılıb tamamilə təhqiq edilməmişdir. Birdə deyirlər ki, ölçü olmaq üzrə dekabr əvəzinə yanvar ayını götürməlidir. Amma mən deyirəm ki, dekabrı götürmək lazımdır, fəqət, böylə səhvlərin islahı pək asandır. Deyirlər ki, tarif artsa, şeylərin qiyməti də bahalanacaq, bu da məxaricin artmasına bais olacaqdır. Hər halda bunu nəzərə almalıdır. Fəqət, qiymətlərin artması haqqında bunu deyə bilərəm ki, məsələn, putu 120-150-manat olan taxılın kirayəsi 1 manat artmaqla məzənnəsinə təvafüt edə bilməz. Qiymətlərin artmaması üçün başqa tədbirlər görmək lazımdır.

Bir də Gürcüstan hökuməti bu qanunun bir para yerlərini qəbul etmişdir. Onların məmurları bizimkilərdən iki qat az məvacib alırlar. Əlbəttə, görünür ki, işin yola getməsi üçün böylə güzəştlər də bulunmalıdır. Maliyyət barəsində çox məlumat vermək olardı. Fəqət, mən bunu qeyd etməliyəm ki, doğrudur kağız pul kəsilir, bununla da pulun qiyməti azalır, mal bahalanır. Bunu danışmaq asandır, amma bunu da nəzərdə tutulmalıdır ki, məmləkətin əhvali-maliyyəsi pək ağırdır. Bizim ümidimiz tək neftədir ki, bunu da hal-hazırda lazım olan qədər ixrac edə bilmiriz. Rusiya yolları bağlıdır, nefti ancaq Batum tərəfə göndərə bilirdik, o da bu axır vaxtlarda Soçi tərəfdə olan hadisələrdən dolayı ümidimizi azaltdı. Biz mümkün olan qədər mədaxilimizin artmasına çalışmalıyız. Bunun tariflərin bahalığına o qədər təsiri ola bilməz. Ona görə mən təklif edirdim, hər gün 70-80 min manat [zərərə] razı olmayıb bu layihəni təsdiq edəsiniz, hərgah tamamilə təsdiq etməli olmasanız, təvəqqe edərim laməhala Gürcüstan hökuməti qəbul etdiyi maddələrə baxıb siz də təsdiq edə idiniz, çünki [282 - 283] məzkur maddələr Gürcüstanda fevralın 1-dən etibarən tətbiq olunurlar. Mən yenə təvəqqe edirəm, layihənin tamamilə qəbulu mümkün olmasa da barı böyük və kiçik sürətli yüklər və sairlərin sabiq qiymətə nisbətlə iki qat artırılması haqqındakı maddəni qəbul edəsiniz, qalanları isə hələlik qəbul etməyərək yenidən baxılmaq üçün fraksiyalara verə bilərsiniz.

**Sədr** - Bu barədə söz deyən yoxmu? Yox isə söz məruzəçinindir.

**Rzayev** - Mən də onun tərəfdarıyam ki, layihə qabaqca mətbu surətdə fraksiyalara göndərilsin. Fəqət, ayda 8 milyondan dəmir yolu 2 ayda 16 milyon manat zərər etmişdir, ona görə təklif edirəm bu layihəni birdəfəlik

qəbul edəsiniz. Bundan sonrakı layihələri qabaqca fraksiyalarda baxıb sonra ümumi iclasda müzakirəyə qoyarıq. Burada Əhməd bəy dedi ki, Gürcüstan dəmir yolları tarifinin artırılması layihəsini gürcü parlamenti qəbul etmişdir. Amma nazir həzrətləri buyurdular ki, hökumət təklifi ilə komissiyonunun rəyi arasında o qədər təfavüt yoxdur. Məbuslardan Əbilov cənabları buyurdular ki, tarifin artması ilə mallar bahalanacaqdır. Amma məncə putu 160 manat olan şeyin kirayəsinin bir manat artması onun qiymətinə təfavüt edəməz. Bir də bir şey fikrimdən çıxdı, bunu deməliyəm ki, sərnişin biletlərinin artması kasıblara təfavüt etməz. Çünki, füqəranın halı nəzərə alınaraq kasıblar üçün dordüncü klas vaqonu buraxılacaqdır. Bunun da qiyməti üçüncü klas biletinin əvvəlki qiymətindən də ucuz olacaqdır, bu tarifləri qəbul etsək, yenə ayda 45 milyon zərərimiz olacaqdır. Ona görə mən yenə təklif edirəm layihəni təxirə salmayıb tamamilə qəbul edəsiniz.

**Sədr** - Layihəni dinlədiniz. Müəyyən etiraz və müəyyən təklif olunmadı. Ancaq təriq və məabir naziri təklif etdi ki, layihəni tamamilə də olmasa Gürcüstanda qəbula keçmiş qismi təsdiq edilsin. Büdcə-maliyyə komissiyası isə layihənin tamamilə təklifini qəbul edir.

**Səslər** - (soldan komissiyanın sədri deyir).

**Sədr** - Burada məruzəçi komissiya tərəfindən danışdığına görə təklifi də bu komissiya adından səsə qoyacağam. Ola bilir ki, komissiyada əzadan bəzisi səs verməmişdir. Fəqət əksəriyyəti ara ilə qəbul olunduğundan yenə komissiya adından olur. Komissiyonun təklifi əsaslı olduğundan mən əvvəlcə onu səsə qoyuram. Əbilov! Bu barədə sual. Buyurun. [283 - 284]

**Əbilov** - Biz müəyyən bir təklif edirik ki, qanun layihəsi fraksiyalara verilsin. Bu təklif üzərində israr edib dururuz.

**Sədr** - Şeyxəlibəyov, buyurun!

**Şeyxəlibəyov** - Bizim fraksiyadan təklif olundu ki, layihə komissiyalara verilsin. Və bu təklif olduğu üçün qabaqca onu səsə qoymaq lazımdır.

**Sədr** - Təklif olundu ki, ələlümum layihələr fraksiyalara verilsinlər. Bu təklifin bugünkü layihəyə dəxi şamil olduğunu mən bilmədim, öylə isə mən səsə qoyuram. Əgər bu qəbul olunmasa, onda məruzəçinin təklifini səsə qoyuram. İndi hər kəs təqdim və müzakirə olunmuş layihənin növbədən götürülərək fraksiyalara köçürülməsi tərəfdardır, rica edirəm əlini qaldırsın. (Əllər qalxır). Deməli, əksəriyyətlə qəbul olunur. Söz hökumət üzvü Məlikaslanovdur.

**Məlikaslanov** - Mən onu demək istəyirəm ki, bu barədə gündə bizə çox zərər dəyir. Ona görə təvəqqe edirəm fraksiyalarda məsələyə tez baxılsın. Mən 5 gün möhlət təklif edirəm.

(Səslər: Yaxşı, yaxşı).

**M. Ə. Rəsulzadə** (yerindən) - Onda tez baxarız.

**Sədr -** 5 gün tezdir. Süni cəhətdən 5 gün mümkün olmayacaqdır. Çünki ruscası makina ilə yazılır. Amma türkcəsi əl ilə yazıldığından tez mümkün deyildir. (Səslər ruscasını göndərin).

**Sədr -** 5 dəqiqə tənəffüs elan etmək istəyirəm. Fəqət, tənəffüsdən qabaq növbədən xaric söz verilir Məmməd Əmin Rəsulzadəyə.

**Rəsulzadə** - Növbədən xaric olaraq söz almağımın səbəbi bu gün əcnəbi dövlətlər nümayəndələrinə məxsus olan lojada möhtərəm müsafirimiz Şərif əfəndi oturduğudur. (Lojaya mütəvəcihan alqış!). Mulloneleyh böyük türk elinin şivələrindən birisini təşkil edən Başqırdıstan hökumətinin nümayəndəsidir. Başqırdıstan sözü ehtimal ki, bir çoxlarımızdan ötəri bir proqram məsələsidir. (Alqış).

"Müsavat" Rusiyada yaşayan bütün türk qövmlərinə muxtariyyət tələb edən bir firqədir. Proqramlarında Azərbaycan, Türküstan, Qırğızıstan qövmlərinə muxtariyyət tələb etdiyi kimi, eyni zamanda Başqırdıstan hökumətinin də muxtariyyətini elan etmişdir. İştə bu gün Avropa sülh konfransına iştirak etmək üzrə müstəqil Azərbaycan paytaxtında müsafir sifəti ilə bulunan Başqırdıstan nümayəndəsini görməyi böyük şərəf [284 - 285] zənn edərsəm, muxtariyyət əsasını qəbul etmiş olan dikər firqələrimizdən ötəri də burası ümumi bir məsələdir.

Binaən-ileyh, yaşasın Başqırdıstan hökuməti və Başqırdıstan türk milləti! Bu gün onların nümayəndəsini alqışla-maq ilə müftəxir oluruz. Eyni zamanda millətlərin hürriyyətləri təmin edilmək sürətilə Cəmiyyəti-əqvamda türk qövmlərinin bir mövqe tutacağına qane olmaqla bir daha təbrik və təkrar-təkrar alqışlayırız.

(Hər tərəfdən lojaya mutəvəccihən gurultulu alqış!).

**Sədr** - Şimdi 5 dəqiqə tənəffüs elan edilir.

(Tənəffüsdən sonra)

**Sədr** - İclasa davam ediriz. Növbədən xaric olaraq söz Rəisi-vükəla həzrətlərinə verilir.

**Son hadisələr haqqında**

**Xan Xoyski** - Möhtərəm məbuslar! Hökumət özünü borclu bilir bu axır günlərdə parlament və camaat arasında həyəcanla danışılan işlər haqqında sizə bir qədər məlumat verim. O da barədədir ki, axırıncı

günlərdə Bakıda bəzi əhvalat vaqe olmuşdur ki, camaatı qorxu və təşvişə salmışdır. General Perejevalski özünə Könüllü Ordu komandanı adı verib Bakıda məşhur olan Hamazasp ilə guya könüllü əsgər toplayırlar. General Perejevalski sabiq Rusiya əsgərlərinə Hamazasp isə ermənilərə silah verirlər, bunlar İçəri şəhərdəki və Təzə Pir yanındakı qışlaları, Salyan kazarmasını tutublar. Bu əhvalat əhalinin təşvişə salmışdır. Hökumət bunu əvvəl gündən bilib, bu əhvalatı təhqiq etmək və bunların kim və mənzurlarının nə olduğunu kəşf etməyə çalışmışdır. Hökumət tədbir görənə qədər mən bu əhvalatı İngilis komandanlığına da bildirməyi lazım gördüm. Çünki neçə vaxtdır müttəfiqlər komandanlığı burdadır; mən istədim böylə mühüm əhvalat onların xəbəri ilə olsun; ona görə öz tərəfimdən bu əhvalat barəsində general Tomsona bir məktub yazdım və öz nöqteyi-nəzərimi bildirdim. Cavab da gəldi. Mən məktubu rusca Yazmışdım, izin verin, rusca oxuyum.

**Səslər** - Oxuyun, oxuyun. [285 - 286]

**Fətəli Xan** - Məktubun məzmunu bu idi: "Bakıda müttəfiqlər qüvvələri komandanı Tomson həzrətlərinə! Hökumətin binagüzarlığında bulunan məlumata görə son günlərdə burada-Bakıda dövlət mənafeyi və hökumət heysiyyati nöqteyi-nəzərindən qeyri-məqbul hadisələr vaqe olur; könüllü ordu nümayəndələri general Perejevalski və general Erdeli Bakıda və onun ətrafında qoşun yığıb silah paylayırlar, məşq edirlər, bir kəlmə ciddi surətdə qoşun hazırlanır. Digər tərəfdən erməni fəalları və əzancümlə sabiq fəaliyyəti Azərbaycanın müsəlman əhalisi ilə mübarizə və talandan ibarət olan həmazası, həmçinin silah danışmağa qadir olan ermənilərin siyahısını tutub, toplayır, silah verir və qoşun qətatı təşkil edir. Qarışıq erməni-rus qətatı Duma meydanından İçəri şəhərə gedən qapının ağzında tamamilə müsəlmanlarla Bakı şəhəri müsəlman əhalisi arasında nəhayət dərəcədə həyəcan var, burası həqli olaraq camaat və parlament tərəfindən hökuməti məzəmmətə və narazılığa bais olur ki, öz paytaxtımızda nəinki dövlətin hüququnu xələldar edən, hətta dövlətin onun əsasını təşkil edən müsəlman əhalisinin varlığı əleyhinə olan bu cür işlərə imkan verir. Əminəm ki, belə işlərin hökumətcə qeyri-qabil təhəmmül olduğuna zati-aliniz də mənimlə iştirak edərsiniz ki, heç bir dövlətdə və məmləkətdə belə şey yoxdur ki, dövlətin və hökumətin bədxahı və onlara yabançı olan təşkilat məmləkətin paytaxtında hökumətin gözü qabağında bunca azad binagüzarlıq edib açıqdan-açığa müsəlləh qüvvələr təşkil etsinlər, hansı ki, dövlətin əsası əleyhinə sövq edilə bilər.

Fovqəlzikr mülahizələr ilə hökumət namından zati-ailənizə müraciət edərək bilatəxir müxtəlif və erməni qoşunu yığılıb təşkil olunmasına xitam verməsində və hər dürlü könüllü təşkilatı və Həməzası ilə yoldaşlarının Azərbaycandan çıxarılmasına məzahiratda bulunmanızı israrla təvəqqe edirəm. Hökumət əmindir ki, zati-aliləriniz bu mülahizələrin haqlı olduğunu etirafla təcili surətdə lazımi tədbirlər görəsiniz və illa hökumət məcbur qalacaqdır ki, bu kimi qeyri-təbii və nəhayət dərəcə təhlükəli işlərə xitam çəkmək üçün ixtiyarında olan var qüvvəyi işlətsin.

Zati-alinizə qarşı ehtiramımın qəbulunu rica edirəm.

**Baş vəzir – F. Xoyski.**

[286 - 287]

Bu kağızı mən Tomsona fevralın 15-də yazmışdım. Sabahı cavab gəldi. Mən özüm də parlament sədri cənabı ilə bir yerdə general Tomson ilə görüşdüm. Məktubunun məzmununu bizə dil cavabı da bəyan etdi.

Cavab budur: (oxuyur.)

**"Alişən, Azərbaycan Baş Vəzirinə.**

Dünki 32 №-li məktubunuzu aldım. Mənim müəyyən məlumatım var ki, rus qoşunu səfərbərliyi icra edilmir. Ola bilər ki, general Denikin qoşununda xidmət üçün zabitlər [yazılışı] əsgər təcəmmüü təsiri bağışlamışdır. Bu zabitlər dərhal Bakıdan gedirlər və bilmərrə əsgəri məşq verilmir və silah paylanmır.

Hhamazapsın fəaliyyəti sabiq Rusiya qoşunundakı erməni əsgərlərinin siyahısını tutub, yaxın zamanda Ermənistana göndərmək məqsədilə məhdud bir işdir. Bunlar heç vəchlə təslih və təşkil edilməyəcəklərdir.

Mən sizin xahişinizə görə, məktubunuzda göstərilən hər dürlü qeyri-məmul hadisənin önü alınması üçün iqdamatda bulunmuşam.

**Sizə səmimi ehtiramı olan Tomson. Bakı, 16 fevral 1919."**

Kağızdan əlavə Tomson dil cavabı da dedi ki, heç vaxt razı olmaz ki, bizi tanımayan təşkilatlar öz başlarına əsgər yığsınlar. Bu mümkün deyildir. Mən də sizin fikrinizə şərikəm, onlar qəti surətdə buradan çıxıb getməlidirlər. Mən cavabında dedim ki, hər nəki mümkündür edib var qüvvəmizlə qoymayacağız böylə şeylər Bakıda olsun. Guya könüllü ordunun fikri var ki, onlar nizami əsgər sifəti ilə deyil, xidmətçi sifəti ilə Bakıda 200 nəfərlik bir dəstə saxlasınlar. hökumət bunu müzakirə edib mümkün olmayacağını qəti-qərara almalıdır. Təzədən bir qəti surətdə məlum etmişəm ki, bundan sonra heç kəs bizdən izinsiz bir şey etməsin və Bakıda nə qədər qüvvə varsa, tamamilə buradan çıxarılsınlar. Ümidvaram ki, İngilis komandanı da bizə köməkdir. O ki qaldı İçəri şəhərdə və Təzə Pir yanındakı evlər: söz vermişlər, orada da bu gün, sabah çıxacaqlardır. Səlyan kazarması məsələsinə gəldikdə general Perejevalski özü yanıma gəlib oranı boşaltmaq üçün 5 gün möhlət istədi. Mən dedim ki, 5 gündən artıq möhlət verə bilmərəm. Çünki ora bizim əsgərlərimiz üçündür. [287 - 288] Ümidvaram ki, qoşunlarımız bu yaxınlarda Bakıya gələr, onda camaatın əhvalı başqa cür olar. Mən bununla demək istəmirəm ki, başınız altına yastıq qoysanız, bizim üçün hər dəqiqə qorxulu ola bilər. Mən əvvəlcədən

demişəm ki, hökumət və parlament bir dəqiqə mürgüləsə də fəna işlər ola bilər. Hökumətin nə qədər imkanı var çalışır ki, xəta yetirən təşkilatlar buradan rədd olsunlar və heç kəsin ixtiyarı olmasın bizdən izinsiz burada öz başına işlər görsün. Hökumət bu barədə tədbirlər görür və görəcəkdir. İnşallah, bu günlərdə əsgərlərimiz gələr, əhali də rahat olar. Hamazapsın əsgər yığmasına gəldikdə, aldığımız məlumata görə əhvalat böylə imiş: Hamazaps köhnə rus qoşununda olub da qalmış və Vətənlərinə getmək istəyən erməni əsgərlərini siyahı edirmiş. Biz buna mane deyiliz. hər kəs istəsə Vətənə gedə bilər. Bu barədə mümainət ola bilməz. Amma Hamazaps özünün burada qalması dürüst deyildir. Bu barədə Tomsona yazdığım məktubda qeyd etmişdim ki, Hamazaps buradan çıxıb getsin.

**Səslər** (mərkəzdən) - Qarabağamı?

**Xoyski** - Mən sizə bu məlumatı vermək istəyirdim. (Ümumi alqış).

**Sədr** - Növbədəki məsələ parlamentin keçən iclasında qəbul edilmiş olan iki komissiya təşkilidir ki, bunlardan birisi məmləkətin bütün hasilatını lazımi qaydaya qoyaraq bəhər istifadə etmək və ərzaq məsələlərini yoluna salaraq, bahalığın önünü almaq işlərinə baxan, digəri ləvayehi-qanuniyyə komissiyasıdır. Rica edirəm, bu komissiyalara nümayəndələr göstərəsiniz və namizədlərin siyahılarını yazıb verəsiniz.

**Rəsulzadə** (yerindən) - Mənə söz veriniz.

**Sədr** - Buyurun!

**Rəsulzadə** - Mən məsələnin şəklinə aid bir neçə söz söyləmək istərdim. "Müsavat" firqəsi tərəfindən Məclisi-Məbusan əzasından iclasa gəlməyən yoldaşların əvəzinə yeni bir siyahı təqdim edilmişdir. Məzkur siyahı bu gün müzakirə və qəbul edilməli idi ki, şimdi təklif olunan komissiyalara adamlardan namizəd verərdik. Siz onların üzvülüyünü təklif etmədən namizəd istəyirsiniz ki, bu da şimdilik bizdə yoxdur.

**Sədr** - Namizədləri göstərmədən əvvəl, digər məsələlərə keçiriz. (Katibə: Oxu!) [288 - 289]

**Əhməd Cövdət** - (oxuyur).

**Sədr** - Məlumunuz olduğu üzərə keçən iclaslardan birisində ədəmi-ictimai qanunu qəbul edilmişdi. Bu münasibətlə Divani-rəyasət öz tərəfindən Gürcüstan hökuməti nəzdində Azərbaycan siyasi nümayəndəsi Məmmədyusif Cəfərov cənablarına teleqraf çəkərək təklif etmişdir ki, o da məmurluqdamı, ya məbusluqdamı qaldığını xəbər versin. Şimdi onun cavabını eşitdiniz. Anlışıldığına görə Məmmədyusif mütəxəssis hesab edərək eyni zamanda həm məbus, həm də məmurluqda qalmağı özü üçün mümkünədd edir.

Söz Məmməd Əmin Rəsulzadənindir.

**Rəsulzadə** - Qəbul etdiyimiz qanunun məzmunu olduqca aşkardır. Bə uzun təfsirə ehtiyacı vardır. Səfiri qanunda qeyd edilmiş mütəxəssislərdən hesab etmək olmaz. Səfir, bir siyasi məmur və hökumət tərəfindən təyin olunduğu üçün vəzifəsində məmuldur. Madam ki, hökumət ümum daxili və xarici işlərdə Məclisi-Məbusan hüzurunda məsuldur və madam ki, qubernatorlar məmur bulunduğu mühitdə məsuldur, əlbəttə səfir dəxi xaricdəki vəzifəsində məsuldur. Xariciyyə naziri hökumət və parlament hüzurunda məsul isə, səfir də ona tabedir, daha mütəxəssis deyildir. Buna görə də bu xüsusda çox danışmaq belə lazım deyildir. Məktubda çox əsaslar var ki, azacıq tənqidə belə təhəmmül etməz. Məsələn, məktubda deyilir ki, xaricdə olan nümayəndələrə də 10 gün möhlət verilmişdir. Halbuki, Parisdə ya Londondan səfirimiz olsaydı, 10 günə cavab verə bilməzlərdi. Məlumdur ki, biz qanun yazanda gözümüzü yumaraq kağız üzərinə nə gəlmişsə yazmamışıq, zaman və məkanı nəzərə almışıq. Bilmişik ki, Parisdə və Londonda səfirimiz yoxdur. Ancaq Tiflisdə bir səfirimiz var ki, 10 gün deyil, 5 gündə də cavab verə bilir. Tənqidə təhəmmül etməyən şeylərdən biridə məktubun Dumaya aid qismidir. Məktubda deyilir: Duma əsası Qafqaziyaya komissar gəldikdə, eyni zamanda Duma üzvlüyündə baqi qalmışdılar. Bu başqa bir vəziyyətdir, çünki inqilab vaxtı. Duma öz içərisindən bir inqilab komitəsi seçmişdir; o da yoldaşlarını hər yerə göndərirdi; o cümlədən Qafqaziyaya da göndərmişdir. Bunlar yəqin etmişdilər ki, bir daha. Dumaya qayıtmayacaq və onun hüzurunda məsul olacaqlardır. Çünki qabaqda ancaq Məclisi-Məbusan gözlənilirdi. O, bir inqilab dövrü idi. Biz artıq inqilab dövründə yaşayırız. Biz Gürcüstanı misal [289 - 290] gətirək, gürcü səfirlərinin eyni zamanda məbus olaraq qaldıqlarını göstərir. Gürcü Məclisi-Məbusanının da qanunu bizim üçün timsal ola bilməz. Bizim qəbul etdiyimiz qanunu onlar qəbul etməmişdilər. Səfir öz nüfuzunu artırmaq üçün, deyir səfir gərək məbus olsun. Bu da düz deyildir. Çünki məbusluq onun istedadını artırmaz, ya parlamentə çıxmaq əksildə bilməz. Bu bir sənətdir... Hökumət ona etimad etmişdir. Artıq məbus olub-olmamağın fərqi yoxdur. Qanundan xaric olan bu hüququ Cəfərova və ya başqasına müstəsna olaraq vermək mənasızdır. O dəlil və sübutlar burada gətirilmişdir, tənqidə təhəmmül etmirlər. Ona görə də mən təklif edirəm ki, Məmmədyusifin izahatı qəbul edilməyib, ancaq qanun qərarına görə ya məbusluqda qalsın, ya səfirlikdə.

**Sədr** - Danışmaq istəyən yoxmu? Onda səsə qoyuram.

Qanunun xariciyyə nəzarəti məmurluğunda bulunan zatlara da şamildir ya yox? Hər kəs şamil ədd edirsə, əlini qaldırsın. (Rusca). Deməli, əksəriyyət ilə qəbul olunur. Keçəlim növbədəki məsələyə. Məclisi-Məbusan əzasından doktor Cəmil bəy Ləmbəranski səhhəti-ümumiyyə nəzarətində məmurluq aldığından məbusluqdan imtina edir. (Katib: ərizəsini oxuyur).

Növbədəki məsələ məbusluqdan çıxanları əvəz etməkdir. "Müsavat" ilə Milli Komitənin tərtib etmiş olduğu 10 №-li siyahı tərəfindən yeni namizədlər göstərilir: Mustafa Vəkilov, Ağa Əmirov, Yusifəli Əliyev, Şeyxzamanov, Məmmədəli Rəsulzadə, Behbudxan Cavanşir, Bəhram bəy Axundov, Əbdüləli bəy Əmircanov.

**Mahmud bəy** ("İttihad", yerindən) - Etibarnamə komissiyasına verilsin.

**Sədr** - Məclisi-Məbusanın qəbul etdiyi qanuna görə parlamentdən çıxmış adamların əvəzinə mənsub olduqları firqə yaxud təşkilat tərəfindən namizədlər verilir. Bu məsələ müzakirə edilməz. və etibarnamə komissiyasına ehtiyac yoxdur.

**Mahmudbəyov** (yerindən) - İcazə veriniz.

**Sədr** - Buyurun!

**Mahmudbəyov -** 10-cu nömrə siyahısı yalnız "Müsavat" tərəfindən deyil, Zaqafqariya milli Komitəsi də iştirak etmişdir. Şimdi bu bir nəfərin namizəd göstərilməsinə haman Mərkəzi Komitə iştirak etmişdimi ya yox? Hal-hazırda o komitə yoxdur. Bu məsələ xeyli əsaslı bir şey olduğundan fraksiyamız [290 - 291] tərəfindən deyirəm ki, etibarnamə komissiyasına verilsin.

**Sədr** - Söz Rəsulzadənindir.

**Rəsulzadə** - Əgər namizədlər siyahısının etibarnamə komissiyasına verilməsi bundan ötrü təklif edilirsə ki, Zaqafqaziya Milli Komitəsi iştirak edib, ya yox, o zaman etibarnamə komissiyasına verilməsinə ehtiyac yoxdur. Bunu burada müzakirə və həll etməlidir. Söyləsinlər burada cavab verəlim. Bu surətlə bizim qabağımıza çıxmaq istəyirlərsə başqa şey ilə çıxsınlar, yoxsa bu imza filanındır, onu təhqiq üçün zərrəbin qoymaq. Etibarnamə komissiyasına vermək lazımdır, deməkdən bir şey çıxmaz. hamıya bəllidir ki, hal-hazırda Zaqavqasiya milli Komitəsi yoxdur. Odur ki, komitə bu siyahıda iştirak edib-etməyib sözləri gülüncdür. Bu söz tənqidə belə dayanmaz. Fəqət, diqqət etsəydiniz görərdiniz ki, bu siyahı "Müsavat" və milli komitə tərəfindən deyil, 10-cu nömrə siyahı ilə keçən namizədlər tərəfindən tərtib verilmişdir. Ona görə müsaidənizlə məsələyi izah edəlim. Məlumdur ki, Rusiya məclisi-müssisanı seçkisində bir neçə müsəlman siyahısı çıxarılmışdır. O cümlədən 10-cu nömrə siyahı iki mərkəzi komitə tərəfindən çıxarılmışdır ki, birisi "Müsavat" mərkəzi komitəsi, digəri Zaqafqaziya milli komitəsi idi. Sonra zamanın gedişi Zaqafqaziya Mərkəzi Milli Komitəsi münhəll oldu və onun bütün səlahiyyəti Azərbaycan istiqlal elanından qabaq Seymdə olan müsəlman nümayəndələri o Komitənin hər bir hüququna varis olmuşdu. Seym dağılıb, Azərbaycan istiqlalı elan olunandan sonra Seymin haman müsəlman fraksiyası Azərbaycan Şurayi-millisi şəklini almışdır. Zaqafqaziya Mərkəzi Milli Komitəsi bu namizədlər siyahısı tərtib edilən zaman vardı ya yoxdu, lakin şimdi arada yalnız "Müsavat" firqəsi vardı. Tutalım ki, arada bir şərikli mal var, şərikin biri meydanda yoxdur, ortada ancaq ikinci şərik qalmışdır.

Bu demir ki, mala bir tək mən sahibəm. O fəqət, deyir ki, bu iki şərikin hüsula gətirdiyi diri adamlar vardır. O əzalar da bu hal-hazırda onların haqqı var ki, 10-cu nömrə parlamentə keçmiş məbusların çıxanlarını əvəz etsinlər. Bə parlamentin qəbul etdiyi qanuna görə çıxmış üzvləri əvəz etmək üçün 10-cu nömrə əzasının iki üzvlərinə nümayəndə verməyə [291 - 292] özlərin yeganə mümətsil ədd və 8 nəfəri namizəd təyin etdilər. Başqa bir surətdə də olamazdı, hər surətlə baxsanız görərsiniz ki, belə də olmalı idi. Bu 8 nəfər də yalnız "Müsavat" firqəsinin namizədləri deyil, musavatçı və qismən də bitərəflərdir ki, ümumiyyətlə, 10-cu siyahı adamları tərəfindən təklif edilmişlərdir.

**Sədr** - Heybətqulu Məmmədbəyov.

**Məmmədbəyov** ("İttihad") - Məməd Əmin cənabları buyurdular ki, Seymdə olan müsəlman üzvlərinə keçmiş Zaqafqaziya Milli Komitəsi ixtiyarat vermişdir. Necə ola bilir? Seym Tiflisdə, Zaqafqaziya Milli Komitəsi Bakıda. Zaqafqaziya Milli Komitəsi də bu ixtiyaratı hansı vəkalətnamə ilə Seym fraksiyasına verdi? Burada deyirlər şərikli mal var, bir şərik yoxdur. Yəni Milli Komitə yoxdur. Milli Komitələr olmayan surətdə bunların adından nə cür 8 nümayəndə seçilir? "Müsavat" deyir ki, Milli Komitənin varisi bizik. Əcəba, hansı mirovoy və okrujnoy sudlar sizi vərəsə təyin etdi? (Gülüş). Həqiqət hal böylədir: "Müsavat" Milli Komitə ilə bir yerdə 10-cu nömrə siyahını tərtib vermişdir, bu işin bir istoriyası var. "Müsavat" Qafqaziyada olan Milli Komitələrlə o vaxt siyahı tərtib etdiyindən şimdi o haqq yalnız "Müsavat"ın olmayıb, ümum Zaqafqaziya Milli Komitələrinə aiddir. O vaxt Soltan Məcid etiraz etdi ki, sizin ixtiyarınız yoxdur ki, Milli Komitə əvəzinə adam seçəsiniz. Onları mahallar seçə bilərlər. Qabaqkı seçkidə "Müsavat" 20 yer götürüb, sair təşkilatlara 10 yer vermişdir. Şimdi də haman 10 yeri "Müsavat" öz nümayəndələrini seçir. Halbuki, lazımdır cəmi mahallara, uyezdlərə teleqraf vurulsun, o yerlər mahallar nümayəndələrinə verilsin. Fəqət, görürüz ki, haman 10 yerə "Müsavat" öz nümayəndələrinə məxsus edir. Burada buyurdular ki, guya bu barədə iki iclas olmuşdur. Biz bilmiriz ki, bu iclası kim çağırıb və hansı qəzetlərdə elan edilmişdir. Burası bizə məlum deyildir. Biz təklif edirik ki, bu məsələ etibarnamə komissiyasına verilsin, yaxud fraksiyalara göndərilsin. Bu ixtiyaratı yalnız "Müsavat"a vermək olmaz.

**Sədr** - Söz Yusif Əhmədovundur.

**Əhmədov** (bitərəf) - Qabaqdakı məsələlər barəsində danışmıram, lakin bunu demək istəyirəm ki, parlament bir qanun düzəltmişdir, onunla da idarə olunur. Onu gərək saxlayaq. Yadımdadır [292 - 293] ki, parlament bir qanun qəbul edibdir ki, hankı fraksiyadan adam çıxsa, çıxan üzvlərin yerinə o fraksiya təzə nümayəndə intixab

etsin. Əgər şəxslərdən bəhs edilirsə parlamentin ixtiyarı yoxdur şəxsi tənqid eyləsin, Əsas böylədir ki, hər fraksiya öz nümayəndəsini təklif etməlidir. Bu işin qanuna müvafiq olduğunu isbat üçün bildirirəm ki, bitərəflərin məmurluq dolayısı ilə xaric olan məbusların əvəzinə də bitərəflər fraksiyası tərəfindən bu siyahıya 3 namizəd daxil edilmişdir. Parlamentdə qəbul edilmiş məsələlərdən təkrar-təkrar bəhs etmək olmaz. Ona görə təklif edirəm bu siyahı qəbul olusun.

**Sədr** - Söz Əhməd Cövdətindir.

**Əhməd Cövdət** - Doğrudan da qəbul etdiyimiz qanun aşikardır. Parlamentdən çıxmış üzvlər mənsub olduqları fraksiya üzvləri ilə əvəz olunurlar. Lakin 10-cu nömrə siyahı haqqında bir az danışmaq lazım gəlir. Məlum olduğu üzrə 10 № li siyahı "Müsavat" və Milli Komitə tərəfindən tərtib edilmişdir. Mən burada firqəmiz tərəfindən deyil, şəxsən öz rəyimi izhar edirəm. Məmməd Əmin əfəndi deyir ki, Mərkəzi Zaqafqasiya Milli Komitəsi öz hüququnu Seymin 44 nəfərlik müsəlman fraksiyasına vermişdir. Buna görədir ki, 10-cu nömrə siyahı "Müsavat" və Mərkəzi Milli Komitə tərəfindən, yəni Seymin, sabiq 44 əzası tərəfindən təkmil edilməlidir. Bina-ən-ileyh, mən təklif edərdim "Müsavat" öz hissəsinə düşən yerlərə öz namizədlərini versin, qalan yerlərə isə Seymin sabiq, yəni Zaqafqaziya Milli Komitəsi namizəd versin.

**Sədr** - Soltan Məcid Qənizadə.

**Qənizadə** - Bu 8 nəfər ki, adı oxundu, bunlara etiraz ola bilməz. Doğrudan da layiqli adamlardır. Yoldaşlardan biri danışarkən adımı çəkdiyinə görə bir neçə kəlmə söyləməliyəm. Məclisi-Müəssisan seçkilərinə siyahı tərtib verilərkən, müsəlmanların ancaq bu siyahıları vardı. Sonradan o siyahıya kim yazılsın məsələsi üstündə müsəlman təşkilatları arasında ixtilaf düşdü, o vaxt müsəlmanlıq, ya "İttihad" firqəsi yox idi. Sonradan araya çıxıb, ayrıca siyahı çıxarmağı lazım gördü. Aşkar şeydir ki, "Müsavat" firqəsi ilə Mərkəzi Milli Komitənin bir yerdə verdiyi siyahı tam müsəlmanlar tərəfindən olduğundan millət onun tərəfdarı olacaqdır. Böylə də oldu. Sonra Məclisi-Müəssisana seçilmiş əza 3 qat artırılıb [293 - 294] 42 nəfər olmaq üzrə Seymə getdilər və orada bir fraksiya təşkil etdilər. Bu fraksiya Bakıda olan Mərkəzi Müsəlman Milli Komitəsinin vəzifəsini ifa edirdi. İndi deyirlər Mərkəzi Milli Komitə yoxdur. Hazırda ancaq "Müsavat" firqəsi var. Lakin mən deyirəm xeyr, haman 42 nəfər ki, əvvəl binası 14 nəfər idi. Milli Komitə o özüdür, hansı ki, indi o özü 120 nəfərə çevrilib parlament adı almışdır. Yəni bu 10-cu nömrənin ixtiyarına bütün parlament şərikdir və 10-cu nömrədən çıxan əzanın əvəzinə "Müsavat" deyil, parlament özü namizəd verməlidir. Çünki, parlament haman 14 nəfərdir ki, sifətini dəyişib parlament şəkli almışdır.

**Sədr** - Daha söz istəyən yoxdur ki? Məmməd Əmin Rəsulzadə.

**Rəsulzadə** - Möhtərəm, Soltan Məcid əfəndi! söylədilər ki, şikardır 10-cu nömrə siyahı Mərkəzi Komitə tərəfindən tərtib edildiyindən hamı müsəlmanlar ona səs verəcəkdilər. Amma məsələ o qədər aşkar deyildir. Əgər məsələ Soltan Məcid əfəndinin buyurduğu kimi aşkar olsaydı, meydana 11,14 və qeyri nömrəli müsəlman siyahıları çıxmazdı. Camaat 5-6 müsəlman siyahısı üzərində düşündü və səsini, rəyini müdafiə etmək istədiyi yerə verdi. Bu məsələnin bir cəhəti. Bir də təklif olunur ki, "Müsavat" öz hissəsinə düşən namizədini versin, yerdə qalan namizədləri 42 nəfərə versin. Biz buna etiraz etməzdik, çünki "Müsavat" haman 42 arasında əksəriyyət təşkil etdiyindən mexaniki hərəkət etsəydi, istədiyi qədər adam keçirə bilərdi. Fəqət, biz mexaniki səsə qoymaqla əksəriyyətimizdən istifadə etmək istəmədik. Lakin Milli Komitələr içində bir vəziyyət var ki, onu nəzərə almalıdır. Çünki siyahı məsələsində bunu belə düşünmək olmaz. Hərçənd milli komitənin səlahiyyəti 42 nəfər verilmişdi, fəqət, böylə düşünmək şəklən düz olsa da, mənən düz olmaz. Əgər bu səlahiyyəti parlament qəbul etsə, yenə "Müsavat" bir şey qeyb etməz. Lakin bir tənasüb əsas verir ki, biz onu pozmuş olarız. Seymdə də olduğu kimi çıxmış üzvlər yerinə mənsub olduğu irqə, namizəd göstərməlidir və 10 №-li siyahı daxilində qalmış üzvlər, çıxanların yerinə yeni namizəd istədilər. Buna şəklən irad olsa da mənən ola bilməz. Çünki, müəyyən bir qisim əhali 10 №-li siyahıda olan müəyyən adamlara səs vermiş, demək o adamlara etibar etmişdir. Seçiləcək namizədlər də camaatın qismi-müəzzəminin rəğbətini qazanmış olan adamların [294 - 295] fikrinə uyğun və onları təmsil edəcək adamlar olmaq üçün, haman siyahının üzvləri tərəfindən intixab olunmalıdırlar. Şimdi o adamların yarısı yoxsa, onu təmsil edəcək və yerlərinə nümayəndə verəcək bir mərkəz varsa o da haman 10-cu nömrəyə səs verən əhalinin etibarını qazanmış 10 №-li siyahıda olan başqa nümayəndələrdir. Siz bu haqqı onların əlindən almaqla əhalinin hüququna təcavüz etmiş olursunuz. Biz də buna mötərizik.

**Sədr** - Söz Qənizadənindir.

**Qənizadə** - Mən yenə deyirəm ki, o 8 nəfər parlament əzalığına gələcək və biz də onlara etibar edəcəyiz. Ancaq biz burada əsasdan danışırdıq, düzdür 10-cu nömrə "Müsavat"dan və Milli Komitədən ibarətdir. Bu da doğrudur ki, "Müsavat" var, amma Milli Komitə dönüb parlament olmuşdur. Deməli, o Milli Komitə var, mövcuddur. O vaxt 44 nəfər idi. (Səslər: 42 idi.) Şimdi həqiqət olmuşdur. İndi o 80 nəfərin ixtiyaratını "Müsavat"a vermək olmaz.

**Sədr** - Təklif var ki, müzakirat qət olunsun. Əhməd bəy təklifinizmi var?

**Əhməd Cövdət** - Təklif edərdik, o 8 adamın siyahısı verilsin 42 nəfərin səvabəddinə.

**Sədr** - 10-cu nömrə siyahının barəsində böylə bir təklif var: parlamentdən xaric olan üzvlərin yerinə bu adamlar namizəd göstərilirlər: Mustafa Vəkilov, Ağa Eminov, Yusifəli Əliyev, Məmmədbağır Şeyxzamanov,

Məmmədəli Rəsulzadə, Behbud ağa Cavanşir, Bəhram bəy Axundov və Əbdüləli bəy Əmircanov. Mən bu siyahını səsə qoyuram. Hər kim bu siyahıya razı isə əlini qaldırsın ((19), kim əleyhinə isə əlini qaldırsın (15), kim səs verməmişsə əlini qaldırsın (2). Deməli, məsələ qəbul olunur.

**Mahmudbəyov** - Kvorum yoxdur.

**Səslər** - Var, var.

**Sədr** - Mən təsdiq edirəm ki, var və keçirəm növbədəki məsələyə. Oxuyun.

**Katib** - Göyçay nümayəndəsi Hacı Hüseyn Əfəndizadənin 5 günlük, Qarabağ vəkili Qara bəy Əliverdiyevin bir aylıq, Zaqatala nümayəndəsi Bayram Niyazi Kiçikxanovun 10 günlük məzuniyyəti qəbul olunur. [295 - 296]

**Sədr** - Keçirəm növbədəki məsələyə. Söz Abuzər bəy Rzayevindir.

**Abuzər bəy Rzayev** - Dağıstan hökuməti bizdən 10 milyon manat faizsiz borc istəyir. Hökumət bu borcun verilməsinə razıdır. Əgər parlament təsdiq edərsə verəriz. Pul təcili surətdə istənildiyindən parlament baxıb təsdiq edənədək hökumət sinyorin konvenin rizası ilə 3 milyon manat buraxmışdır. Parlament təsdiq etdikdən sonra qalanını da verəcəkdir. Dağıstan hökuməti bu borcu 2 ilə qaytarmalıdır. Bundan əlavə Dağıstan hökuməti, bizim hökumətimiz tərəfindən Şimali Qafqaziyada alınmış olan 90 vaqon buğda və sair ərzaq şeylərini xərcsiz buraxmağı vəd etmişdir. Əgər parlament qəbul edərsə, maliyyə nazirinə tapşırılsın bu xüsusda Dağıstan hökuməti ilə müqavilənamə bağlansın. Büdcə-maliyyə komissiyası tərəfindən borcun verilməsinə maniət yoxdur və təklif olunur ki, parlament təsdiq etsin.

**Sədr** - Bu barədə kim danışmaq istəyir?

**Səslər** - Heç kəs, səsə qoyunuz.

**Sədr** - Danışan yoxdur. Səsə qoyuram. Hər kəs Cəbaliyun hökuməti cümhuriyyətinə 10 milyon manat borc verilməsinə razı isə əlini qaldırsın. Deməli əksəriyyətlə qəbul olunur. Növbədəki məsələ spirtolara aksiz qoymaq haqqındakı qanun layihəsidir.

**Səslər** - Qalsın sonraya.

**Sədr** - Təklif var ki, bu məsələ sonraya qalsın. Məsələ gələn iclasa qalır. Komissiyonara təklif olunan namizədlər bunlardır: ləvayehi-qanuniyyə komissiyasına Malxazyan (erməni), Mahmudbəyov ("İttihad"), Komin və Qəbulzadə ("Müsavat"), ərzaq və məmləkət məhsulları işlərinin hüsn-idarə üçün parlament komissiyasına:

**Məmməd Əmin** (yerindən) - Komissiyalar haqqında mənim bir əsas mülahizəm var.

**Sədr** - Buyurun!

**Məmməd Əmin Rəsulzadə** -.İndiyə qədər parlamentdə komisiyalar təşkil edildikdə fraksiya hesabı ilə, yəni hər fraksiyadan birər üzvüdən ibarət olurdu. Halbuki komissiya parlamentin rəyini təmsil etməlidir. Bu mülahizə ilə parite əsası ilə qurmaq düz deyildir. Zira parlamentdə fraksiya qüvvələri müxtəlifdir, öylə fraksiya var 4 nəfərdən ibarətdir, eləsi var 20-dən ziyadədir. Ona görə də bu əsas ədalətsiz olur. [296 - 297] Doğrudur, komissiyon öz başına heç bir məsələyi həll etməyib, parlamentə verir, fəqət, bununla bərabər komissiyonun rəyinin böyük təsiri var. Bu mülahizə ilə fraksiya yaşı (paritet) hesabının əleyhinədir. Doğrudur, parlamentin bu xüsusda bir qanunu yoxdur və nizamnamə bu günlərdə müzakirə ediləcəkdir. Nizamnamə bu məsələni aydınlaşdırır. Lakin o vaxtadək biz təklif edərdik komissiyaların doğru əsas üzərinə qurulması üçün indilik hər komissiyaya firqələr öz üzvlərinin miqdarı nisbətində nümayəndə versinlər. Ona görə biz təklif ediriz Nizamnamə qəbul olunanadək, hələlik hər 10 məbusdan bir nümayəndə hesabı ilə təşkil olunsun. Yarıdan ziyadənin də bir nümayəndəyə ixtiyarı olsun. Bu surətlə 10-24 əzadan ibarət fraksiya iki nümayəndə, 25-dən 30-dək 3 nümayəndə versin. Bu əsas üzərinə 23 əzadan ibarət olan "Müsavat" fraksiyasına komissiyaya iki nümayəndə yeri verilsin.

**Aqamalıoğlu** (yerində) - Evinizi Allah yıxsın, görəsən bizə də bir şey düşdümü?

**Sədr** - Təklif barəsində danışan varmı?

**Səslər** - Kvorum yoxdur.

**Sədr** - Rica edirəm sakit olasınız. Deyirsiniz kvorum yoxdur. Bir neçə qanun var, onlara baxacaq komissiyon yoxdur. Yoldaşlarınızı buraxmayınız, çıxıb getsinlər. Papiros çəkmək bəhanəsilə dişarı çıxıb gedirlər, işlər də qalır. Heybətqulu əfəndi, danışmaq istəyirsiniz? Buyurun!

**Mahmudbəyov** - Cənabi sədr buyurdu bir neçə komissiya təşkili lazımdır. Bir para layihə var ki, onlara baxmaq lazım gələr. Sədrin buyurduğuna görə komissiyalar təcili olduğundan mən təklif edərdim, bu komissiyalar bu saat köhnə əsas ilə intixab edilsinlər. Nizamnamə parlamentə gəldikdən sonra təzə əsas ilə intixab edərik.

**Sədr** - İclasda 35 adam var. Kvorum olmadığından iclası qapamağa məcburam. Rica edirəm, gələn iclasın vaxtını təyin edəsiniz.

**Səslər** - Divani-Rəyasət təyin etsin.

**Sədr** - İclası qapanmış elan edirəm. İclas 5-ə 20 dəqiqə qalmış qapanır.

**Azərbaycan, 21, 23, 24, 25, 26 fevral 1919,**

**№119, 120, 121, 122, 123.**

**№16**

**On altıncı iclas**

*25 fevral 1919-cu il*

Bu gün mühüm məsələ müzakirəsi gözlənildiyi hiss olunur. Parlament əzası tam heyətlə camaat içərisində çox ziyadə böyük intizar, sükut və diqqət hökmü fərmadır.

**Sədr** - Həsən bəy Ağayev.

**Katib** - Əhməd Cövdət.

İclas açılır saat 11-ə 5 dəqiqə işləmiş.

**Sədr** - Parlamentin iclası açılır. Bugünkü iclasın ruznameyi-müzakiratı Divani-Rəyasət tərəfindən bu qərar ilə tərtib verilmişdir.

1. Varid olmuş məktublar. O cümlədən istefa haqqında Rəisi-vükəlanın göndərmiş olduğu məktub; "Müsavat" fraksiyonun komissionlar intixabı haqqında təklifi; bəzi üzvlərə məzuniyyət: o cümlədən Asəf bəy Şıxəlibəyova, Abdulla bəy Əfəndiyeva və Bəhram bəy Vəzirova; 2. Keçən səfərdən natamam qalmış iki komissona əza intixabı; 3. Bir neçə qanun layihələri:

a) Hərbiyyə nəzarətinin qanun layihəsi;

b) Bakı bələdiyyə idarəsinə 4 milyon istiqraz haqqında qanun layihəsi; v) dəmir yol tarifinin təzayidi haqqında qanun layihəsi; q) Əlkeul vergisi (aksiz) layihəsi; d) Tənbəki və spirto vergisi (patent) layihəsi; 4. Məclisi-Məbusan nizamnaməsi.

Hərgah bu cür tərtib olunmuş müzakirati-yomiyyəyə etiraz yoxsa, qəbul olunur.

**Məmmədbəyov** (yerindən) - Müsaidə veriniz.

**Sədr** - Buyurunuz!

**Məmmədbəyov** ("İttihad") - Mən təklif edirəm ki, Məclisi-Məbusan nizamnaməsi məsələsi ikinci növbəyə qoyulsun. Qaldı ki, "Musavat" fraksiyonunun təklifi üçüncü məsələ olsun, əvəlcə nizamnaməyə baxılsın, sonra komissiyonlar intixabı təklifinə.

**Sədr** - Söz Cavad bəy Məlikyeqanovundur.

**Məlikyeqanov** - "Müsavat" fraksiyonu tərəfindən təklif olunur ruznameyi-müzakirat tərtib olunduğu qərar üzrə qalsın. [298 - 299]

**Sədr** - "İttihad" fraksiyonu növbeyi-müzakiratı dəyişməyi təklif edir. Hər kəs ruznameyi-müzakirəti, elan edildiyi tərtib ilə qəbul edirsə rica edirəm əlini qaldırsın. (Əllər qalxır) - Deməli, əksəriyyət ilə qəbul olunur.

**Katib** - Fətəli xanın məktubunu oxuyur.

**Sədr** - Bu məktub bərayi-məlumat oxundu. Bu barədə müzakirə ola bilməz. Malik olduğum haqqa istinadən bu barədə parlament rəisi tərəfindən lazımi tədbirlər olacaqdır. (Dərin sükut). Müəyyən təklif ola bilər.

**Rəsulzadə** - Müsaidə buyurunuz.

**Sədr** - Söz Rəsulzadə Məmməd Əminindir.

**Rəsulzadə** - Böylə mühüm bir zamanda rəisi-vükəla əsəblərinin yorğun və xəstə olub dövlət işlərindən ötrü lazımi qədər işləməyə təhəmmül etmədiyindən dolayı istefa verir. Bu barədə yalnız təəssüf etməlidir ki, böylə mühüm zamanda məmləkətin siyasəti ümumiyyəsi pərişan bir halda ikən Rəisi-vükəla səhhətinin pozulmasından dolayı istefa verir ki, bizcə Məclisi-Məbusan bu motivi qəbul etməyə bilməz. Adətən, Məclisi-Məbusan bildiyi kimi bir namizəd dəvət edib kabinə təşkilini ona tapşırmasını kəndi rəisinə mühəvvəl etməlidir.

**Sədr** - Hərgah başqa bir təklif yoxsa, "Müsavat" tərəfindən edilən təklif qəbul olunur. Keçək növbədəki məsələyə.

**Rəsulzadə** (yerindən) - Müsaidə veriniz. Əlbəttə, yeni hökumət təşkilinə qədər indiki hökumət iş başında qalmalıdır.

**Sədr** - Üzr istəyirəm, ruznameyi-müzakirətı elan edərkən bir şeyi unutdum, parlamentdə iştirak edən erməni fraksiyası tərəfindən bəyənnamə oxunacaqdır. Ona görə növbədən xaric olaraq erməni fraksiyası üzvü Malxazyana söz verilir.

Erməni fraksiyasının bəyənnaməsi.

**Malxazyan** - Şu bəyannaməyi oxuyur.

Biz Gəncə və Bakı şəhərləri erməni milli şuralarının üzvləri, Azərbaycan Cümhuriyyətinin Ali Müəssiseyi-Təşriyyəsinə daxil olaraq, Siz məbus cənabları və sizin şəxsinizdə kəndi müqəddəratını kəndi əlinə almış olan türk millətini təbrik edirik. (Şiddətli alqış).

Biz parlamentə gəldikdə gərək türk millətinin və gərək Azərbaycan Cümhuriyyəti daxilində yaşayan sair millətlərin mənfəəti üçün səmimi surətdə çalışmaq arzusu ilə gəldik. [299 - 300]

Bu məqsədə çatmaq üçün biz Cümhuriyyət həyatında ciddi və doğru bir surətdə sarsılmaz etiraf hüquq və nizami-asayiş əsasları yürütməyi lazım biliriz; həm də Azərbaycan daxilində bütün vətəndaşlar qanun hüzurunda tam mənası ilə və şübhəsiz müsavi hüquqa malik olmalıdırlar.

Bizcə bu intizam və hüquq ancaq o vaxt olar ki, Azərbaycan daxilində əqəliyyət təşkil edən ümum millətlərə türk milləti ilə bərabər, milli, mədəni məsələlərdə təyini müqəddərat ixtiyarı verilsin. Biz var-qüvvəmizlə gərək cümhuriyyət daxilində və gərək onun xaricində hər dürlü təmsil, cahangirlik və qəsbkarlıq arzusu ilə mübarizə edəcəyiz. Böylə arzuları bu həqiqi demokratik-hüquqi dövlət fikrinə müğayir və cümhuriyyətin mövcudiyyəti üçün təhlükəli hesab ediriz. Biz dərin bir etiqad ilə inanırız ki, gərək təşkil etmiş cümhuriyyətlər daxilində və gərəkcə onların xaricində Zaqafqaziya millətləri bir-biri ilə sülh ilə yaşayıb, sıxı və səmimi bir surətdə birləşməsələr nə sakitlik ola bilir, nə də doğru sülh. Sakitlik və möhkəm sülh olmadıqca nahiyənin mədəni tərəqqi və təalisi və əhalisinin rifah və səadəti mümkün olmaz. Halbuki, hər bir hökumət buna çalışmalıdır. Ona görə biz var qüvvəmizlə Zaqafqaziya millətləri arasında hüquq və ədalət əsası ilə birlik və müvafiqət üsuluna çalışacağız. Çünki nə qədər Zaqafqaziya millətlərindən və yainki bir qisminin belə qanuni hüquq tələbatına əməl edilməsə və hissiyyatı-milliyyəsi mühəqqər olsa nə sakitlik ola bilir, nə möhkəm sülh və Zaqafqaziya daima bir beynəlmiləl münaqişə, ədavət və müsadimə meydanı olar.

Binaən-ileyh, var-qüvvəmizlə ayrı-ayrı milətlərin sair cümhuriyyətlər zərərinə olaraq özləri üçün xüsusi və faiq bir mövqe hüsuluna çalışması müqabilinə və qonşu millətlərin və yeni cümhuriyyətlər daxilində azlıqda qalan millətlərin hər dürlü təcavüz əleyhinə mübarizə edəcəyiz.

Biz təcavüzkaranə xarici siyasət əleyhidarları olaraq Azərbaycan hökuməti ilə qonşu millətlər arasında ümum ixtilaflı məsələlərin ədalət üzərinə sülh təriqi ilə həllinə çalışacağız. Belə ixtilaflı məsələlər cümləsinə bir əsası Qarabağ məsələsini də daxil ediriz. (Mərkəzdən: İxtilaflı deyil?

**Məmməd Əmin:** -Həll olunmuş məsələdir!). Ki buraya eyni zamanda Ermənistan hökuməti də həqiqi-hakimiyyət elan edir. [300 - 301] Azərbaycan hökuməti də və bu məsələ hər bir sair ixtilaflı məsələlər kimi, inanırız ki, sülh təriqi ilə həll edilə bilər.

Ümumiyyətlə, cari işlərimizdə biz cahan demokratiyasına azadlıq gətirmiş olan idealları rəhbər tutacağız.

Geniş zəhmətkeş əhali mənafeyi nöqteyi-nəzərində duraraq biz həmişə Azərbaycan Cümhuriyyəti millətlərinin iqtisadi və mədəni tərəqqisinə bais olacaq ümum tədabiri - qanuniyyəyi müdafiə edəcəyiz. Fəhlə və torpaq haqqındakı qanunlar məsələsində zəhmətin tamamilə azadi və torpağın zəhmətkeş əkinçilərə verilməsinə və həqiqi xalq hakimiyyətinə səy edəcəyiz. Bu parlamenti müvəqqət bir müəssisə hesab edərək biz, camaat ixtiyarına kənar təzyiqlər qeyri-mümkün edən və azad surətdə Məclisi-Müəssisanı vasitəsilə camaatın həqiq arzusunun bəyanına nail olmağa çalışaçağız.

İşdə, məbus əfəndilər, biz bu əsasları rəhbər tutacağız. Nəhayət, bunuda əlavə etməyi lazım biliriz ki, Azərbaycan millətlərin həqiqi mənfəətlərinə səmimi bir surətdə çalışaraq, biz erməni məbusları Azərbaycan parlamentinə girərkən, erməni parlamentinə girsəydik hiss edəcək olduğumuz qədər şimdi də gələcəkdə dövlətivəzayif və məqasid və dövlət quruluşu məsələlərində öhdəmizə düşən məsuliyyəti hissi edərək giririz. (Şiddətli alqış).

**Sədr** - Növbədəki məsələ "Müsavat" fraksiyasiyonunun təklifidir. Məzmunu da budur. (Oxuyur).

Şimdiyə qədər əksər komissiyonların təşkilində qəbul olunan, hər fraksiyondan bir nümayəndə verməк üsulu əvəzinə Məclisi-Məbusan komissiyonlarının aşağıdakı tərtib ilə təşkilini təklif ediriz. Ona qədər əzası olan fraksiyon bir nümayəndə verib, ondan yuxarı əzaya malik olan fraksiyonlar isə beşdən yuxarı olan kəsirin tamam on kimi hesab edilməsi şərti ilə hər on adama bir nümayəndə verirlər. Bundan sonra təşkil olunacaq komissiyonlar bu üsulla təşkil olunduğu kimi bundan əvvəl təşkil olunmuşlar dəxi bu tərtib ilə təkmil olunmalıdırlar.

**Sədr** - Bu barədə kim danışmaq istəyir buyursun.

**Mahmudov Mustafa** (yerindən) - Tərcümə ediniz.

**Sədr** - Söz Aslan bəy Qaraşovundur. [301 - 302]

**Qaraşov** ("Əhrar") - Parlamentə baxılmaq üçün nakaz təklif olunacaqdır. Bu nakazda komissiyonların surəti təşkili barəsində izahat vardır. Nə cür təşkil olunacağı göstərilmişdir. Bu layiheyi qəbul etsək nakaza ehtiyac qalmır. Mahmudbəyovun sözünə mən də şərikəm. Əvvəl nakaza baxılsın, ondan sonra "Müsavat"ın təklifinə.

**Sədr** - Söz Əhmədzadə Yusifindir.

**Yusif Əhmədzadə** (bitərəf) - "Müsavat" firqəsi tərəfindən layihənin müzakirəsi bizim bitərəflər fraksiyası lazım bilir ki, saxlanılsın, taki nakazdan sonra baxılsın.

**Sədr** - Mahmudov Mustafa.

**Mahmudov** ("Müsavat") - "Müsavat"ın təklifi ki, komissiyonlara verilən üzvlərin ədədi nəzərə alınsın. Bu, fraksiya tərəfindən havayı bir xahiş deyildir.

Biz görürüz ki, hər fraksiya komissiyaya bir adam verəndə az mövcudlu fraksiyaların adamları üç-dörd komissiyonda üzv bulunurlar və məzkur komissiyaların bütün iclaslarında isbati-vücud edəmirlər. O səbəblə də komissiyaların iclası kvorum yoxluğundan qalır. Burada deyirlər ki, nakazda komissiya haqqında düsturil—

əməl göstərilməyəcəkdir. Fəqət, mən o komissiyonun katibi olduğum üçün ərz edirəm ki, orada böylə şey yoxdur. Əgər öylə bir iş olsa da, nakaz ruznameyi-müzakiratın axırında olduğundan ola bilir ki, hər gün müzakirə edilməsin, gələcək iclası qalsın.

Bu surətlə də komissiyaların iclasları təxirə düşəcəkdir. Halbuki vaxt ikən təng, iş çoxdur. Gündən-günə komissiyaların işi daha da artır. Binaən-ileyh mən komisyon tərəfindən təklif edirəm ki, "Müsavat" firqəsinin təklifi bu gün müzakirə və qəbul olunsun. Çox üzvülü fraksiyalar az ədədlilərin yerini doldurmaq surəti ilə komissiyonların əza miqdarını təkmil edəriz.

**Sədr** - Söz Qaraşov Aslan bəyindir.

**Qaraşov** - Mən məsələnin eyni mətləbini danışıram. Bircə onu deyirəm ki, bu məsələ "Müsavat" deyən kimi nakazdakı maddələr bir az təbdil ediləcək olursa eyni məsələ hasil olar. Mən təklif edirəm, əvvəl nakaza baxılsın.

**Sədr** - Söz istəyən yoxsa məsələni bitmiş hesab edərək səsə qoyuram.

**Rəfiyev** (yerindən) - Mənə söz veriniz.

**Sədr** - Söz Musa bəy Rəfiyevindir.

**Rəfiyev** ("Musavat") - Hərgah "Müsavat"ın təklif etdiyi məsələ nakazda olsaydı, biz də Aslan bəyin sözünə şərik olardıq. Məəttəssüf nakazda bu məsələyə dair bir şey yoxdur. Parlament üzvləri bilirlər ki, komissiyalar nə cür işləyirlər,ələxüsus büdcə komissiyasında 8 əza var. Əlbəttə, cənabi sədr bu gün təklif edəcək ki, bu miqdar iki dəfə artsın. (Sədr -Var! Var!). Nə üsul ilə olur, olsun, biz təklif edirik nakaza baxılanadək bu təklif qəbul olunsun. Nə vaxt nakaza baxılsa, o gün bu da nakaza daxil olar.

**Sədr** - Söz istəyən yoxsa səsə qoyuram. Hər kəs "Müsavat"ın təklifini qəbul edirsə, əlini qaldırsın, (18) kim əleyhinədir əlini qaldırsın (9), hər kəs səs vermir rica edirəm əlini qaldırsın. Deməli, məsələ keçir.

Bərayi-məlumat, ərz etmək istəyirəm ki, fraksiyaların üzvləri bu miqdardır: "Müsavat" 23, "İttihad" 11, "Əhrar" 8, "Hümmət" 4, sosialistlər ittifaqı 7, bitərəflər 12, rus-slavyan 5, erməni 6, iki üzvü də heç bir firqəyə daxil deyildir. Bu münasibətlə təvəqqe edirəm, onlar hansı fraksiyaya daxil olduqlarını bildirsinlər. Hacıkərim Saniyevdən təvəqqe edirəm hansı fraksiyadan olduğunu bildirsin. Adı bitərəflər siyahısında var.

**Saniyev** - Mən "Hümmət"dənəm.

**Sədr** - Əşrəf Tağıyev hansı fraksiyadandır?

**Taqıyev** - "Əhrar"dan.

**Sədr** - Əfəndiyev Mirzə Muxtar hansı fraksiyadandır?

**Əfəndiyev** - "Əhrar! Əhrar!"

**Sədr** - Ağa Aşurov hansı fraksiyaya mənsubdur?

**Aşurov** - Mən heç bir fraksiyaya mənsub deyiləm.

**Səslər** - Yenidir. (Ümumi gülüş).

**Sədr** - Tağıyev Ağazeynal bir aydan ziyadədir ki, gedib, heç bir məlumat verməmişdir. Parlamentdə qəbul edilmiş qanuna görə muma on əleyh, parlament üzvülüyündən xaric edilir. Bələdiyyə idarəsindən rica edərdim onun əvəzinə başqa bir adamı göndərsin. Erməni fraksiyasından komissiyalara bir qərar ilə nümayəndə verilir: Ləvazim komissiyonuna - Amaspur, Nizamnamə - Papyan, torpaq - Arşak Malxazyan, maliyyə büdcə - S. Tağyanasov; fəhlə komissiyonuna - Çubaryan; mandat - Papyan; Məclisi-Müəssisan dəvəti komissiyonuna Ervant Tacyanasov, [303 - 304] sorğu komissiyonuna Ervand Taqyanasov, etiraz yoxsa qəbul olunur. Keçən səfər iki komissiyaya adam seçilirdi, ləvayehi-qanuniyyə və məmləkətin hasilatını hüsn istifadə komissiyalarına. Seçki tamam olmadı. Rica edirəm şimdi əza göstərəsiniz. Şimdiyə qədər göstərilənlər bunlardır. Ləvayehi-qanuniyyə komissiyonuna: Malxazyan, Mahmudbəyov Babaxan, Kujin Vasiliy, Ağa Eminov, Abdulla əfəndi Qəbulov, Vanseviç, Pepinov, Camalbəyov. Məmləkətin məhsulatını hüsn istifadə komissiyonuna: Tesxoqaya, Vəzirov, Zeynal bəy, Vinoqradov, Paroniyan, Əhmədov Yusif, Əliyev Yusifəli, Qardaşov Aslan bəy. Bu miqdarda daha əza əlavə edərmisiniz? Buyurun, Aslan bəy Qaraşov.

**Qaraşov** - Bir sualım var, nə səbəbə mənim təklifim səsə qoyulmadı, ona görə...

**Sədr** - Bağışlayın, məsələ qəbul olunub keçib. Bitərəflər fraksiyasından komissiyalara bu məbuslar təklif olunurlar: etibarnamə komissiyonuna - doktor Bəhram bəy Axundov, nizamnamə komissiyonuna Behbud bəy Cavanşir. Etiraz yoxsa, qəbul olunur. Növbədəki məzuniyyətlər məsələsidir.

**Katib** - Asif bəy Şıxəlibəyovun iki həftə, Abdulla bəy Əfəndiyevin üç həftə, Bəhram bəy Vəzirovun bir ay məzuniyyət haqqındakı ərizələrini oxuyur.

**Sədr** - Bu üç ərizəyə etiraz yoxsa, qəbul olunur. Söz Əliheydər Qarayevindir.

**Qarayev** ("Hümmət") - Əfəndilər! Bu vaxtadək bizim komissiyalar işləyə bilmirlər, çünki üzvləri gedirlər. Budur, üç üzvü məzuniyyət istəyir. Mən təklif edirəm, ancaq ikisinə birər həftə məzuniyyət verilsin.

**Sədr** - Daha kim danışmaq istəyir? Təklif var ki, ikisinə bir həftə məzuniyyət verilsin. Halbuki üçdürlər. hansına verilsin?

**Səslər** - Üçünə də bir həftə.

**Sədr** - Söz Bəhram bəy Vəzirovundur.

**Vəzirov** ("İttihad")- Həzarat! Məzuniyyət istəyənlərin biri mənəm. Mən Cəbrayıl uyezdinə Qaryaginə gedəcəyəm. 4 gün fayton ilə ora getmək və 4 gün gəlmək, bu 8 gün eylər. Bir həftə məzuniyyət mümkün olurmu? Məzuniyyət verərsiniz 1 ay verin, verməzsiniz heç verməyin.

**Səslər** - Doğrudur! [304 - 305]

**Sədr** - Söz Qasım bəy Camalbəyovundur.

**Camalbəyov** - Şəxsi işləri üçün məzuniyyətə getmək istəyənlərə yoldaşım bir həftə məzuniyyət verilməsini təklif etdi. Fəqət, bu bir həftə məzuniyyətə heç bir iş görmək olmaz, yoldaşımızın təklifi səhvdir. Məzuniyyətə gedənlərə iki həftə istəyir, bir ay istəyir, bir ay məzuniyyət verilsin. Bu təklifi mən firqə tərəfindən edirəm.

**Sədr** - Təklif var ki, məzuniyyət istəyənlərə istədikləri müddətə məzuniyyət verilsin. Etiraz yoxsa, qəbul olunur. Keçəlim növbədəki məsələyə.

**Katib** (oxuyur) - Məclisi-Məbusan Divani-Rəyasətinə: İşlərin çoxluğunu nəzərə alaraq maliyyə və büdcə komissiyonu 19 fevral iclasında kəndi əzası miqdarının iki qat artırılmasını qət etmişdir. Binaən ileyh, bu barədə lazımi təşəbbüsatda bulunmağı Məclisi-Məbusan Divani-Rəyasətindən rica olunur.

Maliyyə-büdcə komissiyonu rəisi əvəzinə: Musa bəy Rəfiyev.

**Rəfiyev** - Həqiqətən, büdcə komissiyonuna mühüm layihələr gəlir və komissiyonun işi çoxdur. Büdcə komissiyonu 8 əzadan ibarət olduğundan xeyli azdır. Bir də nəzərdə tutulmuşdur ki, büdcə-maliyyə komissiyonunda iştirak edən üzvlər, sair komissiyonlarda da olduqlarından komissiya iclasına gələ bilmirlər. Ona görə də layihələr haqqında öz fraksiyalarına xəbər verə bilmirlər. Odur ki, parlamentə bir layihə təqdim olunanda və layihə təcili olduqda fraksiyalar xəbərdar olmadıqlarından məsələni təxirə salmağı təklif edirlər. Bundan dolayı biz təklif ediriz maliyyə komissiyonu 8 nəfər əvəzinə 20, və ya 21 olsun. Hər xırda fraksiyadan iki və böyük fraksiyadan 3-4 üzv verilməsini təklif ediriz.

**Sədr** - Etiraz yoxsa, qəbul olunur. Rica edirəm iclasın axırınadək namizədlərinizi göstərəsiniz.

**Rəfiyev** (yerindən) - Namizədlər bu gün qəbul olunan üsul ilə təklif edilsinlər.

**Sədr** - Əvət! Keçəlim növbədəki məsələyə. Divani - Rəyasətə bir neçə layiheyi-qanuniyyə verilmişdir.

Maarif nəzarətindən - Orucov mətbəəsinin qiymətinin özünə verilməsi haqqında.

Təriq və məabir nəzarətindən - şosse yollarının təmiratının nəzarət ixtiyarına verilməsi haqqında. [305-306]

Maliyyə nəzarətindən - Quberniya mədən vergisi idarəsi təşkili haqqında.

Yenə maliyyə nəzarətindən - Quberniya və uçastnik gəlir vergisi idarələrinə üzvlər intixabı haqqında.

Yenə haman nəzarətdən - Vergilər şikayətinə baxmaq üçün şurayi-ali idarəsi təsisi haqqında.

Maliyyə nəzarətinin vergi şö'bəsindən - konyak, üzüm və tut sirkələrinə verginin təyini haqqında.

Poçt-teleqraf nəzarətindən - poçt-teleqraf qanunun bəzi maddələrinin dəyişilməsi haqqında.

Divani-rəyasət bu layihələrin həpsinin ləvayehi-qanuniyyə komissiyasına verilməsi təklif edir.

**Sədr** - Novbədəki məsələ hərbiyyə nəzarətinin məvaqe-nümayəndələrinə isimlər barəsindəki qanun layihəsidir.

Söz Qara bəy Qarabəyovundur. Bir də ərz etməliyəm ki, hərbiyyə nazirimiz həyatının qismi - əzəmini Rusiya daxilində keçirdiyindən və məruzədə bir çox xüsusi istilahlar olduğundan, onlara türkcə deməyə qadir deyildir. Ona görə özü rica edir, mən də öz tərəfimizdən təvəqqe edirəm bu günlüyə istisna olaraq izin verəsiniz mətləbini rusca söyləsin. Çünki mətləb əhəmiyyətlidir və türk dilində mühüm mətləbləri izah edəmiyəcəkdir.

**Səslər** - Qəbuldur, qəbuldur.

**Qarabəyov** ("İttihad") - Bir neçə gün bundan bəri hərbiyyə nəzarətinin büdcəsinə müdafeyimilliyə komissiyasında hər bir təfsilatla baxılmışdır. Lakin burada hər bir məsələ soylənilməz; çünki əsgərə dair məsələlər açıq məclisdə müzakirə edilməz. Yalnız nümunə olaraq dairədəki qulluqçuların miqdarı ilə alacaqları maaş söylənilə bilər. (Oxuyur).

***Azərbaycan Cümhuriyyəti hərbiyyə müdriyyəti dairələr və əsgəri kütlələr təşkilatı layihəsinə cədvəl.***

1. Hərbiyyə nəzarəti və ordu dairəsi rəisi (general-kvartirmeystr) dairəsi heyətə; 2. Ordu dairəsində təhriri və tədqiqat şöbəsinə; 3. Əkrkanc-hərbiyyeyi ümumiyyə rəisi dairəsi heyəti; 4. Ərkanc-hərbiyeyi ümumiyyətdə müxati at şöbəsi; 5. Hərbiyyə nəzarətində idarə və ləvazim müdriyət; 6. Hərbiyyə nəzarətində mühümmat və cəbbəxanada rəsi. 7. Ərkani-hərbiyyədə istehkam şöbəsi; 8. Ərkani-hərbiyyədə topoqrafiya şöbəsi; [306 - 307] 9. Hərbiyyə nəzarətində divani-hərb heyəti; 10. Azərbaycanda Divani hərbi heyəti, onun müddəəl-ümumi nəzarəti; 11. Azərbaycan Cümhuriyyətinin səhiyyeyi-hərbiyyə şöbəsi; 12. Gəncədə xəstəxana heyəti; 13. Hərbiyyə baytariyyə şöbəsi; 14. Dəmir yolları və sular üzərində əsgərlər sövqedici müdriyyət heyəti; 15. Gəncədə məktəbi hərbiyə heyəti; 16. Mərkəz komandanlığın heyəti (məhəlli briqada.); 17. Zirehli qatar heyəti; 18. Gəncədə mərkəz komandanlığı heyəti; 19. Suvari firqə qərargahı heyəti (suvari diviziya); 20. Azərbaycan 400-cü süvari alayının heyəti; 21. Mühümati-nariyyə və çarhə emalatxanası heyəti; 22. Mühümmati-nariyyə və carhə deposu heyəti; 23. Topçu briqada müdiriyyəti heyəti (Qol ordu.); 24. Xəfif üç batareyalı vavyus (qolubiç),

iki batareyalı topçu firqəsi heyəti; 25. Üç batareyalı cəbəl firqə heyəti; 26. İki batareyalı suvari topçu firqə heyəti; 27. Dörd toplu xəfif batareya heyəti; 28. Dörd toplu oğuz batareya heyəti; 29. Dörd topludu cəbəl batareyası heyəti; 30. Dord toplu suvari batareya heyəti; 31. Topçu firqəsi parkı heyəti; 32. Xəfif topçu parkı heyəti; 33. Dörd toplu cəbəl batareyası parkı heyəti; 34. Piyadə firqə ərkanının heyəti; 35. Azərbaycanda üçüncü qismindən naqşə deposu heyəti; 37. "Foto" qisim şobəsi; 38. Üç tabrlı piyada alayı heyəti.

İmzalar: Komissiyon sədri general-leytenant ***Şıxlınski.***

Üzvlər: general-mayor ***Qaçar, g***eneral-mayor ***Telexas,***

mir alay ***Ağalarov,*** mir alay ***Qaçar,*** min başı ***Vəkilov.***

Komissyonda iştirak edənlər: mir alay ***Səlimov,***

mir alay Serebyannikov, ərkani-hərbi rəisi: ***Səlimov.***

(Məmurların miqdarı və maaşları dəxi oxunmuşdur.) Bunların həpsinin nümunə üçün söylədim. Çünki qədərini söyləmək lazım deyildir. Ancaq idarələri zikr etdim. Bizim komissiya təklif edir ki, hərbiyyə nəzarətinin büdcəsi böyləcə qəbul edilsin. (çünki nəzarətin büdcəsinə hökumət və komissiya əlavə olaraq bir çox məmurların maaşını daha artıq təyin etməyi lazım bilmişdir.) Bu idarələr gözəlcəsinə tərtib verilmişdir. Artıq adam və artıq xərc yoxdur. Əsgəri iş mühüm bir işdir. Bu xüsusda bir fədakarlıq edib, xərcdən qaçmamalıyız. İnşallah, işimiz gəldikcə yaxşı olar. Komissiyamız bu layihənin qəbulunu təklif edir. [307 - 308]

**Sədr** - Söz hərbiyyə naziri Səməd bəy Mehmandarovundur.

**Mehmandarov** - (Ümumi, şiddətli və sürəkli alqışlar ilə istiqbal olunaraq kürsü-xitabata gəlir və rus dilində şu nitqi irad edir).*

Mən qabaqca parlamentdən üzr istəməliyəm ki, rusca danışacağam, çox utanıram ki, öz dilimi Məclisi-Məbusanda danışmaq qədər bilmədiyimdən rusca söyləməyə məcburam. Bu gün sizə təqdim olunan heyət və maaş miqdarı ən vacib olan əqsamindən tərtib verilmişdir. Bunu müzakirə edərkən şu ərz olunan mülahizələri də nəzərdə tutmalıdır ki;

1- Cəbhədə bulunmuş bütün zabitan ordu tərəfindən onlara verilmiş əşya, yer və başqa ləvazimati-hərbiyyə deyil, kəndi əşyalarını dəxi tamamən qeyb etmişlər. Bu qism şeyləri yenidən düzəltmək üçün bir manatlıq nəsnəyə 3-dan 100 manata qədər pul verilməlidir.

2- Hamıya ağır bir təsir edən bahalıq ziyadəsincə zabitana sui-təsir etməkdədir. Ailələrindən uzaq düşüb, kənd və kəsəklərdə yaşamağa məcbur olan zabitan iki ev məsarifi təyini məcburiyyətindədirlər.

3- Əsgərə təlim və ölümə kimi varmağa hazırlıq tərbiyəsi üçün dəvət olunmuş zabitan əsgər nəzərində sahibi-nüfuz və şərəf olmalıdır. Bunun üçün zəbitan yalnız mərifət cəhətincə deyil, zahirən dəxi əsgərə hüsni-təsir bəxş olmalıdır. Onun əlbəsəsi daima təmiz və faxir olması vacibdir.

Zabitan əlbəsəsi üçün nə qədər bahalı şeylər gərək olduğu hamının məlumudur.

4- Azərbaycanın iqtidarlı və təcürbəli zabitanə ehtiyacı ziyadədir. Müstəqil yaşayan millət ordusuna rus ordusunda məmuriyyətdə bulunmuş yabançı millətlərdən zabitan dəvəti məcburiyyətindəyiz. Bu xüsusda olduqca diqqətli intixab lazımdır.

Əsgərlərin ədəmi-mövcudiyyətini və əsgərlik tərbiyəsi görməmiş əhalidən əsgər toplanmasını nəzərə alırsaq, yeni ordu təşkilatı üçün ən təcrübəli və iqtidarlı zabitan lüzumiyyəti icab edər və bu növ iqtidarlı və zabitan lüzumiyyəti [308 - 309] icab edər hər bir hökumət dairəsində artıq maaşlar məmuriyyət mümkün olduğu üçün bunları hərbiyyə məmuriyyətinə gətirmək və gətirəndə saxlamaq üçün artıcıq maaş ilə maraqlandırmaq vacib olacaq.

5- Əski müsəlman ərkani-hərbiyyə tərəfindən əski qərar üzrə zabitanə 5 aydan bəri verilən maaş sentyabr ayında artıq görünürdü isə hal-hazırda zabitanın zəruri ehtiyaçatının güc ilə təmin edə bilir.

Xırda zabitan üçün isə heç vəch ilə bu maaş kafi olamaz. hal-hazırda qiymətlərin anbaan təzayüd etdiyində bu yaxın vaxtda maaşların azalması deyil, bəlkə artması məsləsinin qalxması mütəhəmmildir.

6- Maaş alanlara maaşın azlığı daima sui-təsir etməkdədir və şübhə yox ki, keçirdiyimiz vəziyyət nəticəsində əhalinin təəddüdi və qarşığı dəxi az maaş alanların fəaliyyətinə dəxi sui-təsir edəcək.

7- Zabitanın fəaliyyəti hərb zamanında deyil, təbii halda dəxi ağır bir vəziyyət içərisində keçir. Əsgər ovqat nasalim məhəllələrdə, bəzən (manevra zamanları) açıq havada qar və yağmura baxmayaraq bəzən ac və susuz yaşamaya məcbur olan zabitan vətən üçün afiyətləri deyil, canlarını belə qurban edir. Bu da yalnız əsnayi hərbidə deyil, əksərən təbii bir zamanda dəxi belədir; şimdiki halda əhalinin həyəcanına səbəb olan əsassız şayiələr nəticəsində əksər ovqat düçari bəla olanlar zabitandır. Xəta onların həyati-bəşəriyyəsinə olmasa da, onların sərbəst dolanmasına olur.

---

* S. A. Mehmandarovun nitqi tərçümə edilərək həmin il mart ayının 7-də "Azərbaycan" qəzetində ayrıca verilmişdi. Həmin mətni buraya əlavə edirik.

Fövqüdəki təsvirləri nəzərə alıb ərkani-hərbiyyə tərəfindən qərara alınmış maaşların bu bəyannaməyə əlavə olunmuş layihə üzrə göstərilən təbəddülatı nəzərə almaq şərti ilə baqi olmasına hökumətdən müsaidə istəməlidir.

İmza, Komissiyon sədri General-leytenant ***Şıxlinski.***

Üzvlər: general-mayor ***Telexas, g***eneral-mayor ***Qaçar,***

mir alay - ***Məmmədmirzə.*** mir alay – ***Ağalarov,***

min başı - ***Vəkilo***

Komissiyonda iştirak edənlər: Mir alay - ***Səlimov,***

Mir alay – ***Serebyannikov***

Ərkani-hərb rəisi - ***Səlimov***

Ərzi-hal

Təqdim olunan maaşlar sırasının layihəsi komissyon tərəfindən ay yarım bundan qabaq tərtib olunmuş idi və o zaman hər bir zabitin ehtiyacını və bir nəfər təyinini (payok) nəzərə alırsaq təmin edər idi, halbuki həyat irəliləyir və qiymətlər gündən-günə artır. Gəncədə dekabr ayında mal ətinin kirvənkəsi 4 manat olduğu halda şimdi 6 manata getməsini söylərisək, kifayət edər. Ehtimal var ki, ət qiyməti daha da təzayüd edə.

Komissyon tərəfindən qərara alınmış maaşlar maəqəlidir. Hal-hazırda maaş ilə təyin edənlərə bir nəfər təyini verilərsə o halda verilən maaş bir növ təmin edə bilər.

Belə olmaz isə şübhə yox, az bir zamandan sonra maaşların təzayüdü barəsində təkrarən vasitə qaldırıb rica olunacaq. Bununla bərabər biz yenə əmin ediyiriz ki, irəlidə maaşların artmasına ehtiyac olmayacaq. Hərgah vəziyyət elə dəyişər isə və iaşə qiymətləri xeyli düşər isə o vaxt əvvəl bir nəfər təyini ləğv olar, sonra isə maaşların azalması barəsində təşəbbüsə girirlər.

**General Mehmandarov** - Həzarat, maaş layihəsi smetanı və bu surətdə də büdcənin bir qismini təşkil edər. Parlamentin bu nəzarətə qarşı müvafiqət edici ya müvafiqət etməyən vəziyyətdə bulunması, xüsusən smeta müzakirə olunan zaman tamamilə inikas edər. Binaən-ileyh, mən hərbiyyə nəzarətinin fəaliyyəti və səgəri işlər haqqında bir qədər məlumat verməyi lazım bilirəm.

Əlbəttə heç kəs inkar etməz ki, türklər bizim millətimizə nicat verməklə bizə böyük xidmət etmişlərdir. Amma burası, onların hərəkətini tənqid etməyimizə də mane olamaz. hərbiyyə nəzarəti Gəncəyə köçənədək bizə xəbər verdilər ki, əksər işlərimiz yaxşıdır və çoxlu yığılır, lazım olan kimi məşq verilir və ilaxır. Mən Gəncəyə belə gözəl ümüdlə getdim. Hər yeri gəzdim, qətati-əsgəriyyəmizə baxdım, fəqət, iş heç də yaxşı deyildi. Əsgərlərimiz əzgin, düşgün bir halda, yeməkləri pis, mənzilləri fəna bir halda, yorğan-döşək yox, onların çoxu xəstə idi. Xəstə əsgərlərin həpsini sağlamlarıyla dəyişməyə məcbur olduq.Qoşun [310 - 311] yığmaq işləri yaxşı getmirdi. Rəislər və mouğəf komandanları öz vəziyyətlərindən suistifadə edirlərdi. Çox vaxt bir külfətin yeganə çörək gətirənini əsgər alırdılar. Bu iş də camaatı narazı salıb, qoşun yığmaqdan nifrətləndirirdi. Nuru paşa Azərbaycandan gedərkən özü mənim yanıma gəldikdə boynuna aldı ki, əsgərlik barəsində Azərbaycan fəna bir halda qoyulmuşdur. Məlumdur ki, Türkiyə komandanlığı başında duran adamları aldatmışlardı. Türklər gedərkən mənə bilmərrə libas verməmişlərdi. Ona görə mən əsgəri təşkilat ilə bərabər maddi cəhətdən çalışmalı idim. Nəki mümkünü idi etdim.

Amma türklər külli miqdarda ərzaq şeyləri qoyub getmişlərdir. Külli miqdarda taxıl, heyvan və sair məmulat qalmışdır. Ona görə mən əmr etdim ki, əsgərlərə yarım girvənkə əvəzinə üç rüb ət, girvənkə yarım çörək əvəzinə bir rüb çörək verilsin, xörəkləri öz camaatımızın adət etdiyi kimi olub, onlara dolma, bozbaş və sairə versinlər, həftədə bir dəfə plov verilsin. Bundan əlavə əmr etdim əsgərlərə gündə 6 misqal qənd, yarım misqal çay versinlər. Qızdırma, yatalaq və sairə kimi azar olan yerlərə əsgərlərə su içməmək üçün 9 misqal qənd verilir.

Libas məsələsi daha da fəna idi. Gürcüstan hərbiyyə nazirinə kağız yazdım ki, libas məsələsində mənə kömək etsin, mütəəsifanə bir şey çıxmadı. İndi Gürcüstan hökuməti nəzdində siyasi nümayəndəmiz Cəfərovun yanında pulumuz və adamlarımız var ki, parça alsınlar. Bundan əlavə Şuşadan fabrikada yaxşı əsgəri libasa yarar parça toxunur. haman fabrika ilə müqavilənamə bağlamışıq. Orada külli miqdarda yararlı parça əldə etdik. Bu surətlə bu məsələ də hüsnü-həll olunacaqdır. Əlbəttə, möcüzə göstərmək olmaz. Amma nəki mümkündür edəcəyəm.

Hal-hazırda hərbiyyə nəzarəti smetasının bir qismini təqdim etmişdir. Bütün smeta martda təqdim ediləcəkdir, çünki ərzaq nəzarəti ambarlarında olan şeylərin miqdarını təyin etmək lazımdır. Hərbiyyə nəzarətinin təhti-idarəsində bu saat 3 ambar var: Hacıqabulda, Gəncədə və Ağdamda. İndi hökumətin qərarladrına görə ərzaq nəzarəti ixtiyarında olan sair ambarların da həpsi hərbiyyə [311 - 312] nəzarətinə veriləcəkdir. Ona görə ərzaq mövcudiyyətinin tamamilə hesablamalıdır.

Mən ümdə diqqətimi əsgər yığmaq işlərinə verdim. Bu vaxtadək əsgər alınmalı, olanların siyahısı tərtib verilmişdi. Hər yerdə kasıblar əsgər alınırdılar. Hər yerdə qoşun içində bir dövlətli ya bəy, ya xan oğlu görmədim. Ona görə əmr etmişəm əsgər düşənlərin siyahısı tutulsun və bir surəti hərbiyyə nəzarətinə göndərilsin, tainki yığılanlara diqqət verək.

Əxzi-əsgər rəisləri qəzaların həpsində yoxdur. hal-hazırda əxzi-əsgər idarələri bu yerlərdə mövcuddur.

Gencə və Qazax qəzalarında -1, Şuşa, Cavanşir, Cəbrayıl və Zəngəzur qəzalarında -1, Ərəş, Şəki və Zaqatala -1, Quba və Bakı -1, Şamaxı və Göyçay -1, Cavad və Lənkəranda -1 və Bakı ilə mədən dairəsinə də biri təyin edilmişdir. Bu surətlə cümlətanı 7 əxz-əsgər rəisimiz var. Qəza əxzi-əsgər idarəsi isə 11-dir. Şikayətlərə baxmaq üçün Azərbaycan əxzi-əsgər idarəsi təşkil edilməsi təhti-qərara alınmışdır. hal-hazırda bu xüsusda daxiliyyə nəzarəti bir qanun layihəsi tərtib verir. Və yaxın zamanda Məclisi-Məbusana təqdim olunacaqdır.

Məlumunuzdur ki, Rusiyada hər yerdə birdən əsgər yığırdılar. Mən bu qaydayı dəyişmişəm. Biz qoşunu tədricən yığan zaman əxzi-əsgər rəisləri orada hazır olaraq düzlüyünə diqqət verəcəkdir. Əsgərlikdən ancaq bu adamlar azad ediləcəklərdir, müəllimlər (çünki məktəblər milliləşmişdir.) dəmir yol məktəbi müəllimləri, maşinist, kaseqar, hökumət mətbəələrinin mürəttibləri və çay süpərsəfanı xidmətçiləri (müqavilənamə vaxtları qurtaranədək).

Hal-hazırda 6 ilin əsgəri silah altına çağırılır. Amma güman edirəm ki, bu ilin axırında daha buna ehtiyac olmayacaqdır. Ancaq 2 ilin, yəni 19 və 20 yaşıdları yığmaq kifayət edəcəkdir. Əsgərlikdən qaçmaq məsələsinə gəlincə, bu da deyilən kimi olmayıb, o qədər də layiqi-əhəmiyyət deyildir. Hər yerdə mükəlləfiyyati-əskəriyyət tətbiq olunanda belə şeylər olur. Məsələn, 1888-ci sənə mükəlləfiati-əskəriyyə qanunu ermənilərə və gürcülərə təmsil ediləndə çox adam əsgərlikdən qaçırdı. hələ indi də qaçan çoxdur. [312 - 313] Bizdə də çox adam qaçırdı, fəqət, əksilməmişdir. Bu da tədriclə olar. Gəncədə son zamanlar bir adam qaçmışdır. Əhali özü qaçanlara nifrət edir və hətta çox vaxt olmuşdur ki, əsgərlikdən qaçanı döyüb, sonra geri gətirmişlərdir. Güman var ki, müsəlmanlarda olan fitri nizam və ədəbə görə vaxtı ilə heç kəs qaçmayacaqdır.

Qətəati əsgəriyə barəsində məni bağışlayın, əsgəri sirləri açıq danışmazlar.

Bir qədər də Ağdam hadisatı haqqında məlumat verməyi lazım bilirəm. Oraya getmiş heyəti məbusanın məruzəsi olmasaydı, heç vaxt diqqət verməyə dəyməzdi. Bu məruzədə iş böyük təsvir edilmişdir. Əvvəlcə oraya bir Bərdədə bulunan qoşun ilə general S. B. Əfəndiyev göndərilmişdi. Sonra müfəssəl təhqiqat icra edilmişdi. Bu işlərin həpsi camaat arasında nalayiq adamların təbliğatından nəşət etmişdir. Mən oraya gedərkən parlament rəisi doktor Ağayev Gəncəyə gəldi, orada əsgərimizə baxdı, hərçəndi məşqdən sonra idi və əsgərlərimiz hazırlaşmamışlardır, fəqət, doktor Ağayev bəyan etdi ki, qətəati-əsgəriyyəmiz hüsn-təsir bağışlamış və çox xoşuna gəlmişlərdir.

Tibb və xəstəxana işləri də fəna idi. Lakin indi bu da düzəlir. Təbiblər dəvət etmişik və xəstəxanalar yaxşı qayda ilə təşkil olunurlar.

Bir neçə söz də şəxsim ətrafında qaldırılmış səsküy haqqında da ərz edəcəyəm. Bu sözləri o ağalar danışırlar ki, qoymamışam Azərbaycan xəzinəsinə südlü inək və hərbiyyə nəzarətinə darüləcəzə kimi baxsınlar. Mən bəyan edirəm ki, bu vaxtadək olduğu kimi bundan sonra da tutduğum yol ilə gedəcəyəm və heç bir qüvvə məni bu yoldan çıxara bilməz. Hər kəs məndən sonra nazir olsa görər ki, nə qədər zəhmət çəkilmiş və nə işlər görülmüşdür.

(Şiddətli alqış).

**Sədr** - Söz Musa bəy Rafiyevindir.

**Rəfiyev** ("Müsavat") - Möhtərəm məbuslar! Mən müdafieyi-milliyət komissiyası sədri olmaq hesabı ilə burada bir neçə söz demək istəyirəm. Sizə məlumdur ki, biz Azərbaycan türkləri əsgəri vəzifədən kənarda qalmışıq. İndi övza bizi əsgəri işə qarışmağa və əsgər düzəltməyə [313 - 314] məcbur etdi. Və məlumdur ki, bu işə nə qədər pis bir zamanda başladıq. hər tərəfdə vuruşma, pozğunluq, hərc-mərc, əlbəttə, böylə zamanda çox nöqsanlar olar. Əsgər işini biz əvvəlcə türk qardaşlarımıza həvalə etmişdik, bizim üçün əsgəri təşkil etmişlər. Biz heç vaxt türklərin xidmətini unutmarız və təşəkkür edəriz. Hərgah, asudə bir zaman olsaydı, bu işləri müntəzəm bir surətdə əmələ gətirmək mümkün idi. Deyirlər ki, türklər gedərkən hər bir şeyi başına buraxıb, getdilər. Məlumdur ki, 10-15 il müddətində evindən ayrı düşmüş əsgər yerindən tərpəndiyi zaman belə iş gözləmək olar. Türklərin bu nöqsanları bizim onlara olan təşəkkürlüyümüzü azalda bilməz. (Mərkəzdən alqış). Bir də onu deyirəm ki, müfəttinlər ara qarışdırıb xələl qatmaq məqsədilə hərbiyyə işlərimiz barəsində danışırlar ki, guya komanda türk dilində deyil, rus dilindədir. Əsgərlərə pis baxırlar və s. Bunların hamısı iftiradır.

Komanda türk dilindədir. Əsgəri işlərimiz öz yolu ilə gedir. Bu iş bizdə təzə olduğuna görə təcrübələrin azlığından əlbəttə, nöqsan olacaqdır. (Alqış!). Amma yenə təkrar edirəm ki, əsgəri işlərimiz düz yolu ilə gedir və gedəcəkdir. Əminiz ki, bir az zamanda özümüzü daxildə və xaricdə müdafiə etmək üçün lazımi qədər əsgəri qüvvəmiz olacaqdır. (Alqış).

**Sədr-** Söz Aslan bəy Səfikürdlünündür.

**Səfikürdlü** (sosialist) - Həzarat! Bilirsiniz ki, hər bir yerdə, hər bir əhali arasında yeni ordu təşkil edildik-də qüsurlar olubdur. Köhnə hökumət dövründə əsgəri işlərdə nöqsanımız olduğu doğrudur. Fəqət, hərbiyyə naziri iş başına gələndən sora o qüsurları rədd edə bilmişdir. Bu günə əsgərlərimizin eyni açıldı. Əsgəri işlərimizin fəna bir halda olduğunu nazirimiz əhalidən gizlətmir. Heç bir millətdə görünməmişdir ki, əsgərlikdən qaçanlar öz başları ilə geri qayıdaraq orduya daxil olsunlar. Amma bizdə əsgərlikdən qaçanların ədədi azalmaqla bərabər, qaçanlar da qayıtmaqdadırlar. Bu, öz hüququnu anlamaq məsələsidir. Doğrudur, irəlidə əsgərlər arasında asılılıq

var idi, indi isə çörək, çay və qənd verilir, hətta nazir həzrətləri buyururlar ki, xəstəlik olmamaq üçün qızdırmalı yerlərdə qənd payları artırılmalıdır. Camaat bunları görüb anlayır. Əhali anlamışdır ki, öz hüququnu ancaq silah ilə saxlaya bilər. Odur ki, əsgərlər qaçanı döyüb əzirlər. Bir millət öz cümhuriyyət və istiqlaliyyətini müdafiə etmək üçün cidası (süngüsü) cavan əsgərlərin inqilabçıları olmalıdır. Nəinki tək bir əsgərlər, bəlkə istiqlalını müdafiə etmək istəyən bütün millət silaha sarımalıdır. Ələlxüsus, indiki zamanda ki, nəinki xaricdə, nəinki denikinlər, hətta içimizdə də qara qüvvələr bizi hər zaman yıxıb, puç etmək istəyirlər. (Soldan və mərkəzdən alqış səsləri.) Doğrudur, qəhr olsunlar, rədd olsun, xainlər! (Əsgəri işlərimiz haqqında təqdim olunan layihədə komissiya dediyi kimi artıq bir şey yoxdur. Əsgəri məmurlara lazımi miqdarda məvacib verməlidir. Artıq da vermək lazım gəlsə, verməlidir. Veriləcəkdir də. Bunların hamısına razıyıq, amma bir təvəqqəmiz var. Bu pullar millət xəzinəsində millətdən qəpik-qəpik yığılmış pullardır. Bu pulları da millətin öz oğullarına sərf etməlidirlər. Kəndçilərdən qəpik-qəpik yığılmış pulların sərf etdikdə qənaət etməlidir.

Sosialistlər fraksiyası tərəfindən deyirəm ki, namuslu, qeyrətli, şücaətli əsgər və zabitlərimizdən ötəri hər nə lazım olsa, verəcəyik. (Şiddətli alqışlar).

**Səslər** (Mərkəzdən) - Yaşasın sosialistlərimiz!

Layihə səsə qoyularaq müttəhidül-rəy qəbul olunur və hərbiyyə naziri həzrətləri axırda salondan getdikcə yenə bütün məclis gurultulu alqışlar ilə təneyi edir.

**Azərbaycan, 27 və 28 fevral, 7 mart 1919.**
**№124, 125 və 131.**

## № 17

## On yeddinci iclas

*26 fevral 1919-cu il*

**Sədr** - Həsən bəy Ağayev. **Katib** - Əhməd Cövdət Pepinov.

İclas açılır saat 2-nin yarısında,

**Sədr** - iclas davam edir. Növbədəki sənədlərə keçmədən qabaq rica edirəm dünənki gün iclasda qəbul etdiyimiz qanun layihəsinin Müsavat tərəfindən təklif olunan hər komissiyaya birər əza verilsin. Komissiyaların miqdarı da bu surətlədir. Müsavat - 23, İttihad - 11, Əhrar - 1, hümmət - 5, sosialist bloku - 5, bitərəflər - 12, Rus-slavyan cəmiyyətində - 5, ermənilər - 7, bu miqdar ilə olan surətdə Müsavatdan qeyri hər fraksiya birər, Müsavat isə ikinci nümayəndə, dünən qəbul etdiyimiz layihə möcibincə verəsiniz. Maliyyə-büdcə komissiyasına isə hər fraksiyadan birər, Müsavat isə 3 nümayəndə verməlidir, çünki onun üzvləri 23-dür. Sonra yeni qanun daxil olmuşdur. Biri gömrük idarəsinin təbdili, ikinci hökumətə 100 milyon pul buraxmaq. Təklif olunur ki, bu layihələrdən birincisi ləvayehi-qanuniyyə komissiyasına, ikinci qanun isə maliyyə və büdcə komissiyasına verilsin və rica edirəm iki yeni komissiya əzaları tənəffüs zamanı burada qalaraq özlərinə heyəti-rüəsa seçsinlər. Keçirəm növbədəki məsələyə. Söz verilir Musa bəy Rəfiyevə.

**Musa bəy** (yerindən) - Nə barəsində?

**Sədr** - Bakı şəhərinə 4 milyon istiqraz barəsində.

**Musa bəy Rəfiyev** ("Müsavat") - Bakı bələdiyyəsi daxiliyyə nəzarətinə bir layihə təqdimi ilə təklif etmiş idi ki, Bələdiyyə idarəsinə dörd milyon manat borc pul buraxılsın, daxiliyyə naziri bu layihəni parlamentə göndərmiş, parlamentdə maliyyə və büdcə komissyonuna verimişdi. Komisyon məzkur layihəni tədqiq edərək hüzurunuza ərz edir. Bakı Bələdiyyə idarəsi dörd milyon istədikdə bəyanatda bulunub deyir ki, Bələdiyyə idarəsinin 1917-1918-ci il övzayı cığırından çıxmış, hər şeyin qiyməti artmış, digər tərəfdən əhalidən vergi miqdarı azalmış, bundan dolayıdır ki, şəhərin kassasına pul girmir, buna əlavə məvaciblər dəxi həddən ziyadə artmışdır. Məsələn, [316 - 317] nümunə üçün göstərilir 17-ci ildə 9 ay müddətində məxaric 14 milyon olduğu halda, mədaxil 8 milyona çatmışdır. Sonra ilin axırındakı son 3 ay zərfində şəhəri təmizləməkdən və yolu qaydasına salmaqdan ötəri 7.950.000 min rublə məxaric göstərilibdir. (Oxuyur).

Bakı İdarəyi-bələdiyyəsinin balayə məruz iqdamatı münasibətilə daxiliyyə nəzarəti şəhər idarəsinin aşağıdakı saydığımız məvaddan ibarət olan ehtiyacının:

1 - şəhərin son dərəcə pisliyindən pək böyük məsarifatı nəqdiyyəyi mövcub olan səhiyyəcə şəhərin təmiri.

2 - şəhər sokaklarının, "mostovoy"larının bundan fəzlə və büsbütün xarab olmasına meydan verməmək üçün təmir və təcdidi.

3 - yanacaq, yemək ləvazimin olduğu kimi əlbəsənin də fövql-hədd bahalandığından və əmrazi-sariyyənin əhali arasında inkişafından mütəhəssil şəraiti-həyatiyyənin ağırlığı üzündən şəhər əhalisinə son dərəcə möhtac olduğu müvainəti—tibbiyənin lüzum dərəcədə təşkil edilməsi.

4 - şəhərin məkatib dairələrinin kəndi Ümuratını cərayanı-təbiyyədə olaraq idarəsinin təmini həqiqətən rəf edilməsi lazım olduğundan bir tərəfdən məvaddi-məsai qiymətlərinin artması və digər tərəfdən keçən sənədə vüqu" bulunmuş olan əhvali-siyasiyyə dolayısı ilə şəhər vergilərinin cüzi miqdarda olaraq kassaya düxuli səbəbi ilə şəhər heç bir vəc hilə şu ehtiyacı yalnız kəndi mənafeyindən rəf və əzə edəməyəcəkdir.

5 - Bütün bu məşruhata binaən və bir də Bakı şəhərini cümhuriyyət daxilində dövlətin hökuməti-mərkəziyyəsinin məqərri bulunması etibarı ilə cümhuriyyətdə yalnız həyati-idariyyənin bir mərkəz rəsmi deyil, bəlkə iqtisadi, mədəni və elmi bir məkrəz olduğu daxi nəzəri etibara alındıqdan kəndisinə vəsaiti-ümumiyyə dövlətdən müavinət bulunmasının son dərəcə mətlub olduğu meydana çıxar. İşbu mülahizata istinadən nəzarət atidə mühərir layihəyi-qanuniyyəyi Məclisi-Məbusanın təsdiqinə təqdim eylər. Şəhərin birvəchi bala məxaricləri mövcud olub bu məxaricə müqabil mədaxili cüzidir. Üç yada 8 milyona kimi pul lazımdır. Mədaxil isə 500 min olubdur. Şəhərin mədaxili olan vergilər alınıb xərclənmişdir. Bu xərcləri yerinə yetirmək qeyri-mümkündür. [317 - 318] Şəhər mədaxilindən yalnız bir su mədaxili mövcud olub, o da çox cüzidir. Bununla bərabər Bakı şəhəri çox dövlətli bir şəhərdir. Borc almağa da iqtidarı vardır. Yəni borcunu ödəyə bilər. Bir çox şeylər vardır ki, məsələn imarətlərin yerləri və dəniz kənarında olan körpüləri və sair kimi mədaxil yerləri mövcuddur. Şəhər deməli müvəqqət qüvvəsizdir. Gələcəkdə şəhərin qüvvəsini yerinə gətirməyi aşikar etdirir. Şimdilik bu xərcləri ödəməkdən ötrü şəhər idarəsi Duma ilə bir qərar vermiş ki, 7 milyon pul istiqraz etsin. Bu məbləğdən 3 milyonu oktyabrda alınmış, yerdə qalan 4 milyonu qalmış idi. Şimdi də bu ehtiyaca məbii o 4 milyonun buraxılmasını hökumətdən xahiş edir. Xərclərin tərtibi belədir:

Bələdiyyə qulluqçularına hər ayda veriləcək məvacib : 1.450.000

Şəhəri təmizləmək üçün arabalar məxarici (maaşdan başqa) – 200.000

İcraiyyə qitəsinə - 75.000
Müalicəxanalara – 750.000
Odun, mazut, neft, benzin, truba, su, kontor takımları, ələf və başqa təxiri qəbul olunmayan məxarici – 400.000

Yekunu 3.000.000

Bunlar ilə bərabər birdəfəlik xərclər də mövcuddurlar. Müfrədatı ziridə oxuyuram.
Sabiq borcların faizinin tədiyəsi - 1.200.000
19 xəstəxana təmiratı – 336.671
seldən sonra küçələrin təmiratı – 353.200.
23 məktəb binalarının təmiratı – 181.532
Dava almağa – 200.000
Şəhər sallaxanalarının təmiratı – 40.321
Kitabxana üçün bina hazır edilməsinə - 13.200
Şəhər abozları hazırlandırmağa – 375.000
Əşyanın təzələnməsinə - 400.000
Mayehtyac – 20.000

Yekunu – 3.124.924

Daxiliyə nəzarəti öz tərəfindən şu layihənin qəbulunu təklif edir: (oxuyur.) [318 - 319]
1. Hökumətin keçmiş sənə 7 təşrini-sanidə ("noyabr") qərardadına təvəffüqən vermiş olduğu 3 milyon manatlıq müvainəti-nəqdiyyəyə əlavə Bakı idarəyi-bələdiyyəsinin xəzineyi-dövlət vəsaitindən sənədə 5 faizli olaraq iki müddətdə yəni 2 milyonunun şimdi, 2 milyonunun isə gələcək şabatda (fevralda) verilməsi.
2. Məzkur şəhər idarəsindən kəndisinə verilmiş olan müavinəti-nəqdiyyənin şəhərin varidat və məsarifat dəftərinə qeyd edilməsi ilə üç sənə zərfində və hər sənə müsavi hissələr ilə tədiyə edilməsinə iltizam alınması.
Maliyyə və büdcə komissiyası da bu xüsusda belə qərar qəbul etmişdir: (oxuyur.)
Maliyyə və büdcə komissiyonunun 21 fevral 1919 tarixli iclas protokolundan iqtibas olunmuş: "Bakı bələdiyyə idarəsinə 4 milyon rublə borc buraxılması xüsusində daxiliyyə nəzarətinin təqdim etdiyi qanun layihəsi qəbul olunsun. Və daxiliyə nəzarətinə tezliklə bələdiyyə seçki qanunun tənzim və Məclisi-Məbusana təqdim edilməsi təklif olunsun.
Maliyyə-büdcə komissiyonu rəisi: Musa bəy".
Büdcə və maliyyə komissiyonu bu layihəyə baxaraq qəbul olunmaq üçün Məclisi-Məbusana təqdim edir.
**Sədr** - Söz Ağa Aşurovundur.
**Ağa Aşurov** - Möhtərəm məbuslar! Hökumətlərdə olan borc sistemi indi də şəhərlərə sirayət edir. Necə ki, hökumət xərcini ödəməkdən ötrü hədsiz-hesabsız kağız pullar buraxırlar. İndi bələdiyyə idarələri də həddən ziyadə xərclərini ödəmək üçün iki şeydən birini etməlidir: ya pul kəsmək, ya borc almaq. Bakı idarəsi asan yollar ilə getmək istəyir ki, öz işlərini yaxşı aparsın. Üzr istəyirəm ki, mən Bakı Bələdiyyə idarəsinə pul verilməsi tərəfdarı olardım. Və olmalıyam da. Pul verilməsini də istərəm. Heyf ki, bu layihədə bu borcun nə cür qaytarılacağı və mədaxil yolu göstərilmir. Parlament özünü aldatmamalıdır. Keçənlərdə bələdiyyə idarəsinə 1 milyon borc verdik və onun qaytarılması vaxtı göstərildi. Fəqət, bu dörd milyonu bələdiyyə idarəsi qaytara bilməyəcəkdir. Bunu parlament də bilir. Ona görə büdcə və maliyyə komissyonu bu layihənin qəbulunu bizə təklif etməməli idi. Mən təklif edirəm: bu pulu borc deyil, qaytarmamaq üzrə bələdiyyə idarəsinə [319 - 320] verin və mədaxili artırmaq üçün yollar göstərin. Tain ki, hökumətdən borc almayıb, özü özünü idarə edə bilsin. Hər yerdə olduğu kimi hökumətin borcudur ki, şəhər idarəsinə də kömək eləsin. hökumət şəhərin camaat ehtiyacını ödəyən azarxana, məktəblər və qeyri müəssisələri saxlamaq üçün pul buraxmalıdır. Amma məxaric mədaxildən çox olduğu halda bu qayda davam edə bilməz. Gərək daxiliyyə nazirimiz, büdcə və maliyyə komissyonu şəhər idarələrinin məxariclərinin artması üçün layihə ilə yollar göstərsin. Bələdiyyə idarəsi bəzi mədaxilləri öz əlinə almaq üçün istibdad dövründə bu məsələni qaldırmışdır ki, bununla 3-4 milyon mədaxil ala biləcək idi. Bunu, onun əlindən aldılar. Bu barədə hətta Dövlət Dumasında da danışıldı. İndi gərək tezliklə qət olunsun ki, o vergilər şəhərin mənfəətinə getsin. Şəhər idarəsi ticarət müəssisələrindən, işıqdan və bu kimi yerlərdən xüsusi vergi almalıdır. Bu verginin alınması ilə bahalığa heç vaxt qorxu yoxdur. Ərzaq nəzarəti put vergisindən (550 min) rublə pul yığmışdır. Bu pul şəhər bələdiyyə idarəsinə verilməli idi. Amma bu vaxta kimi şəhərə gəlməyibdir. Hökumətin cəm etdiyi vergilər müəyyəndir. Bu put vergisi isə şəhər mənfəətinə olmalıdır. Mən istəməzdim ki, layihənin qəbulu təxirə salınsın. Şəhər fəlakətli bir haldadır. Ancaq bu layihədə Bələdiyyə idarəsinin mədaxilinin artırılması üçün heç bir yol göstərilməyibdir. Mən təklif edirəm, bu pulu üç sənəyə deyil, qaytarmamaq şərti ilə [bələdiyyə] idarəsinə verilsin. Bələdiyyə idarəsi məlumdur ki, bu borcu o müddətdə

qaytara bilməyəcəkdir. Ona görə şərt qoymalıdır ki, Bələdiyyə idarəsi özü mədaxillərini artırmaq üçün tədbirlər görsün, tainki zərəri olmasın.

**Sədr** - Söz Yusifəli Əliyevindir.

**Yusifəli ("Müsavat")** - Bələdiyyə idarəsinin 4 milyon istiqraz haqqında "Müsavat" fraksiyası əhalinin mənafeyi-ümumiyyəsinə xidmət edən müəssisələrin parasız qaldığını nəzərə alaraq bu 4 milyon borcun verilməsi tərəfdarıdır. Bununla bərabər fraksiyamız Bələdiyyə idarəsi və əzasının nəzər-diqqətini buna cəlb edib deyir ki, ildə 8 milyon varidat ilə (13)milyon məxaric olursa, get-gedə üzərinə yüklədiyi borcu bir vaxt gələr ki, verə bilməz. Əhali və onun özü üçün borcdan çıxmaq çətin olar. Yaxşı olardı Bələdiyyə idarəsi özü [320 - 321] üçün mədaxil mənbələri arasın. Məsələn, dedilər ki, ərzaq nəzarətində yüklərdən put vergisi alınır. Bu pul şəhər idarəsinə çatmalıdır. Bu pullar ola bilər ki, şəhərə qaytarılsın, lakin nədənsə, bələdiyyə idarəsi bu barədə təşəbbüsatda bulunmamışdır. Bundan başqa şəhərin bir çox boş yerləri var ki, Bələdiyyə idarəsi onlardan istifadə edə bilərdi və yaxşı mədaxil hasil olardı, amma nədənsə etməyibdir. Bir də Bələdiyyə idarəsi ticarət və sənaət müəssisələrindən alınan vergiləri artıra bilər. Bundan başqa Bələdiyyə idarəsi ilə əhali arasında çox mübahisəli bir məsələ var ki, bu məsələnin həll olunması ilə Bələdiyyə idarəsinə 3 milyondan ziyadə para daxil ola bilər. Və şəhərin bu abadlığına səbəb olar. Ağa Aşurovun birdəfəlik müavinəti-nəqdiyyə verilməsi təklifinə görə tərəfdar ola bilməriz. Bu pul borc surətində verilməlidir. Bələdiyyə idarəsi də bilsin ki, borcu vardır. Və borcu ödəmək üçün yeni varidat mənbələri arasın.

**Yusif Əhmədov** (bitərəf) - Bələdiyyə idarəsi tərəfindən 7 milyon borc xüsusunda məncə qabaqcadan bir qərar qət etməli idi. Bu pulu o vaxt tamamilə verməli idi. Yenə də verilsin. Şimdiki izahatdan məlum oldu ki, şəhərin ayda 3 milyon manat xərci var. Təbii böylə borclar ona kifayət etməz. Bir şəhərin ki, ayda 3 milyon xərci ola, böylə məbləğlər onun ehtiyacını ödəməz. Vaxtın əhəmiyyətini də bir nəzərə alıb ətraflı düşünülməlidir ki, nə kimi bir vaxtda yaşayırız, nə vaxt və nə üçün borc istənilir. Məlumunuzdur ki, şəhərin varidatı bir neçə şeydən ibarətdir. Məsələn, imarətlərdən, ticarətdən və sairədən. Ticarət bilmərrə yoxdur, ümum ticarət dairələri bağlanıbdırlar, şəhər də bunlardan varidat ola bilməz. Bir də xəstəxanalardır ki, qabaqlarda orada yatanlardan müəyyən xərc alınırdı, bir para səbəblərə görə indi o alınmır. Bir neçə mənbə də var ki, inqilab içində olduğumuzu nəzərə alsaq, nə səbəbə onlardan varidat alınmadığı təbii görünür. Mən elə güman edirəm ki, ərz etdiyim səbəblərə görə əski mədaxil gətirən yollar kamilən kəsilmiş olduğundan bələdiyyə idarəsinin əvvəlcə istəmiş olduğu 3 milyon varidatı kimi indi istədiyini də vermək lazımdır. Qulluqçuların maaşını nəzərə almalıdır. Məruzədən məlum olur ki, ayda 1 milyon 450 min manat almaq üzrə ildə qulluqçuların məvacibatı 18 milyon [321 - 322] olur. Xidmətçilərə bu maaş verilməzsə, şəhərin bütün işləri yatar. hələ bələdiyyə xidmətçilərinin maaşı sair qulluqçulardan azdır, bunu da nəzərə almalıdır. Mənim yadımdadır, bir yerdə hökumət üzvlərindən birisi Bələdiyyə əzasında birini məzəmmət edib deyir ki, işləmirlər, şəhəri təmiz saxlamırlar, fəaliyyətsizlik göstərirlər. Əgər bu fəaliyyətsizlik pulsuzluqdan isə hökumətə müraciət etsə, hökumət Bələdiyyə idarəsinin ehtiyacını təmin eylər. Təklif olunan məbləğ çox deyildir. O şey ki, ehtiyaclaradır, onu istəyirlər. Bələdiyyə idarəsində mən də varam. O qeyri bir çarə bilmir, zəruri ehtiyacı üçün pul istəyir, həm də müavinət deyil, borc istəyir.

Şəhərin 36 milyon manat xərci var. Əlbəttə 4 milyon manat verməklə ehtiyacı rəf etmək olmaz. Buyururlar ki, şəhər iş görmür. hansı idarə layiqilə iş aparır ki, o da aparsın. Əlbəttə, şəhərin borcudur, mədaxil yerlərini gözləsin. Lakin bir haldayız ki, bir aydan sonra nə olacağını bilmiriz. Keçmişi də gördük. O sədəmələr ki, dəymişdi onun acısını çəkirik. Mən təklif edirəm istənilən 4 milyon verilsin; verilməzsə Bələdiyyə idarəsi bağlanacaqdır. Buna da təbii heç bir fraksiya razı olmaz. Onun bağlanması digər idarələrə də çox təsir edər. Bir də ərz etməliyəm ki, qlasnıların vəkalət müddəti qurtarmışdır. Şimdi yeni qlasnılar seçmək lazımdır. Təbii, bu xüsusda müzakirət olacaq və əminəm ki, tezlik ilə Bələdiyyə qanunu verilər, mən bu barədə təklif edirəm 4 milyonluq qərz verilsin. Yalnız bu borcun hansı varidatdan ödənəcəyini bilmək lazımdır. Natiqlərdən birisi təklif edir ki, bu məbləğ qaytarılmamaq üzrə verilsin mən deyirəm ki, belə bir üsul yoxdur. Pul verilsin, nəinki 3 ilə, hətta 12 ilə verilsin, amma müavinət təriqi ilə yox, borc təriqilə.

**Sədr** - Söz Əhməd Cövdət əfəndinindir.

**Əhməd Çövdət** (sosialist) - Əfəndilər! Aşurov cənabları doğru buyurdular ki, indi nəinki hökumətlər, hətta bələdiyyə idarələri də ya borc edib, ya pul kəsməyə başlayırlar. Çünki böyük müharibə nəticəsi iqtisad və ticarət işlərinə sui-təsir etdiyindən hər şey öz adi halını qeyd edib yolundan çıxmışdır. Bir tək Bakı Bələdiyyəsi deyil, qeyri Bələdiyyə idarələrinin də halı fənadır. Bunların ya halına görə borc istəməyə [322 - 323] görə haqları da vardır. Bizim fraksiya da Bakı bələdiyyəsinə veriləcək 4 milyon borc əleyhində deyildir. Bu borc verilməlidir. hərgah biz bu borcun verməzsək, parasızlıq üzündən camaatı təmin edən müəssisələr qapanmağa məcbur olar. Fəqət, bu müəssisələr füqərayi-kasibə ehtiyacatını rəf etməyə çalışdığından bağlanmalarına yol verməməlidir. Şəhər idarəsinə kömək eləmək hökumətin borcudur. Fəqət, biz buna iktifa etmiriz. Ağa Aşurov cənabları doğru buyurdular ki, bu borclar haradan veriləcək. Şəhər idarəsi bu borcları geri verə bilməyəcəkdir. Burasını əlbəttə, nəzər-diqqətə almalıdır. Əhmədov cənabları dedi ki, bu günkü gündə ticarət yoxdur, ona görə şəhər idarəsinin mədaxili azalmışdır. Fəqət, tamamilə də böylə deyildir. Doğrudur, ticarət əvvəlki qərar ilə deyildir. Ticarətin bir

qismi dayanıbdır. Lakin əvəzində bəzi yeni tacirlər artıbdır. Deməli, ticarətdə bir dəyişiklik olmuşdur ki, o da möhtəkirlikdir. (Alqış). Şəhər idarəsində demokratiya nümayəndələri olmadığından orada oturanlar haman möhtəkirlərdən vergi almağı özlərinə sərf bilmirlər. Çünki qismən kəndlilər bu işlə məşğuldurlar. Odur ki, bu cür nümayəndələr öz ciblərindən pulu çıxarıb Bələdiyyə sandığına qoymazlar. Şəhər idarəsində demokratiya nümayəndələri oturmalıdırlar. Lakin biz onu da demirik ki, demokratiya nümayəndələri orada oturmaqla işlər büsbütün yaxşı gedər. Təbii bir qədər qüsur olacaqdır. Bu qüsur Gürcüstanda və Ermənistanda olduğu kimi burada da olacaqdır. İqtisadi həyat fəna olduğundan həyat demək qeyri-mümkündür. Lakin heç olmazsa həyatımızı adi hala tərəfə çəkmək lazımdır ki, bunu da ancaq demokratiya nümayəndələri edə bilərlər. Ona görə də tezliklə demokratiya nümayəndələri şəhər idarəsinə köçməlidirlər. Şəhər idarəsinin demokratik əsası üzrə qurulması xüsusundakı uzlaşma tezliklə qövldən felə gətirilsin. Şəhər idarəsində oturan nümayəndələrin vaxtı bitdiyindən yeni demokratik seçkiləri üsulu parlamentə təqdim edilsin ki, tezliklə hər yerdə bu üsul ilə Bələdiyyə idarələri təsis olunsun. Hər yerdə bu cür Bələdiyyə idarələri təsis edilmişdir. Hətta Gürcüstanda Bələdiyyələr İttifaqı da vardır ki, bizim Bələdiyyə İttifaqımız ilə münasibətə girişmək istəyirlər. Bu xüsusda bizə müraciət edib Azərbaycanda Bələdiyyə idarələri [323 - 324] ittifaqı olub-olmadığını soruşmuşlar. Fəqət, bizdə nəinki Bələdiyyələr İttifaqı, bəlkə demokratik üsulla təsis edilmiş Bələdiyyə idarəsi də yoxdur. Hökumət burasını nəzərə almalıdır. Və ikinci Zemstvo idarələrinin təşkili üçün qanun tərtib verib parlamentə təqdim etməlidir. Bundan başqa bələdiyyə seçkilər hazırlayan komissiyonda yeni bələdiyyə üsulu hazırlayıb parlamentə təqdim etsin. Bildiyimə görə yeni seçkilər üsulu hazırlayan komissiyaya seçkilər üsulu hazırlanması yanvarın 29-da həvalə olunmuşdur. Lakin bu gün fevralın 25-də haman komisyonun hələ birinci iclası dəvət edilmişdir. Bu komissyon tezliklə işlərini qurtarıb seçki üsulunu parlamentə təqdim etməlidir. Bizim fraksiyamız ələlmum bu borcun hələlik verilməsini qəbul edir. Bununla bərabər biz ümid edirik ki, yeni bələdiyyə idarəsi seçkiləri qanunu tezliklə parlamentə təqdim olunar.

**Sədr** - Söz Heybətqulu Məmmədbəyovundur.

**Heybətqulu** ("İttihad") - Burada keçmiş natiqlər söylədilər ki, şəhərin varidatı məsələsində guya Bələdiyyə idarəsi iqdamatda bulunmur. Necəki məlumdur Bakı Bələdiyyə idarəsi köhnə qanun ilə varidat alır. Burada dedilər ki, ərzaq naziri (popudnı sbor) alır. Bu pulu nədənsə bələdiyyə almır. Əgər məkulat nəzarəti böylə şey edibsə, o öz tərəfindən edibdir. Son zamanlarda bu haqq şəhərdə idi. Keçən ildən isə ərzaq nəzarəti əlinə almışdır. Şimdi gərək yeni bir qanun olsun ki, gəliri Bələdiyyə idarəsi öz əlinə alsın. Bu qanunu da şəhər özü verə bilmir. Bunu gərək qabaq olan Milli Məclis edə idi, ya gərək indiki parlament etsin. Bələdiyyə necə ola bilər ki, xuddəravərdə gedib pul istəsin. Buyurdular, ticarətxanalardan xərc alınmayıb. Bu xüsusda ərz edirəm ki, Bələdiyyə idarəsinin ixtiyarı yoxdur ki, yeni xərclər qoysun, necə ki, məlumdur promıslovıy naloq hökumətin xüsusi varidatıdır. Bələdiyyə böylə işlərə qarışmaz, geridə qaldı traktirni məsələ, bunu da ümum üçün deyə bilərəm ki, 1919-cu il üçün yalnız kazinodan 280 min naloq alınır, həmçinin Metropol və qeyriləri var. Bələdiyyənin əsl doxodu isə evlərin mədaxilindən alınır. Keçmiş Kerenski hökuməti müvəqqəti qanun verərək ev, (dəh-eki) birə-iki artırıb. (Dəh-yek) əvəzinə indi 20 prosent alınır, bu vergiləri artırmaqla şəhərin qanunən ixtiyarı [324 - 325] yoxdur. Necə ki müvəqqəti qanuna görə rəsmən o xərcləri də kiryələrə artıra bilməzlər. Öz aralarında nə cür artırarlarsa o başqa məsələdir. Burada şəhərin torpaq məsələsindən bəhs olundu. Bilirsiniz ki, bu torpaq məsələsi cəncəlli bir məsələdir. Əksəriyyəti ilə bu torpaqlar füqəra və kasıbların əlindədir. Onun da icarəsini birə on və ya 20 dəfə artırmağı bələdiyyə edə bilməz. Əvvəla bu bələdiyyəyə yaraşan şey deyil, ikincisi qeyri-mümkündür. Ola bilir 2,3,4 dəfə artıra bilsin. Bununla da varidat bir və ya bir yarım milyon artar ki, bu da 40 milyon məxaricə təfavüt eləməz. Və bir də deyirlər ki, (yer) məsələsi var. Deyirlər şəhər ondan 2 milyon mədaxil edə bilər. Onu da deyə bilərəm ki, Çənbərə kəndində bu yerdən 26 uçastok var, əgər bələdiyyə bu yerdə oturanlara (kupçi) versə 1 milyon mədaxil edər. Bu 1 milyonun da əvəzinə yarım milyonunu xərc edib haman yerdə bir para küçələrin açılması üçün lazım olan yerləri sökəcəkdir. Bu da mümkün deyil. hərgah şəhər istəyə ki, mədaxil və məxarici bərabər etsin, gərək məxarici əksiltsin. Şəhər bu saat 2000-ə qədər xəstə saxlayır. Onları qovmaq olmaz, hələ nə qədər məktəblər var. Məktəblərdə şagirdlər var. Bu məktəbləri bağlaya bilməz. Məxaricləri də əksiltmək olmaz. Ən az məvacib də alan qulluqçulardır, süpürkəçilər və sairələri 500-dən artıq məvacib ala bilmir. Bir də söyləyirlər ki, Duma demokratik üsul ilə seçilsin. Bu da bələdiyyənin öz vəzifəsi olmayıb, parlamentin hüququdur, parlament bu işi yapar. Hökumət verər. Hökumət də bu barədə bələdiyyəyə təbliğat ilə layihə hökmünü icra etdirər. Təklif edirəm layihə qəbul olunsun. Nə qədər çox vaxt verilsə, bələdiyyə öz işlərini yaxşı apara bilər. hərçəndi 4 milyon ilə iş düzəlməz. Bir də deyirlər Bələdiyyənin indiki zamanda ən böyük mədaxil yolu sudur. Bu da budkalarda vedrəsi camaata 3 qəpikdən buraxılır. Deməli, hər bir butkadan gündə 45 manatlıq su buraxılır. Su buraxan xidmətçinin məvacibi isə gündə 35 manatdır. Bələdiyyə idarəsi suyun da qiymətini artıra bilməz. Edə bilməz ki, camaata vedrəsi 10 qəpikdən su versin, bir də evlərdən 5,6,7 qəpik artırmaqla şəhərin mədaxilinə heç bir şey olmaz. Şəhərin mədaxil yolları qeyri olaraq tapsın və bu mədaxili artırmaq üçün hökumət Bələdiyyə idarəsinə yeni qanunlar tənzim edilərək ixtiyar versin. [325 - 326]

**Sədr** - Söz Soltan Məcid Qənizadənindir.

Qənizadə ("İttihad") - Mətləb burada şəhərə borc vermək xüsusundadır ki, şəhərə 4 milyon verilsin ya yox? Şəhərin işi çətindir. Bu məsələ ətrafında danışılan sözlərin bir çoxu yersizdir. Burada Bələdiyyə idarəsini demokratik üsulunda olub-olmaması barəsində danışdılar. Ona qarşı deyərdim ki, əlbəttə, bizim Bələdiyyə idarəmiz demokratiçeskidir. Çünki demokratik əsası ilə seçilibdir. Hökumətimiz Cümhuri-Demokratik olduğundan Bələdiyyə idarəsi də demokratik olmalıdır. Əgər deyilsə də parlament qayda-qanun qoymalıdır ki, öylə də olsun. Qaldı ki, deyirlər guya şəhər bir şikəst olub alacağını qaytara bilməyəcək, ona ianə verək. Bu doğru deyildir. Çünki şəhər həyatı bu saat təbii yolundan çıxmışdır. Şəhər qeyri vaxtaki özünü dolandırırdı, indi dolandıra bilmir. Bu hal həmişəlik deyildir. Şəhərin indiki halı xəstə bir cismə oxşar ki, sağ olurkən özünü dolandıra bilirdi, amma indi xəstə olduğundan müvəqtəti özünü dolandıra bilmir və müavinətə möhtacdır. Fəqət, o xəstəyə çörək lazım olduğu kimi, şəhər idarəsinə də əmələ haqqı məktəb, xəstəxana, su və qeyri camaatın ehtiyacını rəf edən idarələr üçün məvacib verməyə para lazımdır. Bələdiyyə idarəsi bu paraları Bakı və Bakı ətrafında olan əhali üçün sərf edir. Bakı Bələdiyyəsi, Gəncə Bələdiyyəsi bunları biz hökumətdən ayrı bir şey hesab edə bilmərik. Bunlar hamısı səltənətin bir parçasıdır. Ələlxüsus, Bakı Bələdiyyəsi, şəhər idarəsi saxladığı məktəb, xəstəxana, və qeyrilər səltənətin özünündür. hərgah biz Bələdiyyə idarəsinə pul verməyib bizim işimiz deyil deyərsək, Bələdiyyə idarəsi də deyər ki, mədaxil olmadığından məktəbləri, xəstəxanaları və qeyriləri bağlayıram. Onda hökumətin özünün borcudur ki, bağlanmış məktəb və xəstəxanaları açsın, su yoxsa, gətirsin və qeyrə. Madam ki, şəhər rdarəsi özü bu haqda çalışmaq istəyir və onun üçün də müvəqqəti müavinət diləyir, biz bunun qabağında təşəkkür etməliyik. Ayrı söz ola bilməz. Hər halda hökumətin borcudur ki, Bələdiyyə idarəsinə köməklik etsin. İstibdad hökuməti də bu xoşbəxt şəhərə kömək edirdi. Bələdiyyə idarəsi 4 milyon müvəqqəti borc istəyir burada ayrı mübahisə lazım deyildir; təşəkkür ilə biz bu borcu verməliyik, nəinki faizsiz. Bəlkə ianə surətdə verilməlidir. Bu qədər [326 - 327] neft və ticarət sərvətinə malik olan şəhər idarəsinə özünü düzəldənə qədər arxayın olub borc verməmək olmaz. Bu borc gərək verilə və heç şərt zad lazım deyildir.

**Sədr** - Təklif var ki, bu məsələyə etiraz olmadığından müzakirət qət olunub səsə qoyulsun.

Bu barədə 4 təklif var. Etiraz yoxsa, axırıncı söz məruzəçiyə verilib, sonra səsə qoyulsun. Buna etiraz yoxsa, qəbul olunur. Axırıncı söz məruzəçiyə verilir.

**Musa bəy Rəfiyev** ("Müsavat") - Aşurov həzrətləri nitqlərində bir-iki söz söylədilər ki, onunla da maliyyə-büdcə komissiyasına yeni bir vəzifə vermiş oldular. Natiq deyir ki, maliyyə-büdcə komissiyasının varidat barəsində bir nəzəri varmı, mədaxil yollarını niyə göstərmir, yaxud mədaxil yollarını niyə saxlamayıbdır? Bu bizim vəzifəmiz deyil, böylə bir vəzifə iddiasına borclu deyildir. Büdcə-maliyyə komissiyası ancaq bunu müzakirə edir ki, bu pul verilsin ya yox. Bir də, əgər kənar təşkilata pul verməli olsa, komissiya onun etibarlı olub-olmadığını təhqiq etməlidir. Bir də Soltan Məcid ilə Məhəmmədbəyov deyirlər ki, Bələdiyyə idarəsi etibarlıdır, istədiyi qədər pul verilə bilər. Bəli, şəhərin o qədər etibarı var ki, 50, 100 hətta 150 milyon da borc edə bilər. Hələ qədimdə ingilis bankları şəhərimizdə 28 milyon etibar edirlərdi. Şimdi biz öz paytaxtımız olan Bakıya 7 milyon vermək məsələsini qalxızmaq lazımdırmı? Özgə 30 milyon etibar etdiyi bir şəhərə, biz 7 milyonudamı etibar etməyəcəyiz? Hərgah şəhərə bu pullar verilməzsə, hökumətin borcudur küçələri təmir etdirsin, xəstəxanaları və məktəbləri saxlasın və sairəyi öz öhtəsinə alsın. Əhməd bəy deyir ki, şəhərin üsulu düz deyildir. Büdcə-maliyyə komissiyası bu xüsusda müəyyən təklif təqdim edir. Əvət, şəhərin üsulu düz deyildir. Ona görə də məzkur komissiya daxiliyyə nəzarətinə təklif edir ki, Bələdiyyə intixabı haqqında sürətlə bir qanun tərtib və Məclisi-Məbusana təqdim etsin. Şimdiyə qədər şəhərin öz təşkilatı vardı və bütün işlər bu təşkilat ilə idarə olunurdu. Bələdiyyə idarəsi bu ana qədər öz vəzifəsini mümkün olan qədər ifa etmişdir. Fəqət, bundan böylə daxiliyyə nəzarəti Bələdiyyə seçki qanunu hazırlamalıdır ki, şəhər idarələri demokratik üsul ilə seçilsin və idarə olunsun. [327-328]

Qanun səsə qoyularaq, əksəriyyəti-ara ilə qəbul olunur. Borcun faizsiz olaraq buraxılması haqqında sosialistər tərəfindən və 10 il müddətinə verilməsi barəsində Aşurov tərəfindən varid olan təklif qəbula keçmir.

Növbədə: Dəmir yol tarifinin artırılması məsələsidir.

**Abuzər bəy Rzayev** (məruzəçi) - Keçən iclasda dəmir yol tariflərinin artırılması məsələsinə baxdıq. Bu məsələ xeyli mühüm və camaata zərər toxuna biləcəyi ehtimal daxilində olduğundan, parlaman qət elədi ki, layihə çap olunub fraksiyalara göndərilsin. Qanun layihəsi çap olunub fraksiyalara göndərildi. İndi fraksiyaların fikrini bilmək lazımdır.

**Qənizadə Soltan Məcid** ("İttihad") - Keçən dəfə danışıldı ki, dəmir yol tarifləri artırılsın. Tarifi bir dəfə də Seym artırmışdı. İndi o tarifləri bir daha artırmaq istəyirlər. Mən elə bilirəm ki, dəmir yol əmələlərinin məvacibi və sair xərcləri artmış olduğundan, tarifləri artırmamaq[-dan] olmayacaqdır, çünki ayda 8 milyon manat zərər var, əgər artarsa, güman edirəm zərər olmaz. Ona görə malların kirayəsinin artırılmasına riza vermək olar, malın üstünə nə qədər pul gəlsə, alış-verişçi də camaatın boynuna qoyacaqdır. Onsuz da alış-verişçilər storoja, streloçnikə və sairələrinə pul verir. 15 əvəzinə 30 artırsaq da alış-verişçiyə təfavüt eləməz. Ona görə mən buna etiraz etməyib, mal kirayəsinin artırılmasına riza verirəm, tainki yolun xərc və məxarici çıxsın. Amma sərnişin kirayələrinin artırılmasına riza verə bilmərəm. Biri var tacirdir ki, öz mənfəəti üçün gedir, verdiyi pulu da malın üzərinə gələcəkdir. Bir də var ki, vacib bir iş üçün başqa bir şəhərə gedir, heç mənfəəti də yoxdur. Məsələn,

Gəncədən teleqraf gəlib ki, ailəsi naxoşdur. Əvvəl 5 manat verdiyi halda, indi 160 manat yol kirayəsi verməli olur ki, bu da kasıblar üçün xeyli müşküldür. Bu zülmdür, buna heç vaxt riza vermək olmaz ki, sərnişin biletləri də mal kirayəsi kimi artırılsın. Ona görə mən rica edirəm ki, parlament yük tariflərinin artırılmasının layihədə göstərildiyi kimi qəbul etsin. Amma sərnişin biletlərini qaldırmasın. Seym qoyduğu qərar üzrə qiymətlər baqi qalsın.

**Ağa Eminov** ("Müsavat") - Keçən həftə tariflərin artırılması haqqındakı qanun layihəsi qəbul edilmədi. Tariq və məabir [328 - 329] naziri buyurdular ki, dəmir yolunun ayda 8 milyon zərəri var. İndi deməli, keçən həftə qanunu qəbul etmədiyimizə görə 70-80 min olmaq üzrə bu vaxtadək 2 milyon zərər etmiş oluruz. hələlik yolun mədaxili olmadığına görə bu zərərləri ödəmək üçün tarifləri artırmaq, yaxud kağız pulları çoxaltmaq lazım gəlir, pulların çoxalması qədər qiymətinin azalmasına və şeylərin bahalaşmasına səbəb olur. Bu günkü iclasa sair smetalar dəxi gəlmişlərdir. Bunlar əslə mədaxili olmayan nəzarətlərdə məvaciblərin artırılması və qeyri məsarif haqqındadır. Bunların da artırılması ilə yenə də kağız pul artacaqdır. Bəzi natiqlər deyirlər ki, sərnişin biletləri tarifi artmasın. Amma burasını bilməlidir ki, bu saat dəmir yol ilə gedənlərin əksəriyyəti alış-verişçidir. Kəndçilər isə dəmir yolu ilə ancaq quberniya şəhərlərinə gedirlər. Buda nadirətən düşür. Onların çox getdikləri uyezd şəhərləridir ki, oralarda da dəmir yolu olmadığından hər kəs öz atı və arabası ilə gedir. Kəndçilərin quberniya şəhərlərinə gəlmələri üçün dördüncü sinif vaqonları təklif olunur. Bunun da qiyməti üçüncü sinifdən ucuzdur, belə ki, Seym qabaqda 6 dəfə artırdığı üçüncü sinifdən indiki dördüncü sinif daha ucuzdur. Bir də o vaxt Maksim Qorki adlı dördüncü sinif bir qatar gedirdi ki, bir günlük yolu 5 günə ancaq gedib çıxırdı. İndi isə dəmir yol naziri dördüncü sinfi sərnişin qatarı ilə yola salacaqdır. Bu surətlə fəqir-füqəranın da halı nəzərə alınıb, yüngülləşmişdir. Bir də istərdik deyək ki, və sübut edək ki, tariflərin artması malların bahalanmasına səbəb olmayacaqdır. Məsələn, bu saat şəhərdə hər şeydən ucuz kartofdur. Onun da putu 1 manat artırılsa, kirvənkəsinə 2 qəpik yarım düşür ki, bu da indiki vaxtda bir pul deyildir. Bir də buğda 160 manata qalxmışdır, indi yenə 120 manata düşmüşdür. Və hal an ki, bu vaxt zərfində tarif nə artmış nə də əksilmişdir. Tarif artmadığı halda, ət bahalaşmışdır. Halbuki, tarif artsa belə ətin qiymətinə təsir edəməz, çünki qara mal çöl ilə gətirilir. Bu barədə fraksiyaların məlumatı olmadığından tariflərin artmasına riza vermirlər. Amma biz təklif edirik, bu qanun layihəsi müvəqqəti olduğu üçün qəbul edilsin və arzu edərdik ki, mütləqa müvəqqəti olsun. O vaxta qədər də yollar naziri ətraflı məlumat toplar və hasil olan məlumatı [329 - 330] əsl bir qanun layihəsi ilə təqdim edər. İndi isə "Müsavat" fraksiyası bu layihənin qəbulunu təklif edir.

**Əhməd Cövdət** - Keçən səfərki iclasda mən də, Əbilov cənabları da bu xüsusda öz nöqteyi-nəzərimizi bəyan etdik. Bu gün də bu məsələ müzakirə olunduğundan yenə də fraksiya tərəfindən təkrar olaraq deyiriz ki, bizim nöqteyi-nəzərimiz budur ki, bu kimi layihələr parlamentə təqdim olunan vaxt nəzarət gərək ətraflıca, bütün rəqəmlər ilə bərabər səhih məlumat versin. Nəzarət deyir ki, ayda 8 milyon zərər olur və bu zərərləri göstərmək üçün misal olaraq, dekabr ayını götürür. Məlumunuzdur ki, dekabr ayı qarışıq bir zaman idi. O zaman bir çox vaqonlar əsgərlər tərəfindən alınmış, bütün dəmir yolu işləri cığırından çıxmış və idarə pərişan bir halda idi. Bu səbəblərdən bəlkə o ayda kassaya mədaxil gəlməməsi idi. Lakin getdikcə hərəkət qaydaya düşüb, işlər düzəlib, mədaxili də artmaqdadır. Yanvar ayındakı mədaxili bilmiriz, lakin biz onu biliriz ki, zərər 8 milyon deyil, azdır. Yük tariflərinin artmasına sözümüz yox, amma sərnişin tariflərinin artması füqarəyi-kasibənin mənafeyinə toxunacaqdır. Buyurdular ki, füqarə üçün ayrıca dördüncü klass vaqonu buraxılacaqdır. Amma o həmən vaqondur ki, irəli 36 at doldurulurdu, indi 100 adam doldurulacaqdır. Amma hər vətəndaşın hüququnu gözləmək lazımdır. Biletləri artırmaq surəti ilə fəqir-füqəranın at vaqonu ilə getməsinə səbəbiyyət verilməsin. Bu mülahizələr elədir ki, yük tariflərinin artmasına razı ola bilərik, amma sərnişin tarifinin artması əleyhinəyiz. Əgər alış-verişçilər üçün artırılarsa, bu pul onlardan başqa qayda ilə alınsın, bunun üçün xüsusi bir qanun tərtib verilsin. Nəzarət məxariçi qapatmaq üçün yalnız böylə tarif artırmaq və sairə kimi şeylər düşünməyib, başqa mədaxil yolları tapmağa çalışsın. Məsələn, bizim Gürcüstanda vaqon və paravozlarımız var, uzun müddətdən bəri orada saxlanılırlar. Onlar gərək tezliklə alınsınlar. Hökumət və nəzarət bu xüsusda ciddi tədbirlər görməlidir. Bir para vaqon və paravozlarımız var ki, təmirə möhtacdırlar. Onların təmiri ağır gedir, səbəbi də taxta əqsaminin olmadığıdır. Nəzarət bu xüsusda tədbirlər görərək haradan mümkün isə tapsınlar, meşələrə sifariş versin və işlər qabağa getsin. Bir də Hacıqabul stansiyonunda paravozlar [330 - 331] dəyişilməlidir. Vaqonların bir çoxunu agentlər xüsusi işdən ötəri alırlar. Bu kimi xüsusi işlərdən ötəri təxsis edilən vaqonların miqdarı azalmalı, hətta tamamilə camaata verilməlidir ki, camaat istifadə edə bilsin. Daha bir çox xüsuslar da var ki, tədbir görülsə, gediş-gəliş artar. Və dolayısı ilə mədaxil artaraq, zərər azalar, hətta heç zərər olmaz. fraksiyamız tərəfindən təklif ediriz komisyonun yük tarifi artırılması haqqındakı təklifi qəbul edilsin, biletlərin qiyməti isə artırılmasın.

**Aşurov** - O sistem ki, bəyani-ərz elədim, düz deyil, biri də tarifi artırmaqdır. Deyirlər tarifi artıraq. Bu sistem düz deyildir. Tarifi artırmaq özü özündən sərbəst bir məsələ deyil, bu bir başqa fraksiyadan asılıdır ki, tarifi nə vaxt və nə qədər artırmaq olar. Bunu nəzərə almalıdır.

Tarifin artırılması heç vaxt mənfəət verməyibdir, necə ki, qabaqda zərər vermişdir, ayrı cür də ola bilməz. Tarifi o vaxt artırarlar ki, məxaric çox ola, mədaxili də artırmaq mümkün olmaya, onu da elə artırmalıdır ki,

rəqib sənə qalib gəlməsin və zərər çıxmasın. Bunun da müəyyən bir səbəbi var. Bundan ziyadə artıranda daha möhtəkirlik olur. Deyirlər ki, dəmir yolu zərər etdiyinə görə artırmağa məcburuz. Bu ona oxşar ki, bir az çox pul kəsmək üçün maşının xodunu artıra. Heç mədaxilin artırılması barəsində söz yoxdur. Bu barədə görək mədaxili artıran, məxarici azaldan şeylərin hansı birisi nəzərə alınmışdır. Mən zənn edirəm ki, xayır bunların heç birisi nəzərə alınmamışdır. Məsələn, dəmir yolu ilə gedirsən, qatar həmişə təxirə düşür, və hal anki, vaxt puldur. Burada neft sərf olunur. Hər saatın qiyməti var, bunu hələ bir qaydaya salmayıblar. halbuki, biz biliriz opazdaniyanın azalmasının nə qədər əhəmiyyəti var. hələ bir də biletsiz adamlar gedirlər, bu da bizim mədaxilimizdən gedir. Nə biliriz ki, tarifi artırsaq, bunlar olmayacaqdır. Bunlara diqqət edilsə bəlkə heç tarifi artırmağa lüzum görülməz. Bir də baxaq görək yolumuz nə qədər yük apara bilər. Mən bunun nəzərə alındığını görmürəm, işlər hələ qabaqkı kimi gedir, əlbəttə istibdid zamanı kimi yox, öylə getsəydi xoşbəxt olardıq. Mən təklif edərdim ki, bu sistemdən əl çəkək, tarifi artırmayaq, əgər məxarici azaldacaq bir yol olmasa, mədaxili artıracaq. Bir mənbəyə [331 - 332] bulunmasa, zərər də eyləmiş olsaq, biz tarifi artırmamalıyız. Tarifi artırmaq sağlam bir sistem deyildir, bu daha da mədaxilin azalmasına səbəb olur. Yazın ki, dəmir yolu 60 milyon zərər edir. Bu daha sağlam sistemdir, nəinki həm tarifi artıraq, həm də zərər çəkək. Məsələn, mən teleqrafda gördüm, orada gündə 3 min manat mədaxil var idi. Sonra teleqraf qiyməti bahalandığına görə indi çox adam teleqraf vura bilmir. Ona görə mədaxil azalır. Madam ki, tarifi artırdıqca, mədaxilin azalacağını biliriz. Biz nə üçün təzədən artırırız? Mən demokratiyanı da nəzərə alaraq təklif edirəm ki, tarifi artırmayaq, mədaxilin artmasına, məxaricin azalmasına çalışaq və nə qədər zərər olsa, hamısını hökumət öz ayağına götürsün.

**Yusif Əhmədzadə** (bitərəf) - Dəmir yol tariflərinin barəsində çox danışıq oldu. hərgah mən bilsəydim ki, bu tarif daimi olacaqdır, natiqlərin etirazına şərik olardım. Təkrar ərz edirəm ki, hər hökumətdə olduğu kimi, bizdə də bu xərclər müvəqqətidir. Yoxsa daimi olsa buna heç bir hökumət davam edə bilməz. Çünki qüvvədən xaric xərclərdir, başqa çarəsi də yoxdur. Əminəm ki, işlər sərəncam alandan sonra bu xərclər də olmaz. Əhali bu məmləkətin birər üzvüdür. Onlardan artıq almaq özü-özünüzdən artıq almaq kimidir. Amma əlac yoxdur. Ona görə də məvaciblərin artırılması müqabilində tariflər də müvəqqəti artırılmalıdır. Bu qatarlar ilə gedən sərnişinin əksəri tacirlərdəndir. Çünki tacir olduğuma görə işlərə bir qədər bələdəm. Hərgah fəhlə qismi gedirsə, onlar da şəxsi işlərindən ötrü məcbur olub gedirlər. Onlar üçün də 3 və 4 sinif qatarları var. Bir də 18 qəpiklik ətə 18 manat verən fəhlə bir manatlıq biletə 2 manat versə, bir şey itirməz. Bir bileti əksiltməklə füqəra və fəhlənin işi düzəlməz, dübarə ərz edirəm ki, bu da müvəqqətidir. İşlər ümumi qaydaya düşənə qədər bu layihə qəbul olunsun. Ticarətə qalanda zənn edirəm ki, tacir üçün çox şey bahadır, bilet bahadır, teleqraf bahadır, bunlar bir şey deyildilər. Tacirlər çalışırlar ki, mal tez gəlsin, tez mümkün olsun, vəssalam. Şey tez gələndə təbiidir ki, bazarda mal çox olar, arada bir rəqabət düşər ki, bu da şeylərin ucuzlaşmasına səbəb olar. Bunun üçün də yolların nizama salınmasına fikir vermək lazımdır. Böylə olmasa, dövlət xəzinəsi zərər edəcək, bizdə əmir vaqe qarşısında qalıb məcburən [332 - 333] tarifləri artıracağız, mən deyərdim taarif və məabir nazirindən xahiş olunsun, gələcək üçün mədaxillərin artmasından ötəri, tədbirlər görüb, yollar göstərsin. Şimdilikdə təklif edirəm bu layihə olduğu kimi qəbul edilsin.

**Məhəmmədbəyov** ("İttihad") - Mən tarif haqqında danışmaq istəmirəm, ancaq burası var ki, o hökumətdəki ordu var, onun hilal əhmər təşkilatı da olmalıdır. Mən fraksiya namindən təklif edərdim ki, bu layihə qəbul olunsa da, olunmasa da hilal əhmər nəfinə hər manata yarım qəpik vergi təyin edilsin.

**Məlikaslanov** (Təriq və məabir naziri) - Möhtərəm məbuslar! Sizə məlumdur ki, dəmir yolu nə halda idi və indi nə haldadır. Biz bir tövr ilə bu yolu düzəltmişik. İndi bu yolda hərəkət davam edir. Dəmir yolu barəsində danışanda sülh vaxtındakı halı nəzərə almalıdır. İndiki hal nəzərdə tutulmamalıdır. Bir zamanlar dəmir yolunda gediş-gəliş bilmərrə mümkün deyildir. Amma şimdi bu günlərdə dəmir yol hərəkəti yoluna salınmışdır. Mən yenə ərz edirəm ki, təriq və məabir nəzarəti yolların düzəlməsi barəsində hər dürlü fikir işlədibdir. Dəmir yolunu islah etmək üçün nəzarətdə bulunan texniklər və ukladçıklər çox çalışırlar. Amma yenə də nə qədər düzəlsə də, yenə çox zərər çəkəcəyiz. Keçən dəfə də ərz etmişdim ki, dekabr hesabı ilə ayda 8 milyon zərər çəkiriz. Möhtərəm Əhməd bəy buyurdu ki, yanvar hesabı bizə məlum deyildir, bəlkə yanvarda mədaxil artmışdır. Bu suala cavabən mən qabaqda demişdim ki, hələ yanvar hesabı mənə məlum deyildir, sonra olacaqdır. Şimdi bu xüsusda bir qədər məlumat verəyim.

Yanvarda mədaxil həqiqətən bir qədər artmışdır. Gürcüstandakı vaqonların bir qismi əlimizə çatmışdır. Bir qismi də ingilislər əlində Batuma və İrəvana getmişdir. Qaytarılan vaqonların bir qismi fəna bir haldadır. İndi mümkün olduqca, onları düzəldirik. Əvvəlki aylara nisbətən yanvarda mədaxil bir milyon 500 min manat artıq olmuşdur. Məxaric haqqında sərih məlumat yoxdur. Amma deyirlər o da artmışdır.

Dekabr ayı barəsində smeta hazırlanmışdır. Mədaxil və məxaric bu qərar iledir. (Oxuyur.) Bu hesab ilə dəmir yolu ildə 180 milyon manat zərər edir. Heç vaxt bu zərəri ümum camaat boynuna qoymaq olmaz. Demokratik nəzərlə də bunu edə bilmərik ki, möhtəkirlərin xərcini kəndçilərin boynuna qoyaq. [333 - 334] Məlumunuzdur ki, o biri nəzarətlər də zərər verirlər. Məsələn, ədliyyə, daxiliyyə və qeyri. Bir iki nəzarət var ki, mənfəət verir. Onlardan biri də təriq və məabir nəzarətidir. Pepinov cənabları bəzi suallar verir ki, məsələn, vaqonlar təmir olunsun, paravoz belə olsun, bu barədə biz həmişə fikirdəyiz və iş də görülür. Aşurovun buyurduğunu qəbul

etmək olmaz. Məsələn, o buyurur ki, dinclik vaxtında tarifi artıranda mədaxil əksilər. Şimdi bunu etmək olmaz. Zira tarif o qədər artırılır ki, mədaxilə böyük təfavüt etsin. Nəzərə alınsın ki, sülh vaxtı 20 manat məvacib alan bir xidmətçi; şimdi 800 manat alır. Dəmir yolu üçün qabaqda bir manata alınan şey, indi 150 manata alınır. Amma sərnişin biletləri artırılır, birə on beş dəfə həm də bu qanun müvəqqətidir. Bir komissiyon təşkil edilib, necəki lazımdır, işlərə baxacaqdır, özgə tariflər hazırlanaraq parlamentə itxal ediləcəkdir. Bir də Aşurov deyir ki, vaqon təxirlə gedir, biletsiz gedən çoxdur. Keçən dəfə ərz etmişəm, yenə deyirəm ki, bu fənalıqlar olmuşdur. Fəqət şimdi bunları bir qədər düzəldiriz. İndi daha mal aylar ilə növbə gözləmir. Qabaqlarda gündə 5 vaqon gəlirdi, indi 60 vaqon gəlir. Amma bununla bərabər yolun zərərlərini ödəmək başqa cür mümkün deyil, gərək tarifi artıraq. Tarif layihəsinin təsdiqini bir neçə gün də saxlayaq, bir qədər də artıq zərər oldu. İndi təvəqqe edirəm bu gün qəbul edəsiniz.

**Rzayev** (məruzəçi) - Tariflərin artırılması qanununa hamıdan artıq soldan etiraz olunur. Onlar deyirlər ki, tariflərin artırılması ilə ərzaq şeyləri bahalanacaqdır. Amma mən sübut edirəm ki, böylə deyildir. Məsələn, Poyludan Bakıya qabaqca 1 manat isə, şimdi 2 manat olsa, şeyin qiymətinə təfavüt etməz. Deyirlər ki, dəmir yolu ilə gəlib-getmək kasıb əhali üçün baha olacaq. Amma mən deyirəm ki, bunlar üçün dordüncü klass var. O da Əhməd Cövdət əfəndinin təsvir etdiyi kimi deyildir. Bunlar sərnişih qatarı ilə gedirlər, skamyalı və rahatdırlar. Burada demökratik əsası da nəzərə alınmışdır. Bir də deyirlər ki, biletlər artmayıb, yük tarifi artırılsın. Gərək sərnişin və yük tarifi hər ikisi artırılsın. Dəmir yolu həmişə mənfəət verirdi. Amma indi vaxtın təqazasına görə zərər verir. Bunu da nəzərə almalıdır ki, layihə qəbul edilsə, zərər yenə tamamilə qapanmayaraq, 8 əvəzinə [334 - 335] 5 milyon olacaqdır. Bunu qəbul etməsək, kağız pulları artırmağa məcbur olacayız ki, bununla da pulun qiyməti düşüb şeylər bahalanır. Kağız pul nə qədər az olsa, şey də o qədər ucuz olar. Gərək hökumət və parlament camaat içində kağız pulları azaltsın. Maliyyə-büdcə komissyonu bunları nəzərdə tutaraq tarif layihəsinin qəbulunu təklif edir.

Səsə qoyulduqda qanun layihəsi komissiyanın göstərdiyi təkliflə qəbul olunur.

**Azərbaycan, 1919, 2,4,5 və 6 mart, №126, 128, 129, 130**

**№ 18**

**On səkkizinci iclas**

*27 fevral 1919-cu il*

**Rəis -** rəis müavini doktor Həsən bəy Ağayev. **Katib** - Əhməd Cövdət Pepinov.

Azərbaycan Məclisi - Məbusanının qərarnaməsinə məbna iclaslar təyini saat 11-də və açılması isə saat 11-15 dəqiqədə olmağına baxmayaraq rəis iclası saat 11-35 dəqiqədə açdı. Kvorum olmadığından iclas qapanmış elan edildi.

**Arxiv, f. 895, siy. 1, iş. 6, v. 17.**

## № 19

## On doqquzuncu iclas

*3 mart 1919-cu il*

**Rəis** - doktor Həsən bəy Ağayev. **Katib** - Mehdi bəy Hacınski. İclas saat 11-45 dəqiqədə açılır. Otuz iki məbus mövcud idi.

**Rəis** - Kvorum olmadığını bəyan ilə məclisi qapanmış elan etdi.

**Arxiv, f. 895, siy. 1, iş. 6, v. 18.** [335 - 336]

## № 20

## İyirminci iclas

*6 mart 1919-cu il*

**Rəis** - Həsən bəy Ağayev. **Katib** - Mehdi bəy Hacınski. İclas açılır saat $2^{00}$-də.

**Rəis** - Məclis açılır, bugünkü yomiyeyi müzakirat Divani-Rəyasət tərəfindən bu surətlə tərtib verilmişdir.

1. Varid olmuş məktublar:

- Hacıkərim Saniyevin intixabı barəsində şikayət; - Daxiliyyə nəzarətinin mükəlləfatı əsgəriyyə ümuratı haqqındakı qanun layihəsi; - Yusif Əhmədova məzuniyyət; - "İttihad" fraksiyasının sədrə müavin intixabı barəsindəki təklifi; - Əlkühül aksizinə aid layiheyi-qanuniyyə; - Spirt, tənbəki patenti barəsində layiheyi-qanuniyyə; - Nizamnamə; - Məsai nəzarəti nəzdində xüsusi şura təşkili barəsində qanun layihəsi.

Hərgah Divani-Rəyasət tərəfindən tərtib edilən müzakirəti-yomiyyəyə etiraz yox isə qəbul olunur. Növbədəki məsələyə keçməmişdən əvvəl özümə borc bilirəm ki, sizə əfzəl və ələmənkiz iki xəbər verim. Belə ki, sabiq Azəri türklər arasında iki qiymətli vücud: birisi sabiq Seym əzası və milli şuranın sədr müavini dəva vəkili Hidayət Seyidov 23 fevralda Ordubadda vəfat etdiyi; ikincisi General-mayor Süleyman Əfəndiyevin keçən ayın 21-də Ağdamda səpmə yatalaqdan vəfat etdiyidir. Əlbəttə, siz bunları tanıyırsınız.

Birincisi: Mirhidayət Seyidov - ziyalılarımızın ən müstəid və ləyaqətlisi və çalışqanı idi.

İkincisinin bizim əsgəri xidmətlərimizdə böyük xidmətləri olmuşdur. Əlbəttə bunu da bilirsiniz. Mən təklif edirəm ki, əvvəla bunların əqrəbalarına taziyyat teleqramı göndərilsin; saniyən onların tərəhhüm ruhları üçün parlamentə ayağa qalxmağı təklif edirəm. (Hamı qalxır). Təklif də qəbul olunur.

Keçirəm növbədəki məsələyə. Hacıkərim Saniyevin doğru intixab edilməməsi barəsində Qazaxdan şikayət gəlmişdir. Divani-Rəyasət bu şikayətin mandat komissiyasına verilməsini [336 - 337] təklif edir. İkinci qanun layihəsi; mükəlləfiyyəti-əsgəriyyə ümuratını idarə etmək üçün daxiliyyə nəzarətindən verilmişdir. Bunu da ləvayehi-qanuniyyə komissiyasına verilməsini təklif ediriz. Üçüncüsü parlament üzvü Yusif Əhmədzadə üç həftə müddətinə məzuniyyət istəyir. Hərgah etiraz yox isə qəbul olunur. Deməli etiraz yoxdur. Qəbul olunur. Növbədəki məsələ "İttihad" fraksiyası tərəfindən sədrə ikinci müavin intixabı barəsində təklifdir. (Oxuyur).

Nə cür istəyirsiniz? İndimi seçməli, ya sonra tənəffüsdə? Təklifdə "İttihad" fraksiyası tərəfindən namizəd də göstərilir. Xanbaba Məhəmmədbəyov.

**Şəfi bəy Rüstəmbəyli** (Yerindən) - Söz veriniz.

**Rəis** - Buyurun.

**Şəfi bəy Rüstəmbəyli ("Müsavat")** - Bu məsələ təzə deyildir. Buna baxılıbdır. Amma hələlik razılıq olmayıbdır. Ona görə təklif edirəm ki, bu məsələ firqələrə mühəvvəl edilsin. Firqə rəisləri ilə bərabər müzakirə edilib firqələrin razılığı ilə namizəd göstərilsin.

**Rəis** - Başqa təklif yox isə Şəfi bəyin təklifini səsə qoyuram.

**Soltan Məcid Qənizadə ("İttihad")** - Hər fraksiyadan Heyəti-Rəyasətdə birər nümayəndə vardır. "Müsavat"dan sonra parlamentdə "İttihad" ən böyük bir fraksiyadır. Lakin Heyəti-Rəyasətdə heç bir nümayəndəsi yoxdur. O şeylər ki, müzakirə olunacaq ondan "İttihad"a da xəbər versin. Ona görə hərgah müzakirə olacaq isə və qeyri firqələr namizəd göstərəcəklər isə o zaman bizim tərəfimizdən böyük protesto olacaqdır. Təvəqqə edirəm ki, "İttihad" firqəsinin təklif etdiyi namizəd bugünkü məclisdə intixab edilsin.

**Rəis** - Söz Yusif Əhmədzadənindir.

**Yusif Əhmədzadə** - İkinci sədr müavini barəsində təklif edilən qayda bizcə müvafiq gəlmir. Müavini nəinki parlament seçəcək, bəlkə hər məsələ ki, parlamentə gəlir əvvəl fraksiyalar baxır. Öz fikirlərini bildirdikdən sonra parlament qəbul edir. Bu o demək deyil ki, parlament bu namizədi qəbul etməyəcəkdir. Yaxşı olardı ki, bu məsələ də fraksiyalara ricu edilib onların arasında razılıq olandan sonra parlamentə itxal edilə idi. [337 - 338]

**Rəis** - Başqa təklif yoxdurmu?

**Muxtar Əfəndizadə** (Yerindən) - Mən danışmaq istəyirəm.

**Rəis** - Buyurun.

**Muxtar Əfəndizadə** - Mən elə bilirəm ki, bundan əhəmiyyətli məsələlər çoxdur. Mən təklif edirəm əvvəl səsə qoyulsun, biz ikinci sədrin intixabına razıyıqmı? Yoxsa yox. Ondan sonra Babaxan və ya qeyrisinin məsələsinə baxılsın.

**Rəis** - Söz Qənizadənindir.

**Qənizadə** - İkinci müavin barəsində parlamentin qətnaməsi var.

**Rəis** - Əvət, parlamentin bu barədə qətnaməsi vardır. Danışılan yalnız intixab məsələsidir ki, bu gün və ya başqa iclasda olsun. Bəlkə tənəffüsdə danışasınız.

**M. Ə. Rəsulzadə** - Mən təklif edirəm bu məsələ qalsın. Gələn iclasda etilafən müavin intixab edilsin.

**Rəis** - Təklifi mən səsə qoyuram. Hər kəs bugünkü iclasda ikinci müavinin seçilməsi tərəfdarı isə əlini qaldırsın. (Əllər qalxır). Kim əleyhinədir? (Əllər qalxır). Əleyhinə əksəriyyət. Məsələ digər iclasa qalır.

**Rəis** - Növbədəki məsələ spirtin aksiz altına alınmasıdır. Məruzəçi doktor Musa bəy Rəfiyev. Digər məsələ patentlərin təzayidi məsələsidir. Məruzəçi iclasda isbati-vücud etmədiyinə görə keçəlim növbədəki Nizamnamə məsələsinə. Söz doktor Qara bəy Qarabəyovundur.

**Qarabəyli** - Nizamnamə komissiyası tərəfindən qəbul edilib hüzurunuza təqdim olunan parlament Nizamnaməsi Rusiya padşahlıq Dumasının Nizamnaməsidir ki, Seym tərəfindən də qəbul edilmiş idi. Lazımi təshihat və təbəddülatdan sonra parlamentə təqdim olunur. Əvvəlcə ruscasını, sonra türkcəsini oxuyacağam.

**M. Ə. Rəsulzadə** (Yerindən) - Əksinə olmalıdır.

**Qarabəyli** - Nizamnamə pis tərcümə olunmuşdur.

**Rəis** - Əvvəlcə Nizamnamənin əsaslarını söyləyiniz, sonra maddə-maddə oxuyarsınız.

**Qarabəyli** - Nizamnamə bir neçə fəsildən ibarətdir. (Oxuyur).

**Rəis** - Bəlkə birinci maddə barəsində danışmaq istəyən vardır?

**Rüstəmbəyli** (Yerindən) - Bütün fəsil oxunsun sonra. [338 - 339]

**Rəis** - İltifat edin bəlkə maddə bə maddə oxunmasını istəyirsiniz.

**M. Ə. Rəsulzadə** (Yerindən) - Fəsil başdan ayağa oxunsun. Lakin bir şey var. Nizamnamənin ruscası hər fraksiyalara göndərilmişdir. Hamı Nizamnaməyə bələddir. Bir dəfə türkçəsi oxunsun. Vaxt da çox keçməz.

**Qarabəyli** - Burada təzə fraksiya vardır ki, Nizamnamənin surəti onlara verilməmişdir.

**M. Ə. Rəsulzadə** (Yerindən) - Varmı?

**Qarabəyli** - Əvət. (Oxuyur). Birinci fəsil bitdi.

**Rəis** - Birinci fəsil barəsində kim danışmaq istəyir?

**Qarabəyli** - Bəlkə bir dəfə də oxumaq istərlər?

**Rəis** - Maddəbəmaddə, ya nə cür istəyirsiniz? Söz Aslan bəy Qardaşovundur.

**Qardaşov** - Mən təklif edirəm ki, Nizamnamənin birinci fəslində olan ikinci maddə üçüncünün yerində, üçüncü maddə isə ikincinin yerinə keçirilsin.

**Rəis** - Buna etiraz yoxdur ki? Təklif olunur ki, ikinci maddə üçüncünün yerinə üçüncü isə ikincinin yerinə keçirilsin. Maddələrə əsasən etiraz yoxdur. Yalnız yerlərini dəyişdirmək təklif olunur.

**Qarabəyli** - Bu təklifi Nizamnamə komissiyası da qəbul edir.

**Rəis** - Mən təklif edirəm ki, ikinci maddəyə belə bir qeyd əlavə edilsin. Hərçəndi hər bir üzv iki həftənin ərzində öz intixabının dürüs olması haqqında etibarnamə komissiyasına dəlillər və isbat təqdim eyləsin. Bu təklifin əsaslı səbəbi vardır. Biz bir qayda qoymuşduq ki, hər bir üzv bir ay ərzində seçki protokollarını etibarnamə komissiyasına təqdim etsinlər. Sonradan bu bir ayı ay yarım etdik. Bununla belə indiyə qədər hələ bir para yerdən protokollar gəlməmişdir. Ona görə təklif edirəm bu qeyd həmin maddəyə əlavə edilsin ki, hər məbus öz seçkisi haqqında dəlillər və sübut təqdim eləsin. Söz Mustafa Mahmudovundur.

**Mahmudov** - Rəisimiz təklif elədiyi qeydə ehtiyac yoxdur zəndindəyiz. Komissiyada bu məsələ qalxmadı. Rəisin təklifinə ehtiyac olmadığına dəlil budur ki, heç bir üzv əlində intixabnaməsi olmadan parlamentə daxil ola bilməz. Hər bir üzvün [339 - 340] hansı firqədən və hansı qəzadan intixab olunması haqqında kəndisi gəlmədən seçki protokolları parlamentə təqdim edilməlidir. Bunu təhqiq etmək də parlamentin etibarnamə komissiyasının vəzifəsidir. Əlində mandatı olmayan bir üzvə parlament idarəsi vəsiqə verə bilməz. Ona görə bu yeni təklifə ehtiyac qalmır.

**Rəis** - Kim bu barədə danışmaq istəyir?

Danışmaq istəyən yoxdursa səsə qoyuram. Hərkəs mən elədiyim qeydin əlavə olunmasının tərəfdarı isə...

**Səslər** - Məruzəçinin rəyinə...

**Rəis** - Hər kəs mən elədiyim qeydin əlavə edilməsi tərəfdarı isə əlini qaldırsın. (Əllər qalxır). Deməli təklif keçmir. Oxuyunuz!

**Qarabəyli** - Deməli birinci fəsl qəbul olunur. (İkinci fəsli oxuyur). Parlament tərəfindən müvəzzəf şəxslər intixabı: ikinci fəsl bitdi.

**Rəis** - Bu fəsl barəsində kim danışmaq istəyir. Söz Aslan bəy Qardaşovundur.

**Qardaşov** - Doqquzuncu maddədə yazılıbdır ki, seçki şar ilə olmalıdır. Bunun icrası çətin olduğuna görə biz təklif edirik ki, seçkilər zapiska ilə olsun. On birinci maddədə şar əvəzinə zapiska olmalıdır.

**Rəis** - Daha kim danışmaq istəyir? Məruzəçi əfəndi etirazın yoxdur ki? Söz Mahmudov Mustafa bəyindir.

**Mahmudov** - Bu məsələ nakaz komissiyasında müzakirəyə qoyuldu ki, hansı layiqdir və tez olar. O gizli denilən seçki təhti-əlfaz mənası hansıdır? Nakaz komissiyası belə bilir ki, haman seçki şardır. Şar ilə də olandır. Sonra şar üsulu asandır. Nakaz komissiyası bunu müttəhidül - rəy qəbul edib. Mən də təklif edirəm parlament bu üsulu qəbul etsin.

**Rəis** - Məruzəçi əfəndi söz sizindir.

**Qarabəyli** - komissiya Qardaşovun təklifini qəbul etmir. Təvəqqə edirəm səsə qoyunuz.

**Rəis** - Hər kim Qardaşovun təklifini qəbul edirsə əlini qaldırsın. (Əllər qalxır). Təklif əksəriyyəti - ara ilə rədd olunur. Söz Əhməd bəy Pepinovundur.

**Əhməd Cövdət** - 12-ci maddədə deyilir ki, katib və baş müavin Heyəti-Rəyasətə daxil olsun. Çünki bu müavinlər müxtəlif [340 - 341] fraksiyaların nümayəndələrindən ibarətdir, onların Heyəti-Rəyasətə daxil olmaları səlahiyyəti olsun.

**Qarabəyli** - Heyəti - Rüəsa başqa, Divani-Rəyasət başqadır. Orada bir katib daxil olur.

**Rəis** - Söz Mahmudov Mustafanındır.

**Mahmudov** - Əhməd bəyin dediyi qeydə daxildir ki, Divani-Rəyasətə kim daxil olur. O maddədə də Divani-Rəyasətdə kimin səsi var nəzərə alınmışdır. Parlamentdə katibin iki müavini var. Ola bilər ki, bu müavinlər 5, 8, 10, 15-də olsun. Bəlkə parlamentdə iki nəfərlik bir fraksiya təşkil edərək onun da bir nümayəndəsi katibliyə keçəcək o bir nəfər də Heyəti-Rəyasətə keçməlidir. Beləliklə bu çoxluğun xeyri Divani-Rəyasətə daxil olması qeyri mümkündür. Necə ki qeyri parlamentlərlə qəbul olunub habelə nakaz komissiyası da qəbul etdi ki, baş müavin Divani-Rəyasətə keçə bilir. Bu qanun hər yerdə qəbul edilmiş və biz də o üsulu o surətlə saxladıq.

**Rəis** - Daha kim danışmaq istəyir? Söz Əhməd bəy Pepinovundur.

**Əhməd Cövdət** - Doktor Qara bəyin dediyi Heyəti- Rüəsalıq, Divani-Rəyasət deyildir.. Mahmudov Mustafa söylədiyindən o çıxdı ki, guya katib müavinlərinin hamısı Divani-Rəyasətə daxil olanda da düz olmaz, Katibi parlament qəbul edir və parlament də lazım olan adamları kifayət qədər seçir. Bu işi parlament yapar, o vaxt düşünür, o da iki adamlıq bir fraksiyadan katib seçməz. Ona görə biz təklif edirik bütün katiblər Divani-Rəyasətə keçsinlər. Bununla da mənsub olduqları fraksiyalar Divani-Rəyasətin hər bir şeyindən xəbərdar olsunlar.

**Qarabəyli** - Ruscada "soveşanie" deyilən Heyəti-Rüəsalıq senyuren konventdir. Prezidium kimidir.

**Rəis** - Yeddinci fəslin 189-cu maddəsində bir şey var ki, rəis müavini katib və yoldaşlarından ibarətdir. Divani-Rəyasət, Heyəti-Rüəsa barəsində nakazda belə bir şey yoxdur. Söz Malxazovundur.

**Malxazov** - (Rusca).

**Rəis** - Daha kim danışmaq istəyir? Danışan yox isə Əhməd bəyin təklifini səsə qoymaqdan qabaqca söz məruzəçinindir.

**Qarabəyli** - Komissiyada görünür sui-təfahüm olmuşdur. Komissiyanın bu barələrdə məxsusi bir qərarı yoxdur. Bu söz söylənilməmişdir. [341 - 342] Onun üçün vaqe olan təshih təklifi qəbul olunsun.

**Rəis** - Əhməd bəy təklifinizi təkrar edirmisiniz?

**Əhməd bəy** - Təklifim budur ki, 12-ci maddə çıxsın.

**Rəis** - Deməli tamamən 12-ci maddə çıxılsın. Hər kəs Əhməd bəyin bu təklifinə razı isə əlini qaldırsın. (Əllər qalxır). Lehinə 30, deməli əksəriyyət ilə Əhməd bəyin təklifi qəbul olunur. Başqa maddələr barəsində danışan yox isə, üçüncü fəslə keçirəm.

**Qarabəyli** - Üçüncü fəsli oxuyur.

**Rəis** - Bu fəslin barəsində danışmaq istəyən var isə buyursun. Söz Aslan bəy Qardaşovundur.

**Qardaşov** - Nizamnamənin üçüncü fəslində iki komissiya: bir büdcə və digəri maliyyə komissiyası göstərilmişdir. Biz elə bilirik ki, bu iki komissiyanın vəzifəsi birdir. Ona görə təklif edirəm ki, bu iki komissiya birləşdirilib bir komissiya olsun.

**Qarabəyli** - Bu barədə izin veriniz.

**Rəis** - Buyurunuz.

**Qarabəyli** - İş burasındadır ki, burada hər komissiyanın öz vəzifəsi ayrıca göstərilmişdir. Büdcə komissiyasının vəzifəsi başqa, maliyyə komissiyasının da vəzifəsi başqadır. Büdcə komissiyasının vəzifəsi müəssisələrin mədaxil-məxaric smetalarına və xəzinədən pul buraxılıb buraxılmamasına baxmaqdır. Maliyyə komissiyasının isə bu komissiya ilə əlaqəsi yoxdur. Daha doğrusu maliyyə komissiyası təşriyyə surətini almış bir komissiyadır ki, mütləq olmalıdır. Bu iki komissiyanı birləşdirə bilmərik. Bunlar ayrı-ayrı olmalıdır. Maliyyə komissiyasının qanunveriçi komissiya ilə birləşməsini desələr onu yenə qəbul etmək olar.

**Rəis** - Söz Əhməd Cövdət əfəndinindir.

**Əhməd Cövdət** - Mən də Aslrn bəyin sözünə şərik olaraq büdcə komissiyasının maliyyə komissiyası ilə birləşməsi tərəfdarıyam. Bundan əlavə o qədər üzvlərimiz də yoxdur ki, ayrı-ayrı komissiyalara bölək. Bu bir. İkinci də mən 18/38-ci maddənin Nizamnamədən çıxarılması tərəfdarıyam. Bu maddəyə əməl edə bilməyəcəyik. Çünki maddədə deyilir ki, qanun layihələri parlamentə təqdim olunmadan əvvəl çap olunub fraksiyalara [342 - 343] paylansın və layihələr rusca yazılsaydı asan idi. Bunlar makinada yazılır. Türkcə yazmaq üçün makina yoxdur. Mətbəədə çap etmək də mümkün deyildir. Odur ki, bu maddəyə əməl edə bilməyəcəyik.

**Rəis** - Söz parlament üzvü Vanseviçindir.

**Vanseviç** - (Rusca).

**Rəis** - Daha kim bu barədə danışmaq istəyir. Söz Muxtar Əfəndizadənindir.

**Əfəndizadə** ("Əhrar") - Əhməd bəyin buyurduğu sözə biz şərik ola bilmərik. 38-ci maddə yazıldığı qərar üzrə qalmalıdır. Hərçəndi deyirlər ki, qanun layihələrini yazmaq üçün makina, filan yoxdur. Lakin hökumət

mətbəəsi vardır ki, orada bu layihələri çap etdirmək olar. Qanun layihələri çap olunmadığına görə üzvlər xeyli müşkülata məruz olmuşlardır. Əlbəttə çap olunmuş bir surətdə olsa çox yaxşı olar. Bu maddə eləcə qalsın. Layihələrin bir üzü türkcə bir üzü rusca çap edilsin.

**M. Ə. Rəsulzadə** (Yerindən) - Yalnız türkcə, rusca lazım deyildir.

**Rəis** - Daha kim danışmaq istəyir. Danışmaq istəyən yoxdursa söz məruzəçiyə verilir.

**Qarabəyli** - 38-ci maddə göstərildiyi qərar üzrə qalmalıdır. Əgər makina olmasa, daha başqa çətinliklər də olsa, nə olur isə olsun bu olmalıdır. Məruzələri çap etmək çətin deyil. Müzakirə edilən layihələr böyük-böyük layihələrdir ki, mütləq çap olunsun. Həll olunan məsələləri yalnız parlamentdə oturub dinləməklə anlamaq olmaz. Bunu əvvəlcə kənarda, evdə bir rahat vaxtda oxumaq lazımdır ki, sonra gəlib o barədə söz danışmaq mümkün olsun. Məruzələr çap olmadığı halda üzvlər üçün çox çətin olur. Komissiya israr edir ki, bu maddə eləcə qalsın. İki komissiyanın birləşməsinə gəldikdə komissiya tərəfindən etiraz yoxdur.

**Rəis** - Təklif və təshihləri səsə qoyuram. Təklif var ki, iki komissiya birləşsin. Hər kəs bu maddəyə bu cür razıdırsa rica edirəm əlini qaldırsın.

**Səslər** - Maddəni rusca söyləyiniz.

**Rəis** - İki maddə birləşdirilib iki komissiya əvəzinə bir komissiya olsun. Maliyyə komissiyasının vəzifəsi qalır. Özü [343 -344] isə olmur. Hər kəs buna tərəfdar isə əlini qaldırsın. (Əllər qalxır). Sayın. Rica edirəm səsə qoyanda diqqət ediniz. Hər kəs bu iki komissiyanın birləşməsi tərəfdarı isə əlini qaldırsın. (Əllər qalxır). Lehinə 14, kim əleyhinədir? (Əllər qalxır). Sayın. Əleyhinə 9. Sayın bir də 9 ola bilməz. Kim səs vermir? Görünür iclasda 23 adam iştirak edir. Lehinə 14, əleyhinə 9.

**Səslər** - Nisab yoxdur.

**Rəis** - Nisab var. Sayın neçə üzv var. 34, bundan 23 iştirak edibdir. Görünür ki, 13 adam səs verməyibdir.

**Səslər** - Üzvlərdən bəziləri bayırdadırlar.

**Rəis** (Kyüsterə) - Zəng vur gəlsinlər. (Zəng vurulur. Üzvlər daxil olur). Nizamnamədə bir maddə vardır ki, iki daimi komissiya olsun. Biri maliyyə komissiyasıdır ki, maliyyə işlərinə aid layihələri düzəldir. Digəri büdcə komissiyasıdır ki, mədaxil-məxaric smetalarına baxır. Bu komissiya maliyyə işlərinə də layihə vermir. Təklif vardır ki, bu iki komissiya birləşsin. hər kəs buna tərəfdardırsa rica edirəm əlini qaldırsın. (Əllər qalxır). Lehinə 22, kim əleyhinədir? 17.

**Rəis** - Bu barədə...

**Rəis** - Rica edirəm rəyinizi əl qaldırmaqla bildirəsiniz. Kim səs verməyibdir. Bir nəfər. Deməli təklif 22 səslə qəbul olunur.

**M. Ə. Rəsulzadə** - Hansı təklif keçdi?

**Rəis** - İki komissiya birləşsin.

**Səs** - Əleyhinə çoxdur.

**Rəis** - Lehinə 22, əleyhinə 17 səs vardır. İkinci təklif budur ki, 38-ci maddə Nizamnamədən çıxarılsın.

**Əhməd Cövdət** (Yerindən) - Təklifi geri götürürəm.

**Rəis** - Təklif geri götürüldü. Deməli 38-ci maddə həmin qərar üzrə Nizamnamədə qalır. Keçək digər fəsilə, oxuyunuz.

**Qarabəyli** - (Dördüncü fəsli oxuyur).

**Vanseviç** (Yerindən) - Mənə söz verin.

**Rəis** - Buyurun.

**Vanseviç** - (Rusca).

**Rəis** - Təklif var ki, bu üç fəsildən artıq müzakirə edilməsin. Müzakirə qət olunsun. Qanun layihəsi iki dəfə oxunubdur. Təklif edirəm ki, bu oxunan qism bu gün qəbul edilsin. [344 – 345]

**Qarabəyli** (yerindən) - Gərək layihə keçmək üçün üç dəfə oxunsun.

**Rəis** - Hər kəs nakaz müzakiratının münqəte olması tərəfdarı isə əlini qaldırsın. Rica edirəm əvvəlinci maddəni oxuyasınız.

**Rüstəmbəyli** (yerindən) - İzin veriniz.

**Rəis** - Buyurun!

**Rüstəmbəyli** - Təklifim budur ki, bununla qurtaraq. Üçüncü dəfə olaraq bütün layihə hamısı birdən axırda oxunar.

**Rəis** - Parlamentin ixtiyarı var maddə-maddə deyil, hamısını birdən qəbul edər. Nə cür istərisəniz. Divani-Rəyasət təklif edir ki, oxunmuş maddələr bu müzakirədə birdən səsə qoyulmaq üzrə qəbul edilsin, istərisəniz maddə-maddə oxunar.

**Heybətqulu Məmmədbəyov** (yerindən) - Təklif edirəm ki, səsə qoyulsun.

**Rəis** - Söz Mahmudov Mustafanındır.

**Mahmudov** - Hər layihə maddə-maddə oxunandan sonra birlikdə qəbul olunur. Bu oxunan hissəni qəbul etmək qeyri mümkündür. Elə fəsl ola bilər ki, gələn iclasda qiraət olunduqda qəbul edilmiş maddələrdən

bəzilərini fəsx etmək olar. Bu səbəblə bu üç fəsli qətiyyən qəbul etmək mümkün deyil. Gələn iclasda bütün layihənin hamısı oxunandan sonra birlikdə son dəfə olaraq hamısı səsə qoyulur və o surətlə qəbul edilir.

**Qarabəyli** - Komissiyanın etirazı yoxdur. Bir çox maddələr var ola bilir ki, başqa maddələr ilə də əlaqəsi olsun.

**Rəis** - Etiraz yox isə keçək novbədəki məsələyə. Növbədəki məsələ spirtin aksiz altına alınmasına dair qanun layihəsidir. Söz Musa bəy Rəfiyevindir.

**Rəfiyev** - Maliyyə naziri bir layihə təqdim edib, bu layihə də spirt aksizinin artırılması barədədir. (Oxuyur). Spirt zavodlarına müavinət etmək fikri ilə aksiz vergiləri qanunları (Ustav, ob Ak. sb.) əmələ gələn spirtin bir qədərindən aksiz vergisi almayıb zavod sahibinə biaksiz verilməsinə, belə ki, zavod sahibi bu spirti aksiz vergisi alınan spirt ilə bir qiymətdə satıb artıq mənfəət edirmiş. Hal-hazırda içkilərin qiyməti fovqəladə artmasına binaən ələlxüsus spirtin qiyməti zikr olunan biaksiz spirt buraxılmasının dəxi əsaslı olmadığı [345 - 346] aşkardır. Binaən-ileyh belə aksiz spirt verilməsinin ləğv edilməsini rica edirəm.

1) Aksizsiz buraxılan içki haqqında qanun layihəsi. Aksiz vergisi nizamnaməsinin 348, 349, 353, 379, 381 maddələri möcibincə aksizsiz içki hissəsi ləğv olunur.

2) İstehsal olunacaq spirt hissəsinin aksizsiz buraxılması ləğvinin vaxtını təyin etmək ixtiyarı maliyyə nazirinə tövdi olunur.

**Maliyyə naziri imza Protasyev**
**Dəftərxana müdiri**
**Maliyyə naziri şurası üzvü Voyeykov**

Maliyyə nəzarətinin bu xüsusdakı layihəsi üzərinə bərvəchi zir maliyyə-büdcə komissiyası mütaliə bəyan edir.

Məclisi-Məbusan maliyyə-büdcə komissiyasının 17 fevral 1919 tarixli bəratülqövlündən iqtibas olunmuş.

Aksiz əşya buraxılmasının ləğv etmə xüsusunda maliyyə nəzarətinin təqdim etdiyi qanun layihəsi müzakirə olunaraq bilayaqul qəbul olunur.

Maliyyə-büdcə komissiyasının rəisi əvəzinə Musa Rəfiyev.

**Katib:** - İmza. Bu qanun layihəsi maliyyə və büdcə komissiyası tərəfindən müzakirə edilmişdir. Öz tərəfindən komissiya əlavətən bəyan edə bilir ki, bu spirtlər ki, qayrılır onların 33-dən 40 faizinə qədərinə aksiz verilmişdir. Və bunlar zavod sahibinin ixtiyarına verilir. Onu aksiz ilə bir qiymətdə satır. Onsuz da zavod sahibləri mənfəətləri həddən ziyadədir. Nə qədər qiymətləri artırmışlardır. Bundan belə aksizsiz spirtin verilməsinə lüzum yoxdur. Büdcə və maliyyə komissiyası aksizsiz malın buraxılmamasının qəbul olunmasını parlamentə təklif edər.

**Rəis** - Söz istəyən varmı? Bu barədə danışmaq istəyən yoxdur ki? Onda komissiyanın məruzəsini səsə qoyuram. (Rusca tərcümə edir). Bu məruzə qanunun layihəsi komissiyası tərəfindən tamamən və təğyirsiz, təbdilsiz qəbul olunub, o da o surətlə təklif edir qəbul olunsun. Hər kim maliyyə komissiyasının məruzəsini tamamən qəbul edirsə əlini qaldırsın. (Əllər qalxır). Əksəriyyətlə qəbul olunur. Növbədəki məsələ patentlərin təzayidi haqqında qanun layihəsidir. Söz doktor Rəfiyevindir. [346 - 347]

**Rəfiyev** - Maliyyə nəzarətindən patentlərin təzayidi haqqında bir belə qanun layihəsi təqdim edilmişdir. İndiki patent qiymətləri 20 sənə bundan əqdəmki qiymət üzrədir. (Oxuyur). "Metropol" restoranının ildə nə qədər mədaxili vardır. 250 manat patentinə pul verir. Maliyyə nəzarətinin qanun layihəsinə görə gərək 500 manat verilsin. O qiymətlər ki, indi içkilərə qöyulubdur patent qiyməti birə on artırılsa da restoran sahiblərinə bir o qədər təsir etməz. Lakin xəzinəyə 7 milyondan 9 milyona qədər mədaxil olar.

**Rəis** - Söz Ağa Aşurovundur.

**Aşurov** - Möhtərəm məbuslar! Bu qəbul olunan qanun layihəsi ki, şimdi deyilir 10 dəfə, 5 dəfə artırılsın mən bunu əsas ilə düz görmürəm. Yenə 10 dəfə artırılsın da 20-200 və ya bir dəfə artırılsın. Mən deyirəm biz idrak ilə bir şeyi o vaxt qəbul edək ki, əvvəl büdcəmiz məlum olsun. Və bilək ki, nə qədər mədaxil lazımdır. Bunu biləndən sonra lazım gələrsə artırarıq. Amma bizim büdcəmiz məlum deyil. Bu büdcədən bizə bir məlumat vermirlər. Ancaq deyirlər artıraq. Nə üçün artıraq? Nə qədər artıraq? Bunu aşkar eləmirlər. Və yəqin də deyil ki, nə qədər mədaxil olacaq. Bəlkə çox artırırıq. Niyə parlament bunu zəmm eyləsin. Bəlkə az artırırıq. Nə üçün zərər edək. Bunu qəbul etmədən əvvəl büdcə deyilsin gərək. Nəyimiz var, nəyimiz yoxdur. Və mədaxilimiz nə qərar üzrədir. Banklar ilə əlaqəmiz bilinsin, gərək banklarda nəyimiz yoxdur. Bunu bilək, sonradan ufaq-ufaq qanunlara baxaq. Mən bura çıxanda yoldaşlardan biri dedi ki, əleyhinə (protestor) danışacaqdır. Xeyr mən bu qanunun əleyhinə gedə bilmərəm. Nə qədər istəyirsən artır. Özüm müsəlman olduğuma görə də buna razıyam. Lakin burada ticarət məsələsi vardır. Ticarət ilə oynamaq olmaz. Ticarətə ayıq baxmalıdır. Təklifim budur ki, istəyirsiniz bu layihələri qəbul edək, istəyirsiniz etməyək; ancaq tələb edək ki, maliyyə nəzarəti büdcəmiz və maliyyə siyasəti xüsusunda ətraflı bir məlumat versin. Maliyyə işlərimizi bilək. Artırmaq lazım olsa bu layihəni də qəbul edək.

**Səslər** - Doğrudur. Doğrudur.

**Rəis** - Söz Malxazyanındır. (Rusca).
**Malxazyan** - (Rusca). [347 - 348]
**Rəis** - Söz İbrahim Əbilovundur.
**Əbilov** - Möhtərəm məbuslar! Bu iki natiqin layihələrin üsulsuz olması barəsində danışıqlarına mən bir şey əlavə edəcəyəm. Doğrudan da bizim büdcəmiz məlum deyildir. Bizim nəzarət hərdən layihələrin bir hissəsini parlamentə daxil edib, təcilidir deyə qəbulunu təklif edir. Keçən iclaslarda dəmir yol tariflərinin artırılmasında rəyimizi dedik ki, tariflərin artırılması ilə şeylərin qiyməti artıb bahalıq olur. O vaxt bizə barmaq hesabı verdilər. Dedilər ki, puta bir manat artırmaqla manata qəpikdən bir şey olmaz. Mütassifanə bilirdik ki, bizim hökumət də keçmiş mütləq hökumətlər üsulu ilə mədaxilin ağır hissəsini bilavasitə naloqlar ilə cəm edəcəkdir. Hökumətin mədaxil və məxarici üçün xərci məlum edəndə mədaxil yeri də göstərilməlidir. Lakin mədaxil yeri göstərilərkən demokratik hökumətlər bunun gücünü vergiyə deyil, əlahiddə vergiyə verirlər. Bu iki vergidən gəlir vergisi ilə gizli vergidən əksər qüvvəni gizli gəlirə verirlər. Büdcə birdən daxil edilmədiyindən bilinmir ki, gəlir vergisi nə qədər mədaxil verir. Buyururlar ki, spirt satanda milyonlar qazanırlar. Deyirlər ki, satıcılardan 500 manat alınsa da onların kisəsindən bir şey getmir. Həmən məxarici satılan mallar üstünə gəlir. Həmən məxarici alıcılardan alırlar. Həmişə üstüörtülü naloqlar ki, məlum olunmaz. Məsələn, kibritə yarım qəpik spirt, tənbəki və qeyrilərindən alınan vergiləri füqarayi-kasibə və zəhmətkeş qismi xəzinəyə verir. Tacirlərmi ya füqarayi-kasibə verir. Biz sosialistlər əsasən, gizli naloqun əleyhində olduğumuza görə bu layihənin də əsasən əleyhində olub gəlir vergisi tərəfdarıyıq. 1917-ci ildə Müvəqqəti hökumət tərəfindən qoyulan gəlir vergisi yığılsa hökuməti dolandırar. Məlumdur, əfəndilər! Müharibə vaxtı hətta indi də heç bir şeyə malik olmayan tacirlərin neçə faizi Milyonçu olmuşdur. Tacirlərdən gizli naloq nə qədər çox alınarsa bir o qədər də tacirlər malların üzərinə artırıb müştərilərdən alacaqlar. Ona görə biz sosialistlər bu gizli naloqun əleyhinə olmaqla bərabər, gəlir vergisinin artırılması tərəfdarıyız. Bununla da xəzinənin mədaxili artır. Əlavə edirəm, mədaxil-məxaric büdcəsi məlum deyil ki, bu layihələri hissə-hissə qəbul edək. [348 - 349] Ona görə biz sosialistlər fraksiyası bu layihənin əleyhinə səs veririk.
**Rəis** - Söz Yusif Əhmədovundur.
**Əhmədov** - Müzakirə olunan məsələ barəsində necə lazım gəlirsə hərgah mümkün olsa, vaxt müsaidə etsə idi, bir varidat politikası deyirlər, yəni hökumətin, idarənin əlbəttə, müəyyən bir proqramı olsa idi; varidat haradandır, gəlir nə qədərdir bilinsə idi, əlbəttə burada müzakirə olunarkən tənqidiyyat mümkün olardı. Heyf olunsun ki, bəzi siyasi səbəblərdən dolayı elə zad yoxdur ki, varidat, məxaric məlum olsun. Bu zaman da varidat ilə məsarifi baş-başa gətirmək mümkün deyildir. Hərgah mədaxil və məxaric cədvəli olsa idi, biz bilərdik ki, nə qədər mədaxil artıq alınır və bu alınan mədaxil nerəyə gedəcəkdir. O şeylər yoxdur. Siyasi cəhətdən bir məmləkətin özünün zadı yoxdur. Zad eləməyə dara olsun. Ola bilir ki, bəzi səbəblərdən dolayı məmləkətin bəzi sirləri öz əlində deyildir. Səy edir ki, öz əlində olsun. Bu xərci heç yerə yazmaq olmur. Hökumətin hansı hissəsi ki, əlində olar, orada sükunət və əsas vaxtında mümkün olar. Mən tacir olduğum üçün keçək alış-vericilərə. Bir restorançı, qostinsaçı, alış-verişçi üçün müəyyən taksa olar isə onun patentini təbii artırmaq olmaz. Lakin indiki halda bu yoxdur. Restorançıların çoxunun satdığı və qazandığı içkidəndir. Və içkiyə də taksa yoxdur: neçəyə istəyir satır. Ona görə məncə patentin qiyməti nə qədər artsa eybi yoxdur. Mən güman edirəm ki, bu patentin qiyməti birə 10, 100, 500 dəfə də artsa yenə eyb etməz. Çünki içki kef üçündür. Bu adi dolanacaqdan da kənardır. O adamlar ki, o şeyi istemal edirlər, deməli, artıq pul verib onu almağa imkanları vardır. Mən demək istəyirəm ki, içki qiyməti artarsa halsız, vaxtsız olduqları halda içənlər üçün bir cəza olacaqdır. Davada Rusiya kimi içki mübtəlası məmləkətdə içkini götürdülər, yasaq etdilər. Amma bizdə isə məşirubat satmağa ixtiyar vardır. Mən zənn edirəm ki, birə on, birə əlli kərə də olsa içki patenti qiymətini artırmaq zərər etməz. Çörək qiymətini artırmaq mümkün deyil; çünki zəruri ehtiyac olduğundan qiymətini artırmaq olmaz. Lakin içki isə kef və vaxtın xoş keçməsi üçündür. Belə bilirəm patent qiyməti artıq olsa zərər yetirmərik. Əgər bu məşrubat olmasa fəhlə [349 - 350] və tacir nəf edər. Məşrubat ilə məşğul olmayaraq iş görər. Lakin tənbəki məsələsinə gəldikdə o da ikinci əlkühül hesab edilirsə də fəqət, o ömürlüləşmişdir. Hər bir məmləkətdə işlənən şeydir. Ona görə də deyirəm ki, tənbəki patenti 10 faiz artırmaq hər halda artıq deyildir. Ədalət ilə baxanda iki qəpiklik çörək 5 manat olmuşdur. Mən təklif edirəm ki, bu layihə qəbul edilsin. Əgər bu surətlə mədaxil yolları fəzlələşməsə bu xərc ödənə bilməz. Bu xərclə heç bir səltənət davam edə bilməz. (Salonda səslər).
**Rəis** - Rica edirəm yerinizdən danışmayasınız. Söz Mehdi bəy Hacıbababəyovundur.
**Hacıbababəyov** ("Müsavat") - Mən ərz eləyirəm ki, "Müsavat" fraksiyası da gəlir vergisinin əleyhinə deyil. Amma öz aramızdır, yoldaşlarımız həmişə fəhlələri və füqareyi-kasibələri əllərində bəklə eləyiblər. hansı füqareyi-kasibə və fəhlədir ki, gedib bahalı restoranlarda içib piyan olsun. İçkinin baha olmasından küçələrdə piyan adamlar azalar. İçkinin bahalanması ziyalılar və varlılar üzərinə gəlir. Burada nə fəhlə, nə kəndçi bir qəpik itirmir. Yolların tarifi haqqında onlar ilə bir növ razı olmaq olardı. Zənnimcə patentlər daha çox artırılmalıdır. Fəqət, müvəqqəti olduğuna görə təklif edirəm bu layihə bu qərar üzrə qəbul edilsin.
**Səslər** - Müvəqqətimi?
**Hacıbababəyov** - Bəli müvəqqəti.

**Rəis** - Söz İbrahim Əbilovundur.

**Əbilov** - Möhtərəm əfəndilər! Mən əvvəldən bilirdim ki, danışıqlar hamısı məşrubat üstünə gələcəklər. Mən bir içki deyil, tənbəkini də dedim. Biz doğrudur, müsəlmanıq, içmirik. Amma bilməlidir ki, Azərbaycanda yalnız müsəlmanlar deyil, qeyri millətlər də vardır. Qeyri millət demokratiyasının da mənafeyi bizimki kimidir. (Soldan alqış). İçkini kim içmir? Qabaqda mənim yadımdan çıxdı deyim ki, biz məşrubat dükanlarının, ələlxüsus fəhlə rayonlarında, qapanması tərəfdarıyız. Məşrubat məsələsi hal-hazırda soyuzlarda danışılır ki, fəhlələr var-yoxlarını aparıb içkiyə sərf edirlər. Ola bilir ki, fəhlə rayonlarında içki dükanlarının qapanmasını tələb etsinlər. Biz də fəhlə rayonlarında içki dükanlarının qapanması tərəfdarıyız. Dedilər ki, içki içən dövlətlilərdir. [350 - 351] Amma qət olundu ki, aksizsiz spirt buraxılmasın. Spirtdən hazırlanan içkilərin ən ucuzu araqdır ki, onu da dövlətlilər deyil füqareyi-kasibə içir. Dövlətlilər isə konyak, romm, şampan və qeyri bahalı içkilər içirlər. Həp bunu dövlətlilər içir. Əsl məsələ camaatın içində işlənən ucuz şeylərdir ki, onların üstünə artırılmamalıdır. Nikolay hökumətinin bir yaxşı işi var idisə də, o da içki dükanlarının bağlanması idi. Hərgah həqiqət siz islamiyyət nəzəri ilə baxır isəniz, onda büsbütün içki dükanlarını bağlayın, oradan hasil olan mədaxil də olmasın. Biz əsasən, bu gizli naloqun ziddinəyiz. Bu naloq həmişə füqarayi-kasibə üzərinə gəlir. Dedilər ki, biz həmişə füqarayi-kasibə tərəfdarıyız. Bəli, əfəndilər. Biz həmişə füqarayı-kasibə tərəfdarıyız. Əgər 10 faiz artırsaq tacir tərəfdarları deyəcəklər ki, bizi soyursunuz. Artırmaq soymaq deyildir. Bu mənfəətlər xəzinəyə getməlidir. Gizli naloqun ağırlığı əksəriyyət ilə füqarayi-kasibə üzərindədir. Ona görə biz əsasən buna ziddik. Məşrubatın bilküllüyyə mən olunması tərəfdarı olmaqla bərabər fəhlə rayonlarında içki dükanlarının qapanmasını arzu edirik. Gəlir vergisinin tezliklə tətbiq edilməsinə və gizli naloqun artırılmasına tərəfdarız.

**Rəis** - Söz istəyən yoxdur ki? Söz maliyyə naziri Protasyevindir.

**Protasyev** (maliyyə naziri) - (rusca).

**Rəis** - Söz parlament üzvü Malxazovundur.

**Malxazov** - (rusca).

**Rəis** - Söz maliyyə nazirinindir.

**Protasyev** (maliyyə naziri) - (rusca).

**Rəis** - Bu barədə söz istəyən varmı? Yoxsa söz məruzəçinindir.

**Rəfiyev** - Maliyyə nazirinin bəyənatını kafi bilib bu barədə danışmayacağam. Lakin bizim demokratiya sizin demokratiya deyil ucuz alqışlar alan natiqlər haqqında deyərdim ki, sizin demokratiya da bizim demokratiya da hamısı tütün və içki işlədir. Deyirlər ki, birinci zəruri şeylərin üstünə naloq gəlmək olmaz. Layihədə əsas içki və tütündən bəhs olunduğuna görə bunları (predmet roskoşi) hesab edib artırmaq olar. Komissiya təklif edir ki, bu layiheyi-qanuniyyə qəbul edilsin. [351 - 352]

**Rəis** - Bu layihəni səsə qoyuram. Hər kəs büdcə və maliyyə komissiyasının məruzəsini təshih ilə bərabər tamamən qəbul edirsə əlini qaldırsın. (Əllər qalxır). Lehinə 32, əleyhinə 10, kim səs verməyib? 2. Deməli, qanun layihəsi əksəriyyət ilə qəbul olunur. Növbədəki məsələyə keçmədən əvvəl söz Rəisi-Vükəla Fətəli Xan Xoyskiyə verilir.

**Fətəli Xan Xoyski** (Baş nazir) - Möhtərəm məbuslar!

Mən özümü borclu bilirəm son zaman vüqu-bulan hadisat haqqında sizə bir qədər məlumat verim. Bir neçə gün bundan qabaq, necə ki, eşitmisiniz, hamımıza yaxın və dost və həmdəm olan Dağıstan cümhuriyyəti üzərinə, Könüllü Ordu qoşunu yürüş edib, yerlərini istila və hökumətinə təklif edir ki, özünü ləğv etsin, Dağıstan qoşunlarını buraxsın, özləri də cəbrən əhalidən əsgər yığmağa başlayırlar. Biz bu sözləri eşidən kimi onların səfirlərindən məlumat istədik; əhvalat nə yolda və hökumət nə fikirdədir. Dün Dağıstan hökuməti səfiri tərəfindən Azərbaycan xariciyyə nəzarətinə bu barədə bir kağız gəlmişdir. Bu kağızdan anlaşılır ki, doğrudan da belə şeylər olmuşdur. Aşkardır ki, bu kağız gələndən sonra bizim hökumət və parlament və bütün Azərbaycan camaatı bir fikirdədir ki, dağıstanlılara belə zülm olan halda biz sakit otura bilmərik. O şeyki əlimizdədir, ediriz, o tədbirlər ki, lazımdır görəcəyiz. İndi hökumət özünü borclu bildi bu xüsusda müttəfiqlər nümayəndəsi General Tomsona Azərbaycan hökumətinin nöqteyi-nəzərini bildirsin. Hökumətimizin protestosunu elan olmaq üzrə bu gün Tomsona bu məzmunda bir kağız yazdım.

Hökumət özünü borclu bildi bu xüsusda sizə məlumat versin. Biz var qüvvəmizlə Şimali Qafqaziya hökumətinə kömək etməliyiz, siz bilirsiniz ki, Könüllü Ordunun əsl siması indi açılır. Əvvəlcə onların hərəkəti bir balaca Gürcüstanda oldu. Azərbaycan dairəsindən biz onları çıxarmışıq; şimali Qafqaziyada olan Könüllü Ordunun fikri yalnız bolşeviklərlə mübarizə deyil. Onların mübarizəsi cəmi xırda millətlər ilədir; və istəyirlər ki, xırda millətlərin ixtiyarını yox edib taptalasınlar. Bu barədə bir millət o birinin ixtiyarının əlindən alınmasına aşkardır ki, bitərəf baxa bilməz, aşkardır ki, Dağıstan hökumətinə dəyən zərbə bizə dəymiş kimidir. Mən bizim hökumət və parlamentimizin Dağıstan hökumətinə [352 - 353] kömək edəcəyini onların səfirinə xəbər verdim. Azərbaycanın nə hökuməti, nə də parlamenti qoymayacaqdır onların hüququ tapdalansın, var qüvvəmizlə onlara kömək edəcəyiz. (Gurultulu alqış).

(Məbuslar ayağa qalxaraq Dağıstan səfiri lojasına təvəcöhən şiddətli bir surətdə səfiri alqışlayırlar. Səfir əfəndi ayağa qalxır, alqış daha da şiddətlənir; səfir baş əyərək təşəkkür edir. Yenə gurultu qopur).

**Məmməd Əmin Rəsulzadə** ("Müsavat") - Həzarat! Denikin ordusunun qara təhlükəsi qarşısında ilk zərbəyi yeməkdə olan Şimali Qafqaziyalı qardaşlarımız ilə daima bərabər olaraq hüquq və istiqlalımızı müdafiə edəcəyimizi burada yüksək səslə bütün aləmə söyləməyə ehtiyac belə yoxdur. Çünki bu o qədər aydın və aşkar məsələdir ki, Azərbaycan Məclisi-Məbusanının, bu böyük məclisin, hökumətin düşündüyündən başqaçür düşündüyünü təsəvvür etmək mümkün deyildir. Bütün Məclisi-Məbusan fraksiyaları bu kürsüdən, Şimaldan gələcək bir qorxu qarşısına ciddiyyətlə çıxaraq müqabilədə bulunacaqlarını öz bəyənnamələrində söyləmişlərdi. Zatən qara bir qüvvənin gələcəyini biz həmişə mümkünatdanədd edirdik. O qüvvə də mütləqa Şimaldan gələcək idi. Bu təhlükəyə qarşı hökumətimizin gördüyü tədbirlər və dağıstanlı qardaşlarımıza yar və müin olmaq təşəbbüsü firqələrin bəyannamələrində göstərilmiş və bəyannamələrin əsasını təşkil etmişdir. Biz bilirdik ki, düşmən ordusu "qəlyanaltı"sını Dağıstanda eləsə, "naharını" Bakıda yeyəcəkdir. Ona görə bütün millət və məclis bir tək vahid kimi var qüvvəsi ilə çalışıb, bu qara qüvvə qarşısında dayanmalıdır. Və dağıstanlı qardaşlarımıza deməliyiz ki, buraxmayın o qara qüvvəyi; qoymuyun o istibdadı gəlsin; müharibə edin. Biz də sizinlə varıq. Onlar nə simaya girəcəklər. Biz öz hüquq və istiqlalımızı müdafiə edəcəyiz. Biz əvvəldən bilirdik ki, təhlükələr gələcəklərdir. Və bu təhlükə Şimaldan gələcəkdir. İşdə o təhlükə gəlir. Bu qüvvə əsl simasını açmayırsa da, lakin Soçi tərəfindən Gürcüstana, bu tərəfdən də Şimali Qafqaziyaya hücum edib oradan da bizi boğmağa gəlmək istəyənlərin və daxildə də binamızın altına bomba qoyub partlatmaq istəyənlərin kim olduqlarını biz yaxşı tanıyırız. Onlar haman əski çarizmin müəmməssili; bu [353 - 354] qüvvə əski çarizm qüvvəsidir. Bunlar bu gün bolşeviklərlə mübarizə edirlərsə də məhz millətlərə istiqlal kimi haqq və hüquq vermiş olduqları üçün edirlər. Məzkur qara qüvvənin çıxışı inqilab və hürriyyət əsasları əleyhinədir. Zira onlar: əksinqilab qüvvətləri, artıq məhkum olmaq istəməyən sabiq məhkum millətləri yenidən zənciri-əsarət altına alıb məhkum etmək istəyirlər. Bu bir əksinqilab qüvvəsidir.Qafqaziya cumhuriyyətləri - Azərbaycan da onlar daxilində olaraq - belə əksinqilab qüvvətlərinə tabe olmaq istəməzlər, ona qarşı çıxıb bütün varlıqları ilə mübarizə edər, yaxın kəlməyə qoymaz, deyərlər ki: qəhr olsun üzərimizə gələn qara qüvvət. Yaşasın Dağıstan! (Şiddətli alqış).

**Rəis** - Söz Əhməd Pepinovundur.

**Əhməd Cövdət** (sosialist) - Möhtərəm məbuslar!

Rusiya inqilabının nəticəsi bu idi ki, Rusiya daxilində yaşayan bütün xırda millətlər öz müqəddəratını həll etmək ixtiyarına malik olsunlar. İnqilab vüququ ilə çarizm istibdadı kökündən devrildi. Bütün millətlərin ixtiyarat və hüququ özünə verildi. Nəinki rus milləti çarizmin zülmündən qurtardı, hətta bütün millətləri-ki şimdiyə qədər nə olduqlarını bilmirdilər - onları da zülmdən qurtardı. Rus demokratiyası bütün digər millətlər demokratiyası ilə bərabər xırda millətlərin hüquq və ixtiyaratının özünə verilməsinə qol çəkdi. Demokratiya: hər millət öz müqəddəratına hakimdir, dediyi halda kuşədə, bucaqda bulunan bəzi əksinqilabçılar ki onlar haqq-hüququ ayaq altına almaq və ixtiyarat və sairəyi tanımamaq istəyirlər-di - həmin bu qara qüvvələr yavaş-yavaş güc tapıb yığılmaqa və qeyri xırda qüvvətləri güc ilə özlərinə tabe qılaraq çarizm əsasını möhkəmləndirməyə başladılar. O cümlədən kolçaklar, deninkinlər və qeyrilərinin idarələri altında bu qara qüvvələr azad xırda millətlərin üzərinə yürüyərək, onlara inqilabın bəxş etdiyi hüququ təkrar ğəsbə başladılar. Xüsusən o tərəflərdə ki, qüvvətlər xırda-xırda; biri-birindən ayrı və gücsüzdürlər və bugünkü gündə Rusiyadan gücsüz görünürlər. Rusiyada qüvvə çox olduğu üçün bu könüllülər öz dişlərini orada sınaya bilməyib üzlərini Qafqaziyada Dağıstana, Azərbaycana və qeyri xırda millətlərə çevirirlər. Buralara hakim olaraq öz qüvvələrini artırmaq istəyirlər. Rusiya demokratiyası ilə çarpışmaq [354 - 355] üçün onlar, müsaid bir zəmin olmaq üzrə Bakını intixab etmişlərdir. Onlar nə qədər şimdiki halda Gürcüstana və Şimali Qafqaziyaya hücum, hədə gəlməkdə isələr də, əsl məqsədləri Bakıdır. Bu qara qüvvə ilə çarpışmaq yalnız Dağıstan ya Gürcüstanın vəzifəsi deyildir. Qafqaziyada yaşayan müstəqil millətlərin hamısının vəzifəsidir. Çünki bu gün Dağıstan hüduduna gələn, yarın Bakıya gələcək və Bakıya gələn qüvvə yaxın zamanda Tiflisi də istila etmək istəyəcəkdir. Binaən-ileyh bu təhlükə ümum Qafqaziya təhlükəsi və millətlərin haqq və hürriyyətini təhtit edən bir təhlükədir ki, bunun qabağını bütün Qafqaziya millətləri və camaatı bir vücud kimi ittihad etməklə saxlamalıdırlar. Bu barədə hökumətin verdiyi notaya bütün varlığımız ilə tərəfdarız. Ancaq bunlara qarşı yalnız nota ilə çıxmaq kifayət etməz. Bu qara qüvvələr ilə mübarizə məsələsi təkrar edirəm, yalnız inquş, avarların öhtəsinə buraxılmayaraq, böylə mühüm bir vəzifə qarşısında qətiyyən Zaqafqaziya millətlərini birləşərək əlbirliyi ilə və ciddiyyətlə çarpışması lazımdır. Bu məsələ üçün də biz öz tərəfi-mizdən Azərbaycana və Gürcüstana təklif ediriz qəti və şiddətli tədbirlər görməyə əcələ etsinlər. (Bir səs: Ermənistana da). Bir də General Prjevalski öz otryadı ilə mühitimizdən çəkilib getdiyi halda, yenə o qara qüvvədən məmləkətimizdə bir çoxları mövcuddur. O cümlədən, onların nümayəndəsi (Erdeli) və sairədir ki, ələn buradadırlar. Onların barəsində hökumətimiz qəti tədbirlər görüb həbs etməlidir. (Ümumi alqış). O fikirli adamlar daha da varsa, gərək onlar da məmləkətimizdən çıxarıldılsınlar. Bir də məlumunuzdur ki, qəzetlərin yazdığına görə Dağıstanda bəzi köhnə çinovniklər Denikinə lazım olan məlumatı verib onun Dağıstana gəlməsinə müavinət göstərmişlərdir. O çinovniklərin misalı bizim paytaxtımızda da var. Ona görə elə çinovniklərin buradan rədd edilmələri lazımdır. (Alqış). Bu kimi adamlar Gürcüstanda da mövcud idilər. Amma

gürcülər belə həriflərə qarşı bizdən daha qəti və şiddətli tədbirlər görərək onları öz aralarından rədd etmişlərdir. (Səslər: Doğrudur). Bizim də o surətlə hərəkət etməyimiz lazımdır.

Bundan başqa bu qara qüvvələrə kömək edən dəxi vardır. O, özü-özlüyündən gələn qüvvə deyildir. Xaricdən onlara qəti surətdə [355 - 356] kömək verirlər. Bu da müttəfiqlər komandanlığı ozüdür: o kömək verir; qüvvə də hərəkət edir. Müttəfiqlər müharibədən qabaq və müharibə əsnasında deyirdilər ki, bu ümumi müharibə azadlıq müharibəsi və xırda millətlərin ixtiyaratı üçündür. Böylə söylənildiyi halda xırda millətlərin haqq və ixtiyarını qəsb edən həmin qara qüvvələrə kömək edən yenə müttəfiqlər komandanlığıdır. Əgər müttəfiqlərin köməyi olmasa o qüvvə cəsarət edib üstümüzə gəlməz. Hal-hazırda haman qara qüvvə bütün varlığı ilə xırda millətlərin ixtiyarını qəsbə qalxışmışdır. Biz müttəfiqlər komandanlığından qəti surətdə tələb etməliyiz ki, siz onlara kömək edirsiniz. Binaən-ileyh onların bu hərəkətlərində siz məsulsunuz, əgər siz həqiqətən xırda millətlərin ixtiyaratı tərəftarı isəniz bu gün hüququ qəsb edilən millətlərə kömək ediniz və qara qüvvəyə əmr veriniz buradan rədd olsunlar yoxsa bu gün Dağıstanı çeynəyən qüvvə yarın sırası ilə Azərbaycanı və Gürcüstanı da çeynəyəcəkdir. Əmin olunuz ki, təcavüz əsl müttəfiqlərdəndir.

**Rəis** - Söz doktor Qarabəyovundurs.

**Qarabəyov** ("İttihad") - Həzərat! Üç ay bundan əvvəl həmin bu mənbələrdən bütün firqələrin dedikləri bu idi ki, Azərbaycan və bütün Qafqaziya millətləri istiqlalını son qətrə qanımıza qədər müdafiə edəcəyik. Dağıstan hökuməti də Qafqaziyada təşkil etmiş müstəqil dövlətlərin biridir. Şimdi görünüz o adamlar ki, özlərinə Rusiyanın sahibi deyirlər Dağıstanın bu hürriyyətini dağıtmaq istəyirlər və Dağıstan bu yolda yalnız qalmışdır. Vəhal anki yayda bizim üzərimizə düşmən gələndə, dağıstanlılar çaxmaqlı tüfəng ilə bizim köməyimizə gəldilər. Bu qardaşlıq hissi bizi vadar edir əlimizdə silah onların köməyinə gedək. Onların müharibəsi bizim müharibəmizdir. Biz burada söz ilə deyil, felən onların müharibəsinə şərik olmalıyıq. Onlar Qafqaziyanın müqəddimə elçisidirlər. Onların qələbəsi bizim qələbəmizdir. Ona görə hökumətin ittixaz etdiyi tədbirləri alqışlarız və daha şiddətli tədbirlər ittixazını firqəmiz tərəfindən təklif edəriz. (Sağdan alqış).

**Rəis** – Söz doktor Bəhrəm bəy Axundovundur.

**Bəhram bəy Axundov** (bitərəf) - Möhtərəm məbuslar! Qabaqkı natiqlərin dediklərini eşitdiniz, ələlxüsus Əhməd bəy Pepinovun. [356 - 357] Mən də bunların dediklərinə şərik olmaqla bərabər, Könüllü Ordu haqqında bir neçə söz demək istərdim. Denikin ətrafına toplananlar kimlərdir? Lyaxov kimdir? Lyaxov haman adamdır ki, neçə il bundan əvvəl İran inqilabı əleyhinə qalxıb İran demokratiyasını əzdi. Böyük alimlərdən Müctəhid (Məlikül Mütəkəllimini) asdırdı. İndi Lyaxov kimi generallar Denikin ətrafına yığılmışlardır. Həmin Lyaxov əvvəl fikrində tutub ki, Bakıya gəlib bizim demokratiya və hürriyət-pərvər ülamalarımızı parçalasın. Ona görə mən bitərəflər namından keçən natiqlərin dediklərini müdafiə edərək təklif edirəm ki, bizə yaxın olan Dağıstan hökumətinə axır qanımıza qədər kömək edib canımızı da onlara fəda edək. (Alqış).

**Rəis** - Söz parlament üzvü Yusif Əhmədovundur.

**Yusif Əhmədov** (tacirlər nümayəndəsi) - Möhtərəm məbuslar! Məncə belə məsələlər ki, indi eşitdiniz, həmişə inqilabdan sonra olar. İnqilab elə bir şeydir ki, ondan sonra belə çıxışlar təbiidir. Bir məmləkətdə ki, inqilab oldu, orda yaşayan cəmi camaat bir rəydə ola bilməz. Onun ən şədidi olduğu kimi, ən rəhimlisi də olar. Bunun bir çarəsi var. Olmasın Denikin, Lyaxov, olsun İvanov və qeyrə. Hər kim olsa təfavüt eləməz. O qara qüvvələr Bakıda, Gəncədə, Şamaxıda hər yerdə hətta Avropada da var. Lakin avropalılar dəqiqdirlər. hər bir qorxunu vüquidan qabaq bilib çarəsini edirlər. Nümunə istəsəniz, üç gün bundan qabaq şəhərimizdə olan hadisəni göstərmək olar. Bu qüvvələr yox deyil; vardırlar. Onlar öz başlarına getmədilər. Qara qüvvələr var. Şimdi düşünülməlidir, nə yapmaq ki, bu şeylər qorxusuz, qan tokülməksiz bərtərəf olsun, nə təhər etmək ki, qan tökülmədən işlər yaxşılaşsın? Necə ki, müttəfiqlər hal-hazırda cəmi Avropaya hakimdirlər və haqları da varmış, görünür ki, bu qüvvə ittihaddan hasil olmuşdur. Deməli, müttəfiq yığıncaq qüvvə lazımdır. Elə ittifaq qarşısında əmin olunuz ki, qara qüvvələr bərtərəf olar. Bu saat qara bəlanın dəfi üçün bütün Qafqaziya millətləri bilafərq: erməni, gürcü, azəri türklər və sairələri lazımdır ittifaq etsinlər. Əminəm və cani dildən əqidəm budur ki, nə qədər Qafqaziyadakı cümhuriyyətlər bir olmasalar, nifaqları olsa; bu qara qüvvələrin təcavüzü olacaqdır. Əvvəl, evin içini düzəltmək lazımdır. Əgər bu olmasa. Qafqaziya millətləri [357 - 358] arasında rəqabət var, o qara qüvvə daha da güclənib gələcəkdir. Denikin qorxulu deyildir. Hətta bir məmləkət üçün beş məmləkətə də qorxulu olmaz, əgər o məmləkət içində birlik ola. Yeganə bir çarə varsa o da bizim ittifaqımızdır. Doğrudan da bu bəlalar nə səbəbdəndir? Bizim biri-birimizlə anlaşa bilmədiyimizdir. Bu mülahizələr ilə dörd müstəqil hökumət yaxınlaşsın, hərgah Denikin bu dörd hökumətin birləşdiyini görsə cürət edib gəlməz. Deyər ki, şimdi onlara güc çatmaz; getmək nahaqdır. Hal-hazırda bizim özümüzdə də hakim qüvvə var. Onlar ilə bir yerdə iş görməliyik. Necəki şimdiyə qədər müraciət edirdik, şimdi də deməliyiz ki, bu vaxtadək nə olmuşsa bizim səhvimizdən idi. Bundan sonra hər nə olsa sizin öhdənizdədir. O Şimali Qafqaziya camaatı ki, Denikin qüvvəsini öz torpağına buraxıb, elə güman ediblər ki, qabaqca onlara verilən söz doğrudur. Onlar Şimali Qafqaziyaya müraciət etdikdə qüvvələri yox idi, varsa da az və əhəmiyyətsiz idi. Fəqət belə intriqalar, vədlər ilə Dağıstanda özünə bir qədər qüvvə tədarük etdi, indi Dağıstan hökumətini tanımamağa, onların hüququnu ğəsbə çalışırlar. Zatən də böylədir. Bir vaxtda bir hökumət qalib gəlsə əksi vədlərini haqq unudar. Təklif edirəm ki,

hazırda o qüvvə ki müttəfiqlərdə var və əvvəlcə də vədləri də vardır. Onlara deyilsin belə xəta parlament olan məmləkətlərdə yürütmək mümkün olmaz. Sizlər razısınızmı ki, millətlər bir-biri ilə vuruşsunlar; siz ki, haman qüvvəyə kömək edirsiniz o qüvvənin millətlərə əziyyət etməsinə və onları qırmasına tərəfdarsınızmı? Hərgah belə yolsuzluqlar ədəb dairəsində bərtərəf edilməsə gərək hər millət özü-özünü saxlasın. Mənim birinci təklifim budur ki, Qafqaziya cümhuriyyətləri birləşsinlər; ikinci təklifim budur ki, müttəfiqlərə məlum edilsin ki, Şimali Qafqaziya cümhuriyyətinə edilən hücumun qabağını saxlasınlar. Hərgah saxlamasa biz özümüz öz istiqlalımızın bəqası üçün o hücumun qabağını saxlamaq məqsədi ilə Şimali Qafqaziya cümhuriyyətinə kömək edəcəyi.

(Alqış. Erməni fraksiyasından: Bravo!).

**Rəis** - Söz Aslan bəy Qardaşovundur.

**Aslan bəy Qardaşov** ("Əhrar") - Bir vilayətə ki, xaricdən qorxu ola, zənn edirəm heç bir firqə olmaz ki, mübarizədən boyun [358 - 359] qaçırsın. Məndən qabaqkı natiqlər məsələyi ətraflıca söylədiklərindən çox danışmağı lazım bilmirəm. Natiqlərin sözlərinə və gorülən tədbirlərə iştirak etməklə bərabər onu da deyirəm ki, Zaqafqaziya hökumətlərinin birliyi əmələ gəlməsə mübarizə işi çətin olacaqdır. Ona görə ümid varız ki, hökumət tərəfindən lazımi tədbir görüləcəkdir. (Alqış).

**Rəis** - Söz parlament üzvü Malxazovundur.

**Malxazov** (Erməni fraksiyası) - Rus dilində bir nitq söyləyir.

**Rəis** - Söz Soltan Məcid Qənizadənindir.

**Soltan Məcid Qənizadə** ("İttihad") - Möhtərəm məbuslar!

Rəisi - vükəla həzrətlərinin oxuduğu məktubdan hamı firqələr razı qalıb səmimi qəlb ilə iştirak edirlər. Parlament dəxi camaat nümayəndələrindən ibarət olub hamının fikrini təmsil etdiyindən demək bütün millət dağıstanlı qardaşlarımıza kömək etmək istəyir. Çünki onlara vurulan zərbə bizim ciyərimizə və ürəyimizə dəyən kimidir. Onlar ayrı, biz ayrı deyiliz. Xudanəkərdə, Dağıstana bir tələfat olarsa bizə olmuş kimidir. Bir az fasilədə onların başına gələn bizim də başımıza da gələ bilər. Bu Azərbaycan bayrağının bir ucu Dağıstan hökumətinin çiynindədir. Onlar yıxılar isə bizim bayrağımız da yıxılar. Mən deyirəm ki, bu məsələ barəsində çox danışmaq lazım deyildir, tezliklə iş görək. Əhməd Covdət mərdanəlik ilə dedi ki, əgər müttəfiqlər doğrudan da asayiş üçün gəlmişlər qüvvətlərini götürüb Dağıstanı xilas etsinlər, çünki biz onlara özümüzə baxan kimi baxırız. Əgər Dağıstan fövt olsa, biz də olarız. Mən deyərdim hökumət bir layihə düzəltsin ki, lazım olduğu zaman Denikin və Könüllü Ordu ilə mübarizə üçün silahlanıb dağı aşaq və dağıstanlı qardaşımızın harayına çataq. (Ümumi alqış).

**Sədr** - "Müsavat" tərəfindən bir təklif varid olmuşdur.

**Katib** (oxuyur) - Azərbaycan Məclisi-Məbusanı qara irtica qüvvəsinin qardaş Şimali Qafqaziya cümhuriyyətinin hüququna təcavüzünə şiddətlə protesto edərək, bu hüququn müdafiəsi yolunda hökumətin gorəcəyi hər növ qəti tədabir və qərarlarını təsvib edər.

**Rəis** - Təklif qəbul olunar isə keçək növbədəki məsələyə.

**Səslər** - Tərcümə olunsun. [359 - 360]

**Katib** - (Ruscaya tərcümə edir).

**Rəis** - Etiraz yoxdursa qəbul olunur.

**Soltan Məcid Qənizadə** - Buyurunuz.

**Qənizadə** - Mən deyərdim ki, quru protestdən bir şey çıxmaz. Krılovun basniyasında olan kimi aşbaz nə qədər pişiyə protesto edir, pişik isə əti yeməkdə davam edəcəkdir. Təklif budur ki, silahlanıb qara qüvvələrin qabağına gedək.

**Səslər** - O hökumətin işidir.

**M. Ə. Rəsulzadə** - Təklifin formulu yalnız protesto etmir. Protestin ikinci hissəsi hüququnun müdafiəsi üçün hər növ tədabir və qərarlarına tərəfdarız deyiriz. Bundan məqsəd nədir? Zənn edərsəm şayəd hökumət qərar verər isə camaat da bərabər olduğu halda Məclisi-Məbusan üzvləri də daxil və başda olmaq üzrə silahlanıb Dağıstana köməyə gedilsin. Təklifdə qəti tədbir sözü bunu göstərir. Bu xüsusi hökumətin sərəncam və qərarına bağlıdır. (Alqış).

**Rəis** - Hərgah bu təklif etiraz yox isə qəbul olunur. Deməli müttəhidül-rəy qəbuldur. Təklif var ki, növbədəki məsələ vaxtın gec olduğundan gələcək iclasa buraxılsın. Etiraz yox isə qəbul olunur. İclas qapanır.

İclas saat 4-ə 10 dəqiqə qalmış qapanır.

**Arxiv, f. 895, siy 7, iş 39, v. 1-36.**

## № 21

## İyirmi birinci iclas

*10 mart 1919-cu il*

**Rəis** - Həsən bəy Ağayev. **Katib** - Mehdi bəy Hacınski.

İclas saat 12-10 dəqiqədə açılır.

**Rəis** - Parlamentin iclası açılır. Yomiyyə müzakiratımız belə tərtib olunmuşdur.

1 - Varid olan kağızlar. a) Bakıda Ali ziraət və fəllahat məktəbi guşadı xüsusunda layihəyi-qanuniyyə. Bu layihəyi-qanuniyyə ləvayehi-qanuniyyə komissiyasına verilir. [360 - 361]

2 - Novruz bayramı münasibətilə dövlət xidmətçilərinə fevral ayında 75 faiz mükafat xüsusunda layihəyi-qanuniyyə. Bu layihəyi-qanuniyyə də ləvayəhi-qanuniyyə komissiyasına verilir.

3 - Nuxa şəhərində yatalaq ilə mübarizə üçün 2 yüz min rüblə istiqraz verilməsi haqqında. Bu da lovayehi-qanuniyyə və maliyyə büdcə komissiyalarına verilir.

4 - hökumətin məktubu və başqa məktublar.

5 - Məclisi-Məbusan Nizamnaməsi.

6 - Məsai nəzarəti nəzdində zəhmətkeş və əmələlər məsələləri həlli üçün xüsusi müşavirə məclisi təşkili barəsində layiheyi-qanuniyyə.

7 - Quru yollar və onların təmirinin təriq və məabir nazirinə vaküzar edilməsi barəsində qanun layihəsi.

Hərgah bu cür tərtibata etiraz yoxdursa qəbul olunur.

**Aşurov** (yerindən) - İcazə veriniz.

**Rəis** - Buyurunuz!

**Aşurov** - Məsai nəzarəti nəzdində zəhmətkeş və əmələlər məsələlər üçün xüsusi müşavirə məclisi təşkil edilməsi haqqında məsai nəzarətindən parlamentə təqdim olunan qanun layihəsi parlamentin keçən iclasında həll edilmədi, təxirə salındı, qaldı. İndi bu məsələnin ruzunameyi-müzakiratda başa salınmasını təklif edirəm.

**Rəis** - Bu təklifə etiraz yoxdursa qəbul olunur.

**Səslər** - Etiraz yoxdur, yoxdur.

**Rəis** - Kağızları oxumamışdan əvvəl bir neçə məsələ var ki, ərz eləmək istəyirəm. Keçən iclasların birində qərara alınmışdı ki, maliyyə və büdcə komissiyası əzaları ikiqat artırılsın. Lakin "Müsavat" fraksiyasından başqa digər fraksiyalardan həmin komissiyaya üzv verən olmadı. Rica edirəm ki, hər fraksiya iclasın axırına qədər yazılı surətdə bir namizəd göstərsin. Sonra elan etmək istəyirəm ki, yeni üzvlərdən ikisi daxil olmuşdur. Biri doktor Ter-Azarov, biri də Papyan. Bunların seçki kağızları etibarnamə komissiyasına verilir. Sabiq üzvlərdən Ələkbər bəy Xasməmmədov fevralın 24-dən hökumət qulluğuna təyin edildiyi üçün parlament tərəfindən qəbul edilən qanuna görə martın əvvəlindən parlamentdən çıxmış hesab olunur. Bir də rica edirəm, parlament üzvü Həmdulla əfəndi Əfəndizadə hansı firqəyə mənsub olduğunu [361 - 362] bildirsin. Çünki bu vaxta kimi sizin adınız iki siyahıda vardır: həm "Bitərəflərdə", həm də "İttihad"da.

**Əfəndizadə** (yerindən) - Xeyir, mən "İttihad" fraksiyasındayam.

**Rəis** - Həmdulla Əfəndi Əfəndizadə "İttihad" fraksiyasındadır. Doktor Məmmədrza ağa Vəkilov "Müsavat" fraksiyasına mail olduğundan "Müsavat" fraksiyasına daxil olur. Heyəti-Rüəsa (siniyorin konvent)-dən rica edirəm ki, bu gün axşam saat 7-də mənim kabinəmə təşrif gətirsinlər. Bir təklifim vardır. Ayın 12-də inqilabi-kəbirin iki illik günü münasibətilə təklif edirəm ki, parlamentin təntənəli iclası olsun, martın 12-də saat 12-də, Zəngəzur tərəfindən parlamentə üzv seçilən Cəmil bəy Sultanovun mandatı gəlib, etibarnamə komissiyasına verilir.

Növbədəki məsələ hökumət tərəfindən gələn məktubdur. (Katibə). Oxuyunuz.

**Katib** - (Oxuyur).

***Azərbaycan Cümhuriyyəti Məclisi-Məbusan Rəyasətinə.***

Azərbaycan hökumətinin 22 fevral iclasında Azərbaycan Cənubi-Şərqi qubernatorluğu təşkil olunması qərar edilmişdir. Mövqeyin imuratına halı olmaq üçün tezliklə oraya general-qubernatorla birlikdə hökumət tərəfindən bir heyət göndəriləcəkdir. Məzkur heyətdə parlament üzvlərindən birinin dəxi bulunması hökumət tərəfindən lazım görüldüyündən tərəfinizdən müvafiq görüldüyü halda məzkur heyətə parlament üzvlərindən münasib bir kimsənin təyin edilməsini rica edirəm.

***Heyəti-Vükala rəisi Fətəli xan Xoyski.***

**Rəis** - Bu kağız barədə kimin nə sözü var.

**Səslər** - Tərcümə olunsun. Tərcümə.

**Katib** - (Ruscaya tərcümə edir).
**Məmməd Əmin** (yerindən) - Şuşaya ya Naxçıvana?
**Katib** - Şuşaya.
**Rəis** - Cənubi-Şərq Naxçıvandır, Şuşa deyildir. Hökumət tərəfindən Naxçıvana heyət gedir və rica olunur ki, parlament tərəfindən bir adam verilsin. Söz Qasım bəy Camalbəyovundur.
**Camalbəyov** ("Hümmət") - Şəksiz bu heyət gedir Naxçıvana, İrəvan quberniyasına Şuşaya deyil, Naxçıvan camaatı təvəqqə [362 - 363] eləmişdi ki, hökumət tərəfindən oraya bir adam təyin olunsun. Ola bilir ki, bu adam geri götürülsün. Naxçıvana bir heyət getməsini hökumət və firqələr lazım bilir. Mən əvvəl də bu təklifi eləmişdim. Amma mənim bu təklifim qəbula keçməmişdir. Parlamentdən bir adam göndərilməsi səhvdir. Bu adamın əqidəsi bütün parlament üçün sübut ola bilməz. Bu nöqteyi-nəzərdən mən dövlətin ora heyət göndərməsi tərəfdarı olmaqla bərabər parlamentdən yalnız bir adam deyil hər firqədən bir nümayəndə göndərilməsini tələb edirəm.
**Rəis** - Söz Rəhim Vəkilovundur.
**Vəkilov** ("Müsavat") - Çünki bu məsələ şübhəli qaldı. Məlum olmadı ki, nümayəndə Naxçıvanamı gedəcəkdir, Şuşayamı gedəcəkdir. Ehtimal ki, Naxçıvana gedəcəkdir. Hər halda bu məsələ örtülü qaldı. Ona görə "Müsavat" fraksiyası təklif edir ki, bu məsələ tənəffüsdən sonraya qalsın ki, dürüst məlum olsun.
**Rəis** - Şuşa deyil.
**Səslər** - Hökumət nümayəndəsi bəyanat versin nə məqsəd ilə gedir?
**Rəis** - Söz təriq və məabir naziri Xudadad bəy Məlikaslanovundur.
**Məlikaslanov** - Hökumət tərəfindən deyirəm ki, heyət Naxçıvana gedir. Şuşaya getmir.
**Qarabəyli** (yerindən) - Oraya general-qubernator gedibmi?
**Məlikaslanov** - Ora general-qubernator təyin olunub.
**Rəis** - Təklif var ki, bu məsələ tənəffüsdən sonraya qalsın.
**Qaraşov** (yerindən) - Heyəti-Rüəsaya verilsə daha yaxşı olar.
**Rəis** - Söz Qasım bəy Camalbəyovundur. Təklif barəsindəmi danışacaqsınız.
**Camalbəyov** - Bəli! "Müsavat"ın təklifi gərək qəbul olunmasın. (Gülüş!). Bəli! "Müsavat"ın təklifini qəbul etmək mümkün deyil. Çünki "Müsavat" Naxçıvan hadisələrindən və İrəvandan xəbərdar deyil. Amma əhvalat bəndənizə məlumdur. Oraya gərək tezliklə heyyət getsin. Bitərəf adamlar gedib oranın əhvalatını öyrəndikdən sonra gəlib bizə bildirsin. O adamlar ki, iki millətin qardaş yaşamağı və birləşməsi tərəfdarıdır, elə adamlar getsin. Tainki qayıdıb gələndə artıq [363 - 364] söz zad olmasın. Mən təklif edirəm ki, təcili surətdə bu heyət intixab edilsin və tezliklə getsin.
**Rəis** - İki təklif var. Biri budur ki, bu məsələ Heyəti-Rüəsaya verilsin, ikincisi də tənəffüsdən sonraya qalsın. Mən təklifin birincisini səsə qoyuram. Hər kəs bu məsələnin Heyəti-Rüəsaya verilməsi tərəfdarı isə rica edirəm əlini qaldırsın. (Əllər qalxır). Deməli əksəriyyət ilə qəbul olunur.
**Səslər** - Bu axşam baxılsın.
**Rəis** - Buna etiraz yox isə növbədəki məsələyə keçək. Növbədə Məclisi-Məbusan Nizamnaməsidir. Məruzəçi Qarabəyli.
**Qarabəyli** - Nizamnamənin ikinci babını oxuyur.
**Rəis** (məruzəçini dayandırır) - Məruzəçi əfəndi! Üzr istəyirəm. İclasda 32 adam qaldığına görə 5 dəqiqəlik tənəffüs elan etməyə məcburam. 45 nəfərdən ancaq 32 adam iştirak edir. Tənəffüs elan edirəm ki, tənəffüsdən sonra üzvləri cəm edim.
(5 dəqiqəlik tənəffüs elan olunur).

**Tənəffüsdən sonra.**

**Rəis** - İclasa davam ediriz. İki kağız var onları elan edək.
**Katib** (Oxuyur) - (Nərimanbəyovun ərizəsi).
**Səslər** - Kim? Necə həftə?
**Katib** - Etiraz yox isə qəbul olunur.
**Katib** (Oxuyur) - (Məclisi-Müəssisan komissiyası tərəfindən).
**Qarabəyli** (Oxuyur) - 4-cü bab.
**Rəis** - 4-cü bab barədə danışmaq istəyən yox isə keçək irəlidəki baba.
**Qarabəyli** (Oxuyur) - 5-ci bab.
**Rəis** - Natiq Əfəndi, burada bir şey unutdunuz zənn edirəm.
**Qarabəyli** - Qeydimi buyurursunuz? Oxuyuram.
**Rəis** - Bəli, bəli. Odur. Buyurunuz.
**Qarabəyli** - Oxuyur.
**Rəis** - Şəksiz 157-ci maddədəsiniz. Rusca belədir. Oxuyunuz.

**Qarabəyli** - Oxuyur.

**Rəis** - Oxunan bab barəsində söz istəyən var isə buyurun. Yoxdursa elə yeni baba keçiriz. (Məruzəçiyə) Buyurunuz. [364 - 365]

**Qarabəyli** - Oxuyur.

**Rəis -** 5-ci bab barəsində söz söyləyən varsa buyursun. Yoxsa keçək başqa fəslə.

**Rəis** - Təklif olunur maliyyə - büdcə komissiyasına verilsin. Çünki Məclisi-Müəssisan seçkilərini hazırlayan komissiya işini bitirmişdir. İndi komissiyanın işlərini təb etdirmək üçün para lazımdır.

Komissiya öz işləri üçün 20 min rüblə istəyir. Divani-Rəyasət həmin komissiyanın təklifinin maliyyə-büdcə komissiyasının verilməsi tərəfdarıdır.

**Səslər** - Qəbuldur, verilsin. Tərcümə edilsin.

**Katib** - Ruscaya tərcümə edir.

**Rəis** - Sonra**…**

**Katib** ("Əhrar") - fraksiyasından büdcə-maliyyə komissiyasına Aslan bəy Qardaşov təklif edilir. Ləvayhi-qanuniyyə komissiyasına da həmin Aslan bəy Qardaşov təklif edilir. Büdcə—maliyyə komissiyasına erməni fraksiyasından ikinci üzv olaraq Papyan təklif edilir.

**Rəis** - Etiraz yoxsa qəbul olunurlar. Məclisi-Məbusan Nizamnaməsinə davam edək. Parlament üzvü Qarabəyli. Buyurun.

**Qarabəyli** (Oxuyur) - 2-ci bab. Mədaxil və məxaricin müzakirəsi qanunu...

**Rəis -** 66-cı maddədə qalmışdıq.

**Qarabəyli** (Oxuyur) - 66-cı maddə.

**Rəis** - Oxunmuş fəsl barəsində kim danışmaq istər? Danışan yox isə irəlidəki fəslə keçək. (Məruzəçiyə) Buyurunuz.

**Qarabəyli** (Oxuyur) - 3-cü bab.

**Rəis** - Oxunmuş fəsl barəsində kim danışmaq istəyir? Yox isə? Atidəki fəslə keçək. (Məruzəçiyə) Buyurunuz.

**Qarabəyli** - (Oxuyur).

**Rəis** - Söz Hacı Molla Səlim Axundzadənindir.

**Axundzadə** - Cənab məbuslar! Burada əvvəla bəzi mətalib müqəddiməsini ərz eliyim. Deyir ki, Xorasanın hakimini öldürmüşdülər. Qəttalının da qulağını kəsmişdilər. Bir nəfər qəttalının qulağının kəsilməsinə ağlayır və təəssüf eliyirdi. Bir başqası ona dedi ki, qəttalının qulağının kəsilməsinə ağlayırsan, amma ibn Kazımın öldürülməsinə bir şey etmirsən. Əlan bilfel məsail cəryanı belədir. Biz o xüsusda danışırıq [365 - 366] ki, mütəhəmmildir. Amma hal-hazırda dalımızda düşmən oturmuşdur ki, evimizin içərisindədir. Əlan 10 məktub almışam ki, Lənkəranda edilən zülmə dəxi əhalinin davamı yoxdur. Üstüörtülü ərz edirəm: bu saat Lənkəranda evlərə girib hər şey edirlər. İrzinamus əl-ayaq altında gedir. Gecələr birisinin evinə girirlər. Ev sahibi evində nələr olduğunu utandığından heç kəsə açıb söyləyə bilmir. Lənkəran buradan 12 saatlıq yoldur. Əgər istəyirsiniz hər firqədən bir nümayəndə olaraq bir komissiya göndəriniz, gedib bu işləri yerində təhqiq eləsin. həqiqətdə irzinamus gedir. İclas qapanır.

**Arxiv, f. 895, siy. 7 iş. 840, v. 1-6.**

**№ 22**

**İyirmi ikinci təntənəli iclas**

*12 mart 1919-cu il.*

**Rəis** - doktor Həsən bəy Ağayev. **Katib** - Mehdi bəy Hacınski.

**Rəis** - Parlamanın təntənəli iclası açılmasını elan ilə Rusiya inqilabı tarixcəsindən bəyanət verib millətlərin istibdad zəncirindən qurtarması və müstəqil yaşamaları xüsusunda bir nitq irad etdi və alqışlara nail oldu.

Sonra inqilab münasibətlə qan töküb şəhid olanlara məclis ehtiram edib ayağa durdu. Bu gün Gürcüstan Məclisi-Müəssisan küşad edilməsi münasibətilə divani-riyasət tərəfindən tərtib edilmiş bir teleqram göndərilməsini məclis qəbul etdi.

Teleqramın məzmunu:

***"Tiflis. Gürcü Məclisi-müəssisən sədri cənablarına:***

Azərbaycan parlamanının 12 mart tarixli Rusiya inqilabı kəbirinin iki sənəlik münasibətilə çağırılmış iclasında dost gürcü cümhuriyyəti müəssisən küşadinə müvəffəq olub da, tarixi zaman münasibətilə təbrik etməsini bana tapşırmış.

Kəndi milli qayələrini təqib etməkdə müttəhid Gürcüstan bu yolda nə bir səd önündə dayanmıyaraq, nə bir qurbanlar [366 - 367] verməkdən çəkinməyərək istiqlaliyyətə nail olmuş, əqvamdan heç birisi şimdiyə kimi ələ götürmədiyi bir şeyə müvəffəq olmuş, gürcü millətinin bu yolda göstərdiyi əzmkarlıq tarixi-hürriyyət əqvam səhifələrindən ən gözəli olması gərəkdir.

Gürcüstanın qəti şəkildə tərzi-idarəsini həlledici bir Məclisi-Müəssisan şübhə yox kəndi millətlərinin səadətini milli və məhəlli istiqlaliyyətdə ədd edən Qafqaziya müstəqil hökumətləri, şübhəsiz, aralarında nə qədər müşkül məsələlər olursa onlara qan tökməksizin həll eləməyə qadir və müvəffəq olacaqlar.

Azərbaycan parlamanı müşkül və məsul dövləti məsələlər həlli üçün dəvət olunmuş Gürcüstan məbuslarını təbrik ilə bərabər Gürcüstanın səadətini diləyir və bilaşək və tərəddüd Qafqaz millətlərinin sevgili Qafqaziyayi hər növ təcavüz və qara təhlükələrdən müdafiə və xilas etməsinə əmin olduğunu söyləyir.

***Parlaman sədri Həsən bəy Ağayev".***

**Məmməd Əmin Rəsulzadə** - İclas qət edilib millət ilə bərabər bayram edilməsini təklif edir. Təklif müttəhidəlqevl qəbul edilib rəis iclası qapayır.

**Arxiv, f. 895, siy. 1, iş. 6, v. 22.**

**№ 23**

**İyirmi üçüncü iclas**

*13 mart 1919-cu il*

**Rəis** - doktor Həsən bəy Ağayev. **Katib** - Mehdi bəy Hacınski.

**Rəis** - Müəyyən vaxtdan əlli dəqiqə keçmiş olduğu halda "kvorum" olmadığı üçün məclis qapandığını elan etdi isə də iclas qeyri-rəsmi olaraq davam edir. Məmməd Əmin Rəsulzadə hər bir iclas təyini xüsusunda qəzetələrdə elan olmasilə bərabər məbuslara xüsusi dəvətnamələr göndərilməsini təklif etdi. Təklif nəzərə alındı.

**Arxiv, f. 895, siy. 1, iş. 6, v. 23.** [367 - 368]

## № 24

## İyirmi dördüncü iclas

*17 mart 1919-cu il*

**Sədr** - Həsən bəy Ağayev. **Katib** - Əhməd Cövdət

**Sədr** - Parlamentin iclası açılır. Bugünkü yomiyyeyi-müzakiratımız Divani-Rəyasət tərəfindən bu qərar ilə tərtib verilmişdir:

1 - Daxil olmuş vərəqə və kağızlar. O cümlədən təşriyyə komissiyonu intixabı, Gürcüstan və Ermənistan ilə poçt-teleqraf münasibəti haqqındakı qanun layihəsi; 2 - hökumət təşkili barəsində; 3 - Məclisi-Məbusan nizamnaməsinin üçüncü qiraəti; 4 - Hökumət məmurlarına bayram münasibətilə 75 faizi miqdarında bir dəfəlik müavinət-nəqdiyyə verilməsi layihəsi; 5 - Şəki şəhərinə səpmə yatalağına mübarizə etmək üçün 200 min manat faizsiz istiqraz verilməsi layihəsi; 6 - Zabit namizədlərinin maaşlarını müəyyən etmək üçün layihəyi-qanuniyyə; 7 - Etibarnamə komissiyonunun məruzəsi; 8 - Yollar və qara yollar, onların təmirat və inşasının təriq və məabir nəzarəti ixtiyarına verilməsi barəsində layiheyi-qanuniyyə; 9 - Məclisi-müəssisan intixabı qanunnaməsinin təbi üçün 20 min rublə verilməsi; 10 - 1918-1919 sənələri üçün vilayət və dairələr vergisi məhkəmələrinə intixab qəvaidi xüsusunda layiheyi-qanuniyyə; 11 - Gömrük idarəsinin təşkili xüsusunda layiheyi-qanuniyyə; 12 - Azərbaycan vilayət sənaye vergisi məhkəməsinin təşkili haqqında qanun layihəsi; 13 - Vergilər xüsusundakı şikayətlərə baxmaq üçün maliyyə naziri indidəki Şuranın Ali bir məhəll olması haqqında qanun layihəsi; 14 - Poçt və teleqraf qanunnaməsinin 131 və digər maddələrinin ləğvi xüsusunda layiheyi-qanuniyyə və qeyri cari məsələlər.

Hərkah yomiyyeyi-müzakiratın bu cür tərtib olunmasına etiraz yoxsa, qəbul olunur.

Son zamanlar görürsünüz ki, layihələr gündən-günə artır, bu layihələr parlamentdə qəbul edildikdən sonra surətə salmaq üçün bir təşriyyə komissiyonu lazımdır. Rica edirəm iclasın [368 - 369] axırında həmin komissiyona namizədlər göstərəsiniz. Söz Əhməd Cövdət əfəndinindir.

**Əhməd Cövdət** - Ruznameyi-müzakiratın xüsusunda deyərdim ki, fraksiyamız tərəfindən maliyyə işləri xüsusunda hökumətə verilmiş sual dayamiyeyi-müzakirata daxil edilsin.

**Sədr** - Bu sual yarım saat bundan əvvəl sənə verilibdir, hərgah Nizamnamə üzrə getsək, bu sual Ruznameyi-müzakiratın axırına salınıb, axırda da müzakirə olunmalıdır. Hərçənd Nizamnamə hələ qəbul olunmayıbdır, lakin izin versəniz daxil olmuş məktublar və vərəqələr cümləsinə salarıq.

**Səslər** - Sualdır?

**Sədr** - Sualdır. Bu barədə danışmaq istəyən varsa buyursun, sual maliyyə barəsindədir. Hərçəndi Nizamnamə qəbul olunmayıbdır, amma iki dəfə oxunubdur. Hər halda bu sualı axırda elan edəcəyəm.

Keçən iclasların birində mənə tapşırılmışdı ki, bir şəxs tapıb hökumət təşkilini ona həvalə edim, indi o adam tapılıbdır. Yusif bəy Nəsibbəyovdur. Hökumət təşkili ona həvalə olunmuş, o da bu barədə lazımi təşəbbüsatda bulunur. Keçəlim növbədəki məsələyə, bir də onu ərz edim ki, yeni əzalardan Cəmil bəy Sultanov Zəngəzur tərəfindən Məclisi-Məbusana gəlmişdir. Mən bilmək istərdim ki, hansı fraksiyona mənsubsunuz?

**Sultanov** - Gələn iclasda elan edərəm.

**Sədr** - Divani-Rəyasətdən bixəbər sizi fraksiyalardan birinə yazıblar. Deməli, gələn iclasda hansı fraksiyaya mənsub olduğunuzu məlum edəcəksiniz. Keçəlim növbədəki məsələyə. Məclisi-Məbusanın Nizamnaməsi.

Söz məruzəçi Qara bəy Qarabəyova verilir.

**Qarabəyov** - Nizamnamə üçüncü dəfə oxunmalıdır. Hərgah parlament razı olursa, üçüncü dəfəsini oxumayım. Çünki Nizamnamə əvvəlcə hamı fraksiyalara paylanmışdır, hamı Nizamnamədən xəbərdardır, özü də uzundur, hərgah parlament razı olarsa, bir daha oxumayalım. Böyləcə qəbul edəlim. Onsuz da başqa məsələlər çoxdur. Komissiya belə təklif edir.

**Sədr** - Nizamnamənin üçüncü qiraəti barədə kim danışmaq istər?

**Şəfi bəy** (yerindən) - Etiraz yoxdur. [369 - 370]

**Səslər** - Etiraz yoxdur.

**Sədr** - Komissiyon tərəfindən məruzəçi Qarabəyov təklif edir ki, Nizamnamə maddəbə maddə oxunmasın, ümumən qəbul edilsin. Etiraz yoxsa, səsə qoyuram. (rusca) Onu da bilirsiniz ki, keçən iclasda cüzi təshihlər olmuşdur. Hər kəs Nizamnaməni haman cüzi təshihlər ilə qəbul edirsə, rica edirəm əlini qaldırsın. (Əllər qalxır). Deməli, əksəriyyət ilə Nizamnamə qəbul olunur.

**Məmməd Əmin** (yerindən) - Mən bu barədə bir söz deyərdim.

**Sədr** - Buyurunuz.

**Məmməd Əmin** - Nizamnaməni qəbul etdiniz. Lakin türkcə istilahının təshihata ehtiyacı vardır, ona görə təklif edirəm ki, Nizamnamə təshih üçün təshih komissiyonuna verilsin.

**Sədr** - Növbədəki məsələ hökumət məmurlarına bayram münasibətilə bir dəfəlik fevral maaşının 75 faiz əlavəsi ilə müavinəti-nəqdiyyə verilməsi üçün hökumət maliyyə və büdcə komissiyonuna bir layihə təqdim etmişdir. Maliyyə komissiyası həmən layihəyə baxıb böylə qərar verdi: Əvvəla bu müavinəti-nəqdiyyə nə üçün təklif olunur. Hökumət bu bəyannaməsində səbəb olmaq üzrə göstərir ki, hamıya məlumdur, bahalıq günü-gündən artır, maaş çatışmır, hökumət bu barədə lazım bilir ki, bütün idarələrdə qulluqçuların məvaciblərini artırsın. Ona da beynəl idarə bir komissiyon təşkil edilib bu komissiyaya da 15 nəzarətin vəkilləri daxil olubdur. Bu komissiya müzakiratında və komissiya məkulatın bahalanması davamını nəzərə almayıb müzakiratında davamla işini bitirə bilmir. Yalnız bir proje hazır edibdir. Ona görə hökumət təklif edir ki, fevral ayının məvacibindən başqa müavinəti-nəqdiyyə olmaq üzrə həmən məvacibin 75 faizi də birdəfəlik verilsin və bu müavinəti-nəqdiyəyi Novruz bayramı münasibəti ilə verməyi təklif edir. Büdcə və maliyyə komissiyası layihəyə baxıb bir qədər təbdil etdikdən sonra parlamentə təqdim edir.

Hökumət təklif edir ki, bütün idarə məmurlarına 75 faiz müavinəti-nəqdiyyə verilsin. Amma komissiyon isə təklif edir ki, bütün qulluqçuları üç qismə bölmək. Birinci qismi 1400 manatadək maaş alana 70 faiz, 1400-dən 2000-dək alana 60 faiz, 2000-dən artıq alana 40 faiz verilsin. Bu təbəddülatdan [370 - 371] başqa bütün layihə qəbul edilmişdir. Və layihə də belədir. (oxuyur).

Hökumət idarələri qulluqçularına Novruz bayramı münasibətilə birdəfəlik müavinəti-nəqdiyyə verilməsi haqqında qanun layihəsi.

a) 1. Novruz bayramı münasibətilə bütün hökumət idarələrinin heyəti və gərək qeyri heyəti qulluqçularına bu sənə fevral maaşının 75 faizi miqdarında bir dəfəlik müavinəti-nəqdiyyə verməli.

2. Birinci maddədə zikr olunan müavinəti-nəqdiyyəyi almaq haqqı hərbiyyə idarələri qulluqçularına və bu sənə yanvar və fevral aylarında artırılmış olan digər idarə qulluqçularına aid deyildir.

3. Bir dəfəlik müavinət-nəqdiyyə almaq haqqı fevral ayının 28-ə qədər Azərbaycan hökuməti qulluğunda bulunan xidmətçilərə aiddir.

b) məzkur müavinəti-nəqdiyyə verilməsi məxarici dövlət xəzinəsi departamentinin 1919 sənəsi smetasının xüsusi fəsli ilə fövqəladə məxaric hissəsinə aid edilməlidir.

v) müqtəzi məbləğ aşkar olduqca hər bir müəssisə dövlət müfəttişi ilə əvvəlcə görüşərək hesab açmağını maliyyə nazirinə mühəvvəl etməli.

Bu layihənin bir tərəfinə də diqtət etmişik ki, bütün qulluqçulara müavinət—nəqdiyyə verilsə, hökumət xəzinəsindən bunun üçün nə qədər para veriləcəyi məlum olsun. Bu barədə komissiya hökumətdən sual edib, hökumət böylə cavab vermişdir:

Vaxtın tənk olduğunu nəzərə alıb bu barədə nəzarətlərdən məlumat yığmaq mümkün olmadığı üçün hökumət bu barədə heç bir məlumat və bəyanat verə bilmir.

**Sədr** - Kim danışmaq istəyir? Söz Əhməd bəy Pepinovundur.

**Əhməd bəy Pepinov** - Əfəndilər! Sosialistlər fraksiyası əsas etibarı ilə bu layihənin əleyhinədir. Bu barədə hökumətin göstərdiyi dəlildən anlaşılır ki, həqiqətən hökumət qulluqçuları aldıqları məvacib ilə çətin keçinirlər. Bu müşkül vəziyyətdən onları qurtarmaq üçün yalnız bir dəfəyə məxsus olmaq üzrə bayram münasibətilə 75 faiz müavinəti-nəqdiyyə verilsin, böyləliklə bəlkə bayram əyyamını bir dərəcə yaxşı keçirə bilsinlər, bu çətin əhvallarda bir az məmurlara kömək olsun. [371 - 372] Biz isə deyiriz ki, hər bir qulluqçuya; hər bir zəhmətkeşə öz işlədiyinə, öz xidmətinə və zəhmətinə görə para versin, tainki qulluqçuya aldığı maaş ilə özünü dolandırmaq mümkün olsun, nəinki onlara bəxşiş verilsin. Bu pul bəxşişdir. Bunu biz rədd ediriz. Bu bəxşişin məmurlara verilməsinə tərəfdar olmayırız. İkinci məsələ də budur ki, müavinəti-nəqdiyyə hamıya verilmir. Əzcümlə dəmir yol qulluqçularına aid deyildir. Bu yaxın zamanda onların maaşı artırıldığına görə bəxşişdən məhrum edilirlər. Hökumət özü qulluqçularının aldıqları məvacib ilə əzlərini idarə edə bilmədiklərini bilir və bunu nəzərə alaraq məvaciblərin artırılması üçün bir beynülidarə komissiyon təşkil etmişdir. Bu komissiyon məvacibləri artıracaq və bu sürətlə qulluqçulara insan kimi yaşamaq imkanı verəcəkdir. Amma komissiya öz fəaliyyətində hənuz bir nəticə göstərməmişdir. Heç olmazsa bir ay zərfində deyə bilərdi ki, hökumət qulluqçularına nə qədər verməlidir və bir də bu müavinəti-nəqdiyyə niyə 60-70 faiz olub 100 və ya 50 və qeyri miqdarda verilmir. Bunun da səbəbi bizə məlum deyildir. Əlimizdə bir şey yoxdur ki, bu faizlərin miqdarını təyin edək və yaxud müəyyən bir qayda yox ki, qiyas edək olçək. Yenə bir məsələ var ki, məlum olmur hökumət xəzinəsindən bu barədə nə qədər para veriləcəkdir. 5-10-100 milyon nə qədər. Bu pul bəlkə bayramın axırınadək bizə çatmayacaq və bugünkü sualda görəcəksiniz ki, əmələlər və fəhlələr hələ fevral məvacibini almamışlardır. Buna görə də tətillər başlanıb, hətta Nobel əmələləri tətil etmişlərdir.

**Sədr** - Təvəqqe, edirəm sualınızın məzmununa keçəsiniz. Mətləbdən danışasınız, çünki müzakireyi-yomiyyə sırasında sualınız axıra buraxılmışdır.

**Pepinov** - Zənn edirəm mətləbə gəlirəm.

**Sədr** - Rica edirəm, mənim ilə bəhsə girişməyəsiniz!

**Əhməd bəy** (nitqinə davamla)? - Bu barədə hökumət deməlidir ki, bu pul bayrama qədər xidmətkarlara veriləcək, ya yox? Şayəd, biz bu qanunu qəbul etsək belə yuxarıdakı ərz etdiyimiz səbəblərə görə hökumət bu

məbləği bayramadək verə bilməyəcəkdir. Biz təklif edirik, bütün hökumət qulluqçularının məvaciblərini daimi surətdə artırmaq üçün bir layihə tənzimi və parlamentə təqdim edilsin. Bir də hökumət bizi [372 - 373] məcbur edir ki, bu müavinəti-nəqdiyyənin verilməsini qəbul edək. Əgər qəbul etməsək, o vaxt qulluqçuların düşmüş olacağı müşkül vəziyyətin səbəbi biz olacağız. Deməli, istər istəməz bu layihəyi qəbul etmək məcburiyyətindəyiz. Əsas etibarı ilə bu qanuna ziddisəm də, lakin əleyhinə rəy verməyə məcburuz.

**Sədr** - Söz Ağa Aşurovundur. Söz istəyənlərdən rica edirəm yazıb versinlər.

**Aşurov** - Bu layihənin qəbul olunmasına bərəksəm. Parlament gözübağlı bu işə getməməlidir. Hökumət bilmir ki, müavinəti-nəqdiyyə verməklə xəzinədən nə qədər pul çıxacaqdır. Əgər bu gün hökumət neçə min manat, neçə qəpik olduğunu qəti surətdə bilmirsə, barı təxminən də demirlər ki, 5 milyon çıxacaqdır. 10 milyon yoxsa, 100 milyon. Ancaq deyirlər ki, qanunu qəbul edək, amma bunu belə qəbul etmək olmaz. Burada ikinci bir məsələ vardır, bir neçə hökumət qulluqçuları vardır. Məsələn: müəllimlər, teleqrafda olanlar və qeyriləri. Bunlar qədim vaxtdan az məvacib alırlar. Bunların məvacibləri artırılmayıbdır. Nəzarət qulluqçularının halı nəzərə alınıb məvacibləri artırılmışdır. Amma onlar köhnə qərar ilə məvacib alırlar. Onların maaşları ancaq bir neçə prosent artırılmışdır ki, o da bir şey deyildir. Onlara da nəzarət qulluqçuları misalında insan kimi baxıb məvaciblərini artırmalıdır. Məsələn, müəllimlər fəna bir haldadır. İndi 75 faiz müavinəti-nəqdiyyə verməklə siz onların səsini kəsirsiniz. Çünki bu 4-5 yüz manat edəcəkdir ki, o da birköməklik deyildir. Bununla onların halı yaxşılaşmaz. Ona görə deyirəm ki, bu layihəyi rədd edək və hökumətdən tələb edək ki, qulluqçuların məvaciblərini artırmaq üçün bir proje tərtib versin. Tainki hamısı bir cür məvacib alsınlar. Mən məruzəçiyə bir sual vermək istəyirəm...

**Sədr** (natiqi dayandırır) - Natiq əfəndi, rica edirəm sualınızı məclisə deyəsiniz, məruzəçi sonra cavab verər.

**Aşurov** - Mən elə bunu demək istərdim, mən deyəni başa düşərsiniz. (Kürsüdən düşüb gedir. Ümumi gülüş).

**Sədr** - Söz təriq və məabir naziri Xudadat bəy Məlikaslanov cənablarınındır. [373 - 374]

**Məlikaslanov** - Möhtərəm məbuslar! Maliyyə naziri burada olmadığına görə hökumət tərəfindən deyirəm ki, komisyonun qərarına etiraz yoxdur. Beynəlidarə komissiyonu idarəsi məsələsinə gəlincə, onu deyirəm ki, komissiyon çoxdan işləyir. Bahalıq günü-gündən artdığından komissiyon bu gün qoyduğu qərarı sabah dəyişdirməyə məcbur olur. Ona görə də işlərini tez bitirmir. Komissiyon yanvar və fevral aylarını hesab etmiş idi. Sonradan əsgər və dəmir yol qulluqçularının məvacibi artdığından işə təzədən baxılması lazım gəldi. Odur ki, iş ləngidi. Ona görə də hökumət borclu idi ki, qanun qəbul olunana qədər bayramqabağı məmurlara kömək eləsin, tainki bayramı bir növ yola versinlər. Beynəlidarə komissiyonu işləyir. Bu yaxınlarda öz qətnaməsini təqdim edəcəkdir. Ona görə təvəqqe edirik ki, bu qanun qəbul edilsin. Ümidvaram ki, məmurlar bu faizi bayramda da almasalar, bayramdan bir neçə gün sonra alarlar.

**Sədr** - Söz Heybətqulu Məmmədbəyovundur.

**Qarabəyov** (yerindən) - Onun əvəzinə mənə söz veriniz.

**Sədr** - Söz Qara bəy Qarabəyovundur.

**Qarabəyov** ("İttihad") - Xatirinizdədir ki, parlament təzəcə açıldıqda büdcə məsələsi müzakirə edilərkən belə bir məsələ vardır ki, parlament qulluqçularına 60 min manat (naqradion) peşkəş verilsin. O vaxt firqələrin çoxu, o cümlədən biz də bunu rədd etdik ki, bu bir həqarətdir, bunu qəbul etmədik. Dedik ki, hökumət qulluqçulara o qədər məvacib versin ki, o. məvacib onları təmin etsin və belə həqarətə də ehtiyac qalmasın. Firqəmiz indi də bu təklifin tərəfdarıdır. Bayram münasibətilə heç bir peşkəş olmamalıdır. Biz buna etiraz edirik. Amma az məvacib alanların halları fənadır. Aclıq çəkirlər. Bayram qabağı bu peşkəşin verilməsi ilə bu işlərə əlac olmaz. Buna görə gərəkdir ki, hökumət qanun layihəsi hazırlasın. Və bu layihə mocibincə məvaciblər artırılsın. hər yerin məvacibi bir cürdür. Binaənileyh qulluqçularının hamısına 70 faiz vermək olmaz. Bakıda hər şey birə on baha olduğu bir halda başqa qiymət ilədir. Oradakı qulluqçuların məvacibini buradakılar qədər artırmaq çox olacaqdır. Ona görə biz təklif edərdik, yaxın gələcəkdə məvaciblərin artırılması hesabına olaraq avans təriqi ilə qulluqçulara müəyyən bir məbləğ verilsin. Sonra da həmin məbləğlər onların artırılmış məvaciblərindən çıxılsın. Biz təklif edərdik ki, məvaciblərin artırılması layihəsini tezliklə tərtib və Məclisi-Məbusana təqdim edilsin. İndi isə müavinəti-nəqdiyyə əvəzinə xidmətçilərə avans adı ilə bir qədər para verilsin.

**Sədr** - Söz Məmməd Əmin Rəsulzadənindir.

**Məmməd Əmin** ("Müsavat") - Burada məsələnin iki cəhəti var. Biri elmi, praktik cəhət ki, bu saat məvaciblər artırılsınmı, ya yox? Əvvəlki natiqlər məvaciblərin artırılmasını nəticə etibarı ilə qəbul edirlər. Bəziləri qəbul etmənin günahını hökumət üzərinə qoyur, bəzisi isə avans təriqi ilə verilməsini lazım bilir. Guya qulluqçulara bayram münasibəti ilə.bəxşiş verilməyi qulluqçuların izzət-nəfsinə toxunmuş kimi tələqqi edirlər. Fəqət, bu məsələlər məncə elə deyil. Mənə elə gəlir ki, bayram millətlərin həyatında böyük bir hadisədir ki, onda gərək qulluqçu olsun, qeyri qulluqçu olsun onların həyatları üzrə bayramın böyük təsiri vardır. Millətlərin özlərinə görə adəti və ənanatı vardır. İndi bu adət və ənanət dolayısı ilə bayramlar və sair bu kimi əyyam vücud bulmuş ki, bu günlərdə gərək kasıb, gərək dövlətli, hər kim olursa-olsun həyatın digər günlərindən daha ziyadə məsud olmaq üçün bütün il qazancından artırdığı məbləğ ilə bayramda uşaqlarını geyindirəcək, onlara fəzlə-yemiş alacaq, geyinəcək, sevinəcək, sevindirəcəkdir. Belə bir gün üçün onlara vermiş olduğumuz müavinət

peşkəş deyil, görkəmli bir paradır ki, o para ilə qulluqçu arzularını vücuda gətirə bilir. Və bəlkə də sizə müavinətinizdən dolayı məsud və mütəşəkkir olar. Millətlərin ənənatı daima kəndi mənliyini mühafizə eylər. O asari mədəniyyəyə başqa bir qiymət bəxş edə bilər. Millətlərin ənənatını daima təqib etməməlidir. Bu məsələnin o surətlə vücud bulduğunu düşünməli ki, sanki məmurların keçmiş məvaciblərindən miqdari-kafi məbləğ qət edərək toplanıb birdən bayram münasibəti ilə mükafat tərzində öz pullarını özlərinə vermək kimidir. Bu surətlə siz lahiyəyi qəbul etsəniz, qulluqçuların hallarını şənləndirmiş olarsınız. Bu mükafata sədəqə nəzəri ilə baxmayıb, ənənatı milliyə təqib və ifa nəzəri ilə baxsanız o vaxt ənənatı [375 - 376] xidmət etmiş olursunuz. Əsasən, bu nəzəriyyədə hökumət məmurlarına təslim olmamız, əvət bir fabrika və ya kiçik bir dəzgahda sahibkar kəndi keyfi ilə bir xidmətçiyə qeyri-müəyyən olaraq məbləği-mükafat versəydi, o vaxt bu fikir orada əmələ gəlirdi. hökumət aparatı ələlsəvayyə hamıya bir nəzər ilə baxır... Ona görə burada bəxşiş deyil, bəlkə məmurların şənlikləri üçün bu layihə təklif edilir. Və hamıya bərabər təqdim ediləcəkdir. İstifadə ayrı-ayrı deyildir. Bu barədə milli ənənatı şənləndirmək və xatırlandırmaq üçündür. Bu surətlə əməli nəzəriyyələr meydanda ikən bir takım əməli nəzəriyyəçilik ilə ortaya çıxmaq həm sol və sağ sosialistlər üçün gülüncdür. Mən və fraksiyamız bu müavinəti-nəqdiyyənin verilməsi əleyhinə deyiliz, zira biz hər kəsi küçədən çağırıb ona vermiriz. Biz o adamlara veririz ki, hamısı bu ana qədər hökumət qulluğunda bulunmuşdur. Əməliyyata gəlincə hökumət bunların məvacibini ümumən artırmalıdır — deyirlər. Bildiyimizə görə, daxiliyyə, maarif nəzarəti və sair qulluqçularının məvaciblərini artırmaq üçün qanun layihəsi tərtib edərək layihə və büdcə komissiyasına göndərmişlər. Komissiya da hal-hazırda tədqilə məşğuldur. Elə zənn etmiyiniz ki, nəzarətlər öz qulluqçularının məvaciblərinin artırılması fikrində olmurlar. Təriq və məabir, hərbiyyə nəzarəti bu layiheyi-qanuniyyə hökmündən istisna edilmişdir. Çünki onların məvacibləri bu yaxınlarda artırılmışdır. Onlar mükafat əvəzinə artırılan maaş fərqinə qane olacaqlar. O fəzlə məbləğ bittəsadüf bayram münasibətilə onların ehtiyacını dəf edə bilir. Xülasə, təklif edilən qanun layihəsi komissiyonun təshili ilə bərabər qəbul edilsin və bundan da hökumət xəzinəsinə böyük zərər olmaz. Bu sənə üçün təxmin hesaba görə dörd-dörd tam ikidə bir milyon para gedəcəkdir. Bunu da alan surətilə verməyə ehtiyac yoxdur. Əgər bu müavinət-nəqdiyyə məsələsi qəbul edilib də məmurlara veriləcək olursa onların şadlıq və sevinclərinə yardım edəcəyi aşkar.

**Sədr** - Təklif var ki, müzakirə bitsin. İki natiqə söz verəcəyəm. Biri ləhinə, digəri əleyhinə. Əleyhinə kim danışmaq istəyir?

**Səslər** - (Etiraz yoxdur.) [376 - 377]

**Sədr** - Danışmaq istəyən yoxsa, səsə qoyuram. Hər kəs müzakiratın bitməsinə tərəfdardırsa, rica edirəm əlini qaldırsın. (Əllər qalxır).

Deməli, əksəriyyət rəylə müzakirənin bitməsi qəbul olunur. Son söz məruzəçinindir.

**Mustafa Vəkilov** ("Müsavat") - Maliyyə və büdcə komissiyonu mövcud bəhs olunan məsələyə praktik nöqteyi-nəzəri ilə baxdı. Sol, sağ firqələr burada dedilər ki, bu məsələ əsas etibarı ilə qəbul olunmaz. hökumət bu layihəni təklif etməklə demək istəmir ki, məvaciblər artmayacaqdır. Komissiyon belə baxdı ki, bahalıq davam edir, məbləğ çatmır, hökumət nəzdində olan beynəlidarə komissiyonu işləyir hələ işini bitirməyibdir. Komissiyonun işi çətindir. Nəzərə gələn kimsi asan deyil ki, belə bir böyük hökumət idarəsi xidmətçilərinin məvaciblərinin nə qədər artırılmasını az bir zamanda müəyyən etsin. Ona görə hökumət nəzdində olan beynəlidarə komissiyon işini bitirmədiyindən və qulluqçuların məvacibləri çatmadığına görə maliyyə-büdcə komissiyonu təklif edir ki, məvaciblər artıncaya qədər bu layihə qəbul edilib qulluqçulara müavinəti-nəqdiyyə verilsin. Burada bir sual verildi, dedilər ki: komissiyon söyləyə bilməzmi nə qədər pul veriləcəkdir? Əlbəttə bütün aparatlar əlində olan bir idarə bu iş üçün xəzinədən nə qədər para çıxacağını bilməsə komissiyon bu suala haradan cavab verə bilər. Ancaq, komisyonda bir söhbət oldu ki, 7-8 milyon arasındadır. Ona görə komissiyon tərəfindən təklif edirəm ki, bu layihəni də qəbul edəsiniz.

**Muxtar Əfəndiyev** (yerindən) - Mən əleyhinə danışmaq istəyərdim.

**Sədr** - Rica edirəm, əyləşəsiniz!

**Əfəndiyev** - Mən bu barədə...

**Sədr** - Rica edirəm əyləşəsiniz. Məsələ keçibdir. Vaxtında dedim, kimsə danışmaq istəmədi. Layihəni səsə qoyuram. Hər kəs layihəni komissionun təshihi ilə ki, ibarət olsun: 1400 rubləyə qədər alanlara maaşının 70 faizini, 1400-dən 2000-ə qədər alanlara 60 faiz, 2000-dən ziyadə alanlara 40 faiz müavinət-nəqdiyyə verilməsi tərəfdarıdırsa, rica edirəm əlini qaldırsın. (Əllər qalxır.) Salınız! Ləhinə — 35, Kim əleyhinədir? (Əllər qalxır). Əleyhinə — 4. Kim səs verməyib? — 15. Deməli, layihə əksəriyyət ilə qəbul olunur. [377 - 378]

Keçəlim növbədəki məsələyə. Növbədəki məsələ Şəki şəhərinə səpmə yatalaq ilə mübarizə etməkdən ötəri 200 min rublə faizsiz para buraxılması layihəsidir. Söz Aslan bəy Qardaşova verilir.

**Qardaşov** ("Əhrar") - Nuxa şəhərində səpmə yatalaq naxoşluğu şiddət etdiyinə görə Nuxa Bələdiyyə idarəsi mübarizə etmək üçün parası və lazımi alətləri olmadığından rica edir ki, dövlət xəzinəsindən ianə-təriqil ilə 200 min rublə buraxılsın. Nuxa Bələdiyyə idarəsi daxiliyyə nəzarətinə müraciət edib, təvəqqəsi də qəbul olunubdur. Lakin daxiliyyə nəzarəti belə qəbul edibdir ki, Nuxa şəhərinə faizsiz olaraq dövlət xəzinəsindən 200 min rublə para borc verilsin və bu borc 1920-ci sənədən başlamış 4 ilin müddətində geri alınsın.

İndi daxiliyyə nəzarəti də haman layihəni pişnihad etmişdir. Burda bir məsələ vardır ki, Nuxa şəhəri bu pulu borc deyil, ianə təriqi ilə istəyir. Amma hökumət ianə deyil, borc təriqi ilə verir. Layihə də həmin şəkildə varid olmuşdur. Daxiliyyə nəzarəti hökumətin pulu olmadığını nəzərə alıb, ianə təriqi ilə deyil, borc təriqi ilə verilməsini qərara almışdır. Maliyyə-büdcə komissiyonu da bu layihəyə baxıb nəzarətin rəyinə şərik olmaqla bərabər özgə şəhərlərə verildiyi qərar üzrə Nuxaya faizsiz borc verməklə müavinətdə bulunmanı qərara almışdır. Nuxa Bələdiyyə idarəsinin borc götürməyə qüvvəsi olmadığı halda, lakin təcili surətdə müavinətdə bulunmaq lazım olduğuna görə komissiyon bu rəyə gəldi ki, bu layihəni hökumət tərəfindən gəldiyi qərar üzrə qəbul etsin. Daxiliyyə nəzarəti təqdir etdiyi layihə budur:

(Məruzəçi oxumağa başlarkən, üzvlərdən bir paraları qalxıb dişarı çıxdıqda, sədr məruzəçini dayandırır.)

**Sədr** - Rica edirəm yerinizdən danışmayasınız. Qapını bağlayın, kimsəni bayıra buraxmayın.

**Qardaşov** (Oxuyur) - Azərbaycan Cümhuriyyəti Məclisi-Məbusanına Nuxa şəhərində sarı səpmə yatalaq naxoşluğu zühur etmişdir. Şəhərin həkimlər şurası istər əmrazi-ümumiyyeyi-adiyyə, istər əmrazi-sariyyəyi-şədidiyyəyə düçar olan xəstələri müdam surətdə tədavi etmək üçün şəhər daxilində heç bir xəstəxananın mövcud olmadığını nəzəri-etibara alaraq, əmrazi-sariyyə barakları inşa etmək, məvaddi-tənzifəyə hazırlamaq, [378 - 379] kuluzatlar və mənqul-tənzifat kameraları əhzar etməyi təhtiqərara almışdır. Şəhər idarəsi sandığında vəsaiti-nəqdiyyənin kamilən yoxluğundan dolayı, həkimlər şurası tərəfindən tövsiyə edilən tədbirin ittixazı imkanından büsbütün məhrum olduğundun məzkur idarəye-bələdiyyə 1918-ci sənəsi 31 kanun əvvəldə olan cələsəsində səpmə yatalaq xəstəliyi ilə mübarizədə bulunmaq üçün mənabeyi-nəqdiyyə aramaq məsələsini müzakirə və işbu qərarı əta eləmişdir. Nuxa şəhərinə əmrazi-sariyyə barakları yapmaq, tənzifat-məvaddi və məiqul kameralar hazırlamaq üçün hökumət nəzdində Nuxa şəhərinə 200 min manat ianə buraxılması haqqında hökumət nəzdində iqdamatdə bulunur. Gəncə valisi keçmiş kanun saninin 31 tarixli 26 № li təzkirəsi ilə idarənin işbu iqdamatını təsvib etmişdir.

Bələdəki məşruhata məbni daxiliyyə nəzarəti Nuxa şəhərində hökmfərma olan sarı səpmə yatalaq xəstəliyi ilə mübarizə bulunmasının xəstə nəinki yalnız şəhərdə əsasından qaldırmaq, hətta guya sirayət etdikdə kəndisi ilə təmasda bulunmanın qeyri-mümkün olacağı səbəbi ilə kəndisinə son dərəcə diqqət olunacaq bir keyfiyyəti nəzəri etibara alaraq Nuxa şəhəri idarə bələdiyyənin işbu iqdamatını şayanı qəbul olduğunu etiraf ilə atidə məzkur layiheyi-qanuniyyəni Məclisi-Məbusanın təsvibinə təklif eylər. 1. Xəzineyi-dövlət vəsaiti nəqdiyyəsindən bilafaiz olaraq, Nuxa şəhəri idarəyi-bələdiyyəsinə əmrazı-sariyyədə mübarizədə bulunması üçün 200 min manatlıq borcun verilməsi. 2. Məzkur idarəyi-bələdiyyənin işbu borcu 1920-ci sənaye-miladiyyəsindən bədə ilə hər sənə müsavi hissələr ilə 4 sənə zərfində xəzineyi dövlətə verməsi üçün kəndisini məcbur etmək Maliyyə-büdcə komisyonunun protokolu. 15 mart 1919 sənəsində maliyyə büdcə komisyonunun iclasında Nuxa şəhəri idarəsinə 200 min rublə borc buraxılması xüsusində daxiliyyə nəzarətinin təqdim etdiyi qanun layihəsi müzakirə olunaraq qət olundu:

Daxiliyyə nəzarətinin Nuxa şəhər idarəsinə 200 min rublə verilməsi xüsusindəki qanun layihəsi bilatəbdil qəbul olunsun.

Komissiyon tərəfindən təklif edirəm ki, bu layihəni qəbul edəsiniz.

**Sədr** - Kim danışmaq istəyir? Hər kəs danışmaq istəyirsə, yazsın versin. Söz Qəbulzadənindir. [379 - 380]

**Abdulla bəy Qəbulzadə** - Nuxa şəhərinə 200 min rublə borc verilməsi barəsində bir neçə söz söyləmək istəyirəm. Nuxada yaşayanlar, yaxud yaxında bulunanlar Nuxa şəhərini yaxşı tanıyırlar və bilirlər ki, 4 il bundan əqdəmədək Nuxa şəhəri qeyri ticarət şəhərləri kimi böyük ticarət şəhərlərindən biri idi. Burada böyük ipək fabrikləri və qeyri sənaət müəssisələri var idi. 4 sənədən bu yana Nuxa şəhəri ticarət şəhərliyindən çıxıb, iş o yerə müncər olub ki, 12 yaşından yuxarı bütün əhali fəhləlik üçün Zaqatalaya, Ağdaşa, Ərəş və qeyri yerlərə gedirlər. Bu axır vaxtlarda Nuxa şəhəri bir fəhləlikdən çıxıb füqəra şəhəri olmuşdur.

Hal-hazırda əgər bu şəhər əhalisinin beşdə biri qəni isə, beşdə dördü füqəradır. Bunlar bütün ev əşyalarını: palaz, yorğan-döşək, qab-qacaq, bir qədərini Nuxada, bir qədərini də ətraf kəndlərdə satıblar. Xalq üçün heç bir şey qalmamışdır. Bu işə aşina olduğum üçün təklif edirəm ki, 200 min rublə Nuxa şəhərinə qərz deyil, ianə təriqi ilə verilsin. İndi qəbul olunan layihə mocubunca hökumət məmurlarına 7-8 milyonluq bir müavinəti-nəqdiyyə verilməlidir. Nə olar ki, bir dəfəlik 200 min manatda Nuxaya ianə ilə verilsin. Bəlkə ianə səbəbi ilə Nuxa dövlətliləri də öz tərəflərindən 100 min manat ianə verələr. Olsun ki, nuxalılar iyun ayınadək bir qayda ilə dolanarlar. Və bir də bu 200 min manat pul veriləcək fəqirlərə, azarlılara, aclara və qeyrilərinə. Amma hökumət qulluqçularına verilməli olan 8 milyon yemişə və dadlı şeylərə veriləcəkdir. Nuxa üçün veriləcək inanə zəruri şeylərə sərf olunacağından bunun borc təriqi ilə deyil, ianə surətilə buraxılmasını təklif edirəm.

**Aslan bəy Qardaşov** - Bu pulun ianə surəti ilə verilməsi barəsində komissiyada dəxi məsələ qalxdı. Lakin layihə müzakirə olunarkən qərara alındı ki, borc surəti ilə verilsin. Çünki ianə surətinə versək, qeyri-şəhərlərə ianə etməyə yol açılar. Bir də səhiyyə nəzarəti tərəfindən bu xüsuslarda böyük və vase qanun layihəsi tənzim edilərək daxil olubdur ki, həmin layihədə müsri xəstəliklər barəsində böyük tədbirlər görülür. Layihəyə görə Nuxa şəhərində də xəstəliklər ilə mübarizədən ötəri baraklar açılacaq, sanitarnı tədbirlər görüləcəkdir. [380 - 381] Hər halda komissiya təklif edir ki, borc təriqi ilə faizsiz verilsin.

**Sədr** - Bu barədə kim danışmaq istəyir. Danışmaq istəyən yoxsa, səsə qoyuram. Daxiliyyə nəzarətinin Nuxa şəhəri üçün 200 min rublə faizsiz pul buraxılması təklifini komissiya bilatəğyir və təbdil qəbul etmişdir. Bu surətlə layihəyə görə xəzinə dövlət vəsaiti nəqdiyyəsindən bila faiz Nuxa şəhəri idareyi-bələdiyyəsinə əmrazi-sariyyə ilə mübarizədə bulunması üçün 200 min manatlıq borcun verilməsi və məzkur idareyi-bələdiyyənin işbu borcu 1920-ci sənə miladiyyəsindən, bədə ilə hər sənə müsavi hissələr ilə, 4 sənə zərfində xəzinəyə verilməsi üçün kəndisini məcbur edilməsi təklif olunur.

Hər kəs bu layihəni komissiyon qəbul etdiyi kimi qəbuluna! Tərəfdar isə əlini qaldırsın. (Əllər qalxır.) Deməli, əksəriyyət ilə qəbul olunur.

Novbədəki məsələ, zabit namizədlərinin maaş miqdarını müəyyənedici qanun layihəsidir. Dokladçi Qara bəy Qarabəyovdur.

**Qarabəyov** - Keçən dəfə hərbiyə naziri tərəfindən varid olan hərbiyyə nəzarəti büdcəsi maaşına baxılanda zabit namizədlərinin maaşı qələmdən düşmüşdür. Yəni büsbütün xatirədən unudulmuşdur. Əsasən, hərbiyyə nəzarətinin büdcəsi qəbul edilmişdir. Zabit namizədləri maaşı məsələsi o qanuna əlavə olaraq təklif olunur ki, zabit namizədləri üçün ayda 800 manat maaş təyin edilsin, komissiya da bu məsələyə baxıb qəbul etmişdir. Keçən layihədə zabitlərə 1000 rublə maaş təyin edildiyindən komissiya bunlara, yəni zabit namizədlərinə 800 manat məvacib verilməsini təklif edir.

**Sədr** - Danışan yoxsa, səsə qoyuram. Hər kəs bu layihəni, yəni zabit namizədlərinə komissiyonun qərarı üzrə 800 rublə məvacib verilməsinə tərəfdar isə əlini qaldırsın. (Əllər qalxır). Deməli, əksəriyyət ilə qəbul olunur.

**Sədr** - Növbədəki məsələ etimadnamə komissiyonunun məruzəsidir. Söz etimadnamə komissiyonunun sədri Şəfi bəy Rüstəmbəylinindir.

**Rüstəmbəyli** - Ötən səfər Ərəş uyezdi nümayəndələrinin seçki protokolları düzgün olmadığından etibarnamələri geri qaytarılmışdır. İndi haman uyezdən iki nəfər şəxs — Muxtar Əfəndizadə və Əşrəf bəy Tağıyev seçilmişlərdir. [381 - 382] Orada Milli Komitə olmadığından kənd cəmiyyət nümayəndələri köhnə qayda ilə bir yerə yığılıb ədliyyə məhkəməsi sədrinin təhtisədarətində qanun üzrə seçilmişlərdir. Etimadnamə komissiyonu bunların seçki protokollarına baxıb düz olduğu üçün (Ərəş) uyezdi nümayəndələrinin parlament tərəfindən qəbul olunmalarını təklif edir. İkinci, Zəngəzur uyezdindən Əhməd bəy Ağayev və Ələkbər bəy Xasməmmədov parlament üzvü intixab edilmişlərdir. Bunların seçki protokolları düz deyildi. Əvvəla, onların seçki protokollarının surəti (komissiyası) göndərilmiş idi. Bundan əlavə milli komitə üzvləri və katib tərəfindən imza olunmamış idi. Buna görə haman protokollar geri göndərilmişdir ki, uyezdin naçalniki yenidən seçki icra etdirsin. Məlum olduğu üzrə Ələkbər bəy Xasməmmədov istintaq məhkəməsi sədri təyin edilib, hökumət qulluğuna getdi. Ələkbər bəy parlamentdən çıxmış olduğu üçün yalnız Əhməd bəy Ağayevin məsələsi qalır. Sonra Zəngəzurdan Cəmil bəy Sultanov nümayəndə intixab edilib göndərilibdi. Etibarnamə komissiyonu Əhməd bəy Ağayev ilə Ələkbər bəy Xasməmmədovun prtokolları düz olmadığından rədd etməyi təhti qərara aldı. Cəmil bəy Sultanovun etibarnaməsi dürüst və seçki qanunu üzrə olduğundan etibarnamə komissiyonu qəbulunu parlamentə təklif edir. Və qərara almışdır təvəqqe etsin ki, Zəngəzurdan ikinci bir nümayəndə göndərilsin.

Üçüncü ixtilaflı bir etimadnamə vardır ki, o da Şamaxı uyezdindən bir neçə mirski priqovor ilə intixab olunmuş Şirin bəy Səfərəlibəyovdur. Qəza kəndləri bir yerə toplanıb, bir qətnamə çıxarmamışlar. Ancaq, hər kənd parça-parça öz mirski priqovorlarını göndərmişlərdir. Etibarnamə komissiyonu qərar qoymuşdur ki, fevralın 7-nə kimi yeni və qanuni protokol göndərilməsi tələb edilsin. Vaxt keçib,

Qanun üzrə etimadnamə gəlmədiyindən komissiyon son iclasında Şamaxı uyezdindən bir iümayəndə intixab olunmasını təklif etməyi təhti-qərara almışdır. Erməni milləti nümayəndələrinin intixabnamələri indiyə qədər gəlmədiyindən etibarnamə komissiyonu bu məsələyi hələlik açıq buraxır.

Etibarnamə komissiyonu bu məsələlərin parlament tərəfindən qəbul olunmasını təklif edir. [382 - 383]

**Sədr** - Həmin məruzə barəsində kim danışmaq istəyir? Söz istəyən yoxdursa, səsə qoyuram. Etibarnamə komissiyonun məruzəsi üç hissədən ibarətdir. Əvvəla: Ərəş qəzasından iki üzv Muxtar Əfəndizadə və Əşrəf Tağızadə intixab olunmuşdur. Hər ikisinin etibarnaməsi düz olduğundan etibarnamə komissiyonu təsdiqini təklif edir. Etiraz yoxsa, qəbul olunur. Qaldı Zəngəzur qəzası. Zəngəzur qəzasından Ələkbər bəy Xasməmmədov ilə Əhməd bəy Ağayevin etimadları dürüst deyildir. Etimadnamələrdə imzalar olmadığından və başqa bir neçə səbəblərə görə bu etimadnamələr qəbul olunmurlar. Bu məlum olduğuna görə Ələkbər bəy dövləti qulluğa getmişdir. Əhməd bəy Ağayevin də etimadnaməsi qəbula keçmir. Zəngəzur uyezdindən Cəmil bəy Sultanov intixab edilib, etimadnaməsi düz olduğundan qəbul edilməsi təklif olunur. Zəngəzur uyezdindən ikinci bir üzvə də ehtiyac vardır.

Hər kəs etimadnamə komissiyonunun Zəngəzur qəzası haqqındakı rəyini bu cür qəbul edirsə, rica edirəm əlini qaldırsın. (Əllər qalxır). Deməli, əksəriyyət ilə qəbul olunur. Zəngəzurdan bir nəfər də intixab olunmalıdır.

Şamaxı qəzasından Şirin bəy Səfərəlibəyov seçilmiş, fəqət etibarnaməsi dürüst olmadığından geri qaytarılmış və yenidən başqa bir nümayəndə intixabı təklif edilmiş idi. İndiyə qədər seçki olmamışdır. Ona görə bu məsələni səsə qoymuram.

Növbədəki məsələ yollar və qara yollar, onların təmirat və inşasının təriq və məabir nəzarəti ixtiyarına verilməsi haqqındakı layiheyi-qanuniyyədir. Söz məruzəçi Şəfi bəy Rüstəmbəylinindir.

**Şəfi bəy** - Rusiyanın köhnə qanunu ilə cəmi qara yolları daxiliyyə nəzarətinin ixtiyarında idi. Bu yolların çoxunu camaat özü qayırır və təmir edirdi. hal-hazırda isə camaatın əski vaxtındakı kimi halı və vəziyyəti müsaid deyildir ki, hökumətə kömək etsində yollar qayrılsın. Hökumət bunu nəzərə alaraq və Azərbaycan daxilindəki yolların azlığını və bu azlıq nisbətində əhaliyə lüzumu olduğunu hiss edərək bütün yolların bir nəzarət öhtəsində bulundurmağını münasib bildi. Bunun üçün də bu yollar ilə daha ziyadə əlaqə və məcburiyyəti, yolların təmir və inşasında daha ziyadə məharət və vəsaiti [383 - 384] olan təriq və məabir nəzarətinə verməyi təhtiqərara alıb, bu xüsus üçün bir qanun layihəsi təklif edir. Bu layihə mocubincə Azərbaycan daxilindəki bütün yollar təriq və müabir nəzarəti təhti idarəsinə keçir. (Oxuyur.) Bu qanun qəbul edildiyi təqdirdə işlərin əmələ gəlməsi və yolların idarəsi üçün nəzarət tərəfindən bir də ştat təklif olunur. Deməli, bu ştatlar altı yerdə olacaq. Yəni quru yollarını idarə üçün altı stansiya olacaq. (Burada bu ştat əfradına veriləcək məvaciblərin rəqəmini oxuyur.)

Bu da quru yolları üstündə olacaq məmurların məvacibidir. İşdə bu layihəyi-qanuniyyə komissiyası ətraflıca tədqiq etdikdən sonra bir neçə təshih ilə qəbulunu təklif edir. Birinci, təzə qanun nəşr edildiyi tarixdən etibarən köhnə rus qanunları ləğv olunmuş hesab edilir və bir də dəmir yol nəzarətinin 668 №-li və 5-ci proqramının 2-ci cildi mətnindəki yolların daxiliyyə nəzarəti əmrinə tabe qismini bəyan etmiş olan maddə dəxi rədd olunsun. Üçüncüsü isə komissiyondan bir neçə üzvlər bəyan edirlər ki, bu ştat azdır, bu səbəblə müvəqqəti götürülmüşdür. Və bir də məvacibləri halhazırda olan qulluqçuların məvacibləri ilə mütənasib surətdə təyin edilmiş olduğundan ümumi təzyidi-maaş olduğu zaman bunların məvacibləri ümumi üsul ilə artırılmalıdır.

**Soltan Məcid Qənizadə** — Rusiyadakı qanun üzrə bütün quru yollar daxiliyyə nəzarətinin idarəsində idi, Nəzarət bu yollara xərc etmək üçün təxsis etdiyi pulları məmurlar xüsusi ciblərinə qoyar, yolların təmiratını sırf camaatın üzərinə yükləyərək işlədirlərdi. Oylə zaman olurdu ki, axırda camaat getmək istəməz və hətta getməz idi. Bunun barəsində bir çox şikayətlər vaqe olur, yıxılan və pozulan yollar uzun zaman təmir olunmazsa da işlər cığırından çıxar, mürur və ibur azalardı və əhali çox-çox məşəqqət çəkir idi. Əlbəttə, bu bizdə olmayacaqdır. Ştat ədalətli olacaqdır. Ştat üçün lazım gələn pul buraxılacaqdır. Amma? Hansı nəzarətə buraxılsın. Daxiliyyə, yoxsa təriq və məabir nəzarətinəmi? Bu xüsusda bir az izah etmək lazımdır. Məncə yolu tikməkdən ziyadə saxlanması müşküldür. Yəni mövcud yolları təmirdən daha ziyadə pozulmamasını təmin etməkdir. Əksər mövsümlərdə yağışlar yağar, sel gələr, körpü uçar və bu pozuqluqları təmir etmək üçün [384 - 385] çox qüvvə lazımdır. Yol pozulduğu kimi haman adamlar çağırıb, yolu təmir etmək və düzəltmək icab edər. Yola həmişə diqqət lazımdır. Mən zənn edirəm ki, bu işləri dəmir yol nəzarəti vaxtında bacarmaz, zira dəmir yol nəzarəti bu yerlərdən çox uzaqlardadır. Biləks bu qara yolların işi daxiliyyə nəzarətinə yavuqdur. Bu məbləğ gərək dəmir yol nəzarətindən götürülüb, daxiliyyə nəzarətinə verilsin, yəni quru yolların ştatı üçün götürülmüş təxmini 700 min rublənin dəmir yol nəzarəti ixtiyarına verilməsi yuxarıda ərz etdiyim səbəblərə görə bir nətica verməyəcəkdir. Dediyim odur ki, o məbləğ gərək daxiliyyə nəzarəti ixtiyarına verilsin və quru yollar da daxiliyyə nəzarəti idarəsində olsun.

**Vəkilov** ("Müsavat") - Şübhəsiz ki, bu şosse yolları və araba yolları Rusiyanın daxili vilayətlərində zemstvo idarəsi əllərində idi. Ümidvaram ki, Qafqasiyada da zemstvo idarələri təşkil olunar və bu yolları ən iyi bir surətdə idarə edər. Bununla belə məişət də tələb edir ki, biz də Zemstvo idarələri təşkil edək. Fəqət, zemstvo təşkilatı meydana gələnə qədər bu yolları müvəqqəti surətdə təriq və məabir nəzarəti ixtiyarına verilməsinə tərəfdarız. Deyirlər ki, bu yolları təriq və məabir nəzarətindən ziyadə daxiliyyə nəzarəti ixtiyarına vermək yaxşıdır. Amma nəzərimcə, təriq və məabir nəzarəti ixtiyarına vermək yaxşı olar, texnika cəhətindən yol işinin təriq və məabir nəzarətinə çox münasibəti vardır. Bundan əlavə bir para vəzifələr də vardır ki, onlar da meydandan götürülür. Məsələn, müvəqqəti olduğundan yolların hansı bir nəzarət ixtiyarına verilməsinin bizcə o qədər əhəmiyyəti yoxdur. Əsasən isə bu məsələnin Zemstvoya aid olduğu rəyindəyiz. Nəzərimizi cəlb edən bir məsələ vardır ki, o da bu vaxta qədər cəm edilən Zemstvo vergiləridir. Bilinmir, bu yollar təriq və məabir yollara nəzarəti ixtiyarına keçsə, əcaba bu pullar yollara sərf olunacaq ya yox ? Biz təklif edirik ki, Zemstvo vergiləri bu yollara sərf olunsun və Zemstvo təşkil edildikdə bu məbləğ Zemstvoya verilsin.

**Sədr** - Söz Camalbəyov Qasımbəyindir.

**Camalbəyov** ("Hümmət") - Möhtərəm əfəndilər! Şose yollarının bir böyük mənası olduğu, əlbəttə, hamımıza məlumdur. Yollar nə qədər gözəl olsa, camaatın şəhər ilə əlaqəsi daha [385 - 386] yaxşı olar. Bunu bilməlisiniz ki, Rusiyanın köhnə qanununda bu yolların təmiratı həmişə kəndli əhalinin boynunda idi. Kənddə müəllim olduğum zaman yaxşı yadıma gəlir ki, kəndliləri nə qədər zülm ilə qamçılaya-qamçılaya yığıb, yol təmiratı üçün işə aparırdılar. Ağanın əvəzindən nökər gedirdi. Ağa da nökərin əvəzində atasını və ya anasını gətirib qapısında işlədirdi. Bütün bu yolların təmiratı, həqiqətən ərz edirəm, gözümün qabağında olmuşdur. Özümdən demirəm. Camaatın boynunda idi. Bu işləri camaatın boynuna yıxan polis idi. Və bu iş polisin əlində idi. Məəttəssüf, indiki polis də keçmiş polisdən geri durmur. Bu işin polis əlində qalması tərəfdarı olmayın. Biz buna inanırıq ki, bu polis ki, var ağanın evində nökərin əvəzinə atasını və ya anasını işlətməyə yol tapacaqdır.

Ona görə bu yollar vergidən hasil olan məbləğ verilən idarəyə verilməlidir. Yolların mükəmməl surətdə qayrılması və dəmir yol idarəsinə keçməsinə etiraz etmiriz. Lakin bu və buna aid ümumi işlər Zemstvo işləridir. Demokratik əsaslar üzərinə tezliklə gərək zemstvo təşkilatı vücuda gətirilsin. Hökumətimizin gündə belə qanunlara tək-tək keçirməkdən çəkinmir, vaxt tapmır ki, Zemstvo təsisinə şüru etsin, bu nə daxiliyyə nazirinin işidir, nə də təriq və müabir nəzarətinin. Bu nöqteyi-nəzərdən Zemstvonun tezliklə təsisi və işin ona verilməsi arzusundayıq. Təəccüb edirəm, "İttihad" firqəsi kəndçi tərəfdarı olduğu halda, necə cürət edib bu yolların polis əlində qalmasını təklif elədi. Bu sözləri deməkdə məqsədimiz budur ki, həmişə deyirik, gərək demokratik əsası üzrə düzələcək idarələr tezliklə təşkil edilsinlər. Biz tək-tək qanunu keçirmək əleyhinəyik. Tək-tək qanun keçirməyə vaxt tapırlar, amma o idarələri çağırmağa vaxt tapmırlar. Biz yolların yol vəziri öhtəsinə keçməsinə etiraz eləməyib, tezliklə Zemstvo idarələrinin təşkilini və bu yolların zemstvo idarəsi ixtiyarına verilməsini tələb edirik. Ümid edirik, təriq və məabir vəziri də ağanın evində nökərin əvəzinə ata-anasını işləməsinə razı olmaz. (Alqış).

**Əfəndizadə** ("Əhrar") - Yollar təmir edilən zaman camaata nə qədər zülmlər edildiyi barəsində əvvəlki natiq məlumat verdi və əhalinin əhvalının ağırlığını təsvir etdi. Bunu [386 - 387] ancaq camaat məişətinə yaxın olan adamlar yaxşı bilirlər. Məsələn, Ləki ilə Ağdaş arasındakı şosse yolunu götürək. Bizdə Zemstvo idarəsi hərçəndi yoxdur, amma məzkur Zemstvo pulu ilə saxlanılırdı və hökumət məmurları yayın istisində, qışın soyuğunda cəbrən [kəndliləri] aparıb o yollarda işlədirdilər. Ancaq hər kəs rüşvət versə biyar deyilən bu zəhmətdən xilas ola bilərdi. İndi yenə bu məsələ qalxdıqda biz onun tərəfdarıyıq ki, bu yollar təriq və məabir nəzarəti təhti idarəsinə verilsinlər, çünki bizdə hələ Zemstvo yoxdur. Bu zamanədə isə yolların təmirinin böyük əhəmiyyəti var. Ələlxüsus ərzaq daşınması cəhətindən bu məsələ mühüm bir məsələdir. Və biz ümidvarıq ki, təriq və məabir nəzarəti bu işə yaxşı diqqət edəcəkdir. Diqqət və əhəmiyyət verəcəkdir.

**Məlikaslanov** (Təriq və müabir naziri) - Sabitdə yalnız dəmir yolları deyil, dəniz və çay yolları da, həmçinin dövlət əhəmiyyəti olan yollar da təri və məabir nəzarətinin təhti idarəsində olurdu. Bu surətlə şose və sair qara yollar iki qismə bölünərək, dövlət əhəmiyyəti olan birinci qismi təriq və məabir nəzarəti təhti idrəsində olurdu. İkinci qismi isə Zemstvo ixtiyarına verilirdi. Qafqaziyada zemstvo idarələri olmadığından ikinci qism yollar daxiliyyə nəzarətinin təhti idarəsində idilər. Azərbaycan ərazisində irəlicə dövlət əhəmiyyətli hesab olunan yol demək olar ki, bilmərrə yox idi. Ancaq bir neçə verslik xətti-sövqəlyeyşin əhəmiyyətini hayiz hesab olnurdu. Amma şimdi məmləkətimiz daxilindəki yolların bir çoxu Azərbaycan üçün dövlət əhəmiyyəti kəsb etmişdir. Ona görə yollarımızı iki qismə ayırmalıdır; dövləti yollar və zemstvo yolları. Zemstvo barəsində çox işlər görülmüşdür və ümidvar olmalıdır ki, onun təsisi haqqında lazımi tədabir ittixaz ediləcəkdir. Fəqət, Zemstvo idarələri təsis edilənədək gözləmək olmaz. Yolların təmiri elə bir mühüm məsələdir ki, təxirə salmaq mümkün deyildir. Ona görə hökumət bu rəyə gəlmişdir, bütün yollar müvəqqəti olaraq təriq və məabir nəzarəti təhti idarəsinə verilsinlər, bu şərtlə ki, Zemstvo idarələri təsis edilən kimi Zemski yollar ayrılıb Zemstvo müəssisələri ixtiyarına tapşırılsınlar. Burada Soltan Məcid Qənizadə deyir ki, təriq və məabir nəzarəti qəzalar və köylərə, camaat həyatına o qədər yaxın deyildir. Bu cavabən deyirəm ki, yolları idarə etmək üçün altı naçalnik təyin olunacaqdır və məzkur naçalniklər əyalət mərkəzlərində əyləşəcəklərdir, bu surətlə də camaat ilə yaxın əlaqə və rabitədə bulunacaqlardır. Yolların təmiri üçün camaatı işlətmək məsələsinə gəlincə, hökumət bu işi demokratik hesab etmədiyindən qərar vermişdir ki, camaatı pulsuz işlətməyərək, yolların təmiri və sair xidmətlərə dövlət xəzinəsindən muzd verilsin. Zemstvo idarələri təsis edildikdən sonra da məzkur muzdlar zemstvo və dövlət pulundan veriləcəkdir.

Qanun səsə qoyularaq əksəriyyəti —ara ilə qəbul olunur.

Qanun budur:

1. Azərbaycan quberniya müəssisələri təhti-idarəsində bulunan ümum şosse və sair qara yollarını dövlət əhəmiyyəti hayiz tələqqi edərək, məzkur yolları və onlara baxan idarə və məmurları təriq və məabir nəzarəti təhti idarəsinə vermək lazımdır.

2. Daxiliyyə nəzarəti tərəfindən yolların inşa, təmir və saxlanması məqsədi ilə 1919-cu il üçün istənilmiş kredit və həmçinin 1918-ci ilə də şamil edilmiş və 1919 sənəsində qüvvədə qalmış olan 1915-1917 sənələri Zemstvo kredit smetasını təriq və məabir nəzarəti binaküzarlığına verməlidir.

3. Daxiliyyə nəzarətinin smeta və təklifi ilə buraxılmış kreditlər və 1-ci maddədə göstərilən yollara xidmət məmurlarının təriq və məabir nəzarəti binaküzarlığına keçirilməsi məsələlərinin təfsilat və cüzziyyatı təriq və məabir naziri ilə daxiliyyə nazirinin etilafına mühəvvəl etməlidir.

4. Bu qanun layihəsi mocubincə təriq və məabir nəzarəti təhti idarəsinə verilən yolların məmur və xidmətçiləri heyəti təsdiq edilməlidir.

Ləvayehi-qanuniyyə komissiyası bu layihəyə bir maddə dəxi əlavə etmişdir ki, haman maddə mocubincə məzkur yolları daxiliyyə nəzarəti təhti-idarəsinə tabe etmək haqqındakı köhnə qanunlar dəmir yol nizamnaməsinin 665-ci və sair bəzi maddələri və məcmi-qəvaimin 2-ci cildindəki bu xüsusa aid qanunlar ləğv edilirlər. [387 - 388]

**20 min rublə təxsisi**

**Sədr -** Növbədəki məsələ məclisi-müəssisan intixabı qanunnaməsinin təbi üçün 20 min rublə buraxılmasıdır. Söz məruzəçi Əhməd Cövdət əfəndinindir.

**Əhməd Cövdət -** Əfəndilər! Məlumunuzdur ki, gələcək Məclisi-Müəssisan əsaslarını hazırlamaq üçün bir komissiyon vardır. Biz dördgözlə bəkləyiriz ki, bu komissiyon işini bitirib seçkilərə şüru edilsin və Məclisi-Müəssisan tezliklə çağırılsın. Məclisi-Məbusanımızın camaat arasında çətin bir mövqedə olduğu da hamıya məlumdur. Buna görə Məclisi-Müəssisan intixabları qanunu hazırlayan komissiyon indi işini bitirmişdir. Komissiyon qanunnaməsinin tərcüməsi və təbi üçün 20 min rublə pul lazımdır. İndi həmən komissiyon Məclisi-Məbusanə müraciət edib, iyirmi min manat istəyir və bu barədə də böylə bir kağız yazmışdır:

***"Azərbaycan Məclisi-Məbusanın Divani-Rəyasətinə.***

Məclisi-müəssisan intixabları qanunu tərtib edən komisyon layiheyi-qanuniyyənin ilk qiraətini bitirmişdir. Məzkur layihənin tərcüməsi əzaya paylanmaq, mətbəədə təb olunacaq əsli hazırlatmaq üçün komissiyonun qərarına təbəi Divani-Rəyasətə müraciətlə irəlidə məclisi-müəssisan intixablarına sərf olunmaq üçün ayrılacaq məbləğ hesabına iyirmi min rublənin təhti idarəmdə bulunan komissiyon idarəsinə verilməsi üçün məclis hüzurunda təşəbbüsdə bulunmağımızı rica eylərəm.

***Komissiyon rəisi Məmməd Əmin Rəsulzadə."***

Divani-Rəyasət həmən kağızı büdcə və maliyyə komissiyonuna göndərmişdir. Təbiidir ki, komissiyon da qəbul etmişdir. Komissiyon bu barədə böylə qərara gəlmişdir:

Məclisi-Məbusan maliyyə və büdcə komissiyonunun 11 mart 1919-cu il tarixli iclasında Məclisi-Müəssisana intixab komissiyonuna çıxardığı qanunları təb və nəşr etmək üçün iyirmi min rublə buraxılması müzakirə olunaraq qət olundu:

Məclisi-Məüssisana intixab komissiyonunun tələb etdiyi iyirmi min rublə məzkur komissiyona Məclisi-Müəssisana intixab məsarifi hesabına olaraq pişin buraxılsın.

Zənn edirik ki, istənilən min manat buraxılmalıdır, tainki tezliklə Məclisi-Müəssisan dəvət olunsun. Bu məbləğin [389 - 390] buraxılmasının parlament tərəfindən də qəbul olunmasını təklif edirik.

**Sədr -** Bu barədə danışmaq istəyən yoxdursa, səsə qoyuram. Maliyyə-büdcə komissiyonu təklif edir ki, Məclisi-Müəssisan intixabı hazırlayan komissiyon ixtiyarına müəyyən məqsəd və qanunnaməni tərcümə və təbi üçün iyirmi min manat buraxılması tərəfdarıdırsa, rica edirəm əlini qaldırsın. (Əllər qalxır). Deməli, müttəhidil-qövl qəbul olunur. Tənəffüs elan edirəm. Lakin ondan əvvəl burasını elan edim ki, müdafeyi-komissiyona Xosrov Paşa bəy Sultanovun yerinə Behbud xan Cavanşir namizəd göstərilir. Etiraz yoxdursa, qəbul olunur. Erməni komissiyonundan təşriyyə komissiyonuna təklif olunur.

**Əhməd Cövdət -** İcazə veriniz.

**Sədr -** Söz Əhməd Cövdət Pepinovundur.

**Əhməd Cövdət -** Məlumdur ki, müdafeyi-milliyə komisyonuna seçkilər şəxsən qəbul edilmişdir. Bütün parlament fraksiyaların nümayəndələrindən təşkil edilmişdir. Buna görə də...

**Sədr** (dayandırır) - Bu məsələ Divani-Rəyasətdə müzakirə edilmişdir. Hərgah nümayəndəniz iştirak etməmişsə, bu sizin öz günahınızdır.

**Əhməd Cövdət -** Mən orasını deyirəm ki...

**Sədr -** Məsələ keçib.

**Əhməd Cövdət -** Mən söz almışam...

**Sədr -** Mən elə bildim siz başqa şey haqqında danışmaq istəyirsiniz. Tənəffüs elan edirəm. (Tənəffüs elan olunur).

**Tənəffüsdən sonra.**

**Sədr -** Məclisə davam ediriz. Tənəffüsdən qabaq komnssiyonlara namizədlər barəsində təkliflər var idi. Onlardan biri müdafieyi-milliyə çəmiyyətinə bitərəflər tərəfindən Cavanşir Behbud xan təklif olunubdur. Mən o məsələni səsə qoymuşdum. Mən etiraz varmı, deyə soruşduqda cavab verən olmadı. Namizad qəbul olundu. Divani-Rəyasət əzasından Əhməd bəy Pepinov söz istədi, lakin danışanda məlum oldu ki. keçmiş məsələ barəsində danışır. Ona görə sözünü saxladım. Mənim bu hərəkətimə Əhməd etiraz etdi. Mən onun etirazını haqlı [390 - 391] hesab etmədim. Əgər istəsə etirazını təhrirən verər, işə əlavə edərik. Keçirəm növbədəki məsələyə: Gömrük idarəsinin təğyir və təbdili barəsində layihədir. Söz dokladçik Şəfi bəy Rüstəmbəyovundur.

**Şəfi bəy -** 21 oktyabr 1918-ci ildə hökumət mərkəzi maliyyə idarəsi təşkil edəndə maliyyə naziri öz idarəsində gömrük işlərinə baxmaq üçün iki məmur və iki qulluqçu təyin etmişdi. 19 avqustda hökumət bir də mərkəzi gömrükxana idarəsini təsdiq etmişdi. İndi bu idarələr iki olur. Maliyyə idarəsi iki idarəyi lazım cörmür və təklif edir ki, bunların əvəzində maliyyə nəzarətində bir idarə təşkil olunsun və hər cür gömrük işləri bu idarəyə verilsin. Bir də Bakıdakı gömrük-xananın Rusiyadan gəlib İrana gedən mallara baxır idi, bu idarədə də

iş azdır. Təklif olunur ki, bu idarələri ləğv edib, əvəzində maliyyə nəzarətində bir şöbə açılsın. Ona görə məzkur nəzarət bu qanun layihəsini təqdim edir (oxuyur). Komissiyon öz tərəfindən bu layihənin qəbulunu təklif edir.

**Sədr** - Söz Aşurov Ağanındır.

**Ağa Aşurov** - Bu məsələ barəsində mən iki cəhətdən danışmaq istəyirəm. Biri əsas üzrə, burada qanun layihəsi göstərir ki, maliyyə nəzarətində bir reform olsun, iş ayrı cür aparılsın. Əvvəla, gərək bu idarə maliyyə nəzarətində olmasın. Tarixə baxsaq görərik ki, üç yüz il bundan qabaq Rusiyada gömrükxana təsis edildikdə bu idarə ticarət və sənaye nəzarətində olub. Lakin (Vitte) bütün ümumi-idarəni əlinə aldığı zaman onu da öz əlinə, yəni maliyyə nəzarətinə keçirtdi. Gömrük ilə hökumət vergilərini artırmaq bivasitə vergidir ki, buna da siz tərəfdar deyilsiniz. Bir də məsələyə iqtisadi nəzərlə baxılmalıdır. Heç vaxt gömrükxana idarəsi maliyyə nəzarətində olmamalıdır. Hətta Zaqafqaziya komitəsində bu məsələ belə idi. Bizim hökumət təşkil olunanda bu idarə ticarət və sənaye nəzarətində idi. Bundan da mən bixəbərdim, çünki o zaman mənim təhti-idarəmdə iki nəzarət var idi. Ona görə 21 oktyabrda mən təklif etdim ki, bu idarə ticarət və sənaye nəzarətinə verilsin. O vaxt təklifim qəbul olunmayıb, gömrük işləri maliyyə nəzarətində qaldı. Hərçəndi, mən o vaxt sözümü dedim və indi də yenə deyirəm ki, bizim gömrükxana işlərimiz nə cür olsa da çox geridədir. Bir də natiqlərdən bəziləri buyurdular [391 - 392] ki, guya gömrükxana işləri azalmışdır. Mən buna inana bilmirəm. O zaman ki, biz Rusiyanın bir hissəsi idik, o zaman bir yol İrana gedirdi. O vaxt iş çox idi, indi hər tərəfdən sərhəddimiz açıq ikən necə ola bilir ki, iş az olsun, mən belə başa düşürəm ki, iş az deyildir. Yalnız işə baxan adam yoxdur. Poyluda bir gömrükxanamız var ki, oradan Gürcüstana mal gedir. Zaqatalada gömrükxanamız yoxdur. Dağıstandan gələn yumurtaya ora hökuməti əlli qəpiyə alır. Amma biz sərhəddi açıq qoymuşuq, kim nə istəyir aparır. Təkrar edirəm ki, gömrükxana bir Poyluda, bir də Bakıdadır. Mən təvəqqe edirəm komissiya bildirsin ki, bu barədə nə etmişdir. Və təklif edirəm gömrükxanalar öz yerində qalsın və lazım olan yerdə təzələri təşkil edilsin. Gömrükxanalar da maliyyə nəzarəti təhti-idarəsində deyil, ticarət və sənaye nəzarətində olsun. Məmurlara likvidasiya verib təzədən məmur tutmaq da nahaqdır. Mən təklif edirəm bu layihə qəbul edilməsin.

**Sədr** - Maliyyə barəsində kim danışmaq istəyir? Söz Rza bəy Qaraşovundur.

**Qaraşov** - Parlamentin keçən iclaslarından birində qərar qoyuldu ki, bu cür layihələr əvvəlcə fraksiyalara gəlsin. Bizim fraksiyamız bu layihəni almamışdır. Təklif edirəm ki, layihənin müzakirəsi təxirə salınsın, əvvəlcə layihə fraksiyalara verilsin, sonra parlamentdə müzakirə edilsin. Bundan əlavə belə görünür ki, bir neçə fraksiyalar da layihəni almamışlardır.

**Sədr** - Layihənin surəti fraksiyalara göndərilmişdir.

**Qaraşov** - Biz almamışıq.

**Sağdan** - Biz də almamışıq.

**Qardaşov** ("Əhrar") - Gömrükxana məsələsi əhəmiyyətli bir məsələ olduğundan və fraksiyalardan bir paralarına layihə çatmadığından "Əhrar" fraksiyası tərəfindən təklif edirəm ki, bu məsələ hələliyə müzakirə edilməyib qalsın.

**Sədr** - Məclisi-Məbusanın nizamnaməsinə görə belədir ki, layihə fraksiyalara getmiş və getməmiş də olsa parlament qərar qoya bilər ki, layihə müzakirə edilsin və ya götürülsün. Təklif var ki, layihə müzakirədən götürülsün. Hər kəs layihənin müzakirə olunmaması tərəfdarıdırsa, rica edirəm əlini qaldırsın. (Əllər qalxır). Deməli, layihə növbeyi-müzakiratdan [392 - 393] götürülür. Keçirik növbədəki məsələyə. Növbədəki məsələ 1918-1919 sənələr üçün vilayət və dairələr vergisi məhkəmələrinə intixab qəvaidi xüsusində layiheyyi-qanuniyyədir. Söz məruzəçi Şəfi bəy Rüstəmbəylinindir.

**Rüstəmbəyli** - Padşahlıq gəlir vergisinin 52 və 53-cü maddələrinə görə vergi uçastok idarələrinin üzvünü və onların yerini dolandıran şəhər idarələri və ya şəhər nümayəndələri şurası və uyezdlərdə isə Zemstvo idarələri intixab edirdi. O yerlərdə ki, Zemstvo yox idi, Azərbaycan daxilində 1918-ci ilədək qubernatorlar köhnə qanun ilə 10-cu şöbənin 3 və 4-cü maddələri möcubincə bir komissiya düzəldirdilər ki, vergi işlərini idarə edirdi. İndi Azərbaycan daxilində bu işlərə baxan bir idarə Zemstvo olmadığından maliyyə naziri təklif edir ki, haman qanun bir ilə qədər öz qüvvəsində qalsın. Və qubernatorların ixtiyarı olsun ki, əvvəlki kimi bu işlərə baxmaqdan ötəri uçastok quberniya komissiyonları təşkil etsinlər. Ona gorə maliyyə naziri belə bir layihə təklif edir:

1. Dövlət gəlir vergisi qanunlarının 10-cu şöbə 3-cü və 4-cü maddələrinin qüvvəsini (1916-cı il 26 apreldə 106 №-li 838 maddə hökumət binagüzarlıq və qanunlarının məcmui) Azərbaycan Cümhuriyyəti daxilində quberniya və uyezd zemstvo idarələri təşkilinə qədər uzatmaq.

2. 1919-cu il üçün quberniya və uyezdlərdə təzə gəlir vergisi məntəqələri təşkilində dövləti gəlir vergisinin 10-cu şöbə 3 və 4-cü maddələri mocibincə hərəkət edilməsinə icazə verilsin.

Maliyyə naziri təklif edir ki, bu qanun 1917-ci ilədək qəbul edildiyi kimi, 1919-cu ildə də qüvvədə qalsın.

**Sədr** - Məruzə barəsində danışmaq istəyən varmı? Danışmaq istəyən yoxdursa, son söz məruzəçiyə verilir.

**Rüstəmbəyli** - Bu qanun layihəsi komissiyonda müzakirə edilərkən Camalbəyov və Malxazyan belə rəy vermişlər ki, bu işlər hamısı Zemstvodan asılıdır. Bununla bərabər tələb etmişlər ki, tezliklə Zemstvo düzəlsin. Zemstvo olmasa vergilər məhəllində yaxşı yığılmaz. Tələb edirlər ki, hökumət Zemstvo təşkilatlarının tezliklə başa gəlməsinə böyük diqqət və əhəmiyyət versin. [393 - 394]

**Sədr** - Qiraət olunan layihəyi-qanuniyyəni gördünüz ki, komissiyon tərəfindən təshih və tağyir edilməyibdir. Ona görə layiheyi-qanuniyyəni eyni surətdə komissiyon tərəfindən təklif edildiyi kimi səsə qoyuram. hər kəs həmin qanun layihəsini komissiyon üzvlərinin Zemstvo arzuları ilə bərabər qəbul edirsə, rica edirəm əlini qaldırsın. (Əllər qalxır). Deməli, layiheyi-qanuniyyə əksəriyyət ilə qəbul olunur. Növbədəki məsələ Azərbaycan quberniya sənaye vergisi məhkəməsinin təşkili haqqında qanun layihəsidir. Söz məruzəçi Şəfi bəy Rüstəmbəylinindir. Rüstəmbəyli - 1919-cu ildə köhnə qanuna görə Bakı Vilayət nafiə komissiyonunun sədri Bakı şəhər qradonaçalniki olardı. Dövlət Dumasında və bir çox sairələrinin rəyləri buna idi ki, bu komissiyonun sədri kazyonnı palata müdiri olsun. Kazyonnı palata müdiri bu iş ilə əlaqədar olduğundan bu rəy rədd edilmiş idi. Bir neçə vaxtdan sonra kazyonnı palata vergilərin bir çoxuna baxmırdı, baxdıqca vergilər ancaq hökumətə böyük xeyri olan vergilər idi. Qeyri-xırda vergilərin şikayətlərinə isə uçastok vergi idarəsi baxırdı. İndi isə komissiyonun rəyi budur ki, kazyonnı palata müdiri vilayət təşkilatında rəis ola bilməz və məsələlərə ətraflı baxıla bilər. Ona görə maliyyə naziri bir belə layiheyi-qanuniyyə təklif edir:

1. Sənaye vergiləri Nizamnaməsinin davam edən qanunlarının 414, 416 və 417-ci maddələrinin (məcməi-qəvainin 5-ci cildi 1914-cü il təbi) təbdii və əlavəsi olaraq belə olsun.

413-cü maddə - (qeyd) vilayət sənaye vergiləri komissiyonunda neft aksizlərinin aksiz idarəsi müdiri üzvü sifətilə iştirak edir.

415-ci maddə - vilayət sənaye vergiləri komissiyonunda hər bir işi istintaq məhkəməsinin ümumi qətnaməsi ilə verilən şikayətlərdən başqa istintaq məhkəməsi müdiri sədarət edir. Fəqət, məzkur şikayət verildiyi halda şəhər rəisi sədarət edir.

417-ci maddə - vilayət vergiləri komissiyonun kargüzarlığı istintaq məhkəməsinin sənaye vergiləri işlərinə baxan şobəsi naçalniki ohtəsinə vagüzar olunur.

2. 1918-ci ildə vilayət vergisi komissiyonunun dəftərxanasına dövlət xəzinəsindən 500 rublə buraxılsın və hər il həmin [394 - 395] bu iş üçün maliyyə nəzarəti smetasına 3 min rublə daxil edilsin.

Bu qanun layihəsi ləvayehi-qanuniyyə komissiyonunda baxılıb komissiyon tərəfindən qəbul edilmişdir. Komissiyon həmin qanun layihəsinin qəbulunu parlamentə təklif edir.

**Sədr** - Layihə barəsində kim söz istəyir? Danışmaq istəyən yoxdursa, səsə qoyuram. Hər kəs qiraət olunmuş layihəyi-qanuniyyəni komissiyon qərarı ilə qəbul edirsə, rica edirəm əlini qaldırsın. (Əllər qalxır). Deməli, layiheyi-qanuniyyə əksəriyyət ilə qəbul olunur.

Novbədəki məsələ vergilər xüsusindəki şikayətlərə baxmaq üçün maliyyə nəzarətində ali bir məhəl olması haqqında qanun layihəsidir. Söz Şəfi bəy Rüstəmbəylinindir.

**Şəfi bəy** - Rusiya qanunu ilə vergilər qoyularkən bir ümumi idarə yox idi ki, şikayətlər o idarəyə edilsinlər. Bir nov şikayətlər var idi, onlara sud baxar idi, bir novü də var idi, polis administrasiya baxar idi. Padşahlığa aid boyük şikayətlərinə layihə tərzində əvvəlincidən mümtaz və mütəşəkkil heyətə həvalə olunurdu. Bu üç idarə təşkilatlarının başında müdir var idi. Üçüncü heyət vilayət naçalniki və qeyri-qubernski idarələr əzaları işlərinə baxar idi. hardakı axırıncı şikayətlərə baxılırdı, işdə bu idarədə olmadığına görə maliyyə naziri təklif edir ki, öz nəzdində elə bir idarə təşkil olunsun ki, onun şurası olsun. Bu şurada dövləti şikayətlərə baxılsın, bu işi özü yalnız ixtiyarına götürmür, gərək vergiçilər də bu məclisdə iştirak etsinlər, məhkəmə üzvləri də adi məsələlər müzakirəyə qoyulduqda dəftərxana müdiri və maliyyə şurasının üzvləri də dəvət olunsun, bu ali məhəlli idarəyə vergiçilərdən beş adam gəlməlidir. Bunlardan ikisi Gəncə və ya Bakı şəhər idarələrindən, bir nəfər sovet uyezdindən və biri də tiçarət və sənaye ittifaqı idarəsindən, bir də birja komitəsindən, deməli beş üzv də bu surətlə daxil olacaqdır. Yeni təşkil ediləcək idarə haqqında maliyyə naziri parlamentə belə bir layiheyi-qanuniyyə təklif edir. (Oxuyur). Bu layihə ləvazimi-qanuniyə komitəsində baxılıb bu surətlə təshih edildi. İndiyə qədər belə idarə yox idi. Şimdi isə açılıb. sozü gərək əlavə edilsin və bir də bu idarə rəisi əvəzinə üzvü yazılsın. İşdə bu iki [395 - 396] təshihiləvayehi-qanuniyyə komitəsi təklif və layihənin qəbulunu xahiş edir.

**Heybətqulu** ("İttihad") - Qanun layihəsində deyilir ki, məclisdə iştirak edəcək tacirlər ittifaqından fəqət yalnız Bakı tacirlər İttifaqından yazılıbdır. Azərbaycanın qeyri şəhərlərində bu ittifaq yoxmudur? Əlbət var. Onun üçün bu düz gəlmir. Yalnız Bakı tacirlər ittifaqından gələcək nümayəndə öz mühiti-ticarətindən xəbərdardır. O, öz mühitini müdafiə edə bilir. Özgə yerlərin ticarətindən xəbərdar olmadığı üçün onların haqqını müdafiə edə bilməz. Məsələn, Şəkidə alış-veriş başqadır. İpək və sairə alış-verişi vardır. Bakıda olan şeylər orada yoxdur. İşdə böyləlik ilə qanun layihəsi düz gəlmir. Ola bilir Gəncədə, Salyanda komitet olsun.

**Aslan bəy Qardaşov** - Qanun layihəsindən görünür o beş adam ki, şuraya daxil olacaqdır. Gərək intixab təriqi ilə olsun. Bakıdan və Gəncədən bu üzvlər ümumiyyətlə seçilir. Vergi vericilər tərəfindən, fəqət bunlar yalnız Bakıda və Gəncədə olmayıb, Azərbaycanın hər tərəfində Qarabağ və sair yerlərində çox olduğuna görə onların mənafeyini bu layihə ilə itiririk. İzahnamədən görünür ki, hər Zemstvoya oxşayan bir təşkilatdan nümayəndə olacaqmış, amma halhazırda belə idarə Bakıda və Gəncədə mövcud olmayıb, Zaqatala, Nuxa və qeyri şəhərlərdə Zemstvo idarələrinə oxşar şəhər idarələri mövcuddur. Bu adamlar o idarələr vasitəsilə seçilərək daxil ola bilərlər. Əks halda digər mühitlərdən vergi verənlər tərəfindən adam olmamazlıq haqlarına təcavüz deməkdir.

**Məmmədbəyov** ("İttihad") - Keçən natiq buyurdu ki, guya göstərilən təshih keçən layihələrdən ötəri idi...
**Sədr** (dayandırır) - Xeyr, xeyr elə demədi. Ali dairələrdən əlavə alçaq dairələr də var.
**Məhəmmədbəyov** (davam edir) - Bu idarə hər bir yerin özündə olacaq. hərgah maliyyə naziri bu idarəyə filan təşkilatdan, filan yerdən nümayəndə seçiləcək desə idi, mən təxsisat təklif etməzdim. Vəhal onki burada deyilir: bu idarə seçiləcək Bakı tacirləri ittifaqından və Bakı birji komitəsindən. Onda yazılmalı idi ki, maliyyə naziri qəbul ya təyin edir. Bakı tacirlər ittifaqından və Bakı birjasından. Seçki sözü olan yerdə cəmi əhalini nəzərə almaq lazım gəlir. Mən bunu deyirdim.
**Qardaşov** ("Əhrar") - Mən tamamilə qabaqkı sözümü geri götürüb Malxazyan dediyinə şərik oluram. Lakin bununla belə bunu deyirəm ki, bu vaxta kimi Qafqasiyada sudebni palata Tiflisdə olduğu üçün işlər Tiflisdə aparılırdı. Bizim Azərbaycanda sudebni palata yox idi. İndi açıldığına görə bu işlər ona vagüzar olunmalıdır.
**Rüstəmbəyli** - Əlbəttə, əgər Zemstvo olsaydı, iştirak edərdi. Yainki ayrı təşkilat var idi, o da iştirak edə bilərdi. Lakin bunlar yoxdur. Burada məsələlər qanun üzrə baxılacaq və nümayəndələrin bir o qədər köməyi olmayacaqdır. Ona görə yalız Bakıdan və Gəncədən beş üzv götürülmüşdür. Bir də özgə yerlərdən gəlmək çətindir. Komissiyon Zakataladan və qeyri yerlərdən üzv gəlməsinə əsasən etiraz etmir.
**Sədr** - Səsə qoyuram. Hər kəs layiheyi-qanuniyyəni komissiyonun təshihi ilə bərabər qəbul edirsə, əlini qaldırsın. (Əllər qalxır). Sayın! Rica edirəm əlinizi salmayasınız. Neçə oldu? Lehinə 33, əleyhinə kimdir? Əleyhinə səs verilmədi. Kim səs verməyib? Səs verməyən 10. Deməli, layiheyi-qanuniyyə qəbul olunur.
Növbədəki, poçta və teleqraf nizamnaməsinin 131 və digər maddələrinin ləğvi xüsusunda layiheyi-qanuniyyədir. Məruzəçi Camalbəyov və Malxazyan.
**Camalbəyov** - Möhtərəm üzvlər! Necəki məlumunuzdur poçta-teleqraf və bunun stansiyalarının idarə olunması və bunların nəzarəti hamısı vəziri daxiliyyəyə mühəvvəl idi. Bu qanun Rusiyada böylə idi. Ondan da bizə qalıb, biz də bu qanun ilə gedirik. Zamana ki, Azərbaycanda poçta vəziri var, əlbəttə ki, poçta-teleqraf məxsus olan işlər onu idarə etmək noqteyi-nəzəri ilə poçta-teleqraf vəzirinə tapşırılmalıdır. Bunun üçün də poçta-teleqraf vəziri bu işləri vəziri-daxiliyyəyə mühəvvəl edən bir neçə köhnə qanunların dəyişilməsini və yerinə əlahiddə qanunlar gəlməsini rica edir.
Qanunverici komissiyon bu işi Malxazyana həvalə etmiş idi. Və keçən günlərdə komissiya oz iclasında Malxazyanın izahatına baxıb bir səs ilə poçt-teleqraf vəziri tərəfindən olunan xahişi qəbul etdi ki, bütün poçta-teleqraf işi, stansiyaların [397 - 398] nəzarəti və maliyyə cəhəti poçta-teleqraf vəzirinin ixtiyarına keçsin - necə ki, qubernator daxiliyyə nazirinin agenti hesab olunur və bütün quberniyaya nəzarət edir, stansiyaların da maddi cəhətdən salamat qalıb gözəl surətdə yaşaması nəzarət nöqteyi-nəzarətində qubernator kimi stansiyalara gərək nəzarət etsin. Lakin işlərinə qarışmasın. Bu nöqteyi-nəzər ilə 131, 134, 137, 138, 153 və 155-ci fəsillərin büsbütün dəyişilməsi qəti surətdə təklif olunur. 131 və 138-ci maddələrdəki qubernatora ixtiyar vermişdi stansiyaları icarəyə versin, gərək bu surətlə dəyişilsin ki, vəziri-daxiliyyə ixtiyarından çıxıb, poçta-teleqraf vəzirinin ixtiyarına keçsin. Çünki daxiliyyə nazirinin poçta-teleqraf naziri işlərinə qarışmasına lüzum yoxdur. Beylə olmasa, heç poçt-teleqraf nəzarəti təşkili lazım gəlməzdi. Bu noqteyi-nəzərdən komissiyon əsas üzərinə poçtateleqraf nazirinin rəyinə şərik olub, 131-ci maddənin dəyişməsini təhti-qərara aldı. Bu işlər poçta-teleqraf vəzirinə aid olduğuna görə poçta-teleqraf vəzirinin ixtiyarı olsun ki, vəziri-daxiliyyə əli ilə təşkil olunmuş stansiya idarələrinə özünə tabe olan idarələrdən adamlar keçirsin. Qubernatorun ixtiyarında bir şey qalır ki, o da teleqrafın gözəl surətdə yaşamasını və işin qanun üzrə olub-olmadığını daxiliyyə naziri vasitəsilə poçta-teleqraf nazirinə yazır. Çünki quberniyada hər cür cəhətdən nəzarət onun ohtəsindədir. Bu cəhətə qanunverici komissiyon bu barədə öz fikir və əqidəsini göstərib təklif edir ki, poçta-teleqraf nazirinin layihəsini qəbul edəsiniz.
**Aslan bəy Qardaşov** - Bu qanun layihəsinin qəbulu lazımdır. Azərbaycan Cümhuriyyəti daxilində teleqraf işləri bu tərzdə olmalıdır. Xahiş edirik ki, türk dilində teleqraf yazıldığı kimi, türk hərfləri ilə də göndərilməsinə təşəbbüs eylənilsin.
**Səfikürdlü** (Poçta-teleqraf naziri) - Möhtərəm məbusların buyurduqları mətləb əlbəttə həll olunur. Mən əmr vermişəm türk dilində teleqraflar poçtxanaya verilsin və poçtxanada məmurlar qəbul etsinlər. haman türkcə olan teleqraflar türk hərfi ilə olmasa da, rus hürufatı ilə yazıb versinlər. Mən təvəqqe edirəm ki, bundan sonra ancaq türkcə yazıb verəsiniz. hərgah qəbul etməsələr, rica edirəm telefon ilə xəbər [398 - 399] verəsiniz. Milliləşdirmək məsələsinə mən daha yaxın oluram. Ələlxüsus, məmləkətimizin əksər camaatı fəhlə və zəhmətkeşlər olduğuna görə bunların lisanları da türkcədir. Mən nəzarətə gəldiyim andan bu xüsusları islaha çalışıram.
**Məmməd Əmin** - Mən istərdim söyləyim ki, nə qədər teleqraf verilməsi haqqında əmr verilmişsə də burada məsələnin iki cəhəti vardır: birisi rus hərfləri ilə yazılmış türkcə sözlər. Əgər bu surətlə əmr verilmişsə, bu da məqsədi tamamilə həll etməz. Rusca bilməyən adam yenə müşkülat çəkər. Çünki türkcə bu sözlər rusca yazılmışdır. Elə etməli ki, bu məsələnin həlli üçün poçtxanada xüsusi məmurlar olsun, rus hürufatı ilə yazılan türkcə teleqrafları haman orada türkcə yazıb sahibinə versinlər və türkcə yazılmış teleqrafı da qəbul edərək

müamiləyə qoysunlar. Bu xüsusda tədbir yoxsa və mümkün isə poçta-teleqraf naziri əmr versin, zira rus hərfləri türkcə teleqraf vermək camaatın ehtiyacını zail etməz.

**Aslan bəy Səfikürdlü** - Camaatın əksəri rusca bilmir. Bunun üçün əmr elədim türkcə teleqraflar qəbul olunsun. Məmməd Əmin əfəndi buyurdular ki, türkcə teleqraflar qəbul edilsin. Teleqrafistlər türkcə bilsinlər və məmur da, qulluqçu da türkcə oxuyan olsun. Mən yenə deyirəm teleqraf türk dilində yazılacaq və tel ilə veriləndə türkcə oxunacaq, böylə olanda məsələ aydın olur.

**Sədr** - Daha söz istəyən yoxmu? Yoxsa, mən səsə qoyuram. Hər kim komissiyonun qərarı üzrə layihəyi qəbul etmək tərəfdarıdırsa, əlini qaldırsın. (Əllər qalxır). Layihə əksəriyyət ilə qəbul edilir. Sosialistlər fraksiyası rəisi Ağamalov cənablarının bir sorğusu vardır. (Əhməd bəy oxuyur).

"Bakı əmələlərinə fevralın ikinci mislinin məvacibi verilmədiyindən bir çox dairələrdə əmələlər tətil etmişlərdir. Əmələ konfransında ingilis komandanlığının nümayəndəsi mister Valton bu xüsusda edilən suala cavab vermişdir ki, əmələlərə məvacib verilməməsinə səbəb Azərbaycan hökumətinin vaxtı ilə banka para yetirməməyidir. Biz hökumətdən sual ediriz ki, bu pullar nerədədir?

**Səslər** - Tərcümə ediniz.

**Sədr** - Qəbul eylədiyiniz nakaza görə sual axırda irad olunur. Bu sual münasibətilə izahat verməkdə sualı imza eyləyən [399 - 400] olmalıdır. Şimdi imza edən şəxs burada yoxdur. Hər nə qədər axtardım və hətta telefon etdirdim, yenə bulamadım. Əgər müsaidə versəniz sosialistlər fraksiyasından digər bir əza bu xüsusda izahat versin.

**Şəfi bəy** (yerindən) - Sorğu sahibi özü gərək vəkil eləsin.

**Əhməd bəy** - Doğrudur, nakaza görə Ağamalov özü izahat verməlidir. Nakaz bu gün qəbul olunmuşdur. Fəqət, burası var ki, bu məsələ də təxirə salınsa əhəmiyyəti itər. Mən təklif edirəm ki, sual barəsində izahat vermək bizim fraksiya üzvlərindən birisinə vaküzar edilsin.

**Sədr** - Bu təklif əleyhinə kim danışmaq istəyir? Səsə qoyuram. Hər kəs sorğuya yazandan başqasının danışmasını tərəfdarı isə əlini qaldırsın. Sayın neçədir? Ləhinə 11, əleyhinə 2, səs verməyən 10.

**Səslər** - Kvorum yoxdur, yox.

**Sədr** - Ola bilməz. Kvorum vardır, üç üzv var. Deməli, müsaidə verilir.

**Əhməd Cövdət** - Əfəndilər! Məlumdur ki, hər bir hökumətin can damarı maliyyə işləridir və puldur. Buna görə öz hökumətimizin, mədaxil və məxaricimizin nə halda olmasını bilmək bizim üçün maraqlıdır. Əgər bunu bilməsək maliyyə işlərimiz başqası əlinə düşərsə, can ilə baş ilə müdafiə edəcəyimizi iddia etdiyimiz istiqlaliyyətdə puç olar. Bütün bu zəhmətlərimizdən də bir şey olmaz. Məlumunuzdur ki, neft satılmayıb qaldığından, hökumət nefti geri götürüb fəhlələrə məvacib verməkdən ötəri neft mədənçilərinə para buraxılmasını təhti qərara almış idi. Lakin bu pullar fəhlələrə ingilis komandanlığı əli ilə verildiyindən elə bilirdilər ki, bu pulları ingilislər özləri verir. Azərbaycan hökumətinin xəbəri yoxdur. Deməli, həqiqətdə pulu Azərbaycan hökuməti verdiyi halda rəsmən ingilis komandanlığı vasitəsi ilə verilirdi. 10 gün bundan əqdəm ingilis komandanlığı elan elədi ki, pul ayın 12-də veriləcəkdir. 12-də dedilər ki, pul yoxdur. Çünki Azərbaycan hökuməti bon çap eləmir. Və Azərbaycan hökuməti ilə ingilis komandanlığı arasında bank məsələsi kimi ixtilaflı məsələlər vardır. Bu məsələ 2-3 gün belə keçdi. Fəhlələr isə bunu başqa cürə başa düşdülər. Araya bir tətil məsələsi də çıxdı. Fəhlələr ingilis komandanlığına protesto [400 - 401] olmaq üzrə tətil etmək istəyirdilər. İngilislər də ayın 12-də gözlənilən tətili pozmaq üçün pulu təxirə salırdılar. Lakin ayın 12 gəldi, əmələlər tətil elan etmədilər. İşdə aşkara çıxdı. Fəhlə konfransında ingilis nümayəndəsi mister Vilton dedi ki, tabel hazırdır. Ancaq bon hazır olmadığından Azərbaycan hökuməti pul verilməsini təxirə salmışdır. Fəhlələr Azərbaycan hökumətindən şübhələnib, fikirlərinə belə gəlib ki, bunu hökumət edir. Zənnimizcə bu böylə deyildir. Məsai naziri də elannaməsində göstərdi ki, bu işlər Azərbaycan hökumətinə məlum deyilmiş və bu vaxta kimi məsai nəzarətinə tabel hazırdır, pul verin deyə heç kəs müraciət etməmişdir. Hamısı ingilis komandanlığına müraciət edirdi. Çünki pulu məsai naziri deyil, ingilis komandanlığı verirdi. Məlum olduğu üzrə bu məsələ hökumət dairəsində də müzakirə olunurdu. Bu barədə hətta qəzetələr də yazırdılar ki, guya bazar günü Azərbaycan parlamentinin fövqəladə iclası olacaqdır. Və bu iclasda hökumət maliyyə işləri haqqında məruzədə bulunacaqdır. Lakin bu düz çıxmadı, hökumət bəyanat vermədi. Biz camaat nümayəndələri olduğumuz üçün məsələdən göz örtüb keçə bilməriz. O adamlar ki, deyirlər hökuməti tənqid etmək bu halda zərərdir, onlar səhv edirlər. Məlumunuz olduğuna görə hökumətin 150-160 milyon hazır pulu vardır. Ancaq fəhlələrə muzd verilmək üçün 16 milyon tapılmır. İngilislər buraya gələndə rus bankı açdılar. Tomson dedi ki, banka qoyulan pulları təmin edirəm və ingilis hökuməti buna cavabdadır. İndi bilmək istəyiriz ki, Azərbaycan hökumətinin bu 160 milyonu haradadır? Bu pullar banka verilmişmidir? Bu pul millətindir. Nəqdi məbləğ nasıl təqsim olundu. Əgər ingilis komandanlığı daxili işlərimizə qarışmırsa, əgər bizi saymaq istəmirsə, niyə bu məsələ belə olsun. Fəhlələr qarşısında ingilis komandanlığı boyun əyərkən, nə üçün həmən fəhlələr Azərbaycan hökuməti əleyhinə qalxsınlar. Tətil komitəsində mən söylədim ki, məsai nazirinin bundan xəbəri yoxdur. Fəhlələr dedilər ki, yalan deyirlər. Hökumətdirlər, necə ola bilir ki, onların xəbəri olmasın. Məsai naziri dedi ki, ancaq neçə gün bundan qabaq ona deyiblər ki, fəhlələr acdırlar. Pulları verilmir. Fəhlələrin içərisində olan fikir [401 - 402] budur ki,

Azərbaycan hökuməti pulu qəsdən vermir. Valtonun sözündən də bu çıxır. hökumətin əsasını təşkil edən fəhlələr ac qalırlar, qalxıb ikrah edirlər. Buna qarşı əlbəttə, biz göz qapaya bilməriz. Ona görə hökumət gəlsin bizə cavab versin görək maliyyə işlərimiz nə haldadır və pulumuz nerəyə sərf olunur (soldan alqış).

**Sədr** - Söz hökumət əzasından Səfikürdlü Aslan bəyindir.

**Səfikürdlü** - Məlumunuzdur ki, müddəilərimiz getdikcə artır. Və o nöqsanlar ki, bizim yoxumuzdur, onları da bizim boynumuza yıxırlar. O cümlədən bu məsələni. Doğrudan da fəhlələrə fevral və mart məvacibləri verilməyibdir. Bu məvaciblər gərək martın 10-da veriləydi. Bilirsiniz ki, məvacib alanların məvacibləri bir neçə gün də olsa təxirə düşəndə nə qədər əziyyət çəkirlər və narazı olurlar. Fəhlələr deyirlər ki, əziyyət çəkirik, məvacibimiz vaxtında çatmır. Belə olan surətdə fəhlələrin haqları var ki, tətil etsinlər. İş buradadır ki, məvaciblərin təxirə salınmasını fəhlələr bizdən görüb narazı olurlar. Mitinqdə və başqa yerdə də deyirlər. Nəinki fəhlələr, hətta "İskra" qəzetəsində də oxudunuz ki, ingilis nümayəndəsi mister Valton fəhlə konfransında "Fəhlələrə nə üçün pul verilmir?" - deyə sorularkən demişdir ki, Rusiyanın əski bankı var. Azərbaycan hökuməti ilə ingilis komandanlığı arasında həmin bank məsələsi ixtilaflı olduğundan və Bankın kimə çatacağı məlum olmadığından pul verilməsi məsələsi təxirə salınmışdır. Mən burada hökumət tərəfindən və öz tərəfimdən qəti surətdə elan edirəm ki, bu məsələ düz deyil. İki ay bundan qabaq ki, zabastovka olmuşdu, o vaxt zavodçular dedilər ki, fəhlələrə verilmək üçün 45-50 milyon para lazımdır. Neftimiz var, bu vaxta qədər bizim neftimiz Rusiyaya gedirdi. İndi pul olmadığından getmir. Ona görə də biz fəhlələrə pul verməyəcəyik. Hökumət qət etdi ki, neft rəhni ilə zavodçulara pul buraxsın, fevral ayında xaricdən bizim para məsələsinə müdaxilə olduğuna görə fəhlələrə pul verilmədi. Nə fəhlələrdən, nə də ingilis komandanlığından bizə məlumat verilməmişdir ki, fəhlələrə pul vermək lazımdır. Ancaq Valtonun sözü qəzetədə yazılandan sonra mən bildim ki, fəhlələrə pul [402 - 403] verilmir. Və təqsiri bizim üzərimizə yıxırlar. Hökumət bu əhvalatdan xəbərdar olduqdan sonra dedi ki, başqa xəzinədən də olsa, üç günün ərzində pul tapıb fəhlələrə verməlidir. Başqa yerdən tapılmasının səbəbi nədirsə, orasını söyləməyin yeri deyil. İndi pul hazırdır, sabah, ayın 18-də verəcəklər. Lakin bir neçə yerlərdə tətil olubdur. Bu barədə fəhlələrin tətilə də haqları vardır. Çünki deyirlər vaxtında pul verilməyib acıq. Ümid var ki, pul veriləndən sonra tətil qurtarar. Bizdə və hökumətdə təqsir yoxdur. Əsl taqsırın kimdə olduğunu ozünüz təyin ediniz. Ümid var ki, belə məsələləri parlament əzaları aydınlaşdırsınlar. Bu barədə hökumət də qəti tədbirlər görməyə başlamışdır. Çünki görürüz ki, hüququmuzu tapdalayırlar. Bu 3-4 ayın ərzində çox güzəştə gedirdik. Biz kimsənin başına çaxmaq istəmirdik. İndi aydın oldu ki, iş razılıq ilə yerimir. Ona görə hökumət ciddi hərəkata başlamışdır. Bundan sonra saf, qırmızı və haqq sözümüzü müdafiə edəcəyiz. (Alqış!) İndi necə ki, bilirəm maliyyə işimiz yaxşılaşıb. Hərgah maliyyə naziri burada olsaydı sizə məlumat verərdi. Hökumətdə müzakirə olunarkən mən eşitdim ki, maliyyə işlərimiz düzəlməkdədir. Bu qərar ilə tətil də rəf olar.

**Sədr** - Hərgah sual müəllifi hökumətin bəyannaməsinə qane olursa, sual növbədən götürülür.

**Əhməd bəy Pepinov** - Biz zənn ediriz ki, maliyyə naziri özü bu sorğuya cavab verməlidir.

**Sədr** - Müəlliflər qane olmurlar, o halda digər məclisə qalar və istizah şəklində hökumət cavab verər. Və bir də mən o gün səhv eyləyib şəriyyə komitəsi söylədim, halbuki təshihiyyə komitəsidir və bu komissiyona Qriqor Tsexokaya, bitərəflərdən Abuzər bəy Rzayev, "Müsavat"dan Məmməd Əmin və Mustafa Vəkilov, "Əhrar"dan Mirzə Muxtar Əfəndizadə, sosialistlər ittifaqından Rza bəy Qaraşarov göstərilir.

Bugünkü məsələlər qurtardığına görə məclisi qapayıram. Saat 4 tamamda məclis qapanır.

**Azərbaycan, 1919, 19, 21, 27, 28, 30 mart, 2 aprel, №140, 142, 144, 145, 146, 149.**

## № 25

## İyirmi beşinci iclas

*20 mart 1919-cu il*

**Sədr** - Həsən bəy Ağayev. **Katib** - Bayram Niyazi Kiçikxanov. İclas saat 12.15 dəqiqədə açılır.

**Sədr** - Parlamentin iclası açılır. Yomi müzakirata keçməmişdən qabaq sizlərə ərz edirəm ki, erməni fraksiyası təmamən aşağıdadır, bir-iki dəqiqədən sonra kələcəklərini bildirmişlərdir. Böyləliklə, kvorum olduğunu nəzərə alıb cəsarət edərək məclisi açıram. 40 nəfər üzv mövcuddur. Növbeyi-müzakirat bu surətlədir.

1. Daxil olan kağızlar, o cümlədən Gürcüstanın cavab teleqrafı, bir də torpaq komissiyanunun məktubu.

2. Abuzər Orucovun hökumət mətbəəsi təsərrüfinə keçmiş mətbəə əşyası xüsusunda layiheyi-qanuniyyə.

3. Daxiliyyə nəzarətinin məmurlarının maaşını artırmaq və yeni məmurlar vəzifələri təşkil etmək xüsusunda layiheyi-qanuniyyə. Bu cür tərtibə etiraz yoxsa, qəbul olunur.

Varid olmuş kağızlar cümləsindən birincisi Gürcüstan Məclisi-Müəssisanınından təbrik teleqrafımıza cavabən alınmış bir teleqrafdır. Məzmunu da belədir: "...Gürcü Məclisi-Müəssisanı səmimi qəlbdən Azərbaycan parlamentinə təşəkkür etməklə bərabər, kəndi tərəfindən onu təbrik edir. Bayrağında ümumi millətlərin qardaşlığını cızmış Gürcüstan demokratiyasının qəti qələbəsini təmsil edən Məclisi-Müəssisan Qafqaziya millətlərinin sülh və səadətlə yaşamasına nikahban olacaq demokratik bir cümhuriyyətin bünövrəsini möhkəm etmək ilə bərabər, əsrlərdən bəri yan-yana yaşarına gəlmiş Azərbaycan türkləri ilə də sıxı bir rabitədə bulunacağı ümidi ilə Qafqaziya demökratiyası və cümhuriyyətlərinin daxili işlərində sərbəst olaraq xarici qüvvələrə qarşı dayanacaqlarına iman ilə çalışacaqdır.

Məclisi-Müəssisan sədri naminə.

**Baş müavini - Aleksandr Loştadze**

**Katib** - Konstantin Caparidze".

(Soldan və mərkəzdən alqış). [404 - 405]

Sonra hökumət tərəfindən Səlyan kazarmasını təmir etmək üçün 573690 manat istənilməsi xüsusində layihədir ki, məzkur layihə Divani-Rəyasət büdcə və maliyyə komissiyonuna verir. Bir də parlament əzalarından Qardaşov Aslan bəy ayyarımlıq məzuniyyət istəyir. Etiraz yoxsa, qəbul olunur. Sonra torpaq komissiyonundan belə bir məktub gəlmişdir. O komissiyaya bitərəflərdən üzv seçilməyibdir. Məktub belədir:

"Parlament rəisi həzrətlərinə!

Bunun ilə torpaq heyəti zati-alilərinizə müraciət məlum edir ki, bitərəflər fraksiyonundan torpaq komissiyonuna hənuz üzv seçilməmişdir. Haman fraksiyondan fəvqəlzikr komissiyona üzv seçilməyi rica və təmənna edəriz, əfəndim.

**Rəis: Ağamalov".**

İş buradadır ki, şimdiyə qədər hər fraksiya namizədlərini komissiyaya verəndə parlamentə ancaq filankəsi filan komissiyaya deyə məlum edər idi. Lakin qəbul etdiyimiz nakaza görə bu namizədlər gərək qapalı surətdə parlament tərəfindən seçilsin. Binaən-ileyh xahiş edərdim bitərəflər bir neçə namizədlər göstərsinlər ki, parlament onlardan hansını lazım bilsə, intixab etsin. Keçən dəfə rica etmiş idim. Xəlil bəy Sultanov hansı fraksiyaya mənsub olduğunu bildirsin. İndiki məlumata gorə o, bitərəflərə mənsubdur.

Növbədəki məsələ Orucov mətbəəsinin haqqı olaraq 468380 rublənin verilməsi barəsində qanun layihəsidir. Dokladçi Musa bəy Rəfiyevdir.

**Məmməd Əmin** (yerindən) - Dokladçi odur, ya mən?

**Sədr** - Dokladçi Məmməd Əmin Rəsulzadədir.

**Məmməd Əmin** - Əfəndilər! Bilirsiniz ki, Orucov mətbəəsi Qafqazda bir çox zəhmətlərdən sonra əmələ gəlmiş yeganə bir mətbəədir. Sahibləri məzkur mətəəyi sənələr ilə zəhmət çəkərək başa gətirmişlərdir. Qafqaziyada türk mətbuatına az-çox xidmət edən bir mətbəə varsa da, o da bu mətbəə idi. Keçən il mart hadisəsindən sonra bolşeviklər hər şeyə hakim olduğunda şəhərin bir neçə mətbəələri ilə bərabər bu mətbəəyi də talamışlar; bir çox mətbəənin hürufatını o zaman qradonaçalstva, sonra bolşeviklər əlinə keçən və hal-hazırda Azərbaycan hökumətinin əlində olan və maarif nəzarətinin təhti idarəsindəki hökumət mətbəəsinə tapşırmışlardır. [405 – 406] Hal-hazırda maarif nəzarətinin verdiyi məlumata görə Orucovun makinası, hürufatı və qeyri-mətbəə ləvazimi bu hökumət mətbəəsindədir. Makinaların adları birər-birər və başqa şeylər həmçinin göstərilmişdir. Mətbəə işində mütəxəssis olanlar da mətbəəçi (berladir), birinci şirkət mətbəəsi müdiri və bir hesabdar bu əmlakı qiymət etmişdir. Bu əmlakın qiyməti 468.380 manat olduğunu təqdir etmişlərdir. Maarif nəzarətini təqdim etdiyi vəsiqəsində deyilir ki, mart hadisəsindən qabaq bu mətbəəni Orucovlar iranlılara satmaq istəmiş və o vaxt iranlılar bu mətbəəyə yarım milyon rublə verirlərmiş. Mən özüm də mətbəəçi və

mətbəə işinə bələd olduğum üçün bu qiyməti münasib görürəm. Komissiyon da bu qiymətə razı olub, bu paraların verilməsini təklif edir. Əgər bu barədə fəzlə izahat lazım olsa, sualları bəkləyirəm.

**Qənizadə** - Bilmək istərdim, görək mətbəə sahibləri bu xüsusda razı olubdurlarmı, ya yox?

**Rəsulzadə** - Bu xüsusda mətbəə sahiblərinin razı olub-olmadığını qəti surətdə söyləyəməm. Fəqət, aldığımı məlumata görə maarif naziri ilə mətbəə sahibləri arasında razılıq olsun gərək. Hər halda qəti surətdə söyləməm.

**Sədr** - Daha kim söz istəyir? Məruzə barəsində danışan olmadığı üçün məruzəni səsə qoyuram. Məruzə maliyyə və büdcə komissiyonunda müzakirə olunub, eyni surətdə təğyir və təbdilsiz qəbul olunmuşdur. Komissiyonun bəratül-qövli budur (Oxuyur).

## Bəratül-qövl

18 mart 1919 sənəsində Məclisi-Məbusan maliyyə və büdcə komissiyonunun iclasında Abuzər Orucov mətbəəsinin hökumət ixtiyarına keçdiyi üçün 468.380 rublə verilməsi xüsusunda maarif nəzarətinin təqdim etdiyi qanun layihəsi müzakirə olunaraq qət olundu: Maarif nəzarətinin təqdim etdiyi qanun layihəsi qəbul olunaraq mətbəə hökumət ixtiyarına keçdiyi üçün Abuzər Orucova 468.380 rublə buraxılsın. (Ruscaya tərcümə edir). Hər kəs komissiyonun qərarını qəbul edirsə, əlini qaldırsın. Lehinə 24, əleyhinə 10, səs verməyən 4. Sayın neçə üzvü movcuddur. [406 - 407] Lehinə 24, əleyhinə 10, səs verməyən 4, bu eylər 29. Sayın 39. Görünür ki, səsdə iştirak etməyən var.

**Səslər** - Bir də səsə qoyun!

**Sədr** - Hər kəs komissiyonun qərarını qəbul edirsə, əlini qaldırsın. Rica edirəm əlinizi sayıb qurtarana qədər saxlayasınız. Lehinə 24, əleyhinə 10, səs verməyən 4. Deməli, layihə əksəriyyət ilə qəbul olunur. Bitərəflərdən rica edirəm, namizəd göstərsinlər. İşlər təxirə düşür.

**Mərkəzdən** - Göstərdilər, Sultanov.

**Sədr** - Xeyr, göstərməyiblər. Əqəliyyət təşkil edənlər göstərmişlər. Növbədəki məsələyə keçmədən burasını elan edəyim təklif var ki, novruz bayramı münasibətilə bir həftə tətil elan edilsin. Gələn iclas pəncşənbə günü olsun. Etiraz yoxsa, qəbul olunur.

**Rəfiyev** - Tətil barəsində deyərdim ki, bu həftə parlamentdə və komissiyonlarda iş olmayacaqdır. Əldə olan hazır layihələr Divani-Rəyasətə verilib, müzakirə olunur. Gələn iclas pəncşənbə gününə təyin edilsə, komissiyonlar işləmədiyi üçün əldə hazır bir layihə olmayacaqdır. Buna görə təklif edərdim ki, tətil cümə gününə qədər olsun ki, komissiyonlar gələn növbəti iclasa qədər işləyib material hazırlasınlar.

**Sədr** - Təklif var ki, tətil gələn cümə gününə qədər olsun. Etiraz yoxsa, bu təklifi səsə qoyuram. Hər kəs bu təklifin tərəfdarıdırsa, əlini qaldırsın. (Əllər qalxır). Deməli, bu cümədən gələn cüməyə qədər tətil edilməsi əksəriyyət ilə qəbul olunur.

Növbədəki məsələ, daxiliyyə nəzarəti xidmətçilərinin məvacibləri təzaidi və yeni vəzifələr təşkili. Məruzəçi Musa bəy Rəfiyevdir. Məruzəyə keçmədən rica edirəm namizədlərə səs verəsiniz. Bitərəflərdən torpaq komissiyonuna Cəlil bəy Sultanov. Əqəliyyət təşkil edən millətlərdən Kun namizəd göstərilir. Nizamnaməyə görə seçkilər örtülü olmalıdır.

**Musa bəy Rəfiyev** - Daxiliyyə nəzarətindən bu gün təqdim olunan qanun layihəsini iki yerə bölmək olar. Birisi, ştatın dəyişməyinə görə idarədə işləyənlərin ştatı dəyişilmiş olur. Bir də qulluqçuların məvacibləri az olduğuna görə artırılması lazımdır. [407 - 408]

**Sədr** - Natiq əfəndi, bir qədər sükut ediniz. Parlament üzvü Malxazyan, müzakirə olunan məsələ barəsində danışmaq istəyir.

**Malxazyan** (erməni fraksiyonundan) - İş burasındadır ki, müzakirə edilən məsələ çox mühüm görülür. Fəqət, üzvlərə göndərilən cəlbnamədə bu məsələ qeyd edilməmişdir. Bu məsələ barəsində ola bilir ki, ümumi surətdə bəhs edilsin və ona görə də bəhsə əvvəlcədən hazırlaşmaq lazımdır. Binaən-ileyh təklif edirəm ki, məsələ təxirə salınsın.

**Musa bəy** - Bu smeta deyil, əvvəlcə söylədiyim kimi ştat təqdim olunur ki, smetaya düşsün. İkincisi də maaş artırmaqdır ki, bu da müvəqqətidir və lazımdır. Çünki xidmətçilər o məvaciblə qulluq edə bilmirlər və ona görə də onlara gərək elə məvacib vermək ki, qulluq edə bilsinlər. Mən təvəqqe edirəm məsələ mühüm olduğu üçün bu gün müzakirə edilsin.

**Sədr** - Hər kəs məsələnin bu gün müzakirə edilməsinə tərəfdar isə əllərini qalxızsın. (Əllər qalxır). Ləhinə 29, kim əleyhinədir? - 9, kim səs verməmiş? - 4.

**Ağamalov** (yerindən) - Mən söz demək istəyirəm.

**Sədr** - Rica edirəm oturunuz.

**Ağamalov** - Kvorum yoxdur.

**Sədr** - Rica edirəm oturunuz. Məclisdə 41 nəfər üzv vardır.

**Rəfiyev** (davam edir) - Bu Rusiya inqilabından bəri bir neçə para hökumət və idarədir ki, mərkəzdə və kənarda təşkil olub, onların fikirləri əvvəlcə daxiliyyə nəzarətin dəyişmək olub, bunu Olçelov hökuməti sonra

Zaqafqaziya hökuməti və axırda bolşeviklər dəyişiblər. Bu dəyişiklik ən çox Bakıda olub, Bakıda daxiliyyə nəzarəti üç təşkilatdan ibarət olub, birisi qubernator, ikincisi qubernator idarəsi, biri də qradonaçalstvo. Keçən il bolşeviklər bu üç idarəni ləğv edib əvəzində bir qubernski idarə təşkil etmişlər. Bu təşkilat əmələ gələndən sonra nə qədər artıq qulluqçular olubsa, hamısını buraxmışlar. İndi, necəki əvvəl söylədiyik bu təşkilat qanuni olmadığına görə əsası quberniyada nə təşkilat olmalı və nə qədər qulluqçu lazımdır daxiliyyə nəzarətindən. Bu təşkilatın siyahısı təqdim olub parlamentə təsdiqini təklif edir. (Oxuyur).

Əvvəlcə qubernatorun və qradonaçalnikin bir müavini olar idi. İndi qradonaçalnikin müavini əvəzinə, qubernatora kiçik müavin təyin edilir. Bu kiçik müavinə ümum polis işlərinin [408 - 409] idarəsi mühəvvəl ediləcəkdir. Dəftərxanada qubernski idarənin üç müstəşarı olacaqdır. İnşaiyyə, arxitektorni şöbənin rəisi, idarə katibi, iki müavin, iki xüsusi işlər məmuru, bir straja inspektoru, dörd kargüzar, üç müavin, bir arxivçi reqistrator, bir tekrəfotor, bir çertyojçu, 7 makina ilə yazan, 20 kateqoriya məmurları, 11 stajor ilə qasidlər. Beləliklə, qradonaçalnik və qubernator yanında olan dörd xüsusi işlər məmuru əvəzinə iki, səkkiz kargüzar yerinə dörd, 6 kargüzar müavin yerinə üç, otuz dəftərxana xidmətçiləri əvəzinə 20, 12 makina yazan yerinə 7, qubernator və qradonaçalstvoda olan ikişər eqzaqutor-reqistrator yerinə birər olacaqdır.

Baş polis idarəsində işlər getdikcə artdığı üçün ikinci qələbəyi müavini mənsəbi təşkil edilir. Əvvəlcə bu vəzifəni pristavlardan birisi ifa edirdi. Əlbəttə, bu da pristavın öz vəzifəsinə bir zərbə idi. Qorodovoyların da qədəri 225, suvari qradovoyların qədəri 95-dək artırılır. Bakı mahal naçalniki vəzifəsi ləğv edilir. Bu mahalın bütün torpağı Balaxanı, Sabunçu, qalabəyliliyinə mülhəqq edilir. Balaxanı, Sabunçu qalabəyisinin bir müavin də olacaqdır. Balaxanıda qorodovoyların miqdarı 150-dən 200-dək olacaqdır. Bəzi qəzalarda mahal naçalnikinə ikinci müavin təyin ediləcəkdir. Məsələn, Quba və Göyçay mahallarında əvvəlcə bu mənsəbə ehtiyac yox idi. Ona görə ki, mahal naçalniklərinin kiçik müavinliyi vəzifəsini straj ofiserləri ifa edirlərdi. Amma bu vəzifə də şimdi ləğv edilmişdir.

Cavad və Göyçay uyezdlərində iki uçastok təşkil edilir. Pristav uçastoklarında pristav müavinləri təyin ediləcəkdir. Bir neçə şəhərlərdə, o cümlədən, Quba, Səlyan, Lənkəranda bu vaxtadək pristav olurdu, indi layihəyə görə 2 pristav olacaqdır. Bakı təhriri polisində nazirlərin miqdarı 10-dan 15-dək artırılır. Agentlərin miqdarı isə 50-dən 30-dək əksilir. Şuşa qəzası Ağdaş kəndində pristavlıq təşkil edilir.

Quberniya idarələrində olan inşaiyyə şöbələri qalır, hərçəndi qəbul edilən layihəyə görə, qara yolları təriq və məabir nəzarətinə keçirsə də, amma bununla bərabər daxiliyyə nəzarəti öhtəsində məktəblər və başqa tikililər vardır ki, bu inşaiyyə şöbələri onlara baxmalıdır. [409 - 410]

Şöbənin heyəti belədir: 1 işləyən, 1 texnik, 1 çertyojnik, 1 makinaçı, bir də qasid. Bu vaxta qədər olan Zaqatala okruqunda quberniya təşkil edilmişdir.

Orada 1 qubernator, 1 müavin, 1 məsləhətçi, 1 xüsusi işlər məmuru, 1 mühəndis, 2 kargüzar, 6 dəftərxana qulluqçusu, 6 uçastok pristavı, 6 müavinləri, 6 dəftərxana qulluqçuları stajor vardır. Qax uçastokunda bu vaxta qədər olan xristian starşinası yenə baqi qalır. Şəhərdə 2 okoladaçni, 15 qaradovoy, 2 qasid vardır. Şəriət məhkəməsi də bu heyətdə mövcuddur.

Məhkəmə sədri, 6 üzvü, 1 karküzar, 3 dəftərxana məmuru, 1 qasid.

Quberniyada 1 inspektor, straj, 20 böyük strajnik, 150 xırda strajnik.

Maliyyə-büdcə komissiyonu bu layihəyə baxmışdır. Bu layihə müzakirə edilərkən belə bir rəy söylənmiş idi ki, belə bir balaca Azərbaycan məmləkətində qubernator vəzifəsi artıqdır və 3 quberniya təşkilatına da lüzum yoxdur. Yaxşı olardı ki, daxiliyyə naziri bilavasitə qəzalarla münasibətdə olsun və bu qərar ilə xalqa yaxın olsun. Lakin bu məsələ xeyli mühümdür. Bu halda müzakirə etməyib, fəqət, bu məsələni hökumətə xəbər verdi.

Polis məmurlarının məvacibinin artması lazımdır. Bu saat məmurlara verilən məvacib xeyli azdır. Hərgah maliyyə, ədliyyə və daxiliyyə nəzarətində vəzifələri bir-birinə mütabiq xidmətçiləri götürsək görərik ki, daxiliyyə nəzarətində olan xidmətçilər 2 əvvəlinci nəzarətdə olanlardan az məvacib alırlar. Bununla belə polis məmurların hal-hazırda böyük iş görürlər. Gəncədə olan xidmətçilər ittifaqi bir adamın ən az xərcini 1253 manat hesab etmişdir, hərgah, indiki alınan məvaciblərə diqqət edərsək gorərik ki, indiki qiymətlər bərabərində xeyli azdır. Buna görə daxiliyyə nəzarəti öz xidmətçilərini 16 dərəcəyə təqsim etmişdir. Bu xidmətçilərə bu qərar üzrə məvaciblər təklif edilir.

1 - Qubernatorlara - (Başqa yerlərə nisbətən Bakı bahalıq olduğundan, Bakı məvacibləri yuxarı hesab edilir). Bakı qubernatoruna ayda 3.600 rublə, başqa yerdəkilərə 3000 rublə.

2 - Vitse qubernatorlara Bakıda 2.700 rublə, qeyri yerlərdə 2.500 rublə. [410 - 411]

3 - Bakı qubernatorunun kiçik müavininə ayda 2.500 rublə.

4 - Bakı polismeystrinə nəzarət 1.800 rublə təklif etmişdir, lakin komissiya 2.300 rublə təyin etmişdir.

5 - Bakı polismeystrinə, Bakı polismeystrinin boyük müavininə və təhriri şöbəsi naçalnikinə nəzarət 1.600 rublə təklif etmişdir. Komissiya isə 1800 rublə təyin etmişdir.

6 - Bakıdakı xidmətçilər ayda 1.690 rublə, başqa yerlərdə 1.500 rublə.

7 - Bakıdakı xidmətçilərə ayda 1.500 rublə, başqa yerdəkilərə 1.400 rublə.

8 - Bakıdakı xidmətçilərə ayda 1.400 rublə, başqa yerdəkilərə 1300 rublə.

9 - Bakıdakı xidmətçilərə ayda 1.300 rublə, başqa yerdəkilərə 1.200 rublə.
10 - Bakıdakı xidmətçilərə ayda 1.200 rublə, başqa yerdəkilərə 1.100 rublə.
11 - Bakıdakı xidmətçilərə ayda 1.100 rublə, başqa yerdəkilərə 1.000 rublə.
12 - Bakıdakı xidmətçilərə ayda 1.000 rublə, başqa yerdəkilərə 900 rublə.
13 - Bakıdakı xidmətçilərə ayda 900 rublə, başqa yerdəkilərə 800 rublə.
14 - Bakıdakı xidmətçilərə ayda 800 rublə, başqa yerdəkilərə 700 rublə.
15 - Bakıdakı xidmətçilərə ayda 700 rublə, başqa yerdəkilərə 600 rublə.
16 - Bakıdakı xidmətçilərə ayda 550 rublə, başqa yerdəkilərə 500 rublə.

Nəzarətə buraxılan məbləğin on dörddə biri məvaciblərə sərf olunub, qalanı isə lazımi materiallara və qeyrilərə xərc olunur.

Gəncə quberniya idarəsi nəzdində kənd işlərinə baxan idarə ləğv edilir. Lakin orada mühüm sənədat olduğundan işləri bitirməkdən ötəri bir tövsiyə komissiyonu təşkil edilməlidir.

**Azərbaycan, 1919, 4 aprel, №150.** [411 - 412]

## № 26

### İyirmi altıncı iclas

*3 aprel 1919-cu il*

**Sədr** - Həsən bəy Ağayev. **Katib** - Əhməd Cövdət Pepinov. İclas saat 12.10 dəqiqədə açılır.

**Sədr** (Kyüsterə) - Yusif bəy, sayın görək neçə adam var. 41. Keçmiş yomiyyeyi-müzakiratda olan məsələlərdən başqa Divani-Rəyasət tərəfindən başqa bir neçə məsələlər daxil edilmişdir. O cümlədən, daxil olmuş məktub və kağızlar və bir neçə layiheyi-qanuniyyə, o cümlədən, Culfa-Bakı dəmir yol inşasının davam etdirilməsi üçün para buraxılması haqqında layiheyi-qanuniyyə. Divani-Rəyasət təklif edir ki, bu layihə maliyyə-büdcə komissiyonuna verilsin. 2-ci hökumət tərəfindən əsgəri Nizamnaməsinin tamamlanması layihəsi. Bu layihə də hərbiyyə və ləvayehi-qanuniyyə komissiyonlarına verilir. 3-cü Şimali Qafqaziya Cəbəliyun Cümhuriyyətinə faizsiz 30 milyon qərz buraxılması layihəsi. Divani-Rəyasət təklif edir ki, bu layihə də maliyyə-büdcə komissiyonuna verilsin.

Bunlardan savayı bayram münasibətilə bir neçə məktub və teleqramlar gəlibdir ki, onları da elan etməyi lazım bilirəm. O cümlədən biri Gəncədən hərbiyyə naziri general Mehmandarovdan təbrik teleqramı gəlmişdir. Bundan əlavə Məclisi-Məbusana Qubadan iki teleqraf gəlmişdir. Biri Bakı alayının komandanı Məmmədovdan, digəri alayın özündən. Gəncədə olduğum zaman bayram münasibətilə tərtib olunan yığıncaqda Gəncə bələdiyyə rəisinin tapşırdığına görə Gəncə idarəyi-bələdiyyəsinin salam və təbrikini parlamentə yetirməyə borcluyam. Bir təbrik teleqramı da parlamentə Salyan əhalisi tərəfindən gəlmişdir. Rus-slavyai fraksiyası üzvü Klinovski hökumət qulluğunda olduğundan parlamentdən xaricdir. Haman fraksiya onun yerinə cəmiyyət üzvü, professor Dubrovskini seçib göndərmişdir. Parlament üzvü Cavad bəy Məlikyeqanovun bir məktubu varid olmuşdur. Məlikyeqanov dəmir yol qulluqunda olduğunu bildirir. "Əhrar" fraksiyasından bir məktub gəlmişdir ki, müzakirə edilən layihələr fraksiyalara türkcə göndərilmədiyindən "Əhrar" fraksiyası layihələr müzakiratında [412 - 413] iştirak etməyəcəyini bildirir (rusca tərcümə edir). hərgah bunlara və layihələrin komissiyonlara verilmələrinə etiraz yoxsa, qəbul olunur. Növbədəki məsələ keçən iclasdan qalmış daxiliyyə nəzarəti məmurlarının maaş təzayidi və bəzi məmuriyyətlər təşkili haqqında qanun layihəsidir. Məruzəçi doktor Musa bəy Rəfibəyov. Çünki keçən dəfə məruzə oxunmuşdur və bir sıra ilə yoxlanılan, yazılan natiqlərin siyahısı məndədir. Onda söz Ağa Eminovundur.

**Eminov** ("Müsavat") - Məlumdur ki, hər bir məmləkətin, dövlətin, ən işçi və ən əhəmiyyətli müəssisələrindən biri daxiliyyə nəzarətidir. Əlbəttə, çox işləyənin nöqsanı ola bilir. Fraksiyamız tərəfindən məlum edirəm ki, biz də nöqsan görürük. Ancaq parlamentarizm qaydası ilə bu məsələ büdcə baxılanadək qalsın. İndi xüsusi bir qanundur ki, maaş artırılması və bəzi məmuriyyətlər təşkili haqqındadır. Ona görə biz, çünki ağır bir zamandır, tələb olunur ki, iş göstərsinlər, həyat bahalaşıb, maaşlar da azdır, yaxşı iş tələb edəndə maaşlarını artırmalıyız. Biz maaşların artması əleyhinə deyiliz. Tənqidi isə büdcə müzakirə olunana qoyuruq. Lakin arzu edirik ki, daxiliyyə nəzarəti bələdiyyə, zemstvo və administrativ terminlərini milliləşdirsin. Qubernatorlara, məsələn vali deyilsin. Tənqid isə büdcə müzakirə olunanda olunacaqdır.

**Sədr** - Söz Səməd ağa Ağamalı oğlunundur.

**Ağamalı oğlu** - İndi məndən əvvəl danışan natiq belə başladı ki, gerçəkli zakon daldan gələcəkdir, o vaxtda onu tənqid edərik, görək daxiliyyə nəzarətində nə var, nə yox. Yəni bu bikarə bir şeydir. Bunu bu tövr adlıyaq. Özünüz ki, [bilirsiniz] indiyə qədər belə bekar şeylər çox gəlib gedibdir. Məsələn, dəmir yol tarifləri balaca zakondur, qəbul eliyək, bunların hamısını söz altında buraxdılar, balaca şeylər idi. Amma bunları bir-birinin üstünə qoyanda böyük bir şey olur. Biz də buna razı ola bilməyəcəyik, vəssalam. Qabağımızda olan qanun ki, adını balaca qoyublar, biz bu qanuna iki tərəfdən baxırıq. Biri budur ki, daxiliyyə nəzarəti qulluqçularının məvacibi artsın, çünki az məvacib alırlar, dolanmaq olmaz. Bu ağıl kəsən bir işdir. Əlbəttə, gərək məvaciblər artırılsın. Amma biz elə bilirik ki, daxiliyyə nəzarəti bu məsələni keçirmək [413 - 414] üçün başqa bir yol tapardı, nəinki elə bir qanuna bağlaya idi ki, hürriyyət və cümhuriyyət olan yerdə heç qəbul etmək və yaxına qoymaq olmaz. Bu qanunu belə niyə gətirdiyini daxiliyyə naziri özü yaxşı bilir. Bunu aydın danışmaq olar. O özü bilir ki, bu qanun ilə nə yeritmək istəyir. Burada ayrı səbəblər var ki, orasını danışacağız. Dediyim budur ki, biz məvaciblərin artması əleyhinə deyiliz, lakin biz qanunun vücudunun, vəzifəsinin bərəksinə idik.

**Məmməd Əmin** (yerindən) - Vəzifə vücud nə deməkdir?

**Ağamalı oğlu** (davam edir) - Bilirsiniz ki, Nikolayın böyük bir idarəsi var idi ki, o da samoderjavie idi. Bu idarənin vəzifəsi bu idi ki, fəhlələri, çalışanları, əkinçiləri, füqarayi-kəsibəni zindan altında saxlasın. Bu idarə yüz illər ilə tikilmiş idi. Bu yüz illərlə təşkil edilən idarəni yıxmaq çətin idi. Bunu yıxmaq üçün böyük bir qüvvə lazım idi. Əlahiddə bir inqilab gərək olaydı. Bu idarəyi yıxmaq çoxdan başlanmış idi. Hətta 1825-ci ildə dekabristlər, sonradan 1905-ci ildə qabaqkı inqilablar oldu.

Bunların gücü çatmadı. Böyük binanı yıxmaq üçün milyonlar ilə can verən, çaylar qədər qan axıdan indiki böyük inqilab lazım idi ki, o da oldu. Qanlar axdı, milyonlarca canlar getdi. Bu imarət yıxıldıqdan sonra qabağımız açıq oldu. gərək özümüzə təzə həyat tikək, təzə yola düşək. Amma bizim ministrlər Nikolayın dağılmış imarətinin daşlarını yığıb gətirib, yavaş-yavaş elə yuva tikmək istəyirlər ki, biz də onun altında olacağız, bu qərar üzrə də Soltan qoyula və istibdad hazır ola (Soldan alqış!). Amma mən sizə onu deyirəm bizim vəzir Nikolaydan da o yana keçdi.

**Sədr** - Rica edirəm mətləbdən uzaqlaşma.

**Aqamalı oğlu** - Mətləbə gəlirəm, mətləb üstündəyəm. Mən deyirəm ki, vəzir Nikolaydan da o yana keçdi. O qaldı ki, vəzirlər qoyub Nikolayın qanunudur. Bu qanun balaca Azərbaycana layiq deyildir. Ondan sonra (Sükut), onu da deyəcəyəm bizə əlahiddə qanun lazımdır. Mən indi Dedim ki, bizim vəzirlər Nikolaydan da o yana gedib ki, belə ki, Nikolay yanında var idi qubernator, vitse-qubernator, pristavlar, amma indiki qanunda pristav pomoşnik, qubernator müavini artıb iki quberniya yarımdan ibarət olan balaca Azərbaycanda bir qədər qara qulluqçular [414 - 415] və bunlar üçün 60 milyon xərc yarıyan deyil. Biz deyirik ki, belə hökumət ola ki, camaata yaxın ola. Birlik ilə işlərə əlac edə. Əvvəla, qabaqkı hökumət camaatdan uzaq olardı. "Zavtra-zavtra" sözü də ondan məsəl qalıbdır. İndiki qanunda belə qoyulub ki, camaat hökumətdən dəxi uzaqlaşır. Biz deyirik ki, cümhuriyyətdə camaat ilə hökumətin arası bir-iki pilləkən olmalıdır. Biz bilirik ki, administrasiya, polis, padşahlıq da araba xərci mənziləsindədir. Bir vaxt Qalitsin dövründə straja düzəltdilər, çünki o zaman camaatın fikiri açılırdı. O vaxt bu fikri boğmaq üçün straja düzəltdi, haman straja düzəldikdən sonra Qafqazda oğurluq, dələduzluq artdı. Məsələn, Dəli Əlinağı kimi quldurlar sonradan artdı. Deməli, polis artdıqca quldurlar qüvvə tapır, nicat tapır. İndi də bu artıq pul ki, bizdən istənilir, polisin quldurluğa dəxi də əlaqəsinin yaxşılaşması üçündür. Dəxi də qamçının uzanması üçündür. Biz bu pulun buraxılmasına razı ola bilmərik. Hökumət və camaat arasında rabitə o zaman ola bilər ki, hökumət məmurları və digərləri camaat tərəfindən seçilsinlər. Bizim vəzirlər isə starşinaların, kəndxudaların da intixab olunması üsulun ləğv etmişdir. Halbuki köhnə rejimdə bu üsul var idi, starşinaları camaat seçərdi.

Bizim fraksiya hələ zənn edir ki, bu qanun layihəsinə heç bir fraksiya tərəfdar olmaz. Lakin keçən natiqlərin sözündən anlaşıldı ki, onlar qanuna tərəfdardırlar və bu qanun da keçəcəkdir. Biz təklif edirik ki, bu qanun layihəsi daxiliyyə nazirinə qaytarılsın və ona deyilsin ki, Nikolay dövründə olan qanunlara biz yol verməriк. Yeni demokratizm üsulu tərtib edilsin. (Soldan alqış!).

**Sədr** - Söz parlament üzvü Malxazyanındır.

**Malxazyan** - Azərbaycan parlamentinin möhtərəm üzvləri! Mövqeyi-müzakirəyə qoyulmuş olan daxiliyyə nəzarəti layihəsinin iki cəhəti vardır. Birisi rəsmi cəhətdir ki, layihənin dürüst və qanuni olduğunu təhqiq etmək, digəri isə daxili qismidir.

Rəsmi cəhətdən bəlkə ehtiyac olmaya da bilər, fəqət daxili cəhətinə, daha doğrusu layihənin təqib etdiyi məqsədlərə ilişmək üçün yürüdülən xətti-hərəkətə etiraz idilər. hər məmləkətdə daxiliyyə nəzarəti bir guşə daşıdır ki, dövlət [415 - 416] ideyasının təhkim və təsisi işləri nizam və asayiş bərpası, qanun səlaməti-şəxsiyyə və mülkiyyə əsasları həp onun üzərində icra oldular. Daxiliyyə nəzarəti bir hökumət qəbul və təsdiqi ideyasını yaradıb möhkəmləndirə bilər, onu dağıda bilər.

Parlamentə təqdim edilmiş olan layihənin müəllifləri bunu yaxşı bilirlər və məmurların miqdarı və məvaciblərin artırılmasının qəbul və təsdiqinə səbəb olmaq üzrə bunu göstərirlər ki, daxiliyyə nəzarəti xidmətçiləri, ümumiyyətlə, çox çətin və ağır vəzifə ilə müzəffərdilər və hərci-mərc vaxtı bütün nəzarətlərin məmurları işsiz olduqları halda daxiliyyə nəzarəti xidmətçiləri bilaaram daha da artıq zəhmətlə işləmişlərdir. Mən buna əlavə edirəm ki, nəinki "işləmişlərdir" hətta işləyəcəklər də. Cümhuriyyətin təşkilat işləri sair nəzarətlərin həpsindən ziyadə daxiliyyə nəzarətinin öhtəsindədir. Fəqət, madam ki, qanunun qəbulu üçün "ciddi və ağır işdən bəhs olunur, bu işlərə bir qədər dərindən baxmağa cəsarət edərəm. Tənqid iki cür olar: birisi dağıtmaq, yıxmaq üçün, digəri tikmək və dövlət həyatını qeyri-mümkün edən şərait izaləsinə çalışmaq. Şimdi mən nəzarətin fəaliyyətini tənqidə keçərkən rica edirəm inanasınız ki, məqsədim cavan cümhuriyyətin təşkilat işlərinə, təsdiqinə və müxtəlif millətlərin münasibətinin yaxşılaşmasına mane olan şərait və əngəlləri zail olmuş görməkdir.

Mənə etiraz edə bilərlər ki, əski istibdad və anarxiyadan belə irs qalmışdır ki, onu düzəltmək nizam və asayiş bərpa etmək az bir zamanda mümkün olan şeylərdən deyildir. Fəqət, bir dövlətin gücü nizam və asayiş bərpasnın çarəsi üçün bir şərait var, cümhuriyyətin ümumi vətəndaşlarının şəxsin və əmlakını təmin etmək.

Vətəndaşlar hüququ, şəxsin məsuliyyəti və millətlərin təyini-müqəddərat ixtiyarına, birinci sıraya çıxarmış olan Rusiya inqilabının yardıcı fəaliyyəti Rusiyada siniflərin, millətlərin yek digərini dağıtmalarına mübəddəl oldu. Nəticədə üç cümhuriyyət əmələ gəldi: Azərbaycan, Ermənistan və Gürcüstan. O mübarizə yanğınından bir fəna nəticə qaldı, milli təhəmmülsüzlük hissi, Azərbaycan əhalisinin böyük bir qisminin həyat və məişət haqqının qəbul edilməməsi mən inanıram ki, hökumət başında duraraq, məmləkət [416 - 417] gəmisini idarə edənlərə bu fikirdə deyillər. Camaat içində belə fikrin olmasına da yol verilməməlidir, çünki hər bir özbaşına hərəkət məhəllində möhkəm hökumətin yoxluğunu göstərir ki, bununla da məmləkət yaşaya bilməz. Əgər belə

özbaşına hərəkətlər hökumətin aşağı dərəcədə qulluqçularından sadir olsa, burası bir anarxiya əlamətidir ki, böylə şərait altında dövlət məsələsindən heç danışmaq olmaz. Əgər camaat, xüsusən hökumət qulluqçuları, hökumətin əmrinə əməl etmirlərsə yəqin ki, onlar hökuməti hiss etmirlər. Və ona görə hiss etmirlər ki, fəna əməlləri tənbeh və cəzasız qalır.

Belə şeylər əhali arasında hökumətə etimadsızlıq və bu hökumətə qarşı deyil, əqəliyyət təşkil edən millətlərin hüququnu tanımamaq əsası ilə qurulmuş bütün məmləkəti qəbul etməmək uğrunda mübarizə törədir.

Boş söz olmasın deyə, cənabi məbuslar, administrasiya agentlərinin cinayət işlərində iştirak və xudsaranə hərəkət etmələri haqqında mənim söylədiyim fikrimi təsdiqedici bir neçə həqiqətlər söyləyəcəyəm.

Yanvarın 18-də Ələt stansiyasında 5 nəfər erməni, iki kişi, iki arvad və bir qız uşağı vəşiyanə bir surətdə hamının gözü qabağında və qarovulların yanında qətl edilmişdir. Bu qətl edilənlər 21 nömrəli qatarın sərnişinlərindəndir. Bu münasibətlə hərçəndi, müqəssirlərin hərbi məhkəməyə verilməsi haqqında əmr sadir olmuşsa da, lakin bu vaxta qədər nə məhkəmə, nə də cəza barəsində heç bir şey məlum deyildir.

Yanvarın 29-da Yevlax stansiyası yaxınlığında, stansiyaya gedən sərnişinlər müsəlləh adamlar tərəfindən qətl edilmişlərdir. Müqəssirlər tapılmamışlar. Fevralın 2-si gecəsi Ağstafada polis üzvləri Tiflisə gedən 23 nəfər erməni döyüb, bir nəfər Əsəd ağanın işə müdaxilə etməsinə görə ermənilər salamat qalmışlardır.

Fevralın 1-də Kürdəmir stansiyasında Şamaxı rayonundakı kəndlərə gedən 30 nəfər erməni 4 nəfər milisiyə tərəfindən tuman-köynəklərinə qədər soyulmuşlar. Sonra stansiyadan bir verst məsafədə onlar təzədən əsgərlər və milisiyalar tərəfindən mühasirə edilmişlər. Ermənilərdən 20 nəfəri qətl edilib, 10 nəfər salamat qalmışdır. [417 - 418]

Fevralın 4-də Ağstafada polis məmurları uryadnik başda olmaq üzrə 40 nəfər ermənini poçt stansiyasına salıb, döyüb söymüşlər. Erməniləri 3 gün həbsdə saxlayıb, onları ən alçaq və ədna işlər görməyə məcbur etmişlərdir.

Fevralın 21, 23 və 24-də Hacıqabuldan Bakıya gələn erməni sərnişinləri milisionerlər tərəfindən qarət edilmişlərdir. Ermənilər vaqondan çıxarılıb güllələnmək qorxusundan var-yoxlarını milislərə vermişlərdir.

Gəncə rayonunda fevral ayında erməniləri tələf etmək təşviqatı ilə intibahnamələr nəşr edən namə'lum adamların fəaliyyəti ilə qarətkirlik şiddət etmişdir.

Gəncə şəhərində şəhərin müsəlman hissəsində bir neçə nəfər yox olmuşdur. Ən mötəbər bir müsəlmanın dediyinə görə Kür boyu kəndlərində hal-hazıra qədər erməni kişi və arvadları əsir saxlanılırlar. Orada həbsxanalarda və uçastoklarda bilafərq millət məhbusları incidirlər. Nuxa rayonunda indiyə qədər yüzlərcə erməni kişi və arvadları əhali yanında əsirdir. Ermənilərdən ötəri azad hərəkət yoxdur. Yollar ermənilərin üzünə bağlıdır. Gəncə quberniyasının 3-cü uçastokunda quldur dəstələri hökmfərmadırlar. Mülkədar Məmmədbəyov aşkar bir surətdə öz evində öldürülmüşdür. Bundan əlavə müsəlman rayonunda olan bir çox ermənilər qətl edilmişlərdir. Bunun nəticəsi olaraq erməni əhalisi Korana, pristavın yanına getməkdən qorxurlar. Fevralın 28-də və martın 8-də Kürdəmir və Poylu stansiyalarında yenə təzədən qarətgirlik olmuşdur. hər gün yolları qarətgirlik edib, arvadlar əsir edilirlər. Belə ki, martın 10-da bir qız uşağını təhqir etdikdən sonra əsir etmişlər ki, bu da müsəlman sərnişinlərinin narazılığına bais olmuşdur. Ən axırda Bakıda, bir nəfər şamaxılının göstərdiyinə görə martın 22-də iki nəfər erməni təhti polisi tərəfindən həbs edilmişdir. Bunlardan biri 55 yaşında bir qocadır. Bu tutulanlar nə səbəbə görə isə Şamaxıya göndərilmişlər. Bu barədə daxiliyyə naziri cənablarına xəbər verilmişsə də indiyə qədər o tutulanların müqəddəratı məlum deyildir.

Bunlar o həqiqətlərdir ki, məlumdur. Bunlardan əlavə Ərəş və Nuxa uyezdlərində onlarca kənd vardır ki, əhali. qayıda bilmir. Orada onların əmvali və yerləri qonşuları tərəfindən [418 - 419] zəbt edilmişlər. Belə görünür ki, onlar bu qaydanı adi bir şey hesab edirlər. Gəncə uyezdində Qaradağlı, Sarov və qeyri bir çox kəndlər var ki, indiyə qədər onlar beynəlmiləl məsələlərində həmişə bitərəf qalmışlardır. Onlar da ümumi bəladan xilas ola bilmədilər. Onların yerləri zəbt edilib, bağları xarab edilmişdir. Onlar da öz yerlərinə qayıda bilmirlər. Daxiliyyə nəzarətinin vəzifəsi layihədə deyildiyi kimi "xeyli ciddi və böyük işdir". Buna görə də bu hadisələri ciddi surətdə rəf etməlidir ki, müqəssirlər hökumət tərəfindən bir cəza olduğunu düşünsünlər. hər bir yapılan cinayət cəzasız qala bilməz.

Möhtərəm məbusar! Hər kəs öz fəaliyyətinə qarşı məsul olmaq prinsipini mevqeyi-icarəyə qoymalıdır. Ancaq bu yol ilə Azərbaycan Cümhuriyyəti yolunda duran estsima və xarpid abi götürmək olar. Axirüləmr camaat bilməlidir ki, hökumət müdafiə edicidir. hərgah, camaat bunu düşünərsə, o zaman dövlət təşkilatı adi halına düşə bilər. Bu münasibətlə iki nöqteyi-nəzəri bir-birinə qarşı qoymaq lazım gəlir. Hərbiyyə və daxiliyyə nəzarətlərinin nöqteyi-nəzərini Hacıqabul müqəfində hadisədən dolayı parlament fraksiyası həm daxiliyyə, həm də hərbiyyə nəzarətinə məlumat vermişdi. Hərbiyyə nəzarətinə onun üçün bildirmişdi ki, bu qarətdə əsgərlər də iştirak etmişdi. Bundan əlavə daxiliyyə nazirinə bildirilmişdi ki, Gəncə dairəsində ermənilərə qarşı fitnəkarlıq gedir. Bu barədə qəzetlərdə məlumat verildiyi kimi ümumda əhvali-ümumidə hərbiyyə naziri artıq diqqət ilə bu məsələyə yanaşdı. Onun cavabından anlaşılır ki, hərbiyyə naziri cavab gözləmədən, qəzetlərdən bu hadisəni bilib müqəssirləri tutmaq üçün ciddi tədbirlər ittixaz edilmişdir.

Daxiliyyə naziri nə cavab verdi? Qarət barəsində olan suala cavab verir ki, bə əhval onun təhti-idarəsində olmayan yerdə vaqe olduğundan məsələnin ona dəxli yoxdur. İkinci məsələ barəsində cavab verir ki, Gəncə barəsində heç bir məlumatı olmadığı üçün bu xüsusda Gəncə qubernatorundan cavab istəmişdir. Bundan görünür ki, hərbiyyə naziri işə əhəmiyyət verir, dövləti nöqteyi-nəzər ilə hərəkətdə bulunur, amma daxiliyyə nəzarəti bu mühüm məsələdə irsal-mərsula başlayıb, bu ana qədər kafi cavab verməmişdir. [419 - 420]

Köhnə rejim üçün belə möhlük olan irsal-mərsul sistemi ləğv edilməlidir. Dövlət kimisi böylə əhəmiyyətli və iş tələb edilən bir zamanda irsal-mərsul ilə uğraşmamalıdır. Təəssüf olsun ki, biz bunun əksini görürüz. Buna görə əfəndilər, daxiliyyə nəzarətinin bu qanun layihəsinə biz səs verməkdən çəkiniriz, nə zamanki daxiliyyə nəzarətinin fəaliyyətində xeyrli bir nəticələr gördük, o zaman ancaq qanun layihəsinə səs verə biləriz. Mən inanmaq istərdim ki, o vaxt da gələcəkdir.

**Sədr** - Natiqlərin sualı bitib. Danışan varsa, yazıb versin. Danışan yoxsa, söz hökumət üzvü Xəlil bəy Xasməmmədovundur.

**Xasməmmədov** - Möhtərəm məbuslar! Burada bir neçə söz söyləndi. O sözlər barəsində mən fikrimi demək istərəm. Əlbəttə ki, hamıya bu nəzər ilə baxılsın. Az millətlərin də hüquqları müdafiə edilsin. Bu barədə söz ola bilməz. Siz özünüz bilirsiniz ki, bizim məmləkətdə olan başqa millətlərin hər vaxtda hüququ müdafiə olunub və haqları verilibdir. Doğrudur, yeni təşkil edilmiş dövlətlərdə çox şeylər olur. Natiqlərin biri, əlbəttə Hacıqabulda olan hadisələri söylədi! Doğrudur, belə şeylər olub, parlament də bilir. Bilirsiniz ki, hər dəfə məmurlar göndərilmişdir və müqəssirlər məhkəməyə verilib və məhkəmənin qərarını gözləyirik. Bilirsiniz ki, bu iş məhkəmə ixtiyarındadır. Əlbəttə, hər məmləkətdə, hətta Fransada da, İngiltərədə də cinayət olur. Şübhəsiz ki, 6-7 aylıq tarixi olan təzə bir məmləkətdə də belə şeylərin olması mümkünatdandır. Bəni insan arasında həmişə cinayət olacaqdır. Bizim də borcumuzdur ki, bu cinayətləri yapanları tutaq verək məhkəməyə, o da axırıncı sözünü desin. Cinayət hər yerdə olur. Fəqət, çalışmaq, əhalini canilərdən müdafiə etmək lazımdır. Hökumət və daxiliyyə nəzarəti bu yol ilə gedib və gedir də. Ancaq hamı işləri birdən düzəltmək mümkün deyildir. Cinayət bir yerdə deyil, cürbəcür yerlərdə olur. Bunların hamısını birdən-birə tapmaq çətindir. Böylə işlər yalnız bizdə deyil, özgə yerlərdə də olur. Biz cəmi fikrimizi ona veririk ki, canilər tutulub cəzaya giriftar olsunlar. Bu bir fikirdir ki, daxiliyyə nəzarəti və hökumət bunu gərək aparsın. Bu fikirdən kənar durmasın. Yoxsa ola bilməz ki, nəzarət öz vəzifəsini yerinə yetirməsin. Mən yenə sizə ərz edirəm ki, bu [420 - 421] qanun layihəsinə gərək bu nöqteyi-nəzər ilə baxılsın. Əvvəl sözüm də söylədiyim kimi baxılmalıdır. Daxiliyyə nəzarəti xidmətçilərinin məvacibləri az olduğundan bu layihə yanvarın əvvəllərində daxiliyyə nəzarətində düzəldilmişdir. Əski hökumət təzə hökumətin ixtiyarına keçdikdən sonra hökumət gördü ki, məmurlar dolana bilmirlər. Məmurlar yaxşı dolanıb və yaxşı qulluq etsinlər deyə hökumət onların maaşlarının artmasını təhti qərara aldı. Çünki ac qulluq olmaz. İkincisi, qanunda anlatdıq, ərz etdik ki, bir neçə məmuriyyət də var ki, bizə lazımdır. Biz bunu layihədə yazdıq. Bu barədə bəhs ola bilər ki, bu məmuriyyətlər bizə lazımdır və lazım deyildir. Siz qəbul edərsiniz, edərsiniz-etməzsiniz dəxi bəhs olmaz. Burada deyildi ki, indiki hökumət Nikolaydan da o yana getmişdir. Mən deyərdim bu söz gözəl sözdür. Bu barədə qanunlar vardır. Məlumdur ki, hökumətdə iki şey olanda biri Zemstvo, biri bələdiyyə işləri düzələndə daxiliyyə nəzarətinin işləri yaxşı gedir. Nəzarət məmurlarının bir çoxu onların ixtiyarına keçir. Və bu da açıq bir məsələdir ki, camaat öz işini özü aparıb, özü idarə edərsə yaxşı olar. Bu o qədər açıq məsələdir ki, bu barədə söz ola bilməz. Zemstvo və bələdiyyə gərək düzəlsin, camaat özünü idarə etsin, lakin indilik Zemstvo yox, bələdiyyə idarələri nizamsız, bunlar da nə vaxt olsun, 5 gündə, 10 gündə, 2 ayda qurulası deyildir. Burada işləmək, düzəltmək lazımdır. Mən əvvəl sözümdə dedim ki, bu işdən ötəri bizə ən əvvəl adminstrativni idarə lazımdır. Biz gərək məmləkətimizi vilayətlərə bölək, ondan sonra Zemstvo və qeyri idarələr düzəldək. Şimdiki vaxtda pul məsələsi çətin və birinci şərtdir. Siz bilirsiniz ki, bundan əvvəl müntəzəm və mütəşəkkil bələdiyyə idarəsi Qafqaziyada ən gözəl idarələr-dən biri idi. Gözəl xəstəxanaları, məktəbləri və qeyri müəssisələri vardı ki, böyük zəhmətlər ilə düzəlmişdi. İndi bələdiyyə idarəsi o haldadır ki, özünün də parası yoxdur. Niyə yoxdur? Orası uzun mətləbdir. Zemstvo da bilsə bunlar elə bir şey deyil ki, bir dəqiqədə iki qanun yazmaqla düzəlsin. Mən heç fikir etmirdim ki, bu balaca qanundan ötəri bu qədər bəhs olunub və çox söz danışılsın. Əlbət ki, 5 min məmur arasında ola bilir ki, bir neçə məmur xain olsun. Lakin aralarında canlarını qurban edənlər də az deyildir. (Soldan: Doğrudur). [421 - 422] Məsələn, bu günlərdə canilər pristavımızı və qaradovoyu yaralayıblar, 5 mindən ziyadə məmurlar arasında məvacib deyil, millətpərəstlik, vətənpərəstlik üçün 400 manat məvacib ala-ala vətəni üçün canlarını fəda edənlər vardır. Çox məmurlar üstünə sözlər atırlar. Bu sözlər onların hüsnü-qüvvəsini azaldır. ona görə hər dəfə daxiliyyə nəzarəti məmurlarına ümumən oğrudur, demək olmaz. Kim ki, oğrudur, fənadır, cinayət yapır, parlament üzvlərinə lazımdır ki, həmin məmurun adını desin, cinayəti haqqında sənədlər-sübutlar gətirsin, hökumət də, daxiliyyə nəzarəti də onları məhkəməyə verir, öylə işlər də məmləkətdə, millətə xidmət və kömək olar. Yoxsa, ümumi administrasiya belə oldu, elə oldu deyə tənqid etmək iyi nəticə verməz.

Mən sizdən rica edirəm ki, həmin qanun layihəsini təsdiq edəsiniz, maaşlar azdır. Bir də burada çox deyirlər ki, Nikolayın vaxtından çox məmurlar artırırsınız, buna lüzum yoxdur. Fəqət, onu bilməlisiniz ki, halımız eylədir ki, bu saat hər bir iş daxiliyyə nəzarəti öhdəsinə salınmışdır. Məsələn, xətti-hüdudi polis məmurları

saxlayırlar. Kontrabanda işinə baxmaq administrasiya üstünə düşübdür. İşləri o qədər çoxdur ki, onları saxlamaq lazımdır. Qanunda gördünüz ki, bu işlərin çoxu əsgər işi idi. Bu işlər əsgəri qüvvə ilə düzələ bilərdi.

Məsələn, dustaqxana, xəzinə və qeyri hökumət müəssisələri əsgəri qüvvə ilə mühafizə olunmalıdır. İndi bunların hamısı polis əlindədir, layihədə deyirik ki, bunun üçün də qaradavoy artsın. Məlumdur ki, qaradavoy artanda okolodıçni və pristav da artar. Ona görə xahiş edirəm ki, layihədə bu nöqteyi-nəzərdən baxılsın. Dəxi o nöqteyi-nəzərdən baxılmasın ki, administrasiya artırırsınız ki, cinayət yapılsın. Xayır, bunu böylə başa düşməməlidir.

Bir-iki söz də Malxazovun dediyi hürriyyəti-şəxsiyyə, təmamiyyəti-mülkiyyə məsələləri haqqında demək istərdim. Onlar böyük məsələlərdir. Bunun da vaxtı var. O vaxt yetişəndə o məsələyi ortaya qoyanda danışırlar. (Soldan: Nə vaxt?) Mən sizə dedim ki, böylə işlər başqa yerlərdə, hətta böyük məmləkətlərdə də vardır. Bunlar üçün əlbəttə qanun lazımdır. Hökumət də bilsin, əhali özü də bilsin ki, nə cür rəftar lazımdır, bəlkə [422 - 423] də elə bir zaman gəlsin ki, haman — hürriyyəti-şəxsiyyəsi, hürriyəti-mətbuatı müdafiə etmək lazım olsun. İndiki halda demək olar ki, çox qanunsuzluqlar olur və qabağı alınmayır. Çünki hüriyyət özgə cür başa düşülmüşdür. Buna görə lazımdır. hər şeyin hüdudu, qanunu olsun ki, əhali də məmurları bilsinlər. Mən təklif edirəm ki, layihəni qəbul edəsiniz, çünki gözlənir.

**Sədr** - Söz Qasım bəy Camalbəyovundur.

**Camalbəyov** ("Hümmət") - Möhtərəm məbuslar! Qanun layihəsi əleyhinə yoldaşımdan sonra özgə bir şey söyləmək istəmirəm. Ancaq demək istəyirəm ki, nazirin verdiyi izahat hərəkətləri ilə düz deyildir. Bir neçə gün bundan əvvəl fraksiya tərəfindən Kəbirli kəndliləri məsələsi xüsusunda cənab ministrin hüzuruna getmişdim. Həmin məvaciblərini artırmaq istədiyiniz məmurlar Kəbirli kəndində spanka xəstəliyi tutan kəndliləri Ağa bəy Kəbirlinskinin əmri ilə uduzmuş mülkündən çıxarıb çölə tökmüşlər. Kəndlilər rica edirdilər ki, o mülkü onların ixtiyarında qoysun. Mən neçə gün ayaq döydüm. Fəqət, ispolnitelnı list, əldə hökm var. Bu da ki, olanda ayrı söz ola bilməz. Dəxi mirovoy suddan soruşmaq olmaz ki, doğrudanmı kəsib ya yox? İki həftə cənabi ministrin dəftərxanasında o komissiyadan bu komissiyaya gedib-gəldim. Orada nələr gördüm, deyə bilmərəm. Özləri buradadırlar, bilirlər. Dedilər işi göndəririk təhqiqata. Qorxdum ki, sənəd oğurlansın, min məşəqqətlə axırda işi portfeldən çıxartdım. Bundan əlavə Qazax uyezdində Ağtəkələ və Qaratəkələ camaatının yarım milyonluq malını komissar tutub, bağışlayın komissor dedim, uyezdni naçalnik camaatdan külli pul alıbdır, hələ də vermir və bir cavab da yoxdur. Qazax uyezdində nələr olur? Bu cümhuriyyətdir? Ya Nikolay hökumətidir? Tiflis sərhəddini keçəndən sonra fənərlər sönür, camaat qaranlıq içində gəlir. Oğrular gəlib qonşu vaqondan dəsmal ilə qızıl aparırlar.

**Mərkəzdən** - Nefttuluğda qatarı qarət, oğurluq, milyon... Sizi soymadılar ki?

**Sədr** - Rica edirəm, natiqə mane olmayasınız.

**Camalbəyov** (davam edir) - Bunu mən doğru deyirəm. Mənim qəlbim qan ilə doludur. Allah haqqı, and olsun allaha. (Ümumi [423 - 424] gülüş). Belə idarə ola bilməz. Mənim bir qəpik verməyə əlim gəlməz. Bu idarə deyil, bu idarədir ki, otursunlar, idarədə səpmə yatalaq ilə xəstəxanada yatan parlament üzvünün dalınca desinlər ki, guya Nərimanov gəlib onunla görüşüb, danışıbdır, bu idarədirmi? Bu cümhuriyyətmi? Yaraşırmı cümhuriyyətə? İnsanların vicdanına toxunan şeylər ilə camaatı soyurlar, atasını yandırırlar, anasına da od vururlar. Bu idarədirmi ki, bir nəfər iki günlük ət alıb aparanda qaradovoy tutub deyir ki, bir belə əti neynirsən? Tutub rüşvət alıb buraxır, hamısı rüşvət alırlar. Durublar, körpünün ağzında gəmidən çıxanları rüşvət almamış buraxmırlar. Vağzalda jandarmaya 100 manat rüşvət verməmiş heç bir kəs kassaya gedə bilməz. Bunları mən özüm görmüşəm, ürəyim doludur. Fürsətdir, deyirəm bütün bu taqsırlar sizdədir, hamınız bilirsiniz. hamınız onlar ilə əlbirsiniz. Məmləkətdə nə olursa, hamısını bilirsiniz.

**Sədr** - Söz Rəhim Vəkilovundur.

**Rəhim Vəkilov** ("Müsavat") - Bu cürə gurultulu tənqidləri biz bu məqamda heç münasib görmürük.

**Soldan** - Bəs nə vaxt münasib görürsünüz?

**Sədr** - Rica edirəm natiqə mane olmayasınız.

**Rəhim Vəkilov** (davam edir) - Ona görə firqəmiz tənqidi artıq gördü. Hökumət gedir, yerinə təzəsi gəlir. Ortada layihə var. Onun qəbulu məsələsi müzakirə olunur və sosialistlər onu qeyri-məqbul görürlər. Şimdi mən sual edirəm: sabah daxiliyyə naziri sosialistlərdən olsa, gərək bu layihə münasibdir ya yox?

**Soldan** - Xayır, münasib deyil.

**Rəhim Vəkilov** - Mən burada tənqid görmürəm. Bu narazılığın səbəbi daxiliyə nazirinin şəxsinə olan xüsusi qərəzdir.

**Soldan** - (Qarışıq, gurultulu səslər).

**Sədr** - Rica edirəm, natiqə mane olmayasınız. Yerinizdən danışmayın. Səməd ağa, mən sizi qanuna dəvət edirəm. Əks halda nakaza görə rəftar etməyə məcbur olacağam.

**Rəhim Vəkilov** (davam edir) - Doğrudur, bu narazılığı rədd edə bilmərik. Bəlkə bu tənqidlər hökumət gedəndə gələn nazirlər üçün nəsihət olsun. Yainki heç bir şeyə dəyməz. Məsələn [424 - 425] var ki, deyirlər ölənə ya rəhmət oxuyarlar, ya da heç nə deməzlər. (Ümumi gülüş və soldan alqış). Ona görə mən deyərdim ki,

daxiliyə nəzarətinə olan ziddiyyəti bu layihəyə bağlamayaq və bu layihəni rədd etməyək. Qanun layihəsini qəbul etmək lazım gələcəkdir. Çünki məmurlar dolana bilmirlər, maaş artırılmasını gözləyirlər. Maaş artırılması yaxşı olar. Təklif edirəm ki, bu qanun layihəsi qəbul olunsun.

**Əhməd Cövdət Pepinov** - Əfəndilər! Hər bir qanun ki, parlamentdən keçir, onun barəsində bizim bir nöqteyi-nəzərimiz var. Gərək bu qanunun camaata füqreyi-kasibəyə nə qədər mənfəəti ola bilər. Onu mülahizə etdikdən sonra qanunu ya qəbul ya da rədd edəriz. Yoldaşımızın söylədiyi bu nöqteyi-nəzərdən idi və Səməd ağa bu nöqteyi-nəzəri ilə daxiliyyə nəzarətinin layihəsinə səs verməyəcəyimizi söylədi, fəqət, məndən əvvəl söyləyən daxiliyyə naziri cənabları buyurdular ki, indi qanunu tənqid etmək yersizdir, çünki nəzarətin işləri qayda üzrə gedir və Azərbaycanda lazımi əhəmiyyəti vardır.

Əfəndilər! Üsuli-idarə xüsusunda indiyə qədər iki nöqteyinəzər vardı. Əvvəlinci nəzər padşahların, çarların, soltanların yer üzündə Allah-taala vəkili olduqlarını iddia edərək üsuli-idarədə onların əmri lazım olduğunu və camaatın bilaqeyd, bilaşərt onlara tabe olması lazım gəldiyini söyləyirdi. İkinci prinsip isə demokratizm əsası idi ki, bu fikrə görə bütün ixtiyar gərək camaat əlində bulunsun və üsuli-idarə camaatın istədiyinə görə düzəlsin. Bizim yoldaşlar, sosialistlər indiyə qədər prinsip davası çəkirdilər. Birinci fikrin əsassız olub demokratizm fikrinin haqlı olduğunu isbat etmək üçün dəlillər gətirirdilər. Fəqət, Rusiya inqilabi-kəbirlindən sonrakı çarların, qeysərlərin, imperatorların taxtları sərnigun oldu, birinci prinsip demokratizm səlinin qüvvəti ilə süpürülüb ortalıqdan götürüldü. İndi bu saat dünya üzərində demokratizm əsasları artıq hökmran oldu və kimsə bunların əleyhinə çıxmağa cəsarət edəmir. Demokratiyanın, xalqın ziddinə olanlar indi başqa bir yol götürmüşlər. Söz demokratizm əsaslarının etiraf və qəbul etməklə bərabər işdə bunun əksinə gedirlər. Bu gün baxınız, dünya, cahan gəbirləri Aloyd Corc və Vilsonlar və arkadaşları dəxi demokratizmdən bəhs edirlər, xırda millətlərin müqəddəs haqlarından dəm vururlar. [425 - 426] Fəqət, işə gəldikdə Osmanlı məmləkətlərini, Rusiya və Avstriya torpaqlarını, Almaniya koloniyalarını kəndi aralarında təqsim edir və onlarda ağalıq etmək istəyirlər. Bir çox adamlar, firqələr dəxi indi söz də (demokratizm əsaslarını qəbul edirlərsə də işə gəldikdə bunun əksini işlətməyə çalışırlar. İşdə bu gün zikr etdiyimiz qanuna gəldikdə, biz də deyirik ki, idarə məmurlarının aldıqları pul kifayət etmir. Məvacibləri gərək artırılsın. Fəqət, qanunun mahiyyətinə bərəks getmiriz. Fəqət, daxiliyyə nəzarətinin indiyə qədər işlətdiyi və camaat üçün fəlakətli olan siyasətinin əleyhinə gediriz. Biz də istəriz ki, adminstrasiya və polis idarələri qaydaya qoyulsun, düzgün olsun və məmurlar xalqın canını və malını təmin etsinlər. Fəqət, qanun layihəsini qəbul etməklə bizim istədiyimiz təmin edilir. Çünki nəzarətin siyasəti yenə əski qaydası üzrə qalır. Daxiliyyə naziri cənabları bizə isbat etməyə çalışdı ki, polis nəfəratı arasında çoxcanfəda və vətənpərəstlər vardır. Hərgah doğrudan da çoxusu belə olsaydı, sözümüz yox idi. Fəqət, ayrı-ayrı canfəda fərdlər bulunmaqla bərabər bir çox məmurlar da var ki, öz qaradovoylarını yanına alıb gecələr çapğınçılığa gedir, xalqın evini soyur, başını kəsir. Bir çox polis nəfəratı şimdi böyük pullar sahibi olmuşlardır. Məsələn, Qazax uyezdinin başında olan polis naziri neçə ay bundan əvvəl heç bir şeyə malik olmadığı halda bu gün çapğınçılığı və xəyanəti sayəsində milyonlar sahibi olmuş və Tiflisdə mülk üstünə mülk alır. (Soldan alqış!) Bu kürsüdən dəfələr ilə bu barədə danışıldı, nəzarətə işarət edildi. İndi haman şəxs qazandığı pulları kafi görüb qulluqdan əl çəkmək istədikdə nazir cənabları istefasını qəbul etməyib "qal və çapğınçılığa da davam et!" -deyir. (Soldan alqış!) Daxiliyyə naziri cənabları hökumətin istefasından sonra özünün liberal, hürriyyətpərvər bir şəxs olduğunu isbat üçün qubernatorların adına bir müraciətnamə sadir etmişdir ki, orada idarə məmurlarının bir çoxunun yaramaz və əyri olduğunu göstərir və qubernatorlara əmr edir ki, polis idarələrini elə adamlardan təmizləsin və düzgün məmurları qəbul eyləsin. Fəqət, əfəndilər, əvvəlcə dediyim kimi bu bir gözəl nümayişdir. Və yazılanlarla nazirin tutduğu işlər bir-birinə təvafüq etmir. Nazir cənabları nəzarət [426 - 427] başına gəldikdə bu elannamə ilə başlamalı idi və onu həqiqətdə mövqeyi-icrayə qoymalı idi, nəinki istefaya çıxdıqdan sonra baxınız qubernatorlara polis idarələrini düzəltməyi əmr edərək və məsuliyyəti onların üzərinə qoyduğu halda Zaqatalaya qubernator olmaq üzrə sizə və bütün Azərbaycana məlum olan Nikolayın köhnə məmurlarından öz rüşvətxorluğu ilə və qaçaqlarla əlbirliyi ilə məşhur olan bu zatı təyin edir. (Soldan alqış!) Və zati əfəndilərə tapşırır ki, idarələri düzəltsin, əyriləri çıxartsın və düzgün adamları qulluğa qoysun. Bu gülünc deyilmidir. əfəndilər? Nəzarət bizdən polis məmurları məvacibi üçün 60 milyon camaat pulunu tələb edir.Əlbəttə veririk və bundan ziyadə veririk, fəqət bu şərtlə ki, camaatın əmin-amanda olacağı bizə məlum olsun. Nazir əfəndinin söylədiyinə görə polis nəfərləri bu gün sərhədlərimizi düzəltmək kimi və kontrabanda ilə mübarizə etmək kimi vəzifələrini görürlər. Fəqət, biz hamımız və bizimlə bərabər nəzarət də bilməlidir ki, sərhəddə olan kontraband (qaçaq mal aparmağı) hamıdan ziyadə polis idarələri özləri edirlər və yaxud onların köməklikləri ilə olur. Bir vaxt var idi Gürcüstan sərhəddində neft əvəzinə neft möhtəkirçiliyi kontrabandaçılığı meydan almışdır. İndi neft əvəzinə çörək kontrabandası və möhtəkirliyi polis nəfərlərininköməkliyi ilə davam etməkdədir. Əlbəttə, hər bir idarə içində olduğu kimi daxiliyyə nəzarətinin içində də pis adamlar var, canilər, əyrilər ola bilir. Amma əyər daxili nəzarətinin siyasəti, sistemi düz olsaydı, nəzarət böylə ünsürlər və adamlar ilə mübarizə edər və islaha çalışardı. Amma biz nəzarətin siyasətində əksini görürüz. Haman yaramaz adamlar iş başında oturur, heç bir tövr ilə onlardan xilas ola bilmirlər. Çünki nəzarət bunları bilir, kömək edir.

Nazir cənabları buyurdular ki, əlbəttə o da demokratizm tərəfdarıdır. Və istər ki, polis idarələri bu əsas mocibincə şəhər Zemstvo idarələrinin əlinə keçsin, fəqət əfəndilər, bu da ancaq sözdür. Ancaq işə gəldikdə nəzarətin başqa bir siyasət yürütdüyünü görürüz. Bakı bələdiyyə idarəsinin fəaliyyətini görürsünüz, get-gedə yatır. Və ixtiyarlar yavaş-yavaş "Sentrodum" deyilən müəssisəyə keçir. Bunu anlayan indiki Duma öz fəaliyyətini artırmaq üçün sosialist fərqələrini Dumaya [427 - 428] kirmələrini lazım bilib, bu barədə Dumanın qətnaməsinə görə, bu layiheyi-qanuniyyəyə iki ay bundan əvvəl daxiliyyə nəzarətinə göndərmişdir. Fəqət, nəzarət təcili bir kaç günün içərisində buna baxıb parlamentə daxil etmək imkanında ikən bunu etməyib, indiyə qədər qanunu mahud altında saxlayır. Hökumətin qərarına görə daxiliyyə nəzarəti yanında yeni bələdiyyə qanunu düzəltmək üçün bir komisiyon təşkil olunmuşdur. Fəqət, üç aydır ki, nazir əfəndi nəzarət başında bulunduğu halda, indiyədək gözlənilən qəti bir tədbir görülməmiş, komissiyonların işlərindən xəbər yox və bu qanunlar nə vaxt düzəlib gələcəyini söyləmək də pək müşküldür. Nazir əfəndi söyləyir ki, bu qanunlar yavaş-yavaş düzələr, heç 5-6 aya bəlkə hazır ola bilməz. Mən zənn edirəm ki, heç 6 ildən sonra nəzarətə qalarsa, bu qanunları hazır edib çıxartmaz. Çünki nəzarətin fikrincə, nəzarətin idarəsi daha yaxşıdır. Köhnə Rusiyada da xalq idarəsi tələb edirlərkən o zamanın daxiliyyə naziri Protopopov inad etdi, çünki o da zənn edirdi camaat hələ hazır deyil, axırda Rusiyada camaat qiyam edib, yeni idarə haqqını aldı. İndiki nəzarətin yürütdüyü siyasət də belə xalq mənfəətindən uzaq bir siyasətdir. Bu gün biz Azərbaycan istiqlalını müdafiə ediriz. Lakin lazımdır ki, bu müstəqil idarə içində xalq, füqərəyi-kasibə qurulan idarədən razı olsun, onu saxlamaqda mənfəəti, interesi olsun. Taki sabahlara təhlükə üz verdikdə həmən camaatı müdafiəyə çağırmağa mümkünümüz olsun, haqqımız olsun. Nəzarətin bu siyasətindən isə füqərayi-kasibə zərər gəlir, deməli ki, bu siyasət həm camaatın, həm dövlətin, həm hürriyyətimizin fəlakətinə səbəb ola bilər. İşdə bunun üçündür ki, əsasən bəlkə də qanunun əleyhinə olmadığımız halda, ancaq nəzarətin siyasəti ilə razı olmadığımız üçün bizdən istənilən pulların verilməsinə səs verilməyəcəyiz. (Soldan alqış!).

**Məmməd Əmin** ("Müsavat") - Bizim nöqteyi-nəzərimiz əvvəl başdan müəyyəndir. Bu kimi tənqiyalər büdcə müzakirəsi əsasında olmalıdır. Meydandakı qanunu istəmiriz demək və ağzı köpüklü, hökuməti Nikolay hökumətinə bənzətmək, hamınız bu xəyanətlərdə müqəssiriniz deyə nəzakətdən xaric bir vəziyyət almaq, vəziyyəti anlamamaqdır. Bir halda ki, hər bir şey təzədən qurulur. Məclisi-Məbusan öz aralarında bir neçəsini [428 - 429] seçib nazir etmiş, yerdə qalanlar da oturub özlərinə məbus demişlərdir, belə bir halda vəziyyət almaq ki, nə gəlirsə gəlsin, qəbul etməyəcəyik, doğru olamaz. Bunu Nikolay hökuməti zamanındakı şəkli-hökumət ilə əsasından düşmən olan qeyri-məsul müxaliflər yaparlardı. Onların hərəkətində məntiq də vardı. Əhməd bəy Pepinov dedi ki, zəmanəmiz Nikolay zamanına oxşayır. Sonra bizə hökumətlər haqqındakı nəzəriyyələrdən bəhs elədi. Hökumətin bir nöqteyi-nəzərində müəyyüd, münəndullah, digər tərəfdən xalqdan doğma nəzəriyyəsi olduğunu anlatdı. İkinci nəzəri-məziyyətin, faydasını vək ədalətə müvafiq olmasını da ayrıca anlatdılar. Burada Ağamalı oğluna bir nəzirə yaparaq bir anektod hazırladım. Bir də bir hekayə söyləyəlim: "Göylünün birisi kənddən şəhərə ərbaba pay gətirmiş idi. O pay içərisində bir toyuq da var idi. Ərbab toyuğu almayıb dedi ki, apar sal qazana, tüklərini üt, təmizlə ver uşaqlar yesin. Kəndli təzim ilə dedi ki, Allah xana ömür versin, yoxsa tüklü-tüklü yeyəcək idik." Allah sosialistlərə ömür versin ki, hökumət haqqında müxtəlif nəzəriyyələr mövcud olduğunu bizə anlatdılar. Allah onlara həqiqətən ömür versin, yoxsa ki, biz bunu bilməyəcəkdik.

Daxiliyyə nəzarətinin bir çox şayani-tənqid cəhətləri var. Əsasən tənqid sırası olduğuna qane olsaydıq, biz də burada bir çox şeylər söylərdik. Fəqət, bir tənqid nəticə etibarı ilə mənfi və müsbət bir qərara məcib olmalıdır. Müvəqqəti bir əlac olmaq üzrə daxiliyyə nəzarəti məmurların məvacibinin artırılmasını lazım görür. Bu lüzumu kəsb etdirəcək və buna inkar edəcək tənqidatın yeri deyildir. Tənqid üçün tənqiddən bir şey çıxmaz. Mənfi cəhətləri tənqid edərkən müsbət çarələr göstərilməlidir. Bu tənqidatımızı büdcə müzakirəsinə buraxırız. Onlar tənqid etdilər, fəqət bir çarə demədilər. Çarələri yalnız pul vermiriz, məvacibləri artırmayız oldu. Ağa Eminov müxtəsər nitqində nə kimi əsaslı tədbirlər görülməsi lüzumunu göstərdi. Tənqid dövlət nöqteyi-nəzərindən olmalıdır. Yoxsa əlinə bir nizə alıb, bir arıq ata minib hər qaraltıya hücum etmək ciddi bir məbus işi deyildir. Burada erməni fraksiyası tərəfindən danışdılar. Danışan natiq tənqidatında öylə yüngül və mitinqlərdə söylənilən sözlərlə [429 - 430] danışmadı. O, doğrudan da tənqid etdi. Onun tənqidi tənqidə oxşadı. hökumət nöqteyi-nəzəri ilə bir çox şeylər söylədi.

Fəqət, sözünün əvvəlində bunu da bildirdi ki, Rusiya inqilabı hürriyyəti-şəxsiyyə əvəzinə Rusiyada sinfi mübarizəsi bizdə, Qafqaziyada dəxi sinif mübarizəsi adı ilə millətlər ixtilafı törətdi. Hürriyyəti-şəxsiyyə təmin olunacaqdı. Əvəzinə şəxsin qiyməti endi. İnsan öhtədən düşdü. Buna misal olaraq Azərbaycan həyatından erməni vətəndaşlar haqqında vaqe olan hadisələrdən bir silsilə nümunə göstərdi. Onlardan bir çoxunun məsuliyyəti kəndi öhdələrinə buraxmaqla bərabər deyirəm ki, bunlardan bir qismi bəlkə də həqiqətdir. Vaqe olmuşdur. Fəqət, bu hadisələr getdikcə azalmaqdadır. Bunu da qeyt etməliydi. Özləri dedilər ki, araya milli ixtilaf düşmüşdü. Bu ixtilafın nəticəsində ruhi bir xəstəlik hasil olmuşdur. Onun üçün bəzi hadisələr zühuri qeyri-ixtiyari olaraq hasil olur. Söylədikləri milli mübarizənin qeyri-məmul hadisələri arasında zühur edirsə, bu yalnız Azərbaycanda deyil, yeni təşkil olunmuş qonşu hökumətlərin hamısında vardır. (Mərkəzdən alqış!). Mən

bununla əlbəttə Azərbaycandakı hadisələri müdafiə etmirəm. Yalnız deyirəm ki, görülən bu hallar keçirmiş olduğumuz macərculuqlar bir milləti digər millət əleyhinə salmaq kimi böyük anarxiya zamanının müəssif tərcəsidir. Bütün aləm o anarxiyanın təsiri altında ikən birdən-birə qalxıbda Azərbaycanın bir anda cənnət olmasını istəmək heç bir şey istəməmək deməkdir.

Bu hadisələrlə şiddətli mübarizə etməlidir. Hökumət öz vəzifəsini yaxşı görə bilmək üçün digər çarələrlə bərabər maaşların artırılmasına müxalifət etmək yalnız qeyri-məsul olan müxalifətin məntiqidir. Düşmənanə bir vəziyyət alıbda bunu istəmirəm, bunu qəbul etmirəm, demək xeyirli olamaz.

Bunu da unutmamalıdır ki, belə düşmənanə rəftar etdikləri hökumət Əhməd bəyin qorxduğu kimi zillullah tərəfindən deyil, tənqidçilər tərəfindən təşkil edilən hökumətdir ki, istədikləri zaman dəyişir. Nasıl ki, şimdiki hal istefadadır. Tənqid olmalı, fəqət, gözü yumulu deyil, xeyirxanə tənqid olmalıdır. (Sağdan və mərkəzdən alqış!). Mən istərəm ki, məmurlar rüşvət almasın. Bir an əvvəl maaşların artırılmasını qəbul edirəm və deyirəm ki, biz bu parayı verdik sizə [430 - 431] istədiyimiz intizamı və asayişi bərpa ediniz. Bununla bərabər özüm də fəal olaram, işlərəm, komissiyon iclaslarına gələrəm, layihələr hazırlayaram. Və hökumətə tənqidlə bərabər o xüsusda kömək də edərəm. Yalnız mənfi tənqid ilə hökumətə kömək eləmək mümkün deyildir. Müsbət surətlə çalışmaqla da hökumətə kömək etməlidir. Yoxsa, yalnız Nikolay zamanını xatırlamaqla iş düzəlməz. Nikolay zamanında məhkum millətlər hökumətdən daima zülm görmüş, ona görə də ruhlarında hökumətə qarşı daimi bir müxalifət xasiyyəti tərbiyə olunmuşdur. Bu ruhiyyətlə biz indi də xəstə kimi görünürüz. Hökumətə qarşı müxalifət bizim mühakimatimizə üskün olur. Bu kürsüyə çıxıb məcuzabanə bir surətdə "Siz hamınız, sizsiniz!" tərzində iradeyi-kəlam edərək müvazinədən çıxmaq və “zəmanəmiz Nikolay zamanından da betərdir” demək, bu xəstə zehniyyatın məhsuludur. halbuki Nikolay zamanındakı Rusiya ərazisi üzərində təşəkkül edən cümhuriyyətlər müqayisə edilərsə, Azərbaycan bəlkə intizamlısı və əhəmiyyətlisi çıxar. (Alqış!).

**Sədr** - Məclisə davam ediriz. Rica edirəm yerlərinizi işğal edəsiniz. Məsaili-yomiyyə elan edilərkən iki məsələ unudulmuşdur. Birincisi, Azərbaycan hökuməti ilə Ermənistan və Gürcüstan hökumətləri arasında poçta-teleqraf münasibəti haqqındakı müqavilənamə. ikincisi, məhkəmeyi-hərbiyyə təsisi haqqındakı layiheyi-qanuniyyə. Bir də tənəffüs vaxtı bəratül-qövldən aşina olmuşam ki, Camalbəyov öz nitqində hökumətə müraciətlə demişdir ki, rüşvətxorluqda və cinayətlərdə siz onlarla əlbirsiniz. Mən bu sözü eşitməmişəm. Parlament adətində belə şeylərə məhəl verilməz. Eşitsəydim gərək onu dayandırardım.

Ancaq şimdi Nizamnaməyə görə mənə verilən ixtiyarla Camalbəyovu nizam və qaydada dəvət edirəm. Növbədən xaric söz Əliheydər Qarayevindir.

**Qarayev** - Yoldaşımız Camalbəyovun danışığından fraksiyamızın xəbəri yoxdur. Binaən-ileyh Camalbəyovun öz sözlərinin məsuliyyətini fraksiyamız öz öhdəsindən atır.

**Camalbəyov** - Möhtərəm əfəndilər! Mən deyirəm, təkrar edirəm, hökumət bu işləri bilir.

**Sədr** (onu dayandırır) - Hərgah izahat vermək istəyirsiniz buyurunuz yoxsa, haman sözü indi başqa dürlü demək istəsəniz mən sizə söz vermirəm. [431 - 432]

**Camalbəyov** - Mən onu demək istəyirəm ki, mənim hökumət əzasından heç kəslə şəxsi qərəzim yoxdur. Mən o idarə ki, var onu tənqidə çıxmışdım, buna haqqım da var və həmişə də edəcəyəm, fəqət, ola bilir ki, hirs vaxtı nalayiq bir söz demişəm. Şimdi onun üzrünü istəyirəm. (Gülüş və alqış!) Hökumətdə çox şey olur. Mən heç vaxt haqqa-niyyətdən dönmərəm və deyəcəyəm. Fraksiyamız mənim sözlərimin məsuliyyətini öz öhdəmə buraxır. Onun ixtiyarı var hər şey etməyə. Ancaq, mən proqram üzrə rəftar etmişəm, onun ziddinə getməmişəm. Mənim hökumət əzası ilə, daxiliyyə, ya baş vəzir ilə qərəzim yoxdur və əgər onlara toxunan bir söz olursa, geri götürürəm. Amma ümumiyyətlə hökumətdə çox şey var, deməklə qurtarmaz, mən bunu həmişə deyərəm və dediyimi geri götürmərəm.

**Sədr** - Məclisi-məbusan üzvü Yusifəli Əliyev tərəfindən bir kağız gəlmişdir ki, parlamentə seçildikdən sonra dövlət qulluğundan imtina edir. (Ruscaya tərcümə edir). Şimdi layihənin maddə-maddə oxunmasını şüru ediriz.

Layihə maddə-maddə oxunaraq səsə qoyulur və ikinci qiraətdə əksəriyyəti-ara ilə qəbul edilir.

**Azərbaycan, 1919, 8, 10, II aprel, №152, 154, 155.**

## № 27

### İyirmi yeddinci iclas

*7 aprel 1919-cu il.*

**Sədr** - Həsən bəy Ağayev. **Katib** - Mehdi bəy Hacınski. İclas saat 11.55 dəqiqədə açılır.

**Sədr** - Məclis açılır. Yomiyeyi - müzakiratımız keçən iclasdan qalmış daxiliyyə nəzarətinin məvaciblər təzaidi haqqındakı qanuni layihəsi, sonra hərbiyyə məhkəməsi təsis haqqında verilən layiheyi-qanuniyyə, Azərbaycan, Ermənistan və Gürcüstan arasında poçta-teleqraf münasibəti haqqında qanun layihəsi. Bunlardan savayı bir-iki günün ərzində iki qanun layihəsi daxil olmuşdur. Bunların biri yenidən hökumətə 410 milyon para buraxmaq müsaidəsi layihəsi. Digəri Kür nəhri [432 - 433] kənarında olan sədlərin təmiri üçün 641 min rubl buraxmaq barəsində ziraət nəzarəti tərəfindən daxil olmuş qanun layihəsidir. Göyçay şəhəri tərəfindən parlamentə intixab olunmuş mirovoy sudya Rza bəy Ağasıbəyovun intixabı haqqında bəratülqövl və sair kağızlar varid olmuşdur. Beləliklə, Rza bəy Ağasıbəyov parlamentə daxil olur. (Rusca tərcümə edir). Hərgah bu cür tərtib olunmuş yomiyyeyi-müzakirata etiraz yoxsa, qəbul olunur. Ərz elədiyim iki layihədən birisi: 410 milyon pul buraxılması üçün hökumətə müsaidə verilməsi haqqındakı qanun layihəsi maliyyə-büdcə komissiyonuna döndərilir.

İkinci: ziraət nəzarəti tərəfindən idxal edilən qanun layihəsi hakəza büdcə-maliyyə komissiyonuna verilir. Ağasıbəyovun mandatı mandat komissiyonuna göndərilir. Növbədəki məsələ daxiliyyə nəzarəti tərəfindən maaş təzayidi haqqında daxil olmuş qanun layihəsinin üçüncü qiraətidir. Məruzəçi Musa bəy Rəfiyev.

**Səslər** - Məruzəçi iclasda yoxdur.

**Sədr** - Öylə isə müsaidə buyursanız, məruzəçi gələnə qədər növbədəki ikinci layihəni müzakirəyə qoyarıq, etiraz yoxdur?

**Səslər** - Etiraz yoxdur.

**Sədr** - Etiraz yoxsa, müzakirəyə hərbiyyə məhkəməsi təsisi haqqındakı layihə qoyulur. Məruzəçi Şəfi bəy Rüstəmbəyovdur.

**Rüstəmbəyov** - Azərbaycanda hərbi məhkəmə təşkil edilməsi üçün hərbiyyə naziri tərəfindən bir layiheyi-qanuniyyə itxal edilmişdir. Bu layihəyə ləvayehi-qanuniyyə komissiyasında baxılmışdır. Azərbaycanda məhkəmeyi-hərbiyyə lazım olduğuna, yaxın gələcəkdə Azərbaycanda belə qanun düzəltmək mümkün olmadığından hərbiyyə naziri köhnə Rusiya qanunlarının Rusiya müvəqqəti hökuməti dəyişdiyi surətdə Azərbaycan məhkəməsində işlətməyi təklif edir. Bu qanunda bir neçə maddələr vardır ki, Müvəqqəti Rusiya hökuməti yazmışdı. Hərbiyyə naziri haman maddələri dəyişməyi lazım görmüşdür. hərbiyyə məhkəməsi son zamanlar intixab təriqi ilə olurdu. Soldatlar və zabitlər onda iştirak edirdi. Hərbiyyə naziri bunu mümkün görmür və bunun dəyişilməsini təklif edir. Bu layihəyə görə hərbiyyə məhkəməsi hərbiyyə nazirinin təyini ilə olmalıdır. Bu qanunda bir maddə var ki, Müvəqqəti Rusiya hökuməti qoymuşdur. hərbiyyə naziri o maddənin qalmasını lazım görür. Əvvəldən [433 - 434] əsgəri işlərə aid olan şikayətlər hərbiyə məhkəməsinə verilirdi. Sonra müvəqqəti hökumət dövründə bu qanun rədd edilərək divani-hərb tərəfindən baxılan işlərin həpsini məhkəmeyi-mülkiyyədə baxılmasına əmr edirdi. Bu surətlə ağır və mühüm işlərə istintaq, yüngül və xırda işlərə isə müsalihə məhkəməsi baxırdı. hərbiyyə naziri bu qanunu dəyişir. Çünki qanun tez-tez bir yerdən köçür, yerini dəyişir. Məhkəmədə işi olan bir qanun fərdini və şahidləri həmişə bir yerdə saxlamayıb məhkəməyə yığmaq olmur. İş məhkəməsiz qalır, ləngə düşür. Ona görə də lazım bilirik ki, məhkəmə qanunun öz arasında olsun. Bu məqsədlə qoşuna aid işlərin hərbiyyə məhkəməsinə verilməsi lazım görülmüşdür. Bu nöqteyi-nəzərdən hərbiyyə naziri bir layihə düzəltmişdir. Bu layihəyə ləvayehi-qanuniyyə komissiyonunun bir təshihi var ki, onu da axırda deyəcəyəm. Layihə budur. (Layihəni oxuyur.)

**Rüstəmbəyov** (Layihəni bitirdikdən sonra) - Ləvayehi-qanuniyyə komissiyonunun təshihi budur: Qanun layihəsinin 25-ci maddəsində deyilir ki: Təməyiz məhkəməsi olmadığından nahiyə məhkəməsində kəsilən iş təməyyüz məhkəməsi təşkil olunanadək hərbiyyə nazirinin ixtiyarına verilsin.

**Sədr** - Söz Sultan Məcid Qənizadənindir.

**Sultan Məcid** (İttihad) - Layihənin o hissəsinin ki, məhkəməni düzəltmək və məhkəmə heyəti və üzvləri nə cür düzələcək, aydın başa olmadısa da bu barədə bir söz demək istəməzdim. Çünki məhkəmə üzvü bir olacaq, iki olacaq onlar əhəmiyyətli deyildir. Ancaq burasını demək istərdim ki, əsasən hərbiyyə məhkəməsinin köhnə qanun üzrə qalması bizə yaramaz. On-dan ötəri ki, hərbiyyənin ayaqqabısına, yemək-içməyinə fikir verdikdə öz millətimizin ruhani tələbatını yeməyə istinad vermək müvafiq deyil. Biz buna razı olmarız millətin ruhani, yəni məhkəmə usili-qanuniyyə cəhətini köhnə məhkəməyə müvafiq yetirək. Çünki bu hərbi məhkəmə qanunu çarizm vaxtında verilmişdi: sonra hürriyyət alınanda müvafiq görülmədi. Ona görə inqilab zamanında onun əsaslarını dəyişdirmək lazım göründü. Yəni intixab olsun nəsb olmasın, ya camaat, ya parlament tərəfindən. İndi biz onu

pozuban istibdadın köhnə qanununu qəbul etməyə razı olmarız. Hərçənd burada deyilir ki, müvəqqətidir, vaxt təngdir, qanun düzəltmək mümkün olmadı. Lakin [434 - 435] mən deyərdim ki, işin əvvəlində müvəqqəti də olsa, köhnə əsasları meydana gətirmək camaat nəzərinə yaxşı görülməz. Güman edirəm, möhtərəm məbuslar şahiddirlər ki, okrujnı sudda, yəni o günkü ümumən Azərbaycan məhkəmə qanunu barəsində yığıncaq vardı, məlum oldu ki, Aleksandr Saninin qanununu qəbul etməklə böyük hikmət göstərmişik və hətta belə qərar qoyuldu ki, buna qərar verənlərə heykəl qoyulsun və adları da mərmərə yazılsın. Aleksandr Saninin qanununu ki, qəbul etmişik, o qanun indiki cümhuriyyət, milliyyət və hürriyyətimiz əsaslarına ziddir. Hərgah əhalinin danışdığı sözlərinə və əfkarına qulaq assaq görərik ki, səhv etmişik. Qanuna qərar verənlərin adları nəinki mərmər lövhələrə yazılmalıdır, bəlkə kağızlardan pozulub məhv olmalıdır. Şimdi bu məhkəmə məsələsi böyük məsələdir.

Məsələn, əsakir üsyan etdi. Görək bunlar nə cür tənbeh olunacaqlar, başqalarına nə cür cəza veriləcəkdir. Yəni indi burada voenni-polevoy sud zahirdə, ümumun nəzərində; göz qabağında qisaslar, zəcirlər və tənbehlər verilməsi böyük məsələdir. Görək bu nə cür icra olunacaq. İndi biz istiqlaliyyət, hürriyyət və milliyyət, insaf və vicdaniyyə əsaslarına müvafiq qanunlar yaratmalı ikən köhnə istibdad qanunlarını qəbul etmək bizə yaraşmaz. Mən layihənin təfsilatı barəsində danışmayıb əsasən deyərdim ki, bu layihənin köhnə qanun üzrə qalmasına etiraz edirik.

**Camalbəyov** - Möhtərəm məbuslar! Rusiya inqilabi-kəbiri hökumətdə idarə üsulunu bir növ dəyişmişdir və müvəqqəti hökumət hərbiyyə məhkəmələrini ləğv etmişdi. Şimdiki layihədə bizə təklif olunur ki, köhnə hökumət üsulunu qəbul edək.

Bizə o üsulu təklif edirlər ki, Azərbaycan cümhuriyyətində köhnə rus qaydası ilə hərbiyyə məhkəməsi təsis edilsin. Biz sosialistlər hərbi və mirni məhkəmələrin intixabı üsulu ilə təsisi tərəfdarı olmuşuz və tərəfdarıyız. Binaən bu nöqteyi-nəzərdən tələb ediriz ki, Rusiyanın yeni hökumətinin qoymuş olduğu əsası indi müvəqqəti Azərbaycan cümhuriyyətində tətbiq edilsin. Əgər böylə olmasa sosialistlər fraksiyonu öz tələblərində israr ilə qanunun əleyhinə səs verəcəkdir.

**Xocayev** - Rusca bir nitq söyləyərək təhvin cəza haqqındakı maddə ilə təmyiz (kasasiya) hərbiyyə nazirinin baxması müqabilinə [435 - 436] etirazla təhvin cəzanın rəisi-vükalə kasasiya ilə hərbiyyə naziri nəzdində təşkil edəcək olan xüsusi bir mütəxəssislər komissiyasına verilməsini və 7-ci maddənin bir qədər tədbilini təklif edir.

**Vanseviç** (rusca) - Komissiya tərəfindən kasatsiya barəsində izahat verərək deyir ki, təmiz məhkəməsi haqqında xüsusi komissiya tərəfindən bir layihə tərtib verilir. Və yaxın zamanda layihə parlamentə idxal edilərək bir ayadək təmiz məhkəməsi mövcud olacaqdır. Nəzarət nəzdində yeni bir mütəxəssislər komissiyası təsisi az zaman çəkməz. Belə ki, xüsusi komissiya təşkil edincə təmiz məhkəməsi də hazır olacaqdır. Binaən-ileyh komissiya təşkilinə ehtiyac yoxdur.

**Sədr** - Daha danışmaq istəyən yoxdurmu? Yoxsa, söz məruzəçi Şəfi bəy Rüstəmbəylinindir.

**Şəfi bəy** - Tarixdən məlumdur ki, köhnə hökumətdən ayrılıb da hələ özü üçün yeni qanunlar verməmiş olan təzə məmləkətlər həmişə köhnə hökumətin qanunu ilə getmişlərdir. Hər yerdə, hər millətdə, hər məmləkətin tarixində bu belə görülmüşdür. Biz dəxi hələlik özümüz üçün təzə qanun verməmiş olduğumuzdan bir müddət sabiq hökumətin qanunu ilə getməliyiz. Fəqət, əlbəttə ki, türk-islam Azərbaycan həyatına müvafiq olmayan qanunlar ozü-özündən ləğv olub gedəcəklərdir. Amma birdən-birə köhnə hökumətin qanununu atmaq olmaz, çünki bu o vaxt olardı ki, hökumətimiz özü qanun vermiş olaydı. Ona görədir ki, hərbiyyə nəzarəti də köhnə Nizamnaməyi qəbul və eyni zaman-da bu Nizamnamədən bizə müvafiq olmayan maddələri ləğv edir. Ona görə ləvayehi-qanuniyyə komissiyası təklif edir ki, sair qanunlar kimi məhkəməyi-hərbiyyə təşkili haqqında da köhnə qanun qəbul olunsun. Bir də Camalbəyov deyir ki, məhkəmə seçki əsası ilə təşkil edilsin. Rusiyada seçki əsası ilə idarələr qurulmasının nə surət aldığını və necə nəticələr verdiyini yaxşıca gördük. Onu artıq öz vətənimizdə də görmək istəmiriz.

(Soldan səslər). Bir də Avropada heç bir yerdə seçki əsası ilə qurulmuş məhkəmə yoxdur. (Soldan: avropa demokratik üsul ilə idarə olunmayır) Xocayev cənabları 14-cü maddənin təbdilini və 4 ay əvəzinə 6 ay qərar verilməsini təklif edir. Burada hərbiyyə nəzarətinin adamı olsaydı izahat verərdi. Amma komissiya üçün heç bir fərqi yoxdur. [436 - 437]

4 ay 6 aya olsun və texnika məsələsidir. Bundan əlavə 26-cı maddədə təhvin cəzanın kimin ixtiyarında olmasından bəhs ilə bu ixtiyarın rəisi-vükəlaya verilməsini təklif edir. Mən təklif edərdim ki, o maddə həmən komissiyonun göstərdiyi kimi qalsın. Bir də 24-cü maddəyi tənqid edərək deyir ki, kasatsiya hərbiyyə nazirinə deyil, komissiyona verilsin. Mən buna da razı ola bilmərəm. Çünki məlumdur ki, hər işə hərbiyyə naziri özü təkbaşına baxmayacaqdır. Yəqin onun yanında bir şura olacaqdır ki, həmin şurada yaxşı hüquqşünaslar dəxi olacaqlardır. Binaən-ileyh, kasasiya da hərbiyyə naziri təkbaşına deyil, mütəxəssis təcrübəli adamlar baxacaqlardır. Ona görə təklif edirəm, bu maddə dəxi eyni məzmunla qalsın.

Lahiyə maddəbəmaddə oxunaraq 7, 24 və 25-ci maddələr ləvayehi-qanuniyyə komissiyasına qaytarılaraq, yerdə qalan maddələr qəbul olunur.

Bundan sonra daxiliyyə nəzarəti tərəfindən xidmətçilərin maaşının artırılması və bəzi məmuriyyətlərin ləğvi və təsisi haqqındakı qanun layihəsinin 3-cü qiraətinə keçilir. Səsə qoyulduqda sosialistlər əleyhinə olmaq üzrə əksəriyyət ara ilə qəbul edilir.

Növbədəki Azərbaycan hökuməti ilə Ermənistan və Gürcüstan hökumətləri arasında əqd edilmiş poçta-teleqraf müqavilənaməsinin təsdiqidir. Məruzəçi Şəfi bəy Rüstəmbəyli Azərbaycan-Ermənistan müqavilənaməsini oxuyur və parlament təsdiq edir. Vaxt gec olduğundan Azərbaycan-Gürcüstan müqavilənaməsinin qiraəti gələn iclasa təklif edilir.

**Azərbaycan, 1919, 13 aprel, №156.**

## № 28

## İyirmi səkkizinci iclas

*10 aprel 1919-cu il*

**Rəis** - Həsən bəy Ağayev. **Katib** - Mehdi bəy Hacınski. **Rəis** - Məclis açılır, lakin kvorum olmadığına görə məclisi davam etdirə bilməyəcəyəm. Hərçəndi 41-dən artıq adam yazılıbdır, [437 - 438] lakin burada yoxdurlar, bilmirəm haradadırlar. Mənə belə gəlir ki, bəlkə otaqlardadırlar. (Kyüstərə) Gedin bir baxın. (Kyüster Gedib baxandan sonra qayıdır).

**Kyüster** - Bir dəstə dayanıb söhbət edirdilər.

(Səs-küy. Səslər: Məclisə ehtiramsızlıqdır, bağlayın).

**Rəis** - Belə şey olmaz ki...

**Səslər** - İclası qapayın, qapayın!

**Rəis** - Kvorum olmadığına görə iclas qapanır.

**Arxiv, f.895, siy.1, iş.82, v.82.**

**№ 29**

**İyirmi doqquzuncu iclas**

*14 aprel 1919-cu il*

**Rəis** - Həsən bəy Ağayev. **Katib** - Əhməd Cövdət.

İclas saat 7.10 dəqiqədə açılır.

**Rəis** - Ruznameyi-müzakirat: Varid olmuş kağızlar.

I - Yeni hökumət təşkili haqqında Rəisi - Vükəlanın məktubu; 2. Cəbaliyyun parlamenti tərəfindən təbrik teleqramı; 3. Parlamentdəki yeni "Daşnak" fraksiyası təşkili haqqında; 4. Məmmədəmin Rəsulzadənin məktubu (fəhlə komissiyası haqqında); 5. Ləvayehi-qanuniyyə komissiyasının məktubu; 6. Səhiyyə nəzarəti qanununun kəndisinə qaytarılması; 7. Aksiz vergisi idarəsinin məvaqe məmuriyyələri haqqında layiheyi-qanuniyyə (ştat); 8. Əhaliyə bilavasitə ziraət yardımı edən və ziraətə zərər yetirən amillər ilə mübarizə təşkilatının daxiliyyə nəzarəti təsərrüfində ziraət və əmlak nəzarətinə keçirilməsi haqqında layihəyi-qanuniyyə; 9. Göyçaydan Rzabəy Ağabəyov və Bakı Bələdiyyə idarəsindən Əsədulla Əhmədov və Əsəd bəy Əmirovun məbus intixabı; 10. Nakaz komissiyasının ləğvi; 11. Hərbiyyə və maarif nəzarətləri ştatları haqqında layiheyi-qanuniyyə; 12. Gürcüstan-Azərbaycan poçt-teleqraf müqavilə-naməsi; 13. Məhkəmeyi-hərbiyyə qanun layihəsinin 3-cü qiraəti; 14. mükəlləfiyyəti-əskəriyyədən maarif, yaxud sənət cəhəti ilə azad olunması haqqındakı imtiyazat qanununun təvəzzöhü; 15. [438 - 439] Cəbaliyyun Hökumətinə 30 milyon qərz xususunda layiheyi-qanuniyyə; 16. Kür nəhrinin sahillərində sədlər inşası üçün müəyyən məbləğ buraxılması haqqında layiheyi-qanuniyyə.

Bu qayda ilə tərtib verilmiş müzakiratı-yomiyyəyə etiraz yox isə qəbul olunur.

Varid olan layiheyi-qanuniyyələrdən 7-ci nömrə altında olanı maliyyə-büdcə komissiyasına, 8-ci ləvayehi-qanuniyyə komissiyasına, 11-nin birincisi hərbiyyə, ikincisi də büdcə komissiyasına göndərilir.

**Katib** - (Azərbaycan ilə Gürcüstan arasında olan poçt-teleqraf müqavilənaməsini oxuyur).

**Rəis** - Kim danışmaq istəyir? (Küstерə) Üzvləri çağır! (Üzvlərdən dişarıda olanlar salona daxil olurlar). Oxunan layihə xüsusunda söz istəyən yox isə səsə qoyuram. Keçən iclasda bu layihənin eynini qəbul eləmişdiniz. O da Azərbaycan ilə Ermənistan arasında olan poçt-teleqraf müahidənaməsi idi. Bu layihə də onun eynidir. (Rusca söyləyir). İndi səsə qoyuram. Hər kəs bu layihənin qəbulu tərəfdarı isə rica edirəm əlini qaldırsın. (Əllər qalxır). Layihə müttəhidil-rəy qəbulu olunur.

**Rəis** - Növbədə məhkəməyə hərbiyyə-layihəsinin üçüncü qiraətidir. Məruzəçi Şəfi bəy Rüstəmbəyli (Kyüsterə) Yusif bəy, Mehdi bəyi çağır.

**Şəfi bəy Rüstəmbəyli** - Axırıncı iclasda layiheyi-qanuniyyənin 7-ci, 24-cü və 25-ci maddələrinə təshihlər əlavə olunmuşdur. Ləvayehi-qanuniyyə komissiyası öz iclasında bu təshihlərə baxmışdır. Xocayev 7-ci maddəyə etdiyi əlavə ki, üzvlər 4 ay əvəzinə 6 aylıq seçilsin bu təhih qəbul olunur. Altı ay sözü qanun layihəsinə yazılır. İkinci təshih 24-cü maddəyə əlavə olunmuş idi ki, o da təyini-cəza və tam əfv məsələsi idi. Məsələ aydın olmamışdı. Məlum deyil ki, bu məsələlər kimin ixtiyarındadır. Bir sud və ya bir təşkilat istədiyi əfv və ya çaza təyin etsin, bu barədə iki təklif olunurdu. Biri təklif edirdi ki, bu təyin Şurayi-Vükəla tərəfindən olsun. Qanun layihəsində isə təklif edilmişdir ki, bu ixtiyar hərbiyyə naziri öhdəsinə buraxılsın, onun ixtiyarında olsun. Ləvayehi-qanuniyyə komissiyası bu məsələni müzakirə edib təklif edir ki, bu ixtiyar gərək Şurayi-Vükəlaya verilsin və 24-cü maddə dəyişilib [439 - 440] belə yazılsın. (24-cü maddəni oxuyur). Ləvayehi-qanuniyyə komissiyası bu maddəni belə təklif edir.

Layiheyi-qanuniyyənin 25-ci maddəsinə Xocayev belə bir təshih əlavə etmişdir ki, hərbiyyə nazirinin o qərarnaməni dəyişməyə ixtiyarı olsun və ya hərbiyyə naziri yanında xüsusi bir komissiya təşkil edilsin. Ləvayehi-qanuniyyə komissiyası bu təshihi qəbul etmədi. Çünki hərbiyyə naziri yanında bir kassasiyon sud təşkili layihəsi olacaqdır ki, bu yaxınlarda parlamentə veriləcəkdir. Ona görə ləvayehi-qanuniyyə komissiyası bunu qəbul etməyib, kassasiyonu sud təşkil edilənə qədər 25-ci maddənin öz qüvvəsində qalmasını təklif edir. Komissiya bu maddəyə bu qeydi təklif edir. Ləvayehi-qanuniyyə komissiyası bu üç maddənin komissiyanın təklif etdiyi üzrə qəbul edilməsini təklif edir. Layiheyi-qanuniyyənin 3-cü qiraəti bu maddələr ilə olsun.

**Rəis** - Keçmiş iclasların birisində qanun layihəsi 2-ci səsə qoyulduqda 7-ci, 24-cü və 25-ci maddələrə təshih əlavə olunduğundan bu maddələr səsə qoyulmamışdı. İndi qanunun 3-cü qiraətinə keçmədən bu üç maddəni səsə qoyuram. Onlar keçirsə 3-cü qiraət olar. Əvvəl 7-ci maddəni təshih ilə bərabər ki, 4 ay əvəzinə 6 ay təklif olunmuşdur və komissiya da qəbul edib, səsə qoyuram. (Rusca tərcümə edir). Hər kəs 7-ci maddəni komissiyanın rəyi üzrə qəbul edirsə, rica edirəm əlini qaldırsın. (Əllər qalxır). Əksəriyyət ilə qəbul olunur. 24-cü maddəni səsə qoyuram. Hər kəs 24-cü maddəni komissiyanın qeyd etdiyi təshih ilə bərabər qəbul edirsə, rica edirəm əlini qaldırsın. (Əllər qalxır). Sayın! Neçə oldu? Əksəriyyət rəylə qəbul olunur. 25-ci maddənin əlavəsi komissiya tərəfindən qəbul olmamış. Nakaz üzrə 25-ci maddəni əvvəlki halda layihədə olduğu kimi səsə qoyuram. Hər kəs onun tərəfdarıdırsa, əlini qaldırsın. (Əllər qalxır). Sayın! Lehinə - 27. Kim bunun əleyhinədir?

2. Kim səs verməyib? 9. Ricaedirəm hamı iştirak etsin. 40 adam çıxır. Vəhalanki burada 40-dan ziyadə adam vardır. Kim 25-ci maddənin komissiyasının qərarı üzrə qəbul edirsə, əlini qaldırsın. (Rusca tərcümə edir). (Əllər qalxır). Lehinə - 36. Kim əleyhinədir? 2. Kim səs verməyib - 15. Lehinə - 36, əleyhinə - 2, səs verməyən 15. Əksəriyyət ilə qəbul olunur. Layihənin 3-cü qiraətinə keçirik. [440 - 441]

(Katibə). Mehdi bəy, oxuyun.

**Katib -** 1-ci maddəni türkcə, rusca oxuyur.

**Rəis** - Əvvəlinci maddəni kim qəbul edirsə əlini qaldırsın. (Əllər qalxır). Sayın! Lehinə - 44, Kim əleyhinədir? Əleyhinə yox. Kim səs verməyib? 7. İkinci maddəni oxuyun!

**Katib** - İkinci maddəni türkcə, rusca oxuyur.

**Rəis** - İkinci maddəni kim qəbul edirsə əlini qaldırsın. (Rusca). (Əllər qalxır). Lehinə - 50, kim əleyhinədir? Əleyhinə yox. Kim səs verməyib? - 5. İkinci maddə əksəriyyət ilə qəbul olunur. 3-cü maddəni oxuyun!

**Katib -** 3-cü maddəni türkcə, rusca oxuyur.

**Rəis** - Səsə qoyuram. 3-cü maddəni kim qəbul edirsə, rica edirəm əlini qaldırsın. (Əllər qalxır). Leyhinə - 51, kim əleyhinədir? Əleyhinə yox. Kim səs verməyib? 8 nəfər Lehinə - 51, əleyhinə yoxdur, səs verməyən 8, 3-cü maddə əksəriyyət ilə qəbul olunur. 4-cü maddəni oxuyun!

**Katib -** 4-cü maddəni türkcə, rusca oxuyur.

**Rəis -** 4-cü maddəni hər kəs qəbul edirsə rica edirəm- əlini qaldırsın. (Əllər qalxır). Lehinə 50, əleyhinə kimdir? Əleyhinə yox. Kim səs verməyib? 7 nəfər. 4-cü maddə əksəriyyət ilə qəbul olunur. 5-ci maddəni oxuyun! Mehdi bəy! Rica olunur bir az aram ilə aydın və ucadan oxuyasınız.

**Katib** - 5-ci maddəni türkcə, rusca oxuyur.

**Rəis** - 5-ci maddəni kim qəbul eləyir? (Əllər qalxır). Lehinə 50, əleyhinə kimdir? Əleyhinə yox. Kim səs verməyib? 7 nəfər. 5-ci maddə əksəriyyət ilə qəbul olunur. 6-cı maddəni oxuyun!

**Katib -** 6-cı maddəni türkcə, rusca oxuyur.

**Rəis -** 6-cı maddəni kim qəbul eləyir? (Əllər qalxır). Saymaq lazım deyil, çünki əksəriyyət ilə qəbul olunur. 7-ci maddəni oxuyun.

**Katib -** 7-ci maddəni türkcə, rusca oxuyur.

**Rəis** - Rica edirəm, 7-ci maddəni təshih edildiyi kimi oxuyasınız.

**Katib -** 7-ci maddəni təshih edildiyi kimi türkcə, rusca oxuyur.

**Rəis -** 7-ci maddəni kim qəbul edirsə, rica edirəm əlini qaldırsın. (Əllər qalxır). Əksəriyyət ilə qəbul olunur. 8-ci maddəni oxuyun. [441 - 442]

**Katib -** 8-ci maddəni türkcə, rusca oxuyur.

**Rəis -** 8-ci maddəni kim qəbul edirsə, rica edirəm əlini qaldırsın. (Əllər qalxır). Əksəriyyət ilə qəbul olunur. 9-cu maddəni oxuyun!

**Katib -** 9-cu maddəni türkcə, rusca oxuyur.

**Rəis** - Rica edirəm səsə qoyulan vaxt dışarı çıxmayasınız. Baxış bəy, Abuzər bəy! Qanun səsə qoyulur. Rica edirəm əyləşəsiniz. 9-cu maddəni səsə qoyuram. Kim qəbul edirsə, əlini qaldırsın. (Əllər qalxır). Əksəriyyət ilə qəbul olunur. 10-cu maddəni oxuyun!

**Katib** - 10-cu maddəni türkcə, rusca oxuyur.

**Rəis** - 10-cu maddəni kim qəbul edirsə, rica edirəm əlini qaldırsın. (Əllər qalxır). Əksəriyyət ilə qəbul olunur. 11-ci maddəni oxuyun!

**Katib** - 11-ci maddəni türkcə, rusca oxuyur.

**Rəis** - 11-ci maddəni səsə qoyuram. Hər kəs qəbul edirsə, əlini qaldırsın. (Əllər qalxır). Əksəriyyət rəylə qəbul olunur. 12-ci maddəni oxuyun!

**Katib** - 12-ci maddəni türkcə, rusca oxuyur.

**Rəis** - 12-ci maddəni səsə qoyuram. Hər kəs 12-ci maddəni qəbul edirsə, əlini qaldırsın. (Əllər qalxır). Əksəriyyət ilə qəbul olunur. 13-cü maddəni oxuyun!

**Katib** - 13-cü maddəni türkcə, rusca oxuyur.

**Rəis** - 13-cü maddəni səsə qoyuram. Hər kəs qəbul edirsə, əlini qaldırsın. (Əllər qalxır). Əksəriyyət ilə qəbul olunur. 14-cü maddəni oxuyun!

**Katib** - 14-cü maddəni türkcə, rusca oxuyur.

**Rəis** - 14-cü maddəni səsə qoyuram. Hər kəs qəbul edirsə, əlini qaldırsın. (Əllər qalxır). Əksəriyyət ilə qəbul olunur. 15-ci maddəni oxuyun!

**Katib** - 15-ci maddəni türkcə, rusca oxuyur.

**Rəis** - 15-ci maddəni kim qəbul edirsə, rica edirəm əlini qaldırsın. (Əllər qalxır). Əksəriyyət ilə qəbul olunur. 16-cı maddəni oxuyun!

**Katib** - 16-cı maddəni türkcə, rusca oxuyur.

**Rəis** - 16-cı maddəni hər kəs qəbul edirsə, rica edirəm əlini qaldırsın. (Əllər qalxır). 16-cı maddə əksəriyyət ilə qəbul olunur. 17-ci maddəni oxuyun. [442 - 443]

**Katib** - 17-ci maddəni türkcə, rusca oxuyur.

**Rəis** - 17-ci maddəni kim qəbul edirsə, əlini qaldırsın. (Əllər qalxır). 17-ci maddə qəbul olunur. 18-ci maddəni oxuyun!

**Katib** - 18-ci maddəni türkcə, rusca oxuyur.

**Rəis** - 18-ci maddəni səsə qoyuram. hər kəs qəbul edirsə, rica edirəm əlini qaldırsın. (Əllər qalxır). 18-ci maddə qəbul olunur. 19-cu maddəni oxuyun!

**Katib** - 19-cu maddəni türkcə, rusca oxuyur.

**Rəis** - 19-cu maddəni səsə qoyuram. Hər kəs 19-cu maddəni qəbul edirsə, əlini qaldırsın. (Əllər qalxır). 19-cu maddə qəbul olunur. 20-ci maddəni oxuyun!

**Katib** - 20-ci maddəni türkcə, rusca oxuyur.

**Rəis** - 20-ci maddəni səsə qoyuram. hər kəs qəbul edirsə, əlini qaldırsın. (Əllər qalxır). 20-ci maddə qəbul olunur. 21-ci maddəni oxuyun!

**Katib** - 21-ci maddəni türkcə, rusca oxuyur.

**Rəis** - Hər kəs 21-ci maddəni qəbul edirsə, əlini qaldırsın. (Əllər qalxır). 21-ci maddə qəbul olunur. 22-ci maddəni oxuyun!

**Katib** - 22-ci maddəni türkcə, rusca oxuyur.

**Rəis** - 22-ci maddəni səsə qoyuram. hər kəs qəbul edirsə, əlini qaldırsın. (Əllər qalxır). Əksəriyyət rəylə qəbul olunur. 23-cü maddəni oxuyun!

**Katib** - 23-cü maddəni türkcə, rusca oxuyur.

**Rəis** - Hər kəs 23-cü maddəni qəbul edirsə, əlini qaldırsın. (Əllər qalxır). Əksəriyyət ilə qəbul olunur. 24-cü maddəni təshih olunmuş surətdə oxuyun!

**Katib** - 24-cü maddəni təshih olunmuş surətdə türkcə, rusca oxuyur.

**Rəis** - 24-cü maddəni səsə qoyuram. Hər kəs 24-cü maddəni qəbul edirsə, əlini qaldırsın. Yeni kabinet təşkili haqqında Rəisi-Vükəladan belə bir məktub varid olmuşdur.

**Yusifbəyli** (Mərkəzdən və soldan şiddətli alqışlar içərisində kürsiya-xitabətə çıxaraq şu nitqi irad edir) - Möhtərəm məbuslar! Əmrinizlə təşkil etdiyim hökumət, üzərinə nə qədər ağır və nə qədər böyük bir məsuliyyət almış olduğunu anlayır. Doğrudur, Azərbaycan milləti istiqlaliyyətini elan etdiyi bu az bir zamanda yar və əğyar nəzərində müstəqil olmağa layiq bulunduğunu göstərdiyindən, bugünkü hal və mövqeyimiz [443 - 444] iki ay əvvəlinkindən daha mətin və daha sağlamdır. Əvət, 10 aydan bəri əmr vaqe olan müstəqil Azərbaycan bu gün dövəli-müzzəmə tərəfindən dəxi hüsnü-qəbul ərəfəsində bulunduğuna və Azərbaycan türklərinin yaxın bir zamanda dünyanın bilcümlə mədəni millətləri ailəsinə daxil olacağına ümidimiz qəvidir. (Mərkəzdən alqış!)

Bu belə olacaq idi. Çünki Azərbaycan türkləri yekvicud olaraq erkək, qadın, gənc, ixtiyar, fəqir və zəngin, fəhlə və rəncbər, "Müsavat", "Əhrar", "Sosialist", "İttihad", xülasə bütün millət təni vahid kimi istiqlalımızı mühafizə etməyə yəqin etmişdir. (Mərkəzdən və soldan alqış!)

Çünki millətin şu əzminə bilavasitə şahid olan böyük və demokratik İngiltərə komanda heyətinin aldığı təəssüratı qərəzsiz, mübaliğəsiz Parisdə iniqad edən məhkəmeyi-kübrraya ərz edəcəyi şübhəsizdir. Əvət əfəndilər, bunlar həp doğrudur. Məmmafiyə bu gün qarşımızda istiqlalımızla bərabər, təmamiyyəti-mülkiyyəmizi təmin etmək üçün həlli bəklənilən bir çox məsələlər vardır. Hökumət bir an əvvəl məzkur məsələlərlə məşğul olmağı kəndisi üçün ən mühüm və müqəddəs vəzifələrdən ədd edir. Məlumunuzdur ki, Azərbaycanın ayrılmaz bir hissəsini təşkil edən Lənkəran qəzası hələ yabançılar əlindədir. 100 minə qədər vətəndaşımızın həyatlarına irz və namuslarına təriz edilir. Azərbaycanın Tiflis və İrəvan vilayətlərində bulunan hissələrinə göz tikənlər dəxi vardır.

İşdə bu məsələləri həll etmək, həm də son imkanlara qədər sülhən həll etmək, hökumətin ümdə və əsas məsələlərindəndir. (Sağdan: Qarabağ! Qarabağ!) Hökumət inanmaq istəyir ki, Azərbaycanın bu haqqı sərihi bu günlərdə Tiflisdə iniqad edəcək konfransda dəxi qonşularımız tərəfindən təslim və qəbul olunacaqdır. Çünki biz biliriz ki, bizim kimi qonşularımız dəxi bizimlə sülhlə yaşamaq istəyirlər. Mavərayi-Qafqazda təşəkkül etmiş cumhuriyyətlərin istiqbalı işbu cümhuriyyətlər arasında sülh və səlahın davamına bağlıdır. Bu isə hər kəsin haqqı kəndisinə verilməklə mümkündür.

Qonşularımızdan bəhs edərkən bir, iki söz Dağıstan Cümhuriyyəti xüsusunda ərz etmək istərdim.

Əfəndilər! Dağlılar İttifaqı Cümhuriyyətilə bizim aramızda ixtilaf deyil, heç bir günə ayrılıq, qeyrilik belə təsəvvür [444 - 445] ola bilməz. Şimali Qafqaz, azərbaycanlıların vətəni, Azərbaycan Şimali qafqazlı dindaşlarımızın yurdu, ocağı məsabəsindədir. Məlumi-alilərinizdir, Denikinin orduları Şimali Qafqazın üzərinə hücum edərək cəsur və şücaətli dindaşlarımızın qarlı dağlarını al qanlara boyayıb, onlara və onlarla bərabər bizləri yenidən təhti-əsarətə almaq fikrindədirlər. Halbuki, bu işin o qədər qolay olmadığını Qafqaz qartalları şu günlərdə o ğasiblərə qanlı dərslər verməklə isbat edirlər. Şu arslan mücahid qardaşlarımız bilməlidirlər ki, biz hər zaman onlarla bərabəriz. Möhtərəm əfəndilər! Digər qonşularımızla dəxi şimdiyə qədər olduğu kimi sülh və müsalimətlə yaşayacağız. Sevgili Azərbaycanımızın şan və heysiyyətini mühafizə etməklə bərabər hökumət qonşular arasında zühur edən cümə məsələlərin sülhlə həll edilməsi tərəfdarıdır. Bunu biz belə bilir və

qonşularımızın dəxi belə düşünəcəklərinə şübhə etmiriz. Təbii, bu sülh və səlahın başqa şəraiti dəxi vardır. O da əqəliyyətdə qalan millətlərin haqqını tanımaqdır. Zülm və istibdad altında da yaşayıbda "inorodes" nami təhtində, bir əsrdən bəri, maddətən və mənən bir çox təzyiqlərə məruz qalan Azərbaycan türkləri Azərbaycan daxilində bulunan bütün vətəndaşlarına bir gözlə baxmaqla hər kəsin kəndi dilində yazıb oxumasına, kəndi dilini və kəndi milliyyətini mühafizə etməsinə müsaidə etməzsə, tarixi bir səhv yapmış olur. Onun üçün hökumət sevgili Azərbaycanımızın cümlə vətəndaşlarımız üçün həqiqi bir vətən olmasına çalışacaqdır.

Bu boyük dünya yanğınının doğurduğu anarşinin zühr edən ədavətin önünü almağa və təkrar yenə meydan verməməyə səy və iqdam ilə hökumət bu kimi milli xüsumat və tərizlərə heç bir vəchlə yol verəmiyəcəkdir. Burada torpaq məsələsindən, əmələ məsələsindən uzun uzadıya bəhsdən lüzum görmürəm. Çünki rəncbərə torpaq, fəhləyə iş məbusan əksəriyyətinin şüarı olduğundan təbii hökumətin dəxi şüarı olacaqdır. Torpaq məsələsinin qəti surətdə həll etmək təbii milləti bəhaqq təmsil edəcək Məclisi-Müəssisan haqqıdır.

Bu xüsusda bugünkü hökumətin üzərinə ancaq bir vəzifə tərtib edər. O da məsələni ətraflı hazırlamaq, torpaq işlərinə dair bütün vəsaiti cəm və təllif etmək və bu surətlə Məclisi-Müəssisanın [445 - 446] heyni iniqadında şu ağır və mühüm məsələnin qolaylıqla həll edilməsilə müavinətdə bulunmaqdan ibarətdir. Bununla bərabər gərək torpaq və gərək əmələ məsələsində bir ixtilaf zühur edərsə, hökumət hər zaman zəhmətkeşlərin hüququnu müdafiə edərək onların tərəfində bulunacağını vəd elər. (Mərkəzdən və soldan alqış!)

Hökumət əmələnin haqq-səyini müdafiə və kəndisini sığorta üçün qanunlar hazırlayacaq.

Məbus əfəndilər! hürriyyəti-kəlam, hürriyyəti-mətbuat, hürriyyəti-ictimai, mədəni və demokratik bir dövlət təşkilinin şəraiti əsliyyəsindədir. Bu xüsusda zənn edirəm hər kəsdən biz irəli getdik. Azərbaycanda görülən bu hüriyyətlər dünyanın heç bir tərəfində mövcud deyildir. Hökumət, təbii, müqəddəs olan bu hürriyyətləri mühafizə edəcəkdir. Hər kəs nə yazırsa yazsın, hər kəs nə istəyirsə söyləsin, nerada ictima edirsə etsin. Yalnız bir məsələ vardır ki, ona əl uzatmağa təhəmmül ediləməz. O da Azərbaycanın istiqlaliyyəti məsələsidir. (Ümumi sürəkli alqış!)

Şu istiqlaliyyəti, millətin şu müqəddəs və məşru haqqını təhqir etdirməyə, şu ülvi hissiyyatına toxundurmamağa hökumət var qüvvəsi ilə çalışacaqdır. (Mərkəzdən, soldan alqış!)

Bu məsainin məcrai təbisində və bir intizam daxilində cərəyanı üçün hökumət yaxın vaxtlarda müəyyən bir qanun layihəsi tərtibi ilə təsvib və təsdiqinizə təqdim ediləcəkdir və beləliklə, şu müqəddəs hürriyyətlərdən sui-istemal edənlər məmurların deyil, ədliyyə məhkəmələrinin adilanə və qanuni qərarlarına tabe tutulacaqlardır.

Əfəndilər! Bu hürriyyətlərin ən müqəddəsi məlumi-alilərinizdir ki, hürriyyəti-vicdan, şəxsiyyə və məsuniyyəti beytiyyədir. Təbii, əqidə və vicdana aid məsələlər üçün demokratik cümhuriyyətimizdə kimsə təqib ediləməz. Burada diqqətə şayan bir cəhət vardır ki, o da bütün cümhuriyyət daxilində məzkur hürriyyətləri anlayaraq mühafizə edə biləcək zabtiyyə və polis məmurları bulunmasıdır.

Hökumət bu dairə millətin münəvvər fikirlərini dəvət etməyə təşəbbüs edəcəkdir. Hərgah bu xüsusdakı dəvət qəbul edilməzsə və bu dairələr ləyaqətli əllərə tövdi olunmazsa, millət əfradı bu yolda yapılan qanunsuzluqlardan, haqsızlıqlardan [446 - 447] xilas olamaz. hökumət bu babda əlindən gələni əsirgəməyəcəkdir. Məamafiyə bu xəstəliyin önünü almaq üçün hökumət başqa çarələrə dəxi təvəssül edəcəkdir. Məlumi-alinizdir ki, hər hansı bir sui-istemalın önünü almaq üçün ən qəti və yeganə çarə onu doğuran səbəbləri izalə etməkdən ibarətdir. Bunun belə olduğunu isbata hacət belə yoxdur. Binaən-ileyh, hökumət hər xüsusda və bilxassə ümuri-daxiliyədə ilk öncə mövcud əsbabın izaləsi fikrinə çalışacaqdır. Şöylə ki, bir an əvvəl zamstvo idarələrini vücuda gətirmək və bu vasitə ilə cümlə məmurları hökumətin nəzarət və tərsəsindən mandə əhalinin dəxi müraqibəsi altına almaq. İşdə bunun üçün zemstvo idarələrinin sürəti-mümkünə ilə meydana gətirməyə hökumət təşəbbüs və mövcud şəhər idarələrini həyata dəvət edəcəkdir. Və bununla bərabər hökumət məmləkətin təqsimat idarəsini dəyişdirməyə müsaidənizlə iqdam edəcəkdir. Təbii sui-istemalatla mübarizənin başqa çarələri dəxi vardır.

Ən müasir çarələrdən biri də cinayət işləri qanunən təqib ilə canilərə, hər kim olursa olsun, cəzayi-səzasını verməkdir. Hökumət bu xüsusda üzərinə düşən vəzifəni icra edəcəkdir.

Bu cəzalar dəxi, əlbəttə, ədalət və həqqaniyyətə istinad edilməli və hər dürlü səhv və qərəzdən bərra bulundurulmalıdır.

Bunun üçün də ədliyyə məhkəmələri əhaliyə daha yaxın və milli bir ruhda olmalıdır. Bu xüsusda dəxi hökumət bir yenilik, bir əsəri təcəddüd göstərməyə və tez bir zamanda müməyyiz hakimlərin ədliyyə məhkəmələrinə cəlbinə çalışacaqdır.

Möhtərəm əfəndilər! Hökumət bütün səyini bir an əvvəl Məclisi-Müəssisan toplamaya həsr edəcəkdir. Bunun üçün komissiyada qəbul edilmiş olan intixabat layihəyi-qanuniyyəsinin tezliklə məclisdən keçirilməsini arzu edəriz.

Möhtərəm məbuslar! Məlumunuzdur istiqlalımız, istiqbalımız həp maarifə bağlıdır. Əgər milli maarifimiz, millii məktəbimiz tərəqqi etməzsə bizim üçün fəlah və nicat ümidi qalmaz. Hökumət bunu bilir. Bunun üçün ibtidai təhsilin ümumi olmasına əsas hazırlamaya və işbu eyluldan etibarən ibtidai məktəblər açmağa təşəbbüs edəcəkdir. Sənaye məktəblərinə ayrıca diqqət edəcəkdir. Mövcud edadilərdən bir qismi tədricən

milliləşdiriləcək, digər qismi isə qeyri müslim cocuqlar [447 - 446] üçün rus lisanında ibqa edəcəkdir. Hər millətin kəndi lisasında oxumasına heç bir mane olmadığından onların cocuqları üçün hökumət hesabına məktəblər açılacaqdır. Edadi məktəblər bulunmayan məhəllələrdə yenilərini açmağa təşəbbüs ediləcəkdir. Müəllimlərə olan ehtiyacımızı rəf üçün kafi miqdarda darülmüəlliminlər açmaqla bərabər xaricdən dəxi müəllimlər dəvət etməyə çalışacaqdır. Dərs kitablarımız dəxi azdır. Maarif nəzarəti bunun çarəsini düşünəcəkdir. Şimdidən komissiyalar təşkil edilmişdir. Bir takım kitab intixab və tərtib edilmişdir. Bunların təbinə müstəcələn şüru edərək eylula qədər lüzum görürəm kitabları kamilən izhar və tədarükə səy edəcəkdir.

Hökumət ali təhsili dəxi düşünmüşdür. Bunun üçün Ali Ziraət məktəbi qanun layihəsi təsvibinizə təqdim edilmişdir. Tiflisdə bulunan mavərayi-Qafqaz darülfünunun paytaxtımıza nəqli üçün müzairata girişilərək eylul ibtidalarında tədrisata burada davam edilməsinə səy və iqdam ediləcəkdir.

Darülfünunumuzda təbii lisanımızın, tariximizin, ədəbiyyatımızın inkişafına xidmət edə biləcək kürsülər açılacaqdır.

Məbus əfəndilər! İstiqbalımızın təmini üçün başqa tədbirlər ittixazı da lazımdır. O da iaşə, ticarət və maliyyə işlərini yoluna qoymaqdır. Ərz etdiyim bu işlər bir-birinə sıxı-sıxıya bağlıdır. İaşə məsələsi Azərbaycanda şimdi başqa bir rəng almışdır. Müharibədən dolayı başqa məmləkətlərdə olduğu kimi bizim vətənimizdə dəxi bütün ticarət inhisar altına alınmış idi. Nəticədə, təbii, süni olsa da böyük bir dairə hətta iaşə nəzarəti naminə başqa məhəllərdə dəxi olduğu kimi bir nəzarət təşkil edilmişdir. Məqsəd xüsusi ticarətlə yol verilməyəcək əhalinin iaşəsinə xüsusi diqqət etmək idi. Əhalinin iaşəsinə həsr diqqət etmək idi. Bunun üçün daxili və xarici ticarəti dövlət kəndi öhdəsinə almışdı. Bu üsulun nə qədər müzurr və xəm nəticələr verdiyi məlumunuzdur. Bittəb Azərbaycan hökuməti bu üsuldan vaz keçdi. Daxildə ticarəti yenidən əhyaya çalışdı. Şimdi hökumətin öhdəsinə düşən bir vəzifə varsa o da əşya fiyətlərinin həddindən ziyadə yüksəlməməsi üçün bazarda kafi miqdarda əmtəə və ərzaq çıxararaq ticarətlə rəqabət etmək və mümkün olduğu qədər Azərbaycana xaricdən ərzaq və əmtəə cəlb etməkdir. [448 - 449] Bu isə artıq ticarət nəzarətinin işidir. Ona görə hökumət iaşə nəzarətini ləğv edərək bu nəzarətin bəzi vəzifələrini ticarət nəzarətinə tövdi etməklə iktifa edəcəkdir.

Möhtərəm məbuslar! Şu çəkdiyimiz bahalıq, bunnan dolayı keçirdiyimiz sıxıntını həp ticarətimizin mehvəri əslisində cərəyan etmədigindəndir. Bunun da səbəbi məlumdur.

Bizim sərvətimiz, rifah halımız həp neft ticarətinə bağlıdır. Halbuki neftimizin ən böyük bazarı olan Rusiyanın yolu bağlıdır. Bazar açılmazsa bir korluq çəkəcəyiz. Digər tərəfdən Rusiyanın bizim neftimizə ehtiyacı o dərəcədədir ki, bizimlə anlaşmazlar, bizimlə bir "modusu verəndə" vəz və təyin etməzlər isə Rusiya olduqca böyük və təhlükəli və müşkilat zühür edə biləcəyi bədihidir. Binaən-ileyh, hərgah Astraxan tərəfindən bizə ticarət qapılarını açmaq vüqu bularsa müəyyən şəraitlə qəbul edə bilərlz. Filhəqiqə, bizim üçün Rusiyanın daxili işlərinə qarışmağa haqqımız yoxdur. Rusiyada hansı firqə qalib gələcək, hansı adamlar iş başına keçəcək. Bu bizim vəzifəmiz deyil, böyuk Rusiyanın kəndi işidir. Biz Rusiya ilə, dövləti ilə hər zaman sülh və səlahla, dustanə keçinmək istəriz. Yalnız bir məsələ var ki, (bolşevik Rusiyamı, menşevikmi, yoxsa birimi olsun) bizim daxili işlərimizə qarışmamalıdır. Biz Rusiyadan yalnız bunu tələb ediriz. Bu da haqqımız olduğunu təbii kimsə inkar etməz zənn edəriz. (Mərkəzdən, soldan alqış!). Bunun üçün də Rusiya ilə hər bir ticarətə girişməyi, münasibəti düstanə təsis etməyi Azərbaycan hökuməti hər zaman kəndisinə borc biləcəkdir. Astaraxan yolu açılarsa, iki yüz milyon puta balğ neftimizi ixrac edə biləcəyimizdən nəticədə iki milyarda qədər bir para Azərbaycana daxil olmuş bulanacaqdır. Əgər nefti yalnız kəndi paramıza satarsaq şimdiyə qədər buraxdığımız paranın cümləsini toplamış olacağımızdan nəticədə təbii paramızın etibarı yüksələr. Mətavə ərzağın fiyəti düşər, həyat və məişətimiz kəndi məcrayi əslisinə övdət edər. O vaxt ümuri maliyyəmiz dəxi yoluna girər. Bu gün olduğu kimi gərək burada da Tiflisdə hesabsız kağız paralar buraxmağa artıq məcburiyyət olmaz. hələ bu iki "emissiya" bu artıq təhəmmül ediləcək hallardan deyildir. İki yerdə para çıxarmaq heç bir zaman, heç bir məmləkətdə görünməmiş bir işdir. Hökumət bu halda bir an xitam verməyə təşəbbüs edəcəkdir. [449 - 450]

Möhtərəm əfəndilər! Dəmir yollarımızda dəxi islaha bir çox cəhətlər vardır. Bu xüsusda hökumət çalışır və çalışaçaqdır. Yalnız bu bir məsələdən bəhs etmək istəyirəm. O da Ələt-Culfa dəmiryoludur. Bu yola hökumət pək ziyadə əhəmiyyət verir. Bu iş üçün hökumət sizdən para istəyəcəkdir. Bundan başqa torpaq və şose yollarımız dəxi vardır. Bunlar da təmirə möhtacdır. Bu yollarımız mətlub dərəcədə olmazsa nə poçtamız işlər, nə də əhalimiz bunlardan istifadə edə bilər.

Möhtərəm məbus əfəndilər! - Ərz və tedad etdiyim şu tədabirin ifa və icrasını bizim varlığımız və qüvvətim bulunmazsa mümkün ola biləcəkdir. Bunu bir dəfəlik bilməliyiz, qüvvətli olmaz isək nə hürriyyətimiz, nə də istiqlalımız.

Onun üçün hərbi işimiz hökumət təşəbbüsünün əsası olacaqdır. Əsgərimizin ehtiyacına, ləvazimatına hökumət ayrıca diqqət və ehtimam edəcəkdir.

Əsgərlik kimi müqəddəs vəzifənin ilk əvvəl zənginlərin, qəvillərin, ziyalıların övladlarının vəzifəsi olduğunu hökumət onlara anlatdıracaqdır. (Ümumi sürəkli alqış, Qarabəy yerindən belə...) Bundan boyun qaçıran bulunarsa lazım gələn cəza veriləcəkdir.

Xülasə əfəndilər! Təkrar edirəm, hər şeydən əvvəl istiqbalımız qüvvətə və millətin əzminə möhtacdır. Birincisi, hərbiyyə nazirimizin müqtədir və təcrübəli əllərində olub, ikincisi isə sizin əlinizdədir.

Əfəndilər! Təşkil etdiyim hökumət aramızda bulunan bütün firqələri ehtiva etmir. Onun üçün təbii müxalifətdə qalanlar dəxi sizin aranızda olacaqdır. Mən ancaq bir şeyə əminəm, o da istiqlaliyyət məsələsində olan birliyinizdir. Və bunun üçün də var qüvvəmlə və böyük inamımla çalışacağımı vəd edirəm. (Səslər: Qarabağ, Qarabağ məsələsi? Ümumi və sürəkli alqış!).

**Səslər** - Qarabağ! Qarabağ!

**Rəis** - Hökumətin bəyannaməsi xüsusunda kim danışmaq istərsə söz istəsin. Təklif var tənəffüs elan edilsin.

**Səslər** - İstəməz. Lazım deyildir. Olsun. Bəyannamə ruscaya tərcümə edilsin. Tənəffüs təklifi səsə qoyulsun.

**Rəis** - Təklif var, tənəffüs olsun. Lakin təklifin qaydası vardır. Təklif yazılar, beş adam imza edər. Onda səsə qoymaq [450 - 451] olar. Yerdən demək ilə olmaz. Nakazda da belədir. Ona görə də mən tənəffüs vermirəm.

Səslər - (Qarışıq səslər)

**Rəis** - Söz verilir Məmməd Əmin Rəsulzadəyə.

**Rəsulzadə Məmməd Əmin** (yerindən) - Mən tənəffüs barəsində danışmaq istəyirdim. Artıq keçdi, danışmaq istəmirəm.

**Hacı Molla Əhməd** (yerindən) - Mənə icazə veriniz. Danışmaq istəyirəm.

**Rəis** - Nə barəsində? Bəyannaməmi barəsində?

**Hacı Molla Əhməd** (yerindən) - Bəli!

**Rəis** - Buyurun!

**Hacı Molla Əhməd** - (Kürsüyə-xitabətə çıxaraq kağızları varaqlayır, oxumaq istəyir).

**Rəis** - Natiq əfəndi oxuyacaqsınızmı?

**Hacı Molla Əhməd** - Bəli, oxuyacağam.

**Rəis** - Oxuyacaqsınızsa olmaz. Nakaz ilə nitq gərək söylənsin. Natiq söylənər, oxunmaz.

**Hacı Molla Əhməd** - Oxumaq istəyirəm, söyləyə bilmirəm. Bu fraksiyamız tərəfindən bəyannamədir.

**Səslər** - Qoy oxusun, oxumamaq olmaz, oxusun, deklarasiyadır.

**Rəis** - Nakaz üzrə olmaz. Hərgah ixtiyar versəniz, oxusun.

Səslər - (Qarışıq).

**Rəis** - Nakaz üzrə mən müsadirə verə bilmərəm. Gərək söyləyəsiniz, oxumaq olmaz.

**Hacı Molla Əhməd** - Əgər olmaz, baş vəzir nə üçün oxudu?

**Rəis** - Olmaz, rica edirəm sədr ilə mübahisəyə girişməyəsiniz. O hökumət üzvüdür, oxuya bilər. Nakaz isə üzvlərdən ötəridir. (Hacı Molla Əhməd heç bir söz deməyib kürsüdən düşüb yerinə gedir).

**Rəis** - Baş adamın imzasilə təklif var ki, tənəffüs elan edilsin. Tənəffüs üçün iki adama: lehinə və əleyinə söz verəcəyəm.

**Səslər** - Danışmaq istəyən yoxdur. Səsə qoyun.

**Rəis** - Kim tənəffüsə tərəfdar isə, rica edirəm əlini qaldırsın. (Əllər qalxır). Sayın. Lehinə 10 nəfər, kim əleyhinədir? (Əllər qalxır). Əksəriyyət ilə tənəffüs keçmədi. Söz verilir parlament üzvü Vinoqradova.

**Vinoqradov** - (rusca). [451 - 452]

**Tərcüməsi:** Məclisi-Məbusanın slavyan-rus fraksiyası hökumətin bəyannaməsini istima edərək kəndi vəzifəsini bilir, bəyan etsin ki, Slavyan-rus cəmiyyəti məhəllində anarşı ilə mübarizə və asayiş, qanun və nizamın bərpası uğrunda fəaliyyətdə bulunan hər hökumətə mühazirat etmək lazım gəldiyini dərklə, bu mülahizə ilə müttəfiqlər komandanlığının tam rzasilə, vaxtilə Azərbaycan hökumətində müştərək kabinə təşkilinə hər vəchlə mühazirat göstərmişdir.

Şimdi də Məclisi-Məbusanın Rus-slavyan fraksiyası yenə həmin mülahizat ilə 1918-ci sənəsi 10 dekabrda elan etmiş olduğu əsas və prinsiplərə sadiq qalır.

Eyni zamanda hazırkı kabinet təşkil olunarkən sabiq hökumət təşkili vaxtı sabiq Rəisi-Vükəla Fətəli Xan Xoyski ilə ruslar arasında təyin edilmiş olan şəraitin pozulduğu və kabinədə slavyan-rus cəmiyyətinə 3 əvəzinə ancaq bir yer verildiyini qeydlə fraksiya bu hərəkətin müqabilinə protesto edər və pozulmuş etilafın təcəddüdü üçün israrla çalışacaq.

Fəqət, ba eyni hal vaxt hazirənin şəraiti-siyasiyəsində dolayı onsuz da çox uzanmış olan böhrani-vüzərayi bir daha uzatmaq və bu zəmində şu ağır zamanda hökumət üçün yeni böhran çıxarmaq istəmiyərək, Məclisi-Məbusanın slavyan-rus fraksiyası bəyan edir ki, hökumətin fəaliyyəti Rusiya mənafeyinə zərər yetirmədikcə, biz yeni kabinəyə mühazirətdə bulunacağız.

**Rəis** - Daha kim söz istəyir? Zahirən danışmaq istəyən yoxdur. Elə isə Divani-Rəyasədə bir təklif var. Müştərəkən düzəlmiş bir formuludur. Onu elan edirəm.

**Rəsulzadə** (yerindən) - İcazə veriniz.

**Rəis** - Söz Məmməd Əmin Rəsulzadənindir.

**Məmməd Əmin Rəsulzadə** - Həzarat! hökumətin bəyannaməsi haqqında söz söyləmədən və ona əlaqəmizi göstərməkdən əvvəl əqəliyyət təşkil edən rus nümayəndəsinin söylədiyi sözləri cavabsız buraxmadan

keçəmiyəcəyəm; Burada Azərbaycan millətinin haqqından istifadə edərək təşkili-hökumət haqqının istifadəsinin slavyan-rus cəmiyyəti nümayəndəsi haqsız olaraq xaricdən gələn qüvvələr ilə əlaqədar göstərmək istədi. (Sürəkli alqış!).

Burada yalnız millətin haqqı Azərbaycan xalqının iradəsinə istinadən hökumətdən bəhs etmək olar. Bir takım şəraitdən [452 - 453] müttəfiq komanda müavinəti ilə kəndiləri üçün təmin olunacaqdır. Hüquqdan bəhs etmək millətlər hüququna tərəfdar olduqlarını söyləyən zatlara, yalançı deyilsələr, qətiyyən yaraşmaz.

`Azərbaycan parlamentində oturan məbuslar bu xüsusda açıq alınla oturmalıdırlar, alınları açıq olmayanlar burada oturmasınlar. (Sürəkli alqış!). Həzarat! Bu gün başdan ayağa demokratik bir proqram ilə huzurunuza çıxan hökumətin heyətinə əgər nəzəri diqqət etsəniz bu heyət gənc bir heyətdir. Ehtimal ki, bu heyət içərisində bir çoxları üçün yeni isimlər vardır.

Məlumdur ki, biz siyasətdə yeni təcrübəyə başlamış bir millətiz. Dünya inqilabı nəticəsində, hər şeyin dəyişdiyi və yeniliyə doğru getdiyi bir zamanda cavan qüvvətlərin iş başına gəlməsini hüsnü tələqqi edə biləriz. Bizə şöhrətli "bütlər"dən ziyadə, əzmkar və namuskar xadimlər lazımdır. Yeni hökumətin demokratik ənasürdən təşkil edən heyəti gənc olsa da bizə ümid verir ki, demokratik proqramla hüzurumuza çıxan hökumət bəyannaməsindəki fəsillərin qövldən-felə çıxarılması işində məmləkətin cahar çeşmlə gözlədiyi əzm və səbat göstərəcəkdir. Elan elədiyi bəyannaməsini əzm və səbatla yerinə yetirəcəyinə ümidlə biz bütün etimad və müavinətimizi hazırkı hökumətdən əsirgəməyəcəyiz, müvəffəq olmalarına çalışacağımızı bu kürsüdən elan edirəm. (Alqışlar!).

**Rəis** - Söz istəyən yoxmu? Divani-Rəyasətə müştərəkən tərtib olunmuş bir formul daxil olmuşdur. (Katibə). Mehdi bəy oxuyun.

**Katib** (oxuyur) - Hökumətin bəyannaməsini eşidərək Məclisi-Məbusan bəyani-etimadla bəyannamədəki əsasların fikirdən işə keçirilməsində hökumətə hər növlə müavinət edəcəyini bildirərək növbədəki məsələlərin müzairəsinə keçir. (Rusca tərcüməsini oxuyur).

**Qara bəy** (yerindən)- İcazə veriniz.

**Rəis** - Təklif edə bilirsiniz. Mən dəfəat ilə dedim söz istəyən varmı, danışan olmadı.

**Qara bəy** (yerindən) - Biz sözümüzü deyib qurtarmamışıq!

**Rəis** - Mən təkrar dedim kim danışmaq istəyir, danışan olmadı. Ancaq iki fraksiyadan danışdılar. [453 - 454]

**Səslər** - (Formula barəsində danışmaq olarmı?)

**Rəis** - Söz parlament üzvü doktor Koxmanındır.

**Koxman** - Hökumətin bəyannaməsi ruscaya tərcümə olunmadığına görə biz səs verə bilməyiriz.

**Səslər** - (Tərcümə edilsin. Veriniz tərcüməsini özləri oxusunlar).

**Rəis** - Belə olan surətdə belə eləmək olar. Bəyannaməni verin özləri oxusunlar. O vaxta qədər tənəffüs elan edirəm.

**Tənəffüsdən sonra**

**Rəis** - İclas davam edir. Söz verilir doktor Koxmana.

**Koxman** - (rusca).

**Rəis** - "İttihad" firqəsi ilə bitərəflər tərəfindən belə bir təklif var. Oxuyun.

**Katib** (oxuyur) - Hökumətin bəyannaməsini dinləyərək "İttihad fraksiyası və bitərəflər elan edirlər ki:

1 - Çünki Azərbaycan istiqlanını müdafiə edən firqələr arasında koalisiyon üsulu bir hökumətin təşkilində nəzərə alınmamışdır;

2 - Çünki "İttihad" fraksiyası hökumətin təşkilində iştirak etməmişdir;

3 - Çünki bu hökumətin gələcəkdə fəaliyyəti xüsusunda heç bir zəmanət yoxdur. Firqələr bu hökumət haqqında hənuz öz nöqteyi-nəzərlərini təyin etmir və məsuliyyəti də üzlərinə almırlar.

**Rəis** - Cəlil bəy Siz danışmaq istəyirsiniz buyurunuz.

**Cəlil bəy Sultanov** (bitərəf) - Rəisi-Vükəlanın bəyannaməsində Qarabağ məsələsi üstü örtülü keçdiyindən bizim fraksiyamız səs verməkdən imtina edir.

**Rəis** - Mən başa düşmürəm, burada bitərəflər ismindən rəsmən təklif olunur. Siz isə başqa söz deyirsiniz.

**Qara bəy** (yerindən) - Bu başqa motivdir.

**Rəis** - Rica edirəm yerinizdən danışmayın. Belə olan surətdə etilafa gəlin.

**Cavanşir** (Bitərəf, yerindən) - İcazə veriniz.

**Rəis** - Buyurunuz.

**Cavanşir** - Hökumət rəisi bu gün öz bəyannaməsində Azərbaycanın hər yerini adbaad çəkdi. Nə fikiri olduğunu söylədi. [454 - 455] Hətta Lənkəran, İrəvan, Naxçıvan uyezdləri adını da çəkdi. Amma ən mühüm Qarabağın adı çəkilmədi. Məlumatımıza görə Qarabağ məsələsi bəyannamədə var idi. Fəqət, bilmirəm kimin xatirəsi üçün bu gün bəyannamədən götürülmüşdür. Məlumdur ki, Qarabağ həlakətdə idi. İndiyədək orada müsəlmanlar Andronik əlindən çox böyük cəfalar çəkirlər, çox qurbanlar verimişlər. Hətta yüzə qədər kənd xarabaya dönmüşdür. Onlar gözləyirdilər ki, hökumət bəyannaməsində Qarabağ məsələsi zikr ediləcəkdir. Hökumət, özünüz bilirsiniz ki, oraya general-qubernator göndərib və ona böyük ixtiyarlar vermişdir. Bizim

dalımızda duran üçüncü böyük hökumət də ona geniş vəkalət veribdir ki, Qarabağ müsəlmanlarını düşmənlər əlindən xilas etsin. Bu gün isə hökumət rəisi bu barədə bir söz danışmadı. Elə nəzərə gəlir ki, guya Qarabağ məsələsi qurtarıb...

**Səslər** - Qurtarıb. Əlbəttə qurtarıbdır.

**Cavanşir** (davam edir) - Sizdən ötəri ola bilər ki, qurtarıb, amma bizdən ötəri hələ qurtarmayıbdır.

**Aqamalı oğlu** (yerindən) - Mübahisəsizdir. Qurtarıbdır.

**Rəis** - Səmədağa rica edirəm, yerindən danışmayasınız.

**Cavanşir** (davam edir) - Qarabağ əhlindən bir nəfər Şuşadan o yana adlaya bilmir. hər kəs getsə ölümdən savayı bir şey görməz. Necə ki, bu gün Lənkərana gedib-gəlmək mümkün deyil. Eləcə də Qarabağın dağlarına keçmək mümkün deyil. Biz ümid edirik ki, hökumət bu gün Qarabağ məsələsi haqqında nə tədbirlər görəcəyini söylər. Amma bu məsələ barəsində heç bir şey eşitmədik. Bilmirəm hökumətin bu barədə nəzəri nədir. Qarabağ məsələsini münasibətimiz belə ikən bəyannamənin qalan hissələri haqqında "İttihad" fraksiyasının formulasına iştirak edirik. Hökumətə olan münasibətimiz isə hökumətin gələcək fəaliyyəti ilə məlum olacaqdır.

**Rəis** - Söz hökumət rəisi Nəsib bəy Yusifbəylinindir.

**Nəsib bəy** - Möhtərəm məbuslar! Mənim bəyannaməmdə nə qədər mübahisəli yerlər və məsələ varsa o xüsusda sözümü dedim. Çox mübahisəsiz məsələlər vardır ki, hökumət o xüsusda söz söyləməyi artıq bilir. İrəvan, Lənkəran, Tiflis sözü oldusa o da ondan etəridir ki, olanlar mübahisəlidir. Qarabağ xüsusunda mübahisə yoxdur. Onun üçün də mən mübahisəli olmayan məsələ haqqında bir söz belə söyləməyi artıq bildim. [455 - 456]

**Rəis** - Söz Məmməd Əmin Rəsulzadənindir.

**Rəsulzadə** - Biz bu təklif əleyhinəyiz. Nə üçün əleyhində olduğumuzun dəlilini söyləmək istəyirəm. Bəyannamədə Qarabağ fəqərəsi yoxdur. Bu xüsusda hökumət rəisi dəxi nə mülahizə ilə məzkur fəqərəyə lüzum olmadığını söylədi. həqiqətən elədir. Meydanda Lənkəran məsələsi var. Çünki Lənkaran daha əlimizdə deyil, çünki oraya hala Azərbaycan məmuriyyəti təyin edilməmiş; Tiflis quberniyasında Borçalı məsələsi var. Çünki orası da bizim hökumət və qüvvətimizin xaricindədir. İrəvan quberniyasının bəzi yerlərinə aid məsələlər var. Çünki gəza, hökumət oralara hala nüfuz ödəmiyib, torpaqlarımız başqa əllərdədir. Halbuki, Qarabağ məsələsi belə layənhəll halda deyildir. Oraya general-qubernator təyin olunmuş. Oradakı hüquqi-mülkiyyəmiz hətta bir dərəcəyə qədər beynəlmiləl bir halı iktisab eləmişdir. Bir də İrəvan quberniyasının davasını edən hökumətdən qalxıb da Qarabağ məsələsini istizah etmək yersizdir. Çünki İrəvana gedən hökumət təbiidir ki, Qarabağ dağlarını aşıb keçmədən gedəməzdi. Bizcə və hökumətcə Qarabağ məsələsi yoxdur. Nasıl ki, Bakı məsələsi yoxdur. Buna görə də Qarabağ ünvanı ilə vaqə olan hər növ təklifi rədd ediriz.

**Rəis** - Söz parlament üzvü Malxazyanındır.

**Malxazyan** - (Rusca).

**Rəis** - Parlament üzvü Malxazyanın etirazı yersizdir. Mən söz verdim. Bəyannamə münasibətilə iki fraksiya öz rəyini dedi də. Məsələnin əsası üzərində danışan olmadı. Müştərəkən verilən təklifdən başqa, başqa təklif yoxdur. Bu təklifi səsə qoyuram.

**Sağdan** - Biz də təklif verdik.

**Rəis** - Sizin verdiyiniz təklif deyil. Siz ancaq nə üçün səs verməyəcəyinizin səbəbini göstərirsiniz. Mən bunu səsə qoya bilmərəm. (Katibə) Müştərəkən verilən təklifi oxuyunuz.

**Katib** (oxuyur)-Hökumətin bəyannaməsini eşidərək Məclisi-Məbusan bəyani-etimadla bəyannamədəki əsasların fikirdən işə keçirilməsində hökumətə hər növ ilə müavinət edəcəyini bildirərək növbədəki məsələlərin müzakirəsinə keçir. (Rusca tərcümə edir).

**Rəis** - Qoyuram səsə, hər kəs bu təklifi qəbul edirsə əlini qaldırsın. (Əllər qalxır). Sayın. Lehinə - 43. Kim əleyhinədir? [456 - 457] (Əleyhinə yoxdur). Kim səs vermir? 21 nəfər. Lehinə - 43, əleyhinə yox, səs verməyən 21. Beləliklə, formul əksəriyyətlə qəbul olunur. (Sürəkli alqışlar).

Vaxt təng olduğuna görə başqa məsələlər müzakirəyə qoyulmayacaqdır. Məclisi qapamadan əvvəl gələn iclasın yomiyeyi-müzakiratı belə olsun:

1 - Mükələfiyyatın əksəriyyətdən maarif, yaxud sənət cəhəti ilə azad olunması haqqındakı imtiyazat qanununun tövsii;

2 - Cəbaliyyun hökumətinə 30 milyon qərz xüsusunda layiheyi qanuniyyə;

3 - Kür nəhrinin sahillərindən bəndlər inşası üçün müəyyən məbləğ buraxılması haqqında layiheyi-qanuniyyə.

Bu cür yomiyə-müzakiratı təsdiq ediniz. Etiraz yoxsa qəbul olunur. Məsələ bitdiyindən iclas qapanır. (İclas saat 8.50 dəqiqədə qapanır).

**Arxiv, f.895, siy.1, iş.82. v.72-54**

.

## № 30

## Otuzuncu iclas

*17 aprel 1919-cu il*

**Rəis** - Həsən bəy Ağayev. **Katib** - Mehdi bəy Hacınski. İclas saat 12.15 dəqiqədə açılır. Bugünkü Ruznameyi-müzakirat divani-riyasət tərəfindən böylə tərtib olunmuşdur.

1. Daxil olan ovraq: o cümlədən:

a - Daxiliyyə nəzarəti tərəfindən təqdim olunmuş Salyan qışlamaları təmiri üçün istida olunan məbləğ xüsusunda layiheyi-qanuniyyənin eyni nəzarətə təshih və müəyyən eləmək üçün ədası; b -Ləvazimat komissiyonunun parlaman üzvləri məaşının təzyidi haqqında layihəsi; p - Ziraət və əmlak nəzarəti tərəfindən gələn layihədir: Nuxa şəhərilə Nuxa - Yevlax şose yolunu (Kiş) çayının daşcığından mühafizə etməkdən ötəri mövcud olan daş və çivirdən mürəkkəb səddin təmiri üçün lazım olacaq məbləğ haqqında layihəyi-qanuniyyə; t - sabiq parlaman [457 - 458] üzvü Bağır Rzabəyovun istidası; s - "Əhrar" fraksiyonunun bəyannaməsi.

2) Mükələfiyyəti-əksəriyyətdən maarif, yaxud sənət cəhətilə azad olunması haqqında imtiyazat qanun təvassön xüsusundakı layiheyi-qanuniyyənin üçüncü qəraəti.

3) Şimali Cəbəlyun hökumətinə 30 milyon qərz buraxılması layihəsi;

4) Kür nəhri sahillərində səddlərin inşası üçün müəyyən məbləğin buraxılması haqqında layiheyi-qanuniyyə.

Buna əlavə etmək istəyirəm ki, ziraət nəzərətindən gələn layihə, maliyyə və büdcə komissiyonuna göndərilir. Ləvazimat komissiyonundan təqdim olunan layihədə gedir eyni komisyona. Bunu da ərz edirəm ki, gələn pəncşənbə günü parlaman qurucularının məvaciblərinin təzyidi xüsusunda başqa bir layihə gələcəkdir. İcazə versəniz, parlamana gəlmədən bir baş maliyyə və büdcə komissiyonuna göndərəm ki, ikisi də bir yerdə müzakirə olunsun. Rza Bağırovdan gələn kağız bu məzmundadır. (Katibə). Oxuyun.

Katib oxuyur.

"Azərbaycan Məclisi-Məbusanı rəyasəti-alisinə.

**Sabiq Məclisi-Məbusan əzası Bağır Rzayev tərəfindən.**

Möhtərəm əfəndim Həzrətləri! Acizləri Məclisi-Məbusan açıldığından yanvar ayının 21-nə qədər keçmiş seym əzası olduğum kimi Məclisi-Məbusan əzalığında da qalaraq Türklər Qafqazyadan çəkildikdən sonra İrəvandan Naxçıvana çəkilməyə məcbur oldum. Ermənilər ilə Naxçıvan Şərur islamları arasında davam etməkdə olan hərb qarışıqlığına məruz olubda, böyük bir müşkilat qarşısında qaldım. Və heç bir vəsilə ilə Bakıya Məclisi-Məbusana gəlməyə müvəffəq olamadım.

Hətta Məclisi-Məbusanın açılmasına dair də heç bir məlumata da dəstrəs olmadım. Bunun üçün naqabil şu səbəblərdən naşi gələmədiyimi nəzərə alaraq hüquqi şəxsiyyəmin müdafiə edilib də sabiq əzalıq yerimin təkrar kəndimə verilməsini məclis əzayi-möhtərəməsindən rica və istirham eylərəm.

***Bağır Rzayev."***

**Rəis** - Divani-rəyasət təklif edir ki, bu istida mandat komissiyonuna verilsin. Etiraz yoxdurmu? [458 - 459]

Səslər - Etiraz yoxdur.

**Rəis** - "Əhrar" fraksiyonunun bəyannaməsini oxuyun. **Katib** - Oxuyur:

El fraksiyası "Əhrar" tərəfindən Azərbaycan parlamanına məruzədir.

İşbu insanın 14-dəki parlaman iclasında yeni kabinə təşkili haqqında "Əhrar" fraksiyası özündən asılı olmayan səbəblərdən naşı öz nöqteyi-nəzərini söyləyəmədiyindən hökumətə etimad məsələsi səsə qoyulduqda bitərəf qalmağa məcbur olmuşdu.

Vətənin hər yerində hökumət mexanizmasının hər şöbəsində pozğunluq, nizamsızlıq, başsızlıq və rüşvətxorluq tabe hal hökm-fərman olduğundan, yollarımızın təmiratına layiqincə iqdam edilmədiyindən, torpaq məsələsinin həlli üçün heç bir tədbir görülmədiyindən, ədliyyə işlərimiz nizam altına alınmadığından, məktəblərimiz, mədrəsələrimiz fəna hallar keçirdiyindən; maliyyə, ərzaq, posta-teleqraf işlərimiz təmamilə yoluna qoyulmadığından aşkardır ki, sabiq hökumətin verdiyi vədlər əncampəzir olmamışdır. Yeni hökumətin verdiyi vədlər sabiqki kimi kağız üzərində qalmayıb qövldən-felə köçəcəyinə ümid edərək ona məzahirat edəcəyimizi vəd edirik.

Siyasətimizin əhəmiyyətini və incəliyini dərk edən fraksiyamız kabinə təşkilini təzirə uğratmamaq üçün iştirakindən vəz keçmiş idisə də biləxərə rəisi-vikələ cənablarının rəy və cənabi üzərinə kabinəyə dəvət olunan Qardaşov cənablarının iştirakinə də fraksiyamız mane deyildir.

***Sədr: Ə. Əfəndizadə"***

**Katib** - Ruscaya tərcümə edir. Rəsulzadə M. Ə. (yerindən) -Tərcümə nə lazım.

**Katib** oxuyur.

Azərbaycan Məclisi-Məbusan rəyasəti alisinə 1919 sənəsi aprelin 14 tarixli "Əhrar" fraksiyasının qətnaməsi surəti. Məclisi-Məbusan rəyasətinə bəyan olunur ki:

1-ci maddə: Məclisi-Məbusanda söylənən rusca nitqlər türkcəyə bahəmeyn-hal tərcümə edilməlidir.

2-ci maddə: Məclisi-Məbusan nizamnaməsi təshihi ilə təbetdirilib, sərihən fraksiyalara verilsin. [459 - 460]

3-cü maddə: Məclisi-Məbusan müzakirələrində rusca müzakirə davam etdiyi müddətcə fraksiyalarımız nümayəndələri komisiyonlarda iştirak etməyəcəkdir. Sədr Ə. Əfəndizadə."

**Rəis** - Bu xüsusda divani-rayasiyyənin rəyi belədir. Əvvəlimincisi nakaza aiddir ki, rusca danışılmış nitqlər türkcəyə tərcümə edilsin. Nakazda dil xüsusunda bir şey yazılmamışdır. Ona görə də nakazın təğyiri-təbdilinə aid olduğu üçün komissiyona verilməlidir. Keçən dəfə məlumunuzdur ki, elan olundu ki, nakaz komisyonu işlərini bitirdiyindən ləğv olunur. İndi təzədən ayrı bir komisyon seçilməsi lazımdır ki, əlavə maddələrə baxıb işləsinlər.

İki son maddələr xüsusunda divani-riyasət bir şey söyləməz. Bunu nəzərdə tutun və özünüz etilafə gəlin. Növbəti məsələyə keçmədən rica edirəm ləğv olunmuş fəhlə komisyonu əvəzinə təzədən komisyon seçəsiniz. Çünki fəhlə komisyonu üzvləri üç dəfə iclasa gəlməmişlər və nakaza görə də bir komisyon üzvləri üç dəfə iclasa gəlməsələr 23-cü maddəyə görə o komisyon ləğv olunur. İclasın axırında qapalı olaraq yeni komisyon seçək.

Növbədəki məsələ mükələfiyyatı-əsgəriyyə qanun layihəsinin 3-cü qəraətidir. Məruzəçi Musa bəy Rəfiyevdir.

**Katib** - Üçüncü qiraətə iqdam olunur.

(Birinci maddəni türkcə, rusca oxuyur).

**Rəis** - Əvvəlinci maddə xüsusunda kim danışmaq istəyir. Söz istəyən yoxdur. (Rusca). hər kəs əvvəlinci maddəni qəbul edir, əlini qaldırsın. (Əllər qalxır). Sayın! Rica edirəm əllərinizi aşağı salmayasınız. Lehinə 34. Əvvəlinci maddə əksəriyyət ilə qəbul olunur. İkinci maddəni oxuyun!

**Katib** - İkinci maddəni türkcə, rusca oxuyur.

**Rəis** - İkinci maddə xüsusunda kim danışmaq istəyir. Yoxdursa səsə qoyuram. Hər kəs 2-ci maddəni qəbul edirsə, əlini qaldırsın. (Əllər qalxır). Əksəriyyət ilə qəbul olunur. Üçüncü maddəni oxuyun!

**Katib** - Üçüncü maddəni türkcə, rusca oxuyur.

**Rəis** - Qurtardınız!

**Katib** - Bəli.

**Rəis** - Üçüncü maddəni kim qəbul edir, rica edirəm əlini qaldırsın. (Əllər qalxır). 3-cü maddə əksəriyyət ilə qəbul olunur. 4-cü maddəni oxuyun! [460 - 461]

**Katib -** 4-cü maddəni türkcə, rusca oxuyur.

**Rəis** - 4-cü maddəni səsə qoyuram. Kim 4-cü maddəni qəbul edirsə, rica edirəm əlini qaldırsın. (Əllər qalxır). 4-cü maddə əksəriyyət rəylə qəbul olunur. 5-ci maddəni oxuyun!

**Katib -** 5-ci maddəni türkcə, rusca oxuyur.

**Rəis** - 5-ci maddəni qeydi ilə səsə qoyuram. Kim 5-ci maddəni qəbul edirsə, rica edirəm əlini qaldırsın. (Əllər qalxır). 5-ci maddə qeydi ilə qəbul olunur. Dalını oxuyun!

Katib daha yoxdur.

**Rəis** - Qurtardı?

**Katib** - Bəli!

**Rəis** - Layiheyi-qanuniyyəni tamamən səsə qoyuram. hər kəs layiheyi-qanuniyyə tamamən qəbul edir isə əlin qaldırsın. (Əllər qalxır) Layiheyi-qanuniyyə tamamən qəbul olunur. Bu layihə təshihiyyə komissiyonuna veriləcəkdir. Növbədəki məsələ cəbaliyyun hökumətinə 30 milyon faizsiz qərz verilməsi layihəsidir. Məruzəci Musa bəy Rəfiyev - Şimali Kavkaz hökuməti bizə müraciət edib...

**Muxtar Əfəndizadə** (yerindən) - Bir şey bilmək istədim...

**Rəis** (məruzəçiyə)-Müsaidə buyurunuz. (Muxtar Əfəndizadəyə nə buyurursunuz).

**Muxtar Əfəndizadə** (yerindən) - Bilmədim müəllimlər məsələsi nə cür oldu...

**Rəis** - Qanun keçdi.

**Muxtar Əfəndizadə** (yerindən) - Bilmədim müəllimlər əvvəlinci qanun üzrə qalır...

**Rəis** - Onlar əsgərlikdən azaddırlar. (Məruzəçiyə) buyurunuz.

**Rəfiyev** - Şimali Qafqaziya hökuməti Azərbaycan hökumətinə müraciət edib 30 milyon faizsiz qərz istəyir. Bu barədə varid olan layihəni büdcə-maliyyə komisyonu müzakirə edib və Dağıstan hökumətinə müavinət lazım olduğunu nəzərə alıb dəyişiksiz qəbulunu rica edirəm. layihə üç maddədən ibarətdir: (Oxuyur).

1-1919 sənəsinin fövqəladə smetasına salınaraq Şimali Qafqaziya İttihadi-Cəbaliyyun cümhuriyyəti hökumətinə otuz milyon rüblə faizsiz qərz vermək üçün maliyyə nazirinə izn verilsin. [461 - 462]

2 - İttihadi Cəbaliyyun cümhuriyyəti hökuməti Azərbaycan hökuməti ilə birlikdə para çıxarmaq haqqında saziş əmələ gələrsə, məzkur qərz, birlikdə para buraxıldıqdan sonra ödəniləcəkdir.

Birlikdə ümumi para buraxılmaq haqqında xüsusi saziş olmazsa ittihadi-cəbaliyyun cümhuriyyəti kəndisinə verilmiş borcu iki il müddətində aşağıdakı qayda üzrə üç növbədə verilməlidir.

1 - On milyon qərz, verildiyi gündən bir il sonraya qədər.

2 - On milyon, bir il altı ay sonraya qədər. Baqisi iki il sonraya qədər ödənməlidir.

3 - İttihadi Cəbaliyyun cümhuriyyəti hökumətinin vəkilinə qərz verilənə kimi onun ödənilməsi haqqında işbu layiheyi-qanuniyyənin 2-ci maddəsində göstərilən şərtlər ilə müqavilə bağlamaq maliyyə nazirinə tapşırılsın". Maliyyə büdcə komissiyonu bu layihəni bu surətdə qəbulunu parlamandan rica edir.

**Rəis** - Kim danışmaq istəyir: vərəqə ilə bildirsin.

**Rəsulzadə M. Ə.** (yerindən) - Bu barədə danışmaqdamı lazımdır?

**Rəis** - Söz istəyən yoxmu?

**Səslər** - Yoxdur, səsə qoyun.

**Rəis** - Onda səsə qoyuram. Layihəni maddəbəmaddə səsə qoyuram.

**Katib** - Birinci maddəni oxuyur.

**Rəis** - Birinci maddəni qoyuram səsə. hər kəs birinci maddəni qəbul edirsə, əlini qaldırsın. (Əllər qalxır). Birinci maddə əksəriyyət səs ilə qəbul olunur. (Katibə) İkinci maddəni oxuyun!

**Katib** - İkinci maddəni oxuyur.

**Rəis** - İkinci maddəni səsə qoyuram. Hər kəs ikinci maddəni qəbul edirsə, əlini qaldırsın. (Əllər qalxır). Əksəriyyət səs ilə qəbul olunur. (Katibə) üçüncü maddəni oxuyun!

**Katib** - Üçüncü maddəni oxuyur.

**Rəis** - Üçüncü maddəni səsə qoyuram. Hər kəs üçüncü maddəni qəbul edirsə, əlini qaldırsın. (Əllər qalxır). 3-cü maddə əksəriyyət səs ilə qəbul olunur. Layihəni tamamən səsə qoyuram. hər kəs layihəni komisyon qəbul elədiyi kimi qəbul edirsə əlini qaldırsın. (Əllər qalxır). Layihə tamamən qəbul [462 - 463] olunur. Keçirəm növbədəki məsələyə. Növbədəki məsələ Kür nəhri sahillərində səddlər inşası üçün məbləğ buraxılması haqqında layiheyi-qanuniyyədir. Məruzəçi Əbuzər bəy Rzayev.

**Rzayev** - Möhtərəm məbuslar! Ozünüzə məlumdur ki, seylab vaxtı Kür çayı daşıb çox zərərlər verir. Cəmaətin əkinini və malını məhv eləyir. Əlbəttə, hökumətin borcudur buna bir çarə etsin, məsələn mühəndislər göndərsin. Proje hazırlasın. Milyonlar ilə pul buraxıb bu fəlakətin önünü alsın. Fəqət, hələlik bunların həpsini etmək mümkün deyildir. 90-cı ildə Kür nəhri daşıb xalqa nəhayət dərəcə böyük zərər yetirmişdir. O vaxt Rus hökuməti tələsik bir layihə qayıraraq cəmaətin zəhmətindən istifadə edərək çay boyu torpaq tökdürməyə başladı. haman layihəyə görə 90 min sajın torpaq tekülüb sədd qayrılmalı idi. Fəqət, iş qurtarmamış iğtişaş düşüb 70 min sajin torpaq töküldükdən sonra cəmaət dağıldı. Və iş yarımçıq qaldı. İcarədar işdən əl çəkdi. Amma o vaxt bir neçə xatalı yerlər sədsiz qaldı. Ona görə də sonradan hökumət öz xərcilə oraları düzətməyə başladı. Fəqət, yenə başa vurulmadı. Belə ki, cümlətanı 324 sajin torpaq töküldükdən sonra iş yenə yarımçıq qaldı. İndi iki ildir ki, haman işlərə bilmərrə qulaq asan olmur. Yağış yağır, sədlər xarab edilir. Böyləliklə, təzəsi qayrılmadığı halda, qayrılmış olanı da sökülüb dağılır. Şimdi bu səddləri təmir etmək lazımdır. Yenidən təmir ediləcək olan yer təqribən 7 verstə qədərdir ki, burada cümlətana 362 sajin torpaq tökülməlidir. Təxminən hər sajinə bir fəhlə lazımdır. Fəhlənin gün muzdu 20 manatdan hesab edildikdə cümlətana 500 min manat lazım olur. Bundan əlavə texniçeski nadzor dəxi lazımdır ki, bunun xərci təqribən 3 faiz götürülüb, onun da məsarifi hesab edildikdə cümlətan yekun 641 min manat lazım olur. Nəzarət bu xüsusda Məclisi-Məbusana tələsik bir qanun layihəsi təqdim etmişdir. Maliyyə komisyası məzkur layihəyə baxıb heç bir irad tapmayaraq təmamilə qəbul etmişdir. Qanun layihəsidə budur. (Oxuyur).

Maliyyə büdcə komissiyası bu layihənin qəbulunu və ziraət naziri binaküzarlığına 641 min manat buraxılmasını təklif edir. [463 - 464]

**Rəis** - Bu barədə kim danışmaq istəyir. Söz Sultan Məcid Qənizadənindir.

**Qənizadə Sultan Məcid** - Əlbəttə, Kürün daşmasından çox böyük zərər hasil olur. Şübhəsiz bu xüsusda təşəbbüs edib sədd çəkmək lazımdır. Çünki əhalinin mənfəəti gərək gözlənilsin. Amma əsl mətləb buradadır ki, gərək daşğının vaxtı keçidbir. həmişə daşdın təqribən aprel ayının əvvəllərində olurdu. Bəzi illər əbəda daşmaz idi. Şimdi bu vaxtadək daşmayıb və bu yazın olacağında gözlənilmir.

Daşğının vaxtı keçibdir. Ona görə də sədd üçün 400 min manat buraxmaq nahaqdır. Çünki pul hədər gedər. Binaən-ileyh, mən bu layihənin qəbulunu lazım bilmirəm.

**Rəis** - Söz Mustafa Mahmudovundur.

**Mahmudov Mustafa** - Məruzəçinin dediyi kimi Kür sahilindəki səddlər neçə ildən bəridir ki, qayrılmır. Fəqət, axır vaxtlar şuluxluq olduğuna görə oraya heç fiikir verilməyib, qulaq asılmayıb. Mən zənn edirəm ki, bu barədə heç danışmaq olmayacaq. Amma bizə indi deyirlər ki, lazım deyil, çünki vaxt keçibdir. Fəqət, bu doğru deyil. Çünki çayın daşmağı hələ bundan sonradır. Kür hələ daşğın halına gəlməyibdir və biləns bu il daha yaman daşğın gözlənilir. Bir də hökumət qabaqcadan bu barədə sərəncamda bulunmuşdur. Hətta səddin təmirinə 200 min manat buraxmışdır.

Bu ümid ilə ki, bu layihə qəbul edildikdən sonra haman kreditdən o 200 min manat dövlət xəzinəsinə qaytarılacaqdır. İş çoxdan başlanıbdır. Mən təklif edirəm, başlanmış iş yarımçıq qoyulmasın.

Və layihə qəbul edilib istənilən pul buraxılsın.

Söz Sultan Məcid Qənizadənindir.

**Qənizadə Sultan Məcid** - Görünür ki, iş başlanıbdır. Əgər belə isə əlbəttə, lazımdır pul buraxılsın. Ancaq mən iltimas edirəm. Layihə oxunanda ətraflı məlumat verilsin. Tainki natiq işə yaxşı bələd olsun. Şimdi mən deyirəm ki, pul buraxmaq lazımdır.

**Rəis** - Söz Hacı Hüseyn Əfəndizadənindir. [465 - 466]

**Əfəndizadə** - Kür sahilinə əlbəttə, sədd çəkmək lazımdır. Bunun üçün 641 min manatın buraxılması fərzdir. Fəqət, mən təklif edirəm ki, bu pul buraxılanda kəndlərə təqsim olunsun. Çünki pul buraxılır, əmma dəsyatnik və sairələri öylə adamlardan olur ki, cəmaəti pulsuz iməci işlədirlər. Pul da qalır bəzi adamların cibində.

**Rəis** - Bu barədə daha kim danışmaq istəyir, yoxdursa, səsə qoyuram. Hər kəs layihənin komisiya təklif etdiyi kimi qəbuluna tərəfdardırsa, əlini qaldırsın. (Əllər qalxır). Deməli layihə əksəriyyətlə qəbul olunur.

Ruznaməyi-müzakirət bitmiş olduğundan iclası qapayıram.

İçlas saat 1-də qapanır.

**Arxiv, f.895, siy.1, iş.82, v.41-51.**

## № 31

## Otuz birinci iclas

*21 aprel 1919-cu il.*

**Rəis** - Həsən bəy Ağayev. **Katib** - Mehdi bəy Hacinski.
İclas açılır Saat 10.30 dəqiqədə.
**Ağayev** - İclas açılır.
**Rəsulzadə** M. **Ə.** (yerindən) - Kvorum varmı?
**Rəis** - Kvorum yoxdur. Hərçəndi Məclis nakazda göstərilən vaxtından gec açılır. Amma kvorum yoxdur. Cümlətani "14" adam yazılıbdır. Görürsünüz ona görə iclası qapamağa məcburam.
**Səslər** - Gələnlər yazılıblarmı? Onlar elan olunsun.
**Rəis** - İcazə versəniz gəlməyənləri qəzetdə elan edərik. Məclis qapanır. (Rusca tərcümə edir).
**Rəsulzadə** - Ruscaya tərcümə etmək lazım deyildir. Saat 11.25 dəqiqədə məclis qapanır.

**Arxiv, f.895, siy.1, iş.82, v.20.** [465 - 466]

## № 32

## Otuz ikinci iclas

*24 aprel 1919-cu il.*

**Rəis** - Həsən bəy Ağayev - **Katib** - Mehdi bəy Hacınski. Saat 11.20 dəqiqədə açılır.

**Rəis** - İclas açılır. Bugünkü yomiyyeyi-müzakirat belədir:

1. Etimadnamədə komissiyonunın məruzəsi; 2. Yevlax-Nuxa yolunu Kiş çayının daşğınından mühafizə etmək üçün ziraət və əmlak nəzarətinə iki yüz on bir min rublə buraxılması haqqında qanun layihəsi; 3. Dörd yüz on milyon rüblə dövlət pulu buraxılması haqqında hökumətə müsaidə verilməsi. (Ruscaya tərcümə olunur). Etiraz yoxsa müzakiratı yomiyyə qəbul olunur.

Növbədəki məsələ etimadnamə komissiyonunun məruzəsidir. Məruzəçi Şəfi bəy Rüstəmbəyli.

**Şəfi bəy Rüstəmbəyli** - Bakı Bələdiyyə idarəsi Əliağa Həsənov ilə Ağazeynal Tağıyevin parlaman üzvü intixab etmiş idi. Əliağa Həsənov maliyyə naziri müavini və şimdi də maliyyə naziri olduğundan Ağazeynal Tağıyev də üzvlükdən xaric olunduğuna görə parlaman üzvü hesab olunmurlar. 45 müsəlman əzasından 23 əksəriyyət təşkil edir ki, əksər iclasda varmış. Onlardan Əsədulla Əhmədov 24 səslə və Əsəd Əmirov 15 səslə parlaman üzvü intixab edilmişlərdir. Etimadnamə komisyonu onların seçki protokollarına baxıb, düz olduğunu qəbulla təsdiqini parlamana təklif edir.

**Rəis** - Etimadnamə komisyonunun məruzəsi barəsində kim danışmaq istəyir? Rusca səslər - seçilmiş, daha nə danışmaq.

**Rəis** - Söz istəyən yoxsa, səsə qoyacağam. Nakaz üzrə bələdiyyə idarəsi tərəfindən seçilən əzaların əvvəlcə seçkilərinin olmadığını səsə qoyacağam. Sonra da etimadnamə komissiyonunun qərarını səsə qoyacağam. (Rusca). Hər kəs Bakı duması tərəfindən Əsədulla- Əhmədov ilə Əsəd bəy Əmirovun seçkisini dürüst və qanunamüvafiq hesab edirsə, əlini qaldırsın. (Əllər qalxır). Əksəriyyət ilə seçki dürüst olduğu qəbul olunur. Hər kəs etimadnamə komissiyonunun qərarını qəbul edirsə, əlini qaldırsın. (Əllər qalxır). Əksəriyyət ilə qəbul olunur. [466 - 467]

Növbədəki məsələ: Yevlax-Nuxa yolunu Kiş çayının daşğınından mühafizə etmək üçün ziraət və əmlak nəzarətinə iki yüz on bir min rüblə buraxılması haqqında qanun layihəsidir. Məruzəçi Abduləli bəy Əmircanov.

**Abduləli bəy Əmircanov** - Nuxa-Yevlax şosesinin və Nuxa şəhərinin dağ çaylarından mühafizəçi üçün 1911-ci ildə bir sədd çəkilmişdi ki, çayın qabağını saxlasın. 1914-cü ildə bu səddin təmirinə bir çox şəhər Zemstva parası buraxılmışdı. Bütün bu sədd Şəki şəhərini və Yevlax-Şəki şosesini müdafiə edirdi.

Bildir, 1918-ci ilin avqust ayında böyük bir sel gəlib bu səddin böyük bir parçasını xarab etmişdir. İki yüz əlli sajin ki, səddin boyudur, əlli sajin seldən bərbad olmuşdur. Bildir, şəhər dövlət parası ilə 30 sajinini təmir etdilər. Qalanı təmir olunmadı. Çünki ləvazimat tapılmadı. Ona görə Gəncə valisi ziraət nazirindən rica edir ki, dövlət meşəsindən çırpıntı almaqla və daş ilə səddin qalanı təmir olunsun və əvvəlki sədd alçaq olduğundan bu dəfə bir az da uca olsun. Bunun üçün də təqribən iki yüz on bir min rüblə təyin olunmuşdur.

Yevlax-Şəki şosesini sel daşğınından xarab olması Şəki ticarətinə böyük zərər vurur. Gəncə qubernatoru burasını nəzərə alaraq ona görə də bu səddlərin təmirinə sərf olunacaq paranın hamısının dövlət xəzinəsindən verilməsini xahiş edir.

Bu barədə hökumət bunu qəbul eyləmiş ki, 211 min manat əcələ surətdə verilsin. Və bu sel may ayının axırında gəlməyə görə paranı əcələ olaraq vermişlər. İmdi hökumət rica edir ki, bu paranın verilməsini parlaman qəbul etsin. Maliyyə-büdcə bu qanuna baxıb qəbul eyləmişdir. Maliyyə-büdcə komisyonu istəyir ki, bu para sərf olunanda bələdiyyə rəisi iştirak etsin ki, bu pul ancaq öz yerinə sərf olunsun.

**Rəis** - Bu barədə kim danışmaq istəyir?

**Qarabəyli** (yerindən) - Səsə qoyunuz nə danışmaq.

**Rəis** - söz istəyən yoxmu? Söz istəyən yoxsa səsə qoyuram. Söz Əhməd Cövdət Pepinovundur.

**Əhməd Cövdət** - Mən əlbəttə bu qanun barəsində danışmaq fikrində deyiləm. Çünki may ayı yaxınlaşır. Sel Nuxa-Yevlax [467 - 468] şose yolunu sel və daşğından müdafiə üçün 211 min rüblə istənilir. Lakin arzu edərdik ki, nəzarət tərəfindən tədbirlər görülsün. Və diqqət olunsun ki, bu pullar yerinə xərc olunsun ki, bir də səddlər xarab olmasın. Və yenidən bizdən pul istənilməsin. Ancaq mənim dediyim özgə şeydir. Neçə aydır parlaman açılmışdır və bura gələn qanunnamələri müzakirə edirik. Ziraət və əmlak nəzarəti tərəfindən bir iki qanun gəlmiş. Biri bu, biri də Kür çayı sahillərində sədlərin inşası haqqında qanun layihəsi. Beləliklə, nəzərə gəlir ki, biz və nəzarət böylə xırda qanunlara baxmazdan başqa bir şey tapmırıq.

Guya bizim məmləkətimiz anarxiya keçirtməmiş, kəndlər dağılmamış, evlər xaraba olmamış, bir çox yerdə bu saat kəndçilər kotansız və toxumsuz qalmamışdır. Bu barədə ziraət nəzarətinin köməyi lazımdır. Amma bu barədə də indiyə qədər heç bir qanun layihəsi daxil edilməmişdir. Nəzarət iş görmür. Guya hər işimiz yolunda

imiş və başqa böyük qanunlara ehtiyac yoxmuş. Ancaq çay daşqınının qeydinə qalmalı imiş. Doğrudur, buna da baxmaq və pul buraxmaq lazımdır. Lakin cümhuriyyət içində ümumiyyətlə ehtiyacı rəf eyləmək üçün evləri sökülənlərin evlərini təmir etməli, malı olmayanlara mal verməli, toxumu, kotanı olmayanlara toxum və kotan tədarük etməlidir. Bu barədə gərək nəzarət bir qanun ilə bizim qabağımıza çıxsın və pul istəsin. Arzu edirəm ki, bundan sonra hökumət böylə xırda-xırda qanunlar ilə gələcəkdə böyük dərdlərimizi və ehtiyaclarımızı yazıb qabağımıza çıxsın.

**Rəis** - Daha söz istəyən varmı? Yoxsa müzakirə bitmiş olur. Səsə qoyuram hər kəs qəraət olunmuş layihəni komissiyonun rəyinə bərabər qəbul edirsə, əlini qaldırsın (Əllər qalxır) əksəriyyət qəbul edir.

Növbədəki üçüncü məsələ dörd yüz on milyon dövlət pulu buraxılması haqqında hökumətə müsaidə verilməsi layihəsidir. Məruzəçi Mustafa Vəkilov.

**Mustafa Vəkilov** - Hökumət tərəfindən təqdim olunmuş qanun layihəsi 410 milyon kağız pul buraxmaq üçün hökumətə müsaidə vermək xüsusundadır. hökumət parlamandan rica edir ki, yenidən kağız pul buraxılması üçün hökumətə müsaidə verilsin. Hökumət öz kağızında bu məsələnin tarixindən bəhs edib bu paranın nasıl məsrəf olması haqqında məlumat verir. Böylə [468 - 469] görünür ki, Bakı bələdiyyə idarəsi tərəfindən bon adından kağız pullar buraxılıbdır. 1918-ci ildə Bakı şəhəri bir tərəfdən daxili Rusiya və digər tərəfdən Tiflis ilə münasibəti kəsildiyinə görə və məhəlli bazarda pula artıq ehtiyac olduğundan bələdiyyə idarəsi bon buraxmağa məcbur olmuşdu və bunun buraxılması, məsrəfi və təmin edilməsi xüsusunda bələdiyyə idarəsi bir qayda-qanun düzəltmişdi. Onda pul yerində bon idi. Bu əsl pul mənasını verirdi. Lakin özləri və əhali ona pul kimi baxmırdı. Müvəqqəti pul yerini verib, veksil kimi işlənilirdi. O vaxt şəhər idarəsi padşahlıq bankı vasitəsilə 63 milyon kağız pul buraxmışdı. Necə ki, məlumunuzdur sonradan şəhər bolşeviklər əlinə keçdikdə haman yenə o kağız pul bolşeviklər tərəfindən daha da şiddətlə buraxıldı. Hərçəndi bu pul bələdiyyə adından hesab olunurdu. Lakin bolşeviklər öz istədikləri kimi məsrəf edirlərdi. Bolşevik hökuməti elan eyləmişdi ki, bu kağız pulun əvəzini Rusiya öz varı ilə cavabdehdir. Hökumət bizim əlimizə keçənə qədər bolşeviklər zamanında 227 milyon manat kağız pul buraxılmış, demək hökumət bizim ixtiyarımıza keçənə kimi cəmi üç yüz milyona qədər kağız pul buraxılmışdır. Sonra ixtiyar bizim hökumətimizə keçdikdə hökumət və maliyyə nəzarəti barədə dərin düşünüb istədi ki, camaatə və məmləkətimizə xeyri olan bir üsul tapıb böylə müşkül haldan çıxsın. Məlum olduğu üzrə Bakı alınmamışdan qabaq bizim hökumət Tiflisdə gürcülər və ermənilər ilə pul buraxmışdı. Və bəzi şərti-şurut ilə bir hissəsinə iştirak edirdi. Bakı alınandan sonra hökumətimiz gördükü Rınoka 300 milyon kağız pul buraxılıb. Hökumət bir istədi ki, bir növ ilə Bakı pullarını yığıb ondan xilas olsun və Zaqafqaziya pulundan istifadə etsin. Sonradan bu tədbir həm hökumət, həm də əhali üçün müşkül oldu. Qərar qoyuldu ki, iki pul işlənsin. Biri Bakı, biri iştirak etdiyimiz Zaqafqaziya bonu. Sonradan hökumət və ehtiyacını ödəməkdən ötrü getdikcə kağız pul buraxmağa məcbur oldu. Parlamandan əvvəl hökumət ehtiyacı olduğundan 90 milyon öz qərarı ilə pul buraxıb sonradan bəyannamənin dediyinə görə hökumət xərci artdığından yüz milyon rüblə buraxıb dekabrın 8-də və yanvarın 10-da olan qərara görə sonradan 200 milyon rüblə buraxmışdır. [469 - 470]

Hökumətin dediyinə görə artıq əcələ olduğundan parlamanın müsaidəti olmadan bu pulları buraxmışdır. Lakin hökumət tərəfindən buraxılan bu pullar ehtiyacı təmin etmir. Ona görə də hökumət parlamandan rica edir ki, həmin müsadiəsiz buraxdığı 300 milyon para təsdiq olunsun və mayın axırına xərci təmin eləməkdən ötrü 240 milyon buraxmağa icazə verilsin. Hökumətin cəmi istədiyi 510 milyondur. hökumət öz bəyannaməsində xərclərini ümumi bir formada göstərib mayın axırına qədər 210 milyon rüblə istiyir. İndi görək bu pulları nə cür məsrəf olur və ehtiyac nədir. Hökumətin göstərdiyinə görə ayda 40 milyon rüblə neft mədənçilərinə verilir. Bundan əlavə, 35 milyon da ingilis ştabına verilir. 40 milyon da hökumətin öz işlərinə, məmurlara və qeyri ehtiyaclara xərclənir. Bu hesab ilə hökumət zənn edir ki, may ayının axırına qədər 210 milyon kifayət edər. Onun üçün də 510 milyonun müsaidəsinin istiyir. Əlbəttə, bu layihə maliyyə və büdcə komisyonunda ətraflı müzakirə olundu. Maliyyə və büdcə komisyonu buna əhəmiyyət verib düşünür ki, kağız pul nə qədər artıq buraxılarsa, qiyməti o qədər düşər. Bu bir aşkar məsələdir ki, finansist olmayan əhali də bunu bilir. Məsələnin əsl məqsədi və əsl bədbəxtliyi budur ki, kağız pul ki, buraxılır dava vaxtı bizdən daha zəngin məmləkətlərdə bizdən artıq buraxılıb. Ancaq onlarda qızıl təminatı var ki, vaxtında kağız pul əvəzinə qızıl pul alınır. Ancaq bizim hökumətin qızıl təminatı olmadığından nəinki istehsalatı və dövləti varsa onunla bu buraxılan kağız pulları təmin edə bilər. Bundan savayi biz görürük ki, kağız pul ki, buraxılır, əhalinin ehtiyacı qədər buraxılsa idi qiymətdən düşməzdi. Dərd burasındadır ki, əhalidə ehtiyacından artıq pul vardır. Hətta ən kasıbın da pulu çoxdur. Rınokda da pul ehtiyacdan artıqdır. Hökumətin də bu pulları öz bankına yığmağa lazımi qədər qüvvəsi çatmır. Əhalidə pul çoxdur. hökumətdə isə yoxdur. Buna görə hökumət getdikcə pul buraxmağa məcbur olur. Çünki ehtiyac çoxdur. Büdcə maliyyə komissiyonu bunu nəzərə alıb bir neçə arzular elədi. Və bu arzuları da sizə məlum edir. Əvvala, bunu nəzərə aldı ki, hökumətin ehtiyacını bir tək pul kəsən makina vasitəsilə edəmək olmaz. Bu böylə gedərsə, axırda öylə olar ki, bazara çıxıb bir şey almaq olmaz. Ona görə də hökumət [470 - 471] gərək naloğın tezliklə yığılmağına böyük əhəmiyyət versin, tainki əhalidə olan pul xəzinəyə gəlsin. Və xəzinəyə əl uzadanda o pullardan istifadə etmək mümkün olsun. Yanvar ayında hökumətin mədaxili 5 milyon, məxarici 25 milyon olmuşdur. Fevral ayında isə mədaxil 8 milyon, məxaric 32 olmuşdur. Əlbəttə, böylə davam

etsə, nə qədər pul buraxılmasına müsaidə etsək yenə də hökumətin ehtiyacı təmin edilmiş olmaz. Ona görə də maliyyə-büdcə komisyonu mədaxilin artırılmasına diqqət verdi. Və gəlir vergisinə (podoxodnıy naloq) ki, artıq mədaxil verir, nəzarət tərəfindən əhəmiyyət verilməsini arzu edər, bu bizə ikincisini nəzərə almaqla gərək istiqraz müəssisələri, banklar nizamə salınsın, bunların indiki halda əvvəlki kimi müamilatda bulunmadıqları məlumdur.

Əvvəllər pul bankda müamilədə olurdu. Əhali və hökumət ondan istifadə edirdi. İndi bunlar zəif işləyirlər, bəlkə də heç işləmirlər. Bunları qaydaya və nizama salmaq mümkündür. Ona görə də mərkəzi hökumət bankı olmalıdır ki, qeyri müəssisələr də oradan kömək alıb işləsinlər. Hökumətdən işə başlamağı və qeyri müəssisələrə əhəmiyyət verib mərkəzi bank açılmasını arzu edirik. İkinci arzumuz budur. Üçüncü, biz gördük ki, bir məmləkətdə iki cür pul işlətmək işləri çətinləşdirir. Bir Bakı pulu, bir Tiflis pulu. Diqtət etsəniz görərsiniz bizim pulumuz Tiflisdə az qiymətə gedir. Amma Tiflis pulu Bakıda artıq qiymətə gedir. Xalq arasında yaxşı pul hesab olunur. Bazarda satılır. Bizim pul ilə bir qiymətdə deyildir. Bizim orada hissəmiz olduğuna görə iki tərəfə baxdığımızdan bu məsələdə bir növ şaşqınlıq əmələ gəlir. Bizim vətənimizə görə pul sistemi bir olmalıdır. Zaqafqaziyanın ümumi pulu olacaqmı? Yaxud məxsus Azərbaycan pulu olacaqmı? Onu maliyyə nəzarətində olan mütəxəssislər iyi bilirlər. Ancaq bizcə hansı biri olursa olsun, pul sisteminin bir olmasını indiki halda xeyirli bilirik. Əlbəttə, aşkar məsələdir ki, hökumətin ehtiyacı da olsa, əcələdə olsa yenə parlamanın müsaidəsi olmaya-olmaya iznsiz pul kəsilməsi büdcə komissiyonunun nəzərilə mümkün və düz deyildir.

Hərgah hökumət ancaq pul kəsmək təriqilə ehtiyacını təmin üçün asanca pul əldə edə bilərsə, o zaman qeyri mənbələrə və mədaxil verici müəssisələrə biltəb əhəmiyyət verməz. [471 - 472] Əkər hökumət görsə ki, pul buraxmaq çətindir, onda qeyri vasitələr ilə və başqa çarələr ilə pul əldə etməyə çalışacaqdır. Və o vaxt bankların yaxşı məalatda bulunmasına vergilərin nizam ilə toplanmasına daha ciddi surətdə baxıb ehtiyacını təmin edir. Buna da hökumətin nəzəri-diqqətini cəlb edirik. Parlamandan izinsiz pul buraxmaq düz deyildir. Bu məlumatdan sonra hökumətin qanun layihəsini oxuyuram. Həqiqətdə bu cür pul buraxmaq düz deyildir. Bu məlumatdan sonra hökumətin qanun layihəsini oxuyuram. həqiqətdə bu cür pul buraxmaq müşkülat çıxarar. Maliyyə büdcə komisyonu düşünür və ətraflıca söylədiyi arzuları ilə bərabər görər ki, bu saat pul lazımdır, lakin əldə yoxdur. Ona görə də komisyon təklif edir ki, hökumətin bu layihəsi qəbul edilsin. Hökumətdə büdcə komisyonunun arzularını nəzərə alsın və gələcəkdə doğru yol ilə pul tapmağa çalışsın. Büdcə komisyonu təklif edir ki, qanun layihəsini qəbul edəsiniz. Layihə budur: (Oxuyur).

**Rəis** - Kim danışmaq istəyir? Danışmaq istəyən varsa vərəqə ilə bildirsin. Söz Yusif Əhmədovundur.

**Yusif Əhmədov** - Möhtərəm məbuslar! Bu qanun layihəsi maliyyə nəzarəti tərəfindən təklif olunur. Məncə bu məsələnin çox böyük əhəmiyyəti vardır. Özümdə tüccar sinfinə mənsub olduğum üçün bu barədə bir qədər izahat verməyi lazım bilirəm. Keçmişdə Bakı bələdiyyə idarəsi tərəfindən 62 milyon və taittilaatına görə seym tərəfindən 80 milyon, (səslər - 160 milyon) və sonradan parlamanın icazəsi olmadan Azərbaycan hököməti tərəfindən 300 milyon manat para buraxılır. İndi isə 300 milyonu və təzədən buraxmaq istədikləri 210 milyon ki, hamısı bir yerdə 510 milyon edir təsdiq etdirmək istəyirlər. Eybi yoxdur, pulu makinə kəsir. Lakin təfaütü budur ki, o vaxt kəsən lir olub. Mən bir neçə gün əqdəm Tiflisdə idim. Doğrudanda adama çox ağır gəlir. Bu pul ki, hər şəhərdə makina vasitəsilə kəsilir və buna müvəqqəti bon deyilir. Təzə təşkil olunmuş cümhuriyyətlərdən heç birinin bu pullar əvəzində Azərbaycan məmləkəti qədər qüvvəsi və etibarı yoxdur, fəqət, heyiflər olsun ki, bizim pulumuz Tiflisdə, Batumda, Potidə, Ermənistanda heç bir şey deyil, vəhalanki, Batumda və Potida olan ingilislərlə əlaqəmiz yaxşıdır. Nədənsə bu barədə bu vaxta qədər bir tədbir və sərəncam olmayıbdır. Məqsədim [472 - 473] heç bir kəsi şəxsən nəzərdə tutmaq deyil. Mən ümumi dairədə də parlamana bildirməyi lazım görürəm. Mən istərdim o pullar ki, bir dövlət tərəfindən buraxılır etibarı nəzərdə tutula idi. Bu barədə də Gürcüstan və Ermənistan ilə əlaqəmiz məlum olan idi. Zaqafqaziya pullarının dərəcəyi-etibarı bizimkindən 99 faiz hesab olunur. Təəssüflər olsun ki, o pullar hər yerdə işləndiyi halda biz tacirlər 5-6 faiz pul alıb Tiflisdən mal almağa gediriz. Bu barədə lazım idi sərəncam olsun. Güman edirəm ki, olacaq. Lakin bir qədər tez olsa idi yaxşı olardı. İkinci, İran ilə əlaqəmiz və ticarətimiz vardır. Bizim pulumuz burada bir dərəcəyə çatıbdır ki, min manatımız tümənə gedir. Sülh vaxtı hesabilə min manatımızın qiyməti 18 manat 70 qəpik eləyir. Bununla da böylə olur ki, oradan arşın malı gətirmək lazım olduqda 3 manatlıq şeyə 15 manat verilir. Burada əhali şeyləri birə 8-birə on artıq qiymətə almağa məcbur olur. Mən deyərdim ki, bunlara nə çarə vardır. Məncə mürur ilə bu pullar kəsilib çoxaldıqca və ticarət dairəsinə buraxıldıqca iş bir yerə çatar ki, indiki kimi qiyməti olmaz və bəlkə də heç alınmaz. Dərəceyi-etibar az olar. Onsuz da indi manatımız bir qəpiyə gedir. Bunun çarəsi vardır. Ola bilir ki, bu dediyim söz fəhlə sinfinə dair olsun qərəzli görünsün. Xəlim o deyil mən qərəz deyirəm: bir yerdəki istəsələr pulun qiyməti artsın, gərək o məmləkətdə iş (trud) çoxalsın, çünki zəhmət çox olanda pulun qiyməti artır. Amma indiki halət bir dərəcəyə çatıb ki, zəhmətdən hasil olan iş məvacib müqabilində heç dərəcəsindədir. Sülh vaxtında ki, səkkiz saatlıq işin məhsulu indikinə nisbətən 100 faiz çox olurdu. Güman edirəm ki, nəinki fəhlə başqa xidmətlərdə boylədir. Asayiş vaxtında bir saatda işlənən iş indi 6-8-10 saatda işlənməyir. Odur ki, zəhmət məhsulu az olub, pulda mürur ilə çoxalır. Bunun intahası yoxdur. Parlaman izn verəcək pul kəsiləcək. Mən özüm də tacirəm. O şey ki, mən özüm axşam almışam onun əvəzində verdiyim pulu heç kəs mənə vermir.

Ona görə məsləhət bilirdim ki, maliyyə naziri cənabları bu yolda səy etsin ki, mümkün qədər zəhmətdən əmələ gələn məhsulat çoxalsın, bunun nəticəsində o olar ki, mal çoxaldıqca hər kəs özünün tez satmağına tələsir və ortada bir rəqabət olar ki, pulun qiyməti artar, bu bir çarə. [473 - 474]

İkinci çarə məruzəçi dedi ki, Gürcüstan və Ermənistan ilə əlaqəmiz olsun. Onların pulu ki, burada artığına işlənir, heç olmazsa bizim pulumuz da orada manata işlənsin.

Üçüncü çarə olmaq üzrə İran ilə əlaqəmizi düzəltməliyiz. Rusiya ilə əlaqəmiz yoxdur. Ora bizim üçün ticarət tərəfindən əhəmiyyətli idi. Ukrayna ki, Rusiyanın bir parçası hesab olunurdu əvvəlcə ora ilə böyük əlaqədə idik. Sonradan nə olacaq bilinmir. Hələlik bizim ilə yaxşı əlaqədə olan tazə hökumətlərlə əlaqəmizi öylə düzəldək ki, pulumuz sərbəst öz qiymətinə işlənsin. Bu asan bir şeydir. Çünki Gürcüstan hökuməti ticarət barəsində bizdən asılı olduğundan bizə tabedir. Biz onlara əmr edə bilərik. Onlarda alış-veriş yoxdur. Orada pul da yoxdur. Mən Gürcüstan ticarət təşkilatları ilə görüşüb aldığım təcrübəyə görə bilirəm ki, bir adam əlində çek 3-4 ay pul almaq üçün qapı-qapı gəzir. Pul tapılmır ki, onlara verilsin. Və o pulu alınca çekin yarıdan çoxunu sərf edir. İranın sərfi kimi. İş ki, böylədir Gürcüstan ilə pul məsələsində ciddi danışılsa bizim pulumuz onların pulu ilə bir dərəcədə olar. Və özümüzə görə geniş varidatımız olduğundan bizim pulumuz onlarınkından artığa gedə bilər. Ticarət əhli o biri kağızı alanda manata 50-60 qəpik artıq verir. Mən sözümü bitirərək deyirəm ki, pul kəsilsin, 300 milyonda ki, var təsdiq edək, ancaq pul kəsilməsi barəsində bir az ehtiyatlı olmalı və diqqət edilməlidir.

Deyilsin ki, bu hal müvəqqətidir. Keçənlərdə təriq və müdabir nəzarəti tərəfindən idxal edilmiş layihənin qəbul olunmasına tərəfdar idim, çünki müvəqqəti deyilirdi. İndi görürəm ki, bu müvəqqətilərin də müəyyən dairəsi və sərhəddi yoxdur. İndi görürüz ki, işlərimiz bir növ yaxşılaşmış və halımız bundan əvvəlkindən möhkəmdir. Müttəfiqlər nümayəndələri ilə əlaqəmiz yaxşılaşıb və qonşularımızla da aramız yaxşıdır.

Mən deyərdim ki, bu makinaya bir qədər diqqət və ehtiyat ilə rəftar edilsin. Hərgah pul kəsmək məsələsi asanlıqla mümkün olarsa və çətinliklə qəbul olunarsa nazir cənabları başqa yol və mənbə varidat tapmağa məcbur olacaqdır. Hər halda pulun çox olması ticarətə zərərdir.

**Rəis** - Söz Rüstəmbəyli Şəfi bəyindir. [474 - 475]

**Şəfi bəy** - Burada [müzakirə olunan] bazara beş yüz milyon manat pul buraxmaq kimi mühüm bir məsələdir ki, onu böylə səthi keçmək olmaz. Bizim zənnimizcə lazım idi ki, maliyyə naziri, yainki, nəzarətin bir nümayəndəsi burada olub Məclisi-Məbusana ətraflı məlumat və izahat verə idi. Ancaq ondan sonra biz bu məsələnin müzakirəsinə keçə bilərdik. Ona görə mən təklif edirəm ki, bu layiheyi-qanuniyyənin müzakirəsi təxirə salınsın və maliyyə naziri Məclisi-Məbusana ümumiyyətlə, əhvali-maliyyəmiz və maliyyə siyasətimiz haqqında müfəssəl məlumat versin. Öylə olsa əhali də bilər ki, pul nə üçün, nə surətlə və nə qədər buraxılır. Mən yenə təklif edirəm məsələ təxirə salınaraq gələn iclasda müzakirə edək. Nazir də bəyanat versin.

**Sədr** - Məbuslardan rica edirəm danışmaq istədikdə vərəqədə nə xüsusda söyləyəcəklərini qeyd etsinlər. Şəfi bəy söz istədikdə nə danışacağını bildirməmişdi. Şimdi çıxıb müəyyən təklif edir. Mən böylə təklifi qəbul edəməm. Zira nizamnaməyə görə təklif o vaxt qəbul edilib rəyə qoyular ki, əqəllən beş məbus tərəfindən imzalanmış olsun. Söz Muxtar Əfəndizadənindir.

**Əfəndizadə** - Layiheyi-qanuniyyə barəsində bizim bir neçə sualımız var. O suallardan bəziləri haqqında bəyanatçı Əfəndi məlumat verdi. Bunları bir də təkrara ehtiyac və lüzum yoxdur. Qaldı bir məsələ vardı ki, nə üçün maliyyə naziri burada yoxdur ki, əhvali-maliyyəmiz haqqında məlumat versin. Bunu da Şəfi bəy dedi. Pulların bir qismi hələ Məclisi-Məbusan yoxkən hökumət tərəfindən buraxılmışdır. Bir qismi də Məclisi-Məbusan mövcud ikən kəsilmişdir.

Əvvəla, parlamandan izn almadan hökumət əsla pul kəsməməlidir. Üçüncü sualımız da məxaric haqqında idi. Burada ingilislərə 35 milyon manat verilməsi istənilir. Fəqət, mən bilməm bu nə üçün verilsin. (Poşlin)mi, həqti-hümayəmi, ya nə ad ilə verilsin.

Mən təklif edirəm, bu vaxtadək kəsilmiş olan kağız pullar təsdiq edilsin, amma mümkün olan qədər yenidən pul kəsilməməsinin tərəfdarıyıq. Zira indi manatın kursu bir qəpik isə, pul daima kəsildikdə bir qəpikdən də aşağı düşər. Binaən-ileyh, biz təklif edərdik ki, mümkün olan qədər təzədən pul kəsilməsin. [475 - 476]

**Rəis** - Bir təklif var ki, maliyyə naziri bəyanat verənədək məsələnin müzakirəsi təxirə salınsın, başqa təklif yoxmu? Yoxsa son söz məruzəçinindir.

**Vəkilov** - Mən bir məsələ haqqında məlumat vermək istərdim. Burada hökumətin qabaqca 300-mi, 390 milyonmi pul kəsmiş olduğundan bəhs olunur və deyilir ki, bunu parlaman təsdiq etməli idi. Bu fikir səhvdir. Hökumət haman 300 milyon manatı parlaman olmayan zaman kəsmişdir.

Yəni o vaxt ki, bütün ixtiyarlar ancaq hökumətin əlində idi. Saniyən, sual olunur ki, ingilislərə nə üçün pul vermək istənilir. Mən deməliyəm ki, ingilislər bu məbləği bizdən borc istəyirlər və komisyonun məlumatına görə haman məbləğ ingilislər tərəfindən lazımi dərəcədə təmin edilmişdir. Bir də sual olunur ki, nə üçün bəyanat vermək üçün nazirin özü iclasa gəlməmişdir. Buna cavabən ərz edirəm ki, büdcə və maliyyə komissyonu bu layihənin müzakirə ediləcəyini nazirə xəbər vermişdi. Fəqət, mühüm işlər üçün iclasları olduğundan nazir Məclisi-Məbusan iclasına gələ bilməmişdir.

**Rəis** - Təklif var ki, layihəyi-qanuniyyənin müzakirəsi təxirə salınsın. İki natiqə söz verirəm. Biri lehinə, digəri əleyhinə. Kim məsələnin təxiri tərəfdarıdır, rica edirəm əlini qaldırsın. (Əllər qalxır). Deməli əksəriyyət ilə məsələnin təxiri haqqındakı təklif qəbul olunur. Bununla məsaili-yomiyyə bitmiş olur. Fəqət, məclis qapanmadan əvvəl möhtərəm məbusların nəzəri diqtətlərini bir şeyə cəlb edirəm. Komisyonların 100-də 90-nı işləmirlər. Adları əksərən kağız üzərində var. Özləri isə əsla əsəri-həyat və fəaliyyət göstərmirlər. Parlamanın qərardadilə komisyonlar əzasının miqdarı ikiqat artırılmışdır. Fəqət, artırmaq daha da işi müşkülə salmışdır. Zira 5 adamı yığmaq çətin idi, şimdi 10 əzayi çağırmaq daha müşkül olmuşdur. Dekabrdan bəri bu komisyonlar seçilmiş, fəqət, ancaq kağız üzərində qalmışdır. Özləri işləmirlər. Bir də torpaq komissiyası üç dəfə iclasa yığışmamış olduğundan nizamnaməyə görə ləğv edilmişdir. Fəqət, bu vaxtadək hələ yeni əza seçilməmişdir. Ona görə rica edirəm, bu məclisdə məzkur komisyaya namizəd göstərəsiniz.

**Rəis** - Rica edirəm, yerlərinizi işğal edəsiniz. İclas qapanmayıb, parlaman seçkiyə məşğuldur. (Əzalər vərəqləri yazıb [476 - 477] verirlər). Məbuslardan rica edirəm buyursunlar bura. Vərəqələr oxunduqca səsləri saysınlar. Abbasqulu buyur. Məmmədbəyov buyur (Abbasqulu və Məmmədbəyov keçib, əyləşib yazırlar). (Katib vərəqələri oxuyur, Muxtar əfəndi gəlib qabaq cərgədə başqa kürsüdə oturur).

**Rəis** (Muxtar əfəndiyə) Möhtərəm məbus əfəndi, rica edirəm yerinizdə əyləşəsiniz. (Muxtar əfəndi diqqət etmir). Məbus əfəndi, rica edirəm ya yerinizdə əyləşəsiniz və ya yüzünüz bu tərəfə oturasınız. (Katib vərəqələri oxuyub qurtarır).

**Rəis** - Cəmisi 42 vərəq verilibdir. Keçən gərək 22 səslə keçsin.

**Abbasqulu Kazımzadə** - Seçkilərin nəticəsi olaraq zeyldəki şəxslər bu səsləri alıblar: Məmməd Əmin Rəsulzadə 30, Əliheydər Qarayev 27, Qaraşov 28, Baxış bəy Rüstəmbəyov, Kərimov 26, Məlik-Yeqanov 36, Əbilov 10, Ter-Azaryan 26, Qarabəy 1, Məmmədbəyov 6, Xəlil bəy Xasməmmədov 1, Vanseviç 1, Əsəd bəy 10.

**Rəis** - Ən çox səs alanları sıra ilə oxuyun.

**Kazımzadə** (oxuyur) - Məlik Yeqanov 36, Heybətqulu 32, Məmməd Əmin Rəsulzadə 30, Qaraşov 28, Əliheydər Qarayev 27, Kərimov 26, Ter-Azaryan 26.

**Rəis** - Fəhlə komisyonunda 5 adam var idi, beşi çıxıb. İndi istəyirsiniz komisyon əzalarının ədədini artıraraq, təklif var yeddi olsun.

**Məmməd Əmin Rəsulzadə** (yerindən) - Əksəriyyət mütləqa alan nə qədərsə o qədərdə keçsin.

**Abbasqulu Kazımzadə** - Əksəriyyət mütləqa alan, yeddidir.

**Məmməd Əmin Rəsulzadə** - O qədər də keçsin.

**Rəis** - Fəhlə komisonuna bunlar oldu: Məlik-Yeqanov 36 səslə, Heybətqulu 32 səslə, Rəsulzadə 30, Qaraşov 28, Qarayev 27, Kərimov 26, Ter-Azaryan 26 səslə.

Sosialistlər bloku tərəfindən Məclisi-Müəssisan seçki komisyonuna Camo bəy Hacınskinin yerinə Abbas bəy Atamalıbəyov təklif olunur.

Ləvayehi-qanuniyyə komisyonuna "Əhrar" fraksiyasi tərəfindən Muxtar əfəndi Əfəndizadə Aslan bəy Qardaşovun yerinə təklif olunur.

**Qardaşov** (yerindən) - Mən istərəm. [477 - 478]

**Rəis** - Keçən 13 aprel tarixli iclasda Erməni fraksiyası tərəfindən Çubaryan-maliyyə-büdcə komisyonuna, Ter-Azarov Ləvazimat, Papyan Məclisi-Müəssisan seçki komisyonu ilə istizah komisyonuna təklif edildilər. Hərgah istəyirsiniz bunları indi seçək. Yainki gələcək iclasda. (Səslər: Gələn iclasda). Üzvlər qalxırlar.

**Rəis** (Zəngi vurur) - Rica edirəm əyləşiniz, iclası bağlamamışam. Rica edirəm gələn iclasda seçki üçün hazır gələsiniz. Namizədlərin siyahisi dəftərxanada vardır. Oradan ala bilərsiniz. Bununla ruznameyi-müzakirat bitdiyindən məclisi qapayıram.

İclas saat 1-40 dəqiqədə qapanır.

**Arixiv, f. 895, siy, 1, iş. 82, v. 2-7.**

## № 33

### Otuz üçüncü iclas

*5 may 1929-cu il*

**Rəis -** Həsən bəy Ağayev. **Katib -** Əhməd bəy Pepinov İclas açılır 11.50 dəqiqədə.

**Rəis -** İclas açılır. Bugünkü Ruznameyi müzakirat bu qərar ilədir:

1. Daxil olmuş ovraq, o cümlədən: Gəncə bələdiyyə idarəsinə bir milyon rüblə borc verilməsi haqqında layiheyi-qanuniyyə; 2. Hökumət məmurlarının məaşlarının təzyidi haqqında layiheyi-qanuniyyə; 3. Sərmayə vergisi; 4. Bakı bələdiyyə idarəsinə 10 milyon manat borc verilməsi haqqında layiheyi-qanuniyyə; 5. Maliyyə nəzarətinə verilmiş 20 milyon məbləğin 40 milyona qədər artırılması haqqında layiheyi-qanuniyyə; 6. Parlaman üzvü Abdulla bəy Əfəndiyevin növbədən xaric ərz-halı; 7. 510 milyon manat yenidən kağız pul buraxılması haqqında hökumətə müsaidə verilməsi xüsusunda layiheyi-qanuniyyə; 8. Əhaliyə bilavasitə yardım edən təşkilatın ziraət nəzarətinə köçürülməsi haqqında layiheyi-qanuniyyə; 9. Bakı-Culfa dəmir yolunun itamanı üçün hökumətə müəyyən miqdarda məbləğ buraxılması [478 - 479] haqqında layiheyi-qanuniyyə; 10. Komisyonlara üzvlər intixabı.

Bunlardan Gəncə bələdiyyəsinə bir milyon borc verilməsi haqqındaki layiheyi-qanuniyyə maliyyə büdcə komisyonuna verilmiş; hökumət məmurlarının maaşlarının təzyidi haqqındaki qanuniyə verilir eyni komisyona. Sərmayə vergisi haqqındakı layiheyi-qanuniyə maliyyə büdcə komisyonuna verilir. Bakı bələdiyyə idarəsinə qərz olaraq 10 milyon pul buraxılması haqqındaki layihəyi-qanuniyyə maliyyə büdcə komisyonuna, hökumətə verilmiş 20 milyon fondun 40 milyona qədər artırılması xüsusundakı layiheyi-qanuniyyə yenə eyni komisyona verilir. Parlaman üzvü Abdulla bəy Əfəndiyev növbədən xaric ərzi halda bulunmaq istəyir, bu da iclasın sonuna qalır. Hərgah bu növ ilə düzülmüş ruznameyi-müzakirata etiraz yox isə, qəbul olunur.

Məsələlərə keçmədən rəyasət özünə borc bilir məlum eyləsin ki, Məclisi-Məbusan üzvlərindən Hacı Əli Qasım oğlu aprelin 3-də iclasda olmamış və gəlməməyinin səbəbini də məlum etməmişdir. Ona görə də divani-rəyasət bunu məlum etməklə bərabər təklif edir ki, qanun məvcibincə haman üzv parlamandan xaric hesab olunsun. Qəbul etdiyimiz qanunda deyilir ki, bir üzv bir ayın ərzində iclasa gəlməzsə və gəlmədiyinə məşru üzrü olmazsa parlamandan xaric hesab olunur, lakin keçən ayın dördində bir teleqram göndərmişdi ki, bərk xəstəyəm, yaxşı olandan sonra gələcəyəm.

**Abdulla bəy Əfəndiyev** (yerindən) - Mən danışmaq istəyirəm.

**Rəis -** Bu barədə danışmaq olmayacaq.

**Abdulla bəy Əfəndiyev** (yenə yerindən) - O naxoşdur, teleqraf vardır.

**Rəis** - Divani-rəyasətin xəbəri yoxdur. Hərgah teleqraf varsa məlum edəriz. Lakin bu gün Gəncədən gəlmişəm. Gəncədə mənə hər kəs onun barəsində deyirdi... "Sabiq üzvünüz filan kəs" o özünü parlamandan çıxmış hesab edir... bir də mən unutdum bir neçə kağız da qalmışdı burada... Bir layiheyi-qanuniyyə sənətkarlardan alınan naloqların artması barəsindədir. Bu da verilir maliyyə büdcə komisyonuna. Sonra Şəki və Ağdaş mahalının erməni əhalisi tərəfindən, Boqdan Qəhramanoviç Balayans parlamana üzv seçilmişdir. Məzkurun kağızları verilmişdir etibarnamə komisyonuna və bir də rica edirəm ki, [479 - 480] köçən səfərdən natamam qalmış üzvlər seçkisi tamam edilsin. Göstərilən namizədlər bunlardır. Ləvazim komisyonuna sosialistlərdən Abbas bəy Atamalıbəyov, Ləvayeh komisyonuna Əhrar fraksiyasından Muxtar Əfəndizadə, Məclisi-Müssisan seçki komisyonuna sosialistlərdən Camo bəy Hacınskinin yerinə Abbas bəy Atamalıbəyov; ləvazim heyətindən Məclisi-Müssisan sədrinə belə bir məktub gəlmişdir. (Məktubu oxuyur). Bunlardan keçəndən sonra Ter-Azaryan fəhlə komisyonuna intixab edilir, qalanı da seçilməlidir. (Adları oxunur).

Rica edirəm məclisin axırında bu namizədləri seçəsiniz. Sizə kağız bu barədə paylanıbdır.

Növbədəki məsələ yenidən beş yüz on milyon kağız pul buraxmaq haqqında hökumətə müsaidə verilməsi üçün layiheyi-qanuniyyədir. Məruzəçi Mustafa bəy Vəkilovdur.

**Mustafa bəy Vəkilov -** İkinci iclasda 510 milyon emissiya buraxılması haqqında, Layiheyi-qanuniyyəni ərz eylədim. Parlaman qərar qoydu ki, maliyyə naziri gəlib izahat versin. Bugün maliyyə naziri buradadır, söz onundur. İzahat versin.

**Rəis -** Söz maliyyə naziri Əliağa Həsənovundur.

**Əliağa Həsənov** - Möhtərəm məbuslar! Azərbaycan maliyyə və iqtisadi əhvalını təsvir etmək üçün lazım olan materiallar bugün də əldə deyildir. Bir məmləkətin əhvalini təsvir etmək və onun maliyyə və iqtisadi işlərini bir neçə gündə öyrənmək çətin məsələdir. Bilirsiniz ki, maliyyə nəzarəti iki həftədir ki, bu işlər ilə məşğuldur. Və onu ətraflıca müzakirə eyləmək bu günlərdə bizim üçün mümkün deyildir. Lakin müxtəsər də olsa izahat vermək olar. Əvvəla, bunu istəyirəm ərz edim ki, aləmşümül Cahan müharibəsinin cəmi dünyada sui-təsiri olduğu kimi bizim məmləkətdə də olmuşdur. Bizim məmləkət də bu bəladan uzaq qalmayıbdır. Beş il tamamdır ki, adi məişət mümkün deyildir. Hər şey öz yolundan çıxmışdır. Səfərbərlik başlanıb. Tamam kişilər

nə o yerdəki işləmək lazım idi, fabrikalarda, zavodlarda işlərin məhsulatı ilə gərək mənfəətbərdar olaydıq, işləməyiblər. Odur ki, məmləkətin məhsulu az olubdur. Məhsul az olanda da dövlət az olur. Biz də müşkülata düçar olmuşuq. Bizim ticarətimiz ki, ümdə neft ticarətidir, indi pozulubdur. Bazarlar bağlı, yollar bağlı heç bir yerə çıxmır. Mal çıxanda da pul olmaz, müşkülat [480 - 481] üz verər. O müəssisələr ki neft ilə işləyir, o müəssisələr dayanıbdır. Maddi cəhətdən xeyli müşkülat əmələ gəlibdir, anarxiya olub, inqilab olub, cürbəcür iğtişaş olub, milli siyasi qarışıqlıqlar olub. Deməli, hər bir şey öz adi yolundan çıxmış ticarət işləri pozulub, bazarlar bağlı qalmış, mal hasilə gəlməyib, camaat qeyri işlər ilə məşğul olub, qeyri məmləkət ilə əlaqə kəsilib, ticarət dayanmışdır və bunların nəticəsində bu cür böyük müşkülat qarşısında qalmışıq. Ticarətimiz necə ki, bir növ tətil edən kimidir. Ticarətimiz kimi ziraətimiz və qeyri işlərimizdə bərhəm olub. Bir yerdəki anarxiya olsun ora, əlbət ki, fəna halda olar. Kəndistan əhli də şəhərdə olduğu kimi öz işlərinə məşğul deyildir. 5 ildir ki, məmləkətdə anarxiya davam edir. Bundan əqdəm Azərbaycan hər bir uyezdinə lazım olan şeyləri özgə yerdən alardı. Rusiya kimi geniş bir bazar üzümüzə açıq idi. Öz daxilimizdən hasil olan və xaricdən gələn mallar gəlib satılırdı. Biz heç vaxt özümüz öz başımıza qalıb öz fikrimizi özümüz çəkməyə öyrənməmişik. Biz öyrənmişik ki, hazır mallar gəlsin alıb işlədək. Elə güman edirdik ki, Volğa və yollar açıq olacaq, mallarımız gedib o yerdə satılacaq və oradan da bizim üçün hazır mallar gələcəkdir. Lakin müharibə bu işləri dəyişdirdi. Yollar bağlandı. Ödəməklə mal alırdıq və malımız gedib satılırdı, əvəzində qızıl gəlirdi. İndi o yerlərə yaxın düşmək mümkün deyil. İndi bir halda qalmışıq ki, öz məmləkətimizin məhsulu ilə gərək bir növ dolanaq. Öz malımız da daxildə satılsın. Aşkar işdir ki, bizim məhsulumuz özümüzə kifayət etməz. Çünki biz heç vaxt bu fikirdə olmamışıq. Lakin istəsən öz məhsulumuz ilə özümüzü dolandıra bilərik. Azərbaycan o qədər dövlətlidir ki, hər cəhətcə öz işlərini aparar. Və öz məhsulu ilə dolanar. Bu fikir indi araya gəlibdir. Çətini də burasıdır ki, bu vaxta qədər biz özümüz-özümüz üçün mal hazırlamamışıq. Bəlkə bu sonralar düzəlsin. İstiqlal elan etdikdə hökumətin əlində heç bir şey yox idi. Ancaq bunu deyə bilərik ki, xəzinədə altmış milyon pul varmış. Hökumət nə ilə dolana bilər, hökumət gərək varidat ilə dolansın. Bu bir ümumi qanundur, varidat da nə yol ilə hasil ola bilər. Beş ildən bəridir ki, nə fəlakətlər olub. Müharibə təsiri olaraq kəndlər dağılıb, yollar dağılıb, əhalinin [481 - 482] 10-15 faizi qırılıb, tələf olub. Dörd-beş ildir ki, heç bir şey eləməmişik. Bu beş ildə nə əkmişik, nə biçmişik. Bu cür hal ilə var-dövlət haradan olsun? Gərək əkin əkilsin, yollar açıq olsun, ticarət olsun, əmniyyət olsun. Vaqon, tramvaylar işləsin, var-dövlət olsun. Keçən 1918-ci il gözümüzün qabağındadır. O barədə danışmaq istəmirəm. Hər kəs bunu özü görmüşdür. Bir haldayıq ki, xalqın mümkünü yoxdur naloq versin. Varı olan da da fikir etmir ki, hökumətə gərək öz xərcini-borcunu versin. Hər kəs bu fikirdədir ki, azadlıqdır, vergi vermək lazım deyil. Bu fikir xalqın zehnindən götürülməlidir.

1918-ci ili görmüşük. İş bu halda olanda malı və iqtisadi heç bir qanuna münasib olmadığı işə şuru edənlər cümləsində biz də etmişik. Kağız pul buraxmaq ilə xərcimizi istəmişik düzəldək. Bunu istəyirəm ərz edim ki, buraxılan kağız pullar nəzərə çox görünür. Bu pullar məmləkətin adi məxaricinə sərf edilmişdir. Məmləkətin fövqəladə xərclərinə sərf olunubdur. Məmləkətin öz xərcindən ötəri ancaq 170 milyon xərc olunubdur. Cəmi kağız pul (qarşısındakı kağızları vərəqləyir, məclisdə sükut) hər gah fövqəladə xərclər olmasaydı biz az pul ilə dolana bilərdik. 510 milyon siz-dən istənilir, təbii bu da fövqəladə xərclər üçündür. Məsələn, o pullar ki, ingilislərə verilir, neftçilərə verilir. Bunlar smetadan xaric xərclərdir. Budur ki, biz böyük və çox pul buraxmağa məcbur olmuşuq. İstənilən 510 milyonun 300 milyonu çap edilibdir. İndi 210 milyon qalıbdır. Bu pullar yuxarıdakı xərclərə sərf olunur. Bu da bizə bir ayacan kifayət edər. Rica edirəm məclis onu qəbul eyləsin və hökumətin işi dayanmasın.

**Rəis** - Bu barədə kim söz istəyir. Söz Muxtar Əfəndizadənindir.

**Muxtar Əfəndizadə** - Möhtərəm məbuslar! Siz bilirsiniz ki, keçən dəfə biz bu məsələni müzakirə eylərkən təxirini və maliyyə-nazirinin ətraflıca məlumat verməsini təklif etmişdik. Gərək maliyyə naziri ümumən maliyyə istəmək xüsusunda ətraflı məlumat verə idi. Nədən isə gözlədiyimiz məlumat verilmədi. Keçən iclasda bəyan eylədik mətləbimiz nədir? Məqsədimiz kağız pulların bir qədər qiymətdən düşməsinin [482 - 483] qabağını almaqdır. Böylə olsun ki, işimiz də keçsin, pul da qiymətdən düşməsin. Bizə nazir əfəndilər buyurdular hal və ovza dəyişmişdir. Bunu hər kəs bilir; əmma ovza dəyişibsə pul kəsmək qanuni olsun, pulun qiyməti olsun və illa hər kəs istədiyi qədər pul kəsər.

Kağız pul veksildir, hökumət veksilidir. Veksil verən adam gərəkdir mötəbər olsun və bilsin ki, nə üçün veksil verir. Veksil verən adamın etibarinə baxırlar və veksilinin mötəbər olması üçün lazımdır, bilsinlər ki, onun nəyi vardır, mülkü varmı, maaşı varmı? Biz bu vaxtadək maliyyə nazirindən gözləyürdük ki, kəsilmiş və kəsiləcək pulların əvəzində nə rəhn və zəmanət olduğunu bildirsin. Madam ki, yenə buraxmaq istənilir, onun üçün rəhn göstərilsin. Bu vaxtadək pula ehtiyac hiss edilib kəsilmiş, gələcək pullar üçün bir rəhn göstərilsin. Saniyən ingilislərə borc verilmək məsələsi barəsində sual edilmişdi ki, nazir əfəndi bu xüsusda kafi bəyanat verdi. Sizə məlumdur ki, türkləri biz özümüz çağırmışdıq; biz borclu idik ki, onlara maddətən müavinət edək. Fəqət, türklər özləri bizə pul verirdilər. Madam ki, ingilisləri biz dəvət etməmişik, nə səbəbə onlara pul verməliyik. Bunun səbəbi nədir, bunu gərək bizə bildirsin. Sonra bu cür hallarda vardır ki, onlara da məlum olmalıdır. Məlumdur ki, bonların bir qismini Bakı bələdiyyə idarəsi, bir qismini bolşeviklər kəsmişdir. İndi də

biz kəsirik. Bunların miqdarı ayrı-ayrı və müəyyən surətdə göstərilməlidir. Bugün bütün pullar Azərbaycan pulu olmalı və Azərbaycan əlindən çıxmalıdır. Və köhnə pullar yığılmalıdır. Bir məmləkətdə cürbəcür pullar olmamalıdır. Mən zənn edirəm ki, pulumuz bu cür olarsa [çətin ki] Zaqafqaziya pulundan əskik olsun. Mən görürəm ki, bizim pulumuz Kerenski pulundan dörd dəfə əskikdir. Öz pulumuza rəhnimiz olsun.

**Sədr** - Söz maliyyə nazirinindir.

**Əliağa Həsənov** - Bu pulların ingilislərə verilməsi barəsində danışmaq istərdim. Məndən əvvəl pul kəsilmək işi var; onlar bizim əlimizdə deyil idi. Bankın ixtiyarında idi. Mən nəzarətə getdim, bankın ixtiyarında gördüm pul kəsilir, gedir banka, sonra sərf olur. İngilislərə verilir, neft mədənçilərinə verilir. 176 milyon hesabi-cariyədədir. Bu barədə də [483 - 484] hökumətin nə qisim rizası olub mənə məlum dəgildir. Ancaq onu bilirəm ki, hesabi-cariyə açılıb. 176 milyon ki, var bank göstəribdir ki, ingilislərə, neft mədənçilərinə vermişik. hökumətin bu barədə də rizası olub bilmirəm. Ancaq əlalıqda əhval belədir. Mən ki, ora getmişəm ekspedisiya əhvalını dəyişdirmişəm: əvvəl gündən öz ixtiyarımıza almışam. Böyük danışıqdan sonra qərar qoymuşam ki, mənim əmrim olmadan heç bir yerə pul getməsin. Pulun yolunu ayırmışıq. Pul indi banka getmir, gedir xəzinəyə. Xəzinədə onun üçün əlahiddə bir depozit açılıb. Pul çapdan ora gedir. Qalır xəzinəxanəmizdə və öz ixtiyarımız ilə xərclənir. İngilislərə bir hissə verilir. Hökumətin ixtiyarı olmadan ingilislərə pul verilmir. Bu puldan bu cür verilir ki, biz ilə ingilislər arasında müvəqqəti bir saziş var. O saziş imzalansın, sonra parlamana gələcəkdir. Sonra parlaman təsdiq edər, etməz o parlamanın öz işidir. Nə qətnamə olar biz də əməl edərik. İngilislərə pul lazım idi. Hökumət öz öhdəsinə götürüb verir. Onlar deyirlər ki, pul banka verilsin. Ancaq biz bərk dururuq, razı olmuruq, banka vermirik. Banka verməyi mən də lazım bilmirəm. Biz ingilislərə pul veririk, borc hesabına. Onlar da deyirlər biz borc götürürük. Şərtnamədə kağız verirlər ki, borc alırlar. Bu barədə ingilislər ilə olan şərtnamə qəti surətdə qurtarmayıb.

İkinci məsələ böylədir ki, varidat üçün rəhn göstərsinlər. Mən bu barədə çox danışmaq istəmədim. Çünki məsələ aşkardır. Və aşkar məsələ haqqında danışmağa lüzum yoxdur. Gələcəkdə dəxi xərc gələcək; Məclis aylar, həftələr ilə bu məsələ üstündə dayanacaqdır. Bu yavuq günlərdə bir aya, bir həftəyə tez-gec dəxl xərc layihələri, smetaları gələcəkdir. Hər nəzarətdə bizə dəxil xərc layihəsi gəlmişdir. Ancaq bir neçə nəzarətdən gəlməmişdir, o da gələr və parlamana dəxil olandan sonra onun barəsində ətraflı danışmaq olar. O vaxt material olar. Deyən də, eşidən də işin kursunda olub bir şey anlaya bilər. Ancaq onu ərz edirəm ki, iki həftədə bir məmləkətin bütün əhvalını və maliyyə işlərini öyrənmək mümkün olmaz. Olar desəm də dürüst deyildir. Bu iki həftədə ancaq cari məsələlər ilə məşğuluq ki, gündə lazım olan məsələni sabaha qoymaq olmaz. Bu məsələlər çox ağır məsələlərdir. Ona görə məşğuluq. [484 - 485] Üzr istəyirəm ki, türkcə təqririm yaxşı deyildir. Elə deyil ki, savadım olmasın və əsla türkcə bilmirəm. Xeyir. On ildən artıqdır ki, məclisdə türkcə danışmamışam. Ona görə günah məndə deyil ki, danışmaq istəyirəm danışa bilmirəm. (Səslər: Yaxşıdır, yaxşı danışırsınız).

Mən ərz edirəm ki, ağır məsələlər var. Bu vaxta qədər neft ticarəti üçün 140 milyon pul verilib. Mən bildiyimə bu pul təmin olunmuyub. Əvvəl gündən təmin olunmamış bu böyük iş nəzərdə bir şey deyilsə də nəticəsi çox ağır olardı. 147 milyon gedirdi. Bunun 120 milyonunun yolunu dəyişmişik, bu iki həftənin ərzində öz ixtiyarımıza almışıq, bu böyük işdir. İndi özümüzü təmin eləmişik. Hər bir pul ki, kəsilir öz ixtiyarımızdadır. İki həftə bundan əvvəl pulun ixtiyarı bizdə deyil idi. Bizə pul lazım olanda gedib xahiş edirdik. Mən bu məsələni açmaq istəmirəm. Maliyyə nəzarəti maliyyə işlərini öz düz yoluna salmışdır.

Üçüncü məsələ hökuməti təmin edən neft ticarətidir. İndiyə qədər hökumət neft mədənçilərinə 140 milyon verib, hər ayda da 30 milyon verilir. Onlar isə 40 milyon istəyirlər. Ayda 40 milyon bizim cavan hökumətimiz üçün böyük puldur. İllik dəxi xərcimiz üçün böyük sərmayədir. Mən ki, bunu görmüşəm əldə bir təminat yoxdur. Burada neftçilərin nümayəndələri varsa deyə bilərlər. Hərçəndi razı da qalmasalar yenə təsdiq edərlər ki, 80 milyon iki həftədə təminat almışıq. Bu bizi xatircəm edibdir. Hərgah o iki həftə keçsə 140 milyon ki, verilib bunun əvəzində təminat alıb malı öz ixtiyarımıza alarıq.

Qaldı məmləkətin qeyri varidatına: Bu iki həftədə bu məsələ də heç nəzərdən düşməyibdir. Gələn layihələrdən məlum olar, varidatı artırmaq üçün hökumətdə çox layihələr düzəltmişik. Bunlardan bəziləri gəlib, bəzisidə hökumətdə natamamdır. Bunlarda tamam olduqdan sonra gələcəkdir. Mən elə bildim ki, bu qədər kafidir. hərgah təfsil ilə istəsəniz gələcəkdə deyərəm. Burada dedilər ki, mən kafi cavab vermədim. Bunu mən də başa düşürəm. Lakin lazım olarsa gələcəkdə tətil ilə cavab verməyə səy eylərəm. Dəxl, xərc tutulubdur. Öylə dəyilki biz bilməyək məmləkətin dəxl və xərci nədir? Şübhə altında olmayan mədaxilimiz yarım milyarda baliğdir. [485 - 486] Heç şübhəsiz ki, bu varidat toplanacaqdır. Şübhəli layihələr əgər tətbiq edilərsə, o zaman mədaxilimiz milyarda çıxar. Hərgah Hacıtərxan yolu açılarsa, neft ticarəti yoluna qoyularsa, neftimiz xaricə çıxarsa mədaxilmiz milyarda qədər artacaqdır. Məxaric milyarddan ziyadədir. Çünkü nəzarətin həmişə fikri bu olur ki, xərci artıq, yəni maksimum, mədaxili isə minimum göstərsin. Ona görə də xərcimizi bir milyard, mədaxilimizi yarım milyard göstərdik. Hərgah məclis lazım bilsə dəxi və xərc barəsində təfsilat verə bilərəm. Və hər bir məsələ barəsində cavab verməyə hazıram.

**Sədr** - Söz Əhməd Cövdət əfəndinindir.

**Əhməd Cövdət** - Əfəndilər! Mən sizə deyə bilərəm ki, bu gün burada Azərbaycanın müqəddəratı həll olunur. Çünki pul məsələsi hökumatin can damarıdır. O sağlam olarsa, hökumət yaşar. İndiyə qədər pul və maliyyət haqqında aldığım məlumat gələcəyimizi qaranlıq göstərir. Bunu söyləmək mümkün deyildir. Bugünkü vəziyyətimiz olduqca ağır və çətindir. Bunu da etiraf etməliyiz ki, bu indiki hökumətin təqsiri deyildir. İndiyədək iş başında duran hökumətlərin səhvidir. Bu gün maliyyə naziri söylədilər ki, iki həftədir işi əlinə almışdır. Və iki həftədə işlərə neçəki lazımdır dara ola bilməmişdir. Finans məsələsi barəsində lazımi projə istərdik. Bir neçə iş vardır ki, nazir əfəndi yeni iş başına gəlmiş də olsa, o barədə bizə məlumat verməlidir. Biz bilməliyik ki, biz nerdəyik və nerəyə gedirik. Məlumdur ki, buradaki bank ingilislər tərəfindən açılmışdır. O bankda Azərbaycanın 160-170 milyon parası yox olmuşdur. Bu pulun nerəyə sərf edildiyi haqqında keçmiş maliyyə naziri bizə izahat verməli idi. Fəqət, maliyyə naziri bura da gəlmədi və bizə izahat vermədi. Bugünkü halımız böylədir ki, getdikcə stanoklar işləyir və pul çap edir. Bunu yapmağa məcburuq. Çünki başqa mədaxil mənbələrimiz yoxdur. Fəqət, biz bilməliyik bu pullarımız nerəyə gedir. Və nerəyə sərf olunur. Maliyyə naziri buyurdular ki, fövqəladə məxariclər vardır. O fövqəladə məxariclər hansılardır.

Maliyyə naziri buyurdular ki, məmləkətin əsası ticarət və ziraətdən ibarətdir. Fəqət, əfəndilər, bilirsiniz ki, ziraət nə haldadır. Ziraət işləri büsbütün dayanmış, kəndlər dağılmış, [486 - 487] bunların yapılmasına və təmir edilməsinə heç bir çarə edilməmiş. Məsələnin əhəmiyyəti burasında deyil, ticarət üstədir. Bakının nefti Azərbaycanın mənbəi-səadətidir. Ola bilər ki, mənbəi-fəlakətimiz də bu olsun. Mənbəi-səadətimizdir, onun üçün maliyyə naziri bir milyard mədaxilimiz olacağını söylədilər. Bir çox mədənlərimiz var, lakin o mədənlərdən istifadə edə bilmirik. Bəlkə hökumət hər ay sandığından otuz, bəlkə altmış milyon sərf edir. Biz mədənlərimizin hasilatını göndərə bilmərik. Onun üçün cibimizdən xərcləyirik. Əgər bu yolda çalışırsa idi Bakının nefti Rusiya daxilində gedər, Rusiya pulu da Vətənimizə axardı. Fəqət, ingilislər tərəfindən bu yol qapanıbdır. Dünən fəhlə konfransı var idi. Bu barədə orada danışıldı. Məlum olur ki, bir aydan sonra buranın mədənləri yatacaq, on minlər ilə əmələlər işsiz qalacaqdır. Hökumətin bu barədə fikri nədir? Ticarətimizin rəfəti üçün nə işlər görür. Doğrudur, bu gün Rusiya daxilində bolşevik hökuməti var. Amma biz azərbaycanlılar heç bir hökumət ilə dava halında deyil idik. Hərgah ingilislər istəyirlər dava eləsinlər, o vaxt bizi təmin etsinlər ki, neftimiz qalsın, ticarət və mədən yatmasın. Malımız Rusiyaya getsin, pul gəlsin, mal gəlsin. Həm özümüzü, həm də əmələləri təmin edək. İngilislər tərəfindən yol qapadılmışdır. Məmləkət fəlakətə doğru gedir. Əgər bir aydan sonra həmin paytaxtımızda qarışıqlıq olarsa, əlbəttə, əvvəla ingilis komandanlığı, ikinci bizim hökumət məsul olacaqdır ki, bu barədə təşəbbüsatda bulunmamışlardır. Bir fikir var söyləyirlər ki, sosialistlər həmişə tənqid edir, amma bir şey yapmağa və yol göstərməyə qadir deyillər. Amma mən söyərdim ki, bir sənə içərisində Azərbaycanda neçə hökumətlər gəlmiş, getmiş, hansı işlər görmüşlər? Məmləkəti fəlakətdən qurtarmaq üçün nə eyləmişlər? Onlar əhvali-cariyyədən başqa heç bir işə baxmamışlardır. Nazir cənabları dediyi kimi əhvali-cariyyədən başqa, kağızları imzalamaqdan başqa bir şey etməmişlər. Fəqət, hökumət böyük projelər düzəltsin, durbin olsun, gələcək haqqında layihələr hazırlasın. Bunu etmişlərdir. Məəttəəssüf, keçmiş hökumət bizim cümhuriyyətimizi müşkülat qarşısında qoymuşdur, üzərinə böyük məsuliyyət götürmüşdür. İndiki hökumət gərək ingilislərdən tələb etsin [487 - 488] ki, bizə yol versin, ticarətimiz olsun və mənbəyi-səadətimiz olan neft mənbəi-fəlakətimiz olmasın. O qorxu başımızdan götürülsün. Biz heç kəs ilə müharibə etmirik. Əgər onların aralarında müharibə varsa o tövr eyləmişlər ki, bizə zərər verməsin və bizim hökumət bu barədə fəlakətə uğramasın. Ən ümdə məsələ budur.

İkinci məsələ budur ki, vergi xüsusunda maliyyə naziri demədi ki, hökumət xəzinəsinə lazımi qədər pul gəlməsi üçün və mədaxilin çoxalması üçün nə kimi tədbir müqərər olur. Bilirsiniz ki, bu saat pulların çoxu orta tacirlərin əlindədir. Böyük tacirlərin əlində o qədər pul yoxdur ki, orta tacirlərdə var. Rusiya müvəqqəti hökumətinin gəlir vergisi qanuna görə tacirlər əlində olan pulun bir qismini vergi sifətilə hökumətə qaytarılmalıdır. Fəqət, əvvəla Zaqafqaziyada, sonra Azərbaycanda iğtişaşlar olub. Vaxt müsaidə olmadığından haman vergi toplanmadı. hökumət gərək keçən və bu ilki vergilərin toplanması üçün qəti tədbirlər görsün. Və əllərdə olan pullar tezliklə hökumət xəzinəsinə toplanmalıdır ki, sabah yenə Stanoka müraciət edilməsin. Sonra bir məsələ qalır ki, Muxtar əfəndi söylədi. Keçən dəfə biz də demişdik. Ayda ingilislərə verilən 35 milyon pul məsələsidir. Maliyyə naziri dedi ki, bu pulu nə üçün verək. Doğrudur biz ingilisləri çağırmadıq ki, biz onlara pul verək. Belə çətin vaxtdakı özümüzün lazımi xərclərimiz var, pulumuz yoxdur, bu 35 milyonu hansı məntiq ilə onlara verək. Zaqafqaziyada başqa hökumətlər də vardır. Məlum olduğuna görə Gürcüstandan, Ermənistandan alınmayır. Biləks Avropa dövlətləri kiçik hökumətlərə müavinət edirlər. Dardanel açılıb müttəfiq ordusu İstanbula daxil olduqdan sonra Türkiyə hökumətinə maliyyə müavinəti etdi. Fəqət, burada nədənsə bizdən alırlar. Əvvəla, Tomson cənabları elan etdi ki, bankda olan 140 milyonun məsuliyyətini öz öhdəsinə alır. Lakin bankda olan 160 milyon itdi. Bundan başqa zəif dövlətlərə kömək etməkdənsə bizdən 35 milyon alıb bizim üstümüzə ağır yük qoyurlar. Bu pulu hansı məntiq ilə alırlar. hökumət gərək ingilis komandanlığı qarşısında desin ki, bizim pulumuz yoxdur. Əgər borcumuz da olsa borc verməyə taqətimiz yoxdur. Əgər borcluyuq, elan etsinlər borcu verək. Deyərik ki, yoxdur, sonra verərik. [488 - 489] Əgər bizdən borc almaq istəyirlərsə bizim taqətimiz yoxdur ki, ingilislərə borc verək. İngilislər hər yerə qızıl yollayırlar, bizdən isə borc alırlar. Bizim borc

verməyə taqətimiz yoxdur. Zənnimizə görə maliyyə işləri məmləkətin can damarıdır. hökumət öz xərcləri üçün 40 milyon buraxacaq. Bunlardan başqa sabah da yenə dəmiryol qulluqçuları təzə tarif gətirəcək, qəbul edəcəyik. Hökumət qulluqçularının da maaşlarının artırılması komisyonda baxılmaqdadır. O da parlamana gələcək qəbul edəcəyik. Bunu qəbul edən kimi qiymətlər qalxacaq, qiymətlər artan kimi yenə məvacibləri artırmağa məcburiyyət görünəcək. Keçənlərdə bu kürsüdən dediyimiz kimi bunun axırı olmayacaq. Tutduğumuz yol budur. İldə zərərimiz 500 milyon deyil, bir milyard olacaq. Axırda bir yerə yetişəcəyik ki, pul çıxarmaq üçün stanoklar yetişməyəcəkdir. Emissiya buraxmaqla dərdimizə çarə olmayacaq. Ona görə elə bir çarə tapmalıyıq ki, hökumət yalnız əhvali-cariyyə və kağızları imza etməklə məşğul olmayıb, gələcəkdə bu müşkülatdan sahilinəcaya çıxa bilək. Amma tutduğumuz yol öylədir ki, getdikcə müşkülata doğru gediriz. Sabahki halımız bugünkündən çətin olacaq. Bunun yeganə çarəsi Rusiya ilə ticarət münasibətimizi düzəldib neft aparmaq üçün ingilislərdən qətiyyən yol tələb etməliyik. Daxilimizdə isə bu ilin və keçən ilin gəlir vergisini toplamalıyıq. Böylə olarsa, bir yana çıxmaq mümkün olar. Əgər ancaq əhvali-cariyyə ilə məşğul olsaq, göz görə-görə fəlakət qarşısında qalacağıq.

**Sədr** - Söz Sultan Məcid Qənizadənindir.

**Sultan Məcid Qənizadə** - Möhtərəm məbuslar! Bu məsələ ki, 510 milyon gərək kağız pul kəsilsin, necəki keçən səfər müzakirə edilmişdi; yenə bu gün müzakirə edilməkdədir. Bugünkü gün həqiqətdə maliyyə naziri, ondan tələb eyləmək olmaz ki, bu indiki gördüyümüz nöqsanlar; sabiqdəki hökumətlərin təqsiridir, gərək onların cavabdehliyini də üstünə götürsün. Və cəvabini versin. Bu xüsusda maliyyə nazirinin üzrü də məqbuldur.

Ona görə həmin məsələ qalır ki, bugünkü məclis izin versin 510 milyon kağız pul doğranıb tökülsün. Banka məlumdur ki, buda bizə bir ay kifayət edəcək. Bu barədə bu gün ancaq bunu deyə bilərəm ki, bizim hökumət ki, kağız pul buraxır o, veksel kimi bir şeydir. Deyirəm ki, birisinin bir dükanı var, [489 - 490] bir mağazini və ya firması var. Ona xərc lazımdır. O veksil yazıb göndərir, daha özünün varidatını nəzərə alır. Getdikcə hələ veksildir ki, bazara çıxır, halbuki onun nə elə bir mədaxili və nə də ziraəti vardır. Ancaq veksildir, ortada gəzir və günbəgün qiyməti əksilir. Dünən yüz manatlıq veksil bu gün 90 manat, sabahda 80 manat olur və getdikcə qiymətdən düşür. Bunun aqibəti nə olacaq?

Biz öyrənmişik ki, kağız pulun bir miqdarı və bir əyyari olar. Halbuki, biz hələ kağız puldur ki, kəsib tökürük. Bununla bizim yaralar sağalarsa, ehtiyacımız ödənərsə 510 milyon deyil, dörd o qədər çıxararız. Fəqət, kağız pul doğrayıb tökmək doğru yol deyil. Və bu bir bivəch və bimənа şeydir ki, bizə deyilsin: İzn veriniz kağız kəsilib doğransın. Halbuki, bu öylə bir şeydir ki, bizim yer altında olan mədəniyyətimizin hamısı kəsdiyimiz kağız pulların rəhni və zaminidir. Sonra gərək yüz illər ilə işləyib onların borcu verilsin. Ona görə biz gərək bir rahi səvab tapaq, böylə bir müşkül vəziyyətdən özümüzü xilas edək. Əlbəttə ki, mənim maliyyə işindən təcrübəm və biliyim yoxdur. Bu barədə dərin bir şey deyə bilmərəm. Ancaq bunu deyə bilərəm ki, bu kağızları bir zaman Bakı upravası kəsib, sonra bolşeviklər kəsib, ondan sonra bizim hökumət, bizdən biizn kəsib-doğramışdır. Bunların hamısının cavabdəhəndəliyi bizim boynumuzdadır. Mən öylə bilirəm ki, o kağızlar gərək məhv edilsin. Çünki o kağızların heç bir qiyməti yoxdur. Təfavütsizdir ki, bir kağızın üstündə ya beş manat yazılsın və ya yüz manat yazılsın. Məsələn, cibimdə bir qədər kağız var, istər onun adı beş manat qoyulsun və ya istər beş min manat, ikisi də müsavidir. Ona ancaq bir girvənkə çörək verərlər. O kağızların adını yüz manat qoymaqla və ya beş qəpik qoymaqla qiyməti artmır. Mən təklif edirəm ki, gərək kağız doğramaq məsələsi dayansın, buna lazım olan komisyon yığılıb fikr versin və qərar qoysunlar o pullar təmamilə ləğv edilsin və təzədən öz sərvətimizə, öz varidatımıza-müqabil pul kəsilsin.

Keçən natiqlərdən birisi təklif etdi ki, gərək məxaricimizdən xəbərimiz olsun. Mənə deyirlər ki, ayda 35 milyon ingilislərə pul [490 - 491] verilir. Bu barədə Əhməd Cövdət əfəndi bəyanat verdilər. Təkrara lüzum yoxdur. Əvvəla, ingilislərə pul vermək məsələsi dayandırılsın və onlara deyilsin ki, artıq pulumuz yoxdur. Haman o söz verənlər ki, bu gün maliyyə naziri burada dedi, ziraətim yox, süd verən inəyim yox, fəqir və kasıb bir cümhuriyyətik. Gəlib məndən tələb idirsan ki, mənə ayda otuz beş milyon qızıl ver. Qızılın yox veksil ver. Bunu nə ilə verək? Bu gün birisi gəlib məndən on beş min manatlıq veksil alarsa, sabah cibimdə on beş min param əgər olarsa gəlib o paramı əlimdən alacaqdır. Vaxta ki, cibimdə param yoxdur, mən ingilislərə niyə deyə bilməyim ki, mənim pulum yoxdur. Və ya ona veksil verim. Mənə deyə bilərlər ki, bizim neftimiz var, bu satılacaq və yaxud yerin altından çıxarılacaq, sonra verdiyimiz veksellәri alacağıq. Hələ bunun özü bir böyük məsələdir ki, sən onlardan nəfbərdar ola biləcəksən-mi? Ya yox.

Doğrudur, əvvəllərdə birisinin keyfi gəlirdi. İyirmi milyonla xərc qoyub qazırdı və yerdən qara qızıl çıxarıb tökürdü, indi biz də öylə bu yuxu ilə gedirik.

Nəinki dünənki bigobutun birisi sərvət sahibi olub hər bir qapıdan keçsin. Bu yoxdur, xam xəyallardır. Bunlar olmayacaqdır. Ona görə bizim varidatımız, pulumuz hər ayda beş yüz milyon para veksil kəsməklə yüz manatımız bir manat, bir manatımız bir qəpik olar. Bu bizi yıxacaq. Bu halilə biz yaşaya bilmərik. Ona görə deyirəm ki, biz məbuslar camaat tərəfindən gəlmişik, fəhlələr, kəndçilər və əhali nəzdində cavabdehdəyik. Onların zəhməti rəhnidir. Gərək heç bir vaxt razı olmayaq ki, stanok kəsib doğrasın. Onlar bizə etibar edib, bu

müqəddəs yerdən biz onların mənfəətin gərək gözləyək. Bununla biz onların qanlarına fitva veririk, nəinki qanlarına, bəlkə mallarına, həyatlarına, irzi-namuslarına, bu olmaz. Gərək biz məbuslar bu pul doğramaq kimi böyük məsələyə yaxşı baxaq. Bir məsələ də var. Maliyyə naziri bir-iki dəfə bank məsələsini dedi. Dedilər ki, bankın xüsusi funksiyası vardır. Yəni pullar kəsib xəzinəyə deyil, banka gedir. Belə çıxdı ki, bank səltənətdən kənar bir şeydir. Bu olmaz. Mən bilən, səltənətin bankı olar. Amma buradan belə çıxır ki, bank əlahiddə bir şeydir. Ona görə iltimas edirəm ki, maliyyə naziri bu barədə də tovzihat versin. Dediklərimi təkrar edib deyirəm ki, ingilislərə bir qəpik də pul verməyə razı olmayaq, verdiyimizi [491 - 492] geri tələb edək. Pul doğramaq olmaz. Bu, əhaliyə zərər və məmləkətin məmatına səbəbdir. Bu gərək olmasın.

**Sədr** - Söz Ağa Aşurovundur.

**Aşurov** - Məruzəçi maliyyə-büdcə komisyonu tərəfindən hansında ki, hamı fraksiyaların nümayəndələri vardı danışdı. İki-üç fraksiyalar tərəfindən də danışdılar. Mən heç bir fraksiyada olmadığımdan öz nəzəriyyəmi deyirəm. Bu məsələ oradan keçib. Yəqin ki, orada bu barədə böyük mübahisələr olub. Əgər qəti olubsa burada gərək danışılmasın. Çünki camaat tərəfindən burada danışılan sözlər camaat arasında eşidilir, pis təsir edər, zərər vurar. Pul etibardan daha da düşər. Pulun etibarı beşdirsə-bir olmaz. Lakin zənnimcə onlar səhv edirlər. İş o cür deyildir. Əvvəllər hökumət pul buraxanda məmləkətin sərvətinə və qızıl fonduna baxarlardı. İndi isə biz biliriz ki, bu qədər pulu qızıla görə deyil xərcə görə buraxırlar. Nəinki Azərbaycanda yoxdur, hətta Gürcüstanda, Ermənistanda və heç yerdə yoxdur. Bu kağıza ki, çörək verirlər ayrı fikrə görə deyil, təminatına görə verirlər. Çünki dalında təminatı yazılıbdır. İndi bizdə kağız pul buraxmaq istəyirlər, buraxaq, beş yüz milyon nə olar. Sənin hökumətin zəngin hökumətdir. Əgər normal vaxt olsa Azərbaycan ən böyük, ən zəngin hökumət olacaqdır. İnşallah. Nə üçün olmasın da?! Azərbaycanın coğrafi əhvalı elədir ki, nefti, balığı, qeyri şeyləri o qədər vardır ki, qonşularda yoxdur. Amma onlarda istəyirlər müstəqil olsunlar. Olarlar da. Çünki normal vaxta gələndə, hər kəs öz mədaxilinə görə xərc edir. Bizdə gəlir xərcimizdən yarım milyard çox olacaqdır. Kursumuzda buna nisbətən qonşularımızınkindən artıq olacaqdır. Hal-hazırda Azərbaycan İran ilə, Türküstan ilə ticarət edir. Doğrudur, kursumuz ucuzdur, amma yenə hər yerdə pulumuz işləyir, öylə bir vaxtdır ki, rəsmi surətdə təsdiq olunmamışıq və özü pulun deyil, nəyə inanır, alır. Çünki mədaxilimiz xərcimizdən çoxdur. Öylə bilirəm maliyyə naziri normalni dəxl və xərcimizi deyə bilir, o ki qaldı fövqəladə xərclər-Əhməd bəy tez yadından çıxarır ki, nə zamanlar keçirmişik. Əvvəlinci hökumətdə mən var idim. Gəncədə olanda xərcimiz az olurdu. Ayda 3-4 milyon kafi idi. Amma Bakıya gələndən sonra ayrı şey gördük. Əvvəlinci şey məşhur Sovnarxoza təsadüf etdik. Sovnarxoz nədir? [492 - 493] Bilirsiniz ki, onların vaxtında neft bir qazana tökülərdi. Məvacib də bir kassadan verilirdi. Biz bu fikirdə deyildik. Milliləşdirməyi rədd edirdik. Ona görə mədənləri verdik sahiblərinə. Amma nefti heç bir yana çıxarmaq olmurdu. Neftçilər də əmələrə məvacib verə bilmədi. Biz məcbur olduq pul çap edib neftçilərə verək. Əvəzində neftləri yanımızda rəhn qaldı. Bununla biz Azərbaycan hökumətinə zərər verdikmi? Deyirsiz ki, bu kağız pul bir şey deyil, heç bir şeyə dəyməz. Xeyir, bizim orada qolumuz var. Deyirlər ki, neft getmir, yaxşı olardı altı ay getməsin. Bu nefti bolşeviklərə versəniz nə alarsınız. Qırmızı kağızdan başqa ayrı bir şey ala bilməzdik. Onlar özləri aclarından ölürlər. Amma yenə əlimdə olan neft zolotoy zanosdır-qızıldır, verməsəm yaxşıdır. Onu əlimdən buraxsam kağız alacağam. Ancaq bir nəzər ilə bu barədə mübahisə etmək olar. Nefti sata bilməyib, kağız pul çıxartmışıqsa da neftimizi əlimizdə saxlamışıq. Pulumuzun təmini var, həmişə danışanda normal vaxtı nəzərə alırlar. Amma normal vaxt yoxdur. Sən deyirsən parlaman gərək fəhlələri saxlasın. Onda gərək belə fövqəladə xərclər də davam edilməsin. 350 paraxod var ki, iş görməyirlər. Qabaq olsa üç ay qışda paraxodlar remonta duranda əmələlərini buraxardılar. İndi isə buraxmaq olmur. Yerlərində bikar qalıb artıq məvacib istəyirlər. Siz də tələb edirsiniz verilsin. Qabaqda ayrı işə gedərlərdi. İndi onu da etmirlər. Sülh vaxtı böylə fövqəladə xərclər olmaz. hökumət o vaxt gəlirinə görə pul sərf edər. Hökumət alış-verişxanə deyildir. Ticarət müəssisəsi deyildir. Hərgah hökumət (normal) vaxta görə, məxaricinə görə pul çıxarsa iş getməz. Amma sən qoymusan raboçini hökumətin boynuna, hökumət cibindən qızıl çıxarıb verən deyil ki. Və birdə deyirlər niyə ingilislərə pul veririk. Qardaşım! İki adam məndən borc istəsə əlbəttə seçərəm hansının tavanı olub-olmamasını əvvəl öyrənərəm, soruşaram sizdən. İngilislərdən tavanlı adam tapmazsınız. Təki bizə ingilislər borclu olsun. Bir vaxtda ingilislərə deyə biləriz ki, biz vaxtında sizə kömək etmişik, sizinlə yaxşı rəftar etmişik. Onlarda əlbəttə ki, bizim bu yaxşı rəftarımıza qarşı fənalıq etməyəcəklər və bizə kömək eyləyəcəklər. Bu barədə heç bir qorxu yoxdur. Nə olar bizdən pul alıblar. [493 - 494] Alıb, alıb da!... (Məclisdə gülüş). Söylədiyim sözləri nəzərə alaraq mən təklif edirəm ki, maliyyə komisyonuna təqdim olunan 510 milyonun çap edilməsinə icazə verək. Bu yol bizə burada deyilən kimi bir aylıq deyil, bir neçə ay kifayət edəcək, bəlkə bir neçə aydan sonra işlər dəyişdi. Mən buradan uca səslə deyirəm ki, bu buraxılan pulların əvəzində Azərbaycan vaxtında qızıl verəcək. heç kəs bundan qorxmasın.

**Sədr** - Söz Rəsulzadə Məmməd Əminindir.

**Məmməd Əmin** - Burada kağız para buraxmanın indiki zamanla adi zamanın nə qədər təfavütü olduğu haqqında lazım olduğu qədər izahat verdilər. Bunun üzərində dayanmaq istəmirəm. Yalnız bunu demək istəyirəm ki, indiki zamanda buraxılan kağız paralar bəzi iqtisadi qanunlara mərbut deyil. Ortada bir də siyasiyyət var. Siyasiyyətdə bəzən hökumət öz istədiyini icra edəməz. Hökumətin xətti-hərəkəti siyasiyyətə

bağlıdır. Bir çox şəraitlə onları da nəzərə almaq məcburiyyətindədir. Buradan söylədilər ki, bizi hər zaman töhmətləndirirlər ki, hökuməti tənqid edirik. Mən bu sözü eşitdiyim zaman gözləyirdim ki, bu etirafdan sonra hökumətə carilər göstəriləcək. Fəqət, yalnız tənqidlə kifayət edildi. Təqsir bu hökumətdə deyil, köhnə hökumətdə idi və sairə kimi bəzi sözlər söylənildi. hökumətə yol və çarə göstərmək muqabilində yalnız tələb elədilər, Hacıtərxan yolu açılsın və ingilislərə para buraxılmasın.

Bu iki məsələ yalnız iqtisadiyyatla mərbut deyil, bunların ikisi də siyasiyyatla mərbutdur. Hökumət deklarasiyonunda Hacıtərxan açılmasının etiraf eləmiş, fəqət, bu o demək deyil ki, biz nöqsanımızı götürüb heç bir düşünmədən Hacıtərxana aparacağıq və Hacıtərxanın bizə qarşı olacağı vəziyyət nə olacaqsa onu düşünməsin.

Bu gün Hacıtərxan yolunun açılmasını bizdən tələb edənlər bizə əmniyyət verirlərmi ki, heç olmasa buraxacağımız neftin müqabilində biz möhtac olduğumuz şeyləri oradan ala biləcəyik. Yaxud o nefti aparan gəmiləri geri buraxacaqlarmı? Və ya heç olmasa Hacıtərxanda olan Sovet hökuməti onlar üçün aparacağımız neftlərin yerlərinə sahib olandan qətiyyən vaz keçəcəklərdir. O neftlərin yerlərinə və sahiblərinə böylə bir deklarasyon söyləsələr biz bu məsələni bu surətlə və ya o surətlə həll edə bilərik. [494 - 495]

Digər məsələni Əhməd Cövdət əfəndi bir növlə söylədilər ki, məsələn, ingilislər İstanbula gəldikləri zaman orada borc pul vermişlərdir. Bu gün bizdən isə borc alırlar. Mən deyirəm, bu borc verməklə borc alanın təfavütü düşünülürmü. Borc vermək əgər ziyan isə, borc almaq əcəba ondan faydalımıdır? Mən istərdim ki, ingilislər Azərbaycana borclu olsunlar. Azərbaycan ingilislərə borclu olmasın.

Bu gün ingilislərə borc verməmin bizdən ötəri heç bir təhlükəsi yoxdur. Əgər bunun əksi vaqt olsaydı, yəni ingilislər bizə borc versəydilər qorxardım ki, nəticəsi bizdən ötəri daha baha tamam olardı. Ona görə bu kimi siyasi məsələləri təhlil edərkən Məclisi-Məbusan kürsüsündən ona bu surətlə yanaşmaq bir o qədər doğru olmasın gərəkdir. Əlavə burada bir an əvvəl Hacıtərxana yol açılsın deyə heç bir şeyə istinad etmədən bunu təklif edənlər Hacıtərxandan gələcək təhlükənin qarşısını almaq üçün nə kimi təminatları var.

Əlbəttə, biz neftimizi şərt və qeyd daxilində hər malla mübadilə etmək istərdik. Bu nefti hər surətlə olur-olsun xaricə çıxarmaq faydalı deyildir. Siz bilirsiniz ki, bu gün ingilislər ilə bolşeviklərin müharibəsi var. Doğrudur, biz heç kəslə müharibə etmir və etmək də istəmirik. Şimdi biz bitərəfik deyə tələb edə bilirmiyik ki, bizim neftimizi müharibə və düşmən bir vəziyyət alan tərəfi-müqabilə buraxsınlar. İki müharib dövlət müharibə edərsə, bitərəf qalan dövlət bunların birisinə böylə bir təklifatda buluna bilərmi? O zaman o bitərəf dövlət öylə qüvvətli olmalıdır ki, hər iki müharib dövləti öz mənafeyinə ehtiram etdirə bilsin.

Mən zənn edirəm ki, kiçik və zəif Azərbaycan özünü ortaya soxub bu kimi qəti tələbat təqdim edirsə, o zaman özünü müharibəyə sövq edər.

Əsas məsələyə gəlincə burada Məclisi-Məbusan qərarlarını verərkən əvvəlcə ölçülərək, biçilərək verilir. Təklif olunan kağız para buraxmaq nəqədər faydalı deyilsə, nə qədər ki, bizim sərvətimiz əlimizdədir, o qədər də nəzərə gələn kağız pullarımız bir o qədər də qiymətsiz deyildir.

**Sədr** - Söz Sultan Məcid Qənizadənindir.

**Qənizadə** - Əhməd bəy Pepinovun nitqindən və qeyrilərinin danışığından iki məsələ araya gəldi. Əvvəla, görək ingilislərə [495 - 496] borc vermək lazımdır ya yox. Və bu bizə mənfəətdir, ya yox. İkinci: Kağız pul doğruyaq ya yox. Bunun barəsində Əhməd bəy dedi ki, iqtisadi cəhətdən lazım gəlir ki, Hacıtərxan ilə ticarət yolu açılsın. Fəqət, nə şərtlə olsun. Əgər Əhməd bəy təsəvvüründə tutub ki, şərti bu olacaq ki, Hacıtərxanda olanlar gəlib bizim sərvət və rəyasətimizə istiqlalımıza malik olacaqlar, o vaxt biz Əhməd bəyə deyərdik ki, böyük xaindir. Əlbəttə, belə deyildir. Aşkardır ki, Əhməd bəy bundan uzaqdır. Məntiqcə öz-özündən isbat olunur ki, Əhməd bəyin Hacıtərxan yolunun açılmasını tələb etməsi və ya başqa dedikləri Səltənətimizin, bu torpağın nicatı üçündür. Artıq buna başqa təşrihat vermək və güman aparmaq ki, yol açılsa Hacıtərxandakilər bura gəlib bizim istiqlalımıza malik olacaqlar. Fikri deyilmişdir, mən elə bilirəm ki, bunu heç əqlə gətirmək olmaz. Bunun heç bir yeri yoxdur. Hərgah deyirlər Rusiya ilə və ya qeyri Rusiya ilə ticarət münasibəti olsun bunu ancaq mənfəət üçün deyirlər. Qaldı ki, ikinci məsələ, ingilislərə borc verək və ya verməyək. Bundan belə çıxdı ki, borc bizə xeyirdir. Həqiqətdə bu belə görünür. Mənə məqruz olur, mənə mədyundür, dili məndən qısa olacaqdır. Məsələyə bu məntiq ilə baxsaq belə çıxır ki, niyə vermiyək. Ayda 35 milyon nədir, kağızdır, doğrayıb 70 milyon verərəm. Sonra da onun əvəzinə qızıl alacağam. Kağız verəcəyəm, qızıl alacağam, niyə verməyim? Özü mənə məqruz olur və bir vaxt ingilisi özümə [tabe edəcəyəm] (gülüş), qorxu yoxdur. Qızıllar onun sandığındadır. Mətləb burada deyil. İngilis, onun kimi sərvətliyə dövlət nə üçün pul verir. İndiki konyakların puluna qızıl versə onda deyərəm ki, qızılımız var, iqtisadi cəhətdən xəbərdar olsaq bilərik ki, səltənət o vaxt irəliləyir ki, qızıl alıb əvəzinə əcnas verək. İngilis ət alıb qızıl versə o vaxt deyərəm ki, mənfəətdir. İngilislər bizdən 35 milyon alıb mənə məqruzdur, bunu təkəbbür hesab edib şükür xudaya, daha mənim hökumətimə təcavüz olmaz deyə əmin olub pul vermək xiyali-xamdır. Bu olan iş deyil. Mən əvvəlcə dedim ki, bu para doğramaq məsələsi mühüm məsələdir. Ona fikir verməliyik. Mən yenə də buradan bu məsələyə bərəks gedəcəyəm. İngilislərə qərz vermək bizim borcumuz deyil. Onun burada qalması bizə lazım deyil. Ona ehtiyacımız yoxdur. Bir qəpik də lazım deyil. [496 - 497]

**Sədr** - Təklif var müzakirə bitsin, iki adama söz verirəm, biri lehinə, biri əleyhinə. Bundan qabaq söz hökumət üzvü Əliağa Həsənovundur.

**Əliağa Həsənov** - Türklər şəhəri almamış, şəhər tərk edildikdə bankı da aparmışdılar. Sonra ingilislər Bakıya gəldikdən sonra bankı düzəldib idarəsini öz əllərinə almışlardı. Hökumətin bank ilə heç bir əlaqəsi yox idi. Bu cəhətə görədir ki, mən əlaqəni kəsmək istədim. İngilislər ilə bu barədə aramızda böyük danışıq var. Deməli, bank onların ixtiyarındadır. Pul gedirdi, onlar yazırdılar. neftçilərə verirdilər, özləri də götürürdülər. Əgərçi rəsmi deyildi, amma həqiqətdə böylə idi. Qaldı bankın məsələsi onların əlindədir. Bankdan ötəri onlara dəfəatla məktub yazmışam ki, bankı gərək qaytarasınız. Dəlil və sübutda göstərmişəm ki, Azərbaycan öz ticarətini ancaq bu bank vasitəsilə yoluna qoya bilər. Cavab verdilər ki, Bankı hələlik verə bilmərik, bundan ötəri gərək biz yuxarıdan təlimat alaq. Mən özüm şəxsən ingilis ştab naçalnikinin yanına getmişdim və ona dedim ki, siz öhdənizə böyük vəzifə götürdünüz, lakin əməldə gətirmədiniz. Pul camaat işidir, neçə ki, cəmi müəssisələri öz təhtitərəfimizə almışıq, bank da bu yerin, bu torpağındır. Siz elan etmişdiniz ki, bankı açdıqdan sonra tamam müəssisələri açacaq və onları öz yoluna qoyacaqsınız. Halbuki, indiyədək onların heç biri açılmamışdır. Dedilər, ola bilər ki, bankı sizə qaytaraq; Mən buna kifayət etməyib, təfailatan yenə yazmışam ki, bank bizə qaytarılsın. Çünki pulda görünən tənəzzülün səbəbi bankın yoxluğundadır.

Burada buyurdular ki, bu xərclər nə surətlə olmuşdur. Missiya barəsində, müxtəsər elə deyə bilərəm ki, Bakı şəhər idarəsi vaxtında 150 milyon bon buraxılıb, bolşevik zamanında 140 milyon bon kəsildi. Deməli, hökumət Bakıya gələnədək 290 milyon manat bon buraxılmışdı. Sentyabrın 15-dən yanvarın 1-dək 41 milyon buraxılıb; yanvarın birindən iyulun 28-nədək 277 milyon buraxılıb. Əlavə olaraq Zaqafqaziyanın bonu buraxılmış 140 milyon. Bu surətlə hökumət ixtiyarında bu vaxtadək 579 milyon pul olubdur. Bu pulun 250 milyonu hökumətin ixtiyarında olub bu vaxtadək məclisin qərarı olmadan 329 milyon hökumət pul kəsibdir. Hökumət təşkil olunan zaman xəzinədə [497 - 498] 6 milyon pul olubdur. Mədaxilimiz 26 milyon olubdur. Oktyabrda 10 milyon 400 min manat, yanvarda 4 milyon, fevralda təxminən o qədər, martda 5 milyon mədaxilimiz azalıbdır. Ona görəki aksiz az gəlibdir. Cəmi mədaxilimiz olub 26 milyon, məxaric isə 202 milyon olubdur. Fövqəladə xərcləri də ərz edə bilərəm, bu qərar ilə olmuşdur: Türkiyə komandasına 3 milyon, ingilislərə 15 milyon, Dağıstan hökumətinə 30 milyon, neftçilərə 40 milyon, bankda var 179 milyon, kassalarımızda var 88 milyon. Bunların hamısı hesab olunmayıbdır. Xəzinədə, depozitdə 47 milyon, on milyon da Tiflisdə bəratımız var, onu orada hələlik saxlamışıq ki, lazım olanda alınsın. Azərbaycan hökuməti təşkil olunandan aprelin birinədək hökumət xərci 170 milyon olubdur. Deməli, 579 milyonluq emissiyadan məmləkətin adi xərcinə 170 milyon sərf olunubdur. Bunu demək istəyirəm ki, hərgah fövqəladə xərclər olmasaydı Bakı emisiyası bizə lazım deyildi. Tiflisdə kəsilən bizə kifayət edərdi. Demək olmaz ki, 6 yüz milyon daxili xərcə gedibdir. Daxili xərcə 170 milyon sərf olunub, 294 milyon da fövqəladə xərcdir. 145 milyon da nəqddir. Bunların bəzisi məclisin izni ilə olub, bəzisi isə hökumət izni ilə xərclənibdir. İngilislərə verilən pullar məsələsi bu günlərdə məclisə idxal ediləcəkdir. Bunu indi qətiyyən həll etmək mümkün deyildir.

...Neft ticarəti buyururlar nə oldu. Bu barədə nə düşünülüb. Məlumdur ki, neft gərək Rusiyaya getsin. İndi neft bir tək dəmir yol ilə gedir. Amma dəmir yolunun da o qədər qüvvəsi yoxdur ki, nefti aparsın. Gündə 25 min put aparır. Gündə yarım milyon put hasilatdan 25 min put çıxarmaqla bir şey olmaz. Gərək Həştərxana, Volqaya getsin. Bu da hökumətin və maliyyə nəzarətinin işi deyil, necə ki Məmməd Əmin cənabları buyurdular, bu bir siyasi məsələdir ki, gərək başqa vaxt müzakirə olunsun. Maliyyə nəzarətinin mümkünü yoxdur ki, yolları açsın. Hər halda bu bir siyasi məsələdir. Buyurdular, naloqlar barəsində, izahat verilsin. Bu barədə deyə bilərəm ki, keçmiş qalıqlar ki, vardır vasitəsiz (pryamoy) alınırdı - 36 milyondur. Penyası əlavə ediləndə akladımız olur 46 milyon. Deməli ki, 1919-cu ildə 82 milyon naloq təyin olunub, 3 mindən artıq povestkalar gedib, bu naloq mədaxil təfsilli bir əhvaldır. Bu [498 - 499] barədə danışmağın vaxtları var. Bu povestkalar yanvardan başlayıb gedib. Bu vaxtadək fikirdə olunmayıb, macal olmayıb. 1918-ci ilin hesabı əldə deyildir. Dəftər tutulub yekun vurulmayıb. İşin çətini onda olubdur ki, Azərbaycanın müstəqil bir dəftər-kitabı olmayıb. Dəftərlərini bəzisi Gürcüstanda, İrəvanda, Petroqradda olubdur. Çünki kazyonnı palata İrəvanda olub, dəftərlər də oradadır. Yazmışıq, hələ bu vaxta kimi almamışıq. Zaqatala dəftərləri Gürcüstandadır. Bu vaxta qədər Gəlib çıxmayıbdır. Burada olan neft uçotu-hesabları mart ayında Tarayevin evində yanıb. Bunların bir surəti Tiflisdə idiki bu günlərdə oralardan gəlib. Bunlardan başqa istəsəniz təxminən hər bir nəzarətin mədaxilini ərz edə bilərəm. Daxiliyə nəzarətinin mədaxili-bir milyon 900 min. Maliyyə nəzarətinin 207 milyon. Bu mədaxil şübhəsizdir, yəqindir. Burada neçə cür hesab var. Çünki dedilər Həştərxan ilə neft ticarəti başlansa, bir də başlanmasa. Mən olan indiki halı göstərmişəm ki, neft ticarəti başlanmasa maliyyə nəzarətinin 207 milyon mədaxili olacaqdır. Əgər Həştərxan yolu açılsa mədaxil daha da çox olacaqdır. Ədliyyə nəzarətinin mədaxili 9 milyon 400 min rüblə. Dəmir yolundan - 214 milyon. Poçta-teleqraf nəzarəti 4 milyon yarım. Ticarət, sanaət keçmiş hesabla 46 milyon. Maarif nəzarəti bir milyon. Məsai nəzarətinin mədaxili yoxdur. Ziraət əmlak nəzarəti 13 milyon. Ümuri-xeyriyyə və nafiə nəzarəti - 13 milyon. Deməli, o mədaxillərin ki, danışığı yoxdur, şübhəsizdir 512 milyon. hərgah bu layihələr ki, düzəldirik əgər tətbiq edilməsi mümkün olsa və ondan nəticə hasil olsa o vaxt 945 milyon hasil olar. Bir də Həştərxan yolu açılsa aksiz mədaxilindən bir milyard 265 milyon olar. İndi də

məxaricimizi ərz edim. Parlamanın məxarici 5 milyon 450 min rüblə. heyəti vükəla şurası bir milyon 700 min. Daxiliyyə nəzarəti 89 milyon, maliyyə nəzarəti 14 milyon, ədliyyə nəzarəti 19 milyon, dəmiryolu 380 milyon, bunun 270 milyonu adi xərcdir. Qalan 90 milyona qədəri də tazə yol çəkilişinə sərf olunacaqdır. Cəmi xərci 380 milyon, ticarət nəzarəti 40 milyon, ərzaq nəzarəti 3 milyon, məarif nəzarəti 15 milyon, məsai - 5 milyon 400 min, ziraət və əmlak 3 milyon, kontrol 1 milyon, Ümuri-xeyriyyə nafiə 74 milyon, cəmi məxaric 888 milyon olur. Çünki qabaqda məvacibləri artırmaq var, həmişə qeyri xərclərdən [499 - 500] ola bilir ki, olsun; ona görə güman edirəm ki, bir milyarda qədər məxaric olsun. Xərc bir milyard, mədaxil yarım milyarddır. Manatın qiyməti də deyirlər düşür. Zənnimcə, manatın qiymətinin aşağı düşməyi kağız pulu buraxmaqla deyildir. Bunda bir hissə günah varsa ümdə mətləb odur ki, kağız pul bir qədər asan ələ gəlir, rahat xərclənir. Mən buna şərikəm. Əlbəttə, belə olanda qiymətdən düşər. Bu mülahizə olmasa biz öz mədaxilimizi nəzərdə tutsaq, mədaxili məxaricimiz ilə düzəltsək pulun izzəti olar və xərc az olar. Bunun bir cəhəti də var. Lakin zənnimcə manatın qiymətdən düşməsi məmləkətin hasilsizlikidir. Hasilat olsa bu qədər qiymətdən düşməz. Başqa yerlərdə manat qiymətdən düşə bilər. Lakin Azərbaycan üçün bu cür məyusluq yoxdur. Buraxdığımız kağız pulun iki əvəzi zahirdə var. İki milyardlıq malımız var. Hər gah kağız pul ki, doğrayıb camaata paylayırıqsa onun müqabilində zahirdə ya hökumətin, ya camaatin iki milyard qiymətində nefti var ki, bu da qızıldır. Heç ola bilməz ki, hər şey artdığı halda neft aşağı düşsün. Çünki neftdən çox şeylər əmələ gəlir ki, qeyri məmləkətlərdə yoxdur. Amma bir şey var ki, bu gün yol yoxdur, tətildir. Zavod yoxdur. Lakin bunlar bir günün məsələsidir. Böylə məsələlər bir çəksə də məmləkətin həyatında bir gün, bir saat olar. Bununla məmləkətin halına bir şey olmaz. Əlan yarım milyard kağız pul əvəzində xalqın ehtiyacından artıq 2 milyardlıq neftimiz vardır. Bu pulların neftçilərə verilməsi əvəzinə birə iki, birə üç malları vardır. Verilən pulların təmin olması mümkündür. Zənnimcə, məmləkətin gərək məhsulu çox olsun ki, xaricə çıxsın. Tainki pul qızıl ilə təmin olunsun. Yoxsa qızıl ilə təmin olunmayan pul qiymətdən düşəcəkdir. Hətta kəndlərdə də götürməyəcəklər. Qiymətdən düşəndə də böyük zərər olacaq. həm alış-verişçilərə, həmi hamıya. Əgər kgrsək bizim pulumuz qızıl ilə təmin olunmur, o vaxt biz bir cür eləməliyik ki, pulumuz qiymətdən düşməsin, qonşularımızda bizim pulumuzu götürsün. Bunun üçün də əvvəla, gərək xərcimizi azaldaq, hasilatımızı saxlayaq ki, xaricə ehtiyacımız olmasın. Və öz hasilatımız ilə dolanaq. Bu başqa yerlərdə mümkün deyilsə də Azərbaycanda mümkündür. Hər halda təmamilə mümkün olmasa da bir qədər mümkündür. Qonşu məmləkətlər bundan da məhrumdurlar. [500 - 501]

Mənim zənnimcə, hərgah bu yol ilə işlənməsə biz öz daxili işlərimizi apara bilmərik. Onda pulumuzun qədri olar. Daxildə qiyməti olar. Xaric də az pul çıxararıq ki, kursu düşməsin. Bundan izafə bizim pulumuzun belə qiymətsiz olması kağız pulun kəsərtindən deyil. Bununla bərabər fəlakətimiz ondadır ki, bizim valyutamız rus valyutasıdır. Rus manatının kursunun tənəzzülü bizim də manatımızın tənəzzülünə səbəb olur. Rusiya hökuməti deyirlər ayda beş milyard kağız pul kəsir. Bu vaxtadək Rusiyada yüz milyard pul kəsilibdir. Beş ildir ki, Rusiya işləmir, əkmir, tikmir, zavod və fabriklər işləmir, məcburdur ki, hər şeyi xaricdən gətirsin. Xaricdən kələn-şeyə də lazımdır ki, qızıl pul verəsən. İngilislərin götürəcəkləri malların müqabilində kağız pul almağa haqları var. Əvəzində nə verəcəklər? Rus manatının qiyməti əksikdir. Budur ki, Rus manatının belə pərişan halı bizim də pulumuza təsir edir. Mən elə bilirəm ki, pulumuzun qiymətini qaldırmaq üçün mümkün olan qədər çalışıb öz valyutamızı Rus valyutasından çıxarmaq lazımdır. Mən öylə zənn edirəm ki, qızılı olan böyük bir hökumətlə danışığa girib valyutamızı onunla düzəltsək pulumuz bir qədər təmin edilmiş olar, kursu da tənəzzül etməz. Əlbəttə, bu kimi işlərə konfransın bizim istiqlalımızı təsdiq etdikdən, bizi dost və düşmən qəbul elədikdən sonra başlamaq olar.

Məsələ daxilə qalsa bizi bir o qədər fəlakət gözləməz. Bizim manatın tənəzzülünə ən böyük səbəb xarici bazardır. Pulumuzun xaricə çox çıxmaması üçün lazım gəlir ki, xaricdən keçəcək ehtiyacımızı azaldaq, yəni öz sərvətimizi çoxaldaq, xaricdən mal gətirməyə ehtiyacımız az olsun.

Mənim zənnimcə, bu məsələyə az səy eləsək müvəffəq ola biləriz. Əlbəttə, ki buna camaatin gərək rəyi olsun. Tək bir hökumətin rəyi ilə iş olmaz. Məsələn, Dağıstanda əmələ gələn şaldan paltar geyməyi cümləmiz qəbul eyləsək, o zaman xaricdən manufaktura az götürəriz. Hərgah bu qərarə gəlsək ki, bizim paltarlarımız öz hasilatımızdan olsun, xaricdən gələn mallar nəzərimizdə olmasın, o zaman pulumuzun kursuna bir qədər təfavüt eylər.

**Sədr** - Təklif vardır ki, müzakirə bitsin. Varid olmuş təklif barəsində kim danışmaq istəyir. Biri lehinə, digəri [501 - 502] əleyhinə olaraq iki natiqə söz verəcəyəm. Lehinə danışmaq istəyən varmı? yoxdur. Əleyhinə söz Əhməd Pepinovundur.

**Əhməd bəy** - Müəyyən bir firqə tərəfindən edilən təkliflə müzakirəni qət - etmək ağzımızı bağlamaqdır.

**Sədr** - Ağız bağlayan yoxdur, nakaz belə əmr edir. Belə bir təklif var, mən səsə qoymağa məcburam. hər kəs müzakirənin qət olması tərəfdarı isə əlini qaldırsın.

**Sədr** - Söz məruzəçi Mustafa ağa Vəkilovundur.

**Mustafa aqa Vəkilov** - Büdcə-maliyyə komisyonu tərəfindən keçən iclasda layihəni hökumətin bəyannaməsilə ərz etdim. Natiqlər bu gün burada çox məsələlər qaldırdılar. Lakin bu məsələni ancaq bir tərəfindən danışdılar. Bu məsələ o qədər mühümdür ki, onsuz başqa məsələləri həll etmək mümkün deyildir.

Maliyyə komisyonu bunu dörd-beş iclasında diqqət ilə hər tərəfdən müzakirə və həll edib sonra öz arzuları ilə bərabər sizə təklif elədi. Burada cürbəcür iqtisadi məsələləri siyasi məsələlər ilə qarışdırıb qəti təkliflər etdilər. Guya vəziyyətdən bixəbərdirlər. Buraya tazə gəlmişlər. Guya maliyyə büdcə komisyonu maliyyə nəzarəti bunu bilmir və çarəsini axtarmırlar. Guya onların təklifləri qəbul olunsa, yaralara dəva tapılacaqdır, dərdlərimiz qurtarıb, işlərimiz eyicə gedəcəkdir. Mən bu məsələyə qayıtmaq istəmirəm. Bu aşkar şeydir ki, kağız pul nə qədər çox olsa, o qədər qiymətdən düşər. Mal da bahalaşar. Bu müəyyəndir. İkinci mühüm məsələ budur ki, keçən səfər dedim ki, bu pul buraxmaq ilə bu dərdlərin çarəsi mümkün deyildir. Lazım olan məsrəfi ödəmək üçün başqa vasitələr və yollar axtarmaq lazımdır. Ona keçən dəfə maliyyə-büdcə komisyonu tərəfindən bir neçə arzular təklif etdim. Burada bir neçə tazə məsələ qalxıbdır. Bunlar tazə ədd olunursa da maliyyə-büdcə komisyonu üçün yeni bir məsələ deyildir. Bu da ingilislərə pul vermək və Həştərxana neft göndərmək üçün ticarət yolunun açılması məsələsidir. Bu barədə hökumətin izahı oldu. İngilislərə pul vermək məsələsini burada həll etmək mümkün deyildir. Bu məsələdə məntiq də, əql də iştirak etməlidir. Mən keçən dəfə dedim ki, bu məsələ eylə məsələ deyil ki, ürəyin istəyən kimi həll edəsən. Çox məsələlər var ki, ürək istəyə bilər, ancaq mümkün olmaz. [502 - 503]

Ticarət haqqında söylənildi, maliyyə-büdcə komisyonu da əhəmiyyət verib dedi ki, nə qədər ticarət çox olsa, o qədər xəzinəyə pul çox gələr və pul kəsməyə ehtiyac qalmaz. Büdcə-maliyyə komisyonu bu layihə ilə bərabər özünün ən mühüm və əhəmiyyətli olan arzularını da təklif edir. Bu da üç maddədir, hökumətə arzu süfəti ilə təklif olunur. Əvvəla, heç bir vaxt parlamanın izni olmadan hökumət kağız pul buraxmasın. Çünki, nə qədər stanok ilə pul eyləmək ixtiyarı olur, o qədər başqa mədaxil aramağa əhəmiyyət verməyir... İkinci, hökumət gərək tezlik ilə mövcud olan vergiləri artıqlığı ilə toplasın. Bu barədə maliyyə naziri özü də vergilərin xəzinəyə toplanması üçün çarələr söylədi. Üçüncü məsələ, maliyyə-büdcə komisyonunun nəzərincə bir elə müəssisələr düzəldib işə başlasın ki, əhali ilə hökumət arasında vasitə olub, cəmaətin cibində olan artıq pulu çəkib xəzinəyə gətirsin. Bu da banklardır, istiqraz müəssisələridir ki, maliyyə komisyonu buna əhəmiyyət verdi. Bu arzuya hökumətdə gərək əhəmiyyət versin. Bu istiqraz müəssisələrini intizama salmaq üçün hökumətin mərkəzi bankı olmalıdır, yenə təkrar deyirəm ki, nə qədər artıq kağız buraxmaq istəməzsən də yenə buraxmağa məcbur olduğumuzdan bu layihənin qəbulunu təklif edir və sonra qorxu qarşısında bulunmamaq üçün hökumət də komisyonun arzularını nəzərdə tutmalı; Və bu barədə təşəbbüsatda bulunmalıdır. Ona görə beş yüz milyon manat kağız pul buraxılması layihəsini maliyə-müdcə komisyonunun üç arzusu ilə bərabər qəbul olmasını təklif edirəm. Layihəni indi katib oxuyar.

**Katib** - (Layihəni komisyonun arzuları ilə bərabər oxuyur). 2-ci sosialistlər fraksiyası tərəfindən böylə bir təklif olunur. (Təklifi oxuyur).

**Rəis** - Səsə qoymadan əvvəl ərz eləmək istəyirəm, mən bu təklifi nə səsə qoya biləcəyəm, nə də müzakirəyə. Nakaz ilə komisyonun hər üzvü öz rəyini verə bilər. Əgər əksəriyyətin rəyinə o şərik deyilsə, məruzəçi daklad edən zaman o da öz rəyini yazıb verə bilər. Parlamanda ona görə müzakirə edər. Komisyonun məruzəsini parlaman müzakirə etmiş və bitirmiş, məsələ səsə qoyulduğu zaman məlum olmuş ki, komisyonda rəylər olmuşdur. Nakaza görə müzakirəyə qoymağa ixtiyarım yoxdur. [503 - 504]

**Əhməd Cövdət** - Mən, zənn edirəm sədr cənablarının söylədiyi həqiqətdən uzaqdır. Əvvəla, təklif xüsusunda müzakirat oldu, bir çox natiqlər o barədə danışdılar. O təklif parlaman üçün yeni deyildir. Bu təklifi biz fraksiya tərəfindən edirik. Nəinki büdcə-maliyyə komisyonu tərəfindən.

**Rəis** - Bu surətdə mən səhv etmişəm, mən elə bilmişəm ki, bu təklif maliyyə-büdcə komisyonu üzvləri tərəfindəndir. halbuki fraksiya tərəfindəndir.

**Həsən ağa** (yerindən) - səsə qoyunuz.

**Rəis** - Komisyonun rəyini xahişlər ilə bərabər səsə qoyuram. Kim 510 milyon kağız pul buraxmaq barəsində komisyonun rəyinə şərik isə əlini qaldırsın. Xahiş edirəm sayınız. Lehinə 52, kim əleyhinədir. Əleyhinə yoxdur. Kim səs verməmişdir. 3 nəfər. Deməli, komisyonun rəyi üzrə qəbul edilmiş qanun layihəsi əksəriyyətin - rəyilə parlaman tərəfindən qəbul edilir. (Sosialistlər tərəfindən varid olan təklifi Əhməd Cövdət oxuyur).

**Rəis** - Təklif barəsində hökumət üzvlərindən Əliağa Həsənov danışacaqdır.

**Əliağa Həsənov.** Birinci təklifə sözüm yoxdur. Onu hökumət qəbul edə bilər. İkinci təklifin - mən elə bilirəm ki, qəbulu mümkün deyildir. Çünki o barədə biz məlumat verməmişik və nəfi və zərəri haqqında da danışmamışıq. Hər qədər müzakirat əsnasında o barədə bir az danışıldı, lakin qəti bir qərar vermək olmaz ki, sosialist cəhətcə müşkülat əmələ gətirsin. Hökumət bu barədə mənə ixtiyar da verməmişdir. Bu barədə müzakirə olmamışdır. Bu günlərdə ingilislərə pul vermək məsələsi parlamana gələcəkdir. Onda bu xüsusda ətraflı müzakirə edilib qərar çıxarmaq olar. Ona görə ərz edirəm ki, bu məsələ ağır məsələdir. Mən bu barədə də fikrimi açıb demək istəyirəm. Ondan ötrü xüsusi surətdə danışmaq lazımdır. Mən təklif edirəm ki, ingilislər məsələsi qaldırılsın.

**Məmməd Əmin Rəsulzadə** - Təklif olunan bu üç maddədən 1-2-ci məmləkətin iqtisadiyyatından başqa vəziyyəti-siyasiyyəsi ilə əlaqədardır. Bu siyasət ilə uğraşmağa da, intixab edib inandığımız və məmləkətin təkiyəgahi olan hökumət vardır. Bu onun borcudur. Ona vaküzar olunmalıdır ki, bu siyasi məsələni [504 - 505]

həll edib lazımi tədbirlər görsün. Neft ticarəti üçün Həştərxan yolunun açılmasına lüzum olduğunu hökumət öz bəyannaməsində söyləmiş olduğundan böylə nazik siyasi zamanlarda burada fəzlə izahatlarda bulunmaq artıqdır. Ona görə böylə nazik siyasi məsələlərdə vaqe olan təklifləri etimad etdiyimiz hökumətə demək və buna meydan verməyi artıq bilirik. Fəqət, 3-cü maddəyə onsuz da müvafiqət edib rəy verəcəyik.

**Sədr** - Söz Əhməd Cövdət bəy Pepinovundur.

**Əhməd Cövdət bəy** - Əfəndilər! Biz də öylə zənn ediriz ki, maliyyə nazirinin dediyi kimi bizə izahat verilməli idi. Fəqət, parlaman qət etdi ki, müzakirat bitsin, biz isə deyirik ki, müzakirat qət olunmasın və camaət tərəfindən vəkil olduğumuzda bizə gizli və aşkar da olsa məlumat verməlidir. Taki doğru tədbir görmək mümkün olsun. Təkliflərə gəldikdə Məmməd Əmin əfəndi söylədilər ki, birinci və ikinci təkliflər barəsində danışmaq artıqdır. Hökumət nümayəndəsi maliyyə naziri isə deyir ki, birincini qəbul etmək olar. Biz də bilirik ki, bu məsələ mühüm və nazikdir. hər halda açıq olmazsa da qapalı iclas qura bilərik ki, orada hökumət nümayəndəsi izahat versin. Yoxsa gözümüz qapalı bu pulların buraxılmasına razı ola bilmərik. Camaət nümayəndələrindən heç bir şey gizlətmək olmaz. Əgər hökumət nümayəndəsi bizə izahat verməyə söz vermirsə və buna görə qapalı iclas olmasını lazım görürsə biz təklifimizi növbədən götürərik.

**Rəis** - təklifləri bir-bir səsə qoyuram...

**Məmməd Əmin** (yerindən) - Mən elə bilirəm təklif geri alınıb, qapalı iclasa buraxılmışdır.

**Rəis** - Yox, mən səhv etdim. Təqsir məndədir ki, bunu buraxdım. Mən üzr istəyirəm. Təklif imzasız olub. Nakaz ilə düz deyildir. İmza atan özü danışar idi.

**Məmməd Əmin** (yerindən) - O vaxt müzakirə edə bilmərik.

**Səslər** - Fraksiya tərəfindən deyildir.

**Məmməd Əmin** (yerindən) - Nizamnamə ilə düz deyildirsə, səsə qoymaq olmaz.

**Sədr** - Söz maliyyə naziri Əliağa Həsənovundur.

**Əliağa Həsənov** - Əvvəlinci maddəni hər gah dedim ki, qəbul etmək olar. Mən öz fikrimi dedim. Əvvəlcə dedim ki, hökumətin bu barədə müzakirəsi olmayıbdır. Mən əvvəlinci maddə [505 - 506] barəsində dedim ki, öz rəyimlə qəbul edə bilərəm. İkincinin buraxılması mümkün deyildir. Buyurdular qapalı iclasda izahat verilsin. Ərz elədim ki, bu barədə müzakirə olunacaqdır. O vaxt rəyinizi deyərsiniz. O vaxt hökumət öz rəyini deyər, parlamanda mən güman edirəm ki, bir neçə ay saxlanıb duran şeyi bir neçə gün də saxlana bilər. Yenə təkrar edirəm ki, birinci maddə mənim öz rəyimdir.

**Məmməd Əmin** (yerindən) - Gözləyə bilmərik ki, imza edilsin. Təklif varsa qoyun səsə.

**Sədr** - Təklif var ki, məclis qapanıb qalan məsail yarına qalsın. Bu təklifi Abdulla bəy Əfəndizadə, Qarabəy Qarabəyli, Heybətqulu Məmmədbəyov imza etmişlər. Kim bunun əleyhinə danışmaq istəyir?

**Məmməd Əmin** (yerindən) - Məsələ bitdi, danışan yoxdur.

**Sədr** - Onda səsə qoyuram. Bu məsələ qurtarsın, qalanı sabaha qalsın. Hər kəs buna tərəfdardısa əlini qaldırsın. (Əllər qalxır). Əksəriyyət rəy ilə təklif qəbul olunur. (Məbuslar qalxıb getmək istəyirlər, sədr zəng vurur) İltifat edin. İclası hələ qapamamışam. Məsələ həll olundu. Amma hələ iclası qapamadım. Təklifi səsə qoyuram (katibə). Təklifin birinci maddəsini oxuyunuz.

**Katib** - birinci maddəni oxuyur.

**Sədr** - Hər kəs bu arzunun tərəfdarıdırsa rica edirəm əlini qaldırsın. (Əllər qalxır). Kim əleyhinədir? Əksəriyyət rəyilə rədd olunur.

**Məmməd Əmin** (yerindən) - O biri ikisi işinə getdi?

**Sədr** - Xayır, bu birdir hələ o bir maddəbəmaddə səsə qoyacağam. (Katibə) İkinci maddəni oxuyunuz?

**Katib** - İkinci maddəni oxuyur.

**Sədr** - Hər kəs bunun tərəfdarıdırsa əlin qaldırsın. Sollar əllərini qaldırırlar. Kim əleyhinədir? (Əllər qalxır). Əksəriyyət ry ilə 2-ci maddə rədd olunur. (Katibə) 3-cü maddəni oxuyunuz.

**Katib** - Oxuyur. (Əllər qalxır).

**Sədr** - İltifat ediriz, səsə qoymuşam. Əcələ edirsiniz. Əlan gəlir vergisi hökumət tərəfindən tələb olunur. Bu barədə mənə də kağız gəlib. Üzvlərin hamısına da. Güman edirəm Əhməd bəyə də gəlmişdir. Daha səsə qoymaq nəyə lazımdır. [506 - 507]

**Səslər** - Bizə də gəlibdir.

**Məmməd Əmin** (yerindən) - Əhməd bəyə təbliğ üçün kürsüdən danışmaq lazım idi.

**Qarabəy** (yerindən) - Qoy səsə, o da rədd olunacaq.

**Sədr** - Hər kəs öz məlumatını verməlidir. Bunu nə üçün səsə qoyaq bilmirəm. hər kəs gəlir vergisinin yığılmasını arzu edirsə əlini qaldırsın.

**Məmməd Əmin** (yerindən) - Açıq qapını zorlamıyacağız ki!

**Sədr** - Təklif olunur iki il. Rica edirəm müəlliflər göstərsinlər. Hansı illərdir.

**Səslər** - 17-18-ci illər üçün... 18-19-ci illər üçün.

**Sədr** - Biri deyir 17-18, digəri 18-19. Bu barədə maliyyə nazirinin sözü var.

**Əliağa Həsənov** - O cür təklifi səsə qoymaq olmaz. hökumət qalıqların penyəsilə bərabər yığılmasını qərara almışdır. İstər 15 ayın, istər 10 ilin qalığı olsun. Bu barədə də otuz minə qədər taza povestkalar gedib padatnı inspektorlara. Onlar tezlik ilə yığacaqlar. İndi təklif olunur 17-18-ci illər üçün yığılsın. Guya bu qayda ilə parlament qabaqki vergiləri müəaf edir. Bunu qəbul etmək olmaz. Əgər olunsa tamam keçmiş qalıxlar müaf olunmuş olar.

**Rəis** - Söz Əhməd Cövdət bəyindir.

**Əhməd Cövdət bəy** - Biz öz təklifimizin üstündə dururuq. Çünki bu qanun 15-ci ildə qəbul olunmuşdu və bu vaxta kimi 17-18-ci illərin vergisi toplanmamışdır. Ona görə biz də bu iki sənənin vergisinin toplanmasını təklif edirik.

**Sədr** - Səsə qoyuram. Hər kəs 17-18-ci illərin gəlir vergisinin toplanmasına tərəfdardısa, rica edirəm əllərini qaldırsın.

**Məmməd Əmin** (yerindən) - Təshih olarmı?

**Sədr** - Kim bu təklifin tərəfdarıdirsə əlini qaldırsın. (Sollar əl qaldırır). Kim əleyhinədir? Rica edirəm iltifat ediniz. Sizin təklifiniz müəyyən surətdə verilməyibdir. Oxunur, bir azdan dəyişdirirsiniz. Deyirsiniz, düzəldirik. (Alqış). Müəyyən edin, bir də oxuyun, tərcümə edin. Mən özüm də başa düşmürəm.

**Katib** (oxuyur) - Sonra bizim təklifimiz müəyyəndir. Axırıncı illər üçün deyirik. [507 - 508]

**Sədr** - Səsə qoyuram. Hər kəs buna tərəfdardısa əlini qaldırsın. (Əllər qalxır). Lehinə 19. Hər kəs əleyhinədir əlini qaldırsın. Yoxdur. Kim səs vermir? Beləliklə, məsələ keçmir.

**Məmməd Əmin** (yerindən) - Rəy verməməyiniz xüsusunda danışmaq olarmı?

**Sədr** - Məsələ keçmədi.

(Məbuslar yerindən qalxıb getmək istəyirlər).

**Sədr** - Rica edirəm əyləşiniz. İki-üç məclisdir ki, komisyon üzvləri seçilmirlər. Komisyonlar onsuzda işləmirlər. Natamam olduqlarından daha işləmirlər. Rica edirəm namizədlər vərəqəsini sabaha hazırlayın. Seçək qurtaraq. Namizədlər məlumdur.

**Məmməd Əmin** (yerindən) - Mən söz istəmişəm. Səs verməməmiz barəsində.

**Sədr** - Ola bilməz, məclis qapanır. bu barədə məsələdən qabaq danışmalı idiniz.

**Qara bəy** - Məsələ daha keçdi.

**Sədr** - İclas qapanır.

İclas qapanır saat 3-15 dəqiqədə.

**Arxiv, f. 895, siy. 1, iş. 85, v. 1-37.**

## № 34

## Otuz dördüncü iclas

*6 may 1919 cu il*

**Rəis** - Həsən bəy Ağayev. **Katib** - Əhməd Cövdət Pepinov. İclas açılır saat 11/50 dəqiqədə.

**Rəis** - İclası davam etdiririk. Bugün növbədəki məsələlərdən savayı hökumətə aid divani-rəyasətə bir sual daxil olubdur. Bu sual iclasın axırında elan olacaqdır. Növbədəki məsələ əhaliyə bilavasitə ziraət yardımı edən və ziraətə zərər yetirən amillər ilə mübarizədə bulunan təşkilatın daxiliyə nəzarəti ixtiyarından ziraət və əmlak nəzarəti ixtiyarına keçirilməsi haqqında qanun layihəsi. Məruzəçi Şəfi bəy Rüstəmbəyov. [508 - 509]

**Şəfi bəy** - 1912 İliçin hökumət tərəfindən ziraət işlərinə heç bir para buraxılmamışdır. 1914-cü ilə qədər çəyirtkə və qeyri zərərli şeylər ilə mübarizə üçün zemski puldan quberniski pravleniya xərcləyirdi. Sonra 1915-ci ildən 1917-ci ilə qədər Rusiya hökuməti tərəfindən daxiliyyə nəzarətinə bir milyon 997 min rüblə verilmişdir. Bu puldan 559 min 420 manat aqronom məvaciblərinə verilibdir. Qalanları çəmaətə və ziraət işlərinə kömək üçün daxiliyyə nəzarəti tərəfindən qubernski pravleniyaya verilmişdi. O xərcləyirdi, cəmaətə kömək etmək və qeyri ziraət işlərinə baxmaq üçün qubernator təhti idarəsində bir şura əmələ gəlmişdi ki, hesablara, planlara baxırdı. Şurada vitse qubernator, palata müdiri, məarif nəzarətinin nümayəndəsi və quberniya və uçastok aqranomları ziraət cəmiələri nümayəndələri, kəndə xilaf işlərindən başa düşənlər iştirak edirdilər. Bundan savayı 1914-cü ildə Dağıstan, Gəncə və Zaqatala üçün bir büro təşkil olundu ki, çəyirtkə ilə mübarizə eyləsin. Mübarizə üçün bu təşkilata quberniski pravleniye vasitəsilə pul buraxılırdı. İndi iki nəzarətdə ziraət işləri üçün təşkilat var. Biri daxiliyyə nəzarətində və digəri ziraət nəzarətindədir. Bu iki təşkilat bir məqsəddə olduqlarına görə ziraət nəzarəti lazım görür ki, bir nəzarətə: ziraət nəzarətinin ixtiyarına tapşırılsın. Çəyirtkə ilə mübarizə və aqronom işləri ziraət nəzarətində olsun. Ona görə də ziraət nəzarəti bu xüsusda parlamana bir qanun layihəsi təklif edir ki, ziraət təşkilatlarının hamısı daxiliyyə nəzarəti ixtiyarından keçsin ziraət nəzarətinə. Bu layihəyə komisyonda baxılıb, təbdilsiz qəbul olunubdur. Parlamana da təklif olunur ki, qəbul və təsdiq eyləsin.

**Katib** - Layiheyi-qanuniyyəni oxuyur.

**Rəis** - Söz parlaman üzvü Vinoqradovundur.

**Vinoqradov** - (rusca).

**Sədr** - Söz Abdulla bəy Əfəndizadənindir.

**Abdulla bəy Əfəndizadə** (Əhrar) - Parlaman üzvü cənab Vinoqradovun sözlərində iştirak edib, əlavə etmək istəyirik ki, baxıb görürük köhnə nizam əhalinin məişəti və həyatı içərisində yenə saxlanmaqdadır. Təfavütü yoxdur, indi qəyyumluq ikinci nəzarətə keçir, sərf olunan pul isə o sayaqda yersiz [509 - 510] məsrəf olunur. Əhali mənfəətbərdar olmur. Necə ki, Vinoqradov dedi, hansı nəzarətdə olur-olsun bir plan gərək göstərilə, indiki mübarizə üçün nə cür tədbirlər görülmüş və ziraət həşəratdan nə cür müdafiə ediləcəkdir. Lakin proje yoxdur, keçmiş rejim kimi xamlıq var, bizim təklifimiz budur ki, zemstva təşkilatları uzaq vaxta qoyulmasın, tez başa gəlsin ki, iş başlansın. Bu işləri Zemstva hər bir qulluqçudan yaxşı bilir. Bizim təklifimiz budur ki, qanun layihəsi ilə bərabər xahişimizidə parlaman qəbul etsin, taki Zemstva təşkilatları tezliklə işə iqdam etsin.

**Rəis:** - Bu barədə kim danışmaq istəyir. Söz istəyən zahirən yoxdur. Qanunun əsası üzrə danışmaq istəyən olmadığı üçün axırıncı sözü məruzəçiyə verib, ikinci dəfə oxunuşunu səsə qoyamam. Hərgah parlaman qəbul eləsə ikinci qiraətə keçəriz. Qəbul olmasa, layihə demək rədd olunur. Axırıncı söz məruzəçinindir.

**Şəfi bəy Rüstəmbəyov** - Cənab Vinoqradov öz etirazının üzərində durmadı. Təklif hamımıza məlumdur və daxiliyyə nəzarətinin işi o qədər çoxdur ki, qeyri-işlərə qarışa bilmir. Ola bilsin ki, iş də görmüyür. Bu işlər daxiliyyə nəzarətində ola-ola pul xərcləyib iki yerdə xərc olmasın deyə, təklif elədi ki, bu pulların hamısı bir adamda, bir nəzarətdə, bir kassada olsun. Bu vaxtadək bu kimi işlər üçün pul yoxdu. Nəzarət bir proje verər, məbləğ istəməz, bu işlərdə zemstvaların ixtiyarına keçəcəkdir. Abdulla bəy təklif elədi ki, zemstva təşkil edilsin, bu işlər ora verilsin. Burası nəzarətcə məlumdur. Bu barədə nizamnamə və qanunun layihəsi düzəlməkdədir. Təzə təklif artıqdır.

**Rəis** - Layihənin 2-ci qiraətini səsə qoyandan əvvəl dərxatir edirəm ki, hər kəs müzakirə olunacaq qanunun maddələrinə bir şey etmək istərsə indidən yazıb versin. Sonra o maddələri müzakirə eylədikdə o təshihlərə də baxılsın. Şimdi layihəni səsə qoyuram. Hər kəs layihənin ikinci qiraətinə razıdırsa, əlini qaldırsın. Sayınız. 44 səs. Əksəriyyətlə qəbul olunur.

**Katib:** - Birinci maddəni oxuyur.

**Rəis:** - Əvvəlinci maddə xüsusunda kim danışmaq istəyir. Danışmaq istəyən yoxdur. Səsə qoyuram. Kim əvvəlinci maddəni qəbul edirsə, əlini qaldırsın. Əvvəlinci maddə qəbul edilir. [510 - 511]

**Katib** - İkinci maddəni oxuyur.

**Rəis:** İkinci maddə xüsusunda kim danışmaq istəyir. Danışmaq istəyən yoxsa səsə qoyuram. Kim 2-ci maddəni qəbul edirsə, əlini qaldırsın. Əksəriyyət rəylə qəbul olunur.

**Katib: -** 3-cü maddəni oxuyur.

**Rəis:** Bu statyaya əlavə olaraq təshih olunur.

(Katib əlavəni oxuyur).

**Rəis** - Söz Şəfi bəy Rüstəmbəyovundur.

**Şəfi bəy Rüstəmbəyov** - Bu layihədən məlum olmur ki, hansı təşkilat çəyirtkə ilə mübarizə edəcəkdir. Buna görə təzə qanun layihəsi hazırlanacağından bu təshih rədd olunsun.

**Rəis** - Təshih barəsində kim danışmaq istəyir. Söz Ağa Aşurovundur.

**Ağa Aşurov** - Bu təshihi biz qəbul eyləsək o zaman vüzarətə yol göstərmiş olar və məsuliyyət də bizim öhdəmizə gələr. Məsuliyyəti öz üstümüzə götürə bilmərik. Ona görə mən təklif edirəm ki, təshih rədd edilsin.

**Rəis** - Daha başqa danışan yoxmu? Hər kəs üçüncü maddəni eyni surətdə qəbul edirsə, əlini qaldırsın. Əksəriyyətlə təshih rədd olunur.

**Katib -** 4-cü maddəni oxuyur.

**Rəis** - Kim 4-cü maddə xüsusunda danışmaq istəyir. Danışan yox isə səsə qoyuram. 4-cü maddəni kim qəbul edirsə, əlini qaldırsın. Əksəriyyət rəy ilə 4-cü maddə qəbul olunur. Layihənin 2-ci qiraəti sonraya qalır.

**Rəis** - Təklif var ki, növbədəki məsələlər gələn iclasa qalsın. Bu təklifin lehinə və əleyhinə iki natiqə söz verəcəyəm. Əbuzər bəy Rzayev buyurunuz.

**Rzayev** - Əfəndilər! Hamıza məlumdur ki, bu gün Bakıda tətil başlanıb, elektrik, dəmiryol yatıb. Bu günlərdə vodoprovod da (su kəməri) yatacaqdır.

**Qara bəy** (yerindən) - Qoymayacağıq.

**Rzayev** (davam edir) - Bu tətil iqtisadi olmayıb siyasi bir tətildir. Bizim düşmənlərimiz sağdan, soldan, hər yerdə baş qaldırıb istiqlalımızı əldən almaq istəyirlər. Ona görə biz təklif edirik ki, bu gün məsələyə baxılsın. Başqa məsələlər təxirə salınsın. Parlaman və hökumət bu barədə [511 - 512] öz tərəfindən nə tədbirlər görəcəyi haqda məlumat versin.

**Rəis** - Bu təklifin əleyhinə danışan yoxdursa, səsə qoyuram. Hər kəs bu təklifin tərəfdarıdırsa əlini qaldırsın. (Əllər qalxır). Deməli, növbədəki məsələlərin gələn iclasa qalması əksəriyyət ilə qəbul olunur, tətil münasibətilə bir təklif varid olmuşdur. (Katib təklifi oxuyur).

**Rəis** - Söz Məmməd Əmin Rəsulzadənindir.

**Məmməd Əmin Rəsulzadə** - Möhtərəm Məclisi-Məbusan əzası! Bilirsiniz, şəhərimiz indi bir fövqəladə əhval içərisindədir. Zabastovka elan edilmişdir. Bu tətili elan edənlər əmələ konfransı namilə və bu addan sui-istifadə edən bir təşkilatdır. Onlar öz məqsədlərinə iqtisadi deyirlərsə də fəqət, onların məqsədlərinin nədən ibarət olduğu kimsədən ötəri gizlin deyildir. Əgər xalq qismi bu məsələnin əsasına bələd olmasa da, parlamanda oturan möhtərəm əzaların şəkki-şübhə edəcəklərinə qane deyillər.

Ələlümum ticarət və sənayemizin düçar olduğu vəziyyət müşküldür. Əhvali-övzaindən naşi əmələlərin də müşkül bir vəziyyətdə olduqlarını heç kimsə inkar etməz. Onların iqtisadi cəhətdən hallarına müavinət lazımdır. Ac qarına, kəm mayə ikən bir müşkülat içində işləməyə məcburdurlar. Bu müşkülat ilə bərabər məmləkət işində işləyən bütün əmələlərin idraklı qismləri anlayırlar ki, ticarət və sənayemiz müşkülat içərisindədir. Bu müşkülatı rəf etmək lazımdır. Fəqət, bunu yalnız konqresə toplanıbda əmələlər adından yerli xalq əmələləri ilə əlaqələri olmayan və özlərinin xüsusi intriqaları üçün əmələlərin müşkül mövqedə qalmalarından istifadə edib intriqa çevirən şübhəli bir dəstəmi düşünür? Başqa bir təşkilat yoxdurmu ki, bunu düşünsün? Onsuz da burada oturan və milləti təmsil edən məbuslar var və sonra da türk xalqı müsəlman demokratyasıdır. (Sağdan və mərkəzdən alqış). Fəqət, onların düşüncələri də başqa, məsələni həll etmək üçün vasitələri də başqa, bizimki də başqadır. Onlar qaş qayırarkən gözü də qururlar. Onlara şuluq və ixtilal lazımdır, bizə hürriyyət və istiqlal. (Alqış). Onlar zahirdə həq və xoş, batində isə yalan və zəhərli sözlər meydana atırlar. Daha həzrəti Əli əleyhissəlam [512 - 513] buyurmuşdur: "Kəlamülhəqq yəridiyəl batil". Həqiqət bəzi gəlmələr var ki, batini örtmək üçün söylənir. Onunla da ortaya bu cür kəlmələr atırlar. Onlar deyirlər ki, Həştərxan yolu açılsın, oraya neft getsin. Bunu hökumət öz bəyannaməsində də söyləmişdir. Həştərxan yolu açılsın ticarət münasibəti başlansın, əmələlər işsiz qalmasınlar. Bunlar və zahirdə həqq sözlərdir. Fəqət, bunun altında batil bir məqsəd vardır. Onlar bununla vəziyyəti-siyasiyyəni bərhəm edib Həştərxana neft aparmaqla Həştərxanı burada hakim etmək istəyirlər. (Sosialistlərdən başqa bütün kürsülərdə alqışlar, səslər; doğrudur, doğrudur). Əvət, əfəndilər, məsələ belədir. Zahirdə iqtisadi tələblər təklif olunur. Tələb olunur ki. stavka artsın, kollektiv qəbul edilsin. Əgər, doğrudan da fəhlələrin halı və mənafeyi-iqtisadiyyələri gözlədilmiş olsa idi əgər arada intriqa və siyasi məqsədlər olmasa idi, digər tələblər də olmalıydı. Əgər raboçi konfrans əmələlərin əhvalını gözləmək istəyir bilməli idi ki, gündən-günə məvacibi artırmaqla iş düzəlməz. Promıslı hökumət parasilə dolanır. Stanoq kağız para kəsir, əmələlərə ucuz buğda, çörək, ət və sair lazımı şeylər versin. Əgər raboçi konfrans iqtisadi mənafi güdsə idi bunu deməli idi. Fəqət, bundan bəhs olunmur. Bunu demirlər, lakin elə şeylər tələb edirlər ki, onlar ilə əsla dərdə çarə olmaz. Bu cür siyasi məsələlər ortalığada ancaq anarxiya və iğtişaşdan başqa bir şey salmaz.

Əfəndilər! Siz bilirsiniz ki, daha hökumət özü kəndi bəyannaməsində elan etdi ki, Hacıtərxan yolu gərək açılsın. Hacıtərxan yolunun açılmasının nə qədər əhəmiyyətli olduğunu əlbəttə, hökumət düşünür. Fəqət, şimdi əmələ konfransı hökumətin bu bəyənaməsindən istifadə edərək hökumət də Hacıtərxan yolunun açılmasını istəyir deyə sui-təfsir edir. Azərbaycan hökumətinin Hacıtərxan yolunu açmasilə Çurayev, Mirzəyanların açmasında fərq vardır. Onu görməyən və idrak etməyən bir fərd tapılmasın gərəkdir. hökumət Hacıtərxan yolunu o vaxt açmaq istər ki, bu xüsusda Sovet hökuməti müraciət edə və müəyyən şərtləri ola. O şərtlər də bunlardır: Əvvəla, Sovet hökuməti bizim istiqlalımızı tanıyırmı? Saniyən, daxili işlərimizə qarışmayacaqmı, [513 - 514] Zaqafqaziya üzərinə hakim olmaqdan qətiyyən imtina edəcəklərmi?

Rus hakimiyyətini buraya tətbiq etmək istəməyəcəklərmi? Bu şərtlər bizim istədiyimiz kimi olsa o vaxt, əlbəttə biz neft verərik.

Lakin fəhlə konfransında əyləşən və bu gün müvəffəq olan bir taqım -sərsərilər qəti surətdə müvəffəqiyyəti əllərinə keçirəcək olurlarsa, bizim ixtiyarımıza, hüququmuza, türk demokratiyasının istiqlaliyyətinə təcavüz etməyəcəklərinə kim təminat verə bilər. Onların bizə verdikləri və ortaya atdıqları təklif bir şahmat oyunudur ki, onunla hiyləkəranə bir surətdə yolumuzu kəsib, bizi mat qoymaq istəyirlər. Və bununla burada öylə bir vəziyyət hasil etmək istəyirlər ki, Bakı fəhlə konfransiyası realnı bir qüvvəyə istinad etsin, biz istər-istəməz kəndi mənafeimizi onlara vaküzar edək. Biz burasını bilməliyik ki, müstəqil bir millət və camaat ən əvvəl öz qüvvəsinə istinad etməlidir.

Mart faciəsini yaradanlar, bizim onlara istinad edəcəyimizə inanırsa, qətiyyən yanılırlar. (Alqışlar).

Əfəndilər! Məsələ bu yoldadır əmələləri aldatmaq üçün iqtisadiyyata istinad edirlər, fəqət, yalan söylədiklərini özləri etiraf edirlər. Fəhlə konfransında müzakirat əsnasında bu tələbnamə siyasidir deyə onlara verilən bir suala qarşı siyasi olduğunu və yalnız ingilislərdən gizləmək üçün onlar iqtisadi bir don geyindirdiklərini məlum etmişlərdir. Mən zənn etmirəm ki, bir taqım Çurayev və Mirzəyanlar ingilislərin gözü qarşısında pərdə assınlar və ingilislər də o qədər səhlbavər olsunlar ki, nərədən gəldikləri məlum olmayanların əğfalinə aldansınlar. Bu pərdəni yalnız ingilislərin deyil, rus, erməni və müsəlman əmələlərin də gözündən asmaq istəyirlər. Mən zənn edirəm ki, əmələlər fəhlə konfransının bu tələbinə səs vermişlərsə də həqiqəti bildikdən sonra məcəracı olmazlar və Hacıtərxan yolunın bizim ixtiyarımızda olmadığını bilə-bilə heç bir şeyə əhəmiyyət vermədən ərkəksən də doğ, dişisən də doğ deyib bizi müşkül vəziyyətə salmazlar. Bu zərbə yalnız ingilislərə deyil eyni zamanda da Azərbaycan hökumətinə Azərbaycan istiqlaliyyətinədir. Bu sadə iqtisadi bir tələb deyildi. Bu o tələbdir ki, burada Çurayev [514 - 515] Sovet hökuməti qurmaq istəyir. Çurayev konfransı Rusiya Sovet hökumətinin Bakıdakı səfarətxanəsi kimiədd olunmalıdır. Beynəlmiləl hüquqda digər bir hökumət nəzdində səfir bulundurmaq istədikdə əvvəlcə o hökumətin rəyinə müraciət eylər və müsaidəsini aldıqdan sonra səfarətxanasını açar, lakin Sovet hökumətinin qaydası büsbütün başqadır. Onun nümayəndəsi məhəllələrdə təşkil edilən bolşevik konfranslarıdır. Buradakı konfransda Sovet hökumətinin səfarətxanəsindən başqa bir şey deyildir. Binaən-ileyh, oradan çıxan qərarların, verilən tələbnamələrin ruhi və mahiyyəti bizcə bəllidir. Biz yaxşı bilirik ki, burada on dörd milyonlar ilə paralar nasıl sərf olundu. Biz biliriz ki, keçən tətildə əmələ konfransı əmələlərdən qəpik-qəpik ianə istəyirdi və vermədiklərindən şikayətlənirdi. Amma indi görürük ki, Dağıstan gününə və sairəyə on minlərlə ianə verirlər. Bu paralar nərədən gəlir? Bu isə bizə haqq verir deyək ki, burada yalnız Sovet hökumətinin agentləri deyil, paralar da işləyir. (Sağdan və mərkəzdən alqış).

Əfəndilər! Böylə mühüm bir məsələ qarşısında ikən burada sakityanə oturub da o kametifin qanun layihələrini müzakirə edəcək bir halda deyilik. Parlamanın müxtəlif fraksiya üzvlərinin imzası ilə hökumətə bir sual verilmişdir. Körək hökumətin bu məsələdə nöqteyi-nəzəri nədir, nə tədbirlər düşünür? Qoy bu kürsüdən söyləsinlər, biz də bilək, millət də bilsin. Burasını qeyd etməliyəm ki, biz təhlükənin yalnız bolşevikdən deyil, sağdan da mövcud olduğunu biliriz. Təhlükə təhlükədir, istər sağdan ya soldan olsun bizim üçün birdir, bu təhlükə kəndi qanuniyasından və-hakimiyyətindən əl çəkmək istəməyən Rusiya tərəfindəndir. İstiqlaliyyətini müdafiə etmək Məclisi-Məbusana nə dərəcədə fərz isə, istiqlaliyyətini əziz bilən millət və camaat üzvlərinə bolşevikdə olsa istiqlaliyyətimiz əleyhində olanlar ilə mübarizə etmək o dərəcədə fərzdir. İstər sağdan, istər soldan olsa da düşmən düşməndir. Bu vəziyyət bizi hökumətdən sual etməyə vadar etdi. görək hökumətin fikri nədir. Hökumətdən müvafiq cavab almayınca sakit olub, evlərimizə gedəməyiz. (Sürəkli alqışlar).

**Rəis** - bu barədə daha kim danışmaq istəyir?

Söz rəisi vükəlanındır. [515 - 516]

**Nəsib bəy Yusifbəyli** - Möhtərəm məbuslar! Bu tətilin iqtisadi olmayıb, siyasi olduğunu güman edirəm, bilməyən yoxdur. Bu tətilin siyasi olduğunu tətil edənlər və tətil etdirmək isəyən adamların özləri də inkar etmirlər. Onlar öz məclislərində açıq deyirlər ki, biz gərək bütün Rusiyada, o cümlədən də Azərbaycanda ki; onu Rusiyanın bir parçası hesab edirlər, Sovdepiya hökuməti təşkil edək; Onlar bunu inkar etmirlər və bu məqsədə çatmaqdan ötəri də vəsiləyə müraciət ediblər və edirlər. Məlumi-alinizdir ki, indiyə qədər iş başında olan hökumət və indiki hökumət Azərbaycanda hürriyyəti-mətbuat, hürriyyəti-ictimaiyyə tətillər mühafizə olunmuşdur. Bunun səbəbi nədir? Səbəbi budur ki, hər nə qədər hökumətimizə bəy-xan hökuməti desələr də iş başında olan hökumət öz demokrat və xalqpərəst əməli ilə demokratlığı isbat etmişdir. Fəqət, bu hürriyyət suyi-

istemal olunur. Bunlarda öz içərimizdə olan əhvalimiz deyil, özgə dövlətlərdən gələnlərdir ki, suyi-istemal edirlər. Bu vəziyyət içəridən qalxmış deyil, xaricdən qaldırılır, bununlada əsl məqsəd Azərbaycanı Rusiyaya ilhaq etməkdir. Bunu rusların əksəri, mütəəssifanə hər bir rus istəyir. Sələfdən bunu istəyirdilər, hətta bu xüsusda Azərbaycan daxilində bir para tədbirlər görülmüşdü ki, o da kəşf olundu. Bir çoxlar nəfy və tərd edildi və edilir. Soldan da bunu istəyənlər var. Soldan istəyirlər ona görə ki, bir vasitə ilə Azərbaycanı Rusiyaya ilhaq etmək istəyirlər. Onlar cürbəcür vasitələr ilə öz amalımızın, əməlilərimizin əli ilə öz ixtiyarlarını və qüvvələrini buraya gətirmək istəyirlər. Doğrudur, türk müsəlman fəhlələrin arasında hala mövqei həqqilə düşünə bilməyən, anlaya bilməyən bəzi adamlar tapılar, ancaq əminəm siz də inanırsınız ki, müsəlman türk demokratiyası və ələlümüm yerli demokratiya ki, arasında rus və erməni demokratiyasıda var, bu yalana aldanmayacaqdır. (Mərkəzdən alqış), çünki onlar uşaq deyillər, onlar müvəqqəti olaraq bu yağlı sözlərə aldana bilərlər. Lakin işə" gəldiyi zaman məsələki dikinə qoyuldu, yəni ya Azərbaycan tərəfinə və ya Rusiya Sovdepiyasına gedəsi məsələsi qoyuldu, o zaman zənn etmirəm rus tərəfdarı bir-iki prosentdən artıq raboçi tapılsın. (Mərkəzdən alqış). Mən eşitmişəm mitinqlərdə söyləyirlər ki, hökumət Həştərxan yolunun açılmasına tərəfdardır. Deklarasiyasında [516 - 517] da bunu deyir. Doğrudur, hökumət Həştərxan yolunun, bu yeni bazar yolunun açılmasına tərəfdardır. İki yüz milyon put neft var. Onu satmaq lazım, satmaq üçün də mühüm bir bazar Həştərxandır. Ancaq hökumət və millət deyil ki, neft bacını da verər ki, sovdepiya hökumətini bura gətirməz və istiqlalından əl çəkməz. (Sosialistlərdən başqa bütün kürsülərdə sürəkli alqışlar).

Hökumət demişdir ki, bəli, əgər sovdepiyadan təklif olarsa nefti almaq istəyirik, o vaxt bəzi şərait qəbul edərik. Bunun mənası açıq idi. Əgər Rusiya bizim istiqlalımızı tanırsa, bizimlə hesablaşırsa o zaman neft verərik. Bunlar olmayınca hökumət sovdepyaya neft verməz. Lakin bunlar deyilər ki, yolu şərtsiz açın, gəlsinlər, buna heç bir hökumət, heç bir fəhlə, Türk demokratiyası, heç bir azərbaycanlı razı olmaz.

Məlumunuzdur ki, bu zabastovkanın əmələlər içərisində qəbul olunması üçün, ona iqtisadi bir rəng verirlər. İqtisadi məsələlərdə hökumət hər zaman fəhlələrin tərəfindədir və olacaqdır da. Bunu hökumət öz bəyannaməsində də məlum etmişdi. Əgər tələb doğru olursa və iqtisadi olursa bugünkü tələbnamənin doğru olmadığını bəyan və ərz eylədim. Bunların öz sözlərini yalana çıxarmaq üçün hökumət bəzi iqtisadi güzəştlərə gedə bilər. Hökumət nə qədər güzəştə getsə belə bu tətili aparmaq istəyənlər heç bir zaman buna razı olmayacaqlar. Onlar deyirlər kollektivin hamı maddələri qəbul olunsun. hamınıza məlumdur ki, kollektivdən bir maddə var. Onda deyilir ki, fəhlələrin həqqidir. Məlumunuzdur ki, bizim bir çox məramnaməmiz və başqa idarələrimiz vardır ki, hər zaman Çurayevlər istəsələr onları tətil etdirə bilərlər. Bununda səbəbi odur ki, oradakı əməlilərin hamısı azərbaycanlı deyil. Budur ki, onlar çalışırlar ki, bu maddə ilə hər yerə öz adamlarını qoysunlar, istədikləri zaman məmləkətin makinalarını və həyatını durdura bilsinlər. Əlbəttə, kollektivin bu maddələrini hökumət heç bir zaman qəbul edə bilməz. (Alqışlar). Bir də türk demokratiyasını bununla ələ almaq istəyirlər ki, hökumət də parlaman da, müsavat da bu tələbata razıdır. Bu kimi şayiələr ilə Türk demokratiyasını bir nə qədər aldatmaq istəyirlərsə də bu gün təsəvvür edilən o tətil yoxdur. Dəmir yolumuz dünən saat beşdə tətil elan etmişdi. Fəqət, dünən də və bu gün də lazım olan qatar hərəkət etdi. (Sürəkli alqışlar). Telefon tamamilə işləmirsə də öz adamlarımızdan oraya təyin etdiklərimizin sayəsində hökumət dairələrinin telefonları işləyir. (Alqış), və ola bilsin ki, mən sizə daha qəti deməyirəm, axşam işığımız da olsun. Demək, o duzəx ki, qurulmuşdur, başa gəlməyəcək, əyər bir kəs tərəfindən işləmək istəyənlərin üzərinə hücum olunarsa hökumət var qüvvəsilə buna mane olacaq. (Sağdan və mərkəzdən sürəkli alqışlar). Lazım gələrsə və çox inad edilərsə ətrafdan gələrək burda Sovdep lehinə işləmək istəyənlərə təklif olunacaq ki, gedib öz sovdeplərində əyləşib işləsinlər. (Sağdan və mərkəzdən şiddətli və sürəkli alqış. Soldan daşnaqlar dəxi alqışlayırlar).

**Rəis** - Hökumətin bəyanatını dinləyəndən sonra danışmaq istənilirsə, yazsın versin. Söz, Əhməd Cövdət Pepinovundur.

**Əhməd Cövdət** - Əfəndilər! Həpimiz bu gün cəmaətdə bu çoxluq ilə bura toplanması göstərir ki, şəhərdə olan hadisə hamını maraqlandırır. Qanun layihəsinin təxirə alınması və bu məsələnin müzakirəsinə keçməmiz yerindədir. Bu gün Azərbaycan paytaxtı fövqəladə əhval içərisindədir. Biz cəmaət vəkilləriyik, hökumətin borcudur söyləsin və biz də öz sözümüzü deyək ki, bu məsələyə nə cür baxırıq, münasibətimiz, hərəkətimiz nə cür olacaqdır. Məmməd Əmin Əfəndi burada zabastovka xüsusunda zabastovkanın nə cür olduğunu və mahiyyətini söylədi. Mən deyirəm ki, hər bir vaqe olan hərəkətin nəticəsini doğru eləməkdən ötrü və ya doğru olmamasını isbat eləmək üçün öz hərəkətimizin doğruluğunu ortaya qoymaq və işimizi doğru eləmək lazımdır. Məmməd Əmin əfəndi buyurdular ki, burada zabastovka edənlər velikoderjavlıq həyatı ilə Rusiya sovdepiyasını bərpa etmək istəyənlərdir ki, aralarında Rus sovdepiyasının paraları və nümayəndələrinin əlləri var-dır. Bunlar Azərbaycanı Rusiyaya yapışdırmaq istəyirlər. Mən də soylərəm ki, var. Əlbət ki, bu həm əmələ sinfinin içərisində, həm də sağdan və soldan da vardır, nəinki sovdepiya, hətta onlardan daha qorxulu ünsürlər vardır ki, onların təşkilatları, adamları işləyirlər və zabitləri görünür. Bu da Denikin təhlükəsidir. Bunları biliriz. Bunlar bizi Rusiya mütləqiyyətinə yapışdırmaq istəyirlər. Onlar ilə mübarizə etməyi [518 - 519] qət etmişik. Bu barədə qəzetlərdə də yazmışıq, hökumətə də bildirmişik. Məəttəəssüf, keçmiş hökumət bununla mübarizə etmirdi, həm də hökumət təşkilatları içərisinə girməyə yol vermirdilər. Bu qorxu Denikin qorxusudur. Bu qorxu sağdandır.

hökumət bunu görmür, əhəmiyyət vermir. Çünki onlar bağırtı-çığırtı salmırlar. Bunlar gizlin olurdu. Bu sağ tərəfdən gələn və bizi əsarət altına almaq istəyən qorxu ilə qətiyyən mübarizə lazımdır. (Mərkəzdən "Zabastovkadan danış! Zabastovkadan!").

**Rəis -** Rica edirəm natiqə mane olmayasınız.

**Əhməd Cövdət** (davam edir) - Əgər gözləsəniz zabastovka məsələsinə keçəcəyəm. Zabastovka barəsində Məmməd Əmin bəy dedi ki, məsələnin əyri tərəfi budur ki, burada sol ünsürlər vardır ki, Rusiya sovdepiya hakimiyyətini bura da soxmaq arzusunda bulunurlar. Bu pək doğru. Ancaq budurmu? Bunu bilmək üçün bəzi məsələləri təhlil eləmək və onları söyləmək lazımdır. Məmməd Əmin əfəndi buyurdu ki, sənayemiz və ticarətimiz müşkül və ağır bir haldadır. Əmələlərin halı ağırdır. Bunların əleyhinə çıxmaq və bərtərəf eləmək lazımdır, bizə təhlükə bunlardan gəlir. Ümdə mətləb - Azərbaycan düşmənləri bu müşkülatdan istifadə edirlər. Bu müşkülatları bərtərəf edəriksə asi ünsürlər ilə mübarizə asan olar. Lakin bu müşkülat bərtərəf olmazsa istər sağdan, istər soldan bizə hücumlar olunacaq və əleyhimizə gedəcəklər və onlar ilə mübarizə çətin olacaq. Keçən dəfə dəmiryol qulluqçularının məvacibi məsələsi müzakirə olunarkən biz söylədik ki, əmələlərin muzdunu artırmaqla müşkülat rəf olmayacaqdır. Məvacibin artırılması bir şey eləməz. Bunun üçün başqa çarələr lazımdır. Fəhlələrin halını yaxşılaşdırmaq üçün müavinət təşkilatları lazımdır ki, fəhlələrə ağırlıq olmasın. Məmməd Əmin əfəndi dediniz: Niyə fəhlə konfransı böylə təşkilatlar fikrinə düşmür ki, ucuz çörək və qeyri şeylər alsınlar, tainki muzd artmasın və aşağı düşsün. Fəqət, bunu ən əvvəl düşünən kimdir? Ən əvvəl bunu parlaman və hökumətdən düşünməli ikən, neçə aydır ki, biz onlara demişik ki, gərək əmələlərin əhvalı yaxşılaşsın və müşkülat ilə mübarizə edilsin. Hökumət və parlaman tərəfindən bu barədə nə kimi tədbir olmuşdur. Heç bir şey. Əgər hökumət və parlaman çörək və [519 - 520] başqa şeylərdən əmələləri təmin etsə idi, o ünsürlər iqtisadi tələbat adı ilə qarnı ac fəhlələrin böylə təşkil halından istifadə edəməzdilər. Və fəhlələr də onların dallarınca getməzdi. (Qarışıq səslər). Məsələnin ümdə cəhəti bu müşkülatların bərtərəf olmasına çalışmaq və bu təklifləri qəbul etməkdir. Bu gün tətilə iki şey gözümüzə çarpır. Onlardan biri müştərək müqavilənamədir ki, qəbul edilməsi ortalığa qoyulub. 4 ay gözləmişlər və heç bir nəticəyə müncərr olmamışlar. Məsai nazirinin dediyinə görə mədən sahibləri heç bir vəchlə qəbul etmək istəmirlər. hətta axırıncı müzakirələr göstərmişlər ki, bu gün mədən sahiblərində bu tətili pravatsirovat və təbliğ eləyirlərmiş ki, zabastovka olsun. Deməli tətili çıxaran səbəblər varsa, o da kənardan gəlmiş ünsürlər deyil; həmin içimizdə olan müşkülatdır; ümdə mətləb mədən sahiblərinin inadıdır.

Hökumət başçısının dediyinə görə, "Kollektiv" içərisində bir maddə vardır ki, fəhlələri qəbul və kənar etmək ancaq fəhlələr ixtiyarında olsun. hökumət bu ixtiyarı onlara verə bilməz. Məsələ fəhlələr ilə mədənçilər arasındadır. Hökumət isə özünə aid olan maddə üstündə dura bilər. Yerdə qalan maddələr ki, müşkül halımızı təsəvvür edir və hökumətin dediyinə görə oluna bilir, qəbul olunsun.

İkinci məsələ Hacıtərxan yolunun açılması məsələsidir. Bu barədə Məmməd Əmin əfəndi dedi ki: Onların açmaq istədikləri Hacıtərxan yoluilə bizim açmaq istədiyimiz Hacıtərxan yolunun arasında təfavüt var. Əgər Rusiya təklif edirsə, xüsusi şərait ilə qəbul edəriz.

Bu müzakirata kirişmək üçün də yolların açılması lazımdır. Bizə qarşı düşmənanə vəziyyət almış Sovdepiya hökuməti ilə, müzakirata girişmək ilə onlara köməkmi edirik. Xayir, biz öz nəfimiz üçün çalışırıq. Öz neftimiz üçün, çünki hökumət onu dərk edir ki, burada yığılan neftlər qalmaqla axırda bizim başımıza fəlakət açacaq. O buradan çıxarılmalıdır. Hacıtərxan yolunun açılması Rusiya ilə münasibət bərpa etmək fikrindən irəli gəlmir, hökuməti bu sözü danışmağa məcbur edən öz mənafeidir. Burası ticarət və sənaətimizin qabağındakı manilərin bərtərəf edilməsi, qabağımızdakı fəlakətin başımızdan getməsidir. Bunun əleyhinə çıxan kimdir? [520 - 521] İngilis komandanlığıdır. Çünki ingilislər Sovdeplə müharibə etdiyi üçün bizim əl və ayağımızı bağlayırlar. Biz əlbəttə öz neftimizin çıxarılmasına özümüz də səy etməliyik. Bir halda ki, hökumətimizin də fikri böylədir.

Şimdi fəhlələr bunu dərk edirlər ki, yarın buradaki ticarəti dayanarsa, fəlakət onların başında partlayacaq və ac qalacaqlar. Bu gün əmələlər öz hallarını düşünməyə məcburdurlar. Buna görə də öz qeydlərinə qalmalıdırlar. Bugün fəhlələr iqtisadi məsələ qaldırırlarsa, bu da ondan irəli gəlir ki, ac qaldıqda hökumət bəlkə onların qeydinə qalacaqdır. Buna görə əmələlərin həqqi var ki, öz qeydlərini çəksinlər. Bu ac qalmaya başlıca ingilis komandanlığı səbəb olur. Burada dedilər ki, bizim şəraitimiz başqadır. Kim onu deyir ki, öylə şəraiti olmasın. Əlbəttə, Sovet hökuməti ilə danışığa girəndə öylə şəraitlər olacaq.

Bunun üzərinə lazım gələrsə danışığa girişilsin. O şərtlər ortaya qoyulsun. Lakin ortada öylə amillər var ki, bizim əl-ayağımızı bağlayır. Bu da ingilis komandanlığıdır.

Bu zabastovka bizim əleyhimizə olan bir taqım sərsərilər deyildir. Bəlkə Bakıdakı ağır vəziyyətdir. Hökumət bu ağır vəziyyəti gərək dərk eyləsin. Öz tərəfindən lazım gələn tədbirləri icradan geri durmasın. Biz ingilisləri özümüzdən incitməmək üçün hamı fəlakəti qəbul edəməyiz. Burada iki həqiqi tələb var, onlar hökumət tərəfindən qəbul oluna bilər. Onları hökumət gərək qəbul eyləsin. Əgər hökumətimiz dürr beyin olarsa, ortadakı səbəbləri bərtərəf edər. Müzür adamların dalsınca heç bir idraklı şəxs gedə bilməz. Kim ki, bizi əsarət altına almaq istəyirsə, istər sağdan olsun, istər soldan onun əleyhində olmalıyıq.

**Rəis** - Söz Səmədağa Ağamalı oğlunundur. Bağışlayınız, müsaidə veriniz rəis cənabları danışsın, sonra danışarsınız. Əyləşiniz orada.

**Yusifbəyli** - Möhtərəm məbuslar! Burada Məclisi-Məbusan üzvü Əhməd bəy Pepinov buyurdu ki, hökumət ya parlaman əməlilərin çörək və ərzaqlarının ucuz olması üçün tədbirlər görməyir. Mən Sizə ərz eləmək istəyirəm ki, bizim dəmiryol əmələləri Gürcüstan dəmiryolu əmələlərindən iki dəfə artıq məvacib alırlar. (Səslər, mərkəzdən: "Bu bir"). Tiflisdə [521 - 522] çörəyin girvənkəsi 8 manat, 10 manatdır, burada isə özünüz bilirsiniz ki, çörək oradan çox ucuzdur. Bundan əlavə, bizim dəmiryol əmələləri indiyə qədər hökumət əlilə iki manata çörək yiyirlər (Səslər, mərkəzdən: "Bu iki"). Bununla belə heç bir dəfə Gürcüstanda tətil olmur. Burada isə olur. Görünür ki, məsələ çörək məsələsi deyil, məsələ özgədir. Məsələ Azərbaycan məsələsidir. (Alqış).

**Rəis** - Səmədağa, buyurunuz.

**Aqamalı oğlu** - Deyəsən bizim hökumət axırda söylədiyinə görə ilbəil işlər yaxşı qurtarır. Amma, söz onda deyil. Mən Məmməd Əminin sözləri üstə dəvam edirəm. Çünki bir elə hərəkət etdi ki, mən yerimdə qorxdum. Dedim əgər bu deyən olsa, biz lap batıb getmişik. İstədim çıxam gizlənəm, dedim görək hökumət nə deyir. hökumət bir neçə söz deyəndən sonra arxayın oldum. Yoldaşımız Əhməd hər şeyi dedi və ondan sonra çıxmaq fikrində yox idim. Lakin bir neçə sözlər qaldı, onu deyim. Nə qədər çoxlu hal olsa, lazımsız yerdən müzakirəyə salmaq, bu oxşar o mitinqlərə ki, qızışmaq ilə, hərarətli danışıqlar ilə öz sözünü xalqın boğazına yeritmək istər. Bu oxşar o qığılcımlara ki, hazırlanmış taya üstə düşüb od eylər. Deməli çox məsələlər ilə sovuşmaq olmaz. Mitinq kimi çıxıb cəmaətə sarı ay aman! Ay cəmaət, quldurlar yığılıb istiqlaliyyətimizi almaq istəyirlər. Bu cür qızışdırmaq-çığırmaq ziyan verər. Təvəqqi edirəm ki, bəzi məsələlərdən ötrü bura çıxan natiqlər bizim məclisimizi əgər mitinq qayırmaq istəyirsə olmaz. (Səslər: Siz elədiniz! "Hümmət" qayrıb). Bir də nə olubdur? (Səslər: heç zad?!). Fəhlələr bir gün işlərini buraxdı getdi. Sizə zakonna saldat deyillər ki, dədənizin qulu deyillər ki, (Ümumi gülüş) işləmir-işləmir, vəssalam.

Özünüz bilirsiniz ki, bu iş qabaqda olmuşdur. Rim vədəsində (plebeylər) ilə (patriseylər) arasında oldu. Plebeylər çox pis gün çəkdi. Axırda üsyan edib danışdılar - çıxıb getdilər. Patriseylər isə indiki zamanadək əqilli çıxdılar. Onlar böylə etdilər. Getdi, danışdılar, dedilər ki, gəlin siz bizsiz və biz də sizsiz dolana bilmərik. Gəliniz bir olaq, bir bəndəyik. Doğrudan da əhali, hökumət hamısı bir bəndədir. Lakin o düşünüşmə bizdə yoxdur. Əgər bunu bilsək onların da halı asan olar. İndi bizdə. Bəlkə sabah da əkinçilər, hansının [522 - 523] ki, əməyindən bu adamlar olub, oturub burada, dedi istəmirəm əkmirəm. Əkmədi. Nə qayraçağıq. Əkmir. Nə olub, nə danışırsan, işləmirəm, niyə küsürsən, nökərin dəyil ki? (Ümumi gülüş) Burada acıqlı danışmaq olmaz. Nə olubdur işləmirəm, tolko vseqo. (Ümumi gülüş). İndi, deməli fəhlələrdən küsməli. Haman o müsəlman fəhlələrdən ki, zabastovkada iştirak edirlər.

Biz də bilirik ki, siyasət işi yeritmək çətindir, ağır şeydir. Çox vaxt bu işdə dərin oxumuşları səhv gedirlər. Əgər böylə olmasa idi Zaqafqaziyada bu qədər qanlar tökülməzdi. Amma səhvi bağışlamaq olar. Bir də xəyanət var, bilməməzlik var, xainlik də. Buna çarə lazımdır. Yumruq yox. Fəhlələr öz ixtiyarını istəməlidir. Fəhlələr bilməməzlikdən, işləməmək nəticəsindən Azərbaycana ziyan da çata, mən inanıram, bizim fəhlə yoldaşlar əgər görsə ki, istiqlaliyyətin zərərinə gedir, lap tavariş də olsa onun başını üzər. Pravilno. (Ümumi gülüş).

Amma zabastovka da doğrudur. Biz deyirik, elədə var, elədə yoxdur. Onların məraminə bax, mən onlar ilə danışmışam. Elə məsələ qoyurlar ki, adam xəcalət çəkir. Onlar deyir ki, necə vaxtdır şəkər üzü görməmişik, ət üzü görməmişik, nə özümüz, nə arvadımız. Acı inandırmaq çətindir ki, gözlə gör gələcəkdə səndən ötəri nə yaradacağam, sənə nə verəcəyəm. Biz hamı bir halda olsaydıq Şəmsi Əsədullayev olardıq. O vaxt qandırmaq asan idi. Ona görə gülmək lazım deyil, hətta düşmənçilik də olsa nə eləmək. Mənim yoldaşım Əhməd söylədi. Onu təzədən bildirmək istəmirəm. Özümdə yorulmuşam. Fəhlənin də istədiyi edilməlidir. Doqovor qorxulu deyildir. Bu təklifi edən fəhlələrin də əqli var. Deyirlər ki, doqovorda qorxulu bir punkt var. Necə olsa bəşərdir. Qurdalarsan içindən bir şey çıxar. Ondan sonra 3-cü zabastovkadan bununla ötüşməli rahət... Ayrı cürə razi ola bilmərik. Onu burdan söylədilər ey... Nə bilim, Hacıtərxana yol açılır. Əgər Hacıtərxana neft göndərilsə bolşeviklər buraya gələr. Bilmirəm bizim hökumət niyə bunu belə anlayıbdır. Bu birmənа bir şeydir. Yaxşıdır ki, sonradan dalısını düzəltdi. Dedi ki, nə şərtlə biz onlara neft verərik. Əlbəttə, şərait yaxşıdır. O da mənim yəqinimdir. Şərtlər var. Bu ki, belədir, nədən ötəri buradan [523 - 524] durub danışmamaq, nədən ötəri qaldırıb müzakirəyə qoymamaq. Mən sözümü qurtaracağam. Mənim buraya çıxıb dediyim budur ki, nə zabastovka olubsa çalışıb... "sükut" bez polezni likvidirovat etmək lazımdır. (Soldan alqış).

**Rəis** - Söz Abdulla bəy Əfəndiyevindir.

**Abdulla bəy** - "Əhrar" fraksiyasının firqə proqramı 2-ci, Rus Azərbaycanının istiqlaliyyəti deyə qeyd etmişdir. Bu başqalara bənzətmə deyil, bu forma üçün deyil, bu bir sədadır ki, o həm firqə tərəfdarlarının, həm də millətin sədasıdır. Dəfəat ilə firqəmiz və fraksiyamız deyib ki, bu istiqlal uğrunda hökumət nə günə davranacaqsa. firqəmizi arxasında görəcəkdir. Bizim üçün bu söz tale deyil, köhnə sözdür. Bu qərara biz buraya gəldikdə ən birinci bayrağımıza yazdıq. Məqsədimiz vətəni mühafizə və müdafiədir. Biz baxıb görürük ki, gün-gündən millət dursun, istiqlaliyyət dursun, vətənin üzərinə, istiqlalinə hər tərəfdən təcavüz olunur.

Əsl mətləb burasındadır ki, biz sağdan gələn hücumları o qədər görməyirik. Onların zabastovkaları yoxdur. Onlar saman altından su yeridirlər. Budur ki, onlar çox qüvvətlidir. Amma sol tərəfdən qorxu, aşkar bir şeydir ki, gurultu ilə olur və nəzərə də çarpır. Biz firqəmiz tərəfindən hökumətə bu təklifi edirik ki, təcavüz hər tərəfdən gəlir gəlsin, onun qarşısı alınmalıdır.

Vaxt çox incə və nazikdir. Hökumət hər şeyə vaxt edib doğrudan vətən düşmənlərini axtarıb, tapıb, lazımi cəza versin. Biz böylə fikir edirik ki, millət tacirindən, varlısından ibarət deyil. O füqərayi-kasibədən ibarətdir ki, o milyonları təşkil edir. Onun içərisindən həm əmələ çıxır, həm əsgər çıxır, mən zənn etməyirəm bizim millətin füqərayi-kasibəsi içərisində öylə bir vücud olsun ki, istiqlaliyyətinə zidd getsin, böyüklərimiz savadlılarımız aldanılan kimi, fəhlələrimiz də aldana bilər. Bu qədər yağlı və şirin danışandan sonra onu hansı tərəfə istəsən çəkmək olar.

Bizim özümüzdə çox təqsir var. Biz füqərayi-kasibəyə qarışmayırıq, onlarla durub oturmayırıq. Gərək bütün ziyalılarımız, müəllimlərimiz onların arasına girib işləsin, onları qandırsın, onlara vətənin və millətin nə olduğunu anlatsın, bu kimi şeylərin qarşısı onda öz özlüyündə alınar. Bizim [524 - 525] təklifimiz budur ki, bugünkü məsələyə qarşı adilanə bir surətdə hökumət davransın, inad edənlər, düşmən sözünə aldananlar haqqında hökumət heç bir şeydən geri durmasın. (Sağ tərəfdən alqış).

Bəli, lazıması budur ki, hər sinif, hər firqə özünü borclu bilsin ki, bugündən əgər bir işləyibsə indi on işləsin, ta fəhlə bilsin, yekdil, yekcəhət olaraq parçalanmasınlar və yekdigərinə ədavət etməsinlər. Biz gərək müxtəlif firqələrə bölünməyə kömək etməyək. Belə-belə şeylər olmasa biz bir qüvvə təşkil edəməyiz. Çox gözəl söz buyurdu rəisi-vükəla ki, biz vətənin istiqlalı yolunda canımızı, malımızı fəda edə bilərik. O, əmin olsun ki, bütün millət o fikirdədir.

**Rəis** - Söz Qarabəylinindir.

**Qara bəy** - Həzərat! Əgər bu tətil iqtisadi olsa idi, bu gün gördüyümüz həyəcan nə rəisi-vükəladan və nə də başqa natiqlərdən eşidilməzdi. Tətil iqtisadi olurdusa, parlaman fraksiyaları əleyhinə danışmazdı və danışmağa həqləri də olmazdı. hamımız əmələnin məişətini və mövcudiyyətinin təmin olması tərəfdarıyıq. Bu yolda heç bir firqə müavinətdən və mücahidədən çəkinməyəcəyi proqramlarına görə məlumuzdur. Xalqı həyəcanə gətirən natiqləri və hökuməti hiddətləndirən bir məsələ varsa, o da tətilin iqtisadi deyil, siyasi olmasıdır. Bu tətil bir gündə nagahanı surətdə deyil, türklər çıxandan hazırlanıb kabus ilə qarşımıza çıxmışdır. Bu barədə həyəcana düşməyə haqqımız vardır. Bu müşahidə edən gözü açıqların və bu işi dərəcə-dərəcə təqib edib də hansı mənbələrdən çıxıb bu hala düşməsini bilənlərin həyacanə gəlməyə haqları yoxdur. İngilislər şəhərimizə daxil olanda, onlar ilə bərabər başqa qüvvələrin də gəlməsini bilirsiniz. Bu qüvvələrə o qədər meydan verilmiş və o dərəcəyə gəlmişlər ki, hökumət və parlaman bir yana qalıb, onlar iş görməyə başlamışlar və başqa iddəayə gəlmişlər. Gündə qəzetələrdə fəhlə konfransları, "Stateçnı" tətil komitəsi barəsində oxuyursunuz. Bu növ ilə nagahani surətdə görünən tətil müntəzəm surətdə hazırlanmış və siyasi mahiyyəti düşünülmüş bir tətildir ki, belə müşkülat çıxarmışdır. Sizə söyləndiyi kimi məqsədini də dərk etmişik. Bu tətil yalnız Azərbaycan istiqlaliyyəti əleyhinə və müsəlman millətinin bu sərvətli məmləkətini [525 - 526] əlindən çıxarmaq üçün bir hərəkatdır. Buna bizim vicdani qənaətimiz vardır. Buna inanırıq. Səhv və xəta da yoxdur. Təbii, burada bir çox sözlər söylədilər. Dedilər: işin bu dərəcəyə varmasına hökumət özü səbəb olmuşdur. Lakin bu hökumət iş başına taza gəlmişdir. Onun barəsində bir söz söyləmək hənuz tezdir. Bu vaxta kimi olunan səhv hamısı sabiq hökumətə istinad edirlər. Ona görə təzə hökuməti tənqidə macal yoxdur. Bu halı kəşf etmək, çarələr və tədbirlər ittixaz etmək lazımdır.

Bizim firqə hökumətə etimad etməyib, müxalif olduğu məlumdur. Bu doğru, fəqət, bizim firqə hökumətə qarşı müxalif olur, amma Azərbaycana, millətə və vətənə müxalif olamaz. (Sağdan və mərkəzdən alqış). Hökumət başında hər kəs, hər məsləkdə olursa, madam ki, vətəni və istiqlaliyyəti müdafiə etmək yolunda çalışacaqdır ki, başımıza bir də mart hadisələri gəlməsin və islamın namusu ayaqlar altında tapdalanmasın. Böylə hökumətə biz yardım etməklə bərabər ona mərbut olub tərəfini saxlayacağız. (Sağdan, mərkəzdən alqış).

Yalnız bir məsələ var. İndi artıq maskalar altında söylənən sözlərin və görülən hərəkətlərin vaxtı keçmişdir. İndi maska vaxtı deyildir. Maskaları atmaq zamanı gəlmişdir. (Sağdan və mərkəzdən alqış).

Burada bu işləri hazırlayan bizim millət ilə əlaqəsi olmayan başqa bir millətdir ki, sağ və sol tərəfdən düzak hazırlamışdır. Bunlar ikisi də bir işləyir. Biz bilirik ki, sağdan gələn Denikin qüvvəsi soldan gələn "Sovdep ilə birləşib hərəkət edirlər və Zaqafqaziya üçün bir fikirdədirlər. Heç kəs aldanmasın və bu barədə şübhə etməsin. Şübhə etmək özümüzü aldatmaq deməkdir. Demokratizm belə gəldi-belə getdi, bunlar hamısı yalandır. Bizim üçün demokratizm yoxdur.

Bunların fikri hüququmuza təcavüz etmək və namusumuzu ayaqlar altına almaqdır. Neçə ki, mart hadisələrində altı ayın müddətində görüldü və sonra kimin vasitəsilə qurtardıq.

Fəhlələr böylə oldu-şöylə oldu məsələsi yalandır. Bu sözləri kənardan gələnlər çıxarmışlar. Meydanda bir şey var ki, o da kim olur-olsun, millət özü öz müqəddəratını təyin etməlidir. Millət bolşevik də olsa haqqı var, özü olsun nəinki kənardan gəlmiş qüvvələr. Daha Anaşkinlərin və Çurayevlərin [526 - 527] gəlib millətimizin irzi və namusunu tapdamalarını və qadınlarımızın tümanını aparıb Rusiyada spirtə-çaxıra verib içmələrini qəbul edə

bilmərik. (Sağdan, mərkəzdən alqış). Bizim millətin gözü açılmışdır. Artıq bizə qəyyum lazım deyildir. Biz özümüzə qəyyumluq edə bilərik. (Alqış). İndiyə qədər açıq söyləmədən dolayı bir çox müşkülat törəmişdir. Biz axırda bir nöqtəyə gəldik ki, bu millətin parlamanı və hökuməti var, onu qəbul edirmi? Və ya xaric bir qüvvəyi qəbul edər ya böylə, ya öylə. O vaxt hökumət də öz hərəkətini tətbiq etsin. hər gah Hacıtərxan yolu açılsa və bizə təcavüz və iddəalar olmazsa, o vaxt razı olarıq. Neftimiz burada qalsın və mədənləri yatsın. Əlbəttə istərik ki, bizim üçün geniş bazarlar açılsın və iki yüz milyon put neftimiz burada saxlanmasın. Lakin bunu demək ilə olmaz. Biz görürük ki, bu doğru deyildir. Hacıtərxanı açmaq ingilislərin əlində deyildir. Orada Sovdep var. hökumət var, ondan da bir soruşmusunuzmu? O razı olurmu ki, o orada, biz burada oturub alış-veriş edək?.. Burada oturan Sovdep nümayəndələri özlərinə yuva yapmışlar. İstəyirlər buradan bolşeviklərə kömək eyləsinlər və Bakını bizim əlimizdən çıxarsınlar. Əcəba, 5 nəfər xaricdən gələn və bizim də bir iki nəfər maskalarımızı özlərinə qoşanlaramı Azərbaycanı verərik. Xayır! Biz Azərbaycanı onlara verməri k. (Mərkəzdən və sağdan alqış). Necə ki, bütün Rusiyanın Bakı neftinə ehtiyacı var. Bütün Azərbaycanın həyatı da Bakıdan asılıdır. Tətil etmək ilə Azərbaycanın qapısı bağlanacaq və Azərbaycan xalqı acından öləcəkdir. Bu tətili elan edərkən 3-4 milyondan ibarət Azərbaycanın türk xalqının rəyini sordunuzmu? Bizim qüvvəmiz xaricdədir. Burada yüz min özgəsi ağalıq edənməz. Əgər ondan sormayacaqsan və onu unudub hesabə qoymayacaqsan və gəlib burada boğazından tutub boğacaqsan, o bunu qəbul edənməz, buna razı olanmaz. Hökumət gərək bu barədə işləsin və borcudur ki, Bakını müdafiə etsin. Biz bu yolda hökumətin dalında durub, axır nəfəsimizə qədər onunla getməyə hazırıq. (Alqış).

**Rəis** - Çlen parlamenta Malxazyan.

**Malxazyan** - Rusca.

**Rəis** - Mustafa Ağa Vəkilov.

**Mustafa ağa Vəkilov** - Səmədağa Ağamalı oğlu öz nitqində söylədi ki, fəhlələr tətil edir, biz onlardan küsə bilmərik. [527 - 528] Onların həqləri var ki, məvaciblərinin artmasını tələb etsinlər. Əgər tələbləri qəbul olunmasa tətil də edə bilərlər. Bu əqidə yalnız Səməd ağanın əqidəsi deyil, bu sosyalistlərin fikridir. O biri sosialist nümayəndəsi Əhməd bəy Pepinovu nə qədər diqtətlə dinlədiksə də aşkar cavab versin, yenə cavab vermədi. Burada söylədilər ki, müştərək müqavilənamənin iqtisadi maddələri var ki, gərək onlar qəbul edilsin. Sonra söylədilər ki, gərək Həştərxan yolu açılsın. Bu da Azərbaycan dövlətinin mənafeinədir. Çünki nefti tökməyə daha yer yoxdur. Onlar gərək Həştərxana getsin. Burada aşkar söyləni ldi. Kollektivin iqtisadiyyata aid tələbləri hökumət tərəfindən qəbul ediləcəkdir. Fəqət, o maddələr ki, istiqlalımızın əleyhinədir, onlar qətiyyən qəbul edilənməz. Məsələn, fəhlələri qəbul etmək və çıxarmaq haqqı. Bu elə bir tələbdir ki, bunu düşmən olan bir qüvvə əlinə vermək olmaz. Əhməd söylədi. Əlbəttə, bu maddənin üstündə söz söyləmək olar. Onu söyləmədilər ki, bu maddənin haqqında bəhs etmək istəyirəm.

Bunlarla bərabər, bizimlə söhbətə girişmək belə istəmirlər. Bu maddənin üstündə danışmaq bir növ məsələni gizli qoymaqdır. Bizim məlumatımız var, belə ki, o doqovorda elə tələblər var ki, onlar çoxdan qəbul olunubdur. Bu tətil başlanmadan bir saat əvvəl, necə ay bundan əvvəl qəbul olunan tələblər verilmişdir. Həştərxan yolu açılsın, fəqət, şərti-şurut ilə, bizə söylədilər ki, biz də istiqlal tərəfdarıyıq. Bizə söyləmədilər ki, onlar bu tətili siyasi hesab edirlərmi? Bu tətil ilə maska altında nələr yürüdüldüyünü düşünürlərmi? Fəhlə təklif etdikdə ki, Həştərxan yolu açılsın, şərti-şurut təklif etmir. Bunu buradaki yoldaşımız söylədi. Bunu konfransda eşitdik. Bizdən tələb edənlər şərt filan qoymayırlar. Onlar tələb edirlər ki, gərək açılsın.

Bizim haqqımız var ki, sosialistlərdən tələb edək ki, sözlərini aşkar desinlər. Onlar sözü deyirlər, lakin aşkar demirlər. Burada tətilin iqtisadi olduğunu söyləyirlər. Əlavə edirlər ki, iqtisadi tətilin əleyhinə deyillər. Əlbəttə, kimsə iqtisadi tətilin əleyhinə deyil. Lakin siyasi tələbə iqtisadi rəngi verirlər. Burada fəhlələri aldadan kimi, siz sosialistlər bizi də aldadırsınız. Şübhəsiz, tətil siyasidir. Bu tətilin əsl məqsədi Azərbaycanı yıxmaqdır. Bu surətdə mən [528 - 529] anlamıram bu nə deməkdir? Ya siz bizi aldatmaq istəyirsiniz və ya onlarla bir yolda getmək istəyirsiniz.

Burada bəhs olundu ki, sağdan da, soldan da qorxu var. Mən elə bilirəm ki, sağ tərəfdən gələn qorxu bir o qədər böyük deyildir. Zira, sağ tərəfdən gələcək qorxunu bizdə hər kəs təqdir edər. Yekdil, yekcəhət onun əleyhinə çıxarlar. Amma məəttəssüf, sol tərəfdən gələn qorxuya burada tərəfdarlar görülmədi. Bugünkü tətil istiqlalımıza bir təcavüzdür. Bu bir o qədər də qorxulu deyildir. Zira, biz əminiz ki, bu dəf ediləcəkdir. Bizim qorxumuz bir şeydir, o düşmənlərin bizi təkrar əsarətə qaytarmaq üçün qurduğu duvağı məhv etməkdə bir qədər zəiflik göstərməkdir. Gərək Türk demokratiyası bu gün desin, onlar hökumətin arxasında dayanmışlar. Amma sol tərəfdən qəti surətdə eşitmədik, axırda şübhəli qaldıq. O adamlar ki, bizə təcavüz edirlər, onlar desinlər ki, hökumət onlarla ciddi surətdə mübarizə etsə hökumətin arxasında duracaqlarmı, ya yox?

Qorxu düşmanımızda dəyil, ondadır ki, biz zəifik.

**Rəis** - Söz Ağa Aşurovundur.

**Ağa Aşurov** - Mən də o suala imza edənlərdən birisiyəm. O sözlər ki, danışıldı, məndən ötrü kafidir. Çünki Məmməd Əmin, Qara bəy Qarabəyli cənabları və qeyriləri mən deyən fikri dedilər. Ancaq mən bir şeyi ərz etmək istəyirəm. Burada buyurdular ki, zabastovka eləyirəm, eləyirəm nə olar? Sabah deyəcəklər suyun yolunu

bağlayıram. Susuzluqdan öl, mənə nə? O biri gün deyəcəklər işığı söndürürəm, yıxıl qılçan sınsın, mənə nə? Yəni, hər nə olur-olsun, mənə nə? Görək bu düz fikirdirmi? Öz millətini, öz istiqlalını sevən böylə hərəkət eylərmi? Bilirdinizmi ki, hərəkət edəndə hərəkətimdən millətə zərər yetişəcək, ya yox? Onlar 20 min məxluqun interesini gözləyirlərmi? Xayir! Gözləmirlər. Bu deyil, onların dediklərilə Azərbaycanı da tullayaq, nə olar?

Bu hərəkətləri edənlər bizim düşmənlərimizdir. Onlar bizimlə dost olmayanlar ilə işləyirlər və ayağımızdan çəkirlər. Keçən və indiki hökuməti bağışlayınız, bir az təqsirli görürəm, çünki qoyublar qurt gəlsin böyüsün, təcavüz etsin və üstümüzdə ağa olsun. Onu belə qoymamalı idilər ki, gəlsin belə böyüsün və pis şeylər ortalığa gəlsin. Bir də hökumətdən bir şey tələb edirəm: Onlar, o çirkli əlli adamlar, bizim qoşuna [529 - 530] əl aparırlar. Onlara deməlidir ki, əlinizi rədd edin. O qoşundan əl çəkin. Çünki onun əlində - bizim müqəddəs bayrağımız var. (Sağ və mərkəzdən alqış). Məəttəssüf, aramızda qoşuna əl atmağı təklif edənlər də var. hökumət binagüzarlıq etməlidir ki, oraya bir kəsin ayağı dəyməsin. Mən öz tərəfimdən və mən tərəfli tərəfimdən deyirəm ki, hökumətin nə tədbiri olsa, qəbul edib təşəkkür edərik. (Alqış, mərkəzdən və sağdan).

**Rəis** - Söz Əhməd Cövdət Pepinovundur.

**Əhməd Cövdət** - Əfəndilər! Bugünkü danışıqlardan, xüsusən Mustafa Vəkilovun danışıqlarından belə görünür ki, guya bir təqsirkar vardır. Ondan sonra Ağa Aşurov söylədi. Bilmirəm onları nə vadar edir, əllərində nə arqument var. Yoldaşımız Səməd ağanın saf ürək ilə fəhlələr istədiyi vaxt işindən əl çəkə bilər, sözlərini əllərində dəstaviz edərək etiraz edib bizi təqsirləndirirlər. Əgər bizim hökumətimiz öz deklarasiyasında söyləmişdir ki, fəhlələrin qurğusudur, o vaxt onların öz işidir. Əmələ tətil edirsə, haqqı var. Ancaq Aşurov suyun və işığın bağlanmasından şikayət edib susuz və işıqsız qalaram dedi. İndi Aşurovdan bir soruşan gərək ki, evində rahat oturub şəkərini, çayını hazır gördükdə acların fikrini çəkir, qeydinə qalırsanmı? (qarışıq səslər). Əgər fəhlələr üç gün içərisində, işdən əl çəkib ağaya və bəzi adamlara narahatlıq yetirirsə, biz il uzunu onlar əziyyət çəkirkən onların qeydinə qalmırıq və demirik, əcəba, onlar acmı, susuzmudurlar? Əcəba, çörəkləri varmı, yoxmu? Mustafa Vəkilov söylədi ki, hər fraksiyanın söylədiyi sözünü və fikrini eşitdik. Amma sosialistlər tərəfindən və müəyyən bir cavab eşitmədik. Məəttəssüf, sizdən əvvəl danışanlar zənn etmirəm eşitməmiş olsunlar və bizim cavabımız müəyyən və aşkar olmasın. Deyirsiniz bu zabastovka siyasimidir, ya iqtisadi? Əvət, bu zabastovka həm siyasi, həm iqtisadidir və fəhlələrin siyasi zabastovka etməyə hər vaxt ixtiyarları vardır. Və fikrinizə şərik olmuram ki, fəhlənin siyasi tətil etməyə haqqı olmasın. Siyasi tətil etməsə idilər siz burada otura bilməzdiniz. (Soldan alqış). Məsələyə belə baxmamalıdır, məsələni belə qoymamalı, bir zabastovkanın bizə nə qədər xeyri, nə qədər zərəri var. Bugünkü zabastovkanın həlli üçün Mustafa ağa müəyyən [530 - 531] bir cavab istəyir. Bizim cavabımız belədir. Hökumət iqtisadi tələbatı qəbul etməlidir, yoxsa bu, zabastovkanın siyasi tərəfdən güclənməsinə səbəb olar. Promışlenniklər ilə fəhlələrə aid maddələri hökumət gərək qəbul etsin. Hökumətin özünə aid siyasi maddələri bir tərəfə buraxmalıdır. Əgər bu növlə bir maddəni ki, siyasiədd edirsiniz, çıxarmaqla bizim ilə razı olacaqsınız. Bizim sözümüz yoxdur. Əgər bu maddələr qəbul olunursa, məsələ həll olunar və bununla da fəhlələrin tələbləri təmin olur. Həştərxan ticarət yolunun açılmasını hökumət öz deklarasiyasında söyləmişdir. Əgər Həştərxan yolunun ingilislər əlində olduğundan açılması qeyri-mümkündürsə və hökumət də bunun açılması üçün çalışmağına söz verirsə, o zaman zabastovkanın bu gündən dayanmasına biz də səy edərik. (Səslər mərkəzdən: "Siz zəhmət çəkməyin, dayanıb dayanıb!") Əgər siz həqiqətən fəhlələrin halını yaxşılaşdırmaq istəyirsinizsə, əgər siz doğrudan da fəhlə tərəfdarı bir firqəsinizsə, əgər adınızı fəhlə firqəsi qoyub fəhlələri aldatmaq istəmirsinizsə, o zaman fəhlələrin həqqi və adilanə tələblərini qəbul etməlisiniz ki, bütün tətil dayansın. Mustafa ağa dedi ki, siz istiqlaliyyəti lazımi surətdə müdafiə etmirsiniz və istiqlaliyyətə xələl gətirən düşmənlərimiz ilə bərabər gedirsiniz. Kim danışsa da, siz musavatçılar gərək danışmayasınız. Mustafa ağanın yadına salım ki, 3-4 ay bundan əvvəl demokratiçeski soveşşaniyada qətnamə çıxaranda "Müsavat" firqəsi ümumi Rusiyalığı qəbuledici bir formul çıxardı. Bununla da ikitərəfli siyasət apardıqınızı və istiqlaliyyətə tərəfdar olduğunuzu isbat etdiniz.

İndi müttəhim etmək istədiyiniz bizim yoldaşlar o vaxt, o tələbi rədd etdilər. Bizim tələbimiz isə Zaqafqaziyada əmələ gəlmiş cümhuriyyətləri tanımaq ilə bərabər, öz istiqlalımızı da qəbul etdirmək idi. (Soldan alqış, səslər: İndidən danış! İndidən! Zabastovka barəsində!)

**Şəfi bəy** (yerindən) - O vaxt zabastovka verdik, keçsə idi də istiqlalımıza bir şey olmazdı.

**Əhməd Cövdət** (davam edir) - Deməli sizin keçmiş ilə işiniz yoxdur və keçmiş bir təqsir bilmirsiniz. Amma biz bilirik. Və biz sosialistlər qeyri sosialistlər ilə bərabər keçmişdə və indi də bütün xırda cümhuriyyətlərin istiqlaliyyəti [531 - 532] tərəfdarı olduğumuzla bərabər Azərbaycan istiqlaliyyətinin də indiyəcən tərəfdarı olmuşuq və bundan sonra da olacağıq. Biz sosialistlər onlar kimi əvvəl bir rezolyusiya verib, indi isə bir başqasını verib qeyrisini müttəhim etmirik. Biz keçmişdə də, indi də Azərbaycan istiqlaliyyəti tərəfdarı olmuşuq, varıx da.

**Rəis** - Söz Səmədağanındır.

**Səmədağa Ağamalı oğlu** - Bir neçə söz mən deyəcəyəm. Həqiqətdə də yaşasın bizim fəhlələr və əkinçilər. Onlardan hər kəs nəf götürür. Hətta musavat da... Onun üçün deyirəm, doğrudan da deyirəm burada bizdən soruşurlar ki, sosialistlər istiqlaliyyət barəsində nə deyirlər. Biz yazmışıq da, demişik də. İndi deməyi özümüzə

eyib bilmirik. hesab istiqlaliyyəti tutub saxlamaqdadır. O yol ki, bunlar tutub gedirlər, o bizi istiqlaliyyətə çatdırmaz, zənn edirik ki, bir əl ilə iki qarpız tutmaq istəyirlər.

Qardaş-qardaşla tən gərək. Ola bilməz ki, məndən sənə artıq getsin. Necə ki, Aşurov danışdı. O qorxur ki, bəlkə sabah su da tətil etdi. Onda qarnına bir şey getməsin. Fatıya tuman olmasın. Sözümü tamam edirəm. İnanız, təzədən deyirəm. Ay sosialist yoldaşlar, cühüd, firəng, ingilis deyilsiniz. Siz haman kontrrevolyusionersiniz. Mən təklif edirəm, bu zabastovka rahətlik ilə qurtarsın.

**Rəis** - Təklif var ki, natiqlərin sırası kəsilsin. İki nəfərə söz verəcəyəm, biri lehinə, digəri əleyhinə. Kim əleyhinə danışmaq istəyir?

(Qara bəy yerindən: Səsə qoyunuz)

**Rəis** - Yoxsa səsə qoyaram. Kim natiqlərin siyahisinin kəsilməsi tərəfdarı isə, əlini qaldırsın. Əksəriyyət rəylə natiqlər siyahisi kəsilir. (Yerdən: Neçə adam qalıb?).

**Rəis** - Qalıb iki nəfər. Söz Abbasqulu Kazımzadənindir.

**Abbas Qulu** - Möhtərəm əzalar!'Azaze dohəl əz dur şənidən xoş əst. Natiqlər bizə çox gözəl şirin nəsihətavər sözlər dedilər. Bizim istiqlalımızın müdafiəsinə çalışdılar. Biz buna bəyani-təşəkkür edərik. Fars deyər: Bə yek kare, şoma do kar. Bir iş ilə iki iş görmək istəyirlər. Bir tərəfdən deyirlər ki, Hacıtərxana yol açılsın. Biz oraya neft göndərək, oradan bizə çit, ayaqqabı gəlsin. [532 - 533]

Onlar deyirlər ki, neft burada yığılıb qalır. Bunun fəhlələrə zərəri var. Bu məni düşündürür ki, yenə bizim sosialistlərimizi bu fikrə salır. Bəxtaki hökumət para verir, yenə verəcək, stanoqda öz qaydasilə işləyib pul kəsir, niyə fikir edirsiniz. Və yenə fəhlə üçün qorxursunuz? Fəhlə bir kəsin monopoliyası dəyil, fəhlə özü öz mənafeyini anlayır, o düşünür ki, hansı onun faydasıdır. Buyursunlar, fəhlə arasına gedib görsünlər. Fəqət, bu şeylər köhnə şeylərdir. Bu gün parlamanda açıq söyləməli, təvəqqe edirəm qulaq asasınız. Biz həqiqətən istiqlalın tərəfdarıyıq. Nazik-nazik, incə-incə, sağdan və soldan heç kəsi aldatmaq olmaz. Xüsusən, Ağamalı oğlu demişkən əkinçi və fəhlə bunun zəhməti üstünə gətirir. Keçən martda fəhlələrin çəkdiyi zəhmət və müsibətləri unutmayacaqlar. Bu gün bizim yoldaşımız Pepinov deyir ki, biz doqovorun bəzi maddələrini qəbul edərik. Fəqət, lazımdır ki, bu sözü Çurayev və Ruxlinlər deyə idi. İndi çox gecdir. Bu gün bizim zəhmətkeşlərimiz anlamışdır ki, burada onlara bir əldə şirin alma və bir əldə zəhər təklif edirlər. Acı zəhəri şirin alma ilə vermək istəyirlər. Fəqət, yoldaşlarımız, sosialistlərin sözünü təhlil etdikdə anlaşılır ki, bizi bolşeviklərə basdırmaq istəyirlər. Bizim əlimizdə olan üç rəngli bayrağı da endirməyəcəklər. Bu gündən yaxşı gün yoxdur. Buyursunlar, itmam versinlər və desinlər ki, zərəri var. Bunu da söylədilər ki, keçən dəfə musavatçılar istiqlaliyyətin əleyhinə qətnamə çıxarmışlardır. Əcəba, bu qətnamə ilə siz bugün üzərimizdə də demaqoqluq şüarı taxıb ad qazanmaq istəyirsiniz. Bizə deyirlər ki, fəhlələrin hüququna təcavüz edirsiniz. Əcəba, biz onların nə kimi hüquqlarına təcavüz etmişik. Evdə oturub xaricilərin dalısına düşməklə onların göstərdiyi yol ilə getmək, türk demokratiyasının mənafei gözlənmir, biz açıq və aydın deyirik. Xalq demokratiyası kimsənin monopolyasında dəyil, bunu fəhlələrdə qanmışlardır. Keçən martda, qrajdan müharibəsi zamanında fəhlə və füqərayi-kasibəni neft quyularına doldururdular. Əgər bunlara sübut istəsəniz buyurun fəhlələrin arasına gediniz. Onların o xüsusdakı şikayətlərini eşidiniz. Madam ki, sizin fikr etdiyiniz bir yol ki, siz tutursunuz oturun, demokratiyasının fikri və əqidəsi dəyildir, eyni zamanda istər ağ, istər qara, istər qırmızı bir [533 - 534] qüvvənin Azərbaycanda yeri yoxdur, bunun əleyhinə çıxan bilafərq sinif, bütün Azərbaycan demokratiyasıdır. Öz imanınız ilə deyiniz, bugün yoldaşlarınız hansı tətil komitələrində əyləşib, tətilin müvəffəqiyyətlə getməsi üçün nə kimi hökmlər verirlər. Əlbəttə ki, biz öz Azərbaycanımızda hər bir hökumət düzəltməyə qadirik. İstər Sovet hökuməti olsun, istər başqası olsun.

**Rəis** - Söz Məmməd Əmin Rəsulzadənindir.

**Məmməd Əmin** - Burada bütün firqə nümayəndələri, o cümlədən sol tərəfdə oturan sosialist nümayəndələri dəxi ümumi istiqlaliyyət məsələsində bir adam kimi yek vücud olaraq sağdan və soldan gələcək düşmənlər əleyhinə çıxıb istiqlaliyyəti müdafiə edəcəyik və bizi əsarətə almaq istəyənlər əleyhində olacağıq dedilər. Fəqət, arada bir fərq var. Başqa fraksiyon nümayəndələri bilaşərt və qeyd açıq surətdə meydanda olan məsələdən, bolşevik təhlükəsindən bəhs etdikləri halda Əhməd bəy cənabları bir müdafe (zaşitnik) vəziyyəti aldılar. Öylə təsir hasil oldu ki, güya kəndi vəziyyətlərini müdafiə edirlər. Əhməd bəy bir növ inciməyərək söyləyir ki, bizi təqirli görürsünüz. Güya biz təqsirliyik, bir qüsur etmişik? ...Həqiqətən də Əhməd bəy cənablarının haqqı var ki, buraya bir müdafi vəziyyətində çıxsın və müdafiə nitqi söyləsin. Müdafiə nitqində söylədilər ki, Çurayev təhti-idarəsində olub da özünə fəhlə konfransı adı verən müəssisənin təklif maddələrinin bir çox dərin iqtisadi səbəbləri var ki, onlara əhəmiyyət verməməlidir və kömək etməlidir. Nəticə etibarilə hər nə qədər Əhməd bəy öz nitqini mübarizə şüarları ilə bitirsə də, o vaxt istəsə idiniz dediyim kimi başdan ayağa yalnız kəndi vəziyyətlərini dəyil, eyni zamanda konfrans tələbləri ilə tətili də müdafiə etməli idiniz. Əvət, başqa dürlü olamaz və hərəkət edə bilməzlərdi. Biz sosialistlərimizin bu kürsüdən istiqlalımızı saxlamaqda rəayət edəcəyik demələrinə inanırıq. Buna şübhə etmək istəməyirik. Lakin bununla bərabər başqa firqələr kimi deyil, müdafe bir vəziyyət aldıqlarını da anlarıq. Əhməd bəy və onunla bərabər Ağamalı oğlu kollektivin "qoxulu" maddəsini qəbul etməyiniz, dedilər fəqət, fəhlə konfransında kollektivni doqovorun maddələri müzakirə olunurkən

əleyhinə çıxıbda bu maddə olmasın deməli [534 - 535] idilər. Orada adamları vardır. Heyəti rəyasətdə nümayəndələri oturur. Fəqət orada bu barədə bir şey deməyib, başqa şeylər söyləmişlərdir. Orada hümmət firqəsi mərkəzi komitəsinin üzvü Əzimzadə demiş ki: Yox! yoldaşlar, qorxmayın! Azərbaycan əsgəri də bizimlədir. Bizə tərəfdardır. Əlbəttə, Əhməd bəy burada müdafiə vəziyyəti alacaqdı. Çünki bir tərəfdən ondan ötrü burada yalnız iqtisadi maddələr qəbul olsun, başqa maddələrin tərəfdarı olmayacağıq deyirsə də, digər tərəfdən onun yoldaşı Qarayev indiki halda staçkomda oturub zabastovkanın müntəzəm surətdə davamina çalışır. (Mərkəzdən və sağdan sürəkli alqışlar). Əfəndilər! Burada Mustafa ağa söylədi ki, istiqlalımıza iki tərəfdən - sağdan və soldan təhdidlər vardır. Mustafa ağa sağdan gələn təhdid qorxulu deyildir dedi, soldan gələn isə daha çox qorxuludur. Doğrudur. Çünki soldan gələn təhdid bir tərəfdən özünə sol adı qoymuş müsəlmanlar tapır ki, staçkomu idarə edirlər, digər tərəfdən də aramızda oturub nitq söyləyir. Əvət, sağdan da, soldan da təhdidlər var. Sağdan gələn təhdid ona görə qorxulu deyildir ki, heç bir azərbaycanlı türk-müsəlman, açıq-açığına ona tərəfdar olanmaz. Azərbaycan istiqlaliyyəti əleyhinə gedən qüvvəyə tərəfdar çıxmaya, bir müsəlman cəsarət edənməz. halbuki, soldan gələn təhdid böylə deyildir. Soldan gələn təhdid onun üçün qorxuludur ki, bugün Məclisi-Məbusan əzası arasında belə onunla bərabər çıxmağa tənəzzül edənlər bulunur və bunu kəndi heysiyyəti-siyasilərinə bir ləkə ədd etmirlər. Sol təhlükənin oturduğumuz binanın altına bomba qoyduğu bir zamanda, sağ təhlükə haqqında qoparılan gurultularını şübhəyə almaq mümkündür. Əcəba, bununla onlar daha böyük və daha müdhiş bir təhlükəni örtmək istəmirlərmi?!... (Alqış). Əfəndilər! Bugünkü iclasda bizə deyirlər ki, biz iqtisadi maddələri müdafiə edirik. Fəqət, dünkü iclasda maliyyə məsələlərini müzakirə edirkən Hacıtərxan yolunun açılmasına ingilislərdən bir ay əvvəl tələb edənlər kim idi? Və fəhlə konfransında Hacıtərxan yolunun açılması müzakirə olunurkən bu tətilə sırf siyasi bir rəng vermək istəyən parlamanın sosialist əzasından Əbilov cənabları idi. Və bu tələbi də dünən bu kürsüdən tələb edənlər yenə onlar idi. Deməli bir tərəfdən siyasi, digər nöqteyi-nəzərdən maddi-iqtisadi tələbləri müdafiə edirlər ki, bununla [535 - 536] konfrans tələblərini tamamilə duymuş olurlar. Fəqət, bunun əleyhinə söyləməyə cəsarət edəmirlər. Əgər bu qədər cəsarətli olaydılar konfrans tərəfindən qoyulan maddələrin ikisin də müdafiə edərik desə idilər o vaxt fəhlə konfransı ilə aralarında şəklən də təfavüt qalmazdı. Çünki fəhlə konfransının tələb etdiyi iki məsələdir ki, bizim sosialistlər birin dünən, digərini də bu gün müdafiə edirlər. İşdə biz lazım bildik ki, istiqlaliyyət müdafiəsi yolunda parla-man yoldaşlarımız sosialistlərin qəti olaraq, fikirlərini aşkar bilək. Çünki, bu yalnız zabastovka məsələsi deyildir və bugünün tazə məsələsi də deyildir. Çünki çoxdan onların hərəkətində bir təbdil və tərəddüd görünürdü. Bir çox əlamətlər zahir olmuşdu. hətta "Hümmət"in son konfransında sovet hökumətini qəbul yolunda bir təbəddül və tərəddüd oldu. Məclisi-Müəssisan dəvətinə qədər vaqe parlamandan başqa Azərbaycan istiqlaliyyətini müdafiə edəcək bir müəssisə olmadığı, Azərbaycanın haiz olduğu suvereniteti müdafiə etmək yalnız ona vagüzar olduğu halda bu parlaman dəxi son vaxtlarda tənəzzül və tənqidə uğradı. Kəndi vəziyyətlərini müdafiə etmək üçün mitinq natiqlərinə yaraşır bir lisanla - demokratiçeski soveşaniyada istiqlaliyyəti müdafiə edirik, müsavat isə fedarasyon tərəfdarı idi dedilər. Fəqət, mənə, müsavat firqəsinin nümayəndəsinə zənn edirəm ki, bu kürsüdən Müsavat Azərbaycan tərəfdarıdır deyib müdafiə etmək, aşkar bir həqiqəti söyləmək açıq qapıyi zorlamamaq qədər əbəsdir. Əkər firqələrin keçmişinə müraciət edərsək, Azərbaycan şüarını ilk dəfə ortaya atan firqənin Müsavat olduğunu görərik, əgər Zaqafqaziya seymində oxunan bəyannamələri nəzərdən keçirsəniz görərsiniz ki, Azərbaycan sözü sosialistlərimizin dilinə belə gəlməmişdir. Son zamana qədər onlar muxtariyyət fikrinə bir növ abstrak fikir kimi baxmışlardır. Soveşaniyada müsavat nə demiş? Müsavatın qətnaməsində deyilirdi ki, əsasən fedarasyon fikrini qəbul edərək millətlərin kamal azadlıqla vücudə gətirəcəkləri ittifaqa müariz olmayaraq və i.x.... Müsavat bunu indi də söyləyir. Bunda Azərbaycanın istiqlaliyyətinə heç bir rixnə görməz. Müsavat Azərbaycanın yalnız Rusiyada qurulmuş milli hökumətlər ilə deyil, bütün dünya millətlərilə federasyon əsasilə birləşmək tərəfdarıdır. Bu, [536 - 537] müsavatın idealıdır. Və Rusiya ərazisində federasyon idealilə hökumətlər vücudə gəlirsə və Azərbaycan onlar ilə də öz meyli və arzusilə birləşərsə bundan nə Azərbaycanın istiqlaliyyətinə, nə müsavatın xətti-hərəkətinə bir zərər və rixnə toxunur. Fəqət, dünən çıxarılan və mürəkkəbi hənuz qurumamış bulunan bir qətnamə vardır. O da professionalnı söyüzların konfransında çıxarılan qətnamədir ki, Zaqafqaziyanı Sovetski Rusiyanın ayrılmaz bir qismi hesab edir. Bu qətnaməyə kommunistlərlə bərabər rəy verənlər hümmətçilər olmuşdu. Böylə bir qətnamə meydanda ikən, digər bir qətnaməni təhrif edərək ondan bəhs etmək, mənaları bu qədər bir-biri ilə qarışdırmaqla hər firqədən əvvəl istiqlaliyyət fikrini doğrudan da ən böyük günahı-türkçülük, Azərbaycanlılıq və istiqlaliyyətçilik olan müsavatı Azərbaycan əleyhinə olmaqla ittiham etmək söz olmadığı üçün söz tapıb söyləməkdən başqa bir şey deyildir. (Alqışlar).

Əfəndilər! Burada bizim gənc əsgərlərimizdən və onlara icraiyi-təsir etməkdən qorxudurlar. Bu doğrudur. Qorxunun yeri də vardır. Fəhlə konfransında hümmətçilərdən Əzimzadə təklifdə olmuş ki, əsgərlərə müraciət etsinlər. Onlar yalnız füqəranın uşaqlarından olduğu üçün bizimlə bərabərdir demişlər. Bunun üstündə dayanmaq istəmirəm. Türk xalqının zəhmətkeş sinfi hər zaman zəhmətkeşlərlə bərabər olar. Fəqət, bu adla başqa cəhangiranə bir məqsəd bəsləyən digər bir millətin əlində alət olub əsarət zəncirini öz millətinin boynuna salmaq istəməzlər. Əminəm ki, bizim gənc və əməlpərvər əsgərlərimiz milli idealları, milli ittihadı, milli

məqsədi sinfi mənfəətlərə fəda etmək istəməzlər. Yalnız istiqlalı, bütün xalqı təmsil bir sinif əhalinin və sinif ehtiyacları ilə milli idealla bərabər olursa, qorxu yoxdur. Sosialist qardaşlardan bir qismi sui-niyyət bəsləyənlərə uyaraq bu qızıl təhlükəyə aldanırsa, qətiyyən əminəm bizim əsgərlərimiz ki, xalq kütləsindən yetişmişlər o şeylərə uymaz və aldanmazlar. Əllərinə vəsiqə olaraq aldıqları Azərbaycan bayrağını daima yüksək qaldıracaq, hər ünvanla olursa-olsun, istər sağdan, istərsə soldan olsun, əsarət zəncirini boynumuza taxanlara qarşı çıxacaqlar. İştə əfəndilər, sözlərim bitmişdir. Son söz olaraq söyləyəcəyim budur ki, hökumətin gördüyü tədbirləri [537 - 538] təqdir edərək, bu tədbirlərin üstündə duran hökuməti axıradək təqib edəcək nə qədər bu uğurda qəti tədbirlər görərsə, bir o qədər bizim səadətimizə məsrəf olacaqdır.

**Rəis** - Bu münasibətlə Müsavat tərəfində təklif vardır. Onu oxuyub səsə qoyacağam. Bundan başqa bir təklif gəlməmişdir. (Sosialistlər yerlərindən təklif edirlər). Bir daha olamaz, mən rica edirəm, qəbul olunmuş nakazı oxuyunuz. Müzakirə bitdikdən sonra heç bir təklif qəbul olunmaz. İstəyirsiniz nakazı dəyişək, ya ona ehtiram ediniz. Mümkün deyil, yalnız bir təklif var, onu səsə qoyacağam (Oxuyur).

Danışmaq istəsəniz, 5 dəqiqə tənəffüs elan edirəm. (Tənəffüsdən sonra).

**Rəis** - İclas davam edir. Rica edirəm, bu siyahıləri doldurmayasınız. ÇünkI, dəftərxanada səhv olub, siyahi bir firqə adında yazılmışdır. Təzədən siyahı hazırlanacaqdır.

**Məmməd Əmin** (yerindən) - Türkcə hazırlasınlar.

**Mustafa** (yerindən) - Türkcə kartoqrafiya da yazmaq mümkündür, orada yazın da.

**Rəis** - Rica edirəm, namizədləri yadınızda saxlayınız. Layihə-qanuniyyə komisyonuna "Əhrar" fraksiyası tərəfindən Muxtar Əfəndizadə təklif olunur. Sonra, bayaq ərz elədim ki, müzakirə bitəndən sonra təklif qəbul oluna bilməz. Amma təklif ola bilər. Müzakirə olunan məsələlər barəsində ola bilər, (katibə) sosialistlərin təklifini oxuyun.

**Katib** (oxuyur) - Hökumətin bəyanatını dinləyib asayiş və qanuni mühafizə etmək üçün, hökumət tərəfindən Görülən təklifləri təqdir ilə parlaman növbədəki məsələlərin müzakirəsinə keçir.

**Rəis** - Əvvəlinci təklifi eşitmişdiniz. İstəyirsiniz bir də oxusun.

**Səslər** - Oxusun, oxusun.

**Rəis** (katibə) - Oxuyunuz.

**Katib** (oxuyur) - Raboçi konfrans adlanan müəssisə tərəfindən elan olunan tətili-ümuminin istiqlalımız əleyhinə bir sui-qəsdi-mütəzəmmin olduğunu nəzərə alaraq və hökumət rəisinin izahatını eşidərək hökumətin tətili bitirmək haqqında gördüyü və görəcəyi qəti tədbirləri təqdir və bu xüsusda [538 - 539] kəndisinə hər növ müavinətdə bulanacağını vəd ilə Məclisi-Məbusan növbəki məsələlərin müzakirəsinə keçir.

**Rəis** - Bunları varid olduğu surətdə səsə qoyuram. Əvvəl müsavat və o biri firqələrlə müştərək verilən təklifi səsə qoyuram. Hər kəs bu formulanı qəbul edirsə, rica edirəm əlin qaldırsın. (Əllər qalxır).

Sayınız. Ləhinə 39. Kim bunun əleyhinədir? Əleyhinə 5. Kim səs verməyib? Səs verməyən 4.

İkinci formulanı səsə qoyuram. Hər kəs sosialistlər tərəfindən verilən təklifi qəbul edirsə, əlini qaldırsın. (Əllər qalxır). Ləhinə 8. Kim əleyhinədir? 36. Kim səs verməyib? Səs verməyən bir nəfər. Əvvəlinci, müsavat ilə müştərək verilən təklifin lehinə 39, əleyhinə 5, səs verməyən 4. İkinci formulanın lehinə 8, əleyhinə 36, səs verməyən 1. Beləliklə əvvəlinci formula əksəriyyət ilə qəbul olundu. (Alqış). Məsələlər bitdiyi üçün iclası qapayıram.

İclas saat 4 tamamda qapanır.

**Arxiv, f.895, siy.1, iş. 88, v.85-110.**

## № 35

## Otuz beşinci iclas

*8 may 1919-cu il*

**Rəis** - Həsən bəy Ağayev. **Katib** - Əhməd Cövdət Pepinov İclas açılır saat 12.10 dəqiqədə

**Rəis** - Parlamanın iclası açılır. Bugünkü yomi müzakirət bundan ibarətdir:

1) Əhaliyə bilavasitə ziraət yardımı edən və ziraətə zərər verən amillər ilə mübarizədə bulunan təşkilatların daxiliyyə nəzarətindən ziraət və əmlak nəzarəti ixtiyarına keçirilməsi haqqında qanun layihəsinin üçüncü qiraəti; 2) Bakı-Culfa dəmir yolunun təmirinə davam edilməsi haqqında layiheyi-qanuniyyənin əvvəlinci qiraəti; 3) Parlamanın üzvü Məhərrəm Məhərrəmovun istefası, onun əvəzinə Rzayev Bağır bəyin parlamana daxil olması haqqında sosialist fraksiyonunun ərzi-halı; 4) Parlaman [539 - 540] üzvü Abdulla bəy Əfəndizadənin növbədən xaric ərzi-halı, 5) Komisyonlara üzvlər intixabı; 6) Daxil olmuş vərəqələr, o cümlədən: Məclisi-Müəssisan seçkisi xüsusunda komisyon tərəfindən təklif edilmiş layiheyi-qanuniyyə və sosialistlər tərəfindən Zaqafqaziyanın ingilislər tərəfindən işğal edildiyi haqqında hökumətə müraciətən verilən sual (rusca tərcümə edir)

**Məmməd Əmin** (yerindən) - Köhnə məsələdir.

**Rəis** - Əgər bu tərtibata etiraz yoxsa, qəbul olunur. Məclisi-Müəssisan seçkisi haqqında təqdim edilən layiheyi-qanuniyyə gələn iclasa qoyulacaq. Sosialistlər tərəfindən verilən sual iclasın axırında oxunacaqdır. Növbədəki məsələ əhaliyə bilavasitə ziraət yardımı edən təşkilatın daxili nəzarəti ixtiyarından, ziraət və əmlak nəzarətinə keçirilməsi haqqındakı qanun layihəsinin üçüncü qəraətidir. Dakladçi Şəfi bəydir. Şəfi bəy yoxdur.

**Katib** - Birinci maddəni oxuyur.

**Rəis** - Əvvəlinci maddə barəsində kim danışmaq istəyir? Hər kəs danışmaq istəyirsə, vərəqə ilə bildirsin. Zahirən danışmaq istəyən yoxdur. Səsə qoyuram. Hər kəs əvvəlinci maddəni qəbul edirsə, əlini qaldırsın... Əksəriyyətlə qəbul olunur.

**Katib** - İkinci maddəni oxuyur.

**Rəis** - 2-ci maddə xüsusunda kim danışmaq istəyir, səsə qoyuram. Hər kəs 2-ci maddəni qəbul edirsə, əlini qaldırsın. Əksəriyyət rəylə qəbul olunur. Katib 3-cü maddəni oxuyur.

**Rəis** - 3-cü maddə xüsusunda kim danışmaq istəyir. Danışmaq istəyən yoxsa, səsə qoyuram. Kim üçüncü maddəni qəbul edirsə əlini qaldırsın. Əksəriyyət rəylə qəbul olunur.

**Katib** - 4-cü maddəni oxuyur.

**Rəis** - 4-cü maddə xüsusunda kim danışmaq istəyir. Danışmaq istəyən yoxsa, səsə qoyuram. Hər kəs 4-cü maddəni qəbul edirsə, əlini qaldırsın. Əksəriyyət rəylə qəbul olunur.

Layiheyi-qanuniyyəni təmamilə səsə qoyuram. Hər kəs layiheyi-qanuniyyəni təmamilə qəbul edirsə, əlini qaldırsın. Qəbul olunur. Bu qanun veriləcək təshih komissiyonuna. Növbədəki məsələ Bakı-Culfa dəmir yolu təmiri haqqında olan qanun layihəsinin birinci qəraətidir. Məruzəçi Əbuzər bəy Rzayevdir.

**Əbuzər bəy Rzayev** - Culfa - Təbriz dəmir yolu qurtarandan sonra haman kompaniya Ağcaqabul-Culfa dəmir yolu imtiyazını [540 - 541] almaq istədi. Fəqət, sonra Avropa müharibəsi başlanmaqla o yolu Rusiya hökuməti özü təmir etmək fikrinə düşdü. Bu yola hökumət böyük məna verirdi. Əvvəl Ağcaqabuldan çəkmək istəyirdilər. Lakin sonradan Ələtdən başladılar. İranın Təbriz, Urmi, Xoy tərəfindən gələcək mali-tüccariyəni bu yol vasitəsilə Bakı-Astara İrana, təzə şəhərə və Hacıtərxana göndərmək olacaqdı. Bu yolun uzunluğu 387 verstdir. Ələtdən Kürə qədər 45 verstdir. Burada təmir edilmiş Böyük körpü, axırıncı iğtişaşlar zamanında bolşeviklər tərəfindən yandırılmışdır.

Bu yolun torpaq işinin hissəsi qayrılmışdır. Yəni 75 faiz hazırdır və 29 verstdə rels düzülmüşdür. Deməli, Ələtdən Kürə kimi dəmir yolu hazırdır. Kürdən sonra bu yol çıxır Şirvan düzünə, oradan Muğana, Milə, ondan sonra Xudafərinə. Xudafərindən başlayıb hər yerdə dağlar arasilə Ordubada çıxır. Ordubaddan da Culfaya çatır.

Bu yolun böyük mənası vardır. Əvvəla, Bakı ilə Culfanın məsafəsi 461 verstdir. Deməli, Tiflis yolundan 232 verst bu yol azalır. Yolun bu sürətlə azalması imkan verəcək Təbriz, Urmiyadan gələcək mallar bu yoldan gəlib getsin. Habelə Osmanlı sərhəddinə yaxın olduğu üçün, Osmanlı ilə əlaqədə bulunmaq mümkün olacaqdır. Demək, məzkur yerlərdən birbaşa gəlib Ələtə çıxmaq olacaq, oradan da Rusiya, Türküstan və İranla münasibətdə bulunmaq mümkün olacaqdır.

Bu yolun ticarətə deyil, başqa cəhətlərdən də faydası çox-dur. Əvvəla budur ki, Şirvan düzündə böyük neft dövləti vardır. Plan var ki, Şirvan düzü üçün Arazdan su çaxıralarsa 200 min desetin yer əkmək mümkündür. Buralarda pambıq və sairə də əkmək olar. Muğana da, Milə də su çıxarılacaq; oralarda da bir milyon 200 min desetin yer əkmək olacaqdır. Bu arxlar Arazdan götürülərsə o qədər buğda verər ki, bütün Azərbaycana iaşə etdiyi kimi xaricə də 48-50 milyon pud çıxarmaq olar. Buralarda güclü pambıq da hasil etmək mümkün olacaqdır. Buraların pambığı Mançestir pambığından əskik deyildir. Azərbaycanın bugünkü xəzinəsi hesab

edilən neftdən pambığın əhəmiyyəti əskik olmaz. Bu yol Xudafərinə gəldikdə məlumdur ki, orası sərhəddir. İranın bir çox ticarəti bu yol vasitəsilə olacaqdır. Buralarda mis mədənləri də vardır. Bu malların həpisi bu yolla gəlib gedəsidir. [541 - 542]

Bu yolun keçilməsi Qarabağın mis mədənlərinə də tərəqqi verəcəkdir. Qarabağın misi bu saat 120 verst yolu araba və at ilə Yevlağa gətirilir. Bu qədər müşkülatla bərabər ildə üç yüz min pud mis ixrac edilir. hərgah dəmir yolu olarsa bu ixracat artar. Oradaki böyük mis mədənlərinin qalınlığı 30 sajındır. Buralarda fabrik, zavodlar inşa edilərsə güman var ki, ildə 6 milyon pud mis hasil olsun. Doğrudur, Aleksandropol ilə Bakı arası 771 verstdi. Demək 221 verst bu yoldan təfavütlüdür. Aleksandropol yolunun yoxuşunu da hesab etsək 49 verstdə burada təfavüt eylər. Buna görə hər yüz min pudda yeddi paravoz xeyirlidir. Deməli, yalnız Təbriz, Urmiya, Osmanlı malları deyil, Aleksandropol və Karsda nə qədər mal varsa bu yol ilə gəlib gedəsidir. Bakı-Culfa dəmir yolunun uzunluğu 461 verst olduğu halda Bakı-Tiflis-Culfa yolunun uzunluğu 1032 verstdir. Pasajir poezdnən bir sutka, tovarnı üç və dörd sutka Tiflis yolundan tez gedər, bu növlə ayda 114 paravoz, 2040 vaqon xeyir edər. Məlumdur ki, bu vaqonların azlığı qulluqçuların da sayına təfavüt edəcəkdir.

Bunlardan məlum olur ki, bu yolun faydası gəlib-gedənlər üçün Tiflis yolundan çoxdur.

Torpaq işinin yüzdə 84% tamam olmuşdur. Az bir hissəsi qalmışdır. Orada da bir neçə tunellər qayırmaq lazım gələcəkdir. Deməli, bir az torpaq işi var. Sonra 230 verst yola yalnız şpallar qoyub, relslər düzmək işi qalacaq. Bir də vodoprovod işi var.

Xudafərindən Ordubada kimi 100 verst torpaq işi on birə kimi tunellər var. Ordubaddan sonra yol üzə çıxır, bu yolunda çoxu hazırdır. Cüzi bir şey qalıb ki, bu yol qurtarsın. Bakı-Culfa dəmir yolunu çəkməkdən səbəb budur ki, Mil, Muğan və Şirvan dirilsin. Yol olmasa orada da həyat mümkün dəyil. Yol çəkilsə orada pambıq, buğda məhsulatı olar. Zavodlar açılar, məhsul əkər-biçər. Orda yer boldur. İkinci odur ki, gərək torpaq işi qurtarsın. Tunellərdan gərək torpaq çıxarılıb, tunellər möhkəmləndirilsin. Yoxsa uçar, yenidən xərc olar. 5 milyon şpal var ki, bunlar da quruyur. Altmış min manatlıq sement var. Bu vaxtın qiymətilə 5 milyon manat eyləyir. Bunu da yağış isladıb xarab olar. Dörd min dinamit var. Gün-gündən xarab olur. Başqa alət və ləvazim tökülüb, baxan yox, əhali [542 - 543] oğurlayıb aparar. Gələcəkdə bu şeyləri tapmaq çətin olacaq və onun üçün də böyük pul vermək lazım gələcəkdir. Bu əşyanın hamısın 100 milyon manat hesab edirlər. Bu yola indiyə qədər 48 milyon pul xərclənibdir. Bu vaxtın fiyəti ilə prosentini hesab eyləsən böyük pul eylər. Güman var ki, bu yol ilə 22 milyon pud mal gəlib getsin. 18 milyonu da tranzit. Bu eylər 40 milyon. Bunu verstdə vuranda 111 milyon pud, versti 2 qəpikdən hesab edəndə 222 milyon eyləyir. Hamısı 580 milyon mədaxil olacaqdır. Təriq məabir naziri bu barədə hökumətə daklad verib hökumət də qəbul edibdir. Burada 4 hal vardır. Bu hal budur ki, yolu Ələtdən Culfaya kimi qurtarmalı, ikinci, Ələtdən Xudafərinə və oradan Culfaya dəmir yolu üçün rels, maşın zaqranisyadan alsın. 3-cü dəmir yolu Culfaya kimi çəkilsin, onun üçün Azərbaycan dəmir yollarından relslər sökülüb orada düzülsün və Azərbaycan maşınları gedib-gəlsin. Dordüncü hal budur ki, yol çəkilsin Xudafərinə qədər. Xudafərindən Culfaya qədər şose olsun. Bunun üçün də paravoz və relslər alınsın Zaqafqasya yolundan, hökumət bunlardan əvvəlinci halı qəbul edib. Maliyyə-büdcə komisyonu da o halı qəbul edibdir. Bir qədər xərc olar: torpaq daşıtdırmaq və kazarmalar və evlər tikmək üçün 107 milyon. Fəhlələrin ərzaqı üçün 33 milyon. Rels üçün 98 milyon. Paravoz üçün 21 milyon. Cəmi 258 milyon. Hökumət bunu qəbul edib 1919-cu il üçün 100 milyon buraxıb. Komisyon bunu qəbul edib ki, yol qurtarsın. Gələcəkdə Zaqranisyada rels, maşın mümkün olarsa alınar.

Əgər mümkün olmazsa Azərbaycan dəmir yollarından sökülüb oraya salınar. Hər halda onu gələcək göstərər.

**Rəis** - Müzakirəyə şuru olunur. Söz Cəmil bəy Sultanovundur.

**Sultanov** (Müsavat) — möhtərəm məbuslar. Bakı-Culfa dəmir yolunun başa gəlməsinin cavan Azərbaycan cümhuriyyəti üçün böyük əhəmiyyəti vardır. Rusiya inqilabının nəticəsində yeni vücuda gəlmiş Azərbaycan əvvəlinci qədəmində gərəkdir ki, köhnə Rusiyanın səhv və nöqsanlarını düşünərək o səhvləri öz həyatında təkrar eyləməsin, ifşa etsin. Rusiyanın əvvəlinci səhv və günahı bu idi ki, dəmir yoluna əhəmiyyət vermirdi. Dəmir yollar nəqliyyatdan başqa millətin və məmləkətin tərəqqi və təməddühnüsunə də baisdir. Mədəni millətlərin ən [543 - 544] irəli keçmişlərinin məmləkətləri dəmir yol şəbəkəsilə müzəyyəndir. Buna Almaniya, İngiltərə, balaca Belçika misal ola bilər. Dünya müharibəsi əsnasında Almaniya ildırım sürətilə öz qoşununu o cəbhədən bu cəbhəyə göndərib, mübarizə edib dörd sənəlik müzəffəriyyət və qabiliyyətinə ancaq dəmir yollarının çoxluğu olmuşdur. Həmin müharibə zamanı bunun əksin biz Rusiyada gördük. Rusiya torpağında dəmir yolu azlığından Rusiyanın bir tərəfdən camaat aclıqdan qırılanda, Yeddi suda, Cənubi Sibiriyada, başqa bir para yerlərdə taxıl o qədər çox idi ki, taxılın putu 30-40 qəpiyə gedirdi. Eyni yerlərdə ən gözəl inək yağından sabun bişirib girvənkəsini səkkiz-on qəpiyə satırdılar. Dəmir yolu azlığından taxılı bir yerdən o biri yerə daşımaq mümkün olmurdu, aclıq və qaydasızlıq olurdu. Bu hal təkcə keçmiş geniş Rusiya vilayətlərində deyil, bu saat Azərbaycanda da, qonşumuz Gürcüstanda da bu halı görürük. Bir neçə ay irəli Bakıda, Gəncədə və Tiflisdə buğdanın pudu yüz manatdan, yüz həştad manata gedəndə, Muğanda və Araz yaxasında haman buğda 15-20 manata gedirdi. Qiymətin bu cür artıq olmasına səbəb bir tək camaatin möhtəkirliklə məşğul olmasında deyildir.

Möhtəkirlik özü də dəmir yol azlığındadır. Böylə olan surətdə biz köhnədə bunları görəndən sonra, indi yeni siyasi qədəmimizdə, köhnə günahları təkrar etməmək üçün dəmir yoluna böyük əhəmiyyət verməliyik.

Möhtərəm məbuslar! Əlyom, Azərbaycanın intihasız olan təbii dövlətlərinin üstü örtülüdür. Neft və neftdən əmələ gələn şeylərin mənfəəti nə qədərdir məlumdur. Bakı-Culfa yolu əmələ gələrsə o vaxt Muğan çölü, Araz yaxası, Şirvan və Mil düzü abad olub ildə yüz milyon pud arpa, buğda, düyü, pambıq və sairə məhsulat əmələ gələr. Məruzəçinin dediyi kimi bunun yarısı, əlli milyonu Azərbaycanı sirab edər. Əlbaqisi xaricə çıxıb, Altun çayını Azərbaycana çevirib gətirər. Bu, Mil düzündə arpa və buğdadan əlavə dəmir yolu üstündə bir çox mədənlər vardır. Bu mədənlər çox zəngindirlər. hərgah gələcəkdə dəmir yolu olsa və hökumətimiz mədənlərin üstü açılmasına və əhaliyə vaxt verib yardım etsə, Azərbaycan dünyada ən zəngin bir məmləkət olar. Zəngəzur qəzasında böyük mis mədənləri var ki, Bakı nefti məşhur olan Avropada və Amerikada bu mis mədənləri də məlumdur. [544 - 545]

Yevlax iki yüz əlli verst dəvə boynunda, araba ilə bu misi daşımaqla Avropa, Amerika, Ural və Rusiya misləri ilə rəqabət edirdi. Bu mis mədənlərinin hamısı dəmir yolu üzərindədir. Qatarda, Atqızda, Nüvədi çayının üstündə və İran Qaradağında, hansı ki, dəmir yolunun üstündədir, sərhəddən bir neçə verst o yana, bu yerlərdə böyük mədənlər vardır. Müharibənin ikinci sənəsində Amerikadan gəlmiş mühəndislər deyirdilər ki, bu mis mədənləri dünyada ən zəngin mədənlərdir. Hamıya məlumdur ki, millətlərin və hökumətlərin səadəti, dövlətlənmələri və tərəqqiləri tək altun ilə deyil, bunların irəliyə getmələrinə bais dəmir və kömürdür. Bizim vilayətdə o neftdən və misdən savayı dəmir və kömür də olsa ən zəngin bir millət olarıq. Bəli, bizim vilayətdə neftdən və misdən savayı kömür də var. Bizim kömür Gürcüstanda olan (Tiqvibuli) kömüründən də artıqdır. Bu da Meğri kəndinin yaxınlığındadır - Nihül, Ləşk və Meğri torpaqlarındadır. Bu mədənlər Xudafərin körpüsünün yaxınlığında Qafqasya Azərbaycanı ilə İranın Azərbaycanı da çox vüsətli yerlərdəndir.

Dəmirdə, Urxüçü çayının üstündə dəmir mədənləri var. Bu mədənlərin yatmağının səbəbi kömürün bahalığıdır. Buna görə də oralara enmək qeyri-mümkündür. Culfa-Bakı dəmir yolu çəkilərsə, kömürün üstü açılar, yəqin ki, o dəmir mədənləri işləyər. Bundan əlavə dəmir yolunun üstündə mis, qurğuşun var. Zəngəzur mədənlərində qurğuşun da var. Ermənilər buralardan küllü qurğuşun alıb İrəvana göndərirlər. Mis mədənləri, gümüş də tapılıbdır. Bundan əlavə Oxçı çayı üstündə gümüş mədənləri vardır. Onun üstündə duz mədənləri də vardır. Naxçıvan duzu da, Muğan duzu, Bayraməli, Mursallı, Sahibli kəndlərində zəy mədənləri vardır. Salyan düzündə neft mədənləri nişanəsi var. Burada olan mədənlər əksər əhaliyə məlumdur.

Möhtərəm məbuslar! Culfa-Bakı yolunun tranzit nəqliyyatı üçün böyük əhəmiyyəti vardır. Bu yolun Xəzər dənizində Limanı olduğu üçün bir tərəfdən Qərbi İranın və Türkiyənin şərq vilayətləri arasında, bu biri tərəfdən Rusiya, Sibiriya və Türkistan ilə İranın şərq qitələri arasında mal mübadiləsinə böyük yardım edəcəkdir. Kimsə dəxi bu yolu qoyub 120 verst məsafəli olan Gürcüstan və Ermənistan ilə mal daşımayacaqdır. [545 - 546] Və belə olan surətdə tamam kirayə pulu bir tək Azərbaycana qalacaqdır. Gələcəkdə Təbriz ilə Bağdad yolu və ya Təbriz ilə İskəndərun yolu başa gələrsə, o zaman Bakı yolu Hindistan və cənubi dərya ilə Avropa arasında ən yavuq bir yol olacaqdır. Demək olar ki, Culfa-Bakı yolunun 75%-i hazırdır. Və lazım olacaq bir çox material və sairə də hazırdır. Söz yox ki, yolun təmirinə buraxılan puldan əvvəlcə sabiqdən bu yolda işləyən məmurların köhnə borcları veriləcəkdir və həmçinin onların içindən təcrübəli və mahir mühəndislər işə çağırılacaqdır. Bu iki məsələ barəsində bu layihə ilə bərabər parlamanın qətnaməsi çıxarılması lazımdır.

Möhtərəm məbuslar! Bakı-Culfa dəmir yolunun istiqaməti və gələcəyimiz üçün olan əhəmiyyəti haqqında lazım bildiyim məlumatı bəyan eylədim. İndi zənn edirəm ki, bu yolun təmirinə ancaq Azərbaycanın düşmənləri səs verməyəcəklər. Əminəm ki, bütün məbuslar bu yolun təmirinə səs verməklə bu yolun bizim tərəqqimiz ilə nə qədər əlaqədar olduğunu və əhəmiyyətini nəzərdən keçirmiş olduqlarını isbat edəcəkləridir. Qoy bizim düşmənlərimiz bilsinlər ki, Cavan Azərbaycan hər bir avantiyuradan uzaq olaraq, hər şeydən əvvəl daxilində asayiş bərpa etməyə qidam edib, müstəqil yaşamağa haqlı olduğunu isbat etmişdir.

**Rəis** - Söz istəyən varsa, buyursun. Daha danışmaq istəyən yoxdur? Lakin səsə qoymadan qabaq natiqin fikrini bir şeyə cəlb edərdim. Azərbaycan parladanında Azərbaycanın düşməni ola bilməz. Düzdür, cürbəcür məsələlərə səs verməyən olar. Amma dəxi Azərbaycana düşmən ola bilməz. (Səslər: "Doğrudur, doğrudur". Alqış). Söz hökumət üzvlərindən Xudadda bəy Məlik Aslanovundur.

**Məlik Aslanov** (təri və məabir naziri) - Möhtərəm məbuslar! Məruzəçinin hərtərəfli söylədiyindən sonra mən də iki söz deyərdim. Görək hökumət bu işə nə cür baxır və bu layihə nə səbəbə təqdim olunur. Necə ki, söylədilər, Bakı-Culfa dəmir yolunun çoxu hazırdır. Bu cürə hazır olmaqla onu başsız qoysaydıq çox şeylər dağılıb itərdi və böyük zərər olardı. Bakı-Culfa dəmir yolunun uzunluğu 571 verstdir. Əgər o biri yolun əyrisini hesab etsək Bakı-Culfa dəmir yolu ondan 500 verstə kimi yaxın olur. Çünki əyri yolun uzunluğu 1200 [546 - 547] verstdən artıqdır. Bakı-Culfa dəmir yolunda Naftuluqdan o tərəfə hündürlüklər vardır ki, bu da artıq paravoz işlənməsinə səbəb olur. Paravoz on vaqondan artıq götürməyir. Bakı-Culfa dəmir yolunda isə böylə hündürlüklər yoxdur. Ona görə az paravoz sərf olunacaqdır. Bu da ki, texniki tərəfindən xeyirli və əhəmiyyətlidir. İqtisadi tərəfdən də sizə məlumdur ki, nə qədər xeyir olar. Bu yolun sayəsində Muğan, Mil, Şirvan düzlərindən nə gözlədiyimiz də deyildi. Bakı qızılımızdırsa, o yerlər də Bakıdan geri qalmayacaqdır. O

yerlər xeyirli yerlərdir. Orada böyük mis mədənlərindən başqa nə qədər meşələr var, qeyri dövlətlər var. Bu dövlətlər hamısı bu yolun sayəsində böyük mənfəət verəcəklər. Bu yol vasitəsilə mallarımız İran, Osmanlı yolları ilə Bəhri - Səfid portlarına çıxacaqdır. Hökumət bunun tez başlanması üçün tələsdirməkdə məqsədi var, yola sərf olunmuş zəhmətlər hədər olmayıb, camaat ondan xeyir aparsın. Əgər bu yola əhəmiyyət verməyib nəzərdən salsaq, 48 milyon ki, başlananda sərf olunub və indiki hesabla da bir milyarddan artıq eləyir büsbütün itəcəkdi və böyük zərər olacaqdı. Onun üçün hökumət bu qədər para buraxıb yolun işlənməsinə başlanmışdır. Yolda olan skladlar dağılmışdı, onları yığıb nizama salmışıq və hesab tutmuşuq. Üstündə adamlar da vardır. Məlumunuzdur ki, Kürün üstündə olan körpünü bolşeviklər yandırmışdılar. Bu körpünü təmir etmək lazımdır. Mayın ortasına qədər Zubovka və Dukaçqaya kimi 140 verst yoldan 45 verst yol hazır olub qurtaracaqdır. Bu yol ilə o tərəfin malları Bakıya daşınacaqdır. Bundan sonra Kürün körpüsünü hazırlayıb yolun qalanına da ki, 230 verstdir və az iş var, başlayacağıq işlətməyə. Əlbəttə, bunu da gizlətmək istəmirəm ki, bu zamanda hər belə işi başlamaq çox çətindir. Çünki öz yollarımız da bu saat çox çətinlik ilə işləyir. Çünki əşya, məmur və adam tapmayırıq. Burada müşkülat olacaqdır. Amma bununla bərabər ümidvarıq ki, işi aparaq, başa gəlsin və ləngə düşməsin. Ən çox çətinlik, rels, nəqliyyat, paravoz, vaqon tərəfindən olacaqdır. Lakin bu barədə təriq və məabir nəzarətinin böyük bir layihəsi vardır. Kredit açılsa, pul buraxılsa bu işi düzəltmək mümkün olacaqdır. Yolun bir hissəsi bu tərəfdən, digər hissəsi də o biri tərəfdən - Xudafərindən başlanacaqdır. Əgər özgə hadisələr baş [547 - 548] verməsə ümid var ki, tez də olmasa, hər halda bu işi başa aparaq. Bir söz də deyim, smeta barəsində. Bu yol üçün 258 milyon pul lazımdır. Bu smeta ay yarım bundan irəli tərtib edilmişdir. Məlumdur ki, gələcək işlər bahalanır. Gələcəkdə bonnun qiyməti az olsa bu hesab çatmayacaq və artırılması lazım gələcəkdir. Onu da bildirməliyəm ki, əgər gələcəkdə bu smetanı dəyişmək lazım gəlsə, buna hökumətin ixtiyarı olsun. Ümidvaram ki, buna heç ehtiyac olmasın. Ona görə hökumət tərəfindən rica edirəm, bu qanun layihəsi qəbul edilsin.

**Rəis** - Daha söz istəyən yoxsa son söz məruzəçiyə verilir.

**Əbuzər bəy** - Bu yolun qurtarmasına iki nöqteyi nəzərlə baxılmalıdır. Əvvəla, iqtisadi nəzərdən. Muğan-Mil ki, deyirlər. Burada əkin və fabrik əmələ gələr, əhali də ondan xeyir və fayda görər, dövlət də... İkinci siyasi nəzərdir ki, Osmanlı və İranla, Gürcüstansız və Ermənistansız, bilavasitə əlaqədə olmaq olar. Bir də Şərur və Naxçıvan ilə əlaqə mümkün olar.

Bu yolun qurtarması üçün 258 milyon pul lazımdır. Bu il görüləcək iş üçün bu puldan 100 milyonadək verilməlidir.

**Rəis** - Təriq və məabir nəzarəti tərəfindən təqdim edilmiş layiheyi-qanunniyyənin məzmununu bildiniz. Yolun bir çox ləvazimatı hazırda mövcuddur. 258 milyon para lazımdır. Bir sənəlik xərc üçün 100 milyon para buraxılmasına müsaidə istənilir. Bu layihənin məzmunudur. Bunun səbəblərini natiqlər söylədilər. Rica edirəm getməyəsiniz, mən bu saat səsə qoyuram. Hər kəs təriq və məabir nəzarətinin tərəfindən təqdim olunmuş, maliyyə və büdcə komisyonu tərəfindən qəbul edilmiş işbu layiheyi-qanuniyyəni qəbul edirsə, əlini qaldırsın. Layiheyi-qanuniyyə yekdil qəbul olunur. Layihə veriləcək təshih komisyonuna. Keçirəm növbədəki məsələyə. Növbədəki məsələ parlaman üzvü Məhəmməd Məhərrəmovun əvəzinə sosialistlər tərəfindən Bağırbəyevin parlaman əzalığına qəbul edilməsi haqqında verilən ərzi-halıdır.

**Əhməd bəy** - (Oxuyur).

Mətləb buradadır ki, qəbul edilmiş nakaza görə bir fraksiyadan çıxacaq üzvün əvəzinə başqası təklif edilə bilər. (Bir səs - Nə vaxt çıxmış və nə tər olmuş?).

**Rəis** - Bu xüsusda heyəti rəyasətə bir ərizə gəlmiş, tarixi də yoxdur. İstəsəniz mandat komisyonuna verəlim. (Səslər: verilsin). [549 - 550] Ərzi-hal deməli, mandat komisyonuna verilir. Növbədəki məsələ Abdulla bəy Əfəndizadənin növbədən kənar ərzihalidir ki, üçüncü iclasdan qalır.

**Abdulla bəy Əfəndizadə** - Əfəndilər. Hamınıza məlumdur ki, bütün qulluqçuların ələlxüsus müəllimlərin, istər edadi, istər il müəllimləri olsun, maddi cəhətdən əhvalları qayət ağır və müşküldür. Bu xüsusda uzun-uzadı layihə hazırlanıb maliyyə-büdcə komissionuna verilmiş. Büdcə məzkur layihəyə baxıb qurtarmamışdır. Məişətin bahalığı müəllimlərdə daha hal qoymamışdır ki, artıq öz işlərinə davam etsin. Hökumətə 20 milyon pul buraxılmışdı ki, bəzi təxir qəbul xərclər üçün, o puldan xərclənsin. Lakin o puldan müəllimlərin alacağı təfavüt hesabına avans təriqilə bir şey verildi. Hökumət borclu idi, qanun layihəsi keçincə müəllimlər nəqdi bir müavinətdə buluna idi. Məlumunuzdur ki, ibtidai məkatib müəllimləri hər yerdə 420 manat məvacib alırlar. İndiki kursla bu uç manat edir. Bununla zavallı müəllim özünü dolandırsın, ailəsini dolandırsın? Bu pullar bir müəllimin ancaq papiros və spiçkasına kifayət edə bilər. Əcəba, müəllim hamama getməsin, başını qırxdırmasın? Bunlar haman müəllimlərdi ki, biz millət balalarını onlara tapşırmışıq ki, tərbiyə etsinlər. Biz müəllimlərimizin halına qalmaqla öz balalarımızın qayğısına qalırıq. (Yerdən bir səs: Doğrudur). Tamam qabil və qiymətli müəllimlərimiz öz sənətlərini buraxmağa məcbur olmuşlar. Kimisi hökumət qulluğuna, pristavlığa gedir. Belə gedərsə bir azdan sonra bir nəfər müəllimimiz qalmayacaq. Qarnı acdan ideya məsələsi gözləmək olmaz. hər şeydən odlu danışırsız. Onlar millətpərəst olsunlar deyirik. heç təsəvvür etməyirik ki, iki manat yarım maaşla onlar dolana bilərlər? Mən təklif edirəm ki, təcili surətdə bir məbləğ buraxılsun, qanun layihəsi keçənədək müəllimlərin halı bir qədər yüngülləşdirilsin. Habelə, maliyyə və büdcə komisyonu tərəfindən

təqdim ediləcək stavkada təcili surətdə qəbul olunsun. Heç olmasa alacaqları təfavütdən onlara avans təriqilə bir qədər verilsin. Bu mənim təklifimdir. (Alqış).

**Rəis** - Növbədən xaric bəyannamə xüsusunda şübhəsiz müzakirə ola bilməz. Natiq nitqində söylədiyi təklif dürüst də olsa qəbul oluna bilməz. Parlaman bu barədə müəyyən bir qərara [549 - 550] gələ bilməz. Bilirsiniz ki, natiq əfəndi özdə maliyyə - büdcə komisyonunun üzvü olduğundan söylədiyi maarif nəzarətindən gəlmiş layihə komisyonda növbədən xaric təcili surətdə baxılır. Komisyon daha çox layihələr olduğu halda bu saat [həmin] layihə ilə məşğuldur. Təcili surətdə düşənbə günü parlamana gəlib baxılacaqdır. Layihə çox böyükdür. Ona görə komisiyonun bir iki iclasında baxmaq olmaz. On-on beş gündür gəlib komisyona gedib. Düşənbə günü baxılacaq və bir iclasda da keçəcəkdir. Keçək növbədəki məsələyə. Sosialistlər fraksiyası tərəfindən hökumətə verilən sualdır. (katibə) Katib oxuyunuz.

**Katib** - (oxuyur).

**Rəis** - Elan olunmuş suala çünki hökumət tərəfindən cəvab olmur. Ona görə nakaz məvacibincə bu qalar gələn iclasa... O iclasın ruznamə müzakirəsinə salınacaqdır.

**Məmməd Əmin** (yerindən) - Bu sualın mövcud olduğunu hökumət bilirmi?

**Rəis** - Bilir. Növbədəki məsələ komisyonlara üzv intixabıdır. Seçki vərəqləri paylanıbdır. (Üzvlərə vərəqləri göstərmək istəyirlər). Rica edirəm zəhmət çəkməyi yığarlar. (Vərəqlər yığılır, üzvlər qalxıb, çıxmaq istəyirlər). Rica edirəm əyləşəsiniz. İclas qapanmamışdır. Rica edirəm əyləşəsiniz, cümlətani 44 vərəqə verilibdir. Seçilənlər də bunlardır.

Ləvazim heyətinə: Atamalıbəyov 44 səslə, Ter-Azaryan 35 səslə. Maliyyə-budcə komisyonuna: Çubaryan 35 səslə. Sorğu komisyonuna və Məclisi-Müəssisan seçkiləri üçün qanun düzəldən komisyonuna - Papayan 35 səslə. İş buradadır ki, Məclisi-Müəssisan komisyonu işini bitirmişdir.

Layiheyi-qanuniyyə komisyonuna Muxtar Əfəndizadə 44 səslə.

**Məmməd Əmin** (yerindən) - İcazə veriniz.

**Rəis** - Buyurunuz.

**Məmməd Əmin** - Məclisi-Müəssisan seçkiləri üçün qanun düzəldən komisyon haqqında bir ifadəeyi - aliniz oldu. Böylə gəlir ki, o komisyon işini bitirmişdir. Lakin parlamentdəki müzakirələr nəticəsində bəzi lazımlı işlər olur ki, o komisyona ehtiyac artır. Ona görə bu komisyonun hələlik qalması lazımdır. [550 - 551]

**Rəis** - Atamalıbəyov iki komisyona intixab olunmuşdur. Ləvazim komisyonuna, bir də Məclisi-Müəssisan seçkiləri komisyonuna. Məçlisi-Müəssisan komisyonunda qalır. Bununla iclası qapayıram.

İclas qapanır saat 1-40 dəqiqədə.

**Arxiv: f. 895, siy. 1, iş. 88, vər 53-64.**

## № 36

## Otuz altıncı iclas

*12 may 1919-cu il*

**Rəis** - Həsən bəy Ağayev, **Katib** - Əhməd Cövdət Pepinov İclas açılır saat 12-də.

**Rəis** - İclas açılır. Müzakirəti-yomiyyə bu qərar iladir: 1) Məarif nəzarətinin məmur və müəllimlərinin maaşı təzyidi haqqında qanun layihəsi. Məruzəçi-Əhməd Cövdət Pepinov; 2) Hökumət qulluqçularının maaşlarının təzyidi haqqında qanun layihəsi. Məruzəçi-Musa bəy Rəfiyev; 3) Zaqafqaziyanın İngilis qoşunları tərəfindən istilası haqqında general Millinin elani münasibətilə sosialist fraksiyonunun hökumətdən sualı; 4) Məclisi-Müəssisan seçkiləri haqqında qanun layihəsi. Məruzəçi-Məmməd Əmin Rəsulzadə. 5) Daxil olan vərəqələr, o cümlədən: a) Put vergisinin artırılması haqqında qanun layihəsi. b) Edadi ünas məktəbləri haqqında olan qanunun təbədiliddülü və əlavəsi haqqında layiheyi-qanuniyyə p) Cavanşir qəzasından doktor Ləmbəranskinin parlamana intixabi haqqında protokol (Rusca tərcümə edir) bağışlayın, birinci maddədə unutdum. Birinci layihə barəsində maliyyə-büdcə komisyonu xahiş edir ki, təcili baxılsın. Bu tərtibata etiraz yoxsa qəbul olunur. Söz parlaman üzvü Xocəsayevindir.

**Xocəsayev** - (rusca).

**Rəis** (Rusca cavab verir) - Daxil olmuş vərəqlərdən put vergisinin artması haqqındakı qanun layihəsi ləvayehi-qanuniyyə komisyonuna gedir. Edadi-ünas məktəbləri haqqındakı, qanun layihəsi də eyni komisyona verilir. Ləmbəranskinin İntixabi [551 - 552] haqqındakı bəratülqovl etimadnamə komisyonuna verilir. Növbədəki məsələ maarif nəzarətinin məmur və müəllimlərinin maaşları təzayüdi haqqında layiheyi-qanuniyyədir. Məruzəçi Əhməd Cövdət Pepinov.

**Əhməd Cövdət** - Əfəndilər! Bugün müzakirə edəcəyimiz məsələ maarif nəzarətinin məmur və müəllimlərin maaşları təzyidi haqqında qanun layihəsidir. Bu barədə məlumat vermək istərdim ki, həmin layihə dörd ay bundan qabaq düzəlib, çox çalışılıb, hazırlanıb, böyük bir qanun layihəsi surətində komisyona gəlmişdir. Müəllimlərin halının nə qədər çətin olduğunu və məvaciblərinin azlığını hamınız bilirsiniz. Bu barədə neçə vaxt çalışırlar, neçə yerə demişlər, hətta bir çox yerdə tətil etmişlərdi. Keçən dəfə Abdulla bəy Əfəndizadə haqlı olaraq müəllimlərin hallarının nə qədər pis və maaşlarının nə qədər az olduğunu söylədilər. Bu qanun layihəsi aprelin 12-də maliyyə-büdcə komisyonuna daxil olmuşdur. Aprelin 15-də maliyyə-büdcə komisyonunda qət olundu ki, layihə böyük olduğundan tezliklə baxılıb qurtarılmayacaqdır, ələlxüsus, qabaqda pasxa bayramı var, ola bilər ki, məvaciblər təxirə düşsün. Ona görə müəllimlərə tezliklə müavinət etməkdən ötəri parlamanın qərarını gözləmədən hökumət ixtiyarında olan 20 milyonluq fonddan müəllimlərə hələlik müavinəti-nəqdiyyə verilsin. Bu tərif ilə yanvarın birindən gərək müəllimlərə müavinəti-nəqdiyyə verilə idi. Lakin sonra məlum oldu ki, veriləcək məbləğ 15 milyona yaxın böyük bir pul olduğundan və hökumət ixtiyarında bu qədər pul bulunmadığından bu xahişə əməl etmək olmaz. Ona görə köhnə qərar üzrə qaldı. Bu layihə çox böyük və bir çox materiallara havi olduğundan maliyyə-büdcə komisyonu bunun müzakirəsinə yeddi iclas sərf edib baxa bilmişdir. Bununla bərabər layihənin bir çox yerləri var ki, baxıla bilmədi. Bir çox maddələr də vardır ki, müzakirə olunardı. Lakin ən əvvəl məvaciblərə baxmaq lazım gəldiyindən və məsələ təcili olduğundan bir çox nöqsanlar ilə olsada təcili surətdə qəbul etməyə məcbur olduq. Çünki layihənin bəzi maddələri üçün lazımi materiallar yığılmalı idi. Əmma nöqsan ilə də olsa komisyon müəllimlərin fəna halını nəzərə alaraq surətdə qəbul etməyə vadar oldu. Və parlamana da təklif edirik ki, nöqsanla da olsa təcili surətdə [552 - 553] qəbul edilsin, müəllimlərin fəna halları təmin edilsin. Bu qanun layihəsinin iki cəhəti vardır: Biri müəllimlərin məvaciblərinin artması, digəri isə xozyaystvenni məxariclərin artmasıdır. Dünən maliyyə-büdcə komisyonunun iclasında qət olundu ki, xozyaystvenni məxariclər məsələsinə baxılarsa, ola bilər ki, bir iki iclasa qədər məvaciblərə növbə çatmasın. Bu da gec olar. Ona görə də əvvəlcə məvaciblər məsələsinə baxılıb, müəllimlərə tez pul verilsin. Ondan sonra isə idarə məxaricinə baxılar. Xozyayski məxarici məsələsi gələn səfərə qalıb. Bu layihənin üçüncü qiraəti ilə bir yerdə baxılar. Ona görə təklif edirəm ki, təcili olaraq bu layihəyə baxılaraq qəbul edilsin.

**Rəis** - Danışmaq istəyən varsa, rica edirəm yazıb versin. Muxtar Əfəndizadə.

**Muxtar Əfəndizadə** - Möhtərəm məbuslar. Bu layihənin eynilə qəbul olunmasını hər kəs qəbul edəcək. Komisyonun təshihində qəbul edəcəkdir. Fəqət, bizi bir məsələ düşündürür. Rus hökuməti zamanda din məsələsinə nəzərlə baxılırdısa, yenə eyni nəzərlə baxmaqdadır.

Birinci bunu qəbul etmək istəmirəm.

2-cisi bu proyekti artırmaq lazımdır ki, keçən sənə Seym tərəfindən mart ayında məvaciblər artırılmışdı. Fəqət Mart hadisəsi səbəbilə Bakı, Şamaxı, Ağdaş, Göyçay, Şəki və Şirvan müəllimləri artırılan maaşı ala

bilməmişlərdir. Yalnız Gəncədə yanvardan - iyula qədər alanlar vardı. Mən təklif edirəm, yanvardan iyula qədər müəyyən edilən maaş fövqəlzikr yerlərin müəllimlərinə də verilsin.

**Rəis** - Rica edirəm o təklifinizi yazıb verəsiniz, səsə qoyacağam. Əbilov.

**İbrahim Əbilov** (sosialist) - İbtidai məktəb müəllimlərinə 1200 manat təyin olunubdur. Bizim əqidəmizcə vaxtın bahalığına görə 1200 manat müəllimlərə kifayət eyləməz. hamıya məlumdur indiki bahalıqda 1200 manat deyil 3000 manatla da dolanmaq olmaz. Sosialistlər fraksiyası tərəfindən təklif edirəm, müəllimlərə 1200 manat əvəzinə 1500 manat verilsin. Xidmətçilərin də məvacibi azdır. O da artırılmalıdır. O da 600 əvəzinə 900 manat, 700 manat əvəzinə 1000 manat olsun. [553 - 554]

**Rəis** - Söz Hacı Kərim Saniyevindir. Rica edirəm, Siz də təklifinizi yazıb verəsiniz.

**Saniyev** (sosialist) - Burasını artıq danışmaq istəmirəm ki, elm və oxumaq nə qədər yaxşıdır. Burasını isbat etmək artıqdır. Biz öz uşaqlarımızı müəllimlərə tapşırırıq ki, uşaqlarımızı gələcək Vətən üçün hazırlasın, onların təhti nəzarətində adam olsunlar. Məlumdur ki, Nikolay zamanında müəllimlərə 33 manat 33 qəpik məvacib verilirdi. O zamanın başqa politikası, başqa fikri vardı. Bizim fikrimiz isə büsbütün başqadır. Biz görürük ki, yaxşı və qabil müəllimlər öz sənətlərini buraxıb başqa xidmətlərə girirlər. Əgər məvacib yaxşı olsa, o zaman bunun əksi olar, Qabil adamlar öz sənətlərini buraxıb müəllimliyə girərdilər. Əbilovun təklif etdiyi 1500 manat da azdır. Məəmafiyə artıq deməyib məndə ona şərik oluram.

**Rəis** - Söz Sultan Məcid Qənizadənindir.

**Sultan Məcid Qənizadə** ("İttihad") - Muxtar Əfəndizadə dediyi qayda ilə kənd müəllimlərini 1500 manat ancaq görər. Bizim firqə də xahiş edir ki, 1500 manat olsun. Bundan azı o olacaq ki, müəllimlər yenə ac qalacaqlar. Ayrı şey göstərməyib təkrar edirəm ki, kəndistanda 1500 manat yavan çörəyə kifayət edə bilər.

Çox şöbəli məktəblərdə hər şöbə üçün yüz manat veriləcək. 20 manat məsələsi də azdır. Mən təklif edirəm ki, müəllimlərə ki, 1500 manat veriləcək 20 manat əvəzinə də 50 manat verilsin.

**Rəis** - Mehdi bəy Hacıbababəyov.

**Mehdi bəy Haçıbababəyov** (Müsavat) - Mən istəyirəm ki, cənab məbuslara bir balaca istiqamət verəm. Azərbaycan paytaxtında olan müəllimlər haqqında sizə bir qədər məlumat verəm. Bakıda hazırda 43 müsəlman müəllimi var. Bunların ancaq 28 nəfəri köhnə müəllimlərdir. 65% sensiz student və tələbədir. Bu ondan ötrədir ki, hamı müəllimlər aclıqdan qaçmışlar. Mənim də təklifim budur ki, sosialistlərin təklifi qəbul olunsun, 20 manat əvəzində 50 manat verilsin.

**Rəis** - Söz Abdulla bəy Əfəndizadənindir.

**Abdulla bəy** (Əhrar) - Əfəndilər, zənn edirəm, 1200 manat və 1500 manat ilə müəllimlərin maaşı təmin edilsin. Mümkün [554 - 555] olarsa, müəllimlərə maddi kömək olunsun. Misal üçün Bakını götürəlim. Təsəvvür edəlim ki, bir müəllimin 5 nəfər uşağı var, bu 5 adam gərək paltar geysin, çəkmə geysin və sair onların ehtiyacları təmin edilsin. Bunlardan sərfi-nəzər edərək labuddən gərək çörək yesin. 5 nəfər adam hərəsi gündə 2 girvənkə çörək sərf edərsə, gündə 10 girvənkədən ayda 300 girvənkə edər. Əgər girvənkəsi orta hesabla 4 manat hesab edilsə ayda 1200 manat pul edər. Bəs buna ev lazım deyilmi, müəllim papiros çəkməsinmi? 1200 manat quru çörəyə kifayət etdikdə bəs bunun başqa xərcləri nə olsun? Mən təklif edirəm kooperativmi və ya başqa təşkilatla hər növlə olursa-olsun, hökumət müəllimlərin qeydinə qalmalıdır, onlara ucuz ərzaq şeyləri verməlidir. Yalnız məvacib artırmaqla onların həyatını təmin edə bilməz. Mən təklif edirəm, komisyonun 1200 manatını qəbul edək və faiz məsələsi də müəllimlərin məvacibinə artırılsın.

**Rəis** - Təklif var ki, müzakirə bitsin. Kim bu təklifin əleyhinə və lehinə danışmaq istəyir. Görünür ki, danışmaq istəyən yoxdur. Kim müzakirənin qət olmasına razıdırsa, əlini qaldırsın. Məsələ əksəriyyətlə keçir. Söz rəisi-vükəla Nəsib bəyindir.

**Nəsib bəy** - Möhtərəm məbuslar! Müəllimlərin maaşını nə qədər artırsanız, yəqin ediniz ki, bundan bir şey qeyb etməyəcəksiniz. Çünki bizim varlığımız və istiqbalımız ancaq müəllimlərin əlindədir. Nə qədər müəllim ac olsa, nə qədər gözü ətrafda və özgə əlində olsa, əlbət ki, o müəllim bir şey verə bilməz və o məktəbdən də bir şey çıxmaz. Əlbəttə, bu layihə təklif edilərkən hökumət tək bir müəllimlər deyil, bütün dövlətin halını və xəzinənin gəlir və çıxarını nəzərə alıbdır. hər bir şeydən, hətta maşınların dişindən də kəsib hökumət bir şey artırmaq istəyirdi. Məlumi-alinizdir ki, əgər gəlirimiz, çıxarımızı ödəməsə, gəlir az olsa, o zaman gəlir ilə çıxar arasında bir açıqlıq əmələ gəlir ki, bunu da doldurmaq üçün yenə də stanoqa müraciət olunmalıdır. O zaman gələcək üçün bir şey artırmamış olacağıq. Çünki nə qədər pul çox çap olunsa, o qədər manatın qiyməti azalar. Bu hesab ilə yəni hər bir müəllimə beş yüz manat artırmaq hesabilə baxsanız, o zaman ibtidai məktəb müəllimlərinin məvacibi [555 - 556] artırsa, edadi və ali məktəb müəllimlərinin də maaşlarını, bununla mütənasibən başqa məmurlarımızın da məvaciblərini artırmalı olacaqsınız. Nəticədə çox təfavüt olacaqdır və çox məbləğ tələb olunacaqdır. İndi deyə bilirəm, nə qədər lazım olacaqdır. Hər halda milyonlar və o milyonlarla təfavüt olacaqdır. Hökumət müəllimlərin maaş miqdarını qət edirkən bildirdiki müəllimlərin dişindən kəsir. Fəqət, buna da hökuməti mümkün əhvali maliyyəsi məcbur edirdi. Budcəyə baxsanız orada olan açıqlığı örtmək üçün siz özünüz hamının, hətta müəllimlərin də dişindən kəsib qənaət etməyə məcbur olacaqsınız. Müəllimlərin

maaşının artmasına və bəzi məmurların maaşlarının artıq olmasına hökumət tərəfindən etiraz olmayacaq. (Alqış).

**Rəis** - Söz parlamana üzvü Kravçenkonundur.

**Kravçenko** - Rusca.

**Sədr** - Son söz məruzəçi Əhməd Cövdətindir.

**Əhməd Cövdət** - Əfəndilər! Maliyyə - büdcə komisyonunda bu məsələyə baxılırkən heç bir üzv yox idi ki, müəllimlərin maaşının artırılmasına tərəfdar olmasın. Maaşların bu dərəcə artmasına zidd olan var isə, o da ümumən məmləkətin halını nəzərə alıb, ekonomiya cəhtini gözləyib deyirdi. Hökumət də dedi ki, müəllimlərin maaşlarının artmasına etiraz yoxdur. Mən də deyirəm ki, komisyon tərəfindən də buna etiraz yoxdur. Muxtar Əfəndi elmi-ilahi müəllimlərinin yüz manat olan məvacibin az görüb, başqa müəllimlər ilə bərabər məvacib almalarını təklif etdi. Bu barədə düz deyirdilər ki, elmi-ilahi müəllimlərinə 100 manat verilməsi ona görə deyil ki, onlar elmi-ilahi müəllimdir, ona görədir ki, həftədə bir ya iki dərsləri olur. O birilərinin isə gündə üç-dörd dərsləri olur, məvacib məsələsində zəhmət haqqı nəzərə alınmışdır. Mirzə Məcid və Abdulla bəy Əfəndilərin söylədiyi digər beş ay barəsində ki, Ərəş və Şamaxı uyezdində olan müəllimlər keçən il bu beş aya məvacib almamışlar, bu barədə bizə bir şey məlum deyil. Ona görə bir şey deyə bilmərəm.

**Rəis** - Söz rəisi - vükəlanındır.

**Nəsib bəy Yusifli** (Rəisi - vükəla) - Maaş almayanlara onu deyərdim ki, maaş o gündən başladı ki, Azərbaycan müstəqil və öz işini idarəyə başladı. O vaxtadək yalnız bir müəllimlər [556 - 557] deyil heç kəsə maaş verilməmişdir. Əgər o maaşları vermək lazım gəlsə, böyük bir yekun təşkil edəcəkdir. Bu da çox çətin bir məsələdir. Bu barədə hökumətin bir fikri və müəyyən qərarı var ki, onlara bir şey versin. Hətta bu barədə parlamandan lazımi məbləğ istəniləcəkdir. Əgər şimdi istədiyiniz tək müəllimləri düşünüb onlara verəsiniz, başqaları qalsın, olmaz. Doğrudur, müəllimlər məvacib almamışlar, lakin o vaxt bir şeydə eyləməmişlər. O vaxt məktəb də yox idi. hətta bəziləri var idi ki, başqa xidmətlər görüb para alırdılar. Fəqət, öylələri də var ki, qapısını tutub gözləyirdi ki, vaxt gəlsin, maaş alsın. Əyər tək bunlara vermək istəsəniz hökumət etiraz etməz. Ancaq bir qərar təyin olunmalıdır. Əyər buyursanız, bunu təxir edib hökumət ayrı bir layihə düzəldib təqdim edər ki, kimə nə qədər verilsin. Və bir də onu bilməli ki, bu bizim borcumuz deyil, Zaqafqazski respublikanın borcudur. Azərbaycan deyil, o verməli idi. Kassa onların əlində idi. Əyər mümkün olsa, izn veriniz yeni layihə təqdim olunana qədər bu məsələ təxirə salınsın.

**Əhməd Cövdət** - Maliyyə-büdcə komisyonu tərəfindən [rəisi-vükəlanın] bu təklifinə mülhəq olub təklif edirik ki, bu barədə yeni layihə düzəlsin.

**Rəis** - Müzakirə bitib. Söz verə bilmərəm. Əvvəl təklifləri səsə qoyacağam. Əyər bilsə idim ki, komisyon hansı təklifləri qəbul edir, onu layihənin maddələrinə əlavə edib bir yerdə səsə qoyardım. Qalanlarını ayrı-ayrı səsə qoyardım. İndi mən oxuyuram təklifləri. Əvvəlinci təklif Muxtar Əfəndizadə tərəfindən verilmişdir: (Oxuyur, birinci və ikinci təklifi).

**Əhməd Cövdət** - Komisyon tərəfindən bu təkliflərin ikisinə də etiraz var. Əvvəla ona görə ki, elmi-ilahi müəllimləri başqa müəllimlərdən ayrılmırlar. Maaşlarının azlığı zəhmətlərinə mütənasib və dərslərinin azlığına görədir. İkinci təklif isə...

**Rəis** (kəsir) - İkinci təklif sosialistlərin təklifidir ki, deyir: müəllimlərə min iki yüz əvəzinə min beş yüz, xidmətçilərə isə üç yüz əvəzinə beş yüzdən yuxarı verilsin.

**Əhməd Cövdət** - Maliyyə-budcə komisyonu tərəfindən bu son təklifə etiraz yoxdur. [557 - 558]

**Rəis** - Üçüncü təklifi "Əhrar" fraksiyonu tərəfindən Abdulla bəy Əfəndizadə vermişdir (oxuyur).

**Əhməd Cövdət** - Komisyon bu təklifə də etiraz edir. Çünki qanun layihəsi üç yüz faiz maaşları artırır, bu təklifdə əlavə etsək, hökumət rəisinin dediyi kimi maliyyə mülahizəmizə məğayir olar.

**Rəis** - Səsə qoyuram. Din dərsi müəllimlər ilə başqa müəllimlər arasında olan təfavüt məsələsidir.

**Səslər** - Bərabərdirlər. Zəhmət nəzərə alınmışdır.

**Rəis** - Təklif belə olunub. Kim onların da başqa müəllimlər ilə bərabər məvacib olması tərəfdarısa, rica edirəm əlini qaldırsın. (Əllər qalxır).

**Səslər** - ("Böylə təklif olmaz ki").

**Rəis** - Təklif böylə olub. Mən bilmirəm. Rica edirəm yerinizdən danışmayasınız. Kim əlehinədir? Sayın. 17. Kim səs verməyib? Rica edirəm hamı iştirak etsin. 50-dən ziyadə üzvü var. Amma...

**Səslər** - ("Anlamadıq. Bu barədə danışmaq olar?").

Söz verə bilmərəm, müzakirə bitib, nakaz üzrə olmaz. Təklif olunub səsə qoyuram. Necəki mənə yazılıb verilib, elə də səsə qoyuram. O müəllifin öz işidir. Elə yazsın ki, anlaşılsın. (Sağdan bir səs: Müsaidə veriniz aydınlaşdıraq).

**Rəis** - Rica edirəm, əyləşəsiniz. Hər kəs əvvəlinci təklifi, yəni din dərsi verən müəllimlər ilə başqa müəllimlərin maaşlarının bərabərləşməsi tərəfdarıdırsa rica edirəm əlini qaldırsın. (Əllər qalxır). Lehinə - 7, Kim əleyhinədir? (Əllər qalxır). Əleyhinə - 22. Kim səs verməyib? (Əllər qalxır). Səs verməyən 24 nəfər. Beləliklə məsələ keçmir.

İkinci təklifi səsə qoyuram. Keçmiş yanvardan iyuna qədər seym tərəfindən artırılan məvaciblərin təzyidini almayan müəllimlərə verilməsinə kim tərəfdarsa, əlini qaldırsın, kim əleyhinədir 19, kim səs verməmişdir 16. Rica edirəm, hamınız səs verməkdə iştirak edəsiniz. Ya məsələnin lehinə, və ya əleyhinə səs verəsiniz. Abdulla bəy Əfəndizadənin təklifini səsə qoyuram. Kim ibtidai məktəb müəllimlərinin məvacibini komisyon qərarilə 1200 manat təyin etmək və onlara faiz verməyə tərəfdar isə əlini qaldırsın. 11, kim əleyhinədir [558 - 559] 25, kim səs verməyib 6, bu da rədd olunur. İndi qanunun layihəsinin maddə-bə-maddə səs qoyuram.

**Katib** - 1-ci maddəni oxuyur.

**Rəis** - Kim birinci maddəyə əlavə olunan təklif ilə qəbul edirsə, əlini qaldırsın 39, kim əleyhinədir 1, kim səs verməmişdir 6. Birinci maddə əksəriyyət [səs] ilə qəbul olunur. 2-ci maddəni oxuyunuz.

**Katib** - 2-ci maddəni oxuyur.

**Rəis** - Kim 2-ci maddəni qəbul edirsə, əlini qaldırsın. (Bir səs yerdən) - Popravkam var.

**Rəis** - Rica edirəm, yerdən danışmayasınız... Sayınız 32, mənim borcum deyil, mən məcburam nakaza görə hərəkət edəm. Şifahi verilən təkliflər səsə qoyulmayacaq. Hər kəs ikinci maddənin əleyhinədir əlini qaldırsın. Kim səs verməyib. İkinci maddə əksəriyyət ilə qəbul olunur. 3-cü maddəni oxuyunuz.

**Katib** - oxuyur.

**Rəis** - 3-cü maddəni kim qəbul edirsə? əlini qaldırsın. 51 səs, 3-ci maddə əksəriyyət ilə qəbul olunur. 4-ci maddəni oxuyunuz.

**Katib -** 4-cü maddəni oxuyur.

**Rəis -** 4-cü maddəni komisyon qəbul etdiyi halda kim qəbul edirsə, əlini qaldırsın. 4-cü maddə əksəriyyətlə qəbul olunur. 5-ci maddəni oxuyunuz.

**Katib** - 5-ci maddəni oxuyur.

**Rəis** - Kim 5-ci maddəni qəbul edirsə, əlini qaldırsın. Əksəriyyətlə qəbul olunur.

**Katib** - 6-cı maddəni oxuyur.

**Rəis** - 6-cı maddəni kim qəbul edirsə, əlini qaldırsın.

**Bir səs** - Təshihi ilə.

**Rəis** - Aşkar şeydir ki, təshihi ilə bərabər. Əksəriyyətlə qəbul olunur. Layiheyi-qanuniyyəni tamamilə səsə qoyuram. Kim bu 6 maddəni tamamilə qəbul edirsə, rica edirəm əlini qaldırsın. Layihə tamamilə qəbul olunur.

**Katib** - 2-ci qanun maarif müfəttişlərinin məvacibləri haqqındadır. Qəbul olunan ayda 2000 manatdır. (Oxuyur).

**Mehdi bəy** - Mənim nəzərimdə bu katib ki, oturub nazirin yanında onun məvacibi 1600 manat, kiçik katibin də məvacibi 800 manatdır 1200 manatadək artırılmalıdır. Storoji 750 [559 - 560]manat, məvacib 50 manat ev kirayəsi, bu halda müəllimlərin məvacibi qədər 1600 manat katibə, köməkçisinə 1200 manat verilsin.

**Rəis** - Abdulla bəy Əfəndizadə.

**Abdulla bəy** - Köhnə qanunnaməyə görə maarif müfəttişlərinə böyük əhəmiyyət verilirdi; məvacibləri heç bir vəchlə edadi məktəb inspektorlarından aşağı deyil idi. Onlar xidmətcə, hətta maaşca bərabər, bəlkə artıq idilər. Nə növ ilə düşübsə, hökumət götürüb bunları yek-digərindən ayırmışdır. Maarif müfəttişi ilə edadi məktəb inspektorlarının məvacibi bərabər olmalıdır. Bunu götürüb öylə bir qayda qoymalıdır ki, bu rütbəki, ən əhəmiyyətli bir yerdir, bu yerə lazımlı adamlar gəlsin. Hətta ali məktəb bitirmiş adamlar gəlsin. Buna görə qoyulan 2000 manat azdır, onun da məvacibini 2500 manat etməlidir. Burada bir neçə mülahizə vardır. 500 manat kuryerə, 600 manat yazıçıya, 900 manat katibə verilərsə faiz işdə tətbiq edilərsə o surətdə onlar bu qərar qoyulan şeydən artıq alacaqlar. Büdcə komisyonu götürüb 800 manatı 1200 manat eyləmişdir. Əgər faizi hökumət quldurlarına tətbiq edilərsə, müəllimlər bundan niyə məhrum edilsin. Burada 2000 manat gözə böyük görülür. Bizim təklifimiz budur ki, maarif müfəttişlərilə edadi məktəblər inspektorlarına bu nəzərlə baxılsın. Çünki qulluqda bərabərdilər. Bizim təklifimiz budur ki, hər növlə olursa olsun, təcili surətdə bu pullar müəllimlərə verilsin.

**Rəis** - Söz Mustafa ağa Vəkilovundur.

**Vəkilov Mustafa ağa** (Müsavat) - Burada danışan natiqlər məsələnin ancaq bir tərəfinə əhəmiyyət verirlər. Bu sözlərin əvvəl-axırı onunla qurtarır ki, gərək maaş artsın. Maaşların artmasının lazım olduğunu hamınız bilirsiniz. Lakin məsələnin başqa tərəfinə baxırsınızmı? Bu məsələ büdcə-maliyyə komisyonunda müzakirə olunarkən, komisyonda heç kəs istəmədi ki, bilərək maaşı azaltsın. hər bir şeyin bir tarixi olduğu kimi bu projenin də özünün bir ufacıq tarixi vardır. Lakin o tarixçə burada söykənilmədi. Mən görürəm ki, maaşları artırmaq üçün parlamanda hamıda bir həvəs vardır. Bu da ibtidai məktəb müəllimlərindən başladı ki, onlara ayda 1200 rubl yerinə 1500 verilsin. Bu da qəbul olundu. İndi o [560 - 561] biri müəllimlər və maarif müfəttişləri barəsində danışırlar ki, gərək onların da məvacibləri artsın. Əlbət ki, möhtərəm məbuslar bilirlər ki, müəllimlərin hamısının maaşını artırmaq yaxşıdır. Fəqət, hökumət, dövlət nöqteyi-nəzərindən mümkün deyil ki, maaş böylə artırıla-artırıla getsin. Burada ibtidai məktəb müəllimlərinin maaşı artırıldı. Maarif müfəttişlərinin də maaşlarının artırılmasını təklif edirlər. Onu da artırsaq qeyri hökumət məmurlarının da məvacibini bu nöqteyi-nəzərdən artırmaq lazım gələcəkdir. Ola bilməz ki, bir müəllim ondan böyük vəzifədə olan bir məmurdan çox

alsın. Böylə olsa bu, layihənin üçüncü bir tarixi odur ki, hökumət artırıb verib komisyona, komisyon da artırıb verib parlamana. Bir də parlaman artırmaq istəyir. Beləliklə arta-arta gedir. İndi görək bunun üçün nə qədər pul tələb olunur. Görək xəzinəmiz bunu ödəyə bilirmi? Görək müəllimlərin və müfəttişlərin məvaciblərini artırandan sonra qeyri məmurların da məvaciblərini artırmaq mümkün olacaqdırmı? Zənn edirəm, böylə olsa stanok ki, onun barəsində keçən iclasda danışdıq, o stanok davam etməyib xarab olar. Ona görə mən həmi öz tərəfimdən, həm də maliyyə-büdcə komisyonu tərəfindən deyirəm ki, hərgah komisyon maaşları artırmadısa, onun üçün deyil ki, komisyon istəmədi maaşları artırsın; onun üçündür ki, komisyon bu məsələyə dövlət və məmləkət nöqteyi-nəzərlə baxıb lazımi qədər artırdı. Ona görə deyirəm ki, məsələnin bir tərəfinə baxılmasını və hissiyyat altında müəllimlər yazıqdır, fəqirdir və müşkülat çəkirlər deyib qət eləmək ortaya müşkülat çıxarır. Ola bilər ki, doğrudan da müəllimlərin halı müşkül olsun. Lakin məmləkətin halı-maddi tərəfdən o qədər yaxşı, eyi deyildir, necəki natiqlər təsvir elədilər.

**Rəis -** Daha danışmaq istəyən yoxdurmu, məsələ barəsində? Söz Sultan Məcid Qənizadənindir.

**Qənizadə** ("İttihad") - Məvacibin artırılması barəsində danışanda, aşkar şeydir ki, məbuslar müəllimlər və hamısı səltənətin və hökumətin mənfəətini gərək gözləsinlər. Gözləyir və gözləyəcəklər də. Heç kim istəmir ki, bu qəpik izafə getsin. Müəllimlərin maaşlarını artırmaq barəsində maarif nəzarətində və komisyonlarda müzakirə olunarkən o qədər [561 - 562] danışılıb ki, daha artırmaq qeyri-mümkündür. Müəllim yazıqdır, deyəndə bu hissiyyatla, sinfi təəssüblə deyil, müəllimlərə sədəqə vermək kimi deyil, ancaq onların haqqını söyləməkdir. Onlar da qeyriləri kimi hökumət məmurları olduqlarından qeyri qulluqçulara verilən qədər maaş tələb etməyə haqları vardır. Qaldı ki, gələcəkdə ayrı nəzarətlərin məmurlarının maaşları barəsində danışılacaq. Onun üçün sıxılmamalıdır. Ola bilər ki, o vaxt onların əleyhinə danışaq. Qaldı ki, müəllimlərin, xüsusən kənd müəllimlərinin xidməti o dərəcədir ki, zənn edirəm, onların məvacibləri artsa və yaxşı müəllimlər yerinə qaytarılsa, ayrı yerlərdən də yaxşı müəllimlər gəlsə və sidq ilə qulluq eləsələr, zənn edirəm, az bir zamanda öylə nəticə versin ki, daha yollarda rast gəldiyimiz xain amillər tapılmasın. Hər halda sərf olunan pulun səltənət üçün əhəmiyyəti və mənfəəti çoxdur. hökumətin nəfi bundan çox olar. Bu ona oxşayır ki, bir adam yerə toxum səpib səmərəsini gözləyir. hökumət də indi pul verib, gələcəkdə səmərəsini gözləməlidir. Özgə nəzarətlər də o qədər də məxarici artıran amillər olmaz. Çünki müəllim yaxşı olsa, elm çox olar, elm olanda xəta az olar. Ondan da başqa dairələrdə amillərin az olması mümkün olar. Ona görə müəllimlər barəsində danışarkən ortalığa ayrı məsələ gətirməmək. Çünki mən də o komissiyonda işləmişəm və komisyonda müəllimlər barəsində kamilən danışıq olubdur. Nəzarət dörd ay bundan əvvəl layihəni düzəldirkən bu maaşları kifayət bilibdir. O vaxt bu maaşlar kifayət edirdi də. Amma indi bahalıq münasibətilə komisyon maaşları artırmağı lazım bilibdir. hər gah indiki halda bu maaşlar qəbul olunmasa, qorxuram gələcəkdə daha da çətinlik olub əngəl törənə. Ona görə iltimas edirəm ki, bu layihəyə əhəmiyyət verilib qəbul olunsun. Əgər natiqlər hökumət noqteyi-nəzərilə danışsalar müəllimlərin və qeyrilərin də halına əhəmiyyət vermək lazımdır.

**Rəis** - Söz Abdulla bəy Əfəndizadənindir.

**Abdulla bəy** (Əhrar) - Bəradərimiz Vəkilov cənabları söylədi ki, guya biz iki min yerinə iki min beş yüz təklif edəndə onda məvacib artıq gedəcəkmiş və onunla da xəzinəmiz dağılacaqmış. Sanki bunu gözləyən, anlayan yoxmuş, mətləb buradadır ki, bu noqteyi-nəzəri hamı gözləyir və bilir ki, kağız [562 - 563] artdıqca qiymətdən düşəcək, bahalıq olacaq. Elə bu noqteyi-nəzərdəndir ki, müəllimləri və bütün məmurları öldürməmək üçün məvaciblərin artırılmasını tələb edirik. Adını qoymuşuq böyük maarif müfəttişi, onda gərək o qədər maaş verək ki, həyatını bir növ keçirsin. Nə həqlə müfəttiş köhnə qazanmış pullarını xərcləsin və köhnədən qazanmış hüququnu qeyb etsin. Ona görə bizim təklifimiz budur: (oxuyur).

**Rəis** - Kim bu təklifin barəsində danışmaq istəyir. İstəyən yoxsa səsə qoyuram. Kim bu məsələyə təcili surətdə baxılması tərəfdarı isə rica edirəm, əlini qaldırsın (Əllər qalxır). Əksəriyyət ilə bu məsələyə təcili surətdə baxılması qəbul olunur.

**Əhməd Cövdət -** Təqdim olunan layihə ibtidai, ali-ibtidai, edadi və Bakı politexnik məktəbin müəllimlərinin maaşının artırılmasıdır. İzn veriniz ibtidailərdən başlayıb sıra ilə başacan oxuyuram. İndiyə qədər ibtidai məktəb müəllimlərinə 435 manat məvacib verilirdi. Özünüz bilirsiniz ki, bu məvacib indiki bahalığa görə heç mənzərəsindədir. Hökumətin layihəsində xalq müəllimlərinə otaq ilə min manat məvacib təyin olunmuşdu. Lakin maliyyə-büdcə komisyonu bunu az görürdü. Çünki bu layihə bir neçə ay bundan əvvəl düzəlibdir. İndi isə keçmişə görə hər şey bahalaşmışdır. Ona görə komisyon bunun azlığını nəzərə alıb, min iki yüz olmasını qət etdi. Bundan çox təklif edənlərdə oldu. Lakin əksəriyyət rəylə min iki yüz olması əhti-qərarə alındı. İzn veriniz layihəni oxuyuram. Layihə belədir. (Layihəni oxuyur).

Xalq müəllimlərinin məvacibləri xüsusunda olan qanun layihəsi komissyonca budur.

**Səslər** - Hanki aydan.

**Əhməd Cövdət** - Bəli unutmuşdum. Bütün bu layihədə göstərilən məvaciblər yanvar ayının birindən veriləcəkdir.

**Rəis -** Kim danışmaq istəyir bu barədə. Sez Musa bəy Rəfiyevindir.

**Musa bəy Rəfiyev** ("Müsavat") - Əfəndilər, burada çox söz söylədilər. Yaxşı dedilər müəllimlərin məvacibi artıq olsun, kimsə buna etiraz etməz. Fəqət, əfəndilər, bir az işin gün-günə baxmasıdır. Dedilər ki, bütün Azərbaycan dairəsində on nəfər müfəttiş var, onlara hərəsinə iki yüz - üç yüz manat artırmaqla nə olar. İş bunda deyildir. On müfəttişin hərəsi [563 - 564] 250 manat artıq almaqla bir şey olmaz, fəqət, müfəttişi arxasında başqa qulluqçular da var. Hərgah bunlardan hər birinə 200-300 manat artıq verilərsə, o zaman on milyonlar ilə pul edər. Biz görürük ki, müəllimlərin halı fənadır, aldıqları məvacib azdır. hər zaman müəllimlərin halı nəzərdədir. Lakin ümumi şeyləri nəzərə almalıdır. Qonşularımızın işlərinə baxmalıdır. Gürcüstanda müəllim 800 manat alır. Çörəyin qiyməti də məlumdur ki, buradan bahadır. Sultan Məcid Əfəndinin buyurduğu dörd ay bundan əvvəlkidir. Mən söylədim ki, müəllimlərin məvacibi artırılarkən və ya başqa bir məxaricdə burada qəbul edilərkən xəzinəmizin halı nəzərdə tutulsun.

**Rəis** - Təklif var ki, müzakirə qət olunsun. Bunu səsə qoymadan əvvəl Rəisi-vükəla Nəsib bəyə söz verirəm.

**Nəsib bəy Yusifbəyli** - Mənə öylə gəlir ki, bu saat məvacibləri artırmaq məsələsi müzakirə edildikdə əvvəl lazımdır ki, bunu fikir etmək. Əvvəl səs verdikdə ibtidai məktəb müəllimlərinin məvacibi artırılsın, başqalarını nəzərdə tutmalıydı. İbtidai məktəblərdən ayağa qədər məvaciblər artırılmalıdır, əgər artırmasanız nizami pozarsınız. İbtidai müəllim ilə müfəttişin fərqi var, maaşlarında da tənasübən fərq olmalıdır. Əgər siz bu fərqi pozsanız, o zaman zənn edirəm, maarif işlərinin intizamını pozmuş olarsınız. Bu nəzərə alınmalıdır. İbtidai müəllimlərin maaşını artırmaqla başqalarında o faizlə artırmalı və məmurlarınınkını da artırmalıdır. Güman edirəm bunu əgər dəyişsəniz o surətdə müfəttiş tapmayacaqsınız. Tamam müfəttişlər istefa verib ibtidai məktəb müəllimi olarlar. Çünki, kənddə maaş daha az olur, iki-üç komplekt olursa, maaş daha artıq olar. Onun üçün bu qərar ilə birlikdə qalanların da qəbul etməlisiniz.

**Rəis** - Müzakirənin qət olunması təklif edilir. Kim bunun ləhinədir, əlini qaldırsın. Əksəriyyət rəy ilə qəbul olunur. Son məruzəçi Əhməd Cövdətindir.

**Əhməd bəy Pepinov** - Abdulla bəy tərəfindən təklif olundu ki, ali-ibtidai məktəb müəllimi ilə müfəttişlərin maaşı bərabər olsun. Bunun təfavütü beş yüz manatdır. Bunu da dünən komisyon müzakirə edib artırdı. 1500 manatı iki min manat eylədi. Yenə Abdulla bəy söylədilər ki, kargüzar 1600 manat, yazıçıya [564 - 565] 1200 manat, xidmətkara 980 manat verilsin. Bu saat kargüzar 725 manat alır 80% üzərinə artırılarsa, 1500 manat etməz. Bir də mən yenə xəbər verməliyəm ki, müfəttişlər yığıncağı olmuşdur. Keçən dekabrda özləri qəbul etdikləri qərara görə ayda 2000 manat alırlar. Yol məsarifi də 300 manat. Kargüzar 725 manat, yazıçıya 500 manat verilməsi müfəttişlərin özlərinin təklifidir. Nəsib bəyin dediyinə bir qədər artırmaq olar. Bu surətdə qeyrilərininki də artırılır. Doğrudur, bu da kifayət etməz. Maliyyə və büdcə işini nəzərə almalı, komissyon öz qərarı üzərində durub ancaq xidmətkarın məvacibini artırmaq tərəfdarıdır.

**Rəis** - Deməli, bu təkliflərin heç birini qəbul etmirsiniz. Çünki təkliflərin heç biri komisyon tərəfindən qəbul olunmur, ayrı-ayrı səsə qoyuram. (Katibə) Mehdi bəy, əvvəlinci təklifi oxuyunuz.

**Katib** - (Təklifi oxuyur).

**Rəis** - Kim bu təklifi qəbul edirsə, rica edirəm əlini qaldırsın. (Əllər qalxır). Rica edirəm əlinizi... Danışmayın, danışıb ona-buna mane olursunuz. Ləhinə - 15. Kim əleyhinədir? - 6, səs verməyib? - 23. Beləliklə, təklif qəbul olunur. (Katibə). İkinci təklifi oxuyunuz.

**Katib** - (İkinci təklifi oxuyur).

**Rəis** - İkinci təklifi hər kəs qəbul edirsə, rica edirəm əlini qaldırsın. (Əllər qalxır). Ləhinə - 11. Kim əleyhinədir? (Əllər qalxır). Əleyhinə 13. Kim səs verməyib? (Əllər qalxır). Rica edirəm, iştirak edəsiniz. Ləhinə - 11, əleyhinə - 13, səs verməyən 6. Rica edirəm, bu qədər adamdan 30-u iştirak edir, hamı iştirak etsin.

**Səslər** - Anlaşılmadı, bir də oxunsun.

**Rəis** - Bir də səsə qoyuram. Kim bu təklifə tərəfdardırsa, əlini qaldırsın. (Əllər qalxır). Ləhinə 12, kim əleyhinədir? (Əllər qalxır). Əleyhinə 22. Kim səs verməyib? - 10. Beləliklə, təklif qəbul olunmayır. (Katibə) - Üçüncü təklifi oxuyunuz.

**Katib** - Üçüncü təklifi oxuyur.

**Bir səs** - Komisyon bu təklifə nə deyir?

**Rəis** - Komisyon qəbul etməyirmi? [565 - 566]

**Əhməd Cövdət** - Komisyonun təklifi belədir. (Oxuyur).

**Rəis** - Sosialistlər tərəfindən verilən təklifi hər kəs qəbul edirsə, rica edirəm əlini qaldırsın? (Əllər qalxır). Heybətqulu bəy. Rica edirəm, əyləşəsiniz. Kim əleyhinədir? (Əllər qalxır). Əleyhinə 24. Kim səs verməyib 6. Ləhinə - 19, əleyhinə 25, səs verməyən 6. Təklif qəbul olunmayır. (Katibə) O biri təklifi oxuyunuz.

**Katib** - "Əhrar" fraksiyasının təklifini oxuyur.

**Rəis** - Rica edirəm, səs salmayasınız. Çünki təklifin birinci hissəsi qəbul olunubdur. Ona görə birinçi hissəni götürüb, ikinci hissəsini səsə qoyuram. Hər kəs qəbul edirsə, rica edirəm əlini qaldırsın (Əllər qalxır). Ləhinə 17. Kim əleyhinədir? (Əllər qalxır). Səs verməyən 8. Ləhinə - 17, Əleyhinə 26, səs verməyən 8. Beləliklə, təklif qəbul olunur.

**Əhməd Cövdət** - Birinci təklif belə olunubdur (oxuyur). Deməli xalq məktəbləri müfəttişlərinin maaşı edadı müfəttişlərinin maaşı ilə bərabər olur.

**Rəis** - Parlaman tərəfindən təshih olunmuş və komisyon tərəfindən qəbul olunmuş birinci maddəni kim qəbul edirsə rica edirəm əlini qaldırsın. (Əllər qalxır). Komisyonun təklifi əksəriyyət rəylə qəbul olunur. İkincini oxuyunuz.

**Əhməd Cövdət** - İkinci maddəni oxuyur.

**Rəis** - Bu maddəyi komisyonun qərarı ilə qəbul edən əlini qaldırsın. (Əllər qalxır). Əksəriyyət rəylə qəbul olunur. Üçüncünü oxuyunuz.

**Əhməd Cövdət** - Üçüncü maddəni oxuyur.

**Rəis** - Üçüncü maddəni hər kəs qəbul edirsə, rica edirəm əlini qaldırsın. (Əllər qalxır). Əksəriyyət ilə qəbul olunur. Dördüncü maddəni oxuyuz.

**Əhməd Cövdət** - 4-cü maddəni oxuyur.

**Rəis** - Dördüncü maddəni kim qəbul edirsə rica, edirəm əlini qaldırsın. (Əllər qalxır). Dördüncü maddə əksəriyyət [səs] ilə qəbul olunur. Daha yoxdur ki?

**Əhməd Cövdət** - 5-ci maddəni oxuyur. Bizim tərəfimizdən 760 manat təklif olunur.

**Rəis** - Komisyon tərəfindən 760 manat təklif olunur. Hər kəs bu təklifi qəbul edirsə, rica edirəm əlini qaldırsın. (Əllər qalxır). Təklif qəbul olunur.

**Əhməd Cövdət** - Bundan sonra ali-ibtidai məktəbləri xüsusunda layiheyi-qanuniyyədir.

**Rəis** - Bundan sonra ali-ibtidai məktəbləri xüsusunda qanun layihəsi oxunacaqdır. Lakin ondan qabaq 5 dəqiqəlik tənəffüs elan edirəm. (Tənəffüs elan olunur).

**Tənəffüsdən sonra.**

**Rəis** - İclas davam edir. Növbədəki məsələlərə keçməmiş bəyan edirəm ki, iki kağız gəlmişdir. Biri parlamanın üzvü Cəlil bəy Sultanovdandır. Beləki, bitərəf firqədən çıxıbdır "Musavat" firqəsinə daxil olduğunu bildirir, sonra parlaman üzvü doktor Musa bəy Rəfiyevdən rusca bir ixbarnamə gəlib (Məclisdən səslər: Rusca olmaz, türkcə versin. Buraxmırlar).

**Rəis** - Söz Rəfiyevindir.

**Musa bəy** ("Müsavat") - Möhtərəm məbuslar. Bugün müzakirə etdiyimiz büdcə komisyonu layihəsi bir üsul ilə düzəlmişdir, parlaman o üsulu dəyişir. İbtidai müəllimlərin məvacibləri 1500 - rubla olmalı, bu üsul ilə yerdə qalan məvaciblər də gərək artırılsın. Mən təklif edirəm ki, layihə komisyaya qaytarılsın, layihə təğyir - təbəddül edilərkən sabahkı, məclisə təqdim edilsin.

**Rəis** - Bu təklif əleyhinə kim danışmaq istəyir? Söz Mehdi bəy Hacıbababəyovundur.

**Mehdi bəy Haçıbababəyov** ("Müsavat" - Mən bu məsələnin saxlanmasına şərik ola bilmərəm. Necəki, sədrimiz söylədi faiz məsələsi; 35 faiz tutub getsək və kiçik-kiçik məktəblərə onda sistem dəyişməz.

**Rəis** - Maliyyə-büdcə komisyonunun rəyini səsə qoyuram. hər kəs bu təklifin ləhinədir, əlini qaldırsın - 34. Kim bunun əleyhinədir 1, kim səs verməmiş 2, təklif əksəriyyət rəylə qəbul olunur. Keçirəm növbədəki məsələyə. Növbədəki məsələ hökumət qulluqçularının faiz əlavəsi haqqında layihədir. Məruzəçi Musa bəy Rəfiyevdir.

**Musa bəy Rəfiyev** - Möhtərəm məbuslar! Bu məsələdə haman müzakirə etdiyimiz məsələ kimi bir məsələdir. Müəllimlərin maaşlarının azlığını nəzərə alıb, onların məvacibini artırdınız. İndiki qanun layihəsi bütün qulluqçulara aiddir. Bunu hökumət bir-iki ay bundan əvvəl mülahizə edib. Məlumdur ki, [567 - 568] müxtəlif nəzarətlərdə qulluqçular başqa-başqa məvaciblər alırlar. Onun üçün hökumət bir heyət təşkil etmişdi. haman heyət qulluqçuları bir neçə dərəcəyə bölmüşdür. hər dərəcəyə bir maaş təyin etmişdi, o maaşlar ki, hökumət təklif etmişdi, onların bir çox qüsurları var idi. Bunu komisyon hökumətə geri qaytardı. Qulluqçuların müşkül halını nəzərə alıb hökumət müvəqqəti qanun tərtib vermişdir. Belə qulluqçulardan az məvacib alanlara çox maaş verilsin, çox alanlara az. Məsələn, orada deyilirdi ki, 500 alanlara 90 faiz artırılsın, komisyon isə 550 manat alanlara 90 faiz, 1000-dən 1300-dək 75 faiz, 1200-dən 1500-dək 70 faiz, 1500-dək 60 faiz, 2000-dən 2500-dək 50 faiz etmişdir. Bu qanunda bir qeyd var, bu ildə maaşları artırılanlara və parlaman tərəfindən təsdiq edilən maaşları olanlara bu qanunun dəxli yoxdur. Bir də bu maaşların mart ayının əvvəlindən artırılacağı qanunda göstərildi. Fəqət, komisyonun bu barədə rəyi başqa idi. Komisyon qərar qoymuşdu ki, maaşlar yanvarın əvvəlindən artırılsın. Fəqət, Novruz bayramı üçün verilən müavinəti-nəqdiyyə çıxılsın. Hər iki tərəfin qərarını sizə söyləməyə məcburam. Bu ayda təxminən 7-dən 8 milyonadək 5 ayda 40 milyon təfavüt eləyir. hər gah 3 ay verilsə, onda 23-24 milyon təfavüt edir. Bunuda əlavə edirəm ki, hökumət qulluqçularının doğurdan da halları çox fənadır, aldıqları məvacib kifayət etmir. Komisyon tərəfindən bu qanunun təcili surətdə qəbul edilməsini təklif edirəm.

**Rəis** - Kim buna təcili surətdə baxılması tərəfdarıdırsa, rica edirəm əlini qaldırsın. (Əllər qalxır). Deməli əksəriyyət ilə qəbul olunur.

**Rəis** - Söz maliyyə naziri Əliağa Həsənzadənindir. Mənim borcumdur ki, hökumət üzvlərinə növbədən xaric söz verəm.

**Həsən-zadə** - Məvacib artırmaq xüsusunda hökumət bir komisyon təşkil edib, bu məsələni ona həvalə etmişdi ki, baxsın. Bu komisyonun işi bir nəticə vermədi. Çünki düzəltdiyi layihə şurayi-vükələyə gedəndən sonra müzakirə edilib, qəbul olunmamışdı. Layihənin əsaslarına etiraz var idi. hökumət o etirazları haqlı bilib layihəni qəbul etməmişdi. Bu komisyonun yerinə başqa bir yeni komisyon təşkil olundu ki, məvacibləri artırmaq məsələsinə ətraflıca baxandan sonra necəki [568 - 569] lazımdır qət edib hökumətə girsin. Məbusların və məmurların halını nəzərə alaraq əsl qanun düzəldib gələnə kimi təklif olunur, onların məvacibləri bir qədər, faiz ilə artırılsın. Əsl əsaslar ki, vardır məvaciblər mütənasib olsun, o məsələ həll olunmayıb, çünki nəzarətlər hamısı layihələrini bir vaxta təyin etməyiblər. Ona görə də məvaciblərin biri artıq, biri əskik olubdur. O əsaslar ki, məvacibləri bərabərləşdirmək üçün birinci komisyon qərar vermişdi, hökumətdə düz və haqlı görülməyib etiraz olundu. İndi onun yerinə yeni bir komisyon işləyir ki, orada nazirlərdən də var.

Hökumətdə bir neçə cərəyan vardı. Biri 90 faizdən başlayıb aşağıya qədər artırılması tərəfdarı idi. Bir təklif də var idi ki, 80 faizdən başlayıb aşağı getsin. Bu təklif əqəliyyətdə qaldı. Biz təklif edirik ki, 500-dən başlayıb hər iki yüz əlli manata 5 faiz aşağı düşməklə 90 faizdən hesab edilsin. Lakin bir təklif də var ki, bu məvaciblər martın əvvəlindən hesab olunsun. Mart ayında cəmi qulluqçular məvaciblərini iki dəfə alıblar. Martda artıq aldıqları çıxılmasın. Hökumət bunu qəbul edibdir. Hökumətin təklifi budur ki, martdan hesab edilsin və artıq aldıqlarıda çıxılmasın. Hətta bu təklifədə etiraz var idi. Deyirlər ki, mart məvaciblərini alıblar, apreldən hesab olunsun. Lakin əksəriyyət ilə martdan hesab edilməsi keçdi. Bir təklifdə var idi ki, yanvarın əvvəlindən verilsin. Bu xəzinəyə çox zərərdir. Çünki 115 milyondan ziyadə məvacib verilir. Biz mədaxil gözləyirik. Ancaq daxilimiz ilə xaricimizdə düzəlsin. Bunuda gözləyək ki, nə qədər kağız pul lazımdır. Qorxuram belə olsa, pulu çap etməyə kağız da çatmasın. Vəhalanki, burada pul çap eləmək barəsində böyük etirazlar olurdu ki, kağız pul az olsun. Bunu məvaciblər haqqında da gərək deyək ki, məvaciblərin artması şeylərin bahalanmasına və pulun çoxalıb qiymətdən düşməsinə səbəb olur. Mən elə bilirəm ki, hökumət dediyi kimi martın əvvəlindən olsa bəsdir. Bununla artıq xərcimiz doxsan milyon olur. Təvəqqe edirəm ki, martdan hesab edəsiniz.

**Rəis** - Söz Sultan Məcid Qənizadənindir.

**Qənizadə** ("İttihad") - Bu faiz məsələsi necəki maliyyə-naziri dedi mən də martdan artması tərəfdarıyam. Ələlxüsus, ibtidai [569 - 570] məktəblər müəllimlərinin məvacibləri artmaq məsələsi ki, zahirən çox göründü. hətta alqışlandı. Vəhalanki, müəllimlərin məvacibi yanvardan olub, qeyrilərinki, martdan olduğu halda yenə axır ki, müəllimlərdən çox almış olurlar. Xidmətçilərin məvacibini martdan başlayıb ilin axırınacan, müəllimlərin isə yanvardan başlasaq yenə aralarında böyük təfavüt olar. Müəllimlərə burada bir növ xüsusi diqqət vermişik, vəhalanki, dediyim kimi müəllimlərin maaşını yanvardan hesab etmək heç bir təfavüt etməyir. Mən deyirəm ki, indi müəllimlərin məsələsi keçib gedib. Məvacibləri yanvardan hesab olsa onlara yenə cəfa olacaqdır. Səbəbini də dedim. Çünki kargüzar alırdı 720 manat, indi faiz ilə iki dəfə artıb alasıdır. 1440 manat. Amma müəllimlərin maaşının üstünə qoymuşuq hamısı 300 manat. Bu qayda ilə müəllimlər ilin axırına kimi kargüzarlardan 5-6 min az almış olurlar. Hər gah Abdulla bəy Əfəndizadənin dediyi faiz əsasilə götürsək. Müəllimlərin maaşı 2080-2100 rubla olardı. Amma faiz olmayan da alır 1500 manat ki, bununla da 400 manat hər ay itirmiş olur. Burada aşkar görürük ki, zahirən bir maarifə böyük əhəmiyyət verdiyimiz halda yenə müəllimlərə cəfa edirik. Ona görə deyirəm ki, faiz mart ayından hesab olunsun. Ondan başqa maarif xidmətçiləri üçün də faiz əsası tətbiq olunsun. Hər kəsə sərf eyləsə və istəsə faizi ilə martdan məvacib olmağa ixtiyarı olsun. Çünki maarif xidmətçiləri də, müəllimlər də səltənət qulluqçularıdırlar.

**Rəis** - Söz Qaraşlı Rza bəyindir.

**Rza Qaraşlı** (sosialist) - Göstərilən faiz nisbətən az görünür. Məsələn 500 manata kimi alana 90% təklif edilir. Biz təklif edərdik 120% olsun. Sonra hər 25 manata 10% əksilsin. Məsələn, 750 manat alana 100%, 1000 manat 90%, 1250 manat alana 80%, 1500 manat alana 70%, 1750 manat alana 60% bundan yuxarı alanlara 50% əlavə edilsin.

**Rəis** - Abdulla bəy Əfəndizadə.

**Abdulla bəy** ("Əhrar") - Möhtərəm məbuslar. Cənab Qaraşlının buyurduğu təkliflərə biz də iştirak edib əlavə edirik ki, hər kəs faiz üsulu ilə artıq alacaqsa ona mane olmasın. Bundan əlavə nə qədər maaş artırılsa yenə də məmurların güzəranı təmin olunmayacaq. Buna görə əhrar komisyonu təklif [570 - 571] edir ki, başqa tədbirlər görülsün. Hökumət tərəfindən bir ərzaq təşkilatı və kooperativ kimi düzəlsin ki, bütün məmurlara ucuz qiymətlə ərzaq paylansın.

**Rəis** - Natiqlər sırası bitmiş. Söz rəisi-vükəla Yusifbəylinindir.

**Yusifbəyli** - Möhtərəm məbuslar! Mən çox təəssüf edirəm ki, ərz eləmək istədiyim bir söz nə qədər namütənasib olacaq. Biz hər şeyi görmək istədikdə ancaq dövlətimizin sahibi olmalıyıq və xərcimizi bilməliyik. Əlbət ki, səxavət yaxşı şeydir. Fəqət, məsələ böylə deyil, bir qədər düşünmək lazımdır. Gəlirə görə xərc etməliyik. Əgər bölə olmazsa, qorxuram sonra xərcləməyə bir şey tapmayaq.

**Rəis** - Sön söz məruzəçinindir.

**Musa bəy** - Büdcə komisyonunun nöqteyi nəzəri belədir. Doğrudur, səxavət yaxşı şeydir. Lakin öz halımıza görə, bir şeyi də tərəfimdən əlavə etmək istəyirəm. Məvaciblərin yetişməyi bahalıqdan asılıdır. Bir məmur öz məxaricini yazarkən bu rəqəmləri göstərir. Dörd nəfərdən ibarət bu ailənin bir ayda xərci bu surətdə təqdim edir. Ayda 66 girvənkə ət, 93 girvənkə çörək, bu yanvarda pul məxarici edir ki, 1020 manat. Noyabr ayında 1350 manat. Müharibədən əvvəlki qiymətlə 14 manat 16 qəpik.

Dolanacağın çətinliyi bahalıqdır. Bahalıqda şeylərin az olmağı ilə bərabər, şey standartların artıq tamahından irəli gəlir.

Gəncədə xəbər çıxmışdı ki, məvacib artmış. Buna görə qiymətlər də artmışdır. Əlbəttə bu da ondan irəli gəlir ki, kağız pul çox olursa, şeylərin də qiyməti bahalanır. Bununla mübarizə lazımdır. Bunu biz bir şeydən görürük. Məlumdur ki, 4-5 ay bundan əvvəl çörəyin qiyməti 4-5 manat idi. Yenə də o qərar ilədir. Azərbaycanda hər şeyin qiyməti getdikcə bahalandığı halda çörəyin qiyməti o qərar ilə qalıbdır. Buna da səbəb Bakıdakı sentrodumdur. Çünki sentrodum çörəklərlə rəqabət edir, çörəyi onlardan ucuz satır. Buna görə mən deyirəm əgər cəmaət dükanları kimi təşkilat olsa idi, birinci dərəcədə lazımı şeylər ucuz qiymətlə cəmaətə versə idi, təbii alış-verişçilərin tamahının qabağını almaq olardı. Çörək kimi onların qiyməti bir halda qalardı. Bunun faydası yalnız [571 - 572] məmurlara deyil camaata olardı Hökumət bu xüsusda binanəkü-zarlıqda bulunub camaat dükanları açmağa təşəbbüs etməlidir. Qaldı ki, məvaciblərin yanvardan və ya martdan artırılması məsələsi Məclisi-Məbusan özü təyin eyləsin.

**Rəis** - Layiheyi-qanuniyyəni səsə qoymadan əvvəl daxil olmuş təklifləri səs qoyuram. Qabaqca layiheyi-qanuniyyənin əsasından uzaqlaşan təklifləri səsə qoyacağam. Çünki bəzi təkliflər var ki, layihənin əsasından çox uzaqlaşmayır, bəziləri də var ki, çox uzaqlaşır. Ona görə əvvəlcə uzaqlaşan təklifləri səsə qoyacağam. Bundan savayı "əhrar" fraksionu tərəfindən bir təklif vardır ki, xidmətçilərə ucuz ərzaq satılsın. Bu təklif müstəqil bir təklif olub, layiheyi-qanuniyyə ilə heç bir əlaqəsi olmadığından səsə qoymayacağam.

**Əhməd Cövdət** - Komisyonun qəbul etdiyi qərarlardan başqa böylə bir təklif dəxi dolanmışdır.

**Səslər** - Kimindir, kimindir.

**Əhməd Cövdət** - Təklif sosialistlərindir. (Oxuyur).

**Rəis** - Səsə qoyuram. Kim təklif olunan təriflərin tərəfdarıdır. Rica edirəm əlini qaldırsın. (Əllər qalxır), 14. Kim əleyhinədir - 22. Kim səs verməyib 2. Təklif keçməyir. Sultan Məcid Əfəndi. Siz təklifinizi geri götürürsünüz? Qalar sabaha. Çünki müəllimlərə aiddir. O sabaha qalacaq.

**Sultan Məcid** (yerindən) - Eybi yoxdur, razıyam, qalsın sabaha.

**Rəis** - İndi komisyonun layihəsini səsə qoyuram.

**Əhməd Cövdət** - oxuyur.

**Rəis** - Layiheyi-qanuniyyənin əvvəlinci maddəsini səsə qoyuram. Hər kəs qanun layihəsinin birinci maddəsinin komisyonun qərarı üzrə qəbul edirsə, rica edirəm əlini qaldırsın (Əllər qalxır). 38. Kim əleyhinədir? 2. Kim səsə verməyib? 8. Ləhinə 38, əleyhinə 2, səs verməyən 8. Əvvəlinci maddə komisyonun qəbul etdiyi kimi əksəriyyət ilə keçir. İkincini oxuyunuz.

**Əhməd Cövdət -** 2-ci maddəni oxuyur.

**Rəis -** 2-ci maddəni səsə qoyuram.

**Səslər -** Mart, mart.

**Rəis** - Rica edirəm, hökumətin layihəsində martdır. Komisyonun qərarı ilə isə yanvardır. Səsə qoyuram. Kim 2-ci maddəni komisyonun qərarı üzrə qəbul edirsə, rica edirəm əlini qaldırsın. (Əllər qalxır). Rica edirəm sakit olasınız. Təzədən səsə qoyuram. Hər kəs 2-ci maddəni maliyyə-büdcə komisyonunun qərarı üzrə qəbul edirsə, rica edirəm əlini qaldırsın. (Əllər qalxır). Kim əleyhinədir? Bəziləri əllərini qaldırıb salırlar. Bilmirəm nə edirlər. Bir də səsə qoyuram. Düşünməyən varsa bilsin. 2-ci maddəni komisyonun qərarı üzrə qəbul edirsə, əlini qaldırsın. (Əllər qalxır). Kim əleyhinədir? Kim səs verməyib? Ləhinə 14. Əleyhinə 27, səs verməyən 2. Əksəriyyət Rəylə 2-ci maddə keçməyir.

**Əhməd Cövdət** — Onda hökumətİn təklifi belədir. (Oxuyur).

**Rəis** - 2-ci maddəni hökumətin qərarı ilə səsə qoyuram. Kim razıdır, rica edirəm əlini qaldırsın. Əksəriyyət rəylə 2-ci maddə qəbul olunur. Layiheyi-qanuniyyəni təmamilə səsə qoyuram.

**Əhməd Cövdət** - Biri də var. Qeyd var. (Oxuyur qeydi).

**Rəis** - Hər kəs 3-cü maddənin tərəfdarıdırsa, əlini qaldırsın. Əksəriyyət rəylə 3-cü maddə qəbul olunur. Layiheyi qanuniyyəni təmamən səsə qoyuram. Kim layiheyi-qanuniyyəni tamamən, qəbul edirsə, əlini qaldırsın. (Əllər qalxır). Layihə tamamən əksəriyyət rəylə qəbul olunur. Növbədəki məsələ general Millinin elanı münasibətilə sosialistlər tərəfindən hökumətə verilmiş sualdır.

**Əhməd Cövdət** - Əfəndilər! Əlbəttə ki, bizim fraksiyamız hökumətə bu sualı verərkən bundan bir məqsəd vardı və təbii əhəmiyyəti olmasa idi, bu sualıda verməz idi. Məəttəssüf, əhəmiyyəti vardır. Azərbaycanın camaat vəkilləri məmləkətdə nəkimi əhvalat cərəyan edərsə bilməlidir, təki bizim vasitəmiz ilədə cəmaət vəziyyəti anlasın. Burada rəisi-vükəla buyurdular ki, elanın əhəmiyyəti qalmamışdır. Üç ay irəli İstanbulda çap olunmuşdur və texniki cəhətdən buraya gec gəlib çıxmışdır. Kaş öylə olaydı, əhəmiyyətsiz olaydı. Lakin zənn

etməyirik ki, əllərində bütün dəryalar və simasız teleqraflar bulunduğu halda ingilis dövləti üçün texniki cəhət kağızların gec gəlməsinə bais olsun. Hər gah həqiqətin də bu elan-namənin əhəmiyyəti olmasa idi, ingilis komandanlığı onu yapışdırmazdı. Madam ki, vurulmuşdur, onda əhəmiyyətidə vardır. Demək əgər rəisi-vükəlanın buyurduğu kimi bu elan tətilə qarşı olmasaydı, bu da həqiqət ilə düz olmasın gərək, çünki [573 - 574] biləkəs bu tədbir bəlkə daha da tətilin artmasına səbəb oldu. Və bu da əgər yalnız tətil üçün olmuş olsaydı, yalnız Bakıda vurulardı, daha Zaqafqaziyanın başqa yerlərində yapışdırılmazdı. Fəqət, məlumatımıza görə Tiflis istisna olaraq Zaqafqaziyanın qeyri şəhərlərində də vurulmuşdır. Bu vaxta kimi ingilislər bu elannamələri saxlayıb indi isə yapışdırıblar.

Deməli ki, bir əhəmiyyəti vardır. Buna görə bizim də bu məsələyə əhəmiyyət verməyimiz lazımdır. Elanməyə keçmədən əvvəl ona aid bir neçə kəlmə danışmaq istəyirəm: müharibə bir tərəfin məğlubiyyəti ilə qurtarandan sonra zənn olunurdu ki, qalib, məğlub və bitərəf dövlətlərin nümayəndələrindən ibarət sülh konfransı qurulacaqdır. Bir çoxları sülh konfransı qurulacaqda, o konfransda mübahisəli məsələlər də adilanə surətdə həll ediləcəkdir. Bir çoxları sülh konfransından məzlum və məhkum millətlərin azadlığı və daha bir çox şeylər gözləyirdilər. Bütün cahan və bəşəriyyət gözləyirdi ki, bu qanlı müharibədən sonra qurulacaq sübh konfransı yeni yaşama əsasları düzəldib, dünya da yeni bir həyat dövrəsinə keçəcəkdir. Lakin qəzetə oxuyub təqib edənlər bilir ki, neçə aydan bəri davam edən sülh konfransı bu şeylərə oxşayan bir şey ortaya çıxara bilmir. Bu sülh konfransı millətlər konfransı deyil, ancaq qaliblərin konfransıdır. Orada sülh şəraiti ancaq məğlub millətlərə təklif və diktə etmək üçün bu günlərdə almanların nümayəndəsini oraya çağırıblar və onlara sülh şəraitini veriblər ki, 2 həftəyə ya qəbul, ya rədd etsinlər. Bir vaxt vardı ki, Vilson 14 maddələrindən çox dəm vurulurdu. İndi isə onlar da həyata tətbiq olunmayıb. Onun əvəzində isə, beş qalib dövlətlərin təklifləri ortaya qoyulub tətbiq olunur.

Bilirsiniz ki, millətlərin bəqası adında bir təşkilat düzəltmək fikri var idi. İndi aşkar olur ki, o da beş qalib dövlətin birliyinə donubdur. Və teleqrafların gətirdiyi xəbər də aydın göstərir ki, sülh konfransı dünyada yeni əsaslar və təbəddülata meydan verməyib yaşadıqca köhnə imperializm və burjuanı əsaslarını daha da möhkəmləndirmək və rahatlandırmaq istəyir. Yeni ölkələr qəsb edilir, yeni mandatlar paylanır. Türkiyə vilayətlərindən Suriyanın mandatı birisinə, Fələstin birinə, Ərəbistan, Misir birinə, Ermənistan birinə [574 - 575] verilibdir. Demək onlardan sonra Zaqafqaziyanın da sırası gəlmişdir. Əgər Avropa sülh konfransı doğrudan da dünyada yeni əsaslar qurmaq istəyirdi o vaxt cümlə millətlərin nümayəndəsini çağırıb ədalətli bir sülh yapa biləcək konfrans təşkil edə bilərdi. Fəqət, cahan imperialistləri bunu yapa bilməzdilər və önümüzdəki faktlar da göstərir ki, həqiqətdə belədir. İndi burada qarşımızda ingilis komandanlığı vardır ki, beş aydır onlar ilə münasibətdə bulunuruq. Rəisi-vükəla doğru söylədilər ki, ingilislər əvvəl dəfə buraya gəldikləri vaxt buraxılan intibahnamələr nəzərə alınmalıdır. Doğrudur, o vaxt ingilis komandanlığı Azərbaycan xalqının arzusunu və əzmini bilməmiş və bəzi sərsəmlərin iftiralarına inanmaqda idi. Bunlara baxmayaraq, onların general qubernatorluğu yalnız hərbi olub, ancaq Bakıya aid idi. Zaqafqaziya ilə əlaqəsi yox idi.

Biz arzu edərdik ki, bu elannamənin əhəmiyyəti olmasın və yalnız burada qalsın. Madam ki, burada ingilis komandanlığı vardır, onlar ilə hesablaşmağa məcburuq. Bu barədə onlar haqqında bir neçə söz deməliyəm.

Könüllü dəstəni ingilislər buraxmadı. Bir çox məsələlərdə və bunda da daxili işlərimizə qarışırlar. Demək bizim ixtiyarımız yoxdur ki, İstiqlalımız əleyhinə gedən düşmənimizin qabağına gedək, istiqlalımızı müdafiə edək. Demək olar nəinki fikirlərini dəyişmişlər və Zaqafqaziya cümhuriyyətlərinə istiqlaliyyət və onların yaşamasına müsaidə və izn vermək istəyirlər. Bəlkə bizdə olan məlumata görə onlar bütün Zaqafqaziyanı təhti-işqala almaq və hərbi əsgəri cəhətdən başqa burada siyasi bir hakimiyyət də qurmaq istəyirlər ki, bu da burada buyurulanların əksidir. İngilis rəsmi mənbələrinin fikrini nəşr edən və ingilis siyasətinin barometri olan "Tayms" qəzetində Zaqafqaziya barəsində yazılan məqalələr göstərir ki, doğurdan da onların fikri bizi məhkum etmək və istiqlalımızı əldən almaqdır. İştə haman qəzetə yazır ki: "Zaqafqaziyada güclü bir əl lazımdır... Avropa bu fikirdən danışmalıdır ki, guya beşiyi başında durduğu dörd millət ozünü idarə etməyə müstəhəqdir, guya sərhəd məqaləsi sülh təriqilə həll edilsə belə onlar yekdigərilə sülh və müsalimətlə yaşaya bilər". [575 - 576]

"Erməni, gürcü, tatar və ruslar şiddətli və kəskin ədavətlə bir-birindən ayrı düşmüşdür. "Bizim müdaxiləmiz olmasa idi ermənilər ilə gürcülər Axalkala və Borçalı üstündə hələ də müharibəni davam etdirərlərdi. "Bu onu iddia edir ki, Zaqafqaziyada olan millətlər sərbəst yaşayamaz, gərək bunların üstündə qüvvətli bir əl olsun ki, bunları barışdırsın, çünki Zaqafqaziyada yaşayan rus, müsəlman, gürcü və erməni millətlərinin arasında dərin uçurumlar vardır. Bir yandan da sübut üçün erməni gürcü arasında olan müharibəni alıb deyir ki: biz olmasaydıq ermənilər ilə gürcülər Axalkala ilə Borçalı üstündə daima vuruşacaqlar da". (Oxuyur). Zaqafqaziya cümhuriyyətlərinin hər üçündə naçarlıq müşahidə edilməkdədir. Nə inqibat qabiliyyətindən bir əsər var, nə də həyati təcəddüd işlərinə şüuru etmək təşəbbüsündən. Burada yeganə mühərrik bir qüvvə varsa, o da bükül, həsəd və milli ədavətdir. Siyasi idarə ancaq darısqal milli çərçivə daxilində aparılır. Zaqafqaziyada istiqlaliyyəti ümum özgələrinin hüququnu məhv və ancaq öz hüququnu mühafizəyə çalışmaqdan ibarətdir".

"Heç bir inzibat istedadı, yainki təcəddüd fəaliyyəti əsəri görülmür. Maliyyət işləri qarışıq haldadır. Dövlətlər arasında pul, xərc və qəbulu haqqında ümumi bir sistem yoxdur. Kağız pullar yəqin ki, təmin edilməmiş və pul kəsilməsinin makina qüvveyi istehsalından başqa heç bir hədd və hesabı yoxdur".

"...Müttəfiq dövlətlərdən birisi qabağa çıxaraq Qara dənizdən, Bəhri Xəzərədək bütün nahiyənin idarəsini öz öhdəsinə götürməlidir. Bunu bir dövlət də etməsə, bir neçə dövlət etməlidir. Heç bir dürlü xüsusi idarə burada kafi deyildir.

Nəqliyyat, post, teleqraf, gömrük, aksiz, dövlət bankları təmamilə müttəfiqlərin təhti-idarəsinə alınaraq bütün Zaqafqasiyada onların idarəsinə tabe olmalıdır.

Burada məsuniyyəti - şəxsiyə və mülkiyyəti təmin və müsalimliğı müdafiə üçün uzun müddə Avropanın kontrolluğu lazımdır ki, bu da qismən gürcü, erməni və tatarın istiqlal arzularına müvafiq dəxildir".

Bunun kəndisi göstərir ki, xüsusi castını deməkləri də haman indiki istiqlaliyyət elan hökumətlərin "Tayms"ın fikrincə yalnız onlar olursa, Zaqafqaziyada sülh və salamat ilə [576 - 577] keçinmək mümkün olacaqdır (oxuyur): Məncə Qafqaziyanın etidal gözləyən əfkari-ümumiyyəsi bunu qəbul edər. Fəqət, digər tərəfdən Qafqaziyada qeyri mötədil fikirlər şiddətlə intişar tapmışlardır.

Gözləmək olar ki, Zaqafqaziyanın əqli-səlim sahibi olan və tərəqqiləri üçün müttəfiqlərin köməyi lazım olduğunu etiraf edən ünsürlər belə onların daxili işlərinə müdaxilə edilməsinə şiddətlə müqavimət göstərsinlər. Onlar istəyirlər ki, himayə olsun, amma kontrol olmasın. Halbuki əsgəri işğal siyasi idarədən ayrıla bilməz".

İştə "Tayms"ın bu yerlərinin böyük əhəmiyyəti vardır. Bu göstərir ki, doğrudan da ingilislər 5 ay müddətində nəinki bizim müstəqil olmağımızı arzu etmək fikrinə gəlmişlər, bil əks, bəlkə yenidən bir məhkumiyyət və rusiya əsarətindən yenicə qurtardığımız halda, yenidən bizi bir Yevropa əsarətinə salmaq istəyirlər. İştə general Milinin bu günkü elan-naməsi "Tayms" qəzetinin bu yerləri ilə gözü tutur. Bilirsiniz ki, bir yeri işğal etmək üçün əvvəlcə bir bəhanə lazımdır. Çünki heç bir səbəbsiz işğal etmək arsızlıq olardı. Zaqafqaziyanı ələ almaq üçün ingilis komandanlığı iki şeyi bəhanə gətirir. Birinci Osmanlı dövləti ilə müttəfiq dövlətlər arasında olan mütarikəyi yerinə yetirmək üçün işğal etməyə məcbur olduqlarını söyləyirlər. Bu bəhanənin nə qədər yersiz olduğu aşkardır. Çünki Türkiyənin bir çox mühüm yerləri İstanbul ilə bərabər müttəfiqlərin təhti-işğalındadır. Bütün qüvvət onların əllərində olduğundan Türkiyə ilə istədikləri kimi rəftar edirlər. Ona görə də Zaqafqaziyanı işğal etməyə ehtiyac yoxdur. Necəki görürsünüz, bu bir bəhanədən ibarətdir. İkinci, sülh konfransının qərarına kimi bu yerlər də əmin-amanlığı saxlamaq bəhanəsidir. Zənn edirəm ki, sülh konfransının qərarına kimi asayişi və əmniyyəti biz də saxlaya bilərdik. Bunun üçün Zaqafqaziyadakı indiki vəziyyəti pozmağa heç bir səbəb yoxdur. Elanda ən ziyadə əhəmiyyətli bir şey varsa o da onlara (İngilislərə) qarşı icra olunacaq düşmənanə hərəkətlərə verəcəkləri cəzadır. (Oxuyur). "İngilis ya müttəfiqin qüvasına və ya bunlardan bir fərdinə qarşı və düşmənlərimizə yardım edə biləcək və ingilislərin zərərinə olacaq hər bir təşəbbüsə və dəmir yollara, körpülərə, teleqraf [577 - 578] və telefon tellərinə qabili — istemal sulara və əsgəri mülazimələrə kimə aid olursa olsun, movcib olanlarla bu elannamənin imkana müğayir hərəkət edənlər divani hərb ürficə mühakimə olunaraq, cürminə görə icab edən edam və ya başqa bir cəza ilə təcziyyə olunacaqlardır".

Görürsünüz bu öylə bir dil ilə yazılmışdır ki, öylə iki mənalı söylənilmişdir ki, deyilən sözdən məqsəd açıqcasına nədir, məlum deyil, ancaq özlərinə məlumdur. Elandan heç kəs müəyyən başa düşə bilməz ki, hansı işlər ingilislərin zərərinəədd oluna biləcəklər. Görün bu parlamanda oturub danışmağımız ingilislərə zərərdir, ya yox. Sabah ingilislər desə ki, zərərdir, heç kəs - yox deyə bilməz. Çünki hakim kəndiləridir. Bundan başqa elannamədə Zaqafqaziya millətlərinə və hökumətlərinə aid bir şey olmayıb, ancaq Zaqafqaziyanın əhalisinə müraciət olunur. Burada olan borc camaatin özünə aiddir. Daha hökumət və ictimai müəssisələrin borcu nədən ibarətdir? Bu barədə bir şey deyilməyir. Üstü örtülü keçilir. Ona görə bu elan əhəmiyyətsiz deyildir. Bu vaxta qədər parlaman və hökumət nə qədər ki, cümhuriyyətin və istiqlalımızın müdafiəsinə səy etmişlər, bundan sonra daha şiddətli və qəvi surətdə mühafizə etmək məcburiyyətindədirlər. İngilislər ki, nə qədər daxili işlərimizə qarışmaq o yanda qalsın, isiqlalımızı payımal etmək deməkdir. İngilislərin Zaqafqaziyada tutduqları işlər nəinki millətlərin asayişinə, bəlkə millətlərin daha da düşmənçiliyinə və vuruşmalarına bais olmuşdur. Və bununla cümhuriyyətlərin daxili işlərinə qarışmaq və onları təhti-hakimiyyətlərinə almağı hazırlamışlardır. Geceçqorinin Gürcüstan məclisi-müəssisanında dediyi nitqinə baxsaq haman həqiqət gözə çarpır. Geceçqori deyir ki: "İngilis komandanlığı əvvəl özü bizə dedi ki, Ərdahını tutunuz. Sonra isə çıxmağımızı tələb etdiər. Və bugün üstündə ingilislərlə soyuqluq əmələ gəldi. Naticədə isə ancaq bir çox kəndlərin xarab olmasına və iki millət arasında xüsumatə səbəb oldular. Bundan çıxır ki, onlar bir tərəfdən özləri Zaqafqaziya millətlərinin arasında xüsumatın artmasına səbəb oldular. Digər tərəfdən də "Tayms" yazır ki: Biz Zaqafqaziya millətləri biri birilə sülh ilə yaşaya bilmədiklərindən üzərilərində bir qüvvəli əl olmalıdır. [578 - 579]

Hökumət rəisinin burada dediyini mən də burada təkrar edib deyirəm ki, — hamının qarşısında elan etmiş olduğumuz istiqlalımızı ingilislərmi olur, kim olursa olsun, hamısından müdafiə, mühafizə etməliyiz. Və zənn etməliyik ki, parlamanda bunu təqdir etməyən bir kəs tapılsın. Bu nöqteyi-nəzərdən hökumət böylə elanlara əhəmiyyət verməli və tədbirlər görməlidir. Keçirdiyimiz vaxt çox məsuliyyətlidir. Bunun əhəmiyyətini dərk edib və mümkün olan hər bir təbəddülata, müşkülata hazır olmaq lazımdır. Parlaman və hökumət vaxtın

əhəmiyyətini dərk edib, bütün varlığı ilə istiqlalımızı müdafiə və təmin etməyə çalışmalıdır. Çar əsarətindən yeni qurtarmış Azərbaycan xalqı yeni əsarətə, Avropa əsarətinə girəməz. İngilislər tərəfindən istiqlalımız və hürriyyətimiz əleyhinə müşahidə olunan bu yerişə biz protesto edib, səsimizi ingilis zəhmətkeşlərinə yetişdirməliyik. Onlara bildirməli və göstərməliyik ki, biz də insan kimi hür və müstəqil yaşamaq istəyirik. Bu yolda əzm etmişik və həmən vaxt hürriyyətimizin əleyhinə gedənlərin əksinə də olacağıq. Yenə təkrar edirəm ki, əsarətdən qurtarmış Azərbaycan xalqı heç bir vaxt yeni əsarətə girməyəcəkdir. (Alqış).

**Rəis** - Çünki sual müəllifi və mühərriri hökumət tərəfindən verilən bəyanata qənaət edir, növbədəki məsələlərə keçirəm. "Əhrar" tərəfindən təklif edilmişdi, yəni təklif deyil arzu idi, məmurlar üçün kooperativ açılsın. Güman edirəm parlaman bu arzuya şərik olar. Rica edirəm əyləşəsiniz, məclis hələ qapanmamışdır. Təklif var onlar oxunsun.

**Katib** - "Müsavat" tərəfindən və "sosialistlər" tərəfindən iki qərarda olunmuşdur. (Oxuyur).

**Rəis** - Bu iki təklif ayrıdır. Mən səsə qoymaq istəmirdim. Nakaz da yol vermir. Çünki burada müzakirə olmamışdır. Formalarda qəbul olmaz.

**Məmməd Əmin** (yerindən) - Hər gah mühərrir qənaət hasil edirsə, fitva və illa istizah surətində qalır.

**Səslər** - Doğrudur, səhihdir.

**Əhməd Cövdət** - Mən elə zənn edirəm, keçən kərə də bir sual verilmişdi. Parlaman da onu müzakirə edib qərar [qəbul etmişdi]. İndi elə bilirəm ki, bu barədə də qərar qəbul edilə bilər. [579 - 580]

**Rəis** - O sual başqa idi. Müzakirə edilib müəyyən qərara gəlindi. Təklif vardı ki, bütün məsələlər növbədən götürülsün, yalnız o məsələ müzakirə edilsin. Belə də oldu. Məsələ ətraflı müzakirə edildi.

Növbədəki məsələ Məclisi-Müəssisan seçkiləri haqqında layiheyi-qanuniyyədir. Vaxt kecdir. Təklif var ki, məclis münqəte olsun. Növbədəki məsələnin müzakirəsi sabah saat 12-yə təxir edilir. Məclisi qapayıram.

**Arxiv: f. 895, siy. 1, iş. 88, vər. 19-50.**

## № 37

### Otuz yeddinci iclas

*13 may 1919-cu il*

**Rəis** - Həsən bəy Ağayev. **Katib** - Mehdi bəy Hacınski İclas açılır saat 12.58 dəqiqədə

**Rəis** - İclas açılır. Növbədəki məsələ maarif nəzarəti xidmətçilərinin maaşlarının artırılması xüsusunda dünən müzkirəyə qoyulan layiheyi - qanuniyyənin mabədidir.

**Əhməd Cövdət** (Hümmət) - Əfəndilər! Dünənki məclisdə xalq müəllimlərinin maaşı parlaman tərəfindən artırıldığına görə bu hesabla qeyri müəllimlərin də maaşını artırmaq, onları da bu hala salmaq qərara alındı. Maliyyə - büdcə komisyonunun dünən axşam və bu gün səhər iki iclası oldu. Burada tutulan əsas budur ki, dərslər iki dərəcəyə təqsim edilir. Birinci dərəcə dərslər üçün əvvəlki layihəyə görə ali-ibtidai məktəblərdə 800 manat, ikinci dərəcə dərslər üçün 700 manat qərarlaşdırılmış idi. İndi isə hər dərsə yüz manat əlavə edilərək, birinci dərəcə dərs üçün 900 manat, ikinci dərəcə dərs üçün 800 manat verilmək qərara alındı.

Maliyyə budcə komisyonu bunu nəzərə alıb rica edir ki, məsələ təcili olduğundan təbdil və təğyir ediləcək şeylər buraya əlavə olunmasın. Çünki dünkü kimi bir maddəni başqalarını da ona nisbətlə artırmaq lazım gəlir. Dünən iki qanunnamə qəbul edilərkən birisi xalq müəllimləri maaşları, digəri [580 - 581] müfəttişləri idi. Bu gün də ali-ibtidai məktəb müəllimlərinin maaşlarıdır.

Məlumdur ki, keçmişlərdə müəllimlər verdikləri dərsə görə deyil, yalnız maaş alırdılar. Yəni bir müəllim həm lisan, həm hesab, coğrafiya, tarix və sairə verirdi. Şimdi isə bu əsas dəyişmiş, gimnaziya və edadi məktəblərdəki kimi, hər müəllim öz ixtisası dairəsində dərs deyəcəkdir. Əvvəl necə dərs verən müəllim bir növ maaş alırdı. İndi hər dərsə görə maaş alacaqdır. Maarif nəzarəti təklif eləmişdi ki: tarix, lisan, coğrafiya, hesab və sairə bu kimi birinci dərəcə dərslər üçün 700, rəsm, tikiş kimi ikinci dərəcə dərslər üçün 600 manat. Maliyyə büdcə komisyonu bu dərslərin qiymətini artırıb, birinci dərəcə dərsləri 800 manat, ikinci dərəcə dərsləri 700 manat etmişdi. Dünənki qərara görə təkrar hər dərs üçün yüz manat artırıldı. Böylə ki, birinci dərəcə dərslər 900 manat, 2-ci dərəcə dərslər 800 manat oldu.

Bu qərar üzrə hər ayda müəllim 1350 manat dərs haqqı, 350 manat da mürəbbilik haqqı, cümlətani 1700 manat alır və həftədə 18 dərs verəcəkdir. Bir də yazı dərslərinin təshihi üçün 50 manat alacaqdır. Əlavə olaraq müəllimlərə haqq verilir ki, dərslər təqsim edildikdən artıq qalan dərsləri öz aralarında təqsim eləsinlər. Bu artıq dərslər üçün yuxarıdakı qərar üzrə məvacib alsınlar. Ali-ibtidai məktəblərin cünbundə sənət və ziraət şöbələri də vardır. Onların da ustalarına 1400 manat maaş, yüz manat ev kirayəsi, müavinlərinə 1000 manat maaş, 50 manat ev kirayəsi veriləcəkdir. Marinsk ünas məktəbləri də buraya daxildir.

Burada, məktəb müfəttişi barəsində yadımdan çıxdı söyləyim. Ona dərs qərarilə verilməyib, 1300 manat aylıq maaşı, 350 manat məktəbi idarə etmək haqqı və 200 manat da ev kirayəsi olmaq üzrə, ayda 1900 manat məvacib çıxır. Əgər məktəbin cünbündə sənət şöbəsi olursa 50 manat [onun] üçün alacaq. Deməк məktəb müfəttişlərinin maaşı müəllimlərin maaşından iki yüz manat artıq olur.

**Rəis** - Bu xüsusda kim danışmaq istəyir. Söz Mehdi bəy Hacıbababəyovundur.

**Hacıbababəyov** (Müsavat) — Mən bugünkü stavkalar barəsində danışmaq istəyirəm. Çünki insafca yaxşı düzülübdür. [581 - 582]

Dünən ibtidai xalq müəllimləri barəsində qanun qəbul edilibdir. Bir məsələ qaldı. Şəhər idarələri saxladığı ibtidai xalq məktəblərinin müəllimlərinə də yanvarın birindən maaş veriləcək ya yox? Bu əsaslı məsələdir. Ona görə təklif edirəm ki, şəhər idarələri ixtiyarında olan məktəblərə də qeyri kənd məktəbləri kimi yanvarın birindən verilsin. Əgər bələdiyyə idarələri bu təfavütü verə bilməsələr, o vaxt hökumət öz xəzinəsindən versin.

**Rəis** - Daha söz istəyən yoxdurmu? Kimin təklifi varsa, rica edirəm yazsın, versin. Söz istəyən yox isə axırıncı söz məruzəçinindir.

**Əhməd Cövdət** - Bircə ancaq demək ki...

**Rəis** - İki təklif var. Biri indi varid olan, biri də dünəndən qalan.

**Əhməd Cövdət** - Bir təklif Mehdi bəy Hacıbababəyov tərəfindən verilmişdir. (Təklifi oxuyur). "Bələdiyyələr təhti-məsarifində bulunan məktəblər və müəllimlərin maaşı lazımınca və ya bələdiyyə idarələri para buraxmağa müqtədir olmazlarsa, o vaxt müəllimlərin məvaciblərinə kəfli olmaq lazım gəlir. Mehdi bəy Hacıbababəyov".

Zənn edirəm bu təklif haman bir nəzəriyyədir. Bu qanun ilə səsə qoyulub qəbul olunmaz. Çünki bələdiyyə məktəbləri onun öz ixtiyarındadır; Qapdı ki, bələdiyyə idarələrinə kömək məsələsi, o da hökumətin borcudur. Necəki Gəncə, Bakı, Şəki və qeyri şəhərlər idarələrinə hökumət pul buraxmışdır. Bunu əlavə və daxil etməyə yer yoxdur. İkinci təklif (oxuyur). Maarif nəzarətində xidmət edənlər üçün faiz almaq əyər sərf edərsə, artırma məvacibindən sərfi-nəzər edib əsl məvaciblə almağa ixtiyarı vardır. S. M. Qənizadə".

Bu da o xidmətkarlar üçündür ki, az məvacib alarsa, faizlə almaya ixtiyarı olsun. Zənnimə görə bu qanuni o biri ilə qarışdırmaq çətindir. Biz dünən ələlümum maaşları artırdıq. Belə böyük bir qanun layihəsini qəbul edərkən bu gün də prinsip etibarilə ona zidd olan başqa bir layihə qəbul etməyin əleyhinəyik. Bunu da əlavə etməliyəm ki, bu layihə düzələrkən maliyyə büdcə komissiyonunda faiz əsası nəzərdə tutulmuşdur. Ona görə maliyyə büdcə komissiyonu bu təklifi qəbul etmir. Mən də iki layihənin biri-birinə qarışdırılması tərəfdarı deyiləm.

**Rəis** - Təklifləri birər-birər səsə qoyacağam. (Katibə) Mehdi bəy, oxuyunuz və tərcümə ediniz.

**Katib** - Sultan Məcid Qənizadənin təklifini oxuyur.

**Rəis** - Səsə qoyuram. həmin təklifi hər kəs qəbul edirsə, rica edirəm əlini qaldırsın. (Əllər qalxır). Kim əleyhinədir? Kim səs verməyib? Rica edirəm təklifə fikir verəsiniz və iştirak edəsiniz. 44 adamdan 30 səs verib iştirak edir. Ləhinə 4, əleyhinə 14, səs verməyən 7 bu otuz eylər. halbuki 44 nəfər məbus mövcuddur, çoxu iştirak etməyir. Təzədən səsə qoyuram. Kim təklifin ləhinədir, rica edirəm əlini qaldırsın. Ləhinə 4: kim əleyhinədir? 27, kim səs verməyib? 5 nəfər (Kystra). Sayın neçə məbus var. 44 nəfər mövcud məbusdan 36 iştirak edir. Qalanı iştirak etmir. Mən məcburam adbaad səsə qoyam. Siyahını gətirin. Kim bu təklifin lehinədir?

**Katib** - Rica edirəm fikir verəsiniz, iştirak edəsiniz, məclis uzanmaz və siyahi də oxunub adbaad çağırmağa məcbur olmarıq. Mən yenidən səsə qoyuram. Hər kəs oxunan təklifə tərəfdarsa, əlini qaldırsın. (Əllər qalxır). Ləhinə 7, kim əleyhinədir? (30), kim səs verməyib? 5. Ləhinə 7, əleyhinə 30, səs verməyən 5. Beləliklə, təklif qəbul olunmur.

**Katib** - Mehdi bəy Hacıbababəyovun təklifini oxuyur.

**Rəis** - Hər kəs bu təklifə tərəfdardır, rica edirəm əlini qaldırsın. (Əllər qalxır). Ləhinə 7, kim əleyhinədir? Əksəriyyət rəylə qəbul olunmur. Əhməd bəy layihəni maddəbəmaddə oxuyunuz.

**Əhməd Cövdət** - Birinci maddəni oxuyur.

**Rəis** - Məbus Ağamalov. Rica edirəm yerinizdən danışmayıb fikir verəsiniz. Oxuyanda fikir vermirsiniz. Sonra səsə qoyanda deyirsiniz olmadı. Rica edirəm fikir verəsiniz.

**Əhməd Cövdət** - (Birinci maddənin məbədini oxuyur).

**Rəis** - Birinci maddəni səsə qoyuram. Hər kəs bu maddəyə təfədardırsa, rica edirəm əlini qaldırsın. (Əllər qalxır). Əksəriyyət ilə birinci maddə qəbul olunur. 2-ci maddəni oxuyunuz.

**Əhməd Cövdət** - İkinci maddəni oxuyur.

**Rəis** - 2-ci maddəni səsə qoyuram. Kim tərəfdarsa, əlini qaldırsın. (Əllər qalxır). 2-ci maddə əksəriyyət rəylə qəbul olunur.

3-cü maddəni oxuyunuz.

**Əhməd Cövdət** - 3-cü maddəni oxuyur.[583 – 584]

**Rəis** - Üçüncü maddəni səsə qoyuram. Kim qəbul edirsə rica edirəm əlini qaldırsın. (Əllər qalxır). 3-cü maddə əksəriyyət ilə qəbul olunur. 4-ü maddəni oxuyun.

**Əhməd Cövdət** - Dördüncü maddəni oxuyur.

**Rəis** - Dördüncü maddəni səsə qoyuram. Kim qəbul edirsə rica edirəm əlini qaldırsın. (Əllər qalxır). Əksəriyyəti ilə 4-cü maddə qəbul olunur.

**Əhməd Cövdət** - 5-ci maddəni oxuyur.

**Rəis** - 5-ci maddəni səsə qoyuram. Kim qəbul edirsə, rica edirəm əlini qaldırsın. (Əllər qalxır). 5-ci maddə əksəriyyət ilə qəbul olunur.

Dalını oxuyunuz.

**Əhməd Cövdət** - Altıncı maddəni oxuyur.

**Rəis** - Səsə qoyuram. Altıncı maddəni kim qəbul edirsə, əlini qaldırsın. (Əllər qalxır). Əksəriyyət ilə qəbul olunur.

**Əhməd Cövdət** — Yeddinci maddəni oxuyur.

**Rəis** - Səsə qoyuram. 7-ci maddə əksəriyyət ilə qəbul olunur.

**Əhməd Cövdət** - 8-ci maddəni oxuyur.

**Rəis** - 8-ci maddəni səsə qoyuram. Kim qəbul edirsə, rica edirəm əlini qaldırsın. 8-ci maddə əksəriyyət ilə qəbul olunur. 9-cu maddəni oxuyunuz.

**Əhməd Cövdət** - Doqquzuncu maddəni oxuyur.

**Rəis** - Səsə qoyuram. 9-cu maddəni qeydi ilə qəbul edən əlini qaldırsın. (Əllər qalxır). Əksəriyyət ilə 9-cu maddə qeydilə qəbul olunur. Dalını oxuyunuz.

**Əhməd Cövdət** - Onuncu maddəni səsə qoyuram, qəbul edən rica edirəm əlini qaldırsın. Əksəriyyət rəylə onuncu maddə qəbul olunur. Dalını oxuyunuz.

**Əhməd Cövdət** — On birinci maddəni oxuyur.

**Rəis** — Səsə qoyuram. On birinci maddəni qəbul edən əlini qaldırsın. Əksəriyyət rəy ilə on birinci maddə qəbul olunur. Dalını oxuyunuz.

**Əhməd Cövdət** — On ikinci maddəni oxuyur.

**Rəis** - On ikinci maddəni qəbul edən əlini qaldırsın. (Əllər qalxır). Əksəriyyət rəy ilə bu maddə qəbul olunur.
**Əhməd Cövdət** - 13-cü maddəni oxuyur.
**Rəis** — Səsə qoyuram, 13-cü maddəni qəbul edən əlini qaldırsın. (Əllər qalxır). Əksəriyyət ilə bu maddə qəbul olunur. [584 - 585]
**Əhməd Cövdət** - 14-cü maddəni oxuyur.
**Rəis** - 14-cü maddəni səsə qoyuram. Kim qəbul edir, rica edirəm əlini qaldırsın. (Əllər qalxır). 14-cü maddə əksəriyyət ilə qəbul olunur.
**Əhməd Cövdət** - 15-ci maddəni oxuyur.
**Rəis** - 15-ci maddəni səsə qoyuram. Qəbul edən, əlini qaldırsın. (Əllər qalxır), 15-ci maddə qəbul olunur.
**Əhməd Cövdət** - 15-cı maddəni oxuyur.
`**Rəis** - Səsə qoyuram, qəbul edən əlini qaldırsın. (Əllər qalxır). Əksəriyyət ilə qəbul olunur.
**Əhməd Cövdət** - 17-ci maddəni oxuyur
**Rəis** - Səsə qoyuram, rica edirəm, qəbul edən əlini qaldırsın. (Əllər qalxır). Əksəriyyət ilə qəbul olunur.
**Əhməd Cövdət** — Bundan sonra qanun layihəsi sənət məktəblərinə aiddir. Böylə sənət məktəbləri üç yerdə var. Gəncədə, Nuxada, Zaqatalada. Nəzarətin dediyinə görə Gəncə və Nuxadakı məktəblər hənuz hazır deyil, ancaq Zaqataladakı işləyir. Amma stavkalar hamıya görə indidən qəbul olunmalıdır. Nəzarətin rəylə bu məktəblərin stavkası edadilər kimi qəbul olunmalıdır. Ona görə keçirəm sənət məktəblərinə aid qanun layihəsinə (Oxuyur).
Bütün qanun layihəsi budur. Burada ancaq təbib müavininə 500 manat təyin edilmişdi. Fəqət, nəzarətin dediyinə görə bunlar panvyonda olduqlarından yeməkləri, içməkləri verildiyinə görə beş manat məvacib kifayət edər.
**Rəis** - Bu xüsusda kim danışmaq istər. Yoxsa səsə qoyaram. (Katibə) 1-ci maddəni oxu.
**Katib** - 1-ci maddəni oxuyur.
**Rəis** - Hər kəs birinci maddəni qəbul edirsə, əlini qaldırsın. (Əllər qalxır). Əksəriyyət rəylə qəbul edilir. **Katib** - İkinci maddəni oxuyur.
**Rəis** - Hər kəs 2-ci maddəyə tərəfdar isə əlini qaldırsın. (Əllər qalxır). Əksəriyyət rəy ilə qəbul olunur. **Katib** — 3-cü maddəni oxuyur.
**Rəis** - 3-cü maddəni qəbul edən əlini qaldırsın. (Əllər qalxır). Əksəriyyət ilə qəbul olunur.
**Katib** - 4-cü maddəni oxuyur. [585 - 586]
**Rəis** - Dördüncü maddə tərəfdarı olan əlini qaldırsın. (Əllər qalxır). Əksəriyyət rəy ilə qəbul olunur.
**Katib** - 5-ci maddəni oxuyur.
**Rəis** - 5-ci maddəni qəbul edən əlini qaldırsın. (Əllər qalxır). Bu da əksəriyyət rəy ilə qəbul olunur.
**Katib** - Şimdi üsuli təlim və tərbiyə haqqında qanun layihəsidir. Nəzarət nümayəndəsinin dediyinə görə gələn sənədən təbdil ediləcəkdir. Bu sənədən maaşları verildiyi üçün qanunu qəbul etmək məcburiyyətindədir. (Oxuyur).
**Rəis** - Bu xüsusda danışmaq istəyən yoxsa, səsə qoyacağam.
**Katib** - Birinci maddəni oxuyur.
**Rəis** - Birinci maddəni səsə qoyuram. Kim qəbul edirsə, əlini qaldırsın. (Əllər qalxır). Əksəriyyət ilə qəbul olunur.
**Katib** - 2-ci maddəni oxuyur.
**Rəis** - 2-ci maddəni səsə qoyuram. Qəbul edən əlini qaldırsın. (Əllər qalxır). Əksəriyyət ilə qəbul olunur.
**Katib** - 3-cü maddəni oxuyur.
**Rəis** - Səsə qoyuram. Qəbul edən əlini qaldırsın. (Əllər qalxır). Əksəriyyət ilə qəbul olunur.
**Katib** - 4-cü maddəni oxuyur.
**Rəis** - Səsə qoyuram, qəbul edən əlini qaldırsın. (Əllər qal-xır). Əksəriyyətlə qəbul olunur.
**Katib** — Bu qanun layihəsi də pedaqoji muzey barəsindədir. (Oxuyur).
**Rəis** - Qanun layihəsi barəsində danışmaq istəyən yoxsa, səsə qoyuram. Görünür yoxdur. hər kəs bu qanun layihəsini qəbul edirsə, rica edirəm əlini qaldırsın. (Əllər qalxır). Deməli əksəriyyətlə qəbul olunur. Ali-ibtidai məktəblər barəsində olan qanun layihəsi qurtardı. İndi keçirik edadi məktəblərə.
**Əhməd Cövdət** - Bayaq dediyim kimi dərs haqqı barəsində müəyyən bir şey yoxdur. Maaşların artırılması barəsində təğyirat və təbəddülat olmuşdur. Nəzarətin bizə verdiyi layiheyi-qanuniyyəyə görə birinci dərslərə ayda səkkiz yüz manat, 2-ci dərslərə 700 manat veriləsiydi. Maliyyə-büdcə komisyonu 2-ci dəfə müzakirə edibdir. Sıfrı dəyişdi. Böylə ki, birinci dərslərə 1000 manat, ikinci dərslərə 900 təyin etdi. Həftədə 18 dərs hesabilə 1500 manat edir. Mürəbbilik üçün 450 manat. Beləlik ilə müəllim 1950 manat məvacib alacaqdır. Bundan [586 - 587] başqa yazıları təshih etmək və fəzlə dərslər haqqı vardır. Bunun ilə bir yerdə müəllim cümlətani 2400 manat ala biləcəkdir. Birinci dərəcə dərslər təlimi 1950 manat, ikinci dərəcə dərslər 1800 manat təyin edilmişdir.

Məktəb müdirinə sənədə 1920 manat təyin edilmişdi. Altı dərsdə, hər dərs üçün 100 manat. Deməli, maliyyə-büdcə komisyonu qərar qoymuş ki, məktəb müdirinə 2200 manat məvacib, 300 manat mənzil haqqı, müfəttiş isə 2100 manat məvacib, 200 manat mənzil haqqı. həpsi 2300 manat. Ola bilər ki, bu məvacibdə onlara kifayət etməsin. Fəqət, nəzərdə tutulmalıdır ki, məvacib yanvarın birindən veriləcəkdir. Maliyyə-büdcə komisyonu yeni şeylər hazırlayıbdır. O ki, qaldı qulluqçuların məvacibi məsələsi, onlarınkı də keçmiş qulluqçular kimi məvacibləri artırılmışdı. Bu qanun həm zükur, həm də ünas məktəblərinə aiddir. Sinif xanımları bütün - bütün qaldılar və eylülün birindən hesab olunur. Bundan başqa sinif xanımlarına aid maddə barəsində deyə bilərəm ki, maarif nəzarəti bu barədə də xüsusi bir layihə tərtib vermişdir. Bu günlərdə parlamana təqdim edəcəkdir. Qaldı ki, xidmətlərin stavkası belədir.

**Rəis** — Oxunmuş layihə xüsusunda kim danışmaq istəyir? Danışmaq istəyi yox isə səsə qoyacağam. (Zəng çalınır - üzvləri bayırdan içəri çağırırlar)

**Əhməd Cövdət** - (Ruscaya tərcümə edir).

**Rəis** - Qanun layihəsini tamamən səsə qoyacağam. Cədvəlləri səsə qoyacağam. Hər kəs qanun layihəsini tamamilə qəbul edirsə, rica edirəm əlini qaldırsın. (Əllər qalxır). Əksəriyyət rəylə edadi məktəblərə aid layihə qəbul olunur. Dalını oxuyunuz.

**Əhməd Cövdət** - Qaldı iki qanun layihəsi. Biri darül-müəllimin, digəri də Bakı politexnik məktəbinə aiddir. Darülmüəlliminlər barəsində danışmaq lazım deyildir. Ancaq onu deyərdim ki, hər halda orta məktəb müəllimlərinin maaşlarından çox olacaqdır. Darülmüəlliminlərdə maaş dərsə görə verilməyibdir. Layihə budur. (Oxuyur). Darülmüəllimlərin yanında ibtidai məktəblər vardır. Onların da müəllimlərinə məvacib böylə qərar verilmişdir. (Oxuyur). [587 - 588]

**Rəis** - Darülmüəllimin layihəsi xüsusunda kim danışmaq istəyir. Qanun layihəsinə etiraz yox isə səsə qoyuram. (Səslər: Qoy-qoy).

**Əhməd Cövdət** - Rusca da oxuyummu?

**Rəis** - Oxuyunuz.

**Əhməd Cövdət** - (Rusca oxuyur).

**Rəis** - Layihənin darülmüəlliminə aid hissəsini səsə qoyuram. Kim qəbul edirsə, rica edirəm əlini qaldırsın. (Əllər qalxır). Əksəriyyət ilə layihə qəbul olunur.

**Əhməd Cövdət** - Biri də Bakı Politexnik məktəbi xüsusundadır. Buraya maarif nəzarəti çox əhəmiyyət verir. Çünki, oranın müdiri və müəllimləri ali təhsil görmüş müəllimlər və mühəndislərdir. Ona görə məvacibləri də başqa müəllimlərdən artıq olmalıdır. O səbəbə layihəcə müdirə (3500) rubla maaş təyin olunmuşdur. (Oxuyur və tərcümə edir). Qurtardı.

**Rəis** - Oxunan cədvəllər barəsində kim danışmaq istəyir? Danışmaq istəyən yoxsa səsə qoyacağam. Qanun layihəsinin Bakı Politexnik məktəbinə aid hissəsini səsə qoyuram. Kim qəbul edirsə, rica edirəm əlini qaldırsın. (Əllər qalxır). Əksəriyyət rəylə layihə qəbul olunur. Maarif nəzarəti tərəfindən müəllimlərin və xidmətçilərin maaşlarını artırmaq xüsusunda verilən qanunun layihəsini tamamilə səsə qoyuram. Kim qəbul edirsə, rica edirəm əlini qaldırsın. (Əllər qalxır). Əksəriyyət rəylə qanun layihəsi təmamən qəbul olunur.

Məvaciblər yanvarın birindən hesab olunacaqdır. Növbədəki məsələ Məclisi-Müəssisan seçkiləri xüsusunda verilən qanun layihəsidir. Lakin komisyondan rica edirəm ruscasını əcnəbi fraksiyonlarına yollasınlar. Çünki onlar türkcə bilmədiklərindən layihəni oxumamışlar. Oxusunlar, sonra müzakirə edərik. Təzə qanunlardan ədliyyə nəzarəti tərəfindən gəlmiş həbsxanalarda müfəttişlər təyini xüsusundadır. O da lavayehi-qanuniyə komisyonuna gedir. Sonra təklif var ki, maliyyə-büdcə komisyonuna Nərimanbəyobun yerinə Ağabəy Rza bəy seçilsin. Bunu da yadınızda saxlayın ki, gələn iclasa seçəsiniz. İndi məsələlər bitdiyindən iclası qapayıram.

İclas bağlanır saat 2.30 dəqiqədə.

**Arxiv: f. 895, siy. 1, iş. 88, vər. 11-15.**
[588 - 589]

## № 38

## Otuz səkkizinci iclas

*15 may 1919-cu il*

**Rəis** - Həsən bəy Ağayev. **Katib** - Mehdi bəy Hacınski Müzakireyi-yomiyyə:

1 - Sərmayə vergisinin təbdili və sənə ibtidasına keçirilməsi haqqında layiheyi-qanuniyyə; 2 - Əxzi-əsgər idarələri təşkili haqqında qanun layihəsi; 3 - Parlaman məbuslarına və hökumət əzalarına veriləcək yomiyyə haqqında; 4 - Etimadnamə komisyonunun məruzəsi; 5 - Məclisi-Müəssisan intixabı haqqında layiheyi-qanuniyyə; 6 - Daxil olmuş kağızlar, o cümlədən:

a) Ədliyyə nəzarəti indində məbəs müfəttişliyi təsisi haqqında layiheyi-qanuniyyə; b) Balıq və balıq məhsulları ixracatının təbdili haqqında layiheyi-qanuniyyə; t) Quba bələdiyyə idarəsinə səpmə yatalaq ilə mübarizədə bulunmaq üçün yüz min rublə faizsiz borc verilməsi haqqında layiheyi-qanuniyyə;

s) Bakı və çivarinda posta teleqraf məmurları üçün ambulatoriya təşkili haqqında layiheyi-qanuniyyə.

Qəbul olunmuş layihələrdən iki əvvəlinci layiheyi-qanuniyyə komisyonuna və iki axırıncılar da maliyyə-büdcə komisyonuna keçməsi qəbul edildi.

Üzvlərdən Ağabəy Səfərəliyevin "İttihad" firqəsindən çıxması bəyan edildi. Təzə üzvlərdən Boqdan Qəhrəmanoviç Calayans iclasda iştirak edir.

**Rəis** - Əfəndilər, həmin may ayının 28-də Azərbaycan Cümhuriyyəti istiqlaliyyətinin illik bayramı icra ediləcəkdir. hökumət öz tərəfindən bu təklik üçün lazımi tədbirlər görəcəkdir. Biz isə bu haqda bir qeyri komisyon intixab etməyib bu milli [bayramı] qeyd üçün tədbirlər ixracatını ləvazim komisyonuna həvalə edək. Və komisyon lazımi tədarüklər görsün "deyib bu haqda iclasa təklif edir. Təklif qəbul edilir. Rza bəy Ağabəyov, Muxtar Əfəndizadə və Abdulla bəy Əfəndizadə maliyyə və büdcə komisyonuna intixab edilmələri təklif edildi. İntixab iclasın axırlarında olacağını rəis məlum etdi.

Sərmayə vergisinin təbdili və sənə ibtidasına keçirilməsi haqqında Şəfi bəy Rüstəmbəyli bəyənat verib, layihəni oxudu. [589 - 590] Bu haqda Yusif Əhmədzadə, Abdulla bəy Əfəndizadə, Hacı Kərim Saniyev mübadileyi əfkar etdilər.

**Rəis** - Layihənin ikinci qiraəti oxunmasını səsə qoydu. Əksəriyyəti - ara ilə qəbul edildi. Katib layihənin qiraətini maddəbəmaddə oxudu. Rəis layihəni maddəbə-maddə səsə qoydu, qəbul olundu. Üçüncü qiraət isə gələcək iclasa təxir edildi.

**Əxzi** - əsgər idarələri təşkili haqqındakı layihə barəsində Qara bəy Qarabəyli bəyanət verdi.

**Rəis** - Bu layiheyi-qanuniyyə böyük olub və layiheyi-qanuniyyə və hərbiyyə komisyonlarının əlavələri olduğu üçün həmin komisyonların müştərək qiraətinə verilməsini təklif etdi. Bu təklif əleyhinə Musa bəy Rəfiyev danışdı. Təklif səsə qoyulub əksəriyyəti - ara ilə məzkur komisyonların müştərək müzakirəsinə verilməsi qəbul edildi.

Məbusların diyetaları və hökumət əzasının təzyidi haqqında Mehdi bəy Hacıbababəyov bəyanat verib layihəni oxudu. Bu haqda Qara bəy Qarabəyov, Mustafa Mahmudov, Sultan Məcid Qənizadə, Səmədağa Ağamalov, Muxtar Əfəndizadə mübadileyi əfkar etdilər. Müzakirə qət edilməsi təklifi səsə qoyulub qəbul olundu. Layihənin ikinci qiraətinin oxunması səsə qoyulub qəbul edildi. Yeni təkliflər verildi, səsə qoyulub qəbul edildi. Katib layihəni maddəbəmaddə oxudu, səsə qoyulub layihə qəbul edildi. Üçüncü qiraəti isə gələcək iclasa təxir edildi. 5 dəqiqə tənəffüs elan olundu.

Tənəffüsdən sonra iclas davam edir. İntixab vərəqləri verildi. Rza bəy 40 səs, Abdulla bəy 29 səs və Muxtar Əfəndizadə 24 səs alaraq maliyyə və büdcə komisyonuna üzv intixab edildilər.

**Rəis** - Etimadnamə komisyonu tərəfindən Abbas bəy Atamalıbəyov məruzə oxudu. Məruzənin məzmunu: Etimadnamə komisyonunun bəratülqövli. İştirak edənlər: Ş. B. Rüstəmbəyli, 3. B. Vəzirzadə, A. Papyan, A. T. Atamalıbəyov. Böylə qərar qoyduq: 1) Gəncə erməni əhalisi tərəfindən parlamana intixab edilən üzvlər: A. Malxazyan, Amaspyur, Ter-Azaryan və Xodjayanın mandatları dürüst olduğu üçün qəbul edilsin. Bu haqda komisyon üzvü 3. B. Vəzirov, Malxazyan və Amaspyurun intixabı dürüst olmadığına səs verib ayrı bir rəydə qaldı. 2) Cavanşirdən intixab edilmiş üzv C. B. Lənbəranskinin intixab işi dürüst olmadığı üzrə haman qəzadan qeyri bir qanunu intixab olmasına üç həftə vaxt verilsin. 3) Bağır Rzazadənin ərz-halı biəncam qalsın. 4) Bağır Rzazadə parlamana üzv intixab haqqında sosialistlərin istidası qəbul edilsin.

**Rəis** - Balada zikr olunan intixabat haqqındakı komisyonun qərarlarını ayrıca səsə qoyduqda əksəriyyəti — ara ilə komisyonun rəyi qəbul olundu.

**Arxiv, f. 895, siy. 1, iş. 76, vər. 195, 196.**

## № 39

## Otuz doqquzuncu iclas

*19 may 1919-cu il*

**Rəis** - doktor Həsən bəy Ağayev. **Katib** - Mehdi bəy Hacınski Müzakireyi-yomiyyə:

1 - Parlamanın məbusları ilə hökumət əzalarının diyetaları haqqında layiheyi-qanuniyyə (Üçüncü qiraət): 2 - Sərmayə vergisinin təbdili və sənə ibtidaisinə keçirilməsi haqqında layiheyi-qanuniyyə (Üçüncü qiraət); 3 - Əxzi-əsgər idarəsi təşkili haqqında layiheyi-qanuniyyə; 4 - Məclisi-Müəssisan seçkiləri haqqında layiheyi-qanuniyyə; 5 - Azərbaycan istiqlalının sənə ibtidası nümayişinin tərtibi üçün iki yüz min rublə buraxılması haqqında ləvazim komisyonu sədrinin ərazi-halı (təcili); 6 - Gəncə bələdiyyəsinə bir milyon rubla qərz verilməsi haqqında layiheyi-qanuniyyə; 7 Hökumətin - 20 - milyonluq fondunun - 40 - milyona qədər artması haqqında layiheyi-qanuniyyə; 8 - Daxil olmuş kağızlar. O cümlədən:

a) Maliyyə naziri cübundə müfəttişlik məmuriyyəti ehdas etmək haqqında layiheyi-qanuniyyə; b) Parlaman divani - rəyasətinə və ləvazim heyətinə məxsus iki avtomobilin 8 aylıq smetası haqqında layiheyi-qanuniyyə.

Rəis iclası saat yarım vaxtından gec olaraq açır. Siyahı üzrə 44 üzv vardır. İclasda isə 35 üzv isbati-vücud edir. Kvorum [591 - 592] olmadığı üzrə rəis iclası qapamaq istəyir. Lakin qapamayıb 5 dəqiqə tənəffüs elan edir. Siyahiyyə imza edib də iclasda mövcud olmayan üzvlərin adları bəlli olmaq üzrə katib imza edənlərin siyahisini oxudu. Bir qədərdən sonra Kvorum düzəldi və rəis iclası açdı.

1 - Parlaman məbusları ilə hökumət əzalarının diyetaları haqqında layihənin üçüncü qiraətin maddəbəmaddə oxudu. Parlaman nizamnaməsinin 172-ci maddəsi mövcibincə layiheyi-qanuniyyəyi rəis qapalı üsul ilə (şar ilə) səsə qoydu. Ləhinə - 40 - ağ şar və əleyhinə - 12-qara şar verilmək üzrə layiheyi-qanuniyyə əksəriyyəti - ara ilə qəbul edildi.

2 - Sərmayə vergisinin təbdili və sənə ibtidasına keçirilməsi haqqında layiheyi-qanuniyyənin üçüncü qiraətini katib oxudu. Layiheyi-qanuniyyə maddə-bə-maddə səsə qoyularaq əksəriyyəti - ara ilə qəbul edildi.

3 - Əxzi - əsgər idarələrin təşkili haqqında layiheyi-qanuniyyə məruzəçi olmadığı üçün müzakirə edilmir.

4 - Məclisi-Müəssisan seçkiləri haqqındakı, layiheyi-qanuniyyə haqqında məruzəçi Məmməd Əmin Rəsulzadə bəyanat verdi.

Bədə Muxtar Əfəndizadə, Abdulla bəy Əfəndizadə, Xodjayan, Məmmədəmin Rəsulzadə, Mustafa Vəkilov, Hacı Kərim Saniyev, Sultan Məcid Qənizadə, Yusif Əhmədzadə, Əhməd Cövdət Pepinov, Rza bəy və Ağa Aşurov mubadileyi-əfkar etdilər. Məruzəçi məlumat verdi. Müzakirə bitdi.

Layihənin ikinci qiraətinin oxunması səsə qoyulub qəbul olundu. Lakin növbəti məsələ mühüm olduğu üçün ikinci qiraət gələcək iclasa təxir edilməsi qəbul olundu.

- Azərbaycan istiqlalının səneyi-dövriyyəsi, şənliyi-tərtibi haqqında layiheyi-qanuniyyə təcili surətdə müzakirə edilməsi səsə qoyulub qəbul olundu. Mehdi bəy Hacıbababəyov bəyanat verdi. Əhməd Cövdət Pepinov nitq söylədi. Şənlik üçün göstərilən iki min rubla əvəzinə yüz min rubla buraxılması təklif edildi. Təklif səsə qoyulub əksəriyyəti - ara ilə qəbul edildi. Layihənin ikinci hissəsi əfvi-ümumi haqqında bir çox mübahisə oldu. Bu haqda bir komisyon intixab edilməsi təklif olundu. Səsə qoyulub qəbul olundu. 5 dəqiqə tənəffüs elan edildi. [592 - 593]

Tənəffüsdən sonra bir komisyon intixab edilməsi təklifi bir də səsə qoyulması təklif edildi. Rəis təklifi səsə qoyul-duqda ləhinə 17, əleyhinə 23, səs verməyən isə 4. Beləliklə əfvi-ümumi məsələsi ləğv edildi.

**Arxiv, f. 895, siy. 1, iş. 76, vər. 189-190.**

## № 40

## Qırxıncı iclas

*22 may 1919-cu il*

**Rəis** - doktor Həsən bəy Ağayev. **Katib** - Mehdi bəy Hacınski **Rəis** müəyyən olunmuş vaxtdan bir saat keçmiş isə də hənuz kvorum düzəlmədiyini məlum edərək növbəti məsələlərin müzakirəsinə keçməyibdə iclası qapadı.

**Arxiv: f. 895, siy.. 1. iş. 76, vər. 187.**

**№ 41**

**Qırx birinci iclas**

*26 may 1919-cu il*

**Rəis** - Həsən bəy Ağayev. **Katib** - Əhməd Pepinov İclas açılır saat 11.50 dəqiqədə.

**Rəis** - İclas açılır. Bugünkü müzakirati-yomiyyə heyəti sədarət tərəfindən bu qərar ilə tərtib edilmişdir:

1 - Əxzi əsgər idarələri təşkili haqqında layiheyi-qanuniyyə, (3-cü qiraət), 2 - Gəncə bələdiyyə idarəsinə bir milyon rüblə borc verilməsi haqqında layiheyi-qanuniyyə; 3 - Hökumətin 20 milyonluq fondunun 40 milyona qədər artması haqqında layiheyi-qanuniyyə; 4 - Bakı bələdiyyə idarəsinə beş faiz ilə 10 milyon rüblə borc verilməsi haqqında layiheyi-qanuniyyə; 5 - Məclisi-Müəssisan seçkiləri haqqında layiheyi-qanuniyyə; (2-ci qiraət, [593 - 594] məruzəçi: Məmməd Əmin Rəsulzadə); 6 - Ünas edadilərinin nizamnamələrinin təğyir və təkmili haqqında layiheyi-qanuniyyə; 7 - Neft aksizi "Qulluqçu" idarəsinin ştatı layiheyi-qanuniyyəsi; 8 - Daxil olmuş kağızlar, o cümlədən:

a) səhhəti-ümumiyyə nəzarətinə yeddi milyon həştad üç min beş yüz rüblə buraxılması haqqında layiheyi-qanuniyyə; b) xüsusi təftişat və təhqiqat komissiyası təssi; ğ) maliyyə nəzarəti nəzdində gömrük vergisi şöbəsi təşkili haqqında layiheyi-qanuniyyə; d) əsgərlikdən azad olunan şəxslərdən bədəli-əsgəriyyə alınmasının ləğvi haqqında layiheyi-qanuniyyə; h) yer və tövci vergisinin artırılması ilə bərabər torpaq, gəlir və məxaric smetasının və torpaq vergisi miqdarlarının 1919 sənəsinə təmdili haqqında layiheyi-qanuniyyə; v) Azərbaycan hökumətinin nəzdində məiyyət bölüyünün ştatı haqqında layiheyi-qanuniyyə; z) Parlament məbusu Qriqori Tsixakayanın ərzi-halı; h) "Müsavat" fraksiyasının hökumətə sualı.

Bunlardan savayı iki-üç təklif var ki, vaxtında onları edəcəyəm. O cümlədən "Müsavat" fraksiyasının ərzi-halıdır.

Bu qanunlardan birincisi, ikincisi göndərilir layihə komissiyasına. Üçüncüsü maliyyə-büdcə komissiyasına, dördüncü, beşinci layiheyi-qanuniyyə komissiyasına, altıncı, bölük təşkil etmək haqqında gedir maliyyə-büdcə komissiyasına.

Divani-Rəyasət tərəfindən təklif var ki, "Müsavat" fraksiyasının sualı indiki zamanda artıq əhəmiyyəti olduğu üçün birinci olsun. (Bir səs yerdən: Nə sual?)

**Rəis** - Sual sərhədimizin Şimal tərəfindən təhdid altında olduğu xüsusundadır. Bu hadisə çox əhəmiyyətlidir. Azərbaycan istiqlalı üçün. Mən təklif edərdim bu məsələ növbədəki məsələlərdən əvvəl müzakirə edilsin. Buna etiraz yoxsa salaq qabağa. (Yerdən: Yoxdur).

Bir də parlament üzvü Qriqori. İvanoviç tərəfindən belə bir ərzi-hal bgəlibdir. (Rusca oxuyur).

Sonra borc bilirəm məlum edəm parlamentə ki, qəbul edilmiş qanuna görə parlament üzvlərindən Qasım bəy Camalbəyov və Hacıəli Qasım oğlu üzvülükdən xaric olunurlar. Birincisinin vaxtı bu ayın 4-də tamam olur. Zakonla iki həftə müddətində üzürünü bildirməyən xaric hesab olunur. Camalbəyov Qasım bəy vaxtında heç bir məlumat verməmişdir. Digəri Hacıəli Qasım oğlu [594 - 595] mayın 7-də vaxtı tamam olurdu. Bunu da vaxtından 19 gün keçir ona görə bu da xaricdir. Xahiş olunur ki, Camalbəyov əvəzində onun namizədliyini qoyan firqə başqasını versin. Hacıəli Qasım oğlu uyezddən seçildiyindən hökumətə məlum edəcəyiz ki, yenidən seçki etsin.

Növbədəki məsələ "Müsavat" tərəfindən verilən sualdır. (Katib oxuyarkən).

**Məmməd Əmin** (yerindən) - Verdiyimiz sual çox əhəmiyyətlidir. Arzu edərdik ki, hökumət rəisi burada olub ona cavab verəydi. Ona görə bütün əhəmiyyəti ilə bərabər məsələnin bir qədər təxir edərsək ki, hökumət rəisi gəlsin daha müvafiq olar.

**Rəis** - Təklifə etiraz yoxsa qəbul olunur.

**Əbilov** (yerindən) - Hökumət rəisinə əgər xəbər verilməmişsə...

**Rəis** (Sözünü kəsərək) - Xəbər verilib, gələcəkdir.

Novbədəki məsələ-əsgər haqqındakı qanun layihəsidir. Məruzəçi Qarabəyovdur. Üzr istəyirəm ki, bir mətləbi yadımdan çıxarmışam. Bu gün mayın 26-da Gürcüstan elani-istiqlaliyyət günüdür. Bu istiqlaliyyətin sənə dövriyyəsi münasibəti ilə Gürcüstan məclisi-müəssisana təbrik teleqramı göndərilməsini təklif edirəm.

(Səslər: Rica ediriz... Alqış!)

**Rəis** - Məruzəçi burada olmadığı üçün məsələ qalır. İkinci məsələ Gəncə bələdiyyə idarəsinə bir milyon rüblə borc verilməsi haqqında qanun layihəsidir. Məruzəçi Əbuzər bəydir.

**Əbuzər bəy** - Gəncə bələdiyyə idarəsi buğda alır, un edir, dükanlarda bişirir, ucuz qiymətlə camaata verir. Onların pulları azdır, buğda almağa çatmır. Hökumətdən təvəqqe edirlər ki, iki milyon faizsiz onlara borc pul verilsin. Hökumət bir milyon verilməsinə razı olur. Bu şərtləki 10 ayın müddətində hər ay 100 min manat almaq

üzrə bu pul qaytarılsın. Maliyyə-büdcə komissyası buna baxıb fikir edir ki, bahalığın qabağını almaq üçün bu məbləğ verilsin. Məzkur şərtləri də qəbul edir. (Məclisdə sükut).

**Rəis** - Soltan Məcid Qənizadə.

**Soltan Məcid Qənizadə** ("İttihad") - Gəncə bələdiyyəsinə ianə vermək barəsində... [595 - 596]

**Rəis** - İanə deyil, borcdur.

**Soltan Məcid** (davamla) - Əlbəttə, öz vaxtında çox lazım idi. Mənim yadımda qaldığına görə bu xahiş dekabr ayında idi. O zaman bahalıq idi. Bələdiyyənin borcu idi ki, camaata kömək eləsin. Onun üçün pula da ehiyacı var idi. İndi ondan 6 ay keçibdir. Bu yaxınlarda təzə buğda çıxacaq. Buna bir o qədər də ehtiyac yoxdur. Hökumət şərt qoymuşdur ki, bu pul 10 ayın ərzində verilsin. İndi 6 ay keçibdir. Pul verməyə heç kim etiraz etməzdi. Lakin onun indi vaxtı keçibdir.

**Rəis** - Natiqə bərayi-məlumat ərz edirəm ki, bu aprelin 28-də gəlib. O əvvəlki xəstəliklə mübarizədən ötrü idi.

**Soltan Məcid** (yerindən) - Layihə apreldə gəlib. Ancaq bələdiyyə idarəsinin xahişi dekabrda gəlib.

**Məruzəçi Əbuzər bəy** - Bəli düzdür, dekabrdadır.

**Rəis** - Hacıkərim Saniyev.

**Hacıkərim** (sosialist) - Natiq əfəndi buyurdu ki, o qərəz istəyirlər onun vaxtı keçib; bu yaxınlarda təzə buğda çıxacaqdır. Bu pulu istəyirlər şəhər üçün. Şəhərlərin heç birinsinin buğdası yoxdur. Buğda çöllünün olacaq. Şəhər əhlinə ucuz çörək verilməyəcəkdir. Bahalığın qarşısını almaq üçün təklif edirəm ki, bu pul verilsin. Bir də ikinciyə bu pud lazım olacaq. Şimdidən bu pul verilsə buğdanı ucuz qiymətə almaq olar. Bircə məsələ var ki, bu pul şəhərdə kimin əlinə veriləcəkdir. Biz arzu edərdik ki, bu pullar verildikdə doğrudan camaatın dərdinə qalan adamların əlinə verilsin.

**Şeyxzamanov** (yerindən) - Hümmətçidir...

**Rəis** - Söz istəyən yoxsa səsə qoymayacağam. Söz parlamenə üzvü Kurayevindir.

**Kurayev** - rusca.

**Rəis** - Söz Məmmədbağır bəy Şeyxzamanovundur.

**Məmmədbağır bəy** - Möhtərəm məbuslar! Gəncə bələdiyyə idarəsinin bu pulu istəməkdən fikri şəhər üçün bir qədər buğda alıb zapas saxlamaq idi. Sentyabrda bir qədər buğda alıb yığmaq mümkün olmuşdu. Fəqət, sentyabrda alınıb zapas saxlanılmış buğda dekabrda qurtaracaqdı. Ona görə doğrudan da zapas lazım idi. Hökumət tərəfindən bu pulu vermək bir qədər gecə düşmüşdü. Yenə bələdiyyə idarəsi pul tapıb buğda aldı və ucuz qiymətə çörək satıb bahalığın qabağını bir qədər saxladı. [596 - 597] O adamlarki deyirlər pul verməyin vaxtı keçib, səhvdir. Bu belə deyildir. Gərək pul verilsin ki, bələdiyyə idarəsi buğda alıb qış üçün tədarük görsün və camaatı aclıqdan gözləsin. Gəncə bələdiyyə idarəsi bu günü deyil, iki ay bundan sonranı fikir edir, qışı nəzərə alır. Hər yerdə çörək bahalandığı halda Gəncə bələdiyyə idarəsinin yığdığı zapas sayəsində Gəncədə çörək bahalanmadı. Onu deyə bilərəm ki, bildir dekabr ayında, 7 ay bundan qabaq çörək neçəyə idisə, indi də yenə elədir. Hərçənd o vaxtdan pulumuzun kursu yenib. Amma çörəyin qiyməti birə-birdə durub. Bunun da səbəbi Gəncə bələdiyyə idarəsinin zapas buğda alıb saxlaması və əhaliyə ucuz çörək satıb aclığın qabağını saxlamasıdır. Ona görə mən məsləhət bilirəm bu pul verilsin. Bu pulu sərf edənlər camaat nümayəndələridir. Ərzaq idarəsi ki, var, o da camaat vəkillərinin əlindədir. Əgər onlara inanmasaq onda heç kəsə inanmamalıyız. hər halda Gəncə bələdiyyə idarəsinə etibar nəzəri ilə baxıb pulu buraxmalıyız.

**Rəis** - Söz Ağa Aşurovundur.

**Ağa Aşurov** - Necə ki, qabaq dəfə, bu dəfə də yenə deyirəm ki, şəhərlərə borc veriləndə, bu formada ki, müəyyən vaxtda qaytarsın, bu səhvdir. Bunu eləməyin. Əvvəl səhv olub, bu dəfə etməyin. Bir şəhər ki, borcdan heç vaxt çıxa bilmir, necə ola bilir ki, 10 aya borcunu verib qurtarsın. Bu ola bilməyəcəkdir. Bəlkə bələdiyyə belə tələb edir. Amma bu səhvdir. Ona görə bələdiyyələrə bu qayda ilə pul verilməməlidir. Bir də faiz barəsində mən deyərdim ki, o vaxt ayrı şəhər də borc istəyirdi. Dedim, faizsiz verək, amma faizlə verdilər. İndi Gəncəyə faizsiz verdilər. Bir şəhərə bir gözlə, o biri şəhərə başqa gözlə baxmaq yaramaz. Gərək bütün şəhərlərə bir nəzərlə, bir politika ilə baxılsın. Qaldı bir milyon ki, ərzaq üçün istənilir, qabaq bu bir milyonla iş görmək mümkün olurdusa, indi mənası yoxdur. Onunla iş görmək mümkün deyildir. Mən bu işlərə bir az bələdəm. Bir vaxt Gəncə bizdən pul istədi buraxmadıq, cavabımız bu oldu ki, hər şəhər idarələri ayrı-ayrı zapas düzəltməyə vararsa, bahalıq salarlar. O vaxt bir nəzarət tərəfindən alınırdı. Kooperasiya ayrı alırdı, bələdiyyələr ayrı alırdı. O dəstə ayrı, bu dəstə ayrı. Bir bazara çörək gələndə bir böyük tacir gələrsə bahalıq olar. Ona görə iş [597 - 598] bir adamın əlində olmalıdır. Mən deyim, bələdiyyə idarələri öz işlərinə məşğul olsunlar, ərzaq işlərinə qarışmasınlar. Bu olmadı. Bir qədər keçdi, işlər dəyişdi. Hökumətin fikri ərzaq işlər barəsində dəyişdi. Belə oldu ki, hökumət ərzaq işlərinə qarışmasın, bir növ qarışmayır da. Azad ticarət elan olunub, elə də gedir. Şimdi bir milyonla nə eləmək olar? Yüz manata buğda olanda bir milyonla 10 min pud buğda admaq olar. Gəncədə 60-70 min nüfuz var. Hərəsi üçün ayda bir puddan bu elər bir aydan az zapas, 10 gün, 15 gün zapas olur ki, bu da şəhərdə olan qiymətə heç təsir eləməz. Bir də mən Gəncədə nə gördüm. Əgər çörək kartoçka ilə paylansa idi, yenə bir şey olardı. Amma bu yoxdur. Bir-iki kasıb gəlib bələdiyyə çörəyi alır. Qalanlar isə hamısı baha qiymətə

alırlar. Gəncə bələdiyyə idarəsi öz işləri ilə az məşğul olub, ancaq ərzaq işlərinə baxırdı. Başqa müəssisələr: xəstəxanalar, məktəblər, küçələr yaddan çıxıblar. Bu işlərə bələdiyyə idarəsində 1-2 adam baxır, qalanının yadından çıxıb. Mən deyərdim ki, o yollar ki, bələdiyyə idarələri tutublar, bu ərzaq işlərindən onları azad etsinlər və bələdiyyələr ancaq öz işləri ilə məşğul olsunlar. Təkrar edirəm, ya şəhərlərə vərz verməməli və ya versək, o biri şəhərlərə olduğu kimi hamı şəhərlərə faizlə və uzun vaxta verməliyiz. Çünki 10 aya qaytarmaq olmaz.

**Rəis** - Söz Mehdi bəy Hacıbababəyovundur.

**Mehdi bəy Hacıbababəyov** - Cənab ağa əvvəl faiz barəsində buyurdu. Bu gün bir nəfər birinə borc verəndə baxar onun qüvvəsinə, elə adam var ki, ona 2-3 faizlə verər, eləsi də var ki, ona faizsiz verib deyir ki, işlət sonra qaytar. Bəzilərindən 25 faiz alırlar. hökumət də bir dövlətli kimi baxır borc alanın sandığına. Pulu az olsa, deyir səndən az faiz alıram, ya heç almıram; işlət, qazan ver. Pullu olsa, çox faiz alar. Bunlar əsaslı məsələlərdir ki, qalxızmaq bizim işimiz deyil. İkinci, Ağa Aşurov bir statistika götürdü ki, bir milyon çatmaz. Bir də buğdanın putunu 100 manatdan hesab elədi. Putu 100 manata deyil, 90 manatadır. Təzə buğda bəlkə daha da ucuz olsun. Lakin bir əldən yığılanda nə olar.

Biz də gördük. Orada olan tacirlər deyirlər ki, qoyun biz özümüz alaq, çünki biz otuz-qırx manat sizdən ucuz alarıq. Biz onları vadar edirik ki, baha aldığımız buğdanı baha qiymətə [598 - 599] yesinlər. Əlbəttə, bu buğda camaat üçün deyil, rəqabət üçün alınır. Bu rəqabəti biz burada da gördük. Əgər Bakıda olan Sentrodum bir neçə dükan açıb burada 2 manat 70 qəpiyə çörək paylamasa idi, indi çörək burada 6 manat idi. Amma siz görürsünüz ki, çörək 3 manatdır. Hər dükançı qonşusuna baxıb qiyməti artıra bilmir; çünki yanında rəqib var. Ona görə çörəyi ucuz yeyirik. həmin rəqabət üçün də Gəncə bu pulu istəyir. Gəncədə dükançılar çörəyin qiymətini qalxıza bilmirlər. Çünki yanlarında bələdiyyə kimi rəqib vardır. Odur ki, Gəncədə də çörək ucuzdur. Ağa dedi ki, bir milyon azdır, mən də şərikəm. Mən deyərdim ki, Gəncəyə bir milyon deyil, daha çox, 2-3 milyon verək ki, indidən tədarük görüb, qış üçün hazırlıq görsün.

**Rəis** - Söz istəyən daha yoxdur? Yoxsa, axırıncı sözü məruzəçiyə verirəm.

Abuzər **bəy** - Soltanməcid buyurdu ki, pul vermək lazım deyil, vaxt keçib. Vaxt keçməmiş, təzə buğda çıxır. Bələdiyyə idarəsi hələ təzə buğda çıxanda taxıl almalıdır ki, sabah qışda bahalıq olarkən camaata kömək edə bilsin. Saniyev dedi ki, bu pul kimə veriləcəkdir. Bu pul veriləcək camaat tərəfindən seçilmiş bələdiyyə idarəsinə. Ağa Aşurov çox söz dedi. Parlament çox dedi ki, bahalığın qarşısı alınsın. Bahalığın qarşısı bu təriqlə alınır ki, bələdiyyə çörəkçi dükanı, qəssab dükanı açsın. Bir də bu pul itməyəcəkdir. Bu pul verilir alış-verişdən ötəri ki, hər ay təqsid ilə qaytarılacaqdır.

**Rəis** - Layihəni maddə bə maddə səsə qoyacağam (Katibə). Oxuyunuz.

**Katib -** 1-ci maddəni oxuyur və tərcümə edir.

**Rəis** - Birinci maddəni səsə qoyuram. Hər kəs qəbul edirsə, əlini qaldırsın. Birinci maddə əksəriyyət ilə qəbul olunur.

**Katib** - 2-ci maddəni oxuyur, tərcümə edir.

**Rəis** - 2-ci maddəni səsə qoyuram. Kim ikinci maddəni qəbul edirsə, əlini qaldırsın. Əksəriyyət rəylə qəbul olunur. Layihəyi-qanuniyyəni tamamilə səsə qoyuram. Layihəni tamamilə kim qəbul edirsə, əlini qaldırsın. Əksəriyyətlə qəbul olunur.

Növbədəki məsələ əxzi əsgər idarəsi təşkili haqqında qanun layihəsidir. Məruzəçi Qarabəy Qarabəyovdur. [599 - 600]

**Qarabəyov** - Keçən dəfə layihə oxundu. Fəqət, layihə komissiyasında üzvlər arasında ixtilaf var idi. Bu barədə ki, əxzi-əsgər idarələrində nümayəndə kim olsun? O qəzalarda ki, idareyi-bələdiyyə yoxdur, ayrı-ayrı hər nahiyyə öz nümayəndəsini versin; onlar da kənd sudyaları icmaətdə intixab olunsun.

**Rəis** - Layihənin 3-cü qiraətidir.

**Məruzəçi** - Bəli, 3-cü qiraətidir. Yalnız təshih bu barədə oldu. Bir də hökumətin təklifi var idi. Əgər lazım olursa, hökumətin təshihini bir də oxuyalım. Keçən dəfə oxunmuşdur. Bu dəfə lazım olsa oxuyaq.

**Rəis** - Maddə-maddə oxuyunuz. Əvvəlcə komissiyanın təkliflərini, sonra hökumət təklifi.

**Məruzəçi -** 1-ci maddəni oxuyur.

**Rəis** - Rica edirəm getməyəsiniz. Səsə qoyacağam. (Məruzəçiyə). Dayanınız!

**Məruzəçi** (Rəisə) - Səsə qoyacaqsınız?

**Rəis** - Qoyacağam, buyursunlar da. 1-ci maddəni səsə qoyuram. Kim qəbul edirsə, əlini qaldırsın. Bu maddə əksəriyyət ilə qəbul olunur. 2-ci maddəni oxuyun!

**Məruzəçi -** 2-ci maddəni oxuyur.

**Rəis -** 2-ci maddəni səsə qoyuram. 2-ci maddəni kim qəbul edirsə, əlini qaldırsın. Əksəriyyət ilə 2-ci maddə qəbul olunur.

**Məruzəçi -** 3-cü maddəni oxuyur.

**Rəis -** 3-cü maddəni səsə qoyuram. Kim 3-cü maddəni qəbul edirsə, əlini qaldırsın. 3-cü maddə əksəriyyət ilə qəbul olunur.

**Məruzəçi -** 4-cü maddəni oxuyur və tərcümə edir.
**Rəis** - Oxunmuş maddəni səsə qoyuram. Kim qəbul edirsə, əlini qaldırsın. Maddə əksəriyyət ilə qəbul olunur.
**Məruzəçi** (oxuyur) - Bu barədə hökumətin təshihi var. Bunu belə təshih edirlər. (Oxuyur).
**Rəis** - Bu təshih  tərəfindən qəbul olunubdurmu?
**Məruzəçi** - Bəli, olunubdur.
**Rəis -** 2-ci maddəni hökumətin təshihi və komissiyanın qəbul etdiyi kimi səsə qoyuram. Hər kəs qəbul edirsə əlini qaldırsın. Əksəriyyət ilə qəbul olunur. Rica edirəm 3-nü oxuyunuz.
**Məruzəçi** (3-nü oxuyur) - Bu barədə hökumətin təshihi var.  tərəfindən qəbul edilmişdir. [600 - 601] **Rəis** - Bu üçmü?
**Məruzəçi** - Bəli, üçdür.
**Rəis** - Tərcümə ediniz.
**Məruzəçi** - (Tərcümə edir).
**Rəis** - Bu təshih  tərəfindən qəbul edilmişmidir?
**Məruzəçi** - Bəli.
**Rəis -** 3-cü maddəni hökumətin təshihi ilə səsə qoyuram. Kim 3-cü maddəni qəbul edirsə, əlini qaldırsın. 3-cü maddə əksəriyyətlə qəbul olunur.
**Məruzəçi -** 4-cü maddəni oxuyur.
**Rəis -** 4-cü maddəni səsə qoyuram. Kim 4-cü maddəni qəbul edirsə, əlini qaldırsın. 4-cü maddə əksəriyyətlə qəbul olunur.
**Məruzəçi -** (5-ci maddəni oxuyur). Bu barədə hökumətin təshihi var. (Oxuyur).
**Rəis** - Təshih qəbul olunmuşmu?
**Məruzəçi** - Təshih qəbul olunmuşdur.
**Rəis -** 5-ci maddəni təshih ilə bərabər səsə qoyuram. Kim qəbul edirsə, əlini qaldırsın. 5-ci maddə əksəriyyətlə qəbul olunur.
**Məruzəçi -** (6-cı maddəni oxuyur). Buna təshih vardır, yenə hökumət tərəfindən, belə təklif olunur. (Oxuyur).
**Rəis** - Təklif qəbul olunmuşmu?
**Məruzəçi** - Olunubdur!
**Rəis -** 6-cı maddəni təshih ilə bərabər səsə qoyuram. Kim qəbul edirsə, əlini qaldırsın. Əksəriyyətlə qəbul olunur. 7-ni oxuyunuz!
**Məruzəçi -** 7-ci maddəni oxuyur.
**Rəis -** 7-ci maddəni səsə qoyuram. Kim qəbul edirsə, əlini qaldırsın. Əksəriyyətlə 7-ci maddə qəbul olunur.
**Məruzəçi -** 6-cı maddəni oxuyur.
**Rəis** - Hökumətin təshihi yoxmu?
**Məruzəçi** - Xeyr, yoxdur.
**Rəis -** 8-çi maddəni səsə qoyuram. Kim qəbul edirsə, əlini qaldırsın. 8-ci maddə əksəriyyətlə qəbul olunur.
**Məruzəçi -** 9-cu maddəni oxuyur.
**Rəis -** 9-cu maddəni səsə qoyuram. Kim 9-cu maddəni qəbul edirsə, əlini qaldırsın. Əksəriyyətlə qəbul olunur. 10-cu maddəni [601 - 602] oxuyunuz... Rica edirəm, xüsusi söhbətləriniz qalsın. Səs-küylüdür, dinləmək olmur... Oxuyunuz?
**Məruzəçi -** 10-cu maddəni oxuyur. Hökumət bunu belə təshih edibdir. (Oxuyur).
**Rəis** - Təshih qəbul olunmuşmu?
**Məruzəçi** - Bəli, olunubdur.
**Rəis -** 10-cu maddəni təshih ilə bərabər səsə qoyuram. Kim qəbul edirsə, əlini qaldırsın. 10-cu maddə təshih ilə bərabər qəbul olunur. Rica edirəm, 11-ci maddəni oxuyasınız.
**Məruzəçi -** 11-ci maddəni oxuyur.
**Rəis -** 11-ci maddənin təshihi varmı?
**Məruzəçi** - Xeyr!
**Rəis -** 11-ci maddəni səsə qoyuram. 11-ci maddəni kim qəbul edirsə, əlini qaldırsın. Əksəriyyətlə qəbul olunur. Rica edirəm, 12-ci maddəni oxuyunuz.
**Məruzəçi -** 12-ci maddəni oxuyur. Bunun təshihi var. Belə təshih edilmişdir. (Oxuyur).  tərəfindən qəbul olunmuşdur.
**Rəis** - Maddəni axıra kimi oxuyunuz.
**Məruzəçi** - Axıra kimidir.
**Rəis -** 12-ci maddəni təshih ilə bərabər səsə qoyuram. Kim qəbul edirsə, 12-ci maddəni rica edirəm, əlini qaldırsın. Əksəriyyətlə 12-ci maddə qəbul olunur.
**Məruzəçi** - İndi məxaric cədvəlləri qalmışdır. Onlar da bu qərar ilədir. (Oxuyur).

**Rəis** - Oxunmuş əxzi-əsgər idarələrinin məxaricləri, onun mövqeyi - məmuriyyələri haqqında olan maaş cədvəllərini səsə qoyuram. Hər kəs bunu oxunduğu kimi qəbul edirsə, rica edirəm, əlini qaldırsın. Əksəriyyətlə qəbul olunur.

**Rəis** - Söz Atamalıbəyovundur.

**Atamalıbəyov** - Sosialist fraksiyası səs vermir, çünki qanun layihəsi fraksiyaya çatmayıbdır.

**Rəis** - Birinci, ikinci qiraət müzakirə edilərkən iştirak edirdiniz?

**Səslər** (soldan) - Xeyr, iştirak eləmirdik.

**Rəis** - Layihəyi-qanuniyyəni tamamən səsə qoyuram. Hər kəs layihəyi-qanuniyyəni tamamən qəbul edirsə, rica edirəm, əlini qaldırsın. (Əllər qalxır). Layihəyi-qanuniyyə əksəriyyətlə tamamən [602 - 603] qəbul olunur. Növbədəki məsələ hökumətin 20 milyonluq fondunun 40 milyona qədər artması haqqında qanun layihəsidir. Məruzəçi Mustafa Vəkilov.

**Mustafa Vəkilov** - Ərz etmək istədiyim layihə hökumətin 20 milyonluq fondunun 40 milyona qədər artırılması haqqındadır. Hökumətin mədaxil-məxaricinin siyahısı büdcəsi hazır olmadığından, mədaxil-məxaric qabaqcadan məlum deyildir. Bir çox fövqəladə xərclər var ki, əvvəldən heç nəzərə alınmayıb. Ona görə yanvarın 25-dən parlamentin qərarı ilə həmən xərcləri təmin etmək üçün hökumətin ixtiyarına fond olaraq 20 milyon para buraxılmışdı. İndiki hökumətin bəyanatına görə yanvarın 17-dən mayın 1-ə kimi o 20 milyonun 17 milyonu sərf olunmuşdur. İndi fövqəladə nəzərə alınmayan xərcləri təmin üçün alınmış 20 milyonu hökumət 40 milyona qədər artırmağa məcbur olur. Yəni təzədən 20 milyon istəyir. Bəyannamədən məlum olur ki, bizim smetamız nəzarətlərin təcili surətdə işləmələrinə baxmayaraq, iyun ayının axırından tez parlamentə gələ bilməyəcəkdir. Yanvardan olan o fövqəladə xərclər davam edir. Ona görə hər halda hökumətə 20 milyon lazımdır. Maliyyə-büdcə komissiyası bu layihəni müzakirə edib qət etdi ki, hökumətin xərclərini təmin üçün 20 milyonu buraxmalıdır. Amma bununla bərabər qabaqkı arzusunu təkrarən əlavə etməyi lazım bildi. Hökumətin smetası nə qədər ki, hazır deyil və parlament bilmir ki, haraya nə qədər xərclənir, o vaxta kimi hökumətin işi düz getməz. Əlalxüsus, bizim kimi hökumətdə ki, maliyyə işləri qarışıqdır. Maliyyə-büdcə komissiyası bu layihəni qəbul etməklə bərabər təklif edir ki, hökumət tezliklə smetanı düzəldib parlamentə versin ki, bu cür fövqəladə nəzərə alınmayan xərclər olmasın və fondu artırmağa da ehtiyac qalmasın. Layihənin birinci maddəsi bu cürdür: (Oxuyur).

**Rəis** - hazırda danışmaq istəyən yoxdur. Danışmaq istəyən yoxdur, səsə qoyuram. (Kyüsterə). Zəngin çal, çağır üzvləri gəlsinlər. (Zəng çalınır. Üzvlər gəlirlər). Mustafa ağa birinci maddəni bir də oxuyun.

**Mustafa Vəkilov** - (Birinci maddəni təkrar oyuxur).

**Rəis** - Əvvəlinci maddəni səsə qoyuram. Kim qəbul edirsə, rica edirəm, əlini qaldırsın. (Əllər qalxır). Birinci maddə əksəriyyət rəylə qəbul olunur. 2-ci maddəni oxuyun. [603 - 604]

**Mustafa Vəkilov** - İkinci maddəni oxuyur.

**Rəis** - İkinci maddəni səsə qoyuram. Kim qəbul edirsə, rica edirəm, əlini qaldırsın. (Əllər qalxır). İkinci maddə əksəriyyət rəylə qəbul olunur. Layihəni tamamən səsə qoyuram. Kim qəbul edirsə, rica edirəm, əlini qaldırsın. (Əllər qalxır). Layihə tamamən, əksəriyyətlə qəbul olunur.

Növbədəki məsələ Bakı bələdiyyəsinə 5 faiz ilə milyon rubla borc verilməsi haqqında layihəyi-qanuniyyədir. Məruzəçi Ağabəyov. Bəlkə maliyyə-büdcə komissiyasının ayrı məruzəçisi vardır? Çünki Ağabəyovun məzuniyyətə getməsi yəqin komissiyasının üzvlərinə məlumdur.

**Səslər** - Xeyr! Məlum deyil.

**Rəis** - Onda bu məsələ qalır. Növbədəki məsələyə keçmədən 5 dəqiqəlik tənəffüs elan edirəm. (Tənəffüs elan olunur).

**(Tənəffüsdən sonra)**

**Rəis** - Məclisə davam ediriz. Parlamentin qərarı üzrə Gürcüstan məclisi-müəssisan həzrətlərinə bu məzmunda təbrik teleqramı göndəririz. (Oxuyur, rusca).

Növbədəki məsələ, Bakı bələdiyyə idarəsinə 5 faizlə 10 milyon borc verilməsi haqqında qanun layihəsidir. Məruzəçi Musa bəy Rəfiyevdir.

**Musa bəy Rəfiyev** - Bakı bələdiyyə idarəsi yenə hökumətdən borc istəməyə məcburdur. Keçən səfər Bakı bələdiyyə idarəsi borc istəyəndə nə şərt ilə pul alması və onu borc almağa nə məcbur etməsi təfsilən söylənilmişdir. Deyirəm ki, borc vermək lazım gəlir. Gödəyi gərək işlərini görsünlər. Mədaxil məxaricdən az olduğundan, məcburdurlar borc istəsinlər. Bələdiyyə idarəsinin ildə məxarici 83 milyon, mədaxili 33 milyona qədər olub. 50 milyon çatmadığından bunu örtmək üçün, əlbəttə, borc etməyə məcburdurlar. Əlbəttə, bu vəzifələr ki, bələdiyyə idarəsi öhdəsində var, onları görmək üçün pulu olmayanda hökumət borcludur kömək eləsin. Bələdiyyə idarəsi 35 milyon istəyir. Ancaq hökumət və 35 milyonu artıq bilib 10 milyon verilməsini təklif edir.

**Rəis** - Məsələ müəyyən olduğundan zahirən müzakirəyə kirişmək istəyən yoxdur. Onda səsə qoyacağam. Söz İbrahim Əbilovundur. [604 - 605]

**Əbilov** ("Hümmət") - Möhtərəm məbus əfəndilər! 3-cü dəfədir ki, Bakı şəhər Dumasına biz pul buraxırız. Bundan əlavə, qeyri şəhərlərə də borc pul verilib. Neçə dəfə deyilib ki, cümhuriyyətimizdə müvafiq demokratik üsulla təşkil olunmuş şəhər idarələri yoxdur. Məlumdur ki, keçən il müvəqqəti hökumət vaxtında ümumi səs ilə demokratik əsaslarla intixab olunmuş şəhər Duması dağılmışdır. İndiki şəhər idarələri köhnə üsul ilə təyin olunmuş vəkillər tərəfindən idarə olunur. Camaat tərəfindən orada nümayəndə yoxdur. Ona görə bu pullar ki, verilir, xəbərimiz yoxdur nə növ ilə xərclənir: camaatın mənfəətinəmi xərc olunur, demokratiya nəfinəmi xərc olunur, məlum deyildir; bilmiriz. Neçə dəfələrlə demişik, şəhər idarələri zemstvo demokratik üsulu ilə təşkil olunmayınca biz onlara və gördükləri işlərə inana bilməriz. Biz onlara inanmırız. Üçüncü dəfə olaraq Bakı bələdiyyə idarəsi 10 milyon borc istəyir. Bu hara gedir; kimlər xərc edəcək və kimin üçün xərcləyəcək, bilmiriz. Şəhərin ehtiyacı olduğundan sosialistlər fraksiyası bu pulu verməyin əleyhinə deyildir. Lakin verilsin o şəxslərə ki, lazımi yerlərinə xərcləyəcəklər. Biz bilmiriz o şəxslər ki, bələdiyyə idarəsində əyləşiblər, kimlərdir və nə cür seçilmişlərdir. Bu vaxtadək hökumət şəhər idarələri layihəsini parlamentə gətirməyib və parlamentdə bu barədə bir qərara gəlməyib. Ona görə biz sosialistlər indiki şəhər idarəsi heyətinə inanmırıq. Ona görə bu üçüncü dəfə onlara 10 milyonun verilməsi əleyhindəyiz. Ancaq demokratik üsul ilə camaat tərəfindən təşkil olunmuş bələdiyyə idarəsinə biz pul verə bilərik. Bu Duma bu pulu xərcləyə bilməyəcəkdir. Çünki bu Nikolay üsulu ilə təşkil olunmuş bir dumadır. Keçmişdə bələdiyyə idarəsinin bir qərarı var idi ki, bu Duma heyətini artırıb, bu köhnə üsul ilə təyin olunmuş adamların cərgəsinə bir də camaat tərəfindən demokratik üsulla seçilmiş olanlar da daxil eləsinlər. Lakin bu vaxta qədər bələdiyyə idarəsinin bu qərarı üzə çıxmadı; parlamentə gəlmədi və müzakirə olunmadı. Duma da köhnə üsul ilə qaldı. Bunlar da ki, camaatın fikrinə qalan deyillər. Ona görə biz üçüncü dəfə olaraq bu 10 milyonun verilməsi ziddinəyiz. Hər cür olursa, tezliklə demokratik şəhər idarələri təşkil tapmasını təklif ediriz. Tainki onlara [605 - 606] inanmaq mümkün olsun. Və bizim bu təklifimizə parlament-də kimsə etiraz etməyə haqlı deyildir.

**Ağa Aşurov** - Möhtərəm məbuslar! Natiq buyuran sözlərin heç birinə etiraz edə bilmərəm. Çünki bələdiyyə idarəsinə pul verildikdə onun seçkisi düz olubdur, ya olmuyubdur, bunun üçün pul verilməlidir və yaxud verilməməlidir, bu mülahizə doğru deyildir. Burada ancaq bir söz demək olar: bələdiyyə idarəsinə pul lazımdır, ya deyil? Əgər isbat götürülür ki, onun seçkisi ayrı cür olub, istərdim bu fikri mən rədd edim. Yadınıza salınız Bakının o halını onda ki, Bakıda Dum yox idi. Şəhərimiz yalnız İçəri şəhərdən ibarət idi. O zaman haman üsulsuz seçilən şəhər dumaları az müddət içində şəhərimizi indiki hala salmışlardır. Ola bilər ki, bu iddiada olanlar o zaman Bakıda olmayıblar. Bəlkə Əbilov da bundan xəbərsizdir və yaxud azərbaycanlı deyildir. Bakının əvvəlki halını görsəydilər, o zaman görərdilər ki, Bakı nə idi və üsulsuz seçilən Dum nə iş görübdür.

Bəli, bu Duma ki, qabaqkı üsul ilə seçilmişdi şəhərimizi indiki hala saldı. Doğrudur. Tramvay yoxdur və bəzi müəssisələr yoxdur. Onun da səbəbləri var. Əsl səbəb budur ki, vaxt az olub. Şəhərlərin 30-40 il deyil, bəlkə iki yüz-üç yüz illik həyatları olmalıdır.

Üsulsuz seçilən dumamız şəhərimizin abadlığına çalışdığı halda Bakını indi mədəni hala gətirib sala bildi. Fəqət, biz nə gördük demokratik dumadan? 1917-ci ildən, o vaxtdan ki, şəhər işlərimiz demokratik Dumanın əlinə keçdi hər şey bərbad oldu. Şəhər işlərini tamamilə dağıtdılar. Abozu dağıtdılar. Məvacibləri götürünüz. Vaxtı ilə bizim mədaxilimiz məxaricimizə çatırdı. Hərçəndi böyük işlərə paramız çatmırdısa da, o da az borcla iş görülürdü. Şəhər xidmətçilərinin məvacibləri vaxtlı-vaxtında verilirdi. Budur ki, demokratik Duma büdcəmizi də pərişan bir hala qoydular. Əvvəl kollektiv, sonra bir çox xərclər ilə məxarici artırdılar. Şəhər Duması soldatski deputatların idarəsi oldu. Şəhər işləri kənarda qaldı. Əsl işin kökünü bilmək istəsəniz şəhər işi oradan dağıldı. Bir də mən təəccüb edirəm ki, buradakı demokratlar neyçün yadlarına martdan sonrakı demokratları salırlar. Mən əsl demokratları deyirəm. (Gülüş!). Onlar demokratik [606 - 607] üsul ilə seçilən Dumanı buraxdılar. Onu qovub özləri təyin etdilər. Onda kimsədən bir söz çıxmadı. İndi Duma-ya baxsanız haman demokratik üsul ilə seçiləndir. İşlərin xatirəsi üçün qabaqkı Dumanın təcrübəsində qlasnılarını da çağırmışlar ki, şəhərin işini aparsınlar. Onlar orada qanunsuz əyləşməmişlər. hökumətin məsləhəti ilə orada əyləşmişlərdir. Əgər bu Dumanın bu vaxtadək seçkiləri təxirə düşmək işində bir kəsin təqsiri varsa, Dumanın təqsiri yoxdur. Vaxtında dəfəatla demişlər ki, gərək seçki olsun, bəlkə bu xüsusda mənim ayrı rəyim var. Lakin Duma öz sözünü demişdir.

Qaldı ki, keçən pullar, onların hamısının yeri məlumdur. Hər kəs maraqlansa Duma iclaslarından oradakı təşkilatların hesabını nəzərə götürə bilər. Ondan başqa əsl iş oradadır ki, Dumanın boynunda böyük-böyük vəzifələr var; məktəblər, xəstəxanalar və qeyri şeylər. Hamısı sizə məlumdur. hərgah indiki halda biz ona pul buraxmasaq, o zaman bunların bağlanmasına səbəb olarız. Mən bilmirəm ki, demokratlar necə razı olarlar ki, biz səbəb olaq onların bağlanmasına. Qaldı ki, demokratik Duma lazımdır, ya deyildir bu ayrı işdir.

**Rəis** - Söz Səmədağa Ağamalı oğlunundur.

**Səmədağa** - Mən elə bilirəm ki, hesab 10 milyonda deyil, 10 milyon böyük pul deyil. Ancaq bir az dərin baxmaq lazımdır. Hesab oradadır ki, Bakı kimi varlı, pullu şəhərə Azərbaycanın üç dəfə pulu getməlidir, ya

getməli deyil? Mən deyərdim ki, nəinki Bakıya, hətta qeyri şəhərlərə də nahaq yerə buraxmışıq. Zəmanə dolaşıq olduğuna görə biz də bu işi buraxmışıq. Elə zənn etdik ki, bir dəfə aldı, daha əlini uzatmayacaq. Amma sən deməyən bu dövlətlilərimizin də yaman bir xasiyyətləri varmış ki, bir yerə əl tapanda daha əl çəkməzlərmiş. (Üzvlər və camaat tərəfindən alqış!).

**Rəis** - Üzv olmayanlardan rica edirəm, əl çalmaqla öz hisslərini bildirməsinlər. Yoxsa özgə tədbir görməyə məcbur olaram.

**Səmədağa** - Mən deyirəm ki, şəhərə pul vermək camaatın nəfində deyil. Sizi inandırıram ki, işıq, küçələrin təmizliyi, bu kimi şeylər dövlətlilərin nəfinədir. Ağa Aşurovun dediyi kimi kasıbların nəfinə deyil. Biz yaxşı bilirik ki, kasıb gün batanda yatır, nə klubdan gec çıxır, nə də küçələri [607 - 608] gəzir. Bu halda kasıba bu işıq lazım deyil. Lakin dövlətli gedir kluba, klubdan gec çıxır. Ona işıq lazımdır ki, onu qayıdanda atmasınlar. Xəzinədə olan pullar kasıbındır. Amma dövlətlilər işsiz yeyib yatırlar. Kasıbın pulunu Aşurovmu olsun, Əbilovmu olsun vermək olmaz. Mən baş açmıram, deyirlər şəhərin xərci var, bəs kəndlilərin xərci yoxdur. Onların da xərci var, onlara da pul lazımdır. Onlara kömək əvəzinə boyunlarına döyə-döyə işlədirlər. Mən özüm bu yaxında kənddə idim. Deyir 5 ildir arabası qoşun üçün havayı işləyir. Çünki kənd xəzinəsində pul yoxdur. Deyir ket elə, işlə. Belə olan surətdə gərək kasıblara da borc verək. Onların da xəzinədə pulları vardır. Amma verilmir. Tovariş Əbilov demişkən bilmirik Dumada oturanlar nə quşun yuvasıdır ki, pul verək. (Ümumi gülüş!).

**Səslər** - (Ordubad quşunun yuvasıdır).

**Səmədağa** (davam edir) - Aşurov burada dedi ki, Duma istedadlı adamların əlində olanda şəhərlərin işi yaxşı gedirdi. O səhvdir. Şəhərlərin işi o səbəbə yaxşı gedirdi ki, əlləri xəzinəyə yaxın idi. Müdam borc alırdılar. Amma demokratik dumalardan padşah qorxurdu. Çünki demokratik Duma gəlirin yerini tapacaqdır və dövlətlilərdən alacaqdır. Əlbəttə, Dumada istedadlı adamlar oturanda mədaxili öz ciblərində axtarmırlar, özgələrdən almağa çalışırlar. İrəlilərdə bu adət idi ki, xəzinəyə əllərini uzadırdılar. Amma indi, Demokratik Cümhuriyyətdə bunu edə bilmərik. Ona görə biz onlardan xahiş edirik ki, cənglərini xəzinədən geri çəksinlər. Camaat ayılıb, xəzinənin hesabını bilməkdədir. Əgər əllərini (geri çəkməsələr), camaat məcbur edər.

**Rəis** - Söz maliyyə naziri Əliağa Həsənovundur.

**Əliağa Həsənov** (maliyyə naziri) - Mən onu demək istəyirəm ki, şəhər idarəsinin böyük xərci məktəblərdir. Məsarifinin 25 faizdən artığı məktəblərə xərc olunur. Qabaqkı statistikaya görə Moskvadan sonra Bakı ikinci şəhərdir ki, nə qədər pulsuz ibtidai məktəbləri var və məcbur olmadığı halda lazımından artıq məktəb açıb, 10 uşaq üçün bir məktəb saxlayıbdır. Və heç kəs bu şeyi qaytarmayıbdır. Əvvəl 40-50 norma idi. Bu axırıncı hadisələrə görə məktəblərdə uşaqların qədəri azalıb. Lakin şəhər idarəsi deyir ki, mən bu xərci üstümə [608 - 609] götürəcəyəm, tainki uşaqlar boş qalmasınlar. Bakı şəhəri əvvəlinci şəhər idarəsidir ki, bütün məktəblərin xərcini boynuna götürmüşdür. Mən onu demək istəyirəm ki, sol tərəfdən şəhər Dumasına pul verilməsi müqabilinə etiraz edirlər. Amma məncə gərək bu olmayaydı. Çünki şəhər məktəblərində oxuyan uşaqların çoxu, bəlkə hamısı, camaatın ən kasıblarının və zəhmətkeşlərinin demokratiyasının uşaqlarıdır. Burjuy uşaqları orada oxumurlar. Bunu da nəzərə tutmaq gərək ki, şəhər əhalisinin 10 faizi burjuaziya və orta sinif, 90 faizi fəhlə, əmələ və qulluqçudur. Onu yaddan çıxarmamalı və etiraz etməməlidir. O xəstəxanalar ki, şəhərin var və şəhər idarəsi məsarifini 25-30 faizi onlara xərc olunur, hansı dövlətli o xəstəxanalarda yatıb? O xəstəxanalarda yatanların hamısı kasıblar və fəqirlərdir. Hər bir dövlətli gedib orada yatmır. Bakı dövlətli şəhərdir. Ona görə füqareyi-kasibə hər yerdən buraya yığışıbdır. Çıxsan bazara, dəniz kənarına, bir faiz sərmayədar tapsan, qalanı zəhmətkeşlərdir. Bu bir cəhəti. İkinci cəhəti budur ki, maliyyə cəhətindən etiraz olsa ərz etməliyəm ki, bu verilən pullar bizim öz işlərimiz üçündür. Bu verilən pullar itmir, hədər getmir. Bu pulları şəhər idarəsi qızıl zəxirə kimi saxlayır. Vaxtan da sizə qaytaracaqdır. Bakı zəngin şəhərdir. Bələdiyyə idarəsinin özünün mülkü, əmlakı var; artıq sərvətə malikdir. Və pul verməlidir ki, işlərini yaxşı aparsın. Yoxsa bu təng illərdə xəstəxanalar, məktəblər və qeyri bu kimi camaata xidmət edən müəssisələr bağlansa parlament də və hökumət də zərər çəkər, xərcə düşər. Ona görə camaatı məktəbsiz, xəstəxanasız qoymamalıdır. Onlar da yavaş-yavaş öz işlərini düzəldərlər, pulları verməkdən aciz olmazlar. Bu cəhətdən qorxusu yoxdur, yarım milyard da borcu olsa aciz qalmamasına söz ola bilməz. Çünki sərvəti çoxdur. Bir su kəməri hesab olunsa nə qədər pul eliyir? Necə min desyatin yeri vardır ki, qiyməti milyard deyil, daha artıq olar. Bunların müqabilində 5-10 mil-yon şəhər üçün bir deyil. Bu gün bələdiyyə rəisi gəlib deyir ki, əmələlərə məvacib verməyə pulumuz yoxdur. Biz bunların fikrini çəkirik. Deyirlər ki, bələdiyyə idarəsi iş görmüyübdür. Mən istəyirəm təfsilən söylüyüm və büsbütün təqsiri bələdiyyə idarəsinin üstündən götürüm. Doğrudur, bələdiyyə idarəsi [609 - 610] 2-3 ildir lazımınca işləmiyibdir. Ancaq buna indi orada əyləşənlər təqsirkar deyillər. Bir də xozyaystvenni çastlarda başçılar vardır. Onların da o qədər taqsırı yoxdur. Xərc də birə-on çoxalıb. Məvaciblər artıb, nə qədər özünüz müəllim və qeyrilərinin məvacibini artırdınız. Məvacib artırmaqla xərc də artır. Məmləkətin halı belədir: ancaq məvacib və xərc artdıqca mədaxili artırmaq olmaz. (Soldan danışıq).

**Rəis** - Səmədağa, rica edirəm, natiqə mane olmayasınız.

**Əliaqa Həsənov** (davam edir) - Sizin stanokunuz var, onu əlinizdən alsalar öz mədaxilinizlə məxaricə davam edə bilərmisiniz? Onlar mədaxili bir qəpik də artıra bilməzlər. Onlar sizdən izinsiz heç bir şey edə bilməzlər. Onlar pud vergisi almaq üçün hökumətə ərzi-hal veriblər. hökumət qəbul edib. Bu günlərdə parlamentə gələcəkdir. Bundan 20-30 milyon pul hasil olacaqdır. Gələcəkdə şəhərimiz qərzini ödəyər və belə çətin hal bir neçə ay olar. Hər halda şəhərə verdiyimiz pul itməz. 10 milyon bir şey deyil, ona görə xahiş edirəm ki, 10 milyonun üstündə danışmayıb bu pulu verəsiniz.

**Rəis** - Söz parlament üzvü Çubaryanındır.

**Çubaryan** - (rusca).

**Rəis** - Əbilov İbrahim.

**Əbilov** - Aşurov cənablarının fikrincə görünür ki, demokratik üsulu, ümumən, lazım olmayan bir şeydir. Onun zərərdən başqa bir şeyi yoxdur. Demokratik üsul şəhərə zərər gətirmiş, senzli üsul şəhərə fayda vermiş, Aşurov cənabları buradan yel əsən tərəfə gedənlərdir. Bəzi vaxtlar Aşurov cənabları demokratik üsul ilə danışır. (Aşurov yerindən -"Mən qələt edərəm").

Hərgah keçmiş senzli Dumanı buyurursunuz ki, Bakı şəhəri üçün bir çox işlər görmüş, küçələri mostovoy eləmiş, su gətirmiş və sairə. Hərgah onların «işlərini təhqiq etsəniz, hərçəndi mən bakılı deyilsəm də, lakin Bakıda olmuşam. Onların etdikləri işləri və vəziyyətləri nəzərə alsanız görərsiniz ki, o su çox çətinliklə və ağır xərclərlə buraya gəlmişdir. Əgər işıq işini götürsəniz, yoldaşımız dediyi kimi, demokratik küçələrdə işıq yoxdur. Ona görə demokratlara işıq lazım deyil. Yəni onlara işıq verən yoxdur. Onların küçələrinə [610 - 611] baxsanız siz yaşan küçələr ilə çox təfavütlüdür. həm İşıqlı tərəfindən, həm də səhhət tərəfindən. Biz demokratik üsulunu yalnız şəhərlərin abadlığı üçün istədik. Çünki hər şəhərin, hər məmləkətin düz yol ilə idarə olunmasına səbəb olar. Ümdə məxariclər azalar. Və mədaxili verənlər, şəhərin sərvətdarları və böyük mülkədarları olar. İndiki halda şəhərin hər bir xərci artdığı halda və məvaciblər çoxaldıqda nə üçün bu vaxtadək əmlakdan verilən vergi artmamışdır. Bunun da mənfəəti sizədir, mülkədarlardır. Bakıda olan sərvət qeyri şəhərlərdə yoxdur. Qeyri şəhərlərə gedərsiniz, görərsiniz ki, onların borcu Bakıdan az, gördükləri işləri çoxdur. Gedərsiniz. Saritsin kimi kiçik şəhərə görərsiniz ki, orada tramvay, kanalizasiya var. Amma Bakının yoxdur. Bunun bir çox səbəbləri var. O səbəblərdən başlıcası budur ki, onu qayda ilə idarə etməmişlər, getdikcə şəhərin borcu artmış, şəhərə heç bir mənfəət verə bilməmişlər. Ona görə biz deyiriz şəhərin xəstəxanalarında yatanlar və məktəblərində oxuyanlar demokratlardır. Bu kimi camaatın faydasına olan müəssisələrə, hətta dövlət xəzinəsindən də pul verməyə zidd deyiliz. Bir şəhərdəki onun Duması sərvətdarlarda olsun, o şəhərin mədaxilini artırmaq istəməzlər ki, özlərinə zərərdir. hökumətdən borc almaq doğru deyildir.

Bakı şəhəri elə dövlətli şəhərdir ki, öz xərcini ödərdi. O, mənbələrdəki hər bir mənfəətdən aparır, dünən heç bir şeyi olmayan, bu gün milyonlara malikdir. Şəhərin xərci onlardan alınsa idi bu gün borc istəməzdi. Belə bir işi də ancaq demokratik üsulla seçilmiş Duma edə bilər. Hər bir cəhətdən onun mədaxil yolunu taparlar.

Deyirlər ki, keçmiş demokratik Duma şəhər üçün bir iş görmədi. Ona görə bir iş görə bilmədi ki, onun ömrü çox davam etmədi. Etdiyi işlər də Aşurov cənablarının mənfəətinə zidd olduğundan təşəbbüsləri əbəs qalırdı.

Biz şəhərə borc verməyə zidd deyiliz. İndiki Duma camaatın həqiqi mənfəətini gözləyə bilənlərdən olmadığına görə onlara biz inanmırız. Bələdiyyə idarəsi camaat tərəfindən seçilməsin. Məxariclərin yeri məlum deyildir. Bunun təqsiri kimdədir. Bizim üçün təfavüt etməz. Deyirlər ki, Dumanın yenidən seçilməsi barəsində hökumətə layihə gəlmiş və hökumətdə [611 - 612] saxlanmışdır. Buna görə biz tələb ediriz tezlik ilə şəhər idarələrinin demokratik üsulla seçilməsi üçün lazım kələn qərar verilsin; demokratik seçiləcək Məclisi-Müəssisanın seçkilərini ancaq demokratik bələdiyyə idarələri hazırlaya bilərlər. Ona görə biz tələb ediriz onlar seçilsin, onlara nə qədər pul lazım olsa faizsiz belə borc verilsin.

**Rəis** - Söz Rəisi-Vükəla Nəsib bəy Yusifbəylinindir.

**Nəsib bəy** - Möhtərəm məbuslar! Mənə elə gəlir ki, bu günü müzakirə olunan məsələ mətləbdən bir qədər uzaqlaşdı. Hər iki tərəf mənim fikrimcə doğru deyildir, səhvdir. Ağa Aşurovun sözündən belə çıxdı ki, köhnəsi kimi istedadlı adamlar yerində qalsaydı işlər yaxşı gedərdi. Sol tərəfdən deyirlər əgər bu heyət bolşeviklərdən olsa idi cənnət hasil olardı. Bunun heç biri dürüst deyildir. Çünki o cənnət nə istedadlı, nə də bolşeviklərin olması ilə hasil olmaz.

**Səslər** - Bolşevik demədik...

**Mərkəzdən** - Roxlin... Roxlin...

**Nəsib bəy** (davamla) - Bizə ikisi də məlumdur. Nə birincilər və nə ikincilərin olması ilə işlər yaxşılaşmazdı. Müharibə və inqilab hər şeyin əsasını dəyişibdir. Sizə misal üçün bunu söyləyə bilərəm ki, tək menşeviklərdən ibarət olan Tiflis Duması aylar ilə müəllimlərinə məvacib verə bilmir.

**Səslər** - Doğrudur... Düzdür...

**Soldan** - Tiflis Bakı deyildir.

**Nəsib bəy** (davamla) - Hökumət bütün Azərbaycan şəhərləri üçün yeni bir qanun layihəsi hazırlayıb qəbul etmişdir. Bu gün-sabah burada müzakirə edəcəksiniz. O vaxt lazım gələn şeylər dəyişə bilər. Burada mənə elə

gəlir ki, əgər sosialistlər bilsə idilər ki, onların dediklərini cümləniz qəbul edəcəksiniz, heç danışmazdılar. (Ümumi gülüş).

**Səslər** - Doğrudur. {

**Nəsib bəy** (davamla) - Onlar yaqin bilirlər ki, şəhərə para verilməlidir. Çünki o paranı alanlar müəllimlər, həkimlər və fəhlələrdir. Bunu özləri yaxşı bilirlər, ancaq burada bir az gözəl sözlər söyləmək lazımdır. Ona görə söyləyirlər. Mən elə güman edirəm ki, bu parlament öz yolunu dəyişməz, tutduğu yoldan çıxmayacaqdır. Sosialistlər qoy gözəl mövqe tutsunlar və gözəl sözlər danışsınlar. Lakin o pulu verəcəksiniz ki, [612 - 613] bələdiyyə idarəsinin məmurları maaşsız qalmasın. (Alqış).

**Rəis** - Sırada natiq olmadığı üçün son söz məruzəçinindir.

**Rəfiyev** - Bu qanun layihəsi barəsində uzun danışıq oldu. Əleyhinə bircə sol tərəfdən danışdılar. Onun da səbəbi budur ki, raboçi konfrans bağlı olduğuna görə danışmağa yer tapdılar. Lakin əsasən layihəyə etiraz olunmadı. Dedikləri başqa, əsaslara məsələlər olduğu üçün mən onlardan sərfi nəzər edib layiheyi-qanuniyyənin tamamən qəbulunu təklif edirəm.

**Rəis** - Qanun layihəsi bir maddədən ibarət olduğu üçün tamamən səsə qoyuram. Bir də oxuyunuz.

**Rəfiyev** - (Layihəni oxuyur).

**Rəis** - Bir maddədən ibarət layiheyi-qanuniyyənin hər kəs qəbul edirsə, rica edirəm, əlini qaldırsın. (Əllər qalxır). Layiheyi-qanuniyyə əksəriyyət ilə qəbul olunur.

Növbədəki məsələ "Müsavat" fraksiyasının sualıdır. (Katibə) Oxuyunuz.

**Katib** - "Müstavat"ın sualını oxuyur.

"Denikin ordusunun Petrovski ilə Dərbəndi işğal etdiyi hökumətə məlumdur? Məlum olduğu təqdirdə Azərbaycan istiqlalını təhdid edən bu hadisəyə qarşı hökumət nə nəzərlə baxır və bu xüsusda nə kimi tədbirlər görmüşdür?"

**Rəis** - Söz Məmməd Əmin Rəsulzadənindir.

**Məmməd Əmin Rəsulzadə** - Camaat! Bilirsiniz ki, indi əfkari-ümumiyyə və camaat böyük bir həyəcan içərisindədir. Bu həyəcan da Dağıstanda zühura gələn bir hadisə nəticəsidir. Bu da Dobrovolçeski Armiyanın Petrovski və Dərbəndi işğalından irəli gəlmişdi. Şəhərdə intişar edən xəbərlər onların yalnız Petrovski və Dərbəndə gəldikləri deyil, hətta hüdudumuza qədər gəldiklərini anladır. Bu xəbərlər paytaxtımızın içərisində yaşayan və belə hadisələri gözləməkdə olan bəzi adamlar tərəfindən şiddətli surətdə nəşr edilməkdədir. Dünən qəzetlərdən birisi dobrovolların Qubaya yürüş istədiklərini bildirmiş. Belə provakasiyalar təbii əfkari-ümumiyyəni həyəcana salır. Bunda camaatın həyacana düşməsi haqlıdır. Camaat ilə bərabər Dağıstanın işğalı Məclisi - Məbusan Azərbaycan istiqlalını göz bəbəyi kimi saxlamağı vəd etmiş hökumət və parlamenti belə müthiş edən məsələlərdən bilir. [613 - 614] Dağıstan Azərbaycanın qapısıdır. Bu gün Dağıstanda oturan qara qüvvələrin, ələlümum yeni təşkil etmiş, cümhuriyyətlər haqqındakı rəyi və fikri məlumdur. Bu niyyət qara niyyətdir. Bu niyyət əldən çıxmış köhnə iqtidarı, əski səltənəti qaytarmaqdan ibarətdir. Belə bir halda Bakı əhalisi, türk demokratiyası öz evində rahat otura bilməz. Hökumət üzərimizə gəlməkdə olan bu təhlükə qarşısına nə çarə görmüşdür? Bu xüsusda parlamentdə hökumət rəisinin səlahiyyətdar bəyanatını dinləmək istərdik.

Camaatın hər bir təzahüratından görünür ki, kiçikdən böyüyə qədər, arvadı və kişisi istiqlaliyyət və Azərbaycan fikiri ilə yaşayır. Böyükdən kiçiyinədək yalnız bir firqənin fikri deyildir. Bu fikir camaatın, xalqın ruhuna girmiş və nüfuz etmiş camaat fikridir. Azərbaycan millətinin səadətidir. Onsuz heç bir Azərbaycan türkü özünü məsud təsəvvür edə bilməz. Binaən-ileyh, iş belə bir dərəcəyə gəlmişkən onun qarşısında şəkli və şübhəli adamların oturması etiqadını tamamilə mühafizə etməklə bərabər sərkarda əyləşmiş hökumətin bu xüsusdakı fikrini bilmək istəriz. Binaən-iləyh, millət hökumətin nəzərini bilməlidir. hökumət əfkarı-ümumiyə qarşısında nə kimi tədbirlər görmüş, üzərimizə gəlməkdə olan təhlükəyə qarşı nə kimi çarələrə təvəssül etmişdir.

**Rəis** - Söz Rəisi-Vükəlanındır.

**Nəsib bəy Yusifbəyli** - Möhtərəm məbuslar! Varid olan suala cavab verməzdən əvvəl sizə ərz edirəm ki, bizim hüdudumuzu heç kəs keçməmişdir. Və ancaq meyitlərimiz üzərindən keçə bilərlər. (Hər tərəfdən şiddətli alqış və bravo sədaları) İkincisi, yenə öz fikrimi ərz etmədən qabaq məlumat vermək istəyirəm ki, 3 gün bundan əvvəl Dağıstanda bulunan nümayəndəmiz tərəfindən belə məzmunda bir teleqram gəldi. (Oxuyur). "Bakı xariciyyə nəzarəsinə Dünən Petrovskiyə böyük könüllü qüvvələrin gəlməsi haqqında məlumat alınmışdır. Axşam parlamentin iclası vaqe oldu. Hökumət rəisi zeyldəki məlumatı verdi: Könüllü Ordu İttihadi-Cəbaliyyun hökumətini tanımaqdan imtina ilə Dağıstan hökumətini tanımağa razı olur və daxili işlərinə müdaxilə etməyərək Dağıstan bolşeviklərə qarşı könüllülərə yardım edəcəyini təsəvvür edir. Könüllülər dəmir yol xəttini Yalamayadək tuturlar. Bu məqsəddən [614 - 615] ötəri dünən Dərbəndə bir bölük gəlmişdir. Cəbaliyyun cümhuriyyətinin müqəddəratı sülh konfransında həll olacağı üçün şimdilik könüllülər ilə mübarizəyə və etiraz qüvvətimiz olmadığından Cəbaliyyun hökumətini qeyri-mövcud elan edirəm. Dağıstanda bütün ixtiyarat qeneral Hacı Murada verilir. Gecə saat 1-də rəis parlamentin iclasını qapalı elan etdi. Təcili təbliğat bəkləyirəm. Haqverdiyev".

Sonra orada Quba uyezdindən olan uyezd naçalnikliyindən və digərlərindən bir neçə məlumat aldıq. Əvvəlinci məlumat belədir ki, Dağıstana 3-4 eşalon qazax əsgəri gəlmişdir. Bunlardan biri Petrovskiyə, biri də Dərbəndə gəlmişdir. Əsgərlərin miqdarı və nələri olması haqqında məlumat aldıq. Yalnız bukünki məlumatımız, o məlumatı təshih edir. İndi bu dəqiqə Dağıstan nümayəndəsi yenə göstərdiyi teleqrafdan anlaşılır ki, elə böyük bir şey olmamışdır. Teleqrafı imza edən də Dağıstan hökuməti rəisi Kostrovdur. Hər şey öz yerindədir. Təfsilatı məlum deyildir. Ancaq orada bir şey yoxdur. Olsa da hələlik deməyə ehtiyac yoxdur. Dərbənddə olan qüvvə barəsində məlumat budur ki, oraya gələn qüvvə az bir qüvvədir. 200-300 adamdır. Əlbət bir çox namünasib işlər olmuşdur. Petrovskidə axtarış olub, adamlardan silah alınıb. Amma Dərbənddən bu yana bir adam keçməmişdir. Bu məlumatı alandan sonra ilk əvvəl biz İngiltərə hökuməti qüvayi-əskəriyyəsi başçısı qarşısında həm təhrirən, həm şifahən etiraz etdik. Bunu lazım bildiyimizin səbəbi də məlumdur. Nə üçün oraya etiraz ediriz? Çünki əgər biz şimdiyə qədər rahat oturmuşuq onun səbəbi odur ki, İngiltərə hökuməti nümayəndələri həmişə bizə demişlər ki, Könüllü Ordu əsgərləri hüdudu keçməyəcəkdir. Əgər Dağıstan sərhəddini az bir qüvvə keçmişsə, əgər Petrovskidə Könüllü Ordu əsgərləri var isə yalnız Petrovski yaza kimi qullandığı üçündür. Ondan bəri tərəfə heç bir zaman Könüllü Ordu keçməyəcəkdir. Bunun üçün də təbiidir ki, əvvəlinci sualı, əvvəlinci etirazı İngiltərəyə - komandanlığına etdik. Rəsmi surətdə yazdığımız, daha doğrusu, xariciyyə nəzarətinə göndərdiyimiz notanın məzmunu budur: Oxuyur. "İngiltərə komandanlığının Denikin ordularını Dağıstan hüdudunu keçməyəcəyi xüsusundakı miqdar və ədədlərinə rəğmən bu gün aldığımız məlumata görə Könüllü [615 - 616] Ordu əsgərləri Dağıstan dəmir yollarını Yalama stansiyasınadək işğal edirlər. Könüllü Ordu qüvvələrinin Dağıstanda Azərbaycan hüdudunda bulunmasını Azərbaycan üçün böyük bir təhlükəədd edərək irəlidə möhtəməl vüquatın önünü almaq məqsədi ilə Azərbaycan hökuməti İngiltərə komandanlığı tərəfindən Könüllü Ordunun Dağıstandan çıxarılması xüsusunda lazım olan ciddi tədbirlər ittixaz edilməsini arzu edər". Bundan maəda general Şatiluvert ilə xüsusi görüşdüm, general Şatiluvert söylədi ki, ingilis qüvayı-əskəriyyəsinin qərarı dəyişməmişdir və heç bir zaman Könüllü Ordu Petrovskdan bəri keçməməlidir. Doğrudur, Petrovski nümayəndələri tərəfindən ona məlumat verilmiş, ancaq Petrovskdən bu tərəfə eşalonun keçməsi kimi müsaidəsi ilə və nə üçün olduğu məlum deyildir. Öz tərəfindən lazım olan tədbirlər ittixaz edilmişdir və aldığı məlumatı alan saatdan bizə xəbər verəcəkdir. O anlayır ki, nə üçün biz bu məsələni müzakirə etdiyimiz zaman sükutiqəlblə danışa bilmirik. Özü bilir ki, Dağıstan Denikinin və ya başqa düşmənin əlində olursa, Azərbaycan təhlükə içində olur. Onun üçün şimdilik bir söz deyə bilmədi. Ancaq onu deyə bilərəm ki, bu bir (nedorozumeniya)dır. Tez zamanda təlimat alar və mənə xəbər verər. Mən şifahən ciddi surətdə protesto etdim. Tiflisdəki nümayəndəmiz deyir, teleqraf göndərdik ki, İngiltərə komandanlığına protesto eləsin və İngiltərə nümayəndələrinə söylədim ki, biz vədlərdən artıq doyduq. Bundan belə biz özümüzə güvənəcəyik. Və lazım gələrsə, bir adam kimi hürriyyət və istiqlalımızı müdafiəyə qalxışacağız. (Ümumi alqış). Kim olursa-olsun, dünyanın böyük və qüvvətli dövləti də olursa-olsun, qarşısına çıxıb müdafiə edəcəyiz. (Alqış). Əlbəttə, ingilislərin mənim sözümə ayrı cavabı olmazdı. İngilis komandanlığı dedi ki, bu sözlərə haqqınız var; vətəni müdafiə etmək vəzifənizdir. Başqa dürlü cavab verə də bilməzdi. Bundan maəda sizə bir başqa məlumat da vermək istəyirəm. Bakıda İngiltərə komandanlığı nəzdində Denikinin Lazaryev kimi bir nümayəndəsi vardır. Bir neçə gün bundan əvvəl polkovnik Lazaryevdən şifahən və sonra təhrirən hökumət naminə bir kağız vardır. Kağızın əhəmiyyəti olduğundan, onu burada oxumaq istəyirəm. (Oxuyur). [616 - 617]

Azərbaycan Cümhuriyyətinin Heyəti-Vükəlasına. Cənubi Rusiya qüvayi-müsəlləhəsinin Bakıda bulunan İngiltərə komandanlığı nəzdindəki nümayəndəsi. Mayis 1919.

Cənubi Rusiya qüvayi-müsəllahəsinin Baş komandanı tərəfindən aldığım teleqrafa istinadən atidəki məruzatı ərz edirəm: Cənubi Rusiya qüvayi-müsəlləhəsi (Könüllü Ordu) komandanlığı Azərbaycan əleyhinə heç bir təcavüzkaranə hərəkətdə bulunmaq fikrində deyil. Bilək, Azərbaycanın istiqlalını münasib görür və tanıyır. Rusiyanın bolşeviklərdən xilasından sonra sabiq Rusiya imperatorluğu daxilində təşkil etmiş dövlətlər ilə münasibət və etilaf peyda etmək millət məclisinin və yaxud bolşeviklər ilə mübarizə edən qüvvələrin bütün ixtiyaratı tövdi edəcəkləri mənbəyi-alinin işi olacaqdır. Cənubi Rusiya qəvayi-müsəlləhəsi nümayəndəsi polkovnik Lazaryev".

Bu sənəd əhəmiyyətli olduğu üçün müsayidənizlə əsl mətnini oxuyuram. Bəlkə dürüst tərcümə etməmişəm. (Kağızı rusca oxuyur). Bundan maəda Dağıstana Könüllü Ordu nümayəndələrinin gəldiyi xəbərini aldıqdan sonra mənim yanıma Savinski adında birisi gəldi. Savintskidir, ya Savanskidir, yadımda deyil. İrəlidən Rusiyanın Bolqariya səfiri olmuş; indi isə Dağıstanda ingilis komandanlığı nəzdində nümayəndə imiş. Bunun söhbətindən belə anlaşıldı ki, Denikin ordusu fikrini tamamən dəyişmişdir. Yəni şimdilik, mənim ürəyimdən şimdilik çıxdı, o şimdilik çıxdı. Şimdilik yeni təşkil olunmuş Mavərayi-Qafqaziyada olan cümhuriyyətləri tanımağa qərar verilmişdir. Və onlar ilə mübarizəyə qərar verilməmişdir. Bu xəbəri Parisdən gələn admiral Bubnov gətirmişdir. Bubnov Yekatrinodarda imiş. Denikinin öz sözü ilə bu xəbəri Parisdən gətirmişdir. İndi görürsünüz İngiltərə komandanlığı bir tərəfdən deyir ki, sizin daxili işlərinizə müdaxilə etməyəcəyik. İşlərinizə kimsə qarışmaz. Bu da rəsmi surətdə bizə deyilir. Digər tərəfdən, Könüllü Ordu tərəfindən rəsmi və mühüm xəbərlər yazırlar. Təbiidir, bu xəbərlər mənə gələndən sonra, o xəbər ki, bir tərəfdən bizim istiqlaliyyətimizi

tanıyırlar, digər tərəfdən də felən bizim istiqlaliyyətimizi qorxu altına alırlar. Bunda bir təzad vardır. Ona görə mən Savitskini və bu məktubu yazan Lazaryevi çağırtdırıb [617 - 618] dedim: hansına inanaq, kağızınıza və ya əməlinizə. Lazaryev yenə bir çox andlardan və yəmənlərdən sonra dedi ki, mənə heç bir şey məlum deyildir. O, dedi ki, mən bir şeydən qorxuram, ola bilsin ki, Denikinin və Ordunun qərarından Dağıstanda bulunan komandanlığın məlumatı olmasın. Teleqram ki, yazmışdı mənə göstərdi. Teleqrafın surəti Dərbəndə gəlməyin səbəbini oradakı komandanlıqdan xəbər alırdı. Məndən izin istədi ki, sizə teleqraf vurub cavab alsın. Təbiidir ki, mən ona müsaidə etmədim və edə bilməzdim. Ancaq o da zənn edirdi ki, ingilislərin dediyi kimi bu bir nedorozumeniyadır. Bundan Azərbaycan heç bir təhlükə təbii ola bilməz. Yalnız aramızda bir ixtilaf vardır ki, onlar zənn edirdilər ki, Könüllü Ordu Dağıstana gəlirsə, bizə təhlükə deyildir. Mən isə dedim ki, bunu isbat eləmək istəyirsələr, onda bütün Dağıstanda yeni bir hökumət təşkil edən millətin yerlərini xilas etsinlər. Nə qədər ki, Könüllü Ordu Dağıstandadır onu biz özümüzə təhlükəədd edib qarşısına tədbir ittixazından çəkinməyəcəyiz.

**Rəis** - Söz İbrahim Əbilovundur.

**Əbilov** - Möhtərəm əfəndilər! Denikin tərəfindən olan qorxu ki, bizim hüdudumuza hətta gəlib çatıblar, bilirsiniz ki, nə qədər Azərbaycan istiqlaliyyətinə qorxulu bir şeydir. Bununla mübarizə etməkdə ümid var parlament üzvləri arasında ixtilaf və ayrılıq olmasın. Və o adamlar ki, həqiqət, istiqlaliyyət tərəfdarıdırlar, istiqlaliyyəti gözləyəcək və Denikin ilə mübarizə fikrini müdafiə edəcəkdir.

Azərbaycan sosialistləri və sosialistlər fraksiyası öz qərarlarında və danışıqlarında Azərbaycan istiqlaliyyəti tərəfdarı olduqlarını və istiqlaliyyəti mühafizə edəcəklərini bildirmişlər. Mən istiqlalın içərisində üsuli-idarənin nə şəkildə olması barəsində danışmaq istəmirəm. Bu o vaxt deyildir. Lakin bu məsələdə hürriyyətin bayrağını yatırtmaq istəyən və öz istiqlaliyyətinə nail olmuş millətlər üzərinə hücum edən Denikin qara qüvvələri əleyhinə ayrılıq olmayaraq birlikdə qiyam etməliyiz. (Ümumi alqış). Aramızda olan münaqişə və ixtilafları özümüz həll edə bilərik. Qıraqdan gələn qüvvələrə qarşı isə bir olarız. (Alqış). Lakin, əfəndilər, farsın bir şeri var. Deyir ki, "əlace vaqee piş əzvüçu bayəd qozide". [618 - 619] Bu şerin məzmununu məəttəssüf, bizim hökumət bu vaxta qədər düşünüb fikir verməyibdir. Denikinin Dağıstanı keçib bizim hüdudumuza gəlməsinə, yaxınlaşmasına səhlənkarlıq ilə yol verilmişdir. Neçə vaxt bundan irəli Denikin qüvvələri Dağıstana hücum edəndə burada qərar verildi ki, hər fraksiya könüllü dəstələr düzəldib Dağıstana, Dağıstan xalqı imdadına göndərilsin. Bizə yol vermədilər. O vaxt biz sosialistlərə başqa cavab verdilər. Hərçənd açıq deyilməmişdi, lakin örtülü deyilmişdi ki, onları qüvvətləndirmək olmaz. Əlbəttə, onu düşünürdülər. Nəsib bəy dedi sosialistlər bilirlər ki, qəbul olunmayacaq, ona görə də bir qədər gözəl sözlər deyirlər. Biz deyirdik ki, bizim istiqlaliyyətimiz bağlıdır. Dağıstan istiqlaliyyətinə. Dağıstanı qara qüvvə basarsa, bizə də qorxu var. Ona görə əvvəldən iqdamə lazımdır. Lakin bizə ixtiyar verilmədi. Başqa firqələrə verdilər. Biz etiraz etmədik. O adamlar ki, Qafqaziya millətlərinin istiqlalını və Dağıstan istiqlalını qəbul edirlər. Dağıstana kömək göndərmək üçün o adamlara müraciət olundu, onlar kağız yazıb dedilər ki, buradan bandalar göndərirsiniz. Qoymarıq, hökumətimiz etiraz etmədi. heç demədi ki, bizim istiqlaliyyətimiz Dağıstan istiqlaliyyətinə bağlıdır. Oradan gələn buraya bağlıdır. Dağıstana gəlmək verilmədi. Bundan başqa burada, Azərbaycanın hər yeri, bütün idarələrimiz Denikin şpiyon və casusları ilə doludur. Biz sosialistlərin tələbi bu idi ki, bu adamlar tutulub, Azərbaycandan göndərilsin və paytaxtımız Denikin agentlərindən boşalsın. Bizə cavab verib dedilər bunlar hamısı bolşeviklər tərəfindən buraxılan fikirlərdir. İstəyirlər bu yanda başımızı qarışdırıb, o yanda işlərini görsünlər. O vaxt burada bir neçə adam, o cümlədən Vaskrinski də tutuldu. Vaskrinskidən tüfənk və başqa ləvazimatı - əsgəriyə və mühümmatı-hərbiyyə tapıldı. Üstündən bir az keçmədi ingilislərin tələbi ilə onları buraxdılar. Sonra da hökm olundu ki, tutulan şeylər buraxılsın. O vaxt bunlar sübut edirdi ki, Denikin təhlükəsi yaxınlaşır, hökumət mübarizə etmək istəmir. Hər gün açıq-aşkar burada könüllü yığılıb gedirdi. Yerləri göstərildi. Sısknoy naçalnikinə məlumat verildi. Bununla belə deyilirdi ki, əhəmiyyət verməyin, qızışmaq lazım deyildir. Müxtəsər, keçirik. Məlumunuzdur ki, tətil zamanı [619 - 620] birisi də buradan deyirdi ki, ingilislər və Denikin Narzan tərəfində şikəst tapmışlar, məğlub olmuşlar. İşləri yaxşı deyildir. O vaxt 18 paroxod ilə qüvvə göndərmək istəyirdilər. həmən rus fəhlələri ki, xain hesab olunur, o vaxt paroxodları vermədilər. Mənim yanımda 4 paroxod xahiş edildi. Onlar dedilər ki, Denikinə kömək gedir, vermirik. Çünki onlar bilirdilər ki, bu əsləhəni aparıb Dağıstan demokratiyası üzərinə çevirəcəklər və Denikinə kömək edəcəklər. Bundan sonra dəmiryolu ilə göndərmək istədikdə əmələlər tətil edib qoymadılar. Bundan əlavə burada hökumət bildirdi ki, (Belaya) nam barjda hərbi gəmilərin silahları və topları Qriqoryevin təhtiş idarəsində durubdur. Və ingilislər buradan onu Denikinə göndərirdilər. Buna etiraz olmadı. Amma tətil vaxtında xəbər buraxdılar ki, bunu bolşeviklər özləri düzəldiblər ki, hökuməti əllərinə alsınlar. Tətil qurtarandan sonra Qriqoryev qəzetə ilə xəfiyyə naçalnikinə təşəkkür edirdi ki, həmən patronları, tüfəngləri tapıb özünə qaytarıblar. Yenə həmən silahlar Denikinə göndəriləcəkdir ki, bizim üzərimizə çevriləcəkdir. Buna heç bir etiraz olunmadı. Bundan başqa məmləkət içərisi və idarələrimiz Denikin agentləri ilə doludur. Bunu deməkdə məqsəd odur ki, bu silahlar ingilis tərəfindən Denikinə göndərildiyi vaxtda nə üçün bir tədbir etmədi ki, axırda həmin silahlar üzərimizə göndərilməsin. hökumətimiz bolşeviklər təhdidini Denikin qorxusundan artıq bilir. Deyirlər qoy Denikin bassın. İndiyə qədər inkilis-lər söz verdilər ki, istiqlaliyyətimiz Paris sülh konfransında qəbul

olunacaqdır. İndi də Denikin öz yazdığı kağızlarında bizim istiqlaliyyətimizi qəbul edir. Əlbəttə, Denikinin verdiyi şirin vədlərinə aldanırıqsa, sabah ola bilər ki, Denikin adamları içimizdə qiyam edib, kənardan da öz işlərini görsünlər. Və Dağıstan məmləkətindən sonra üzərimizə gəlsinlər. O iqdamatlar ki, lazım idi" Dağıstana kömək olunsun, olunmayıb. Denikinə silah göndərilməsinə etiraz olmayıb. Əgər bunlara səhv deyiblərsə, bundan sonra təkrar olmamalıdır. Bundan sonra şəhərimizdən ingilislər vasitəsi ilə olsa da heç bir top və bir tüfəng Denikinə göndərilməməlidir. Biz hər bir qüvvə ilə istər ingilislər, italyanlar, denikinlər və başqaları da olsa mübarizə edib, istiqlaliyyətimizi [620 - 621] caxlayaçağımızı göstərməliyiz. (Alqış). Biz ki, istiqlaliyyət istəyiriz. Hər bir şeyə qarşı durmalıyız. Yerimizin üstündən keçmək istəyənlər meyitlərimizin üstündən keçə bilərlər. Hər o millət ki, öz istiqlaliyyətini müdafiə edə bilir, o yaşaya bilir. Bizim məmləkətdə Zaqafqaziyanı işğal edəcək məzmunlu proklamasiya yapışdırılanda heç kəs etiraz etmədi ki, yapışdırılmasın. Amma Tiflisdə haman proklamasiyanı yapışdırmaq istəyəndə ciddi surətdə etiraz olundu, qoymadılar. Gürcüstan hökuməti dedi ki, biz polislərə əmr etmişik ki, yapışdıranda cırsınlar. Cırmağa qoymayanların əleyhinə çıxıb mübarizə edəcəyiz. Lakin burada tapşırdılar. Biz sual verdikdə heç bir cavab verilmədi və müzakirə edilmədi. Ona görə deyirəm ki, hər millət ki, hüququna təcavüz olduqda etiraz edir və özünü müdafiə üçün qanını qoyur, o millət yaşar. Bu vaxta qədər başqalarının sözlərinə, cildlərinə aldanmışıq. Bizi burada toqquşdurub, aramıza ixtilaf salıb, onlar bir-biri ilə yaşaya bilməzlər deyə Avropaya səs salmışlar və bununla da bizim vəhşiliyimizi sübut etmişlər. Bundan sonra bizi vəhşi qələmə verənlərin sözlərinə inanmamalıyıq. Bundan sonra hər bir firqəyə izin verilməlidir ki, könüllü dəstə düzəltsinlər. Sərhəddə qoşun yeritməlidir. Kəndçiləri silahlandırıb Denikin qarşısına çıxartmalıdır ki, vətənimizi düşməndən mühafizə etsinlər. Hərgah belə etməsək və Denikin ilə ingilislərin dediklərinə inanarsaq, sabah yox o biri gün şəhərimizin içində qiyam qaldırmaq ilə qırxdanda az bir qüvvə yeridib istiqlaliyyətimizi əlimizdən alacaqlar. Ona görə tələb edirik ki, şəhər içərisində olan Denikin tərəfdarları hamısı tutulub çıxarılsın, qəzetləri qapadılsın. Nə qədər qüvvələrimiz varsa sərhəddə göndərilsin. Camaatın hamısını müsəlləh edib Denikin mübarizəsinə hazır etsinlər. Daxilimizdə olan qara qüvvə və əksinqilab ilə mübarizə etməli. O vaxt ki, tələb edirdik, indi də tələb edirik ki, bir fövqəladə mübarizə komissiyonu düzəlsin ki, əksinqilabçılarla mübarizə etsin və daxilimizi onlardan təmizləsin.

Biz sosialistlər və qüvvəmiz ilə Azərbaycan istiqlaliyyəti, hürrüyyəti və səadəti uğrunda Denikin ilə mübarizə üçün əvvəlinci cərgədə biz olacağız. (Alqış).

**Rəis** - Söz Əfəndizadə Muxtarındır. [621 - 622]

**Muxtar Əfəndizadə** - Möhtərəm məbuslar! Məsələ olduqca mühümdür. Məndən əvvəl danışan natiqlər məsələnin əhəmiyyətini ətraflıca söylədilər və anlatdılar. Mənə qəribə gələn bir cəhət var. Bir adam bir dostunun iş əməllərini hər halda öz üzünə vurmamalıdır. Çünki bununla dostunun yanlışlarını bəlkə düzəltmək istər.

Buna görə mən Əbilovun sözlərinə şərik ola bilmirəm. Mən bilmirəm o öz iddiasında haqlıdır, ya yox. Əgər haqlı isə bu sırada o etirazları etmək vaxtı deyildir. Bu zaman istiqlaliyyəti yolunda çalışan millət bu gündə sizin arxanızda duracaq və sizi tək qoymayacaq. Necə ki, əvvəldə deyilmişdi. Bir tən vahid kimi bu məsələdə yek bir rəyimiz olmalı və firqə məsələləri ilə sağ və sol təqsim edilməməliyiz.

İstiqlaliyyətimizi istəməyən heç bir firqə yoxdur. Heç bir firqə bu vaxtadək istiqlaliyyətimizə zidd getməmişdir. Hamımız qara qüvvələrə qarşı çıxmağa hazırız. Biz yalnız bunu deyiriz ki, hökumət şərh hesab olsun, söylənən hər sözə aldanmasın.

**Rəis** - Söz Məmməd Əmin Rəsulzadənindir.

**Rəsulzadə Məmməd Əmin** - Xarici təhlükə qarşısında firqələr arasında ixtilaf olamaz. Hamısı yekvücud olaraq istiqlal yolunda bir adam kimi hazır olacaq. Buradan eşitdik ki, meydana gedən siniflərin ilk önündə - sosialistlər olacaqlar. Biz buna inanırdıq. Bunu başqa cür təsəvvür etmək olmaz. Bir təhlükə ki, Azərbaycan istiqlaliyyəti hürriyyətinə gəlir, geridə duran bir adamın bulunacağını təsəvvvür edəməm. Yalnız bir məsələ var. Zamanın əhəmiyyətini dərk etmək bu mühüm zamanlarda, o andakı yenə ikinci cümlə firqə münaqişatından və nöqteyi-nəzəri-ixtilafatından irəli gəlir. Burada hər bir qüvvəyə qarşı istiqlalımızı müdafiə edəcəyimizdən və cahanın böyük qüvvətlərindən bəhs edildi. Yalnız bir təhlükədən bəhs edilmədi və o təhlükənin də qüvvətini unutmaq olmaz. Bunlardan bəhs edirkən irəlidə gələn təhlükədən bəhs etməmək; bir təhlükəyə qarşı göz yummaq deməkdir. Binaən-ileyh, açıq gözlə bütün təhlükələrə baxmalı, ondan sonra hansı millət, hansı qüvvətlə mübarizə edəcək olduğumuzu nəzərdən uzaq tutmamalıdır. Keçən tətil zamanında his etdiyimiz təhlükə bu gün də mövcuddur. O zaman başqa bir təhlükə qarşısında idik; bəlkə o zail olmuşdur, lakin ola bilir ki, o bu gün üçün yumşalmış, lakin tamamilə zail olmamışdır. Bu gün Denikin tərəfdarı olacaqların yarın bolşevik olacaqlarını bizə nə ilə təmin edə bilərsiniz. Vaxtilə onlar ingilisləri dostədd etmişlərdi. Bu gün Denikinə qarşı və ingilis qüvvəsinə qarşı mübarizə edənlərin qabağına düşmüşlərdir. Həmən qüvvələr bu gün Denikinə elani-hərb edirlər. Halbuki onlar bizə bir an əvvəl Ufa hökumətini qəbul etdirmək istəyirlər və Prijevalski buradan gedərkən biçarələr xof adamlarını həqiqi demokrat sanır və burada qalmasını tələb edirlərdi. Bu məsələyə açıq nəzərlə və aydın huşla baxmalıdır. İstər sağdan, istər soldan olsun, Denikin istər bolşevik olsun, o tərəfə ətf nəzər etmək bütün qüvvəti o tərəfə çəkmək və ona istinadla tədbir görmək, doğru bir siyasət əsəri olmaz.

Möhtərəm Əbilov cənabları məmurlarımız içərisində bir çox bizə düşmən ünsürlərin bulunduğunu söylədilər. Bu yalnız məmurların içərisində deyil. Biz ona şahid olduq ki, Denikin Dağıstanla mübarizə etdiyi bir zamanda, Dağıstan dəmiryolu tətil elan elədi və buna da iqtisadi adı verdi. Binaən-ileyh, iki tərəfdən təhlükəni görməlidir və kimsədən imdad bəkləməməlidir. Bunu bildikdən sonra hansı təhlükə ortaya çıxacaq olursa onunla mübarizə etməlidir. Müharibə üsulunda bütün cəbhələrə birdən hücum edilməz. Ən eyi əsgər təhlükə nərədən daha qüvvətli gəlirsə orada müdafiyə hazır olar, bunu bildikdə hökumətə niyə belə etmədin deyərək tənqid etmək və bunların cümləsini birdən görməmək mümkün olmadığını bildiyi halda sual vermək doğru deyildir. Buna görə bütün müşkülat içərisində olduğumuzu nəzərə almaqla bərabər ki, hökümətimiz yenidir, bir çox düşmənimiz var ona qarşı qətiyyət ilə, şiddət ilə hərəkət etmək doğru deyildir. Fəqət, bununla bərabər qətiyyət və şiddət başqadır. Burada təhəssür əsərləri göstərildi. Bunları yek digərindən ayırmalıdır. Başa düşdürüb də təhəssür göstərən hökumət özünü yağışdan çıxarıb, yağmura salmaq deməkdir. Azərbaycan istiqlaliyyətini, öz istiqlalımızı mühafizə edəcəyiz. Fəqət, belə olmasın ki, bu istiqlalımızı müdafiə etdikdə, raboçi konfransın istiqlaliyyətini müdafiə edək.

Eyni zamanda bolşeviklərlə mübarizə edərkən və istiqlalımızı müdafiə edərkən elə etməməliyik Denikin istiqlaliyyətini [623 - 624] müdafiə edək. Biz yalnız Azərbaycan istiqlalını müdafiə edəcəyiz. Bu nöqteyi-nəzərdən bu qətiyyət siyasətidir, təhəssür siyasəti deyil. Əgər bu gün bir nəfər Denikin adamlarından tutulursa, kimsə tapılmır ki, gəlib onlar üçün vəsatət etsin. Fəqət, bolşeviklərdən biri tutulursa onlar üçün çox vəsatət edən tapılır. Qapının dabanını çıxardırlar. Bu həqiqi sosialist deyildir. Hökumət istiqlaliyyət nöqteyi-nəzərində durub, sağdan, soldan hansı tərəfdən təhlükə gəlirsə gərək müdafiə etsin.

**Səslər** - Voskresenski hardadır?.

**Məmməd Əmin** (davamla) - Voskresekski hardadır - deyirlər. Voskresenski müqabilində sizin yoldaşlardan yüzlər ilə buraxılmışdır. Hökumət tədbirlə iş görür. Əgər qəti ilə girişib heç bir şeyə baxmadan, bütün həbsə layiq adamları tutarsa Bakının qismi-mühümünü həbs etmiş olar ki, bütün əsgərlərimizi onların dövrəsinə düzəcək olursaq yenə yetişməz. Amma belə olmaz. Vəziyyəti ölçməlisiniz.

Əfəndilər! Bizə deyirlər ki, Dağıstana lazımınca yardım etmədik. Bu doğru deyildir. Azərbaycan Məclisi-Məbusanı və hökuməti mümkün qədər kömək etdi. Əkər bu gün Dağıstanda arzu olunmayan əhvallar zühura gəlirsə o da Azərbaycandan da ziyadə özünün vəziyyəti-siyasiyə və ictimaiyəsindəndir. Hərgah onlar elə olmasaydı bizim də bu qədər etdiyimiz köməklə bu nəticəni görməzdik. Məəttəssüf, bunu Dağıstanın adamlarında görmək olmaz. Əgər hökumət özünü buraxıb bütün ixtiyaratı Hacı Murad naminə birinə vermişsə də biz zənn ediriz ki, bu Hacı Murad, Şamil zamanındakı Hacı Murad olmaz. İşdə bu məsələyə belə baxaraq, hökumətin bu vaxta qədər gördüyü tədbirlərə müvafiqət etməklə bərabər hökümətdən bunu tələb etməliyiz ki, istiqlalımızı müdafiə edib, göz bəbəyi kimi saxlasın. Və Dağıstandakı qüvvət Azərbaycanınənginə çevrilmiş bir tapançadır. Bu tapança Azərbaycan əleyhinə olduğu üçün hökumət ona diqqət etməlidir. Və o varkən biz heç vaxt əmin ola bilməriz. Binaən-ileyh hökumət gözləməlidir ki, o tapança açılmağa fürsət tapmasın. Tapançanın çıxmasına əl atılır-atılmaz bütün tüfəng, top və şəmşirlərimiz bu tapançaya qarşı açılıb, bütün qüvvələrimiz onu məhv etməyə yüyürməlidir. (Alqış). [624 - 625]

"Müsavat" və sosialistlər tərəfindən iki formula verildi. "Müsavat" fraksiyasının formulası:

"Dağıstanda yerləşən (Denikin) ordusundan görünən təhlükə barəsində verilən suala qarşı Heyəti-Vükəla rəisinin bəyanatını müzakirə və gördüyü tədbirləri təqdir edərək Məclisi-Məbusan məmləkətin istiqlal və tamamiyyəti-mülkiyyəsinin müdafiəsinə məxsus hər növ tədbirlərə zahir olacağını bəyanla növbədəki məsələlərin müzakirəsinə keçir".

Sosialistlər fraksiyasının formulası:

"Böyük Rusiya inqilabı nəticəsi olaraq məhkum millətlər əsarətdən azad olub kəndi müqəddəratlarını aldılar. Onların sırasında Azərbaycan xalqı kəndi istiqlalını elan edib bir sənədir ki, müstəqil surətdə kəndisini idarə etməkdədir. Fəqət, həm Rusiya zəhmətkeşlərinin əsarətdən qurtulmasına sənəd olan və ən ziyadə məhkum millətlər və azadəliyini çəkə bilməyən Rusiya əks inqilabı və onun nəticələrini bağlamağa qoyuldular. Fəqət, xalq içərisində istinad etmək üçün lazımi qüvvə tapılmadığından haman əks inqilab guruhi öz gücünü xaricdən müttəfiq hökumətlərdən almağa başlamışdır. Topladığı gücündən istifadə edərək öz istiqlallarını elan etmiş Zaqafqasiya cümhuriyyətlərinin üstünə hücum etmək təşəbbüsünə girişmişdir.

İngiltərə komandanlığı Zaqafqaziya cümhuriyyətlərinə Könüllü Ordu tərəfindən bir təhlükə olmadığını dəfələrlə deyib, təskinlik vermişdir. Fəqət, əks inqilabçı Könüllü Ordusu bütün bu vədlərə baxmayaraq Cəbaliyyun hökuməti üstünə hücum edib, camaatının xahişinin əksinə olaraq Dağıstan torpağını işğal etmiş və bizim sərhədlərimizi təhdid etməkdədir. Dağıstan xalqının hüququnun əks inqilabçı Könüllü Ordusu tərəfindən vəhşiyanə payimal olması nəticəsi bizim üçün parlaq bir dərsi-ibrət olduğundan və Könüllü Ordunun Azərbaycan hüdudunda dayanması Azərbaycan xalqının canına qəsd, inqilabın səmərələrini məhv edəcəyindən bizim cümhuriyyətimiz üçün böyük bir təhlükə kəsb etdiyindən Azərbaycan Məclisi-Məbusanı elan edir ki, Azərbaycan xalqının elan etmiş və sənə mütamaxiyən müdafiə etdiyi istiqlaliyyəti bütün xalq bir nəfər kimi əldə silah olaraq indi də əks inqilabçı Könüllü Ordusu tərəfindən qəti və şiddətlə müdafiə edəcəyini [625 - 626] elan

edir. Parlament fraksiyaları vasitəsilə könüllü dəstələr düzəltmək üçün ciddi müavinət göstərilsin və bunun ilə növbədəki məsələyə keçir.

*Əhməd Cövdət, Əbilov, Ağamalov,*
*Atamalıbəyov, Saniyev, Rzayev".*

**Rəis** - "Müsavat" fraksiyonunun formulasını səsə qoydu və əksəriyyəti-ara ilə qəbul edildi. Və bundan dolayı parlament Nizamnaməsinin 141-ci maddəsi mevcibincə sosialistlər fraksiyasının formulasını səsə qoymadı.

Həmin may ayının 28-də istiqlaliyyət münasibətilə parlament təntənəli fövqəladə iclası olacağını da elan etdi.

Məclis qapanır.

**Arxiv, f. 895, siy. 1, iş. 91, vər. 1-39.**

## № 42

## Qırx ikinci fövqəladə təntənəli iclas

*28 may 1919-cu il*

**Rəis** - Həsən bəy Ağayev. **Katib** - Əhməd Cövdət.

**Rəis** - Azərbaycan parlamanın tarixi iclası açılır. İclas saat 12-10 dəqiqədə açılır.

Möhtərəm məbuslar! Düz bir il bundan qabaq, 1918-ci sənə mayısın 28-i idi. Yuvası dağılmış quş kimi Azərbaycan Milli Şurası yersiz qalmışdı. Tiflis otellərindən "Oriyant" müsafirxanasında gürcülərdən iki gün sonra elani-İstiqlaliyyət eylədi. Azərbaycan xalqının müntəxabları belə zənn edirdilər ki, elani-isstiqlaliyyət eləməklə Azərbaycan xalqı üçün səadət mənbəyi açılır. Bununla demək Azərbaycan müntəxabları tarixi bir əsas qoydular. Milli Şuranın bu cür iqdamı, bu duyğusu, bu işi səhih idi, ya xülya idi. Buna cavabən Azərbaycan istiqlaliyyətinin bir sənəlik həyatını gözümüz önündən keçirsək görərik ki, Milli Şuranın duyğusu və xalq haqqındakı zənni həqiqət imiş. Milli Şura əhalinin arzusu və amalana cavab, fikrinə mütabiq olaraq elani istiqlaliyyət [626 - 627] eylədi. Biz indi görürük ki, camaət də istiqlal ilə yaşamaq istəyir. Həqiqətən Milli Şuranın bu cür iqdamının nəqədər yerli olduğunu bu bir ilin ərzində Azərbaycan xalqı tərəfindən göstərilən səbat və fəaliyyət isbat edir. Bu bir ilin ərzində Azərbaycan türkləri yaşayan iftixar olaraq çox böyük işlər görmüşlərdir. Bu bir ildə düzəltdikləri müntəzəm idarələri, hökumət tərzi-idarəsi hamını dəryaya-heyrətdə buraxmışdır. Mənim yəqinimdir, iman eyləyirəm ki, bu bir il ərzində Ənvai-Mümanaətlər olmasa idi birə-yüz, birə-min işlər görmək olardı. Bunu da bilirik ki, bizə daxildən və xaricdən quyu qazıyanlar az olmamışdır. Bununla əkər baxsaq, ətraf və əknaf hərc-mərc və dəryayi-inqilabdadır. Lakin Azərbaycan rube tərəqqi eləməkdədir. Əgər maneələr olmasa idi daha çox tərəqqi etmiş olardıq. Zənn edirəm və səhv etməmiş olaram desəm ki, inanıram ki, əgər Azərbaycan türkləri üçün hansı tərəfdən bəla olarsa-olsun, heç bir təhdiddən və düşməndən qorxmayaraq istiqlaliyyət yolunda canilə, malilə və qanıla müdafiə və fədakarlığa hazırdır. (Ümumi sürəkli alqış). Əfəndilər!.. Zənn edirəm, Azəri türkləri qazandıqları Azərbaycan istiqlaliyyətini ucuz qiymətə verməyəcəklər. Bunun üçün dəlil və sübut lazım deyil. Bu məclisin ibtidasında Azərbaycan xalqı tərəfindən göstərilən fədakarlıqlar və səbat isbat edir ki, Azəri türkləri lazımı məqamda öz aralarında olan ixtilafı bərtərəf edib, bir vücud kimi düşmən qarşısına çıxmağa hazırdırlar. (Alqış). Axırıncı hadisə Azərbaycan tarixin-dən müzəyyən bir yer tutacaqdır. Böylə qəhrəmanları olan bir vilayət və millət heç bir təhdiddən qorxmayacaqdır. Son zaman guya yenə təhdid altına düşməkdəyik. Lakin millətdə görünən səyat, əzm və qeyrət göstərir ki, Azərbaycanın heç bir qorxusu yoxdur. Bizim cavanlarımız və əsgərlərimiz sinə sipər edərək düşmən qarşısına çıxmaqları ilə isbat edirlər ki, əkər lazım olsa bütün Azərbaycan xalqı, arvad, kişi, uşaq və böyük bir adam kimi düşmən qabağına çıxacaqdır. (Sürəkli alqış). Əfəndilər! Azərbaycan xalqı bir ilin ərzində Azərbaycan istiqlalını daha möhkəmləndirmək və işləmək ilə bərabər çalışıb səy eyləyiblər ki, İnqilab Kəbiri sayəsində qazanılan hürriyyət səmərələri möhkəmləşsin və Azərbaycanda yaşayan türk, rus, erməni, yəhudi və qeyri millətlər məsud olsunlar. [627 - 628] Əminəm ki, bu yolda Azərbaycan parlamanı və gələcəkdə Məclisi-Müəssisan daha da fəaliyyətli bir surətdə işləyəcəkdir. Əfəndilər! Bu bir ildə istiqlaliyyət və hürriyyət uğrunda Azərbaycan az şəhid verməmişdir. Mən təklif edirəm ki, şəhidlərin istirahət ruhu üçün hamı ayağa qalxsın. (Üzvlər ayağa qalxır). Əfəndilər! Əkər indiyə kimi göstərdiyimiz səbat davam edərsə, əminəm ki, gələcəkdə qorxu yoxdur və səadət yaxındadır. Bununla məmləkətimiz rüfah hal və nicat tapıb, qəlbimiz məsud olacaqdır. Mən təklif edirəm ki, bu tarixi hadisə və tarixi gün yaddan çıxmasın. Özgə millətlərdə rəsmdir ki, böylə bir tarixi günlərin şərəfinə abidə, heyəti - mücəssəmə qoyarlar. Təklif edirdim bu gün hər bir məbus həmin abidə fondu üçün bir günlük maaşını bağışlasın. Əvvəlinci mən verirəm. Məbuslar ayaq üstə qalxır, sürəkli alqışlar).

Böylə olarsa, paytaxtımızın gözəl bir yerində təsis olunmuş o abidə daima bizim nəslimiz üçün bir xatirə və bir yad olacaq, istiqlaliyyət fikri, istiqlaliyyət duyğusu daima onların fikrinə və beyninə yeriyəcəkdir. Yaşasın müstəqil Azərbaycan! Ura! (Sürəkli alqışlar).

Əfəndilər! Bu gün bizim qonşumuz və tarixi dostumuz Ermənistanın da sənaye dövriyyəsidir. Təklif edirəm, parlaman tərəfindən Ermənistan Cümhuriyyəti təbrik edilsin. İndilik burada isbati-vücud edən Ermənistan nümayəndəsi Bəkzadyanı təbrik edirəm. (Alqış). Divani-riyasət tərəfindən bu məzmunda bir təbrik telqrafi təklif olunur. (Rusca oxuyur).

Bukünki qeydimiz münasibətilə bir neçə təbrik teleqramları gəlmişdir. O cümlədən bu teleqrafı Gəncə hərbiyə məktəbində oxuyan bakılı tələbələr tərəfindəndir. (Türkcə oxuyur, alqış).

Teleqrafların bir neçəsini oxuyacağam. Kazandan bir məzmundan bir teleqram gəlib. (Oxuyur, alqış).

Gəncədən Svyatoy Nina məktəbindən bir teleqram gəlib. (Oxuyur, alqış).

Teleqram gəlib bizim Gürcüstandakı nümayəndəmizin müavini Vəkilovdan və Cəfərovdan. Mürəxəslərimizin sədri Xan Xoyskidən, Gəncə cəmiyyəti xeyriyyəsi də istiqlal ismində bir məktəb açmasını

təbriklə bərabər parlamana bildirir. Tiflis müsəlman milli şurası sədri istiqlal bayramı münasibətilə [628 - 629] təbrikini bildirir. Bakı müəllimlər heyəti, onların ittifaqı və bir neçə teleqraflar Kürdəmir, Göyçay və Gəncədən alınmışdır. (Alqış).

**Rəis** - Söz Məmməd Əmin Rəsulzadənindir.

**Məmməd Əmin Rəsulzadə** ("Müsavat", alqışlar içərisində kürsüyə xitabətə çıxır) - Həzərat! Bu gün hər hansı bir natiq böyük və xariqüladə nitqə malik olsa da xalqın, o küçələri doldurmuş olan camaatin ruhunun səmimiyyətindən çıxan "Yaşasın Azərbaycan", "Yaşasın istiqlaliyyət!"dən daha qüvvətli bir söz söyləməz. Bu gün bilməm xalqın duyduğu hissiyyatı, hansı hissiyyatla ifadə etmək olar. Bu həyatı sizə inikas etdirmək üçün Azərbaycan torpağı altında sənələrdən bəri yerləşmiş ataş, o müqəddəs qüvvət fəvəran edərsə, yalnız o qüvvət bu gün millətin qəhrəman ola bilər. Fəqət, bununla bərabər hər birimizin idrakında, qəlblərində hürriyyət və istiqlaliyyət uğrunda şəhid düşmüş olanların xatirəsi üçün olan böyük minnətdarlıq hissi, o böyük hümmət bununla hampa ola bilir, onunla rəqabət göstərə bilir. Bu gün Azərbaycan istiqlalı bilxassə onun üçün əzizdir ki, bu istiqlalımıza xaricdən təhlükə var, təhdid var. Millətin ruhundan çıxan bukünki səmimiyyətlə söylənəni qüvvətlə söyləriz ki, o hər bir ataşdən, hər bir yarağandan qüvvətlidir. Rədd olsun bizim istiqlalımız əleyhinə olan murdar əllər. (Alqış).

**Rəis** - Söz Əhməd Cövdət Pepinovundur.

**Əhməd Cövdət** ("Hümmət") - Möhtərəm məbuslar! Bu gün Azərbaycan xalqının və Bakı şəhərində Azərbaycan demokratiyasının zənciri-əsarətdən qurtulub, hür yaşamağa ayaq basdığı gündür. Bu gün xalq, avazələr ilə öz milli hissiyyatlarını göstərməkdədir. Bu açıq bir dəlildir ki, hər bir insan hür olduğu kimi hər bir millət zəhmətkeşləri, hər bir xalq da hür yaşamaq və hür keçinmək amalındadır. Fəqət, dünyaya nəzər yetirsək görərik ki, millətlərin bəlkə nisfindən çoxu başqalarının zənciri - əsarətində, ayaqları altında inləməkdədir. Azərbaycan xalqı iki il bundan əvvəl haman zəncir altında idi. Fəqət, hürriyyət almalı hər bir adamın ürəyində olan kimi xalqın da ürəyindədir. İstibdadın qəvi zəncirləri qoymayırdı ki, xalq ürəyini açıb, təzahüratını üzdə söyləyə bilsin. İki sənə bundan əvvəl Rusiya paytaxtında vaqe olan [629 - 630] inqilabi kəbir bütün millətlərə öz haqlarını əda elədi və söylədi ki, hər bir millət ixtiyarını kəndi əlinə alıb, öz müqəddəratını özü həll edə bilər. İştə bugünkü gün Azərbaycan xalqı, hər bir millət kəndi müqəddəratını həll edə bilər - şüarı səmərəsinin bir sənəliyini bayram edir. Haman o zəncirlər, o müstəbidlər ki, iki sənə bundan əvvəl bizi məhkum etmişlərdi, yenə köhnə istibad dövrünü qaytarmaq və bərpa etmək üçün silahlarını sivirib üzərimizə hücum etmədədirlər. Əvvəl Gürcüstanı payımal etmək üçün üzərinə yürüməyə başladılar. Lakin Gürcüstan xalqı silaha sarılaraq kəndisini müdafiə elədi və Gürcüstana uzanan əlləri qovdu. İndi isə həmin bu əllər şimaldan üzərimizə gəlir. Buradan doğru buyurdular ki bu təhlükə daha ziyadə xalqı həyəcanı gətirib, kəndi ürəklərində bəslədikləri müqəddəs və əziz istiqlaliyyət fikrini təhlükədə görüb, hissiyyatlarını daha aşkar söyləyirlər. Biz bir sənə müddətində istiqlaliyyət sayəsində xalqa lazım olana qədər meyvə və hürriyyət feyzi verə bilmədik. Bunun əvəzində biz kəndi xalqımıza məşəqqətlər göstərdik. Biz müqəssirik, günahkarıq, o başqa. Fəqət, o şimaldan gələn istibdad hər bir açını, ağır yaranı unutdurur. İştə bu gün xalqımız istibdad axıntısını rədd etmək istəməklə isbat edir ki, o, lazımi vaxtında hər bir içəri acıları və yaraları unudub kəndisini eyi edə bilər. Bu gün xalq parlaman önündə üzü parlamana durub deyir ki, biz hür yaşamaq istəyirik. Bu vaxta qədər hürriyyətdən lazımı qədər mənfəətbərdar olmasaq da yenə onunla bərabər hər bir qüvvəyə və təhlükəyə qarşı hürriyyətimizi və istiqlalımızı müdafiə etmək üçün əldə silah getməyə hazırıq. İştə xalqın istəki budur. İş başında olan hökumət və bu barədə olan məbuslar xalqın təzahüratını gözəl surətdə anlayıb istibdad və əsarət zənciri gətirən təhlükələr qarşısına can və silah ilə durmalı və dəməlidir ki, yox olsun müstəbidlər! Rədd olsun istibdad! Bizim artistlərimiz necə ki, tarixi abidələr göstərdilər. O tacların daha vaxtı keçdi. Biz qoymarıq ki, o taclar bir də başlara taxılsın. İştə onlar tarixə gedib bir daha gəlməməlidirlər. Yaşasın inqilabi-kəbir! Yaşasın millətlərin təyini müqəddəratı! Yaşasın Azərbaycan istiqlalı! Rədd olsun Azərbaycanın düşmənləri! (Sürəkli alqışlar). [630 - 631]

**Qarabəy Qarabəyli** ("İttihad") - Millətimizi və millətimiz nümayəndələrini bugünkü bayram münasibətilə . təbrik etməklə məmnunam. Bu bayram, Azərbaycan istiqlalını rəsmiyyə edilən bayram, bayramların miyanında həqiqətən böyük bayramdır. Onun üçün böyükdür ki, onun yolunda yüz minlər ilə qurbanlar verilmiş, çaylarla qanlar axıdılmışdır. O, hürriyyət bayramı olmaqla bərabər neçə əsrlərdən bəri müsəlmanlığın bir qövminin hür içərisində, bir otlu, quraqlı bir abadlığa, yeni bir həyata çıxdığını bildirən istiqlaliyyəti günüdür. Bu müsəlmanlar üçün istisna bir gündür. Bir az islamə əqfinəzər etsəniz onun səltənətləri olan Türkiyəyə, İran, Əfqanıstanda istiqlaliyyətlərinin əsəri qalmış, onlardan başqa qeyri millətlərin əsarətində yaşayan müsəlmanlara baxılarsa Hindistana, Türküstana, Əlcəzairə, Misirə, onların haqqında nə kimi zülmlər olmamışdır? Bunları yadımıza salsaq anlarsınız ki, bu gün nə bayramdır. Onun üçün millətimizin gördüyümüz bu şadlığı etməyə həqqi vardır. Bugünkü bayram münasibəti ilə əlbəttə, qəlblərimiz çarpınacaq; bunun ilə bərabər dimağımızda başqa fikirlər oynayacaq; qəlb çarpışmaqla, dimağ buyurmaqla iş keçməz; Baxınız, görünüz istiqlalı nə növ qazanmışsınız? Bu yolda sizə müavinət edən kimlər olmuşdur? O şəhidlər ki, Qafqazda bizim xilasımız üçün qanlar tökmüşlər, o türk qardaşlarımızı; bu gün yadımızdan çıxara bilmərik. O möhtərəm şühədanın ruhinə

ehtiram etmək üçün parlamanın ayağa qalxmasına təklif edirəm. (Ümum hazirun ayağa qalxır). Osmanlı demokratiyası ki, bugün fəlakətə düşmüşlər, biz onların tezliklə xilas olmalarını istərdik. Bu vaxtadək islamiyyətin bayrağını uca tutmuş türklər, bu gün həyatla uğraşırlar. O qardaşlarımızın bu yolu bizim üçün acıdır, göstərdilər və dedilər ki, istiqlal buradadır, alıb bizə verdilər. İndi onu mühafizə etmək məsələsi var. Bu gün hər nə qədər bizim üçün böyük bir bayramdırsa da, fəqət, İstiqlalı tamamilə təmin etmək bayramı deyildir. Bir nəfər dostumuz yoxdur ki, bizi himayə etsin; Denikin gəlir, bolşevik gəlir ingilislər, italyanlar gəlirlər. Onların heç biri istiqlalımızı təmin etmirlər. Bugünkü gün bizim qəlbimiz çarpışır. Biz fikrimizi, zehnimizi toplayıb istiqlalı mühafizə yolunda çalışalım. Heç bir yerdən mühafizə və kömək [631 - 632] gözləyə bilmərik və yeganə gözləyəcəyimiz kömək bizim özümüzdən, millətimizdəndir. Amma heç bir bina və təşkilat yalnız sözlə və demək ilə hasil olmaz. Belə fikir istənilsə, o fikir gərək hamının qəlbində qanla və odla yazılsın ki, onun millət yolunda bir adam kimi ölməyə hazır olsun. Vəilla barmaqla və suni işlər ilə istiqlal olamaz. Onun üçün millətin fikrinə, zehniyyətinə, amalına onu çatdırmalıdır ki, sənsən buranın sahibi. Bəs qaranlıqda qalmaqla kimsə sənə istiqlal verməz. Sən gərək hər zaman istiqlaliyyət və vətən yolunda ölməyə hazır olmalısan ki, gördüyümüz o böyük düşmənlər bizim üzərimizə gələ bilməsin. Lap yaradılmışdan da dünya belədir; hər zaman qüvvət zəif tərəfə gedir. Su başı aşağı axan kimi. Bu köhnə qanundur. Tarixin göstərdiyi bir həqiqətdir. Millət ayılmalı öz istiqlalının qədrini layiqincə bilməlidir. O anlamalıdır ki, hüququm da mənimdir, özümü də özüm idarə edirəm; özgəni yaxına qoymayacağam. Millət ancaq özünü bu sayədə Mühafizə edə bilər. Bunun ilə üzərimizə gələ biləcək qara qüvvələrin önünə sədd çəkə bilərik.

**Rəis** - Söz Abdulla bəy Əfəndizadənindir.

**Abdulla bəy Əfəndizadə** ("Əhrar") - Möhtərəm əfəndilər! Bu ogünkü böyük bayrama Azərbaycan istiqlaliyyəti bayramı deyilir. Yəni Azərbaycan bizim üçün vətəndir. Və o vətəndə sükunət edən ümum millətlərə gərək bayram hesab olunsun. Bütün həmvətənlər üçün bayramdır, millətə, filana təfavüt yoxdur. Bu Vətəndə sükunət edib Azərbaycanın nazı-neməti və vətənin məhsulatı ilə dolanan hər bir millət bu vətəni və bu bayramı əziz tutmalıdır. Türk, erməni, rus və başqaları həmvətənlik haqqına malikdirlər. hər kəsin zadiyeri vardır. Bugün haman həmvətənlərin bayramıdır. Biz, sinfə, millətə və başqa şeyə fərq qoymayaraq vətənə qarşı bir müqəddəs hüsnü-fikir bəsləyəriz. Nəinki özümüz bəsləyək, bəlkə bütün Azərbaycan həmvətənləri arasında tərbiyəliyik, çalışaq bu hiss böyükdən kiçiyə kimi ümum vətən və vətən hiss edən üçün. Bu cəhətdən bu bayram bütün Azərbaycanda yaşayan həmvətənlərin bayramıdır. Sonra o vətənin əsl kökü ki, türk qövmi yaşayır və hökmrandır, onun bayramıdır. Bu ikinci bayramdır. Bu gün elə bir gün deyildir ki, firqələrə dəxli olsun. Bugünkü bayram əvvəla ümumi vətən üçün, sonra ikinci dərəcədə [632 - 633] vətən evladı türk qövmi üçün, ondan sonra siniflərə bölünür. Mən bütün millətə sinfə bölünməmiş, bir göz, bir nəzər ilə baxıram. Əgər o millətlər içərisində xəyanət edənlər varsa ümumi vətən düşmənidir. Xaricdən gələn düşmən qüvvəsi kimi vətən üçün düşməndir. O ünsürlər də vətən içərisində olmamalıdır və yaşamamalıdırlar. İstiqlalın nə böyüklükdə bir nemət olduğunu düşünməyənlər olursa da söz yoxdur ki, bu böyük yığıncaqda lazımınca düşünməyən olmaz. Bizim vəzifəmiz fikrimizdə olan istək və amallarımızdan ən birinci və ən müqəddəsi sayılan istiqlaliyyəti var qüvvəmiz ilə mühafizə və müdafiə etməkdir. Bu da söz ilə, danışmaq ilə olmaz. Bunun üçün biz gərək üzümüzü millətin o sinifinə çevirək ki, bu istiqlaliyyətdə ona söykənib arxalanırıq. Bunu bütün aləm qarşısında söyləyirik. Amma söz yoxdur, millət hələ o payələrə yetişməyib ki, kəndlərdə, qəsəbələrdə, bizim düşüncə və hissimiz qədər o istiqlaliyyəti müdafiə etsin. Bugün bizim borcumuz, Qara bəy dediyi kimi milləti ayrı-ayrı tərbiyələndirmək olmalıdır. Var o qüvvələr ki, millət içərisində gedib işləyə bilərlər. Onlar getsin və hər bir guşədə təbliğat yapsın. Əgər millət içərisində pis fikirli adamlar varsa, onların qabağına sədd çəkib mane olaq. Bir sənə içərisində millətimiz sübuta yetirdi ki, onda hiss vardır. Fəqət, o hissi parlatmaq və təmizləmək lazımdır. Bunun üçün də çalışmaq lazımdır. Bunu da kim təmizləyə bilər? Bunu da istiqlal söyləyənlər eyləsinlər. Əyər doğrudan millət doğru yola sövq edilərsə, təxirə buraxmayıb işləyən olarsa az bir zaman içərisində o millət öz qüvvəsilə bütün aləmə və bütün dünyaya sübut edər ki, o millət istiqlaliyyəti müdafiə yolunda axırıncı damla qanına qədər mübarizə etməyə və çalışmağa hazırdır və bilir ki, özü vətənin neməti ilə pərvəriş tapdığı kimi ana-babasının da gəmikləri vətənin torpağı altında dəfn olunmuşdur. Deyirlər, rədd olsun istibdad. Əlbəttə rədd olsun. Lakin bunu demək lazımdır ki, yaşasın millət və millətin ayıqlığı, mədəniyyəti, gözəl səadəti. Bunu da heç kəs unutmayıb çalışmalıdır, hər kəs özünə borc bilməlidir. Mən də qoşulub deyirəm ki, yaşasın Azərbaycan istiqlaliyyəti! Yaşasın ümum millətin maarifi və mədəniyyəti ki, bu gün burada binasını qoyuruq. [633 - 634]

**Rəis** - Sonrakı natiqlərdən rica edirəm ki, nitqlərini bu ana münasib və müxtəsər söyləsinlər. Çünki saat 1-də hürriyyət meydanında rəsmi keçid var və məbuslar oraya dəvət olunurlar. Söz parlaman üzvü Malxazovundur.

**Malxazyan** ("Daşnaq") - rusca.

**Rəis** - Əsədulla Əhmədzadə.

**Əsədulla Əhmədzadə** - Cənab məbuslar! Müxtəsər edəcəyəm, özüm də öz loru dilimizdə danışacağam. Mən elə bilirəm bu kürsüdən deyilən sözlər havada da vardır. Yeddi yaşında uşaqlar da deyir, küçələrdə deyirlər; mən elə bilirəm millət bundan sonra bunları yaddan çıxarmaz. Cəmi tarixlərdə deyilir ölü dirilməz. Biz də çox

müsibətlər çəkdik, o çəkdiyimiz müsibətlər, bu küçələrdə gördüklərimiz arvad-uşaqlarımızın da yadından çıxmamışdır. Biz bu vaxtadək heç kəslə dava etmək istəməmişik, ancaq arzumuz bu olubdur bizə dəyməsinlər. hərgah bizim arı yuvamıza çöp soxan olsa idi biz hiylə yapmışdıq. Bizim üçün xoşbəxtlikdır ki, bu qissələri gördük; cəmaət bir daha dala qayıtmayacaqdır (alqış). Natiqlərdən birisi deyir, bədbəxtlik hamısı üçün üz verib, biz gərək onları yadımızdan çıxaraq. Amma qoymurlar, keçən ilki mart hadisələri üstümüzə gəlir, yenə bizim istirahətimizi pozacaq, uşaq ki bir kərə xörəklərin dadını bildi, daha sonra süd yeməz. Cəmaət də istiqlaliyyətin dadını bildi, ona bir daha süd yedirtmək olmaz. Mən deyərdim, o adamlar ki, öz millətlərinin xoşbaxt olmağını istəyirlər, bunu bilməlidirlər ki, nə qədərki sənin yoldaşın səndən aşağıdadır, sənin pencərəni sındıracaq; amma mən elə görürəm ki, dünən, srağagün əsgərlərimiz sərhəddə gedərkən birisi bunlara qoşulub evlərinə xəbər göndərmişdir ki, anam məni halal eyləsin, mən gedirəm, halbuki hələ ona get deyən yoxdur. Buna görə müsəlman tayfası, Azərbaycan milləti paxıl deyildir. Öz qonşularımızın xoşbəxtliklə yaşamasını istəyirik.

Yaşasın Azərbaycan hökuməti və camaatımız! Hökumətimiz, camaatımızın yığılmasını görüb bilməlidir ki, hər zaman camaat onun dalındadır. Yaşasın Azərbaycan hökumətimiz və parlamanımız. (Sürəkli alqış).

**Rəis** - Çlen parlamenta Vinoqradov (rusca). [634 - 635]

**Rəis** - Natiqlərin sırası bitdiyindən məclisi qapayacağam. Bundan qabaq bir neçə teleqraf var, onu oxumaq istəyirəm. (Teleqrafları oxuyur). Şimdi iclas qapanır.

**Arxiv, f. 895, siy. 1, iş. 88, vər. 2-10.**

## № 43

## Qırx üçüncü iclas

*29 may 1919-cu il*

**Rəis** - Həsən bəy Ağayev, **Katib** - Əhməd Cövdət Pepinov İclas açılır 20 saat 12 dəqiqədə

**Rəis** - İclas açılır. Amma bir az deyəsən kvorum yoxdur.

**Yerdən** - Var, var, yoxdur, yoxdur.

**Rəis** - Yusif bəy, sayın. 38 nəfərdir. Kvorum yoxdur, kvorum olmadığına görə beş dəqiqə tənəffüs elan edirəm. Xahiş edirəm getməyəsiniz.

### Tənəffüsdən sonra

**Rəis** - İclas açılır. Bugünkü müzakirata söyləməkdən qabaq üzr istəyirəm, bu günə povestka göndərə bilməmişik, çırağa günü iclas saat beşdə qurtardı, dünən də bayram idi. Müzakireyi-yomiyyəni oxuyuram.

1) Məclisi - Müəssisən seçkiləri haqqında qanun layihəsinin 2-ci qiraəti (məruzəçi - Məmməd Əmin Rəsulzadə); 2) Ünas məktəbləri haqqında olan qanunun təcyir və təbdili barəsində qanun layihəsi (məruzəçi Şəfi bəy Rüstəmbəyov); 3) Neft aksız idarəsi ştatı xüsusunda qanun layihəsi (məruzəçi Mustafa bəy Vəkilov); 4) Daxil olmuş kağızlar, o cümlədən: a) maliyyə nazirinə 2-ci müavin ehdas etmək haqqında; b) Gəlir vergisindən azad olunan sərmayənin artırılması haqqında.

Daxil olmuş qanunların hər ikisi lavayehi-qanuniyyə komisyonuna göndərilir. Bu müzakirati-yomiyyəyə etiraz yox isə qəbul olunur. Növbədəki məsələ Məclisi-Məbusan seçkisi haqqında [635 - 636] qanun layihəsinin 2-ci qiraətidir (məruzəçi - Məmməd Əmin Rəsulzadə).

**Katib** (oxuyur) - Birinci bab ümumi əsaslar. Birinci maddə.

**Rəis** - Birinci maddə barəsində kim danışmaq istərdi? Zahirən birici maddə barəsində görünür ki, danışmaq istəyən yoxdur? Birinci maddəni səsə qoyuram, hər kəs birinci maddəni qəbul edirsə, rica edirəm əlini qaldırsın. Birinci maddə müttəhidül rəy qəbul olunur. (Katibə) İkinci maddəni oxuyunuz.

**Katib** - İkinci maddəni oxuyur.

**Rəis** - Abdulla Əfəndizadə

**Abdulla Əfəndizadə** ("Əhrar") - Birinci dəfə ümumi qiraətdə bu qanun layihəsi barəsində danışıqlar başlandı və o danışıqlar nəhayətdə hankı tərəfin, sanki tərəfdə olduğu bilindi. Bugün bu maddə qəbul olunmaqda hər firqə, hər kəs öz fikrini gərək desin və söyləsin, mən məcbur oluram bir neçə kəlmə söyləyim.

Bu rəylər iki qismə bölünüb, rəyin birinci qismi ondan ibarətdir ki, seçki mərkəzi bir olsun, hər firqə bir siyahı ilə meydana girsin və bütün Azərbaycan dairəsində bir siyahı tərtib olunsun. hər yerdə siyahidə səs verilsin, siyahidə firqənin səlahdiri ilə tərtib olunub orada məhəl nəzərə alınmasın və istədiyi adamı buraya salsın. İkinci rəy də bundan ibarətdir ki, mərkəz çox olsun, hər kəs istəsə siyahı çıxarsın, məsələn on mərkəz isə, on siyahı çıxsın. Bu seçki həm mütənasib, həm də məhəlli olsun. Millətin öz ixtiyarı özünə verilsin, əsl millətə, əsl camaətə seçki yavuqlaşsın. İkinci rəyin tərəfdarları bunu meydana qoyur. Mən də buradan başlamaq istəyirəm. Buyurdular ki, o adamlar ki, mərkəzin çoxluğu tərəfdari idilər, o surətdə mütənasib seçkini nə üçün qəbul edirlər. Onda gərək birinci maddəni rədd etsinlər. Guya bu maddə o biri maddəyə zidd imiş. Bu məntiqsiz bir fikir imiş. Bildiyimizə görə İsveçrədə belə seçki olur. İsveçrə Bakı vilayətindən kiçikdir. hər kontorun seçkisi ayrı-ayrı icra olunur. Deyirlər ki, bu dəliliniz düz deyil. Əcəba, neçə olar ki, balaca bir şəhərdə bu üsul qəbul olunur, böyük bir qəzada mümkün olmur. Əsl məsələ bunda deyil. Burada başqa bir fikir var. Bir uyezddə, bir qəzada bəlkə bir firqə 40 min səs qazanırsa, ikinci qəzada 5 min səs qazanar, onda səsini nə üçün itirsin. O surətdə iki qəza birləşsin, orada əhali yəni mütənasib surətdə [636 - 637] üzvlər keçirməsin. Seçkisi məhəllə bağlı o vəkil sənin siyahında keçdikdə həm məhəllin mənafeyini nəzərdə tutar, həm də firqənin məramnaməsini müdafiə edər. Məsələn "Müsavat" adından Musa bəy Rəfiyevin namizədliyini Gəncə qoyur. Musa bəy bilir ki, Gəncə vəkiliyəm, həm də müsavatçıyam. Aslan bəy Qardaşov "Əhrar"dandır. O, Nuxadandır. Onun vəkalətini "Əhrar" qoyur, oradan da keçir. O, Nuxa okruqunun vəkili ikən, "Əhrar" firqəsinin də nümayəndəsi olur. Habelə sosialistlər və qeyri firqələr. Bunların heç birində razı olmayıb başqa siyahi çıxaran varsa çıxarsın. Buyurdular ki, Məclisi-Müəssisan məhəlli dərdlərə, üfaq ehtiyacları baxmaq üçün yığılmayıb, bu bir ali siyasi təşkilatdır, ancaq unutmayın böyük qanunlar üçün dəvət edilir. Çox gözəl, mən də razıyam. Parlaman ali və siyasi bir təşkilatdır. Söz yoxdur ki, hamınıza məlumdur siyasət ikiyə ayrılır, birisi daxili, birisi də xarici. Demək olmaz ki, bizim xarici siyasət bir, iki, üç adamın arasında məşhur olub qalar. Bu incə bir şeydir ki, hamısı ondan xəbərdar ola bilməz. Bəzi sirri məsələləri parlamana açmaq lazım gələrsə onu da qapalı

iclasda açarlar, deyərlər ki, bu sirri heç kim bilməsin. Parlaman da o xarici siyasətə müdaxilə edər. Əlli adamla bir köy bu yolda və ya o yolda nə üçün siyahı çıxara bilməsin?

Bəs hankı siyasət doğrudan da parlamanın əlindədir? O daxili siyasətdir. Yəni siyasəti öylə aparasan ki, heç kəs səndən narazı qalmasın. Öylə də edəsən ki, əhalinin hər sinfi səndən razı olsun və səni özünə doğma parlaman hesab eləsin. Ancaq o vaxt daxili siyasəti ölçmək olar. O da o vaxt olar ki, millətin hər təbəqəsindən nümayəndə seçilmiş ola. Təki, onların vasitəsilə millətin əhvali-ruhiyyəsindən və fikrindən xəbərdar olasan. Çünki cəmaətində niyyətindən başqa bir də məişət məsələsi vardır. Hər yerin öz xüsusi həyatı vardır. Məsələn, dağda sükunət edənlər ilə düzdə sükunət edənlərin məişəti bir deyildir. Demək olmaz ki, düzənlilər ilə dağdakilər bir məişət keçirirlər. Bu doğru siyasət deyildir. Onların məişətləri ayrı-ayrıdır. Bunu da bilmək üçün gərək hər sin-fin, hər təbəqənin orada nümayəndəsi olsun ki, bu nümayəndələr vasitəsilə onların xahişləri meydana çıxarılsın. Buyururlar ki, mərkəz gərək bir olsun. Çünki siyasət elə incə, elə [637 - 638] nazikdir, hər bir ələ tapşırmaq olmaz. Dedilər sosialist fikri bir şeydir ki, onun üçün xüsusi adamlar olur. Bəzi vaxt atadan övlada keçə bilir. Bu bir dərəcə doğru isə də tamamən belə deyil. Siyasi adamlar bir deyil, hər yerdə bulunur. Hər təbəqədə var. Başqa təbəqələrin içində elə adamlar taparsınız ki, siyasi adam olduqlarını siz də təqdir edərsiniz. hərçəndi bəzi yerlərdən gələn siyasiyun olmayacaqlarsa da fəqət, onları tərbiyə etməlisiniz. Əgər doğrudan da sən gözəl fikirli, ideal bir firqəsən, sənin birinci fikrin təbliğat olmalıdır. hər fikrin intişarı zorla deyil, təbliğat ilə olur. Kim deyə bilər ki, təbliğat olmasın (bir səs - Ada, heç kəs). Bəs elə isə hər firqə gərək təbliğatçı göndərsin, öz fikrini millətə qandırsın ki, mən millətin tərəfdarıyam. Cəmaətin fikrini açsın desin ki, mən filan fikrin sahibiyəm. Deyirlər ki, xalq şəxsləri deyil proqramları tanıyıb səs verməlidir. Nə eybi var? Təbliğat yaparsan proqramlara baxarlar, bəyənərlər isə ona səs verərlər.

Buna görə də yenə xalq arasına getmək lazımdır. Daha Bakıda oturmaq ilə iş olmaz. Deyirlər ki, nə lazım getmək. Gürcüstanın da elə adamları var ki, dünya, hamı tanıyır. Amma bu belə deyil. Proqramlar hamısı birdir. Bizim də proqramımız var, sizin də. Fəqət, firqə başqadır, proqram başqa, taktika başqadır. Əsl məsələ taktikadadır. Mən təəccüb edirəm ki, bu vaxta qədər adəmi-mərkəziyyət fikri daşıyan bir firqə nə üçün haman fikri bu məsələ üzərinə tətbiq etməyibdir və əleyhinə gedir. Deyirlər ki, sosioloji mərkəz çoxluğuna ziddir. Bu böhtandır. Mən buna etiraz etmək istəyirəm. Cəmaətin əlindən ixtiyarını almağa sosiologiya yol verərmi? Böylə şey sosiologiyada yoxdur. Varsa göstərsinlər, mən də təşəkkür edərəm. Buna sosiologiya zidd getmir, bərəks, daha da yol verib istəyir ki, hər təbəqə səsini versin. Bu da nə ilə olar? Əlbəttə təbliğat ilə, nəinki parlamanda söz güləşdirmək ilə. Bir də deyirlər ki, mahallardan gələnlər ancaq arşın, bez, dəvə, fil gətirərlər. Doğrudan da özünü elə böyük hesab edir ki, mahaldan gələnlərin içində guya onun kimisi olmayacaqmış. Milləti bu qədər alçaq hesab etmək olmaz. Bu həqarətdir ki, oradan at, dəvə, fil gəlsin. [638 - 639]

**Rəis** - Natiq əfəndi bunu demək istəyirəm ki, millətin barəsində böylə həqarət ilə danışan olmayıb. Mən təsdiq edirəm ki, millətə at, dəvə, fil deyən olmayıb.

**Abdulla bəy** - Mənim burnum, qulağım var.

**Rəis** - Mən təsdiq edirəm olmayıb.

**Abdulla bəy** - Bəli, yaxşı olmayıb.

**Rəis** - Buyurunuz.

**Abdulla bəy** - (Sükut).

**Rəis** - Buyurunuz, buyurunuz.

**Abdulla bəy** - Əgər danışanda belə kəsəcəksiniz danışmayaq.

**Rəis** - Mən kəsmədim, təshih etdim. Rica edirəm, nitqinizi davam edib mənimlə höcətə kirişməyəsiniz. Mən haqqınızı almadım. Buyurunuz.

**Abdulla bəy** - Daha danışmaq istəmirəm. Bu qədər bəsdir, gərək burada haqsızlıq olmasın. (Getmək istəyir).

**Rəis** - Rica edirəm buyurasınız, mənimlə höcətə girişməyəsiniz. Yoxsa nakaz movcibincə rəftara məcbur olacağam.

**Abdulla bəy** - Bir şey ki, aşkardır... Nakaz üzrə rəftar eyləyiniz.

**Rəis** - Rica edirəm, məbus əfəndi oturasınız.

**Abdulla bəy** - Nakaz ilə rəftar eyləyiniz...

**Rəis** - Möhtərəm məbuslar. Məbus əfəndi rəisin sözünə qulaq asmasa, natiqə əvvəl nəsihət, sonra nakaz ilə rəftar etmək lazımdır, rica edirəm, bu barədə tədbir çıxarasınız.

**Səslər** - Təsvib edəriz.

**Rəis** - Söz Mustafa Vəkilovundur.

**Mustafa bəy Vəkilov** ("Müsavat") - Burada o, məsələlər barəsində ki, Abdulla bəy söylədi, bir çox məsələlər meydana çıxartdı ki, onlara cavab vermək lazım gəlir. həpsinə cavab vermək olar. Burada bəhs olundu ki, hər firqə əhali arasında nüfuz qazanmaq və özünü tanıtmaq istəsə təbliğat yapmalıdır. Bu elə bir şeydir ki, bunu hər kəs bilir. Bunun məsələyə təəllüqü yoxdur. Bu bir tək deyil, ikinci sosiolojidən, adəmi-mərkəziyyətdən bəhs etdi. Bunlarla mərkəzin çox olmasına tərcih etdi. Natiq əfəndi mərkəzin çoxluğuna dəlil olaraq söylədilər ki, o şəxslər ki, burada mərkəzin bir olmasını istəyirlər, mərkəzdən bir siyahı çıxarıb ancaq bu siyahılar

mübarizə [639 - 640] etsinlər və bu siyahiyə də mərkəzdəki adamlar daxil olsun deyirlər. Abdulla bəy böylə dedi. Mən deyirəm ki, natiq səhv edir. Heç vaxt burada deyilməyur ki, ancaq mərkəzdən verilən siyahilərin ixtiyarı var. Dəfəatla söylənildi ki, hər əlli və altmış adam bir qrup olaraq siyahı çıxara bilər. Bu surətdə məhəldən də bir siyahı çIxarmaq mümkündür. Heç bir intixab dairəsi nə qədər böyük olsa da bunun qarşısını almaz. Bil əks, burada deyildi ki, mərkəzdə tərtib edilmiş siyahilərə tanınan adamlar daxil olar. Həqiqətdə də öylədir. Sonra Abdulla əfəndi deyir ki, nə olar bir məhəldən bir adam keçirsə, eyni zamanda bir firqəyə də mənsub ola bilər. Bu dəlil hərçəndi öz əsasının qüvvəsi üçün göstərdi. Amma məncə, özü bunun bər əksinə gedir. Mərkəz bir olsa siyahilərə daxil olan adamlar firqə nümayəndələri olduğu kimi məhəllələrində vəkilləri olarlar. 2-ci yenə burada bir fikir bir intixab dairəsi tərəfdarı olanlara Abdulla bəy söylədi, siyasət ali şeydir ki, onu seçilmiş adamlar, rus demişkən, izbrannı şəxslər işlədə bilərlər. Öylə bilirəm ki, Abdulla bəy özü də bilir ki, burada elə sözlər söylənilmədi. Deyilmədi ki, siyasət bir qruppaya mənsub olanlara aiddir. Bizim siyasi həyatımız hələ cavandır. Hələ öz aramızda olanlar da məəttəəssüf, siyasətdən uzaqdırlar. Burada deyildi ki, toplanacaq Məclisi-Müəssisan öylə olmalıdır ki, orada siyasətcə tanınmış, məmləkətcə məruf adamlar olsun. Burada deyildi ki, dairə qısa və xırda olsa onda, ola bilər ki, məclisi-müəssisana cürbəcür şəxsi fikirlər və məqsədlərlə adamlar gəlsin ki, nəinki siyasətdən, bəlkə məmləkət dərdindən də xəbərsiz olsunlar. Böylə açıq bir fikri başqa donda göstərdilər. Sonra dedilər ki, Məclisi-Müəssisan iki qisim məsələlər həll edəcək, biri daxili, o biri xarici siyasət. Daxili siyasət üçün burada hər sinifdən vəkillər gərək olsun. Məmləkətin dərdindən gərək xəbərdar adamlar olsun. O adamlar hər sinfin tərəfdarı olsun. Bilmirəm, niyə Abdulla bəy fikir edir ki, dairə çox-çox olanda və hər qəzadan seçilmiş olanda həqiqi demokratlar olacaq; mərkəzdən seçilsə nümayəndələr həqiqi demokrat olmayıb, xalq nümayəndələri olmayacaqdır. Ola bilər ki, yerindən seçilmiş adamlar nəinki firqə tərəfdarı, bəlkə, heç bir firqəyə mənsub olmamaqla bərabər, fəqir və cəmaət tərəfdarı da olmasın. [640 - 641] Biz bilirik ki, hər bir sinfi gözləyən firqələr var; xah soldan, xah sağdan olsun firqələr tərəfindən verilən nümayəndələri firqələr təmin edə bilər. Və firqələr xaricində gələcək adamları nəinki firqələr təmin etməzlər, bəlkə onlar heç siyasi simalara məlum olmayan şəxslər olarlar. Sonra burada dedilər ki, o adamlar ki, buraya gələcək, keçmiş natiqlərdən biri onları ata, filə bənzətdi. Burada böylə söz söylənildi. Lakin Abdulla bəy söylədiyi, kimi söylənmədi. Burada söylənən söz bu fikirdə deyildi ki, siyasi fikirlə bir-birinə bənzəməzlər, nəinki buraya adam əvəzinə at, fil gəlsin. Abdulla əfəndi burada hərçəndi bir çox məsələlərdən söylədi. O cümlədən sosiologiyadan bəhs etdi. Sosiologiyanın burada heç yeri yoxdur. Bəlkə sosializmdən bəhs etmək istəyirdilər. Burada buyurdular ki, ədəmi-mərkəziyyət tərəfdarı firqə, mərkəziyyət üsulu yeridir. Natiq əfəndi ya bunları qarışdırır, ya qarışdırmaq istəyir. Seçki mərkəzlərinin bir olmasını istəmək, mərkəziyyət tərəfdarı olmaq [demək] deyil, bunun üsuli-idarəyə dəxli yoxdur. Natiq əfəndi göstərmədilər ki, bundan kəndçilərə və xalqa böyük-böyük zərərlər toxunar. Bunun üçün bir dəlil və əsaslı bir sübut göstərmədilər. Məsələn bir məmləkətdə bir parlaman olmasını istəmək bir mərkəziyyətdir. Əlbəttə, bu fikrin ucundan tutub axıradək getmək olar. Sonra burada dedilər ki, əhali hər firqənin proqramına və siyasətinə baxsın, sonra onlara rəy versin. Bu azdır. Hər firqənin hərəkəti və taktikası da var. O da nəzərə alınmalıdır. Bunun üstündə kimsə bəhs edə bilməz. Mən bilirəm natiq əfəndinin fikrincə, bu neçə dəlil və sübut ola bilər. Əlbət ki, bir firqənin siyahısına səs verdikdə nəinki məramnaməsinə, bəlkə onun keçirmiş olduğu həyatına və tutduğu siyasətinə və diriltmiş fikirlərə də diqqət etməlidir. Natiq əfəndi bunu heç vaxt inkar etmir. Ancaq bir şeyi başa düşə bilmirəm, məhəllədən ki, siyahilər veriləcək onların siyasəti və hərəkəti haqqında əhali nətəər məlumat alacaq. Onların siyasi fikirlərindən xəbərdar olacaqmı?

**Rəis** - Rica edirəm xüsusi söhbəti qoyasınız bir yana.

- Yoxsa məhəldən seçilmiş adamlar yalnız yerli olmaq sifətilə məziyyətləri olacaq; heç bir siyasətdən xəbəri olmayacaqdır. Əgər natiq əfəndi bunu inkar etmək istərsə o vaxt deyərdim ki, [641 - 642] öz həyatimizdə yerindən seçilən adamlar göstərmişlər, o seçilərkən onun siyasi nəzəri deyil, qeyri fikirlər nəzərə alınıb seçilmişdir.

**Rəis** - Rza bəy Ağabəyov.

**Rza bəy** - Möhtərəm əfəndilər! Mən danışmaqdan qabaq lazımdır ki, öz məsələm üstündə bir qədər duram. Bu barədə bir şey deməzdim, rəis cavab verdi? Ancaq yenə təkrar edirəm ki, mən keçən dəfə mərkəzin necə olması barəsində danışarkən dedim ki, mərkəz çox olarsa, siyahı də çox olar 6-7 qrup olar. Onda Krılov demişkən lebed, şçuka - və rak məsələsi çıxar. Yəni rəng-rəng adamlar olar, rəng-bə-rəng də fikirlər olar. Onda hərəsi də bir yana çəkər. Mən bununla heç kəsi təhqir etmək istəmədim. Abdulla bəy keçən dəfə Gürcüstanı bəyənmədi. Dedi ki, orada məclisi-müəssisanda hamı sosialistdir. Görək orada qüvvətli bir firqə olmaqla Gürcüstana bir zərər varmı? Ona görədir ki, gürcülər şiddətli siyasət apara bilib, daxili və xarici düşmənlərinə cavab verə bilərlər. Biz də qüvvətli bir mərkəz ətrafına toplanmalıyıq. (Səslər - bəlkə zərərdir. İnşallah olmaz). Əgər mərkəzi çox da istəməyənlər deyirlər ki, bununla yerli əhalinin mənafeyi nəzərə alınmayacaqdır; o vaxt mən deyərdim ki, infraqçılıq lazım deyil. Hökumət və dövlət mənafeyi nəzərindən bunun xeyri olmaz. Yerli mənafe ilə bərabər dövlət mənafeyi də nəzərdə tutulmalıdır. Biz gərək bölünməyək, birləşək. Millətə də göstərək ki, biz birik.

**Rəis** - Səmədağa Ağamalı oğlu.

**Səmədağa** - Mən hələ bir mətləbə görə söz almışdım. Bildirmək istəyirdim camaat burada danışılan yağlı sözlərə o qədər də inanmasın. Asan məsələni çətinləşdirirlər. Deyirlər ki, Mərkəz çox olsa yerli əhalinin haqqı çox gözlənər. Cürbəcür seçki olsa asan olar. Amma mərkəz bir olsa əhalinin evi yıxılar. Doğrudur, onlar camaatpərsətdir, inanıram, amma getdiyi yol camaatpərəslik deyil. Əgər onlar bu yol ilə getsə, camaat qiyamətədək zindandan çıxmaz. Mən bilmirəm nə ilə sübut edirlər ki, Zakatala ilə Şəkinin haqqı bir-birinə ziddir. Doğrudur, heç Qarabağ bəyilə Qazax rəiyyəti bir getməz. Qarabağ bəyləri Qazax bəylərilə gedəcəklərdir. Ancaq Qarabağ fəhləsi, Qazax fəhləsi, Bakı fəhləsi hamısı bir gedir və elə adama səs verər ki, gerçək yol tapıb. [642 - 643]

Bizim təcrübə görmüş yoldaşlarımız Fransa, Amerika, İngiltərə, Şvesiyanı da hətta bir-birinə qarışdırırdılar. Onlar bu yolu gedib. Hərgah sən özündən ayrı aeropalan qayıracaqsan onda araba çıxar. Biz iki yüz ildən bu yana gedilən yol ilə gedəcəyik. Deyirlər ki, bu sosiologiyaya ziddir. Mən deyirəm ki, sosiologiya buradakıların çoxu üçün Kitay qramotasıdır; sosiologiyanın burada nə işi? Deyirlər, Qazaxın dərdini özü bilər, Qarabağdan gələn bilməz. Bu ola bilməz, səhvdir. Özünüz bilirsiniz ki, hər yerdə Zemstvolar olub, məhəlli işlər ona baxacaqdır. Burada isə ümumi şeylərə baxılıb, ümumi qanunlar düzələcəkdir. Məsələn, lazımdır yeri kəndçilərə, mədənləri fəhlələrə verək. Nə cür etmək rüşvət olmasın. Demək olmaz ki, bunu bakılı olmayan bilməyəcəkdir. Bəlkə Qazaxdan gələnin doğrudan da əqli olmayacaqdır. Mən qorxmuram, ola bilər də, amma belə olanda Qazaxda seçki olanda, Gəncənin haqqı olmayacaqdır ki, orada seçkidə iştirak etsin. Oradan da gələcəkdir qolçomaq. Necə ki bir neçəsi də gəlibdir. Əgər gerçəkli seçki olsa Musa bəy... seçki belə oldu ki, çoxları gəlib girib buraya. Siz elə bilirsiniz ki, yenidən gerçəkli seçki olsa Qarabağdan, Qazaxdan onun üçün səs verəcəkdir? Nikoqda qolubçiki.

Bayaqları burada dedilər ki, proqramların təfavütü yoxdur. Hamısı deyir ki, yeri gərək rəiyyətə və fəhləyə verək. Amma işi elə tutub dururlar ki, bir rəiyyətə yer vermək işi yüz il çəkir. Oyunlarını biz sosialistlər yaxşı bilirik. Bayaqları dedim bizi aldada bilməzlər. Amma yoldaşlarımız fəhlələri aldada bilərlər. Mən burasını demək istəyirəm hə... (da...) Amma bir böyük vəzifə də vardır. Seçki mərkəzi bir olanda bundan vospitaniyali şənlik var. Orada camaatin camusu iştirak edəcək, qazaxlı gedib çıxacaq Qarabağa, orada nitqini deyəcək, habelə qarabağlı da başqa yerə gedəcək. Mən... onu... demək istəyirəm ki, bütün camaat burada bir fikir üstə gəlir. Mərkəzin bir olmasının təsiri odur ki, seçki bütün camaati hərəkətə gətirəcəkdir. Birisi də budur ki, sən gərək proğramla meydana çıxasan, ki nə növlə camaat dərdinə qalmaq istəyirsən. Bunu gərək hamısı bilə. Bizim parlament kəndxuda idarəsi deyil ki, əqlinə nə gəlsə danışasan. İki-üç adam gedib orada əyləşsin, istədiyini eləsin, biz bu barədə danışmaq [643 - 644] etməyə idik; necəki qeyrilərdə qəbul olunub biz də edəydik. Bizdən mədəniyyətli yerlərdə belə gedibdir. Gürcülər bizdən irəlidədirlər. Onlarda bu yol ilə gediblər, Rusiya özü cəmi Qafqazı bir okruq etmişdi. Bu seçki işləri üstündə davalar, qanlar olubdur; necə ki, bizim çox işlərimiz Avropadan gəlib; camaatin seçkidə nə növlə nəfi götürməyini də gərək onlardan alaq. Onlar seçkilərini nə növlə bir mərkəzdən edilərsə, biz də gərək o qərar ilə edək.

**Rəis** - Əfəndizadə Muxtar.

**Əfəndizadə** ("Əhrar") - Mən bu barədə danışmaq istəmirdim, bəzi sözlər xüsusunda danışmaq istərdim. Cəmi natiqlərin sözlərindən anlaşılır ki, biz gərək Avropanı və qonşularımızı təqlid edək. Bu təqlid məsələsi ola bilər ki, yaxşı olmasın. Mən də təklif edirəm ki, edək. Yalnız o təqdirdə camaatin mənfəəti nəzərə alınsın. Mən hər halda təklifdən boyun qaçırmıram. Bizə qonşumuz Gürcüstanın halını göstərirlər və deyirlər ki, biz də onlar kimi edək. Bu o zaman olardı ki, biz də Gürcüstan və gürcülər kimi olaydıq. Gürcüstanda bütün torpaq rəiyyətə keçdi; məclisi-müəssisan seçkilərindən qabaq. Bütün yerləri camaatə verib sonra seçkiyə başladılar. Ancaq demək lazımdır, madam ki, "Müsavat" və sosialistlər birləşib, bu məsələ də keçməyəcək. Biz firqələrin proqramına inanmayırıq, camaat də inanmayacaq. Camaat proqrama deyil, adama inanır. O istədiyini seçəcəkdir. Keçən dəfə gördük. Bir çox vədlər verildi, yer belə, torpaq belə; lakin nə verildi? Proqram ilə camaat qarşısına çıxmaq olmaz. Şəxs öz işi ilə özünü camaatə [gərək] tanıtsın. Camaat arasına qeyli-qal salmamaq üçün hər 50 adam imzasilə bir siyahi çıxara bilmək burada söyləndi. Fəqət, bu özü qeyli-qala səbəb ola bilər. Onda hər kənddə bir siyahi ola bilər. Ola bilər ki, o maddəni biz qəbul edəmiyəcəyik. Biz bunu istəyirik ki, camaatin arasında qeylü-qal olmasın və camaatə yol göstərən olduğumuz üçün camaat arasına nəz salmayın.

**Rəis** - Təklif var ki, müzakirə qət edilsin, natiqlərin sırası bağlansın. Növbədə iki natiq var. Əhməd bəy və Abdulla bəy. Bu təklifin ləhinə, əleyhinə kim danışmaq istəyir? Yoxsa səsə qoyuram. hər kəs müzakirənin qət edilməsinə razı isə [644 - 645] rica edirəm, əlini qaldırsın. Deməli təklif keçir. Söz Abdulla bəy Əfəndizadənindir.

**Abdulla bəy Əfəndizadə** ("Əhrar") - Mən bir daha çıxıb əziyyət vermək istəmirəm. Fəqət, mən danışan sözləri elə halda göstərdilər ki, yerimdə dayana bilmirdim. Əgər işlərimiz belə gedərsə, həqiqət parlayıb ortaya tez çıxar. Mən dedim ki, Ədəmi-mərkəziyyətə heç bir işdə qədəm qoymayaq. Bir firqə apardığı siyasəti buna da tətbiq etmək istəyir. İstehza-filan lazım deyil, sözün rəngini dəyişib, özgəni sancmaq yaxşı deyildir. Mən

nitqimi kəsməyə məcbur oldum. Qurtarmamış nitqimi tənqidə başlamaq yaxşı deyildir. Çünki söyləsəydim yaxşı olmayacaqdı. O dəlillər ki, söyləyirsiz, uzatsan, necə ki, özünüz dediniz qiyamətəcən uzanar. Sən öz nöqteyi-nəzərində, mən də öz fikrimdə haqlı olacağam. Buyururlar ki, bu birlik tərbiyədir. Bir adam mənim səsimi Bakıdan eşidib tərbiyələnəcək. Mən deyirəm buyur camaət içinə yol açıqdır. Get milləti tərbiyələ. Qoymayınız at, fil gəlsin. Siz özünüz məhəllərdənsiniz, Bakılı deyilsiniz. O məhəllərdə camaət arasında hüsnü-rəğbət qazanmısınız. Demək mənim təklifim budur ki, buyurunuz camaət içərisində işləyiniz. Hansı biriniz ermənilər və gürcülər kimi camaət içində işləmisiniz, çobanlara qoşulubsunuz?

**Yerdən səslər** - Hamısından az işləyən sənsən.

**Abdulla bəy** - Mənim söylədiyim budur. Qanacağı dairəsində deyirəm ki, əgər millət və sinfə maraqdasınız, gedin millət içinə. Deyirsiniz məhəldən kulaklar buraya yığılacaq, hansı məhəldən istəyirsiniz 3-5 nəfər adam göndəriniz; baxınız oradakı seçkini polis, kulakla edir, yoxsa camaət edir. Mən deyirəm bəsdir, əhaliyə qəyyumluq etməyin, çünki siz özünüz qəyyum əlindən çıxmısınız. Camaətə qəyyum olmayınız; verin camaətin ixtiyarını özünə. Mən deyirəm Məclisi-Müəssisən qanun vəz edən ali bir məclisdir. hər məmləkətdə, hər vilayətdə qaydası ilə seçilir. Mədəni Avropada seçilmiş məclisi-müəssisan üzvlərinin həpsi müəssis deyildir, söz yoxdur ki, onların içində beş-on nəfər çıxar ki, qanun dözməyi bilsin. Bəs qalanları nə üçün gəlir? Onlar ondan ötəri gəlir kim, öz məlumatları ilə milləti yaxından tanıdığı ilə, məhəllərin ehtiyacını bildiyi ilə o qanun maddəsini başqa bir cürə qəbul [645 - 646] olunub və ya olunmayıb, onlar qanun vəz edən şəxsləri xəbərdar eyləyirlər. Mümkündürmi ki, Məclisi-Müəssisan təşkil edəsiniz ki, hamısı bacarıqlı olsun. Yəni qanun bilsin; təşkilat düzəltsin; bu ola bilməz. İndiki olmaz Avropa ilə bizim təfavütümüz o olacaq ki, bizim Məclisi-Müəssisanda bacarıqlı az olacaq, onlarda çox. Nə olar öyrənələr. Keçən dəfə dedim, bir dəfə çağırarıq. Yaponiya yeddi məclisi-müəssisan çağırdı, yaramadı; səkkizinci dəfə qəbul olundu. Mən onu demirəm ki, vətənimiz balacadır. Lakin işləmək mümkündür. Mən doğru yol göstərirəm. Sosialistlər nə qayırmış? Hamısı fəhlə arasına gedir; onların arasında işləmək asandır. Amma rəncbərlər bu saat öylə dənizlər meydana çıxıb ki, mərkəz bir olmazsa, bir də Məclisi-Müəssisan seçilib gələndən sonra, o müəssislərin camaət etibarilə etibarlansınlar və milləti arxalarında görsünlər. (Səmədağa yerindən - Bax o lazımdır. Nəinki dalınızda iki adam yoxdur).

**Abdulla bəy** - Qaldı bu söz batil fikirdir ki, məhəldən gələn adam siyasi ola bilməz. Ümumi vətən fikrinə düşə bilməz, nədən Ağamalı oğlu məhəldən gəlib, ümumi fikrini çəkir. Bəs niyə sizi məhəldən seçirlər. Hər halda yenə təkrar edirəm ki, burada hər nə qədər mərkəz haqqında söylənibsə, həbsi firqə nöqteyi-nəzərindən söylənilir. Vətən nöqteyinə-zərindən deyil, bu doğru deyildir. Həm də bundan böyük xətalar əmələ gələcəkdir.

**Rəis** - Söz Əhməd Cövdət Pepinovundur.

**Əhməd Cövdət** - Əfəndilər! Bu məsələ üzərində keçən dəfə uzun uzadı danışıqlar oldu. Bu gün də maddə-maddə oxunarkən danışdılar. Ona görə mən də bu barədə [bir] neçə kəlmə danışmaq istərdim. Bu barədə danışan Abdulla bəy əvvəl də, indi bu saat danışanda da okruq barəsində deyil, ancaq məbuslara nəsihət verdilər ki, gedin millətə tərbiyə verin, işləyin. Əlbəttə, bu doğrudur. Firqələrin günahı odur ki, az gedib işləyir; camaət siyasətə uymamışdır. Bu doğrudur. Buna etiraz edən olmaz. Bizdə siyasi həyat yeni başlanıbdır. Əlbəttə, bundan sonra gedib işlər, yaxşı olar. Bu heç. Firqələr bu yolda işləməyə məcbur olacaqlar. Lakin qaldı ki, tərbiyə nəcür olacaq? Əvvəla tərbiyə maarif ilə olar. Qaldı ki, siyasi tərbiyə, neçə ki, Səməd ağa buyurdu, o cür ola bilər. O da seçki zamanında ola bilər. Çünki seçki özü siyasi tərbiyədir. Ədəmi-mərkəziyyət istəyəndə bu tərbiyənin əleyhinə olursunuz. Çünki, seçki bir şəxsə aid olanda heç tərbiyə olmayacaqdır.

Seçkilərdə siyasi firqələr iştirak etməsə, tanışlıq, qohumluq ilə olanda ortaya silah, razreşeniya, qohumluq kimi xırda sözlər atılacaqdır. Siyasi firqə seçkisi olanda, ayrı adamlar deyil, bu firqə üçün səs verirsiniz. Bu firqə də əvvəl belə idi, sonra belə oldu. O biri firqə onun əleyhinə çıxıb deyəcəkdir ki, bu doğru deyildir. Belə deyir, amma belə edir. İştə bu tərbiyə. Muxtar əfəndi deyirdilər ki, buraya firqələr deyil adam seçiləcəkdir. O bizi xoşlandıra bilməz. Əvvəla, bilir böylə olunsun, lakin çox da bizi sevindirə bilməz. Şəxslərin fikri tez dəyişir. Çünki zəmanəti olmaz. Lakin bir firqənin fikri dəyişməz. Çünki onun üçün, böyük bir firqə bütün keçmişlə və gələcəyi ilə zamindir. Şəxslərin olmasından mükəddər olmayacağıq. Çünki bu şəxslər gələcəkdə millətimizi fəlakətə sala bilər. Bir də məndən qabaqkilar dedilər ki, mərkəzin çoxluğu yaxşılığını göstərir. Bilməm Abdulla əfəndi niyə belə yaş tökür. Firqələrini tanımadığındanmı? Bundan daha danışmaq nə üçün? Əgər firqəni tanımırlarsa səsi də olmayacaqdır. Bundan qorxmamalı. Bir də Muxtar əfəndi dedilər ki, əlli nəfərə bir siyahı olanda ixtilaf olar. Lakin mən deyirəm ki, Muxtar əfəndi deyən kimi şəxsi seçki olsa daha böyük ixtilaf olar. Bir də seçdiyimiz adamlar parlamanda hökumətin şəkli-idarəsini təyin edəcəklər. Azərbaycanın müstəqil bir parlamanımı olsun? Şurası olsun? Padşahlıqmı olsun? Cümhuriyyətmi olsun? Belə əsaslı qanunlar həll edib çıxaracaqlar və sonra hökumət də bu əsaslar üzərində işləyəcəkdir. Ona görə Məclisi-Müəssisana yığılacaq adamlar gərək böyük qanunlara bələd siyasi adamlar olsun.

Abdulla əfəndi deyir ki, biz camaətə tərbiyə verməliyik. Lakin böylə mühüm bir vaxtda tərbiyə vermək mümkün deyil. Və bir də çarizm vaxtı deyil ki, camaətə tərbiyə verək. Burada gərək elə adamlar olsun ki, siyasətdən xəbərdar olsunlar və əldə etdiyimiz Azərbaycanı uçuruma gətirməsinlər. Abdulla əfəndi mərkəzin

çox olması üçün heç bir dəlil gətirmədilər. Amma bu söylədiyimiz şeylərin hamısı mərkəzin çox olması əleyhinədir. Mərkəzin bir olması üzərində uzun danışmağa [647 - 648] heç lüzum yoxdur.

**Rəis** - Son söz məruzəçinindir.

**Məmməd Əmin** (məruzəçi) - İkinci maddə bir çox müzakirata səbəb oldu. Fəqət, bunu əvvəlinci iclasda ərz etdim ki, burada "Əhrar" fraksiyasının nəzəri üstə duranlar əgər məsələni olduğu kimi öyrənsəydilər, dərk etsəydilər başdan lazım gələrdi ki, mütənasib üsul əleyhinə olalar. Çünki bunu qəbul etdikdən sonra dairənin geniş olmasını bilməcburiyyə qəbul etməlidir. Fəqət, bununla bərabər Abdulla bəy cənabları israr edirlər və isbat etmək istəyirlər ki, seçki dairəsini müxtəlif dairələrə birlikdə mütənasib üsuluni gözləmək olar. Öylə zənn edirlər ki, əgər böylə olarsa, əsil həqiqi camaat nümayəndələri buraya gələrlər. Başqa dövr olursa, meydan qüvvətli firqələrə qalar. Natiq sözlərini söylərkən qayət mütəhəyyiranə bir surətdə xüsusən mənim mənsub olduğum firqəyə işarə etdilər. Dedilər ki, Mustafa əfəndi mənim sözlərimi başqa cür deyəndə mən öz yerimdə qaynayırdım. Bunu hiss edən adam lazım gəlir ki, başqalarının fikrini qatışdırmasın. halbuki, burada öylə söz söylənilmədi. Buna bənzər bir söz demişdim. Lakin mənim də haqqım var qaynaya idim ki, niyə Abdulla bəy mənim sözümü bu hala salıblar. Mən intixabatın tarixindən müxtəsər bildiyim məlumatı həzərata ərz etdim. Bir vaxt öylə idi ki, ayrı-ayrı şəxslər məmləkəti idarə edirdi. İndi o şəxslərə səs verən biz deyil, sizsiniz.

Binaən-ileyh, bu etirazı kəndinizə qaytarıram. Ayrı-ayrı şəxslərə cəmaətin etirazi ola bilməz; Şəxsi seçin, firqəni seçməyin deyən sizsiniz.

Üsuli-intixab tərəqqi etdi, nəhayət ən son dərəcəsini buldu. Fikri, siyasəti intixab etmək lazım gəlir. Biz bunu təklif edirik. Sonra İsveçrədən, söylədilər, dedilər ki, orada kantonlar var. Lakin məsələ bir az qarışdırıldı. Üsuli-intixab başqa, şəkli idarə başqadır. Orada dediniz ayrı-ayrı kantonlar və hər kantonun ayrı-ayrı parlamanı var. Əgər bütün İsveçrənin bir parlamanı olsaydı, o vaxt intixab dairəsi də bir olar idi. Bir də İsveçrənin hər parlamentindən iki nəfər nümayəndə intixabilə ümumi bir məclis var ki, o da təmamilə başqadır. Münaqişə də edər, gəl tərəfi-müqabilə də ehtiram etmədilər. Burada götürdükləri İsveçrədən tərəfi [648 - 649] müqabilin məlumatı var isə burada oturanlar da məlumatsız deyildir.

Kəndisinə ədəmi-mərkəziyyətçi deyən bir firqə bütün hərəkatına ədəmi-mərkəziyyət daxilində icra edir deyənlərdən mən dəlil və sübut gözlərdim. Onların fikirləri özlər üçün nə qədər müqəddəs olarsa, bunu söyləmək üçün isbatlar və dəlillər götürməlidirlər. O zaman mən rahi-zəlalətdə olan firqəmiz namindən biz düz yol göstərənlərə təşəkkür edərdim. Bu iddəa yalnız oradan gəlirki, üsuli-intixab ilə üsuli-idarəni qarışdırırlar. hər məsələni uzada-uzada məntiqsizliyə qədər gətirirlər. Ədəmi-mərkəziyyət o deyil ki, hər kəndin bir parlamanı olsun. Bunu səmimiyyət və vətən nəzərilə tənqid və təhlil etməsəniz, onu da məntiqsizliyə qədər çəkib gətirə bilərsiniz. Biz ədəmi-mərkəziyyət tərəfdarı olduğumuzu dəfələrlə isbat etdik. Biz bunu isbat etdik Qafqaz qurultayında və Moskvada, Rusiyada, sonra türklərlə və ittihadı-islamçılara. Biz deyirik ki, bu xəyaldır, bu o demək deyil ki, 2 buçuq milyon nüfusu olan Azərbaycan neçə idarələrə bölünsün. Məmləkətin bir neçə əhvalı var: siyasi, iqtisadi, bələdiyyə və sairə. Ançaq siyasi idarəsi bir mərkəzdə olmalıdır. Bu o demək deyil ki, bütün şəhər idarələrini parlaman idarə edəcəkdir. Bu o demək deyil ki, Zemstvolar olmayacaq, xırda vahidlər olmayacaq. Sonra burada bir məsələ də vardır. Deyirlər ki, siyasi adamlar vilayətlərdə də vardır. Əvvəla, burada nəcür imkan vardır. O adamların namizədliyini mərkəzdən, firqələr tərəfindən çıxarılacaq, siyahilərə salarlar, və yaxud məhəlindən əlli-altmış adamın imzasilə xüsusi bir siyahidə çıxarmaq olur. Buna kimsə mane olamaz, əgər desək ki, Şəki qəzası ayrı bir siyahı çıxarsın. Əlli adamda bir göy bu ya o yoldan nə üçün siyahi çıxara bilməsin? Biz deyəndə ki, mərkəz bir olsun, Şəki ya Zaqatalanı məhrum etməyirik. Orada özləri üçün siyahi çıxara bilərlər. "Əhrar" firqəsinin Zaqatalada və Şəkidə nüfuzu çox isə o da orada siyahı çıxarsın. Bununla nə "Əhrar" bir şey itirər, nə də əhali və başqa firqələr. Əgər bu siyahı yalnız Şəki dairəsində rəy almaq üçün hazırlanmış isə, onda bütün Azərbaycan dairəsi müsabiqəsinə çıxa bilməyəcəkdir. Çünki Şəki dairəsi kiçik olduğundan, ora üçün hazırlanan [649 - 650] siyahida göstərilən şəxsləri başqa yer tanımayacaqdır. Amma ümumi siyahi olanda bütün Azərbaycanda tanınmış simalar göstəriləcəkdir. Deyirlər ki, məmləkət tanınmış firqələr üçün səs verəcək, tanınmamışlara verilməyəcəklər. Onlar nümayəndədən məhrum olacaqlardır. Bir də deyirlər ki, tanınmış adamlara səs vermiyəcəklər. Burada məntiqdən bəhs olundu. Bilmirəm burada məntiq nerdədir. Bu özü bir məntiqqsizlikdir. Madam ki, bir firqəni məmləkət tanıyır, o siyahi düzəldərkən bunu düşünəcək, çalışacaq ki, məmləkət daxilində şöbələr açmaqla özünü xalqa tanıtdırsın. Bir də firqə siyahisi hazırlarkən böylə düşünmədən olmayacaq. Madam ki, bütün məmləkətdə müvəffəqiyyət qazanmaq istəyir, o zaman bütün şöbələr, bütün nümayəndələr çağıracaqdır, bir qurultay yapacaqdır. Orada siyahi düzələrkən hər yerdən məşhur adamlar gətirəcəkdir ki, məmləkət daxilində meydana çıxarkən bütün Azərbaycan onu tanısın. Ona görə müvəffəqiyyət qazandığı yerdən də adam gətirəcəkdir. Məsələ bununla həll olunmuş olur. Ayrı-ayrı şəhərlər, ayrı-ayrı adamlar siyahı düzəltmək istəsələr, onlar üçün də imkan buraxılmışdır.

Əgər böylə olmasa, böylə olur, şöylə olur, demək Məclisi-Məbusanı təhdiddən başqa şey deyildir. Bunu söylərkən bir dəlil də lazımdı. Məclisi-Məbusan bütün məmləkət inanan bir təşkilatdır. Millət və məmləkət onun sozünü qəbul edən kimi, məclisi-müəssisan xüsusunda rəyini də qəbul edəcəkdir. heç bir təhdid lazım deyil. Çünki məmləkətimizin idraki bir dərəcəyə varmışdır ki, onun rəyi əleyhinə heç bir şey çıxmaz və heç kəs də

ixtilaf salmağa meydan bilməz. Və heç kəs də onun naminə Məclisi-Məbusan da bir şey sözləyəm bilməz. (Alqış). Artıq sözlərimi dedim və mühakimə oldu. Bir daha söyləməyə də ehtiyac yoxdur.

**Rəis** - İkinci maddəni səsə qoyuram, oxuyunuz.

**Katib** - oxuyur.

**Rəis** - ikinci maddəyə kim tərəfdar isə, əlini qaldırsın, kim əleyhinədir? Kim səs verməyib? Ləhinə 27, əleyhinə 10, səs verməyən 4. İkinci maddə əksəriyyət ilə qəbul olunur. O birin oxuyunuz.

**Katib** - oxuyur. [650 - 651]

**Məmməd Əmin** - 3-cü maddədə yaş 23 göstərilmişdir. Bu komisyonda əksəriyyətlə keçib. Lakin əqəliyyət isə iyirmi yaş təklif edirsə, məndə onların tərəfdarıyam.

**Rəis** - Muxtar Əfəndizadə.

**Muxtar** - Biz deyirik ki, madam ki, əsgərlik 19 yaşındandır, seçki də öylə olsun. Bir də pristav və qəza qaimməqatı ancaq seçmək ixtiyarına malikdirlər, seçilə bilməzlər. Ümumiyyət üzrə seçki ixtiyarı olub, seçilə bilməyən adamlar layihədə aşkar göstərilsin.

**Rəis** - Hacı Kərim Saniyev.

**Saniyev** - Birinci natiqin söylədiyini biz də qəbul edirik. Əsgərlik yaşında olanlar seçkidə də iştirak edə bilsinlər. Çünki bir çox 19 yaşlı tələbə və darülfünun qurtarmışlarımız var ki, qubernator, bəli vəzir müavini olmağa layiqdir. Qaldı ki, əsgərlər barəsində, onlar səs versinlər, ya xidmətdə, ya hələ belə.

**Rəis** - Sırada natiq olmadığından söz məruzəçinindir.

**Məmməd Əmin** - Komisyonun rəyi 23-dür. Mən isə orada iyirmini müdafiə etmişəm. Yenə də haman iyirmi üzərində durmuşam. Çünki siyasi bir adam olmaq üçün 20 yaşda ən müvafiqdir. 19 - olmasına isə etirazım var. Onlar deyə bilərlər ki, əsgərliyə 19 yaşında alındığı üçün seçkidə də 19 yaşında şəxslər iştirak etsinlər. Bunu Avropada təcrübə etdilər və Rusiya da təcrübə etmək istədi. Lakin hər yerdə əks nəticələr göründü. Çünki məmləkəti daxilən və xaricən müdafiə etmək üçün təmamiyyəti və bitərəfliyi lazım gələn əsgərləri bəzi siyasi işlərə iştirak etdirsək artıq, əsgər yoxdur deməkdir. Əgər əsgər ancaq məmləkəti saxlamasını istəyiriksə bu böylə olmalıdır. Onlar siyasi işə qarışmamalıdır, yoxsa nə ordu olar, nə də məmləkət. Buna zidd olanlar zənn edirəm, səhvlərini onlar və ümumi məmləkət səadəti və mənafeyi naminə ancaq iyirmi yaşdan qəbul edərlər. Gümanın ümumi məmləkət mənafe uğrunda həyatlarını verən əsgərlər bu dəfə də haman məmləkətin səadəti üçün həklərini fəda edərlər.

**Rəis** - Təklif edirlər 23 əvəzinə, 20, 19 yaş olsun.

**Səslər** - 20-dir... 23 dür... Məmməd Əminin layihəsində 23 dür. [651 - 652]

**Rəis** - Təklif var 20 və 19 yaş. Bunları səsə qoyuram. Əvvəl 19 yaş, sonra 20 və 23. hər kəs həqiqi - intixabın 19 yaşdan verilməsi tərəfdarı isə əlin qaldırsın. Kim bunun əleyhinədir? Kim səs verməyibdir? Ələhinə 12, əleyhinə 29, səs verməyən bir. Əksəriyyət ilə qəbul olmur. 20 yaşı səs qoyuram. Kim tərəfdar isə rica edirəm, əlini qaldırsın. Kim əleyhinədir? Kim səs verməyib? Səs verməyən 7, əleyhinə yox, ləhinə 34. Əksəriyyət ilə qəbul olunur. 3-cü maddəni səsə qoyuram. Məruzəçiyə bu barədə söz verirəm.

**Məmməd Əmin Rəsulzadə** - Bu maddədə nəzəri-diqqətinizi bir şeyə cəlb edirəm. Burada deyilir ki, hər bir vətəndaş intixablarda iştirak edə bilər. Fəqət, vətəndaşlar kimlərdən ibarətdir, bu xüsusda vətəndaş kim olduğu məlum olmadığı üçün komisyon bir qanuni-təbiyyət vermək parlamana təklif edir. Qanuni-təbiyyət ilə vətəndaş zənn edilən hər bir fərd seçkilərdə iştirak edə bilər.

**Rəis** - Oxuyunuz.

**Katib** - Üçüncü maddəni oxuyur.

**Rəis** - 3-cü maddəni səsə qoyuram. Hər kəs 3-cü maddəni qəbul edirsə, əlini qaldırsın. Kim bunun əleyhinədir? Kim səs verməyib, rica edirəm, xüsusi söhbəti qurtarasınız.

**Malxazyan** - Rusca.

**Yerdən** - Burada tərcüməsi düz deyil.

**Musa bəy Rəfiyev** - Burada türkcəsi böylə yazılıdır. (Oxuyur).

Amma ruscası belədir (oxuyur). Ona görə Malxazyan haqlıdır. Rəis - 3-cü maddəni səsə qoyuram. Hər kəs 3-cü maddəni qəbul olunmuş təshih ilə qəbul edirsə əlini qaldırsın. Sayınız. Kim bunun tərəfdarıdır? Kim əleyhinədir? Kim səs verməyib? Ləhinə 30, əleyhinə yoxdur, səs verməyən 5.41 adam var, lakin seçkidə 35 nəfər iştirak edib.

**Səslər** - Ayaq üstə durdunuz.

**Rəis** - Mən sizə əziyyət vermək istəmirəm, yoxsa başqa üsul da var. Təzədən səsə qoyuram. Kim 3-cü maddənin qəbul olunmuş təshih ilə tərəfdarı isə əlini qaldırsın. Kim əleyhinədir? Kim səs verməyibdir? Lehinə 34, əleyhinə 1, səs verməyən 7, beləliklə 3-cü maddə təshih ilə bərabər qəbul olunur. 4-cü maddəni oxuyun. [652 - 653]

**Katib** - Oxuyur.

**Sədr** - Bir də oxuyunuz.

**Katib** - Oxuyur.

**Sədr** - Bu maddə üzrə danışmaq istəyən varsa buyursun. Ağa Aşurov.

**Aşurov** - Rusda lal-kar olanlar məlumdur, qaldı ki karlara ixtiyar verilmir. Bizdə çox adam var ki, qulağı ağır eşidir, əlbəttə onları ixtiyardan məhrum etmək olmaz. Mən təklif edirəm, bu maddəni bir növ aşkar edəsiniz.

**Rəis** - Söz Musa bəy Rəfiyevindir.

**Rəfiyev** - Bu maddədə 3 şəxs göstərilir. Biri dəli, 2-cisi divanə, 3-cü lal-kar. Nəinki tək var olsun, xeyir bir insan lap uşaq vaxtından kar olduğu üçün lal da olur. O hələ olur ki, nə öz işini bilir, nə də özgəni, o dəli kimidir. Lakin qəyyum altında olanlar kimlərdir, məlum deyil. Mən təklif edirəm, bu maddədə qeyd edilsin ki, dəli, divanə və kar-lallar.

**Rəis** - Xocayev

**Xoçayev** - (rusca).

**Rəis** - Malxazyan

**Malxazyan** - (rusca).

**Rəis** - Musa bəy Rəfiyev.

**Rəfiyev Musa bəy** - Malxazov buyurduqları dürüst deyil. O deyir ki, qəyyum altında olan lal-karların intixabda haqqı yoxdur. Tibbə baxsanız lal-kar dəli sırasındadır. Əgər bu elə olmazsa seçər və seçilə bilər. Bəlkə seçildi. Parlamanda danışacaq. Mən təklif edirəm dəli, divanə, lal və karların ixtiyarı yoxdur sözü ilə maddə də qurtarsın. Lakin qəyyum altında olanlar 5-ci maddəyə mülhəq olsunlar.

**Rəis** - Son sözü məruzəçiyə verirəm.

**Məmməd Əmin** - Burada mövzu bəhs olan komisyonda olmuşdur. Qanunda divanə əşxas iştirak edəməz. Onlar hüquqi-siyasiyyədən məhrumdurlar. Məsələ bu şəkildədir. Divanələr kimi birdə qəyyumluq altında olanlar var. Qəyyumluğun da qiyməti məlumdur. Kəndi idarəsindən aciz olan, başqasının idarəsinə möhtac, olan bir adama məmləkətin idarəsini vermək olmaz.

Bir də Xocayev dedi ki, qəyyumluq altında olanlar 17 yaşınadək olurlar. Fəqət, ola bilir ki, otuz yaşında da olsun, xəstəlikdən və başqa bir şeydən dolayı, qəyyuma möhtac olsun. [653 - 654]

Madam ki, özünü idarə edə bilməyir, onları da hüquqi siyasi-dən məhrum etmək yerlidir.

**Rəis** - Bu maddəni səsə qoya bilməyəcəyəm. Çünki kvorum yoxdur. Papiros çəkmək bəhanəsilə çıxıb, qaçıb gedirlər. Mən bu saat siyahını oxuyaram (kyüsterə) siyahını gətirin. (Səslər ştraf olunsun). Dördü yoxdur. Hər nə istəsəniz edə bilərsiniz, lakin hər fraksiya gərək özü öz adamlarının hərəkətini təqib etsin. (Siyahını oxuyur). Hər gah olsa idilər bu saat qurtarardıq. Ona görə iclas qapanır.

İclas qapanır saat 2-45 dəqiqədə.

**Arxiv, f.895, siy.1, iş.93, vər.1-19.**

## № 44

### Qırx dördüncü iclas

*2 iyul 1919-cu il*

**Rəis** - doktor Həsən bəy Ağayev **Katib** - Mehdi bəy Hacınski. Müzakireyi-yomiyyə:

1 - Ünas edadiləri nizamnamələrinin təğyir və təkmili haqqında layiheyi-qanuniyyə; 2 - Aksiz "Kulci" İdarəsinin ştatasının Layiheyi-qanuniyyəsi; 3 - Quba bələdiyyə idarəsinə yüz min rubla borc verilməsi haqqında layiheyi-qanuniyyə; 4 - Məclisi-Müəssisan seçkiləri haqqında layiheyi-qanuniyyə; 5 - Bakı gömrükxanası vergisinin artırılması haqqında layiheyi-qanuniyyə; 6 - Posta və teleqraf məmurlarına məxsus ambulatoriya təsis haqqında layiheyi-qanuniyyə; 7 Səhhəti ümumiyə nəzarətinə yeddi milyon həştad üç min beş yüz rubla buraxılması haqqında layiheyi-qanuniyyə; 8 - Daxil olmuş kağızlar, o cümlədən: a/ maarif naziri ixtiyarına Bakı darülfünunun təşkili və tənzimi üçün bir milyon rubla paranın buraxılması haqqında layiheyi-qanuniyyə, b/ Məhkəmə işlərinin Övraq dəftərxana və əxbariyyə vərəqəsi vergisilə qiymətə aid olmayan iqameyi dəvi xərclərinin artırılması haqqında layiheyi-qanuniyyə, c/ Bələdiyyə məclisləri əzasının üsulu intixabatı haqqındakı qəvaidin mövqe-icrayə qoşulması haqqında layiheyi-qanuniyyə, d/ Şəhərlər [654 - 655] nəfinə olaraq idxal və ixrac olunan yüklərdən put vergisi yığılması haqqında layiheyi-qanuniyyə, p/ Bakı gürcü milli şurasının məktubu.

**Rəis** - Gürcü milli şurasının məktubunu oxudu. Məktubun məzmunu: "Azərbaycan parlamanı məbusluğından çıxan Q. İ. Tsixokaya əvəzinə Bakı gürcü milli şurası tərəfindən həmin 25 may tarixli şuranın iclasında Vladimir Aleksandroviç Baqradze yeni üzv intixab edilməsini Şura parlamana məlum edir. Şura sədri: (imza), Katib: (imza). İyun bir nömrə - 15" Məktub etimadnamə komisyonuna göndərilir. Daxil olmuş layiheyi-qanuniyyələrdən əvvəlincisi maliyyə və büdcə komisyonuna və qalanları isə ləvayehi-qanuniyyə komisyonuna verilməsi qəbul edildi.

1 - Ünas edadi nizamlarının təğyir və təkmili haqqında məruzəçi Şəfi bəy Rüstəmbəyli bəyanat verdi.

Layihənin ikinci qiraətinin oxunması səsə qoyulub, qəbul edildi. Katib maddə maddə oxudu. Sultan Məcid Qənizadə 4-cü maddəyə bir təklif verdi. Məzmunu: "Ünas məktəblərində müdirə ünasdan olsun, çünki hər işdə və ələlxüsus maarif işində ünas ilə zükur hüquqən müsavi olsa gərək. S. M. Qənizadə".

Rəis təklifi səsə qoydu, qəbul olunmadı. Layihə ikinci qiraətdə maddə-maddə səsə qoyulub əksəriyyəti ara ilə qəbul edildi. Üçüncü qiraət gələcək iclasa təxir edildi.

2 - Aksiz "Kulçi" idarəsinin ştatı haqqında məruzəçi Rza bəy Ağabəyov bəyanat verdi. Layihənin ikinci qiraəti oxunması səsə qoyulub, qəbul edildi. Katib maddə-maddə oxudu, səsə qoyulub, qəbul edildi. Üçüncü qiraət gələcək iclasa təxir edildi.

3 - Quba bələdiyyə idarəsinə yüz min rubla borc verilməsi haqqında məruzəçi Muxtar əfəndi bəyanat verib komisyon layihəni qəbul etmədiyini bildirdi. Rəis parlaman nizamnaməsinin 154-cü maddəsi üzrə komisyon tərəfindən müzakirə edilməyən layihənin iclasda buraxılmasını səsə qoydu. Əksəriyyəti ara ilə buraxılması qəbul edildi. Bu haqda Mürtəza Axundzadə, Ağa Aşurov, Mehdi bəy Hacınski, Hacı Hüseyn Əfəndizadə, Mehdi bəy Hacıbababəyov mübadileyi-əfkar etdilər.

Para bilaədə ianə olaraq verilməsi təklif edildi. Təklif səsə qoyuldu, qəbul edildi. Haman təklif üzrə təshih olunmuş əvvəlinci maddə səsə qoyuldu. Qəbul edilmədi. Sonra 1-ci maddə [655 - 656] hökumət layihəsində olduğu kimi səsə qoyuldu, qəbul edildi. Layiheyi-qanuniyyə təmamən səsə qoyulub qəbul edildi.

Beş dəqiqə tənəffüs elan edildi. Tənəffüsdən sonra Məclisi-müəssüsan seçkiləri haqqında katib 4-cü maddəni oxudu. Məbus Xodcayan 5-ci maddəyə bir təklif verdi. Bu təklifin məzmunu: "Qanun gücünə minmiş məhkəmə qərardadı əsasilə suiniyyət sahibi müflis tələqqi edilmiş sınmış borclular: 1-Cinayət məhkəməsinin qərarilə təyin edilmiş cəzanı çəkdikdən 7 il sonrayadək, yaxud 2-cinayət məhkəməsinin qərarilə müddəi ileyhin işinə xatimə çəkilənə, yainki, bəraət verilənədək". Təklif səsə qoyulub, rədd edildi. 4-cü maddə Mehdi bəy Hacinski əlavə etdiyi əşxas gəlməsindən sonra "Öylədə həm lal, həm kar olanlar" təshihi ilə səsə qoyulub qəbul edildi. 5,6,7-ci maddələr səsə qoyulub, qəbul edildi. 8-ci maddəyə Səməd ağa Ağamalı oğlu maddənin axırındakı: "və ya məhkəmə rəyasəti tərəfindən təhtin mühafizəyə alınmış olan şəxslər seçki hüququndan məhrum edilirlər" sözlərinin ləğv edilməsini təklif etdi. Təklif səsə qoyulub, rədd edildi. 8-ci maddəyə Papyan atidəyi təshihi təklif etdi: Seçki siyahısına daxil olub da İntixab vaxtınadək qeyb etmiş (4 və 5-ci maddələrə görə) şəxslər seçki hüququndan məhrum edilirlər: "Təshihi səsə qoyulub qəbul edildi.

Vaxt gec olduğundan rəis məclisi qapadı.

**Arxiv, f.895, siy.1, iş.9, vər. 108-107.**

## № 45

## Qırx beşinci iclas

*5 iyun 1919-cu il*

**Rəis** - Həsən bəy Ağayev. **Katib** - Mehdi bəy Hacınski. İclas açılır saat 12-5 dəqiqədə.

**Rəis** - Parlamentin iclası açılır. Bugünkü yomiyyi-müzakiratımız bu tərtibədir:

I - Ünas edadilərinin nizamnamələrinin təğyir və təkmili haqqında layiheyi-qanuniyyənin 3-cü qiraəti; (Məruzəçi Şəfi bəy Rustambəyov); 2 - Aksiz (Kupçi) ştatının layiheyi-qanuniyyəsinin 3-cü qiraəti; (məruzəçi Rza bəy Ağabəyov); 3 - Poçta və teleqraf məmurlarına məxsus ambulatoriya təsisi haqqında layiheyi-qanuniyyə; (Məruzəçi Musa bəy Rəfibəyov). 4 - Səhhəti-ümumiyyə nəzarətinə 7.083500 rüblə buraxılması haqqında layiheyi-qanuniyyə; (Məruzəçi Musa bəy Rəfibəyov); 5 - Gömrükxana put vergisinin artırılması haqqında layiheyi-qanuniyyə; (Məruzəçi Musa bəy Rəfibəyov); 6 - Məclisi-Müəssisan seçkiləri haqqında layiheyi-qanuniyyə; (Məruzəçi Məmməd Əmin Rəsulzadə) 2-ci qiraət.

7 - Daxil olmuş kağızlar: a) Həmid bəy Şahtaxtinski, Əmirov, Rzabəyovu maarif nəzarətindən xaric olmaları və Rəşid İsmayılovun Bakıda azad dolanması xüsusunda "İttihad" firqəsinin hökumətə sualı; b) Kozyonnı palatası müdir müavini məmuriyyətinin ləğv haqqında layiheyi-qanuniyyə; t) dəniz sahilindəki idarələrdə gəmi vergisi qoyulması haqqında layihə; c) Azərbaycan gömrükxanalarında ambar vergisinin artırılması haqqında layihə; h) damğa /nişan/ Nizamnaməsini qismən təğyir və təbdili haqqında layiheyi-qanuniyyə; x) sabit komissariat və Xalq komissarları şurasının vaxtsız vergiçiləri haqqında olan cəza tədbirlərinin ləğvi xüsusunda qanun layihəsi; d) Ermənistan sərhəddində (Uzun Töhlə) gömrükxanası qarşısında gömrükxana təsisi haqqında qanun layihəsi; z) Poylu mövqeyində gömrük və poçta idarəsi təsisi haqqında qanun layihəsi. Bu cür tərtibata etiraz yoxsa, qəbul olunur. Yeni daxil olan qanun layihələrinin ümumisi səkkiz dənədir. Hamısı, ləvayehi-qanuniyyə komissiyasına gedir, birisi maliyyə-büdcə komissiyasına.

Növbədəki məsələ, Ünas edadiləri Nizamnaməsinin təğyir və təkmili haqqında qanun layihəsinin 3-cü qiraətidir. Məruzəçi Şəfi bəy Rüstəmbəyovdur.

Katib-birinci maddəni oxuyur.

**Rəis** - Əvvəlinci maddə xüsusunda kim danışmaq istəyir? (Rusca) Bundan sonra maddələr oxunduqda təklif etməyəcəyəm. Lakin, istəyən yazıb vərəqə ilə bildirməlidir. Vaxta ki, vərəqə verilmədi, mən gözləməyəcəm. Birinci maddəni səsə qoyuram. Kim qəbul edirsə, rica edirəm, əlini qaldırsın. Qəbul olunur. [657 - 658]

**Katib** - (2-ci maddəni oxuyur).

**Rəis** - 2-ci maddəni səsə qoyuram. Hər kəs qəbul edirsə, əlini qaldırsın. İkinci maddə əksəriyyətlə qəbul olunur. **Katib** - (3-cü maddəni oxuyur).

**Rəis** - 3-cü maddəni səsə qoyuram. Hər kəs 3-cü maddəni qəbul edirsə, əlini qaldırsın.

**Katib** - (4-cü maddəni oxuyur).

**Rəis** - 4-cü maddəni səsə qoyuram. Kim qəbul edirsə, əlini qaldırsın. 4-cü maddə əksəriyyətlə qəbul olunur. Layihəni tamamilə səsə qoyuram. Hər kəs layihəni tamamilə qəbul edirsə, əlini qaldırsın. Layiheyi-qanuniyyə tamamilə qəbul olunur.

Növbədəki məsələyə keçməmiş, üzr istəyirəm; unutdum. Bu gün parlamentin iclasında gürcü nümayəndəsi Baqradze iştirak edir. (Rusca). Növbədəki məsələ aksiz ştatının layiheyi-qanuniyyəsinin 3-cü qiraətidir. (Katibə). Oxuyunuz.

**Katib** - Oxuyur.

**Rəis** - Qiraət olunmuş aksiz idarəsi ştatının layihəyi-qanuniyyəsini səsə qoyuram. Hər kəs oxunmuş layihəni qəbul edirsə əlini qaldırsın. Əksəriyyətlə aksiz ştatı layihəsi qəbul olunur. Layihəni tamamilə səsə qoyuram. Hər kəs bunu qəbul edirsə əlini qaldırsın. Əksəriyyətlə layihə qəbul olunur.

Növbədəki məsələ poçta-teleqraf məmurlarına məxsus ambulatoriya təsisi haqqında layihəyi-qanuniyyədir. Məruzəçi Musa bəy Rəfibəyovdur.

**Musa bəy Rəfibəyov** - Poçta-teleqraf nəzarəti, poçta-teleqraf məmurları üçün xəstəxana açmaq və təbabət köməyi təşkil etməkdən ötəri parlamentə bir layihə təqdim edibdir. Buna səbəb bunu göstərir ki, Bakıda xəstəxana azdır və lazımi qədər əhaliyə və məmurlara kifayət etmir. Poçta-teleqraf nəzarəti bunu da göstərir ki, bu təşkilatın zühura gəlməyi iyun ayında, poçta-teleqraf məmurları yığıncağında qət olunubdur. Və bolşevik hökuməti də o zaman qət etmişdi ki, pul da buraxsın. Bir də səbəbini bir növ göstərib deyir ki, poçta teleqraf idarəsi Bakıda bir mərkəzdə deyil şəhərin bir neçə yerindədir. İstədikləri odur ki, 5 yataqlıq azarxana olsun və ona lazım olan maiehtiyac və əmələcat olsun. Bunun üçün 15 min manat para istəyirlər. Yomiyyə məxarici üçün ayda 10 min 800 rüblə və [658 - 659] həkim üçün evlərdə olan xəstələrə baxmaq məxarici, xərcin cümlətani 31.800 rüblə. O ki, qaldı həkimlərin, feldşerlərin və qulluqçuların məvacibləri, layihəyə görə poçta-teleqraf

təşkilatında artıq məmurlar varmış. O artıq məmurların məvaciblərinə həkim, feldşer və qulluqçuları gətirmək olarmış. Bu səbəbləri göstərib poçta-teleqraf nəzarətini məcbur edirlər ki, poçta-teleqraf nəzarətində belə bir təşkilat vücuda gətirilsin. Büdcə-maliyyə komissiyası bu layihəyə baxıb bu səbəblərin heç birini əhəmiyyətli bilmədi. Əvvəlinci səbəb guya Bakıda xəstəxana azmış. Lakin təşkilata bələd olan Bakı şəhərində olan xəstəxana və müalicəxana az şəhərdə var. Bakı 10 uçastokdan ibarətdir ki, hər bir uçastokda bir həkim və ambulatoriya vardır. Burada hər kəs üçün lazımi davacat buraxırlar. Hər kəs gəlib həkimi evinə də apara bilər. Mümkünü olmayan həkimin yanına gedib ondan istifadə edə bilir. Başqa şəhərlərdə isə Bakıda olan qədər xəstəxana yoxdur ki, hər uçastokda bir xəstəxana olsun və bunlardan başqa məsiri xəstəxanalar olsun. Və hər kəs də ondan istifadə etsin. Bir səbəb də göstərilir ki, poçta-teleqraf təşkilatları şəhərin cürbəcür yerlərindədir, onun üçün mərkəzdə bir xəstəxana əmələ gətirilsin. Bir halda ki, şəhərin hər uçastokunda müalicə etmək olar, poçta-teleqraf məmurları isə mərkəzdə olmayıb, hərə şəhərin bir yerində olur və xəstələrin müalicəyə istifadələri üçün mərkəzə gəlməyə ehtiyac yoxdur, ona görə maliyyə-büdcə komissiyası mərkəzə bir xəstəxana əmələ gətirilməsi səbəbini də əhəmiyyətli bilməyib rədd edir. Səbəblərin biri də budur ki, qışda şəhərdə mosri xəstəlik var edən bəlkə yayda da xolera və qeyri mosri xəstəliklər olsun. Ona görə mərkəzi idarədə 5 yataqlı bir xəstəxana açılması təklif olunur. Lakin mərkəzi idarədə xəstəxana düzəltmək tibb nəzəri ilə düz deyil və nakövara bir işdir. Məlumdur ki, mosri xəstəliklərdən ötəri xəstəxana ayrı üsul ilə təşkil olunmalıdır. Elə xəstəxanalar şəhərin kənarında camaat az olan yerlərdə təşkil olunur. Bir idarə ki, oraya həmişə bir çox adam gəlir, gedir; onun yaxınlığında mosri xəstəxana yapılmaz. Maliyyə-büdcə komissiyası bunların hamısını mülahizə edib və şəhərin hər uçastokunda olan xəstəxana və müalicəxanalardan nəinki bir tək məmurlar, hətta əhali də [659 - 660] istifadə edə bildiyini nəzərə alıb, bu layihənin rədd edilməsini parlamentə təklif edir. Bir də maliyyə-büdcəsi bir şeyi nəzərə alır ki, məxaricimiz mədaxildən çoxdur. Bir halda ki, nəzarət deyir ki, artıq qulluqçu varmış ki, on-ların yerinə həkim və feldşer gətirmək olarmış, maliyyə-büdcə sı parlamentə təklif edir. Nəzarətə desin ki, o artıq qulluqçuları poçta-teleqraf idarəsindən kənar etsin ki, məxaricimiz az olsun.

**Rəis** - Layihə barəsində kim danışmaq istəyir? Söz Qara bəy Qarabəyovundur.

**Qarabəyov** ("İttihad") - Bakının görünür havası belədir ki, hər kəs orada xidmətə keçəndə belə iddialar meydana qoyur və belə təklif edir ki, və heç baxmır ki, bu istədiyi şeylər Azərbaycanın və Qafqazın qeyri yerlərində var ki, bura üçün də istənilsin. Bakı Rusiya şəhərlərinə nisbətlə səhiyyə işində geri deyil. Burada hər şey mümkündür. Burada hər cür dərmanxanalar, xəstəxanalar var. Tək bələdiyyənin hər uçastokda xəstəxanaları var. Hər poçtaxanaların yanında müalicəxana var. Mosri xəstəliklər üçün də xəstəxanalar var. 19-cu və 10-cu xəstəxanalar bu cümlədəndir. Bu ümuma görə o qədərdir ki, Azərbaycanın qeyri yerlərinə baxanda o məmurlar ki, öz evin-də xəstə üçün dərman deyil çörək tapmırlar; lakin Bakıda bir bu qədər azarxana var. Bunlar ola-ola bir də mərkəzdə bir xəstəxana açmaq təklifi naməqul qəbildəndir ki, bu da qəbul olunmaz. Bu əqilisəlim ilə müvafiq hərəkət deyildir. Bir də mərkəzdə sarı xəstəxana qoymaq ki, başqalarına sirayət etsin, bu qeyri məqbul bir təklifdir. Biz indi baxacağıq ki, Azərbaycanın başqa kasıbları üçün heç bir şey yanılmadığı halda onlar bir etiraz belə etmirlər. Bəlkə o mərkəzdəkilər təzə-təzə şeylər təklif edirlər. Bunın rəyinə bizim fraksiya da bütün-bütünə şərik olur.

**Rəis** - Artıq natiq olmadığından məsələni səsə qoyuram. (Rusca tərcümə edir). Hər kəs istər ki, hökumət tərəfindən təklif edilmiş layihə müzakirə edilsin, əlini qaldırsın. (Əllər qalxır). Kim bunun əleyhinədir? Əksəriyyət ilə layihə qəbul olunmur. Keçirəm, növbədəki məsələ səhhəti-ümumiyyə nəzarətinə 7 milyon 83 min 500 rubla buraxılması haqqında layiheyi-qanuniyyə. Məruzəçi Musa bəy Rəfiyevdir. [660 - 661]

**Musa bəy** - Möhtərəm məbuslar! Qışda mosri xəstəliklə, əlaxüsus, spanka və səpmə yatalaq (sıpnoi tif) cəmi məmləkəti tutub elə hala salmışdı ki, Ağdaş tərəfdə bir kəndin adını çəkirlər ki, o kənddə yalnız 5 yaşında bir qız salamat qalmışdır. Cəmi kənd bərbad olmuşdur. Bunun bir səbəbi iqtimamdan başqa həkim və davacatın olmadığıdır. Bu isə hamınıza məlumdur ki, xəstəlik nə dərəcədə cəmi məmləkəti tutmuşdu. Bu barədə parlamentdə danışılıb hökumətə təklif edilmişdi ki, tədbir görsün. O vaxt hökumət səhiyyə nazirinə bu iş tapşırmışdı. Səhiyyə nəzarəti bəyannaməsində belə görünür ki, yanvarın 22-dən o şeylə məşğul olmuşdur. Ancaq hökumət bu şərtlə pul buraxmışdı ki, nəzarət layihə düzəldib parlamentə təqdim etsin. Parlamentdən pul alandan sonra hökumətin pulunu geri qaytarsın. Parlamentə gələn layihə martda gəlmişdir. bu layihəyə baxıb çox qüsurlar gördü. Və onları nəzərə alaraq, sizə söyləyə bilərəm, heç məmləkətdə xəstəlik daha artıq şiddət edən zaman Bakının cürbəcür təşkilatları olduğu halda istənilən 7 milyondan, 2 milyondan bir az əksik bütün məmləkətdə xərc etmək istənilirdi, yerdəqalan 5 milyondan artığı isə tək Bakıda xərclənəcəkdi. Nəzarət, xəstəliklə mübarizə başlayanda özü üçün cürbəcür idarələr düzəldib ki, bunların bəziləri lazımsa da, fəqət, lazım olmayanları da vardır. Bunları nə üçün qayırmışdır məlum deyildir. Məsələn, Bələdiyyə idarəsində bir növbətçi bürosu düzəldib ki, hər kəs xəstə olarsa oraya bildirsin. Onun üçün də 5500 manat istənilmişdir. Səhiyyə vəsaiti nəqliyyəsi olmaq üzrə at, fayton və qeyri üçün 1 milyon 185 min manat. Təthirat dəstəsi təşkili, bir evdə xəstə olarsa, o evi təthir etmək üçün 520 min rüblə istənilir; sonra əhalilərdən ötrü müftə hamam üçün 400 min, paltar yumaq üçün 25 min manat, alt paltar hazır edib xəstəxanalara və sair yerlərə göndərməkdən ötəri 1 milyon manat məsarif göstərilirdi. Sonra camaata dezinfeksiya dərmanları, yəni xəstələrin şeylərini, paltarlarını təmiz

saxlayıb, bitlər ilə mübarizə üçün məsiri xəstəliklər, onların vasitəsilə olur, 100 min manat istənilir. Şəhər çox artıq zibil olmağına görə şəhəri təmizləməkdən ötəri 500 min rüblə istənilmişdir. Nəzarət acların arasında xəstəliklər [661 - 662] artdığını nəzərə alaraq bunun qabağını saxlamaq üçün ucuz aşxana, iaşə məntəqələri açmaqdan ötəri 300 min rüblə istəmişdir. Əhalinin arasında olan xəstəliklər ilə mübarizə etmək tədbirləri intişarı üçün 25 min rüblə. Bundan əlavə, xəstəliklər ilə mübarizə üçün mərəzxana təşkil edib qeyri şəhərlərə aparmaqdan ötəri 100 min rüblə istənilmişdir. Mosri xəstəxana az olmağına görə 10-cu xəstəxanada olan 600 yatağı 750 yataq etməkdən ötəri ona da 1 milyon 100 min manat istənilir. Yetimlər evində uşaq xəstəxanası olmadığından orada xəstəxana təşkil etməkdən ötəri 150 min manat istənilmişdi. Bu şeylərin hamısını Bakı şəhərində əmələ gətirmək üçün bir komitə təşkil ediblər ki, ona da Mosri xəstəliklərlə mübarizə komitəsi deyirlər. Bu komitə üçün də 54 min rüblə məvacib istəyiblər.

Bu söylədiyim 13 maddə hamısı Bakıda xəstəliklərlə mübarizə üçündür. Bunlardan keçəndən sonra məmləkətin sair yerlərində xəstəliklərlə mübarizə üçün uyezdlərə göndərməkdən ötəri 16 təbib, feldşer və lazımi qədər qulluqçuları ilə 16 səyyar dəstə təşkil etməyə 1 milyon 119 min rüblə, Gəncə şəhərində xəstəliklərlə mübarizə üçün 600 min rubla istənilirdi. Bu da ona görədi ki, indiyə qədər ancaq Bakı və ətrafında xəstəliklərlə mübarizə olmuşdur. Onlar işə başlayandan sonra biz bilirdik ki, Bakıdan başqa məmləkətin heç bir yerinə xəstəliklər ilə mübarizə üçün kömək göndərilməyib və heç bir şey edilməmişdir. Xəstəliklər ilə mübarizə üçün Qarabağa gərək gedə idi. Kömək edib ay yarım Gəncədə qalırdı, uyezdə getmişdi. Uyezdə də gedəndə bir kənddə oturururdu. Alınan xəbərlərə görə bununla əhaliyə lazımi kömək və yardım olmurdu. Bir də mosri xəstəliklər ilə mübarizə çəyirtkə ilə mübarizə etmək kimi deyildir. Uyezdə olan həkimlərin lazımi şeyləri və davacatı olmadığına görə gedib uyezddə otururlar fəqət, bir mənfəətləri olmur. Bu xəbərlər ilə bərabər nəzarətdən layihə də gəldi. Maliyyə-büdcə komissiyası bu layihəyə baxanda müavini-nazir doktor Qinds idi. Bu işlərin nə səbəbə bu halda olmasını ondan xəbər aldıq. Bakı şəhəri ki, orada hər bir şey vardır, həmişə bizim Azərbaycan və Qafqasiya kəndləri həkimdən korluq çəkibdir. Hər bir uyezdi bir həkim idarə edirmiş, [662 - 663] bir uyezdə yoxmuş ki, orada iki həkim olsun. Nə üçün buna indiyə qədər Bakı şəhəri fikir verməmişdir ki, belə olmuşdur. Elə kəndlər var ki, orada 40-50 faiz adam xəstəliklərdən tələf olmuşdur. Xəstəliklərlə mübarizənin bu cür üsulunu dəyişməyi qərar alıb söylədik ki, indiyə qədər xəstəliklərlə mübarizə üçün nə qədər pul xərcləndiyi barəsində hesabat versinlər. Bəlkə lazım gəlirsə, parlament pul buraxsın; xəstəliklərlə doğru mübarizə üçün ayrı yol tapsınlar. Məsələn, tif, spanka və bu cür xəstəliklərlə mübarizə olsun. Mümkündür ki, xolera, ishal xəstəlikləri də olsun. Çünki keçən illərdə olubdur. Tainki bu cür xəstəliklərin qabağını almaq, həqiqi mübarizə üçün təşkilat düzəlsin. Onlar indiyə qədər etdikləri xərclərin siyahısını təqdim ediblər; Sizə söyləyirəm.

Birinci maddədə növbətçi büroya 5500 manat pul buraxılmışdır. Bundan mayın 1-ə qədər 5720 manat xərclənmişdir. Xərclənmiş olan 220 manat artıq para, o da məvaciblərin artmağına görə artıq xərclənmişdir. Səhiyyə nəqliyyatına və təmirat dəstələrinə istənilən 1.7505.000 manatdan 880920 manat xərclənmişdir. Mayın 10-a qədər bu puldan 8.24.080 manat artıq qalmışdır. Camaat üçün məccani hamamlar açmaq niyyəti ilə istənilən 400.000 manatdan 100.000 rüblə. xərclənib. Mayın 10-a qədər 300.000 manat artıq qalmışdır. Camaatın paltarını yumaq üçün məccani camaşırxanaya 25.000 manat istənilmişdir, ki, bundan heç bir şey xərclənməmişdir. Üst və alt paltarı tədarükü üçün istənilən bir milyon 238803 rüblə xərclənib 762197 manatı qalmışdır. Əhaliyə məccani olaraq səhiyyə vəsaiti buraxmaq üçün istənilən 10000 manat xərclənməyib durur. Şəhəri təmizləməyə istənilən yarım milyon manatın hamısı mərkəzi komitəsinə - Sentrodum verilmişdir. Mərkəzi ev komitəsi bu pulun hamısını xərcləmişdir. Şəhərin də nə cür təmizliyi göz qabağındadır. Əhaliyə məccani xörək vermək üçün, iaşə məntəqələrinin artırmaq üçün istənilən 300 min manatdan 188 min manat xərclənib. 112 min manat qalmışdır. Maliyyə-büdcə komissiyası bu maddəyə baxanda belə tapdı ki, bu iş heç vaxt səhiyyə nəzarəti işi deyildir. Bunun üçün ümumi-xeyriyyə nəzarəti vardır, aşpazxanaları ümumi-xeyriyyə nəzarəti idarə etməlidir. Mosri xəstəliklərlə [663 - 664] mübarizə tədbirlərini camaat arasında nəşr edib, əhalini mübarizə yollarına bələd etmək üçün istənilən 25000 manat-dan 20150 manat xərclənib, 4850 manat qalmışdır. 10-cu mosri xəstəxanada 600 yatağı 750-yə çatdırmaq üçün istənilən bir milyon manatdan 805258 manat xərclənib, mayın 10-a qədər 294742 manat qalmışdır. Yetimlər evində xəstəxana açmaqdan ötəri istənilən 150 min manatdan 110 min manat xərclənib, 40 min manat qalmışdır. Bakı şəhərində mosri xəstəliklərlə mübarizə edən komissiyasının məvacibləri üçün 54 min manat buraxılmışdır. Məvaciblərin artdığına görə 62244 manat xərclənmişdir ki, bu surətlə 8294 manat artıq xərc olmuşdur. Səyyar dəstələr tərtib etmək üçün buraxılan bir milyon 119 min manatdan 670441 manat xərclənib, 448538 manat qalmışdır. Gəncə şəhərində mosri xəstəliklərlə mübarizə üçün buraxılan 600 min manat xərclənmişdir. Bu qədər üzrə buraxılmış 7 milyon 83 min 500 manatdan bu il mayın 10-a qədər 3 milyon 576.558 manat xərclənib, 3 milyon 506.942 manat qalmışdır.

Mosri xəstəliklərlə mübarizə üçün tərtib edilən təşkilatlardan bir neçələri davam edir. O da təhriyyat və səyyar dəstələrdir. Bunlar davam etməlidir. Çünki ola bilir ki, xəstəlik olsun.

Bu təşkilatlar üçün lazım olan araba, at keçənlərdə ucuz qiymətə alınmışdır. Bu təşkilatların qalmasını səhiyyə nəzarəti görür. Səhiyyə naziri təklif edir ki, bu təşkilatlar ya şəhər idarəsi ixtiyarına verilsin, yaxud

nəzarət özü saxlasın; taniki əhali bu təşkilatlardan istifadə etsin. Bir də 10-cu xəstəxanada 400 xəstə vardır ki, iyunun 10-dək burada saxlanılmalıdır. Xəstələrin orada artıq yatması lazım olursa, iyunun 10-dan sonra başqa xəstəxanalara göndəriləcəklərdir. Buna görə bu xəstəxananın hələliyə bir az xərci vardır. Səhiyyə naziri rica edir ki, indiyə qədər olan xərcləri parlament təsdiq etsin "və bir para təşkilatları təsviyə üçün və davam edən səyyar dəstələrin xərci üçün bir milyon para buraxılsın. Səhiyyə naziri deyirdi ki, 7 milyonun hamısı nazirin ixtiyarına verilsin. Amma sonradan komissiyanın təklifinə razı oldu. Maliyyə-büdcə komissiyası parlamentə təklif edir ki, indiyə qədər olunan xərclər təsdiq [664 - 665] edilsin və səhiyyə nazirinin ixtiyarına bir milyon para buraxılsın.

**Rəis** - Layihənin müzakirəsinə keçəlim. Söz Qara bəy Qarabəylinindir.

**Qara bəy Qarabəyli** - Həzəratın nəzəri-diqqətini bir daha bu rəqəmlərə cəlb edəcəyəm. Bu rəqəmlər doğru deyildir. Əvvəlinci baxışda bunlar xeyirli və yerli görünürlərsə də, lakin bunların batini bir dilləri var ki, bir çox şeylər deyirlər. Bu rəqəmləri ki, göstərirlər bunlara bəlkə açıq nəzərlə baxdıqda, bilmək olmaz. Bu qanun layihəsi ki, nəzarət tərəfindən buraya verilmişdir, bu nəzarət məhəlli bir idarə deyil, ümum vətən üçün bir idarədir, o iş elə ki, mübarizəyə başlayacaq, o bütün vətənimizə aiddir: kəndlərdə və şəhərlərdə yaşayan məxluqun dərdlərinə əlac etməli idi. Xəstəlik tək Bakıda deyildi, sonra bu rəqəmlər sizə göstərəcək ki, verilən pullar nəyə xərclənmişdir. Onları oxudular, bir də mən sizə göstərəcəyəm. Məsələn, növbətçi büro Bakı üçün; səhiyyə və təthirat dəstələri də Bakı üçün; xalq hamamları da Bakı üçün olub, bu yüz min rublələrdə ki, xərc olunub, qeyri məsul bir təşkilat əli ilə olmuşdur. Bu pul Sentrodoma verilmişdir. O da bir hamam açmış ki, sarı naxoşluqlar ilə mübarizə etsin. Lakin xəstəlik üçün orada ocaq açmamışlardır. Sonra camaşırxana, o da Bakı üçün, sonra köynək və tuman alınmış, bir milyon xərc olunmuşdur. Onun da qismi-küllüsü Bakı üçün. Dərman paylamağa 100 min rubla verilmişdir; o da Bakı üçün. Lakin o qalıb. Sonra şəhər təmizləmək üçün 500 min rubla verilmişdir. Bu pul da Sentrodoma verilmişdir ki, onu biz tanımırız. O da şəhərdən 6 araba qum çıxarmışdır. Bu pul da ora dostluq və aşinalıq yolu ilə verilmişdir. Şəhərdən hər nə zibil çıxıb isə bələdiyyə idarəsi çıxarıbdır. Bu beş yüz min manat havayı verilmişdir. Sonra iaşəməntəqələri üçün 300 min manat buraxılıb. Lakin bu puldan 188 min manat xərclənmişdir. Bu səhiyyə nəzarəti, bir də bizim ümumi-xeyriyyə nəzarətimiz var ki, bu iş onundur. Bu da cənab nazirin öz fikrindən irəli gəlmişdir. Bir də camaata xəstəlik barəsində paylanacaq elanlar üçün 25 min manat verilmişdir ki, bundan da xəbərimiz yoxdur. Sonra 10-cu xəstəxana üçün bir milyon verilmişdir. Bundan 800 min manat xərc olunmuşdur. Halbuki, o [665 - 666] vaxt şəhərin özünün .beş-altı yüz yataqlı xəstəxanası var idi. Sonra şəhər hökumətdən 2 milyon borc alıb, yenə beş-altı yüz yataqlıq xəstəxana açdı. Ondan başqa da şəhərin yenə xəstəxanaları var idi. Bakının xəstəxana cəhətindən işi pis deyildi. Azərbaycanın sair yerlərində xəstəlik buradan daha güclü idi. Kəndlər var ki, yarısı qırılıb: həftələr ilə meyitlər dəfn edilməmiş qalmışdır. Oraya heç bir müavinət edilmədi; heç bir şey göndərilmədi. Darülitam yanında uşaq xəstəxanası açmaq üçün 15 min rubla verilmişdir; Halbuki bələdiyyənin Bayılda uşaq xəstəxanası var. Orada boş yer də vardır. Bir də açdıqları yerdə 62 min manat xərcləmişlər, orada qulluq edənlərin çoxusu haman nəzarətin öz adamlarıdır. Onların biri doktor Smolenski, ikincisi Şərifovdur, üçüncüsünün adını bilmirəm. Orada qulluq edib, məvacib aldıqları halda, buradan da məvacib almışlardır. Bunların cümləsi tamamilə xəyanətdir ki, camaatın boğazından kəsib bunlara vermişlərdir. Bu xəyanətə - bir onun üçün dostluqda camaatın pulunu öz aralarında bölüşdürüb, havayı yerə yeddi milyon ver, filan milyon verə, biz razı olmarız. (Alqış. Sağ tərəfdən). Bu nəzarətin xadimləridir. Beş min, altı min nəzarətdən məvacib aldıqları halda, oradan da almışlardır. Gəncəyə sarı xəstəxana üçün 600 min rubla təsis edilib; lakin verilməmişdir. Çünki Gəncə Bakı deyil: o pul öz adamlarının cibinə girmir. Bu işlər hamısı mənə məlumdur. Bir doktor sifətilə komissiyada işlədiyim üçün bir qədər məlumatım var.

Burada Qindes müstəbidanə bir surətdə işləyir, öz istədiyini yapırdı. Rəqəmlər göstərildikdə, iki milyon beş yüz altı manat 60 qəpik də qeyd edilir. Milyonların içində qəpikləri də söylüyürlər. Bunlar başdanayağa xəyanətdir, oğurluqdur. Mən tələb edirəm, bir təhqiqat və istintaq təyin edilsin. Bu pulların nərəyə sərf edildiklərini təhqiq eləsin. Çünki mən onları xırsızlıq və xəyanətdə müttəhim edirəm. Millət məhv olmuş, yüz minlər ilə adam tələf olmuş, onlara bir parça da dərman göndərilməmiş, Bakıda hər nə qədər işlər görülmüşsə də onların bir o qədər əhəmiyyəti olmamışdır. Çünki hər nə iş görülüb, o da şəhər xəstəxanaları vasitəsilə olmuşdur. Mən bu xərcin beləliklə qəbul olunmasına tərəfdar deyiləm. İstintaq komissiyası bu işə baxmalıdır. Tədbirlər lazımdır [666 - 667] ittixaz etmək ki, bundan sonra veriləcək təxsisat Azərbaycanın hər yerində mütənasib bir surətdə təqsim edilsin, Bakıda xərcləndiyi qədər Göyçayda, Ağdaşda, Gəncə və sair yerdə xərclənməlidir. Bu qədər.

**Rəis** - Sırada natiq olmadığından son söz məruzəçinindir.

**Musa bəy Rəfiyev** - Bunu ərz etməliyəm ki, bu bina-güzarlıqlar əski hökumətin-səhiyyə naziri tərəfindən olmuşdur. Ancaq təzə səhiyyə naziri ya xəbər verdi ki, gələcəkdə xəstəliklərlə mübarizə üçün təzə bir üsul düzəlibdir ki, bu yaxınlarda təqdim edəcəkdir. Qara bəy söylədi ki, xəstəliklər ilə mübarizə üçün səhiyyə naziri ixtiyarına buraxılan paralar düz xərclənməyibdir. Paraların xərcləndiyi yerlər məlumdur. Növbətçi büro üçün (5500) manatdan büro üçün xərclənib və özü də ki, telefonçu üçün məvacib verilmişdir. Səhiyyə dəstəsinə 880920 manat pul xərclənmişdir. Bu puldan səhiyyə dəstəsi üçün 52 at, on fayton və qeyri lazımi şeylər

alınmışdır. Bu şeylərin hamısı durur, xərcləri və məvacibləri verilir. Bu xərclərin hamısının hesabları vardır. Sonra, doğrudur, əhali üçün məccani açılan hamamlar bir qədər düz olmamışdır. Lakin natiq söylədiyi kimi də deyilmiş. Guya sağ adam gəlib o hamamda çimib, xəstələnərmiş. Bunu ərz etməliyəm ki, haman hamama 100 min manat pul xərclənmişdir. hər gün həmən hamamda üç yüz dörd yüz adam çimmişdir. Əhali üçün məccani camaşirxana açmaqdan ötəri 25 min manat para buraxılmışdır. Bunlar heç xərclənməyib qalıb. Alt paltarı üçün buraxılan bir milyon manatdan dəxi (238803) manat xərclənmişdir ki, hesabı durur; bu paltarın bir qismi mövcuddur. Bu paltardan bir qədəri səhiyyə dəstələrinə verilibdir, 100 yataqlıq da Qarabağa göndərilibdir. Bura xəstəxanalarına verilib və hamamda füqaraya alt köynəyi paylanmışdır. Bunlar hamısı məlumdur. Hərgah təftiş olarsa, daha da artıq şeylər məlum olar. Şəhəri təmizlətmək üçün Sentrodoma yarım milyon para buraxılmışdır. Şəhəri təmizləyiblər, bu paranın hamısı da xərclənibdir. Əhaliyə məccani yemək verməkdən ötəri aşxanalarda 188 min manat pul xərclənmişdir. Bu pulun xərcləndiyi yer məlumdur. Xərclənməyinə də düz xərclənibdir. Biz də onu deyirik ki, bu iş səhiyyə nəzarətinin işi deyil; ümuri-xeyriyyə nəzarətinin işidir. Fəqət, pul xərclənib, yer də məlumlarda [667 - 668] 188 min manat pul xərclənmişdir. Bu pulun xərcləndiyi yer məlumdur. Xərclənməyinə də düz xərclənibdir. Biz də onu deyirik ki, bu iş səhiyyə nəzarətinin işi deyil; ümuri-xeyriyyə nəzarətinin işidir. Fəqət, pul xərclənib, yer də məlumdur. Xəstəxana ki, söylüyürəm bu günlərədək davam eləyibdir. Üç gün bundan qabaq aldığımız xəbərlərə görə həmən xəstəxanada 134 xəstə varmış. Bu gün (134)-ü olmasa da 125 xəstə vardır. hər xəstənin ayda yemək-içməyinə, həkim xərcinə 500-dən 800-dək xərci vardır. Söhbət uzundur. Əlbəttə, bu işləri təftişi etmək lazım gəlir. Fəqət, pullar xərclənibdir. Hamısınında yeri məlumdur. Təftiş olanda məhkəməyə cəlb edilərsə, iş aşkar olar. O vaxt biz onlara deyərik ki, bu pulları düz xərcləməmisiniz. Bunu da deyirəm ki, bu pulları parlament buraxmamışdır. Bu pullar borc təriqilə xərclənmişdir. İndi təklif edir ki, parlament nazir ixtiyarına mayın birinədək hesab vermək şərtilə, bir milyon para buraxılmasını təsdiq etsin. Tainki, nəzarət bir para işlərini təsviyə edib qalan təşkilatların da xərcin versin. Bunu ərz edirəm ki, məmləkətdə mosri xəstəliklərlə mübarizə üçün nəzarət dediyi kimi binakuzarlıqlar olur. Plan tökülür. Yaxın günlərdə, nəzarət tərəfindən təqdim ediləcəkdir. İndi isə komissiyanın rəyini qəbul etməyi rica edirəm.

**Rəis** - Səhiyyə nəzarəti sarı xəstəliklər ilə mübarizə üçün 7835 min manat pul istəmişdir. Bu pul hesabına hökümətdən 5 milyon borc sifəti ilə alıb xərcləmişdir. komissiyanın bu barədə rəyini eşitdiniz. "İttihad" fraksiyası tərəfindən belə bir təklif var. (Katib Əhməd bəy Pepinov təklifi oxuyur). Təklifin məzmunu budur ki, sərf olunan pulların nərəyə xərcləndiyini təhqiq etmək və cinayət işləyənləri təhti-məsuliyyətə almaq məqsədi ilə hökümət tərəfindən xüsusi bir istintaq sı təyin edilsin.

(Komissiyanın da qərarını oxuyur).

Komissiya, buraxılmış olan paraların təxsisini təsdiq edilməsi, hesab vermək şərti ilə mayın birinədək nazirin ixtiyarına bir milyon manat buraxılmasını təklif edir.

**Rəis** - Çünki bu iki təklif tamamən bir-birinə ziddir. "İttihad" fraksiyasının təklifini qəbul etmir. Ona görə əvvəlcə "İttihad"ın təklifini səsə qoyuram. (Firqə [668 - 669] tərəfindən vaqe olmuş təklifi oxuyur). Səsə qoyuram. (Rusca) hər kəs "İttihad" tərəfindən varid olmuş təklifi qəbul edirsə, əlini qaldırsın! 26 səs, kim bunun əleyhinədir? Kim səs verməyibdir? 17. Əksəriyyət rəylə hökumət tərəfindən bir istintaq komissiyanın təyini sərf olunan pulların nərəyə sərf edildiyini bilmək, cinayət yapanları təhti-məsuliyyətə almaq qərara alınır.

İndi nın təklifini səsə qoyuram. O ibarətdir bundan ki, 3.576.501 manat xərc qəbul olunub. İşləri bitirmək üçün bir milyon da buraxılıb. Hər kəs bu təklifi qəbul edirsə, əlini qaldırsın. Üzr istəyirəm. Əlinizi salmayasınız. Çünki yenidən əl qaldırırlar. Əksəriyyət rəy ilə komissiyanın təklifi qəbul olunur.

Növbəti məsələyə keçmədən 5 dəqiqəlik tənəffüs elan edirəm. Tənəffüsdən sonra hökumət rəisi hal-hazıra dair bəyanat verəcək.

Saat 1, dəqiqə 40.

**(Tənəffüsdən sonra).**

İclas saat 2-də təzələnir.

**Rəis** - İclas davam edir. Parlament müsaidə versə, növbəni bir az dəyişib, Rəisi-Vükəlanın vəziyyətimizə aid bəyanatını dinlədikdən sonra hökumətə verilən sualı növbəyə qoyub, ondan sonra başqa məsələlərin müzakirəsinə keçirik. Etiraz yoxdursa, qəbul olunur. Söz Rəisi-Vükəlanındır.

**Nəsib bəy Yusifbəyli** (Rəisi-Vükəla) - Möhtərəm məbuslar bir neçə gün bundan əvvəl sizə ərz elədim ki, Denikin nümayəndəsi tərəfindən rəsmi kağız aldıq. Bu rəsmi kağızı da sizə oxudum. Gördünüz ki, rəsmi kağızda istiqlalımızı tanıyırlar. Ancaq nə mən oxuyan zaman, nə də siz eşitdiyiniz zaman etibar etmədiniz. O kağız ki, yazmışdılar onun mürəkkəbi qurumamış bir kağız da gəlib ki, ərz eləmək istəyirəm. Oxuyandan sonra şübhəmizin nə qədər haqlı olduğunu bilərsiniz. Dünən belə bir kağız gəlmişdir: (Oxuyur).

"Azərbaycan Cümhuriyyətinin Heyəti-Vükəla Rəisinə. Surəti İngiltərə komandanlığına və Qroznı-Petrovsk qrupu komandanlığına. Məsələ irəlidə Rusiyada təşkil olacaq Verxovnı vlast tərəfindən həllinə qədər Azərbaycanın istiqlalını münasib görür və tanıyır. Polkovnik Lazaryev."

Ruscasını istəsəniz oxuyum. O gün ərz etdiyim kimi bəlkə tərcüməsində səhv etmiş olam. (Məktubu rusca oxuyur).

(Səslər: "Heç vaxt Rusiya olmayaçaqdır").

Görürsünüz ki, bu kağız yeni kağızdır. (Səmədağa yerindən: "Elə özləri də kağızdır!")

Buradan görürsünüz ki, Rusiya təşkil olunana qədər bizim istiqlaliyyətimizi tanıyır və sizə təhlükə yoxdur deyir. Əgər bu da doğru olsa idi, buna inanmaq olsa idi, yenə bir şey idi. Məəttəəssüf, bu da kağızdır. Bunun kağız olduğunu özləri tez vaxtda isbat elədilər. Bu kağız ilə Petrovskdən Lazaryevə və Şatalovretə teleqraf gəldi. Bu kağızları və teleqramları ərz edirəm ki, bunların da mənası yox imiş. (Oxuyur).

"Polkovnik Lazaryevə, surəti, Bakıda İngiltərə qüvayi-müsəlləhəsi komandanı polkovnik Şataeverta. Hərbi.

Cənubi Rusiya qüvayi-müsəlləhəsi baş komandanlığından işbu məzmunda teleqraf aldım. Azərbaycan Hökuməti Könüllü Ordu hissələrinin Dağıstana hərəkətindən təşvişə düşmüşdür. General Dartenko Petrovski Dərbəndin işğalı ilə kifayətlənib, irəliyə getməyəcəyi xüsusunda təminat vermişdir. Öz tərəfindən ordularımızın Zakatala-Qafqaziya dağları və Qızılburun xəttindən irəliyə getməyəcəyini təmin edirəm; əgər Azərbaycan hökuməti tərəfindən üzərimizə hücum olunmaz isə. Yekatirinodar, 18 may 1919 nömrə 7389, Petrovski nömrə 3621. Terski Dağıstan orduları komandanlığı. General ot kavalerii Erdeli".

Həmin bu məzmunda Erdelinin özündən Lazaryevə bir teleqraf var. Məzmunu bir olduğundan əlanına ehtiyac yoxdur, zənn edirəm. Əgər arzu olunarsa, keçən teleqrafın ruscasını oxuyum (teleqrafı rusca oxuyur). İkinci teleqraf budur (rusca oxuyur). Çünki bu teleqrafda bir işarə, bir namyok vardır ki, razılıq və saziş ilə təyin olunan xətt... təbii bu xətti guya bərtərəf ilə təyin etmişlər, bu barədə kimlər ilə isə razılıq əmələ gəlmişdir.

O tərəf də kim ola bilir. O tərəf də yəqindir ki, ingilislərdir. Bu teleqraflar mənə çatandan sonra təbiidir ki, [670 - 671] burada İngiltərə komandanlığı ilə görüşməyi özümə borc bildim. Məlumunuzdur ki, general (Quri) buradadır. General (Quri) Zaqafqaziyada olan müttəfiqlər qüvvələrinin baş komandanıdır. Dünən onunla və Şatolvertlə görüşdük. Teleqraflar onun qabağında idi, onlara da gəlmişdi. Qabaqca o söz açdı. Dedi, bu teleqraflardan xəbərdarımsınız? Cavab verdim ona ki, mənası məlumdur. soruşdu ki, nə tədbir görürsünüz. Əlbəttə ki, özgə bir cavab olmazdı. Əvvəlinci cavabı ona dedim ki, vətənimizi mühafizə edəcəyik. Buna görə hər bir tədbir görürük və görəcəyik. Söhbət çox uzun oldu. Hamısını təfsilən ərz eləməyi artıq bilirəm. Nəticəsində o mənə təminat verdi və dedi ki, bu dəqiqə bu teleqrafların mənasını öz tərəfimdən general Milinə xəbər verərəm. Müttəfiqlər komandanlığının Denikin ilə bu saziş barəsində dedi ki, heç bir saziş söhbəti ola bilməz və Denikin ilə xətt barəsində saziş olmaz və bir də general Denikin bu hərəkətinə general Quri pis nəzərlə baxır. Vətənimiz yolunda gördüyümüz təşəbbüsatımızı yersiz bilmir. Dikər tərəfdən deyir sizi təmin edərəm. Bakıya o tərəfdən, hücum olmaz. Çünki dəniz əlimizdədir. Deyir, əgər dava olarsa hüsnü-təvəccöhümüz sizin tərəfinizdədir. Əlbəttə, əgər Bakıda və Azərbaycanda bu münasibətlə talan və iğtişaş olmaz isə. (Soldan səslər: "Olmasa da özləri edərlər!"). Əlbəttə, cavab verdim ki, təbiidir, Bakıda, Azərbaycanda iğtişaş ola bilməz. Zatən Azərbaycan milləti isbat edib və edəcəkdir ki, rus milləti əleyhinə bizim tərəfdən fəna müamilə ola bilməz. Amma təbiidir ki, düşmən nümayəndələrinə istəsə də, rus millətinə fəna müamilədə bulunmaz. Əlbəttə, düşmən müəyyən olandan düşmən nümayəndələrindən xilas olmaq üçün lazımi təşəbbüs edəcəyiz, buna da General Qurinin razılığından başqa ayrı cavabı olmazdı. Demək neçə ki, görürsünüz bu surətlə ingilis nümayəndələri ilə əvvəlinci görüşdə Şotalvert ayrı bir növ, guya bitərəf qalmaq fikri var idi. Amma, axırıncı dəfə (Quri) tərəfindən təminat verildi ki, Azərbaycan hüdudlarını heç kəs keçə bilməz. Hətta deyir, hər kəs keçsə həbs edərik. Deməli, bu xüsusda təminat vermək istədi. Amma sözün doğrusu, təhlükəni biz özümüz gərək görək. Biz çox sözlər eşitmişik. Bu sözlərə böyük məna vermək olmaz. [671 - 672] İngiltərə kimi hür bir məmləkət nümayəndələri yalan söyləməzlər. Amma bəzən də söylədikləri şeylər üstündə dura bilmədiklərini aşkar edirlər. Biz görürük bizə çox vədlər verildi. Bizə dedilər ki, Dağıstan təhlükədə deyildir. Dağıstana kimsə hücum etməz. Denikin ancaq Petrovski baza olaraq tutacaq, Petrovskidən bu tərəfə keçməz. Vaxtilə bizə bu təminatı verdilər. Bununla bərabər Şatolvertin özülə dörüşüb bizə verdikləri təminatı dedim. Və bununla bərabər siz bu vədlərlə bizə mane oldunuz, ola bilərdi ki, sizin vədləriniz olmasaydı biz Dağıstana böyük kömək göndərərdik, daha bu gün Dağıstan məğlub və sərhədimiz təhdid altında olmazdı. Siz o vaxt vəd verdiniz, bunun nəticəsi nə oldu? Nəticədə Denikin Şimalı Qafqazı tutdu.

**Rəis** - Söz Əhməd Cövdət Pepinovundur.

**Əhməd Cövdət** - Möhtərəm məbuslar! Bu gün bəlkə Azərbaycan Cümhuriyyətinin ən az görülən tarixi bir günüdür ki, biz burada oturmuşuq və bu gün hökumət rəisinin söylədiklərini həpimiz qulaqlarımızı, gözlərimizi açıb bütün diqqətlə dinləyib, bütün mənasilə önümüzdəki vaqiəni dərk etmək istəyirik. Bu gün deyilən sözlər, bu gün çıxarılacaq qərarlar. Daha əvvəl, neçə ay, neçə həftələr bundan əvvəl deyilirdi. Fəqət, o qədər atəşin, həssas təsir ödəcək dərəcədə deyilki, necə ki, bu gün görürük. Rusiya inqilabı nəticəsində istibdad zülmündən qurtaran zəhmətkeşlər, çarizm zəncirindən xilas olan millətlər kəndi ixtiyarlarını əlinə aldıqları vaxt onların düşməni olan müstəbid qüvvələr ümidlərini bütün kəsməyib, yenə əski mövqelərini qaytarmaq niyyətindən vaz keçmirdi. Və yenə əski əsarəti və əski zəncirlərdən yaxasını yenicə qurtarmış millətlərin üzərinə salmağa hazırlaşırdı. Əski rus generalları dobrovol - Könüllü Ordu adilə gah Sibirdə, gah Kubanda, Donda birləşməyə

başladılar. Onlar yaxşı bilirdilər ki, Rusiya çarizmini yıxan Rusiya demokratiyasını üzmədikcə, istibdad öz zəncirlərini xırda millətlərin boynuna vuramiyacaqlar. Ona görə ən əvvəl işləri rus demokratiyasilə çarpışıb, bir neçə yerlərdə hakimiyyətlərini qura bilmişlərdir. Lakin, Rusiya demokratiyası əlində olan qüvvələr o qədər böyükdür ki, yerə sərilmiş generallar bir də o qüvvəyə qarşı dura bilməzlərdi. Fəqət, onların köməyinə Avropa imperialistləri, [672 - 673] Avropa yoldaşları qoşub onlara silah ilə, pay ilə yardım edirlər. Onlar bilirdilər ki, bu gün Rusiyada azad olanların göstərdikləri misallar bütün dünyaya keçəcəkdir. Hər yerdə zəhmətkeşlər, məhkum millətlər zülmündən qurtarmaq istəyəcəklər. Ona görə Avropa sərvətdarları, imperialistləri bütün öz silahlarını, toplarını, pullarını verib əsarətdən qurtaranları yenidən Rus generalları vasitəsilə zəncirə almaq və Rusiya istibdadını qurmağa çalışdılar. Bir neçə gün əvvəl məhkumiyyətdən qurtaran Azərbaycan xalqının hürriyyət və istiqlalının bir sənəliyini bayram etdik. Bu nümayişlər, teleqramlar göstərdi ki, bu duyğu könüllənmişdir, daha əsir olmaq istəmirlər, hür yaşamaq istəyirlər. Fəqət, əfəndilər! O qara qüvvələrin bütün məfkurələri hakim olmaqdır. O qara qüvvələr, qüvvətlənib, toplar, tüfənglər ilə cürətlənib aşağı gəlməkdədir. Birinci dəfə Gürcüstana hücum etdikdə, Gürcüstan xalqının qəti müqaviməti nəticəsində geri dönüb, zəif bir yer axtardılar ki, asanlıqla girsinlər. Ona görə Dağıstan tərəfi götürdülər. Və bu da göstərdi ki, onlar Dağıstanı seçməkdə haqlı imişlər. Çünki Dağıstan üzərinə kələn qara qüvvələrə Dağıstan hökuməti başında oturanlar tərəfindən müqavimət görülmədi. Bura gələn teleqramlar və nümayəndələr Dağıstan hökuməti başında oturan və Rusiya istibdadının əhyasına çalışan xainləri lənət ilə yad edirlər.

Əfəndilər! Artıq onlar bu gün bizim qapımızı döyüb, bizim üstümüzə gəlirlər. Bu gələn qara qüvvənin məfkurəsi yaman olduğuna görə bu kürsüdən dəfələrlə söylədik ki, bu gün müharibə Dağıstanda gedib, yarın bu müharibə bizim üzərimizə gələcəkdir. Bizim üçün təhlükə olduğunu bilirsək Dağıstanın yarımadığına qoşmaq, düşmən ilə orada çarpışmaq lazım idi. Lakin, məəttəəsüf, bir tərəfdən bizdə olan sustlik və səhlənkarlıq, digər tərəfdən İngiltərə komandanlığının sözləri və hiyləsi ki, Könüllü Ordu Petrovskidən bu tərəfə gəlməyəcəklər. Ancaq Petrovskini bolşeviklər ilə mübarizə üçün bilasülhərəkə olaraq tuturlar. Könüllü Orduya Dağıstanı tutmağa və Dağıstan xalqını yenidən zənciri-əsarət altına almağa imkan verdi. Dikər tərəfdən Zaqafqazsiya cümhuriyyətləri arasında birlik olmadı ki, əlbir olub bu qara qüvvələrə qarşı mübarizə etsinlər. Bu indiki oxunan teleqramlar əlbəttə, Könüllü Ordunun [673 - 674] məfkurəsi nəticəsidir. Bunlar aşkar bir işdir. Bu teleqraflar açıq-açığına, arsızcasına deyir ki, sizi də qəbul edəcək və sizə ağalıq eyləmək istəyirəm. Bununla bərabər İngiltərə komandanlığı təsəlli verir və deyir ki, təhlükə yoxdur və bizi mühafizə edəcəklər. Lakin bu günkü hal, bu teleqramlar göstərir ki, bizə özümüzdən başqa söykənəcək bir yer yoxdur. Millət gərək kəndinə söykənsin. Biz yaşamaq istəyirik. Və Avropadan, madam ki, Avropa demokratiyası hökuməti əlinə almamışdır, kömək gözləmirik. Biz özümüzə güvənməliyik və müqəddəratımız bir olan yanımızdakı qonşularımız ilə əlbir işləyə bilərik. Bir də əfəndilər! hər gah bu gün söylənilən sözlər yalnız söz deyildirsə, əgər mayın 28-də biz istiqlaliyyətimizin bir sənəlik bayramında olan nümayiş doğrudan da xalqın fikri, amalı və arzusu ilə Azərbaycan içərisində bir adam tapılmaz deməsin ki, biz həpimiz hökumət ilə bir o qara qüvvələr ilə mübarizəyə hazırız. (Sürəkli alqış).

Əgər millət istəsəydi, qurban verər idi. Əgər bu uğrunda biz can versək, onda hər yerdə üzümüz ağ və alnımız açıq olar. Biz haqqımızı müdafiə etmək üçün bu gün düşmənə müqavimət göstərməliyiz. Ola bilsin ki, məğlub da olaq. Olsaqda eybi yoxdur, gələcəkdə əfkarımız, tariximiz bizi yaxşılıqla yad edəcəkdir. Xanlıq zamanında bir gəncəli Cavad xanın öz istiqlaliyyəti müdafiəsində göstərdiyi rəşadət və fədakarlığı tarix heç bir zaman unutmayacaq. Əgər biz də düşmənə müqabilə etsək, bir vaxt deyəcəklər ki, Azərbaycan yaşamaq istədi, lakin onu qoymadılar. Bu bizdən ötəri şərəfdir. Gələcəkdə tarixi-miz bununla başlayacaq.

Əcəba, bu xalqda yaşamaq qabiliyyəti yoxmu? Biz düşmənə təslimmi olacağız? hər bir fərdimiz və kişilərimiz bu fikirdədirlər ki, biz təni vahid kimi yuxarıdan gələn düşmənə bütün varlığımız ilə qarşı duracaq və çarpışmaya hazır olacağıq. Biz bu gün bu yolda qan tökəcək olursaq yarın, sabah bizim qapımızdan minlərlə mücahidlər meydana çıxacaq. Zülm ilə, istibdad ilə çarpışacaq Azərbaycan istəriz, həqt və hüququ onlar alacaqlar. (Alqış).

Əfəndilər! Rəisi-Vükəlanın oxuduğu teleqramlara nəzərinizi cəlb etsəniz görərsiniz ki, onların qəzetlərdə nəşr [674 - 675] edilməsi də istənilir. Bu bizi hədələməkdir. Bununla nə demək istəyirlər? Onlar camaatı qorxutmaq istəyirlər.

Əfəndilər! Bu kürsüdən siz dəfələrlə gördünüz ki, biz burada firqə mübarizələrində bulunduq. Hökuməti dəfələrlə tənqid etdik. Yanlış yolları göstərdik. Bizimlə bərabər fəhlə və kəndçilər içərisində də bu siyasi mübarizələr vardı, nə qədər ki, biz burada rahat otururuz daxili işlərimizdə mübarizə etmək olar, fəqət, vəxta ki, üzərimizə qara qüvvələr gəlir və düşmənlər bizi təhdid edirlər, düşmənlər burada nə kürsü qoyacaqlar və nə də parlament qoyacaqlar. Elə bir vaxtda bizim aramızda firqə mübarizəsi ola bilməz; firqəçiliyi boşlayıb, özümüzü müdafiə etmək üçün silaha sarılıb özümüzü, vətənimizi, sərhədlərimizi müdafiə üçün bilafərq məslək və silk sərhəddə qoşarız. (Alqış).

Əfəndilər! Düşmən nə ilə qüvvətlidir? Əgər biz bu gün açıq nəzərlə baxsaq görəriz ki, düşmən tərəfi-müqabillik məsləki ilə, özünü müdafiə etməsi ilə qüvvətlənir. Burada bir xalq var ki, kəndi-iradəsi ilə

müqəddaratını əlinə almış, öz hürriyyətini kimsəyə əlindən qapdırmaz. Bu gün biz üzümüzü Avropa demokratiyasına tutub ondan müavinət istəsək, o zaman Avropa deyər ki, millət vətən və istiqlaliyyət uğrunda nə yapdı, təhlükə qarşısında nə etdi? Əgər bir təhlükə varid olan kimi təslim olarsa o zaman deyəcəklər ki, bu istiqlaliyyəti bir kaç adam özü üçün istəyirdi, bütün millətin arzusu deyildi. Dağıstan iki yüz adama təslim oldusa, Azərbaycan onları o cür qəbul etməz. Onlar yanılırlar. Dağıstandakını Azərbaycanda kərə bilməzlər. Bu tarixi kündə bizim içəri-mizdə ayrılıq və nifaq ola bilməz. Bu gün Zaqafqasiyadakı qüvvətimizi azaltmayacaq. Denikinin qüvvəti məsləksizlikdən və acizlikdən irəli gəlir. Gürcü xalqı ilə bərabər gedərsək, bütün dünya demokratiyasını hüsnü-təvaccohü bizim tərəfimizdə olacaq, çünki haqq bizimdir. Bu gün Azərbaycanın hür yaşaması üçün imtahandan çıxarsaq, bütün cahan haqqımızı təslim etməyə məcbur olacaqdır.

İşdə bunlara istinadən əfəndilər, deyərdim ki, gələcəyimizə ümidlə və qəti ümidlə baxıram. Bütün varlığımızı toplayıb, qonşularımız ilə əlbir olub, zülm və istibdad qarşısına çıxarsaq, düşmən qüvvələri bizə heç bir şey edə bilməz, [675 - 676] yaşaması üçün imtahandan çıxarsaq, bütün cahan haqqımızı təslim etməyə məcbur olacaqdır.

İşdə bunlara istinadən əfəndilər, deyərdim ki, gələcəyimizə ümidlə və qəti ümidlə baxıram. Bütün varlığımızı toplayıb, qonşularımız ilə əlbir olub, zülm və istibdad qarşısına çıxarsaq, düşmən qüvvələri bizə heç bir şey edə bilməz, çünki "Zülmün topu var, gülləsi var, qəlyəsi varsa, haqqın da bükülməz qolu, dönməz üzü vardır..."

**Rəis** - Söz M. **Ə.** Rəsulzadənindir.

**Məmməd Əmin** (Alqışlar altında kürsü xitabəntə çıxır) -Möhtərəm məbus əfəndilər! Qara Denikin ordusunun kağızlarının nə mənada olduğunu və o kağızlar ilə nə demək istədiyini möhtərəm hökumət rəisi burada elan etdilər. Fəqət, mən sizə bir növ başqalarını əsirlik altında saxlamaqdan və əsirlərdən faydalanmaqdan, onlardan zövq almaqdan doymayan və keçmiş ovalıqlarının həsrətində qalan əfəndilərin xəyallarından bəhs edəcəyəm. Görünüz, bu əfəndilər nə təsəvvür edirlər və xırda millətlər ilə mübarizəni nasıl asan düşünürlər. Onlar elə xəyal edirlər ki, az qüvvə ilə istədiklərinə nail olarlar. Siz bilirsiniz ki, bizim üzərimizə gələn qara qüvvənin nümayəndələri Batumda oturublar və Batumda onların qəzetləri vardır. Biz burada hənuz mübarizəyə hazırlaşarkən onların qəzetəsi Bakını almış və parlamentimiz üzərinə rus bayrağını vurmuşdur. Qəzetə qarşımdadır. Yazır ki, Tiflisdən gələnlərin dediyinə görə Denikin ordusu gəlmiş, Bakını almış və rus bayrağını Parlament üzərinə sancmışdır. Denikin ordusunun Bakıya yavuzlaşmasını şəhərin bəzi inqilabi müəssisələri tərəfindən hazırlıqlı olmuş, müqavimət üçün təşəbbüs edilmiş, fəqət, müsəlman əhalisi müqavimət etmək istəməmişdir. Hökumət dostsuz olmuş, məəttəl qalmışdır, təşkilatların müqavimət etmək istəmələrinə yerli əhali mane olmuş, şəhərdə cüzi iğtişaş düşmüş, Denikin ordusu da bu iğtişaşdan istifadə edərək şəhərə daxil olmuş və Rus bayrağı dikəlmişdir. Hökumət bitərəf qaldığından ona əl vurmamışlar. İstəyirlər ki, ona, bunu imtiyaza versinlər. Məsələ bununla həll olub getmiş. Bu Batumda nəşr olunan Denikin qəzetəsinin fikri və təsəvvürü nəticəsidir. İştə onların xəyalı, əski Rusiya generalları yatanda yuxuda da rahat [676 - 677] ola bilmirlər. Necə ola bilir ki, onlar general ikən əl altında əsgər, ordu olsun, çəkmələrinin altını öpən bir millət olmasın. Onlar gəlirlər və zənn edirlər ki, çəkmələrini öpməyə hazır bir millət vardır. Lakin onu bilsinlər ki, artıq Azərbaycanda çəkmə öpən bir vətəndaş qalmamış. (Şiddətli alqışlar).

Əfəndilər! Onlar elə düşünürlər ki, kəndi hürriyyət, istiqlalını elan etmiş, bu yolda bütün məsul firqə və heyətlər namindən dəfələr ilə bu müqəddəs kürsüdən var qüvvəsilə, maliyyə, canilə hazır olduğunu və istiqlaliyyətini saxlayacağını elan edən bir millət, bir millət ki, mayın 28-də heç bir təhrik, təşviq olmadan, Bakı tarixində misli qeyd edilməmiş bir səmimiyyət ilə küçələrdə bayram edirdi. hətta bayırda az görünən çarşablı qadınlar da bu bayramı sevinc ilə qarşılamışlar və küçələrə çıxmışlardı. Belə bir milləti asanlıqla təhti hakimiyyətlərinə ala biləcəkdir. Buradan doğru söylədilər ki, dili xörəyə çatmış bir sənəlik nəvzad artıq süd yeməz. Bunlar boş söz, bihudə xəyal deyildi. Denikinlər və onun hampaları qalsınlar, öz xəyallarilə, zənn etsinlər ki, Azərbaycanda elə xain bir hökumət olur ki, düşmənə müqavimət etməsin; elə xain olsun ki, Denikin ilə mübarizə edənlərə mane olsun. Mən inanıram ki, mayis nümayiş həqiqi və səmimi bir nümayiş idi. Əgər qan tökmək lazım gələrsə, millət hazır olacaqdır. Çün, ola bilər ki, qan töküb müqavimət etməsə də yenə onun hürriyyətini alacaqlar. Təkrar onu zəlilanə bir surətdə əzəcəklər; o miskin olacaqdır. O, buna razı olmaz. Miskinliyi qəbul etməz. Hər bir təhlükəni nəzər alıb çarəni düşünür, səbat ilə meydanı mübarizəyə çıxar və məğrur bayrağımızı Azərbaycan sərhədində saxlar. Onlara isə, ancaq boş bir arzu qalır. (Sürəkli və ümumi alqış). Camaat! Əlbəttə biz bütün təhlükəni təsəvvür etmək ilə bərabər qətiyyən onu kiçitməməliyiz. Və elə baxmamalıyız ki, bu təhlükə asanlıqla rəf olar, keçər-gedər. Çünki düşməni zəif təsəvvür edən aldanar. hər kim ki, öz hürriyyətini və istiqlaliyyətini müdafiə etmək istərsə, tədbirli və ehtiyatlı olmalıdır. Ona görə camaat bütün sinifləri ilə hökumət ətrafında birləşsin və hökumətə desin ki, millətin istədiyi artıq aydın və müəyyəndir. Əgər hökumət də ayıqlıq olarsa, Batum qəzetəsinin xəyalına cüzi də olsa ümid verirsə desin ki, sən [677 - 678]. bu gün parlament hökumətə səlahiyyəti-kamilə verməlidir ki, öz arasından bir heyət təşkil edib ümumi səfərbərlik, şiddətli qanunlar və düşmənlər əleyhinə müharibə tədarükü görsün. Və sonradan hesabat vermək şərtilə xəzinədən lazım olduğu qədər para xərcləsin. Çünki bu gün Dərbənddə oturan və bizim istiqlaliyyətimizi gündə bir mənə ilə teleqramlar göndərib təhdid edən qüvvət, vaxtilə məşhur bir siyasiyyonun dediyi kimi

Azərbaycan həyatına döndərilmiş bir tapançadır. Nə qədər o tapança bizə tərəf tutulubsa, rahat oturamarız. O tapançaya qarşı bizim qalxanımız hazır və mühəyya olmalıdır. Keçən dəfə dedim ki, o tapançanın çaxmağına əl atılınca, biz hərəkətə, müdafiəyə gəlməliyiz. İndi biz görürüz ki, çaxmağa əl atırlar. Belə bir təhdidi görməmək üçün kor olmalıdır. Binən-ileyh, hazırlaşmalı və müəyyən qüvvətlər ilə sərhəddə qoşmalı və çaxmağa uzanan düşmən əli bir an biləyindən vurulmalıdır. (Alqış).

**Rəis** - Söz Ağamalı oğlu Səmədağanındır.

**Səmədağa** - Əfəndilər! Keçmiş natiqlər nəki lazım idi hamısını dedilər. Deyəsən 3-cüyə heç bir söz qalmadı. Elə mən gördüm, düşündüm ki, qalmadı. Amma bununla belə bir neçə vətəndaşa məsləhətim budur. Deməsəm ürəyimdə qalar, azar eylər. Onu deməliyəm ki, o səhvi, hansı ki, Dağıstanda Dağıstan generalları, ofiserləri, mollaları, lap Şeyxülislamları etdilər, yəni vətənlərini Denikinə satdılar, təslim etdilər. Rusiyaya yox, ha, Denikin Rusiya deyildir. Denikin Rusiyadan ayrı bir qaçaq quldurdur, dəstəbaşıdır. Znaçit satdılar. Deyirəm o səhvi etməsinlər. Mən bunu sübut da edəcəyəm. Denikin qədimi klas deyil ki, onunla yoldaş olalar. Bir də o adamlar ki, ümid edir, deyir keçmiş Rusiya tikilir, başa gələr, o səhvdir. Bunları deyəndən sonra yoldaşımız Əhməd və Məmməd Əminin dedikləri doğru olacaq. Mən istəyirəm bunu deyim və sübut eyləyə bilirəm ki, bu işlərə hamı yekdil Olacaq. Səhv düşünənlər də düşünəcək. Mən bunu bilirəm, yaxşı bilirəm. Mənim ümidimdir ki, Denikin nə oyandan bəri gələ bilər, nə də qan tökmək lazım olar! Amma bir balaca məsəl yadıma düşdü, onu deyim. Odur ki, deyirlər dəyirman öz bildiyini eylər, çax-çax başını ağrıdır. Eşitdinizmi? İş burasıdır ki, böyük Rusiya inqilabının hərəkətini qüvvətlənməyini başa düşmürlər. Denikinlər [678 - 679] çaxçaxa oxşayırlar. İş öz yerində gedir, amma o çaxçaxlar hədər baş ağrıdırlar. (Alqış). Bəli, nə dövr olsa qabağımızda çaxçax məsəli var. Əgər o məsələ diqqət ilə baxmamaq olmaz. Mən mətləbdən uzaq düşmək istəmirəm. Başlamışdım səhvləri düzəldəm. Mən deyirəm Rusiya inqilabı böyüyübdür. Bu inqilabı basa bilməyəcəklər. İngiltərənin, Fransanın köməyi azdır. Getdikcə də azalır. Rusiyada inqilab böyüyür və böyüyəcək də. Bu inqilab böyüdükcə Denikinin dalınca gələcəklər. Denikin biçarə qaçır bizə sarı. Namərdlikdir, qoyub qaçmaq olmaz. Qabaqlarda ərəblər qılınclarının qınını sındırıb davaya göndərmişlər. Arvadlar da kişilərin dalınca gedib çarşablarını qaçanların başına atarmışlar. İndi qorxuram bizim arvadlar da örpəklərini bizim başımıza atalar. (Şiddətli alqış). Mən əminəm ki, bizim aramızda olan sözlər ev davasıdır. Qıraq davası isə başqadır. Bizə deyirlər ki, gücümüz yoxdur. Öldürməyə gücümüz yoxdur. Ölməyə də yoxdur? Bizim öz aramızda bəzi məsələdə bəlkə ixtilaf var, amma özgəyə qarşı ixtilaf olmaz, olmamalıdır da. Mən bilirəm o adamlar ki, gəlir fikirləri hökumətə ağalıqdır, məqsədləri böyüklükdür. Biz buna inanırıq, biz bunu anlamışıq. Biz ki, mən özümü deyirəm, başqasını bilmirəm, bəlkə çox adam başa düşüb. Böyüklər deyiblər üç kərə imtahan lazımdır. Bizim qardaşlarımızı üçüncü kərə imtahan edəcəyiz. Bizə demokrat deyirlər. Mən özüm demokrat deyiləm, bilməm də demokrat nədir. Ancaq bilirəm ki, məzlumun haqqını alıb özünə vermək və onu müdafiə etmək demokratlikdir. (Səslər soldan: "Doğrudur! Doğrudur!")

Yaşasın Azərbaycan, yaşasın hökumətimiz! Yaşasın qara camaat ki, ata-baba yolu ilə kəfən boynunda qabağınızda gedib qan tökəcəyiz. (Alqış).

**Rəis** - Söz parlament üzvü Baqradzenindir.

**Baqradze** - rusca.

**Rəis** - Söz Əsədulla Əhmədzadənindir.

**Əsədulla Əhmədzadə** (bitərəf) - Cənab məbuslar! Mən ikinci kərədir ki, bu kürsüyə çıxıram. Hamı sizə deyir cənab məbuslar. Mən isə bu gün deyirəm, cənab qardaşlar! İş belə gəldi ki, hərçənd mən bitərəfəm və bizə bitərəf deyirlər, lakin ev davasında, eləki qıraqdan oğru gəldi və o vaxt bitərəf [679 - 680] zad olmaz. Biz hamımız qardaşıq. (Alqış). Bu əhvalatlar ki, olub keçib. Biz tarix oxumamışıqsa da, ata-babalarımızdan qalıb, bilirik və yaxında görməmişik ki, təhlükə zamanında can, mal, vətən, övlad yolunda ayrılıq olmaz. Martda bizi qıranda hamısını bir qardaş gördüm. İndi o zaman gəlib. Mən elə bilirəm ki, bizim qardaşlarımız olsun ki, Tiflisdə, bilmirəm, bəlkə səhv edirəm, Batumda istiqlaliyyət elan etdilər, bildilər ki, bunu asanlıqla verməyiblər və asanlıqla əldə saxlamaq olmayacaqdır. İndi əhvalat göz qabağındadır. Haman adamlar görəcəklər ki, ayrılıq yoxdur. Kişimiz, arvadımız öz namusundan ötəri bir olsunlar. Düşmənin qabağını saxlasınlar, bir-birinə havadar olsunlar. (Alqış). Bu vaxtacan bəzi adamlar evdə gizləniblər. Deyirlər pişiyi dara qısnasan, dönüb üzünü cırmaqlar. İndi bizi dara qısnayırlar. Daha yer yox-dur, çarə yoxdur. Ona görə hamı gedəcəkdir. Biz gərək ordumuz üçün məşq qoyaq. Bu cür əhvalatlar bir deyil, çox olacaq. (Səslər "Doğrudur!"). Bu istiqlaliyyəti bizə havayı verməyəcəklər. Bizim hökumət bilsin ki, o adamlar ki, millət vəkil edib göndərib, onların irs-namus pis yaxşısı onların boynundadır. Onlar da gərək bir komandir, bir gəmi losmanı kimi aparsınlar ki, rahib-nicata çıxsınlar. Ümid varam ki, apararlar da. Komandirə pul verirlər, zimovkada yatır, lakin onun yaşıllığı və işi təlatüm günündədir. İşki buraya çatıb, burada əyləşib, burada qoyub qaçmaq, orada-burada özü üçün dayaq tapmaq istəyir. O məqsədi ilə də buraya gəlir. Siz buradan güc də versəniz o qüvvə dabanbasma yenə gəlib Denikini tapacaq. Amma iş buradadır ki, biz gərək istiqlalımızı saxlayaq. Biz deyəndə bir tək biz deyil, gürcü, erməni demokratiyası və hamı istiqlaliyyəti müdafiə etməlidir. İstiqlaliyyəti saxlamaqa, deyirəm, əvvəla Rusiya inqilabı köməkdir. İkinci biz istiqlaliyyəti saxlamasaq, yoldaşlar Moskvadan gəlib istiqlalımızı əlimizdən çıxmış

görsələr qorxuram onlar da tamahlanıb bu-radan çıxmasınlar. Znaçit hansı-hansı nəzərdən baxırsan istiqlal saxlanmalıdır. Rusiya inqilabı elə-belə gəlmək istəməsə də Denikinin səbəbinə bura gələcəkdir. Əgər sərhəddi saxlamasaq, o bolşevizmdən ki, qorxurlar, o bolşevizm gələr. Bu bolşevizm gəlib Denikini çıxaranda, mən zənn edirəm ki, başqa cür rəftar eləsin. Ümid edirlər Denikinə, amma bolşevizm bəlkə ondan yaxşı saxlar. Ona görə yadda saxlamalıdır ki, iki tərəfdən gərək Denikini vuraq. Onsuz da onlar döyüləcəklər. Biz də gərək qüvvətimiz ilə istiqlaliyyəti saxlayıb, buradan vuraq ki, o yoldaşlar oradan vuranda canı çıxar. Sonra o aradan çıxanda iki dost istiqlaliyyət öpüşər, birləşə bilər. Bu nəzər ilə yekdil olaraq dövlətlilər də kömək etsin. Bizim istiqlaliyyətimiz dinc yaşasın. Çünki onlar gəlsə, güman etmirəm ki, dövlətlilərin əlində bir şey qala. Onun üçün yekdil gedək, o yoldaşlar oradan, biz də buradan basaq, bu köpək aradan götürülsün. (Alqış!)

**Rəis** - Əfəndizadə Abdulla bəy.

**Abdulla bəy Əfəndizadə** - Möhtərəm əfəndilər! Səmədağa buyurduğu kimi əvvəlki natiqlər gözəl surətdə bizim hissimizi meydana gətirdilər. Artıq danışmağa yer qalmayıb. Mən yalnız bircə tərəfə sizin diqqətinizi cəlb etmək istəyirəm. Söz yoxdur ki, burada əyləşən zəvati-kəram buradakı sözləri eşidəndə qəlblərində bir hiss olunacaq. Lakin məncə, mən keçirdiyim hiss mənə aşinə hissdir. Keçmiş zamanlarda dərs oxuduğum vaxt imtahanlar verdikdə nə hiss keçirirdimsə, bu saat həmən hiss məndə var. Onda nə qədər özümə etibar edirdimsə və imtahan verəcəyimə inanırdımsa, o hiss bu dəqiqə məndə mövcuddur. Əfəndilər! Bu gün bizim üçün imtahan günüdür, həm də siyasi, böyük bir imtahan. Bu imtahandan çıxmaq, yəni o xoş saatları mən nəzərdə götürdüyüm kimi, siz də nəzərdə götürəsiniz. Bu gün elə imtahan günüdür ki, atanın əsl övladı, dostu ilə düşməni seçiləcəkdir. Bu gün həmən gündür ki, millətin xaini ilə dostu seçiləcək sözü ilə əməli tək digərinə müvafiq olmayan müvafiqlərin siması meydana çıxacaqdır.

Xoş bizim səadətimizə ki (xoşbəxt) millətlər sırasına keçib bu gün, bu saat, bu dəqiqə bizim əlimizə düşür ki, bütün cahan qarşısında öz istiqlalımızı saxlamağı elan ediriz. Bu gün o gündür ki, parlament kürsüsündən ümum cahana istiqlalımızın müdafiəsinə birinci qüvvəmizi atdığımızı bildiririk. Bu istiqlal, milli istiqlalımız nə qədər müqəddəsdirsə, bu gündən etibarən onun möhkəmlədilməsi üçün vuracağımız mıxlar da o qədər müqəddəsdir. Bizim bu iclasımızda iştirak edən bütün millət içərisində yaşayan siniflər bir vücud vahid kimi deyirlər ki, birləşəlim, yenidən üzərimə gələn düşmənlə [681 - 682] çarpışalım. hər kəsin ağzında bu söz işlənir. Ola bilər ki, başqa fikirlər də, firqə münaziələri ola, amma bu gün o kimi ixtilaflar meydanda yoxdur, hamının qəlbi birdir. Biz millət nümayəndələri və pişivərləri ən qabaqki cərgədə canımızı qurban etməyə hazır olmalı və sözümüz ilə əməlimiz bir-birinə müvafiq gəlməlidir. Doğrudur, millət istiqlal fikrini bizim vasitəmiz ilə meydana qoymuşdur. Biz də bu gün millətimiz ilə bahəm hökumətimiz də bizimlə bir yerdə, iş başında durub millətlə bahəm olmalıyız. O istibdadın, o zülmün son zamanlara qədər ən alçaq bir millət sırasında pərakəndə olduğumuz günlərin bir daha geri qaytarılmasına milli namusu olan, ismət və abrını gözləyən heç bir kəs yol verməz. Zəlalətli ömürdən şərəfli ölüm yaxşıdır. Beş gün qabaq ölüm, lakin mənim ruhumu rəhmətlə yad etsinlər. Yaxşılıq ilə millətimiz övladına haqq qazandıralım. Təki desinlər ki, biz vətəni mühafizə edən filan babaların övladıyız. (Alqışlar!) Biz gərək çalışaq ki, bu müqəddəs vətənimizdəki ətrafda olan düşmənə, hərəkət edən düşmənlərin gözü buradadır, fikirləri yalnız bizi əsarət altına almaq deyil, bizim sərvətimizi, haqqımızı, olan dövlətimizi əlimizdən almağa və bizi nökər edib çalışmaq istəyənlərə yakvicud olaraq qarşı çıxaq.

Bütün "Əhrar" fraksiyası buradakı natiqlərin hamısına iştirak edərək deyir ki, bu anadək biz demişdik ki, yaşasın Azərbaycan istiqlaliyyəti və millət; məhv olsun istiqlaliyyət və millət düşmənləri. Bu gün deyiriz ki, bu sözləri gərək qövldən fələ gətirək. Hər halda məqam gələndə söyləməliyiz ki, doğrudan doğruya kənardan gələn düşmənlə mübarizəyə girişməklə kifayət etməyib, bizim aramızda olan onun agentləri ilə mübarizə etməliyiz. Onlar bizim hər bir əhvalımıza vaqifdirlər. O qüvvələr gecə-gündüz buradan onlara xəbər aparırlar. Onların yollarını bağlamalıdır. Onlar millət içərisindən çıxarılmalıdır. Təki onlar bizim istiqlalımızı kəsə bilməsinlər.Məhv olsun millətin və vətənin həm daxilində, həm xaricdə olan düşməni.

**Rəis** - Çlen parlament Baqradze.

**Baqradze** - (rusca).

**Rəis** - Qara bəy Qarabəyov. [682 - 683]

**Qara bəy Qarabəyli** - Möhtərəm məbuslar! Sizin zehninizi yormaq istəməm. O barədəki çox danışdılar. Artıq söz vaxtı deyil, iş vaxtıdır. Rəisi-Vükəla da söylədi. Natiqlər də çox söylədilər, çox dedilər. Bizim firqəmizin nöqteyi-nəzərini buradan dəfələrlə söyləmişəm. Biz nəinki öz vətənimizdə, hətta nərədə bir müsəlman üzərinə hücum edilərsə, onun haqqını müdafiə etməyə təşəbbüs edəcəyik. Bu bizim bayrağımızda yazılıbdır. Əgər millət qərar verərsə ki öz istiqlalını müdafiə etsin, o gün qabaq cərgənizdə gedən bizim firqəni və ona istinad edənləri görərsiniz.

**Rəis** - Çlen parlament Malxazyan.

**Malxazyan** - (rusca).

**Rəis** - Natiqlərin sırası bitmiş, Divani-Rəyasətə varid olmuş təklifləri oxuyalım. (Əhməd Cövdətə). Oxuyunuz.

**Rəis** - Bu formula müştərikən "Müsavat", və "Sosialistlər" tərəfindən qəbul olunmuş formuladır. Başqa bir formula varmı? Yoxsa səsə qoyuram.

**Qara bəy** (yerindən) - Təshih var.

**Rəis** - Belə bir təshih varid olmuşdur. Heyət hökumət daxilindən gələn fraksiyalarda müzakirə edildikdən sonra göstərilən üsul ilə qəbul olunsun. (Əhməd oxuyur).

**Məmməd Əmin** (yerindən) - Bu hökumət içində hökumət olar.

**Rəis** - Əvvəl təshihi səsə qoyuram. Sonra da təklifi səsə qoyacağam. Rezalyutsanın məzmunu belədir ki, mövcud hökumət daxilindən bir heyət seçilsin, təshihdə isə istənilir heyət hökumət daxilindən deyil, fraksiyaların göstərdiyi üsul ilə seçilsin. Hər kəs bu təshihi qəbul edirsə, əlini qaldırsın. Kim bunun əleyhinədir? Kim səs verməyib? Ləhinə 18, əleyhinə 33, səs verməyən bir. Əksəriyyət ilə təshih qəbul olunmayır. Formulanı səsə qoyuram. hər kəs formulanı qəbul edirsə, əlini qaldırsın. Kim əleyhinədir? Kim səs verməyibdir? Lehinə 36, əleyhinə 14**,** səs verməyən 3. Beləliklə formula əksəriyyətlə qəbul olunur. (Alqış!) Vaxt təng olduğundan bununla iclası qapayıram.

İclas qapanır saat 3, dəqiqə 55.

**Arxiv, f.895, siy.1, iş.94, vər.1-49.** [682 - 684]

## № 46

## Qırx altıncı iclas

*9 iyun 1919-cu il*

İclas 11.45 dəqiqədə açılır.

**Rəis** - Həsən bəy Ağayev. **Katib** - Mehdi bəy Hacınski.

**Rəis** - Parlamentin iclası açılır. Bugünkü yomiyeyi-müzakirat bu qərar ilədir:

1 - Bakı gömrükxana pud vergisinin artırılması haqqında layihə. Məruzəçi Rza bəy Ağazadə; 2 - Maliyyə nəzarətinin dində tövcü müfəttişliyi təşkili haqqında qanun layihəsi. Məruzəçi Rza bəy; 3-hökumət indidə xüsusi təftişat və təhqiqat komissiyası təşkili haqqında. Məruzəçi Şəfi bəy; 4 - Maarif naziri Həmid bəyin istefası haqqında. "İttihad"ın sorğusu; 5 - Məclisi-müəssisan intixabı haqqında layiheyi-qanuniyyənin ikinci qiraəti. Məmməd Əmin Rəsulzadə; 6 - Gəlir vergisindən azad olanlar və varidat miqdarı haqqında. Əmircanov; 7 - Maliyyə nəzarəti yanında gömrük şöbəsi təşkili. Əmircanov; 8-Yer tövcü vergilərinin artırılması ilə bərabər torpaq gəlir və məxaric smetasının 1919-cu sənə üçün təmdidi haqqında. Məruzəçi Rza bəy Ağabəyov.

Daxil olmuş kağızlar, o cümlədən:

a) Məhkəmə nizamnaməsinin 1462-ci maddəsi haqqında; b/Bəxşiş və rüşvət cəzaları haqqında; v) Azərbaycan tibbiyə və səhiyyə xidmətkar və nəzarətçilərinin haman yanvarın birindən maaşlarını artırmaq xüsusunda; q) Bakı gömrükxana ştatının təsdiqi haqqında; d) Azərbaycan sərhəd mühafizə bölüyü təşkili haqqında; e) Buxar qazanlarından xəzinəyə alınan vergilərin müvəqqəti artırılması haqqında; j) Fabrika müfəttişliyinə aid qəvaidin təbdili haqqında layihələr; z) Parlament üzvü Cəlil bəy Sultanovun çıxarılması; 9) Ləvayehi-qanuniyyə komissiyasına bir üzv intixabı.

Bu cür yomiyyi-müzakirata etiraz yoxsa, qəbul olunur. Daxil olmuş layihəyi-qanuniyyələr ləvayehi-qanuniyyə komissiyasına [684 - 685] gedir. Sultanov Cəlil bəy axırıncı dəfə mayın 8-də parlament iclasında olub, ondan sonra görülməyib və xəbər verməyib. Ona görə mayın 23-dən ixrac olunur. Ləvayəhi-qanuniyyə komissiyasına Mehdi bəy Hacınski təklif olunur. Vərəqələr paylanıb, rica edirəm, tənəffüsə kimi yazın verin.

Novbədə olan layihələrdən hökümət indində təftişat və təhqiqat komissiyası təşkili məsələsi hazır olmadığından təxirə salınır. Növbədəki məsələ Bakı gömrükxanasında pul vergisinin artırılması haqqında. Məruzəçi Rza bəy Ağabəyovdur.

**Rza bəy** - 1914-cü ilin qanunu üzrə Bakı portuna gələn mallardan pul vergisi alınırdı. Bu vergi də üç qisim idi. Birinci qisimdən 1/4 qəpik, ikincidən 1/2 qəpik, üçüncüdək 1 qəpik. Dava zamanı bu miqdar az görünüb 50 faiz artırılmışdır. Alınan verginin yarısı xəzinəyə, yarısı da bələdiyyə idarəsinə (gedirdi). Bələdiyyə də şəhər üçün xərc edirdi. Bu cür vergilər hər sənə artırdı. İndi Bakı portu üçün böyük xərclər lazım olduğunu nəzərə alaraq, nəzarət bu vergilərin miqdarını artırmağı təklif edir. Fəqət, başqa hökümətlər eylə zənn edirlər ki, tamojna artıb, başqa portlara gedirlər. Bunu nəzərə alaraq təklif olunur. 50 faiz deyil 5 faiz artırılsın.

**Rəis** - Daha danışmaq istəyən yoxdur? Keçirəm maddələrin müzakirəsinə. Layiheyi-qanuniyyənin 2-ci qiraətinə keçirəm. Etiraz yoxdur. Qəbul olunur. Oxuyunuz.

**Katib** - (Oxuyur).

**Rəis** - Əvvəlinci maddə xüsusunda kim danışmaq istər? Danışmaq istəyən yoxsa səsə qoyuram. Kim qəbul edirsə, rica edirəm, əlini qaldırsın. Əksəriyyətlə birinci maddə qəbul olunur.

**Katib** - (İkinci maddəni oxuyur).

**Rəis** - Danışmaq istəyən varmı? İkinci maddəni səsə qoyuram. Kim qəbul edirsə, əlini qaldırsın. İkinci maddə əksəriyyətlə qəbul olunur. Üçüncü maddəni oxuyunuz.

**Katib** - (Üçüncü maddəni oxuyur).

**Rəis** - 3-cü maddəni səsə qoyuram. Qəbul edən əlini qaldırsın. Üçüncü maddə əksəriyyətlə qəbul olunur. [685 - 686]

**Katib** - (Dördüncü maddəni oxuyur).

**Rəis** - Dördüncü maddəni səsə qoyuram. Qəbul edən əlini qaldırsın. Dördüncü maddə əksəriyyətlə qəbul olunur.

**Katib** - (Beşinci maddəni oxuyur).

**Rəis** - Beşinci maddəni səsə qoyuram. Kim qəbul edirsə, əlini qaldırsın. Beşinci maddə qəbul olunur.

**Katib** - (Altıncı maddəni oxuyur).

**Rəis** -Altıncı maddəni səsə qoyuram. Kim qəbul edirsə, əlini qaldırsın. Altıncı maddə qəbul olunur.

**Katib** - (Yeddinci maddəni oxuyur).

**Rəis** - Yeddinci maddəni səsə qoyuram. Kim qəbul edirsə, əlini qaldırsın. Yeddinci maddə əksəriyyətlə qəbul olunur. Beləliklə layihəyi-qanuniyyənin ikinci qiraəti bitir. Üçüncü qiraət gələn iclasa qalır.

Növbədəki məsələ maliyyə nəzarəti indində müfəttişlik təşkili haqqında layiheyi-qanuniyyədir. Məruzəçi Rza bəy Ağabəyov.

**Rza bəy** - Hökumət vergilərinin yığılmağı və o pulların vergiçilərin arasında bölünməsi podantial inspektorların vəzifəsidir. Bunları təftiş etmək kazyonnı palata öhdəsindədir. Onun vəzifəsi çox olduğundan müfəttişliyə vaxtı yoxdur. Buna görə köhnə zamanda maliyyə nəzarətində 9 müfəttiş təyin olunmuşdur. Bunlar lazım olan yerə göndərilirdi. İndi maliyyə nəzarəti onu mülahizə edib, maliyyə nəzarəti yanında bir müfəttişi təyin edib. Lazım olan təminnamə verilməsinə lüzum görmüş, binaən-ileyh, bu xüsusda bir layiheyi-qanuniyyə tərtib edərək parlamentə təqdim etmişdir. Komissiya bu təklifə baxıb, qəbul eləmişdir. Komissiya belə mülahizə etdi ki, bu saat bizdə hazırlanmış adam yoxdur ki, onların üstündə nəzarətçi olsun, onlara baxsın. Buna görə deməli parlamentə təklif edir ki, qəbul etsin. Bu müfəttişin də idarəsi olmayıb tək özü olacaq, maaşı da ildə 20 min manatdır.

**Rəis** - Ümumiyyət üzrə bu barədə kim danışmaq istərdi? Yoxsa layihənin ikinci qiraətinə keçirəm. Buna etiraz yoxmu? (Rusca). Oxuyunuz.

**Katib** - (Oxuyur).

**Rəis** - Birinci maddə xüsusunda kim danışmaq istərdi? Yoxsa birinci maddəni səsə qoyuram. Kim qəbul edirsə, əlini qaldırsın. Əvvəlinci maddə qəbul olunur. [686 - 687]

**Katib -** (2-ci maddəni oxuyur).

**Rəis** (Mehdibəyov Heybətquluya) - Rica edirəm getməyəsiniz.

**Heybətqulu** - Gəlirəm.

**Rəis** - Rica edirəm getməyəsiniz. Səsə qoyuram. Kvorum olmur. 2-ci maddəni səsə qoyuram. Kim qəbul edirsə, əlini qaldırsın. Əksəriyyətlə qəbul olunur.

**Katib -** 3-cü maddəni oxuyur.

**Rəis -** 3-cü maddəni səsə qoyuram. Üçüncü maddəni kim qəbul edirsə, əlini qaldırsın. 3-cü maddə əksəriyyətlə qəbul edilir.

**Katib -** 4-cü maddəni oxuyur.

**Rəis -** 4-cü maddəni səsə qoyuram, kim qəbul edirsə, əlini qaldırsın. Əksəriyyətlə qəbul olunur.

Beləliklə layiheyi-qanuniyyə qəbul olunur. Layihənin 3-cü qiraəti qalır gələn iclasa.

**Katib** - Layihənin ikinci fəsli də var.

**Rəis** - Oxuyunuz.

**Katib -** 2-ci fəsli oxuyur.

**Rəis -** 2-ci fəsli səsə qoyuram. Kim 2-ci fəsli qəbul edirsə, əlini qaldırsın. Əksəriyyətlə qəbul olunur. 3-cü qiraəti qalır gələcək iclasa.

Növbədəki məsələ "İttihad" fraksiyasının sualıdır.

**Katib** - Oxuyur.

"İttihad" fraksiyasının hökumətə sualı.

1-ci. İndiyə kimi maarif işləri müstəid, qabil və ümum mütəxəssislərin etimadı qazanmış adamların əlində olduğundan maarifə böyük ehtiyacı olan millətimizin bu yolda tərəqqi ediləcəyi təmin edilmiş kimi görünürdü. Aldığımız məlumata görə Həmid Şahtaxtinski və onun müavinləri A. Əmirov və F. Rzayev cənabları millətə xidmətdən çəkilmişlər və yaxud çəkilməyə məcbur olmuşlar. Millətimizin mənfəəti nöqteyi-nəzərindən bu adamların maarif işindən kənar edilməsini pak zərərli bir vaqiə kimi tərəqqi etdiyimizdən bu barədə Rəisi-Vükəla həzrətlərindən məlumat istəyiriz.

2-ci. Naxçıvan aclarına köndərilən doqquz yüz min rubləni hansı məqsədə irtikab edib, Tiflisdə tofiq. edilən əşyanın arasında təhriyyat əsnasında dövlət və millətimizə təcəvüz və mühüm sirr olaraq tutulmuş olan və keçmişdə dövlətimizə qarşı cinayətlər etmiş olan Rəşid İsmayılbəyov [688 - 689] işindən kənar edilməsini pak zərərli bir vaqiə kimi tərəqqi etdiyimizdən bu barədə Rəisi-Vükəla həzrətlərindən məlumat istəyiriz.

2-ci. Naxçıvan aclarına göndərilən doqquz yüz min rubləni hansı məqsədə irtikab edib, Tiflisdə tofiq edilən əşyanın arasında təhriyyat əsnasında dövlət və millətimizə təcəvüz və mühüm sirr olaraq tutulmuş olan və keçmişdə dövlətimizə qarşı cinayətlər etmiş olan Rəşid İsmayılbəyovun on min rubla rəhmi müqabilində buraxılıb şəhərdə sərbəst gəzdiyi hər kəski təəccüb və infialına movcib olur; nə üçün belə müzürr və fani hərif müstəhəqq olduğu müamiləyə məruz tutulmayır. "İttihad" firqəsi rəisi doktor Qara bəy Qarabəyli.

**Rəis** - Söz Qara bəy Qarabəylinindir.

**Qara bəy** - "İttihad" firqəsinin bu babda verdiyi sual ittila qəbilindən olan bir şeydir. hökumət işlərimizə bizim müdaxilə etməyimiz yersizdir. Lakin əfkari-ümumiyyə üzərində bunun böyük təsiri var. Şahtaxtinski və qeyrilərini tanıyanların möcib təcübünə görə ki, bu adamlar təmiz, pak bir mütəxəssisdirlər. Və maarif işlərində böyük məharətləri var. Ümum müəllimlərin və onu tanıyanların iş başından kənar olması təşvişinə mövcud olur. Yalnız buna görə təskin əfkari-ümumiyyə üçün bu barədə məlumat almaq istərdik. Qaldı ikinci sualımıza, o da yenə məxluqun bir dərəcə təşvişinə mövcud olan şeydir. Bir adamın ki, keçmişi sizə məlumdur, bilirsiniz ki, bir çox zərərli iş etmiş, keçmişdə İranda və rus qulluğunda olan zaman nə qədər xəyanətlər yapmış bu halda ki,

üzərimizə qara qüvvələr gəlir, belə bir zamanda eşitdiyimizə görə bu adam nəzarətdən vəsait götürüb getmiş və buradan aparılan paraları çalmış belə bir adamın azad gəzməsi və özünü göstərməsi onun məhkəməsi hala uzun çəkəcək. Necə olur ki, belə bir adama azadə gəzməyə icazə verilir. Vaxtaki bir adamın keçmişi məlumdur. Belə bir adamın asudə gəzməsi məqbul deyil, çünki bu hal camaata mənfi təsir edir. Biz xahiş edərdik ki, belə adamlar barəsində şiddətli tədbirlər olsun, camaat da görsün, onlara dərsi-ibrət olsun.

**Rəis** - Sual barəsində 5 üzvün imzası ilə bir təklif varid olub ki, sual tamamilə ruznamədən çıxarılsın. Bu xüsusda [688 - 689] iki şəxsə ləhinə, iki şəxsə əleyhinə söz verirəm. Kim lehinə danışmaq istərdi? Təklif götürülür. Söz Rəisi-Vükəlanındır.

**Nəsib bəy Yusifbəyli** - Möhtərəm məbus əfəndilər! Əlbəttə, özgə bir zaman olmuş olsaydı mənim çavabım bu olardı ki, məmur çıxarmaq öz vəzifəmdir. Məmur qəbulu və çıxarılmasına Məclisi-Məbusan o vaxt müdaxilə edərdi ki, məsələnin siyasi rəngi olmuş olaydı. Fəqət, yenə məal-məmnuniyyə cavab vermək istərdim. Bəlkə bir sədd var.

Məlumi alinizdir ki, bizdə on birə kimi nəzarətlərimiz vardır. Kiçik bir cümhuriyyət ikən bu qədər nəzarətlərə malik olmaq zərərdən başqa bir şey deyildir. Qonşu cümhuriyyətlər nəzarətlərin hamını azaldıblar. Ola bilsin ki, biz də gələcəkdə azaltdıq. Gürcülər bir neçə nəzarətləri birləşdirmiş və bu təriqlə işlərini asanlaşdırmışlardır. Bizdə bəzi nəzarətlər tək deyil, başqası ilə bir yerdə götürülmüşdür. O cümlədən ədyan nəzarəti maarif nəzarətinə verilmişdir. Bunlardan başqa meydanda məzbətə işləri var. Kağız işləri var. Bunlara da baxmaq, nəzarət etmək lazımdır. Əvvəldən belə idi ki, maarif naziri həm ədyan naziri, həm də məzbətələrə nəzarət edirdi. Bu işləri maarif nəzarətinə verməkdə məqsəd bu olmuşdur ki, ədyan nəzarəti məzbətə və kağız işlərinin məktəblər ilə və maarif ilə münasibət və əlaqələri vardır. Onlar da maarif nəzarəti ixtiyarındadır. Onu da bilirsiniz biz bir çox kitablar hazırlamaq, çap etdirmək məcburiyyətindəyiz. Bunu da kim yapa biləcək. Əlbəttə, maarif naziri, buna görə məzbətə və kağızların maarif nəzarəti ixtiyarında qalması lazım gəlir. Əlbəttə, bu işləri bir adam idarə etməlidir. Xüsusi ədyan nazirinə ehtiyac yox idi. Yeni hökumət təşkil olunandan sonra mən maarif nəzarəti başından çəkilməli oldum. Oraya Həmid bəyi maarif nəzarəti vəkili təyin etdik. Yəqin bir adam tapılmaz ki, mənim Həmid bəy ilə xüsusi sui-niyyətim olmuş olsun. Bunu bilirsiniz ki, onu ilk dəfə maarif nəzarəti müavinliyinə dəvət edəndə hər tərəfdən etirazlar var idi. Bunun aranızdakı məbusların çoxu da bilir. Yeddi ay bir yerdə xidmət etdik. Bir şey olmadı. Əgər bir şey olmuş olsaydı müavinim olan zaman çıxarardım. Əkər bir şey olmuş olsaydı, mən çıxarkən nəzarəti [689 - 690] də ona tapşırmazdım. Zənn edirəm, bu barədə heç şəkki-şübhə ola bilməz ki, Həmid bəyə böyük hörmətim vardır. Təbiidir, maarif-nəzarəti Həmid bəyin ixtiyarına keçəndən sonra məzbətə və kağız işləri və onlar ilə bərabər ədyan nəzarəti də onun ixtiyarına keçmiş oldu. O mənə dedi ki, bu işlər ona xoş gəlmir və ya bacarmır. Mən dedim ki, hələ bu işlər orada qalmalıdır. Sən də bir doklad yaz, bəlkə dəyişdik. Mənim tövsiyələrimə rəğmən Həmid bəy bütün işləri başlı-başına buraxıb getdi. İş bu yerə gəldi ki, hamı bilavasitə mənə müraciət etməyə başladılar. O zaman da zabastovka işləri ilə məşğul idik. Rəislik, daxili işləri az deyil. Ona görə məktəb, kağız, məzbətə və qeyri maarif işlərindən ötəri mənə müraciət edənləri qəbul etmək mümkün olmurdu. Əgər onlar ilə iştiğal etsə idim dövlət işləri axsardı. Telefonla mən dedim bu dövlət işidir, gərək doklad vərəsən, baxılsın, müzakirə edilsin. Məətəssüf, cavabında bir nazirə yaraşmayan bir lisan ilə dedi ki, heç istəmirəm. Mən də məcbur oldum dedim ki, ya gərək işləyəsən, ya yox. Bunun üzərində istefa verdi. Hökumət qəbul etməmiş iş başından çəkildi. Fəqət, burasını bilirsiniz ki, hər şeyin bir qaydası vardır. İstefa verən şəxs öz yerinə başqası gələnə qədər iş başında durmalıdır. Fəqət, Şahtaxtinski isə, deyil özü, bir-iki yoldaşları ilə bərabər nəzarətdən çəkilmişlərdir. Buna indi rusca sabotaj deyirlər. Bu hərəkət əlbəttə, münasib deyildir. Mən onların istefasını hökumətə təqdim etməmiş onlar iş başından çəkildilər.

Möhtərəm məbuslar! Nəzarət zarafat deyildir. (Bu o demək deyil) İstəyini edəsən; gedəndə gedəsən, işi də görməmiş; bu qərar ilə iş aparılarsa, işimizi qabağa getməz. İşə ciddi baxılmırdı; hərgah ciddi baxılsaydı bu iş yerə müncərr olmazdı. Əlbəttə, istefanı qəbul etməyə haqqımız yoxdur. Çünki hər kimin inadını, kefinə milləti tabe etmək olmaz. Fəqət, üsul və qaydaya riayət edilməlidir. İş başında olanlar arasında ehtiram olmalıdır. Ola bilər ki, Şahtaxtinskinin şəxsi məndən möhtərəmdir. Amma qulluqda mən rəisi-Vükəlayam, o nazir müavinidir. Mən tələb edirəm ki, ehtiram gözlənilsin. Əgər ehtiram olmazsa işimiz getməz. Millətin Rəisi-Vükəlası heç vaxt qəbul etməz [690 - 691] ki, onun haqqında ehtiramsızlıq edilsin. Birinci suala cavabım budur.

Şimdi keçəlim ikinci məsələyə: Rəşid bəy İsmayılov barəsində şəxsi fikrim məbuslara hamısına məlum olsa gərəkdir. Mən əskidən onun iş başında olmaması tərəfdarı idim. Yenə bir şey var ki, yalnız ortalıqda sui-zənn olur. Ola bilir ki, bu sui-zənn çox ciddidir. Bu qanun ola bilməz. Yəqin şeydir ki, bir adam daha fəna sui-zənn altındadır. Ac fəlakətzadələrin pulunu oğurlamaq töhmətlənir. Bu əhvalat Tiflisdə vaqe olduğuna görə beynəlmiləl bir hal kəsb edir. Bu işə Tiflisdə Gürcüstan məhkəməsi tərəfindən baxılır. Şimdi münasib olmaz ki, bu işdə biz Gürcüstan məhkəməsi işlərinə müdaxilə edək. Hərgah bu əhvalat burada olsa idi və bizim məhkəmə onu zaminə versəydi mən yenə cəsarət edib məhkəmənin işinə müdaxilə etməzdim və məhkəmə buraxdığı bir adamı tutdurmağa iqdam etməzdim. Tiflisdə Rəşid bəy İsmayılov məhkəməyə verilmişdir. Töhmət də çox böyükdür. Ehtimal var ki, bu işdən xilas olmasın. Hər halda bu ehtimaldır. Məhkəmənin qərarı bizə məlum olacaq. Doğrudur, İsmayılov buraya gəlmiş, iki gün burada qalıb getmişdir. Bu da Tiflis məhkəməsinin

müsaidəsi ilə olmuşdur. Qaldı əvraq barəsində, deyə bilərəm ki, İsmayılovun evi təhəri edilmişdir; məətəssüf, bir şey çıxmamışdır. Bir takım məktublar vardı. Bunun ilə bərabər İsmayılovun axırıncı cinayəti təsdiq olunarsa, güman edirəm Azərbaycan türkləri içindən çıxıb gedəcəkdir. Əlbəttə ki, biz Gürcüstan məhkəməsi işlərinə müdaxilə edə bilməzdik. Müdaxilə etsəydik bu münasib olmazdı. Məndə olan məlumat bu qədərdir.

**Rəis** - Qara bəy.

**Qara bəy** - Rəisi-Vükəlanın verdiyi izahat bizi qane etdiyindən bununla iktifa edirik.

**Rəis** - Hökumətə sual verən əfəndilər rəisin izahatı ilə iktifa etdiklərinə görə, növbədəki məsələnin müzakirəsinə keçirik. Növbədəki məsələ Məclisi-Müəssisan seçkiləri haqqında qanun layihəsinin 3-cü qiraətidir. Məruzəçi Məmməd Əmin Rəsulzadə. 3-cü bab.

**Katib** - (3-cü babın 9-cu maddəsini oxuyur). (Səslər).

**Rəis** - Əgər parlament yorulubsa, iclası bağlayaq. Hamı dağıldı.[691 - 692]

9-cu maddəni kim qəbul edirsə, əlini qaldırsın. 9-cu maddə əksəriyyətlə qəbul olunur.

**Katib** - 10-cu maddəni oxuyur.

**Rəis** - 10-cu maddəni səsə qoyuram, kim qəbul edirsə, əlini qaldırsın. Əksəriyyətlə qəbul olunur.

**Katib** - 11-ci maddəni oxuyur.

**Rəis** – İ1-ci maddəni səsə qoyuram, qəbul edənlər əlini qaldırsınlar. 11-ci maddə əksəriyyət rəy ilə qəbul olunur

**Katib** - 12-ci maddəni oxuyur.

**Rəis** - 12-ci maddəni səsə qoyuram, kim qəbul edirsə, əlini qaldırsın, 12-ci maddə əksəriyyətlə qəbul olunur.

**Katib** - 13-cü maddəni oxuyur.

**Rəis** - 13-cü maddəni səsə qoyuram, qəbul edənlər əlini qaldırsın. 13-cü maddə əksəriyyətlə qəbul olunur.

**Katib** - 14-cü maddəni oxuyur.

**Rəis** - 14-cü maddəni səsə qoyuram. (Səslər: Kvorum yoxdur). 14-cü maddəni səsə qoyuram, qəbul edənlər əlini qaldırsın. 14-cü maddə qəbul olunur.

**Katib** - 15-ci maddəni oxuyur.

**Rəis** - 15-ci maddəni qəbul edənlər əlini qaldırsın. 15-ci maddə qəbul olunur.

**Katib** - 16-cı maddəni oxuyur.

**Rəis** - 16-cı maddəni səsə qoyuram, qəbul edənlər əlini qal-dırsın. 16-cı maddə əksəriyyətlə qəbul olunur.

**Katib** - 17-ci maddəni oxuyur.

**Rəis** - 17-ci maddəni səsə qoyuram, qəbul edən əlini qaldırsın. 17-ci maddə əksəriyyətlə qəbul olunur. **Katib** - 18-ci maddəni oxuyur.

**Rəis** - 18-ci maddəni səsə qoyuram, kim qəbul edirsə, əlini qaldırsın. 18-ci maddə əksəriyyətlə qəbul olunur.

**Katib** - 19-cu maddəni oxuyur.

**Rəis** - 19-cu maddəni səsə qoyuram, kim qəbul edirsə, əlini qaldırsın. Əksəriyyətlə qəbul olunur.

**Katib** - 20-ci maddəni oxuyur.

**Rəis** - 20-ci maddəni səsə qoyuram, qəbul edənlər əlini qal-dırsın. 20-ci maddə əksəriyyət rəylə qəbul olunur.

**Katib** - 21-ci maddəni oxuyur.

**Rəis** - 21-ci maddəni səsə qoyuram. 21-ci maddə qəbul olunur... 5 dəqiqəlik tənəffüs elan olunur. [692 - 693]

**Tənəffüsdən sonra**

**Rəis** - İclas davam edir. Layihənin dördüncü fəslinə keçirik.

**Katib** - 4-cü fəslin 22-ci maddəsini oxuyur;

**Rəis** - 22-ci maddəni səsə qoyuram. Hər kəs qəbul edirsə əlini qaldırsın. (Əllər qalxır). Əksəriyyət ilə qəbul edilir.

**Katib** - 23-cü maddəni oxuyur;

**Rəis** - 23-cü maddəni səsə qoyuram. hər kəs 23-cü maddəni qəbul edirsə, əlini qaldırsın. (Əllər qalxır). Deməli, 23-cü maddə əksəriyyət ilə qəbul olunur.

**Katib** - 24-cü maddəni oxuyur.

**Rəis** - 24-cü maddəni səsə qoyuram. Hər kəs 24-cü maddəni qəbul edirsə, əlini qaldırsın. 24-cü maddə əksəriyyət ilə qəbul olunur.

**Katib** - 25-ci maddəni oxuyur.

**Rəis** - 25-ci maddəni səsə qoyuram, hər kəs qəbul edirsə, əlini qaldırsın. (Əllər qalxır). 25-ci maddə əksəriyyət ilə qəbul olunur.

**Katib** - 26-cı maddəni oxuyur.

**Rəis** - Hər kəs 26-cı maddəni qəbul edirsə, əlini qaldırsın. (Əllər qalxır). 26-cı maddə əksəriyyət ilə qəbul olunur.

**Katib** - 27-ci maddəni oxuyur.

**Rəis** - 27-ci maddəni səsə qoyuram. hər kəs qəbul edirsə, əlini qaldırsın. (Əllər qalxır). 27-ci maddə əksəriyyətlə qəbul olunur.

**Katib** - 28-ci maddəni oxuyur.

**Rəis** - 28-ci maddəni səsə qoyuram. Hər kəs qəbul edirsə, əlini qaldırsın. (Əllər qalxır). 28-ci maddə əksəriyyət səslə qəbul olunur.

**Katib** - 29-cu maddəni oxuyur.

**Rəis** - 29-cu maddəni səsə qoyuram. Hər kəs 29-cu maddəni qəbul edirsə, rica edirəm, əlini qaldırsın. (Əllər qalxır). Deməli, 29-cu maddə əksəriyyət ilə qəbul olunur.

**Rəis** - 2 hissədən ibarət olan 30-cu maddəni səsə qoyuram. hər kəs 30-cu maddəni qəbul edirsə, rica edirəm, əlini qaldırsın.

Deməli, 30-cu maddə əksəriyyət ilə qəbul olunur.

**Katib** - 31-ci maddəni oxuyur. [693 - 694]

**Rəis** - 31-ci maddəni səsə qoyuram, hər kəs qəbul edirsə, əlini qaldırsın. 31-ci maddə əksəriyyət ilə qəbul olunur.

**Katib** - 32-ci maddəni oxuyur.

**Rəis** - 32-ci maddəni səsə qoyuram, hər kəs qəbul edirsə, rica edirəm, əlini qaldırsın. (Əllər qalxır). 32-ci maddə əksəriyyətlə qəbul olunur.

**Katib** - 33-cü maddəni oxuyur.

**Rəis** - 33-cü maddəni səsə qoyuram. Hər kəs qəbul edirsə, əlini qaldırsın. (Əllər qalxır). Deməli, 33-cü maddə əksəriyyət ilə qəbul olunur.

**Katib** - 34-cü maddəni oxuyur.

**Rəis** - 34-cü maddəni səsə qoyuram. Hər kəs qəbul edirsə, əlini qaldırsın. (Əllər qalxır). 34-cü maddə əksəriyyət ilə qəbul olunur.

**Katib** - 35-ci maddəni oxuyur.

**Rəis** - 35-ci maddəni səsə qoyuram. Hər kəs qəbul edirsə, əlini qaldırsın. (Əllər qalxır). Deməli, 35-ci maddə əksəriyyət ilə qəbul olunur.

**Katib** - 36-cı maddəni oxuyur.

**Rəis** - 36-cı maddəni səsə qoyuram. hər kəs qəbul edirsə, əlini qaldırsın. (Əllər qalxır). Deməli, 36-cı maddə əksəriyyət ilə qəbul olunur.

**Katib** - 37-ci maddəni oxuyur.

**Rəis** - Hər kəs 37-ci maddəni qəbul edirsə, əlini qaldır-sın. (Əllər qalxır). Deməli, 37-ci maddə əksəriyyətlə qəbul olunur.

**Katib** - 38-ci maddəni oxuyur.

**Rəis** - 38-ci maddəni səsə qoyuram. Hər kəs qəbul edir, əlini qaldırsın. Əksəriyyət rəylə 38-ci maddə qəbul olunur.

**Katib** - 39-cu maddəni oxuyur.

**Rəis** - 39-cu maddəni səsə qoyuram. Qəbul edənlərdən rica edirəm, əlini qaldırsın. 39-cu maddə qəbul olunur.

**Katib** - 40-cı maddəni oxuyur.

**Rəis** - Məmməd Əmin Rəsulzadə.

**Məmməd Əmin** - Burada namizəd siyahıları haqqında bir əlavə vardır. Deməli, üç rəy var. Biri 100, biri 50 və 30.

**Rəis** - Səsə qoyuram. Əvvəl 30-dan başlayıram. Hər kəs 30 tərəfdarıdır, rica edirəm, əlini qaldırsın; Kim əleyhinədir? Kim səs verməyib? Əksəriyyətlə 30 qəbul olunmayır. 50-ni səsə qoyuram. Kim qəbul edir, əlini qaldırsın. Kim əleyhinədir? [694 - 695] Səs verməyən, 50-də qəbul olunmayır. Yüzü səsə qoyuram. Kim yüzü qəbul edirsə, əlini qaldırsın. Rica edirəm, sayasınız. Yüzü bir də səsə qoyuram. Kim lehinədir? Kim əleyhinədir? Lehinə 20, əleyhinə 17. Əksəriyyətlə qəbul olunur. (Səslər). Rica edirəm danışmayasınız. Maddəni səsə qoyuram. hər kəs layihəni təshih ilə qəbul edir, əlini qaldırsın. Kim əleyhinədir? Rica edirəm, iştirak edəsiniz. Lehinə 27, əleyhinə 13. Səs verməyən 4. Əksəriyyətlə qəbul olunur. 41-ci maddəni oxuyunuz.

**Katib** - 41-ci maddəni oxuyur.

**Rəis** - 41-ci maddəni səsə qoyuram. Qəbul edən rica edirəm, əlini qaldırsın. Əksəriyyət rəylə 41-ci maddə qəbul olunur.

**Katib** - 42-ci maddəni oxuyur.

**Rəis** - 42-ci maddəni səsə qoyuram. Kim qəbul edirsə, rica edirəm, əlini qaldırsın. Əksəriyyət rəylə 42-ci maddə qəbul olunur.

**Katib** - 43-cü maddəni oxuyur.

**Rəis** - 43-cü maddəni səsə qoyuram. 43-cü maddəni kim qəbul edirsə, əlini qaldırsın. Əksəriyyətlə qəbul olunur.

**Katib** - 44-cü maddəni oxuyur.

**Rəis** - 44-cü maddəni səsə qoyuram. Qəbul edən əlini qaldırsın. Qəbul olunur.

**Katib** - 45-ci maddəni oxuyur.

**Rəis** - 45-ci maddəni səsə qoyuram. Rica edirəm, qəbul edən əlini qaldırsın. Əksəriyyətlə qəbul olunur. **Katib** - 46-cı maddəni oxuyur.

**Rəis** - 46-cı maddəni səsə qoyuram. Qəbul edənlər rica edirəm, əlini qaldırsınlar. Əksəriyyətlə qəbul olunur.

**Katib** - 47-ci maddəni oxuyur.

**Rəis** - 47-ci maddəni səsə qoyuram. Qəbul edən əlini qaldır-sın. Əksəriyyətlə 47-ci maddə qəbul olunur. **Katib** - 48-ci maddəni oxuyur.

**Rəis** - 48-ci maddəni səsə qoyuram. Qəbul edən əlini qaldır-sın. 48-ci maddə əksəriyyətlə qəbul olunur. **Katib** - 49-cu maddəni oxuyur. [695 - 696]

**Rəis** - 49-cu maddəni qəbul edənlər əlini qaldırsın. 49-cu maddə qəbul olunur.

**Katib** - 50-ci maddəni oxuyur.

**Rəis** - 50-ci maddəni qəbul edənlər əlini qaldırsın. 50-ci maddə qəbul olunur.

**Katib** - 51-ci maddəni oxuyur.

**Rəis** - 51-ci maddəni səsə qoyuram. 51-ci maddə qəbul olunur.

**Katib** - 52-ci maddəni oxuyur.

**Rəis** -52-ci maddəni səsə qoyuram. Qəbul edən əlini qaldır-sın. Qəbul olunur.

**Katib** - 53-cü maddəni oxuyur.

**Rəis** - 53-cü maddəni qəbul edən əlini qaldırsın. 53-cü maddə əksəriyyətlə qəbul olunur.

**Katib** - 54-cü maddəni oxuyur.

**Rəis** - 54-cü maddəni səsə qoyuram. 54-cü maddəni qəbul edən əl qaldırsın. 54-cü maddə əksəriyyətlə qəbul olunur.

**Katib** - 55-ci maddəni oxuyur.

**Rəis** - 55-ci maddəni səsə qoyuram. Qəbul edən əlini qaldır-sın. 55-ci maddə qəbul olunur.

**Katib** - 56-cı maddə və iki qeydini də oxuyur.

**Rəis** - 56-cı maddənin iki qeydi dəxi var. Hər kəs 56-cı maddəni iki qeydi ilə bərabər qəbul edirsə, əlini qaldırsın. Qəbul olunur.

**Katib** - 57-ci maddəni oxuyur.

**Rəis** - 57-ci maddəni qəbul edənlər əl qaldırsın. 57-ci maddə qəbul olunur.

**Katib** - 58-ci maddəni oxuyur.

**Rəis** - 58-ci maddəni qeyd ilə bərabər səsə qoyuram. 58-ci maddə qeydlə bərabər qəbul olunur.

**Katib** - 59-cu maddəni oxuyur.

**Rəis** - 59-cu maddəni səsə qoyuram. Qəbul edənlər əl qaldır-sın. 59-cu maddə əksəriyyətlə qəbul odundu.

**Katib** - 60-cı maddəni oxuyur.

**Rəis** - 60-cı maddəni qəbul edənlər əl qaldırsın. 60-cı mad-də əksəriyyətlə qəbul olunur.

**Katib** - 61-ci maddəni oxuyur.

**Rəis** - 61-ci maddəni səsə qoyuram. hər kəs qəbul edirsə, əlini qaldırsın. 61-ci maddə əksəriyyətlə qəbul olunur.

**Katib** - 62-ci maddəni oxuyur.

**Rəis** - 62-ci maddəni səsə qoyuram. Hər kəs qəbul edirsə, əlini qaldırsın. 62-ci maddə əksəriyyət rəylə qəbul olunur.

**Katib** - 63-cü maddəni oxuyur.

**Rəis** - 63-cü maddəni səsə qoyuram. hər kəs qəbul edirsə, əlini qaldırsın. (Əllər qalxır). Deməli, 63-cü maddə əksəriyyət rəylə qəbul olunur.

**Katib** - 64-cü maddəni oxuyur.

**Rəis** - 64-cü maddəni səsə qoyuram. hər kəs qəbul edirsə, əlini qaldırsın. (Əllər qalxır). 64-cü maddə əksəriyyət rəylə qəbul olunur.

**Katib** - 65-ci maddəni oxuyur.

**Rəis** - 65-ci maddəni səsə qoyuram. Hər kəs qəbul edirsə, əlini qaldırsın. Deməli 65-ci maddə əksəriyyət rəylə qəbul olunur.

**Katib** - 66-cı maddəni oxuyur.

**Rəis** - 66-cı maddəni əlavəsi ilə səsə qoyuram. Hər kəs qəbul edirsə, əlini qaldırsın. Deməli, 66-cı maddə əksəriyyət rəylə qəbul olunur.

**Katib** - 67-ci maddəni oxuyur.

**Rəis** - 67-ci maddəni kim qəbul edirsə, əlini qaldırsın. Deməli 67-ci maddə əksəriyyət ilə qəbul olunur. **Katib** - 68-ci maddəni oxuyur.

**Rəis** - 68-ci maddəni səsə qoyuram. Qəbul edənlərdən rica edirəm, əlini qaldırsın. (Əllər qalxır). Deməli, 68-ci maddə əksəriyyət ilə qəbul olunur.

**Rəis** - Təklif var ki, vaxt gec olduğuna görə məclis qapansın. Səsə qoyuram. hər kəs məclisin qapanması tərəfdarı isə əlini qaldırsın. (Əllər qalxır). Kim bunun əleyhinədir. Lehinə 22, əleyhinə 14. Məclisi hələ qapamamışam. Rica edirəm, əyləşəsiniz. Seçki vərəqəsini verəsiniz. Vərəqələr verilir. 35 səs ilə Mehdi bəy Hacınski ləvayehi-qanuniyyə komissiyasına intixab olunur. Məclis qapanır.

**Arxiv, f.895, siy.1, iş.94, vər.53-66.**
[697 - 698]

**№ 47**

**Qırx yeddinci iclas**

*12 iyun 1919-cu il.*

**Rəis** - doktor Həsən bəy Ağayev.
**Katib** - Mehdi bəy Hacınski.
**Rəis** - İclası açdı, lakin siyahını — 42 üzv imza etdiyi halda iclasda — 34 nəfər üzv mövcud olduğu üzrə beş dəqiqə tənəffüs elan etdi: Tənəffüs vaxtı bitdi. Siyahını imza edənlərdən Əbilov İbrahim, Malxazyan, Çubaryan, Papyan, Ter-Azaryan, Balayans iclasda mövcud olmadıqları üzrə kvorum düzəlmədi və rəis iclası qapamağa məcbur oldu.

**Arxiv, f. 899, siy. 1, iş. 9, vər. 102.**

**№ 48**

**Qırx səkkizinci iclas**

*16 iyun 1919-cu il.*

**Rəis** - Həsən bəy Ağayev.

**Katib** - Əhməd Cövdət. İclas saat 12-15 dəqiqədə açılır.

**Rəis** - İclas açılır. Bugünkü yomiyeyi- müzakirat bu qərar ilə tərtib olunubdur:

1 - Bakı gömrükxana pud vergisinin artırılması haqqında layiheyi-qanuniyyə. Məruzəçi - Şəfi bəy Rüstəmbəyov; 2 — Maliyyə nəzarətində müfəttişlik məmuriyyətinin ehdası haqqında layiheyi-qanuniyyə. 3-cü qiraət. Məruzəçi Rza bəy Ağabəyzadə; 3 — Məclisi-Müəssisan seçkiləri haqqında layiheyi-qanuniyyə. 2-ci qiraət. Məruzəçi-Məmməd Əmin Rəsulzadə; 4 — Hökumət indidə xüsusi təftişat və təhqiqat komissiyasının təşkili haqqında layiheyi-qanuniyyə. Məruzəçi Şəfi bəy Rüstəmbəyov; 5 — Yer və tövcü vergilərinin artırılması ilə bərabər torpaq gəlir və məxaric smetasının və torpaq vergisi miqdarının 1919-cu sənə təmdidi haqqında. Məruzəçi — Rza bəy Ağabəyzadə; [698 - 699] 6 — Gəlir vergisindən azad olunan varidat miqdarının artırılması haqqında. Məruzəçi Əbdüləli bəy Əmircanov; 7 — Maliyyə nəzarətində gömrük vergisi şöbəsinin ehdası haqqında. Məruzəçi-Əbdüləli bəy Əmircanov; 8 — Maliyyə nazirinə ikinci müavin təyini haqqında layiheyi-qanuniyyə; 9 — Daxil olmuş kağızlar. O cümlədən:

a) əsgəri xidmətinin müddəti barəsində;

b) sinif məşğələsindən dolayı xidməti-əsgəriyyədən azad edilənlərin haqqında — layiheyi-qanuniyyə;* v) hüquq məhkəməsi nizamnaməsinin 91, 383, 525 ilə cəza məhkəməsi nizamnaməsinin 141, 834, 69, 238, 642, 114 və 323 fəsillərinin tağyir və təbdili haqqında qanun layihəsi; q) Şıxəlibəyovun ərzi-halı — "parlamentdən xaric olması haqqında"; d) erməni fraksiyasının daxiliyə nəzarətinə sualı — "kilsədə iyunun 11-də təhəri haqqında"; s) Parlament üzvü Baqradzenin ərzi-halı: "sosialistlər ittifaqına daxil olması" haqqında; j) 1919 sənə miladisi nəşri-cəza məhkəməsi Nizamnaməsinin 3-cü babına 99 fəslin ilhaq olacağı haqqında layiheyi-qanuniyyə; 2) Gürcüstan Cümhuriyyətindəki Azərbaycan siyasi nümayəndəliyi cünbündə təşkil ediləcək maliyyə nəzarəti agentliyi xüsusunda layiheyi-qanuniyyə; h) nazir müavinlərinə yeni maaş miqdarları tərtibi haqqında qanun layihəsi; y) Hacı Əhməd Nuruzadənin parlamentdən xaric olması; k) Sultanov Cəlil bəyin ərizəsi; k) Komissiyalara üzvlər intixabı.

Divani-Rəyasət təklif edərdi əvvəlcə daxil olmuş kağızlara baxılsın, sonra növbədəki məsələlər müzakirə edilsin. Etiraz yoxdur? Daxil olmuş layihələrdən əvvəlinci iki layihə hərbi komissiyaya gedir. Üçüncü layihə ləvayehi-qanuniyyə komissiyasına verilir. 7-ci layihə də ləvayehi-qanuniyyə komissiyasına, 8-ci də eyni ya göndərilir. Axırıncı layihə maliyyə-büdcə komissiyasına verilir. Parlament üzvü Vladimir Baqradze bu məzmunda bir kağız yazmışdır. (Oxuyur, "Sosialistlər" ittifaqına daxil olmasını xəbər verir). Asəf bəy Şıxəlibəyovdan belə bir kağız var. (Oxuyur). Öz istidasına görə parlamentdən xaric olur. Erməni fraksiyasının sualı [699 - 670] iclasın axırında e'lan olacaqdır. Sultanov Cəlil bəyin bir ərizəsi vardır. Ona keçmədən rica edirəm yarım saatdan sonra vərəqələr paylanacaqdır. O vərəqləri doldurasınız. Ko-missiyalar natamam olduğundan işləyə bilmirlər. həmin ko-missiyalara üzvlər intixab etmək lazımdır. Sonra rica edi-rəm, lar^ üzv intixab edəndə birisinin boynuna küc ilə qoymayın. hər kəs arzu etsə özü seçsin. Yoxsa, kücla seçi-ləndə, seçilib iclaslarına kəlmirlər. Bir də Diva-ni-Rəyasət tərəfindən borc bilirəm e'lan edim ki, mayın 24-dən iyunun 14-ə qədər 20 günün ərzində maliyyə büdcə komissi-yasının 10 iclası olmuşdur. Bu da 14 üzv vardır. 6 nəfəri yığılsa kvorum olur. 10 iclasdan 8-i baş tutur. Elə üzvlər var ki, iclasların çoxlarına kəlmirlər belə ki, (Məm-məd Əmin yerindən: Müsaidə veriniz, bu barədə danışmaq is-təyirəm), indi olmaz. İclasın axırında olar. Divani-Rəyasətə Sultanov Cəlil bəydən bir ərizə kəlib. Fikrinizdədir ki, ke-çən iclasdan e'lan edildi ki, Sultanov Cəlil bəy, nakaza körə, iki həftədən artıq iclasa kəlmədiyinə körə parlamentdən xa-ric olsun. Parlament qəbul etdi. İndi Cəlil bəy Tiflisdən kəlib. Divani-Rəyasətə bu məzmunda bir ərizə vermişdir. (Ka-tibə). Oxuyunuz.

**Katib** - (Cəlil bəy Sultanovun ərizəsini oxuyur).

**Rəis** - Bu xüsusda Divani-Rəyasət tərəfindən borc bilirəm söyləyim ki, Cəlil bəy Sultanov keçən ayın, mayın 11 -də, bir ərizə verib bildirmişdir ki, o, hökumət tərəfindən Tifli-sə, Zaqafqaziya konfransına müşavir sifətilə köndərilir. Ona körə Cəlil bəy 10 günlük məzuniyyət istəmişdir. Eyni məktubda Cəlil bəy bitərəf fraksiyasından çıxıb "Müsavat" fraksiyasına daxil olduğunu da bildirmişdir. Müsaidə versə-niz onun məktubunu oxuyaram. Məktub ruscadır. (Oxuyur).

Məktubun ikinci hissəsi ki, parlamentə aiddir, mayın 12-də vaqe olan iclasda e'lan edilmişdi. Mə'zuniyyət isə Divani-Rəyasətə aid olduğundan Divani-Rəyasət onu söyləməyi lazım bilmədi. Sultanov Cəlil bəy

* Azərbaycan Milli Şurasının 1920-ci il 20 noyabr tarixli iclasında qəbul edilmişdir.

parlamentdən ixrac olunana qədər Divani-Rəyasətin xəbəri yox idi ki, o orada işləyir. Hökumət də Divani-Rəyasətdən və parlamentdən bixəbər köndərmişdir. Divani-Rəyasət iki həftə gözlədi. Bir xəbər kəlmədi və qanunu pozmamaq üçün borc bildi ki, Sultanovun ixrac olmasını parlamentə söyləsin. Qanunca bir üzv məzuniyyəti qurtardıqdan [700 - 701] sonra iki həftə üzərindən xəbər verməsə, üzvlükdən xaric olur. Divani-Rəyasət qanununa müvafiq hərəkət etməsəydi, o vaxt parlamentin haqqı var idi Divani-Rəyasətdən soruşsun. İndi Cəlil bəy Sultanov özü bir kağız pişnihad edib. Xəlil bəy Xasməmmədov da təsdiq edir ki, Cəlil bəy iyunun 11-nə kimi Tiflisdə müşavir sifət ilə işləyibdir. Bir vəsiqə də hökumət tərəfindən Sultanova verilib ki, Tiflisə konfransa gedir. Yolda ona lazımi və qanuni müavinət olunsun. Sultanov yazır ki, mənim icraçımda Divani-Rəyasət tərəfindən səhv və nöqsan olmuşdur. Bunu demək istəyirəm ki, bu barədə — Divani-Rəyasət tərəfindən səhv və nöqsan olmamışdır. Fəqət, Sultanovun öz səhvidir ki, gərək xəbər verəydi konfransdayam və orada olmağım da lazımdır. Bu xüsusda parlamentin rəyini bilmək istədim. Müsaidə versəniz, müxtəsər söyləyim. Bəlkə düşünməyən oldu.

**Məmməd Əmin** (yerindən) - Düşünüldü. Müsaidə veriniz!

**Rəis** - Bu xüsusdamı?

**Məmməd Əmin** — Bəli!

**Rəis** - Buyurunuz! Söz Məmməd Əmin Rəsulzadənindir.

**Məmməd Əmin** - Mən istəmirəm, başqası danışsın.

**Rəis** - Behbud xan Cavanşir.

**Behbud xan** - Bizim məlumatımıza görə Tiflisə ticarətə getmişdir.

**Rəis** -Divani-Rəyasətdə elə məlumat yoxdur.

**Behbud xan** - Bizdə elə məlumat var. Bu barədə bizim əlimizdə sənədlər var. Onun surətini Məmməd Əminə və Qara bəyə vermişəm.

**Rəis** - Söz Məmməd Əmin Rəsulzadənindir.

**Məmməd Əmin** - Mən elə bilirdim ki, burada rəsmi bir məsələ var. Demə şəxsi məsələ də varmış. Bizim əlimizdə bir neçə sənədlər var. Onların birisi konfrans üzvü, möhtərəm Xəlil bəy Xasməmmədov tərəfindəndir; ikincisi hökumət tərəfindən bir vəsiqə var. Onlardan əlavə, Cəlil bəy Sultanovun özünün bir ərizəsi var. Üç vəsiqə olduğu halda ticarət ilə məşğul olan Behbud xan çənabları ticarətlə daha artıq əlaqədardır. Bu gün yalnız ticarət ilə məşğul olan bir məbusun Cəlil bəy Sultanov haqqında söylədiyi söz doğru da, səhv də ola bilər. Məclisi-Məbusanın qərarı sui-təftiş üzərində vaqe olmuşdur. Əgər o məlumat parlamentə düz verilmiş olsaydı, [701 - 702] əlbəttə, o vaxtda, başqa qərar verilərdi. Bu tənqidi edənlər bilməlidirlər ki, dünyada mövcud olan qanunlardan başqa bir də nəzəriyyəyi qanuniyyə vardır. Madam ki, Cəlil bəy Sultanov vəziyyətində olan məbuslar uzun müddət məclisdən ayrıldıqları halda zaman və məkan xaricində olaraq təkrar parlamentə qayıdırlar. Onlar haqqında tətbiq edilən qanun Cəlil bəyə də tətbiq olunmalıdır. Əgər edilməsə, bir növ ədalətsizlik olar. Məclisi-Məbusan bilərək və idrak edərək ədalətsizlik etməməlidir. Doğrudan da Vanseyeviç və qeyriləri kimi konfransa getmiş olanlar haqqında tətbiq etdiyimizi Sultanov haqqında etməsək, doğrudan da qəribə həqiqətə müğayir bir iş görmüş olarız.

**Rəis** - Söz Pepinovundur.

**Məmməd Əmin Rəsulzadə** ("Müsavat") - Möhtərəm məbuslar! Mənə elə gəlir ki, bu xüsusda heyəti-rəyasət tərəfindən eşitdiyimiz qərar, Cəlil bəy Sultanovun nə surətlə getdiyi haqqında ətraflı surətdə məlumatımızın olmadığından iəşət edib, o qaydaya təbbi ona riayət edilmişdir. Fəqət, bununla bərabər başqa deleqasiyalarımız də vardır ki, onlar müvəqqətən getmişlərdir. Parlamentlərdə bu barədə bir ənənə var: deleqatlar nakazın bu maddəsindən müstəsnadırlar. Parlamentimiz də bu ənənəyə müraciət edir. Bu şəkildə Parij konfransına gedən məbuslarımız habelə bu şəkildədir. Zaqafqaziya konfransına gedən Xəlil bəy, Fətəli xan və s. Cəlil bəy Sultanov haqqında elan fəqərə və qəbul olunan qərar bir sui-təftiş nəticəsi olmuşdur.

**Rəis** - Təklifə e'tiraz yoxsa... Əhməd bəy.

**Əhməd bəy Cövdət** - Məsələ haqqında sözüm yox. Parlament öz üzvlərinə məzuniyyət verər, dövləti işlərdən ötəri məzuniyyətə gedər, təkrar parlamentə qayıdar. Bu cür məsələləri həll etmək ki, bir həftə bundan irəli birisini parlamentdən ixrac etmişik, bu gün onu təkrar qəbul etmək parlament üçün gülünc bir iş olur.

**Məmməd Əmin** - Niçeqo podobnoqo. Əgər o parlamentin qanunlarını bilsəydi, 10 gün əvəzinə bir ay məzuniyyət istərdi. Necə ki, Vanseviç istəyibdir, yaxud bizə teleqrafla xəbər verərdi. Fəqət, burada bir səhv vaqe olubsa, bizim tərəfdən vaqe olmamış. Onun özündədir. Biz Sultanovun şəxsən əleyhinə deyilik. Ona başqa cür yanaşıla bilməz. Bu gün əlimizdə heç [702 - 703] bir dətaviz olmadığı halda qoyduğumuz qanunları pozmaq bizə lazım deyildir. Mən təklif edərdim parlament qoyduğu qanunlara riayət eləsin, təki camaat üçün nümunə olsun.

**Pepinov** - Əfəndilər! Mənim alış-verişlə işim yoxdur. Fəqət, Məmməd Əminin nəzərini yanlış.görürəm. Məmməd Əmin deyir ki, əgər Sultanovun konfransa getdiyini bilsəydik, izin verərdik və bir çox dövləti məsələlər var ki, hökumət Məclisi-Məbusana müraciət ilə lazım olan üzvlərin o məsələdə iştirak etmələri üçün məzuniyyət tələb edir, o da qəbul olunur, ya rədd olunur. Qaldı ki, Sultanov cənablarına hökumət bu barədə bizə

müraciət etməmiş, lakin Vanseviç haqqında etmişdir. Əgər müraciət etsəydi, iki həftə məzuniyyət qurtardıqda yenidən təkrar izin istəməliydi. Gərək biz özümüz qanun nöqteyi-nəzərində olaq, ona görə haqqımız yoxdur ki, qanunu geri götürək. Həmin qanun üzərində durub biz qanunsuzluq yapa bilmərik. O ədalətsizliyə aparar, o da qanunumuzda bir hissə düz deyil. Ya gərək qanunu dəyişək, ya hər kəs vəsiqə gətirsə, gərək qəbul olsun. Madam ki, qanun düzdür, biz onu qəbul etmirik.

**Rəis** - İki təklif vardır: müzakirə bitsin, sənədlər götürülsün. Etiraz yoxsa, qəbul olunsun. Mən səsə qoyacağam. Kim bunun əleyhinə və lehinə danışmaq istəyir.

**Rza bəy** (yerindən) - Mən istəyirəm.

**Rəis** - Ləhinə—əleyhinə?

**Rza bəy** - Əleyhinə.

**Rəis** - Buyurun.

**Rza bəy Ağazadə** - Məsələni belə kəsmək olmaz. Çünki məsələ ətraflı həll olunmayıbdır. Bir neçə söz dedilər ki, guya Cəlil bəy Sultanovun halı Zaqafqaziya konfransına gedən Xəlil bəy Xasməmmədovun və Fətəli Xanın halına bir deyildir. Mən deyərdim ki, xeyir Cəlil bəyin də halı onlar ilə bərabərdir...

**Rəis** (natiqi dayandırır) - Natiq əfəndi! Xeyir bir deyildir. Mən təsdiq edirəm ki, Cəlil bəyin halı ilə Fətəli Xanın və Xəlil bəyin halında oxşar yoxdur. **(Rəsulzadə Məmməd Əmin** (Yerindən "Xeyir tamamilə bərabərdir!"). Rica edirəm, mane olmayasınız. Xəlil bəy ilə Fətəli Xanın getməsindən Divani-Rəyasətin xəbəri olmuşdur. Amma Cəlil bəyin getməsindən Divani-Rəyasətin və parlamentin xəbəri olmayıbdır. hökumət ona təklif edib və deyiblər ki, konfrans iclası 1 [703 - 704] gün çəkəcəkdir. O da məzuniyyət alıb gedib. Məzuniyyət vaxtı bitdikdən sonra özündən xəbər verməmişdir. Səsə qoyuram. Kim müzakiratın bitməsinə tərəfdardır, rica edirəm, əlini qaldırsın. (Əllər qalxır). Ləhinə — 29; əleyhinə — 10; səs verməyən 3. Müzakirə bitir. Cəlil bəy Sultanovun istidasını səsə qoyuram. Hər kəs Cəlil bəyin istidasını qəbul edirsə...

**Aşurov** (yerindən) - Müsaidə veriniz.

**Rəis** - Söz Ağa Aşurovundur.

**Ağa Aşurov** - Təklif bu cür səsə qoyulmaz. Əvvəla görək parlament öz qətnaməsini geri götürür, ya yox? Ondan sonra gərək qəbul olunarsa, səsə qoymaq olar. Çünki bir qərar, bir zakon var. Onu aşkar etmək gərəkdir, görək əsas etibarilə rədd olunur, ya yox.

**Rəis** - Bunu söyləyirəm ki, bu barədə Sultanov ixracı barəsində parlamentin bir qərarı yoxdur. O qanun əsasilə (mexaniçeski) çıxmış olur. Qanundakını mən səsə qoya bilmərəm. Çünki istidasını da Divani-Rəyasətə yazdırıbdır. Ona görə qanunan mən onun istidasını səsə qoyuram. Söz Əhməd Cövdət Pepinovundur.

**Əhməd Cövdət** - Mən zənn edirəm ki, Aşurov doğrudur. Çünki əvvəl gərək parlament qanunu təğyir eyləməyə razıdır, ya yox. Razıdırsa, o vaxt bu təklifi qəbul etməyi təklif edirəm. Ondan sonra, səsə qoymaq olar.

**Rəis** - Söz Məmməd Əmin Rəsulzadənindir.

**Məmməd Əmin** - Bu təklif doğru deyildir. Çünki burada mübahisə ordadır ki, bu qanuni deyildir. Əgər ricanı qəbul edərsək, qanunən müvafiq olmaz. Biz demirik ki, qanun düz deyildir. Biz deyirik qanun doğru təfsin edilməyib, qanun sui-təfhim edilmişdir. Sədr və Divani-Rəyasət qanunu düşünmüşlər, qanun sui-təvil və sui-təfhim edilmişdir. Ona görə imdi qanunun sui-təfhim olub olmadığı barəsində söyləyəcəyik.

**Rəis** - Mən deyirəm qanun sui-təfhim olmayıb. Qanun deyir ki, bir kəs ki, səbəbsiz isbati-vüçud etməyə, o parlamandan xaric olur. Sultanovdan da bir kağız olmadığından parlamentdən xaric edilmişdir. Yenə təkrar edirəm ki, heç bir sui-təfsir olmayıbdır. Mən Sultanovun istidasını səsə qoyuram. hər kəs Cəlil bəyin istidasını qəbul edirsə...

**Məmməd Əmin** (yerindən) - Başqa təklif var.

**Rəis** - Səsə qoyuram. [704 - 705]

**Məmməd Əmin** (yerindən) - Təklif var...

**Rəis** - Hər kəsin təklifi varsa, yazsın versin.

**Məmməd Əmin** (yerindən) - Vaxt verin.

**Səslər** - Səsə qoyun...

**Rəis** - Təklif var, yazılır.

**Katib** - "Müsavat" tərəfindən verilən təklifi oxuyur. Ruscaya tərcümə edir. (Sağdan gülüş).

**Mahmudov** (yerindən) - Xüsusi da. **Rəis** - Təklifi səsə qoyuram.

**Rza bəy Ağabəyzadə** (yerindən) - Ləhinə danışmaq istəyirik.

**Rəis** - Buyurunuz.

**Ağabəyzadə** - Bu məsələ ortaya çox (yuridiçeski) məsələ qoyur. Deyirlər ki, qəbul etsək qanun pozular. Bir də deyirlər ki, qanun pis təbdil olunubdur...

**Rəis** - Divani -Rəyasət məlum edir ki, qanun pis təbdil olunmayıb.

**Ağabəyzadə** (davam edir) - Sonra deyirlər ki, konfransa gedən başqa üzvlər ilə Cəlil bəyin halı bir deyildir. Görək indi Divani-Rəyasət nə deyir.

**Rəis** - Divani-Rəyasət yox, Heyəti-Rəyasət... (Səslər — O varmı?).

**Ağabəyzadə** - Görək senevrin qanunun dediyi parlaman haqlı bilir ya yox. Fraksiyamız təklif edir ki, bu məsələlər mühüm olduğuna görə komissiyaya verilsin.

**Rəis** - Söz İbrahim Əbilovundur.

**Əbilov** - Əfəndilər! Bu məsələ əvvəl balaca idi. O qədər böyütdülər ki, hətta bir ya verilməsinə ehtiyac göründü. (Məmməd Əmin yerindən — Əlbəttə, böyük məsələdir. Bir məbusun haqqını əlindən alırsınız). Haqqını dedilər... Qanun tərtib olunanda məbusa müəyyən vəzifə təyin edilib, məbusun əlinə verilmişdir. Bu qanunu da pozan məbusların haqqı əlindən alınır.

**Məmməd Əmin** (yerindən) - Məbusun haqqı hava ola bilməz.) Əqidəmcə bu məsələ burada həll olunmalıdır. Fraksiya və komissiyalara verməyə ehtiyac yoxdur. Bu təklifi verməklə istənilən tərəfin məqsədi budur ki, bu məsələ uzanıb gələn iclasa qalsın ki, bəlkə vaxtacan bir növ düzəltsinlər. (Sağdan səslər: Sağ ol.) Məncə bunların heç birinə ehtiyac yoxdur. Məsələ indicə burada baxılıb həll olunmalıdır. [705 - 706]

**Rəis** - Təklif var, bu məsələ ya verilsin. Komissiyanın adı yoxdur. (Məmməd Əmin: hansı olsa tafavutu yoxdur). hansı  olmağı sonrakı məsələdir. Səsə qoyuram.

**Səslər** - Mandat sına.

**Rəis** (Katibə) - Təklifi oxuyun.

**Katib** - İkinci təklifi oxuyur.

**Rəis** - Komissiyaya veriləsi təklifi səsə qoyuram. hər kəs ya vermək tərəfdarıdır. Rica edirəm, əllərini qaldırsın. (Əllər qalxır). Kim əleyhinədir? (Əllər qalxır). Səs verməyən? (Əllər qalxır). Ləhinə 20, əleyhinə 30; səs verməyən 4. Əksəriyyət rəylə təklif rədd olunur. ya verilmir. Cəlil bəy Sultanovun istidasını səsə qoyuram. Məzmunu məlumunuzdur. Yazıbdır ki, onu parlamentdən səhvən ixrac ediblər. hər kəs Cəlil bəy Sultanovun istidasını qəbul edirsə, rica edirəm, əlini qaldırsın. (Əllər qalxır). Kim əleyhinədir? (Əllər qalxır). Kim səs verməyib? (Əllər qalxır). Ləhinə 22; əleyhinə 28; səs verməyən 8. Əksəriyyət rəylə Sultanovun istidası qəbul olunmayır.

Parlament üzvlərindən Hacı Molla Əhməd Nuruzadə 20 günün müddətinə məzuniyyətə getmişdir. Aprelin 28-dən mayın 18-ə kimi. Vaxtı tamam olmuşdur. İki həftədir, xəbər yoxdur. Ona görə iyunun 2-dən parlamentdən xaric olunur.

Növbədəki məsələ Bakı gömrükxana pud vergisinin artırılması haqqında layiheyi-qanuniyyənin 3-cü qiraətidir.

**Rəis** - Rica edirəm, əyləşin. Abuzər bəy əyləşin. Qanun oxunub səsə qoyulacaq, oxuyunuz.

**Katib** - 1-ci maddəni oxuyur.

**Rəis** - 1-ci maddə xüsusunda kim danışmaq istərdi. Rica edirəm, xüsusi söhbət etməyəsiniz. Maddəni səsə qoyuram. 1-ci maddəni kim qəbul edirsə, rica edirəm əlin qaldırsın. Əksəriyyət rəylə 1-ci maddə qəbul olunur. 2-ci maddəni oxuyunuz.

**Mehdi bəy** - 2-ci maddəni oxuyur.

**Rəis** - 2-ci maddə xüsusunda kim danışmaq istər. Yox isə səsə qoyuram. Hər kim 2-ci maddəni qəbul edirsə, rica edirəm əlini qaldırsın. Əksəriyyət rəylə 2-ci maddə qəbul olunur. 3-ünü oxuyunuz.

**Katib** - 3-cü maddəni oxuyur. [706 - 707]

**Rəis** - 3-cü maddəni səsə qoyuram. Hər kim 3-cü maddəni qəbul edirsə, rica edirəm, əlini qaldırsın. Əksəriyyət rəylə 3-cü maddə qəbul olunur. 4-cü maddəni oxuyunuz.

**Katib** - 4-cü maddəni oxuyur.

**Rəis** - 4-cü maddə barəsində kim danışmaq istər. Yox isə səsə qoyuram. Kim 4-cü maddəni qəbul edirsə, əlin qaldırsın. 4-cü maddə əksəriyyətlə qəbul olunur. 5-ci maddəni oxuyun.

**Katib** - 5-ci maddəni oxuyur.

**Rəis** - 5-ci maddə xüsusunda danışan yoxsa səsə qoyuram. hər kim 5-ci maddəni qəbul edirsə, əlin qaldırsın. 5-ci maddə əksəriyyət rəylə qəbul olunur. 6-cı maddəni oxuyunuz.

**Katib** - 6-cı maddəni oxuyur.

**Rəis** - 6-cı maddəni səsə qoyuram. Kim qəbul edirsə, rica edirəm, əlini qaldırsın. Əksəriyyət rəylə 6-cı maddə qəbul olunur. 7-ci maddəni oxuyun.

**Katib** - 7-ci maddəni oxuyur.

**Rəis** - 7-ci maddə xüsusunda kim danışmaq istər. Səsə qoyuram. Hər kim 7-ci maddəni qəbul edirsə, rica edirəm, əlin qaldırsın. 7-ci maddə əksəriyyət rəylə qəbul olunur. Qanun layihəsini tamamən səsə qoyuram. hər kim qəbul edirsə, əlin qalırsın. Qanun layihəsi mütəhidən qəbul olunur. Növbədəki məsələ maliyyə nəzarəti cünbündə müfəttişlik ehtası haqqında onun qanun layihəsinin 3-cü qiraətidir. Məruzəçi Rza bəy Ağabəyov.

**Katib** - 1-ci maddəni oxuyur.

**Rəis** - 1-ci maddə haqqında kim danışmaq istər. Əvvəlinci maddəni qeydi ilə səsə qoyuram. hər kim qəbul edirsə, rica edirəm, əlin qaldırsın. Əksəriyyət rəylə 1-ci maddə qəbul olunur. 2-ci maddəni oxuyunuz.

**Katib** - 2-ci maddəni oxuyur.

**Rəis -** 2-ci maddə barəsində kim danışmaq istər. 2-ci maddəni səsə qoyuram. hər kim qəbul edirsə, əlin qaldırsın. 2-ci maddə əksəriyyət rəylə qəbul olunur. 3-cü maddəni oxuyunuz.

**Katib -** 3-cü maddəni oxuyur.

**Rəis -** 3-cü maddəni səsə qoyuram. Hər kim qəbul edirsə, əlin qaldırsın. 3-cü maddə əksəriyyət rəylə qəbul olunur. 4-cü maddəni oxuyunuz.

**Katib -** 4-cü maddəni oxuyur. [706 - 707]

**Rəis -** 4-cü maddəni səsə qoyuram. Hər kim qəbul edirsə, əlin qaldırsın. 4-cü maddə əksəriyyət rəylə qəbul olunur.

**Katib** - 2-ci fəsli oxuyur.

**Rəis** - Qanunun 2-ci fəslini səsə qoyuram. Hər kim qəbul edirsə, əlin qaldırsın. 2-ci fəsil əksəriyyət rəylə qəbul olunur. Qanunu tamamən səsə qoyuram. hər kim qanunu tamamən qəbul edirsə, rica edirəm, əlin qaldırsın. Qanun tamamən qəbul olunur.

Növbəti məsələyə keçmədən qabaq 5 dəqiqəlik tənəffüs elan edirəm. Lakin xahiş edirəm bu komissiyalara tənəffüs zamanında namizədlər yazıb göstərəsiniz. (Oxuyur). 1)Ləvazim komissiyasına Camalbəyovla Tsaxakaya əvəzinə; 2) Fəhlə komissiyasına Tsaxakaya əvəzinə; 3)Ləvayehi-qanuniyyə komissiyasına Camalbəyov əvəzinə; 4) Təshih komissiyasına Tsaxakaya əvəzinə; 5) Torpaq sına Nərimanbəyov və Cəlil bəy Sultanov əvəzinə.

### Tənəffüsdən sonra

**Rəis** - İclasa davam edirik. Növbədəki məsələ Məclisi-Müəssisan intixabı haqqında qanun layihəsinin 2-ci qiraətidir. 49-cu maddə. (Katibə) Oxuyunuz.

**Katib -** 49-cu maddəni oxuyur.

**Rəis -** 49-cu maddə xüsusunda kim danışmaq istər? Danış-maq istəyir, yoxsa səsə qoyuram. 49-cu maddəni kim qəbul edirsə, rica edirəm, əlini qaldırsın. (Əllər qalxır). 49-cu maddə əksəriyyətlə qəbul olunur. 70-ci maddəni oxuyunuz.

**Katib** - 70-ci maddəni oxuyur.

**Rəis** - 70-ci maddə xüsusunda kim danışmaq istərdi? Danış-maq istəyən yoxsa səsə qoyuram. 70-ci maddəni kim qəbul edirsə, rica edirəm əlin qaldırsın. (Əllər qalxır). Əksəriyyət rəy ilə 70-ci maddə qəbul olunur.

**Katib** - 71-ci maddəni oxuyur.

**Rəis** - 71-ci maddə xüsusunda kim danışmaq istərdi. Səsə qoyuram. Kim 71-ci maddəni qəbul edirsə, əlin qaldırsın. (Əllər qalxır). Əksəriyyət rəy ilə 71-ci maddə qəbul olmuşdur.

**Katib** - 72-ci maddəni oxuyur.

**Rəis** - 72-ci maddəni səsə qoyuram. 72-ci maddəni hər kəs qeyd ilə bərabər qəbul edirsə, rica edirəm, əlin qaldırsın. [709 - 710]

(Əllər qalxır). Əksəriyyət rəylə 72-ci maddə qeydlə bərabər qəbul olunur.

**Katib** - 73-cü maddəni oxuyur.

**Rəis** - Kim danışmaq istər 73-cü maddə xüsusunda ? Danış-maq istəyən yoxsa, səsə qoyuram. 73-cü maddəni hər kəs qəbul edirsə, rica edirəm, əlin qaldırsın. (Əllər talxır). Əksəriyyət rəylə 73-cü maddə qəbul olunur. 74-cü maddəni oxuyunuz.

**Katib** - 74-cü maddəni oxuyur.

**Rəis** - 74-cü maddəni səsə qoyuram. Kim qəbul edirsə, rica edirəm, əlin qaldırsın. (Əllər qalxır). Əksəriyyət rəylə 74-cü maddə qəbul olunur.

**Katib** 75-ci maddəni oxuyur.

**Rəis** - 75-ci maddəni səsə qoyuram. Kim qəbul edirsə, rica edirəm, əlin qaldırsın. (Əllər qalxır). Əksəriyyət rəylə 75-ci maddə qəbul olunur.

**Katib** - 76-cı maddəni oxuyur.

**Rəis** - 76-cı maddəni səsə qoyuram. Kim qəbul edirsə, rica edirəm, əlini qaldırsın. (Əllər qalxır.) 76-cı maddə əksəriyyət rəy ilə qəbul olunur.

**Katib** - 77-ci maddəni oxuyur.

**Rəis** - Bu xüsusda kim danışmaq istərdi. 77-ci maddəni kim qəbul edirsə, rica edirəm, əlin qaldırsın. (Əllər qalxır). Əksəriyyət rəylə 77-ci maddə qəbul olunur.

**Katib** - 78-ci maddəni oxuyur.

**Rəis** - 78-ci maddəni səsə qoyuram. Qəbul edənlərdən rica edirəm, əlini qaldırsın. (Əllər qalxır). Əksəriyyət rəylə qəbul olunur.

**Katib** - 79-cu maddəni oxuyur.

**Rəis** - 79-cu maddəni səsə qoyuram. Kim qəbul edirsə, rica edirəm, əlini qaldırsın. (Əllər qalxır). 79-cu maddə əksəriyyəti rəylə qəbul olunur.

**Katib** - 80-ci maddəni oxuyur.
**Rəis** - 80-ci maddəni səsə qoyuram. Kim qəbul edirsə, rica edi-rəm, əlin qaddırsın. (Əllər qalxır). 80-cı maddə qəbul olunur.
**Katib** - 81-ci maddəni oxuyur.
**Rəis** - 81-ci maddəni səsə qoyuram. Rica edirəm, qəbul edənlər əlin qaldırsın. (Əllər qalxır). 81-ci maddə qəbul olunur. 7-ci babı oxuyunuz.
**Katib** - 7-ci bab, 82-ci maddəni oxuyur. [709 - 710]
**Rəis** - 82-ci maddəni səsə qoyuram. Kim qəbul edirsə, rica edirəm, əlin qaldırsın. (Əllər qalxır). Əksəriyyət rəylə 82-ci maddə qəbul olunur.
**Katib** - 83-cü maddəni oxuyur.
**Rəis** - 83-cü maddəni səsə qoyuram. Kim qəbul edirsə, rica edirəm, əlini qaldırsın. (Əllər qalxır). Əksəriyyət ilə 83-cü maddə qəbul olunur.
**Katib** - 84-cü maddəni oxuyur. (Səslər: Təkrar ediniz).
**Rəis** - (Katibə) Bir də oxuyunuz.
**Katib** - 84-cü maddəni bir də oxuyur.
**Rəis** - 84-cü maddə xüsusunda kim danışmaq istər? Söz Sultan Məcid Qənizadənindir.
**Sultan Məcid Qənizadə** ("İttihad") - Bu maddə hərçəndi rusca və müsəlmanca oxundu, amma, ələlxüsus, müsəlmancasının yazısı qarışıqdır. Belə görünür ki, səslər veriləcək siyahılara və hər siyahıdan artıq qalan səslər məlum olmayacaq hansı tərəfə verilir. Qoyacaqlar o siyahı üzərinə ki, çox səs alıb. Mən belə başa düşürəm. Zənnimcə, bu belə deyil. Belə gərək olmasın. Artıq səslər mutənasibən bölünməlidir. Məsələn, biri yüz min, digəri iki yüz min səs almışdır. Artıq səslər də mütənasib əsası ilə üç yerə bölünür. Bir hissəsi yüz min alana, yerdə qalan iki hissəsi iki yüz min alana verilməlidir. Bu belə olmalıdır. Mən belə qanmışam.
**Rəis** - Başqa danışmaq istəyən yoxsa, son söz məruzəçinindir.
**M. Ə. Rəsulzadə** - Bu məsələ texnikaya aid bir məsələdir. Bu elə deyil ki, yerdə qalan artıq səslər məmləkətdə çox səs alana verilir. Bunun bir metri təyin edilibdir. Hər 25 min bir nəfər məbus keçirir. Hərgah bir siyahı həşdat min səs alıbsa, o uç məbus keçirir, 5 min səs artıq qalır. 115 min səs alan siyahıdan 15 min səs artıq qalacaqdır. Fərz edəlim, bir siyahıdan da 105 min səsdən 5 min səs artıq qalmışdır. Üç siyahıdan 25 rəy vardır. Bu səslər bir məbus keçirirlər. Bu üç siyahı (11) adam keçirtməlidir. Bir adam üstündə ixtilaf var. Necə olsun, kimə düşsün? Birinin beş min, o birinin (15) min, üçüncüsünün də beş min səsi artıq qalmışdır. Burada qanun təklif edir ki, o bir nəfəri çox səs alan siyahı keçirsin. Yəni misalımızda 15 min səs alan siyahının olur. [710 - 711]
**Rəis** - 84-cü maddəni səsə qoyuram. Kim qəbul edirsə, rica edirəm, əlin qaldırsın. (Əllər qalxır). Əksəriyyət rəylə 84-cü maddə qəbul olunur.
**Katib** - 85-ci maddəni oxuyur.
**Məmməd Əmin** - Müsaidə veriniz.
**Rəis** - Buyurunuz.
**Məmməd Əmin Rəsulzadə** - Bu maddə bir az izaha möhtacdır. Burada deyilir ki, namizədlərin miqdarından ziyadə əzalıq yeri düşsə, Məclisi-Müəssisanda o qədər boş yer buraxılmalıdır. Məsələn, bir siyahı var (15) adam yazılmışdır. O siyahı o qədər səs almış ki, 20 adam keçə bilər. (5 adamın yeri boş qalır). Layihə təklif edir ki, haman siyahının 5 adamı əlavə etməyə haqqı yoxdur, yer də boş qalmalıdır. Bu nöqteyi-nəzərən da əqəliyyət ilə etiraz var idi ki, əlavə olaraq boş yerlərə haman siyahı namizədlər versin. da əksəriyyət buna etiraz etdi, dedilər ki, siyahı camaata təqdim olunur, lakin camaat yalnız firqələri deyil, firqələrin çıxarmış olduğu adamları da nəzərə alırlar. Camaat gərək bilib mühakimə etsin ki, haman firqə nə kimi adamlar ilə öz proqramını tətbiq etmək istəyir. Məsələn, bir firqə beş-altı məruf və məşhur adamı göstərib onları keçirəcəyəm deyə səsini yığdıqdan sonra yenidən elə adamlar əlavə edir ki, camaat əvvəldən bilsəydi heç səs verməzdi. O vaxt aldanılmış olur ki, buna da yol vermək olmaz. Bunu əvvəlcədən ölçüb, hər firqə lazımi qədər namizəd vəz etməlidir. Siyahıda bir neçə adam yazıb sonra aldığı səsə görə camaatdan bixəbər başqa adamlar əlavə etmək, camaatı iğfal etmək olur. Hər firqə öz siyahısına istədiyi qədər namizəd yaza bilir. Siyahıya 120-yə qədər adam yazmaq olar. Bunlardan keçməyən keçməz. Əkər burada yalnız birinin nəzərə alınsa idi ki, firqələrəmi səs verilsin onda siyahı lazım deyildi. Siyahı elə deyil ki oraya dörd adam yazıb birini də dalda saxlayasan. Onda seçicilər deyərlər ki, əkər o bir adamı tanısaydıq bəlkə o doxsan nəfərə səs verməzdik. Sonra bu qanunun firqələr üçün də əhəmiyyəti vardır. Çünki siyahı çıxartmaqdan qabaq firqənin syezdi yığılıb siyahı düzəldəcək, o siyahı düzəltməkdə komitələrin əlində olur və bilir ki, məramnaməni içra etməyi kimə tapşırırlar. Deyilir ki, namizədliyin siyahıya yazdığı əza verdiyi vəkillər üçün (kredito sposobni)-dir, ya yox. [711 - 712]
**Rəis** - 85-ci maddəni səsə qoyuram, hər kəs qəbul edirsə, rica edirəm, əlini qaldırsın. (Əllər qalxır). Əksəriyyət rəy ilə qəbul olunur.
**Katib** - 86-cı maddəni oxuyur.

**Rəis** - Sırada natiq olmadığından 86-çı maddəni səsə qoyuram. Hər kim qəbul edirsə, əlini qaldırsın. Əksəriyyət rəylə 86-cı maddə qəbul olunur.

**Katib** - 87-ci maddəni oxuyur.

**Rəis** - 87-ci maddəni səsə qoyuram. Hər kəs qəbul edirsə, əlin qaldırsın. Əksəriyyət ilə 87-ci maddə qəbul olunur. Səkkizinci babı, 88-ci maddəni oxuyunuz.

**Katib** - 88-ci maddəni oxuyur.

**Rəis** - 88-ci maddə xüsusunda kim danışmaq istərdi? Natiq olmadığından səsə qoyuram. Kim qəbul edirsə, əlin qaldırsın. Əksəriyyət rəylə qəbul olunur.

**Katib** - 89-cu maddəni oxuyur.

**Rəis** - 89-cu maddəni səsə qoyuram. Kim qəbul edirsə, əlini qaldırsın. Deməli əksəriyyət rəylə oxunan maddə qəbul olunur. Beş nəfər üzvlərin imzası ilə təklif edilir ki, layihənin mütəbaqisi təxir olunsun və növbədəki məsələyə keçək. Bu barədə lehinə və əleyhinə kim danışmaq istərdi? Danışan yoxsa, səsə qoyuram. Əksəriyyət rəylə təklif qəbul olunur.

Növbədəki məsələ erməni fraksiyası tərəfindən daxiliyyə nazirinə verilən sualdır. Heyəti-Rəyasət təklif edir ki, bu məsələyə keçmədən əvvəl şəxsi söz istəyənlərə söz verilsin. Söz istəyən Məmməd Əmin Rəsulzadə və Əhməd Cövdət Pepinovdur. Birinci söz Məmməd Əmin Rəsulzadənindir.

**Məmməd Əmin** - Bayaq burada maliyyə büdcə sı gəlməyən üzvlərin adları təzad edilərkən mənim də 10 iclasın ikisinə gəlmədiyim söyləndi. Burada izah olunacaq bir nöqtə vardır. Səbəbi söylənmədən, gəlmədi deyəndə, başqa təsir hasil olur. Doğurdan da bəlkə əzalar var ki, heç gəlmirlər. Bəziləri də var ki, səbəbi — şəri ilə gəlmirlər. Komissiyaların iclas vaxtı müntəzəm deyildir. Çox vaxt olur ki, bir o biri ilə bərabər vaxtda, bəlkə həmin saatda, iclas təyin edirlər. Odur ki, bir komissiyanın iclasında olarkən başqası məni "gəlməyib" yazmış. Əgər birinə getsəydim, o birinə getməmiş olurdum və kəza. Çox vaxt olur ki, bir rəisi iclas etməkdən ötəri digər komissiyaya [712 - 713] gəlib, üzvləri çıxarıb aparır. Ona görə mən büdcə komissiyasının iclasında təklif etmişdim rəisləri Divani-Rəyasət ilə danışıb iclaslarının vaxtı üçün müəyyən saatlar təyin etsinlər. Tainki iclasları hamısı bir vaxtda olmasın. Hərgah bu cür olsaydı, güman edirəm 10 məclisin ikisini qeyb etməzdim.

**Rəis** - Söz Əhməd Cövdət Pepinovundur.

**Əhməd Cövdət** - Əfəndilər! Bu məsələ bir az şəxsi olduğu kimi bir az da ümumidir. Burada elan edildi ki, mən də büdcə sı iclaslarında olmamışam. Bu elə sui-təsir buraxmasın ki, iclaslarında bulunmaq istəməmişəm. Bir var bulunmamışam, bir də var ki, buluna bilməmişəm. Mayın 26-dan başlayaraq Denikin məsələsi araya gəldikdən bəri o qədər məşğuliyyətim olmuşdur ki, iclasların çoxunda buluna bilməmişəm. Baxsanız görərsiniz ki, bir çox fövqəladə komissiyalar iclasında iştirakım lazım görünürdü. Ona görə deyirəm ki, iclaslarına gəlməməyim işləmək istəməməyimdən deyil, daha fövqəladə işlərdə olmağımdan başa gəlmişdir.

**Rəis** - Erməni fraksiyası tərəfindən daxiliyyə nazirinə verilən sualı (katibə) oxuyunuz.

**Katib** - Erməni fraksiyasının sualını rusca oxuyur.

**Məmməd Əmin** (yerindən) - Nə üçün türkcə oxumursunuz?

**Səslər** - Türkcə, türkcə...

**Rəis** - Söz Malxazyanındır.

**Malxazyan** - (Rusca).

**Rəis** - Söz rəisi-Vükəlanındır.

**Nəsib bəy** - Möhtərəm məbuslar! Məsələnin iki tərəfi var. Onun üçün ikiyə bölürəm. Əvvəla axtarış olub ambarlarda. Nə üçün olub? İkinçi o xüsusda mətbuatda verilən xəbərlər. Və bir də verdiyim əmrlərə əməl olunmaması. Bir dəfə mən elə güman edirdim ki, ermənilərin hissiyyatı-diniyyə və milliyyəsi o adamlar əli ilə təhqir edilmişdir ki, kilsənin anbarlarında cürbəcür şeylər saxlayıblar. Bir yer ki, kilsədir, orada dua olur, müqəddəs bir yerdir, elə bir yerdə cürbəcür anbarlar tapılıbdır. Əlbəttə, heç kəs cəsarət etməz ki, kilsəni təhərli etsin. Kilsə təhərli olmayıb. Sualda var ki, erməni millətinin hissiyyatı — diniyyəsi təhqir olunubdur. Mən bunu rədd edirəm. Doğrudur, anbarlar təhərli olub. Əlbəttə, [713 - 714] hər yerdə ki şübhəli şeylər ola, polisin haqqı var ki, oranı təhərli etsin. Sizə mən mənzərəni ayrı cür təsəvvür edirəm: günlər ilə (razvedka) görür ki, kimsəyə və o məhəlləyə cürbəcür şeylər daşınır. Bir gün də görürlər ki, haman şeylər araba ilə özgə yerə aparılır. Əlbəttə, vaxt da çox qorxulu və pis vaxtdır. Xaricdən düşmən və daxildən də bir çox şeylər gözlənildiyi bir zamanda hər kəs əsəbi olub, xəbər gətirir. Bu şeylər yığılır sklada, sonra gedib axtarış edirlər. Axtarış zamanı bu skladın erməni siyahısına məxsus olduğuna heç bir əlamət də yoxmuş. Olsa idi, əvvəla hökumət bilərdi. İkinci skladda (plakat) olar, o da yoxmuş.

Sklad vağzal yanında, erməni məhəlləsində buğda skladıdır. O şeylər içindən telefon, teleqraf, səhra telefonu kimi cürbəcür paltar, qab-qacaq və cürbəcür xəstəxana şeyləri tapılmışdır. Demək ki, müəyyən bir yerdən bu şeylər çıxıb gedir ora və ehtimal olunur ki, yerində də özgə şeylər qalmış, ola bilir ki, aparmayıblar. Bunu deməkdən məqsədim budur ki, polis əhali-ruhiyyəsi niyə belə olur. Sonra ayrı məlumat alırlar ki, silah da vardır. Təbii, bunu xəbər veriblər, onsuz deyil. Gəlib axtarış ediblər. 40-50 dənə (berdanka) patronu tapılıb ki, onların də əhəmiyyəti yoxdur. Sonra xəbər alınır ki, Denikin və Biçeraxov ilə vaqe olan mükatibə və sənədlər vardır.

Bunun üçün polis gəlib axtarmışdır. Doğrudan da axtarış pis olub. Məsələn, qarovul çox olub, straja olub, mən də telefon ilə əmr verdim. Əlbəttə, hər dəqiqə istədiyin adamı tapmaq mümkün olmur. Gələn bir az gec olmuşsa da yenə əmrimə əməl edilib, axtarış dayandırılıb və əhali də oradan dağıdılmışdır. O ki, deyilir ki, hökumətin əmri icra olunmayıbdır, bu doğru deyildir, yalandır. Bu məsələnin daxili tərəfidir. Heysiyyəti-diniyyənin təhqiri məsələsi doğru deyil. Çünki ambarı axaranlar heysiyyəti-diniyyə toxunmamışlardır. Heysiyyəti-diniyyəyə o adamlar toxunurlar ki, kilsəni ambar yapmışlardır. Məsələnin digər tərəfi odur ki, bir çox pravokasiya olmuşdur. Malxazyan cənabları söylədiyi kimi buna da səbəb iş günlərinin tədbirsizliyi olubdur. O tədbirsizlik də bundan ibarətdir ki , ora axtarıldıqda naryada ehtiyac yoxdur. 4-5 adam gedib axtara bilərdi. Digər tərəfdən təəssüf olunur ki, türkcə "Azərbaycan" qəzetində bir xəbər olub, müdiri də burdadır. Gecə saat 2-də onu oxuyub yerindən durğuzub müdir ilə [714 - 715] çox danışdım. Bu provokasiyadır ki, müdir olmadıqda gecə vaxtı gəlib qəzetə buraxılmışdır. Sabahı bu xəbərin təkzib edilməsini əmr etdim. Digər tərəfdən xəbər gətirən adamları tapmaq üçün tədbirlər görülür. hərgah sui-qəsd görünərsə, ona da cəza veriləcəkdir. Deyirlər guya o adam bu xəbəri rəsmi bir mənbədən alıbdır. Əgər rəsmi mənbə də varsa, ona da lazımi cəza veriləcəkdir. Elə belə bir zamandır ki, bütün həyatımız təhlükədədir. Polis hər bir hərəkəti qanuna daxil eləmir. Bu da şübhəsiz, səhvdir. Polis tərəfindən kilsənin mühasirə edilməsi, şübhəsiz, səhvdir. Buna görə də mühasirənin götürülməsi üçün lazım olan tədbirlər görüldü və mühasirə qaldırıldı. Bu vaxta qədər hər yerdə axtarış olub, mühasirə olubdur. Əlbəttə, bunu edən gərək biləydi ki, bura kilsədir, mərkəzdir; gərək bu olmayaydı. Qaldı ki, burada söylənilir ki, hökumət rəisi əmr edib, onun əmri icra edilmişdir. Bu mənə məlum deyildir.

Mən bilirəm ki, mən əmr etdikdə naryad götürülüb, axtarış dayandırılmışdır. Qapı açıldı, orda bir çox sənədlər tapılmışdır. Mən kilsə rəisindən izin istədikdən sonra adam gedib onları oradan götürmüşdür. Bu işlər hazırda təhqiq olunur. Əgər mühəqqəq edilsə ki, polis müdiri mənim əmrimin icrasında qüsur göstərib, cəzasını görəcəkdir. Bir də orada bir çox sənədlər vardı. Yeşiyin ağzı da açıqdır, onları orada o surətdə qoyub keçmək olmazdı. Orada gərək adam olaydı; ola bilir ki, oraya qoyulan polis məmurları öz xidmətlərindən sui-istifadə etmişlərdir. Ancaq mənə elə gəlir ki, bu məsələlərin hamısında günahkar polis deyil, günahkar həmən adamlardır ki, kilsənin içərisini ambar edib, hökumətə xəbər vermədən, teleqraf və telefon aparatları saxlanıbdır. Günah o adamdadır ki, əvvəlcə bu şeyləri oraya yığıb, sonra aparır. Bu xüsusda kimsəyə məlumat verilməmişdir. Deyirlər ki, bu şeylər erməni hökumətinə məxsus imiş. Əkər erməni hökumətinin malı idisə hökumətin ondan xəbəri olardı və yaxud heç olmasa qapısı üzərində erməni hökumətinə məxsus olduğunu bildirən bir lövhə və yazı bulunardı. Doğrudur, provokasiya əmələ gəlmiş "Azərbaycan" qəzetinin rusca və türkcəsində təkzibi var. Bunun ilə bərabər mühəqqəq olunur ki, qəsd ilə yalan xəbər verənlərə cəza veriləcək. Hökumət orada tapılan Biçeraxov [715 - 716] və Kiçik xan sənədlərinə baxılandan sonra onların nə olduğunu elan etməyi özünə borc bilir.

**Malxazov** - (rusca).

**Rəis** - Sualçının bu bəyanatından sonra bu məsələyə indi baxmaq olmayacaq. Sual istehza surətini alacaqdır, on gün müddətində, gələn iclasların birində baxılacaq. Ona görə məsələ gələn iclasların birinə təxir edilib. İndi vaxt gec olduğuna görə iclası qapayıram.

**İçlas qapanır saat 3.25 dəqiqədə.**

**Arxiv, f. 895, siy. 1, iş. 94, vər. 48-91.**

## № 49

## Qırx doqquzuncu iclas

*19 iyun 1919-cu il*

**Rəis** - Həsən bəy Ağayev. **Katib** - Mehdi bəy Hacınski.\
İclas açılır saat 12.23 dəqiqədə

**Rəis** - İclas açılır. Bugünkü müzakireyi yomiyyə bu qərar ilə tərtib olunubdur:

1 — Təbiblərin orduya çağırılması haqqında layiheyi qanuniyyə; 2 — Təbiblərin və baytarların yeni maaşları haqqında layiheyi qanuniyyə; 3 — Gəlir vergisindən azad olan varidat miqdarının artırılması haqqında layiheyi qanuniyyələr (Əbdüləli bəy); 4 — Maliyyə nazirinə 2-ci müavin təyini haqqında layiheyi qanuniyyə; 5 — Yer və tövci vergilərinin artırılması ilə bərabər torpaq gəlir, məxaric smetasının və torpaq vergisi miqdarının 1919 sənəsinə təmdidi haqqında layiheyi qanuniyyə, (məruzəçi — Rza bəy Ağabəyzadə); 6 — Məclisi-Müəssisan seçkiləri haqqında layiheyit qanuniyyə (2-ci qiraəti — Məruzəçi Məmməd Əmin Rəsulzadə)7 — Hökumət indində xüsusi təftişat, təhqiqat komisyonunun təşkili haqqında layiheyi qanuniyyə (məruzəçi Şəfi bəy Rüstəmbəyzadə) 8 — Erməni fraksiyasının daxiliyyə nəzarətinə kilsədə iyun 11-də təhfi haqqında sualı; 9 — Daxil olmuş kağızlar, o cümlədən:

a) Əlenul və onun məhsulat aksiz vergisi miqdarının artırılması haqqında layiheyi-qanuniyyə; b) Xəzinə, yerli kilsə [716 - 717] haqqında və monastır hüququ, şəxsi və xüsusi torpaqların, torpaq komitələrinə verilməsi haqqında layiheyi qanuniyyə;

v) Ermənistan cümhuriyyətində bulunan müsəlman qaçqınlarına yardım üçün 3 milyon manat buraxılması haqqında layiheyi qanuniyyə;

q) Zəngəzur qəzasına yardım etmək üçün ümuri-xeyriyyə və nafiə nəzarətinə 18.750.000 manat buraxılması qanunu.

Daxil olmuş kağızlardan 1-ci, 2-ci, 5-ci və 7-ci ləvayehi qanuniyyə komisyonuna gedir. 3-cü və 4-cü maliyyə və büdcə ko-misyonuna kedir. Sonra hökumətin təklifinə körə Dağıstan cümhuriyyətində maarif naziri Rəşid bəy Kaplanov kabinəyə dəvət edilir, qəbul da etmişdir, bunu parlamana məlum edirəm. Fətəli Xan Xoyski məlum edir ki, mövcud fraksiyaların heç birinə daxil olmayır, tək qalır. Keçən iclasda komisyonlara seçki oldu, lakin bir nəticə vermədi. Artıq səs alan Məmmədbağır Şeyxzamanov olub, halbuki o torpaq komisyonunda vardır. Görünür ki, sevən seçilibdir. Xahiş edirəm, komisyonlara təzədən üzv seçəsiniz. Bir də təklif var ki, Oruc bayramı yaxınlaşmağa görə 10 günü tətil edilsin, divani-rəyasət təklif edir ki, tətil olsa da iyunun 24-dən iyulun 5-nə kimi olsun. Bu gündən tətil olsa, o zaman tətilin son günü bayrama düşər. Əgər 24-dən olarsa, onda bayram günü ən əziz günümüzdür tətilin tən ortasına düşür. Əgər bunlara və tətil təklifinə etiraz yoxsa, qəbul olunur. (Rusca).

Növbədəki məsələ təbiblərin orduya çağırılması haqqında layiheyi-qanuniyyədir. Təcili surətə baxılması üçün bu barədə iki adama söz verəcəyəm, lehinə və əleyhinə. Kim qəbul edir təcili surətdə baxılmasına, əlini qaldırsın. Əksəriyyət rəylə təcili surətdə baxılması qəbul olunur. Məruzəçi Musa bəy Rəfibəyov.

**Rəfiyev Musa bəy** - Möhtərəm məbuslar (Oxumağa başlayır). Qanun, hərbiyyə nəzarəti tərəfindən təklif və təcili surətdə baxılıb qəbul edilməsi xahiş olunur.

**Rəis** - Layiheyi qanuniyyənin əsasları üzərində kim danışmaq istərdi. İstəyən vərəqə ilə yazıb versin. Danışmaq istəyən yoxmu? Aşurov ağa, buyurunuz.

**şurov** - Həkimlərin yaşını 45-də tamam edirlər. 45 yaşından yuxarı olanlar çağırılmırlar. Guya 45-dən yuxarı olanlar lazım deyilmiş. Mən istədim bilim ki, nə səbəbə görə [717 - 718] dayanıblar. Statistika iləmi götürüblər ki, ancaq 45 yaşına qədər olsun, artıq olmasın. Əvvəl cavanları, sonra qocaları. Mən bilən o deyil. Statistika olmayıb götürüb istəyiblər ki, 45-ə kifayət etsinlər. Mən deyirəm ki, əstəğfürullah, cavan həkimlər qocalardan təcrübəsiz olurlar. Ancaq aşkar şeydir ki, nə qədər həkimlikdə təcrübə çox olsa, o qədər artıq mənfəət verər. Nə qədər biliyi çox olsa, nəfi bir o qədər artıq olar. Ona görə mən deyirəm ki, mühüm olan bu əsgərlik işində ən təcrübəli və yaxşı həkimlər kömək versinlər. Bu mülahizə ilə də 45 yaşı sərhəd qoymağı məsləhət görmürəm. Buna görə bu bir sərhəd qoymaq lazım gəlsə belə qoymalıdır ki, o həkimlər ki, işləyib pul qazana bilərlər, onlar getsinlər. Amma o həkimlər ki, qocalıblar, özləri üçün də işləyə bilmirlər, onlar millət işindən azad edilsinlər. Əgər sərhəd qoyursanızsa, mənim təklifim belədir.

**Rəis** - Sırada natiq olmadığı üçün son söz məruzəçinindir.

**Rəfiyev** - 45 yaş qoyulması bu əsas üzrə olubdur ki, hər bir yerdə belə görünüb, hər kəs birinci iyirmi il millətə xidmət etməyə borcludur. Əgər 25 yaşında darülfünun qurtarır isə iyirmi sənə işləməyə borcludur ki, bu da eylər 45 və bir də həkimlər tez qocalırlar. Ona görə onlar məcburi 45 olub. Hər yerdə hər kəsin, xüsusən ziyalıların borcudur 20-25 il məmləkətə-cəmaətə xidmət etsin. Bu nöqteyi nəzərdən başqa sinifləri 42, həkimləri

45 götürüblər. Bu köhnə üsuldan bəylədir, biz də bunu qəbul etmişik. Hərgah altmış yaşlı həkim də getmək istəsə, mane yoxdur. Qəbul olunur. Lakin məcburi olmaq üzrə 45 yaş götürülübdür. Ona görə komisyon 45 yaşı etməyi təklif edir.

**Rəis** - Layiheyi-qanuniyyənin ikinci qiraətinə keçmək məsələsini səsə qoyuram. Kim layiheyi-qanuniyyənin ikinci qəraətinə tərəfdardırsa, rica edirəm, əlin qaldırsın. (Əllər qalxır). Əksəriyyət rəy ilə layiheyi-qanuniyyənin ikinci qiraətinə keçilir. (Katibə). Mehdi bəy oxuyunuz.

**Katib** - Layihənin birinci maddəsini oxuyur.

**Rəis** - Əvvəlinci maddə xüsusunda kim danışmaq istəyirdi? Danışmaq istəyən yoxsa, səsə qoyuram. Əvvəlinci maddəni kim qəbul edirsə, rica edirəm, əlini qaldırsın (Əllər qalxır). Əvvəlinci maddə əksəriyyət ilə qəbul olunur. İkinci maddəni oxuyunuz. [718 - 719]

**Katib -** 2-ci maddəni oxuyur.

**Rəis** - Kim danışmaq istəyirdi ikinci maddə xüsusunda? Səsə qoyuram. İkinci maddəni kim qəbul edirsə, əlini qaldırsın. (Əllər qalxır). İkinci maddə əksəriyyət ilə qəbul olunur. 3-cü maddəni oxuyunuz.

**Katib -** 3-cü maddəni oxuyur.

**Rəis -** 3-cü maddəni səsə qoyuram. Danışmaq istəyirsinizmi? 3-cü maddəni kim qəbul edirsə, rica edirəm, əlini qaldırsın. (Əllər qalxır). 3-cü maddə əksəriyyət rəylə qəbul olunur. 4-cü maddəni oxuyunuz.

**Katib -** 4-cü maddəni oxuyur.

**Rəis -** 4-cü maddəni səsə qoyuram. Kim qəbul edirsə, rica edirəm, əlini qaldırsın. (Əllər qalxır). 4-cü maddə əksəriyyət rəy ilə qəbul olunur. 5-ci maddəni oxuyunuz.

**Katib -** 5-ci maddəni oxuyur.

**Rəis** - Danışmaq istəyən yox isə 5-ci maddəni səsə qoyuram. Kim qəbul edirsə, rica edirəm, əlini qaldırsın. 5-ci maddə əksəriyyət rəy ilə qəbul olunur. 6-cı maddəni oxuyunuz.

**Katib -** (6-cı maddəni oxuyur).

**Rəis -** 6-cı maddəni səsə qoyuram. Kim qəbul edirsə, rica edirəm, əlini qaldırsın. (Əllər qalxır). 6-cı maddə əksəriyyət [səs] ilə qəbul olunur. Keçirəm layihənin üçüncü qiraətinə. (Katibə) Mehdi bəy bir də oxuyunuz.

**Katib** - Layihəni dübarə başlayıb birinci maddəsini oxuyur.

**Rəis** - Əvvəlinci maddəni səsə qoyuram. Qəbul edən əlini qaldırsın. (Əllər qalxır). Əvvəlinci maddə əksəriyyət ilə qəbul olunur. İkincini oxuyunuz.

**Katib -** 2-ci maddəni oxuyur.

**Rəis -** 2-ci maddəni səsə qoyuram. Qəbul edənlər, rica edirəm, əlini qaldırsın. (Əllər qalxır). 2-ci maddə əksəriyyət rəy ilə qəbul olunur. Üçüncü maddəni oxuyunuz.

**Katib -** 3-cü maddəni oxuyur.

**Rəis -** 3-cü maddəni səsə qoyuram. Qəbul edənlər, rica edirəm, əlini qaldırsın. (Əllər qalxır). Əksəriyyət rəy ilə 3-cü maddə qəbul olunur. 4-cü maddəni oxuyunuz.

**Katib -** 4-cü maddəni oxuyur.

**Rəis -** 4-cü maddəni səsə qoyuram. Rica edirəm, qəbul edən, əlini qaldırsın. (Əllər qalxır). 4-cü maddə əksəriyyət ilə qəbul olunur. 5-ci maddəni oxuyunuz. [719 - 720]

**Katib** - (5-ci maddəni oxuyur).

**Rəis** - 5-ci maddəni səsə qoyuram. Rica edirəm, hər kəs qəbul edirsə, əlini qaldırsın. (Əllər qalxır). 5-ci maddə əksəriyyət ilə qəbul olunur. 6-cı maddəni oxuyunuz.

**Rəis** - 6-cı maddəni səsə qoyuram. Qəbul edən əlini qaldır-sın. (Əllər qalxır). 6-cı maddə əksəriyyət ilə qəbul olunur. Layiheyi-qanuniyyəni təmamən səsə qoyuram. Kim qəbul edirsə, riça edirəm, əlini qaldırsın. (Əllər qalxır). Əksəriyyət rə'y ilə layiheyi-qanuniyyə təmamən qəbul olunur. Keçirəm növbədə-ki məsələ təbiblərin maaşı xüsusundadır. Mə'ruzəçi Musa bəy Rəfiyev.

**Musa bəy Rəfiyev -** Bu qanun layihəsi müzakirəyə qoyulacaqdır. Bu sıradadır ki, parlamanda qulluqçuların məvaçibləri artırılması layihəsinə baxılıbdır, qulluqçuların məvacibləri artırılıbdır. Lakin təbiblərin məvacibləri çox azdır. Burada keçənlərdə maarif nəzarətinin qulluqçularının məvaiblərini artırmaq barəsində olan qanun layihəsinə baxanda gördük ki, müəllimlərin maaşları çox-çox azdır. Həmçinin təbiblərin də məvacibləri çox-çox azdır. Köhnədən bunların məvacibləri az idi. İki dəfə maaşlar artırılıbdır. Onunla hesab etsək yenə də görərik ki, az məvacib alırlar. Necə məvacib aldıqlarını sizə ərz edəcəyəm. Baş feldşerlər, onların məvacibləri 452 manat olduğu halda başqa hökumət idarələrinin xidmətçiləri alır 550 manat. Orta feldşerlər alırlar 400 manat, halbuki nəzarətin yazıçıları alırlar 1000 manat, hesabdar — 1500 manat. Nəzarətlərin ən alçaq qulluqçusunun məvacibi 1000 manatdır halbuki, uyezdlərdə olan təbiblərin məvacibləri 400 manatdır. O həkimlər ki, uyezdlərdə 400 manat alır, bunların məvacibləri storojdan 100 manat əksikdir. Onun üçün Azərbaycanda olan təbiblərin ştatı 69 hesab olunduğu halda cəmisi 31 təbib var. 38 yer boşdur. Çünki məvacib azdır. Feldşer və mamaların ştatı 200-dür, hazırda 114-ü var. Əlbaqi yer boşdur. Bu qədər ilədir. 71 yerdən 32 yer tutulub, yerdə qalanı boşdur. Baytar feldşerlərdən 44 yerdən hazırda 14 yer boşdur. hərgah indiki maaşların üzərinə ayın 12-sində qəbul olunan maaşları artırsaq, yenə də az olar. O qayda ilə həkimlər alacaq 1270 manat. Quberniya təbibi tibb işlərinin

başında durur, alacaq 1470 manat. Mamalar tazə üsul ilə 858 manat, qeyriləri də bu qərar ilədir. Əlbəttə, bu üsul ilə heç bir həkim çağırmaq olmaz. Gələn olsa da onlardan tələb etmək olmaz ki, öz işləri olsun. Ona görə onların maaşları az olmağına görə, özləri üçün başqa iş tapıb pul qazanmaq məcburiyyətindədirlər. Səhiyyə nəzarəti bunları nəzərə alıb, maaşları artırmaq üçün layihə tərtib edibdir, bunların səhiyyə nəzarətinin fikrinə görə əvvəlcə bunlara bir məvacib təyin olunsun, sonra mal zəmli üstə gəlsin. Onda kəndlərdə, qəzalarda, şəhərlərdə həkimin məvacibi olur 1500 manat. O da oradakı hesabdarların məvaciblərinə bərabər olur. Baş həkim ancaq 100 manat artıq alacaq, baytarlar 1300 manat, quberniya baytarları 1500 manat. Bu qayda ilə mama və feldşerlərə 750 manat, baş feldşerlərə 850 manat. Nəzarət təklif edir ki, bu qayda ilə məvaciblər qəbul olunsun. Əkər bu qərar ilə əsl məvaçibləri qəbul edib cəmi də üstünə gəlsək, onda həkimlər alacaq 2.550 manat, feldşer 1387 manat, necə ki konselyariyada yazıçılar alırlar. Əlbəttə, bunlar həkimlər üçün çox olmazdı. Çünki həkimlərin nə gecəsi var, nə gündüzü. Bununla bərabər həkimlərin ayrı yerlərdən qeyri mədaxilləri olur. Bunun üçün bu məvacibləri az bilmirik. Bunu büdcə və maliyyə komisyonu qəbul edib, parlamanda qəbulunu təklif edir. Səhiyyə naziri yanvarın əvvəlindən qəbul edil-məsini rica edirdi. Fəqət, maliyyə büdcə komisyonu bunu lazım bilmədi. Doğrudur, müəllimlər üçün qəbul etdik. Çünki onların qeyri yerlərdən mədaxilləri yoxdur. Biz bilirdik bu vaxtadək o həkim ki, 1000 manat ilədi, onun dolanmasıdır, xüsusi iş ilə qazanmış, evinin ovzaini keçirmişdir. Bir də təzədən həkimlər qəbul ediləcəkdir, onun üçün iyulun 1-dən qəbul edilməsini təklif edərdik. Bundan əlavə burada bir təşkilat vardır — dəlixanadır. Bu dəlixana vaxtilə Bakı üçün bina edildiyindən 45 nəfərlikdir. Bundan indi bütün Azərbaycan istifadə edəcəyindən bunu bir qədər böyütmək lazımdır. Qafqazda su ilə tədavi edən dəlixana var, o da Tiflisdədir. hər nə qədər dəlilər müalicə edilməzsə, onlara öylə bir yer lazımdır ki, ğəmləri istirahətlə bölsünlər. Bunun üçün Bakı dəlixanasını genişləndirmək üçün səhiyyə nəzarətinə təklif edirik ki, Bakı dəlixanasına fikir versin, münasib də bir dəlixana tiksin.

**Rəis** - Layiheyi-qanuniyyənin əsasları üzərində kim danış-maq istərsə, vərəqə ilə yazıb bildirsin. Zahirən danışmaq istəyən [721 - 722] yoxdur. Danışmaq istəyən yoxdursa, səsə qoyuram. Layiheyi-qanuniyyənin 2-ci qiraətinə keçməyi səsə qoyuram. Kim layiheyi-qanuniyyənin 2-ci qəraətinə keçməsini qəbul edirsə, rica edirəm, əlini qaldırsın. (Əllər qalxır). Əksəriyyət ilə layiheyi-qanuniyyənin ikinci qiraətinə keçilməsi qəbul olunur. (Katibə) Mehdi bəy oxuyunuz.

**Katib** - (Layihənin birinci maddəsini oxuyur).

**Rəis** - Əvvəlinci maddə xüsusunda kim danışmaq istərdi? Zahirən danışmaq istəyən yoxdur. Etiraz edən yoxdursa, səsə qoyuram. Əvvəlinci maddəni hər kəs qəbul edirsə, rica edirəm, əlini qaldırsın. (Əllər qalxır). Əvvəlinci maddə əksəriyyət ilə qəbul olunur.

**Katib -** 2-ci maddəni oxuyur.

**Rəis** - Sırada natiq olmadığına görə 2-ci maddəni səsə qoyuram. Kim ikinci maddəni qəbul edirsə, rica edirəm, əlini qaldırsın. (Əllər qalxır). 2-ci maddə əksəriyyət ilə qəbul olunur. 3-cü maddəni oxuyunuz.

**Katib** - 3-cü maddəni oxuyur.

**Rəis** - 3-cü maddəni səsə qoyuram. Kim qəbul edirsə, rica edirəm, əlini qaldırsın. (Əllər qalxır). 3-cü maddə əksəriyyət ilə qəbul olunur. Layiheyi-qanuniyyənin üçüncü qiraəti qalır gələn iclasa.

Keçirəm növbədəki məsələyə. Növbədəki məsələ gəlir vergisindən azad olunan varidat miqdarının artırılması haqqında layiheyi-qanuniyyə. Məruzəçi Əbdüləli bəy Əmircanov.

**Əmirçanov** - 1917 sənəsi 13 iyun qanununa binaən gəlir vergisindən azad olunan varidatı — sənəviyyənin miqdarı min rubla təyin edilmişdi. Min rubla indiki bazar məzənnəsilə hətta bir adamın yomi birər girvənkədən sənəvi ətməkinə belə kifayət etməz. Ona görə maliyyə nazirinin təklifi böylədir ki, sənəlik varidat miqdarı min rubldan 5 min rubləyə kimi artırılsın və gəlir vergisi Də (5) mindən ziyadə varidatdan alınsın. Beləliklə 5 min rubldan fəzlə varidatdan 187 manat vergi alınsın. Bu da gizli qalmasın ki, bu vergi bu il üçün deyil, 1918-ci il üçün mülahizə olunubdur. Maliyyə büdcə komisyonu bu layihəni bir səslə qəbul edib təsdiq edilmək üçün şimdi parlamana pişnihad edir. Layiheyi-qanuniyyə böylədir: (Oxuyur). [722 - 723]

**Rəis** - Layiheyi-qanuniyyənin əsasları üzərində kim danışmaq istərdi? (Məruzəçiyə). Layihəni rusca da oxuyunuz.

**Əmircanov** - (Layihəni rusca oxuyur).

**Rəis** - Danışmaq istəyən yoxsa müsaidə versəniz səsə qoyum. (Kyüstera). Yusifbəy. Üzvləri çağırın (kyüster dişarida zəngi vurur, bayırda olan üzvlər salona daxil olurlar) əvvəlinci maddəni səsə qoyuram. Oxuyunuz.

**Əmircanov** - 1-ci maddəni oxuyur.

**Rəis** - Əvvəlinci maddəni səsə qoyuram. Kim qəbul edirsə, rica edirəm, əlini qaldırsın. (Əllər qalxır). Əksəriyyət ilə əvvəlinci maddə qəbul olunur. 2-ci maddəni oxuyun.

**Əmirçanov -** 2-ci maddəni oxuyur.

**Rəis -** 2-ci maddəni səsə qoyuram. Kim qəbul edirsə, rica edirəm, əlini qaldırsın. (Əllər qalxır). İkinci maddə əksəriyyət ilə qəbul olunur. Layiheyi-qanuniyyənin 3-cü qiraəti qalır gələn iclasa. Keçirəm növbədəki məsələyə. Növbədəki məsələ maliyyə nəzarəti gömrük vergisi şöbəsinin ehdası haqqında layiheyi-qanuniyyədir. Məruzəçi Əbdüləli bəy Əmircanov.

**Əbdüləli bəy Əmircanov** - (Hökumət təşkil edilən vaxt dokladını oxuyur). Üç növ vergi olduğuna görə üç kargüzar lazımdır ki, vergi işlərinə baxsın. Biri okladnoy sbor vərəqə üzrə; biri də ne okladnoy sbor vərəqəsiz, biri də gömrük (oxuyur). Sabiqdə maliyyə naziri Hacınski Məmməd Həsən parlamana bir ərzi-hal təqdim etmişdi ki, şöbə ikiyə bölünsün. Bu qanunu parlamanda keçməmiş. Yeni maliyyə naziri bu 2-ci şöbəni də ayrı bir şöbə öz müdiri ilə okladnoy işlərinə baxır; xüsusi şöbədə gömrük işlərindən ötəri istər okladnoy və ne okladnoy şöbələrinin smetası parlamandan keçibdir. Tazə gömrük şöbəsindən ötəri ildə 14 min rubla istənilir. Maliyyə və büdcə komissiyası əksəriyyətlə bunu qəbul edib, parlamana pişnihad edir. (Oxuyur). Bu yarım illik paranın yarısıdır. (Oxuyur). bu on min və yeddi min də əvvəldən qəbul olunmuşdur. Mərkəzi gömrük idarəsinə və artırılmasına 14 min rubla istənilir. (Rusca).

**Rəis** - Layiheyi-qanuniyyənin əsasları barəsində kim danış-maq istər. Aşurov Ağa.

**Aşurov** - Necəki burada dokladçik buyurdular bu məsələyə 2-ci dəfə baxılır. Yadınızdadır ki, əvvəlinci dəfə baxılanda mənim təklifimə görə parlamanın qərarı bu oldu ki, məsələ [723 - 724] ilə fraksiyalar aşina deyil, əvvəlcə fraksiyalara göndərilsin, sonra parlamana gəlsin. Odur ki, indi gəlir. Orada səbəb göstərilmişdi ki, gömrükxana işi maliyyə nəzarətində olmamalıdır. Ona görə də qaytarıldı. Bu barədə də burada bir şey deyilmədi. Məlumdur ki, tamojna işinə [nəzarət] həmişə Rusiyada ticarət nəzarətində olub; lakin Vitte məşhur Malbundan olduğundan və sonra Maliyyə naziri olduğundan hər işi öz öhdəsinə aldığı kimi bunu da öz öhdəsinə götürmüşdü. Məsələ Zaqafqaziya seymində də keçdi. Əvvəlki yoluna qaytarıldı. Tamojna işi ticarət komisyonuna qaytarıldı. həmçinin Azərbaycan təşkil olanda ticarət nəzarətində idi. Lakin Bakıya gələndən sonra maliyyə nəzarətinə verildi.

Məlumdur ki, ticarət məsələsi başqa, siyasət başqadır. Gömrükxana ilə ayrı şeylər olur. Buna bir mədaxil nəzərilər baxmaq olmaz. İndi nə görürsünüz, məsələn Kür, maliyyə nəzarəti nazirliyinə tabe olmalıdır. halbuki maliyyə naziri ilə gömrükxananın yalnız bir katibəsi var. Amma iş ticarət naziri ilədir. Gündə də gömrükxana ilə davası var. Biri yazır malı burax, digəri yazır yox. Bir kontrol maliyyə nəzarəti tərəfindən var, biri də ticarət nəzarətindən. Əgər baxsanız, görərsiniz ki, təcrübə nə göstərir. Gömrükxana idxalat ilə ixracatı tənzim edir, intizama salır. Düzdür gömrük alırıq, fəqət mən sual edirəm, deyilsin görək idxalat və ixracat işləri ancaq maliyyə nəzarətin öhdəsində olsunmu? Əsl məsələ də buradadır ki, bu iş ticarət nazirinin işidir.

Çünki orada mübadileyi-əmval və gömrük işləri vardır. Bunları da ticarət naziri bildiyi üçün əlbəttə, onun əlində olmalıdır. O vaxt ərz elədim, yenə təvəqqe edirəm bu əsas barəsində məruzəçi bizə bir şey buyursun, əgər məlumatı yoxsa yenə də layihə komisyonuna qaytarılsın, komissiya məlumat cəm edib parlamana pişnihad etsinlər.

**Rəis** - Bu barədə daha kim danışmaq istərdi? Danışmaq istəyən yoxsa, son söz məruzəçinindir.

**Əmircanov** - Layiheyi-qanuniyyə barəsində Ağa Aşurov buyurandan görünür ki, bu işlər gərək ticarət nəzarətində olsun, maliyyə nəzarətində olmasın. Bu işlərin hansı nəzarətdə qalması barəsində layihədə heç bir şey yoxdur. Fəqət, bilmirəm Ağa Aşurov hansı bir əsasla deyir ki, bu işlər Rusiyada ticarət nəzarətində olub. Vəhalanki Rusiyada 20 il deyil ki, ticarət nəzarəti təsis olmuşdur. O vaxta qədər ticarət nəzarəti yox idi. Ondan qabaq həmişə maliyyə nəzarətində olub. Bir şeydən ki, gəlir var maliyyə nəzarətində olmalıdır. Ona görə buna gəlir gözülə baxıldığından maliyyə nəzarətinə verilib. Fəqət, yenə ərz edirəm ki, burada bir elə şey yoxdur.

**Rəis** - Qanunən layihənin ikinci qiraətinə keçilməsini səsə qoyuram. Kim layiheyi-qanuniyyənin ikinci qiraətinə keçməyi qəbul edirsə, rica edirəm, əlin qaldırsın. (Ağa Aşurov yerindən: Bəs mənim təklifim nə oldu? Təklifim var). Rica edirəm. Səsə qoyulan zaman mane olmayasınız. hər kəs layihənin ikinci qiraəti tərəfdarıdırsa, rica edirəm, əlini qaldırsın. (Əllər qalxır). Əksəriyyət ilə layiheyi-qanuniyyənin ikinci qiraəti qəbul olunur. (Katibə) Oxuyunuz.

**Katib** - Layihənin birinci maddəsini oxuyur.

**Rəis** - Əvvəlinci maddə xüsusunda kim danışmaq istərdi?

**Aşurov** (yerindən) - Mənim təklifim var.

**Rəis** - Nə buyurursunuz Ağa?

**Aşurov** (yerindən) - Bəs mənim təklifim nə oldu?

**Rəis** - Məndə təklifzad yoxdur. Rica edirəm, əyləşəsiniz. Əvvəlinci maddə xüsusunda kim danışmaq istərdi. Danışmaq istəyən yoxsa, səsə qoyuram. Əvvəlinci maddəni hər kəs qəbul edirsə, rica edirəm, əlini qaldırsın. (Əllər qalxır). Əvvəlinci maddə əksəriyyət ilə qəbul olunur. 2-cini oxuyunuz.

**Katib** - 2-ci maddəni oxuyur.

**Rəis** - İkinci maddə xüsusunda kim danışmaq istərdi? Danışmaq istəyən yoxsa, səsə qoyuram. İkinci maddəni hər kəs qəbul edirsə, rica edirəm, əlini qaldırsın. (Əllər qalxır). İkinci maddə əksəriyyət ilə qəbul olunur. 3-ünü oxuyunuz.

**Katib** - 3-cü maddəni oxuyur.

**Rəis** - Üçüncü maddə xüsusunda kim danışmaq istərdi. Danışmaq istəyən yoxsa, səsə qoyuram. Üçüncü maddəni hər kəs qəbul edirsə, rica edirəm, əlini qaldırsın. (Əllər qalxır). Üçüncü maddə əksəriyyət ilə qəbul olunur. Dördüncünü oxuyunuz.

**Katib -** 4-cü maddəni oxuyur.

**Rəis** - Dördüncü maddə xüsusunda kim danışmaq istəyir. Danışmaq istəyən yoxsa, səsə qoyuram. Kim 4-cü maddəni qəbul edirsə, rica edirəm, əlini qaldırsın. (Əllər qalxır). Dördüncü maddə də əksəriyyət rəylə qəbul olunur. 5-ci maddəni oxuyunuz. [725 - 726]

**Katib** - 5-ci maddəni oxuyur.

**Rəis** - 5-ci maddə xüsusunda kim danışmaq istərdi. Danış-maq istəyən yoxsa səsə qoyuram. Kim 5-ci maddəni qəbul edirsə, rica edirəm, əlini qaldırsın. (Əllər qalxır). 5-ci maddə əksəriyyət ilə qəbul olunur. Layiheyi-qanuniyyənin üçüncü qiraəti qalır kələn iclasa. Növbədəki məsələ maliyyə nazirinə ikin-ci müavin təyini xüsusunda layiheyi-qanuniyyədir. Məruzəçi Əbdüləli bəy Əmircanov.

**Əmirçanov** - Maliyyə nəzarətinin 21 oktyabr 1918-də təsdiq edilmiş ştatında maliyyə naziri üçün yalnız bir müavin məmuriyyəti vardır. Müruri zaman ilə hal-hazırda maliyyə nəzarəti idarəsinin mərkəzi idarəsi cəhəti fövqəladə genişləndirir, belə ki, maliyyə nazirinin maliyyə işlərindən baş-qa bir işi də budur ki, ayda 605 milyon paranı mədənçilər arasında təmsil edər. Bundan başqa bank və kredit işləri maliyyə nəzarətinə keçmişdir ki, bu işlər bu vaxta qədər hökumət bankı müəssisənin vəzifəsi idi. Bundan əlavə hökumət parası çıxarmaq və kredit işləri maliyyə naziri öhdəsində qalmışdır. Maliyyə naziri böylə bir layiheyi-qanuniyyə təqdim edib bu işləri iki müavin arasında bölmək istəyir. Bu müavinlərdən biri hökumət parası çıxarmaq və hazırlamaq işlərinə, digəri idarə işinə və sair işlərinə baxacaqdır .

Həmin müavinə ildə 60.300 rubla məvacib təklif edilir. Maliyyə büdcə komisyonu əksəriyyət ilə bu layiheyi-qanuniyyəyi qəbul edib, təsdiq olunmaq üçün parlamana təqdim edir. Layihə böylədir. (Oxuyur).

**Rəis** - Məruzə xüsusunda kim danışmaq istərdi? Danışmaq istəyən yoxsa, səsə qoyuram. Komissiyonun təklifinə görə maliyyə nazirinə ildə 60 min maaş ilə ikinci bir müavin lazımdır. Kim bu təklifi qəbul edirsə, rica edirəm, əlini qaldırsın. (Kyüsterə) Kvorum varmı?

**Kyüster** - var.

**Rəis** - Komisyonun təklifini hər kəs qəbul edirsə, rica edirəm, əlini qaldırsın. (Əllər qalxır). Kim əleyhinədir? (Əllər qalxır). Kim səs verməyib? (Əllər qalxır). Lehinə 24, əleyhinə 13, səs verməyən 9. Əksəriyyət rəylə komisyonun təklifi qəbul olunur. Növbədəki məsələyə keçmədən beş dəqiqəlik tənəffüs elan edirəm.

**Tənəffüs elan olunur.**

**Tənəffüsdən sonra.**

**Rəis** - İclas davam edir. Növbədəki məsələ yer və tövci vergiləri xüsusunda layihəyi-qanuniyyələr. Sonra sırada Məclisi-Müəssisan seçkiləri qanun layihəsinə keçərik. 16 maddə qalıbdır. Söz Rza bəy Ağabəyovundur.

**Ağabəyov** - Bu yer tövci vergisi məsələsi 3-cü, 4-cü səfərdir, ki müzakirəyə qoyulur, amma heç müzakirə edilməyir. İndi də mənə deyilir ki, təxir edilsin. Çünki bu qanundan gəlir və mədaxil gözlənir; ona görə də təklif edirəm ki, əvvəlcə bunun barəsində danışılsın. Mümkün olsa bunu tez qurtaraq.

**Rəis** - Mehdi bəy Hacınski.

**Mehdi bəy Hacınski** - Möhtərəm məbuslar! Məncə Məclisi-Müəssisan layihəsi daha lazımlıdır. Düzdür, tövci vergisi məsələləri lazımlıdır; lakin onlardan gözlənilən verginin vaxtı keçməyir; hər vaxt almaq mümkündür. Məclisi-Müəssisana hazırlaşaq, ona görə təklif edirəm, əvvəl bu məsələyə baxılsın.

**Rəis** - Təklifi səsə qoyuram. (Rusca). Divani-Rəyasətin əvvəlcə Məclisi-Müəssisan seçkinin layiheyi-qanuniyyəsinə baxması təklifini səsə qoyuram; kim qəbul edirsə, rica edirəm, əlini qaldırsın. Əksəriyyəti ilə qəbul olunur. Növbədəki 90-cı maddədir. Əvvəlcə, müsaidəniz ilə komisyonlara namizədlər göstərilməlidir. Komisyonlara bu namizədlər göstərilir. Torpaq komisyonuna Rüstəmbəyov, Baxış bəy və Qara Ağazadə, Əhməd Həmdi fəhlə komisyonuna, Baqradze (Tsaxakaya əvəzinə) layiheyi-qanuniyyə komisyonuna Camalbəyov əvəzinə Rzayev, Kun və Baqradze.

**Rəis** - Məmməd Əmin.

**Məmməd Əmin Rəsulzadə** - Namizədlər haqtında keçəndə bir tərtib var idi Tsaxakaya, əqəliyyətdə qalanların namizədi idi. Onun əvəzinə Baqradze göstərilir. Bu doğru olmaz. Çünki Baqradze sosialistlər fraksiyasına mənsub olduğunu elan etdi. O vaxt sosialistlərdən üç adam intixab edilmiş olur. Əgər əqəliyyətdə qalanların başqa namizədləri varsa, onu göstərsinlər.

**Rəis** - Burada Kun da var. Növbədəki 90-cı maddədir. Katib oxuyunuz. (Mehdi bəy oxuyur).

**Rəis** - 90-cı maddə xüsusunda kim danışmaq istərdi? Yoxsa səsə qoyuram. Kim qəbul edirsə 90-cı maddəni əlini qaldırsın. 90-cı maddə əksəriyyətlə qəbul olunur. [727 - 728]

**Katib** - 91-ci maddəni oxuyur.

**Rəis** - 91-ci maddəni səsə qoyuram. Kim qəbul edirsə, rica edirəm, əlini qaldırsın. 91-ci maddə əksəriyyət rəylə qəbul olunur.

**Katib** - 92-ci maddəni oxuyur. **Rəis -** Rza bəy Ağabəyov.

**Ağabəyov** - Burada deyilir ki, hər kəs namizədlər barəsində yalan xəbər nəşr edər, cəzalanacaq, özü də şiddətli. Bu ümumi qanunda var. Böylə bir qanun ola-ola Mən bunu artıq bilirəm. Təklif edirəm ki, bu qanun götürülsün.

**Rəis** - Daha kim danışmaq istərdi. Danışmaq istəyən yoxsa axırıncı sözü məruzəçiyə verirəm.

**Məmməd Əmin** - Natiq əfəndinin söylədiyi doğrudur. Bir şəxsin haqqında yalan deyilsə, yalançı cəzalanar. Lakin bura-da başqa şeylər də var. Divarlardan vərəqələri cıranlara cəza verilməlidir. Bir də yalan danışmaqda müttəhim edilənlərə cəza veriləcək ki, bu da intixab nəticəsinə sui-təsir edə bilər. Buna görə də cəzanı şiddətləndirmək təqti-qərara alınmışdır. Bununla yalan danışanların cəzası bir qədər də artıq olarsa, kimsə bundan mütəzərrir olmaz. Bəlkə yalan danışma kimi bir əməlin qarşısını almış olarıq. Komisyon-da buna ayrıca əhəmiyyət verilmişdir; Vaxta ki, yalan danışan cəzalanır,qoy bir az da artıq cəzalansın.

**Rəis** - 92-ci maddəni səsə qoyuram. Kim qəbul edirsə rica edirəm əlini qaldırsın. Əksəriyyət rəylə qəbul olunur.

**Katib** - 93-cü maddəni oxuyur.

**Rəis** - Səsə qoyuram 93-cü maddəni, qəbul edənlərdən, rica edirəm, əlini qaldırsın. 93-cü maddə əksəriyyət rəylə qəbul olunur.

**Katib** - 94-cü maddəni oxuyur.

**Rəis** - 94-cü maddəni səsə qoyuram. Kim qəbul edirsə, rica edirəm, əlini qaldırsın. Əksəriyyət rəylə qəbul olunur.

**Katib** - 95-ci maddəni oxuyur.

**Rəis** - 95-ci maddəni səsə qoyuram. Qəbul edənlərdən, rica edirəm, əlini qaldırsın. Əksəriyyət rəylə qəbul olunur.

**Katib** - 96-cı maddəni oxuyur.

**Rəis** - Sultan Məcid Qənizadə.

**Sultan Məcid Qənizadə** — Mən bu maddə xüsusunda istərdim danışam. Burada deyilir ki, kilsə və məscidlərdə moizə [728 - 729] sayaqında ruhanilər tərəfindən təbliğat olunmasın. Kilsədə bu müamaniət etmək olursa, məsciddə də olmalıdır. Çünki nə məscidlər kilsə kimidir, nə də mollalar keşiş kimi. Ancaq mən deyərdim ki, məscidin mənası bu mənada qanılmasın. Keşişlər gəlib kilsələrdə dua edib gedirlər. Lakin ruhanilər böylə deyildir. Mühüm məsələlərimiz bizim həmişə məsciddə həll edilmiş. Ruhanilərimiz də həmişə cəmaət üçün rəhbər olmuşlardır. Onlar nəinki dua və namaz işində, hətta dünyəvi işdə də, məsələn ticarət və qeyr işlərdə cəmaətə rəhbər və yol göstərən olurlar. Çünki məzhəb eylə bir məbəddir ki, ruhani işlərlə bərabər dünyəvi işlər də, ticarət və sənaət kimi gərək şəriət yolu ilə olsun. Bunu dedikdə ki, moizə olunmasın, bu da kinayədir üləmay. Məscidlərin həyətində seçki xüsusunda moizə sayağında söz danışmasınlar. halbuki ruhanilər malidin, nasiri millətdirlər. Bəlkə bir növ onlara ehtiramsızlıq göstərilir. Qabaqkı maddələrin birində zabitləri və polisləri intixabatdan məhrum etdik ki, onlar seçki işlərinə təsir göstərməsinlər. Ruhanilər haqqında bu iş tətbiq olunarsa, onda onları polis məmurları ilə müqayisə etmiş olarıq və halanki, polis seçki yerinə gələndə əlində taziyanə və qamçı ilə gəlir, ruhanilər isə moizə ilə gəlirlər. Vaxtaki biz İslam səltənəti istəyirik, gərək əsasımız doğru yol ilə olsun. Bu doğru yolda bizə ruhanilər göstərəcək ki, hanki yol savabdır. Onları nə üçün uzaq qoyaq; o işlərdəki onlar hər zaman rəhbər olurlar. Nə üçün Məclisi-Müəssisan seçkilərində rəhbər olmasınlar. Gələcəkdə onlar millətin və cümhuriyyətin səadətinə zamindirlər. Mən iltimas edərdim, bu maddə buradan çıxsın. Hər gah keşişlərin haqqında qalsalar da mollalar üçün qalmasın. Kilsələrdə olsa da məscidlərdə olmasın. Mən bununla bunu deməyirəm, məscidlər kilsələrdən, mollalar keşişlərdən artıq olsunlar. Mən deyirəm ki, islamiyyətdə məscid, kilsə kimi deyil. Məsciddə cəmaətin ümumi məsələləri həll olunur.

**Rəis** - Sırada natiq olmadığından... Söz Əhməd Cövdət bəy Pepinovundur.

**Əhməd Cövdət** - Möhtərəm Sultan Məcidin fikrinə heç vaxt iştirak edə bilməyəcəyəm. Burada ruhaniləri ayırmaq, biri məscidə, digəri kilsədə ayrı-ayrı gördüklərini söyləmək düz deyildir. Bütün kilsələrdə və məclislərdə görülən iş ancaq [729 - 730] Allaha ibadət və ruhani vəzifələri ifa etməkdən ibarətdir. Əgər başqa görünürsə, o da ancaq məscidlərin özünə aiddir. Rus kilsəsi tarixinə baxsaq görərik ki, rus kilsəsində məscid kimi ictimai işlərə qarışıblar. Kilsə dairəsində ictimai məsələlər həll olunubdur. Ona görə bizim ruhanilər ictimai işlərə qarışır, onlara yox demək doğru deyildir. Onları ayırmaq düz deyildir. Layihədə qoyulan maddə doğru qoyulubdur. Bilirsiniz ki, seçki vaxtı bir çox nalayiq danışıqlar və nalayiq sözlər söylənilir. Əkər məsciddəki ruhaninin işi xalqa ruhani qida verməkdir, Bir firqə tərəfindən təşviqat yoxsa, o vaxt başqası da çıxıb cavab verdikdə Allahın evində bihörmətçilik olar. Bu maddə ruhaniləri mühafizə edir. Ruhanilər mitinqlərdə başqa vətəndaşlar kimi gedib danışa bilərlər. Ancaq Allahın evindən istifadə edib bir firqə tərəfindən təşviqat yapmaq ruhanilər üçün doğru deyildir. Onu da bilməli ki, ruhanilərin bir qismi hökumətə mərbut olub, təxsisat alır. Məsələn qazi, Şeyxülislam və qeyriləri. hökumət başında duran bir firqə ola bilər ki, hökumət əlilə ruhanilərə bir dəsturüləməl versin ki, təşviqat yapsınlar. Bir də qeyri firqələrin ixtiyarını əlindən almaq deməkdir. Demokratik hökumətlərdə bu qəbul edilmiş bir əsasdır. Gərək buna etiraz olmasın. Komisyonun təklifi qəbul olunsun.

**Rəis** — Söz Mehdi bəy Hacınskinindir.

**Mehdi bəy** — Mən Sultan Məcid əfəndinin nitqinin ikinci hissəsindən bəhs etmək istəyirəm. Qabaqda oxuduq ki, polis məmurları seçkidən məhrum edilirlər. Ruhanilər isə bundan məhrum deyildirlər. Ruhaniləri polislərə qarışdırmamalıdır. Çünki ruhanilər küçələrdə, mitinqlərdə və qeyri yerlərdə təşviqat yapa bilərlər. Lakin məscid kimi yerlərdə firqələr haqqında təşviqat və təşrifat yapılmamalıdır. Əhməd bəy dediyi kimi ola bilər ki, hökumətə mərbut ruhanilər hökumətin əmrinə görə bir firqənin haqqında təşviqat yapmaqla başqalarını seçkidən məhrum etsinlər. Ona təklif edərdim ki, komisyonun bu qərarı qalsın.

**Rəis** — Söz Sultan Məcid Qənizadənindir.

**Sultan Məcid Qənizadə** — Mən bunu demək istəyirəm ki, hərgiz mən o təsəvvürdə deyiləm ki, məscid ilə kilsəyə, molla ilə keşişə təfavüt qoyum. Mən onun tərəfdarı idim ki, mollaya da, keşişə də məscid və kilsə həyatində təbliğata izn verilsin. [730 - 731] Ancaq onu dedim mən ki, bu qayda hər gah xristianlar-da yoxsa, islam aləmində qədimdən belədir. Ola bilər ki, keşiş dünyəvi işlərdən danışmasın. Lakin mollanın borcudur danışsın. Ələlxüsus seçki məsələsi ki, məmləkət və millət üçün işləmişdir. Bunun nəticəsi cümhuriyyətin və millətin səadətinə səbəb olacaqdır. Ruhaniləri bu qədər müqəddəs işdən məhrum edək? Bu biri. İkinci də Mehdi bəy deyir ki, polis və jandarma seçkidən məhrumdurlar. Ona görə biz də səs verdik ki, polis bu işə qarışmasın, çünki polis gələndə qamçı ilə, taziyanə ilə gəlir. Qoymayır ki, xalq rəyini desin. Ruhanilər isə vəz və moizə ilə gəlirlər. Başqa bir şey ilə gəlsə o vaxt o ruhani deyilmiş. hər bir məsləhət olanlara verdiyimiz halda aya bu məsələni olmazmı onlara verək. Ona görə mən deyərdim ki, o maddə layihədən çıxsın. Çünki bir növ ruhanilərin şənin əskildir. Təklif edərdim ki, yazdığım kimi qəbul olunsun.

**Rəis** — Son söz məruzəçinindir.

**Məmməd Əmin** — Bu məsələyə əsas bir nöqteyi-nəzərlə baxmaq lazımdır. Burada üləma və ruhanilərin heysiyyətinə toxunacaq heç bir şey yoxdur. Bir dəfə bilməli ki, əsri hazırda, bir zamanda ki, xalq cümhuriyyəti elan etmişik, bir zamanda ki, bütün hakimiyyət millət əlindədir və bütün qanunlar xalqın rəyilə hakimiyyəti milliyə əsasından çıxacaqdır. Xalqın intixab etdiyi məbuslar millət və məmləkətin nə üsulla idarə olunacağı xüsusunda qanunlar çıxaracaqdır. Böylə bir zamanda əsrlər ilə bundan əvvəlki, əsasları qurmaq zəmini deyildir. O zaman çoxdan keçmişdir.

Əfəndilər! Üləmanın vəzifəsi bir vəzifeyi-diniyyə olduğundan müqəddəsdir. Məscidlərdə vəz etmək müqəddəs bir vəzifədir. Deyirlər ki, seçki də müqəddəsdir. Müqəddəs bir işdən ruhaniləri məhrum etmək olmaz. Lakin bunu bilməli ki, dini məsələlər ilə olan rabitə başqa, dünya işləri isə bam başqadır. Dünya mübarizəsi, siyasi mübarizə, məncə dürlü tənqidlər, münaqişələrlə doludur. Bunun qüdsiyyəti əlbəttə ki, din məsələsindən, qüdsiyyətdən başqadır. Dini qüdsiyyət isə ancaq axirətə aiddir, nöqteyi-nəzərilə bu dünya və onun məsələləri cifeyi-dünyayi qüdsiyyəti ilə baxmaq olmaz. Əgər diqqətli olsanız dünya məsailində qətiyyən dini məsaildəki mənada bir qüdsiyyət yoxdur. Etiqadlar tənqidin, mühakimənin fövtündədir. Halbuki [731 - 732] siyasi etiqadlar daima tənqid bərdardır. Bir şey ki, tənqidə və mühakiməyə məhkumdur, onda qüdsiyyət aramaq əbəsdir. Bir də gərək diqqət edəsiniz ki, seçkilər millət rəyinin azadlığından hasil olmalıdır. Ona görə bütün polis məmurlarının, qaradovoyların və başqa hakimlərin seçkidən məhrum edilməyə həqləri əlindən alınır. Bu nə üçündür? Digər cümhuriyyət əhllərinin hürriyyəti olduğu kimi bu da hər bir vətəndaşdır, niyə seçkidən məhrum edilsin. Ona görə ki, bununla neçə başqalarının azad səs verməsini təmin edirsiniz. Bizə deyirlər ki, qaradavoy, polis ağac ilə, qamçı ilə, ruhanilər isə vəz ilə gələcəklər. Fəqət, siz məni təmin edərmisiniz ki, qaradovoylar qamçı ilə gəldikdə bəzi ruhanilər lənətlər və küfrlərlə gəlməyəcəklər? Qaradovoyun əlində ağac varsa, ruhanilərin də küfrü, lənəti vardır. (Alqışlar). (Sultan Məcid yerindən: O ruhani deyil, o mərsiyəxandır). Əvət, keçən sənə bunun təcrübəsini gördük, sizə məxsus olan ruhaninin birinin nə eylədiyini gördük. Ona görə daha imkan vermərik ki, Allahın evindən istifadə edib, yenidən küfrlər yağdırıb, təşviqat yapmaqla məqsədlərinə nail olsunlar. Bir də əfəndilər, bunu bilməlisiniz üləmanın vəzifəsi bitərəfanə xalqı haqq yoluna çəkməkdir. Fəqət, insan bir siyasi firqəyə mənsub olursa, bitərəf qalanmaz. Bir zamandakı firqələr rəqabətə çıxmışlar, bir zamanda ki, hissiyyat oynamış, bir zamandaki, firqə məşru və qeyri məşru vasitələrlə tərəfi — digəri məğlub etmək istəyir, bir zamanda ki, hissiyyat coşmuş, firqələr mübarizə və münaqişədə əhalisini bir sinfi digərilə mübarizə və rəqabətə qalxmış, böylə bir zamanda yeganə bir sülh yeri varsa ki, barışmaq üçün oraya müraciət etməlidir, o da məcsiddir. Belə zamanlarda üləma sülh sozilə gəlib firqələrə nəsihət etməlidir. Lakin ülələmalar da bu keşməkeşdə desə ki, haqq filan firqənindir; filan firqə isə paxıldır, o zaman məscidlər bir ixtilaf yeri olar və mitinqlərdə görünməyən vuruşmalar araya gələr və üləma sülh-səlahə çağırıb, xalqı barışdırmalı ikən, minbərlərdən doğru bilmədiyi firqələr üzərinə küfrlər yağdırmaqla atəş üzərinə yağ tökəcəkdir. Bir alim bütün ibadullahi bir nəzərdə görməlidir. İbadullah məscidə gedib xüzü - xüşu hüzuru allahidə dünya dəğdəğəsini unutmaq istərkən minbəri, məscidi, məscid və vaizi də siyasətdə qatışdırasınız, istər istəməz siyasətə qarışmaya [732 - 733] məcbur edərsiniz. Bu surətlə zavallı vətəndaşı bura-da da onu rahat qoymayacaqsınız, bir alim ki, minbərdən məsələn "Müsavata" və ya "İttihada" zidd gedə, minbər dibində oturmuş dikər bir vətəndaşın da haqqı var ki, çıxıb ona etiraz etsin. Bir başqası da ona etiraz edərsə, o zaman soraram sizə burası məscid olur? Onda ora məscid olmaz, olar dünya meydan dəğdəiəsi, bununla din nümayəndələrinin həqiqi-hörmətini

artırmayacaq, azaldacaqsınız. Çünki mənim məsləkimə minbərdən biri zidd gedərsə, əmin olunuz ki, bu zidd gedən alim də olursa, mən ona etiraz edəcəyəm. Ona qarşı hörmət bəsləməyəcəyəm. İndi söyləyiniz qalarmı hörməti o üləmanının, qətiyyən qalmaz. Əgər istəyirsiniz ki, məscid bir möhtərəm bir vasitə, sülh və səlah olsun, qoyunuz o bitərəf və müqəddəs qalsın. Əgər istəyirsiniz ki, din nümayəndələrinin heysiyyəti baqi qalsın, əkər istəyirsiniz ki, məscid məscidli-yində bulunsun dünya vaqeələrini oraya daxil etməyin, buraxınız orası ancaq ibadət üçün qalsın. Əlhəzər ruhaniləri siyasətə qarışdırmayın, onları bir mətah kimi saxlayınız ki, biz vuruşanda bir müşəvviq ata kimi gəlib bizə münsüf olsunlar və desinlər ki, vuruşmayın. Nəinki mübarizə zamanı onlar da gəlib desinlər ki, ura. O zaman iğtişaş çıxar, fəsad olur. Bu böylədir. Bir alim ittihadçı, digəri müsavat, sosialist olursa, bir üləmanın biri çıxıb deyir ki, səsinizi filan firqəyə verin, ardınca da mərsiyəxan da çıxıb səsinizi filan firqəyə verin, o yalan deyir desə, o vaxt nə olar? Belə məsciddən nə çıxar? İştə bu noqteyi-nəzərdən məscidləri mübariz siyasi firqələr arasında bir amil sülhü-səlah üzrə saxlamaq üçün bu maddə qəbul edilməlidir. Lakin bir alim minbərdən kənar bir yerdə, məscidin xaricində kəndi fikir və əqidəsini söyləyə bilər. Kimsə buna mane deyil. Fəqət, öz siyasi firqəsindən ötrü məscidi bir ələti-istifadə qayırmasın, xalqın hüzuri-ilahidə xüzü xüşü ilə duracaq bir vəziyyətindən istifadə edib istədiyi tərəfə sürməsin, məscid ilə minbər bitərəf qalsın. Alimlər xalqı sülh səlaminə irşad edib, məscid də siyasi işlərdə iştirak etməsin (alqışlar).

**Rəis** - Əvvəl Qənizadənin təklifini səsə qoyacağam. Təkli-fin məzmunu böylədir (oxuyur): "Kilsə və məscid, habelə ruhanilərin moizəsi xüsusunda olan maddə götürməli". Hər kim Sultanməcid Qənizadənin oxuduğu təklifini qəbul edirsə, rica [733 - 734] edirəm, əlini qaldırsın. Kim əleyhinədir. Əksəriyyət rəy ilə təklif qəbul olunmayır. Hər kim 96-cı maddəni qəbul edirsə, rica edirəm, əlini qaldırsın. Əksəriyyət rəy ilə 96-cı maddə qəbul olunur. 97-cini oxuyunuz.

**Katib** - 97-ci maddəni oxuyur.

**Rəis** - 97-ci maddə xüsusunda kim danışmaq istərdi? Yoxsa, səsə qoyuram. Kim 97-ci maddəni qəbul edirsə, rica edirəm, əlini qaldırsın. 97-ci maddə əksəriyyət rəy ilə qəbul olunur.

**Katib** - 98-ci maddəni oxuyur.

**Rəis** - Kim danışmaq istərdi bu xüsusda?

(Kyusterə) Yusif bəy çıxanları çağırınız, kvorum yoxdur, səsə qoyacağam. 98-ci maddəni səsə qoyuram, kim qəbul edirsə, rica edirəm, əlini qaldırsın. 98-ci maddə əksəriyyət rəylə qəbul olunur.

**Katib** - 99-cu maddəni oxuyur.

**Rəis** - 99-cu maddəni səsə qoyuram. Qəbul edənlərdən, rica edirəm, əlini qaldırsın. 99-cu maddə əksəriyyət rəylə qəbul olunur.

**Katib** - 100-cü maddəni oxuyur.

**Rəis** - Yüzüncü maddəni səsə qoyuram, qəbul edən əlini qaldırsın. Qəbul olunur, yüzüncü maddə.

**Katib** - Yüz birinci maddəni oxuyur.

**Rəis** - Yüz birinci maddəni səsə qoyuram. Qəbul edənlərdən, rica edirəm, əlini qaldırsın. Qəbul olunur 101-ci maddə.

**Katib** - 102-ci maddəni oxuyur.

**Rəis** - 102-ci maddəni səsə qoyuram. Kim qəbul edirsə, rica edirəm, əlini qaldırsın. Əksəriyyət rəy ilə yüz ikinci maddə qəbul olunur.

**Katib** - Yüz üçüncü maddəni oxuyur.

**Rəis** Yüz üçüncü maddəni səsə qoyuram. Qəbul edənlərdən, ri-ca edirəm, əlin qaldırsın. 103-cü maddə əksəriyyət rəylə qəbul olunur.

**Katib** - 104-cü maddəni oxuyur.

**Rəis** - 104-cü maddəni səsə qoyuram, hər kim qəbul edirsə, rica edirəm, əlin qaldırsın. Əksəriyyət rəy ilə 104-cü maddə qəbul olunur.

**Katib** - 105-ci maddəni oxuyur. [734 - 735]

**Rəis** - 105-ci maddəni səsə qoyuram, hər kim qəbul edirsə, rica edirəm, əlin qaldırsın. Əksəriyyət rəy ilə 105-ci maddə qəbul olunur.

**Katib** - 106-cı maddəni oxuyur.

**Rəis** - 106-cı maddəni səsə qoyuram, rica edirəm, hər kəs qəbul edirsə, əlini qaldırsın. Əksəriyyət rəylə 106-cı maddə qəbul olunur.

**Katib** - 107-ci maddəni oxuyur.

**Rəis** - 107-ci maddəni səsə qoyuram. Üç qisimdən ibarət olan 107-ci maddəni hər kəs qəbul edirsə, əlini qaldırsın. Əksəriyyət rəy ilə qəbul olunur.

**Katib** - 108-ci maddəni oxuyur.

**Rəis** — 108-ci maddəni səsə qoyuram, kim qəbul edirsə, rica edirəm, əlini qaldırsın. Əksəriyyət rəy ilə 108-ci maddə qəbul olunur.

**Katib** - 109-cu maddəni oxuyur.

**Rəis** - 109-cu maddəni səsə qoyuram, hər kim qəbul edirsə, rica edirəm, əlin qaldırsın. Əksəriyyət rəy ilə 109-cu maddə qəbul olunur.

**Katib** - 110-cu maddəni oxuyur.

**Rəis** - 110-cu maddəni səsə qoyuram. Kim qəbul edirsə, rica edirəm, əlini qaldırsın. Əksəriyyət rəy ilə 110-cu maddə qəbul olunur.

**Katib** - 111-ci maddəni oxuyur.

**Rəis** - 111-ci maddəni səsə qoyuram. Kim qəbul edirsə, rica edirəm, əlini qaldırsın. 111-ci maddə əksəriyyət rəylə qəbul olunur.

**Katib** - 112-ci maddəni oxuyur.

**Rəis** - 112-ci maddəni səsə qoyuram. hər kim qəbul edirsə, rica edirəm, əlini qaldırsın. Əksəriyyət rəy ilə 112-ci maddə qəbul olunur.

**Katib** - 113-cü maddəni oxuyur.

**Rəis** - 113-cü maddəni səsə qoyuram, qəbul edənlər, rica edirəm, əlini qaldırsın. Əksəriyyət rəy ilə 113-cü maddə qəbul olunur.

**Katib** - 114-cü maddəni oxuyur.

**Rəis** - 114-cü maddəni səsə qoyuram. Hər kim qəbul edirsə, rica edirəm, əlini qaldırsın. 114-cü maddə əksəriyyət rəy ilə qəbul olunur. [735 - 736]

**Katib** - 115-ci maddəni oxuyur.

**Rəis** - 115-ci maddəni səsə qoyuram. Kim qəbul edirsə, rica edirəm, əlini qaldırsın. Əksəriyyət rəy ilə 115-ci maddə qəbul olunur.

**Katib** - 116-cı maddəni oxuyur.

**Rəis** - 116-cı maddəni səsə qoyuram. Hər kim qəbul edirsə, rica edirəm, əlini qaldırsın. Əksəriyyət rəy ilə 116-cı maddə qəbul edilir. Layiheyi-qanuniyyənin 3-cü qiraəti gələn iclasa qalır.

Vaxtın təng olduğundan məclisi qapayacağam lakin iki dəqiqə müsaidə versəniz seçki nəticələrini elan edəcəyəm. Xahiş edirəm məbuslardan iki nəfər gəlsin vərəqələrə baxmağa.

**Səslər** - Lazım deyil. Lazım deyil.

**Rəis** (oxuyur) - Lavayehi-qanuniyyə komisyonuna Rzayev Bağır 24 səs ilə, torpaq komisyonuna Baxış bəy Rüstəmbəyov 35 səs ilə, ləvazim komisyonuna Rzayev Bağır 24 səs ilə. Seçki nəticəsində ancaq 3 komisyona adam seçilib. Lakin o biri komisyonlara seçilənlər 5-6 səs alıblar. Buna görə də o biri komisyonlara gələn iclasda seçki olacaq. İclası qapayıram.

(İclas saat 3.25 dəqiqədə qapanır).

**Arxiv, f. 895, siy, 1 iş. 94, vər. 94-107.**

## № 50

## Əllinci iclas

*23 iyun 1919-cu il.*

**Rəis** — Həsən bəy Ağayev. **Katib** — Əhməd Cövdət.

İclas açılır gündüz saat 12.20 dəqiqədə.

**Rəis** — İclas açılır. Bugünkü? müzakirati-yomiyyəmiz böylə tərtib edilmişdir: |

1 — Təbiblərin və baytarların yeni maaşları haqqında layiheyi-qanuniyyənin 3-cü qiraəti; 2 — Gəlir vergisindən alı-nan varidat miqdarının artırılması haqqında layiheyi-qanuniyyə (Üçüncü qiraəti); 3 — Maliyyə nəzarətində gömrük şöbəsinin ehdası haqqında layiheyi-qanuniyyə (Üçüncü qiraət); 4 — Maliyyə nazirinə ikinci müavin təyini haqqında layiheyi-qanuniyyənin 3-cü qiraəti; 5 — Yer və tövci vergilərinin artırılması ilə bərabər gəlir və məxaric smetasının və torpaq vergisi miqdarının 1919 sənəsinə təmdidi haqqında layiheyi-qanuniyyə (birinci qiraət, məruzəçi Rza bəy Ağabəyzadə); 6 — Məclisi-müəssisan seçkiləri haqqında layiheyi-qanuniyyə (üçüncü qiraəti); 7 — Hökumət ədnində xüsusi təftişat və təhqiqat komisyonunun təşkili haqqında layiheyi-qanuniyyə (Məruzəçi Şəfi bəy Rüstəmbəyli; 8 — Parlaman divani-rəyasəti və lavazim heyəti üçün iki avtomobilin səkkiz aylıq məxaric smetası haqqında layiheyi-qanuniyyə daxil olmuş kağızlar, o cümlədən:

a) — Erməni fraksiyasının daxili nəzarətinə, kilsə həyatində 11 iyun təhəri haqqında; b) — Maliyyə nəzarəti cümbündə qeyri hisseyi-şaybi vergilərinin ("Ne okladnoy sbor) əzası şöbəsi təsisi haqqında layiheyi-qanuniyyə; v) — vergi məmuriyyətlər hissələrində qapıçı tutulması üçün əlavə olaraq min rubla təxsis edilməsi haqqında layiheyi-qanuniyyə; q) — Cinayət işlərində sülh məhkəmələrini daireyi-nüfuzunu tövsi və sülh hakimləri hökmünün təqdiri ilə əmvali-xassəyə qarşı icra olunan bəzi cinayətlərə biçiləcək qanunların təbdil və təğyiri haqqında layiheyi-qanuniyyə; d) — Məhkəmeyi-hərbiyyə qanununun 15-ci maddəsinin təğyiri haqqında layiheyi-qanuniyyə; e) — Azərbaycan daxilindən xaricə aparılan spirtli içkilərdən üzüm, şərab və pivə — istisna olmaq şərtilə, alınan vergilərin miqdarı haqqında layiheyi-qanuniyyə.

Parlamanın keçən iclasda 10 günlük tətil edilməsi qərarının ləğvi. İyunun 27-də saat 11-də parlamanın fövqəladə iclası dəvət edilir. Bugünkü yomiyyeyi müzakiratda eşitdiniz ki, məclisi-müəssisan seçkiləri haqqındakı layihənin üçüncü qiraəti vardır. Bu səhv olub. Çünki nakaz üzrə ikinci qiraəti əsnasında təshihat olmuşdur. Bu təshihat yığılıb təshih komisyonuna qayıtmalıdır. Bu olmayıb, ona görə rica edərdim ki, bu məsələ növbədən götürülsün. Sonra irəlidə iki-üç mühüm məsələ vardır. Onlardan biri Azərbaycan ilə Gürcüstan arasındakı əqdnamənin qəbul edilməsidir. Bu da bir neçə günün ərzində qəbul olunmalıdır. Biri də Qarabağa gedib qayıdan parlaman komisyonunun məruzəsidir. Bunlara baxmaq üçün cümə günü iyunun 27-də səhər saat 11-də parlamanın fövqəladə iclası dəvət edilir. Üzvlərdən rica olunur ki, tətildən bila istifadə getməyib qalsınlar. Tətil isə iyunun 29-dan iyulun 5-nə qədər bir həftə müddətinə qərarə alınsın. Bu cür yomiyyeyi-müzakirata etiraz yoxdur. (səslər 29-dan yox. 28-də, 25-də).

Bəli, iyunun 28-dən iyulun 5-nə qədər.

**Səslər** - Pəncşənbə günü iclas olacaqmı?

**Rəis** - Pəncşənbə günü iclas olmayacaqdır. Cümə günü fövqəladə iclas var. Etiraz yoxsa deməli cümə günü səhər saat 11-də föqəladə iclas olacaqdır. Povestka da gedəcəkdir. Tətil isə iyunun 28-dən iyulun 5-nə qədər olar. Növbədəki məsələ təbiblərin və baytarların yeni maaşları haqqındakı layiheyi-qanuniyyənin üçüncü qiraətidir. Məruzəçi Musa bəy Rəfiyev. Mən rica edirəm, üzr istəyirəm ki, iclası təxirə salıram. Katib və katib müavini burada yoxdur. Müavinlərdən biri burda, o da rusca bilmir. Gərək ruscada oxunsun. (Kyüsterə). Gedin Əhməd bəyi çağırın.

**Məmməd Əmin** (yerindən) - Rusca oxunması məcburi deyildir.

**Musa bəy Rəfiyev-** layihənin birinci maddəsini türkcə və rusca oxuyur.

**Rəis** - Kim əvvəlinci maddə xüsusunda danışmaq istərdi. Danışmaq istəyən yox isə səsə qoyuram. Kim əvvəlinci maddəni qəbul edirsə, rica edirəm əlini qaldırsın. (Əllər qalxır).Əvvəlinci maddə əksəriyyəti ilə qəbul olunur.

**Musa bəy Rəfiyev** - 2-ci maddəni türkcə oxuyur.

**Rəis** - İkinci maddə xüsusunda danışmaq istəyən varmı? Qara bəy danışmaq istəyirdinizmi?

**Qara bəy** (yerindən) - Xeyr.

**Rəis** - Danışmaq istəyən yoxsa səsə qoyuram. Kim 2-ci maddəni qəbul edirsə, rica edirəm, əlini qaldırsın. (Əllər qalxır). 2-ci maddə əksəriyyət rəylə qəbul olunur. (Musa bəy Rəfiyev 3-cü maddəni türkcə, rusca oxuyur).

**Rəis** - Üçüncü maddəni səsə qoyuram. Kim üçüncü maddəni qəbul edirsə, rica edirəm əlini qaldırsın. (Əllər qalxır). 3-cü maddə əksəriyyət ilə qəbul olunur. Layiheyi- qanuniyyəni təmamən səsə qoyuram. Layiheyi-qanuniyyəni kim təmamən qəbul edirsə, rica edirəm əlini qaldırsın. (Əllər qalxır). Layiheyi- qanuniyyə

təmamən qəbul olunur. Növbədəki məsələ: Gəlir vergisindən azad olunan varidat miqdarının artırılması haqqındakı layiheyi-qanuniyyənin 3-cü qiraətidir.

**Katib** - (Layihənin birinci maddəsini türkcə və rusca oxuyur).

**Rəis** - İkinci maddəni səsə qoyuram. Kim 2-ci maddəni qəbul edirsə, rica edirəm əlini qaldırsın. (Əllər qalxır). 2-ci maddə əksəriyyət ilə qəbul olunur. Lahiyehi-qanuniyyəni tamamən səsə qoyuram. Kim layiheyi-qanuniyyəni tamamən qəbul edirsə, rica edirəm əlini qaldırsın. (Əllər qalxır). Layiheyi-qanuniyyə tamamən qəbul edilir. Hər iki layiheyi-qanuniyyə qəshihiyyə komisyonuna verilir. Növbədəki məsələ: maliyyə nəzarətində gömrük şöbəsinin ehsası haqqındakı layiheyi-qanuniyyədir. Bu layiheyi-qanuniyyənin ikinci qiraəti əsnasında bir təshih təklif olunmuşdu. Çünki bu təklif layiheyi-qanuniyyənin əsasına aiddir. Ona görə layiheyi-qanuniyyə keçməmiş, təklifi səsə qoyuram. Təshihin məzmunu belədir. (oxuyur). Bu təshih komisyona gedib. Bu barədə komisyonun rəyini bilmək istərdim. Söz Abdulla bəy Əmircanovundur.

**Abdulla bəy Əmircanov** — Gömrük işlərini ticarət nəzarətinə verməyin bir mənası yoxdur. Keçmişdə dəxi gömrük işi maliyyə nəzarətində olubdur. Bir yerdə ki, gəlir var, gəlir həmişə maliyyə nəzarətində olur. Ona görə mən lazım bilirəm ki, gömrük işi maliyyə nəzarətinə verilsin. Maliyyə nəzarətini qoyub mən ticarət nəzarətinə verməyi faydalı bilmirəm.

**Rəis** -Təshih edən təklif edir ki, layiheyi-qanuniyyə təkrar komisyona qaytarılsın. Bu təklifi mən səsə qoyuram. Layiheyi-qanuniyyə komissyona iadə olunsun, ya yox? Hər kəs bu təklifi qəbul edirsə, rica edirəm, əlini qaldırsın. Kim bunun əleyhinədir? (Rusca). Kim səs verməyib? Zahirən təklifi düşünməmişlərdir. Əllidən ziyadə adam var. 29 nəfəri iştirak edir. Buyurunuz Ağa Aşurov.

**Aşurov** - Qanun layihəsinin komisyona qaytarılması haqqındakı təklifin əsası barəsində bir neçə söz demək istəyirəm. Mənim təklifimi səsə qoyursunuz. Bu səsə qoyulduqda birisi əleyhinə, birisi lehinə danışar.

**Rəis** — Xeyir. Nakaza görə təshih verilir. Səsə qoyular. Təshihin məzmunu budur ki, layihə tamamilə komisyona: qaytarılsın.

**Səslər** - Neyçin? Niyə qaytarılsın?

**Rəis** - Hökumətin bu barədə rəyi məlum deyil. Komisyonun rəyi məlumdur. O, maliyyə nəzarətində olmasını təklif edir. Hökumətin rəyi bundadır ki, maliyyə nəzarətində olsun. Bunu da komisyon qəbul edibdir. Lakin burada təshih var. [739 - 740] Gömrük işlərinin ticarət və sənaət nəzarətində olmasını təklif edirlər. Bununla bərabər yenə təklif edilir ki, bu təshih ətraflıca baxmaq üçün Layiheyi-qanuniyyə komisyonuna qaytarılsın. İndi mən səsə qoyuram. Hər kəs layihənin komisyona qaytarılması tərəfdarı isə rica edirəm ki, əlini qaldırsın. Kim bunun əleyhinədir. Mən rica edirəm ki, məsələni səsə qoyanda əlinizi qaldırasınız. Kim bunun əleyhinədir əlini qaldırsın. Kim səs verməyib? Lehinə 23, əleyhinə 23, səs verməyən 6. Əksəriyyət rəy ilə təklif qəbul edilməyir.

**Katib** - Birinci maddəni oxuyur.

**Rəis** - Birinci maddəni səsə qoyuram. Kim qəbul edirsə, rica edirəm, əlini qaldırsın. Birinci maddə əksəriyyət ilə qəbul olunur.

**Katib** - İkinci maddəni oxuyur.

**Rəis** - 2-ci maddəni səsə qoyuram. Kim bunu qəbul edirsə, rica edirəm, əlini qaldırsın. İkinci maddə əksəriyyət rəylə qəbul olunur.

**Katib** - 3-cü maddəni oxuyur.

**Rəis** - 3-cü maddəni səsə qoyuram. Kim 3-cü maddəni qəbul edirsə, rica edirəm, əlini qaldırsın. 3-cü maddə əksəriyyət rəylə qəbul edilir.

**Katib** - 4-cü maddəni oxuyur.

**Rəis** - 4-cü maddəni səsə qoyuram. Kim bunu qəbul edirsə, rica edirəm, əlini qaldırsın. Əksəriyyət rəylə 4-cü maddə qəbul edilir.

**Katib** - 5-ci maddəni oxuyur.

**Rəis** - 5-ci maddəni səsə qoyuram.

**Katib** - Türkcəsində 3 aylıq yazılıb, ruscasında isə başqadır.

**Rəis** - Komisyonun rəyi mətlub idi.

**Abdul Əli bəy** — Rusca düzdür.

**Rəis** - 5-ci maddəni səsə qoyuram. Kim qəbul edirsə, rica edirəm əlini qaldırsın. Əksəriyyət rəylə qəbul olunur. Layihəni tamamilə səsə qoyuram. Kim layihəni tamamən qəbul edirsə əlini qaldırsın. Əksəriyyət rəylə qəbul edilir. Layihə gedir təshih komisyonuna. Növbədəki məsələ maliyyə nəzarətinə 2-ci müavin təyini haqqındakı qanun layihənin 2-ci qiraətidir.

**Katib** - Birinci maddəni oxuyur.

**Rəis** - Layiheyi-qanuniyyəni bu maddədən ibarət layihəni səsə qoyuram. Kim qəbul edirsə əlini qaldırsın. Layihəni tamamən [740 - 741] səsə qoyuram. Kim qəbul edirsə əlini qaldırsın. Əksəriyyət rəylə qəbul olunur. Növbədəki məsələ yer və tövci vergilərinin artırılması haqqındakı layiheyi-qanuniyyədir. Məruzəçi Ağabəyov Rza bəy.

**Ağabəyov** - Maliyyə nəzarəti təklif edən üç məsələ vardır. Birinci 1919 ilə yer vergilərinin yığılması üçün müsaidə istənilsin. 2-ci məsələ yer vergilərinin artırılması, 3-cü məsələ köhnədən verilməmiş qalan vergilərin bağışlanmasıdır. Bu yer vergisi işlərinə baxan inspektorlardır. Bunlar hərə öz dairəsində haqq-hesab edir ki, hər desyatin bağlıq yeri nə qədər gəlir verir, hər desyatin əkin yeri nə qədər gəlir gətirir. Bu sıfraların hamısı göndərilir, deməli, quberniya idarəsinə; o da bağlıq və əkin yeri vergilərinin qədərini təyin edir. Bu surətlə vergi alınır, özü də hər 3 ildə yerlərin mədaxilinə təzədən baxılır. Deməli bu haqq-hesab ilə podatni inspektorlar məlumat yığırlar. Axırıncı siyahı 1912-ci ildə tutulmuşdur. 1914-cü ilin axırına qədər bunun gücü var idi, sonra dava başlandı, bunları təzələməyə imkan olmadı. Sonra təzədən bir qanun çıxartdılar. Bu vergiləri o qanun üzrə yığırdılar. Bu birinci məsələ. 2-ci məsələ yer vergilər miqdarının artırılmasıdır. Komisyonda bu, bəhsə səbəb oldu. İki rəy vardı, mən bunları söyləmək istəyirəm. Rəyin əvvəlincisi öylə idi ki, nəzarətin qəbul etdiyini biz də qəbul edək. Bunu irəli çəkənlərin dəlili bu idi ki, biz təyin edə bilmirik mədaxil nə qədərdir. Əgər çox artırsaq qorxusu var. Bununla bərabər deyirdilər ki, gəlir çoxalırsa; xərc də çoxalır. Sonra deyilirdi ki, Rəncbərlərdə bir də gəlir vergisi yığılacaqdır. Deməli, Rəncbərlə iki xərc verəcəklərmiş, bu onlar üçün ağır olacaq. Sonra öz təcrübəsindən deyən var idi ki, bu çox qalğı verər. Bu da ondan irəli gəlir ki, vaxtında vergiləri verə bilmirlər. Əkər biz vergiləri artırsaq, onların işi dəxildə müşkül olacaqdır. Ancaq bunun müqabilində qeyri sözlər də danışıldı. Deyildi ki, yer vergisi qoyulurdu, köhnə hökumət tərəfindən; o hökumət də ibarət idi, bəylərdən və mülkədarlardan; yerin də çoxusu onlarda idi. Onlar yer vergisinin çoxalmasını istəmirlərdi, bunun üçün biz bu vergini artırmaqdan qorxmayaq. Deyirdilər ki, bizim əlimizdə yəqin sıfralar yoxdur; biz ancaq bilirik ki, buğdanın, arpanın putu neçəyə satılır. Habelə meyvə, süd, qatıq necə satılır, bunu da bilirik. Bunlar əlimizdə ola-ola bu saat biz gərək çalışaq ki, dövlətin mədaxili artmaqla kağız pulun kəsilməsi əksilsin və onun qiyməti qalxsın. Kəndistanda çoxlu pul var. Biz gərək çalışaq ki, mümkün olan qədər, o kağız paraları oradan çıxaraq. Onların çıxarılmasının yolu vergini artırmaqdır. Çünki nə qədər kağız pul az olsa, o qədər pulun qiyməti artar. Sonra deyənlər var idi ki, yer vergisindən başqa bir də gəlir vergisi vardı. Lakin bunu da bilməlidir ki, gəlir vergisi o yerdə, o məmləkətdə yaxşı icra olunur ki, müddətidir. Amma bizim məmləkətdə böyük bir dairəyə, böyük bir qəzaya bir (podatnı inspektor) vardır. Gərək bu yerlərin mədaxilini bilib vergi qoysun. Yəqin sözdür ki, bir adam bu işi apara bilməz. Kəndistanda öz mədaxilini bildirib, özünü vergi altından çıxarmayır. Ona görə (podatnı inspektor) gərək mədaxili müəyyən edib vergi ala. Bunlardan sonra məsələ də var. Maliyyə siyasətimizin üstündə gərək işləyək. Büdcəmiz bilavasitə vergi üstə tikilsin. Bu yer vergisində (bilavasitə vergi) olduğuna görə artılmasından qorxmayaq, bu vasitəli deyil, ona görə çox artırmağın qorxusu yoxdur. Komisyonda bu məsələ müzakirə edilərkən, hökumət nümayəndəsi də vardı; dedi ki, biz bir miqdardan çox artırmağı mümkün hesab etmədik. Əgər siz artırmaq istəyirsəniz müamaniət yoxdur. Hökumət bu vergini iki yol ilə artırıbdır. Biri nadel yerlər üçün. Onlara ayrı faiz. Bir də xüsusi yerlər üçün: Məscid, kilsə yerlərinə, bu yerlərə ayrı faiz təyin edilir. Birinci sinfə nəzarət yüz faiz, o birinə iki yüz faiz qoymuşdur. Komisyonun qərarı bu oldu ki, nadel yerlər üçün 2 yüz faiz, sairə yerlərə, məscid, kilsə yerlərinə dörd yüz faiz qoyulsun. Bunu da bilməlidir ki, vergilərin bu qədər artmasından qorxmaq lazım deyildir. Burası da vardır ki, bu verginin miqdarı əskikdir. Davadan qabaq bu vergidən 270.000 (iki yüz yetmiş min) manat hasil olurdu. Hərgah indi hökumət deyən olsa, milyon yarım gəlir olacaqdır. Yer vergisindən başqa yerdə gəlir var, hökumət təklif elədi 25 faiz olsun. Komisyon isə 50 faiz etdi. Sonra üçüncü məsələ əski vergilərin qalıq məsələsidir ki, bu qalıqlar nə yolla alınsın və nə cür yığılsın? Qabaqda istədilər qalıqları yüngülləşdirsinlər. Bu ixtiyarı maliyyə naziri öz əlinə almaq istəyirdi ki, lazım olan vaxtda camaat bağışlasın və ya əksik eləsin. Daha başqa nəzarətlər isə danışığa kirişməsin, çünki [742 - 743] danışığa girişdilərsə iş çox ləngiyər. Qanun layihəsi belədir.

**Rəis** - Qanun layihəsinin əsası üzərində kim danışmaq istər? Söz Mustafa Mahmudovundur.

**Mahmudov** ("Müsavat") - Məruzəçi söylədiyi nitqində komisyonun iki tərəfli rəyini dedi, aşkar oldu ki, bu vergidən məqsəd pulun qiymətini qaldırmaqdır. Camaatin xəzinəyə köməyə dəvətdir. İki təklif olub, birinci xırda torpaqlara iki yüz, böyük mülklərə dörd yüz faiz təyinidir. Bu məsələ müsavatca kafi deyildir. Çünki, gözlədiyimiz mənfəəti gətirməz. Ona görə Müsavat təklif edir ki, xırda yerlərə iki yüz əvəzinə üç yüz, böyük mülklərə isə, dörd yüz əvəzinə 8 yüz faiz olsun. Müsavatın təklifi budur.

**Rəis** - Danışmaq istəyən yoxdurmu? Yoxsa qanun layihəsinin ikinci qiraətinə keçirəm. Layiheyi-qanuniyyənin ikinci qiraətinə keçmək məsələsini səsə qoyuram.

**Səs** - Sual var.

**Rəis** - Mən səsə qoyuram. Dəfəatla dedim danışan varmı, danışan olmadı. Səsə qoyuram. Kim layihənin 2-ci qiraətinə keçmək tərəfdarıdırsa, rica edirəm əlini qaldırsın. (Əllər qalxır). Əksəriyyət ilə 2-ci qiraətə keçmək qəbul olunur.

**Katib** - Layihənin birinci maddəsini türkcə və rusca oxuyur.

**Rəis** - Əvvəlinci maddə xüsusunda kim danışmaq istərdi? Yoxsa səsə qoyuram. Əvvəlinci maddəni kim qəbul edirsə, rica edirəm, əlini qaldırsın. (Əllər qalxır). Əksəriyyət ilə əvvəlinci maddə qəbul olunur.

**Katib -** 2-ci maddəni türkcə, rusca oxuyur.

**Rəis** - Bu maddəyə təshih var.

**Katib** - Müsavatın təshihini oxuyur.

**Rəis** - İkinci maddə xüsusunda kim danışmaq istərdi. Söz Ağa Aşurovundur.

**Ağa Aşurov** (bitərəf) - hansı sinfi nə qədər artırmaq onu mən türkcə başa düşməmişəm. Öylə başa düşürəm ki, dövlətlilərdən çox, kasıblardan az alınacaqdır. Lakin burada deyilir ki, yeri çox olandan çox alınacaqdır. Mən o qədər xəbər-dar deyiləm; üzr istəyirəm; ola bilər kəndistanda cürbəcür vasitələrlə birinin çox yeri var, dövlətlidir. O dövlətliyə deyirik, ona dövlətli demək olmaz. Mən təklif edirəm ki, miqdar qoyulsun. Əgər birisinin yeri yoxsa ondan artıq vergi alınsın, bu əsaslar ilə bilmək olmayır. 2-ci, faiz barəsində, deyə bilərəm ki, faizi çox artırmaq lazımdır. Bizim həyatda hər şey iki-üç yüz dəfə artmışdır, vergini də iki-üç dəfə artırmaqla xəzinə düzəlməz, gərək güclü faiz almaqla müvazinəmiz düzəlsin.

**Rəis** - Mahmudov Mustafa.

**Mahmudov** - Ağa Aşurovun dediyi təklif ümumi yer məsələsi həll olunanda həll edilər. Komissiyada yer məsələsi həll edilməyir; lakin müvəqqəti gəlir artır. Buna görə indi köhnə vergiləri artırırıq. Öz təklifimizdə bir qərar dururuq ki, iki yüz faiz artırılıbdır. Mən təklif edərdim ki, az mədaxili olanlardan az alınsın, çox mülklülərdən çox alınsın. Bu təsdiq edilsin.

**Rəis** - Daha kim danışmaq istərdi bu xüsusda, söz istəsin, yoxsa son sözü məruzəçiyə verirəm.

**Rza bəy Ağabəyov** - Ağa Aşurovun qorxusu yersizdir. Məsələ belə deyildir. Kasıb—dövlətli, şəhərli—kəndli deyilmir. Yer var, nadelini, yer var xüsusi nadelin yerlər odur ki, hər kəndin müəyyən yeri vardır. Onun da özünün qaydası var. Deməli, kəndin ki, müəyyən yeri var ondan vergi alınır. Ola bilər ki, nadelini yeri olan qonşusundan yer ala. Yəqin şeydir ki, onda onun əlində çox olar. Yəqin şeydir ki, kənddən ona nə yer düşüb, onun üçün az alınacaq. Lakin sonra aldığı yerdən çox alınacaqdır. Qaldı ki, Müsavat tərəfindən edilən təklifə: iki yüz - üç yüz - dörd yüz - səkkiz yüz etmək, komisyon tərəfindən buna etiraz yoxdur. Vergiləri mümkün qədər artırmaq lazımdır. Çünki bilməlisiniz ki, nəzarətlər smetadan xaric para istəyirlər. Məsələn, axır vaxtda ümumi — xeyriyyə və nafiə nəzarəti ya bir qanun verib 21 milyon pul istəyir. Buna görə o xərclərin müqabilində yəqin şeydir ki, gəlirləri artırmaq lazımdır. Komisyonda iki rəy var idi. Biri artırmaq, biri hökumət qərarı, o artırmaq istəyənlərin rəyi öylə deyil ki, hökumətcə qəbul edilməsin, hər halda Müsavat fraksiyasının təklifi qəbul olunur.

**Rəis** - 2-ci maddəni səsə qoyuram. 2-ci maddəni komisyonun qərarı üzrə və təshihi ilə bərabər çünki komisyon tərəfindən qəbul olunub. Səsə qoyuram, yəni 200 əvəzinə 300 yüz, 400 əvəzinə xüsusi yerlərdən 8 yüz faiz.

**Mustafa bəy** (yerindən) - İzin verin.

**Rəis** - Təklif barəsindəmi?

**Mustafa bəy** - Sədr məsələni belə təklif edir ki, guya komissiya təklifi ilə bizimki birdir. O təshih deyil, onları gərək ayrı-ayrı səsə qoyaq.

**Rəis** - Mən onu söylədim təshihdir. Komisyonun təklifi 200 ilə 400 yüzdür, lakin müsavat təshih edir ki, 200 əvəzinə 300, 400 əvəzinə 800 olsun. Komisyon da qəbul edir. Mən də bu qayda ilə səsə qoyacağam. Əlahiddə bu da ola bilməz. Əbdüləli bəy, Əmircanov.

**Əmircanov** - Təvəqqe edirəm komisyonun qərarını səsə qoyasınız. Komisyonun bir üzvünün deməyi ilə olmaz. Komisyonun qərarını səsə qoyunuz.

**Rəis** - Komisyon tərəfindən etiraz olmadı. Komisyonun əqəliyyət tərəfindən danışan olmadı.

**Ağabəyzadə** - Komisyonun çoxunun rəyi nədirsə onu dedim. Komisyonun çoxunun rəyi budur.

**Rəfiyev** (yerindən) - Müsaidə veriniz.

**Rəis** - Bu barədə istəyirsiniz?

**Rəfiyev** - Komisyonun təklifi barəsində.

**Rəis** - Olmaz, səsə qoyuram. 2-ci maddəni Müsavatın təklifi ilə səsə qoyuram. Kim qəbul edirsə, rica edirəm, əlini qaldırsın. (Əllər qalxır). Kim bunun əleyhinədir? (Əllər qalxır). Kim səs verməyib? (Əllər qalxır). Lahinə 16, əleyhinə 17, səs verməyib 13. Əksəriyyət rəy ilə təklif qəbul edilməyir. Qəbul edilmədiyi halda layiheyi-qanuniyyənin əslində iki yüz və dörd yüz faiz ki vardı o qalır. Layiheyi-qanuniyyənin maddəsini eyni surətdə səsə qoyuram. (Katibə) oxuyunuz. Eyni surətdə maddəni. (Salonda qarışıqlıq). Rica edirəm səs salmayasınız. Bir də mən komisyon üzvlərindən rica edərdim ki, dokladçik təyin edəndə ona müavin də olsun. Komisyonun rəylərini mühafizə edən olmayır. Müavin olsa rəylər məlum olar. Çünki indi komisyonun bir hissəsinin rəyi məlum oldu, lakin əqəliyyət tərəfindən danışan olmadı. Komisyonun iyirmi beş faizi əlli, yüz faizi iki yüz iki yüz faizi dörd yüz faiz etmək qərarı keçmədi. Ona görə maddəni hökumətin təklifi kimi səsə qoyacağam. İyirmi beş yüz və iki yüz faizi. (Səslər: Bu kimin təklifidir?)

**Ağabəyzadə** - Hökumətin təklifi səsə qoyulur. Məncə belə olmaz, mən bilən Müsavatın təshihi qəbul olunmadıqda komisyonun layihədəki qərarı qalır [745 - 746]

**Rəis** - Təshih olunan maddə qəbul olunmadı. (Katibə, 2-ci maddəni oxuyunuz.

**Rəfiyev** (yerindən) - Müsaidə veriniz.

**Rəis** - Nə buyurursunuz?

**Rəfiyev** - Səsə qoyulmaq münasibətilə danışmaq istəyirəm.
**Katib** – 2-ci maddəni oxuyur.
**Rəis** - Bu layiheyi-qanuniyyədə olan maddənin eyni. Komisyon yüzü iki yüz, iki yüzü dörd yüz, iyirmi beşi — əlli faiz etmiş-di. Komisyon bu maddəyə olan təshihi qəbul etsə də keçmədi. Ona görə maddəni eyni surətdə səsə qoyacağam. (Səslər: Müsa-idə veriniz).Rica edirəm, danışmaq istəyənlər, nə xüsusda danışmaq istədiklərini yazıb bildirsinlər. Söz Mustafa Mahmudovundur.
**Mahmudov** - Komisyon tərəfindən təklif olunan maddə keçmədi. Maddəyə olunan təshih də qəbul olunmadı. Ona görə mən deyərdim bu layihə müzakiratdan götürülüb, dübarə komisyona qaytarılsın, ta ki dübarə müzakirə olunsun.
**Rəis** - Söz Əhməd bəy Pepinovundur.
**Əhməd Cövdət** - Bizim fraksiyamız da, Müsavatın təklifinə iştirak edib, təklif edir ki, layihə komisyona qaytarılıb gələn iclasa qalsın.
**Rəis** - Söz Musa bəy Rəfiyevindir.
**Rəfiyev** - Mən zənn edirəm ki, məruzəçi komisyon tərəfindən söz deyəndə gərək xəbər alsın ki, komisyon qəbul edir, ya yox. (Bitərəflərdə alqış).
**Məmməd Əmin** (yerindən) - Sevinirlər ha...
**Rəfiyev** (davamla) - Lakin komisyondan heç xəbər alınmayıb. Məruzəçi öz rəyini söyləyir, guya komisyon bir dəfə artırmağı qəbul etmişsə, yenə də artırmağı qəbul edər. Bu böylə deyil. Komisyonun əksəri bunu qəbul edəndə ayrı şeyləri mülahizə edibdir. Mülahizə edibdir ki, niyə yüz iki yüz, iki yüz dörd yüz olsun. Onu da deyirdilər ki, zemstvo vergisi də var. Komisyon bunu da nəzərə aldı ki, qanun üzrə hər manata zemstva vergisi gələcəkdir. Ona görə daha bundan artıq lazım bilmədi. Komisyon məruzəçiyə ixtiyar vermədi ki, artığa razı olsun. Məruzəçi öz fikrini deyir. Komisyonda artırmağa razı olanlardan biri də mən idim. İndi məndən xəbər alsanız deyərdim ki, olmasın. Və bir də mən belə fikir edirəm ki, təshihi ayrı səsə qoyarlar, komisyonun fikrini ayrı. Rica edirəm ki, komisyonun təklifini təzədən səsə qoyasınız.
**Rəis** - Zənn edirəm ki, komisyonun rəyi məlumdur. Divani-rəyasət zənn edir ki, məruzəçi çıxarkən komisyon tərəfindən danışır, komisyon onu vəkil etmişdir, bu məruzəçinin öz rəyi deyildir. Əqəliyyət də öz haqlarından istifadə edib rəylərini söyləməlidirlər. Əksəriyyət tərəfdarı isə rəyini dedi. Mən dəfəatla dedim, əqəliyyət tərəfindən danışan olmadı. Ona görə bu təklif dürüst deyildir. Mən bilən nakaz divani-rəyasətə məlum olduğu kimi başqalarına da məlumdur. Komisyon tərəfindən qəbul edilən təshih komisyonun öz rəyi olur.
(Səslər: Qəbul olmalıdır... xeyir olur...)
**Rəis** - Məruzəçi öz rəyini demir. Madam ki, komisyon bu təshihi qəbul edir, ayrı-ayrı səsə qoya bilərəm.
**Ağabəyzadə** - Mənə müsaidə veriniz. Bununla nakaz xələldar oldu.
**Rəis** - Söz məruzəçinindir.
**Ağabəyzadə** - Musa bəy burada əvvəl nəsihət elədi, o gərək maddə səsə qoyulanda təklifin barəsində lehinə, ya əleyhinə danışa idi. Lakin bunun əvəzinə mənə nəsihət elədi. Özü də çox hərarət ilə danışdı. Hətta mən burada oturanda yerindən əlilə bir para işarələr eləyirdi.
**Rəis** - Natiq əfəndi. Rica edirəm məsələ barəsində danışasınız.
**Ağabəyzadə** (davamı) - Nə isə bu məsələ komisyonda müzakirə edilərkən artırmaq təklifini mən etdim. Komisyonda yüzü — iki yüz, iki yüzü — dörd yüz qəbul edərkən heç kəs demədi ki, bundan artıq qəbul edə bilməyəcəyik. Böylə olan surətdə mən də cəsarət edib artırmağı qəbul etdim. Mən gözlədim ki, əqəliyyət tərəfi də danışar, danışan olmadı. O adamlar əksəriyyət idilər, onlar da danışmadılar. Artırmağı da ki, komisyonda mən təklif eləmişdim. Mülahizə elədim, gördüm ki, necə artırmaq mümkündür. Komisyonda artırmaq məsələsi müzakirə edilərkən mən çox adamların nəzərini bilirdim. Yoxsa burada ayrı bir şey yoxdur.
**Səslər** - Doğrudur... Doğrudur...
**Rəis** - Təklif var ki, ikinci maddə təzədən komisyona qaytarılsın. (Səslər: Layihə hamısı qaytarılsın). Mən təklifi [747 - 748] səsə qoyuram. Layihənin yenidən komisyona getməsini səsə qoyuram. Bu xüsusda iki natiqə söz verəcəyəm. Biri lehinə, digəri əleyhinə. Kim lehinə danışmaq istəyir? Danışmaq istəyən yoxdur? Kim əleyhinə danışmaq istəyir? Yoxsa qoyuram səsə. Kim layiheyi-qanuniyyənin tamamən maliyyə-budcə komisyonuna ədası tərəfdaridir, rica edirəm əlini qaldırsın. (Əllər qalxır). Sayınız. Kim əleyhinədir? (Əllər qalxır). Kim səs verməyib? (Əllər qalxır). Rica edirəm hamı iştirak etsin. Lehinə 21, əleyhinə 9, səs verməyən 7. halbuki 50-dən ziyadə üzv var. Təzə-dən səsə qoyuram. Kim layiheyi-qanuniyyənin komisyona qaytarılması tərəfdarıdırsa rica edirəm əlini qaldırsın. (Əllər qalxır). Sayınız. Kim əleyhinədir? (Əllər qalxır). Bayram Niyazi Əfəndi böylə olmaz, lehinə də əlinizi qaldırırsınız, əleyhinə də. Ya budur, burada öz yerinizdə əyləşiniz, ya da rica edirəm səsə qoyulanda fikir verəsiniz. Lehinədə, əleyhinə də səs verirsiniz. Kim səs verməyib? (Əllər qalxır). Lehinə 28, Əleyhinə 13, səs verməyən 11. Əksəriyyət rəylə layiheyi-qanuniyyə maliyyə-büdcə komisyonuna əda olunur. Növbədəki məsələ hökumət əndində xüsusi təftişat və təhqiqat komisyonunun təşkili haqqında layiheyi-qanuniyyədir. Məruzəçi Şəfi bəy Rüstəmbəyovdur. (Şəfi bəyə) Məruzə hazır deyilmi?
**Şəfi bəy** (yerindən) - Mən bugün gəlmişəm, xəbərim yoxdur.

**Rəis** - Şəfi bəy Rüstəmbəyov parlaman tərəfindən Qarabağa nümayəndə getmişdi. Dünən gəldiyi üçün məruzə ilə aşına olmayıb, hazır deyildir. Ona görə bu məsələ parlaman divani-rəyasətə və ləvazim heyəti üçün iki avtomobilin səkkiz aylıq məxaric smetası haqqında layiheyi-qanuniyyədir. Məruzəçi Mehdi bəy Hacıbababəyovdur.

(Mehdi bəy Hacıbababəyov məruzədən imtina edir).

**Rəis** - Borc bilirəm divani-rəyasət tərəfindən qəti surətdə elan edim ki, bundan sonra komisyonlar tərəfindən verilən nakazlar üçün məruzəçi göstərilməsə mən layihəni növbəyə qoymayacağam.

**Mehdi bəy** - Mən bu barədə istəyirəm söz söyləyim.

**Rəis** - Bu barədə müzakirə yoxdur. Yerdə qalır - daxil olmuş kağızlar cümləsindən erməni fraksiyonu tərəfindən daxiliyə nazirinə 11 iyunda, Bakıda, erməni kilsəsində olan təhəri barəsində verilən sual. Məsələyə keçməmişdən qabaq 5 dəqiqə tənəffüs elan edirəm. [748 - 749]

### Tənəffüsdən sonra

**Rəis** - İclas davam edir. Növbədəki məsələ erməni fraksiyonu tərəfindən 11 iyunda kilsə həyətində olan təhərri xüsusunda daxiliyə nazirinə verilən sualdır. Bu xüsusda divani-rəyasətə böylə bir təklif varid olmuşdur ki, rusca oxuyuram, lazım olsa tərcümə edərəm. (Oxuyur). Təklif edirlər ki, sual sorğu komisyonuna verilsin. Bu təklif barəsində iki adama söz verəcəyəm, biri lehinə, digəri əleyhinə. Kim lehinə danışmaq istərdi.

**Səslər** - Motivi nədir.

**Rəis** - Motivi yoxdur. Papyan.

**Papyan** - Rusca.

Təklif əleyhinə Mustafa Mahmudov.

**Mustafa Mahmudov** - Keçən məclisdə bugünkü sorğu libasında olan sual dünən də gəlmişdi. Sualın qaydası belədir ki, beş adam imzası ilə parlamana gəlir, hökumət cavabı ilə kifayətlənməsə, sorğuya mübəddəl olar. Parlaman əvvəl hökuməti buna cavab verməyə məcbur eyləsin. Parlaman tərəfindən bu sual gərək qəbul olunur, ya yox. Mənə cavab verəcəklər ki, nakazda belə qərar yoxdur. Mən deyirəm ki, o da nakazın səhvidir. Həqiqətən də bilməlidir ki, bu suallar bu tələblərlə göstərilən kimi hökumət tərəfindən bir müqəssirlik və ədəbsizlik vaqe olub, ya yox? Bugün təklif olunur ki, zapros ya verilsin. Yəni bu o deməkdir ki, biz hökumətin günahını o qədər böyük bilirik, onda o qədər biədəbnamə hərəkət var ki, gərək biz sorğunu qəbul edib, hətta ya da verək. Mən buna bir əks təklif edirəm. Hökumət verən izah qəbul olunsun və qərar qoyaq ki, bugünkü məlumatla kifayət edək.

**Rəis** - Mən təklifi səsə qoyuram. Təklifin məzmununu eşibdiniz. Təklif olunur ki, müzakirədən əvvəl sual verilsin istizah sına, hər kəs bu təklifi qəbul edirsə, rica edirəm, əlini qaldırsın. Kim əleyhinədir? Kim səs verməyib. Lehinə 11, Əleyhinə 23, səs verməyən 12. Beləliklə əksəriyyətlə təklif qəbul olunmayır. Sorğuya bugün baxılır.

Çlen parlamentə Papyan.

**Papyan** [3] (rusca)

**Katib** - Sualı oxuyur. [749 - 750]

**Rəis** - Söz Rəisi Vükəlanındır.

**Nəsib bəy** - Möhtərəm məbuslar. Keçən dəfə lazımi cavab verdim. Əlbəttə o zamandan bu vaxtadək bəzi təhqiqat olunub-dur. Ancaq mətləbə keçmədən əvvəl natiqin bir neçə sözünə cavab verəcəyəm. Deyirlər order verilməmişdir. Doğrudur, rəsmi order verilməmişdir. Fəqət bir şey nəzərə almalıdır. Order nə üçün verilir? Order verilir ki, təhəri edənlər həqiqətən polis nəfəratıdır, təhəri icrasına ixtiyarlıdır. Əlbəttə orderi nazir verməz. Mən sizə ərz etmək istəyirəm ki təhəri zamanında qalabəyi və qubernatorun müavini və pristav da orada olublar. Əlbəttə kağız göstərsəydilər dəxi də yaxşı olardı. Fəqət qubernator və qalabəyi isbatı-vücud etdiyi halda orderin bir o qədər də əhəmiyyəti yoxdur. Bundan məlum olur ki, qanunsuzluq olmayıbdır. 2-ci deyirlər qapılar sındırılıbdır. Qapı sındırılmamışdır. Sınan Azərbaycan mətbəəsi qapısıdır. Deyirlər qapını sındıranda proklamasiya ata bilərlər. "Qapı sındırılan zaman ev sahibi orada olmamış". Bu barədə də formalni çox şey demək olar. Ancaq bu qədər deyə bilərəm ki, Kilsə adamlarından bir çoxları orada olub. 3-cü məsələdə budur ki, deyirlər ki, mən əmr vermişəm, o əmr icra olunmamış, iki-üç gün orada mühafizə dəstəsi qoyublar. Keçən dəfə məlumatım olmadığına görə buna bir qədər səthi cavab verdim. Lakin əlimdə qorodonaçalnikin rəsmi raportı vardır. Onu oxuyacağam. Mən əmr vermişəm, əkər orada bir çox bölmələrdə olsa təhəri etməyib saxlasınlar, çünki kilsədir. Bu mənim əmrim də qorodonaçalnikin rəsmi raportına görə icra edilmişdir. Oradan camaət dağılıb, sonra straja götürülübdür. Orada yalnız 2-3 adam qalmışdır, çünki ağzı açıq bir para yeşiklər varmış, onları mühafizə etmək lazım imiş. Hər halda rəsmi raportu sizə oxuyuram. (Oxuyur).

Görürsünüzmü bizdə olan məlumat böylədir. Əmr icra olunubdur; heç bir post da orada qalmamışdır. Buna görə şəxsən pristavı çağırdım; onun cavabı mənə belə oldu ki, orada post olmayıb. Əlbəttə bunlar ola bilsin ki, səhv olsun. Mən bu xüsusda yenə təhqiqat edərəm. Heç kim mənə yalan doklad verməz. Əgər onlar mənə

yalandan doklad vermiş olsalar, cəzalarına çatarlar. Deməli axtarış orada olsa da qorodonaçalnik bizzat orada olmuşdur. Sonra deyirlər ki, kilsə əhatə olunubdur. O da bundan irəli gəlib ki, bu vaxtadək hər yerdə təhəri olubsa [750 - 751] orada əhatə olunubdur; Burada sui-qəsd olmamışdır. Əlbəttə əhatə olunmasaydı, dəxi də yaxşı olardı. 3-cü də deyirlər ki, əsgərlər orada olub, əhalini kilsə həyətinə buraxmamışlar, buda ki təhqiq olunmayıb. Bunlar həqiqətə müğayirdir. Saat 11-də yeşiklər oradan götürüləndən sonra orada heç bir qarovul qalmamışdır. Yenə təkrar edirəm ki, təhqiqat bunun əksi olarsa, o zaman onlar lazımi cəzalarını görəcəklər. Bir neçə söz də təhəri barəsində deyəcəyəm. Məlumunuzdur ki, o dəqiqə, o günlər necə günlər idi. hər tərəfdən üzərimizə təhlükə var idi. O vaxtlar şəhərdə təşviş vardı. Doğrudan da şəhərdə tüfəng, pulemyot anbarları olduğu məlumunuzdur. Bir çoxu da tutulmuşdu. İki gün əvvəl bir yerdən 252 tüfəng, altmış mindən ziyadə patron, pulemot hissələri bir anbardan çıxmışdır. Böylə anbarlar şəhərdə ehtimal ki, yenə də var. Əlbəttə böylə olan surətdə axtarış etmək lazım gələcəkdir. Axtarış zamanı əziyyət çəkənlər olur. Ola bilsin ki, orada da olmuşdur. Ola bilər ki, axtarış zamanı 252 tüfəng tapılan yerdən də bir şey çıxmaya idi. O vaxt deyəcəkdilər ki, axtarış nahaq olubdur. Yəqindir ki, axtarış nəticəli də olar, nəticəsiz də. Lakin polisin psixologiyası onu ehtiyatda olmağa məcbur etdiyi üçün hər axtarışa da haqqı vardır. Ərz eylədiyim kimi şeylər əvvəl özgə yerdə imiş, sonra aparıblar başqa yerə. Şeylərin içindən telefon və teleqraf çıxıbdır. Lakin Ermənistan missiyasının verdiyi siyahıda telefon və teleqraf heç yoxdur. Amma axtarış zamanı böylə şeylər çıxıbdır. Polis zənn edib ki, böylə şeylər çıxdığı üçün ola bilər ki, özgə şeylər də olsun. Dava keçirilmiş bir zamandır. Ona görə axtarış ediblər. Bu xəbəri eşidən kimi mən müavini-naziri, qorodonaçalniki və bütün polisi ayaq üstə qoymuşam. Bundan artıq tədbir mümkün deyildi. Bəlkə bu dokladda yazılanlar yalandır. Ola bilər başqa cür də olsun, lakin güman eləmirəm ki, bu yalan olsun. Çünki etibar edib inandığım adamı qorodonaçalnik qoymuşam. Bu dokladda yazılanlar yalan olarsa cəzası veriləcəkdir.

**Rəis** - Söz Rza bəy Ağabəyzadənindir.

**Ağabəyzadə** ("Müsavat") - Möhtərəm əfəndilər. Necəki cəbhədə əsgərlər milləti düşməndən qoruyurlar. O cür də vilayətin içində milləti xainlərdən qoruyan polisdir. Bu müqəddəs bir vəzifədir. Ona görə polis gərək cəld ola. Bir məlumat alan kimi, gərəkdir təhqiqat yapa. Polis üçün bir sıx dairə olmaz. Demək olmaz ki polis gərək bu dairədə işləsin. Dedilər ki, polis gələndə axtarılan yerin gərək yiyəsi ola. Əkər polis o cür yavaş-yavaş hərəkət etsə, vəzifəsini lazımi surətdə ifa edə bilməz. İşlər də düz getməz. O dairədə ki, burada dedilər, o məhkəmə və müstəntiq üçün qoyulmuşdur. Polis isə bu dairədən azaddır. Burada danışanda Malxazyan bir neçə söz işlətdi ki, onu deməyə cəsarət lazımdır. Dedi ki, axtarış zamanı müfəttiş var idi. Bu sözləri o nə ilə sübut edirdi. Deyirdi ki, axtarış zamanı nə tapılıb, bir az kağız-kuğuz tapılıbdır. Bəli, bilməlisiniz bəzi kağızlar vardır ki, çox vaxt onlar topdan qiymətli olurlar. Bu kağızlar kimin kağızlarıdır? Bu kağızlar Biçeraxovun kağızları idi ki, o da xain idi; millətə açıq zərər vurur idi. Malxazov burada dedi ki, o kağızlar əgər istənilsə idi biz özümüz verərdik. Əgər o kağızların orada olmağını bilirdi bəs nə əcəb vermirdi, gözləyirdi ki, axtaraq tapaq. Order məsələsi haqqında da nazir məlumat verdi. Axırda Malxazyan odlu və hərarətli bir surətdə ümidvar olur ki, Azərbaycanda hamı millətlərə bir gözlə baxılacaqdır. Bu xahiş lazım deyildir. Bu skamyalarda oturan (əlini əcnəbi millətlərə uzadaraq) isbat edir ki, Azərbaycanda hamıya bir gözlə baxılır. Bu barədə artıq izahat lazım deyildir. Ona görə "Müsavat" fraksiyası təklif edir ki, nazirin bəyanatını kafi bilib, növbədəki məsələlərə keçmək.

**Rəis** - Söz Mahmudov Mustafanındır.

**Mahmudov** ("Müsavat") - Möhtərəm məbuslar! Burada erməni fraksiyası tərəfindən verilmiş sual dörd maddədən ibarətdir. Əvvəlinci maddədə deyilir ki, order yox idi. hökumət məlumat verdi ki, order o vaxt lazım olur ki, axtarış edən tanınmayan adam ola. Vəhal anki bu axtarışda bu işləri idarə edənlərin başçısı orada imiş. Böylə olan surətdə orderə ehtiyac yoxdur. İkinci də budur ki, guya axtarış zamanı kilsəyə ehtiramsızlıq olubdur. Kəmali-məmnuniyyətlə erməni fraksiyasını sakit edə bilərəm ki, müsəlman milləti kilsəyə heç vaxt ehtiramsızlıq etməyib və həmişə məscid nəzəri ilə baxıblar. Bunu sübut üçün deyirəm ki, buyursunlar Şamaxı tərəfinə baxıb görsünlər nə qədər erməni kəndləri dağılıbsa kilsələri salamatdır. Amma müsəlman kəndlərində məscidlər qalmamışdır. Əkər ehtiramsızlıq varsa, ancaq bu sualı verən [752 - 753] millət tərəfindən olur (sağdan və cəmaətdən alqış). Möhtərəm məbuslar söyləyirlər ki, kilsənin həyətini və ətrafını əhatə ediblər, tüfəngləri hazır ediblər. Deyirlər çox ola bilərdi toqquşma olsun. Bunun özü müfəttişlikdir. Rusca bir məsəl var deyir ki:

Polis axtarış yapdı, heç bir şey də olmadı. Başdan bir tük də getmədi. Əgər parapetdəki erməni kilsəsi olmasa idi, deyərdim bəli, doğrudur. Məətəssüf o kilsə kilsəliyini çoxdan dəyişmişdir. O kilsə keçmişləri ilə sübut edib ki, ora gedəndə gərək tüfəng ilə gedəsən. 1905-ci ildən mart ayına qədər ora bir cəbbəxana olubdur.

**Rəis** - Natiq əfəndi, anbarlarda olub, kilsədə olmayıb.

**Mahmudov** (davamla) - Kilsədə olmayıbsa ətraf anbarlarda olubdur. Orada axtarış olub və məlumata görə anbarlardan qorxulu şeylər tapılıbdır. Deyirlər altmış patron tapılıbdır.

**Rəis** - Natiq əfəndi. Patron oradan deyil Suraxanskidən tapılıbdır.

**Mahmudov** (davam edir) - Həmin anbarlardan altmış patron tapılıbdır. Mənim zənnimcə əgər altmış deyil, altı patron da olsa idi gərək götürülə idi.

**Səslər** - Doğrudur, doğrudur.

**Mahmudov** (davam edir) - Ona görə hökumət tərəfindən verilən məlumat ilə bu sualı qurtarmış hesab edib təklif edirəm ki, növbədəki məsələlərə keçmək üçün "Müsavat"ın təklifi qəbul edilsin.

**Rəis** - Pepinov Əhməd.

**Əhməd Cövdət** ("Hümmət") - Mən zənn edirəm ki, hökumət rəisinin verdiyi izahatdan sonra natiqlərin söylədikləri nahaqdır. Çünki onlar məsələni daha da çətinləşdirirlər.

Ağabəyov dedi ki, polis bu dairə daxilində işləməz. Polislərin bir işi də xainlərə nəzarət etməkdir. Fəqət onlar yaxşı bilməlidirlər ki, nizam saxlamaq üçündürlər. Bu doğru deyil, fəqət buna mən cavab verməyəcəyəm. Hökumət rəisi buna cavab verdi. Bu üsulda tabe olmalıdırlar. hökumət rəisinin verdiyi izahatdan məlumdur ki, burada bir sui-qəsd yoxdur. Mən bilmirəm erməni nümayəndələri bunu yaxşı başa düşürlərmi? Xüsusən kilsə daxilində təhəri olmayıbdır. hökumət rəisinin izahatı onları qane edə bilərdi. Bununla da növbəti məsələlərə keçərdik. [753 - 754]

**Rəis** - Sırada natiq olmadığından məsələni bitmiş hesab edirəm. Çlen Parlamenta Çubaryan.

**Çubaryan** - rusca.

**Rəis** - Taqyanosov.

**Taqyanosov** - rusca.

**Rəis** - Mustafa ağa Vəkilov.

**Mustafa Vəkilov** - Mən öylə bilirəm ki, bu sual edənlər və hökumətin cavab verməsindən məqsəd budur ki, əkər bir erməni milləti haqqında xüsusi sui-qəsd hökumət tərəfindən göstərilibsə o, öylə səhvdir ki, gərək rədd olsun. Amma məətəssüf danışan natiqlərin çoxusu qaş qayırmaq istərkən gözü çıxardılar. Biri-birinə töhmətlər etdilər. Bunların burada yeri olmamalıdır. Mətləb oradadır ki, deyirlər hökumət tərəfindən qeyri-qanuni hərəkətlər olubdur. Biz çox diqqətlə qulaq asdıq ki, hökumət tərəfindən qeyri-qanuni nə olubdur? Sual edənlərin hərəsi bir tərəfdən məsələyə yanaşdı. Çubaryan cənabları buyurdular ki, əlbəttə order məsələsi formalıdır. Lakin axtarış siyasəti düzdürmü? Taqyanosov cənabları buyurdular ki, hər yerdə hökumətin, hər vaxtda axtarmağa ixtiyarı var. Bunların hər ikisi yekdikərinə ziddir. hərçəndi hökumət cavab verdi. Lakin Çubaryan cənabları tələb etdi ki, hökumət gərək bizə təminat versin ki, bir daha böylə axtarışlar vaqe olmasın. Əgər Azərbaycan daxilində yaşayan bütün vətəndaşların hamısı bir qanuna tabe olmaq istəyirsələr hökumət onlara bir gözlə baxacaq; lazım olsa, əkər əlində dəlil olsa təhəri icra edəcəkdir. Əgər Çubaryan cənabları istəyirlər ki, hökumət içərisində bir hökumət yaxud bir müəssisə düzəltsinlər və ya bir böylə ixtiyara malik olmaq istəyirlər hökumət başında olan böylə bir təminatı heç bir zaman verə bilməz.

Mətləb brasındadır ki, daxiliyə naziri ətraflı məlumat verdilər. Sual edənlər deyirdilər ki, orada rəsmə müğayir şeylər zühur edib, halbuki, orada olub qorodonaçalnik, vali müavini və sairə. Bu tədbirlər göstərir ki, təhəri hökumət tərəfindən olubdur. Bunu özləri də inkar etmirlər. Etiraf edirlər ki, axtarış ordersiz də ola bilər. Böylə olan surətdə biz bilmədik ki, onlar hökumətin hərəkətində nəyi qanunsuz görürlər. hökumət rəisi deyilərdi ki, orada şübhəli şeylər tapılıb; oradan bəzi şübhəli şeylər başqa yerə göndərilirmiş. Onların içində telefon və sair hərbi şeylər tapılmışdır. [754 - 755] Deməli polisin əlində axtarış yapmağa dəlil var imiş. Burada deyildi ki, guya bura erməni kilsəsi olduğu üçün qeyri yerdə axtarış zamanı olan rəsmiyyət burada icra edilməmişdir. Amma həqiqət böylə deyildir. O üsul, o qayda ilə ki, o yerlərdə axtarış olub, burada da öylə olubdur. Deyirlər ki, daxiliyə naziri axtarışın saxlanması üçün gərək əmr verə idi. Bu əmrdə verilibdir. Bu da gərək erməni fraksiyonunu razı sala idi. Əgər onların iddiaları bundan artıqdır isə nahaqdır. Hökumət onun üçündür ki, lazım gördüyü tədbirləri görsün. Əgər burada göstərilsə idi ki, orada axtarış səbəbsiz olubdur, biz də razı olardıq. Bu o qədər şiddətli və hərarətli deyil ki, parlamanda uzun-uzadı mübahisə və münaqişəyə səbəb olsun. Burada biri-birinə töhmət etməklə bir şey çıxmaz. Mən təklif edirəm ki, bu məsələni tamam edib hökumət rəisinin verdiyi məlumatla qane olaraq keçək növbədəki məsələyə.

**Rəis** - Sırada natiq olmadığından müzakirə bitmiş hesab olunur.

**Əhməd Cövdət** - Müsaidə veriniz.

**Rəis** - Danışmaq istəyirsiniz.

**Əhməd Cövdət** - Bəli.

**Rəis** - Buyurunuz. Söz Əhməd Cövdət Pepinovundur.

**Əhməd Cövdət** - Çünki axırıncı natiq Taqyanosovun sözündən böylə məlum oldu ki, hökumətin verdiyi bəyanat onları qane eləmir, mən də iştirak edirəm. Ola bilər məni də qane etməsin. Çubaryan iki məsələyə əhəmiyyət verib dedi ki, bu cür axtarış siyasi nöqteyi-nəzərdən müvafiqdirmi? Və ikinci Çubaryan dedi ki, gələcəkdə bu cür axtarış gərək olmasın. Taqyanosov isə dedi ki, axtarış hər yerdə ola bilər, lakin qanun dairəsində olmalıdır. Qalır siyasi nöqteyi-nəzər. Görək siyasi nöqteyi-nəzərdən bu axtarış müvafiqdir, düzdür, ya yox. Mən bilmirəm daxiliyə nazirinin sözlərini başa düşdünüz ya yox? Hökumət bu axtarışı siyasi cəhətcə müzürr bilib ki, əmr verib dayandırılsın. (Səs demədi... demədi...). Bu onu göstərir ki, axtarış olmayacaq. Ona görə mən istərdim biləm nə məsələ qalır ki, onları qane etməyir. Gərək əvvəlinci natiqdən sonra daxiliyə nazirinin bəyanatını kafi bilib qane ola idilər. Lakin sonrakı natiqlər burada ziyad sözlər danışdılar ki, lazım

deyildi. Söyləyən natiqlər bam başqa sözlər danışıb Ermənistanı və oradakı müsəlmanları yada saldılar vəhal sanki Azərbaycan daxilindən danışmalıdırlar.[755 - 756] Doğrudur, Ermənistan daxilində olan zülmdən xəbər var. Lakin bu bir dəstəviz, deyildir. Bizim nöqteyi-nəzərimiz budur ki, hər yerdə qanunsuzluq, zülm olarsa onun əleyhinə də mübarizə edəcəyik. İstər bu zülm Ermənistanda olsun, istər Azərbaycanda. Bu cür işlərə yol verməyəcəyik. Daha iki ay bundan əvvəl bizim fraksiyamız tərəfindən tələb olunurdu ki, qanunsuzluq əleyhinə şiddətli qəddirlər görülsün. Qanunsuzluq əleyhinə tədbir görməyən hökumətə etimad olunmaz. Bu da nəinki erməni nöqteyi-nəzərindən, bəlkə ümum Azərbaycan xalqı tərəfindən lazımdır. Lakin təəssüf olsun ki, orada uyuşmamazlıq vardır. Hər halda cəhd edilməlidir ki, bu cür işlər şiddətlənməsin. Siyasi nöqteyi-nəzər budur ki guya kilsə olmayıb, məscid olsa idi böylə söhbətlər aralıya gəlməzdi. Daxiliyə nazirinin sözləri təminat verir ki, daha bundan sonra böylə şeylər olmayacaqdır. Erməni fraksiyonu niyə qane olmadı anlamıram.

**Rəis** - Daha kim danışmaq istərdi bu barədə? Danışmaq istəyən yoxsa, müzakirə bitmiş olar. İki formul vardır.

**Katib** - "Müsavat"ınformulunu oxuyur.

**Katib** - Erməni fraksiyasının formulu rusca oxuyub türkcəyə tərcümə edir.

**Rəis** - Mən bunları daxil olduğu kimi səsə qoyuram. Əvvəl "Müsavat" tərəfindən daxil olmuşdur. Qayda üzrə səsə qoyuram. Hər kəs Müsavatın formulunu qəbul edirsə əlini qaldırsın. (Əllər qalxır). Sayınız. Kim əleyhinədir? (Əllər qalxır). Kim səs verməyib? (Əllər qalxır). 46 adamdan, divani-rəyasət ilə 49 adamdan ancaq 40 nəfər iştirak edir, mən rica edirəm hamı iştirak etsin. Altı adam iştirak eyləmir. Təzədən səsə qoyuram. Kim Müsavat tərəfindən verilən formul tərəfdarıdırsa, rica edirəm, əlini qaldırsın (Əllər qalxır). Kim əleyhinədir? (Əllər qalxır). Kim səs verməyib? (Əllər qalxır). Lehinə 40, əleyhinə 7, səs verməyən 1. Əksəriyyət ilə formul qəbul olunur. Birinci formul qəbul edildiyinə görə nakaz üzrə ikinci formulu səsə qoymaq olmaz. Növbədə məsələ olmadığından bununla iclas bitir. Məclisi qapamadan əvvəl bir də yadınıza salıram ki, cümə günü iyunun 27-də səhər saat - 11-də parlamanın fövqəladə iclası olacaqdır.

İclas qapanır. İclas saat 3-40 dəqiqədə qapanır.

**Arxiv, f.895, siy.1, iş. 94, vər, 108-136.**

**№ 51**

**Növbədənkənar əlli birinci iclas**

*27 iyun 1919-cu il*

**Rəis** - Həsən bəy Ağayev. **Katib** - Əhməd Cövdət Pepinov İclas açılır saat 12-35 dəqiqədə.

**Rəis** - Azərbaycan parlamanının növbədən xaric iclası açılır. Möhtərəm məbuslar. Bu gün növbədən xaric iclas təyin etməkdən məqsəd Azərbaycan ilə Gürcüstan hökumətləri arasında Tiflisdə əqd edilən hərbi və tədafö əhdnaməni bu gün sizin təsvib və təsdiqinizə pişnihad etməkdir. Bəzi siyasi səbəblərə görə bu məsələni uzatmağa imkan yoxdur. Bunun üçün divani-riyasət əcələ olaraq növbədən xaric iclas dəvət etmişdir. Bunun üçün bu əhdnamə baxılıb təcili surətdə qəbul edilməsi divani-rəyasət tərəfindən təklif edilir. Bugünkü ruznameyi-müzakiratda olan ikinci məsələ parlaman tərəfindən Qarabağa göndərilən heyətin məruzəsi idi. Məruzə hazır olmadığına və bir para səbəblərə görə növbədən götürülür. Bu gün ancaq bir məsələyə baxılacaqdır. Etiraz yoxsa, qəbul olunsun.

**Səslər** - Yoxdur, etiraz yoxdur.

**Rəis** - Əhdnaməni Əhməd bəy Pepinov oxuyacaq. (Əhmədə). Oxuyunuz.

**Katib** - Oxuyur.

**Rəis** - Söz xariciyyə naziri Məmmədyusif Cəfərovundur.

**Səslər** - Tərcüməsi, tərcüməsi.

(Əhməd bəy əqdnamənin ruscasını oxuyur).

**Rəis** - Söz xariciyyə naziri Cəfərovundur.

**Məmmədyusif Cəfərov** - Möhtərəm məbuslar. Bugünki tarixi gündə mən istərəm ki, bir-iki söz deyəm. Azərbaycan hökumətinin siyasəti barəsində. Azərbaycan hökumətinin siyasətini ola bilər ki, qəbul eləsən, ola bilər ki, qəbul etməyəsən. Bu barədə iki rəy ola bilər. Bir parası qəbul edər, bir parası qəbul etməz. Azərbaycan hökuməti Məvarayi-Qafqazda yaşayan qeyri cümhuriyyətlər barəsində həmişə bu fikirdə olub ki, onlara dost və həmrəy olsun. Keçən hökumət mənə oktyabr ayında məktub yazmışdı ki, Azərbaycanın siyasəti qeyri hökumətlərin siyasəti ilə bir olsun. Bu [757 - 758] barədə onlara müzakirata kirişmək mənə təklif edilmişdi. Bu fikir ki, qonşularımızla siyasətimizi birləşdirək, özümüzü müdafiə edək, bu Azərbaycanın idealı və amalı idi ki, bugünki gün bunu qövldən felə gətirdək. İnsafən gərək deyək ki, Azərbaycan hökuməti həmişə bu fikirdə olmuşdur. Ona görə də noyabr ayında olan konfransda Azərbaycan bunu proqramına saldı ki, gərək Zaqafqaziya hökumətləri bir yerdə öz istiqlaliyyətlərini saxlasınlar. Əl-ələ verib özlərini müdafiə etsinlər. Qonşunuz Gürcüstan buna razı oldu. Aprel ayının konfransında Gürcüstan mürəxxəsləri ilə bir fikirdə idik. O təhlükə ki, biz onun altında yaşayırıq, ola bilər ki, bu təhlükə bizi puç etsin. O azadlıq ki, bizim əlimizdədir onu məhv etsin.

Üçüncü qonşumuz Ermənistan nümayəndələri əvvəlinci konfransa gəlmədilər. Ona görə də konfrans baş tutmadı. Axırıncı konfransda dəxi cürbəcür dəlil və sübut gətirdilər ki, guya bu təhlükə yoxdur. Bunun üçün bir o qədər təşvişə düşmək lazım deyildir. Deyirdilər ki, hamısından əvvəl gərək torpaq və hüdud məsələsini həll edək. Bu fikrə nə Azərbaycan, nə də Gürcüstan şərik ola bilməzdi. Ola bilər ki, hüdud məsələsini həll edincə istiqlalımız da getsin. Ona görədir ki, biz onları gözləyə bilmədik. Ayrıca separatını etimadnamə bağlamağa məcbur olduq. Biz istərdik ki, hamı bir yerdə bu şərtnaməyə qol çəkə idilər. Bir yerdə öz azadlığımızı və hüququmuzu müdafiə edib saxlayaq. Azərbaycan və Gürcüstan vadar oldular ki, etiraf yapsınlar. Buna şimali Qafqaz cümhuriyyəti də razı ola bilərdi. Təəssüf yox idi. Çünki Denikinin Qara qüvvələri onları məhv etmişdi. Lakin biz ümid edirik və yəqin edirik ki, onların bu bəlaları müvəqqətidir. Onlar yenə öz hökumətlərini ələ alıb, öz istiqlaliyyətlərinə nail olacaqlar. (Alqış).

O ki qaldı Cənubi Qafqazya cümhuriyyəti hökumətinin 3 - cü sü barəsində deyərəm ki, Azərbaycan hökuməti güman edir ki, axırda onlar da gəlib bizimlə bərabər işlərlər. Bu şərtnamənin böyük əhəmiyyəti var. Əvvəlinci budur ki, bu bir tazə özüldür, qoyulub Gürcüstan ilə Azərbaycanın arasında. Bu özül üzərində ola bilər gözəl imarətlər tikək. Bununla çox böyük işlər görə bilərik. Bu gələcəkdə bizim əlaqələrimizi [758 - 759] və rəftarımızı aydın göstərər. Ola bilər Gürcüstan ilə Azərbaycan azadlığı əldən çıxsın. Lakin bunlar qonşuluqda bir yerdə yaşayacaqlar. Bu əhdnamənin iki qonşu cümhuriyyət üçün gələcəkdə əsəri olacaqdır. Bir də bu şərtnamənin böyük nəticəsi ola bilər. Qabaqlarda Nikolay zamanında bizə belə baxılardı ki, guya Qafqazya millətləri bərabər yaşaya bilməzlər. Bunlar istərlər ki, bir-birinin boğazından yapışıb öldürsünlər. Bu şərtnamə onu göstərir ki, Qafqazya millətləri pis vaxtda təhlükə altına düşəndə, hər bir daxili məsələlərini kənara buraxıb bərabərlikdə və birlikdə yaşayıb və ölə bilərlər. (Alqış). Şərtnaməmizdə nə deyilir? Şərtnamədə əvvəlcə deyilir ki, bu əhdnamə bağlanır Azərbaycan və Gürcüstan arasında özlərini və istiqlallarını müdafiə üçün. Bu xüsusda lazımi tədbirlər görə bilərlər. Bunu da demək istəyirəm ki, biz bir kiçik millətik və huri yaşamaq istəyirik. hər kəs bizim hürriyyətimizə, istiqlaliyyətimizə, üzərimizə gələn kim olursa-olsun biz onun qarşısına çıxıb qan

töküb hüququmuzu müdafiə edəcəyik. Ola bilər ki, bizi öldürsünlər. Biz, rəşid gürcülərlə əhdnamə bağlamaqdan heç bir millət barəsində fikrimiz yoxdur ki, onları boğaq. Biz ancaq öz hüququmuzu və istiqlaliyyətimizi müdafiə üçün şərtnaməyə qol çəkdik. (alqış). İkinci əsas budur ki, bu şərtnaməni biz 3 ilə bağlamışıq. Bir də şərt qoyulub ki, bu 3 il ərzində cəmiyyəti-əqvam, millətlər ittifaqı, millətlər şurası əmələ gəlsə ki, Yevropada bu barədə danışırlar, hərgah cümhuriyyət nümayəndələri haman cəmiyyəti-əqvamda iştirak etsələr bu əhdnamə pozulur. Hərgah cəmiyyəti əqvam əmələ gəlməsə iki ildən sonra şərtnamənin vaxtına bir il qalmış hər bir tərəf şərtnaməni pozmaq və ya təzələmək istəsə qonşusuna müttəfiqanə xəbər verməlidir. İki ildən sonra tərəf eyndən biri şərtnaməni pozmaq xəbərini versə şərtnamə 3 il bitəndən sonra qüvvəsini itirmiş olur. Şərtnamədə deyilir ki, dost olub söz verdik ki, hüququmuzu və istiqlalımızı müdafiə edək. Aramızda olan şübhəli məsələləri, hüdud məsələlərini sülh ilə həll edək. hərgah aramızda mübahisəli məsələlər haqqında etiraf olmazsa o vaxt gərək bu məsələlər hökm vasitəsilə kəsilsin; bu qərarı da hər iki cümhuriyyət qəbul eyləsin. Üçüncüsü bu əhdnamədə deyilir ki, bu iki cümhuriyyət bir siyasət işlədiləcəkdir. Siyasəti birlikdə aparacaqlar. Bu əsaslardan sonra bir-iki kəlmə [761 - 762] də deyib nitqimi qurtarıram və hökumət tərəfindən deyirəm ki, Azərbaycan hökuməti inanır ki, məclisi-məbusan ki, millət nümayəndələrindən ibarətdir, bir şərtnaməni müqəddəs tərəqqi edərək deyəcəkdir ki, qəbul edirik və hər bir şər-tinə əməl edəcəyik. (Sürəkli alqış, məbuslar ayağa qalxır. Diplomatik lojada gürcüstanlı nümayəndələri şiddətlə gurultulu bir surətdə uzun-uzadı alqışlayırlar, nümayəndələr ayağa qalxaraq təzim edirlər).

**Rəis** - Söz Məmməd Əmin Rəsulzadənindir.

**Məmməd Əmin Rəsulzadə** - Əfəndilər! Bu gün Zaqafqazya tarixində mühüm bir hadisə vaqe olur. O hadisədə Zaqafqazyada təşkil edən hökumətlərin, millətlərin ayrılıb da hər kəs öz başına milli hökumət təsis etməsinə tənə edənlərə bir cavab təşkil edir. Siz bilirsiniz ki, milli hökumət qurmaq fikrini tənqid edənlər daima bir nöqtəni gözə soxmaq istəyirlər ki, bu hökumətlər şəxsi fikirlərdən doğulmuş, bu hökumətlər ayrılarkən bir-birilə vuruşacaq, kin və ədavətlə yaşayacaq, kəndi mənfəətlərini dərk eləməyəcəklər. Bu yanlış fikrə və qərəzkarına söylənən sözlərə milli hökumət fikrini müdafiələri hər zaman deyirdilər ki, milli hökumət vücuda gətirmək qətiyyən camaəti, zəhmətkeş xalqı yekdikərinə qarşı salmaq deyil; bilək onları kamal idrak ilə öz hüquqlarını tamamilə anlar, mənfəətlərini dərk etmək üzrə bir vücud bir üzv halına gələr; bu vasitə ilə millətlər birləşməz bəlkə müdrik bir hala gələrlər. Bu təşkilat millətlərin birləşməsiçün bir vasitə olar. Bu gün gürcü millətilə əhd etdiyimiz etiraf sübut edir ki, milli hökumətlər millətləri vuruşdurmazlar, bəlkə bir təhlükə vaqe olarsa haman təhlükə milli hökumətlərin və onları təsis edən millətlərin yaxınlaşmasına, uzlaşmasına, birləşməsinə daha yaxşı vəsilə təşkil edər. Bugünki müahidənamə iştə Zaqafqazya hökumətlərinə vurulan töhmətin canlı bir təkzibəsidir. (Alqış).

Əfəndilər! Bu mühaidənamə iki millətin müahiddəsi özlərini xarici düşmənlərə qarşı təhlükədən saxlamaq üçün hazırlaşmaları və birləşmələri bir elə anda vaqe oldu ki, xaricdən qara qüvvə və qara təhlükə bizi təhdid edirdi. Denikinin Zaqafqazyaya qarşı təcavüzü əleyhinə olaraq əks ittifaq vücuda gətirdi. Bu münasibətlə farsların bir şeri var, deyir ki: "Ədu şəvəd səbəbi xeyr, kərxoda xahəd" yəni: "Əgər Allah istəsə düşmən xeyrə səbəb olur" İştə Allahın istəyi ki bu da cəmaətin istəyidir. Denikin də Allahın istədiyi düşmənlərdəndir ki, düşmənçiliyə xeyrə səbəb oldu.

Əfəndilər! Hökumətlər arasında əqd olunan müahidnamələr ola bilər ki, hökumət başında duranların fikrincə faydalı görünsə də, geniş xalq və cəmaət tərəfindən ola bilər məqbul olmasın İslahi-məxsusə ilə populyarnı olamaz. Bu gün təsdiqimizə ərz olunan ittifaq eylə bir müahidənamədir ki, yalnız hökumət deyil Azərbaycan milləti tərəfindən mərğub və məğlub görünmüşdür. Gürcüstan ilə Azərbaycan arasında dostluq, ittifaq bir qaç ufacıq etilafə rəğmən Azərbaycan milləti arasında məğlub olmuşdur. Bugün ki, məclis həmin mühaddənaməni tarixi olaraq təsdiq edəcəkdir. Azərbaycan millətinin ürəyində gürcü millətinə qarşı həmişə gözəl və səmimi hisslər bəslənmişdir. Azərbaycan milləti ümumi düşmənlərə qarşı gürcülər ilə silah arxadaşı olduğu kimi həmrəy və mütabiq olacaqdır. Ona görə bu əhdnamə yalnız məclisi-məbusan tərəfindən deyil bütün millət tərəfindən alqışlanacaqdır. Bu millət də böylə tərəqqi edər. (Alqış). Siz müahidənamənin məzmunundan gördünüz ki, bu ittifaq yalnız bir məqsəd üçün əqd olunmuşdur ki, o məqsəd də bizim istiqlalımızı və təmamiyyəti-mülkiyyətimizi xarici qüvvələrə qarşı müdafiədir. İştə bu müqavilənin başlıca məqsədi. Burada təcavüz məqsədi yoxdur və olamaz. Bir millət ki, bütün hökumət və hakimiyyətini milli hüquq əsası üzrə qürur və mövcudiyyətini müdafiə etmək istəyir, böylə bir millət hali-təşkildə heç vaxt özgələrinin milli hüququna imperializm fikrilə təcavüz etməz. Böylə millətləri təcavüzkarlıqda ittiham edənlər ya qərəzkardır, ya axmaqdırlar. Ona görə Azərbaycan ilə Gürcüstan arasında əqd olunan bu müahidənaməni məqsəd güdmək və güman altına almaq kimi tərəqqi etmək olmaz. Əlbəttə biz arzu edərik ki, bu əhd-namə yalnız Azərbaycan və Gürcüstanın deyil bütün Zaqafqazya dövlətlərinin əhdnaməsi ola idi. Bütün Zaqafqazya təhlükəsi-nə qarşı bu müahiddənamədə hamı Zaqafqazya dövlətləri nümayəndələrinin imzası olaydı. Bu, yoxsa buna təəssüf edərik. Fəqət yenə ümid edirik ki, Zaqafqazyanın üçüncü bir mühüm üzvü olan erməni zəhmətkeş xalqı həqiqi arzu və mənafenin bizimlə bərabər olduğunu düşünüb, həmişə bizimlə, sülhü-səlah ilə yaşamaq məcburiyyətində olduğunu anlar. Əgər erməni demokratiyası [761 - 762] nümayəndələri bu gün bəzi cərəyanlara uyaraq məsələni

dərk etməmişlərsə də yaxında dərk edib müahiddənamələri imza edərlər və imza etmələrinə də imkan vardır. Azərbaycan və Gürcüstan nümayəndələri müahidənamədə böylə bir maddəyə yer vermişlərdir.

Maddədə üçüncü qonşu olan erməni millətinə imkan verilmişdir ki, müəyyən vaxta qədər istərlərsə ittifaqda iştirak edə bilərlər. Ümid edirəm ki, erməni demokratiyası yaxın zamanda öz mənfəətini dərk edib müqəddəratını və mənafeini Zaqafqazya millətlərilə birlikdə həll, müdafiə etməyə qalxışar...

Əfəndilər! Bu kürsüdən enmədən əvvəl mən müahidənamənin tarixinə Azərbaycan hökumətinin bilfel kəndi torpağı üzərində birinci hökumət təşkili arasında təsadüfi olaraq bir münasibət görürəm. İyunun ibtidasında Azərbaycan ilə Gürcüstan öz aralarında bir müahidə əqd edirlər. Yenə keçən il iyunun ibtidasında Gəncədə Azərbaycanın əvvəlinci hökuməti təşkil edilmişdi. Azərbaycan felən təşkil edibdə paydar olması üçün əbədiyyən kəndisini müdafiə etmək, xaricdən gələcək hər növ təhlükələrə qarşı qonşuları ilə əhdnamə bağladığı yenə eyni tarixə təsadüf edir.

Əfəndilər! Mənə müsaidə etsəniz bunu təsadüf deyil mən faktiki əhd edərək hüsnü-təsadüflə iki milləti təmsil edən cümhuriyyətlərin, iki millətin ümum demokratiyasının amalıdır. Zənn edirəm hürriyyətimizə təcavüz vaqe olarsa bir silah arkadaşı kimi Azərbaycan və Gürcüstan milləti bərabərinə gələcəkdir. (Sürəkli alqışlar).

**Rəis** - Söz Əhmədov Yusifindir.

**Yusif Əhmədov** - Möhtərəm məbuslar. İstərəm o şeyi bura-dan söyləyim ki, ay yarım əvvəl Denikinin Şimali Qafqaz təhlükəsi vaqe olan zaman söylənmişdir. O gün məclisdə mən də özüm öz tərəfimdən və bitərəflər tərəfindən o gələn təhlükənin müdafiəsini bir şeydə gördüm. O da ittifaq idi. Güman edirəm ki, məbuslardan çoxunun xatirində olsun, mən də ərz eylədim ki, bunun yeganə çarəsi varsa o da Zaqafqazyada təşkil edilmiş cümhuriyyətlər ittifaq edib bir yerdə müttəhidən o qüvvənin qarşısını almalıdır. hərgah kənardan gələn qüvvə bu ittifaqı görərsə əmin oluram özü-özlüyündə fikrə düşər, xəyal edər ki, təşkil olunmuş cümhuriyyətlər hüquqlarını bilirlər, bunlara hücum etmək, bu yolda təşəbbüsat etmək çətin [762 - 763] olacaq. İndi əlhəmdüllah bu gün onun nəticəsini görürük, məsələdən uzağa düşməyək. Aşkar bir şeydir ki, milli ittifaq nəinki hərbi zəmində bəlkə ticarətdə də lazımdır. Bu saat Rusiyanın üzərində və bütün dünya üzrə hər sinfin ittifaqı vardır. Ta dalandarlardan, dvorniklərdən tutub tacirlərə kimi ittifaqları var. Bu səbəblə özlərini müdafiə edirlər. Bu yeni bir şey deyildir. Lakin təzə olan şey odur ki, Azərbaycan istiqlaliyyəti Azərbaycan məmləkəti təzə təşkil olunmuş və onun da təsdiqinin əlaməti odur ki, qeyri bir məmləkət ilə hərbi ittifaqı əqd edilmişdir. Bu ittifaq hərbi bir ittifaq deyildir; bu ittifaq özünü müdafiə etmək, düşmənin pis fikirlərindən saxlamaq üçün əqd edilmişdir. Lakin bu ittifaq o zaman təkmil olar ki, 3-cü hökumət də bu ittifaqa daxil olaydı; hər şeyin əvvəli, hər bir təşkilatın binası böylədir. Ola bilər ki, az şeydən başlasın. Fəqət təkmil olsun. Bu ittifaq gəc xəyal ittifaqi deyil; azad təşkil olunan hökumətlər arasında əməli-xeyirdir. Bu ittifaq nədən naşıdır, onu demək istəyirəm. Lakin məqsəd dəqiq olub, lazım olan vaxtda istifadə edib yenidən bağlamağa güman edirəm hansı zamanda yaşadığımızı və dərdin nə olduğunu bilib onun çarəsini eyləmək; o yolda iqdamatda bulunmaq təşəbbüsündən ibarətdir. İndi burada bağladığımız şərtnamə və əhdnamə barəsində müzakirə olunur. Mən güman edirəm Azərbaycanda və Gürcüstanda qeyri təşkil olunmuş cümhuriyyətlərdə də az adam tapılsın ki, bunun əleyhinə olsun. Hökumətin bu təşəbbüsatına özüm və firqəmiz tərəfindən təbrik edirəm, güman edirəm bu hərbi ittifaq söz-də, kağızda qalmayacaq, ona əməl ediləcəkdir. Güman edirəm Avropa hökmdarları azad yaşamaq istəyən bir millətə mane olmazlar. hökumətimizdən bu barədə razılıq edib məclisi-məbusandan xahiş edirəm ki, bu hərbi əhdnaməni qəbul eləsin.

**Rəis** - Söz İbrahim Əbilovundur.

**Əbilov** ("Sosialist") - Möhtərəm məbus əfəndilər! Məmməd Əmin əfəndi həzrətləri nitqində bir şer buyurdular: "Ədu şəvəd səbəbi xeyr, əgər xoda xəhəd". Kənardan üstümüzə və istiqlaliyyətimizə təcavüz edən, Rusiya inqilabını boğmaq istəyən və inqilabın nəticəsi olaraq bizə bəxş edilmiş olan hürriyyətimizi yox etmək istəyən Denikin təhdidi əlbəttə iki qonşu milləti, bəlkə bütün Zaqafqazyada olan demokratiyanı birləşməyə məcbur edəcəkdi. Çünki Zaqafqazya millətlərinin [763 - 764] aldığı hürriyyət və istiqlal həmin Rusiya inqilabikəbirinin nəticəsidir. Odur ki, hürriyyətimizi əlimizdən almaqla təhdid edən Denikin təcavüzü Qafqazya demokratiyasını birləşməyə məcbur etdi. Bir vaxt vardı nə qədər ki, təhlükə görünməyirdi güman edirdilər ki, guya bu iki ən dost və səmimi Azərbaycan və Gürcüstan demokratiyası bir topuşmaya və münaqişəyə rast gələcəkdi. Lakin bu iki demokratiya düşündükləri münaqişəyə yol vermədi, kənardan kələn təhlükə isə münaqişəni rədd etdi; hətta iki demokratiyanın birləşməsinə və ittifaqına səbəb oldu. Odur ki, o şer məfhumunu ki, Allah istəsə düşmən xeyrə səbəb olur, iki demokratiya arasında ola biləcək münaqişə götürüldü və aramızda daimi dostluq əmələ gəldi.

Fəqət əfsuslar olsun ki, cəmi Zaqafqazya millətlərinin böylə təhlükəli bir zamanda üçüncü qonşumuzun demokratiyası iş başında olan hökumətlərinin sürdüyü politikası altında yaşayıb qəflətən ayılmadığından bu gün onların imzaları bu etilafnamənin altında görünmür.

Bununla bərabər biz ümidvarıq ki, erməni xalqı, erməni demokratiyası onların qonşular ilə birləşməsinə mane olan iş başında olanları rədd edib, hökuməti əlinə almaqla bizimlə ittifaq edərlər, inanırıq ki, bununla

hürriyyətimizi müdafiə edə biləcəyik. Ümidvarıq ki, axırda əlimiz bir-birinə yetişər və Zaqafqazya millətləri birlikdə öz hüquqlarını müdafiəyə qalxışarlar. Bugün bu təhlükəni, bizim etilafnamə bağlamağımıza səbəb olmuşdur, ola bilər bəziləri öylə xəyal edələr ki, bu təhlükə azalmışdır; öylə ümid edənlər ola bilər ki, guya o xəritə, o xətti-hüdud ki, bizə vəd ediblər, məsələni bitirib qurtarmışdır. Lakin əqidəmizcə nə o kağızın, nə o xəritənin səmərəsi, əhəmiyyəti yoxdur. Biz onu bilirik ki, Denikinin məqsədi qüvvə yığıb Rusiyanı əvvəlinci dairə-sində təzədən bərpa etməkdir. Hərgah Denikin o biri tərəfdə müvəffəqiyyət qazanarsa, güclənib Rusiya inqilabını boğarsa, indi də olmasa şübhəsizdir ki, Denikinin axırıncı zərbəsi yenə Azərbaycan, Gürcüstan və ümum Zaqafqazya hökumətləri üzərinə endiriləcəkdir. Ona görə o vədlər ki, bizə verirlər, onlara inanmayıb gürcü demokratiyasilə bağladığımız ittifaqı daha da möhkəmləndirməliyik. Nəinki böylə hərbi müdafiə etirafi əqd etmək, bəlkə gələcəkdə Zaqafqazya demokratiyasilə tamamilə birləşməliyik. Bu əvvəlinci bir əqdnamədir ki, gələcəkdə [764 - 765] Zaqafqazya millətlərinin səadətinə səbəb olacaqdır. Bununla burada sakit əyləşib Denikin təhlükəsini verilmiş vədlər ilə qurtarmış hesab etməməliyik. Çünki o vədlər gücünü itirmişdir. Təhlükə qurtarmamış, davam etməkdədir. Ona görə bu iki demokratiya arasında bağlanmış əhdnaməni daha da möhkəmləndirib, üçüncü demokratiyanın da tezliklə bu ittifaqa daxil olmasını arzu edirik. Ancaq dünya inqilabı, bizim demokratiyanın ittifaqı sayəsində biz yaşaya bilərik. Hərgah dünya imperialistləri və içərimizdə oturanlar fürsət tapıb inqilabı basarlarsa, istiqlaliyyətimiz əlimizdən çıxar. Ona görə bu iki demokratiyanın birləşməsinə səy etməliyik. Çünki bu ittifaq bütün dünya demokratiyasilə birləşmək üçün bir müqəddimədir. Ancaq demokratiya ittifaqı sayəsində inqilabı müdafiə edib, dünya imperialistlərinin əlindən xilas ola biləcəyik. Mən nitqimi bununla bitirib deyirəm ki: Yaşasın Azərbaycan demokratiyası, yaşasın Gürcü demokratiyası, yaşasın bunların ittifaqı və yaşasın gələcəkdə bizimlə birləşəcək erməni demokratiyası.

**Rəis** - Söz Əfəndizadə Hacı Hüseynindir.

**Hacı Hüseyn Əfəndizadə** ("Əhrar") - Möhtərəm məbuslar. Bugünkü iclas cümhuriyyətimizin gələcək tarixində böyük bir səhifə açdı. Bugün Azərbaycan və Gürcüstan demokratiyası xaricdən gələn qara qüvvələrə qarşı müştərək amalımızın birinci xotvəsidir. Biz arzu edirik, ümid edirik ki, bu xotvələr daha ali, daha amal ilə atılsın. Bundan sonra Azərbaycan və Gürcüstan demokratiyası özlərində bir idrak və varlıq hiss edərlər; bu ittifaqın siyasəti-xariciyyələrə qarşı böyük bir təsiri vardır, çünki bu gün xırda milliyyətlərin müqəddəratı Sülh konfransında həll olunur; demək bu əhdnamənin əqdilə biz də yaşamağa və istiqlalımızı müdafiə etməyə bir idrak və bir qüvvə və istək olduğunu isbat etmiş oluruq və böylə deyirik ki, bu şüar hər bir sinfimizin beyninə yerləşmişdir. Əfəndilər! Sizi inandırıram ki, xalq sinfi, xüsusən Azərbaycan demokratiyası iman edir ki, istiqlalımızı müdafiə və mühafizə yolunda hər vasitə ilə olursa-olsun, çalışacaq, əlləşəcəyik. Fəqət bu yalqız olmaz. Ətrafdan kömək və el birliyi istənilir. Natiqlərdən biri dedi ki, biz kiçik bir millətik, mən buna etiraz edirəm; biz böyük millətik; lakin gənc istiqlalımız var. Firqəmizin də amalı budur, vaxt müsaidə etdikcə [765 - 766] başqaları ilə ittifaq və ittihad yapmalıdır. Bu birinci xotvədir ki, bizim də proqramımızın içində var və onun üçün deyirəm yaşasın bu ittifaq və hər iki dövlətlərin demokratiyası! (Alqış).

**Rəis** - Söz Qara bəy Qarabəylinindir.

**Qarabəyli** ("İttihad") - Əfəndilər! Gürcüstan və Azərbaycan dövlətləri arasında yapılmış olan bu ittifaqı mən də təbrik etməkdən kəndimi alamam. Bugün bu iqdam, bu xotvə məncə haman o iqdam, xotvədir ki, nəinki indi, bəlkə elanı istiqlaldan əvvəl atmaq lazım gəlirdi. Zira istiqlaliyyət qazanıb, istiqlaliyyət elan edən bir millət əvvəl düşünməlidir ki, hansı əsaslara istinad edib, hankı qüvvələr ilə istiqlaliyyətini müdafiə edib, hankı qüvvələr ilə istiqlaliyyətini müdafiə edəcəkdir. Qafqazya millətləri istiqlal fikrini ortaya atanda xətaları bu olmuşdur ki, bu ittifaqın lüzumunu dərk etməmişlərdi. Bugün biz əgər tarixə nəzər edib Qafqazya millətlərinin indiki düşdükləri fəlakəti nəzəri-dəqiqdən keçirsək görərik ki, Qafqazya millətləri bu ittifaqı o vaxt yapmış olsaydılar, haman ittifaqa bütün Qafqazya millətləri iştirak etsə idi, bəlkə də indiki çətinlik xüsusilə gəlməyə idi; bəlkə də Denikinlər və o kimi düşmənanə vəziyyət alanlar bu ittifaqi görübdə bizi əzməkdə, bizə qalib gəlməyə cəsarət etməyib aciz oldular. Əgər Şimali Qafqazyanın halını xatirimizə gətirsək ki, onun başına gələn, heç fərq yoxdur, bizim öz başımıza gəlmiş hesabdır. Görürük ki, bu ittifaq o vaxt bağlanmış olsaydı, Şimali Qafqazya cümhuriyyəti şübhəsiz bu ittifaqa daxil olardı və bugünki fəlakət onun başına gəlməzdi. Ona görə bu əhdnamənin heç bir maddəsini tənqidə belə qalxışmayiriq. Bəlkə də bəzi nöqsanlar varmış. Lakin onların əhəmiyyəti yoxdur. Çünki baş gedən vaxt saç üçün ağlamazlar. Təhlükəli bir vaxta ki, istiqlalı müdafiə məsələsi araya gəldi ufaq-nifaq məsələləri düşünməzlər. Hazırda bu ittifaqın varlığı şərtdir. Bu ittifaqı yapan Zaqafqazya millətləri ki, istiqlaliyyət elan ediblər, o istiqlaliyyət üçün qan tökülüb can verməyə hazırdırlar. Əgər bu ittifaqın nə üçün yapılmış olduğunu Zaqafqazya millətləri bir tüccari və ya başqa dövlətlər arasında əqd edilən müahidənamələr kimi tələqqi etsələr, böyük xəta etmiş olarlar. Burada maddi, ticcari və ya başqa mənfəət nəzərə alınmamalıdır. Hətta bu ittifaq [766 - 767] ilə kim qazanmış olacaq - Bunu da düşünməməlidir. Bizə ancaq bu ittifaq ilə o ülvü və müqəddəs məqsəd üçün müdafiə və mühafizə yoldaşlığı lazımdır. Bunun üçün bağlanmış olan ittifaqnamə, qüsurlu olsa belə bizcə məqbuldur, onun maddələrini tənqidə lüzum yoxdur. Madam ki, ittifaq var, madam ki, kəndisini tanımış ikən millət deyir ki, istiqlalımızı müdafiə üçün xaricə qarşı birlikdə çıxıb bir yerdə öləcəyik, bu kafidir.

Bu ümid ilə bundan sonra daha da qüvvətlənmiş olan ruhi-miz və cəsarətimiz və hiss etdiyimiz doğrudan ayağımız altındakı zəminin qıtlığı yalnız Denikinin deyil başqalarının nəzərində bizə qarşı təcavüz edənlər üçün bir qüvvət tələqi edəcəkdir; onun üçün biz bu müahiddənaməni bütün xalqımızla təbrik edərik, Qafqazya millətlərinin hər bir mənafeyi birdir, bəzi mülahizat nəticəsi olaraq bu ittifaqa girmək istəməyənlər bizə deyil, özlərinə zərbə vurmuş olacaqlardır. Biz bilirik ki, o elan Vilsonlar tərəfindən yazılmış olan cəmiyyəti-əqvamın adı var, özü yoxdur; biz bilirik ki, o köhnə Avropa öz çürük siyasətini qüvvəsiz müsəlmanlar üzərinə yürütmüş dövlətlər heç vaxt öz xoşuna olaraq xırda millətlərə və xüsusən biz müsəlmanlara heç bir hüquq verməyəcəkdir. Bunlar xəyanət qəbilindən olan şeylərdir. O dövlət və millət ki, öz haqqını istibdad edə bilər. Avropa daima onları nəzərə alıb hüquq verməmişdir. hər kəs desə ki, bizim bəzimizə Avropa kömək edəcək, o birinə acığı gələcəkdir, bu doğru deyildir. Onlar bizim qara qaş və qara gözümüzə aşiq deyildirlər. Onlar öz mənfəətindən başqa bir şeyi nəzərə almazlar. Ona ümid bağlayan başı açıq qalar. Bu qədər təcrübələr keçirmişik; bu qədər zülmlərə məruz qalmışıq; bu intibah bu iki hökumət iki dövləti almış olanlara doğru yol göstərmişdir. Bunu təkrar deyirəm bu ittifaq Tiflisdə elani-istiqlal zamanında lazımdır, lakin o vaxt bu ittifaq nəzərə alınmamış, hüdud və Qazax məsələsi bir şey deyildir. Onların vücudu nəyə lazımdır. Biz qəlbimizlə istərdik ki, bu ittifaqın nəticəsi olaraq Şimali qafqazyalı qardaşlarımızı bu ittifaq vasitəsilə düşmənlərdən xilas edib bu ittifaqa daxil edək. O biri qardaş-larımız ki, bu vaxtadək ayrı getmişlər, arzumuz budur ki, demokratizm üsulu ilə gedib o əsası təsviyə etsinlər. Əgər böylə olmazsa Qafqazya millətləri cari qüvvələrin ayaqları altında [767 - 768] əziləcəkdir. Biz bu təvəccöhü edəcək bütün Qafqazya millətlərinə onu söyülərik ki, Azərbaycan həmişə sülh yolunu tutub, onu təqib edəcəkdir. Bu ittifaq ilə ancaq özünü müdafiə edib, başqalarına təcavüz fikrində olmayacaqdır. Bu ittifaq yalnız demokratik bir fikirdir. Buna yaxınlaşmaq istəməyənlər demokratiya tərəfdarı deyildirlər.

**Rəis** - Natiqlərin sırası bitdiyindən divani rəyasətə müzakirat nəticəsi olaraq varid olmuş təklifi katib oxuyur. (Katibə). Oxuyunuz.

**Katib** (Oxuyur) - Azərbaycan məclisi-məbusanı Tiflisdə iyun ayının 16-ında Azərbaycan hökuməti nümayəndələri ilə gürcü hökuməti nümayəndələri arasında bağlanmış olan siyasi və tədafei müahidənaməni təsvib və təsdiq edir.

**Rəis-** Təklifi səsə qoyuram. Etiraz yoxdur? Təklif xüsusunda danışmaq istəyən yoxsa səsə qoyuram. Hər kəs bu təklifi qəbul edirsə rica edirəm əlini qaldırsın. (Hamı üzvlər əlini qaldırır). Əllərinizi salınız. Kim bunun əleyhinədir? (Əllər qalxmır). Kim səs verməyib? (Əllər qalxmır). Azərbaycan parlamanı müttəhadül-rəy Azərbaycan ilə Gürcüstan hökumətləri arasında bağlanmış olan siyasi və tədafö əhdnaməni qəbul edir. (Ümumi alqış, sürəkli alqışlar, məclis ayağa qalxaraq lojada olan gürcü nümayəndələrini təbrik edirlər. Nümayəndələr təzim edirlər).

**Rəis** - Möhtərəm məbuslar. Azərbaycan parlamanı bugün müttəhidül rəy bütün firqələr və millətlər nümayəndələri tərəfindən qəbul olunmuş qərar ilə bir şeyi isbata yetirdi. Azərbaycan milləti və azərbaycanlılar bilafərq din və millət isbata yetirdilər ki, münfəridən tək öz qüvvələrlə müdafiəyə müstəbid iysələrdə yenə öz qonşuları ilə Mavərayi-Qafqaz cümhuriyyətləri Gürcüstan və Ermənistan ilə bir yerdə mənafeyini və müqəddəratını müdafiə etməyi arzu edir. Bugünki əhdnamə xüsusunda natiqlər söylədilər, mən də bütün qəlbimlə iştirak.edirəm və əminəm ki, üçüncü qonşumuz dəxi tək yaşaya bilməyəcəyini və hürriyyət istiqlalını təhlükədə müdafiə edəcəyini düşünüb bu ittifaqa daxil olar, çünki tək əldən səs gəlməz. Ona güman üç millət, hələ mavərayi Qafqazda olan bu üç millət, əminəm gələcəkdə Qafqazya millətlərinin hamısı öz müqəddəratlarını əllərinə alıb ittifaqlar yazar və birlikdə öz istiqlallarını müdafiə edərlər. Gürcülər ilə aramızda ənva münasibət olmuş, bəzi iqtisadi və ticarəti əhəmiyyətə haiz müqavilənamələr əqd edilmişdir. O cümlədən bu il ərzində poçta və teleqraf müahiddənaməsi kimi bir neçələri tərəfinizdən qəbul və təsdiq olunmuşdur. Fəqət bu vaxtadək məclisi-məbusana bu cür əhdnamə gəlməyibdir. Bugünki əhdnamənin əhəmiyyəti bam-başqadır. Təsdiq etdiyimiz bugünki əhdnamə, altında olduğumuz təhdidin məcbur eylədiyi nəticə deyildir; biz səadətimizi və istiqlalımızı unutmayıb həmişə onların möhkəmlənməsi və müdafiəsi üçün təşəbbüsatında bulunmuşuq. O cümlədən Gürcüstan ilə yapılan bu gün tərəfinizdən təsdiq olunan müqavilənamə əqd edilmişdir. Mən gürcü nümayəndələrinin məclisi-məbusanımızda olmalarından istifadə ilə təklif edirəm ki bir də qiyam edib onları təbrik edəsiniz. (Hamı üzvlər ayağa qalxır, diplomatik lojadaki gürcü nümayəndələrini uzun-uzadı alqışlayırlar. Gürcü nümayəndələri ayağa qalxaraq kərratla təzim edirlər. (Şiddətli alqış davam edir.)

**Rəis** - Bununla iclas qapanır.

İclas saat 1-40 dəqiqədə qapanır.

**Arxiv, f.895, siy. 1, iş. 94, vər. 143, 160.**

**№ 52**

**Əlli ikinci iclas**

*7 iyul 1919-cu il*

**Rəis** - Həsən bəy Ağayev. **Katib** - Mehdi bəy Hacınski.

İclas açılır saat 12-15 dəqiqədə.

**Rəis** - Parlamanın iclası açılır. Yomiyyeyi-müzakirat bu qərar ilə tərtib edilir:

1) hökumət əndində xüsusi təftişat və təhqiqat komisyonu təşkili haqqında qanun layihəsi (Məruzəçi Şəfi bəy Rüstəmbəyov); 2) Poylu stasyonunda Gömrük idarəsi təsisi haqqında qanun layihəsi (Məruzəçi Abdulla bəy Əmircanov); 3) Gömrük idarələrində anbar vergisi miqdarının artırılması haqqında qanun layihəsi (məruzəçi Abdulla bəy Əmircanov); 4) Bakı [769 - 770] gömrükxana ştatının təzyiqi haqqında qanun layihəsi (Məruzəçi Abdulla bəy Əmircanov); 5) Gürcüstan cümhuriyyətindəki Azərbaycan siyasi nümayəndəliyi cümbündə maliyyə nəzarəti Agentliyinin təşkili haqqında qanun layihəsi (Məruzəçi Abdulla bəy Əmircanov); 6) Ermənistanla sərhəddə Uzun Qala gömrük idarəsi qarşısında gömrükxana təsisi haqqında qanun layihəsi (Məruzəçi Abdulla bəy Əmircanov); 7) Xəzinə nəfinə buğ qazanlarından alınan verginin artırılması haqqında qanun layihə (Məruzəçi Abdulla bəy Əmircanov); 8) Məclisi-müəssisan seçkiləri haqqında qanun layihəsi. 3-cü qiraət (Məruzəçi Məmməd Əmin Rəsulzadə); 9) Daxil olmuş kağızlar, o cümlədən: a) Ticarət və nafiə şəhadətnamələrindən şəhərlər nəfinə alınan vergi miqdarının 50 faizə qədər təzayidi haqqında qanun layihəsi;

b) Bakı karxana sənətkarlar yerlərində və fəhlələrin miyanında hesabsız içki və spirt işlənməsinin önünü almaq haqqında qanun layihəsi;

t) Təhkim vergisi miqdarının artırılması haqqında qanun layihəsi;

s) Ümumi tamaşaxanə və əyləncə yerlərindən alınan müvəqqəti verginin (naloq) hökumət xəzinəsi mübaliğə mütəxəssisə idxalı haqqında qanun layihəsi. Varid olmuş layiheyi-qanuniyyələrdən əvvəlinci gedir maliyyə-büdcə komisyonuna, son üçüncüsü gedir ləvayehi-qanuniyyə komisyonuna. Bu cür tərtib edilmiş müzakirati-yomiyyəyə etiraz yoxsa qəbul olunur.

Növbədəki məsələ hökumət əndində xüsusi təftişat və təhqiqat komisyonu təşkili haqqında qanun layihəsidir. Məruzəçi Şəfi bəy Rüstəmbəyov həmin layiheyi-qanuniyyə məruzəçinin bəyanına görə özünə çatmadığından növbədən götürülür, qalır gələn iclasa. Növbəti məsələ Poylu stansiyonunda gömrük idarəsi təsis haqqında qanun layihəsidir. Məruzəçi Abdulla bəy Əmircanov.

**Əmircanov** — Poylu stansiyionunda olan gömrükxananı Ağstafaya gətiriblər, çünki Poyluda lazımı qədər bina və dəmiryol xətləri yoxdur. İndi maliyyə nazirinin təqdim etdiyi layiheyi-qanuniyyəsinə görə Ağstafadan və Gürcüstandan gətirilib Poyludan keçirilən mallara baxmaq üçün Poylu stansiyonunda Gömrük poçtası təşkil etmək istənilir. Təşkil ediləcək Poylu Gömrük poçtasına məmurlar, bir müdirdən və iki baxıcıdan [770 - 771] ibarət olmalıdır. Müdirə sənəvi 13.565 manat baxıcı-ya 9120 manat, sənəvi ikisinə 18.240 manat 6000 min də Poylu-da imarət tutulub, poçtxanəya lazım əşyalar üçün sənəvi məsarif 31.000 manat eyləyir. Gömrük poçtasının iyunun birindən 1920-ci il yanvarın birinə qədər 18.872 manat 50 qəpik xərci var. Layiheyi-qanuniyyə belədir (oxuyur).

**Rəis** - Layiheyi-qanuniyyə xüsusunda kim danışmaq istəyir. Layiheyi qanuniyyənin əsasları xüsusunda kim danışmaq istəyir? Söz Səmədağa Ağamalı oğlunundur.

**Səmədağa Ağamalı oğlu** ("Hümmət") - Əfəndilər! Bu indiki təhlükəli zamanda böylə xırda zakonlardan danışmaya könül yol vermir. Amma yenə müzakirəyə gəlib, gərək fikrimizi məlum edək. Tamojniya həmişə padşahlıqlarda qoyulanda bir neçə vəzifələri var. Amma bizim Azərbaycanda bu vəzifələr görükmür. Tamojniyanın vəzifələrindən biri budur ki, dövlətin pulu artar, ticarət və sənaye saxlayar da, bəzi vaxt tamojna dava vədəsi lazım olur. Dava eyləyən padşahlardan birində olan mal o birinə keçməyib zərər də olsa özündə qalmasını istəyir ki, düşmən olan padşahı sıxıb ona lazım olan şeyi buraxmaya. Tamojnının böylə-böylə vəzifələri var. Əgər böylə vəzifələr görünməsə onda tamojna qoymaq bir oyundur, heç lazım deyil. Oxşar ki, bu saat lazım olmayan bir şeyi tutasan. Sizə yaxşıca məlumdur və hamınız bilirsiniz ki, Azərbaycanın hər yerində dinclik yoxdur. Onu deyirəm ki, hər yerdə anarxiya var, xalq içində, şənlik içində titrəyiş var, bir-birini öldürmək var, zidlik var. Bu zidlik xalqın fikrini bu indi buyurduğu siyasətdən, millətpərəst siyasətdən uzaqlaşdırır. Bunun bir çox səbəbləri var demirəm. Bu səbəblərdən birisi də bu yaraşdırmaq istədiyiniz tamojnadır. Tamojnanın böyük zərəri gəldi və bu ziyanda nə təhər oldusa əvvəldən biçarə Azərbaycanın başında çatladı. Çünki Azərbaycanda şeyi oldu, mal oldu başqa yerlərə versin. Bu şeylərin qiyməti qalxdı. Şeylərin qiyməti qalxdıqca ehtikar artır. Möhtəkirlər çalışdılar ki, hər təhər olsa malı ötürsünlər. Bunun üstündə də ədavət törədi. Tamojinaya yaxın yerlərdən biri də Qazaxdır ki, orada qumarbazlıq, adam öldürmək və qeyri bu kimi hərəkətlər artmışdır. Qazaxda iki həftə ərzində kandraband üçün otuza qədər öldürülmüş, müsəlmançılıqda da bilirsiniz ki, bu ədavət getdi qiyamətə, bunların hamısına proteksiya tamojnası [771 - 772] lazım deyil. Bizə

dava tamojnası gərəkdir ki, o da Gürcüstan sərhədində indi lazım deyil. Nə üçün camaatin vuruşmasına səbəb olursunuz. Qazax uezdində batalyon əsgər saxlamaq lazım dəlir. Tüfəng dərdindən bəzi ölür, axırda da böylə olur ki, cəmaət vərdiş edir, indiki hökumət üzünə ağ olmağa siz deyəcəksiniz yalandır. (Səslər: Böylə şey yoxdur).

Pozvolti. Siz deyəcəksiz ki, müsəlman anadan doğulmaq pisdir. Mən deyirəm bu yalandır. (Səslər: Əlbəttə yalandır). Mən də deyirəm yalandır. Dünyanı coşduran, vuruşduran bunlardır. Hamı yaxşı bilir ki, ermənimi oldu, gürcümü oldu, rusmu oldu bu bir qanundur, təbii qanundur, bunu basmaq, örtüb basdırmaq nahaqdır. Siz deyəcəksiniz ki, xəzinəyə nəfidir, amma bizim spravkamıza görə Poylu da tamojniya qapanandan sonra orada 160 min manat pul yığılmışdı. Onu da rus çinovniki cibinə qoyub çıxdı, getdi, hələ də məlum deyil. Bununla bərabər bir çox adamlar kondraband mal aparmaqla böyük dövlət qazanıblar. Halbuki, mənə lazım olsa sərhəddin xaricində olan bir qohum üçün 5 put un aparmağa imkanım olmaz. Bu saat tamojnanın bizə başqa zərərləri də dəyir. Camaətimiz arasında pis fikirlər törədir, çəkməçi, çəkməçiliyini, molla, mollalığını, çinovnik də öz qulluğunu buraxar. Bu saat xaricə şey ötürməklə məşğuldurlar. Çünki o bilir ki, əkər salamat tamojnadan ötüşə bilsə əlli, altmış min manat qazanacaqdır. Ondan sonra başlayacaq qumarbazlığa, halbuki, biz gərək camaətimizi yaxşı yollara öyrədək. Bizə deyirlər ki, hər padşahlıqda tamojna vardır. Doqrudur vardır. Azərbaycanda biz deyirik ki, gərək tamojna olsun. İndi qardaşlar keçən il bizə deyirdi ki, Gürcüstan ilə sərhəd bizim taxılımızı xaricə çıxara bilməz. İndi aramızdakı hesab götürüləndən sonra burada deyirlər ki, gərək tamojna açıla. Biz təklif edirik ki, Gürcüstan hökuməti ilə mübarizə edilməyib tamojna barəsində bir müqavilənamə bağlansın, Ermənistana da tamojna lazım deyildir. Orada tamojniyanın yaradan onların pis fikri, daşnaqları olubdur. Bunu gərək biz aradan qaldıraq, indi bu saat yol açılıb, mən deyirəm ki, bizim hökumətə ukazaniya etmək lazımdır, bu yaxınlarda Gürcüstan ilə etilaf əqd etsin, hətta Ermənistan ilə də etsin. [772 - 773]

**Rəis** - Sırada natiq olmadığından qanun nahiyəsinin 2-ci qiraətinə keçməyi səsə qoyacağam. Rica edirəm hər kim danış-maq istəyirsə yazıb məlum etsin. Son söz məruzəçinindir.

**Məruzəçi** - Əvvəla mən hökumət nümayəndəsi deyiləm, parlaman üzvüyəm.

**Səməd ağa** (yerindən) - Mən deyən sən deyilsən.

**Rəis** - Rica edirəm yerinizdən danışmayın.

**Məruzəçi** (davam edir) - Səməd ağanın buyurduğu sözlərin ümumi gömrük qanununa baxanda bəlkə bir mənası olardı, indi bir ildən yuxarıdır ki, Azərbaycanın cəmi hüdudlarını gömrükxana əhatə etmişdir. Poyluda da bir gömrükxana olmaz isə o zaman bir çox qaçaq mallar keçirilir ki, o da bizim maliyyəmizə böyük zərbədir. Buna görə deyirəm Səməd ağanın buyurduğu bəlkə yaxşı sözlərdir, lakin indiki halda onun bizim məmləkətin faydasına mənası yoxdur.

**Rəis** - Layiheyi-qanuniyyənin kim ikinci qiraətini qəbul edirsə, rica edirəm əlini qaldırsın. Sayınız. Bunun əleyhinə kimdir? Səs verməyən kimdir? Möhtərəm üzvlərdən çox rica edirəm ki, əkər məclis ibtidasında böylə gedirsə, güman edirəm bu gün bir şeyə baxa bilməriz. Təzədən səsə qoyuram. Kim layihənin 2-ci qiraətinə keçmək tərəfdarıdırsa əlini qaldırsın. Sayınız! Kim əleyhinədir? Səs verməyən? Mən məcbur oluram məclisi qapayam, çünki kvorum yoxdur. Qırx beş adamdan qırx adam iştirak edir. (İbrahimə). Siz iştirak etməyirsiniz? Siz nə lehinə, nə də əleyhinə səs verdiniz? Bu surətlə məclis aparmaq olmaz. Mən məclisi qapamağa məcbur olacağam.

Tərsinə səsə qoyuram! Kim əleyhinədir, ayağa qalxsın. 45 adamdan 6 əleyhinədir, 6 səs verməyib, deməli 33 lehinədir. Qanun layihəsinin 2-ci qiraəti əksəriyyət rəy ilə qəbul edilir. Oxuyunuz.

**Mehdi bəy** - Birinci maddəni oxuyur.

**Rəis** - Sırada natiq olmadığından birinci maddəni səsə qoyuram, Ağabəyov Rzabəy.

**Rzabəy** - Möhtərəm əfəndilər! Keçən natiq burada danışanda ortalığa bir söz çıxartdı ki, sui-təfahüm olur. Çünki o ehtikardan danışdı; buna da səbəb tamojnadır, dedi. Əlbəttə bu böylə deyil. Mən onu deyə bilərəm ki, gərək biz səy edək ki, tamojna idarələri möhkəm olsun təki möhtəkirlər oradan malını keçirə bilməsinlər. Bir növ tamojnalarımız möhkəm [773 - 774] olmadığına görə yüz min putlarla buğdalar-qeyri məmləkətə gedir. 3 məmləkət ki, ibarətdir Azərbaycan, Gürcüstan və Ermənistandan bu saat onların arasında azadlıq olsa yaxşı deyildir. Lakin hər yerdə bu tamojnalar olar, ona görə birinci maddənin qəbulunu təklif edirəm.

**Rəis** - Söz Hacı Kərim Saniyevindir.

**Saniyev Hacı Kərim** ("Hümmət") - Gömrük qoyulan yer Poyludur. O yerləri mən gözəlcə tanıdığımdan və bu az vaxtda ora əhvalına bələd olduğumdan danışacağam. Gömrükxana açmaq əsasən yaxşıdır, yamandır, onda işim yoxdur. Əvvəla onu demək istəyirəm ki, bu gömrük ki, qoyulub onu qoyanlar ehtikar adamlardır.

**Rəis** (Natiqi dayandırır) - Natiq əfəndi, rica edirəm maddə üzərinə danışasınız, Gömrükxananı hökumət qoyur. hökumət möhtəkir ola bilməz. Rica edirəm sözlərinizə diqqət edəsiniz. Gömrüyü hökumət qoyur. Rica edirəm maddə üzərində nitqinizə davam edəsiniz.

**Hacı Kərim** (davamla) - Poylu stasyonu bu saat milyona başa gəlməz. Poyluda da bu saat nağd pul yoxdur. Gömrükdən cəmi bir neçə min mədaxil olmuşdu, onu da ki, bir məmur cibinə qoyub qaçdı, bilmək olmayır haraya getdi. Bu saat Poyluda tamojna olmaması ehtikarın azalmasına səbəb olmuşdur. İndi qalıb Ağstafa-

Ağstafadan mal aparıb keçirmək çətindir. Məhəlli-vüsul Poyluda olanda aparıb vaqonı açırlar. Poyluda 3-4 gündən sonra vaqona gedəndə dalına bağlayıb adladırlar sərhəddən o tərəfə. Bu cür olmasa necə başqa yollar vardır. Körpü altından keçirib aparırlar Salahlıya. Ona körə də gömrükxananın Poyluda olması zərərdir. Ondan başqa da yol yalnız ora deyildir, bir neçə yollar var. Yaxın olduğundan malı keçirmək çətin deyildir. Gömrükxana olursa Ağstafada olsun. Əgər kondrabandın qabağını kəsmək isə böylə olsun. Və çətin malı Poyluya aparmaqdır. Ondan sonra 3-4; verstlik yoldur, aparırlar, adladırlar Salahlı yolu gedir Gürcüstana. Bundan başqa 3-4 quru ilə yol var ki, düz gedir Gürcüstana. Bunun mənası nə olur? Mənası bu olur ki, dolu vaqonlar sərhədini bir verstliyinə gedir. Ona görə Poylu sərhəddə çox yaxın olduğundan təklif edirəm ki, gömrükxana Poyluda olmasın. Ağstafa var bəsdir. Poyluda post vardır, kifayətdir, Gömrükxananın Poyluda olmaması məsləhətdir. [774 - 775]

**Rəis** - Son söz məruzəçinindir.

**Əmircanov** - Mən axırıncı natiqin sözlərini yaxşı anlaya bilmədim. Ancaq Ağstafa ilə Poylu arasında 15-20 verst fasilə var. Əgər Poyluda olan dəmir yol məmurları istəsələr malları qatara doldurub keçirirlər Gürcüstana. Maliyyə işlə-rində nöqsan olar. Gürcüstandan kələn malları da Poyluda Ağstafa arasında çıxarıb verirlər ətrafa, istədikləri yerə aparırlar. Çox zərər vururlar bizim xəzinəyə. Mən böylə anlamıram ki, maliyyə-büdcə komisyonu qərar verib Poyluda gömrük postası olması lazımdır. Bir də malın çoxu dəmiryolu ilə gedir. Sərhəddə əsgərlər var qıraqdan mal keçirilsə borcudur baxsın, qıraqdan gedirsə yüzdə bir ancaq gedir. Malın güclüsü Poyludan gedir. Ona görə Poyluda gömrük postası olması lazımdır.

**Rəis** - Əvvəlinci maddəni səsə qoyuram. Kim qəbul edirsə, rica edirəm əlin qaldırsın. (Əllər qalxır). Kim əleyhinədir? (Əllər qalxır). Kim səs verməyib. (Əllər qalxır). Təkrar səsə qoyuram. Axırdan başlayacağam. Kim səs verməyib rica edirəm ayağa qalxsın (qalxırlar) Əyləşiniz. Kim əleyhinədir? (Qalxan olmayır). Səs verməyən 9, əleyhinə yox, əksəriyyət ilə əvvəlinci maddə qəbul olunur. (Katibə) 2-ci maddəni oxuyun.

**Katib -** 2-ci maddəni oxuyur.

**Rəis -** 2-ci maddə xüsusunda kim danışmaq istərdi. Natiq olmadığından səsə qoymağa məcburam. 2-ci maddəni səsə qoyuram. 2-ci maddəni kim qəbul edirsə rica edirəm əlini qaldırsın (Əllər qalxır). 2-ci maddə əksəriyyət ilə qəbul olunur. (Katibə). 3-cü maddəni oxuyun.

**Katib -** 3-cü maddəni oxuyur.

**Rəis -** 3-cü maddə xüsusunda kim danışmaq istərdi. Natiq olmadığından 3-cü maddəni səsə qoyuram. 3-cü maddəni kim qəbul edirsə rica edirəm əlini qaldırsın. (Əllər qalxır). 3-cü maddə əksəriyyətlə qəbul olunur. Layiheyi-qanuniyyə 2-ci qiraətdə qəbul olunub 3-cü qiraəti qalır kələn iclasa. Növbədəki məsələ gömrük idarələrində ambar vergisi miqdarının artırılması haqqında qanun layihəsidir. Məruzəçi Abdulla bəy Əmircanov.

**Abdulla bəy Əmircanov** - Gömrükxana ambarlarında əgər mal 5 gündən artıq qalar isə mallardan dövlət xəzinəsi fayda-sına vergi alınır. Bu vaxtadək açıq anbarlardan hər puta qəpiyin 4-də birisini alırdılar; örtülü anbarlarda isə qəpiyin [775 - 776] 3-də birini alırdılar. Hərçəndi gömrükxana binaları İngiltərə komandanlığı əlində isə də köhnə gömrük anbarlarından bəziləri bizim əlimizdədir. Maliyyə naziri bir qanun layihə-si göndərmişdir. Bununla kirayənin nə qədər artdığını rəsmi surətdə bilmək olmur. Xüsusi anbarları olan şəxslərin məlumatına görə 1917-ci ildə örtülü anbarlardan 1/5 qəpik, 1918-ci ildə bir qəpik, bu il yanvar və fevralda 3 qəpik ver-ki alınırmış. Açıq anbarlardan isə 17-ci ildə 1/10 qəpik, 18-ci ildə yarım qəpik, bu il qəpik yarım alınır. Buna bina-ən maliyyə nazirinin rəyi budur ki, 5 gündən artıq qalan maldan açıq anbarlardan puta bir qəpik yarım, örtülülərdən isə 3 qəpik alınsın, o anbarlar ki, hərbiyə komandanı əlindədir, onlar da bizim əlimizə keçəcək, bundan maliyyə nəzarətinin bir çox gəliri olacaq. Qanun layihəsi böylədir. (Oxuyur).

**Rəis** - Qanunun əsasları üstə kim danışmaq istərdi? Danışmaq istəyən olmadığından layiheyi-qanuniyyənin ikinci qiraətinə keçməyi səsə qoyuram. Kim layiheyi-qanuniyyənin ikinci qiraətinə keçmək tərəfdarıdırsa əlini qaldırsın. Sayınız. Kim əleyhinədir? Səs vermiyənlər? Lehinə 28, əleyhinə yoxdur, səs verməyən 14, əksəriyyət rəy ilə ikinci qiraətə keçmək qəbul olunur. Birinci maddəni oxuyunuz.

**Katib** - Oxuyur.

**Rəis** - Əvvəlinci maddə xüsusunda kim danışmaq istərdi, səsə qoyuram. Kim qəbul edirsə, rica edirəm əlini qaldırsın. Əksəriyyət rəy ilə əvvəlinci maddə qəbul edilir. 2-ci maddəni oxuyunuz.

**Katib** - Oxuyur.

**Rəis** — 2-ci maddə xüsusunda kim danışmaq istərdi? Danışmaq istəyən yoxsa səsə qoyuram. Kim qəbul edirsə rica edirəm əlini qaldırsın. Əksəriyyət rəy ilə 2-ci maddə qəbul edilir. Layiheyi-qanuniyyənin 3-cü qiraəti qalır gələn iclasa. Növbədəki Bakı Gömrükxana ştatasının təzyiqi haqqında qanun layihəsi, məruzəçi Əmircanov Abdulla bəy.

**Əmircanov** - Hökumətimiz Bakıya gələndən sonra gömrükxana işləri çoxalmışdır. Nəinki bir tək bura kələn mallardan, burdan çıxan mallardan da gömrük alınır. İnqilabdan 5 il əvvəl bircə Bakıya kələn maldan alınan gömrük vergisinin miqdarı böylədir. (Bir cədvəl oxuyur). Fəqət bu ilin təkcə 3 əvvəl aylarında - yanvar, fevral, martda kələn və çıxan mallardan [776 - 777] dövlət xəzinəsinə 4 milyon 7 yüz min manat mədaxil olmuşdur. Bu mədaxilin çoxu da çıxan mallardan alınmışdır. Gömrükxana məmurlarından bir çoxu risq etmişlər. Böylə ki 2

revizor əvəzinə bir, 2 buxqalter əvəzinə bir, 2 gəmi nəzarətçisi olub bir, baxıcılar isə 119 adamdan 50 nəfər qalıbdır. Bu suratlə bu qədər işi az adam görə bilməz. Maliyyə naziri təqdim etdiyi layiheyi-qanuniyyədə söyləyir ki getdikcə gömrük gəliri artmaqdadır. Ona görə də məmurların siyasisini artırmaq lazım gəlir. Bir də yaxında, paroxodlardan karabelni vergi var, alacaqlar. Bu vergi əvvəl alınmırdı. İndi bizim hüduddan keçib gedən paraxodların dərəcəsinə görə vergi alınaçaq. Bundan əlavə bir də put vergisi alınır. Ona görə maliyyə naziri layiheyi-qanuniyyədə məmurların artırılmasını təklif edir. Layihə belədir. (Oxuyur). Bu qərar üzrə 5-ci dərəcə müfəttişlər 2 nəfər, anbar müdiri 4 nəfər, baxıcı 4 nə-fər artırılması təklif olunur. Yeni təşkil olunacaq vəzaif üçün təmmuz ayı ibtidasından sənə axırına qədər 192 min manat para istənilir. Bu layiheyi-qanuniyyəni maliyyə-büdcə komisyonu bir səslə qəbul eyləmişdir. Şimdi də təsdiq üçün parlamana təqdim edir. (Layihəni rusca oxuyur).

**Rəis** - Qanun layihəsinin əsasları üzərində kim danışmaq istərdi, yoxsa səsə qoyuram. Kim layiheyi-qanuniyyənin 2-ci qiraətinə keçilməsi tərəfdarı isə rica edirəm əlini qaldır-sın. (Əllər qalxır). Sayın, kim əleyhinədir? (Əllər qalxır). Kim səs verməyib. (Əllər qalxır). Lehinə 29, əleyhinə yox, səs verməyən 14. Əksəriyyət ilə layiheyi-qanuniyyənin 1-ci qiraətinə keçilir. (Katibə). Oxuyun!

**Katib** - Layihənin birinci maddəsini oxuyur.

**Rəis** - Birinci maddə xüsusunda kim danışmaq istərdi. Danışmaq istəyən yoxsa səsə qoyuram. Əvvəlinci maddəni kim qəbul edirsə rica edirəm əlini qaldırsın. (Əllər qalxır). Əvvəlinci maddə əksəriyyət rəylə qəbul olunur. 2-ci maddəni oxuyun.

**Katib** - 2-ci maddəni oxuyur.

**Rəis** - 2-ci maddəni səsə qoyuram. Kim 2-ci maddəni qəbul edirsə rica edirəm əlini qaldırsın! (Əllər qalxır). 2-ci maddə əksəriyyət səs ilə qəbul edilir. Layiheyi-qanuniyyənin 3-cü qiraəti gələn iclasa qalır. Növbədəki məsələ Gürcüstan cümhuriyyətindəki Azərbaycan siyasi nümayəndəliyi cünbunda maliyyə [777 - 778] nəzarəti agentliyi təşkili haqqında qanun layihəsidir. Məruzəçi Abdulla bəy Əmircanov.

**Əmircanov Abdulla bəy** - Gürcüstan ilə bizim aramızda bir çox maili və iqtisadi məsələlər əmələ gəlib. Gürcüstanda olan tüccarimiz maliyyə nazirimizə teleqraf ilə ərzhal verirlər ki, bizim bir para maliyyə işlərimizə orada nöqsan toxunur, çünki siyasi məmurun Gürcüstanda o qədər işi var ki, maliyyə işlərini idarə və ona müavinət edə bilmir. Bununla bərabər bir iş də var ki, bizim paralarımız ilə Gürcüstan parasının arasındakı fərq get-gedə artır. Buna görə Gürcüstanda olan siyasi məsələnin yanında bir maliyyə agentə məmuriyyəti təsdiq edilməsini maliyyə naziri xahiş edir.

Bunu maliyyə-büdcə komisyonu bir səslə qəbul edibdir. Maliyyə naziri söz verir ki, hazırda bizim pul ilə Gürcüstan pulu arasında olan 4 faiz təfavüt bir faizə enəcək, bu faizdən o qədər pul toplanacaq ki o nümayəndənin və xidmətlərinin məvacibi haman puldan çıxacaq, hökumətə bəlkə bir faydasıda olacaq. Qanun layihəsi böylədir (oxuyur), ştatları da böylədir (oxuyur).

**Rəis** - Layihə xüsusunda kim danışmaq istərdi? Danışmaq istəyən olmadığından 2-ci qiraətə keçilməsi qəbul olunur. Mehdi bəy, oxuyunuz.

**Katib** - Oxuyur.

**Rəis** - Birinci maddəni səsə qoyuram, kim birinci maddəni qəbul edirsə, rica edirəm əlini qaldırsın. Əksəriyyət rəy ilə birinci maddə qəbul olunur. 2-cini oxuyunuz.

**Katib** - Oxuyur.

**Rəis** - 2-ci maddə xüsusunda kim danışmaq istərdi, səsə qoymaqdan əvvəl təklif edirəm, maaşlar əvvəli iyun əvəzinə əvvəli iyuldan hesab olunsun. Buna görə xərc də az olacaq, buna görə etiraz yoxsa; siz danışmaq istəyirsiniz? Aşurov Ağa buyurunuz.

**Aşurov** - Bu ki, iyunun biri əvəzinə iyulun biri yazmaq istənilir, bu bir az dürüst olmaz, çünki ştat özü iyundan qulluq edir, əgər biz ştatın məvacibini iyuldan qəbul edəcək olursaq, o zaman qulluqçuların iyunu haradan veriləcək?

**Rəis** - Söz məruzəçi Əbdüləli bəy Əmircanovdur.

**Əbdüləli** bəy - Smeta bu qədər, o agentə məmuriyyəti də şimdilik yoxdur. Bu qanun iki ay əvvəl bizə verilib, iyunun birini də qəbul etmişik və xəbərimiz də yoxdur ki, orada agentlik vardır, ya yoxdur.

**Rəis** - Təklifə məruzəçi tərəfindən etiraz olmadığından 2-ci maddəni təshihi ilə bərabər səsə qoyuram, yəni iyulun əvvəlindən 2-ci maddəni hər kim təshihi ilə bərabər qəbul edir isə, rica edirəm əlini qaldırsın. Əksəriyyət rəy ilə 2-ci maddə qəbul edilir. Üçüncünü oxuyunuz.

**Katib** - 3-cü maddəni oxuyur.

Rəis - 3-cü maddə xüsusunda kim danışmaq istərdi? Danışan yoxdursa səsə qoyuram. Kim 3-cü maddəni qəbul edir isə, rica edirəm əlini qaldırsın. Əksəriyyət rəy ilə qəbul edilir. Layiheyi-qanuniyyənin 3-cü qiraəti gələn iclasa. Keçirəm növbədəki məsələyə. Ermənistan sərhəddində uzuntalada gömrükxana təsis haqqında qanun layihəsidir. Məruzəçi Abdulla bəy Əmircanov.

**Abdulla bəy** - Necəki Poylu haqqında xırdaca bir gömrük postası təşkil haqqında ərz elədilər və parlaman tərəfindən qəbul edildi, bir öylə gömrük postası da Ermənistan gömrük-xanası qarşısında Uzuntalada təşkil

edilməsi üçün maliyyə naziri tərəfindən layiheyi-qanuniyyə təqdim edilmişdir. Ağstafadan erməni sərhədi 18 verstdir, orada nəzarət olmazsa, hər kəs bildiyini edər, istədiyini aparar, gətirər, hökumətə də zərər olar. Maliyyə-büdcə komisyonu bu layihəni qəbul etmiş, indi də təsdiq üçün parlamana ərz edilir. Layihə böylədir. (Oxuyur).

**Rəis** - Layiheyi-qanuniyyə əsasları üzərində kim danışmaq istər.

**Əmircanov** - Layihənin ruscası oxunmamışdır.

**Rəis** - Oxuyun.

**Əmirçanov** (Rusca oxuyur) - Buradakı məmurların ədəbi Poylu postxanası üçün qəbul edilən miqdarda olacaqdır. Bir müdir, iki baxıcı ki, sənəvi bütün xərci 31.745 manat eyləyir.

**Rəis** - Layihənin əsasları üzərində kim danışmaq istəyir? Söz Əhməd Cövdətindir.

**Əhməd Cövdət** - Əvvəla gömrük idarələri xüsusunda deyərdim ki, bu gömrük idarələri ki, var qonşu hökumətlər ilə yaxşılaşdırıb, üzlaşmaq ilə ləğv edilsin. Çünki şeylərin bahalanmasına səbəb olur. Bu bahalığında ağırlığını füqərayi-kasibə üzərinə salır. Və bundan hökumətə də zərərdən başqa [779 - 780] bir xeyir gəlmir. Ona görə Zaqafqasya hökumətləri arasında razılıqdır. Belə ki, bu gömrük idarələrinin ləğv edilməsi tərəfdarıyam. 2-ci budur ki, böylə bir idarə Poyluda qurdular, indi də Ermənistan sərhəddində qurmaq istəyirlər. Təəssüf ki, gömrük idarələri üstündə bir nəzər olmadığından bərbad bir haldadır. Ağstafada ay yarım bundan qabaq bir xəzinədar 150 minə qədər pulu götürüb qaçıb.

**Rəis** - Natiq əfəndi sizdən qabaqkı natiqlər bu barədə soylədilər.

**Səslər** - Saniyev, Səmədağa bu barədə söyləyiblər.

**Əhməd Cövdət** - Sizin üçün eşitmək ağırdırsa...

**Rəis** - Xeyir, ağırlığı yoxdur, ancaq söyləmişlər; buyurun, buyurun.

**Əhməd Cövdət** (davamla) - Bu gömrükxanalar ki nə qədər pul hasil edirlər, o pulları yığıb saxlasınlar, biz də əmin olaq ki, itməyəcəkdir. Aldığımız xəbərlərə görə erməni sərhədi yanında olan gömrükxanada keçərilər yarım put, bir put özlərilə buğda aparanda tutub alırlar. Cürbəcür əziyyət verirlər. Amma bilirik ki, məmur rüşvət alıb yüz vağonlarla mal keçirirlər. Axır vaxtlarda görülən tədbirlər köməyilə bir qədər bunun qabağı alınmışdır. Zənn edirik ki, bir məmur təyiniylə bunun hökumətə verəcəyi xeyrini təmin etmək olmaz. Ona görə əkər əmin olaq ki, bir adam təyin olunacaqdır, oradan heç bir şey buraxmayacaqdır və hökumətin xeyrinə çalışacaqdır, o vaxt ola bilir ki, gömrükxana təsisinə razı olaq. Fəqət ola bilir ki, qanun geciksin və bu qanun yaxşı da olsun, lakin böylə məmur təyin olunsun ki, ancaq özü xeyir görsün, hüdud camaəti isə əziyyət çəksin. Ona görə nəzarətin nəzəri-diqqətini burasına cəlb edirik ki, əmin adamlar təyin olunsun, həm cəmaətə, həm də hökumətə zərər vurmasın. Yadınızdadır ki, Bakı gömrükxanasına adamlar lazım olduğundan Rus milli Şurasına yazılmışdı ki, 40 nəfər adam verin. Rus milli komitəsi də məlumdur ki, burada Denikinin orqanıdır, nümayəndəsidir, əksinqilab idarəsidir. Onların tərəfindən təyin olunan adamlardan bizə xeyir gəlməz, onlar ancaq Azərbaycan əleyhinə işləyib pozğunluq çıxararlar. Ona görə hökumətin nəzəri diqqətini buraya cəlb edib deyirik ki, öylə adamlar ola bilsin ki, onlardan xeyir ola bilsin və sonra başımıza bəlalar açılmasın. [780 - 781]

**Rəis** - Sırada natiq olmadığından son söz məruzəçinindir.

**Əmircanov** - Əhməd Cövdət əfəndi də öyləcə Səməd ağa deyəni dedi. Əkər bu söhbət gömrükxana təşkili ibtidasında olsa idi olardı. Amma indi dörd ətrafımız gömrükxanadır. İndi Ağstafadan Ermənistan sərhəddinə 18 verst var. Əgər xain adam olarsa hökumətə böyük zərəri olar. Hərgah Ağstafadan keçən mallara hüdudda baxılmasa arabalar ilə malı aparar. Hakəza Ermənistandan gələn mallara hüdudda baxılmazsa mallar ətrafa dağılar. Əkər parlaman Poylu stansiyonunda gömrükxana postası təşkilini lazım bilib qəbul etdisə Ermənistan sərhəddində də lazım bilsin. Çünki quru yol ilə mal aparıb gətirərlər, zərər daha da çox olar.

**Rəis** - Layiheyi-qanuniyyənin ikinci qiraətinə keçilməsini səsə qoyacağam. Kim layiheyi-qanuniyyənin ikinci qiraətinə keçilməsini qəbul edirsə, rica edirəm əlini qaldırsın. (Əllər qalxır). Kim əleyhinədir? (Əllər qalxır). Kim səs verməyib? (Əllər qalxır). Əksəriyyət rəy ilə layiheyi-qanuniyyənin ikinci qiraətinə keçilir. (Katibə). Oxuyun.

**Katib** - Layihənin birinci maddəsini oxuyur.

**Rəis** - Əvvəlinci maddəni səsə qoyuram. Kim əvvəlinci maddəni qəbul edirsə, rica edirəm əlini qaldırsın (Əllər qal-xır). Əksəriyyət rəy ilə əvvəlinci maddə qəbul olunur. 2-ci maddəni oxuyunuz.

**Katib** - 2-ci maddəni oxuyur.

**Rəis** - 2-ci maddəni səsə qoyuram. Kim 2-ci maddəni məmurun cədvəli ilə bərabər qəbul edirsə, rica edirəm əlini qaldırsın. (Əllər qalxır). 2-ci maddə əksəriyyət ilə qəbul olunur. 3-cü maddəni oxuyunuz.

**Katib** - 3-cü maddəni oxuyur.

**Rəis** - 3-cü maddəni səsə qoyuram. 3-cü maddəni kim qəbul edirsə rica edirəm əlini qaldırsın. (Əllər qalxır). 3-cü maddə əksəriyyət rəy ilə qəbul olunur. 4-cü maddəni oxuyunuz.

**Katib** - 4-cü maddəni oxuyur.

**Rəis -** 4-cü maddəni səsə qoyuram. Kim 4-cü maddəni qəbul edirsə rica edirəm əlini qaldırsın. (Əllər qalxır). 4-cü maddə əksəriyyət ilə qəbul olunur. Layiheyi-qanuniyyənin 3-cü qiraəti qalır kələn iclasa. Növbədəki məsələyə keçmədən 5 dəqiqəlik tənəffüs elan edirəm.

(Tənəffüs elan olunur). [781 - 782]

**Tənəffüsdən sonra**

**Rəis** - İclas davam edir. Növbədəki məsələyə keçməkdən əvvəl rəisi-vükəlayə növbədən xaric olaraq söz verirəm.

**Nəsib bəy Yusifbəyli** - Möhtərəm məbuslar! Məlumunuzdur ki, Qarabağda bir neçə vüquat olmuşdur; bu vüquat gündən-günə mətbuatda və əhali arasında bir çox sözlərə və dedi-qodulara səbəb olmuşdur. Əlbəttə bu məsələyə hökumət tərəfindən təftiş və təhqiq edilib bu xüsusda öz rəyini bildirəcəkdir; hökumət münasib gördü ki, məclisi-məbusan əzasından dörd nəfərdən mürəkkəb bir komisyon gedib orada məsələni öyrənsin və bizə məlumat versin. Mən arzu edərdim ki, göndərilən məbus əfəndilər sizə də məlumat versin. Orada vaqe olan əhvalatdan siz də, əhali də xəbərdar olsunlar. Bu göndərilən komisyonun fikrini bildikdən sonra hökumətin özünün də məlumatı vardır; O ayrıca bir məsələdir. Binaən-ileyh başqa. Məsələlərdən əvvəl bu məsələyə baxmağa təklif edərdim.

**Rəis** - Təklifə etiraz yoxdur. Əkər parlaman qəbul edirsə Qarabağa gedən heyət öz məruzəsini bəyan etsin.

**Səslər** - Xahiş edirik.

**Rəis** - Qara bəy Qarabəyov.

**Qara bəy** - Möhtərəm məbuslar! Bu məsələ mühüm olduğu; bu məsələ ətrafında bir çox gurultu partladı, yalnız Azərbaycan deyil Yevropada belə gurultular olduğu, oraya gedən və 10 günə qədər çalışıb bu məsələ ətrafında bir çox materiallar toplayan heyət öz məruzəsini bu məsələ ətrafında əleyhimizə bir çox cərəyanlar yaradıldığı üçün qeyri müsəlmanlar arasında bir çox fitnə və pravakisiya nəşr edildiyinə görə öz məruzəsini rusca yazmışdır. Binaən-ileyh bəndə rusca söyləmək istərdim. Bə təklif hökumət və əhalimiz əleyhinə olsa da lakin müarizlərimizə cəvab vermək üçün ətraflıca məruzəyə aşına olmaqdan ötəri söyləyirəm.

**Rəis** - Bu təklif xüsusunda etiraz varmı? Məruzə rusca yazıldığından mənə belə gəlir ki, rusca söylənməsi müşkülatsız olardı. Təklifi səsə qoyuram məruzəçi özü lehinə danışdı. Kim əleyhinə danışmaq istərdi. Şəfi bəy Rüstəmbəyli.

**Şəfi bəy Rüstəmbəyli** - Parlamanda çox mühüm məsələlər olubdur ki, istəmişik qeyri millətlər də bilsin. Lakin kənə türkcə danışmışıq. Bizdə elə bir ittifaq olmamış ki, bizim [782 - 783] tribunadan rusca sez söylənsin biz gərək öz qaydamızca danışaq; sabah bu qəzetdə olacaqdır, bunu hər kəs qəzetdən öyrənə bilər. Bunun üçün mən türkcə danışmaq tərəfdarıyam.

**Rəis** - Qara bəy.

**Qara bəy** - Bunun lehinə olaraq ərz edirəm ki, mən bunu müşkülat üçün demədim. İş oradadır ki, bu komisyon arasında ümumi bir fikir yoxdur. Məhəlli-hadisəyə göndərilmiş olan məbusların ikisi müsəlman ikisi isə təriqi müqabilə. Yaxşısı budur ki, mənim söyləyəcəyimi o başa düşsün, cavabını versin; bu fikri nəzərə alaraq mən bu təklifi etdim.

**Rəis** - Təklifi səsə qoyuram, hər kəs ruscanın tərəfdarıdır, əlin qaldırsın, kim əleyhinədir? Kim səs verməyib? Lehinə 34, əleyhinə 11, səs verməyən 1. Əksəriyyət ilə təklif qəbul edilir. Rica edirəm yerinizdən danışmayasınız. Təvəqqe edirəm dokladınızı oxuyasınız.

**Qarabəyli Qara bəy*** ("İttihad") - (rusca danışır). Mehtərəm məbuslar! Siz bilirsiniz ki, Qarabağ məsələsi böyük əhliyyətə haiz olduğundan Qarabağ xüsusi bir general-qubernatorluğa ayrılmışdır. Bu barədə ingilis komandanlığı ilə də etiraf hasil edilərək hətta general-qubernatorun şəxsi haqqında da razılıq əmələ gəlmişdi. Qarabağın halı nəhayət dərəcə qeyri-adi idi. Orada iki hökumət var idi. Qarabağın erməni əhalisi Azərbaycan hökumətini istəmiyordu. İngilis komandanlığı bəyan etmişdi ki, məsələ sülh konfransında həll edilənədək Qarabağ Azərbaycan hökuməti təhqi-idarəsində, Naxçıvan, Şərur və s. İrəvan quberniyası qəzaları və həmçinin Qars oblastı erməni hökuməti təhqi-idarəsində qalacaqdır. Fəqət, məzkur yerləri Ermənistan ixtiyarına verərək ingilis komandanlığı Qarabağ haqqında vermiş olduğu vədəyə bu vaxtadək əməl etmədi. Hətta Şuşa şəhərinin özündə general-qubernatorun sültsi yalnız müsəlman hissəsinə şamil olub, erməni hissəsi isə Erməni Milli Şurası təhti-idarəsində qalmışdı. Böylə adətdən xaric işlər barəsində çox müzakirata icra edilmişdi. Hətta general-qubernator idarəsini qəbula mane olan Milli Şura əzasının Şuşadan təbiidir haqqında İngiltərə [783 - 784] komandanlığı arasında etilaf əmələ gəlmişdi. Qabaqca onların dilindən kağız alınmışdı ki, eylə işlərə qarışmasınlar; fəqət bununla vəziyyət yaxşılaşmadı. Hətta general-qubernator hələ Zəngəzur və Qarabağın sair yerləri o yanda qalsın, barı Şuşa şəhərində qəbul olunacağını ümid edəmməzdi. Bir çox dəlillərdən görünür ki,

* Q. Qarabəyov və P. Çubaryan rus dilində məruzə etmişlər. Onların məruzələri Azərbaycan dilinə tərcümə olunaraq "Azərbaycan" qəzetində dərc edilmişdi. Burada həmin tərcümələr verilir.

general-qubernator bu məsələləri sülh ilə həll etməyə çalışmışdır. Fəqət göründü ki, bu tədbirləri heç kəs hüsni-istiqbal etmir. Bil əks bir çox təcavüzkaranə hərəkətlər obraz edildi. Yevlax-Şuşa şose yolu kənarında Şaen dağlardakı kəndlərin erməniləri yolu güllələyib əhalini öldürür, arabaları soyur, atları aparırlardı. hətta ordumuz ərkani hərb rəisi general Səlimovu atəşə tutmuşlar. Ümumiyyətlə, may ayınadək ermənilər ilə müsəlmanlar sülhlə dolanırmışlar. Mayın ittidalarında ermənilər yola hücum edib 9 müsəlman aparmışlar. hətta bu vaxtadək meyitlərini belə verməmişlər. Mayın ortasında belə 7 müsəlman ermənilər tərəfindən aparılaraq xəbərsiz qeyb olmuşdur.

Parlaman heyəti Şuşaya iyun ayının 16-da varid oldu. Yevlax-Şuşa yolunda və ətrafında tam müsalimət, asayiş və nizam hökmfərma idi. Ağdamda 10 nəfərədək erməni fəhləsi vardı. Biz onları danışdırdıq. Fəhlələr bəyan etdilər ki, bura-da heç bir təcavüz olmamış və çözələnilmiş. Və kəndilərini tam amanda hiss edirlər. Yaxşı muzd alırlar. Və bu ətrafda yaşayan və işləyən ermənilərə qarşı müsəlmanların rəftarın-dan çox razıdırlar. Pirumov adlı bir arvad Ağdamda casusluqda məznun tutularaq taqif edilmiş imiş. Fəqət heyət onu azad edib özü ilə avtomobildə Şuşaya aparmışdır. O arvad, dəxi təhriri surətdə iqrar və təkid etmişdir ki, hökumət və polis qulluqçuları onunla hüsni-rəftar etmişlərdir. Pristavlara, qəza qaimməqamına mütəşəkkildir. Şuşa-Yevlax yolu bu halda ikən, Şuşa-Gorus, Şuşa-Qara Yevlax (Karyagin) yolları tama-milə ermənilərin əlində olub bir müsəlman bu yollardan keçə bilmirlərmiş. Müsəlmanlarla məskun yerlər mühasirədə olan kimi imişlər.

Mayın 27-dən etibarən köç başlanmışdır. Ağdamdan Şuşa və daha ertələ dağlaradək bütün yol mal-qoyun, at və sairə ilə dolur. Hər biri oba tutur. Zəngəzurdan başqa ümum Qarabağ əhalisi köçür. Şəhərdə iki hökumət olur. Bir qisim əhali general-qubernatora, [784 - 785] digər qismi erməni Milli Şurasına tabe olmasına baxmayaraq ingilis əsgərləri ilə müsəlman milisləri təhti-mühafizəsində köç salamat keçirmiş. İyunun əvvəllərinədək əhval belə keçir. Müsəlmanlar çox narazı olmaqla bərabər bu işlərə bir növtəhəmmül edirlərmiş. General-qubernator əmr etmişdir ki, heç kəs ermənilərə təcavüz edəmməz. hətta ermənilər hücum etsələr də müsəlmanlar gərək dinməsinlər. Nəhayət iyunun birində və ikisində (bəzi ermənilərin rəvayətinə görə) Şuşanın müsəlman hissəsində bir milis nəfəri bir erməninin tapançasını alır.

Buna cavab olaraq erməni hissəsində ermənilər 2 əsgəri tərki-silah edərək birisinin atını, tüfəngini və tapançasını, digərinin tüfəng və xəncərini alırlar. (Bunu ermənilər də, müsəlmanlar da etiraf edirlər). Əsgərlərdən birisi on-ların əlindən qurtarıb müsəlman hissəsinə qaçır və əhvalatı xəbər verir. General-qubernatorun ittixaz etdiyi tədbirlər nəticəsində 3-4 saatdan sonra ingilis heyəti vasitəsi ilə o biri əsgər dəxi azad edilir və silahları da tamamilə qaytarılmır. Hətta qaytarılan silah haman adamlardan alınan silah deyildir. Erməni Milli Şurası demişdir ki, atı və silahı alan adamlar şəhərdən qaçmışlar. Ona görə Şura başqasını alıb verməyə məcbur olub. Bu əhvalat məhəlli müsəlmanlar və əsgərlərə çox ağır gəlib onları həyəcana salmışdır. Çünki məzkur hadisəni Azərbaycan Ordusu və əhalisi haqqında böyük həqarət tələqi edirlər. Siz özünüz bilirsiniz ki, Bakıda mart hadisəsinə bais Dikaya diviziya deyilən dəstənin adamlarına hücum edilməsi oldu. Mən bunu onun üçün deyirəm ki, bir hadisəyə hərbiyə idarəsi və camaatın nə nəzərlə baxacağını göstərir. Haman bu günlərdə də xəzinə ilə poçt-teleqraf idarəsi erməni hissəsindən şəhərin müsəlman hissəsinə köçürülür. Erməni hissəsində hökumət ümumi Milli Şurada olmasına baxmayaraq orada bəzi şeylər olurmuş. Məsələn, erməni hissəsinə müsəlləh erməni dəstələri və məsuliyyətsiz adamlar ələlümdə kənardan gəlmələr gəlib-gedir. Milli Şuradan əla-və bir də bandalar burada ciddi surətdə işləyir və ermənilər arasında dəhşət saçı yolarmış. Ruben Nikolayeviç Şahnazaryan və Minasbekovun göstərdiyindən məlum olur haman bandalar erməni hissəsində adamları soyur, erməni arvadlarını çəkir təhqir edir və ermənilərə sair təcavüzlər edirmişlər. [785 - 786] Əlbəttə müsəlmanlar bunların həpsini bilərək həyəcan və iztiraba düşürmüşlər. Fəqət bununla bərabər general-qubernator əhalini sakit və əsgərlərin tərksilah ixtilafını rəf edə bilmişdir. Xəzinə ilə postanın müsəlman hissəsinə köçürülməsi münasibətlə hərçənd ermənilər təşvişə düşərək ingilis heyətinə qiymətli kağızların müqəddəratından qorxduqlarını bəyan etmişlərdir. Fəqət bu münasibətlə eylə bir ixtilaf vaqe olmamışdır. Haman bu zamanlar şəhərdən köç getdiyindən general-qubernator ətraflardan gəlib də özünü çox pis aparmaqda olan məsuliyyətsiz adamlar və bandaların təcavüzündən obanı və şəhəri təmin etmək qəsdi ilə mühüm yerdə: şəhərin başı üstündə hökmfərma olan "Üçmıxdə" və Şuşa-Korus yolunun ən mühüm qismi olan Yarmada mayın axırından etibarən əsgəri qarovul bulundurmağı təhti-qərara alır. Bunların vəzifəsi şəhərə müsəlləh adam buraxmamaq və elatın rahat keçməsini gözləmək imiş. Qarovulların miqdarı bir manqadan artıq deyilmiş. İyunun 2-də haman əsgər əhvalatından sonra 5-i iyunun 4-cü gecəsi general-qubernator binagüzarlıq etmişdir ki, şəhər üzərində hökmfərma olan "Üç-mıx" səngərində qarovul artırılsın. (18 piyada və bir pulemyot ilə 9 pulemyotçu qoyulur.)

Ermənilər bu əhvalı bilərək iyunun 4-ü səhər tezdən "Üç-mıxa" Arzumanov nam bir zabitin təhti komandasına bir dəstə müsəlləh adam göndərmiş və onlar əsgərlərin səngərinin əlli addımlığında səngər tutaraq türk qarovulları komandanı zabit Maksimoviçdən tələb etmişlər ki, səngəri boşaltsınlar və əsgərlər oradan getsinlər. Maksimoviç cavab vermişdir ki, müəyyən qanun və nizama tabe olan bir əsgər olmaq hesabı ilə öz böyüyündən əmr olmadıqca heç vaxt yerindən tərpənə bilməz. Ancaq rəisi ilə bu barədə danışar, əgər rəis buyurarsa məəlməmnuniyə gedər. Çünki ona əmr olunmuşdur, yolları mühafizə etsin və heç kəs ilə dava

eləməsin. Maksimoviç müzakirata girişmək qəsdi ilə səngərdən çıxıb şəhərə gəlmiş və öz yerində müavini Kərimovu qoymuşdur. Ermənilər ikinci dəfə olaraq Kərimovdan da tələb etmişlər səngəri boşaltsın. Lakin o dəxi razı olmamışdır. Nəticədə səngərdə atışma başlanaraq türklərdən 4 əsgər, ermənilərdən isə zabit Arzumanov qətl edilmişdir. Burada kim əvvəl güllə atdığını təyin edəmmədik. Ermənilər deyirlər qabaqca türklər [786 - 787] atışma açdılar, türklər isə əvvəlcə ermənilərin küllə atdığını bəyan edirlər. Atışma buradan şəhərin sair yerlərinə də yayılıb bir anda şəhər ataş altında qalmışdır. Şəhərin türk əhalisi dərhal tüfənglərin götürüb 1905-ci ildən bəri adət olduğu üzrə səngərlərə dolmuşlardır.

Bunu da qeyd etməliyəm ki, 1905-ci ildə vüqu vurmuş olan erməni-türk toqquşmasından bəri erməni hissəsi ilə müsəlman hissəsi sərhədi arasında səngərlər qayrılmışdır. Bir şey olan kimi türklər öz səngərlərinə dolurlar, ermənilər də öz səngərlərinə. Bu surətlə atışma başlandıqda türklər hər kəs tüfəngini götürüb müəyyən səngərə getmiş, ermənilər də öz səngərlərinə doluşmuşlardır. "Üçmıx" səngərinə sabiq polismeyster Məhərrəmzadənin komandası altında 10-15 polis və süvaridən ibarət xırda bir imdadiyə dəxi göndərilmişdir. General-qubernator ümumpolis nəfəratına və qoşuna şifahən və yazılı əmrnamələr vasitəsilə hökm etmişdir ki, güllə atmasınlar. Ayın 4-də tamam gün atışma davam etmişdir. Yarmadakı qarovul dəstəsi ilə şəhərin əlaqəsi bilmərrə kəsilmiş imiş və ona kömək göndərmək heç vəchlə mümkün deyildi. Ermənilər yepiskop (keşiş) Vaqana müraciətlə təvəqqe etmişlər ki, ingilis nümayəndəliyinə müraciət edərək atışmanın yatırılması haqqında tədbirlər ittixazını rica etsin. Mayor bu xüsusda general-qubernatora müraciətlə bulunmuşdur. General-qubernator bunun cavabında İngiltərə komandanlığından tələb etmişdir ki, Azərbaycan əsgərlərinə təcavüz edilməsi və hökumətə tabe olunmamasına bais olan Milli Şura ə'zası şəhərdən təpit edilsin. Mayor erməni əhalisinə cavab vermişdir ki, atışma sakit olacaqdır və general-qubernator əsgərlərə bu atışmada iştirak etməyə izn vermir. Fəqət davanın yatırılması üçün lazımdır ki, İngiltərə komandanlığı da öz vədinə əməl edərək Milli Şura əzasını şəhərdən çıxartsın. Ayın 5-də səhər saat 9 radələrində ermənilər Milli Şura əzasından 3 nəfərini təslim edərək bildirmişlər ki, yerdə qalanları şəhərdən qaçmışlar. Bundan sonra atışma sakit olub, ancaq hər iki tərəfdən hərdən bir tək-tək güllə atılırmış.

Hələ ayın 4-də atışma başlanar-başlanmaz general-qubernator türklərə əmr etmişdir ki, ermənilər güllə atsalar da onlar cavab verməsinlər. Atışmanın dayandırılması uğrunda [787 - 788] general-qubernator, tabur komandanı və zabit Əştal tərəfindən hər növ tədbirlər görülmüşdür. Bu zaman yolda olan köçərilər dərhal geri qayıdaraq türk əhalisi mühafizəsinə sığınmışlardır. Fəqət bununla bərabər onlardan 5 külfət bütün şeyləri, qoyun və malları ilə ermənilərin əlinə düşmüşdür. 2 arvad öldürülüb meyiti haman oradaca qalmış, yerdə qalanları isə qeyb olmuşdur. Erməni əlinə düşmüş qoyunlardan bir neçəsi bir ingilis avtomobilində tutulmuşdur. İngilis komandanlığı qoyunları geri verərək üzr istəmişdir ki, onları satın almışdır. Türklərin rəvayətinə görə bu atışmada türklərdən tələfat olmamışdır. Atışma vaxtı müsəlman hissəsində qalmış olan erməniləri buraxmışlardı. Ermənilər də oradakı müsəlmanları buraxmışlar. Qəribə burasıdır ki, iyunun 4-də səhər ertə türklərin heç şeydən xəbəri olmayaraq öz uşaqlarını şəhərin qırağında, erməni hissəsinin başında olan Realnı məktəbinə buraxmışlardı. Haman gün türk alış-verişliləri də erməni hissəsinə getmişlərmiş. Məsələn, erməni ilə şərikli dükanı olan Kərbəlayı Qasım Qulu oğlu nam bir şəxs səhər gedir erməni hissəsinə atışmadan bir saat qabaq şəriki olan Akopnam bir erməni şərikli puldan 1000 manat verərək demişdir ki, ket müsəlman hissəsinə çünki bu-rada həyacan var. Dükanlar bağlanıb və bir şey gözlənilir. Ermənilər isə deyirlər ki, müsəlman hissəsində 18-dək erməni tələf olmuşdur. Bu barədə heyət general-qubernatordan sormuş və cavab almışdır ki, haman iş təhqiq edilmişdir və məlum olmuşdur ki, nə yerdə erməni işləyirmişsə sağ-salamat buraxmışlar. Sonra nə olmuşsa bilmir. Ayın 5-də şəhərdə atışma sakit olub, hərdən bir küllə atılmaqda ikən saat 12 radələrində Qaybalı adlı erməni kəndinə hücum edilmişdir. Məzkur kənd 60-65 tüstü ermənidən və 15-ə qədər tüstü müsəlmandan ibarətdir. Şəhərin 3-4 verst cənub-qərbində bir dəfədə vaqedir. Kənd general-qubernatorun evindən görünmür. haman kəndin müsəlman əhalisi qabaqkı binizamlıqlar əsnasında kənddən qovulub evləri yandırılmış olduğundan şimdi orada müsəlman olmur.

Qaybalı kəndinin müsəlman əhalisi oranın yaxınlığındakı 7-8 kənddən ibarət Xəlifəlilərə köçmüşdür. Görünür ki, şəhərdə atışma başlandıqda məzkur kəndlərin əhalisi şəhərə köməyə, yainki, bəlkə də qarətə gəlmək istəmişdir. (Özləri [788 - 789] deyirlər müsəlman qardaşlarına köməyə gəlirmişlər). Yolda Qaybalı kəndinə hücum etmişlərdi.

Şəhərin bundan xəbəri olmamış. Ancaq saat 12-1 radələrində şəhərdən və qubernatorun evindən görmüşlər ki, dərədən tüstü çıxır. Şəhərdə müxtəlif şayiələr dövran edirmiş. Çox danışmırlarmış ki, ətraf erməni kəndlərindən şəhərin üstünə böyük qüvvə gəlir.

Ordumuzun arkani-hərbi iqamət edən Xankəndindən də general-qubernatora bu məzmunda xəbər verilmişdir. Ümumiyyətlə, şəhərin ətrafında vüqubulunmaqda olan hadisat haqqında ibtidada heç kəsə doğru bir şey məlum deyilmiş. Beylə şayələrin intişarından dolayı general-qubernator hər növ etimala qarşı hazır olmaq məcburiyyətində bulunduğundan Xankənddəki qoşun heç yerə göndərilə və dağıdıla bilməzdi.

Tüstü göründükdən və ingilis heyəti vasitəsilə erməni mənbəindən Qaybalıya hücum edildiyi xəbəri aldıqdan sonra general-qubernator əhvalı öyrənmək və hadisəni yatırmaq üçün oraya adam göndərilməsi haqqında

binakuzarlıq etmişdir. Fəqət, şəhərdəki erməni səngərlərindən yol gülləyə basıldığından general-qubernatorun adamları yaxın yol ilə gedə bilməyib Xankəndi təriqi ilə 12-13 verstlik dolama yol ilə getməyə məcbur olmuşlardır. Fəqət, məhəllinə vaxtında çatmamışlardır. Çünki kəndin üstünə gəlmiş olan külli miqdarda müsəlman 3-4 saat içində kəndi işğal və talan edərək evləri yandırmış və əllərinə düşən erməniləri tamamilə qırmışlardır. General-qubernatorun adamları ilə Xankəndindən zabit Əli bəyin komandası altında göndərilmiş olan əsgərlər daha kəndə bir kömək edə bilməyərək, ancaq kollarda gizlənmiş və qaçmış olan 57 ermənini yığıb Xankəndinə, oradan da general-qubernatorun yanına gətirə bilmişlərdir. Burada həmən ermənilərə yemək-içmək verib sonra da erməni hissəsinə yola salınmışlardır. (Bunu mütəzərrir olan ermənilər dəxi təqib edirlər). Gərək general-qubernator və gərəksə Xankəndindəki əsgərlər Qaybalıya ondan artıq kömək edə bilməzlərdi.

Ayın 6-da şəhərin 30-35 verstliyində bulunan uzaq kəndlərdən küllü miqdarda kürd dəstələri şəhərə gəlmək istəmiş, fəqət general-qubernatorun əmri ilə şəhərə buraxılmayaraq dayandırılmışlardır. [789 - 790]

Kürdlər Qaybalının ya sair erməni kəndlərinin dağıdılmasında iştirak edə bilməzlərdi. Yaxın kəndlərdən yığılmış olan dəstələr şəhərin altındakı Daşaltı, Daşkənd və s. erməni kəndlərini dağıtmaq istəmişlərsə də general-qubernator onların müqabilində qoşun və pulemyot göndərərək qayıdıb getmələrini əmr etmiş və qoşuna əmr etmişdir ki, əgər öz xahişləri ilə getməsələr pulemyot atəşi ilə qovsunlar. Bu surətlə ayın 5-də şəhərdə atışma davam edərək hökumətin ətrafdan bixəbər olduğundan bilistifadə kəndlərə hücum edən dəstələr dağıda bilmədikləri kəndlər tamamilə mühafizə edilmiş və salamat qalmışlardır. Bir də haman dəstələr Kərkicahan erməni kəndini yandırmış, dağıtmışlardır. Kərkicahan əhalisi qabaqcadan Xankəndinə aparılmış və orada Azərbaycan qoşununun mühafizəsi altında qalmışdır. Çünki Xankəndi əsgərlərindən Kərkicahana az bir miqdarda mühafizə əsgəri verilmiş imiş. Əsgərlər özlərinin az olduqlarını və şayəd kəndə böyük bir dəstə hücum edərsə müqavimət göstərə bilməyəcəyini dər güllə qabaqdan ermənilərə təklif etmişlər ki, şeylərini qonşu müsəlmanlara əmanət verərək (haman kəndin əhalisi qarışıq olub, həm erməni var, həm müsəlman) özləri qorxusuz bir yerə köçsünlər. Bunlardan əlavə 15 tüstüdən ibarət olan Bəhlul adlı digər bir erməni kəndi də yandırılmışdır. Fəqət burada əslən insan tələfatı olmamışdır. Çünki əhalisi davadan qabaq yaxın erməni kəndlərinə köçmüş imiş.

Miqdarı 3000-dən ziyadə olan kürdlər şəhərə buraxılmayıb. Mıxtökən adlı dağda dayandırılmışlardır. Ancaq 50-60 nəfəri ayın 6-da şəhərə girmiş, lakin onlar da tezlik ilə şəhərdən çıxarılmışlardır. Görünür ki, kürdlər heç müsadirədə iştirak etməmişlərdir; çünki davalardan və talandan sonra gəlib çıxmışlardır. Bu davalarda kürdlərin iştirak etmədiklərinə çox dəlillər vardır; Əz cümlə burası var ki, Daşkənd qabağında 4 müsəlman öldürülmüşdür. Bunlardan heç biri kürd deyil, yaxın kəndlərin əhalisindən imiş. Kürdlərin ancaq ayın 6-da axşam çağı gəlib çıxdıqları sübut edir ki, hökumət yainki yerli camaat, qabaqcadan kürdlərə xəbər verməmiş və kömək istəməmişlərdir.

Çünki o halda kürdlər əhvaldan xəbərdar olaraq tez bir zamanda cəmlənib şəhər üzərinə gedə bilərlərdi. İstər atlı, [790 - 791] istər piyada kürdlər üçün yığışmaq, cəm olmaq, şəhərə yollanmaq eylə ağır bir şey deyildir. Bir şey oldumu tüfəngini götürüb, atını minib avtomobil sürətilə müəyyən yerə gələcəkdir. Piyadaları də atlı qədər cəld gəlirlər. Qaybalı kəndi Xankəndinin 5-6 verstliyindədir və oradan görünməyir. Bu iki kəndin arasında bir dağ var. Kərkicahan kəndinin də əhalisi qabaqcadan Xankəndinə daşınmış olduğundan qoşun boş Kərkicahana o qədər diqqət verəmməzdi. Bilxassə Xankəndində eylə bir qüvvə saxlamaq lazım gəlirdi ki, şayət ərkanihərbə hücum və yolu kəsməyə sui-qəsd ediləcək olursa müdafiəyə qadir olsun. Hücum icrası və yolun kəsilməsi isə ehtimal daxilin-də idi. Ona görədir ki, Xankəndindəki, az miqdarlı qoşun uzaqdakı kəndlərin müdafiəsi üçün heç vaxt dəstələr ayıra bilməzdi.

Ümumiyyətlə, heyətin əldə edə bildiyi məlumat əsası ilə deyilə bilər ki, təqribən Qarabağ hadisatı bundan ibarətdir. Müəssif hadisənin səbəbi bütün Qarabağ və xüsusən Şuşa şəhərinin məruz qalmış və qalmaqda olduğu böylə qeyri-adi vəziyyətdir. Orada iki hökumət vardır; şəhərin erməni qismi, erməni kəndləri və ümum erməni dairələrini erməni Milli Şurası idarə edirdi. Müsəlman hissələri isə, çoxdan bəri öz bəyannaməsi ilə Sülh konfransının qərarınadək Qarabağın Azərbaycan hökumətinə tabe olmalı olduğunu bizə də, ermənilərə də elan etmiş olan İngiltərə komandanlığının rizası Azərbaycan hökuməti tərəfindən təyin edilmiş general-qubernator tərəfindən idarə edilirdi. Naxçıvanı və İrəvan quberniyasının sair uyezdlərini və Qars oblastını erməni hökuməti təhti-idarəsinə verib də o yerlərə erməni qoşunu sövq etmiş olan İngiltərə komandanlığı bu vaxtadək Qarabağ haqqındakı vədinə əməl etməmişdir. General-qubernatorun məhəlli iqaməti olan Şuşa şəhərinin yarısı Azərbaycan hökumətini qəbul etməyərək hətta qulluq işi üçün erməni hissəsinə gedən əsgərlərin silahını alırdılar. Qarabağı Ermənistana ilhaq etmək xəyalında olan erməni hökumətinin məqsədinə xidmət edən əşqiyə dəstəsi əlindən yollar rahat və salamat deyildir. Müsəlmanlar ilə məskun olan bəzi dairələrin bütün dünyadan əlaqəsi kəsilmişdi. Baş Şuşa yolunda müsafirlərə hücum edilir, gəlib-gedənlər atəşə tutulur. Fürsət məqamında erməni əlinə düşən müsəlmanlar 7-9 nəfərlik dəstələr ilə qeyb [791 - 792] olunurdular. Kəndlərdən Şuşa şəhərinə müsəlləh erməni eşqiya dəstələri gələrək erməni hissəsində həyatı öz təsərrüflərinə alır, dinc əhalini dəhşətlərə salır və müsəlmanlara etdikləri zülm və cəfadan məsul olmurdular. Azərbaycan hökumət nümayəndəsi bu və ya o cinayətin müqəssirlərini tələblə müraciət etdikdə ingilislər vədlər verib, ancaq müxtəlif

təsvirlərlə iktifa edirdi. Halbuki eyni zamanda müsəlmanlar heyətin fəaliyyətsizliyindən narazı qalaraq həyacana gəlir, həyat və əmlakının təmin olunmasını öz hökumətindən tələb edirlərdi. Buna görə, şəhər ətrafında gəzib dolanmaqda olan müsəlləh erməni əşqiyasını şəhərə buraxmamaq və Qarabağın 3 qəzasının on minlərlə köçərilərinə rahat gəlib keçməyi təmin qəsdi ilə general-qubernator şəhər və yollar üzərində hökmfərma olan iki mövqeyi işğal etməyi lazım bilmişdir. Eyni zamanda xəzinə ilə poçt-teleqraf idarəsini erməni hissəsindən müsəlman hissəsinə köçürmüşdür.

Gərək müsəlmanların, gərəksə ermənilərin və rus zabitlərinin verdikləri məlumat göstərir ki, bizim hökuməti Qarabağ hadisəsini qabaqcadan hazırlamaqda təqsirləndirmək olmaz. Hətta müsəlmanlar hökumətdən çox narazıdırlar ki, hadisata çox loyalnı nəzərlə baxıb erməniləri müdafiə edir. Müsəlmanlar asudə yaşamaq imkanından məhrum olaraq və ermənilərin də onlara qarşı təcavüzkaranə hərəkatını bilərək hökumət nümayəndəsinin tədbirlərindən narazı qalırlar. Müsəlmanlar hətta ermənilərə ərzaq satmaq istəmirlər. Çünki ermənilər Azərbaycan hökumətini qəbul etmədikləri halda külli miqdarda ərzaq alıb hökumət və camaat əleyhinə işləyən əşqiya dəstələrini saxlayırlar. Bununla da bir yandan təcavüzkar ünsür müzahirət edir, digər tərəfdən də ərzağın bahalanmasına bais olurlar. General-qubernator erməniləri boykot etmişdir. Bu xüsusda nə şifahi, nə təhriri əmr verilmişdir. Fəqət icbari tədabir olmaq üzrə əhalinin özü elan etdiyi boykota mane də olmamışdır. Boykotdan dabaq ermənilər baha qiymətlə çox mal alırmışlar. Amma ondan sonra Qarabağdan taxıl ixracı mane edilmiş və ermənilərə taxıl az miqdarda buraxılmışdır. Ermənilər miyanında yepiskop Vağan (baş ruhani) Qriqori Kalantarov (sabiq bələdiyyə rəisi), Ruben Şahnazarov (ədadiyyə müəllimi) kimi möhtərəm zavat qəti surətdə bəyan edirlər ki, Şuşa hadisəsinə səbəb və bais general-qubernator [792 - 793]deyildir. Onlar ancaq deyirlər ki, general-qubernator Qarabağı tabe etmək qəsdi ilə öz qüvvəsini göstərmək, ya müqavimətin önünü almaq üçün bir nümayiş əmələ gətirmək istəmiş ola bilər. Fəqət bu iş bir nümayiş olsa da yalnız ermənilər haqqında deyil müsəlmanların da cilovunu çəkmək üçündür. Heç bir təcavüzə məhəl buraxmamaq barəsində verilmiş olan bir çox əmirnamələr dəxi bunu isbat edirlər. Bunlardan əlavə Qarabağ yollarında bütün mal və heyvan ilə on minlərlə silahsız köçərilər bulunduğu və dava günü müsəlmanların körpə uşaqlarının həbsi erməni hissəsinə məktəbə getdikləri aydın göstərir ki, general-qubernatorun dava eləmək ya ixtilaf çıxarmaq fikri yox imiş. Əgər belə fikri olsaydı bari uşaqları məktəbə buraxmazdılar. Bizim Orduda xidmət etməklə vicdanlarını da bizə satmamış olduqları yaxşı məlum olan rus zabitlərinin də göstərdiyindən anlaşılır ki, general-qubernatorun bütün fəaliyyəti ancaq əhalinin həyat və əmlakını təmin uğrunda sırf hüquqi və qanuni tədbirlərdən ibarət olmuşdur. Əlimizdə olan bütün dəlillər bunu isbat edir.

Fəqət, general-qubernatorun belə qanuni tədbirləri və yuxarıda zikr olunan nöqtələrin işğalı erməni başçılarının irticasına bais olmuşdur. Onlar qoşun müqabilinə müsəlləh qüvvə ilə çıxmağı qərarlaşdırmışlardır və naticədə müəssif hadisə baş verərək Qaybalı, Kərkicahan və Bəhlul kəndləri mütəzərrir olmuşdur. Kərkicahan və Bəhlul kəndlərində tələfat olmamışdır. Qaybalıda isə tələfat olmuşdur, amma hesabı məlum deyildir. Çün qaçıb salamat qurtaranlar dəxi var, bunların da miqdarı təyin edilməmişdir. General-qubernatorun hərəkəti hökuməti möhkəmləndirmək və əhalinin rifah halını təmin etmək üçün icra olunmuş sırf zəbtiyyə tədabirindən ibarət olmuşdur.

Heç kəs və əzcümlə general-qubernator heç vaxt təsəvvür belə edə bilməzdi ki, bəzi ağılsızlar böyük əsgəri və mülki qüvvələrə müqavimət edib atışmaya girişəcək və naticədə bir əsgər ölüb, 5 nəfəri yaralanacaq və burası bir qığılcım olub alovlandıracaqdır. General-qubernator bu ya o qanuni tədbirlər görə bilmək üçün özünü lazımınca güclü hesab edirdi. Belə yanğın əmələ gələcəyini heç təsəvvür etməz, fikrinə gətirməzdi, hətta gətirmək istəməzdi. Çünki o zaman şəhər təriqi ilə köçərilər bütün mal-heyvanı ilə gedirlərdi və onlar hər iki tərəfdən, ermənilər tərəfindən atəşə tutularaq böyük xəsarətlərə düçar ola bilərlərdi. Buna görə ağlına gəlməz idi ki, şəhər hadisəsini bilərək ətraf kəndlərdən müsəlmanlar şəhərə hücum edib yolda da erməni kəndlərini məhv edərlər, yainki uzaq kəndlərdən minlərcə kürd həmişə etdikləri kimi müsəlman qardaşlarının köməyinə gələcəkdir, tainki əvvəla bunların önünü almaq sonra da kənardakı talanı təsviyə etmək üçün tədbirlər görülə idi. Xankəndində duran əsgəri qüvvələr dəxi erməni kəndlərinin xilası üçün geniş tədabir görə bilməzlərdi. Çünki əvvələn hadisat haqqında vaxtlı-vaxtında da məlumat ala bilmirdi, saniyən də Xankəndinə və şəhərə böyük erməni dəstələri hücumu haqqında şayə olan müxtəlif xəbərlər onları vadar etmişdir ki, etimal daxilində olmaq üzrə bu hadisat böyük bir davaya müvəffəq olduğu təqdirdə hiss ediləcək bir qüvvə olmaq üzrə hazır dursunlar. Davanın üçüncü günü şəhərin ətrafına gəlmiş olan 3000 kürd məsələsinə gəlincə general-qubernatora hadisatı qabaqca bilərək onları dəvət etmək lazım deyildi. Hətta general-qubernator hadisəni qabaqca görməz və görmək istəməzdi. Onlar şəhər hadisat haqqında kənardan xəbərdar olaraq yığışıb gələ bilər. Çünki şəhərdən o kəndlərə 30-35 verstdir.

Bu sürətlə biz təkid edirik ki, general-qubernatorun qabaqcadan düşünülmüş, təyin edilmiş talan planı yoxmuş, ancaq qanlı musadimə və müqavimət imkanını təsəvvür belə etməyərək böyük gücünü nümayiş etdirməklə ən sülh çüyünə bir surətdə əhali və keçərilərin rahətini təmin və Azərbaycan hökumətini tətbiq və təkmil arzusunda imiş; General-qubernator erməniləri hifz etmək üçün hər növ əldə olan tədbirləri görmüş və hər vasitə ilə çalışmışdır və qoymamışdır ki, Yevlaxdan başlamış Şuşayadək bütün erməni dairələri tama-milə

məhv olsun. Halbuki, binagüzarlığında olan qüvvə ilə bunu etmək pak asan idi. Bu həqiqəti ermənilər özləri də etiraf edirlər və onlardan heç birisi general-qubernatoru sufi-niyyətə və müntəzəla erməniləri məhv etmək fikri ilə ittiham etmirlər. Bitərəf xüsusi məqsədə xidmət etməyən Ararat siyasətçiləri məbuduna tabe olmayan möhtərəm ermənilər, məsələn: Yepiskop Vaqan, II il qalava olmuş Kalantarov və daşnak məktəbinə mənsub olmayan ciddi siyasi xadimlərdən Şahnazarov dəxi öz səmimi və düzgün bəyanatlarında bu əmri qəti surətdə [794 - 795] təkid və təsdiq etmişlərdir. Hər kəs bu dəlil və sübutlara diqqət versə onlar ki, çalışqan, iş bilən, ermənilərə qarşı xeyirxah bütün Qarabağ müsəlmanlarının ehtiram və təziminə məzhəb olub Qarabağda az zaman xidmət etməklə həyatı təhdid etmiş, hər şeyi qaydaya salmış olan general-qubernator əleyhinə necə murdar, çirkli yalanlar, iftiralar söylənilir.

**Rəis** - Natiq əfəndi eylə bilirəm ki, sənədləri oxumağa lüzum yoxdur, çünki fraksiyalara gedibdir. 58 dənə sənəddir, istəsəniz oxusun.

**Səslər** - Prosim, istəyirik.

**Rəis** - Oxuyunuz.

**Qara bəy** - Rusca.

**Rəis** - Söz parlaman üzvü Çubaryanındır.

**Çubaryan** - Qarabağa getmiş olan nın birinci iclasında bir təklif vardı ki, rəylər yazılı surətdə təqdim edilsinlər. Bunun cavabında doktor Qarabəyov eşitdiyiniz məruzəni təqdim etdi. Fəqət, həmən məruzədə vüqu bulunmuş olan şeylərin bəziləri deyilmədi. Mən həm erməni, həm də daşnak olduğum üçün bu iki amil əleyhimdə olacaqdır. Fəqət, rica edirəm inanasınız ki, hadisat barəsində bitərəf bəyanat verəcəyəm, Sizdən xahiş edirəm Qarabəyovun məruzəsində ümumi vəziyyət haqqındakı müqəddimə ilə məsələnin siyasi cəhətini atıb, ancaq əməli cəhətinə diqqət verəsiniz. Mən hətta məsələyə mənafei-siyasiyyə nöqteyi-nəzəriyyədən yanaşmayacağam. Çünki bu məsələdə rəylər müxtəlif ola bilər. Öz məruzəmdə mən ancaq Hadisat haqqındakı məlumatı nəzərə alıram. Burada Şurayi-Milli Divan Rəyasəti Daxiliyyə naziri Yusifbəyliyə müraciətlə Qarabağda nələr olduğunu sordu. Buna belə cavab verildi. (Cavabı oxuyur).

Daxiliyə naziri naminə çəkmiş olduğu bir teleqrafda Qarabağ general-qubernatoru hadisəni belə göstərir ki, ermənilər elatın qabağını kəsmişlər və nəticədə təbii bir hərəkət üzündən bir erməni kəndi məhv edilmişdir. Mən tamam bu andan başlayacağam. Elat mayın 27-dən etibarən köçməyə başlamış və tam bir həftə salamat gəlib keçmişdir. Heç bir ixtilaf və müsadirə olmamışdır. Bu elə bir məsələdir ki, buna diqqət verməli və düşünülməlidir. Avam camaat öz mənafeyini daha yaxşı anlayır və dərk edir. İbtida qərar verilmişdir [795 - 796] ki, elatın İngiltərə heyəti general-qubernator və erməni Milli Şurası adamlarından ibarət bir mühafizə dəstəsi təşyni etsin. Fəqət nədənsə belə mühafizə dəstəsi təyin edilməmişdir. Amma bununla bərabər el-oba sağ-salamat və heç təcavüzə uğramadan gəlib keçmişdir.

Boykot məsələsinə gəlincə burasını deməliyəm ki, doğurdan da boykotun hökumət tərəfindən edildiyi qəti surətdə müəyyən olmamışdır. Fəqət hökumət bu boykota mane olmamış və onu hamı görmüşdür. Lakin buna da etiraz etmirik. Hərb qanunları şiddətlidir və biz ona tabe oluruq.

Şəhərin müsəlman hissəsində bir ermənin tapançasını almışlardır. Bunun cavabında erməni hissəsində bir neçə xuliqan bir süvarinin atını və tüfəngini alıb qaçmışlardır. Erməni Milli Şurası bir at alıb vermiş və məktub yazaraq üzr istəmişdir. Deyirlər ki, erməni hissəsində müsəlmanlara təcavüz edirlər. Fəqət heç bir təcavüz olmamışdır. Erməni hissəsində xəzinəni həmişə əsgərlər mühafizə edirdilər. Erməni hissəsi ilə müsəlman hissəsi arasında daima gediş-gəliş davam etmişdir. Daxiliyə nazirinin məktubunda deyilir ki, xəzinənin erməni hissəsindən köçürmək istədikdə ermənilər müqavimət göstərmiş, mane olmaq istəmişlərdir. Halbuki xəzinənin köçürülməsi işinə baxan zabitin bəyanatından anlaşılır ki, heç bir müamaniət göstərilməmişdir. Mən bilmirəm ki, postxana ilə xəzinənin köçürülməsinə ermənilər tərəfindən müamaniət göstərilməsi haqqında ingilis heyətinə yazmış olduğu məktubu general-qubernator nə əsas üzərində yazmışdır. Belə şeylər məni vadar edir ki, hökuməti məhəlliyə tərəfindən verilən bəyanata bir qədər sərhesablıq ilə baxarım.

Yarma səngərinin soyqüceyşa əhəmiyyəti vardır. Tutalım ki, o səngər yolu müharibə etmək üçün lazım idi. Fəqət şəhərin erməni hissəsi başı üstündə olan Üçmıxın nə əhəmiyyəti ola bilər. Şahidlərin həpsi göstərir ki, üç səngər müsəlman əsgəri tərəfindən işğal edilən kimi ermənilər arasında çaxnaşma və həyəcan başlamışdır.

Ermənilər yığışıb yepiskopun yanına getmişlər ki, ingilis heyətinə müraciətlə onların əmin və amanlığını müdafiə və təmin etsin. Səngərə ancaq açıq yol ilə getmək olur. Doktor Qarabəyov pak haqlı olaraq qeyd edir ki, əvvəl hankı tərəfin [796 - 797] güllə atdığını təyin etmək çox çətindir. Çünki ermənilər deyirlər ki, qabaqca müsəlmanlar güllə atdılar, müsəlmanlar isə deyirlər ki, qabaqca ermənilər atdılar. Fəqət bunların həbsi nə məqsədlə edilmişdir? General-qubernator açıqdan-açığa bəyan edir ki, birdəfəlik bu hallara xatəmə seçərək öz hökumətini möhkəmləndirməyi təqti qərara almışdır. Hadisat general-qubernatorun təşəbbüsü ilə başlanmış və müəyyən plan üzrə tədricən səngərlər işğal edilmişlərdir. Nəticədə bütün şəhər ataş içində qalmışdır.

İkinci dəfə yepiskop ingilislərin yanına getdikdə Milli Şura əzasının şəhərdən çıxarılması haqqında general-qubernator tərəfindən verilmiş tələbnamə ona xəbər verilmişdir. Şəhərdə olan Milli Şura əzası təslim edilmiş fəqət atışma dayanmamışdır. Uzun müddət atışma davam etdiyinə baxmayaraq heç kəs mütəzərrir olmamışdır.

Bunların həbsi göstərir ki, sırf hərbi bir nümayiş icra edilmişdir. Dava başlanan zaman müsəlman hissəsində olan ermənilərin həbsi yox olmuşdur. Hökumət nə yapmışdır? General-qubernator deyir ki, o danışdırdığı adamlar bəyan etmişlər ki, atışma başlandıqda haman erməniləri müsəlman hissəsi sərhədinədək yola salmışlardı. Sonra necə olmuşsalar onlara məlum deyildir. hökumətin belə hərəkəti müqəssirləri ruhlandırmaqdır.

Qaybalı kəndindən qaçıb qurtaranların bəyanatından görülür ki, orada dava ayın 5-də deyil, 4-də başlamışdır. Saat 11-də general-qubernator görmüşdür ki, xəlifəlilər Qaybalı kəndini mühasirə etmişlər. General-qubernatorun evindən Qaybalı kəndinin görünməsi doğru deyil, amma mühasirə edənlərin keçəcəyi təpələr yaxşıca görükürlər. Mən bir xanımla bərabər 2 saat zərfində piyada endim dərəyə və hər yeri gəzdim. General-qubernator isə deyir ki, o adamını dolama yol ilə göndərmişdir. Qaybalı kəndliləri deyirlər ki, onlar qaçıb qurtarmaq üçün kənddən çıxdıqda bir tərəfdən köçərilərlə əsgərlər, digər tərəfdən də şəhərin adamları ilə əsgərlər onları mühasirəyə almışlardır. Ona görə də kəndlilər geri qayıtmağa məcbur olmuşlardır. Bu zaman böyük bir dövlətin nümayəndələri ilə ermənilər mühafizəsiz, köməksiz ermənilərin qırılmağına tamaşa edirlərmiş. Telefon daima general-qubernatorun binagüzarlığında olmuşdur. Binaən-ileyh telefon [797 - 798] ilə də tədbirlər ittixaz edə bilərdi. Deyirlər ki, mühafizə əsgərləri erməni qüvvələrinin hücumu təhdidi altında imiş; fəqət heç bir sual etmirlərmi ki, bu qüvvələr nə yerdən kələ bilərlərdi. Əsgərlər kazarmada oturmamalı, əhalini mühafizə etməli idilər. Hamı bir səslə təkid edir ki, Qaybalı kəndində dava ayın 5-də qurtarmamış hətta 6-da da davam etmişdir. Binagüzarlığında qoşun və süvarilər olan general-qubernator bunu dayandıra bilməzmi idi? Kürdlər ayın 5-də gəlmişlərdi. Mən bu barədə general qubernatoru təqsirləndirmək fikrində deyiləm, fəqət güman edirəm ki, onların vuridi hadisatın nəticəsi deyil, onlar belə bir şey gözləyirmişlər. Onun üçün də gəlmişlərdir. Məhəlli hadisələri mən gəzmişəm, dərədə meyitlər vardı. Meşə meyitlərlə dolu idi. Çayda meyitlər vardı. Qəbirlər açılıb dağılmışdır. Çünki camaat belə güman etmişdir ki, qəbirlərdə şey gizlətmişlərdir. General-qubernatorun belə rəftarını nə ilə izah edirsiniz. O vaxtadək meyitləri də dəfn etməmişlərdir. Camaat özü ərizə verərək meyitlərin dəfni üçün izn istəmişdir. Fəqət ayın 11-də ancaq 30 meyit basdırılmışdır. Mən bu xüsusi general-qubernatora dedikdə cavab verdi ki, keşişə demişdir, fəqət nədənsə bu vaxtadək əməl edilməmişdir.

Bizim cəmi ümidimiz şübhəsiz ki, qoşunadır. Binaən-ileyh cavan ordumuza toxunan hər növ şeyə elə ehtisasla baxılmasını anlayıram. Fəqət bizim ümidimiz sağlam orduyadır. Kərkicahana göndərmiş olan dəstənin zabiti yerli əhaliyə demişdir ki, kəndin üstünə kəlməyə dəstələr yığılır. Əsgərlər də əlbəttə öz müsəlmanlarının əleyhinə çıxmayacaqlar. Ona görə təklif edir ki, ermənilər kənddən çıxıb Xankəndinə köçsünlər. Ermənilər də qulaq asmışlardır. Sonra kənd talan edilmişdir.

Bəhlul kəndi bilmərrə mühafizəsiz imiş. Camaat kənddən çıxıb getmiş, sonra kəndi yandırmışlardır. Bunlar hökumətin fəaliyyətsizliyi deyilmi? Bunun həbsi isbat edir ki, əhalinin qismi digərinə nisbətən xüsusi imtiyazata malikdir və hərnə istəsə edə bilər. Dedilər ki, yolun kənarındakı kəndlərdə şoseni güllələyirmişlər. Əgər bu kəndlər təcavüz etmək istəsəydilər burada zikr olunduğu kimi Ağdamdan Şuşayadək bütün yolu tutmuş olan köçəriləri buraxmazlardı. Ancaq bir ittifaq olmuşdur ki, o da burada zikr edildi. Kəndlilər heç bir təcavüzkaranə hərəkatda bulunmamışlardır. [798 - 799]

Mən bir neçə söz də bu məsələnin müzakirəsi barədə demək istəyirəm. Anlamıram məsələ nə üçün, bu qayda ilə müzakirə olunur. Bizi parlaman göndərməmişdi və ümumiyyətlə mən bilmirəm oraya nə üçün getdik. Əgər məhəllidə hər şey təhqiq və tədqiq edilmiş olsaydı nə üçün getdik. Əgər məhəllidə hər şey təhqiq və tədqiq edilmiş olsaydı biz dəxi müfəssələ təhqiq etmək və məlumat toplamağa imkan bulardıq.

Mən istərdim ki, biz əqəliyyət nümayəndələri də məmləkətdə ümum vətəndaşların istifadə etdikləri ümumi hüquqa malik olaydıq. Mən bir şey istəyirəm ki, Azərbaycanın müxtəlif yerlərində bəlkə azlıqda qalan ermənilər var, onlar dəxi ümumi vətəndaşlarla bərabər hüquqa malik olsunlar.

**Rəis** - Dinlədiyiniz məruzələrin müzakirəsinə keçməkdən qabaq iki təklif varid olub; biri budur ki, Qarabağ əhvalı müzakirəsi qalsın gələn iclasa, biri də vaxt gec olduğundan sabaha qalsın.

**Səslər** - Axşama... sabaha... gələn iclasa.

**Rəis** - Təklifləri səsə qoyacağam. Əvvəlinci təklif deyir, qalsın gələn iclasa; hansı iclasa qaldığı bəlli deyil. İkinci təklif müəyyən vaxtını göstərir ki, qalsın sabaha yenə məclis müntəzir olsun. Əvvəlinci təklifi səsə qoyacağam. Səsə qoymadan əvvəl əleyhinə, lehinə danışmağa söz verəcəyəm. Kim əleyhinə danışmaq istəyir? (Salonda danışıq). Rica edirəm fikir verəsiniz. Kim Qarabağ əhvalı müzakirəsinin gələn iclasa qalması tərəfdarıdırsa rica edirəm əlini qaldırsın.

**Səslər** - Axşama... Sabaha...

**Rəis** - Rica edirəm təklif səsə qoyulan zaman danışmayasınız. Təklif iki cürdür. Biri müəyyən deyir sabaha, o biri isə deyir gələn iclasa. Gələn iclas ola bilər axşam olsun, sabah olsun, ya biri gün olsun. Hələlik bunu səsə qoyuram, nə vaxta təyin ediləcəyini sonra səsə qoyacağam. Kim təklif tərəfdarı isə rica edirəm əlini qaldırsın. (Əllər qalxır). Təklif əksəriyyət ilə qəbul olunur. İndi təklif var sabah olsun.

**Səslər** - Bugün axşama... Sabaha...

**Rəis** - Təklif var sabah olsun. Kim bu barədə lehinə, ya əleyhinə danışmaq istər? Söz Mehdi bəyindir.

**Mehdi bəy Hacınski** - Möhtərəm üzvlər. Məsələ xeyli mühümdür. Bu günlər Qarabağ məsələsi əhali arasında cürbəcür şayiəyə səbəb olur. Ona görə mən rica edərdim sabahkı, iclasda [799 - 800] baxılıb bitsin. Növbəti iclasa qalırsa, vaxt keçər. Məsələ mühümdür, uzanmağa qoysaq ola bilər zehindən getsin. Ona görə mən təklif edirəm iclas sabaha qalsın.

**Rəis** - Söz İbrahim Əbilovundur.

**Əbilov** - Möhtərəm əfəndilər! Doğurdan da məsələ çox mühümdür. Doklad yazılıb, fraksiyalara verilib. Lakin bir para kağızlar, bəzi sənədlər var ki, onlar ilə tanış olmaq lazımdır. Tainki bu məsələ haqqında bitərəfinə bir qərar çıxarılsın. Sabah bu barədə müəyyən bir fikir çıxartmaq mümkün ol-maz. Qubernatorun özünün də dokladı var, onu da dinləməliyik. Ona görə təklif edirik bu məsələnin müzakirəsi kələn növbədəki iclasa qalsın...

**Rəis** - Natiq əfəndi, iclas qəbul etdi ki, sabaha qalsın.

**Əbilov** — Xeyir! Sabaha deyil, kələn iclasa deyilmişdir. Ona görə təklif edirik cümə axşamına qalsın.

**Rəis** - Səsə qoyuram. Təklif var iclas sabaha qalsın.

**Soldan** - Təklif etdik.

**Sağdan** - Axşama... Sabaha...

**Rəis** - Rica edirəm mane olmayasınız. Təklifin məzmununu bildiniz. Kim iclasın sabaha qalması tərəfdarıdırsa rica edirəm əlini qaldırsın? (Əllər qalxır). Kim əleyhinədir? (Əllər qalxır). Kim səs verməyib? (Əllər qalxır). 55-dən ziyadə üzv var, amma 43 adam iştirak edir. Əvvəl qərar qoydunuz gələn iclasa qalsın, çünki iclas qapanmayıb dalı ola bilər. Axşam, sabah olsun. İndi təklif edirlər sabaha qalsın.

**Səslər** - Axşama... Axşama.

**Rəis** - Kim sabaha qalması tərəfdarıdırsa rica edirəm əlini qaldırsın? (Əllər qalxır). Kim əleyhinədir? (Əllər qalxır) Rica edirəm səs salmayasınız. Kim səs verməyib. Lehinə 23, əleyhinə də 23. Neçə adam var sayınız. Rica edirəm mane olmayınız. Cavanşir, ikinci dəfədir sizə deyirəm mane olmayasınız. Mən sizi qanuna dəvət edirəm 54 adamdan, 46 adam rəy verir. Üçüncü dəfə səsə qoyuram. Kim tərəfdardırsa, ayağa qalxsın. (Qalxırlar). Rica edirəm əyləşəsiniz. Kim əleyhinədir? (Qalxırlar). Sayınız. Kim səs verməyib lehinə 24, əleyhinə 23, səs verməyən bir. Bir səsin əksəriyyəti ilə təklif qəbul olunur. Qarabağ əhvalının müzakirəsi qalır sabaha. Saat neçəyə?

**Səslər** - Həmişəki vaxtda... 11, ...12, ...2... [800 - 801]

**Rəis** - İclas sabah saat 12-yə qalır. Rica edirəm vaxtında gələsiniz. Dəvətnamə getməyəcəkdir.

**Səslər** - Qəzetdə yazılsa yaxşı olar.

**Rəis** - İclası qapayıram.

(İclas qapanır saat 4-45 dəqiqədə)

**Arxiv, f. 895, siy. 1, iş, 100, vər. 180-170;**

**Azərbaycan, 11, 13, 15 iyul 1919-cu il № 222, 223, 225.**

**№ 53**

**Əlli üçüncü iclas**

*8 iyul 1919-cu il*

**Sədr** - İclas davam edir. Söz Rüstəmbəyli Şəfi bəyindir.

**Rüstəmbəyli** - Dün burada ərz edildi ki, Qarabağ məsələsi* haqqında iki məruzə var: birisi mənimlə Qarabəyli əfəndinin; digəri Çubaryanla Xocayevin.

Fəqət mütəəssifanə dün ikinci məruzə oxunmadı. O məruzə deleqat heyətinin əlində bulunan sənəd və sübutlar əsasıyla tərtib verilməmişdir. O, ancaq general-qubernator əleyhinə bir təqsirnamədən ibarətdir. Əsil əsasları da bundan ibarətdir ki, Qarabağ hadisatı əsnasında hökuməti-məhəlliyyə fəaliyyətsizlik və səhlənkarlıq ifraz etmişdir. Bunu isbat üçün sual edilir ki, Üçmıx səngərinə qaraul qoymaq general-qubernatorun nəyinə lazım idi? Məlumunuzdur ki, Şuşa iki müsəlləh tərəfdən ibarət idi: birisində hökumət vardır; digərlərində isə hətta ermənilər özləri də etiraf ediyorlar ki, heç bir hökumət olmayıb, müsəlləh çetə dəstələri hökmfərma olaraq əhalini dəhşətə salırlardı. General-qubernator da, ingilis heyəti də böylə vəziyyəti təhəmmül edilməz bir hal sayaraq, general-qubernator səltəsinin Ermənistana[1] da tətbiq və təşkil edilməsini lazım göryorlardı. Bu məqsədə qışla olan [801 - 802] qismə əsgəri qitaət yeridilməsi təqti-qərara alınmışdı və çünki general-qubernatorun bu qərara əməl etməsinə müsəlləh ermənilər tərəfindən müqavimət göstəriləcəyi və öz xahişləriylə bu əmrə tabe olmayacaqları gözləniyordu, ona görə də general-qubernator qeyri-məmul hərəkətlərin önünü almaq üçün bəzi tədbirlər ittixaz etməyə məcbur idi. Bunu erməni əhalisi də biliyordu, general-qubernatorun bəyanatına görə məlumat varmış ki, o zaman erməni kəndlərindən şəhərə müsəlləh gömək dəstələri də gələcəkdi. Əlimizdə məlumat var ki, şəhərə tez-tez müsəlləh dəstələr gəlirmiş, hətta Qarabağ ermənilərinə səfərbərlik elan edilmiş imiş. Ona görə Üçmıxa qaraul qoyulmuşdur ki, şəhərə müsəlləh erməniləri buraxmasın. Ermənilər də, türklər də təyid ediyorlar ki, silahsız adamlara heç kəs dəymiyordu.

Hadisat başlanan günü Ağdamdan Şuşayadək bütün Şuşa köçlə dolu imiş və Qarabağ türklərinin bütün var-yoxu yolda imiş. Bir çox şahidlər göstəriyorlar ki, ermənilər təkərratla məzkur yolu atəşə tutmuşlardı.

Bu işlər isbat ediyor ki, general-qubernatorun ermənilərə qarşı heç bir təcavüzkarlıq fikri yoxmuş və ola bilməzdi. Erməni mətbuatı bu hadisədə kürdlərin roluna böyük əhəmiyyət veriyor. Bu xüsusi Çubaryan dəxi qeyd etdi. Qaybalı kəndinin talanında kürdlərin iştirakı haqqında ermənilərlə ingilis heyəti məlumat veriyorlar. Fəqət türklər göstəriyorlar və tabor komandanı, hökumət və sairələrinin əldə etdikləri məlumatdan anlaşıyor ki, kürdlər dava qurtardıqdan sonra gəlib çıxmışlardır. Ermənilərin hamısı deyir ki, kürdlərin iştirakı onlara məlum deyildir. Mühəqqəqdir ki, kürdlərin hərəkəti general-qubernatorun binaqozarlığıyla dayandırılmışdır. Təbiidir, bir yerdə bir hadisə olursa, bəziləri kömək, digər bəziləri də qarət üçün oraya qoşurlar. Bir də Çubaryanın bəyanatında əsgərlərimizin iştirakına böyük əhəmiyyət verilir. halbuki məlum olur ki, Üçmıx və Yarma səngərlərindəki qaraullardan başqa ümumi əsgərlər ayın 4-də qışlalarda imişlər. Erməni hissələrindən atılan güllələrlə qışla içində əsgərlərdən qətl edildiyi də bunu isbat edir. Hətta general-qubernator və tabor komandanı əmr etmişlər ki, ermənilər güllə atsalar da əsgərlər cavab verməsinlər. (Hökmləri oxuyur). Bu surətlə görülür ki, əsgərlərin güllə atmamaları [802 - 803] üçün hər növ ciddi tədbirlər görülmüşdür və general-qubernator var qüvvəsi ilə çalışmışdır qan tökülməsin.

Qaybalı hadisatında qoşut qətəatının iştirakı haqqında heç bir dəlil yoxdur və mən bilmiyoram hansı əsas və dəlillər üzərində Çubaryan təkid ediyor ki, qoşun iştirak etmişdir. Doğrudur, mütəzərrirləri danışdırarkən mənə bur növ çinli adamların dəxi iştirak etdiklərini bəyan etmiş və isbat üçün bir dənə çin dəxi göstərmişlərdir, fəqət haman çin məhkəmə məmuruna məxsus bir şey idi. Qaybalı kəndinə kömək verilmişdir, general-qubernatorun binaqozarlığında bulunan ümum vasitə və qüvvələrdən istifadə edilmişdir. Hətta elə bir vaxt olmuşdur ki, əhalidən bir qismi ermənilərə hücum etmək istəmiş, fəqət general-qubernator qoymamışdır. İş bir məqama çatmışdır ki, yerli müsəlman əhali general-qubernatorun fövqəladə insaniyyətpərvərinə və himayətkaranə rəftarından narazı qalmışdır. Qətiyyən müəyyən edilmişdir ki, Qaybalı kəndində yanğın şəhərdə atışma olan zaman başlanmışdır. Yəni o zaman ki, hökumət bütün fikri və zehni biltəb şəhər hadisatıyla məşğul imiş. Rotmist İştal bəyan ediyor ki, yolları ermənilər elə güllələyirdi ki, ancaq dolama yolla getmək lazım və mümkün olurdu. General-qubernatorun evi yaxınında şəhərlə Qaybalı arasında uca dağ var. Doğrudur, biz o xüsusda tədqiqat icra etmədik, lakin zənnimcə bu evdən tüstü çətin görülə bilərdi. Şəhidlərin göstərməsi əsasıyla biz təyin etdik ki, Qaybalı kəndində dava 3-4 saat çəkmişdir. General-qubernator bu hadisəni bildikdə, dərhal köməyə başlamışdır. Fəqət şübhəsizdir ki, təhti-idarəsində olan bütün qüvvədən istifadə edəməzdi, zira eyni zamanda yalan-doğru çox xəbərlər çıxmışdır ki, sair kəndlərə də hücum edilir. General-qubernatorun

* Burada və digər yerlərdə Qarabağın ermənilər yaşayan hissəsi nəzərdə tutulur - Tərcüməçi.

qüvvəsindən bir neçə erməni kəndinə kömək edilmiş və onlara nicat verilmişdir. Xankəndinin köməyinə qaldıqda, bu mövqe hər tərəfdən erməni kəndləri ilə əhatə edilmiş olduğundan oradakı əsgərlər çox sərhesab olub oranı boş qoymamalıydılar.

Bilxassə ki, firqə komandanının göstərdiyindən anlaşıldığı üzrə Xankəndi yaxınında müsəlləh erməni dəstələri yığıldığı haqqında məlumat alınmış imiş. Bununla bərabər kəndlərin mühafizəsi üçün oradan xırda qaraul dəstələri və əsgəri qitnatı göndərilmişdir və bu surətlə nə mümkünsə [803 - 804] edilmişdir. Ermənilər özləri deyirlər ki, ayın 5-də firqə komandanı, yanında qalmış olan yeganə komandanın 16 əsgərlə Qaybalı kəndinin köməyinə göndərmişdir. Fəqət kömək gec yetmişdir. Ancaq 67 adamı xilas edə bilmiş və Xankəndinə gətirərək, iki gün yemək-içmək verdikdən sonra general-qubernatorun yanına göndərmişdir. Bundan əlavə Atabekovun mülkü dəxi əsgərlər tərəfindən hifz edilmişdir. Onun bütün şeylərini ştaba apararaq saxlamış və ertəsi gün qaytarmışlardır. Gərək general-qubernator və gərəksən qoşun bu etdiklərindən artıq daha bir şey edə bilməzlərdi.

Bir də Çubaryan dəfn edilməmiş meyitlərdən bəhs etdi. Ola bilər ki, orada meyitlər varmış. Fəqət burası da məlumdur ki, general-qubernator kərotla ermənilərə və hətta keşişə meyitlərin dəfni haqqında kağız yazmışdır; o meyitləri müsəlmanlar dəfn edə bilməzlərdi, çünki dəfn zamanı müəyyən ayini-ruhani icrası lazımdır. Meyitlərdən qohum-əqrəbası olan bir qismini onlar dəfn etmişlərdir; yerdə qalan bir qismi isə dəfn olunmamış qalmışdır. Bu işi hökumətin fəaliyyətsizlik və səhlənkarlığına isnad vermək həm də eşidənlərin əhvali-ruhiyyəsinə icrayi-təsir etmək, müəyyən bir nəticə və təsir buraxmaq üçün Çubaryanın danışdığı kimi danışmaq lazım deyildi, buna ehtiyac yoxdur: fəzilət bir işdir.

Kərkicahan məsələsinə gəldikdə qoşun heç vaxt onlara deməmişdir ki, biz müsəlmanlara güllə atmayacağıq. Ancaq bəyan etmişdir ki, qoşun az olduğundan böyük dəstəyə müqavimət edəməz. Ona görə də ermənilərə təklif edilmişdir ki, şeylərini müsəlmanlara əmanət tapşırıb, özləri Xankəndinə, əsgərlərin mühafizəsi altına getsinlər. Bu əmr-əsgərlərin fəaliyyətsizliyi deyil, bəlkə ayrıca diqqət və iltifat əlamətidir. Bunların hamısından əlavə, ermənilərə küllə atılmaması, onlara kömək və müdafiə edilməsi haqqında general-qubernator bir çox əmrlər vermişdir. (Əmrnamələri oxuyur). Telefon ilə də hər tərəfə əmrlər vermiş, binaqüzarlıqlar etmişdir. Şübhəsizdir ki, böyük bir yanğın əmələ gətirə biləcək olan hadisat ancaq hökuməti-məhəliyyənin təşəbbüs və fəaliyyəti sayəsində təhdid edilmiş, dayandırılmışdır. General-qubernatorun belə qəti tədbirləri olmasaydı, erməni kəndlərinin hamısı dağıdılardı. Biz Qarabağda olan zaman istintaq icrası və müqəssirləri tapmaq üçün oraya müddəiyi-ümumi və istinaf [804 - 805] məhkəməsi sədri dəxi gəldilər. Bu surətlə ədliyyə tədbirləri də görülmüşdür. Bitərəfanə və biqərəz mühakimə edilərsə görülər ki, Qarabağ hadisəsi nəinki yeni təşəkkül etmiş bir dövlət, hətta böyük dövlətlərdə də mümkünatdan olan bir anaşi çıxışı imiş; lakin qabaqcadan düşünülmüş bir təşəbbüs və Çubaryanın dediyi kimi qəsdən edilmiş səhlənkarlıq deyil, biləks hökumət qara niyyətləri boğmaq üçün hər növ tədbir görmüşdür. Bunu biz müəyyən və qəti surətdə bəyan edirik. General-qubrenatorun məqsədi ancaq bütün şəhərdə nizam və asayiş bərpa etmək olmuşdur. Mətbuatda general-qubernator namı ətrafında qaldırılan səs-küy provokasiyadır. Bu ancaq Azərbaycanda bir fəna hadisəni qeyd və müəyyən surətdə təsvir etmək niyyəti ilə icra olunur. Köhnə Qarabağ məsələsi qaldırılır. bu məqsədlə də Zaqafqaziya həyatında İrəvan quberniyası və Axısqa qəzasında görmüş olduğumuz hadisələrə nisbətən xırda bir məsələ ətrafında bunca qurultular qoparılır. Biz gərək bu məsələni meydana çıxararaq Qarabağın vəziyyətini aydınlaşdırdıq və erməni mütəəssüblərinin hərəkatı və əməlləri müqabilinə nə kimi tədbirlər ittixazı lazım gəldiyini təyin edək.

Məclisi-Məbusan və bütün azərbaycanlılar Qarabağı Azərbaycanın ayrılmaz bir hissəsi deyə qəbul etmişlərdir. Bu iş son zamanlar ermənilərlə müsəlmanlar arasında vasitəçi rolu oynayan xarici qüvvənin rizasıyla olmuşdur. Fəqət həqiqət halda Qarabağın dağlı qismi və şəhərin yarısı Azərbaycan hökumətinin məntəqeyi-nüfuzu xaricində qalmışdır. Şübhəsiz dövlət və beynəlmiləl hüquq nöqteyi-nəzərdən bu işə müsəlləh üsyan kimi baxmalı və bunun müqabilində hər bir hüquqi dövlət qüvvə işlətməyə qədər qəti tədbirlər görməlidir. (Səslər: doğrudur). Fəqət Azərbaycan parlaman və hökuməti bu məsələnin sülhlə həll edilməsini istəyirdilər. Buna baxmayaraq Azərbaycan Cümhuriyyəti təşkil olunandan bəri bəzi qruplar oranı Azərbaycandan ayırmağa çalışırlar. Az qala Qarabağı bolşevik Rusiyasının bir hissəsi elan etmək dərəcəsinə vardılar. Nəticədə orada iki düşmən tərəf əmələ gəldi: biri erməni, biri müsəlman. Həmişə də bunların arasında müsəlləh müsadimələr baş verdi. hökumətimiz Qarabağda general-qubernatorluq təsis etdikdən bəri Qarabağ məsələsinin yeni bir səhifəsi başlanmışdır. Biz Qarabağ ermənilərinin də, türklərinin [805 - 806] də əhval-ruhiyyəsini gördük. Onlar həmişə birgə yaşamaq istəyirlər və bilirlər ki, siyasi və iqtisadi rabitəsiz yaşaya bilməzlər. Şuşa və Zəngəzur Erməni Milli Şuralarının daima rəhbərlik etdikləri mütəəssüb erməni dairələrinin fəaliyyəti həmişə Azərbaycan dövləti əleyhinə camaatı qızdırmağa həsr edilmişdir. Açıqdan-açığa gözümüz qabağında işləyir, əleyhimizə çıxışlar qurur, yollarımızı, kəndlərimizi güllələyirdilər. Bunun hamısı dəlil və sənədlərlə sübut olunur. Fəqət biz həmişə sülh tərəfdarı olduq-qaldıq. General-qubernatorluq təsisindən sonra müsəlmanlar ermənilərə hücum etməmişlərdir. Fəqət general-qubernatorluq təhti-idarəsində bulunan hər yerdə hər daim hökuməti-məhəliyyə sülhcuyanə, tərəfi-müqabil isə təcavüzkaranə iqdamatda bulunmuşdur. General-qubernatorla əlaqəsi olmayan kəndlərdə həmişə müsəlləh dəstələr olmuşdur. İyunun 4-nədək erməni milli şurası

general-qubernatoru qəbul etməyib, onunla ancaq ingilis heyəti vasitəsilə əlaqədə bulunurdu. Bu surətdə erməni milli şurası hökuməti qəbul etməyirdi, hətta yepiskopu da general-qubernatorla görüşməkdən mən etmişdir və ancaq ayın 4-5-dən sonra görüşmüşlərdir.

Eyni zamanda bunu da nəzərdən qaçırmamalıdır ki, Qarabağ milli şurası özbaşına, öz gücüylə işləmiyordu. General-qubernatorun əldə etdiyi dəlillər bunu şübhə xaricində isbat edərlər ki, onlar həmişə İrəvanla siyasi və maddi rabitədə olub, Şuşa erməni milli şurasının əlində olan bütün qüvvə və pul İrəvandan göndərilirmiş; burası Şuşada Arzumanovun evi axtarıldıqda kəşf edilmişdir. Bu dəlillərin hamısı isbat edilir ki, Qarabağda erməni camaatının təcavüzkara nə niyyəti vardır. Zəngəzurda təcavüzkarlıq hələ də davam ediyor. Bunu mətbuat səhifələri də göstərirlər. Fəqət orada da hökumətimiz məsələnin sülh tərəqqiyə həlli tərəfdardır. hətta hal-hazırda ermənilər hər tərəfdən hücum etdikləri zaman general-qubernatorun müəyyən əmrnamələri var ki, müsəlmanlar hücum etməsinlər: yalnız özlərini müdafiə və mühafizə etsinlər.

Burada boykotdan bəhs edildi. Qışda general-qubernator Qarabağa gəldikdə ermənilər çox fəna bir halda olub, hətta acından ölənləri olurmuş. Səbəbi də bu idi ki, ermənilərin arandan əlaqəsi kəsilmişdi. Qarabağın erməni hissəsi şiddətli [806 - 807] aclıq təhlükəsi altında idi. General-qubernator dərhal ermənilərə ərzaq verilməsi haqqında tədbirlər görmüş. Qara-bağdan taxıl ixracını mən etmişdir. Bu surətlə Bakıda 200 manatdan yuxarı olduğu halda Qarabağda taxılın pudu 30 manata düşmüşdür. Ermənilər ucuz qiymətə külli miqdarda taxıl alıb əşqiyə dəstələrini təin etmişlərdir. Bu halda general-qubernator iqtisadi boykot kimi tədbir görə bilərdi. Amma görməmişdir. heç yerdə göstərilmir ki, general-qubernator boykot elan etmişdir. Şahnazarov, Kalantarov və sair adamlar da bunu təyid ediyorlar və deyirlər ki, camaat özü baykot etmişdi, ermənilər az-az taxıl ala biliyorlardı; amma külli miqdarda verilmiyormuş. General-qubernator boykot etməmiş, biləks erməni nümayəndəsi Şahnazarovun hüzuruyla qəti binaqozarlıq etmişdir ki, boykot götürülsün; götürülmüşdür də.

Bu surətdə bu məsələdə də general-qubernatoru təqsirləndirmək olmaz. Həmişə və hal-hazırda general-qubernatorun bütün qüvvələrinin yarısı ermənilərin mənafeyinə xidmət edir.

Məsələn, erməniləri həmişə qaraul əsgərləri müşayiət etmişlər, canlarını, mallarını daima hökumət əsgərləri mühafizə etmiş və etməkdədirlər. Hal-hazırda ermənilərlə müsəlmanlar arasında elə əlaqə hasil edilmişdir ki, Əsgərana və Ağdamadək hər yerdə erməni arvadları taxıllarını yığıb kəndə daşıyırlar.

Bunların hamısı hökumətin tədbirləri ilə edilmişdir. Onlara mühafizə verilir və çox gömək edilir. Fəqət bunların hamısıyla bərabər mütəəssifanə ermənilər ayrı olurlar, hal-hazırda yenə də müntəzəm müsəlləh qüvvələri, hökumətləri, ərkini-hərbləri var, hökumətə tabe olmayırlar. Bunlar da Şuşada deyil, Keşiş kəndindədirlər. Ermənilər Azərbaycan hökumətinin bütün yaxşılıqlarından istifadə edirlər, fəqət öhdələrinə düşən dövləti vəzifədən boyun qaçırırlar və Azərbaycan hökumətini qəbul etmirlər, tanımaq istəmirlər. Bunların hamısını edən Zəngəzur erməni milli şurasıdır ki, açıqdan-açığa işləyir və hökumətə tabe olmur. Amma digər tərəfdən bizim hökumətimiz bu uğurda bir iş görmək istədikdə həmişə səs-küy, gurultu, patıltı qoparılır. Şuşada, Zəngəzurda və sair yerlərdə edilən hücumlar kimi bir çox hadisələr vüqu bulmuş, fəqət kimsə bu xüsusda məsul olan hökumətə müraciət etməmiş və bu surətlə müqəssirlər tapılmamışdır. [807 - 808] Şuşada, Zəngəzurda və hər yerdə bəzi məsuliyətsiz üzvlər işləyirlər. Mütəəssüfanə Çubaryanın bəyənatının bir təqsirnamə olduğu və erməni başçılarının xətalarından əslən bəhs olunmaması bununla təyid edilir. Bunların hamısını edən Azərbaycan, Ermənistan və Tiflisdəki erməni başçılarıdır. Daima rəhbərlik etmiş və etməkdə olan firqə bu işlərin hamısına hüsni-nəzərlə baxır. Şahnəzərov Ruben və Kalantarovun bəyanatı isbat edir ki, bu hadisələrin hamısında pişrəvilik edən "Daşnaksütun" firqəsidir. Fəqət general-qubernatorstvada ildırım saçan od yağdıranlar mütəəssifanə nizam və asayiş bərpası üçün heç bir tədbir görməmişdir və görməyirlər.

Binaən-ileyh mən özümü borclu bilirəm Məclisi-Məbusana elan edim ki, hal-hazırda Qarabağ ən ciddi bir vəziyyət altındadır. Əgər hökumət qəti tədbirlər görüb möhkəm hökumət idarəsi qurmasa, bu hadisat bütün Qarabağa yayılar və çünki Qarabağ Azərbaycanın ümdə bir mərkəzi, ümdə bir hissəsidir, ona görə orada elə böyük hadisələr çıxa bilər ki, bu vaxtadək vüqu bulmuş olanların hamısını keçər. Binaən-ileyh deleqat heyəti keçən dəfə demişdir, yenə təkrar edir ki, Qarabağda sülh və asayiş, nizam və qaydanı bərpa etmək üçün nizam və asayişi təmin edə biləcək yaxşı hökumətin səltəsini bütün Qarabağa tətbiq və təşkil etmək lazımdır. Bu mühüm Qarabağ məsələsini ancaq beləliklə həll etmək olar.

**Çubaryan** ("Daşnak") - Möhtərəm məbuslar! Dün mən bu məsələnin mövqeyi-müzakirəyə düz vəz edilməmiş olduğunu qeyd etmişdim ki, bundan dolayı da bəzi əmrlər haqqında aramızda ixtilafi-rəy hasil olmuşdur. Mehtərəm Rüstəmbəyli Şəfi bəyin nitqinin siyasi qərəz haqqında və Qarabağda və otəsində bu ya o qrupların siyasi arzu və məqsədlər və haman qrupların icra-təsiri ehtimalı və hətta deleqat heyəti əzasından bəzilərinin belə qərəzdən azad olmaması barəsindəki ikinci qismindən əslən bəhs etməyəcəyəm. Məruzə hazırlarkən bu cüzi məsələlər məni maraqlandırmamışdır. Zira mən məsələyə ancaq bir cəhətdən yaxınlaşmışam.

Hadisatın cərəyanını aydınlaşdırmaq və hüquqi-dövlət nöqteyi-nəzərindən hadisatı nəqədər düz cərəyan etdiyini təyin qılmaq. İştə zənnimcə hamımızın təqib etməli olduğu əsası prinsip budur. Fəqət nə üçün Şəfi bəy bizim təqsirnamə adlandırdığı [808 - 809] məruzəmizdən bir çox şeyləri buraxır. Mən heç vaxt təkid etmərəm

ki, özünü erməni hökuməti adlandıran erməni milli şurası bulunduğu şərait altında elə yaxşı nizam və qayda təsis edə biləydi. Bununla belə bu gün yenə səmimi surətdə sizə bəyan edirəm ki, Qarabağ məsələsinin siyasi cəhəti məni maraqlandırmır, əgər biz bu işi düzgün müzakirə edib müəyyən qərara gəlmək istəyiriksə, siyasi cəhəti atmalıyıq. Çünki nail olmaq üçün general-qubernatorun var qüvvəsi ilə çalışmağı siyasi məqsəd bir məsələdir? Ona irişmək qəsdi ilə təvəssül olunan çarələr dəxi başqa məsələ. Orada lazım gəldikdə məhəlində təvəssül edilmiş çarələrdən birisi-parlaman və ya hökumət bilmək istərsə-siyasi məqsədə irişmək uğurundakı tədbir parlaman əksəriyyətinin işidir.

Fəqət zənnimcə belə yolla gedən hər halda yaxşılığa çıxmaz. Burası nə Azərbaycan üçün faydalıdır, nə də yeni təşəkkül etmiş digər dövlətlər üçün. Mən hadisatı bəyan edərkən buraxmış olduğum xətaya övdət edirəm. Sizə baş ağrısı verməmək üçün mən keçən dəfə istəməmişdim və indi də istəməyirəm təqsirnamə adlandırılan məruzəmi oxuyarım. Mən burada danışanları xüsusən hadisatın əməli cəhətinə aid nitqləri diqqətlə təqib edirdim.

Zira qəti surətdə tədqiq olunmamış dəlillərə isnadla elə məsuliyyətli nəticələr çıxarmaq-necə ki, burada çıxarırdılar hər halda siyasi kutahbinlik olur və belə zərbə məqsədə endiriləməz. Çox tez-tez Ruben Şahnazaryan adlı bir adamın şəhadətinə isnad edirlər. Mən siyasi düşmənlərimin şəxsiyyətinə ehtirah etməyə adət etmişəm. Binaən-ileyh istərdim bunca böyük diqqət və əhəmiyyət verilən Şahnazarovun kim olduğunu açam. (Səslər: Şuşa ermənilərinin nümayəndəsidir!). Bu şahidin haqqında bunu deyərəm ki, erməni deleqatları Qaybalı kəndi əhvalını ondan soruşduqda cavab verdi ki: Mən Qaybalı kəndi haqqında bir şey bilmirəm. Mənim vəzifəm bu idi ki, general-qubernator Qaybalıdan qaçqınlar gəldiyini xəbər verdikdə ancaq onları Ermənistana apardım. Pensilvaniya haqqında, Pensilvaniya nefti barəsində, ingilis siyasəti, Rusiya işləri, Denikin siyasəti, Qarabağın kimə məxsus olacağı və Milli Şura haqqında çox danışdı; anlaşıldı ki, bu, müəyyən ziyalı qrupun siyasətindən (Səslər: daşnak siyasətindən) narazı qalan ziyalı agentlərdən birisidir. Orada menşeviklər də [809 - 810] vardır. Daşnaklar da, kadetlər də (Səslər: kadetlər də mi?). Bəli, kadetlər də! Sonra bir də o deyirdi ki, beşəxsi onun zənninə görə belə siyasət fəlakətimizdir; və qeyri-məmul nəticələr verər. Şəhərdə hansı əsgəri qitəni iştirak etdiyi və hadisatın necə cərəyan etməsi haqqında müsaidənizlə birinci pulemyot bölüyü komandanı rus xidmətində bulunan zabit Aleksey Pavloviç Maksimoviçin şəhadətini ərz edim (Səslər: rus xidmətində!). Bu həmən zabitdir ki, Arzumanovla müzakirata bulunmuşdur. (Oxuyur: Bizim taborumuz tamamilə atışmada iştirak edirdi və ətraf kəndlərdən kürdlər və sair müsəlmanlar bizə köməyə gəldilər). Bunu deyən nə daşnakdır, nə də erməni. Sizi də, bizi də maraqlandıran bir məsələ daha məruzəmdə tez-tez göstərdiyim yol: general-qubernatorun evindən Qaybalı kəndinə gedən dərətəriqiylə ən yaxın yoldur. Bu yol bu şose kimin əlində idi. Haman zabit bu barədə deyir ki: "Şose yolunu bir zabitin komandası altında general-qubernator məayyətindəki kürdlər işğal etmişlərdi. "Həzərat, bir şahid dəxi var ki, buna inanmamağa heç birimizin ixtiyarı yoxdur. Bu şahid general-qubernator özüdür. Öz bəyanatında o dedi ki, biz oraya müsəlləh adamlar qoyduq, çünki atışmanın ən şiddətli-si orada idi. Burada ikinci bir məsələ daha açılır. Kimlərin hücum etdiyi barəsində düz danışmadılar. Mən heç vaxt deməmişdim ki, atışmada qoşun qitiatı iştirak etmişdir. Mən dedim əsgərlər də varmış. Onlar köçərilər və şəhərlilərlə bərabər Xankəndi və dağ tərəfdən kəndlilərin yolunu kəsmişlərdir. Kəndlilər əsgərlərin çinini, rəngini təsvir edirlər və bir dənəsini də bizə gətirdilər. Deyirlər o çin məhkəmə məmurana məxsus şeydir. Fəqət biz əhli-xübrə vəzifəsi görmürdük. Ancaq gördük ki, əcəb bir şey idi, həm də mülki məmura məxsus idi.

Fəqət kəndlərin talanında əsgərlərin iştirakını şübhəsiz hesab etməlidir. (Səslər: provokasiya!) General-qubernator deyir ki, Qaybalı kənd davası qurtardıqdan 3-4 saat sonra (dava 2-3 saat çəkmişdir) kəndin içindən 65 kürd keçmişdir. Fəqət kürdlər davada iştirak etməmişlərdir. Kəndlilər biz olmayan zaman general-qubernatora verdikləri ərizədə deyirlər ki, davada Kaçelis (?) kürdləri iştirak etmişlər. Zənnimcə biz şübhə etməyirəm. Mən beşəxsə bu sözlərin doğruluğuna şübhə etməyirəm. General-qubernator gərək kürdlərin şəhər üstünə [810 - 811] gəldiklərini biləydi və biləcək qabağını alaydı. Müxtəlif nöqtələrdən kürdlərin yığışıb kələ bilməsi üçün əqəllən iki gün lazım idi. Saat 10-dan 01-dək bunu etmək olmazdı. Ona görədir ki, məruzədə dəxi göstərilir ki, kürdlərin şəhər üstünə gəlmələri hadisatın nəticəsi deyil, onu qabaqlamaq tədbirindən ibarətdir. Mən demirəm qabaqlamaq hərəkəti (Səslər) və sonralar dəxi müxtəlif yığınlar iştirak etmişlərdir.

Bir də burada qışlaqlardan bəhs edildi. Şəfi bəy bu məsələni şübhəsiz yaxşı təsvir etdi. Bu qışlaqları Şuşanın erməni hissəsində nizam və asayişi bərpa etmək və hərc-mərci yatırmaq üçün tutmaq lazım gəlirdi. Mən bunu təbrik edirəm, fəqət biz bunu bilmək istərdik ki, qışlaqların təslimi haqqında general-qubernator nə vaxt tələb vermişdir. Hamımız siyasətə alışmamışədd etdiyimiz digər bir şahid — Minasbekovdan sual edildikdə ki, ingilis komandanlığı tərəfindən qışlanın təslimi haqqında bir tələb varid olmuşmu idi, yoxmu Minasbekov cavab verdi ki, bəlkə general-qubernator və ingilis komandanlığı qışlanın təslimini tələb etmişlərdir də, fəqət milli şuraya belə bir tələb təqdim edilməmişdir. (Şəfi bəy yerindən: O vaxt milli şura yox idi!) Həmən qışlada 1500 nəfərədək erməni qaçqını olurdu. Ancaq ayın 5-də general-qubernator polismeysterdən tələb etmişdir ki, qaçqınlar üçün yer tapsın. Ermənistanda yer tapmaq və qaçqınları yerləşdirmək lazım gəlirdi. Ayın 6 və 7-də

qışlaqı işğal etmişlərdir. Bu məsələdə general-qubernator tərəfindən heç bir mümaniət və müqavimət olmamışdır.

Burada milli şuradan çox bəhs etdilər və deyirlər ki, o milli şura indi mövcud deyildir, fəqət həzərat, vaxt yetişmişdir ki, biz siyasi düşmənlərimizlə namuslu rəftar edək. Mən bilmədən burada iştirak etməyirəm ki, milli şura öz qüvvəsi və məhəllədəki təşkilat köməyi ilə general-qubernator kimi böyük bir qüvvə müqabilinə mübarizə edəməzdi. Həzərat! Azərbaycan hökumətini qəbul etməyənlərin hamısı başqa məqsədlər, başqa arzular təqib edənlərin cümləsini əşqiyə dəstəsi və hətta danışmağa yaramayan adamlarədd etmək-məsələni düz təsvir etmək deyildir və siyasi mübarizədə öz qarşısında namuslu düşməni görməməkdir.

**Səslər:** Namuslu düşmən yoxdur! Namuslu düşmənimiz olsaydı! [811 - 812]

**Xocayev** (Erməni fraksiyasından) - Həzərat! Deleqat yoldaş-larımın hamısından sonra mən danışıram. Birinci iki yol-daşım hadisat haqqında heyətin məhəllində toplamış olduğu bütün məlumatın əməli cəhətindən bəhs etdi. Bu məlumatın hamısını elan etmək üçün mən iki sənəd göstərməli idim.

Birisi gərək ermənilər və gərəksə müsəlmanlar tərəfindən edilmiş şikayətləri havi protokoldur ki, çox uzun olduğundan onu oxumayacağam; ancaq dövləti nöqteyi-nəzərdən ermənilər üçün də, müsəlmanlar üçün də böyük əhəmiyyətə caiz bir məsələdən bəhs edəcəyəm.

Erməni şikayətçilərinin böyük qismi göstərir ki, hadisat vaxtı Şuşa-Yevlax yolunda olduqlarından mühafizə əsgərləri ya könüllülər mühafizəsi altında müəyyən yerlərə getməyə məcbur olmuşlardır. Və orada yol boyunda vətəndaşların əmin və rahatını mühafizə etmək üçün təyin olunmuş adamlar onları axtarmaq bəhanəsi ilə soymuşlardır.

Dikər sənəddə Şuşadakı ingilis heyəti nümayəndəsi polkovnik Qlyatenberqin verdiyi xəbərdir. Bu vaxtadək ancaq ermənilərlə müsəlmanların, yəni mənfəətdar olan tərəflərin verdikləri məlumatı elan etmişik. Üçüncü məruzə isə kənarda buraxılmışdır. Əlimizdə olan məlumatı tamamilə bəyan və tənqid edə bilmək üçün həmin bu sənədi dəxi elan edəcəyəm. (Qlyatenberqin verdiyi məlumatı oxuyur. Salonda səs-küy qalxır. Səslər: Doğru deyil, bunlar həp yalandır). İştə, həzərat, dün və bu gün burada elan edilmiş materialın hamısı bu! Bu məlumatın tənqidi nədən ibarət olmalıdır. Məncə bunun tənqidi iki cür ola bilər: əvvəla hadisatın səbəblərini açmaq, aydınlaşdırmaq, saniən məzkur hadisatda hökuməti-məhəlliyənin rolunu təyin etmək hadisatın səbəbləri nədir?

Səmimi və insaf üzərinə bu suala bir cavab ola bilər: Bir tərəfdən Qarabağ ermənilərinin Azərbaycan Cümhuriyyəti hökumətini qəbul etmək və tanımaq istəmədikləri; digər tərəfdən də Azərbaycan Cümhuriyyəti və onun nümayəndəsi, yəni hökumətin məhəlli nümayəndəsinin əyolla olur-olsun Qarabağ ermənilərini Azərbaycana tabe etdirməyə çalışması. Bu hadisatın əsil səbəbi iştə budur! Burada sizə deyirlər ki, əhalinin bu işdə təqsiri yoxdur. Onlar Azərbaycan hökumətini qəbula hazırdırlar; fəqət bəzi qruplar, təşkilatlar, dəstələr onları qoymurlar və tabe olmamağa məcbur edirlərdi. General-qubernator [812 - 813] bu nöqteyi-nəzəri müdafiə edir; görünür ki, deleqat heyətindəki müsəlman yoldaşlarım dəxi bu nöqteyi-nəzərə şərikdirlər. General-qubernator ancaq Şuşa milli şurası əzasının təqibinə çalışırdı və təqib etdi. Ona görə anlaşılır ki, o ancaq haman əzanı müqəssir və mübəlliğ sayır. Bil-xassə ki, başqa şəxslərin təqib edildiyini görmədik və görmürük.

Mütəəssifanə milli komitənin bütün fəaliyyətini təhqiq edə bilmədik. Nə üçün? Çünki nə mükatibə vardı, nə dəftərxana, nə də şura əzası: bəziləri qaçmış, digər bəziləri təbid edilmişlərdi. (Səslər, salonda ümumi səs-küy). Ancaq bilavasitə hadisata aid bir çox əmrlərə təsadüf etdik. Məncə milli şura heç bu qədər əhəmiyyət verilməyə dəyməz. Deyirlər ki, erməni hissəsində milli şuradan başqa hökumət yox idi. Mayın 27-də köç başlanandan iyunun 4-nədək köçərilərlə ətraf kənd erməniləri miyanında heç bir müsadimə olmamışdır. Bəs nə üçün fəsadların hamısı milli şuraya isnad verilir, amma qeyd edilmir ki, haman şuranın tədbirləri sayəsində iş beləcə rahat keçirmiş. Bir də müsəlmanıstanda bir erməninin tüfəngini almışlar. Bunun cavabında onun da xuliqan yoldaşları 2-3 gün sonra iki nəfər könüllünün silahını, hətta atını almışlardır (Səslər: Könüllü deyil, əsgərin silahını almışlar!) Birinin atını qaytarmışlar, digərinin atı və silahı qeyb olmuşdur. General-qubernator haman atla silahın qaytarılmasını tələb etdikdə milli şura onun dalınca adam göndərmişdir; çünki xuliqan atı minərək kəndə qaçmış imiş; lakin tapmamışlar, çünki iz itirmək üçün ayrı kəndə qaçmışdır. Milli şura isə 10.000 manata bir at və 1500 manata bir tüfəng alaraq könüllüyə (Birisi: Əsgərə) vermək üçün ingilis heyətinə təslim etmişdir. Bir də deyirlər ki, Ermənistanda hökumətsizlik, hərcmərc hökmfərma imiş; bəlkə varmış; amma müsəlmanlar haqqında yox, çünki dava başlandıqda Ermənistanda bulunan müsəlmanlar həp salamat qalmışlar; amma müsəlmanıstanda 40 erməni tələf olmuşdur. Bir də son dəqiqədə general-qubernator ultimatum kimi tələb edir ki: "şəhərdə atışma ancaq təbid üçün milli şura əzasının təslimindən sonra yatırılacaqdır".

Bunun müqabilində əzalar gəlib ingilis heyətinə təslim olurlar. Bunlar həp isbat edir ki, milli şurada əyləşənlər qaniçici deyilmişlərdir. Məncə ümumiyyətlə bu hadisatda müəyyən [813 - 814] şəxsləri, yaxud qrupları və təşkilatı müqəssir tutmağa əsas yoxdur. İş təbliğatda, ya əhali içində hasil edilən əhval-ruhiyyədə deyildir. (Qarabəyli: Düzdür). Əhval-ruhiyyə üsul-idarədən asılıdır. Bunu isə hökumət və onun məhəlli nümayəndələri əmələ gətirirlər. Doğrudur, bəzi adamlar təbliğatla camaatı bir tərəfə mayil edir, hökumət müqabilinə çıxara bilər. Fəqət hökumətin də əlində çox tədbirlər var ki, mübəlliğlərlə mübarizə edib, əhval-

ruhiyyəni dəyişdirə bilər. Deleqat rəisi doktor Qarabəyli general-qubernatorun bu məsələ ətrafındakı bütün tədbir və hərəkətini təsvib edir, haqlı görür.

Bir də baykot məsələsindən bəhs etdikdə deyir ki, general-qubernator razı ola bilməzdi ki, ermənilər külli miqdarda ərzaq alıb onunla da əşqiya dəstəsini təmin etsinlər. Mən sizi inandırıram, cənab Qarabəyov, ki, əhalini ərzaqdan məhrum etdikdə əşqiyanın heç vecinə də olmayır. Onlar sizdən, bizdən çox tapırlar, mütəzərrər dinc əhali olur.

Bir də bunu qeyd etməlidir ki, hadisat zamanı hökuməti-məhəliyyənin rolu nə imiş və necə rəftar etmişdir. Sabiq natiq Çubaryanı tənqid edərkən elə isnad verdi ki, guya o, general-qubernatoru talan əmələ gətirməkdə ittiham edirmiş. Xeyir, elə deyildir. O şeylər ki, Şuşada olmuşdur, heç kəs deyə bilməz və deməyir ki, Şuşada erməniləri qırmaq üçün hazırlanmış imiş. Bu ancaq geniş dairədə icra edilmiş (bəlkə ingilislərin də rizasıyla) bir nümayiş idi ki, erməniləri qorxudaraq, Azərbaycan Cümhuriyyəti hökumətinə tabe olmağa, general-qubernatoru qəbula məcbur etmək məqsədi ilə vaqe olmuşdur. Ərz etdiyim kimi burası pak böyük dairədə icra edilmiş bir nümayiş idi; və əgər bir xəta və səhv olmuşsa, mən demirəm ki, general-qubernator tərəfindən bir cinayətdir. Yoldaşım da belə deməyir. Biz deyirik ki, bu ehtiyatsızlıqdır. Nəticədə müəyyən müsadimələrə bais ola biləcək tədbirlər görmək və bunu da əhaliyə xəbər verməmək ehtiyatsızlıqdır. Nə üçün general-qubernator bunu danır. Nə üçün deyir ki, bu iş nümayiş məqsədi ilə deyildi. Köç yolunu mühafizə üçün idi. Gərək ermənilərin və gərək müsəlmanların iztirab və həyəcan içində olduğunu nəzərə alsanız görərsiniz ki, general-qubernator belə bir halda o cür tədbirlər görmək mümkün olmadığını bilməyə bilməzdi. Çünki ermənilər belə anlamışlar ki, onları qırmaq hazırlıqları görülür. Ona görə də silahlı [814 - 815] adamlarını qaraulların müqabilinə çıxarmışlardır. İki müsəlləh qüvvə qarşı-qarşıya durmuşdur. Belə bir zamanda vəziyyət müşkül, xalq həyəcanlı olan bir halda heç əhəmiyyəti yoxdur kim qabaqca güllə atmışdır. Bilxassə ki, aralarında nizama tabe olmayan adamlar dəxi az deyilmiş. Şuşa hadisəsini ehtiyatsızlıq hesab etmək olursa, Qaybalı hadisəsi hökumətin fəaliyyətsizliyi və səhlənkarlığından başqa bir şey deyildir. Dün Qarabəyov isbat edirdi ki, general-qubernatorun kömək vermək və qırğının önünü almaq imkanı yoxmuş. Yoldaşlardan bəziləri deyirlər ki, orada müsadirə olmuşdur, xeyir, orada qırğın vaqe olmuşdur.

Deyirlər kömək vermək üçün 17 verst dolama yol getmək lazım gəlirdi. Halbuki firqə ərkani-hərbi iqamət edən Xankəndi ilə Şuşa arasında telefon var. Bu surətdə istəsəydilər qırğının önünü almaq üçün telefonla binaqozarlıq edə bilərdilər. Amma etməmişlərdir. Deyirlər etmişlər, fəqət kec olmuşdur. Yox, belə deyil. Nədən hamı bilirdi, amma general-qubernator bilməyirdi ki, qırğın var. Deyirlər ki, erməni dəstələrinin hücumu təhlükəsi varmış; mən qəti surətdə deyirəm ki, şəhərə heç erməni dəstəsi gəlməyirmiş və kələ bilməzdi. Hərbi idarələr belə şaiyət əsasıyla iş görməzlər. Onlar kəşfiyyatçı göndərər, nə olduğunu bilərlər. Odur ki, demək olmaz ki, kömək göndərmək mümkün deyildi. Bir də deyirlər ki, orada təqdim edilmiş olan çin əsgəri deyil, məhkəmə məmurlarına məxsus bir şey olduğundan kürdlərin iştirak etdiklərinə bir dəlil deyildir. (?) Binaən-ileyh Qaybalı kəndlilərin sübutları əsassızdır. Amma adətən mütəzərrirlərin şəhadəti əgər cərh edilməzsə dəlil hesab olunur. Deyirlər Qaybalıya kömək göndərmək olmazdı, çünki sair kəndlərin də köməyə ehtiyacı vardı. Fəqət, həzərat, qabaqça Qaybalı mütəzərrir olmuşdur. Binaən-ileyh sair kəndlərdən Daşaltı və sairlərinə hücum edilməsindən bəhs olunmaz. Çünki onlar sonradan olmuş imişlərdir.

Bu işlərin hamısına, adi deyil, dövlət nöqteyi-nəzərindən baxılarsa, demək olar ki: əvvəla general-qubernator belə hadisələrdə müsəlləh camaatın iştirakını məqul bir əmr sayırmış.

Müsəlmanların özlərinin dediklərinə görə orada müdafiə komitəsi var. haman komitə erməni sərhəddinə müsəlləh adamlar göndərmişdir. Mən deyirəm ki, bu böyük xətadır, çünki general-qubernator [815 - 816] özü təkrar bəyan etmişdir və heyət buna şərikdir ki, general-qubernatorun ixtiyarında hər növ nizamsızlığı yatırmaq üçün lazım gələn miqdarda müsəlləh müntəzəm qüvvə var idi.

Davada nizama tabe olmayan camaat özü əldə silah iştirak etmişdir. Şahidlərdən birisi deyir ki: bizim müdafiə komitəmiz var. Belə ittifaqlar da Könüllü müsəlləh adamlar çıxarır. Bunlar heç bir nizama tabe olmayıbdır. Mən hər şeydən ziyadə diqqətinizi buna cəlb edirəm. Zira gələcəkdə burası bir ixtilaf və müsadimə mənbəyi və qanun asayişi təhdid edici bir təhlükə ola bilər.

Bir mühüm məsələ də var: hadisatdan sonra heç bir təftişat və istintaq olmamışdır. On gün sonra bizim heyət getdi, hələ istintaq yox idi. Məncə bu iş Qaybalının qırğınından betərdir. Çünki cəza verilmədikdə camaat elə güman edər ki, insanın kefi nə istəsə edə bilər.

**Azərbaycan, 16, 17, 18, 20 iyul 1919, N 226, 227, 228, 229.**

**№ 54**

**Əlli dördüncü iclas**

*10 iyul 1919-cu il.*

**Rəis** - Həsən bəy Ağayev. **Katib** - Mehdi bəy Hacınski. İclas açılır saat 12-45 dəqiqədə

**Rəis** - İclas açılır. Bugünki Ruzinameyi müzakirat böylə tərtib edilmişdir. (Oxuyur):

1) - Daxil olmuş kağızlar; o cümlədən:

a) Hökumət işləri idarəsi cünbundə xüsusi şöbə təsis haqqında qanun-layihəsi; b) Azərbaycan cümhuriyyəti hökumətinin qanunnamə və əmrnamələri məcmui nəşri xüsusunda qanun layihəsi; v) hökumət işləri idarəsi xüsusi şöbə ştatının smetası; q) hökumət işləri idarəsi xüsusi şöbəsinin ümumi məxaric smetası; d) Azərbaycan cümhuriyyəsi hökumət qanunnamə və əmrnamələri nəşri məxaric smetası; e) Maliyyə nəzarəti şurası haqqında qanun layihəsi. [816 - 817]

2) - Hökumət əndində xüsusi təftişat və təhqiqat komisyonu təşkili haqqında qanun layihəsi; 3) - Poylu stansiyonunda gömrük idarəsi təsisi haqqında qanun layihəsi; 3-cü qiraət, məruzəçi Abduləli bəy Əmircanov; 4) - Gömrük idarələrində anbar vergisi miqdarının artırılması haqqında qanun layihə-si 3-cü qiraət. Məruzəçi A. Əmircanov; 5) - Bakı gömrüyünə ştatının təzyiqi haqqında qanun layihəsi, 3-cü qiraət.

6 - Gürcüstan cümhuriyyətindəki Azərbaycan siyasi nümayəndəliyi cünbündə maliyyə nəzarəti agentliyinin təşkili haqqında qanun layihəsi. 3-cü qiraət; Məruzəçi A. Əmircanov; 7 -Ermənistan sərhəddində (Uzun Tala) gömrük idarəsi qarşısında gömrükxana təsisi haqqında qanun layihəsi. 3-cü qiraət. Məruzəçi Əmircanov; 8 - Xəzinə nəfinə buğ qazanlarından alınan verginin artırılması haqqında qanun layihəsi. Məruzəçi Abdulla bəy Əmircanov; 9 - Məclisi-müəssisan seçkisi haqqında qanun layihəsi. 3-cü qiraət. Məruzəçi M. Ə. Rəsulzadə; 10 - Sənaye şəhadətnaməli qiymətlərinin artırılması haqqında qanun layihəsi. Məruzəçi Şəfi bəy Rüstəmbəyov; 11 - Hüquq məhkəməsi nizamnaməsinin 91, 383, 328 ilə cəza məhkəməsinin 141, 834, 49, 438, 643, 114, 323 maddələrinin təğyir və təbdili haqqında qanun layihəsi. Məruzəçi: Mehdi bəy Hacınski; 12 - Dəniz boyu, idarələrində gəmi vergisi alınması haqqında qanun layihəsi, məruzəçi Abdulla bəy Əmircanov; 13 - Ermənistanda bulunan müsəlman qaçqınlarına yardım etməkdən ötrü smetadan xaric olaraq 3 milyon rüblə buraxılması haqqında qanun layihəsi. Məruzəçi Musa bəy Rəfiyev; 14 - Zəngəzur qəzası qaçqınlarına yardım etməkdən ötəri smetadan xaric olaraq 1.875.000 rüblə buraxılması haqqında qanun layihəsi. Məruzəçi Musa bəy Rəfiyev.

Daxil olmuş qanun layihələrindən birinci - 2, 3, 4, 5 və 6-cı bütün 6-sı da ləvayehi-qanuniyyə komisyonuna gedir. Ruznaməyi müzakiratda olan 2-ci məsələ ki, ibarət olsun hökumət indidə xüsusi təftişat və təhqiqat komisyonu təşkili haqqında qanun layihəsi və 10-cu məsələ ibarət olsun sənaye şəhadət-namələri qiymətlərinin artırılması haqqında qanun layihəsi, məruzəçiləri Şəfi bəy Rüstəmbəyovundur. Şəfi bəy xəstə olduğundan bu gün iclasa gəlməyə iqtidarı yoxdur, ona görə bu məsələlər bugünkü növbədən götürülür, bu gün baxılmayacaq. (Rusca). Əgər bu cür tərtibata etiraz yoxsa qəbul olunur. Növbədəki [817 - 818] məsələ Poylu stansiyonunda gömrük idarəsi təsisi haqqında qanun layihəsinin 3-cü qiraətidir. (Divani-rəyasətə təklif verilir).

Müzakirə olunan layiheyi-qanuniyyə münasibətilə keçən dəfə 2-ci qiraət əsnasında bir təklif varid olmuşdu. Bu təklifin məzmunu böylə idi ki, layiheyi-qanuniyyəni qəbul etməklə bərabər parlaman hökumətə təklif edir ki, qonşu millətlərlə gömrük məsələsi haqqında sazişə girsin. Çünki bu təkliflərin qanunun əsasına münasibəti yoxdur. Bu bir xahişdir. Ona görə maddələrlə səsə qoyulmaz. Çünki maddələrə dəxli yoxdur. Bu ancaq bir arzudur.

**Səməd ağa** - (yerindən rusca).

**Rəis** - Xahişi qanuna salmaq olmaz. Bu xüsusi bir arzudur, ancaq bəratilqövlə salarıq və hökumətə xəbər verərik. (Katibə). Mehdi bəy, oxuyun layihəni.

**Katib** - Layihənin birinci maddəsini oxuyur.

**Rəis** - Birinci maddə xüsusunda danışmaq istəyən yoxdur ki? Yoxsa, səsə qoyuram. Əvvəlinci maddəni kim qəbul edirsə, əlini qaldırsın. (Əllər qalxır). Əvvəlinci maddə əksəriyyətlə qəbul olunur, 2-ci maddəni oxuyun.

**Katib** - (2-ci maddəni oxuyur).[818 - 819]

**Rəis** - İkinci maddəni səsə qoyuram. Kim 2-ci maddəni qəbul edirsə, rica edirəm, əlini qaldırsın. (Əllər qalxır). 2-ci maddə əksəriyyət səs ilə qəbul olunur. 3-cü maddəni oxuyun.

**Katib** - 3-cü maddəni oxuyur.

**Rəis** - 3-cü maddəni səsə qoyuram. Kim qəbul edirsə, rica edirəm, əlini qaldırsın. (Əllər qalxır). 3-cü maddə əksəriyyət rəylə qəbul olunur. Layiheyi-qanuniyyəni tamamilə səsə qoyuram. Kim layiheyi-qanuniyyəyi tamamən qəbul edirsə, rica edirəm, əlini qaldırsın. (Əllər qalxır). Layiheyi-qanuniyyə tamamən qəbul olunur.

Növbədəki məsələ: Gömrük idarələrində anbar vergisi miqdarının artırılması haqqında qanun layihəsidir. (Katibə). Mehdi bəy, oxuyunuz!

**Katib** - Layihənin birinci maddəsini oxuyur.

**Rəis** — Əvvəlinci maddəni səsə qoyuram. Kim əvvəlinci maddəni qəbul edirsə, rica edirəm əlini qaldırsın. (Əllər qalxır). Əvvəlinci maddə əksəriyyət rəylə qəbul olunur. 2-ci maddəni oxuyunuz.

**Katib -** 2-ci maddəni oxuyur.

**Rəis -** 2-ci maddəni səsə qoyuram. Kim ikinci maddəni qəbul edirsə, rica edirəm əlini qaldırsın. (Əllər qalxır). 2-ci maddə əksəriyyət rəylə qəbul olunur. Layiheyi-qanuniyyəni tamamən səsə qoyuram. kim layiheyi-qanuniyyəni tamamən qəbul edirsə, rica edirəm əlini qaldırsın. (Əllər qalxır). Layiheyi-qanuniyyə tamamən əksəriyyət rəylə qəbul olunur. Növbədəki məsələ: Gürcüstan cümhuriyyətində ki, Azərbaycan siyasi nümayəndəliyi cümbündə maliyyə nəzarəti agentliyinin təşkili haqqındakı qanun layihəsinin 3-cü qiraətidir. (Katibə). Əvvəlinci maddəni oxuyunuz.

**Katib** - Layihənin əvvəlinci maddəsini oxuyur.

**Rəis** - Əvvəlinci maddəni səsə qoyuram. Kim qəbul edirsə əlini qaldırsın. (Əllər qalxır) Əvvəlinci maddə əksəriyyət rəylə qəbul olunur. 2-ci maddəni oxuyunuz.

**Katib** - İkinci maddəni oxuyur.

**Rəis -** 2-ci maddəni səsə qoyuram. Kim qəbul edirsə rica edirəm, əlini qaldırsın. (Əllər qalxır). 2-ci maddə əksəriyyət rəylə qəbul olunur. 3-cü maddəni oxuyunuz.

**Katib -** 3-cü maddəni oxuyur.

**Rəis -** 3-cü maddəni səsə qoyuram. Qəbul edənlərdən, rica edirəm, əlini qaldırsın. (Əllər qalxır). 3-cü maddə əksəriyyət ilə qəbul olunur. Layiheyi-qanuniyyəni tamamən səsə qoyuram. Kim layiheyi-qanuniyyəni tamamilə qəbul edirsə, rica edirəm əlini qaldırsın. (Əllər qalxır). Layiheyi-Qanuniyyə əksəriyyət ilə tamamən qəbul olunur. Növbədəki məsələ: Ermənistan sər-həddində Uzun Tala gömrük idarəsi qarşısında gömrükxana təsis haqqındakı qanun layihəsinin 3-cü qiraətidir. (Katibə) Mehdi bəy! Oxuyunuz!

**Katib** - Layihənin birinci maddəsini oxuyur.

**Rəis** - Əvvəlinci maddəni səsə qoyuram. (Rusca). Kim qəbul edirsə, rica edirəm əlini qaldırsın. (Əllər qalxır). Əvvəlinci maddə əksəriyyət rəylə qəbul olunur. 2-ci maddəni oxuyun.

**Katib -** 2-ci maddəni oxuyur.

**Rəis -** 2-ci maddəni səsə qoyuram. Kim qəbul edirsə, rica edirəm, əlini qaldırsın. (Əllər qalxır). 2-ci maddə əksəriyyət ilə qəbul olunur. 3-cü maddəni oxuyunuz.

**Katib -** 3-cü maddəni oxuyur. [819 - 820]

**Rəis** - Üçüncü maddəni səsə qoyuram. Kim 3-cü maddəni qəbul edirsə, rica edirəm əlini qaldırsın. (Əllər qalxır). 3-cü maddə əksəriyyət rəylə qəbul olunur. 4-cü maddəni oxuyunuz.

**Katib -** 4-cü maddəni oxuyur.

**Rəis** - 4-cü maddəni səsə qoyuram. Kim qəbul edirsə, rica edirəm əlini qaldırsın. (Əllər qalxır). Əksəriyyət ilə 4-cü maddə qəbul olunur. Laiheyi-qanuniyyəni tamamən səsə qoyuram. Kim layiheyi-qanuniyyəni tamamilə qəbul edirsə rica edirəm əlini qaldırsın. (Əllər qalxır). Layiheyi-qanuniyyə əksəriyyət rəylə tamamən qəbul olunur. Növbədəki məsələ xəzinə nəfinə buğ qazanlarından alınan verginin artırılması haqqında qanun layihəsidir. Məruzəçi Abdulla bəy Əmircanov.

**Əmircanov Abdulla bəy**-Buxar qazanlarından ötrü 1898-ci ildə vergi qanunu qərar olunubdur. 1914-cü ildən bəri cəmi vergilər neçə dəfə artırılıb, fəqət buxar qazanlarından ötrü köhnə qərar üzrə qalıb. Başqa şeylərin üzərinə bir çox xərclər gəlib, naloqlar artırılıb, yalnız buxar qazanlarının vergiləri artırılmayıbdır. Ona görə ticarət və sənaye naziri böylə bir qanun layihəsi göndərib, onların da beş dəfə artırılması lazım görülmüşdür. Cəmi mədən dairələrini çıxandan sonra Bakı ətrafında 1100 buxar qazanı var. Bunların hərəsindən bu vaxtadək alınırdı 37 manat. Gəlirin yekunu bu surətdə olur. 4700 manat, indi onu beş dəfə artırmaq məqsədilə 85 manat əlavə edilir. Buxar qazanlarının hamısı işdə olmazda, yüzdə səksəni hazırda işdədir. Bu xüsusda fabrika inspektorundan məlumat alınmışdır. Fəqət maliyyə-büdcə komisyonu hər şeyin artmasına nisbətən bunlarında beş dəfə deyil, on dəfə artmasını qəbul edir. Ona binaən hər qazandan alınır üç yüz yetmiş manat ki, qazanlarda 1100. Bu surətdə hamısı il-də edir 407000 manat. Buna binaən layiheyi-qanuniyyə parlamana ərz olunur. (Oxuyur).

**Rəis** - Layiheyi-qanuniyyənin əsasları üzrə kim danışmaq istərdi. Danışmaq istəyən yoxsa, onda layiheyi-qanuniyyənin ikinci qiraətinə keçməyi səsə qoyacağam.

**Səslər** - Səsə qoyunuz.

**Rəis** - Səsə qoya bilməyəcəyəm. Kvorum yoxdur. İki adama müntəzirəm, gediblər çağırsınlar. Layiheyi-qanuniyyənin ikinci qiraətini səsə qoyuram. (Rusca). Kim qəbul edirsə, rica [820 - 821] edirəm əlini qaldırsın. (Əllər qalxır). Əksəriyyət rəylə ikinci qiraətinə keçmək qərara alınır. (Oxuyunuz).

**Katib** — Oxuyur.

**Rəis** - Əvvəlinci maddə xüsusunda kim danışmaq istərdi. Yoxsa səsə qoyuram. Üç hissədən ibarət olan birinci maddəni qeydlə bərabər səsə qoyuram. Kim qəbul edirsə rica edirəm əlini qaldırsın. (Əllər qalxır). Əksəriyyət ilə əvvəlinci maddə qeydlə bərabər qəbul olunur.

**Katib -** 2-ci maddəni oxuyur.

**Rəis -** 2-ci maddəni səsə qoyuram. Kim qəbul edirsə, rica edirəm əlini qaldırsın. 2-ci maddə əksəriyyət ilə qəbul olunur. 3-cü maddəni oxuyunuz.

**Katib** - Oxuyur.

**Rəis -** 3-cü maddəni səsə qoyuram. Kim qəbul edirsə, rica edirəm, əlini qaldırsın. (Əllər qalxır). 3-cü maddə əksəriyyət səs ilə qəbul olunur. Layiheyi-qanuniyyənin 3-cü qiraəti kələn iclasa qalır. Növbədəki məsələ: Məclisi-müəssisan seçkiləri haqqında qanun layihəsinin 3-cü qiraətidir. Çünki, məruzəçi Məmməd Əmin Rəsulzadə məzuniyyətdədir, müsaidəniz olsa...

**Səslər** - Qalsın..., qalsın...

**Rəis** – Qalsın?. Rica edirəm müsaidəniz olsa bu gün baxaq.

**Səslər** - Baxaq..., baxaq..., təxirə salmaq haqqında danışmaq olar?

**Rəis** - Təxir haqqında danışmaq olmaz. Oxuyunuz.

**Katib** - Oxuyur.

**Rəis** - Behbud xan, rica edirəm getməyəsiniz, səsə qoyacağam, Kvorum olmaz.

**Rəis** - Mən möhtərəm üzvlərdən rica edirəm ki, lamhala bir saat burada otursunlar, yoxsa vaxtımızın çoxusu onları çağırmağa sərf olur. 1-ci maddə xüsusunda kim danışmaq istərdi, yoxsa səsə qoyuram. Kim birinci maddəni qəbul edirsə rica edirəm əlini qaldırsın. Birinci maddə müttəhidül - rəy qəbul olunur. 2-cini oxuyunuz.

**Katib -** 2-ci maddəni oxuyur.

**Rəis -** 2-çi maddəni səsə qoyuram, kim qəbul edirsə rica edirəm əlini qaldırsın. 2-ci maddə müddəhidül - rəy qəbul olunur. 3-cü maddəni oxuyunuz.

**Katib -** 3-cü maddəni oxuyur. [821 - 822]

**Rəis** - 3-cü maddəni səsə qoyuram. Bunu təshihlə səsə qoyacağam. Keçən dəfə 23 yaş əvəzində təshih olaraq 20 yaş qəbul olunmuşdu. Bunu təshihlə bərabər səsə qoyacağam. Kim qəbul edirsə, rica edirəm əl qaldırsın. 3-cü maddə müttəhidül - rəy qəbul olunur. 4-cü maddəni oxuyunuz.

**Katib -** 4-cü maddəni oxuyur.

**Rəis** - Təshihi oxuyunuz.

**Katib** — Oxudum.

**Rəis** - 2 təshih var.

**Katib** - İkisini də oxumuşam.

**Rəis** - Buna iki təshih var: biri Mehdi bəy Hacınski tərəfindən, bir də Xocayev tərəfindən. Keçən dəfə bu maddəyə baxılanda Xocayevin təklifi qəbul olmamışdı, Mehdi bəy Hacınskinin Təklifi qəbul olunmuşdu. Parlaman üzvü Xocayevin təshihi belədir. (Oxuyur). Dəli və divanəlik xəstəliyindən dolayı qəyyumluq altında bulunan adamlar seçkidə iştirak edəməzlər. Bunu səsə qoyacağam. Mehdi bəy Hacınskinin təklifi böylədir. (Oxuyur). Əşxas kəlməsindən sonra, öylə də həm lal və həm kar olanlar.

Parlaman üzvü Xocayevin təshihini səsə qoyuram. Kim qəbul edirsə əlini qaldırsın. Təshih əksəriyyət rəy ilə qəbul edilməyir. Onda maddəni keçən dəfə qəbul olunan təshih ilə səsə qoyuram. Kim qəbul edirsə, rica edirəm əlini qaldırsın. 4-cü maddə əksəriyyət rəylə qəbul olunur. 5-ci maddəni oxuyunuz.

**Katib -** 5-ci maddəni oxuyur.

**Rəis -** 5-ci maddəyə qanunun 2-ci qiraətində Xocayev tərə-findən maddənin axırıncı hissəsinə böylə bir təshih təklif olunmuşdu. (Oxuyur). Qanun gücünə minməmiş məhkəmə qərardadı əsası ilə suiniyyət sahibi müflis tələqqi edilmişsınmış borclular. 1) Cinayət məhkəməsinin qərarı ilə təyin edilmiş cəzanı çəkdikdən 7 il sonrayadək. 2) cinayət məhkəməsinin qərarilə müddəiəl-ümumilik işinə-xitam çəkilsə və yainki bəraət verilənədək. Bu təshih keçən dəfə qəbul edilməmişdi. Bu təshihi səsə qoyuram. Təshihi kim qəbul edirsə, rica edirəm əl qaldırsın. Kim bunun əleyhinədir? Rica edirəm fikir verəsiniz, çünki qanunun əsasları səsə qoyulur. Kim bunun əleyhinədir. Bağışlayınız, müsaidəniz ilə Məmmədbəyov və Qara bəy, xahiş edirəm xüsusi söhbət etməyəsiniz, çünki qanunun əsasları səsə qoyulur. Keçən dəfə Xocayev tərəfində [822 - 823] böylə bir təshih təklif edilmişdi; (Oxuyur). Qanun gücünə minmiş məhkəmə qərarda da əsasilə sui-niyyət sahibi müflis tələqqi edilmiş sınmış borclular. 1) Cinayət məhkəməsinin qərarı ilə təyin edilmiş cəzanı çəkdikdən 7 il sonrayadək yaxud; q) Cinayət məhkəməsinin qəti qərarı ilə müddəyi - əl-ümumilik işinə xətimə çəkilsə və yainki bəraət verilənədək.

Bu təklif keçən dəfə parlaman tərəfindən rədd edilmişdi. Şimdi maddəni səsə qoymadan əvvəl haman təshihi səsə qoyuram. Kim qəbul edirsə rica edirəm əlini qaldırsın. Təshih əksəriyyət rəylə qəbul olmayır. 5-ci maddəni keçən dəfə qəbul edilən kimi səsə qoyuram. Kim qəbul edirsə, rica edirəm əlini qaldırsın. 5-ci maddə əksəriyyət rəylə qəbul olunur. 6-cı maddəni oxuyunuz.

**Katib -** 6-cı maddəni oxuyur.

**Rəis -** 6-cı maddəni səsə qoyuram, kim qəbul edirsə, rica edirəm, əlini qaldırsın. (Əllər qalxır). 6-cı maddə əksəriyyət rəylə qəbul edilir. 7-ci maddəni oxuyun.

**Katib -** 7-ci maddəni oxuyur.

**Rəis** - 7-ci maddəni səsə qoyuram, kim qəbul edirsə, rica edirəm əlini qaldırsın. (Əllər qalxır). 7-ci maddə əksəriyyət rəylə qəbul edilir. 8-cini oxuyun.

**Katib -** 8-ci maddəni oxuyur.

**Rəis -** 8-ci maddəyə keçən səfər 2-ci qiraəti əsnasında 2 təshih təklif olunmuşdur. Birinci Səmədağa Ağamalı oğlu tərəfindən, biri də Papyan tərəfindən. Səmədağa Ağamalı oğlunun təklifi böylə idi ki, 8-ci maddənin son 6 sətri ixrac olunsun. Bu təklif keçən dəfə qəbul edilməmişdi. Papyanın təklifi böylədir ki, seçki siyahısına daxil olunub intixab vaxtından hüququnu qeyd etmiş şəxslər 4 və 5-ci maddələrə görə seçki hüququndan məhrum edilirlər. Bu təshih səsə qoyulub parlaman tərəfindən qəbul edilmişdi. (Rusca). Eyni surətdə səsə qoyulub 8-ci maddəni Papyanın parlaman tərəfindən qəbul olunmuş təshihilə səsə qoyuram. (Səslər). Ağamalı oğlunun təklifi də keçən dəfə qəbul olunmuşdu; səsə qoyuram. Papyanın təklifilə bərabər. Kim səkkizinci maddəni ikinci qiraətdə parlaman qəbul etdiyi surətdə qəbul etdiyi kimi qəbul edirsə, rica edirəm əlini qaldırsın. (Əllər qalxır). Əksəriyyət rəylə 8-ci maddə Papyanın təshihilə keçir. Müsaidə versəniz. Layihənin 2-ci babilə iktifa edib növbədəki başqa məsələlərə [823 - 824] keçirik. Nakaz da buna yol verir. Növbədəki məsələyə keçmədən əvvəl 5 dəqiqəlik tənəffüs elan edirəm. Tənəffüs elan edilir.

### Tənəffüsdən sonra

**Rəis** - İclas davam edir. Növbədəki 11-ci layiheyi-qanuniyyədir. Məruzəçi Mehdi bəy Hacınski.

**Mehdi bəy Hacınski** - Möhtərəm məbuslar! Ədliyyə naziri bizə bir qanun layihəsi göndərib, yazır ki, axır zamanlarda gündən-günə məhkəmələrdə işlər təxirə düşür. Səbəbi budur ki, şahidlər, mütəxəssislər və bəzi şəxslər vaxtında işə gəlməyirlər. Bunun qarşısını almaq üçün əvvəldən bir cərimə qoyulubdur. Lakin cərimə azdır. On manatdır. Ona görə deyilir ki, bundan nə olacaq, on manat cərimə verib işə gəlməyir. Bunun üçün iş qalır. Buna görə ədliyyə naziri qanun layihəsində bu cərimələrin artırılmasını xahiş edir. Layehi-qanuniyyə komisyonu baxıb, bununla razı olub. Ədliyyə nazirinin layihəsində deyilir ki, şahidlər və mütəxəssislər sülh məhkəməsinə gəlməyən şəxslər, əkər onların yaşadıqları yerlər 5 verstdən uzaq olmazsa onların cərimələrini artırıb 2 manat 50 qəpikdən iki yüz manat cərimə edilsinlər. İkinci kərə ye-nə məhkəmə işinə gəlməyəndə cərimə edilsinlər. Üçüncü dəfə onları zor ilə. Əgər bir mütəxəssis, bir şahid şəhərdə ola, onlar müəyyən vaxtda gəlməsələr, birinci dəfə onlar 5 manatdan iki yüz manata qədər cərimə edilsinlər.

Cinayət qanun məhkəməsində müqəssir dəlməzsə onun barə-sində sadir olmuş əqd öz gücündə qalsın. Yəni cinayət işlə-rində lazım olan şəxslər əvvəlinci dəfə cərimə, ikinci dəfə yenə cərimə, üçüncü dəfə zorla məhkəməyə gətirilsinlər.

Cinayət işlərində müstəntiq bir şahidi çağırarsa, o gəlməzsə, 500 manat cərimə edilsin. Əyər gəlməsə zorla gətirilsin. Əyər nahiyə məhkəməsi idarəsinə şəhid gəlməsə min rubladək ziyadə cərimə olsun. Əgər o şahidin gəlməməsilə iş təxirə düşüb və bir ziyan olarsa, onun boynuna kəsilsin. Ədliyyə məhkəməsində mütəxəssislər işə gəlməsə 250 manat cərimə edilməsini maliyyə nəzarəti təklif edir. Bu qanun ədliyyə nəzarəti tərəfindən təqdim edilib, ləvayehi-qanuniyyə komisyonu da qəbul eyləyib, parlamandan rica edir ki, təklifi qəbul eyləsin.

**Rəis** - Kim danışmaq istəyir.

**Səslər** - Oxusun, layihəni üzündən oxusun.

**Rəis** - Layihəni maddə-maddə oxuyunuz.

**Katib** - Oxuyur.

**Rəis** - Layihənin əsasları üzərində kim danışmaq istərdi. Yoxsa 2-ci qiraətinə keçmək məsələsini səsə qoyuram, kim qəbul edirsə, rica edirəm əlini qaldırsın. 2-ci qiraətinə keçmək qəbul olunur. (Mehdi bəyə) Oxuyunuz.

**Katib** - Oxuyur.

**Rəis** - Mehdi bəy, siz maddəbəmaddə oxuyunuz. 91-ci maddədəndir. Müqəddimə lazım deyil. 91-ci maddədən başlayınız.

**Katib** - 91-ci maddəni oxuyur.

**Rəis** - Bu 91-ci maddənin söylənən şəkildə təğyir xüsusunda kim danışmaq istərdi. Etiraz yoxsa qəbul olunur. 383-cü maddəni oxuyunuz.

**Katib** - 383-cü maddəni oxuyur.

**Rəis** - 383-cü maddəni bu cür təğyirinə etiraz yoxsa, bu da qəbul olur. 528-ci maddəni oxuyunuz.

**Katib** - 528-ci maddəni oxuyur.

**Rəis** - 528-ci maddəyə etiraz yoxsa qəbul olunur.

**Katib** - 141-ci maddəni oxuyur.

**Rəis** - 141-ci maddə xüsusunda kim danışmaq istəyir. Etiraz yoxsa, bu maddə də qəbul olunur.

**Katib** - 834-cü maddəni oxuyur.
**Rəis** - Bu maddə xüsusunda etiraz yoxdur, bu da qəbul olunur.
**Katib** - 49-cu maddəni oxuyur.
**Rəis** - 49-cu maddə xüsusunda etiraz yoxsa, bu da qəbul olunur.
**Katib** - 438-ci maddəni oxuyur.
**Rəis** - 438-ci maddə xüsusunda etiraz yoxdur, qəbul olunur.
**Katib** - 643-cü maddəni oxuyur.
**Rəis** - 643-cü maddəyə etiraz yoxsa qəbul olunur.
**Soltan Məcid** (yerindən) - Bu barədə bir müsaidə veriniz.
**Rəis** - Nə buyurursunuz.
**Soltan Məcid** - Bu maddə barəsində danışmaq istəyirəm.
**Rəis** — Buyurunuz! Söz Soltan Məcid Qənizadənindir.

**Soltan Məcid** - Bu maddənin cəriməsi böyük olur. Cərimə olunanın üstünə cərimədən başqa məhkəmə xərci də gəlir. [825 - 826] İkinci dəfə şahid gəlməsə üstünə min manata qədər cərimədən başqa məhkəmədə olan məhkəmə xərcləri də gəlir. Əvvəla böylə işlər olsun ki, böyük olsun. Məsəl üçün para məsələsi olsun. Cərimə çox ola bilər. Amma şahidi böylə cərimə eyləmək naməlum çıxır. Məlum deyil ki, olunan cəriməyə şahidin gücü çatır, çatmır. Tutaq ki, çatsa da o qədəri almaq olmaz, çox çoxdur. İkinci dəfə çox cərimə olsun 1000 azdır. 2 min olsun, hər halda müəyyən olsun.

**Rəis** - Kim daha bu barədə danışmaq istərdi. Daha bu barədə danışmaq istəyən yoxdur. Layihə təklif edildiyi kimi səsə qoyuram. Son söz məruzəçinindir.

**Mehdi bəy Hacınski** - Komisyon bu təklifə razı olar. Özünüz bilirsiniz. Əksər ovqat şahidlər gəlməyib, məhkəmə işinə müşkülat törədirlər. Çoxusu qəsdən gəlməyirlər ki, məsələn 100 manat cərimə verəcəyəm, işlər də təxirə düşər. Ona görə cərimə ağır olmalıdır ki, ondan qorxub gəlsinlər. Bu məsələyə komisyonda çox fikir verildi və hər tərəfli diqqət edilib və nəzərə alındı ki, şahidlər gəlməyirlər, işlər təxirə düşür, çox zərərli olur və aradan müşkülat çıxır. Ona görə komisyon bu təklifə razı ola bilməz.

**Soltan Məcid** - Müəyyən deyil, mən təklif eyləmişəm, müəyyən olsun.

**Rəis** - Mən təklifi səsə qoya bilmərəm. Yazmışsınız, cərimənin qədəri müəyyən olsun. Cərimənin qədəri müəyyəndir.

**Soltan Məcid** (yerindən) - Müəyyən deyil.

**Rəis** - Müəyyəndir. Min manatdan artıq olmaz. Bu barədə söz verək? Söz verə bilmərəm, çünki son söz məruzəçinin idi. Təklifinizi müəyyən surətdə yazın verin. (Soltan Məcid təklifini yazıb verir).

**Rəis** - Soltan Məcid Qənizadə cənablarının təklifi belədir. "Cəriməyə kifayət edib, zərərləri tələb etmək olmasın. (Ruscaya tərcümə edir). Bu təklifi səsə qoyuram. Kim Soltan Məcid Qənizadənin təklifini qəbul edirsə rica edirəm əlini qaldırsın. (Əllər qalxır). Kim əleyhinədir? (Əllər qalxır) .Kim səs verməyib. (Əllər qalxır). Rica edirəm səsdə iştirak edəsiniz. Dübarə səsə qoyuram. Təshihi oxudum. Yenidən oxuyuram. (Oxuyur). Əslən maddənin təshihi böylədir. Kimsə üzrsüz şahid gəlməzsə min manata qədər cərimə edilir. Şahidin gəlməməsi [826 - 827] nəticəsi olaraq məhkəmənin iclası baş tutmazsa məhkəmə xərci də ondan alınır. Kim Soltanməcidin təklifini qəbul edirsə rica edirəm əlini qaldırsın. (Əllər qalxır). Kim əleyhinədir. (Əllər qalxır). Kim səs verməyib. (Əllər qalxır). Lehinə 14, əleyhinə 29, səs verməyən 4. Əksəriyyət rəylə təklif qəbul olunmayır. 643-cü maddəni layihə təklif etdiyi kimi səsə qoyuram. Kim qəbul edirsə, rica edirəm əlini qaldırsın. (Əllər qalxır). Əksəriyyət rəylə təklif qəbul olunur.

**Katib** - 114-cü fəsli oxuyur.
**Rəis** - 114-cü maddəyə etiraz yoxdursa, qəbul edilir. 323-cü maddəni oxuyun.
**Katib** - 323-cü maddəni oxuyur.

**Rəis** - 323-cü maddə xüsusunda etiraz yoxsa qəbul olunur. Etiraz yoxdur, qəbul olunur. Layihənin 3-cü qiraəti qalır gələn iclasa. Növbədəki məsələ dəniz boyu idarələrində gəmi vergisi alınması haqqında qanun layihəsidir. Məruzəçi Əbdüləli bəy Əmircanovdır.

**Əmircanov** - Keçmişdə bir qanun var idi ki, xaricdən Rusiya sularına gəlib və çıxan gəmilərin tonuna dövlət xəzinəsi nəfinə 10 qəpik alınırdı. Gəmilərdən bir parası həmin vergidən azad olunurdu. O cümlədən su altından gedən teleqraf xətlərinə baxıcı gəmilər var onlardan vergi alınmazdı. Xüsusi hökumət gəmiləri vardı ki, hökumət işlərinə baxırdı onlardanda alınmazdı. Sabiq hökumət bəhri Xəzəri özününkü hesab edirdi. Ona görə bəhri-Xəzər gəmilərindən bu vergini almayırdı. Şimdi bəhri-xəzərin dörd tərəfi xarici dövlət hesab olunur. Nazirin təqdim etdiyi layiheyi-qanuniyyədə Bakıdan xaricə çıxan və gələn gəmilərin hər tonuna 10 qəpik deyil 20 qəpik alınması təklif edilir. Tonda 61 putdur. Maliyyə-büdcə komisyonu bu layihəni qəbul edirkən 20 qəpiyi az görmuşdir, çünki gəmilərin sərnişinlərindən və yüklərdən aldığı məbləğ artmışdır. Məsələn, buradan Salyana 200 manata gedirlər. Mallardan putuna 8-9 manat kirayə alırlar. Gəmilər indi Hacıtərxan yaxınına gedirlər. Maliyyə-büdcə komisyonu qəbul eylədiyi gəmilərin hər tonundan 20 qəpik deyil, 50 qəpik alınsın. Bakıda olan gəmilərin 10-dan 9 payı işdədir ki, buna görə ildə yeddi milyon ton [yük] daşıyan gəmilər Bakıdan çıxıb Bakıya

gəlir. Hər bir tondan 50 qəpik vergi almağı [827 - 828] maliyyə-büdcə komisyonu qəbul etdi. Bu layiheyi-qanuniyyə şimdilik təqdim edilir və qəbulu xahiş olunur.

Qanun layihəsi böylədir. (Oxuyur). Əhməd bəy mövqei-katibatı gəlir.

İş burasındadır ki, layihənin bir fəslinə görə o gəmilər ki, iyirmi tondan az idi onlardan bu vaxta kimi vergi alınmayır. Maliyyə nazirinin qərarına görə iyirmi ton, on ton edilib. Yəni on tondan əksik gəmilərdən vergi alınmayacaqdır. Deməк xırda gəmilərdən 600-700 put. (Rusca danışır).

**Rəis** - Qanunun əsasları üzrə kim danışmaq istərdi? Danışmaq istəyən yoxdur. Onda 2-ci qiraətə keçilir. (Kyüsterə) Kediniz. Çağırınız adamları, koridorda söhbətdədirlər.

**Səslər** - Kvorum yoxmu?

**Rəis** - Kvorum yoxdur, səsə qoya bilmərəm.

**Səslər** - Kvorum var indi, 41 adam var.

**Rəis** - Mən rica edirəm. otaqlarda əyləşiblər, gəlməyən adamları dəfəatla çağırtdırıram. Burada işimiz vardır, deyib gəlmirlər. İndi kvorum düzəldi. 2-ci qiraətə keçməyə etiraz yoxdur ki? Əhməd bəy oxuyunuz.

**Əhməd bəy** - Oxuyur.

**Rəis** - Əvvəlinci maddə xüsusunda kim danışmaq istər? Etiraz yoxsa qəbul olunur.

**Katib -** 2-ci maddəni oxuyur.

**Rəis -** 2-ci maddə xüsusunda kim danışmaq istər? Etiraz yoxsa 2-ci maddə qəbul olunur.

**Katib -** 3-cü maddəni oxuyur.

**Rəis -** 3-cü maddəyə etiraz yoxdur? Yoxsa, o da qəbul olunur.

**Katib** - 4-cü maddəni oxuyur.

**Rəis** - 4-cü maddəyə etiraz yoxsa o da qəbul olunur. Layihənin 3-cü qiraəti qalır gələn iclasa. Müsaidə ediniz iclası qapayam.

**Səslər** - Rica edirik.

**Rəfiyev -** Xahiş edirəm o biri məsələyə də bu gün baxılsın.

**Rəis** - Etiraz yoxsa, iclas davam edir. Növbədəki məsələ Ermənistanda olan qaçqınlar üçün 3 milyon manat pul buraxılması haqqında qanun layihəsidir. Məruzəçi Musa bəy Rəfiyevdir.

**Musa bəy Rəfiyev -** Möhtərəm məbuslar.

**Səslər** - Otloji, qalsın kələn dəfəyə - səsə qoyunuz. [828 - 829]

**Rəis** - İstəsəniz səsə qoyuram. Mən təklif etdim, məruzəçi razı olmadı, səsə qoyuram.

**Musa bəy Rəfiyev -** Burada müzakirəyə qoyulan iki qanun layihəsidir. Biri Ermənistandakı aclara və biri də Zəngəzurdakı aclara müavinətdir. Əgər bunu bu gün müzakirə etməsəniz, onların işi dəxi də çətin olacaq, onlar bir aydan ziyadədir sizi gözləyirlər. hər gah siz bir saat ac qalmağa davam etməzsinizsə, onda onların halını nəzərə alın. (Alqış).

**Rəis** - Söz Mahmudov Mustafanındır. Siz əleyhinə danışacaqsınız.

**Mahmudov** - Burada təklif var ki, məsələ qalsın. Bu ondan ötəri deyilmir ki, vaxt təngdir. Heç kim bu işin ləngə düşməsini istəməz. Burada güclü məbləğ istənilir. O məbləğdə özgə hökumət cəmaətinə verəcək. Bizim fraksiyada müzakirə olmayıbdır. Bilməyirik ki, nədən ötrü, bu tələsikdə özgə hökumət idarəsində olan adamlara kömək olunsun vəhalanki o hökumətlərin adamları bizdə də var, biz onları özümüzə qardaş hesab edirik və onlara kömək edirik. Buna görə təklif edirik: bu məsələ qalsın kələn iclasda müzakirə edək. Bir də deyirlər Zəngəzurda acdırlar. Niyə gərək oralarda ac olsunlar. Zəngəzurda aç ola bilməz. Orada hökumət aclara kömək edir. Biz təklif edirik ki, qalsın növbədəki iclasa.

**Rəis** - Təklif var ki, məsələ qalsın kələn iclasa. Kim bu təklifi qəbul edirsə, xahiş edirəm əlini qaldırsın. Təklif əksəriyyət rəylə qəbul olunur. Bunun ilə iclası qapayıram.

İclas qapanır saat 2-45 dəqiqədə

**Arxiv, f. 895, siy. 1, iş 100, vər. 107-144.**

**№ 55**

**Əlli beşinci iclas**

*14 iyul 1919-cu il.*

**Sədr** - Həsən bəy Ağayev

**Katib** - Əhməd Cövdət. İclas açılır saat 12-45 dəqiqədə

**Sədr** - İclas açılır. Bugünkü müzakirati-yömiyyə böylə tərtib olunub: [829 - 830]

1) Daxil olmuş kağızlar: a) Zakatala şəhərinə sokaqları və bəndləri və bələdiyyə evinin təmiri üçün faizsiz olaraq on il müddətinə yetmiş min manat borcun buraxılması haqqında qanun layihəsi; b) A. Dubrovskinin parlamandan çıxması haqqında, t) Bəhram bəy Vəzirovun itsedası.

2 - Parlaman sədrinə ikinci müavin intixabı; 3 - Xəzinə nəfinə buğ qazanlarından alınan verginin artırılması haqqında qanun layihəsi, 3-cü qiraət, (Məruzəçi Əmircanov); 4 - Məclisi-Müəssisan seçkiləri haqqında qanun layihəsi (3-cü qiraət), məruzəçi Məmməd Əmin Rəsulzadə); 5 Hüquq məhkəməsi Nizamnaməsinin 91, 383, 528-ilə cəza mühakiməsi Nizamnaməsinin 141, 834, 96, 438, 642, 114, 32 maddələrinin təqyir və təbdili haqqında qanun layihəsi, 3-cü qiraət, (Məruzəçi Mehdi bəy Hacınski); 6 - Dəniz yolu idarələrində gəmi vergisi alınması haqqında qanun layihəsi, 3-cü qiraət, (Məruzəçi Əmircanov); 7 - hökumət əndində xüsusi təftişat və təhqiqat komisyonunın təşkili haqqında qanun layihəsi (Məruzəçi Şəfi bəy Rüstəməyov); 8 - Sənaye şəhadətnamələri qiymətlərinin artırılması haqqında qanun layihəsi (Məruzəçi Şəfi bəy Rüstəmbəyov); 9 - Nazir müavinlərinin yeni maaş tərtibi haqqında qanun layihəsi; 10 - Şəhərlər nəfinə idxal və ixrac olunan yüklərdən alınan müvəqqəti vergi Nizamnaməsi haqqında qanun layihəsi; 11 - Hökumətin Qarabağ hadisəsi xüsusunda əxbarı (növbədən götürülür, bəzi səbəblərə görə natamam olduğundan gələcək iclasa qalır); 12 - Ermənistanda bulunan müsəlman qaçqınlarına yardım etməkdən ötəri smetadan xaric olaraq üç milyon rüblə buraxılmaq haqqında qanun layihəsi (Məruzəçi Əmircanov); 13 - Zəngəzur qaçqınlarına yardım etməkdən ötəri smetadan xaric olaraq 18.750.000 manat buraxılması haqqında qanun layihəsi (Məruzəçi Əmircanov).

Bu cür tərtibata etiraz yoxsa, qəbul olunsun. Musa bəy Rəfiyev.

**Musa bəy** - Keçən iclasda müzakirə olunmamış və baxılmamış iki məsələ qaldı. Onlar ən ağır məsələlər idi. Birisi Ermənistanda müsəlman qaçqınlarına 3 milyon rüblə buraxılması, o birisi də Zəngəzur müsəlmanlarına pul buraxılması haqqında idi. Bu günki ruznamədə müzakiratda yenə ən axıra salınmışdır. Mən böylə fikir edirəm ki, bu iki məsələ keçən iclasdan qaldığı üçün əvvələ kələ idi. Mən bu məsələni qaldırmaz [830 - 831] idim, əgər təcili almasa idi. Təklif edirəm əvvəlinci beş qanun layihələrinin üçüncü qiraətindən sonra bu iki məsələ qoyulsun.

Demək 11 və 13-cü maddələr gəlsin olsun 7 və 8-ci.

**Sədr** - 12 və 13 olur. 10-cu məsələ Qarabağ məsələsi olduğu üçün hökumət geri götürür.

**Musa bəy** - Xeyir, onda 10 və 11-ci məsələlər olar.

**Sədr** - 12 və 13 təklifinə etiraz yoxsa bu qədər? Etiraz yoxsa qəbul olunur. Axırıncı iki layihələr çəkilir qabağa, 7 və 8 olur. Buna etiraz yoxdur? Onda 6-cıdan sonra gəlir 12 və 13-cü məsələlər. O biriləri də öz sırasilə gəlir.

**Bəhram bəy Vəzirov** - Ərazisində məzuniyyətin uzanmasını rica edir. İş buradadır ki, ona bir ay məzuniyyət verilmiş-di. İyunun 28-də onun məzuniyyətinin vaxtı tamam idi. İndi ərizəsilə bərabər birdə şəhadətnamə göndərib. Məlum olur ki, tif xəstəliyinə mübtəladır. Məzuniyyətinin nə qədər artırılması barədə vaxtda göstərməmişdir. Deyir ki, yaxşı olanadək. Dünəndə ay yarım tamamdır. İyulun 13-də. Nakazın 179-cu maddəsinə görə bir ilin müddətində bir üzvə bir ay yarımdan artıq məzuniyyət vermək olmaz. Buna görə divani-parlamana təqdim etməyi münasib bildi. Təklif edirdi ki, iyulun axırına kimi məzuniyyəti uzansın. Buna etiraz yoxdurmu? Etiraz yoxdur. Deməli Bəhram bəy Vəzirovun məzuniyyəti xəstə olduğuna görə iyulun axırına kimi uzanır. Sonra parlaman üzvü Aleksandr Dubrovskidən rusca böylə bir ərizə varid olub. (Oxuyur). Bəzi səbəblərə görə (rusca oxuyur).

Bunu bərayi-məlumat parlamana xəbər verirəm. Deməli, bu gündən Dubrovski parlamandan xaric hesab olunur. (Rusca). Sonra bir teleqram da parlaman üzvü Abdulla bəy Əfəndizadədəndir. Bu da məzuniyyətinin bir az uzadılmasını rica edir. İş buradadır ki, onun da məzuniyyəti bir ay yarımdan ziyadə olduğuna görə parlamana təqdim ediyoriz. Nakaz ilə bir ilin ərzində üzvlərə bir ay yarımdan artıq məzuniyyət verilməyir. Abdulla bəy fevralın 25-də üç həftə məzuniyyətə getmişdi. Vaxtı tamamından sonra 18 gün də gecikdi. Bu edir 47 gün bunun məzuniyyəti ay yarımdan artıqdır. İndi yazır xəstəyəm, məzuniyyətinin uzanmasını rica edir. Yazmışdı qızdırıram. Mərkümüş vurdururam. Vaxt müəyyən deyil, nə vaxta kimi vuracaqdır. Bunun üçün vaxt müəyyən edilmədiyindən divani-rəyasət [831 - 832] məzuniyyətini uzatmağı lazım bilmədi. Çünki müalicəni gəlib Bakıda da edə bilər. Bu barədə özünə parlaman tərəfindən və fraksiyaları tərəfindən məlum edilmişdir. Bunun müqabilində Abdulla bəydən uzun teleqraf gəlibdir (rusca) nə cür yazıb böylə oxuyacağam. (Rusca oxuyur).

Bunu borc bilirəm deməyə ki bayram ayın 23-dən olacaqdı. Lakin sonra ayın iyirmi yeddisindən pererıv oldu. O isə ayın 23-dən gedib bir həftə arada fasilə vardı. Çünki özü xəstədir. Yolda onu qarət etmişdilər, cürbəcür müsibətlər görmüşdür. Fasilə hesab olmadı tətil qurtaran kimi ayın 5-də burada olmalıydı. İş buradadır ki, heç kim bu qanunla iş görməmişdir. Abdulla bəyin bu teleqramı göndərməsinə heç lüzum yoxdur və bütün fraksiyalara da teleqraf göndərməsi icab etməzdi. Qardaşov tərəfindən nə göndərilibdir bilmirəm. Abdulla bəyə bu il 2 dəfə otpusk verilməsi fevralın 25-dən digərində iyul ayının 12-dən bu günə kimi bir aydan artıq eləyir. Divani-riyasət buna da avqustun 5-nədək məzuniyyətinin uzanmasını təklif edir. Etiraz yoxsa qəbuldır. Abdulla bəy Əfəndizadənin məzuniyyəti avqust ayının 5-nədək təmdid edilir. Növbədəki məsələ parlaman sədrinə 2-ci müavin təyini haqqındadır. Tənəffüsədək namizədinizi seçiniz, məlum ediniz. Tənəffüsdən sonra qapalı üsul ilə, şar atmaqla intixab etməlisiniz. (Kyüsterə) Kağızları paylayınız. Keçirəm qanun layihəsinə. Xəzinə vergisi haqqında.

**Katib** (Oxuyur) - Bitdi, rusca oxuyum?

**Sədr** - 1-ci maddə haqqında kim danışmaq istəyir. Müsaidə versəniz ruscasını oxumarıq, keçən dəfə oxunmuşdur. Etiraz yoxsa, qəbul olunur.

**Katib** - 2-ci maddəni oxuyur.

**Sədr** - 2-ci maddəyə etiraz yoxsa, qəbul olunur.

**Katib** - 3-cü maddəni oxuyur.

**Sədr** - 3-cü maddəyə etiraz varmı? Yoxsa qəbul olunur.

Qanun layihəsini tamamən səsə qoyuram, etiraz yoxdur, qəbul olunur. Növbədəki məclisi-müəssisan seçkiləri haqqındakı qanun layihəsinin 3-cü qiraətidir.

**Katib** - 3-cü fəsil 9-cu maddə.

**Sədr** - Müsaidə versəniz bunun da ruscasını oxumayaq, çünki 2-ci dəfə oxunmuşdur. Ancaq popravka olunan maddələri [832 - 833] rusca oxuyarız; 9-cu maddəyə etiraz yoxsa, qəbul olunur. 10-cu maddəni oxuyunuz.

**Katib** - 10-cu maddəni oxuyur.

**Sədr** - 10-cu maddəyə etiraz yoxsa, qəbul olunur. 11-ci maddəni oxuyunuz.

**Katib** - 11-ci maddəni oxuyur.

**Sədr** – 11-ci maddəyə etiraz yoxsa qəbul olunur. 12-ci maddəni oxuyunuz.

**Katib** - 12-ci maddəni oxuyur.

**Sədr** - 12-ci maddəyə etiraz yoxsa, qəbul olunur. 13-cü maddəni oxuyunuz.

**Katib** - 13-cü maddəni oxuyur.

**Sədr** - 13-cü maddəyə etiraz yoxsa, qəbul olunur. 14-cü maddəni oxuyunuz.

**Katib** - 14-cü maddəni oxuyur.

**Sədr** - 14-cü maddəyə etiraz yoxsa, qəbul olunur. 15-cini oxuyunuz.

**Katib** - 15-ci maddəni oxuyur.

**Sədr** - 15-ci maddəyə etiraz yoxsa, qəbul olunur. 16-cı maddəni oxuyunuz.

**Katib** - 16-cı maddəni oxuyur.

**Sədr** - 16-cı maddəyə etiraz yoxsa, qəbul olunur.

**Katib** - 17-ci maddəni oxuyur**.**

**Sədr** - 17-ci maddəyə etiraz yoxdur? 17-ci maddə bilae etiraz qəbul edilir.

**Katib** - 18-ci maddəni oxuyur**.**

**Sədr** - 18-ci maddəyə etiraz yoxdur, qəbul edilir.

**Katib** - 19-cu maddəni oxuyur.

**Sədr** - 19-cu maddəyə etiraz yoxdur? 19-cu maddə qəbul edilir. 20-ci maddəni oxuyunuz. Katib - 20-ci maddəni oxuyur.

**Sədr** - 20-ci maddəyə etiraz yoxmu? Yoxsa qəbul edilir. 20-ci maddə bila etiraz qəbul edilir. 21-ci maddəni oxuyunuz. Katib - 21-ci maddəni oxuyur.

**Sədr** - 21-ci maddəyə etiraz yoxdur ki? Yoxdur qəbul olunur. 22-ci maddəni oxuyunuz.

**Katib** - 22-ci maddəni oxuyur.

**Sədr** - 22-ci maddəyə etiraz yoxdur? Yoxsa qəbul edilir. Veriniz dalısını Kiçikxanov oxusun. Oxuyunuz**.** [833 - 834]

**Katib** - 23-cü maddəni oxuyur.

**Sədr** - 23-cü maddəyə etiraz yoxsa, qəbul edilir. 24-cü maddəni oxuyunuz.

**Katib** - 24-cü maddəni oxuyur.

**Sədr** - 24-cü maddəyə etiraz yoxdur? Yoxdursa, 24-cü maddə qəbul edilir. 25-ci maddəni oxuyunuz.

**Katib** - 25-ci maddəni oxuyur.

**Sədr** - 25-ci maddəyə etiraz yoxdur? Yoxdursa, qəbul edilir, 26-cı maddəni oxuyunuz.

**Katib** - 26-cı maddəni oxuyur.

**Sədr** - 26-cı maddəyə etiraz yoxdur ki? Etiraz yoxsa, qəbul edilir. 27-ci maddəni oxuyunuz.
**Katib** - 27-ci maddəni oxuyur.
**Sədr** - 27-ci maddəyə etiraz yoxdur ki? Etiraz yoxdur, qəbul edilir. 28-ci maddəni oxuyunuz.
**Katib** - 28-ci maddəni oxuyur.
**Sədr** - 28-ci maddəyə etiraz yoxdur ki? Etiraz yoxsa, 28-ci maddə qəbul edilir. 29-cu maddəni oxuyunuz.
**Katib** - 29-cu maddəni oxuyur.
**Sədr** - 29-cu maddəyə etiraz yoxdur ki? Etiraz yoxsa, 29-ci maddə qəbul edilir. 30-cu maddəni oxuyunuz.
**Katib** - 30-cu maddəni oxuyur.
**Sədr** - 30-cu maddəyə etiraz yoxdur ki? Etiraz yoxsa, 30-cu maddə qəbul edilir. 31-ci maddəni oxuyunuz.
**Katib** - 31-ci maddəni oxuyur.
**Sədr** - 31-ci maddəyə etiraz yoxmu? 31-ci maddə qəbul edilir. 32-ci maddəni oxuyunuz.
**Katib** - 32-ci maddəni oxuyur.
**Sədr** - 32-ci maddəyə etiraz yoxdurmu? Etiraz yoxdur, qəbul edilir. 33-cü maddəni oxuyunuz.
**Katib** - 33-cü maddəni oxuyur.

**Sədr** - 33-cü maddəyə etiraz yoxdumu? Yoxdursa, 33-cü maddə qəbul edilir. 34-cü maddəni oxuyunuz. **Katib** - 34-cü maddəni oxuyur.

**Sədr** - 34-cü maddəyə etiraz yoxmu? Yoxsa, 34-cü maddə qəbul olunur.

**Katib** - 35-ci maddəni oxuyur.
**Sədr** - 35-ci maddəyə etiraz yoxdurmu? 35-ci maddə qəbul edilir.
**Katib** - 36-cı maddəni oxuyur. [834 - 835]
**Sədr** - 36-cı maddəyə etiraz yoxdursa, qəbul edilir. 37-ci maddəni oxuyunuz.
**Katib** - 37-ci maddəni oxuyur.
**Sədr** - 37-ci maddəyə etiraz yoxsa, qəbul edilir. 5-ci babı oxuyunuz.
**Katib** - 5-ci babdan 38-ci maddəni oxuyur.
**Sədr** - 38-ci maddəyə etiraz yoxmu? Yoxsa, 38-ci maddə qəbul edilir. 39-cu maddəni oxuyunuz.
**Katib** - 39-cu maddəni oxuyur.
**Sədr** - 39-cu maddəyə etiraz yoxmu? Yoxsa, 39-cu maddə qəbul edilir. 40-cı maddəni oxuyunuz.
**Katib** - 40-cı maddəni oxuyur.
**Sədr** - 40-cı maddəyə etiraz yoxmu? Yoxsa 40-cı maddə qəbul edilir. 41-ci maddəni oxuyur.
**Katib** - 41-ci maddəni oxuyur.
**Sədr** - 41-ci maddəyə etiraz yoxmu? Yoxsa, 41-ci maddə qəbul edilir. 42-ci maddəni oxuyunuz.
**Katib** - 42-ci maddəni oxuyur.
**Sədr** - 42-ci maddəyə etiraz yoxmu? Yoxdur, qəbul edilir. 43-cü maddəni oxuyunuz.
**Katib** - 43-cü maddəni oxuyur.
**Sədr** - 43-cü maddəyə etiraz yoxdurmu? Yoxsa, qəbul edilir. 44-cü maddəni oxuyunuz.
**Katib** - 44-cü maddəni oxuyur.
**Sədr** - 44-cü maddəyə etiraz yoxdur ki? Etiraz yoxsa, qəbul edilir. 45-ci maddəni oxuyunuz.
**Katib** - 45-ci maddəni oxuyur.
**Sədr** - 45-ci maddəyə etiraz yoxmu? Yoxsa, qəbul edilir. 46-cı maddəni oxuyunuz.
**Katib** - 46-cı maddəni oxuyur.
**Sədr** - 46-cı maddəyə etiraz yoxdurmu? Etiraz yoxsa, 46-cı maddə qəbul edilir. 47-ci maddəni oxuyunuz.
**Katib** - 47-ci maddəni oxuyur.
**Sədr** - 47-ci maddəyə etiraz yoxmu? Yoxsa, 28-ci maddə qəbul edilir. 48-ci maddəni oxuyunuz.
**Katib** - 48-ci maddəni oxuyur.

**Sədr** - 48-ci maddəyə etiraz yoxmu? Yoxsa, qəbul edilir. Bu gün üç bab ilə kifayət edək. Keçirəm növbədəki məsələyə. Növbədəki [835 - 836] məsələ: hüquq mühakiməsi Nizamnaməsinin maddələrinin təğyir və təbdili haqqında layiheyi-qanuniyyədir.

**Sədr** — Bayram Niyazi oxuyunuz.
**Bayram Niyazi** - Oxuyur.
**Sədr** - Bir az qəlbidən oxuyunuz.
**Bayram Niyazi** - Qəlbidən?
**Sədr** - Bəli, hündürdən.
**Bayram Niyazi** - Oxuyur.

**Sədr** - 91-ci maddənin bu cür təğyirinə etiraz yoxdurmu? Yoxsa qəbul olunur. O birisini oxuyunuz. 383-cünü oxuyunuz.

**Bayram Niyazi** - Oxuyur.
**Sədr** - 383-cü maddəyə etiraz yoxmu? Etiraz yoxsa, qəbul edilir. 528-cini oxuyunuz.
**Bayram Niyazi** - Oxuyur.

**Sədr** - 528-ci maddəyə etiraz yoxdur ki? Etiraz yoxsa, qəbul edilir. 141-ci maddəni oxuyunuz.
**Bayram Niyazi** -Oxuyur.
**Sədr** - 141-ci maddəyə etiraz yoxmu? Yoxsa, qəbul edilir. 834-cü maddəni oxuyunuz.
**Bayram Niyazi** - 834-cü maddəni oxuyur.
**Sədr** - 834-cü maddəyə etiraz yoxmu? Yoxsa, qəbul edilir. 49-cu maddəni oxuyunuz.
**Bayram Niyazi** - Oxuyur.
**Sədr** - 49-cu maddəyə etiraz yoxsa, qəbul edilir. 438-ci maddəni oxuyunuz.
**Bayram Niyazi** - Oxuyur.
**Sədr** - 438-ci maddəyə etiraz yoxmu? Etiraz yoxdur. 438-ci maddə qəbul edilir. 443-cü maddəni oxuyunuz.
**Bayram Niyazi** - Oxuyur.
**Sədr** - 443-cü maddəyə etiraz yoxmu? Etiraz yoxsa, qəbul edilir. 114-cü maddəni oxuyunuz.
**Bayram Niyazi** - Oxuyur.
**Sədr** - 114-cü maddəyə etiraz yoxdur? Etiraz yoxsa, qəbul edilir. 323-cü maddəni oxuyunuz.
**Bayram Niyazi** - Oxuyur.
**Sədr** - 323-cü maddəyə etiraz yoxmu? Yoxsa, qəbul edilir. Layiheyi-qanuniyyəni təmamən səsə qoyuram. Etiraz yoxdurmu? Etiraz yoxsa qəbul olunur. Növbədəki məsələ dəniz idarələrindəki [836 - 837] vergi alınması haqqında qanun layihəsidir. Məruzəçi Əmircanov.
**Katib** - Oxuyur. Birinci maddəni.
**Sədr** - Birinci maddəyə etiraz yoxsa, qəbul olunur. İkincini oxuyunuz.
**Katib** - İkinci maddəni oxuyur.
**Sədr** - İkinci maddəyə etiraz yoxsa, qəbul olunur. Üçüncünü oxuyunuz.
**Katib** - Üçüncü maddəni oxuyur.
**Sədr** - Üçüncü maddəyə etiraz yoxsa, qəbul edilir. Dördüncünü oxuyunuz.
**Katib** - Dördüncü maddəni oxuyur.
**Sədr** - Dördüncü maddəyə etiraz yoxsa qəbul edilir.

Layiheyi-qanuniyyəni təmamən səsə qoyuram. Etiraz yoxsa qəbul olunur. Növbədəki məsələ Ermənistanda olan müsəlman fərarilərinin ehtiyacını ödəmək üçün smetadan kənar üç milyon manat pul buraxılması haqqında qanun layihəsidir. Fəqət məsələyə keçmədən qabaq beş dəqiqə tənəffüs elan edirəm. Rica edirəm namizəd vərəqlərini verəsiniz, tənəffüsdən sonra intixabata şüuru olunsun.

**Tənəffüsdən sonra**

**Sədr** (Zəng çalır) - Məclis davam edir. Rica edirəm hər kəs səs verməyibsə versin. Vərəqələrin nəticəsi böylədir. 2 namizəddən birisi Əhməd bəy Pepinov 22 səs, digəri Sultan Məcid Qənizadə 18 səs. Əhməd bəy, qəbul edirmisiniz?
**Əhməd bəy Pepinov** - Mən imtina edirəm.
**Sultan Məcid** (qalxır) - Mən də otkaz edirəm.
**Səslər** - Prosim, prosim.
**Sədr** - Siz otkaz edirsiniz, rica edirəm təzə namizəd göstərəsiniz, və o adamı göstərəsiniz ki, sonra imtina etməsin.
**Mahmud Mustafayev** - 2-ci müavin barəsində tənəffüs elan olunan əsnada firqələr arasında danışıq oldu. Şimdi ikisi də qəbul etməyir, ona görə təzə namizədlər göstərmək qeyri mümkündür. Mən təklif edirəm gələn iclasa təxirə salınsın.
**Sədr** - Təklifi eşitdiniz, gələn iclasa qalsın. Namizədlər hər ikisi. Mən öz tərəfimdən rica və təmənna edirəm bu gün qurtarasınız mənim imkanım yoxdur. Nəzərə alın keçən [837 - 838] dəfə ürəyim getmişdi, gücnən özümü saxladım, təvəqqe, edirəm mümkün olsa bugün müavin seçəsiniz. Beş-on dəqiqə tənəffüs elan edirəm.

**(İkinci tənəffüsdən sonra)**

**Sədr** - İclas davam edir. Zənn edirəm parlaman üzvlərindən heç birisi vaxta ki, parlaman lazım bilib onlara bir vəzifə həvalə edir, imtina etməyə haqları yoxdur və imtina etməməlidirlər. İki namizəddən biri Əhməd Cövdət divani-rəyasətdə olduğuna görə imtina etməyə haqqı var. Sultan Məcid Qənizadənin isə haqqı yoxdur. Ələlxüsus ki fraksiyalar müttəhidləri onun namizədliyini təklif edir. Ona görə mən Soltan Məcid Qənizadənin namizədliyini qəbul edib səsə qoyacağam (Rusca).
**Sultan Məcid** (yerindən) - Söz veriniz mənə. Mən imtina edirəm.
**Sədr** - Bu məsələ müzakirə olası deyil.
**Sultan Məcid** (yerindən) - Söz istəyirəm.
**Sədr** - Buyurunuz.

**Sultan Məcid** - Əvvəla mən çox razıyam ki, bu təklifi mənə edirlər. Fəqət bəzi səbəblərə görə mümkünüm yoxdur. Mən qabaqda riza verməmişəm ki, mənim namizədliyimi qoysunlar fraksiyamız bilə-bilə qoymuşdu, mən də ümid var idim, seçki vaxtı başqa bir namizəd çıxar, keçər, mən azad olaram. İndiki, Əhməd Cövdət imtina edir, namizədlik qalır mənə. Mənim mümkünüm olmadığından qəbul edə bilməyəcəyəm. Mən bir dəfə qəti surətdə imtina etmişəm və sözümdən qayıtmıram. Ona görə namizədliyimə riza verməyəcəyəm.

**Rəfiyev** (yerindən) - Bu məsələ gələn dəfəyə qalsın.

**Sədr** - Əgər "İttihad" fraksiyası namizədliyi geri götürürsə mən bu məsələni növbədən götürüb başqa məsələyə keçirəm.

**Qara bəy** (yerindən) - Fraksiyamız namizədliyi geri götürmür. Ancaq hansı fraksiya namizəd göstərsə qəbul eyləyəcəyik.

**Sədr** - "İttihad" fraksiyası təklifi geri götürmür. Bu məsələni kələn səfərə qoyuram. Gələcək iclasda sizdən rica və təmənna edirəm ki, namizəd hazırlayıb bu məsələni həll edəsiniz. Növbədəki məsələ Zəngəzur qaçqınlarına 18.750.000 rubla pul buraxılması haqqında qanun layihəsidir.

**Rəfiyev** - Möhtərəm məbuslar! Bu axır sənədlərdə həyatımızda üz verən vüqüatın ən dəhşətli və ən qorxulusu qaçqın məsələsidir. Bu məsələ müharibə əvvəlindən olub indiyə qədər davam edir. Bakı cəmiyyəti-xeyriyyəsində o və də gördüyü işlər gözümüzün qabağındadır. Nə qədər qaçqınlara yardım etmək məcburiyyətində idi. Müharibə zamanda başlanmış bu məsələ, biz ümid edirdik ki, müharibə bitmiş olsun. Məəttəəsüf görürük ki, hələ də davam edir, hərgah bizim həyatımızda onlara baxsaq görərik ki, əhalinin çox faizi qaçqın surətində zindakanlıq edir. Onların kəndi yurdları, evləri-eşikləri dağılıb, əllərində olan malları hər şeyləri gedib yolçu kökündə dolanırlar. Əlbəttə bir adam tapılmaz ki, bu fəlakətləri görüb əlindən gəldiyi köməyi etməsin. Keçmiş il Şamaxıdan gələn qaçqınlar bir növ bu halda yola düşüblər. Sonra İrəvan və Novobayazid uyezdlərindən gələn qaçqınlarda o idarələr ki, var təşkil olunub yardım olunur və o səbəbə bir növ dolana bilirlər. Fəqət indiyəcən Zəngəzur uyezdində 13 kənd əhalisi dağılıb Qarabağda o kənddən bu kəndə köçüb yardımsız qalmışlar. Ona görə ümuri-xeyriyy nəzarəti bunlara yardım etməyi lazım bilib qaçqınlar üçün buraxılmış pulu kafi görmədiyindən smetadan xaric pul istəməyə məcbur olmuşdur, tainki qaçqınlara yardım olsun. Bu yardımı bu hesablarla mülahizə etmişlər.Zəngəzur qəzasından olan qaçqınların miqdarı ən əksik 30 minə qədərdir. Bu 30 min qaçqının təkrar deyirəm ki, heç bir şeyləri yoxdur. Qarabağ nümayəndələri və ora gedən üzvlər bu qaçqınların hallarını böylə nəql edir ki, bu qaçqınların nə yeməkləri var, nə paltarları. Bir rəhmli adam onlara bir gün, bir parça çörək versə, onların yeməkləri olacaq, verməsə o gün aç qalacaqlar. Ona görə onlara məhsulat, məmulat və yemək üçün çörək və kömək lazımdır. Hər adama bir ayda ən azı 20 girvənkə buğda, ya un lazımdır ki, kənardan az bir ələfiyyat qatışdırıb yesin ki, zəifləyib bir növ acından ölməsin. Bunlara hələlik 3 aylıq kömək lazımdır. Mümkündür, bəlkə bu üç ayda əkin əkələr, evləri dağılanlar özlərinə yer, işsizlər özlərinə iş tapsınlar. Fəqət bu 3 ayın müddətində bunları aclıqdan saxlamaq lazımdır ki, özlərini o vaxta qədər bir növ dolandırsınlar. Bunun üçün hər gah ayda hər cana 20 girvənkə buğda hesab olunsa 45 min put eylər. Putu yetmiş manatdan hesab edilsə 3 milyon 150 min manat lazım olur. Qaçqınların paltarları olmadığından və cındır paltarda dolandıqlarından hökumət ixtiyarında olan paltardan və fabrika bezindən yardım edilsə ən əskiyi 50 min arşın bez [839 - 840] və manufaktura vermək lazımdır ki, 4 yüz minə qədər para eyləyir. Bu qaçqın məsələsi böylə həll olunsun ki, qaçqınları hökumət həmişə öhdəsinə götürüb doyulsun olmaz. O qaçqınlar ki, dağılıblar, onların çoxu iş əhlidir. Onları gərək öylə hala salasınız ki, ovzailəri bir qədər dəyişib, düzəlib işlərinə başlasınlar. Onun üçün də əvvəlcə gərək onların evləri tikilsin. Sonra yer və əkinçilik üçün o alətlər ki, lazımdır, alınıb onlara verilsin. Qaçqınların əhvalını yaxşılaşdırmaq üçün böylə məsələlərə əhəmiyyət verilməlidir. Amma hələliyə nə qədər ki onların evləri dağılıb, başqa yerlərdə, yersiz, paltarsız, yeməksiz dolanırlar gərək hökumət onlara kömək eyləsin və bu da artıq hökumət boynunda böyük bir yük olar. Daha müvafiq gəlir, ən əvvəl onların evlərini düzəltmək. Onlara toxum vermək, sonra lazımdır ki, bunlara öküz, sonra onlar üçün kotan alınsın. Bunlar ilə, onlar öz işlərini düzəldə bilsinlər. Buna görə hesab yazılıb, bu hesab ilə onlara 3 milyon manatlıq toxum alınmalıdır. Evlərini düzəltmək lazımdır. heç olmazsa hər evə bir öküz lazımdır. Bunların hamısını hesab edəndə 9 milyon edir. Bunların evlərini düzəltmək üçün: Çünki bunların çoxusu yandırılıb və dağıdılıbdır. Hər əskiyi, hər tüstüyə beş yüz manat hesab edəndə 3 milyon buna lazım gəlir. Cəmi otuz min qaçqın üçün (18.750.000) manat edər. Böylə hesab edəndə nəzərə çox gəlir. Ancaq bunu hesab etsək ki, hər qaçqın bununla həmişəki işini görəcək. Məmləkət onlara artıq xərc çəkməyəcək. O biri tərəfdən də məmləkətin, əkini, sərvəti gündən-günə artacaq. Buna görə ümuri-xeyriyyə nəzarəti bu layihəsinin qəbul edilməsini rica edir.

**Sədr** - Kim danışmaq istərdi? Bu barədə kim danışmaq istərsə rica edirəm vərəqə ilə bildirsin. Rzabəy Ağabəyov.

**Rzabəy** - Möhtərəm əfəndilər! Ümuri-Xeyriyyə nəzarəti bizim vilayətdə... qabaqda Rusiyada yox idi. Bizdə cümhuriyyət olandan sonra əmələ gəldi. Bunların işinə gələndə bir növ bunlarda az işləmək görünür. Bu saat bizdən qanun layihəsində 18.750.000 manat pul istənilir. İndi bunun paylanmağına gəldikdə onlar nə cür paylanacaq? O zapiskadan böylə görünür hər evə 500 manat verəcəklər. Soruşuram sizdən, bununla kafi olmaq

olarmı? İnanmaq olarmı ki, bir kəl ilə işləri düzələcək? İnanmaq olarmı ki, iyirmi girvənkə buğda ilə yolçu kimi dolanmayacaqlar? Qaçqınlar yolçu deyillər. Onlara yolçu kimi baxmaq olmaz. Onları köhnə halına qaytarmaq lazımdır. Bu da göstərilən pullar ilə olmaz. Hamınıza məlumdur ki, indi əkin vaxtıdır, biçin vaxtıdır. Çox yerdə fəhlə azdır. Bu qaçqınları ki otuz min deyirlər, əyər ümuri-xeyriyyə nəzarəti bunların siyahısını tutsa idi, onları fəhlə lazım olan yerlərə göndərsə idi, indiki hal həmi onlar üçün, həmi əkinçilər üçün yaxşı olardı, həm də xəzinə fayda görərdi. Bu saat biz görürük Şamaxı ki, bir ildir dağılıb, bu vaxtacan onlara heç bir köməklik edilməyib, ancaq bu yaxın zamanlarda eşidirik ki, bir komisyon düzəlibdir. Və halanki bu gərək çoxdan ola idi. Bıçağacan gərək orada fəhlə işləyə idi. Bununla bir növ nəzarətin işsizliyinə və az hərəkətinə çıxmaq olar. Bundan sonra nəzarətin bir çox işi buğda almaq kimi, buda çox sistemsiz keçir. Bunu gərək mərkəzi bir orqan ola ki, alınan mallar o mərkəzdə toplana idi. Yəqin şeydir ki, bir yerdə çoxlu mal alına, onu bir növ ucuz və asanda almaq olar. habelə onda bir növ inanmaqda olar ki, rəddi-bədəl olmaz. Bir yerdə mallar cürbəcür yollar ilə alınır, onda, əlbəttə bir çox nöqsanlarda olur. Bunu nazir özü də təsdiq edir ki, Şamaxıda olan məmurlarda çox nöqsanlar var. Onların çoxu qulluqdan xaric olub. Bundan məlum olur ki, sistemsiz görülən bir iş yaxşı deyildir. Mən demirəm ki, pulu buraxmayaq, bəlkə bir qədər artıq buraxaq. Bu öylə bir şeydir ki, oradan pulu əsirgəmək olmaz. Lakin bununla bərabər gərək xahiş edək ki, buraxılan pullar əməlli sərf olunsun və ondan xeyir əmələ gəlsin.

**Sədr** - Söz Hacı Kərim Saniyevindir.

Hacı Kərim Saniyev - Möhtərəm məbuslar! O yerdə möhtac oldu, hər kəsin oraya kömək borcudur. Amma müavinətdən qaçmaq olmaz. Amma mətləb oradadır ki, öylə bir üsul təyin olunsun ki, o pul ki, cəmaət öz çibindən çıxarır, onlar arizlərə çatsın. İndiyə qədər ki, pullar sərf olmuşdur, göstərir ki, pullar yerinə çatmamışdır. Naxçıvana gedən pulları bilirsiniz. Qaçqınlara buğda paylanır, 1.500 siyahı göstərilir. Fəqət hazırda 200 nəfər də yoxdur. Görürsünüz ki, bir nəfər on ailə üçün buğda aldı. Halbuki, bir nəfərin on ailəsi olamaz. Əldə heç bir məlumat yoxdur. Gərək baxılsın təhqiq edilsin. Uezdlərin birisində nəzarət tərəfindən iki (tkaçski) fabrika açıldı. Kağız üzərində qaldı. Maaşlı müdiri var, məmurları [841 - 842] məvacib alır, əmələ işləməyir. Uezdlərin birisində anbar müdiri, mühafizəçi var, katibi var, anbar icarə edilmişdir. Amma içində heç zad yoxdur. Məmurlar məvacib alıb yeyir, qaçqınlara heç bir şey verilmir. Rayonda qaçqınlara altı yüz put arpa və neçə kasa, boçqa damıq. Bu cür şeylər çoxdur. Təkrar etmək artıqdır. Və üç nəzarətin məmurları elə deyirlər, bir də parlamanda da bir üzv olsun bu kafi deyildir. Məclisi-məbusan üzvü gərək çoxdan ola idi. Qaçqınların siyahisi tutulmalı idi. On üç kənd qaçqına gərək adı ilə göstərilə idi, tainki bizim əlimizdə məlumat olsun və ona görə də pul buraxılsın. İkinci təklifim də budur ki, üç nəzarət deyil mərkəzlərdə cəmi nəzarətlərin nümayəndələrindən ibarət bir komisyon olsun və əhali tərəfindən də oraya adamlar seçilsin. Nə qədər adam çox olarsa, o qədər də iş düz olar. Mən təklif edərkən ümid edirəm ki, məclis bu təklifimi qəbul edəcəkdir.

**Sədr** - Söz Sultan Məcid Qənizadənindir.

**Sultan Məcid** - Qaçqınların fəna halda olduğunu iki ildir görürük. Nə qədər ürək yanğısı ilə bunu seyr edirdiksə də lazım olan kömək edilməmişdir. Vaxtında seym tərəfindən pullar buraxıldı. Amma çox təəssüf ki kömək alınmadı. Həqiqət-də də fəna halda qaldılar. Ac qaldılar. Verilən un, libas verilir - onda ediləcək kömək görülməyir. Bir növ halları yaxşı olsun, əvvəl ac idi, şimdi də acdır. Əvvəl çılpaq idi, şimdidə çılpaqdır. Onlara ianə kömək lazımdır, öylə kömək olsun ki, onlar rahat oluban haçanki məşğul ola bilsinlər. Bu yolda ümuri-səltənətində gərək ziraət və sənətdə irəli olsunlar. Qaçqınların birisi Şamaxı qaçqınlarıdır. Digər qaçqınlar da Zəngəzur qaçqınlarıdır. Bu qaçqınların bir çoxları geri, yerlərinə qaytarılır. Onların bəzi paraları aclıqdan qırılır. Bunlara azdan-çoxdan bir şey verilir. Tainki işləyə bilsinlər. Şamaxı əhalisinə isə kömək edilib də evləri olsa bir növ dolana bilərlər. Çox təəssüf ilə deyə bilərəm ki, əgər hökumət tərəfindən bu qaçqınların verilən pullara sataşan olmasa idi daha kömək lazım olmaz idi. Çünki, bəla o qədər böyükdür ki, əlindəki pulu alıblar, üstündən əlbəsəsini də soyublar... Bu Şamaxıdır. Amma Zəngəzurda iş daha fənadır. Qaldı ki deyirlər Zəngəzurun halı fənadır. Onların köməyi nəinki ziraət, toxum, öküz, paltar alıb verməklə [842 - 843] düzələcək. Xeyir, düzəlməz. Necə ola bilir düzəlsin ki, yağı dörd ətrafı basıbdır. Öz canı, nəfsi-həyatı xətərdədir. Necə ola bilər düzəlsin ki, onun gözü daima ətrafdadır ki, görək bu saat hankı tərəfdən ona güllə vuracaqlar. Bir ziraət əhli ki, xətərdə olsun ona 5 kotan da versək bir iş görə bilməz. Deyirəm ki, Zəngəzur qaçqınlarının əhvalı kotan, öküz və böylə şeylər alıb verməklə düzəlməz. Onlara başqa yol ilə kömək eyləmək lazımdır. Hökumət əvvəlcə onların həyatını təmin etməlidir. Sonra 18 milyon deyil, daha çox verilsin, bəlkə də verilmək lazım gələcək. həyatları təmin edilmədən nə qədər pul verilsə onlar onları təmin etməz. Ona görə mən təklif edirəm ki, bu pul buraxılır, buraxılsın, buraxılacaq da. Ancaq hökumətə təklif olunsun ki, Zəngəzur qaçqınlarına kömək etmək istəyirsə bu cür onlar yaşaya bilməzlər. Ciddi tədbirlər və təşəbbüslər lazımdır.

**Sədr** - Söz Ağa Aşurovundur.

**Ağa Aşurov** - Burada verilsin, verilməsin bu sözlər barəsində 2 rəy olmaz. Əlbəttə gərək verilsin. Ancaq qədəri üstündə və necə verilsin üstündə danışmaq olar. Əvvəla budur ki, bir Zəngəzur uyezdi üçün 3 ayda 18 milyon para istənilir. Böylə Zəngəzur uyezdi kimi uyezlərdən bizdə 14 uyezd var. Sultan Məcid dediki bəs Şamaxı uyezdi necə olsun amma onun yadından çıxdı ki, Göyçay uyezdi də var ki, bolşevik zamanında bərbad

olub-qalıb. Başqa uyezdlər də var ki, pərakəndə. Əgər bir tək Zəngəzurda 30 min qaçqın varsa, cəmi Azərbaycanda 200 min qaçqın var ki, 20 min aşağı-yuxarısı ola bilər. Ayda bunların hərəsinə 100 manat versək eylər ayda 20 milyon manat. Əgər biz camaatin hamısını bir gözlə görmək istəyiriksə Bakı uyezdi qaçqınlarına baxdığımız kimi Azərbaycanın hər yerində olan qaçqınlara da baxıb kömək versək, ayda gərək 20 milyon pul verək. Demək istərəm görək ki, bu xərcin qabağında dayana bilərik ya yox. Biz bu xərcin qabağında dayana bilib, bilməyəcəyimizi o vaxt deyə bilərik ki, büdcəmiz məlum olsun. Məəttəəssüf neçə aylardır ki, bu tribunundan deyirik ki, büdcə hazırlansın. Amma bu vaxtadək düzəlməyib. Birinci və ikinci kabinələr büdcəni düzəldə bilməlidir. 3-cü hökumət də neçə vaxtdır işləyir. Hələ bu vaxtadək düzəltməyibdir, düzəltmək də çətindir. Hərgah büdcəmiz məlum olsa idi, bilərdik mümkünat var, yoxdur. Biz əvvəlcə gərək biləк ki, bizə bu pul [843 - 844] hardan gəlir, nə qədər gəlir, nə cür yığılıb, nə cür sərf edək. Bunu açıq bilmək olmaz. Verə bilmərik. 2-ci mən o işdən heç xəbərdar deyiləm. Görək buradakı natiqlərin sözünə nə cür cavab verəcəklər. Dokladda bir proqram göstərilmir. Ancaq göstərilir ki, mal veriləcək, çörək yemək veriləcəkdir. Bununla da ancaq yolçu əmələ gətiriləcək. Ümuri-xeyriyyə nəzarəti məqsədi bu qaçqınlara xeyriyyə xasiyyətinə haiz kömək eyləmək istiyor. Amma bu qaçqın məsələsi xeyriyyə dairəsindən keçib, ümum məmləkətdə böyük bədbəxtlik olub. Məmləkətdə dəmiryolu var, su yolları var, başqa işlər var. Əvvəlcə bu qulluqlara qaçqınlar qəbul edilsinlər. Bundan sonra hər yerdə, hər kənddə, hər şəhərdə qaçqınlar üçün kömək versinlər. Bu işləri ümum camaat köməyilə aparılmalıdır. Hökumət pulu ilə qaçqın saxlamaq olmaz. Mən burada bir proqram görmədim ki, danışam. Bu barədə danışmaq olar ki, düzdür ya - yox əsas üstündə danışmaq olar ona görə heç bir proqram məlum olmadığından mən bu məsələni nə lehinə, nə əleyhinə rəy verə bilmərəm. Büdcəmizi, qüvvəmizi bilək, proqramda məlum olsun.

**Sədr -** Söz Abbasqulu Kazımzadənindir.

**Kazımzadə -** Heç şübhə yoxdur ki, bir şəxs tapılmaz qaçqınlara əcələ olaraq kömәkdən geri dursun və danışsın. İş buradadır ki, keçən natiqlər əsasən pulun baxılmasına zidd deyildirlər. Lakin bir növ yollar göstərməyə çalışdılar. həqiqətən bir çox söz danışdılar ki, onları mən də burada yazmışdım. Yoldaşımız Saniyev söylədi. Mənim bir az bu işdə təcrübəm olduğu üçün mən də bu barədə söyləmək istərdim. Əsasən pul verilir. 3 ay müddətində əcəba üç aydan sonra nə olacaq. Məəttəəssüf bunu eşitmədik. Bir də proqramda göstərilmiş ki, qaçqınlar üçün sənətxanalar, əl işləri və sairə qayrılacaqdır. Burası şayani təqdirdir. Yoldaşı-mız deyən kimi bəzi hərəkətlər olur, bəzi göndərilən adamların işində namünasiblik görünür. Mən öz təcrübəmdən deyirəm ki, əkər əhalidən seçilmiş komisyonlar olsa onda işin düzəlməsinə köməklik olar ki, bunu da Ağdaşda, Ucarda, Göyçayda da gördüm. Doğurdan əhalinin özündən komisyon olsa, onda verilən bunlar torpaq olmayıb un olar və camaat çörək yerinə torpaq yeməz. Və bir də dayimən göndərilən komisyon səyyar olmalıdır. Bundan keçəndən sonra yoldaşlarımızın həbsi çörəkdən, paltardan bəhs edərkən bunlardan [844 - 845] daha lazımlı olan həkimlikdən bəhs etmədilər. Çünki qaçqınlar çoxdurlar, çörəkdən əvvəl həkim, əlac istəyirlər. Bir dəfə bu çörəyi siz paylayarkən, gündə həkimsizlikdən 10 nəfərin öldüyünü görəcəksiniz. heç bir yerdə mühacirlərin həkim cəhətinə bu vaxta kimi ciddi surətdə baxılmayırdı. İndi aldığımız məlumatlara görə bir az var, kim bilir, bəlkə də heç yoxdur. Hər halda təklif edərdim ki, həkimlərdən bir səyyar dəstə olsun. Lazım olan vaxtda təcili getsin. Bunu təcrübə göstərib ki, ən əvvəl lazımdır. Burada bəhs olundu Şamaxı və Göyçay uyezdindən, fəqət Zəngəzurdan və İravandan sel kimi axıb kələn qardaşlarımız və bacılarımız bizə müsaidə vermir ki, oturub Göyçay və Şamaxı mühasirələrilə məşğul olaq. Ərz edirəm ki, kömək lazımdır və vacibdir. Lakin buraxılan pullar gərək yerinə getsin. Mühacir pulu Bakı neft mədənlərinin pulu dəkil ki, ciblərə getsin. Buna görə də əhalinin özündən komitələr seçilsin. Bunlardan keçəndən sonra mən də Aşurov cənablarının rəyində iştirak edərəm. Xahiş edirəm ki, tez bir zamanda bizə bir proqram, dəsturul-əməl təqdim edilsin ki, bu yolçuluğun qabağını almaq üçün üç aydan sonra nə yolla tədbirlər görmək məlum olsun.

Əlbəttə qaçqınlığın qarşısını almaq üçün onun, öz əllərinin sənətinə çörək verilməlidir.

**Sədr -** Mehdi bəy Hacıbababəyov.

**Mehdi bəy Hacıbababəyov -** Bu qədər danışıqlar, bu qədər sözlər, cümlə məsələ qaçqınlara kömək, yardım etməkdir. Bunu heç kəs yoxdur ki, bilməsin. Əhalidən taxıl əkənlər və taxılı əkmək istəyən qaçqınların malı yox, heyvanı yox, öküzü yoxdur ki, əksin və sonra yığışdırsın. Bunlara kömək edən yoxdur, taxıllarını biçsinlər. Ağsuda buğdalar yanır. 2200 tarla yanmış, kimsə yoxdur ki, söndürsün. Şamaxı şəhərində bir əczaxanə var, həkimi yox. Bir həkimi var Sazonov, onu aparırlar. buğdası olan buğda verir, olmayanı da ölsün, canı çıxsın. İki ayın ərzində, mayın, iyulun əvvəllərində guya Göyçayın naçalniki əsgər yığmağa çıxmış, halbuki o biçarələr ayda Şamaxıya bir kərə gəlirlər. Beş min manat borc edir və dəlirik deyirlər. Mənim zənnim ümuri-xeyriyyə pul verməklə, buğda verməklə iş bitməz, gərək sənət lazımdır. Burada bir sənət açılmazsa bir şey olmaz. [845 - 846]

Bir kölgəlik belə yoxdur ki, otursun. Maşınlar düzəltmək lazımdır ki, özləri qazansın.

**Sədr -** Təklif var müzakirə qət edilsin. Bunu lehinə, əleyhinə olan kimsə varmı?

**Səslər -** Qət edilsin.

**Sədr -** Əksəriyyət rəylə müzakirə qət olundu.

**Musa bəy Rəfiyev -** Söz mənimdir.

**Sədr** - Musa bəy də danışsınmı?
**Səslər** - Musa bəy də danışsın.
**Sədr** - Musa bəy, danışa bilərsiniz.

**Musa bəy Rəfiyev** - Möhtərəm məbuslar! Bəlli ki, çox sözlər doğru və haqlıdır. Çox arzular olur. Bu sözləri düz əmələ gətirmək lazımdır. Ümuri-xeyriyyənin arzusunda olur. Filan şey də olsun. Kazımzadə Abbasqulu bəy qaçqın işlərində çox oldu. Camaəti oraya çəkdi. Nə xəyanətlər oldu həpsini bilirik. Vəsiqə olanda da belə heylə var.

**Abbasqulu Kazımzadə** - Komissiya lazımdır.

**Rəfiyev** - Bunlar hamısı doğru sözlərdir. Ancaq övzayə baxanda görürük ki, biz, hökumət eyləmək istəsə də az nəticə hasil olur. Onun üçün bu danışıqlara bir məna demirəm, nəticəsini deyirəm. Ağa Aşurov dedi smeta yoxdur. Doğrudur, smeta yoxdur. Amma bu ümuri-xeyriyyə aid deyil. Smeta bir il qabaqdan hazırlanır, hər nəzarət bilir ki, mədaxil, məxarici nədir. Ümuri-xeyriyyə nəzarəti isə əz məxaricini bilmir. Bilə də bilməz. Ümuri-xeyriyyə nəzarəti nə bilsin ki, 30 mir qaçqın üstünə avqustda da 15 min artmayacaqdır. Bunlar ümuri-xeyriyyə nəzarətinə məlum ola bilməz. Ümuri-xeyriyyə nəzarətinin smetası hazır burada var. Bir ay Novobayaziddən bir yekə dəstə 15 minə qədər qaçqın gəlib, tökülüb Gəncəyə. Ümuri-xeyriyyə nəzarətindən smeta istəmək dürüst deyildir. Bir də deyirlər bu qaçqınlara azuqə paylamaq deyil, iş vermək lazımdır. Bu doğrudur. Amma qabaqca evlərini, yurdlarını düzəltmək lazımdır. Bir halda ki, qaçqınların oturacaq yerləri məlum deyildir, o halda necə işləyə bilərlər. Bəlkə də istənilən 18 milyon azdır. Bununla nə qədər kömək eyləmək olar. Hər qaçqına ayda 70 manat xərclənir, smeta belədir. Amma siz bir fikir ediniz, hər adam beş-altı yüzlə ancaq dolana bilir. Hərgah hər adama lazımi surətdə [846 - 847] dolanmaq üçün xərc verilsə, onda gərək Azərbaycanın hər şeyini sataq, biz o qədər verməliyik. Ancaq o qədər vermək gərək ki, heç olmasa bir hala gəlib özlərini dolandırsınlar. Ona görə ümidvarıq ki, parlaman bunu qəbul edər. Hərgah bu az olsa ümuri-xeyriyyə nəzarəti yenə qulluğunuza başqa bir layihə ilə gələr, lazım bilsəniz verərsiniz, yoxsa-yox.

**Sədr** - Sez ümuri-xeyriyyə naziri Klinovskinindir.
**Klinovski** - Rusca

**Sədr** - Kim danışmaq istəyir. Bu xüsusda danışmaq istəyən yox-dursa, məsələ bitmiş hesab olunur. (Kyüsterə). Üzvləri çağırın.

**Səslər** - Adamlar hanı ki, yoxdur.
**Sədr** - Onda səsə qoya bilmərəm. Kvorum yoxdur.
**Səslər** - Kvorum var! Yoxdur.
**Sədr** - Üzvləri çağırın, sayın.
**Kyüster** - Kvorum yoxdur (Mehdi bəy gəlir).

**Qara bəy** (yerindən) - Mehdi bəyi üç adamın yerinə hesab edin. Məcburam. Gələn iclas, qapamadan əvvəl rica edirəm ki, gələn səfərə kitabxana komisyonuna namizədlər göstərəsiniz ki, komisyon intixab olunsun. Parlamana. Kitabxananın nə qədər lazım olduğunu düşünürsünüz. Ona görə təxirsiz komisyona namizəd göstərmənizi rica edirəm. İclas qapanır.

İclas saat 4 tamamda qapanır.

**Arxiv, f. 895, siy.1, iş.100, vər.98-125.**

## №-56

## Əlli altıncı iclas

*17 iyul 1919-cu il.*

**Rəis** - doktor Həsən bəy Ağayev. **Katib** - Əhməd Cövdət Pepinov. Məclis saat 12.20-dəqiqədə açılır.

Müzakireyi-yomiyyə:

1.Parlaman sədrinə ikinci müavin intixabı haqqında Nizamnamənin 9-cu maddəsi; 2. Məclisi-müəssisan seçkiləri haqqında layiheyi-qanuniyyə (üçüncü qiraət); 3. Zəngəzur qəzası qaçqınlarına yardım etməkdən ötəri smetadan xaric olaraq [847 - 848] (18.750.000) rüblə buraxılması haqqında layihəyi-qanuniyyə; 4. Ermənistanda bulunan müsəlman qaçqınlarına yardım etməkdən ötəri smetadan xaric olaraq üç milyon rüblə buraxılması haqqında layihəyi-qanuniyyə; 5. hökumət indində xüsusi təftişat və təhqiqat komisyonunun təşkili haqqında layihəyi-qanuniyyə; 6. Sənaye şəhadətnamələri qiymətlərinin artırılması haqqın-da layihəyi-qanuniyyə; 7. Nazir müavinlərinə yeni maaş haqqında layihəyi-qanuniyyə; 8. Şəhərlər nəfinə ixrac və idxal olunan yüklərdən alınan müvəqqəti vergi nizamnaməsi haqqında layihəyi-qanuniyyə; 9. İki aylıq pedaqoji kursların küşadi haqqında layihəyi-qanuniyyə; 10. Hökumətin Qarabağ hadisatı haqqında əxbarı. 11. Spirt məhsulatından alınan aksiz vergisi miqdarlarının artırılması haqqında layihəyi-qanuniyyə; 12. Azərbaycan cümhuriyyət sərhəddində mühafizə bölüyü təsisi haqqında layihəyi-qanuniyyə; 13. Tövcü vergisinin artırılması ilə bərabər torpaq gəlir və məxariç smetasının və torpaq vergisi miqdarlarının təmdidi haqqında layihəyi-qanuniyyə; 14. Ticarət və ələlümum işlər idarəsi haqqında verilmiş vəkalətnamələrin sürəcəyi müddətin uzadılması haqqında layihəyi-qanuniyyə; (təcili) 15. Daxil olmuş kağızlar. O cümlədən: a) «Hümmət" fraksiyasının Qasım bəy Camalbəyovun parlaman üzvlüyünə daxili haqqında əxbari; b) Rus-slavyan cəmiyyətinin parlaman məbusları Vinoqradov, Kravçenko və Mixailov haqqında məşruhəsi. ç) Kitabxana komisyonu intixabı. d) "İttihad" fraksiyasının hökumətə sualı.

**Rəis** - Divani - rəyasət tərəfindən təklif olunur ki, 14-cü məsələ ticarət haqqındakı layihəyi-qanuniyyə ikinci olaraq baxılsın. Çünki əski ticarət qanununun müddəti bu ayın 14-də bitmişdir. Əgər buna etiraz yoxsa qəbul olunur.

**Qara bəy** - Mən təklif edirəm 1-ci məsələni sonraya qoyaraq, əvvəlinci məsələ axıra çəkilsin, çünki digər məsələlər daha mühümdür. ?

**Sədr** - Etiraz yoxmu?

**Səslər** - Yoxdur.

**Sədr** - Qəbul olunur. Daxil olmuş kağızlardan əvvəlincisi "Hümmət" fraksiyonundan gəlmiş bir məktubdur. Parlaman üzvü Qasım bəy Camalbəyzadə yenə firqə tərəfindən parlamana intaxab olunmuş, parlaman üzvlüyünə qəbulu təklif edilir. Qanun üzərinə parlaman üzvlərindən biri çıxarılarsa, onun yerinə [848 - 849] bir özgəsi intixab edilir. Şimdi eyni adamı firqə intixab etmiş bunu bir rəy məlumat bildirirəm. Varid olmuş kağızlardan bu məzmunda bir məktub var. (Rusca oxuyur). Rəyi məlumat üçün bəyan edirəm. İkinci qanun layihəsi vəkalətnamələrin təmdidi haqqındadır. Türkcəsi yoxdur. Vəkalətnamə müddəti bitmişdir, təmdidi lazımdır, altı ay artırılmalıdır. Əgər etiraz yoxsa və müsaidə edərsəniz, oxunsun. Oxuyunuz Mehdi bəy. (Mehdi bəy oxuyur).

**Sədr** - Layiheyi-qanuniyyənin təcili surətdə baxılmasına etiraz yoxdurmı?

**Səslər** - Yoxdur.

**Sədr** - Qəbul olunur. Layiheyi-qanuniyyə xüsusunda kim danışmaq istərdi. Bunu maddə-maddə oxuyunuz.

**Katib** - 1-ci maddəni oxuyur.

**Sədr** - 1-ci maddə xüsusunda kim danışmaq istərdi. Etiraz yoxmu? Etiraz yoxdur. 1-ci maddə qəbul olunur.

**Katib** - İkinci maddəni oxuyur.

**Sədr** - İkinci maddəyə etiraz yoxmu? Yoxdur, qəbul olunur. **3**-cü maddəni oxuyunuz.

**Katib - 3**-cü maddəni oxuyur.

**Sədr - 3**-cü maddə xüsusunda kim danışmaq istəyir? Etiraz yoxmu? Yoxsa qəbul olunur. Layiheyi-qanuniyyəni tamamən səsə qoyuram.

**Mehdi bəy** - Komisyonun burada bir mülahizəsi vardır.

**Sədr** - Mülahizəni oxuyunuz.

**Katib** - Oxuyur.

**Sədr** - Layiheyi-qanuniyyəni, komisyonun mülahizəsi ilə bərabər tamamən səsə qoyuram. Etiraz yoxdur. Komisyonun mülahizəsi ilə bərabər qəbul olunur.

**Katib -** 49-cu maddənin Məclisi-Müəssisan seçkiləri haqqında.

**Sədr -** 49-cu maddəyə etiraz yoxdur? İstəyirsiniz oxunsun.

**Səslər** - Oxunsun... Oxunsun!
**Sədr** (katibə) - Haman maddəni oxuyunuz.
**Katib -** 49-cu maddəyə etiraz yoxdursa, maddə qəbul edilir. 50-ci maddəni oxuyunuz.
**Katib** - 50-ci maddəni oxuyur.
**Sədr** - 50-ci maddəyə etiraz yoxdur? Yoxdur, qəbul edilir. 51-ci maddəni oxuyunuz.
**Katib** - 51-ci maddəni oxuyur. [849 - 850]
**Sədr** - 51-ci maddəyə etiraz yoxdur? 51-ci maddə qəbul olunur. 52-ci maddəni oxuyunuz.
**Katib** - 52-ci maddəni oxuyur.
**Sədr** - 52-ci maddəyə etiraz yoxdur? Qəbul edilir. 53-cü maddəni oxuyunuz.
**Katib** - 53-cü maddəni oxuyur.
**Sədr** - 53-cü maddəyə etiraz yoxdursa, qəbul olunur. 54-cü maddəni oxuyunuz.
**Katib** - 54-cü maddəni oxuyur.
**Sədr** - 54-cü maddəyə etiraz yoxdursa, 54-cü maddə qəbul olunur. 55-ci maddəni oxuyunuz.
**Katib** - 55-ci maddəni oxuyur.
**Sədr** - 55-ci maddəyə etiraz yoxdur? 55-ci maddə qəbul edilir. 56-cı maddəni oxuyunuz.
**Katib** - 56-cı maddəni oxuyur.
**Sədr** - 56-cı maddəyə etiraz yoxdur? 56-cı maddə iki qeydi ilə bərabər qəbul edilir. 57-ci maddəni oxuyunuz.
**Katib** - 57-ci maddəni oxuyur.
**Sədr** - 57-ci maddəyə etiraz yoxdur? 57-ci maddə qəbul edilir. 58-ci maddəni oxuyunuz.
**Katib** - 58-ci maddəni oxuyur.
**Sədr** - 58-ci maddəyə etiraz yoxdur? 58-ci maddə qəbul edilir. 59-cu maddəni oxuyunuz.
**Katib** - 59-cu maddəni oxuyur.
**Sədr** - 59-cu maddəyə etiraz yoxdur? Qəbul edilir. 60-cı maddəni oxuyunuz.
**Katib** - 60-cı maddəni oxuyur.
**Sədr** - 60-cı maddəyə etiraz yoxmu? 60-cı maddə qəbul edilir. 61-ci maddəni oxuyunuz.
**Katib** - 61-ci maddəni oxuyur.
**Sədr** - Etiraz yoxdur? 61-ci maddə qəbul edilir. 62-ci maddəni oxuyunuz. !
**Katib** - 62-ci maddəni oxuyur.
**Sədr** - 62-ci maddəyə etiraz yoxdur? Qəbul edilir. 63-cü maddəni oxuyunuz.
**Katib** - 63-cü maddəni oxuyur.
**Sədr** - Etiraz yoxdur? 63-cü maddə qəbul edilir. 64-cü maddəni oxuyunuz.
**Katib** - 64-cü maddəni oxuyur. [850 - 851]
**Sədr** - 64-cü maddəyə etiraz yoxdur? Qəbul edilir. 65-ci maddəni oxuyunuz.
**Katib** - 65-ci maddəni oxuyur.
**Sədr** - 65-ci maddəyə etiraz yoxdur? Qəbul edilir. 66-cı maddəni oxuyunuz.
**Katib** - 66-cı maddəni oxuyur.
**Sədr** - 66-cı maddəyə etiraz yoxdur? Qəbul edilir. 67-ci maddəni oxuyunuz.
**Katib** - 67-ci maddəni oxuyur.
**Sədr** - Etiraz yoxdur? 67-ci maddə qəbul edilir. 68-ci maddəni oxuyunuz.
**Katib** - 68-ci maddəni oxuyur.
**Sədr** - Etiraz yoxdur? 68-ci maddə qəbul edilir. 69-cu maddəni oxuyunuz.
**Katib** - 69-cu maddəni oxuyur.
**Sədr** - 69-cu maddəyə etiraz yoxmu? 69-cu maddə qəbul edilir. 70-ci maddəni oxuyunuz.
**Katib** - 70-ci maddəni oxuyur.
**Sədr** - Etiraz yoxdur? 70-ci maddə qəbul edilir. 71-ci maddəni oxuyunuz.
**Katib** - 71-ci maddəni oxuyur.
**Sədr** - 71-ci maddəyə etiraz yoxdur? 71-ci maddə qəbul edilir. 72-ci maddəni oxuyunuz.
**Katib** - 72-ci maddəni oxuyur.
**Sədr** - Etiraz yoxdur? 72-ci maddə qeydlə bərabər qəbul edilir. 73-cü maddəni oxuyunuz.
**Katib** - 73-cü maddəni oxuyur.
**Sədr** - Etiraz yoxdur? 73-cü maddə qəbul edilir. 74-cü maddəni oxuyunuz.
**Katib** - 74-cü maddəni oxuyur.
**Sədr** - Etiraz yoxdur? 74-cü maddə qəbul edilir. 75-ci maddəni oxuyunuz.
**Katib** - 75-ci maddəni oxuyur.
**Sədr** - Etiraz yoxdur? 75-ci maddə qəbul edilir. 76-cı maddəni oxuyunuz.
**Katib** - 76-cı maddəni oxuyur.
**Sədr** - Etiraz yoxdur? 76-cı maddə qəbul edilir. 77-ci maddəni oxuyunuz.
**Katib** - 77-ci maddəni oxuyur. [851 - 852]

**Sədr** - Etiraz yoxdur? 77-ci maddə qəbul edilir. 78-ci maddəni oxuyunuz.
**Katib** - 78-ci maddəni oxuyur.
**Sədr** - Etiraz yoxdur? 78-ci maddə qəbul edilir. 79-cu maddəni oxuyunuz.
**Katib** - 79-cu maddəni oxuyur.
**Sədr** - Etiraz olmadığından 79-cu maddə qəbul edilir. 80-ci maddəni oxuyuz.
**Katib** - 80-ci maddəni oxuyur.
**Sədr** - Etiraz olmadığından 80-ci maddə qəbul edilir. 81-ci maddəni oxuyunuz.
**Katib** - 81-ci maddəni oxuyur.
**Sədr** - Etiraz yoxdur? 81-ci maddə qəbul edilir. Katib müavinin Kiçikxanov Bayram Niyazi 7-ci fəsli oxuyunuz.
**Katib** - 82-ci maddəni oxuyur.
**Sədr** - Etiraz olmadığından 82-ci maddə qəbul edilir.
**Katib** - 83-cü maddəni oxuyur.
**Sədr** - Etiraz olmadığından 83-cü maddə qəbul edilir. 84-cü maddəni oxuyunuz.
**Katib** - 84-cü maddəni oxuyur.
**Sədr** - Etiraz olmadığından... Buyurunuz Sultan Məcid Qənizadə.
**Sultan Məcid** - Buradan... Məsələ burasındadır ki, siyahilərdə artıq səs qalanda o biri siyahilər verilsin. Böylə ola bilir ki, bir siyahı 70 min səs alıblar. Çünki bir məbusa verilən səs 25 mindir. Bundan bu çıxır 2 məbus seçilib 20 min artıq səs qalır. O biri siyahıdan də yenə 10 min səs artıq qala bilər. Bu qərar ilə axırda tutalım 110 min səs yığılsın qalsın. Bu səslər itməsin deyə verilsin ən artıq səs alan siyahiyə. Bunu iki cür başa düşmək olar. Bir var ki, siyahilərdən birisi 65 min səs alıb. Bundan ancaq 5 min səs artıq qalır. Ola bilər ki, böylə siyahi olsun ki, yetmiş min səs alıb 2 nəfər məbus çıxıb 20 min artıq. səs qalıb. Yəni birinci siyahinin 20 min səsi çatmayır, ikincinin 5 min səsi çatmayır. Bu bir növ düz gəlmir. Əlavə 100 mindən artıq səslər yığılıb qalsa. Onları hansı siyahilərə verəcəklər, məlum deyil. Bu redaksiyadan aydın anlaşırmayır ki, artıq səslər ümumiyyətlə çox səs alanlaramı veriləcək və yaxud siyahisindən ən çox artıq səs qalanlara veriləcəkdir. Mən təklif [852 - 853] edirəm ki, o redaksiya düzəlsin. Hamıdan əksik hansı siyahinin səsi çatmayırsa, artıq qalan səslər əvvəlcə onlara verilsin. Məsələn, əvvəl 2 min birisinin səsi çatmayırsa, məsələn 23 min artıq səs varsa, ona verilsin. Sonra birisinin 5 min səsi çatmayırsa ona verilsin. Bu qərar ilə artıq səslər çatmayan siyahilərə doldurulsun. 84-cü maddənin redaksiyası çalpaşıq olduğundan mən deyirəm ki, aşkar olsun ki, gələcəkdə ixtilafa səbəb olmasın.
**Sədr** - 84-cü maddəni səsə qoyuram. Kim qəbul edirsə əlini qaldırsın. 84-cü maddə əksəriyyət ilə qəbul edilir. 85-ci maddəni oxuyunuz.
**Katib** - 85-ci maddəni oxuyur.
**Sədr** - 85-ci maddəyə etiraz yoxmu? 85-ci maddə qəbul edilir. 86-cı maddəni oxuyunuz. Katib - 86-cı maddəni oxuyur.
**Sədr** - Etiraz yoxmu? Yoxsa 86-cı maddə qəbul edilir. 87-ci maddəni oxuyunuz.
**Katib** - 87-ci maddəni oxuyur.
**Sədr** - E'tiraz olmadığından 87-ci maddə qəbul edilir. 88-ci maddəni oxuyunuz.
**Katib** - 3-cü fəslin 88-ci maddəsini oxuyur.
**Sədr** - Etiraz olmadığından 88-ci maddə qəbul edilir.
**Katib** - 89-cu maddəni oxuyur.
**Sədr** - .Etiraz yox... Etiraz olmadıqdan qəbul edilir. Müsaidə veriniz bu gün qanunnamənin üç fəsli ilə iktifa edək. Buna etiraz yoxmu? Qəbul edilir.
Növbədəki məsələ Zəngəzur qaçqınlarına 18 milyon 750 min manat buraxılması barəsində qanun layihəsidir. Çünki keçən səfər müzakirə bitmişdi. İndi layihə ancaq səsə qoyulacaqdır. Söz məruzəçi doktor Rəfiyevindir.
**Rəfiyev** - Mən keçən dəfə söylədim, indi də deyirəm ki, acları ac qoymaq da olmaz. Danışıq ancaq onda ola bilər ki, bu pul nə cür paylansın və nə üsul ilə təksim olunsun. Ümuri-xeyriyyə naziri layihədə göstərir ki, bu pullar düz təksim olunmağı üçün bir komisyon təşkil olunsun və bu pulların təqsimi o komisyona buraxılsın. Komisyona ziraət, daxiliyə və ümuri-xeyriyyə nəzarətlərindən nümayəndələr daxil olmalıdır. Sözümü bununla bitirib layihənin qəbulunu təklif edirəm. [853 - 854]
**Sədr** - Layihəyə görə iki təklif varid olmuşdur. (Katibə). Oxuyunuz.
**Katib** - "İttihad" fraksiyonu tərəfindən kələn təklifi oxuyur, sosialistlər tərəfindən kələn təklifi oxuyur. **Qara bəy** (yerindən) - Qromko... eşidilməyir...
**Qənizadə** - O bizim deyil.
**Sədr** - Qənizadə əfəndi! Siz unutmursunuz, sizin təklifinizdir.
**Qənizadə** - Biz ona görə demişdik ki, Zəngəzur əhvalatı təyin olunsun, bir proqram və büdcə tərtib olunsun.
**Şəfi bəy** (yerindən) - Kişi nitq deyib təklif etməmişdir ki...
**Katib** - "İttihad" firqəsinin təklifini təzədən oxuyur.

**Sədr** - Çünki sosialistlər tərəfindən verilən təklif yalnız arzu olduğundan səsə qoymayacağam. Çünki qanun deyildir. Arzu sifətilə də hökumətə bildiririk. Etiraz yoxdur ki. Lakin "İttihad"ın təklifini səsə qoyacağam.

**Qara bəy** - Uzatmaqdır, öylə bir şey olmamışdır.

**Sədr** - Sultan Məcid, təklif barəsində buyurunuz. Qənizadə qaçqınlar barəsində belə söhbət oldu ki, onlara köçmək lazımdır. Onlara öküz də kotan da vermək lazımdır. Böylə söhbət oldu ki, Şamaxı qaçqınları da var. Onlar öz əlimizdədir. Onlara buğda, öküz, kotan indicə verilə bilməz. Lakin Zəngəzur əhvalatı fənadır. Onları qoymayırlar rahat yaşasınlar.

**Sədr** - Natiq əfəndi, təklif barəsində danışınız.

**Qənizadə** - Bəli, onların həyatları təmin edilməmiş, kömək də fayda etməz, çünki öküz də versək, deyib əllərindən alacaqlar. Onların həyatlarını hökumət əvvəlcə təmin etsin. Sonra kömək edilsin.

**Sədr** - Sizin burada ayrı təklifiniz var.

**Qənizadə** - Bu da, təklifimiz də qəbul edilsin, təmin olunsun.

**Sədr** - Burada müəyyən təklifiniz vardır. Onu səsə qoyacağam. Mən səsə qoyuram. hər kəs bu təklifi qəbul edirsə, rica edirəm əlini qaldırsın.

**Qarabəy** - Bu təklif ittihaddan deyil.

**Sədr** - Rica edirəm sakit əyləşəsiniz. Burada "İttihad" fraksiyonundan yazılıbdır. Buyurunuz, baxınız. Bəlkə siz oxumamısınız. Katib, oxuyunuz nə var.

**Qarabəyov** - Qənizadənindir.

**Qənizadə** - Təklifi yalnız mən yazmışam. [854 - 855]

**Sədr** - Sultan Məcid Qənizadənin təklifini səsə qoyuram. Kim qəbul edirsə rica edirəm əlini qaldırsın. Əksəriyyət ilə qəbul edilir. Layihəni səsə qoyuram.

**Katib** - Layiheyi-qanuniyyəni oxuyur.

**Sədr** - Kim layiheyi qanuniyyənin qəbul edilməsi tərəfdarı isə əlini qaldırsın. (Əllər qalxır). Kim əleyhinədir? (Əllər qalxır). Kim səs verməyib?

**Qənizadə** (yerindən) - Vse ravno, o pulu da yiyəcəklər.

**Sədr** - Rica edirəm... yemək məsələsi yoxdur.

Layiheyi-qanuniyyə əksəriyyət ilə qəbul edilir.

**Sədr** – Növbədəki məsələ Zəngəzurda, Ermənistanda bululan anlara smetada xaric olaraq üç milyon rubla buraxılması haqqında qanun layihəsidir ki, Ermənistandakı müsəlmanların halı qayət fənadır. Onlara heç bir tərəfdən müavinət olunmayır.

Ermənistanda olan siyasi nümayəndəmiz bizə xəbər verir ki, erməni hökuməti öz qaçqınlarına kömək etdiyi halda sahibsiz qalan müsəlmanlara müavinət etməyir. O halda onlara müavinət və yardım etmək bizə borcdur. Bunun üçün də 3 milyon rüblə istənilir, tainki bu pula lazım gələn məmulat alınıb göndərilsin və məmulat oradakı ağlara paylansın. Bu barədə kim danışmaq istərdi.

**Sədr** - Söz Rzayev Bağır bəyindir.

**Bağır bəy** - Möhtərəm məbuslar! İrəvanda bu axır vaxtlarda bir çox hadisələr vüqo bulmuşdur. Nəticədə bir çox müsəlmanlar fəlakətlərə, müsibətlərə düşdülər və yüzlərcə kəndlər dağıdıldı və əhalisi başqa yerlərə getdilər. bir qismi şimdi öz yerlərinə qayıdırlar, çoxusu isə daha yerlərinə qayıtmamışlardır. Bunlar özgə yerdə fəna halda yaşayırlar. Bir il əvvəl İrəvanda 22 min nəfər müsəlman yaşayırdı. Bu müsəlmanların çoxusu İrəvanı tərk etdilər İndi xırda-xırda qayıdırlar və evlərini, əşyalarını dağılmış görürlər. Əllərindəki pullarını itirmişlər. Bunlara şimdi müavinət lazımdır. Əgər erməni hökuməti öz qaçqınlarına etdiyi müavinəti müsəlmanlara etsə idi, əlbəttə iş bu hala müncər olmazdı. Yetişən xəbərlərdən anlayırıq ki, Erməni hökuməti müsəlman qaçqınlarına kömək etmir və fəlakətsədə müsəlmanların gözləri bizdədir, bizdən kömək gözləyirlər. Mən öz firqəmiz tərəfindən rica edirəm ki, ümumi-xeyriyyə nəzarəti bu [855 - 856] köməyi qəbul edib və məhəllinə çatdırsın və bir az əvvəl göndərilən pullar kimi olmasın. Tiflisdə hotellərdə yeyilməsin. Tələb edilən pul yerinə yetsin, bu pul çox deyildir və onları əski hallarına qaytara bilməsə də, onlar heç bir zaman bizim bu yaxınlığımızı və bizi həmişə yad edəcəklər.

**Sədr** - Söz Qarabəy Qarabəylinindir.

**Qarabəy** ("İttihad") - Həzarat! Bu qısaca qanun layihəsinin üstündə sizə oxunan sətirlər zahirən kiçik bir şey kimi nəzərə gəlirsə də amma mənası böyükdür. Bu məsələni Zəngəzur və Şamaxı qaçqınları məsələsi kimi tərəqqi edəməyiz. Deyirlər İrəvanda olan müsəlman aclarına 3 milyon para verilsin. Görək bununla məsələ həll olunurmu? Yalnız bununla İrəvanda və quberniyasında olan ac-susuz müsəlman qardaşlarımızın halı təmin edilirmi? Onlara kömək olunurmu? Ya yolda gedirkən yolçuya bir qəpik, 50 qəpik verilmiş kimi olacaqdır. Bu məsələ bütün siyasi məsələdir. Bunu neçə ki ianəyə açılan kömək kimi tələqqi etmək mümkün deyil. İrəvan quberniyasında görülən hallar, hadisələr, müsəlmanlara edilən zülmlər məlumdur. Böylə olan şeylər anarxiya vaxtında mümkün olan şeylərdir. Bizdə də Azərbaycanda olmuşdur. Müsəlmanları ermənilər qırırdı. Yerlərindən çıxarırdılar. Uyezdləri boşaldıb özləri otururdular. Məsələ buradadır ki, bu hal indi də davam edir. O vaxt hökumət yox idi, anarşi, hərc-mərc var idi. Bu cür hərəkətlərin önünü almaqdan aciz qalırdır. İmdi isə

bizim də, onların da hökumətimiz var, dövlətimiz var. Borcumuzdur məsuliyyəti qəbul edək. Baxınız, Qarabağda kiçik məsələ olmuş, hələ də üstündə əlləşirik. Amma belə hadisələr orada yomiyyə hallardır. Hər gün orada müsəlmanlar kəsilir, evləri dağılır. Ermənilər onların yerlərini zəbt edib, hətta onlara çörək də vermirlər. Səfirimizdən teleqraflar gəlmiş, daha başqa nümayəndələrimiz gəlib, səfirimizdən kağız gətiriblər. Ərizələr var ki, müsəlmanlar Azərbaycan nümayəndəsinə şikayət edirlər ki, bizim halımıza baxın. Onları evlərindən çıxarıblar, yurdlarını dağıdıblar. (Mərkəzdən səslər: “Eyib olsun! eyib olsun!”). Bunlara heç bir tərəfdən kömək olunmayır. Erməni aclarına, erməni hökuməti tərəfindən və Amerika heyətindən güclü taxıl gətirilib verilib. Amma oradakı müsəlmanların hamısı başdan-başa ac, paltarsız qapıdan-qapıya dolanırlar. halları xeyli pisdir. Yalnız İrəvanda bir minə qədər müsəlman acı vardır ki, durub kəndlərindən uzaq yerlərə gedib dilənməyə halları yoxdur. Yalnız müsəlmana olan kömək iki min nəfər üçündür ki, darını qaynadıb adama bir çaşqa verirlər. İki mindən çox ölənlər var. 30 min-dən ziyadə olaraq orada müsəlman qaçqınları vardır ki, nümayəndəmiz rəsmi surətdə xəbər vermişdir. Ərizələr ki, yüzü var o, ərizələrdən və bura göndərilən teleqraflardan görünür ki, bütün bu işlər müsəlmanlara qarşı tətbiq edilən bir sistemadır. Amma burada isə qışqırıq qaldırıb, dava edirlər ki, ay belə oldu, ermənilərə zülm oldu. Qarabağda hərci-mərcilik olduğu zaman, ermənilərə təzyiq yapmışlar. Onun üçün çığırtı-bağırtı salınır. Amma indi Ermənistanda müsəlmanlara rəsmi dövlət, hökumət ola-ola bu cür işlər tətbiq edilir. (Mərkəzdən səslər: "Eyib olsun! eyib olsun!"). Ermənistanda müsəlmanlar üçün bu hal ilə yaşamaq mümkün deyildir. Az-çox varı olanlar var-yoxlarını heç müqabilində ermənilərə satıb oradan çıxıb getməyə məcbur olurlar. Oradan gündə gələnlər var, deyirlər ki, şəhərdə hökumət nəzəri qarşısında, ingilis heyəti gözü qarşısında müsəlmanlara yaşamaq mümkün deyildir, Nəinki gecə-gündüzlər belə müsəlmanlar rahat kəsə bilmirlər. Qonşu-qonşuya köməyə gələ bilmir. Sonra şikayət edirlər ki, onların dərdlərinə, hallarına baxılmır. Müsəlman kəndlərində olan müsəlmanları kəndlərdən çıxarıblar. İrəvan aclar ilə doludur. Xahiş edirlər ki, onlar kəndlərinə gedib ot ilə, ələfiyyat ilə yaşasınlar. Amma onları kəndə buraxmayıb deyirlər ki kənddə, 45 ev varsa hamısı ermənilər ilə dolub artıq müsəlmanlar gələ bilməz. Xülasə rəsmi xəbərlərə görə ermənilər müsəlmanlara olmazın zülmlər edirlər. Qabaqda da ediblər. Qəbiristanlığın daşlarını belə çıxardıb, qəbiristanlığalığı dağıtmışlar. Məscidlərin qapısını, pəncərələrini cıxarıb aparıblar.

Damını uçurub orada rəzalətlər yapırlar. Bu işlər haqqında Ermənistan hökumətinə şikayət olunursa da hökumət laqeyd baxıb, heç bir iqdamatda bulunmur.

Bir xanım gəlib buraya, adı Tərlan xanımdır. O söyləyir ki, orada dolanacağı dolanacaq olmadığından öz evimi satmaq istədim. Bu evin pulu əlimdə qalmaq üçün. Evimi almaq istəyən erməniyə dedim ki, gəl burada doqovor bağlayaq pulunu mənə Gəncədə veriniz. Amma bu pullar bu vaxtadək hələ də gəlib [857 - 858] çatmayıb. Gördünüz orada müsəlmanların halı necədir və nə təhər orada yaşayırlar. Halbuki, hər zaman bizə qarşı o dövlətin nümayəndələri, həmməzhəbləri bizi müttəhim etməkdən çəkinmirlər. hər yerdə bizim haqqımızda qəzetlərdə min cür iftiralar və yalanlar yazırlar. Bizi vəhşi adlandırırlar. Doğrudan insafla davranmaq lazımdır. Neyçin orada hökumət bu ki-mi vəhşiliklərə məsul olmasın, neyçin bunların qarşısı alınmasın. Dünən qəzetlərdə oxuduq ki, Ermənistanda olan bəzi qanunsuz hərəkətlərdən ötəri bizim nümayəndəmiz bir nota vermiş. O notaya verilən cavabda deyilir ki, bizim hökumətimiz eylədir ki, orada heç böylə şeylər olmaz. Onun üçün verdiyimiz notaya, özünün daxili işlərinə qarışmaq kimi qəbul edib-etiraz ediyor. Amma bir həqiqət də var. Bu həqiqəti nə edəcəksən. Bunu gizlətmək olurmu? Bunu elə kəndlər dağılanda on minlərlə, yüz minlərlə müsəlman əhalisi acından qırılanda, kimsə onlara müavinət etməyəndə, biz onlara müavinət etməliyik. erməni qaçqınlarının keçəcəyi yerlərdə ərzaq mərkəzləri və qeyri bu kimi müavinət edən nöqtələr tərtib verilir ki, ermənilər ac qalmasınlar və müşkülat çəkməsinlər. Müsəlmanlara bəylə müavinət edilməsə də barı onlara pul ilə satın çörək satılsın.

Halbuki, bu da yoxdur. Budur ki, öz qardaşlarımıza, çünki onlar hər zaman özlərini bizim qardaşımız hesab edilər, müavinət etmək, onların fəryadına yetişmək bizim borcumuzdur.

Bunun üçün fikir verilsin, görək Azərbaycandamı vəhşət, ədalətsizlik və qanunsuzluq hökmrandır, yoxsa orada. Məəttəəsüf biz hər zaman səsimizi çıxartmayırıq. halbuki, onlar indi bir qədər bir çibini filə döndərirlər. Bunların hamısı mümkün olan şeylərdir. Bunların çarəsi gərək düşünülsün, bu pullar verilsin haman İrəvanda olan qrajdanlara onların dərdi bizim dərdimizdi. Üç milyona bir şey etmək olmaz. Onlara ciddi kömək. lazımdır. Lazım olan yerlərə müraciət etməlidir. Çörəyi onlardan əsirgəməmək olmaz. Amma ciddi surətdə deyirəm, hökumət gərək düşünsün, biz bunu qəbul etmiriz. Üç milyon deyil, yüz milyon da olsa azdır. Kömək olacaqdır. Hətta lazım olsa müsəlmanlar öz qardaşlarını qurtarmaq üçün öz həyatlarını da verəcəklər.

**Sədr** - Söz Qənizadə Sultan Məcidindir. [858 - 859]

**Qənizadə** - Rzayev cənabları ki, irəvanlıdır. O danışandan sonra daha mənə danışmaq az qalır. Bizim burada danışığımız ancaq sentimentalni bir şeydir. Guya biz kəffarə verməklə cənnəti boynumuza alırıq və daha bir vəzifəmiz yoxdur. Orada qardaşlarımızı kəsirlər, öldürürlər. Məqsədləri odur ki, müsəlmanlardan bir dənə qalmasın. Ata-baba yerlərindən tərk olsunlar. Ruhları belədir. Biz istəsək 3 milyon deyil yüz milyon verək bir çarə olmayacaqdır. Vaxtaki politika dediyim kimidir. Biz nə qədər pul versək, borcumuzu vermiş olmarıq. mənim əqidəm böylədir, Müsəlman həbsi qırıldığından, yerdə qalanları da ac və yolçuluğa möhtacdır. Əllərini

açıb yardım diləyəcəklər. Bu bizim şənimizə yaraşmaz. İslam heç vaxt zəlil olmaz. Gərək hər kəs öz işinə sahib, öz zəhmətilə dolansın. Başqasının əlinə baxmasına razı ola bilməriz. Ona görə bu 3 milyon ki, verilir, verilsin. Deməliyik verilməsin. Lakin onu demək istəyirəm ki, başqa yollar ilə onları o zalımın altından qurtarmaq lazımdır. Əgər lazım olsa oradan köçürüb Azərbaycanda sakin etmək lazımdır. Çünki, məqsədləri müsəlmanları tamamilə qırmaqdır. Ona görə deyirəm ki, 3 milyon ilə, ümumən pul ilə çarə olmaz. Pul nədir? Onu hər vaxt vermək olar, Hökumət kəsir, indi də kəsilib tökülər meydana. mən deyirəm biz ki, bu gün bir hökumət, bir cümhuriyyət, bir səltənət sahibiyiz. Onların hüququna, namusuna təcavüz olmağa qoyulmasın təklif edirəm, hərbi, siyasi və diplomatik yollar ilə, qardaşlarımızın buraya köçürülməsinə təşəbbüs olunsun.

**Sədr** - Söz ümuri-xeyriyyə naziri Klenevskinindir.

**Klenevski** - (Rusca).

**Sədr** - Təklif var, müzakirə bitsin, kim əleyhinə danışmaq istəyir.

**Əhməd Cövdət** - Zənn edirəm, burada bir iki adamın da ismi yazılıbdır. Müsaidə ediniz onlar da fikirlərini söyləsinlər.

**Sədr** - Təklifi səsə qoyuram. Kim lehinə, kim əleyhinədir? Hər kəs lehinə isə əlini qaldırsın. Əksəriyyət rəy ilə müzakirənin bitməsi barəsində olan təklif qəbul edilmir. Söz Hacı Hüseyn Əfəndinindir.

**Haçı Hüseyn Əfəndiyev** - Məbuslar bu qaçqınlar barəsində bir çox sözlər danışdılar. İcab etdiyi zaman biz bir çox [859 - 860] pullar buraxdıq deyildi. Şimdi də 3 milyon rüblə tələb edilir. Doğrudur, bu para onların halını düzəltməz və bir put unla onların halı yaxşılaşmaz və eyni zamanda biz onları tənbəlliyə öyrədərik. Çünki, onlar daim gözləyəcəklər ki, bizə filan yerdən müavinət gələcəkdir. Və bir də əfəndilər, kağız üzərinə yazılan sözlərlə iş olmaz.

Pulov-pulov deməklə qarın doymaz, düyü və yağ da lazımdır. Biz bilmirik bu pul yerinə çatacaqmı. Ona görə biz yenə təklif edirik ki, hökumət lazıma tədbirdə bulunub, onların həyat və istirahətlərini təmin eyləsin, bizə həqiqi yollar göstərsin, biz də o yollar ilə gedək.

**Sədr** - Söz Rəsulzadə Məmməd Əminindir.

**Rəsulzadə Məmməd Əmin** - Müstəəsifanə bəzi cəhətlər vardır ki, o cəhətləri Qara bəy bir əndazə söylədi. Çünki ora-da olan şeylərin hamısını söyləmək mümkün deyildir. Parla-man üzvü Malxazyan cənabları deyirlər ki, gərək bu məsələ iki millətin arasındakı həyəcanı qaldırsın. Əkər işə həqiqət nəzər ilə baxsaq görəriz ki, bu xüsusda Azərbaycan Ermənistan-dan daha çox çalışıbdır və ədalət göstəribdir. Çünki Ermənistan Naxçıvan müsəlmanları onları istəmədiyi halda onlara sahib oldular. Və sonra orada ki, əhalini hicrətə məcbur etdilər, mütəəssifanə necə də bu məsələləri meydana gətirdilər. Deyirlər ki, ümumiyyət ilə Ermənistanda aclıq var, bu doğrudur. Fəqət bircə fərq var ki, orada erməni aclarına kömək edilir, müsəlmanlara kömək edilməyir. Yalnız ermənilər tərəfindən deyil, Amerika tərəfindən də müsəlmanlara kömək edilməyir. Təbii hal böylə ikən Azərbaycan onlara müavinət etməlidir.

Deyirlər ki, Ermənistan hökuməti rəisi Xatisov söyləmişdir ki, Azərbaycanda ermənilərin halı Ermənistandakı müsəlmanların halı qədər xoş keçsə idi, mən buna iftixar edərdim. Əvvəla Allah eyləsin ki, buradakı ermənilərin halı, Ermənistandakı müsəlmanların halı kimi olsun və bir də burada bir fikir bəyan etdilər ki, guya Ermənistandakı müsəlmanları Azərbaycana köçürmək lazımdır Bu düzgün fikir deyildir. Hu hərəkətlə biz ermənilərin arzularına əməl etmiş olurduq. Və onlara kömək edərik, Naxçıvan və Şərur kimi qəzalar var ki, onlar bizim təbəələrimizdir. Biz var qüvvəmizlə çalışmalıyıq ki, onları qurtaraq. hökumətdən rica edirəm ki, göndərilən [860 - 861] unları yerində ədalətə müvafiq təqsim etsinlər, tainki əhali naminə göndərilən unlar vəkillərin cibinə girməsin.

**Sədr** - Söz Ağamalı oğlu Səmədağanındır.

**Səmədağa** - Buradan verdikləri 3 milyondur. Amma o qədər danışdılar ki, 3 milyonluq ağı sürtdülər. Qoymadılar bu məsələ heç olmazsa salamatlıqla olsun. Mən deyirəm ki, necə oldu ki, bu axır vaxt parlaman oldu aqitasiya yeri. İki milləti döyüşdürmək yeri. Sizə deyirəm ki, Bakıda, İrəvanda erməni-müsəlman nə qədər qırğınları olubdursa siz onların aralarında bir meyit görməmişsiniz ki, buradan danışılana oxşasın. Ölənlər tamamilə kasıblar, fəqirlərdir. Deyirəm, erməni də eşitsin, müsəlman da qalxsınlar, bunlara divan eyləsinlər...

**Sədr** - Natiq əfəndi! Natiq əfəndi! Burada milliyyət ədavəti qaldıran yoxdur. Milliyyət məsələsini sizdən qabaqkı natiqlərə də dedim.

**Səmədağa** - Xeyr...

**Sədr** - Natiq əfəndi, rica edirəm, mənimlə mübahisəyə kirişməyəsiniz və illa nakaz üzrə rəftar etməyə məcbur olacağam. Nitqinizdə davam ediniz.

**Səmədağa** - Neçə gündür ki, parlamanımızda insaniyyət dili itibdir. Biri erməni dili, biri türk dili danışır. Bizim sədr də deyir bu adam döyüşdürmək deyil...

**Sədr** - Natiq əfəndi sizə mən ikinci dəfə dedim, sədrin əmrinə etiraz etməyib, itaət edəsiniz. Abbasqulu Kazımzadə, sizdən də rica edirəm, yerinizdə rahat və sakit əyləşəsiniz. Söz Hacı Kərim Saniyevindir.

**Haçı Kərim Sanıyev** - Möhtərəm məbuslar! Burada təklif olunur ki, məclisi-məbusan 3 milyon manat dağılan müsəlmanlara veriləcəyi barəsindəki qanun layihəsini təsdiq eləsin. Amma bu danışıqlar dairədən çıxdı.

Böylə danışıqlar eşidənlər arasında ixtilafa və ədavət səbəb ola bilər. Əlalxüsus o adamlar ki, ola bilər şəxsi ədavətləri olsun bu işlərdən yeni yanğın qaldıra bilərlər. Necə ki, Səməd ağa ərz eylədi.

**Abbasqulu** (yerindən) - Səməd ağa heç bir şey ərz eləmədi, ancaq stakanı sındırdı.

**Haçı Kərim Saniyev** (davam edərək) - Bu işlərin zərəri dəyir o adama ki, qonşusu ilə ədavətə etmək istəmir. 1905-ci il-də də böylə oldu.

**Səslər** - Po suşestvu, po suşestvu. [861 - 862]

**Hacı Kərim Saniyev** - Po suşestvu ərz edəcəyəm böylə ianələr neçə dəfə göndərilib. Bir dəfə Ağaxan və Mirbağırova verildi ki, aparıb qaçqınlara versinlər. Onlar Bakıda qoydular ciblərinə, bunu biz bilirik Milli komitə adına iki vaqon buğda aparıb Tiflisdə satıb pulunu ciblərinə qoymuşdular. Onu da biz bilirik.

**Abbasqulu** - Eyb olsun onlara.

**Hacı Kərim** - İrəvan qaçqın və aclarına axır dəfə göndərilən pullar qaçqınlara paylamaq əvəzinə "Oriyant" qastinində yemək içində gizləndiyini də biz bilirik. O millətpərəstlər ki iki milləti vuruşdurub bir-birinə qırdırmaq istəyirlər. İrəvanda da var. Cəfərqulu xan əvvəlcə xalqı qızışdırıb bir-biri ilə vuruşdurur, sonradan da Ordubada gedib. Cəfərqulu xan Kəlbəli xan əvvəlcə xalqı qızışdırıb bir-biri ilə vuruşdurur sonradan da Ordubada gedib, Ordubad camaatını Ermənistana tabe etmək istəyirlər. Əvvəlcə xalqı vuruşdurub, sonra özləri erməni başqa-ları ilə bir yerdə kef çəkirlər. Amma orada fəqirlər qırılır. Bunlar da millətpərəstlərdir. Biz onu demək istəyirik ki, həqiqi millətpərəst olsunlar, cəmaət qırdırmasınlar. Çöllüləri arvad-uşağı dağlarda, özü isə aranda biçindədir. Aranı qarışdırıb onların arvad-uşaqlarının qırılmasına bais olmasınlar. Biz bu ianənin verilməsi tərəfdarıyıq, bu şərt ilə ki, bu ianə həqiqətdə möhtaclara gedib çatsın. Mən bilirəm ki, erməni hökuməti müsəlmanlara ianə verib Novobayadiz, Basarkeçər tərəflərə evə 500 manat pul paylayıbdır. Öz pulu, ya Amerika pulu, onunla işim yox bu qədər. Mən sübut edirəm.

**Abbasqulu** (yerindən) - Başımızı yarıb cibimizə qoz tökürlər.

**Sədr** - Sırada natiq olmadığından son söz məruzəçinindir.

**Musa bəy Rəfiyev** - Burada əsasən kömək etməyə etiraz edilmədi və ancaq arzu edildi ki, pul göndərilməsin, məmulat göndərilsin. Buna bir söz deyə bilmərəm. Fəqət Malxazyan cənabları söylədi və göstərdilər ki, Ermənistanda olan müsəlmanların halları Ermənistan rəisi-vükəlasi - Xatisovun elamnaməsinə görə pis deyil. Fəqət bizim söylədiyimiz rəsmi xəbərlər üzərinədir ki, onları biz rəsmi nümayəndəmizdən almışıq. Bu rəsmi xəbər çoxdur. Mən ancaq onların bir neçəsini sizə söyləmək istəyirəm ki, məlum olsun ki, biz söylədiklərimizi əllərimizdə olan rəsmi sənədlərdən söyləyirik. (Oxuyur). Bu bir teleqram, ikinci teleqramı oxuyur. [862 - 863]

**Səslər** - Eyib olsun!

Üçüncü teleqram, onu da oxuyuram. (Oxuyur). Bir neçə teleqram bizim rəsmi nümayəndəmizdən gəlib, ona inanmaya bilmərik. Onun yazdığına görə, Ermənistandakı müsəlmanların halı ğayəz fənadır. Öylə bir idarə yoxdur ki, onların halına baxsın, nəzər aparsın. Mənim söylədiyim əlbəttə bir propoqanda kimi oldu. Qanun layihəsinə əsasən etiraz olunmadı, fəqət, burada söylənildi ki, 3 milyon manatlıq məmulat alınıb göndərilsin. Onlar ac qalmasınlar.

**Sədr** (Mehdi bəyə) - Mehdi bəy, layihəni oxuyunuz.

**Mehdi bəy** - Layihəni oxuyur.

**Sədr** - Layiheyi-qanuniyyəni səsə qoyuram. Kim qəbul edirsə rica edirəm əlini qaldırsın. Əksəriyyət rəylə qanun layihəsi qəbul edilir.

Beş dəqiqəlik tənəffüs elan edirəm.

### Tənəffüsdən sonra

**Sədr** - İclas davam edir.Divani riyasətə Şamaxı uyezdi tərəfindən Azad bəy Şıxəlibəyovun parlaman üzvü seçilməsi xüsusunda bəratülqövl və başqa kağızlar gəlmişdir. Bunlar verilir etimadnamə komisyonuna sonra "İttihad" komisyonu tərəfindən bu məzmunda bir təklif varid olmuşdur. (Oxuyur).

**Sədr** - Bu təklif barəsində kim danışmaq istərdi? Pepinov buyurunuz.

**Əhməd Cövdət** - Mən bu təklifin əleyhinə söyləmək istərdim. Zənn edirəm "İttihad" fraksiyası bu təklifi verərkən bilib ki, qarşımızda bir çox həlli lazım mühüm məsələlər vardır. Təbiyyət və seçki qanununa o qədər mühüm deyil, ondan təcili və mühüm qanunlarımız vardır. Şəhər idarələrinə seçki qanunudur. Çünki bu işlərin pozuq olmasında hamı hökumət və parlamanı məsul tuturlar. Bir də torpaq qanunudur ki, komisyonda həll olunub, bizə təqdim olunmuşdur. Elan qabağımızdadır. Bunlara gərək təcili surətdə baxılsın. Bunlardan başqa yenə bir çox təcili məsələ vardır. Əgər tətil istəsəniz, bu qanunlar yenə qalacaqdır və hökumət məcbur olacaqdır ki, qanunları geri buraxıb və o məsələlərə əhəmiyyət verməsin. Onsuz da on gün tətil etdik. Buna ehtiyac yoxdur, zənn edirəm. Gedərlər işlər qalar. Biz işlərimizi daha da artırmalıyıq ki, mühüm məsələləri tezliklə həll edə bilək. [863 - 864]

**Sədr** - Söz Qarabəylinindir.

**Qara bəy** - Təklif başqa səbəbə görə vaqe olubdur. Məsələ buradadır ki, Bakı əhvalı böylədir ki, avqust ayında burada oturub işləmək əsla mümkün olmayacaqdır. Əgər oturub çalış-saq bir nəticə əldə ediləcəkmidir? Lakin olmayacaqdır. Cəmi 3-ə kimi iclasımız olacaq. Bu qədər vaxtda nə qədər zəhmət çəkəcəksən ki, bütün qanunlara baxıb qurtara biləsən. Bir ay tətil etmək və oturmaq, işlərimizə əsla təsir etməyəcəkdir. Onsuz da naxoşlayırlar. Məzuniyyətə gedib gəlməyirlər. Bu əziyyətləri ki, indi çəkəcəksiniz. Bir ay istirahətdən sonra çəksək olmazmı? Bir ay içərisində çalışacaq olursaq xeyir deyil daha zərər görəcəyik. Nümayəndələr yorulacaq və sonra qışa çata bilməyəcəklər. Gələcəkdə intixab kimi mühüm məsələlər vardır. Bunlar ilə məşğul olmaq mütləqa istirahət lazımdır. Təki sonra iş rahatlıq ilə kedə bilsin. Və illah məsələlərin təxirə düşməsi üçün deməyirik.

**Sədr** - Məsələni müzakirəyə qoyub-qoymamaq haqqında söz Mahmudov Mustafaya verilir.

**Mahmudov** - Bu tətil barəsində Əhməd bəyin sözlərində iştirak edərəm. Ayın birində ki, tətil təklif edirlər, haman gündən bir çox mühüm məsələlər müzakirəsinə başla-malıyıq. Burada bir çox məsələlər haqqında danışdılar, amma torpaq məsələsini unutdular. O barədə danışılmadı. Bu məsələ həll edilməsə parlaman heç bir yana gedəməz. Bilmirik ki, bu aya qədər başımıza nə gələcəkdir, nə bəlalar görəcəyik. Siz görürsünüz ki, siyasət təqib edilir, bilmirik sabah nə kimi fövqəladə bir əhval ola biləcəkdir. Ona görə təklif edirəm məsələ müzakirədən tamam götürülüb səsə qoyulmasın.

**Sədr** - Təklif var səsə qoyulmasın, etiraz yoxdurmu? Yoxsa müzakirədən götürülür.

**Qara bəy** (yerindən) - Etiraz var.

**Sədr** - Dedim, etiraz olmadı. Təklif var ki, tətil məsələsi əsla səsə qoyulmasın. (Əllər qalxır). Kim təklifin əleyhinədir? (Əllər qalxır). Kim səs verməyib? Əksəriyyət rəy ilə qərar qoyulur ki, tətil məsələsi müzakirə olunsun səsə qoyulsun.

**Sədr** - Parlamanın tətili haqqında kim danışmaq istər, üç həftəyə kimi tərəfdardır. Üç həftə, yaxud bir ay?

**Səslər** - Bir həftə. [864 - 865]

**Sədr** - Məclisi-məbusan intixabı, yer, torpaq məsələsi. Şəhər seçkiləri və sairə kimi mühüm məsələlər vardır. Üç həftəyə etiraz yoxmu?

**Səslər** - Yox.

**Katib** - Müsaidə buyurunuz.

**Sədr** - Buyurunuz.

**Katib** - Burada tətil məsələsi müzakirə olunur, anlaşılır ki, üzvlər istirahət etmək istəyirlər. Fəqət mühüm qanun layihələri müzakirəyə qoyub, keçirdikdən sonra tətilə iqtam etmək olar. Müzakirə edildikdən sonra tətil ola bilər. Buna etiraz yoxmu? Onda bu qayda qəbul edilir.

**Səslər** - Büdcə və darülfünün məsələləri də var.

**Sədr** - O halda bu cür qərar ola bilməz. Mən məsələni büsbütün növbədən götürüb, növbədəki məsələyə keçirəm.

**Qara bəy** - Onda tətil məsələsi qışa qalar.

**Sədr** - Pedaqoji kurs barəsindəki layihəyə keçirəm.

**Əhməd Cövdət** (oxuyur və sözünə davamla) - Hökumətin qərarına görə türkcə müəllimlər hazırlamaq üçün on yerdə - Qubada, Qusarda, Gəncədə, Şuşada, Səlyanda, Göyçayda, Qazaxda müəllimlər kursu açılacaqdır. Qazaxda məktəb hələ başlamayacaqdır. Köçəri olduqlarından payızda işə başlayacaqlar. Bakıda bir zükür, bir ünas məktəbi məlumdur. Zükür məktəbi 96 tələbədən ibarət açılmış, ünas qismində isə 30 müəllimə vardır. Bu müəllimlərin çoxusu ətraflardan gəlmişlərdir. Bunlar halən müəllimdirlər, qalanlarıda payızda imtahan verib, müəllimlik edəcəklərdir. Darülmüəllimin qurtarmış müəllimlərimiz azdır, çünki özlərinə başqa işlər tapmışlardır. İndiki müəllimlərimiz məəttəssüf ibtidai məktəbi bitirənlər-dəndirlər. hökumət qət etmişdir ki, onların yol xərcini verməklə bərabər burada təmin maaş olaraq hər birinə 20 min manat gündəlik verilsin və kursda hər dərsə müəllimlərə 100 manat mükafat verilir.

Bu surətlə kurslarda dərs deyən müəllimlərə 12 min rüblə, 24 min rüblədə müəllimlərə və bütün kurs üçün də 1.190.000 rüblə məsarif göstərilir.

Bu kursların hər birində bir müfəttiş olacaqdır ki, hər birinin maaşı 2500 manatdır. Bu kursların hər birində 50 nəfər oxuyur. hər birinə gündə 60 manatdan iki ayda yüz həştad min manat eylər. Kursda dərs verən müəllimlərə hər dərsi [865 - 866] nə yüz manatdan həftədə 30 dərsə, ayda on iki min, iki ayda 24 min manat, hər kursa ləvazimat almaq üçün 5 min manat iki ayda 10 min manat 50 nəfərin yol xərci biri 400 manatdan. Bunların da yolun uzaq, yaxınlığı münasibətilə bəzisinə yüz, bəzisinə də bəlkə 500 veriləcəkdir. Ümumiyyətlə 400-dən götürülmüşdür ki, 50 adama 20 min manat yol xərci eylər. Hər bir kursun iki ayda 239.000 manat xərci var. On yerdə kurs açılıb. Hamısının xərci 2.390 min manat pul edir. Nəzarət xahiş edir ki, bu pullar verilsin. Nəzarət hökumətin 20 milyonluq fondundan yarım milyon alıb bu kurslara xərcləmişdir.

Bu kurslardan qəti surətdə nə qədər gözəl nəticələr gözləmək olmaz ki, məsələn müəllimləri tamamilə öyrədib bir müəllim buraxsın. Bunu gözləmək artıqdır. Amma müəllimlər bir yerə cəm olurlar, hər halda mənfətbərdar olacaqlar. Bu iki milyonki pul verilir, hər halda camaatin əqlini açmağa və maarifinə sərf olunur.

Səmərəsi yüz dəfə artıq olacaq. Bu pulları itmiş hesab etmək olmaz. Dərslər haqqında onu deyərdim ki, ən ziyadə türkcəyə əhəmiyyət verilir. Ünas məktəbində çoxu türkcə zəifdirlər. Yarısı rus məktəbi bitirmiş xanımlardır. Ona görə ən ziyadə türkcəyə əhəmiyyət verilmişdir. Sonra hesab dərslərinə əhəmiyyət verilmişdir. Bundan başqa üsuli tədris və başqa fənnlər ikinci dərəcədədirlər. Hər şeydən artıq ancaq bu iki dərsə əhəmiyyət verilmişdir. Nəzarət tərəfindən təqdim edilmiş bu layihəni maliyyə və büdcə komisyonu qəbul edib təsdiq olunmaq üçün parlamana təqdim edir. Layihə budur. (Layihəni oxuyur).

**Sədr** - Kim danışmaq istərdi, layiheyi-qanuniyyə xüsusində. Danışmaq istəyən yoxsa, onda layihəni maddə-maddə səsə qoyuram. Əhməd bəy! Layiheyi-qanuniyyəni oxuyunuz.

**Əhməd Cövdət** - Birinci maddəni oxuyur.

**Sədr** - Kim qəbul edirsə, əvvəlinci maddəni rica edirəm əlini qaldırsın. (Əllər qalxır). Əksəriyyət rəy ilə əvvəlinci maddə qəbul olunur. 2-ci maddəni oxuyunuz.

**Əhməd Cövdət** - 2-ci maddəni oxuyur.

**Sədr** - İkinci maddəni səsə qoyuram. Kim qəbul edirsə, rica edirəm əlini qaldırsın. (Əllər qalxır). İkinci maddə əksəriyyət səs ilə qəbul olunur. Layiheyi-qanuniyyəni tamamən səsə qoyuram. Kim qəbul edirsə, rica edirəm əlini qaldırsın. (Əllər [866 - 867] qalxır). Layiheyi-qanuniyyə əksəriyyət ilə təmamən qəbul edilir. Növbədə məsələ Qarabağ haqqında hökumətin bəyanatıdır.

**Nəsib bəy Yusifbəyli** (Rəisi Vükəla) – Möhtərəm məbuslar! Qarabağ hadisatının təfsilatından sizə ərz etməyəcəyəm. O vüquat ki, orada olub mən güman edirəm siz onun təfsilatını burada söyləyən yoldaşlarınızdan eşitmisiniz. Onları təkrar etməyi mən öz tərəfimdən və hökumət namindən artıq bilirəm. Sizin yoldaşlarınızdan dörd nəfərini sizə məlumdur ki, hökumət vüquatdan sonra Qarabağa göndərdi, onlar orada olan vüquatı öyrəndikdən sonra gəlib sizə ərz etdilər. Mən bir şeyi ərz etmək istəyirəm, Məəttəssüf dokladlar ki, burada sizə söylənildi, onlarda ifrat və təfrit vardı.

Bir tərəfdən verilən dokladda səy edilmiş idi ki, Qarabağda vaqe olan hadisələrdə kimsə günahkar olmadığı göstərilsin, dikər tərəfdən sizə ərz olunan dokladdan məlum oldu ki, guya orada iki növ adamlar vardır, birisi zalim, o birisi məzlum. Zalımlar onlardır ki, orada olan məzlumlara son dərəcədə zülm etmişlər. Zalım müsəlmanlar, məzlum isə ermənilər olduğu göstərildi. Ermənilər tərəfindən heç bir hərəkət vaqe olmamış kimidir. heyətin erməni ərazisi tərəfindən təqdim olunan məruzədə hər bir xüsusda səbəb axtarılmışdır və səbəb göstərmişlər ki, guya iki nəfər əsgəri ermənilər tərki silah etmişlər. Əlbəttə bu öylə böyük bir məsələ deyil, bununda səbəbi varmış. O da bu imiş ki, müsəlmanlar tərəfindən bir erməninin tapançası alınmış imiş. Digər tərəfdən Qaybalı kəndi dağılmış. O kənddə gördüklərini həzin kartinalar, dəhşətli mənzələrlər təsvir edirlər. Amma həmin məruzədə söylənilməmişdir ki, Qaybalı kəndində olan müsəlmanların da evləri dağıdılmışdır. Dokladda bu barədə heç bir söz söylənilməmişdir ki, bütün müsəlman ailəsi dağılmış, iki arvad məqbul tapılmışdır.

Bunu ərz etmək istəyirəm ki, dokladlar öylə bir tərzdə yazılmışdır ki, bir tərəfdən müdafiə, dikər tərəfdən hücum edilir. Bir tərəf müqəssir görülərək, digər tərəf özünü təqsirsiz göstərmək istəyir.

Qarabağa göndərilən heyətdən əsl məqsəd bu deyil idi. Məqsəd o idi ki, cinayətin üstü açılsın və günahkarlar tapılsın Çübaryanın dokladına məclisi məbusan üzvlərindən birisi təqsirnamə adı verdi. Burada yəni bir məqsəd var. Bu məqsəd [867 - 868] günahkarları tapmaq deyil, general-qubernatoru təqsirləndirməkdir. həqiqətən general-qubernatorda günah varmı və ya yoxdur - bu böyük. bir məsələdir. Bu xüsusda hökumətin fikrini ərz etmək istərəm. Əlbəttə bilirsiniz ki, son zamanlarda Zaqafqasiyada qırğınlar olduğu zaman onda məhəlli hökumət məmurlarının əli olmuşdur. Əlbəttə burada da nəzərə gəlir ki, kənd dağılmış, arvad uşaq ölmüş bunda general qubernatorun da əli olmuşdur. Əgər qubernator həqiqətən yalançı və məqsədi də talan düzəltmək olsa idi, o zaman buna müsaid bir zəmin axtarardı. Baxıb görərəm, o vaxt ki, Qarabağda bu hadisə vaqe olmuş, o buna müsaidəmidir və ya deyildir? Bütün Qarabağ yolları köçərilər ilə dolu olan bir zamanda talan fikrinə düşmək dəlilik olardı. Çünki, o öylə bir zaman idi ki, həqiqətən böylə bir iş görmək onda bütün köçərilərin həyatını təhlükə altına buraxardı. Bunu şübhəsiz ki, general qubernator nəzərə almaya bilməzdi.

İkinci əgər məqsəd yalnız talan idisə məgər general qubernator başqa bir yer tapmayır ki, orada qursun? Öylə gərək Avropa nümayəndələrinin, ingilis və Amerika nümayəndələrinin gözü qabağında qura idi ki, gəlib o meyitlərin şəkillərini görsünlər və rəsmlərini alıb aləmə bildirsinlər. Yenə deyirəm: General-qubernator talan qurmaq istəsəydi başqa bir yer tapardı. Əgər general qubernator istəsə idi bütün Yevlaxdan Şuşaya kimi öylə bir proqram yapa bilərdi ki, bütün Qarabağ atəş içində qalardı. Əgər məmurlarda suiniyyət olsa idi əlbəttə böylə edərlərdi. Bilirsiniz general qubernatorun bunu edə bilmək qədər qüvvəti və nüfuzu vardır. Görürsünüz ki, burada suiniyyət olmamışdır. Əgər olsa idi bu hadisə iki şeydən baş verə bilərdi. Əvvəla general qubernator gərək divanə ola idi. Çünki, əqli başında olan şəxs Şuşanın iki verstliyində paqrom qayırmazdı. Yoxsa ayrı səbəb yoxdur.

İkinci isə o adam xain olmalı idi. Çünki həmin paqromdan Azərbaycan cəmaətinin, istər müsəlman, istər erməni olsun, bütün Azərbaycan əhlinin canı və malı tələf olmaq təhlükəsi vardır.

Qaybalı kəndi büsbütün sarsıldı. Orada iki yüz adam tələf olmuşdur. Zaqafqaziyanın halı bu saat eylədir ki, doğrudan da 200 adam nəzərə bir şey gəlmir. Lakin Şuşada Qaybalı kəndinin paqromı bir cinayətdir, bir dəlilikdir. Deyilə bilər [868 - 869] ki, Xosrov bəy iyi, ya fəna adamdır. Mən onu tanıyıram. Lakin heç bir kimsə ona xain deyə bilməz. Çünki şübhəsiz ki, bir xəyanətlik yoxdur. Poqrom barəsində general-qubernatorun heç bir suifikri və sui-qəsdi olmamışdır. Sonra dokladların birisində yeni tənzim olunmuş Azərbaycan əsgərlərini müttəhim etmək istəyirlər. Mən deyirəm, hər yerin əsgərləri arasında o cümlədən də Azərbaycan əsgərləri içərisində ola bilər fəna adamlar tapılsın. Bu bir təəccüblü şey deyildir. Özünüz görürsünüz ki, mənim məziyyətimdə bulunan iki nəfər əsgəri cinayət yapdıqları üçün boğazından asdılar. Ola bilir, onlar bütün mövcudiyyətimizi müdafiə edirlər. Lakin cinayətə görə onları da asdılar. Söyləmək ki, Qarabağ əsgərləri nizamı pozub, cinayət yapmışlar, bu mümkün deyildir, yalandır.

**Səslər** - Yalandır, biz qoymarıq... rədd edirik.

**Nəsib bəy** - İnsafı olan təsdiq edər ki, bizim ərkani hərbimiz erməni məzlumları üçün bir məcrə olmuşdur. Hər kəs orada həyatının təmin olduğunu görürdü. Şuşada əsgərlərimiz asayişi təmin və təcdid etməyə çalışmışlardır. Mən böylə əsgərlər ilə başqa şey deyil yalnız iftixar edərəm. (Alqış). Deyirlər, nə üçün əsgərlər vüquatın qarşısını almadılar və Qaybalı kəndinin mühafizə etmədilər?

Möhtərəm əfəndilər! Əvvala vüqatın necə olduğunu bilmirlər. Cəmaət bir-birini yemək istəyir. Şuşa od içində yanır. Əgər bütün Qarabağ alovlansa idi iş qayət fəna olardı. Orada öylə bir qüvvət olmalıdır ki, bu təhlükənin qarşısını alsın. Əlbəttə öz qüvvələrimizi parçalayıb kəndlərə paylaya bilməzdik. Əgər getmək istəsəydi belə məlum deyil ki, o kənd dostumdur, ya düşmənimdir. Bilmirik ki, o kənd əsgərlərin arxasından tüfəng atacaq ya atmayacaqdır. O əsgi əsgərlərimiz orada edibdir, ora gələn adamları mühafizə edib, müdafiə etmişlər, yedirib-içirmişlər. (Alqışlar). Biz bilirik ki, başqa əsgərlər böylə hörmətkaranə hərəkətdə bulunmazlar. O səbəbə əsgərlərimiz ilə iftixar edərəm. (Alqışlar). Az bir zamanda yetişmiş əsgərlərimiz isbat olundu ki, dissiplina (nizam) saxlayırlar. Bir söz demək olar ki, əsgərlərdə və Sultanovda günah yoxdur.

Hər-halda bir kənd məhv olmuşdur. Şəfi bəy Rüstəmbəyov öz nitqində dedi ki, Şuşada vüquat olmuşdur. Qaybalı kəndinin vüqui görünsə də filhəqiqə Bakı əhvalatındandır. [869 - 870]

Şamaxı, Şəki, İrəvan, Zəngəzur və Naxçıvan daha ufaq işədə, amma məəttəəssüf olmasilə bərabər çox böyük rəzalətdir və Asiya müsəlmanlarını ləkələyən vüquatdır. Üç dörd yüz arvad uşaq məhv edilmişdir. Keçmiş zamanlarda qonşular arasında böylə vüquat olmamış. Qədimdə arvad-uşağa əl vuran olmazdı. Şimdi kəndilərini kişi hesab edənlər silahsız və pənahsız arvad və uşaqları məhv edirlər. O səbəbə istinadən bu kimi cinayətlərin önünü almaq lazımdır. Ən böyük günah nədir? O günah ya Ermənistanda, ya Azərbaycanda kimsə canilərin əleyhinə qalxıb onları tənbeh etməmişdir.

Əfəndilər! Demək olmaz ki, İrəvanda və Ermənistandaki müsəlmanlar köylərində Qaybalı kəndindən əskik işlər və faciələr olur. Bunlar həpsi bir-birinə əvəz yapmaq deməkdir. Məncə caniləri mütləq tənbeh etmək lazımdır. Bu işləri, ədliyyə nazirinə təmamilə təftiş, ləyaqilə təhqiq etməsi və canilərin cəzaya çatdırılması əmr olmuşdur və komissiya seçilmişdir.

Başqa yollar da vardır ki, hökumət təvəssül etmişdir, onları da unutmamışdır. Bu yollardan birisi Qarabağ əhalisi nümayəndələri ilə bilavasitə bir çox məsələləri həll etmək təşəbbüsüdür. Buna iqtam edilmişdir. 6-cı erməni syezdi çağırılmışdır. Oradan nümayəndələr gəlib hökumət ilə müzakirədədirlər. Orada bir o qədər şey qalmamışdır. İşlər sülh ilə həll olur. Arada sizin istiqlaliyyətinizi Qarabağ ermənilərinin hamı olmasa da 4-dən üç hissəsi sülh konfransına qədər etiraf edib kəndilərini Azərbaycanda olduqlarını hiss və dərk edərək özlərini Azərbaycan təbəəsi elan etməklə qərar verirlər. Bundan əlavə başqa yerlər də daha vardır. Azərbaycanda da, Ermənistanda da bir çox cinayətlər vaqe olmuşdur. Bunları gözlə görmək və təhqiq etmək üçün millətlər nümayəndələrindən ibarət bir komisyon təşkil etmək mümkündür. Və hökumət də böylə bitərəf bir komisyonun təşkilinə qərar verib, erməni hökumətinə təklif etmişdir ki, 2 əza bizim parlamandan, 2 əza erməni parlamanında, 2 nəfər bitərəf adamlardan, məsələ: ingilis və ya İtaliya nümayəndələrindən bir heyət gedib həmi Qarabağ hadisatını, həm də Ermənistanda vüqu bulmuş və bulmaqda olan hadisatı öyrənsinlər. Azərbaycanda yaşayan ermənilərin və Ermənistanda yaşayan müsəlmanların halını təftiş etsinlər. Azarı təyin etsinlər ki, davası tapılsın. Çünki azar tapılarsa, davası tez tapılar. Ona görə mən təvəqqe [870 - 871] edərdim ki, tezliklə iki nəfər nümayəndənizi intixab edəsiniz. Ermənistan da razı olmuşdur. Komissiya gedər təftiş edər. İştə hökumətin tədbiri və fikri. Ola bilər ki, bu tədbirləri tənqid edənlər olsun və arzu edənlər də olsun. Amma bir şeyi ərz edərdim. Talan harada olunsa-olsun hökumətin əleyhində olacaq. Və poqrom qayıranlara ciddi cəza verməyə tərəf-dardır. Əkər hökumət bunu yapa bilməzsə bir dəqiqə iş başında qala da bilməz. (Alqış).

Bundan sonra iki təklif varid olub:

1 - Erməni fraksiyonları təklifi:

Azərbaycan parlamanı parlaman üzvlərindən mütəşəkkil heyətin məruzəsini və rəisi hökumətin Qarabağda iyul ayının əvvəlində vüqu bulmuş hadisələr xüsusunda bəyanatını dinləyərək arzu edir ki, hökumət tərəfindən məzkur hadisat münasibətilə general qubernator məmuriyyətindən kənar olmaq şərtlə istintaq təyin edilərək müqəssirlər kim olursa-olsun mənsəb və məmuriyyətinə baxmayaraq təqti məhkəməyə alınsın.

2 - "Müsavat"ın təklifi".

Qarabağ hadisatı haqqında hökumətin bəyanat və məlumatını dinləyərək və hökuməti-məhəlliyyə, xüsusən general qubernatorun əməl və fəaliyyətində heç bir qanunsuzluq əlaməti görməyərək Məclisi-Məbusan bu hadisənin təsviyəsi üçün hökumət tərəfindən ittixaz olunmuş tədbirləri təsviblə növbədəki məsələlərin müzakirəsinə keçir.

Birinci təklifin lehinə ancaq ermənilər səs vermişlər. Sosialistlər səs verməmişlər və əksəriyyət əleyhinə səs vermişdir. İkinci təklifin əleyhinə ermənilər və lehinə əksəriyyət səs vermişdir. Sosialistlər bu təklifə də rəy verməmişlərdir.

**Sədr** - Hökumətin bəyanatı haqqında kim danışmaq istər? Zahirən verilən bəyanat xüsusunda danışmaq istəyən yoxdur. Söz Əhməd Cövdət Pepinovundur.

**Əhməd Cövdət** - Əfəndilər! Üçüncü məclisdir ki, Qarabağ hadisatı mübahisə, mücadilə ediriz. Əvvəl parlaman tərəfindən gedən heyətin bu gündə hökumət rəisinin izahatını dinlədik. Bu barədə bir çox şeylər demək olardı. Lakin hökumət rəisi deyən sözlərin bir çoxu, bir neçə kəlmə də olsa deməyə bizi məcbur etdi. Məəttəəssüf haman məruzədə bulunan parlaman üzvləri, hökumət dediyi kimi bir tərəf ifrat dikər tərəf [871 - 872] təfrit gətirdilər. Məsələ cinayətdən ziyadə siyasətə müncərr oldu. Qara bəy və Şəfi bəy məsələni siyasi tərəfdən baxıb istədilər ki, bu cinayətin az olmağını göstərməklə guya Azərbaycan üzərindən bu ittihamı qaldırsınlar. Digər tərəfdən Çubaryan və qeyriləri böylə göstərirlər ki, guya bu hadisələrdə Azərbaycan qulluqçuları, məmurları müqəssirdirlər və o məmurları məsul bilib müttəhim edirlər. Hadisə haqqında bir nöqtə ərz edərdim ki, Qaybalı kəndində cinayət olmuşdur, bunu hökumət də etiraf edir. Buna cavab ola bilər ki, böylə hadisə cinayətdir, hökumət canini sarsar. Buna da cavab ola bilər ki, böylə cinayətlər hər hökumətdə olub canilərə cəza verilir. Ələlxüsus biz ki, ədalət, müsavat üzərində yeni hökumət yapmış, biz başqalardan Avropadan ədalət, müsavat gözləyirik. İndi onu öz aramızda, işləməzsə başqalardan gözləməyə haqqımız yoxdur. Bunun üçüncü tərəfi də vardır ki, məttəəssüf 10 sənədən bəri 2 millət arasında ədavət və küdurət davam edir. Bununla da ədavətin arası kəsilməz. Bunun axırı onda ola bilər ki, hər tərəf öz tərəfindən olan günahkarlara, canilərə tənbeh edə. Əgər hər tərəf öz canilərinə tənbeh etməzsə, bununla da bu işlərin qabağını almazsa, demək bir gözlə baxmaq, qardaşvari yaşamaq istəyiriz. Və deyilən bu sözlər də yalandır, əkər bir tərəf qəti tədbir görürsə o biri tərəf bunu görər və o da canilər xüsusunda qəti tədbirlər görməyə məcbur olar. Və bizim də o biri tərəfdən caniləri tənbeh etməyi tələb etməyə haqqımız var. Onda mən əminəm ki, o günki biz istəyirik gəlsin, gələr.

**Nəsib bəy** - Əgər Ermənistan içində böylə işlərə yol verilirsə Qarabağ vaqiəsi kimi işlərə imkan verməməliyiz. (Davamlı alqışlar).

**Sədr** - Söz Qarabəylinindir.

**Qara bəy** - Rəisi-Vükəla buyurdu ki, Şuşa vaqiəsi haqqında doklad edənlərin ikisi də, birisi müdafiə, digəri müttəhim etmək üçün çalışmışlar. Zənnimcə orada olan cinayətlər və həqiqətlər gizlədilməmiş və həqiqəti layiqincə təsvir etmirik və bir də müdafiəyə lüzum görmürəm. Gördüyümüz şeylər bir tərəfdə qalmış, yalnız əsassız şeylər ortalığa salaraq millətimizi və hökumətimizi ittiham etməyə çalışmışlardır, biz də onlara cavab verməyə məcbur olduq. Biz camaəti həyəcana gətirmək istəmirik. Biz həqiqəti söyləyirik, meydana qoyuruq. Erməni məruzəçisinin söylədiyi doğru deyildir. Biz çox yaxşı başa düşmüşük ki, bu məsələ müsəlmanları ittiham etmək üçün qaldırılıb. Onlar zənn edirlər ki, müsəlmanlar bunu anlamayacaqlar. Onlar da ittiham edəcəklərdir. Biz onların nə kimi siyasət yeritdikləri və tərzi-hərəkətlərini çox yaxşı düşünürük, görürük və bilirik. heç bir vaxt camaəti bir-birinə vuruşdurmağa çalışmayaq. Fəqət məəttəəsüf onlar daima bizə qarşı başqa fikirlər yürütmüşlər.

**Sədr** - Söz Əhməd Cavad əfəndinindir.

**Əhməd bəy** - Qara bəy doğru söyləyir. Bir tərəfdən bizi məsul edən ermənilər unutmamalıdırlar ki, kəndliləri də məsuldurlar. Çünki Qarabağa milyonlarca paralar və əsləhələr ermənilər üçün Qarabağdan gəlir və bir çox Daşnaksütun üzvləri Qarabağa gəlib təbliğat yapıb oranı da Ermənistana qatmaq istəyirlər. İllah bu da inkar ediləcək şey deyildir.

**Sədr** - Rica edirəm məsələni bitirəsiniz.

**Əhməd Cövdət** - Onun üçün deyirəm. Qara bəyin fikri doğru deyildir. Biz buna yol verməməliyik ki, böylə şeylər olsun. Bu yol çox ağır və zərərli yoldur. Bu yolda duran firqə adamları Azərbaycana düşməndirlər. Azərbaycanın istiqlalını istəməyənlərdir. Çünki böylə olsa aləm biləcək və Avropa öylə zənn edəcəkdir ki, doğrudan da bizim heç şeyə haqqımız yoxdur. Mən heç bir məsuliyyətdən qorxmuram. Çünki həyatımın son on ili içərisində, xüsusən 2 sənənin ərzində o qədər hadisələr görmüşdür ki, böylə qarışıqlar ona aşinadır. Qaybalı kəndi hadisəsində heç bir məsuliyyətdən qorxmayaraq mən təklif edirəm ki, hər kəs o hadisədə iştirak etmişsə təhqiq edilsin və müqəssirlər cəzalarını çəksinlər. Çünki biz bütün Azərbaycan xalqının mənafeyini gözləyirik. Bunun üçün tək məmurlardan müqəssirlər varsa cəzalandırmalıyıq. Bu gün hökumət qət eləmişdir ki, oraya bir komisyon getsin. Təhqiqatdan sonra məmurlarımızdan məsul olan varsa cəzalarını görsünlər. Doktor Qarabəy bundan qorxur. Mən isə bundan əsla qorxmuram. Avropa da bilsin ki, bizim adilinə bir hökumət qurmağa haqqı-

mız vardır. Bunu isbat edəndən sonra, onlardan haqqımızı tələb edə bilərik və isbat edərik ki, biz millətlər içərisində müstəqil yaşamağa qadirik. Zənn edirəm, Azərbaycandan ötəri bu fikir, bir sağlam siyasət olmalıdır. hökumət bu fikri təqib edir. Bu böylə. Lakin bir. məsələ də vardır ki, üzərində bir qədər [873 - 874] durmaq istəyirəm. Hökumət rəisinin dediyi söz doğrudur ki, bu Qarabağ hadisəsi Qaybalı kəndindən çıxmış bir məsələ deyildir. Onun bir çox başqa səbəbləri vardır. Bu da üç yeni cümhuriyyətlərin arasında sərhədlərin təyin edilməsidir ki, o da aramızda sülhlə həll olunmalıdır. Bu məsələ münasibətilə bu kürsüdən hökumətimizi müttəhim etməyə haqqımız yoxdur. Çünki hökumətimiz bizim fikrimizi təqib edir. hökumətimiz təklif etdi ki, bu məsələlər sülh ilə həll olunsun. Buna görə də Gürcüstanın birinci və ikinci təkliflərini qəbul etdi. Bu səbəbə hökumətimizi ittiham etməyə haqqımız olmaz. Lakin məəttəəssüf İrəvan hökuməti bu nöqteyi-nəzərdən qaçıb, məsələni Parisdə başqalarının əlilə həll etmək istəyir. Ona görə də bu məqsədlə Tiflisdə konfrans bir sülh yolu ararkən İrəvan hökuməti buna razı olmadı. O səbəbə sərhəd məsələsi yenə çarpaşıq qaldı. Biz Qarabağı öz torpağımız hesab edərkən, İrəvan hökuməti də Qarabağı öz yeri hesab edib oraya qüvvə və kömək göndərməkdə davam edir və sərhəd məsələsini böylə qarışığa salırlar. Biz Avropaya bildirməliyik ki, içərimizi özümüz həll edəcəyik, heç bir kənar hökumətə rəy verməyəcəyik və sərhəd məsələsini özümüz tezlik ilə həll edəcəyik. Çünki nə qədər sərhəd məsələsi var Qaybalı kəndi hadisələri də davam edəcəkdir. Bunu ancaq bilib də duymaq kifayət etməz. Bütün demokratiyanın vücudunu sarsıdan böylə hadisələrə yol verilməməlidir. Əgər Ermənistan içərisində buna yol verilirsə bizə o heç bir nümunə ola bilməz. Biz böylə hadisələrə meydan verməməliyik. Bununla da göstərməliyik ki, istiqlaliyyətə biz layiqik. (Alqış).

**Sədr** - Söz Qara bəy Qarabəylinindir.

**Qara bəy** - İndi hökumət bunu eyləməyib, əhali sahibsiz qalıb, özünü müdafiə etməyə haqqı vardır. Hökumət məsuldur. Gərək qanundan çıxmasın. Biz bu mənada söylədik. Madam ki, Qarabağda 4 uyezd Azərbaycana təəlüqünü qəbul edir və orasını Azərbaycanın bir qismi hesab edirlər. Buyursunlar, tabe olsunlar. Biz günahkarları taparıq və cəza verərik. Amma cəzanı məndən istəyirsən, nədir müsəlman əhalisi yolu ilə gedəndə onu qırsın, polis gələndə tüfəngi götürüb dağılışın, sonra da desin ki, kəndimizi dağıtdılar, cəza ver. Bəs sizə kim cəza versin. Buna sosialist nəzərimi, başqa bir nəzərmi deyirsiniz, bilmirəm. hər iki tərəfin canilərinə cəza verilməlidir. [874 - 875] Komisyon təşkil ediləcək, biz də onlara nümayəndə verərik. hər iki tərəfin caniləri müəyyən olsun. O zaman bizim sudumuz və hökumətimiz borcludur canilərə cəza versin. Hər iki tərəf canilərinə tənbeh olunmalıdır. Qanun, ədalət dərək belə olsun.

**Sədr** - Təklif var müzakirə bitir. Etiraz yoxdur ki? Etiraz yoxdursa, müzakirə bitir. Əsnayi-müzakirədə bir neçə qərar varid olmuşdur. Əvvəl, erməni fraksiyası tərəfindən rusca böylə bir qərar varid olmuşdur. Rusca yazıldığından əvvəl rusca oxuyum. Sonra tərcümə edərək (Rusca oxuyur) tərcüməsi böylədir. (Oxuyur).

Bu birinci. İkinci. Müsavat fraksiyonu tərəfindən varid olub, onun da məzmunu böylədir. (Oxuyur).

Bu formulaları necəki varid olublar əyləcə də səsə qoyacağam. Əvvəl erməni fraksiyonu tərəfindən verilmişdir, onu səsə qoyuram. Hər kəs bu formulayı qəbul edirsə, rica edirəm əlini qaldırsın. (Yalnız erməni fraksiyonu əllərini qaldırır). Kim əleyhinədir? Sosialistlərdən başqa qalan məbuslar əllərini qaldırırlar. Kim səs verməyib? (Yalnız müsəlman sosialist fraksiyası əllərini qaldırırlar). Lehinə 8, əleyhinə 28, səs verməyən 11. Əksəriyyət rəy ilə erməni fraksiyonları tərəfindən verilən formul qəbul edilmir.

Müsavat fraksiyonu tərəfindən varid olan formulu səsə qoyuram. Kim qəbul edirsə rica edirəm əlini qaldırsın. (Əllər qalxır). Kim əleyhinədir? (Erməni fraksiyonu əlini qaldırır). Kim səs verməyib? (Müsəlman sosialistləri əllərini qaldırır). Lehinə 33, əleyhinə 8, səs verməyən 10. Əksəriyyət rəylə müsavat tərəfindən təklif edilən formul qəbul edilir. Söz parlaman üzvü Vinoqradovundur.

**Vinoqradov** - Rusca.

**Sədr** - Slavyan-rus cəmiyyəti tərəfindən varid olan məktub mandat komisyonuna veriləcəkdir. (Vinoqradova xitabən rusca söyləyir).

Bununla müsaidə versəniz iclası qapayıram. İclas qapanır, axşam saat 5 tamamda.

**Arxiv, f.895, siy.1, iş.100. vər.56-97**. [875 - 876]

**№-57**

**Əlli yeddinci iclas**

*21 iyul 1919-cu il*

**Rəis** - Doktor Həsən bəy Ağayev. **Katib** - Mehdi bəy Hacınski. Müzakireyi-yomiyyə:

1) Daxil olmuş kağızlar: o cümlədən: Gəncə qəzasından iki üzv intixabi; 1) Divani-rəyasətin, parlaman iclaslarının bazar və cəhar-şənbə günləri axşam saat 7-yə təyin olunması haqqında təklifi; 2) Rus-slavyan cəmiyyətinin bəyanatı; 3) Cəmil bəy Lənbəranskinin Cavanşir uyezdindən intixab olunması haqqında; 4) İrəvan şəhər ümuri-xeyryyə naziri vəkili maaşı və onun idarəsi, məsarifatı üçün məzkur nazirə yüz yetmiş yeddi min rüblərik bir təxsisat barəsində layiheyi-qanuniyyə; 5) Doğrudan-doğruya alınan vergi və poşlinin hərbi zamanlara müğayir alınmasının təmdidi haqqında qanun layihəsi; 6) Beynəlmiləl heyətə iki üzv intixabi; 7) Məclisi-müəssisan seçkiləri haqqında qanun layihəsi. 3-cü qiraət. Məruzəçi Rəsulzadə; 8) Şəhərlər mənfəətinə idxal və ixrac olunan yüklər-dən alınan müvəqqəti vergi nizamnaməsi haqqında qanun layihəsi, məruzəçi Ağabəyov; 9) Nazir müavinlərinə yeni maaş təyini haqqında qanun layihəsi. Məruzəçi Ağabəyov; 10) Hökumət əndində xüsusi təftişat və təhqiqat komisyonunun təşkili haqqında. Məruzəçi Şəfi bəy Rüstəmbəyov; 11) Sənaye şəhadətnamələri qiymətlərinin artırılması haqqında. Məruzəçi Rüstəmbəyov; 12) Spirt məhsulatından alınan aksiz vergisi miqdarının artırılması haqqında. Məruzəçi Ağabəyov; 13) Azərbaycan cümhuriyyəti sərhədlində mühafizə bölgüsü təsis haqqında. məruzəçi Ağabəyov; 14) Tövci vergisinin artırılması ilə bərabər torpaq gəlir və məxaric smetasının və torpaq vergisi miqdarlarının təmdidi haqqında layiheyi-qanuniyyə; 15) "İttihad" fraksiyasının hökumətə sualı. Daxil olmuş layiheyi-qanuniyyələrdən seçkiyə dair kağızlar ki, Gəncədən Hacı Qasım oğlu Molla Əhməd və Cavanşir uyezdindən doktor Ləmbəranskinin barəsindədirlər, göndərilir mandat komisyonuna, iki layiheyi-qanuniyyə daxil olmuşdur: biri İrəvanda bulunan ümuri-xeyryyə naziri vəkili və iradəsi üçün istənilən 177000 manat və 5-ci qanuniyə layihəsi gedir maliyyə və büdcə komissionuna. Rus və slavyan obşestvosundan heyəti rəyasət naminə böylə bir kağız gəlmiş. (Oxuyur).

Kağız verilir mandat komisyonuna. Xariciyyə nəzarətindən bu məzmunda bir məktub gəlmiş. (Oxuyur). Məsələdən şəksiz və şübhəsiz xəbəriniz var. hər 2 tərəf, xah ermənilər, xah müsəlmanlar daima bir-birindən şikayət edirlər. Ermənistan daima şikayət edir ki, Azərbaycanda ermənilərə əziyyət verilir, Azərbaycan da habelə şikayət edir ki, Ermənistanda müsəlmanlara əziyyət verilir. Buna görə Azərbaycan hökuməti Ermənistan hökumətinə təklif etmişdir ki, bu barədə bir təhqiqat komisyonu təşkil edilsin. O səbəbə hər iki tərəfdən müştərək bir təhqiqat komisyonu əmələ gətirmək üçün Ermənistanın razı olduğuna görə bu kağız gəlib 2 nəfər bizdən əza seçməyi təklif edirlər. İndi görək o iki nəfəri seçəsiniz. Əgər lazım görsəniz tənəffüsdə intixab edərsiniz və ya inki verilsin divani rəyasətə.

**Səslər** - Verilsin divani-rəyasətə.

**Sədr** - Etiraz yoxsa qəbul olunur.

**Sədr** - İclasımızın günü və saatını dəyişdirmək barəsində təklif var. Məlumunuzdur ki, indiyə qədər iclaslarımız həmişə saat 11-ə təyin olunub. 12 və 1-də ancaq açılır. İclasların vaxtı da düşür istiyə və işləmək qeyri-mümkün olur. Ona görə divani-rəyasət təklif edir, iclaslar bundan belə axşam saat yeddidə başlansın caharşənbə və bazar günləri. Etiraz yoxsa qəbul olunsun.

**Səslər** - Şənbə və caharşənbə günləri... Şənbə, caharşənbə.

**Sədr** - Şənbə, caharşənbə deyirlər. Çaharşənbə günü təyin etməkdə məqsəd odur ki, iclasdan sonra üzvlərdən bağa gedənlər varsa, gedə bilsinlər. Buna etiraz yoxdumu?

**Səslər** - Etiraz var, etiraz var.

**Sədr** - Bazar günü və caharşənbə günlərini qəbul edənlər əllərini qaldırsınlar. Qəbul olunur. Onu da əlavə edirəm ki, təyin olunmuş günlərdə üzvlər yarım saat gec gəlsələr, gözləməyib iclası açıb, qapayacağam. Növbədəki məsələ.

**Səslər ortadan** - Etiraz var. Şənbə və caharşənbə günlərini səsə qoyunuz. [877 - 878]

**Sədr** - Bazar və caharşənbə günləri oldu. Etiraz edən də olmadı.

**Səslər** - Oldu... Səsə qoyunuz.

**Sədr** - Onda, əvvəlcədən divani-rəyasətin təklifini səsə qoyacağam. Sonra sizin. Divani rəyasətin təklifi bazar və caharşənbə günləridir. Yerdən təklif edirlər ki, şənbə və caharşənbə günləri olsun. Səsə qoyuram. Kim iclasın axşama təyin olunması tərəfdarı isə əlini qaldırsın. (Əllər qalxır). Əksəriyyət rəylə qəbul olunur. İndi divani-rəyasət təklif edir ki, bazar və caharşənbə günləri olsun.

**Səslər** - Ayrı-ayrı səsə qoyunuz.

Sədr - Ayrı-ayrı qoyuram. əvvəl divani-rəyasətin təklifini səsə qoyuram. Kim qəbul edirsə rica edirəm əlini qaldırsın. (Əllər qalxır). Əksəriyyət rəylə təklif qəbul olunur. Parlamanın qərarı ilə iclaslar həftədə iki gün

olacaq. Bazar və caharşənbə günləri, axşam saat 7-də. Növbədəki məsələ məclisi-müəssisan seçkiləri haqtında qanun layihəsidir. Doqquzuncu bab, 90-cı maddə.

**Katib** - Oxuyur.

**Sədr** - 90-cı maddəyə etiraz yoxsa qəbul olunur.

**Katib** - 91-ci maddəni oxuyur.

**Sədr** - 91-ci maddəyə etiraz yoxdursa, qəbul olunur. 92-ci maddəni oxuyunuz.

**Katib** 92-ci maddəni oxuyur.

**Sədr** - 92-ci maddəyə etiraz yoxdur ki? Yoxsa qəbul olunur. 93-cü maddəni oxuyunuz.

**Katib** 93-cü maddəni oxuyur.

**Sədr** - Etiraz yoxdur ki. Qəbul olunur.

**Katib** 94-cü maddəni oxuyur.

**Sədr** - Etiraz yoxdursa, bu da qəbul olunur.

**Katib** 95-ci maddəni oxuyur.

**Sədr** - Etiraz yoxsa, 95-ci maddə qəbul olunur. 96-cı maddəni oxuyunuz. |

**Katib** 96-cı maddəni oxuyur.

**Sədr** - Etiraz olmadığından 96-cı maddə qəbul olunur.

**Katib** 97-ci maddəni oxuyur.

**Sədr** - Etiraz olmadığından 97-ci maddə qəbul olunur. 98-ci maddəni oxuyunuz.

**Katib** 98-ci maddəni oxuyur.

**Sədr** - Etiraz yoxsa 98-ci maddə qəbul olunur.

**Katib** 99-cu maddəni oxuyur.

**Sədr** - 99-cu maddə də qəbul edilir. 100-ü maddəni oxuyunuz.

**Katib** - 100-cü maddəni oxuyur

**Sədr** - Etiraz yox, 100-cü maddə qəbul edilir. 101-ci maddəni oxuyunuz.

**Katib** 101-ci maddəni oxuyur.

**Sədr** - Etiraz olmadığından 101-ci maddə qəbul edilir. 102-ci maddəni oxuyunuz.

**Katib** - 102-ci maddəni oxuyur.

**Sədr** - Etiraz yoxdur, 102-ci maddə qəbul olunur.

**Katib** - 103-cü maddəni oxuyur.

**Sədr** - Etiraz yox? Etiraz olmadığından, 103-cü maddə qəbul olunur. 104-cü maddəni oxuyunuz.

**Katib** - 104-cü maddəni oxuyur.

**Sədr** - Etiraz yox. 104-cü maddə qəbul edilir. 105-ci maddəni oxuyun.

**Katib** - 105-ci maddəni oxuyur.

**Sədr** - Etiraz yox. 105-ci maddə qəbul olunur. 106-cı maddəni oxuyunuz.

**Katib** - 106-cı maddəni oxuyur.

**Sədr** - Etiraz olmadığından 106-cı maddə qəbul olunur. 107-ci maddəni oxuyunuz.

**Katib** - 107-ci maddəni oxuyur.

**Sədr** - 3 hissədən ibarət 107-ci maddə, etiraz olmadığından qəbul olunur.

**Katib** - 108-ci maddəni oxuyur.

**Sədr** - 108-ci maddə qəbul edilir. 109-cu maddəni oxuyun.

**Katib** - 109-cu maddəni oxuyur.

**Sədr** - Etiraz olmadığından 109-cu maddə qəbul edilir. 110-cu maddəni oxuyun.

**Katib** - 110-cu maddəni oxuyur.

**Sədr** - Etiraz olmadığından 110-cu maddə qəbul edilir. 111-ci maddəni oxuyunuz.

**Katib** - 111 -ci maddəni oxuyur.

**Sədr** - Etiraz olmadığından 111-ci maddə qəbul edilir. 112-ci maddəni oxuyunuz.

**Katib** - 10-cu babdan 112-ci maddəni oxuyur.

**Sədr** - 112-ci maddə qəbul edilir. 113-cü maddəni oxuyun. [879 - 880]

**Katib** - 113-cü maddəni oxuyur.

**Sədr** - Etiraz yox. 113-cü maddə qəbul edilir.

**Katib** - 114-cü maddəni oxuyur.

**Sədr** - Etiraz yox. 114-cü maddə qəbul edilir. 115-ci maddəni oxuyunuz.

**Katib** - 115-ci maddəni oxuyur.

**Sədr** - 115-ci maddə qəbul edilir. 116-cı maddəni oxuyunuz.

**Katib** - 116-cı maddəni oxuyur.

**Sədr** - Etiraz yox. 116-cı maddə qəbul olunur. (Kyüsterə) Adamları çağırınız. Qasım bəy! Rica edirəm, səsə qoyacağam, getməyəsiniz. Mirzə Hüseyn! Üzvləri çağır! Layiheyi-qanuniyyəni tamamən səsə qoyuram. Kim layiheyi-qanuniyyəni tamamən qəbul edirsə, rica edirəm əlini qaldırsın. (Əllər qalxır). Layihəyi-qanuniyyə

muttəhidül rəy ilə təmamən qəbul olunur. Layiheyi-qanuniyyə veriləcək təshih komisyona. Lakin rica edirəm gələn səfərə bitirəsiniz. Layihənin 10-cu maddəsinə görə 21 nəfər kişidən ibarət bir seçki komisyonu təşkil olunmalıdır. Maddənin məzmunu belədir. (Katibə) Mehdi bəy! Oxuyunuz o maddəni.

**Katib** - Layihənin 10-cu maddəsini oxuyur.

**Sədr** - Bunu nəzərdə tutun, bəlkə gələn iclasda tamam edəsiniz.

**Katib** - Layihənin 10-cu maddəsini rusca oxuyur.

**Sədr** - Keçirəm növbədəki məsələyə. Növbədəki məsələ şəhərlər nəfinə idxal və ixrac olunan yüklərdən alınan müvəqqəti vergi nizamnaməsi haqqında qanun layihəsidir. Məruzəçi Rza bəy Ağabəyov...

**Sədr** - Keçəlim növbədəki məsələyə.

Bakı bələdiyyə idarəsilə, şəhərlərə idxal və ixrac olunan əşyalardan (poputnı sbor) vergisinin artırılması haqqında layiheyi-qanuniyyə.

Şəhərin qanun üzrə bir neçə mədaxil yeri var. Bu mədaxil artırılmışsa da yenə az olmuşdur. Xərci çatmayır. Bakı bələdiyyəsinin 62.000.000 xərci vardır. 32.000.000 rüblə mədaxili var. Buna görə də 50 milyon rüblə də zərər vardır. Nə qədər qeyri-vergilər artırılsa da 50 milyon defisit düzəlməz. Ona görə bələdiyyə idarəsi öz məruzəsində rica edir ki, ona icazə verilsin girən və çıxan mallardan məxaric alsın. Ona görə bu qanun layihəsi parlamana təqdim və qəbulu rica olunur. [880 - 881] Sair şəhərlər də bu təşəbbüsdə olurlarsa təbii hökumət onlara da icazə verəcəkdir.

**Katib** - Oxuyur.

**Sədr** - Bir az hündürdən oxuyunuz.

**Katib** - Oxuyur.

**Rza bəy** - Təkrar rusca oxuyur.

**Sədr** - Qanunun əsasları üzrə kim danışmaq istər. Danışmaq istəyən yox. Layiheyi-qanuniyyənin ikinci qiraətinə keçilməsini səsə qoyuram. Etiraz yoxmu? Keçilir ikinci qiraətə. Mehdi bəy, oxuyunuz.

**Katib** - Birinci maddəni oxuyur.

**Sədr** - Əvvəlinci maddə xüsusunda kim danışmaq istər? Əvvəlinci maddəni səsə qoyuram, etiraz yoxmu? Əvvəlinci maddə qəbul olunur. İkinci maddəni oxuyunuz.

**Katib** - Oxuyur.

**Sədr** - İkinci maddə xüsusunda kim danışmaq istər? Etiraz yoxmu? İkinci maddə qəbul edilir. Üçüncü maddəni oxuyunuz.

**Katib** - Oxuyur.

**Sədr** - Üçüncü maddə xüsusunda kim danışmaq istəyir? Üçüncü maddəni səsə qoyuram. Etiraz yoxmu? Üçüncü maddə qəbul edilir. Dördüncü maddəni oxuyunuz.

**Katib** - Oxuyur.

**Sədr** - Dördüncü maddə xüsusunda kim danışmaq istəyir? Danışmaq istəyən yoxmu? 4-cü maddə qəbul olunur.

**Katib** - Təkrar oxumaq istər.

**Sədr** - Müsaidə ediniz. Əfəndilər! Məclisə böylə bir tək-lif var, səslərin kəsilməsi və məclisi-məbusanın hörmətin mühafizə və bəyanatçıların bir az da hündürdən danışması təvəqte edilir. Məclisin hörmətini saxlamaq barəsində danışmağı mən çox artıq bilirəm. Oxuyunuz, əfəndim!

**Katib** - Oxuyur.

**Sədr** - Beşinci maddə haqqında etiraz yoxmu? Kim danışmaq istər. Danışmaq istəyən yoxmu? Beşinci maddə qəbul edilir. Altıncı maddəni oxuyunuz.

**Katib** - Altıncı maddəni oxuyur.

**Sədr** - Altıncı maddə-xüsusunda kim danışmaq istər? Danışmaq istəyən yoxmu? 6-cı maddə qəbul edilir. 7-ci maddəni oxuyunuz.

**Katib** - Oxuyur. [881 - 882]

**Sədr** - Yeddinci maddə xüsusunda kim danışmaq istər? Etiraz yoxmu? Layiheyi-qanuniyyənin üçüncü qiraəti qalır gələcək iclasa.

**Sədr** - Növbədəki məsələ nazir müavinlərinə yeni maaş təyini haqqında layiheyi-qanuniyyə. Məruzəçi Rzabəy Ağabəyov.

**Ağabəyov** - Keçən may ayının 19-da parlaman bir qanun layihəsi qəbul edib ki, onunla parlaman üzvlərilə hökumət əzalarının maaşları artır. O qanun layihəsi üzrə nazirlərə ayda altı min manat maaş təyin olunub ki, bu maaşın parlaman üzvlərinin maaşlarilə bərabər, nazirlərə üç min də əlavə verilir ki, cəmi doqquz min manat alırlar. O on doqquz may qanununda nazirlər müavinləri barəsində bir şey yox idi. İndi hökumət onları hökumətin üzvləri hesab edir, çünki bəzən onlar nazirlər yerini də dolandırırlar. İndi hökumət bir qanun layihəsi vermiş ki, bu layihə üzrə nazir müavinlərinə aprelin birindən ayda beş min manat məvacib və iki min manat da əlavə təyin olunsun. Maliyyə və büdcə komisyonu bunu müzakirə edib qəbul etmişdir və parlamana da qəbulunu təklif edir. Qanun üç maddədən ibarətdir.

**Katib** - Oxuyur.

**Sədr** - Layihə əsasları üzrə kim danışmaq istər? Danışmaq istəyən yoxsa layiheyi-qanuniyyənin ikinci qiraətinə keçirəm. Etiraz yoxmu? Etiraz yoxsa qəbul olunur. Əvvəlinci maddəni oxuyunuz.

**Katib** - Əvvəlinci maddəni oxuyur.

**Sədr** - Əvvəlinci maddə xüsusunda kim danışmaq istərdi.

**Səslər:** - Nəyi gözləyirsiniz?

**Sədr** - Kvorum yoxdur, üzvləri gözləyirəm. Əvvəlinci maddəyə etiraz yoxdur? Etiraz yoxsa qəbul olunur. İkinci maddəni oxuyunuz.

**Katib** - İkinci maddəni oxuyur.

**Sədr** - İkinci maddə xüsusunda kim danışmaq istər. Əgər danışan yoxsa səsə qoyuram. İkinci; maddəyə etiraz yoxdur. Etiraz yoxsa qəbul olunur. Üçüncünü oxuyunuz.

**Katib** - Üçüncü maddəni oxuyur.

**Sədr** - Üçüncü maddə barəsində kim danışmaq istərdi?

**Şəfi bəy Rüstəmbəyov** - Onu ərz etmək istərdim ki, məvaciblər iyul ayının əvvəlindən təyin olunsun, qanunda deyilən kimi aprelin birindən olmasın. [882 - 883]

**Sədr** - Təklif var ki, məvaciblər iyulun birindən qəbul olunsun.

**Səslər** - Düzdür.

**Sədr** - Kim bu barədə söz istərdi? Söz istəyən yoxsa, son söz məruzəçinindir.

**Rza bəy Ağabəyov** - Bu xüsusda maliyyə büdcə komisyonunda danışıldı. Komissiya ancaq apreldə dayandı. Çünki bu qanun iki ay bundan əvvəl qəbul olunubdur. Təxiri barəsində günah müavinlərdə deyil, hərgah vaxtında təsdiq olunsa da, onda onlar da bu vaxta qədər məvaciblərini almışdılar. Bir də bununla biz may qanunun əsasını pozuruq. Bugünkü qanunla biz göstərmək istəyiriz ki, may qanununda müavinlər barəsində zikr olunur, madam ki, belədir, gərək bunların da maaşlarını, nazirlərin maaşlarını artıran vaxtdan artıraq, onlarınkı aprelin birindən artırılıb, bunlarınkı da aprelin birindən artırılmalıdır.

**Sədr** - Rica edirəm xüsusi söhbətlə məşğul olub səs salmayasınız, çünki mühərrirlər yaza bilmirlər.

**Rza bəy** (davam edir) - Biz maliyyə büdcə komissiyonunda ancaq xəzinə mənfəətini gözləyirik, lakin müavinlərin maaşları barəsində danışılıb, qət olunub ki, onların maaşları aprelin birindən qəbul olunsun və bunu da qəbul etməyi parlamandan xahiş edirik.

**Sədr** - Deməli təklif ikidir. Biri komisyonun öz təklifidir ki, aprelin əvvəlindən hesab olunmasını təklif edir. Biri də indi Rüstəmbəyovun tərəfindən təklif olunur ki, iyulun birindən hesab olunsun. Çünki məruzəçi təklifi qəbul etmir. Ona görə əvvəl Şəfi bəy Rüstəmbəyovun təklifini səsə qoyuram. Kim qəbul edirsə, rica edirəm əlini qaldırsın. (Əllər qalxır). Kim bu təklifin əleyhinədir? Kim səs verməyib? Rica edirəm hamınız iştirak edəsiniz. Bir də səsə qoyuram. Kim Şəfi bəy Rüstəmbəyovun təklifinə tərəfdardırsa, rica edirəm əlini qaldırsın. Kim əleyhinədir? Kim səs verməyib? Lehinə 24, əleyhinə 7, səs verməyən 11. Əksəriyyəti ilə qəbul olunur, iyulun birindən.

Layiheyi-qanuniyyənin 3-cü qiraəti qalır gələcək iclasa. Növbədəki məsələyə keçmədən 5 dəqiqəlik tənəffüs elan edirəm.

**(Tənəffüsdən sonra)**

[883 - 884]

**Sədr** - İclası davam edirik. Növbədəki məsələ sənaye şəhadətnamələrinin qiymətini artırmaq haqqında qanun layihəsidir.

Məruzəçi Ağabəyov, burada səhv yazılıb, məruzəçi Ağabəyov deyil, Şəfi bəy Rüstəmbəyovdur.

**Şəfi bəy** - Bu layiheyi-qanuniyyə ki, gəlib, əsasən sənaət vergilərinin artırılması məsələsidir. Deməli 1910-cu il-də qəbul edilən vergi qanunu, 1914-cü ildən bu yana artırılmışdı. 40-50 faiz, vəhalanki 100-90 faiz qət olunmuşdu. İndi maliyyə nəzarəti əvvəldən qəbul edilən əsas üzrə vergilərin artırılmasını təklif edir. Deməli, vergilər 1914-cü ildən 3 qat artırılmalıdır. Bu qanunun bir tərəfidir. Digər tərəf də budur ki, bəzi sənətxanalar bu vaxta kimi şəhadətnamələr almırdılar, amma vergi vermirdilər. Bu da ona görə idi ki, Rusiya dövləti sənətxanaların və tacirlərin işini asanlaşdırmaq istəyirdi. İndi isə biz çalışırıq ki, mallar xaricə çıxmasın. Ona görə təklif olunur ki, Rusiya zamanında 421, 471 və 457-ci maddələr ləğv edilsin və əvəzinə qərar qoyulsun ki, bu vaxta kimi vergi verməyənlər bundan sonra vergi versinlər. Lahiyənin 3-cü tərəfi budur ki, o tacirlər, kontorlar ki, vaxtında şəhadətnamə almırlar, onların əlindən bəratülqövl qayrılıb verilərdi kozyonnı palataya, ondan sonra kozyonnı palata onların cərimələrini təyin edirdi. İndi maliyyə nəzarəti bunu yüngülləşdirmək istəyir. Və təklif edir ki, cərimələri nəzarət tərəfindən podatnovi inspektor təyin edib alsın. Daha bir də kozyonna palataya getməsin. Bu layihəyə komisyon baxıb bəzi şeylərin layiheyi-qanuniyyədə olmadığına görə geri qaytarmışdı. İndi nəzarət layihəni təzədən düzəldib komisyona göndərdi və komisyon da təbəddülatsız qəbul edib, parlamanın təsvib və təsdiqinə təqdim ediyor.

**Katib** - Layihəni oxuyur.

**Sədr** - Əlavəsi də var. Onu da oxuyunuz.
**Katib** - Layihənin əlavəsini oxuyur.
**Sədr** - Oxunan qanun layihəsi xüsusunda kim danışmaq istərdi? Söz Qasım bəy Camalbəyovundur.
**Camalbəyov** - Möhtərəm üzvlər! Biz əsasən əgri naloqların ziddi olmuşuq...
**Səslər** - Əgri naloq hansıdır?
**Sədr** - Rica edirəm natiqə mane olmayasınız.
**Səslər** - Başa düşmürük, əgri naloq hansıdır?[884 - 885]
**Camalbəyov** - Bu gildinin artmağını əgri naloq hesab edirik. Gildi artırılıb pulu xəzinəyə veriləndə dükançı da şeylərin üstünə qoyacaqdır. Camaat də şeyləri baha alacaqdır. Bu qərar ilə bir adamdan naloq alınanda, dükançıdan alınan da camaatin boynuna gələcəkdir. Ona görə biz həmişə naloq əleyhinə olub podoxodnı naloq tərəfdarı olmuşuq. O cəhətdən biz bunun ziddinə gedəcəyik.
**Sədr** - Sırada natiq olmadığından layiheyi-qanuniyyənin ikinci qiraətinə keçirəm. Buna etiraz yoxdur ki?
**Səslər** - Yoxdur, yoxdur.
**Sədr** - İkinci qiraət qəbul edildi. (Katibə) Əvvəlinci maddəni oxuyunuz.
**Katib** - 457-ci maddəni oxuyur.
**Sədr** - 457-ci maddə xüsusunda kim danışmaq istərdi? Danışmaq istəyən yoxsa səsə qoyuram. Səsə qoyuram 457-ci maddəni. Buna etiraz yoxdur? Etiraz yoxdur qəbul olunur. 471-ci maddəni oxuyunuz.
**Katib** - 471-ci maddəni oxuyur.
**Sədr** - 471-ci maddə xüsusunda kim danışmaq istəyir? Danışmaq istəyən yoxdursa səsə qoyuram. Bu maddəyə etiraz yoxdur? 471-ci maddə qəbul edilir.
**Katib** - 500-cü maddəni oxuyur.
**Sədr** - 500-cü maddə xüsusunda kim danışmaq istərdi? Qəbuluna etiraz yoxdur? Etiraz yoxsa 500-cü maddə qəbul edilir.
**Katib** - 501-ci maddəni oxuyur.
**Sədr** - 501-ci maddə xüsusunda kim danışmaq istərdi? Etiraz yoxdur buna? (Sosialistlərə müraciətən). İltifat ediniz bu maddəyə siz etiraz edirsiniz. Üçüncü qəraətin əleyhinə əlinizi qaldırarsınız. 501-ci maddə qəbul edilir.
**Katib** - 502-ci maddə xüsusunda kim danışmaq istərdi? Qəbuluna etiraz yoxdur? 502-ci maddə qəbul olunur. 503-cü maddəni oxuyuz.
**Katib** - 503-cü maddəni oxuyur.
**Sədr** - 503-cü maddə xüsusunda kim danışmaq istərdi? Etiraz yoxdur? 503-cü maddə qeydlə bərabər qəbul edilir. 504-cü maddəni oxuyunuz.
**Katib** - 504-cü maddəni oxuyur. [885 - 886]
**Sədr** - 504-cü maddə xüsusunda kim danışmaq istərdi? Etiraz yoxdur 504-cü maddəyə? 504-cü maddə qəbul edilir. 505-ci maddəni oxuyunuz.
**Katib** - 505-ci maddəni oxuyur.
**Sədr** - 505-ci maddə haqqında etiraz yoxmu? Etiraz olmadığından 505-ci maddə qəbul edilir. 506-cı maddəni oxuyunuz.
**Katib** - Oxuyur.
**Sədr** - 506-cı maddə xüsusunda etiraz yoxmu? 506-cı maddə qəbul edilir. 507-ci maddəni oxuyunuz.
**Katib** - Oxuyur.
**Sədr** - 507-ci maddə haqqında kim danışmaq istər? Etiraz edən yoxmu? 507-ci maddə qəbul edilir. 579-cu maddəni oxuyunuz.
**Katib** - Oxuyur.
**Sədr** - 579-cu maddə haqqında kim danışmaq istər?.. Etiraz yoxmu? Qəbul edilir. 589-cu maddəni oxuyunuz.
**Katib** - Oxuyur.
**Sədr** - 589-cu maddə haqqında kim danışmaq istər? Etiraz yoxmu? Qəbul edilir. Fəsilə bərabər... 591-ci maddəni oxuyunuz.
**Katib** - Oxuyur...
**Sədr** - 591-ci maddə xüsusunda kim danışmaq istər... Etiraz yoxmu? 592-ci maddəni oxuyunuz.
**Katib** - Oxuyur.
**Sədr** - 592-ci maddəyə etiraz yoxmu? Qəbul edilir. 592-ci fəsillə bərabər.
**Sədr** - 590-cı maddəyə etiraz yoxmu. qəbul edilir... 492-ci əlavə fəslini oxuyunuz.
**Sədr** - 0 doğru deyil, ikinci siniflər üçün 200, üçüncü siniflər üçün 225, dördüncü siniflər üçün 150 olacaq.
**Katib** - Oxumağa davamla.
**Sədr** - Xeyir... 65, 45, 20...
**Katib** - Oxumağa davam edir...
**Sədr** - 449-cu maddənin əlavəsi haqqında kim danışmaq istər? Etiraz yoxmu? Qəbul edilir.

Layiheyi-qanuniyyənin üçüncü qiraəti gələcək iclasa qalır.

**Sədr** - Növbədəki məsələ hökumət indidən təftişat və təhqiqat komisyonu təşkili barəsində. Məruzəçi Şəfi bəy Rüstəmbəyov.

**Şəfi bəy -** Ayın 26-da hökumət idarəsində baş verən suiistemal və xəyanətlərin təftiş və təhqiqi üçün bir təftiş [886 - 887] komisyonu təşkil olunur. Məlumi-alilərinizdir ki, bir çox yerlərdə xəyanətlər və cinayətlərin kəramətilə baş verməkdədir. Bu cinayətlərin qabağını almaq üçün hökumət bir təftişat və təhqiqat komisyonu əmələ gətirir, biri təftiş etmək üçün və o birisi də təhqiqat lazimiyyə yapıb suda vermək üçündü. Hökumətin fikri odur ki, cinayətlər və xəyanətləri suda verməkdən əvvəl bu kimi işləri təftişat və təhqiqat komisyonuna həvalə etsin və təftişat, təhqiqatdan sonra müqəssirləri suda verməyə ixtiyarı olsun. Bu vaxtadək bu ixtiyar sudlarda idi, indi bir neçə qanunların ixtiyarını bunlara verilməlidir ki, bunlar qulluqçuları suda verə bilsinlər. Təftiş komisyonu ümum idarələri, postları, xidmətçiləri evlərə belə girib təftiş etməyə ixtiyarı vardır. Rusiyada belə qanun yoxdur ki, böylə işlər müfəttiş ixtiyarına verilsin, bu ixtiyarlar okrujnoy sudlarda idi. Rusiyada ancaq sənət təftişi var idi. Bu zakonlarda Rusiyanın əvvəlinci dumunda idi, bunu da Zaqafqariya seymi ləğv etmişdi. Çünki onu Rusiya padşahı öz xahişi ilə əmələ gətirmişdi. İndi Ədliyyə nazirimiz yeni bir qanun yazmışdır ki, parlaman gərək onu qəbul etsin. Bu günlərdəki kağızlar təftiş olunurdu. Ona keçmişdə silistdə baxa bilməzdilər, ancaq okrujnoy sudlar baxarlardı. Bu ixtiyar da indi verilir təftişat və təhqiqat komisyonuna. Bir neçə işlər də vardır ki, təftişat komisyonunun onlara baxmağa ixtiyarı yəqindir. Məsələn ədliyyə məmurları və natoryuslar kimi. İndi onlar da verilir Sudebni palata. Bu vaxtadək təftişat komisyonu 4 adamdan ibarətdir ki, ələn orada işləməyir. İndi ədliyyə naziri təklif edir ki, 8 adam olsun və məvacib əvəzinə onlara sutoçnı verilsin. O şəxslər ki, hökumətə qulluq edirlər, onlara suçotnı az verilsin, onlar ki, hökumət məmuriyyətində deyildirlər, onlara çox verilsin  bu layihəni təshihsiz qəbul edib parlamanın qəbulunda təklif edir.

**Sədr** - Bu qanun barəsində kim danışmaq istərdi. danışmaq istəyən yoxsa 2-ci qiraətə keçməyi səsə qoyuram. Etiraz yoxdur. Oxu.

**Katib** - Əvvəlinci maddəni oxuyur.

**Sədr** - Birinci maddə xüsusunda kim danışmaq istərdi. Danışmaq istəyən yoxsa, səsə qoyuram. Birinci maddəyə etiraz yoxdur. Birinci maddə qəbul olunur. 2-ci maddəni oxuyunuz.

**Katib -** 2-ci maddəni oxuyur. [887 - 888]

**Sədr -** 2-ci maddənin xüsusunda kim danışmaq istərdi. Danışan yoxsa səsə qoyuram. 2-ci maddəyə qeydi ilə bərabər, **e**tiraz yoxdur. Qəbul olunur.

**Sədr -** 3-cü maddəni oxuyunuz.

**Katib -** 3-cü maddəni oxuyur.

**Sədr -** 3-cü maddəyə etiraz yoxdur. 3-cü maddə qəbul olunur. 4-cü maddəni oxuyunuz.

**Katib -** 4-cü maddəni oxuyur.

**Sədr -** 4-cü maddənin xüsusunda kim danışmaq istər? Etiraz da yoxdur? 4-cü maddə qəbul olunur. 5-ci maddəni oxuyunuz.

**Katib -** 5-ci maddəni oxuyur.

**Sədr -** 5-ci maddəyə etiraz yoxdur? 5-ci maddə qəbul olunur. 6-cı maddəni oxuyunuz.

**Katib** - 6-cı maddəni oxuyur.

**Sədr** - 6-cı maddəyə etiraz varmı? 6-cı maddə qəbul olunur. Əgər müsaidə versəniz yerdə qalan 7, 8 və 9-cu maddələri kələn iclasa qalsın. İndi növbədə "İttihad" fraksiyasının sualıdır. (Katibə) Əhməd, oxuyunuz.

**Katib** - Oxuyur.

**Sədr** - Nakaz üzrə söz imza edənlərdən birincinindir. Qarabəyli Qara bəy.

**Səslər** - Rusca... Rusca... Tərcümə ediniz.

**Katib** - Sorğunu ruscaya tərcümə edir.

**Sədr** - Söz Qara bəy Qarabəylinindir. O olmadığından ikinci imza edənə verilir. Heybətqulu Məhəmmədbəyovundur. O da yoxdur. Həmdulla əfəndi buyurunuz. Beş adam imza atmışdır. Biri gərək danışsın. (Heybətqulu daxil olur). Heybətqulu əfəndi, buyurun.

**Heybətqulu** - Biz sualda yazılanları müdafiə edəcəyik. Hökumət cavab versin.

**Sədr** - hökumət bəyanat vermədiyindən nakazın 76-cı maddəsinə görə qalır gələn iclasa. *

**Məmməd Əmin** (yerindən) - Hökumət bilirmi?

**Sədr** - Göndərmişəm. Növbədə xaric söz Qasım bəy Camalbəyova verilir.

**Camalbəyov** - Möhtərəm məbuslar**.** Mənim bu gün bura çıxmaqda məqsədim İrəvan quberniyası müsəlmanları haqqında bir neçə kəlmə söz söyləməkdir. Mən və o fraksiya ki, mən ona mənbusam, heç bir vaxt bizim fikrimizdə olmayıb ki, bu iki [888 - 889] millətin münasibətini razjiqat eyləyək. Bu olmayıb. Biz həmişə də bu fikirdə onlarla mübarizə etmişik. Şimdi, onu deməliyəm ki, İrəvan quberniyasında olan müsəlmanların halı çox təhlükəlidir. Bir yer yoxdur ki, müsəlmanlar tərəfindən erməni hökumətindən narazılıq bizə çatmasın. Neçə gündür ki, böyük Vedidə və kiçik Vedidə yenə dava başlanıbdır. Bu dava nə cür başlanub, nə cür gedir

işim yoxdur. heç yerdə görünməmiş bir hökumət var, öz məmləkətində, öz təbəələrlə müharibə eləsin. Ermənilər bizdə asudə yaşayırlar. Gəncədə müsəlmanlar necə yaşayırlar, ermənilər də öylə yaşayırlar.

**Səslər** - Sağ ol.

**Qasım bəy** - Amma mən bilmirəm niyə İrəvanda müsəlmanlar öylə yaşamırlar. Və erməni hökuməti bir tədbir görmür ki, müsəlmanların halını yüngülləşdirsin. Aldığımız məlumata görə kiçik Vedi ermənilər tərəfindən dağılmışdır. Budur teleqraf təzə gəlib, hüzurunuza ərz edim. (Teleqrafı oxuyur rusca) Bunu deməkdə məqsədim o deyil ki, bu iki millətin arasını qatışdıram. Bu yox, ola bilməz. Biz heç vaxt bu iki millət arasında qan düşmək tərəfdarı olmamışıq. Ancaq, nəzərinizi buna cəlb etməyə məcburam ki, İrəvan müsəlmanlarının halı xeyli fəna və təhlükəlidir. Bir yer yoxdur xəbər gəlməsin ki, incidirlər. Naxçıvanda və qeyri yerlərdə müsəlmanları hədsiz incidirlər. Gərək hər bir hökumət öz cəmaətinin asudə olması üçün çalışsın. Amma nə cür olubsa Ermənistanda eylə deyildir. Özüm oradan kənaram gələnlərin dediklərində işim yoxdur. Amma bir fakt deyəcəyəm. Müsəlmanlar sistematiçeski İrəvan quberniyasından qaçırlar.Mənim qardaşım da oradan qaçıb. Yazıq bir sakit adamdır. heç kəs ilə işi olmaz. Bunu hüzurunuza ərz etməkdən məqsədim odur ki, özüm oradanam və borcumdur deyim. Ola bilər ki, bu işlərin gələcəkdə ağır nəticələri ola bilər ki, bunun nəticələri bizim məmləkətdə də zühur etsin. Bunun qabağını almaq üçün bizim də dövlət ya parlaman erməni hökuməti ilə ya qeyrilə nə növ eyləyirsə eyləsin, ancaq tədbirlər görsün. Bunun qabağını almaq üçün bir mera görsün. Yoxsa belə başına buraxmaq olmaz. Bu saat Vedi ermənilər tərəfindən bombardıman edilir. Burası 30 parakənddir. Böylə getsə hamı dağılar. Və təhlükənin nəticəsi nə ola bilər. [889 - 890]

**Sədr** - Növbədən xaric bəyanatı dinləməklə iclası qapayıram.

İclas saat 3.15 dəqiqədə qapanır.

**Arxiv, f.835, siy.1, iş100. vər 33-35.**

**№-58**

**Əlli səkkizinci iclas**

*23 iyul 1919-cu il.*

**Rəis** - doktor Həsən bəy Ağayev. **Katib** - Mehdi bəy Hacınski.

**Rəis** - Keçən dəfə iclas axşama təyin edildiyindən mən zənn edir idim ki, daha məbuslar vaxtı müəyyəndə gələrlər. Təyin edilən vaxtdan yarım saat keçdi isə də yenə kvorum düzəlmədiyi üçün iclası qapamağa məcburam - deyib iclası qapadı.

**Arxiv, f.895, siy.1, iş 9, v.83.**

## № 59

## Əlli doqquzuncu iclas

*27 iyul 1919-cu il.*

**Rəis** - doktor Həsən bəy Ağayev. **Katib** - Mehdi bəy Hacınski.

Müzakireyi-yomiyyə:

1. Daxil olmuş kağızlar. O cümlədən: a) Zəngəzur qaçqınlarına yardım etmək edici heyətə parlamandan bir üzv intixabi, b) Ləvazim heyəti komisyonuna Abbasqulu Kazımzadə əvəzinə yeni bir üzv intixab edilməsi; 2 - Şəhərlər nəfinə idxal və ixrac olunan yüklərdən alınan müvəqqəti vergi nizamnaməsi haqqında layiheyi-qanuniyyə - 3-cü qiraət; 3. - Nazir müavinlərinin maaşı təyini haqqında layiheyi-qanuniyyə. Üçüncü qiraət; 4 - Sənaye şəhadətnamə qiymətlərinin artırılması haqqında. Üçüncü qiraət; 5. - Hörmət əndində xüsusi təftişat və təhqiqat komisyonunun təşkili haqqında; Üçüncü qiraət; 6. - Sənət və məşğələsindən dolayı mükəlləfiyyəti-əsgəriyyədən azad edilənlər haqqında layiheyi-qanuniyyə; 7. Bələdiyyə idarələrinə qlasnılar intixabı haqqında layiheyi-qanuniyyə; 8 -Spirt məhsulatından alınan aksiz vergisi miqdarlarının artırılması haqqında layiheyi-qanuniyyə; 9 - Azərbaycan cümhuriyyəti sərhəddində mühafizə bölüyü təsisi haqqında layiheyi-qanunniyyə; 10 - Tövci vergisinin artırılması ilə bərabər torpaq gəlir və məxaric smetasının və torpaq vergisi miqdarlarının artırılması haqqında layiheyi-qanuniyyə; 11 - "İttihad" fraksiyasının hökumətə sualı; 12 - Nəşri-elan haqqında layiheyi-qanuniyyə; 13 - Maliyyə nəzarəti şurası təsisi haqqında layiheyi-qanuniyyə; 14 - Fabrika inspeksiyasına dair qəvai-din müvəqqəti təğyir edilməsi haqqında layiheyi-qanuniyyə.

1. Rəis-Keçən iclas kvorum olmadığından baş tutmadığı üçün müzakirəti-yomiyyə haman iclas üçün hazır edilən qərar üzrə olmasını bəyan ilə, əlavə 1 - Ləvazim komisyonundan üzv Abbasqulu Kazımzadə çıxdığı üzrə həmin komisyona yeni bir üzv;

- Məclisi-müəssisanın mərkəzi komitəsinə üzvlər və 3-cü Zənkəzur qaçqınlarına yardım edici heyətə parlaman tərəfindən bir üzv intixab edilmələri haqqında iclasın axırında namizədlər göstərilməsini təklif etdi.

2. Şəhərlər nəfinə idxal və ixrac olunan yüklərdən alınan müvəqqəti vergi nizamnaməsi haqqındaki layiheyi-qanuniyyə - 3-cü qiraətinə şüru etdi. Rəis layihəyi qabaqca maddə-maddə sonra təmamən səsə qoydu və əksəriyyəti-ara ilə qəbul edildi.

3 - Nazir müavinlərinə yeni maaş təyini haqqındakı layiheyi-qanuniyyənin üçüncü qiraətini katib bitirdi. Rəis layihəni əvvəl-əvvəl maddə-maddə, sonra tamamən maaşı iyulun birindən verilməsi təshihi ilə səsə qoyduqda əksəriyyəti ara ilə qəbul olundu.

4. - Sənaye şəhadətnamə qiymətlərinin artırılması haqqındakı layiheyi-qanuniyyənin üçüncü qiraətini katib icra etdi. 457-471-500-501-502-503-504-505-506-507-579a, 5796-591-592-593 maddələr təbədüllatı və 449-cu maddəyə əlavə ayrıca və sonra təmamən səsə qoyulub əksəriyyəti-ara ilə qəbul edildi. Layiheyi-qanuniyyə təshiyyə komisyonuna veriləcəyini rəis bəyan etdi.

5 - Hökumət əndində xüsusi təftilatı və təhqiqat komisyonun təşkili haqqındakı layiheyi-qanuneyənin katib üçüncü qiraətinə başladı. Layiheyi-qanuniyyə əvvəl maddə-maddə, sonra tamamən səsə qoyulduqda əksəriyyəti-ara ilə qəbul edildi.

6 - Sinif və məşğələsindən dolayı mükəlləfiyyət əsgəriyyədən azad edilənlər haqqında layihəyi-qanuniyyə təcili olaraq müzakirə edilməsini rəis səsə qoydu və əksəriyyəti-ara ilə qəbul edildi. Məruzəçi Mehdi bəy Hacınski bəyanat verdi. Məhəmməd Əmin Rəsulzadə nitq söylədi. Layihə maddə-maddə oxunmasını rəis səsə qoydu. Qəbul edildi. Katib oxudu, səsə qoyulub qəbul edildi. Məmməd Əmin Rəsulzadə şu təklifi verdi: "Dərəstarı olmayan ailə rəisinin tək övladı dəxi əsgərlikdən maafdır".

Bu haqda Aşurov Ağa, Əfəndizadə Muxtar, Məmməd Əmin Rəsulzadə mübadileyi-əfkar etdilər. Ümumi mükəlləfiyyati əsgəriyə layihəsi haqqında hərbiyə nəzarəti bir məlumat verənə qədər təklif sahibi təklifini geri aldı. Layihəyi-qanuniiyyə isə tamamən səsə qoyulub qəbul edildi. Beş dəqiqə tənəffüs elan edildi.

### Tənəffüsdən sonra iclas davam edir

Əsnəyi-tənəffüsdə valid olan zeyldəki təklifləri rəis oxudu.

1-ci - "Avqustun 5-dən sentyabrın birinə qədər parlaman tətil etməsini təşkil edərdi. Malxazyan, Vanseviç, Kun və qeyri iki imza:

2-ci - "Parlaman iclasları köhnə qayda üzrə gündüz saat 11-ə təyin edilməsini təklif edirik. Malxazyan, Qarabəyli, Vanseviç, Ter-Azaryan, Koxman".

3-cü - "Məclisi-məbusan iclasının gündüz saat ondan ikiyə qədər olan zəmanə təyin edilməsini təklif edərik. Muxtar Əfəndizadə, Nuru, Hacı Əli Qasım oğlu, Əşrəf Hüseyn".

4-cü təklif edirəm ki, avqustun 5-ə kimi iclaslar günaşırı olsun. İmza. Təkliflər haqqında Əhməd Cövdət Pepinov, Malxozyan Arşaq, Hacı Hüseyn Əfəndizadə, Vanseviç və Mehdi bəy Hacınski mübadileyi-əfkar etdilər. Müzakirə bitməsi təklif olundu. Səsə qoyulub qəbul edildi. Balazadə zikr olunan dörd təklifdən 2-sini təklif sahibləri geri götürdülər. Sonra birinci, üçüncü və dördüncü təklifləri rəis səsə qoydu. Əksəriyyəti-ara ilə hər üçü qəbul edildi.

7 - Bələdiyyə idarələrinə qlasnılar intibahı haqqındakı layiheyi-qanuniyyə barəsində məruzəçi Şəfi bəy Rüstəmbəyli bəyanat verdi. Bu haqda Ağa Aşurov və Əhməd Cövdət Pepinov mübadileyi-əfkar etdilər. Layiheyi-qanuniyyə maddə-maddə oxunmasını səsə qoydu, qəbul edildi. Lakin vaxt gec olduğundan layihənin ikinci qiraətini təxirə salıb iclas qapanır.

**Arxiv, f. 895, siy.1, iş 9, vər. 81-83.**

**№ 60**

**Altmışıncı iclas**

*29 iyul 1919-cu il.*

**Sədr**-Həsən bəy Ağayev. **Katib**-Mehdi bəy Hacınski. İclas açılır 11 -20 dəqiqədə

**Sədr**-İclas açılır. Müzakirati-yomiyyə bu qərar ilədir: 1-Divani-Rəyasət təklifi ilə mərkəzi seçki komisyonu intixabı; 2-Kitabxana komisyonu intixabı; Daxil olmuş kağızlar, o cümlədən: Azərbaycan dövləti əmanət sandıqları barəsində; Balaxana-Sabunçı mahalında vergi polisi təsisi haqqında qanun layihəsi; Şəhərlərdə bələdiyyə idarələri seçkiləri haqqında qanun layihəsi. İkinci qiraət. Məruzəçi Şəfi bəy Rüstəmbəyov; 3-Əsgəri xidmətin müddəti barəsində qanun layihəsi. Məruzəçi Qara bəy Qarabəyli; 4-Əlkühül məhsulatından aksiz vergisi miqdarının artırılması haqqında qanun layihəsi. Məruzəçi Ağabəyov; 5-Azərbaycan hökuməti sərhəddində mühafizə polku təsisi haqqında qanun layihəsi. Məruzəçi Ağabəyov; 6-Tövcı vergisinin artırılması ilə bərabər torpaq gəlir və məxaric smetasının və torpaq vergisi qanunlarının təmdidi haqqında. Məruzəçi Ağabəyov; -Nəşri-elan haqqında qanun layihəsi; 8-Maliyyə nəzarəti şurası haqqında qanun layihəsi; 9-Fabrika inspeksiyasına dair qəvaidin müvəqqətən təğyiri haqqında qanun layihəsi; 10.Ümumi təmaxaşana və əyləncələrdən alınan müvəqqəti naloqun hökumət məbaliğ müstəhfizəsinə idxalı haqqında qanun layihəsi. Məruzəçi Rza bəy Ağabəyov; 11."İttihad" [893 - 894] fraksiyasının hökumətə sualı; 12.Həmin sənə üçün İrəvan ümuri-xeyriyyə naziri və vəkilinin maaşı və onun idarəsi məsarifi üçün məzkur nazirə 177.000 rüblə buraxılması haqqında qanun layihəsi. Məruzəçi Səməd ağa Ağamalov; 13.Tamğa rüsumatı qanunnaməsinin bəzi maddələrinin təbdili və rüsum miqdarının təzayidi haqqında qanun layihəsi. Məruzəçi Rüstəmbəyov Rüstəm bəy; 14-Şəhadətnaməsiz olan içki ticarətindən alınan cərimələrin təzayidi haqqında qanun layihəsi. Məruzəçi Mehdi bəy Hacınski; 15-Kulçi vergisinin nizamnaməsinin qəvaidinin təbdili və kulçi vergisinin təmin edilməsi üçün rəhn qəbulu haqqında layihə. Məruzəçi Mehdi bəy Hacinski; 16-Bakı xəzinə palatası müdiri-müavinliyi vəzifəsinin ləğvi haqqında qanun layihəsi. Məruzəçi Əfəndizadə Muxtar.

Sırada olan layihələrdən təklif var ki, 15 nömrə olana maliyyə cəhətincə çox əhəmiyyətli olduğundan təklif olunur qabağa çəkilsin. Yəni növbədəki məsələlərdən ikincisi olsun.

Şəhərlərdə bələdiyyə idarələri seçkiləri haqqındakı qanun layihəsindən sonra olsun. (Rusca). Buna etiraz yoxdur. Bu cür qəbul olunur. Keçən səfər mən rica eləmişdim bu günə hazırlaşıb gələsiniz mərkəzi seçki komisyonu xüsusunda. Əgər hazır deyilsiniz rica edirəm tənəffüs zamanında hazırlaşasınız və bu komisyonu seçəsiniz. Çünki qorxuram tətilə kimi düzəldə bilməyəsiniz.

**Məmməd Rza ağa Vəkilov** (yerindən) - Sabaha yox, birisi günü seçərik.

**Sədr** (davam edir) - Komisyon gərək yığılsın, smeta hazırlayıb parlamana təqdim etsin. Təxirə salınarsa qorxuruq sonra yetirməsin. (Rusca). Həmçinin bir də kitabxana komisyonu seçilməlidir. Üç-dörd məclis bundan qabaq təklif olunmuşdu ki kitabxana komisyonu düzəlsin.

**Ağa Aşurov** (yerindən) - Mərkəzi seçki komisyonuna neçə adam lazımdır?

**Sədr**-Nə buyurursunuz? 21 adam lazımdır. Özünüz tənəffüsdə danışırsınız. Növbədəki məsələ şəhərlərdə bələdiyyə idarələri seçkiləri haqqında qanun layihəsinin ikinci qiraəti. Məruzəçi Şəfi bəy Rüstəmbəyli.

**Sədr** -Oxuyunuz, Mehdi bəy, iyirminci maddəni! [894 - 895]

**Katib** İyirminci maddəni oxuyur.

**Sədr** -İyirminci maddə haqqında kim danışmaq istərdi? Etiraz yoxdur. Etiraz olmadığından iyirminci maddə qəbul edilir. İyirmi birinci maddəni oxuyunuz!

**Katib** -Bu saat oxuyur.

**Sədr** -İyirmi birinci maddəyə etiraz yoxdur? İyirmi birinci maddə qəbul olunur. İyirmi ikinci maddəni oxuyunuz.

**Katib** -İyirmi ikinci maddəni oxuyur.

**Sədr** -İyirmi ikinci maddəyə etiraz yoxdur? İyirmi ikinci maddə qəbul olunur. İyirmi üçüncü maddəni oxuyun.

**Katib** -İyirmi üçüncü maddəni oxuyur.

**Sədr** -İyirmi üçüncü maddəyə etiraz yoxmu? 23-cü maddə qəbul olunur. İyirmi dördüncü maddəni oxuyunuz.

**Katib** -24-cü maddəni oxuyur.

**Sədr** -24-cü maddəyə etiraz yoxmu? 24-cü maddə qəbul edilir.

**Katib** -25-ci maddəni oxuyur.

**Sədr** -25-ci maddəyə etiraz yoxmu? 25-ci maddə qəbul edilir.

**Katib** -26-cı maddəni oxuyur.

**Sədr** -26-cı maddəyə etiraz yoxmu? İyirmi altıncı maddə qəbul edilir. 27-ci maddəni oxuyunuz.
**Katib** -27-ci maddəni oxuyur.
**Sədr** -27-ci maddəyə etiraz yoxmu? 27-ci maddə qəbul edilir. 28-ci maddəni oxuyunuz.
**Katib** -28-ci maddəni oxuyur.
**Sədr** -28-ci maddəyə etiraz yoxmu? 28-ci maddə qəbul edilir. 29-cu maddəni oxuyun.
**Katib** -29-cu maddəni oxuyur.
**Sədr** -29-cu maddəyə etiraz yoxdur? Yoxsa, qəbul edilir. 30-cu maddəni oxuyun.
**Katib** -30-cu maddəni oxuyur.
**Sədr** -30-cu maddəyə etiraz yoxmu? Maddə qəbul edilir.
**Katib** -32-ci maddəni oxuyur.
**Sədr** -32-ci maddəyə etiraz yoxdurmu? Yoxdursa qəbul edilir. 33-cü maddəni oxuyunuz.
**Katib** -33-cü maddəni oxuyur.
**Sədr** -33-cü maddəyə etiraz yoxmu? 33-cü maddə qəbul edilir. 34-cü maddəni oxuyunuz.
**Katib** -34-cü maddəni oxuyur.
**Sədr** -34-cü maddəyə etiraz yoxmu? Maddə qəbul edilir. 35-ci maddəni oxuyunuz.
**Katib** -35-ci maddəni oxuyur.
**Sədr** -35-ci maddəyə etiraz yoxdurmu? Maddə qəbul olunur. 36-cı maddəni oxuyunuz.
**Katib** -36-cı maddəni oxuyur.
**Sədr** -36-cı maddəyə etiraz yoxsa, qəbul olunur. 37-ci maddəni oxuyunuz.
**Katib** -37-ci maddəni oxuyur.
**Sədr** -37-ci maddəyə etiraz yoxdur ki? Maddə qəbul edilir. Layiheyi-qanuniyyənin 3-cü qiraəti qalır gələn iclasa. Növbədəki məsələ əsgəri xidmətin müddətini azaltmaq barəsində qanun layihəsidir. Məruzəçi Qarabəyovdur. (Məruzəçi yoxdur). Məruzəçi gəlincəyə qədər bir məktub var ki, unutmuşdum oxumağı. (Katibə) Oxuyunuz.
**Katib** -Rusca oxuyur.
**Səslər** -Olmaz...Türkcəsi yoxmu?
**Sədr** (Katibi saxlayır) - Tərcümə ediniz.
**Katib** -Tərcüməsi yoxdur, necə edim?
**Sədr** -Rica edirəm, oxuyunuz. Məktub hökumət məmurları tərəfindən gəlmişdir. Özünüz bilirsiniz məmurların dörddə-üç hissəsi rusdur.
**Əliheydər Qarayev** (yerindən) - Milliləşmişdir.
**Məmməd Əmin** (yerindən) - Həbsi türkcə gəlmir. Başqaları da türkcə gəlmir.
**Katib** -Rusca oxuyur. (Məmməd Əmin Rəsulzadə, Mustafa Vəkilov və Qara Ağazadə salondan çıxırlar).
**Sədr** -Məktubun məzmununu düşününüz. İş buradadır ki, hökumət məmurları üçün müvəqqəti bir məvacib qanunu qəbul edilmişdi. Lakin bu müvəqqəti idi. Sonra İyul ayı üçün gərək müsavi (orintrovoçnı) bir qanun layihəsi düzələ idi. Lakin bu layihə bu vaxta kimi komisyon tərəfindən baxılıb qurtarmamışdır. Şimdi avqust ayının 5-də parlaman tətil edəcəkdir. Sentyabra kimi qanun qəbul etmək mümkün deyil. Qulluqçuların halı isə doğurdanda fənadır. Məvacibləri həftəyə çatmayır. Hər ay borc edib yaşayırlar. Rica edirlər, parlaman bir şey eyləsin. Məlumunuzdur ki, parlaman bir şey eyləməz. Parlaman ancaq arzu edər ki mümkün olduqca bu qanun tez başa gəlsin. [896 - 897]
**Sədr** c-Əgər buna etiraz yoxsa, qəbul olunur. Qara bəy, buyurunuz.
**Qara bəy** Həzərat! İndiyə qədər Rusiya qanunlarına tabe olaraq əsgəri xidmətin müddəti 3 sənə 3 ay olduğu qəbul olunmuşdur. İndi hərbiyə nəzarəti tərəfindən 3 sənə 3 ay fəzlə bir müddət olduğundan, bu müddəti azaltmaq daha da faydalı olduğundan bir tazə qanun verilir ki, bu müddət iki sənə edilsin. Bu barədə bir çox mülahizələr var. Elələrdən əsaslıları bunlardır. Əsgərlik müddəti 2 sənə olsa cavanlarımız tez əsgərliyə yazılarlar, az vaxtdan sonra bizim bir sinnidə və ehtiyatda çox əsgərlərimiz olar, bu bir, ikincisi budur ki, ruslar zamanında əsgərliyə gedənlər öz işlərindən və sənətlərdən əsgərlik müddəti uzun olduğu üçün yadırğayırdılar. Amma indi 2 sənəlikdən sonra öz işlərinə vəziyyətinə tez qayıdıb davam edər, bu isə millətimizə iqtisadən böyük zərərdir. Sonra bilirsiniz ki, 19-dan 24 yaşına qədər əsgər alınır. Əgər bu iki ildə bir dəyişsə tez qayıdırlar. Bu mülahizələri nəzərə alıbda hərbiyə nəzarəti bizə Rusiya qanunlarının əsasında olan bir çox maddələrin dəyişməsini təklif edir. Bu qanun təcili surətdədir (oxuyur). Bu bir maddə 3 işarədən ibarət olan tazə bir qanundur ki, təklif olunur. Bunun ruscasını da sizə ərz edərim. (Rusca).
**Sədr** Məruzəçi layiheyi-qanuniyyənin təcili baxılmasını təklif edir. Bu xüsusda kim lehinə, əleyhinə danışmaq istərdi. Etiraz yoxdur? Etiraz yoxdursa, təcili baxılması qəbul edilir. Layihəni oxuyunuz.
**Qarabəyli -**Köhnə qanun belə idi. (Oxuyur). Şimdi tazə təklif edilən qanun böylədir. (Oxuyur).
**Sədr** -Layihənin əsasları üzərində kim danışmaq istəyir? Söz Hacı Kərim Saniyevindir.
**Saniyev** -Möhtərəm məbuslar! Əlbəttə bir hökumətin əsgəri olmasa o hökumətin gələcəyi təmin olmaz. Əsgər gərək olsun. Əsgər nə qədər qüvvətli olsa, nə qədər ürəklə işə girsə hökumətin millətin təminatı o qədər

artıq olar. Amma iş belədir ki, Azərbaycanda bilirsiniz fəhlə çox azdır. Və bu əsgərliyə alınanlar, ələlxüsus indiki zamanda tamamən o adamlardır ki, onlar zəhmətkeşlər, çörək qazananlar və heyvan saxlayanlardır. Uyezdlərdən gələn xəbərə görə çöllər biçilməmiş və taxıl yığılmamış qalıbdır. Biçinçilərə çörək ilə [897 - 898] bərabər 200 manat da verirlərsə, yenə biçən yoxdur. Odur ki, bu il taxıl vaxtında belə biçilməyir. Qabaqda belə bir iş olan surətdə iki il camaatı əsgərlikdə saxlamaq özümüzə zərər vurmaqdır. Çünki bizə çörək də lazımdır. Ac əsgər saxlamaq olmaz. Əsasən biz əsgərlik müddətinin qısalması tərəfdarıyıq. Bununla bərabər bizə əsgər də lazımdır. Onu bilirsiniz ki, bu saat sərvətdarlardan əsgərliyə gedən yoxdur. Onlar qaçacaq yolu tapırlar. Qaçacaq yolu tapmayanda öylə bir iş edirlər ki, əsgərliyə düşməsin. Yazıçı olur, podratçı olur. Özünə qazanc yolu tapıb, əsgərlikdən özünü kənar edir. Amma ağır yük zəhmətkeşlər üzərinə düşür. Biz qanunun keçməsinə müvəqqətən

razıyıq, bu şərtlə ki, əsgərlik xidməti gələcəkdə bir il olsun. Bilirsiniz ki, Azərbaycanda yaşayanlar təbii cəhətcə

hərbidilər. Əsgərlik elmini öyrənmək bir ilin özü onlar üçün uzun şkoladır. Uzun vaxtdır. Çünki onlar həqiqətən elə əsgər yaranıblar. Bunları mülahizə edib bir ildən artıq onları saxlamaq, hər halda bizə zərərdir. Biz əsgərlik müddətinin bir il olması tərəfdarıyıq.

**Sədr**-Söz Muxtar Əfəndizadənindir.

**Muxtar Əfəndizadə** - Mən müddəti-əsgəriyyənin azalması tərəfdarıyam. Ona görə ki, müddət nə qədər az olarsa əsgərlərin miqdarı bir o qədər də çox olacaqdır və yerdə qalan öyrənməyənlər də tez-tez öyrənərlər. Deməli müddət nə qədər az olsa digər tərəfdən əsgər çox olacaq. 2-ci səbəb budur ki, beş illik müharibə əsnasında insanlar azalmışdır. Bizim Azərbaycanda isə bu son zamanda xəstəlikdən çox ölənlər olmuşdur. Qırx sinnindən yuxarı olanlardan ölənlər az olsa da, cavanlardan ölənlər hədsizdir. Ölən də gənclərdən, əsgərə gedənlər də əkib biçən cavanlardan olur. Cavanlardan da əsgər çox alanda bizim öz işlərimiz də dala qalır. Bunda mən də bir şey düşünürəm, əhalini əsgərlikdən nifrətləndirməməli, ona görə də əsgərlik müddətini azaltmalı. Hacı Kərim Saninin təklifinə mən də razıyam. Mən də təklif edirəm ki müddət bir ildən ziyadə olmasın.

**Sədr** - Rza bəy Ağabəyov.

**Rza bəy** - Möhtərəm əfəndilər! Çox təəssüflər olsun ki, biz əsgərlik işinə şimdi yavaş-yavaş alışırıq. Qonşumuzda olan millətlər çoxdan əsgərlik işlərinə başlayıb. Qabağa aparmışlardır. Halbuki biz tazə-tazə bu işə şuru edirik. Bunun üçün biz əsaslı olaraq işə başlamalıyız. Burada bir fikir bəyan etdilər ki, müddət az olsun. Əsgərlərin miqdarı çox olsun. Məlumdur ki, davadan qabaq Fransa parlamasında sosialist firqələr tərəfindən müddət barəsində böyük danışıqlar və hərəkətlər olmuşdur. Onun qabağına böylə sözlər dedilər ki, onlar sükuta məcbur oldular. Əgər nazir əfəndi burada olsaydı bizdə hər il nə qədər nabor olur, Azərbaycan hər il nə qədər əsgər verir, bəyanat verərdi. Bunu da bilməli ki, müddət iki sənə olanda hər vaxt bizim əsgərlərimizin ədədi çox olar. Şimdi əsgərlərimiz azdır. Göstərilən müddətdən da geriyə getməli deyilik və azalda da bilmərik.

**Sədr** - Mustafa Vəkilov.

**Mustafa Vəkilov** - Əsgərlik məsələsi qayət nazik və mühüm məsələdir. Ona görə də bu mühüm məsələyə yanaşanda qayət ehtiyatlı olmalıyıq. Cürbəcür sözlərlə vaxt keçirmək məclisi məbusana yaramaz. Burada buyurdular ki, əsgərliyə gedənlərin əksəri zəhmətkeş olduğundan onlar biçin vaxtı öz yurdlarında olmayıb xidməti-əsgəriyyədə bulunacaqlardır. Demək ki, müddəti əsgəriyyə bir il olsa, iki ildə olan yenə onlar əsgərlikdə olub biçin vaxtı boş keçəcəkdir. İkinci bir fikir olaraq adamlarımız əsgərliyə əlverişlidir, anlayışlıdır deyilir. Bu fikir də səhvdir. Bir ildə xidmət və təlim-tərbiyə əsgəriyyənin hər bir cəhətini öyrənmək zənn edildiyi qədər qolay deyildir. Və yenə Muxtar Əfəndizadə buyurdular ki, müddəti əsgəriyə nə qədər az olursa əsgərin miqdara da o qədər çox olar. Və əsgərə gələndə çoxalır və əsgərliyə düşən cavanlar da daha tez-tez tərbiyeyi-əsgəriyyə öyrənmiş olurlar. Əyər eylə bir məntiq götürsək ki, müddət nə qədər az olsa, o qədər çox əsgər gələr öylə olan surətdə müddəti əsgəriyyəni bir ay götürək, böylə olmaz. Və məruzəçinin fikrinə də məntiqsiz demək doğru olmaz. Zənnimizcə əsgərlik məsələsi o qədər nazik, o qədər lazımlıdır ki, üzərində bəhs belə olmamalı idi. Çünki məsələ o qədər lazımlıdır ki, o qədər mühüm və hal-hazır üçün o qədər əhəmiyyətlidir ki, gərək məclis qapalı ola idi ki, ətraflı danışa idik. Yoxsa burada hər məsələni söyləmək mümkün deyildir.

**Sədr** - Söz Əliheydər Qarayevindir. [899 - 900]

**Qarayev** - Mən öylə bilirəm ki, Mustafa əfəndinin təklifi ki, məclis qapalı olsun və əsgərlik məsələsinin də mühüm və nazik məsələ olduğunu söyləyir, mən bunun əksinə danışacağam...

**Sədr** (saxlayır) - Natiq əfəndi, mən onun təklifini səsə qoyacağam. Layihə barəsində danışınız.

**Qarayev** - Mən təklif barəsində danışıram. Deyirlər ki, nə qədər əsgərlər çox olsa, o qədər padşahlığımız üçün yaxşı olar.

**Səslər** - Padşahlıq deyil, cümhuriyyətdir...

**Qarayev** - Böylə qoşunlar, Nikolay zamanında da var idi. Nizam və dissiplinaları, generalları, afiserləri, praporşikləri var idi. Onlar da dörd il müddətinə kələn əsgərlər saxlayırdılar. Lakin bu qədər qüvvəti həmişəlik saxlaya bilmədilər. Çünki o qüvvə imperialist fikirlə saxlanır. Və o məqsəd üçün bəslənirdi. Bu saat bura isə cümhuriyyətdir. Əgər cümhuriyyətimizi mühafizə etmək istəyiriksə, camaatımızın hamısı gərək oxumuş olsun.

Camaatımızın hamısı əlində silah olaraq vətən müdafiəsinə çıxmağa qadir olmalıdır. Əgər götürsəniz Gürcüstan qvardiyasını, görərsiniz onlar daha qüvvət və şücaət göstərmişlər. Əgər götürsəniz Sadaxlı müharibəsini, görərsiniz gürcü krasnı qvardiyası daha ciddi mübarizə edib çalışırlar. Bu ondandır ki, burada qırmızı qvardiya içində qocadan tutub, cavana kimi könüllülər vardır, hamısı da cümhuriyyətlərini mühafizəyə öyrənib sədaqət ilə müharibəyə gedirlər. Bizim əsgərlər isə kazarmalarda oturacaqlar. Bu lazım deyil ki, on min qoşun kazarmada otursun. Bizə lazımdır ki, camaətimizi hamısı oxumuş və hazır olsun. Sabah, ehtimal, Denikin qarşımıza çıxardanda, şəhərli və kəndçilər əldə silah olaraq onun qarşısına çıxmağa qadir olsunlar. Ona görə bizə o lazım deyil ki, onlar türk afserləri əlində qalıb məhv olsunlar.

**Sədr** (saxlayır) - Natiq əfəndi, rica edirəm, türk afserlərinin ehtiramını həmişə saxlayasınız: Türk zabitləri, əlində əsgərlərimiz, məhv deyil daha da qüvvətli və möhkəm olarlar. (Alqışlar).

**Qarayev** - Burada türkləri təhqir edən olmadı.

**Sədr** - Rica edirəm nitqinizdə davam edəsiniz.

**Qarayev** - Əsgərlərimiz kazarmalarda sənələrcə qalır. Bunların qalmaları lazım deyildir. Aydan fəzlə qalmasınlar. [900 - 901] Növbə ilə, qruppa olub, gəlib öyrənərlər və gedərlər. Bunda daha yaxşı olar.

**Sədr** - Söz Muxtar Əfəndizadənindir.

**Muxtar Əfəndizadə** - Mən sözlərimi təfsilən deyil müxtəsər dedim. Çünki, məncə, məsələ çox aydındır. heç gözləmirdim ki, Rza bəy desin ki, müddət nə qədər qısa olsa, o qədər çox əsgər olar və Mustafa bəy də buna məntiqsiz bir mülahizə desin. Mən bu fikri, bunu nəzəriyyəni məntiqsiz bilməyirəm. Mən deyirəm ki, bir adam qırx sənə sonra yenə əsgər olsun. Tazə alınan əsgər gəlib öyrənir, əsgər olur. O gedir, yenə təzəsi gəlib öyrənir. Qayda ilə əvvəlinci gedir, ikinci gəlir. Cəmaət hamısı əsgərliyə hazır olur. Səfərbərlik halında hamısını dəvət etmək olur. Əsgər çox olur, sülh vaxtında isə əsgər müəyyən miqdarda hökumətə lazımdır. Mustafa Vəkilov cənabları dedilər ki, məsələ nazikdir, burada açmaq qeyri mümkündür. Və ona görə gizli məclis lazımdır. Bu doğru deyildir. Madam ki, bir məsələ məclisin müzakirəsinə vəz edilmişdir, nə lazımdır ki, gizli olsun. Hər gah bir məsələnin haqqında ətraflı danışmaq mümkün deyil, o vaxt nə üçün müzakirəyə qoyulmuşdur. Bizim heç gizli sirrimiz yoxdur. Mustafa Əfəndi əmin olsun ki, bizim gizli sirlərimizi düşmənlərimiz özümüzdən daha yaxşı bilirlər. Burada bir sirr yoxdur. Biz əsgərlərimizin çox olmasını istəriz ki, nə qədər bu miqdarı artırmaq istəsən, bir o qədər əsgərlik xidməti müddətini azaltmalıyıq. Yenə öz nəzərimdə duraraq, əsgərlik xidmətin bir il müddətdə olmasını təklif edirəm, bəlkə sonra məclisi-müəssisan bu müddəti təğyir və təbdil edəcəkdir. Ona bir sözüm yoxdur.

**Sədr** - Söz Mehdi bəy Hacıbababəyovundur.

**Mehdi bəy** - Təəssüf edirəm ki, burada hərbi nəzarətdən nümayəndə yoxdur. Əgər olsa idi daha da gözəl olar idi. Mən vaxt barəsində danışmaq istəyirəm. Necə ki vaxtın azalması barəsində danışırlar, mən də deyirəm ki, əsgərlik müddəti bir il deyil, bir ay olsa idi daha da gözəl olardı. Bir dəstə libas geyməmiş, o biri dəstə gələrdi. Buradan bir haşiyə çıxmaq istəyirəm. Universitetimiz bir il olsa idi, doktorlarımız daha da tez-tez artardı. Fəqət mən müəllim olduğumdan deyə bilərəm ki, bir ilin müddətində heç bir şey öyrənmək olmaz. Əsgərlərimiz bir ayda ancaq sağ-sol öyrənərlər. Tüfəngin bir tərəfindən [901 - 902] bir ilə böylə məlumat almaq, olmaz. Siz eylə bilirsiniz ki, Gürcü krasnı qvardiyası haman qvardiya alınandan sonra təlim-tərbiyə almışlar? Və hərbə böylə qabildirlər. Xeyir, onlar Nikolayın dörd sənə müddətində tərbiyə tapmış əsgərləri deyilmi? Əsgər o deyil ki, ancaq atmaq bilsin. Əsgərlərin atdığını burada bilsin. Burada deyilən sözlər ilə özlərinə kəndçi və fəhlələrdən ucuz qiymət ilə tərəfdar cəm etmək ki, ay kəndçi, ay fəhlə mən sizin üçün çalışıb. 2 il əsgərliyi altı ay etdim. Bu olmaz. Mən deyirəm ki 2 il yox, bəlkə 5 il əsgərlik xidmətində olmalıdır. Bir zaman ki, siz Denikinlərin qabağına çıxmaq istəyirsiniz, bu zaman qurudan, sudan, göydən, hər tərəfdən üstünüzə güllə yağacaq, onda siz bir ildə təlim görən əsgərlər iləmi onlara müqabilə edəcəksiniz? Mən "Müsavat" fraksiyası tərəfindən 2 sənə olmasını təklif edirəm.

**Sədr** - Söz Mustafa bəy Vəkilovundur.

**Mustafa bəy** - Mən iki söz Muxtar əfəndiyə söyləmək istəyirəm. Natiq əfəndi məni başa düşməmiş. Mən deməzdim ki, burada məbuslardan sirri saxlamaq lazımdır. Mən dedim ki, məclis qapalı olsun.

**Sədr** - Söz Hacı Kərim Saniyevindir.

**Hacı Kərim Saniyev** - Əsgərliyə gedənlərin halətini deyəndə ki, 2 il əsgər gedəndə onların əkinləri və işləri qalır, Mustafa bəy dedi ki, bir il gedəndə qalmır. Bir il əkin dala düşəndə nə olar. Əlbəttə bu əsgərlərə gücdür. Demək uzun bir müddətdə belə etmək əsgərliyə gedənlərə güc olmazmı? Deyirlər ki, Krasnı qvardiya köhnə əsgərlərdir. Halbuki krasnı qvardiya icbarın deyil könüllü olaraq 18 yaşından əlli sinninə qədər namus bir, fikir bir, məslək sahibi adamlar yazılırlar. Odur ki, onlar Şamxorda əsgərlərin silahlarını aldılar, indi Lənkəranda Ramazan və dəstəsi nizam görmüş əsgərlərdimi? Yoxsa haman kəndlilərdirlər. Qaldı ki, imtahan barəsində, siz onu yəqin edin ki, kəndlilər əsgərlərdən daha yaxşı gözəl nişan atırlar. Bu sözlərimə inanmayırsınızsa onların nişanəsinə Mehdi bəy özünü qoysun və görsünki neçə nişanə atırlar. Qaldı ki müstəbidanə əsgər toplamaq məsələsinə gəldikdə Germaniya əsgərləri də müstəbid surətdə tərbiyə almışlar idi. Baxınız, axırı nə oldu? Biz deyirik ki, əsgərliyi eşq və həvəs lazımdır. Zor ilə əsgər olmaz. Bundan mayada müddət çox olduqca cəmaətə və

kəndlilərə böyük xəsarət dəyir. Bu isə bizim səlahimiz deyildir. Biz deyirik əsgər müddəti çox olar isə onları istibdad altına almaq olar.

**Sədr** - Söz Səməd ağa Ağamalı oğlunundur.

**Səməd ağa** - Burada bir balaca ayrı cür danışdılar. Belə çıxdı ki, bir tərəf istəyir sübut etsinki əsgər lazım deyil. Bizə əsgər də lazımdır. Çünki onlarsız ötüşə bilmərik. İş orada deyil. İş burdadır, biz deyirik Azərbaycan adamlarından bir ildə yaxşı əsgər yaratmaq olar. Elə əsgər yaratmaq olar ki, öyrəndiyini 50 il də yadından çıxarmasın. Burada Rusiyanı misal gətirdilər. Rusiya və Avropa ayrı cür yaşamışdır. Onlara həqiqətən lazımdır bir iki il əsgərlik öyrənsinlər. Amma bizim kəndlilərdən hansı birini götürsəniz, görərsiniz ki, onlar yaxşı atıcıdırlar. Yaxşı quş vururlar. Şamxor fəqərəsi yadınızdadır. (Səslər: Şamaxı! Şamaxı!).

(Səslər soldan "İsmail xan idi!")

Birisi mənim özüm lap pisi ki, yaxşı nişanə vururam. Ona görə biz deyirik ki, bir il bəsdir. Bu bir. İkinci biz bir şeyə də inanırıq və bundan möhkəm davam edirik ki, kazarma günü, kazarma diriliyi insanı xasiyyətdən salar, onu qeyri işlərə vadar edər. Kazarma həyatı bir növ örtülülükdür. Örtülü şıkalalar hətta insanı çox işlərə salar, bacarıqdan salar. Bizim kəndçilərimiz ki, onların işi əkindir, biçindir, qoyun-quzu saxlamaqdır, bunlardan çox müddət uzaq olsa, onu unudar. Bizə lazımdır ki, bu şeylər unudulmasın. Bir də o yerlərdəki çox qoşuluq olur, orada müftəxorluq artıq olur. İşçilər işdən düşür. Bu davada Çernov və bir neçələrinin rəyi bu idi ki, nə tövr oldu bu qoşun birdən birə pozuldu. Onlar deyirlər ki, əkinçiləri yığıb doldurdular kazarmalara, onlar da peşələrini unutdular. Sonralar onlar üçün iş tapmaq çətin oldu. Bu adamlar Revolyusiyaya qarışdı, odur ki, revolyusiyanın sifəti bəd çıxdı. Bəlkə yaxşı çıxa idi. Bu tarixi bir şeydir. Bir natiq dedi ki, əsgərlik müddəti yeddi il də ola bilər. Bu kişi bədbəxtlik sözü dedi. Bu lap bədbəxtlikdir. İrəlidə Rusiyada bir vaxt əsgərlik müddəti 30-35 il idi. Hələ Rusiyada bu vaxtlarda bir fikir var idi ki, indiki əsgərlik müddətini də azaltsınlar. Biz yaxşı bilirik İngiltərədə çox da əsgərlik [903 - 904] yoxdur. Bunlar 6-7 ayda öylə bir hərəkət elədilər ki, zavodları da işlədi. İşləri də düz qaydası ilə getdi. Aləmi də basdılar. İndi də hər yerdə ağalıq edirlər. Almaniyada isə əsgərlik var idi. İşlərinin axırı nə oldu. Əsl hesab bir millətin ruhunun yüksəkliyindədir. Belə millətdən az zamanda nə istəsən yapa bilərsən. Habelə, Amerika qoşunsuz idi. Camaətdə davam artıq olduğu üçün bu gün lazım olarsa soldat gedər, sabah yenə professordur, fəhlədir, əkinçidir. Onlar qədimi kimi soldat saxlamayacaq. Bundan əlavə əgər tarixə baxarsaq görərik ki, zalımlar böyümüş, qoşunlar qoçaq hərəkət göstərə bilməyiblər. Ruhları nur olmuşdur.

Bizim yaxşı yadımızdadır ki, Fransiya birinci inqilabını öldürmək istədilər. Yevropa general Şovinqin komandası altında qoşun göndərdi. Parisin qabağını kəsdilər. Xalq onlara tabe olmadı. Xalqda qvardiya yığdılar Baron Şovinqi döydülər. Firəng qoşunları arxalarında kağız yapışdırdılar ki, hər yerdə gərək ədalət imarətləri tikilsin. Bu hava dünyanı basdı. Belə hərəkətlərdən axırda Napalyonlar çıxdı. Özünüz yaxşı bilirsiniz ki, burada, İranda camaat nə cür yaşayır. Bu yaşamaq əsgərlik hərəkətini qabağa salır. Bunu Şam-xor hadisəsi göstərdi. Camaat qəzəbə gələndə 5-10 nəfər 5-10 yox, bir-iki mindən artıq Şamxorda vurub, illər ilə öyrənmiş qoşunları partlatdılar, getdi işinə. Sözümün qurtaracağı budur, biz yəqin inanıb deyirik ki, bir il bəsdir. Biz onu ondan ötrü deyirik ki, bu asma camaətə xoş gəlsin, neçeqo podobnoqo! Biz buna inanıb deyirik ki, əsgərlik üçün uzun müddət camaat üçün ziyandan savayı nəf verməz. Bir il bizim Azərbaycan camaatindən ötrü soverşenno dostatoçno! (Alqış).

**Sədr** - Əsədulla Əhmədov.

**Əsədulla Əhmədov** - Əfəndilər! Bu məsələ barəsində danışıqdan qabaq istərəm bir qaç söz söyləyim. Çox gözəl amallar, çox gözəl ideyalar. Amma yerində lazımdır. Biz də arzu edərdik ki, millətlər arasında heç dava olmaya idi və qan tökülməyə idi. Amma siz bilirsiniz ki, əsgəri müdafiədən ötəri biz istəyirik. Hücum etməyi heç bir vaxt xəyal etməyirik. Biz öz məmləkətimizdə rahat əyləşə bilməliyik, özümüzə kələn bəlanın qabağını saxlamalıyıq. Biz gərək bəndin qabağını saxlayaq. Bəndi möhkəm edək, möhkəm etməsək sel onu bərbad edər. Qoşun [904 - 905] istəyirsən olsun. Fəqət unutmamalıdır ki, əsgər sözü ləfz də deyil əməldədir. Şamxor hadisəsində vaqon kələndə səngərdən atırdılar. O dava deyil, davada ələ tüfəng alanda qorxmamalı, qorxdu evi yıxıldı. 47 əsgər səkkiz min adamın qabağına qaxmışdı. Amma küçələrdən yığılan əsgər, müntəzəm əsgərin qabağında davam edə bilməz. Bu cür məsələlər müzakirə edilərkən onların barəsində yaxşı düşünülməlidir. Bir il tərbiyə görmək, bir il əmrə baxmaq özü də təlimdir. Təlim və tərbiyyə-əsgəriyyə bir ayda, altı ayda, bir ildə olan deyildir. Yaxşı nizam görmüş qırx nəfər əsgər icabında bir qələyə bədəldir. Amma nizamsız əsgər, küçədən yığılanlar, tüfəngləri yerə tökürlər. İnad lazım deyil. Yalnız o fikri müdafiə edənlər, əsgərlik görməyən və bilməyənlərdir.

Mən dörd il əsgərlik müddəti olmasını istərdim. Fəqət indiki zamanı nəzərə alaraq komisyonun rəyinə mən də şərikəm. Əsgərlik müddəti iki il olsun. Madam ki, məmləkətimizi müdafiə etmək istəyirik; madam ki, qara qüvvələrin qarşısını saxlamaq istəyirik; o zaman müdafiə lazımdır. Müdafiə də əsgər ilə olur. Martdan qabaq və sentyabrda bizə təcrübə göstərdi ki, küçədən tutulub cəbhəyə göndərilənlər iki saatdan sonra qaçırdı. Tacir, bəzzaz, əsnaf, kim olursa olsun təlim görməsə heç bir şey edə bilməz. İştə hərbşünaslar düşünərək iki il təyin etmişlərdir. Mən də, öz firqəmiz tərəfindən müddəti - əsgəriyyənin iki il olmasını təklif edərəm.

**Sədr** - Söz Rəsulzadə Məmməd Əminindir.

**Məmməd Əmin Rəsulzadə** - Burada Mustafa bəyin bir mülahizəsi vardır. Bu mülahizəyə əhəmiyyət verməmək olmaz. Demokratik parlamanlarda əsgəri məsələ müzakirə edilərkən məclislər qapalı olur. Bunun mühüm bir mənası vardır. Fəqət təəssüf ki, bizdə bu kimi şeylərə riayət edilmir. Hər kəs kürsüdən keyfi istədiyi sözü deyir. O sözlərə də ətraflı cavab vermək olmur. Bununla bərabər əsgərlik bir ilmi olsun, beş ilmi olsun çox çətin bir məsələdir. Əsas etibarilə madam ki, mükəlləfiyyəti-əsgəriyyə qəbul edilmişdir. Təbiidir müddətin 2 il, 5 il olması məsələsi fənni bir məsələdir. Bu xüsusda bizdən əvvəl əsgər saxlamaq haqda mədəni dövlətlər və əsgəri mütəxəssislərin rəyi vardır. Hərbiyə nəzarətində burada söz söyləyənlərdən daha ziyada mütəxəssislər vardır. Onların rəylərinə də [905 - 906] əhəmiyyət verməliyik. Son əsgəri mütəxəssislər iki sənə üzərində durmuşlar. Və iki sənani kafi görmüşlərdir. Daha qüvvətli əsgəri təşkilata malik olan və bugün millət müsəlləh olaraq tanınmış olan Germaniyanın məşhur generallarından Fordurğuma yazmış olduğu əsgəri əsərində xidməti-əsgəriyyənin iki sənə olmasını kafi görmüşdür.

O halda biz öz hissiyyatımıza qapılıb da müddət haqqında sırf kəndi fikrimizi məyub görməyəlim. Məndə əsgərinin və mütəxəssisi-əskəriyyənin fikrini nəzərdə tutmaq və münasib görmək lazımdır. Bizə təcrübələr göstərdi ki, başı pozuq, təlim və tərbiyə görməmiş cəmaətə iş görə bilmərik. Hər bir iman, hər bir etiqad bir səbəbə mərbut olmalıdır. 2 sənə müddəti-əskəriyyə fikri çox təcrübələr-dən sonra vücuda gəlmişdir. Hər bir şeyi mütəxəssislərin rəyi və sonra təcrübələrdən nəticə olaraq hasil olur. Lakin bunların heç biri olmazsa və nəzərə alınmazsa və bu kürsüdən çıxıb bir ildə kafidir deyilsə, o vaxt düşünəlim ki, bu bir havayı həvəs nəticəsi olur. Bu bir iman, bir inanmaq deyildir. Bir inad, xaricə qarşı icrayi-təsir üçün yapılan birhavayi həvəsin nəticəsidir. Bu qədəm də çox qorxulu və təhlükəli bir şeydir, çünki böylə nəzəriyyə heç vaxt mütəxəssis nöqteyi-nəzərindən almaq olmaz. Bunu saçı-saqqalı ağarmış bir şəxs bu kürsüdən söylərsə zənn edirəm məmləkət üçün eyi olmaz. Burada İngilislərin könüllü sifətilə bütün dünyanı almaqlarını söylədilər. İngilislərin məcburi xidməti-əsgəriyyələri yoxdur. Əsgərləri tamam könüllü idi. Lakin bunu söylərkən ingilislərin tütmüş olduqları mövqeni-coğrafiyanı nəzərə almırlar. Onların məmləkəti bir cəzirədədir. Quruda heç bir şeyləri yoxdur. Onun üçün məcburi əsgər saxlamağada ehtiyac görünməmişdir. Lakin bunun əvəzində İngilislər qüvvətli bir flota malikdirlər. Böylə millətin siyasətini bir tərəfli, bir zinət olaraq qəbul etmək mümkün deyildir.

Məəmafih bu müharibədə ingilislər öz cəzirələrindən xaricə çıxmaq istədilər. İngilis xəlvəti ki, Almanlara qarşı çox eyi çıxmadı, o vaxt biz ingilisi qəbul etməmiş olduğu və ətəzat cərgəsinə girmiş olduğu mükəlləfiyyəti əsgəriyyə qəbul məcbur oldu. [906 - 907]

Müddəti-əskəriyyədə bizim dediklərimizi qəbul etdilər. Və sonra Napoleondan və onun ordusundan bəhs etdilər. Əcəba, onlar da altı aymı əsgərlik var idi? Güman edirəm ki, bunu düşünməmiş olsunlar. Bu, Qarayevin düşüncəsidir ki, Lənkəranda camaat arasında öylə qeyrətli polkovodstlər çıxır ki, yalnız Mehdi bəy deyil bəlkə Kərim Saniyevidə yan-yana qoysanız vurar. Lakin öylə güman edirəm ki, böylə qəhrəmanlar bu məmləkəti, ya bir milləti qışla həyatı görmədən müdafiəyə qadir olsunlar.

**Qarayev** (yerindən) - Denikindən kim müdafiə etdi?

**Məmməd Əmin** (davam edir) - Biz sizin təcrübənizi Şamxor müharibəsində gördük. Rus əsgərlərindən tüfəng alandan sonra özünüz də qorxuda qaldınız. Nizami əsgərlərə qalib gələnlər tüfəng paylarını alandan sonra, zor ilə patronlarımızı da veriniz dedilər. Sizə böylə adamlar lazımdır ki, Mehdi bəy kimi adamları vura bilsin. Fəqət bizə böylə adamlar lazım deyildir. Böylə əsgərlər ilə də denikinin qarşısına çıxmayacaqsınız. Bunun hərbiyyə nəzarətində ki, mütəxəssislər böylə təklif edirlər. Ona görə bu layihəni olduğu kimi qəbul etməyi təklif edərdik. Öylə əsgər düzəltmək lazımdır ki qışla görmüş, silah tutmuş, hüdud bəkləmiş əsgər olsun. Vətən və məmləkət müdafiəsi üçün hüdudlarda dura biləcək böylə əsgərlər lazımdır. Şamxor qəhrəmanları kimi yaramaz və bu vəzifəyi ifa edə bilməzlər. O vaxt hökumət də hüdudda gözəl bir ordu görür. Yoxsa altı ayda əsgər yaratmaq olmaz. Və Şamxor qəhrəmanları ilə də Denikin qarşısına çıxmaq mümkün deyildir.

Vətən müdafiəsi üçün həqiqi əsgər olmalıdır. Əgər həqiqi əsgərə və möhkəm bir orduya malik olmaq istəyiriksə iki sənaye qəbul etməliyik.

**Sədr** - Sırada üç natiq vardır. Əliheydər Qarayev, Səmədağa Ağaməliyev və İbrahim Əbilov. Təklif var ki, müzakirə bitsin. Təklif xüsusunda kim danışmaq istərdi. Səmədağa Ağaməliyev.

**Səmədağa** - Mən deyirəm ki, iclası qapamamalı, çünki qabaqkı, natiq tarixdən bir neçə söz dedi. Mən istərdim ki, ona cavab verilsin. Bir də bir neçə böhtanlar deyildi ki, ona cavab vermək lazım gəlir.

**Sədr** - Cənabi natiq, burada böhtan deyilmədi.

**Səmədağa** - Xeyir, böhtan deyil... Faktlardan danışıldı... [907 - 908]

**Sədr** - Təklifin lehinə kim danışmaq istərdi?

**Aşurov** (yerindən) - Heç kim.

**Sədr** - Danışan yoxsa, təklifi səsə qoyuram. Təklif qəbul olunur. Axırıncı söz məruzəçi Qara bəy Qarabəyovundır.

**Qara bəy** - Bu qanun layihəsinin belə etiraza məruz qalacağına ümidim yox idi. Bu etirazların da qanun layihəsinə heç dəxli [yoxdur] bu qədər zənn edirəm buna cavab verməyə lüzum da görmürəm. Deyirlər ki,

dövlətlilərdən əsgər alınmır və əsgərlikdən boyun qaçırmaq üçün katiblik və qeyri işlərə gedirlər, hökumət də onları qəbul edir. Bunlar həqiqətdir. Buna görə parlaman ancaq böylə işlərin qabağını alması üçün tədbirlər görməyi arzusu edə bilər. Qaldı ki, qanun haqqında olan etirazlara, etiraz deyil demək ki, əsgərlik üsulu əsasən hər kəsə qəbul edilir, deməyirlər ki, bir əsası pozubsa krasnı qvardiya istəyirik. Mübahisə əsgərlik müddəti üstündədir; bir sənə də, bir ay da istəyən var. Necə ki Məmməd Əmin cənabları buyurdu, bizə bilikli əsgər lazımdır. Əsgərlik xidmətinin müddəti bir və ya iki sənə olması haqqında əhli xibrədən soruşsanız daha da ey olur. Əgər bir müstəbid hökumət ya ikinci Nikolay zamanı olsa idi bu etirazlar ola bilərdi. Burası cümhuriyyətdir. Bizim əsgərlərimizin xidmət müddətləri artırılmasından murad firqələr ilə mübarizə etmək deyil, firqələr dəstə düzəldib bir-birinə hücum etməyəcəklər. Burada fənni və elmi mübahisə vardır ki, əsgərlik müddəti bir sənə olma mümkündürmü ya yox, buna da biz mütəxəssis deyilik. Mənim və sizin də bu xüsusda heç bir fəna fikrimiz yoxdur. Bunu hökumət təklif edir, o hökuməti də haman "müsavat", "İttihad" və qeyri firqə inanıb bu məclisdə intixab ediblər. O cəhətdən hərbiyə nəzarəti müddəti əsgəriyyəni 2 sənəlik də təklif etməklə bərabər, deyir ki, bu müddətdən az olar isə mən sizə istədiyiniz əsgəri hazır edib verə bilmərəm. Onlar demirlər ki, biz istibdadı əsgər hazır edirik, deyirlər ki, tərbiyəli əsgər hazır etmək üçün əqəllən 2 sənə lazımdır, çünki milləti və müharibələrdə müdafiə etmək istəyənlər həbsi tərbiyədən asılıdır. Tərbiyəsizlər və başı pozuqlar əsgərlik yapamazlar. Əsgərlik tüfəngi alıb atmaq deyil, buna bir tərbiyə lazımdır ki, bu da bizlərdən artıq bilikli mütəxəssislərin sözüdür. Müharibədə yalnız tüfəng alıb qoşmaq olmaz, [908 - 909] başı pozuqlar qalib gəlsələr qabaq kəndi məğlub olduqda geri qayıdıb öz yuvalarını dağıdırlar. Buna tərbiyəli əsgər lazımdır. Bu xüsusda uzun-uzadı məlumat vermək istəmirəm, çünki əsgərlik "Puşeçni myao olmayıb, doktorluq, yuristlik və qeyri elmlərdən daha geniş və daha mükəmməl elmdir ki, o xüsusda nə qədər məlumat versək yenə də azdır. Onun üçün buradakı etiraz və mübahisələrin hamısı böylə bir şey üzrədir ki, o barədə rəyimizi söyləmək üzərimizə böyük vəzifə götürməkdir. Hərbiyyə nəzarətimiz bu kimi işlərdə daha təcrübəkar, daha mahirdir. O böylə təklif etmişdir. Madam ki, üsul qəbul edilir. Bu üsulun əleyhinə danışmaq başqadır. Bizim firqələrin həpsinin proqramında vardır ki, əsgər deyil milisiya saxlamaq lazımdır. Bəlkə vaxtı gələr, hamı hunun tərəfdarı olacaqdır. Tək sosyalistlər deyil hamı firqələr deyir. Nə lazımdır yüz min əsgər saxlayıb camaat pulunu xərcləyək. Bu bizim məsləkimizdir və məsləkimiz də doğrudur. Fəqət biz bilirik ki, hal-hazırda, hər tərəfdən atəş içərisindəyik. Sosialistlərin ən yaxşı fikirdə olanlarının dedikləri budur ki, bizim tək canımızı deyil hüququmuzu müdafiə edəcək yaxşı qüvvəmiz olmazsa, tamamilə məcbur olarıq. Denikinə baş əyək. Denikin tək deyildir. Atəş ətraf almış. Kor da olsaq bunu görürük. Hazırlayacağımız qüvvə gərək eylə bir qüvvə olsun ki, düşmən qarşısına getdikdə özünü baha satsın. Nahaq yerə özünü ölümə verməsin. Bu nöqteyi-nəzərdən komisyon bu qanunun təmamilə qəbulunu təklif edir. Bu bir təcili məsələdir. Buna etiraz etmək açıq qapını zorlamaqdır. Hərbiyə nəzarətinin bu qanununa inanıram və bu inanmaq elmə inanmaq kimidir. Bunun üçün əsgərlik müddətinin iki sənə olmasının təsdiq olunmasını təklif edirəm.

**Sədr** - Layihənin əsasları üzərində müzakirə bitdiyindən maddə-maddə müzakirəsini səsə qoyuram. Buna etiraz yoxdur. Etiraz olmadığından layihənin maddə-maddə ikinci qiraəti qəbul edilir. Qara bəy, oxuyunuz!

**Qarabəyli** - Layihəni oxuyur.

**Sədr** - Bu maddəyə etiraz yoxdur?

**Əbilov** (yerindən) - Bizim təklifimiz var.

**Sədr** (Qara bəyə) - Maddənin qeydlərini oxuyunuz.

**Qarabəyli** - Maddənin qeydlərini oxuyur. [909 - 910]

**Sədr** - Sırada natiq olmadığından o maddə ki, ona təklif olunubdur, təklif ilə səsə qoyacağam. Çünki təklif komisyon məruzəçisi tərəfindən qəbul edilir. Buna görə əvvəlcə təklifi səsə qoyacağam. Sonra maddəyi təklifin məzmunu belədir: "Təklif olunur ki, müddəti əksəriyyətin müddəti bir ilə qərar verilsin". Bu təklifi səsə qoyuram. Kim bu təklifin lehinədir, rica edirəm əlini qaldırsın. (Əllər qalxır). Sayınız! Kim əleyhinədir? (Əllər qalxır). Muxtar Əfəndizadə, Rica edirəm, getməyib əyləşəsiniz. Rica edirəm, səsə qoyulan zaman getməyəsiniz, səsinizi verəsiniz, gediniz, çağırınız! (Səslər "O, əleyhinədir!"). Səs verməyənlər? (Əllər qalxır). Lehinə-13, əleyhinə-30, səs verməyən bir. Əksəriyyət rəylə təklif qəbul edilmir. Maddəni səs qoyuram. Kim maddənin tərəfdarırsa, rica edirəm əlini qaldırsın. (Əllər qalxır). Əleyhinə kimdir? (Əllər qalxır). Kim səs verməyib? (Əllər qalxır). Lehinə 26, əleyhinə-13, səs verməyən-bir əksəriyyət rəylə maddə komisyonun qərarı üzrə təklif edilən maddə qəbul edilir. Layihənin üçüncü qiraətini tənəffüsdən sonra səsə qoyacağam. Şimdilik 5 dəqiqə tənəffüs elan olunur.

**Tənəffüsdən sonra. Saat 1-15 dəqiqədə**

**Sədr** - İclas davam edir. Layihənin üçüncü qiraətinə keçmədən qabaq tənəffüs əsnasında seçilməsi imkan olmadığından rica edirəm, fraksiyalardan sabah yox, birisi günə kimi iclasda bu məsələni həll edəsiniz. Sonra əsnayi-tənəffüsdə böylə bir təklif də varid olmuşdur. Bu da tətil haqqında parlamanın verdiyi qərarının təkrar

müzakirə edilməsi təklif edilir. Təklifin müzakirə edilməsinə etiraz yoxmu? Əgər yoxdursa qəbul olunur. İki adama söz verəcəyəm, biri əleyhinə; digəri lehinə. Etiraz yox qəbul edilir. Kim lehinə danışmaq istər.

**Qara bəy** (yerindən) - Lehinə mən danışmaq istəyirəm.

**Sədr** - Qara bəy Qarabəyli

**Qarabəyli** - Kim iclasda qərar qoymuşdur ki, avqustun beşindən sentyabrın birinədək parlaman tətil edilsin. Fəqət bizcə bu tətil vaxtsızdır. Bir çox məsələlər var, layihələr var qurtarmayıb. Bir də iki iclas qalıbdır. Bundan mayədə siyasi əhval qarışıqdır. Böylə zamanda parlamanın vücudu lazımdır. Lənkəran və başqa məsələlər vardır ki, mənfi vaqiələr [910 - 911] gözləmək olar. Bu zamanlarda parlaman meydanda olmalıdır. Keçən dəfə bu hallar yox idi. Mən və bizim firqəmiz tətil tərəfdarı idik. İndi bu halları nəzərə alıb da parlamanın keçən qərarının ləğv edilməsini təklif edirəm. Ola bilər ki, öylə məsələlər olsun ki, hökumət aciz olsun, parlamandaki millət nümayəndələri burada olmalıdır. Ona görə tətili təxirə salmalıyıq, baxalım işlər nə tövr olur. Lazım olarsa tətil edərik.

**Sədr** - Təklif əleyhinə kim danışmaq istərdi.

Təklifi səsə qoyuram. Təklifi başa düşdüz: tətil haqqında olan qərar ləğv olunsun. Kim qəbul edirsə rica edirəm əlini qaldırsın. Kim əleyhinədir? Səs verməyən? Lehinə 29, əleyhinə 11, səs verməyən 7. Əksəriyyət rəy ilə tətil ləğv edilir. Parlamanın qərarı mövcibincə iclas günləri dəyişmişdi. (Səslər: Şimdi köhnə qayda üzrə olmalıdır). Demək köhnə qayda üzrə, bazar ertəsi və pəncişənbə günləri, fəqət saat 10-da iclas açılmalıdır.

**Səslər** - Bazar və pəncişənbə günü.

**Sədr** - Xayir, bazar ertəsi və pəncişənbə günləri, saat 10-da iclas açılmalıdır. Və bir də, rica edirəm və çox təvəqqi edirəm ki, mən çox yorulmuşam və bacara da bilmirəm. Gələn iclas ikinci müavin məsələsini həll edəsiniz.

**Rəfibəyov** (yerindən) - Baş üstə.

**Sədr** Layiheyi-qanuniyyənin üçüncü qiraətidir.

**Rəfibəyov** - Oxuyur.

**Sədr** - Maddənin bu təğyiri xüsusda danışan yoxdurmu? Etiraz yoxdursa, maddənin 3-cü qiraəti qəbul edilir. Layiheyi-qanuniyyəni tamamilə səsə qoyuram, buna etiraz yoxmu? Layiheyi-qanuniyyə tamamilə qəbul edilir.

**Mehdi bəy Hacınski** - Köhnə qanuna görə banklardan borc alanların mümkünləri olmayırdı ki, nəqliyyən pul versinlər. Və məcbur olurdular ki, əmvali-mənqulə və qeyri mənqulə verib rəhn qoysunlar. Bu qanuni müvəqqəti Rusiya hökuməti dəyişdirmişdi. Haman dəyişilmiş qanunun da bizim həyatımıza yaramayan bəzi yerləri vardı. Ona görə maliyyə naziri bəzi yerləri təğyir edib, təqdim edir. Böylə ki! (Oxuyur). Bunlar bütünə-bütünə dəyişilməlidir. Bəzi yerlərini isə təğyir və fəs etmək lazımdır. Bu layihəyə ləvazəhi-qanuniyyə komisyonu baxıb, bir kaç maddələrini dəyişdirib, parlamana təqdim edir və rica edir ki, parlaman qəbul eləsin.

**Sədr** - Layiheyi-qanuniyyənin əsasları üstə kim danışmaq istərdi? Danışmaq istəyən olmadığından layiheyi-qanuniyyənin ikinci qiraətinə keçirəm. Maddə-maddə oxuyunuz.

**Hacınski** - Birinci maddəni oxuyur.

**Sədr** - Əvvəlinci maddə xüsusunda kim danışmaq istərdi? Danışmaq istəyən yoxsa səsə qoyuram. Etiraz yoxdur ki, əvvəlinci maddə qəbul edilir. Komisyon tərəfindən bir neçə təshihlə qəbul edilib. Lakin bunlar hamısı redaksiyanın olduğundan səsə qoymayacağam. (Katibə) 2-ci maddəni oxuyunuz.

**Katib** - 2-ci maddəni oxuyur.

**Sədr** - 2-ci maddəyə etiraz yoxdur? Etiraz yoxdur. 2-ci maddə qəbul edilir. 3-cü maddəni oxuyunuz.

**Katib** - 3-cü maddəni oxuyur.

**Sədr** - 3-cü maddəyə etiraz yoxdur, qəbul olunur. 4-cü maddəni oxuyunuz.

**Katib** - 4-cü maddəni oxuyur.

**Sədr** - 4-cü maddəyə etiraz yoxdur, qəbul edilir. Layiheyi-qanuniyyənin 3-cü qiraəti qalsın gələn iclasa. İcazə versəniz bununla iclası qapayaram. Lakin məclisi qapamadan əvvəl Muxtar Əfəndizadədən bir məktub gəlmiş dinləsəniz oxusunlar.

**Kiçikxanov** (katib müavini) - Oxuyur.

Parlaman-divani-rəyasəti cənabi-aliilərinə maliyyə və büdcə ləvayehi-qanuniyyə və təshih komisyonunun üçünə də yetişmək mənim üçün ağır olduğundan bilxassə bu fraksiyaların əksər iclasları bir zamanda iniqad etdiyindən məni maliyyə-büdcə komisyonundan çıxarıb, yerimə Hacı Hüseyn Əfəndizadənin namizəd göstərməniz müstərhəmdir. Muxtar.

**Sədr** - Bu barədə xahiş edirəm gələn iclasda fikrinizi söyləyəsiniz.

İclas saat 1-45 dəqiqədə qapanır.

**Arxiv, f.895, siy.1, iş 100. vər.1-32.** [912 - 913]

**№ 61**

**Altmış birinci iclas**

*31 iyul 1919-cu il*

**Rəis** - doktor Həsən bəy Ağayev.

**Katib** Mehdi bəy Hacınski. Müzakireyi-yomiyyə:

1-Daxil olmuş kağızlar, o cümlədən: a/ Məclisi-müəssisan mərkəzi komisyonu intixabi haqqında və bir də; b/ Parlaman kitabxanası komisyonu intixabi haqqında divani rəyasətin təklifi; c/ Azərbaycan dövlət sandıqları əmanəti barəsində layiheyi-qanuniyyə; d/ Balaxanı-Sabunçı mahalında vergi polisi təsisi haqqında layiheyi-qanuniyyə; 2-Şəhərlərdə bələdiyyə idarələri seçkiləri haqqında layiheyi-qanuniyyə "İkinci qiraət"; 3-Əsgəri xidmətin müddəti barəsində layiheyi-qanuniyyə; 4-Aksiz vergisinin nizamnaməsi haqqında layiheyi-qanuniyyə (təcili); 5-Spirt məhsulatından alınan aksiz vergisi miqdarlarının artırılması haqqında layiheyi-qanuniyyə; 6-Azərbaycan hökuməti sərhədində mühafizə bölüyü təsisi haqqında layiheyi-qanuniyyə; 7-Tövcü vergisinin artırılması ilə bərabər topraq gəlir və məxaric smetasının və torpaq vergisi miqdarlarının təmdidi haqqında layiheyi-qanuniyyə; 8-Nəşri elan haqqında layiheyi-qanuniyyə; 9-Maliyyə nəzarəti şurası haqqında layihə; 10-Fabrik inspeksiyasına dair qəvaidin müvəqqəti təğyiri haqqında layihə; 11-Ümumi tamaşaxana və əyləncə yerlərindən alınan müvəqtəti naloqun hökumət məbaliğ müstəhfizəsinə idxalı haqqında layiheyi-qanuniyyə; 12-"İttihad" fraksiyasının hökumətə sualı; 13-həmin sənə üçün İrəvan ümuri-xeyriyyə vəkilinin maaşı və ümumi-xeyriyyə vəkilinin idarəsi məsarifəti üçün məzkur nazirə 177.000 rüblə buraxılması haqqında layihe-i-qanuniyyə; 14-Tamğa rüsumatı qanunnaməsinin bəzi maddələrinin təbdili və rüsum miqdarlarının təzayidi haqqında layiheyi-qanuniyyə; 15-Şəhadətnaməsiz olan içki ticarətindən alınan cərimələrin təzayidi haqqında layihəyi-qanuniyyə.

1-Rəis-tənəffüs əsnasında Məçlisi-Müəssisan mərkəzi komisyonuna və parlaman kitabxana komisyonuna üzvlər intixabı üçün namizədlər göstərilməsini təklif etdi. [913 - 914]

Yeni daxil olmuş iki layihəni-qanuniyə, maliyyə və büdcə komisyonuna verilməsini də bəyan etdi.

2-Şəhərlər bələdiyyələrinə qlasnılar intixabi haqqında ikinci qiraətdə 20-37-ci maddələri oxudu. Maddələr ayrıca səsə qoyulub qəbul edildi. Üçüncü qiraət gələcək iclasa təxir edildi.

Ümumi maaş təzyiqi qəbul edilənə qədər hökumət məmurlarına bir dəfəlik müavinəti-nəqdiyyə verilməsi haqqında, hökumət məmurları ittifaqı rəisinin məktubunu oxudu. Hökumət məmurlarına müavinəti-nəqdiyyə edilməsi arzu edildi.

3-Əsgəri xidmətin müddəti barəsində layiheyi-qanuniyyə. Məruzəçi Qara bəy Qarabəyli bəyanət verdi. Və layihəyə təcili baxılmasını parlaman qəbul etdi. Layiheyi-qanuniyyə haqqında Hacı Kərim Saniyev, Muxtar Əfəndizadə, Rza bəy Ağabəyov, Mustafa Vəkilov, Əliheydər Qarayev, Mehdi bəy Hacıbababəyov, Səmədağa Ağamalı oğlu, Yusif Əhmədzadə və Məmməd Əmin Rəsulzadə mübadileyi-əfkar etdilər. Müzakirə qət olunması təklif edildi. Təklifin əleyhinə Səmədağa Ağamalı oğlu danışdı. Səsə qoyulduqda qəbul edildi. Məruzəçi bəyanət verdi və layihəni maddə-maddə oxudu. 10-cu maddəyə sosialistlər böylə bir təshih verdilər. Məzmunu: "Təklif olunur ki, xidməti-əsgəriyyə müddəti bir ilə qərar olunsun. Əbilov, Səmədağa, Qarayev, Hacı Kərim Saniyev, Rzayev". Təshih səsə qoyulduqda lehinə-13 əleyhinə-30 və 1-səs verilməmək üzrə qəbul edilmədi. Layiheyi-qanuniyyə səsə qoyulduqda əksəriyyət rəy ilə qəbul edildi.

Beş dəqiqə tənəffüs elan edildi. Tənəffüsdən sonra iclas davam edir. Əsnayi-tənəffüsdə bir təklif verilmişdir. Məzmunu: "Parlamanın tətili haqqında verilən qərarın təkrar müzakirəyə qoyulması təklif edilir. Hacı Hüseyn, Qara bəy, Zeynal bəy, Behbudxan Cavanşir, Heybətqulu". Təklifin lehinə-29, əleyhinə-11 və 7 səs verilməməklə qəbul edildi.

Keçən iclasda avqustun 5-dən sentyabrın birinə qədər parlaman qərara aldığı tətil məsələsinin ləğv edilməsi qəbul edildi. İclaslar isə əski qayda üzrə pənçişənbə və düşənbə günləri səhər saat 10-na təyin edildi.

Əsgəri xidmətin müddəti barəsində üçüncü qiraətini məruzəçi bitirdi. Səsə qoyulub əksəriyyət rəy ilə qəbul edildi.

4-Aksiz vergisinin nizamnaməsi haqqında məruzəçi Mehdi bəy Hacinski bəyanat verdi. Layihənin ikinci qiraətinə keçilməsi [914 - 915] qəbul edildi. Katib maddə-maddə oxudu. 1,2,3,4-cü maddələr ayrıca səsə qoyuldu, qəbul edildi. Layihənin üçüncü qiraəti gələcək iclasa təxir edildi. Muxtar Əfəndizadə üç komisyonda üzv olduğunu özü üçün müşkül bilib komisyonun birindən azad olunmasını təklif etdi. Təklifin həlli gələcək iclasa qaldı.

**Arxiv, f.895, siy.1, iş.9, vər.78.**

**№ 62**
**Altmış ikinci iclas**

*4 avqust 1919-cu il.*

**Rəis -** doktor Həsən bəy Ağayev. **Katib -** Mehdi bəy Hacınski.

**Rəis -** İclas saat ona təyin edilmişdi. İndi isə saat 12-yə 20 dəqiqə qalmışdır. Lakin, yenə də məclisdə kvorum olmadığı üçün iclası qapamağa məcburam" - deyib iclası qapadı.

**Arxiv: f.895, siy.1, vər.77.**

**№ 63**
**Altmış üçüncü iclas**

*7 avqust 1919-cu il.*

**Rəis** - doktor Həsən bəy Ağayev. **Katib** - Əhməd Cövdət Pepinov.

Müzakireyi-yomiyyə:

1.Daxil olmuş kağızlar, o cümlədən:

a/Rəisə ikinci müavin intixabi haqqında; b/Daxiliyyə nəzarəti idarəsindəki, məmuriyyətin artırılması üçün 114.275 manatın buraxılması və ştat xaricində olan məmurlara da 11452 manat 75 qəpik faiz üzərinə maaş əlavəsinin verilməsi haqqında; v/Azərbaycanla Ermənistan arasında ticarət müqavilənaməsi haqqında; q/Azərbaycan cümhuriyyəti nəzarətlərinin mali smetaları və hökumət büdcəsinin tərtibi ifası, buraxılması və təlifi xüsusundakı müvəqqəti qərardad; d/Dəmiryolu mövqeyi "Yalamada" ikinci dərəcəli gömrükxana təsisi haqqında; e/Xəmir [915 - 916] mayaları, papiros kağızları və gilizləri, həmçinin çaydan alınan aksiz vergisinin artırılması haqqında.

2.Şəhər bələdiyyə idarələri seçkiləri haqqında qanunun üçüncü qiraəti; 3-Azərbaycan təbəəliyi haqqında layiheyi-qanuniyyə; 4-Kulçi vergisi nizamnaməsinin qəvaizinin təbdili və kulçi vergisinin təmin etmək üçün rəhni qəbulu haqqında layihə; 5-Sülh məhkəmələrinin cinayət işlərində dairəyi-nüfuzunun tövsihi və sülh hakimləri hökmünün təqviyəsilə əmvali xassəyə qarşı icra edilən bəzi cinayətlərə biçiləcək qanunların təbdil və tağyiri haqqında layihə; 6-Spirt məhsulatından alınan aksiz vergisi miqdarlarının artırılması haqqında layihə; 7-Azərbaycan hökuməti sərhəddində mühafizə polku təsisi haqqında layihə; 8-Tövçü vergisinin artırılması ilə bərabər topraq gəlir və məxaric smetasının və torpaq vergisi miqdarının təhdidi haqqında; 9-Nəşri-elan haqqında; 10-Maliyyə nəzarəti şurası haqqında; 11-Fabrika inspeksiyasına dair qəvaidin müvəqqətən tağyiri haqqında; 12-İttihad fraksiyasının hökumətə sualı; 13-Ümumi tamaşaxana və əyləncəxana yerlərindən alınan müvəqqəti verginin hökümət məbaliği-müstəhfizəsinə idxalı haqqında; 14-həmin sənə üçün İrəvan ümuri-xeyriyyə naziri vəkilinin maaşı və onun idarəsi məsarifatı üçün məzkur nazirə 177.000 rüblə kredit açılması haqqında; 15-Tamğa rüsumatı qanunnaməsinin bəzi maddələrinin təbdili və rüsum miqdarlarının təzyidi haqqında; 16-Şəhadətnaməsiz olan içki ticarətinə cərimələrin qüvvələnməyi haqqında; 17-Bakı xəzinə palatası müdiri müavinliyi vəzifəsinin ləğvi haqqında.

1-Rəis daxil olmuş yeni layiheyi-qanuniyyələrdən birincisi maliyyə və büdcə komisyonuna və üç axırıncı layihəni də ləvayehi-qanuniyyə komisyonuna veriləcəyini bəyan etdi.

Müzakireyi-yomiyyənin 17-ci maddəsini ki, layihənin beşinci maddəyə keçirilməsi verilməsinin təklif üzrə məlum edərək qəbul edildi. Bugünki iclasda Şamaxı qəzasından (intixab edilmiş məbus Şıxəlibəyov Asif bəyin iştirak etdiyini əlan etdi. Keçən iclasda siyahini imza edib, məclisdə isbati-vücud etməyən üzvlərdən yalnız Bəhram bəy Axundovun üzri-şəriyyəsi olduğundan (qardaşı oğlu qətl olmuş) cərimədən azad olmaqla bərabər başqalarının (Pepinov Əhməd bəy, Şıxzamanov Məmmədbağır, Qarayev Əliheydər, Cəmalbəyov Qasım bəydən [916 - 917] iki qat cərimə alınmasını təklif etdi. Bu babda Qasım bəy Caməlbəyov, Şıxzamanov Məmmədbağır, Əhməd bəy Pepinov etirazən bəyanat verdilər isə də, Rəis qəbul etməyərək təklifi iki dəfə səsə qoyaraq əksəriyyəti-ara ilə qəbul edildi.

Ağa bəy Səfərəliyev bitərəflər fraksiyasına keçdiyini məlum etdi. 21 iyul iclasından etibarən iclaslarda iştirak etməyən üzv Məmmədbəyov Qazi Əhmədin məzurati-məşruəsinə binaən gəlmədiyi haqqında fraksiya tərəfindən məktubla xəbər verildiyi və xəstə olduğunu təyid edici Murud iki raportdan dəxi təhqiq etdiyi bəyənilə tənəffüs əsnasında rəisə ikinci müavin olaraq namizəd göstərilməsini təklif etdi.

2-Şəhər bələdiyyə idarəsi seçkiləri haqqındakı, layihənin üçüncü qiraətinə katib başladı oxumağa. Birinci maddədən otuz yeddinci maddəyə qədər biqeyd (birinci, üçüncü, on yeddinci maddəyə sosialistlər tərəfindən verilən təshihlər qəbul edilməmək üzrə) ayrı-ayrı və bədə layihəni tamamən səsə qoyaraq əksəriyyət rəylə qəbul edildiyindən təshih komisyonuna verilməsini rəis bəyan etdi.

3-Tövcü vergisi nizamnaməsi qəvaidinin təbdili və Kulçim vergisini təmin üçün rəhn qəbulu haqqındaki, layihəni -katib oxudu-1,2,3,4,5-ci maddələri əvvəli ayrı-ayrı və bədə ümumi layihəyi rəis səsə qoyaraq qəbul edildi.

**Rəis** - Rəisə isə ikinci müavin intixab edilib namizəd göstərilməsini təkliflə beş dəqiqəlik tənəffüs elan etdi.

4-Tənəffüsdən sonra. Rəis divani-rəyasət naminə Bakı və Gəncə Rus rüəsayi ruhaniyyəsi tərəfindən murud bəyannaməni oxumaqla mandat komisyonuna veriləcəyini izhar etdi:

Məzmunu: Qətnamə "Bakı və onun civailə Gəncə şəhəri prixodlarının zildə imzaları mövcud nümayəndələri bugün böylə qərar etdik: "Bugünə qədər bizim mənafeimiziə Azərbaycan parlamanında müdafiə edən sabiq nümayəndələr - Slavyan-rus cəmiyyəti əzası hal-hazırda geri dəvət olduqları zaman bizim qərarımıza itaət etmədilər. Bizim tərəfdən onlara verilən etimadnamə qüvvəsindən sabit olduqsa da tabehal öz mənsəblərində

qalmaqdadırlar. Bunun nəticəsi olaraq biz öz mənafelimizi həm parlamanda, həm hökumət dairələrində müdafiədən məhrumuq. Bunu nəzərə alaraq biz mənafelimizin parlamanda [917 - 918] müdafiəsini " İttihad" firqəsinin parlaman şöbəsinə mühəvvəl edirik. 6 avqust. İmzalar.

5-Rəisə-ikinci müavin intixabi haqqında "İttihad" firqəsinin mövrid məktubunu rəis oxudu.

Məzmunu: "Sultan Məcid Qənizadə parlaman sədri müavinliyinə kəndi namizədliyini qoymağa razıdır. "İttihad" fraksiyası rəisi doktor Qarabəyli. Rəis momaileyhin namizədliyini seçki üzrə əlli bir səsdən qırx altı səs əksəriyyətilə müamon eleyh Sultan Məcidin rəisə ikinci müavinliyi qəbul edildi.

6-Növbədəki məsələ təbəqiyyət layiheyi-qanuniyyəsi, bu babda məruzəçi-bəyanat verdi. Rəis layiheyi-qanuniyyənin təcili surətdə qəbul edilməsini səsə qoyaraq qəbul edildi. Kravçenko, Vanseviç, Pepinov Əhməd bəy təati-əfkar etdilər.

Rəis: Məsələ mühüm olduğundan müzakirənin rus lisanında və yaxud ruscaya tərcümə edilməsi haqda təklif varid olduğuna Lehinə və əleyhinə danışmaq istəyən varsa, söyləməsini izhar etdi. Bu xüsusda Kravçenko, Mustafa Vəkilov bəyanat verdilər.

Rəis, təklifin hər iki ibarəsini ayrı-ayrı olaraq səsə qoyduqda heç birisi qəbul edilmədi. Mustafa Vəkilov bəyanət verdi. Bu xüsusda natiq olmadığından məruzəçi bəyanat verdi.

Rəis Qanunun ikinci qiraətini təklif ilə qəbul edildi. Katib oxudu.

Birinci maddəyə Vanseviç tərəfindən bir təshih verildi: Məzmunu "Azərbaycan təbəəliyi haqqındakı qanunun əlanı əsnasında Azərbaycan cümhuriyyəti daxilində bulunanlar" təshihi rəis səsə qoyaraq qəbul edildi. Və yenə ikinci fəslin birinci babinə Vanseviç tərəfindən təshih verildi. Məzmunu: "Əgər əsgər xidmətini yetirmişlər, yaxud mükəlləfiyyati-əskəriyyədən məafdırlar. "Sözləri ixrac olunmalıdır". Təshih səsə qoyularaq qəbul edildi. Bu xüsusda hökumət üzvü Səfikurdski Aslan bəy qanunu müdafiə etdi. Sosialistlər tərəfindən birinci maddəyə təshih verildi. Məzmunu: "Azərbaycan cümhuriyyəti elani-istiqlal günündən Azərbaycanda sakin olan sabiq rus təbəələrinin cümləsi Azərbaycan vətəndaşı hesab olunurlar" Təshih səsə qoyularaq qəbul edilmədi. Bu babda məruzəçi bəyanat verdi:

Rəis birinci maddəyə verilən hər iki təshihi səsə qoyaraq Vanseviçin təshihi əksəriyyət rəylə qəbul edildi. İkinci [918 - 919] maddəyə verilən təshih ilə rəf ediləcək gəlmələr haqqında Ağa Aşurov, Məmməd Əmin Rəsulzadə təati-əfkar etdilər. Yenə məruzəçi bəyanət verdi.

Rəis, ikinci maddəyə verilən təshihlə komisyonun qəbul etdiyi eyni maddə və qeydini səsə qoyaraq təshih qəbul edilib, komisyonun təsvib etdiyi vəch ilə əksəriyyəti-ara ilə qəbul edil-di. Rəis iclası qapadı.

**Arxiv, f.895, siy.1, iş.9, vər.45-46.**

**№ 64**
**Altmış dördüncü iclas**

*11 avqust 1919-cu il*

**Rəis**-doktor Həsən bəy Ağayev. **Katib**-Əhməd Cövdət Pepinov. Müzakireyi-yomiyyə:

1-Daxil olmuş kağızlar: O cümlədən sosialistlərin hökümətə sualı və parlaman üzvü Mehdi bəy Hacıbababəyovun məktubu; a/Bakı gömrükxana heyətində bir müfəttişlik məmuriyyəti təşkili haqqında layihə; b/Altı yüz milyon dövlət kağız pulu buraxılması haqqında; v/Vəzirov Bəhram bəy ilə Əliverdiyev Qara bəyin məzuniyyətlərinin təmdidi haqqında; q/Yüz nəfər Azərbaycan tələbələrinin ikmali-təhsil üçün xarici darülfünunlara ezam ediləcəklərində dolayı dörd yüz on min franq buraxılması haqqında layihə; d/Xalq məktəbləri kitabxanaları üçün türkcə kitab almaqdan ötəri bir milyon rüblə buraxılması haqqında layihə; v/hökumət binagüzarlığına açılmış qırx milyon rübləlik fondunun yetmiş milyon rübləyə qədər artırılması haqqında layihə. 2-Azərbaycan təbəəliyi haqqındakı layihənin ikinci qiraəti. Məruzəçi Mehdi bəy Hacınski; 3-Sülh məhkəmələrinin cinayət işlərindəki dairəyi-nüfuzunun tövsi və sülh hakimləri hökmünün təqviyəsilə əmvali-xassəyə qarşı icra edilən bəzi cinayətlərə tətbiq ediləcək qanunların təğyir və təbdili haqqında. Məruzəçi Rzayev Bağır; 4-Spirt məhsulatından alınan aksiz vergisi miqdarlarının artırılması haqqında. Məruzəçi Ağabəyov; 5-Azərbaycan sərhədində [919 - 920] mühafizə polku təsisi haqqında. Məruzəçi Ağabəyov; 6-Tövcü vergisinin artırılması ilə bərabər topraq gəlir və məxaric smetasının və torpaq Verisi miqdarlarının təmdidi haqqında. Məruzəçi Ağabəyov; -Nəşri-elan haqqında; a-Maliyyə naziri şurası haqqında 9-Fabrika inspeksiyasına dair qəvaidin müvəqqətən təğyiri haqqında 10-"İttihad" fraksiyasının hökumətə sualı; 11-Ümumi əyləncəxana və tamaşaxana yerlərindən alınan müvəqqəti verginin hökumət məbaliğ müstəhfizəsinə idxalı haqqında. Məruzəçi Ağabəyov; 12-Həmin sənə üçün İrəvan ümumi-xeyriyyə naziri vəkilinin maaşı və onun idarə məsarifatı üçün məzkur nazirə 177.000 rüblə kredit açılması haqqında; 13-Tamqa rüsumatı qanunnaməsinin bəzi maddələrinin təbdili və rüsum miqdarlarının təzyiqi haqqın-da. Məruzəçi Rüstəmbəyov.

**Sədr** - Etiraz yoxdur ki, Müzakirati-yomiyyəyə etiraz olmadığından .müzakirati-yomiyyə qəbul olur. Bunlardan əvvəlinci nömrə, yəni Bakı gömrükxanasında bir müfəttişlik məmuriyyəti təşkilatı gedir. Ləvayehi-qanuniyyə komisyonununa 2-4-5-6-7 nömrələr gedir maliyyə-büdcə komisyonuna, sosialistlərin hökumətə sualı iclasın axırında elan olacaq. Bundan başqa dəfəatla rica etmişik ki, mərkəzi intixabat komisyonunu seçəsiniz. Rica edirik, onuda bu günki iclasda bitərəsiniz. Sonra iclasın birində nəzarətin parlamanın xahişinə görə Zəngəzur qaçqınlarına müavinət edən heyətə bir nəfər üzv seçilməsini xahiş edirəm, onuda bu gün intixab edəsiniz. Məzuniyyət məsələsində iş burasındadır ki, Bəhram bəy Vəzirov mayın 28-dən məzuniyyətə getmişdir. O vaxt məzuniyyətinin müddəti iyulun axırına uzadılmışdır. İndi o müddətdən 11 gün keçir. Divani-rəyasət bu məzuniyyətin iki aydan artıq olduğunu nəzərə alıb, onun daha bir də məzuniyyət müddətini artırmayıb, bu məsələni parlamana həvalə edir. Bundan əlavə keçən ayın 28-də yazılıb lakin bu ayın 7-də bizə "İttihad" fraksiyası tərəfindən böylə bir vəsiqə gəlmişdir. Bu vəsiqəni yazan ümuri-xeyriyyə naziri müavinidir. (Oxuyur).

Bu münasibətlə vəsiqə verilib deməli, Qara bəy Əliverdlinin vaxtından 17 və Bəhram bəy Vəzirovun vaxtından 11 gün keçmişdir. Deməli, Vəzirov xəstədir. Bu vəsiqəni bizə "İttihad" fraksiyası göndərmişdir. Zahirən böylə görünür ki, [920 - 921] "İttihad" fraksiyasından Bəhram bəyə bir teleqram gəlmişdir və cavabında Vəzirovdan bu məzmunda teleqram alınmışdır. Mən özümü xəstəliyə vurmuram, avqustun, 15-də gələcəyəm. Bu barədə rica edirəm parlaman öz nəzərini söyləsin. Parlaman üzvü əvvəla üç həftədir ki, parlamana dəlmir. Nakaz üzərinə avqustun 5-dən ixrac edilir. Kim danışmaq istərdi bu barədə. Bu məsələlərin müzakirəsini istəmisiniz. Söz Əhməd Cövdətindir.

**Əhməd Cövdət** - Parlamanın üzvlərindən Vəzirov haqqında məlumatımız var, naxoşdur. Özünün də teleqrafı var. Ona görə ayın 5-dək gələ bilməmişdir. Təklifim odur ki, Vəzirova avqustun 15-nə qədər məzuniyyət verilsin. İkinci, Qara bəy Əliverdilər haqqında, bizdə bir məlumat yoxdur. Bir doktor xüsusi surətdə xəbər verir ki, naxoşdur. Ancaq Əliverdilərin özü tərəfindən bir məlumat yoxdur. Ona görə də bu barədə hə, ya yox deyə bilmirik.

**Sədr** - Bu təklif ki, Vəzirova ayın 15-ə qədər məzuniyyət verilsin. Özü də yazıbdır ki, ayın 15-də gələcəkdir, etiraz yoxdur? Etiraz yoxdursa Vəzirova avqustun 15-nə qədər məzuniyyət verilir. Qara bəy Əliverdilər barəsində, Qara bəy, Siz danışmaq istəyirsiniz? Buyurunuz.

**Qara bəy** - Qara bəy Əliverdi barəsində bizim fraksiyaya məlumat gəlmişdir. Qara bəy ishal və qızdırma azarına mübtəladır ki, həkimlər onu Qarabağa göndərmişlər.

Gərək o vəsiqə göndərə idi. Lakin, qərara alınmışdı ki, parlaman avqustun 15-dən tətil edəcəkdir. Fraksiyamız da bu xəbəri ona göndərmişdi ki, parlaman tətil edəcəkdir, hələ zəhmət çəkib gəlməyəsiniz. Onun üçün də vəsiqə göndərməmiş ki, onsuzda parlaman 25 gün buraxılacaqdır. Parlamanın tətil etməsi qərara alınan

gün fraksiyamız tərəfindən ona teleqraf göndərilmişdir. Özü də bizə xəbər vermişdi ki, hər gah lazımsa vəsiqə göndərim. Lakin sentyabrın əvvəlinə qədər 25 gün vaxt var idi. Onun naxoş olmağı təsdiq edilir. Ağdamda qala bilmədiyindən təbdili-hava üçün həkimlər onu Qarabağa göndərmişlər.

**Sədr**-Təklifiniz nədir?

**Qara bəy**-Avqustun 15-nədək məzuniyyət verilsin. Lakin avqustun 15-i tez olduğundan o vaxta qədər xəbər gedib çatmaz. [921 - 922] Ona görə ayın 20-nə qədər məzuniyyət verilməsini təklif ediriz.

**Sədr**-Bu təklifə etiraz yoxdur. Təklif budur ki, Əliverdilərə avqustun 20-nə qədər məzuniyyət verilsin. Etiraz yoxdur. Etiraz yoxdursa qəbul edilir.

Mehdi bəy Hacinski tərəfindən böylə bir ərzi-hal varid olmuşdur. (Oxuyur).

Nakazın maddəsinin məzmunu böylədir. (Oxuyur). Buna görə layihənin əvvəlinci maddəsini əlavəsilə bərabər və ondan başqa keçən səfər sosialistlər tərəfindən olunan əlavəni də bu gün dübarə səsə qoyacağam. Keçirəm növbədəki məsələyə. Təbəəliyin qanunu xüsusunda. (Katibə) Mehdi bəy: Əvvəlinci maddəni oxuyunuz.

**Katib** - Layihənin əvvəlinci maddəsini oxuyur.

**Sədr**-Əlavəsini də oxuyunuz.

**Katib**-Vanseviçin əlavəsini oxuyur.

**Sədr**-Bu əlavə keçən dəfə Vanseviç tərəfindən təklif olunub. Parlama tərəfindən qəbul edilmişdir. Bu birinci əlavə. İkinci əlavəni də oxuyunuz.

**Əhməd Cövdət** - Sosialistlərin əlavəsini oxuyur. (Rusca).

**Rəis**-Bu əlavələr parlaman tərəfindən qəbul edilmədiyindən, bunları dübarə səsə qoyacağam.

**Mehdi bəy Hacınski** - Cənab Vanseviçin təklif və əlavəsinə komisyon üzvlərindən ikisi razı deyil, ikisi razıdır, biri də bitərəfdir. Əgər bu qanunu qəbul edərsək, Avropa içində, Fransada, Türkiyədə və qeyri yerlərdə olan təbəələrimiz bu qanunları bilməyəcəklər və təbəəlikdən çıxmış hesab olunacaqlar. Və yenə komisyonun rəyi də ikisi qəbul olunsun deyir, ikisi olunmasın. Amma bunun zərəri vardır.

**Rəis**-Mən əlavələri bir-bir səsə qoyacağam. Əvvəla sosialistlərin təklifini səsə qoyacağam. Çünki keçən səfər komisyon tərəfindən qəbul edilmişdi. Ona görə də ayrıca səsə qoyuram. Məzmunu sizə məlumdur. Təklifi oxuyur.

**Rəis**-Bən bunu səsə qoyacağam.

**Səslər**-Danışırlar.

**Rəis**-Eşitmirəm, nə buyurursunuz? Böylə təklif olunur ki, (oxuyur) Azərbaycan cümhuriyyəti elanı-istiqlal etdiyi gündən [922 - 923] etibarən Azərbaycan daxilində yaşayan sabiq Rusiya təbəələri Azərbaycan vətəndaşı hesab olunurlar.

**Rəis** - Səsə qoyuram. Kim qəbul edirsə əllərini qaldırsın. (Kyüsterə) Sayınız neçədir! Kim əleyhinədir. Rica edirəm iştirak edəsiniz. Səs verməyirsiniz. Bir daha səsə qoyuram. Elan elədiyim əlavənin kim tərəfdarı isə rica edirəm əllərini qaldırsın.

**Rəis** - Kim əleyhinədir? Kim səs verməyir? Lehinə 6, əleyhinə 23, səs verməyən 12. Əksəriyyət rəy ilə sosialist fraksiyasının əlavəsi qəbul edilməyir. Və yenə parlaman üzvü Vanseviç cənabları tərəfindən edilən təklifi səsə qoyuram.

**Katib** - Oxuyur.

**Rəis** -Təklifi səsə qoyuram. Bu əlavəni kim qəbul edirsə əllərini qaldırsın. Kim əleyhinədir? Kim səs verməyib? Rica edirəm, artıq fikir verəsiniz. Mən hər məsələni iki-üç dəfə səsə qoymağa məcbur oluram. Ya ayağa qaldıracağam, yaxud qapıdan buraxacağam. Vanseviçin təklifinə kim səs verirsə əlini qaldırsın. Kim əleyhinədir? Kim səs verməyir? Lehinə 12, əleyhinə 19, səs verməyən 10, əksəriyyət rəylə Vanseviç tərəfindən birinci maddəyə əlavə olaraq edilən təklif qəbul edilmir. Əvvəlinci maddəni səsə qoyuram. Mehdi bəy, oxuyunuz birinci maddəni.

**Katib** - Oxuyur.

**Rəis** - Birinci maddəni komisyon tərəfindən qəbul edildiyi kibi səsə qoyuram. Kim qəbul edirsə, əllərini qaldırsın. Kim əleyhinədir? Kim səs verməyir? Lehinə 26, əleyhinə 7, səs verməyən 2. Birinci maddə əksəriyyətlə qəbul edilir.

**Mehdi bəy Hacınski** (2-ci maddəni oxuyur) - Bütün qismi oxuyum, ya maddələri?

**Sədr**-Bütün maddələri oxuyunuz.

**Katib** - Oxuyur. Burada komisyonun əlavələri var. (Oxuyur).

**Sədr** - Danışmaq istəyən yoxmu? Əhməd Cövdət.

**Əhməd Cövdət** - Bu qanun birinci dəfə baxılanda bizim bir neçə əlavələrimiz var idi. Onları yenə söyləməyi lazım bilərəm. Əvvəla, budur ki, burada deyilir, o adamlar ki, Azərbaycan vətəndaşı olmaq istəyirlər, onlar bir neçə şərti haiz olmalıdır. Əvvəla bir qulluqda olsunlar. Əxlaqca gözəl olmalı. Mən keçən dəfə söyləmişdim. Yenə təkrar edirəm ki, böylə hüdud [923 - 924] qoymaq vətəndaşları iş tapmaqda çətinlik çəkən vətəndaşları sıxmaq və onları hüquqdan məhrum etməkdir. Böylə şeylərə yol verməməli. Ona görə təklif edirik ki, bu maddə

buradan götürülsün. Sonra 2-ci budur ki, 10-cu maddə büsbütün götürülməlidir. Orada söylənilir ki, bir xarici Azərbaycan vətəndaşı olursa onun arvadı da azərbaycanlı olur. Bu maddə ilə arvadların hüququ və ixtiyarı nəzərə alınmayır. Guya onlar mal kimi cansız bir şeydirlər. Bu maddə tamamilə aradan götürülməlidir. Ola bilir ki, bir xarici təbəəsi Azərbaycan vətəndaşı olur, arvadı olmaq istəməyir, istədiyi təbəəliyində qalır. Və yaxud özü ayrıca ərizə verib vətəndaşlığı qəbul edir. Bu onun öz ixtiyarıdır. Bunu onun əlindən almaq olmaz. Fraksiyalar bütün deklarasiyalarında arvadların hüququ etiraf olur. Bu maddə ilə arvadların hüquq müəyyən edilir. Sonra burada 11-ci maddə də and məsələsidir ki, keçən dəfə and barəsində danışmışdım. Mustafa bəy Vəkilov demişdi ki onların mövqeləri eylədir ki, gərək bunun bir əksinədə danışsınlar. Mən də deyirəm ki, sənin mövqeyin elədir ki, gərək andı müdafiə edəsən. hər yerdə nravstvenni nöqteyi-nəzərdən gərək baxsın ki, and içən, andı saxlayıb buna əməl edəcəkdir ya yox? Sən bir tərəfdən deyirsən ki, təbəəliyi qəbul edən şəxs gərək iki sənə kəndi etibar və etimadını nəzərinə çəkərək, özlüyünü isbat etsin və bundan mayədə filan-filan maddələri qəbul etsin. Mən deyirəm ki bu şərtləri qəbul edib əmələ gətirsə kifayətdir. Lakin sən deyirsən ki, gərək and da içə. Ola bilir ki, sənin özün də and içib vaxtı ilə hökumət əleyhinə çıxsın. Min dəfə görmüşük ki, sudlarda yalandan and içirlər, sonra da haman andın əleyhinə gediblər, bu səbəblə anda əməl olmadığından andın əhəmiyyəti itir. Əgər siz and tərəfdarısınız andın qüdsiyyətini saxlamalısınız. Ona görə bir yerdəki sən onu cürbəcür qanunlar ilə məhdud edirsən ona bir də and vermək bunu periodiçeski deyil praktiçeski gözləmək lazımdır. Mən təklif edirəm, and məsələsini bütün-bütünə bu maddədən rədd edək.

**Sədr-**Söz Mustafa Vəkilovundur.

**Mustafa Vəkilov** (Müsavat) - And məsələsində Əhməd bəy deyirdilər ki, hər bir şeydən ötəri and salmaq olmaz. Çünki and qüdsiyyəti itər, cəmaət arasında əhəmiyyətdən düşər. Çalışmalıdır ki, and dar məqamda işlənsin. Dəxi hər şeydən ötəri aralığa atılmasın. Əlbəttə, əsas etibarilə anda camaat arasında əhəmiyyət verilir. Ondan ötəri də məsələ buradadır ki, bunu hansı məqamda, hansı nöqtədə meydana çıxarmaq olar. Əhməd bəy dedi ki, bir adam ki Azərbaycan təbəəliyini qəbul edir ona andın lüzumu var. Bu hər bir şey üçün deyilki, and ortaya atılsın. Bunu hər bir şey üçün meydana çıxarmaq olmaz. Bir Azərbaycanlı üçün bundan müqəddəs, bundan artıq, bundan əziz bir şey olmaz ki, öz vicdanı ilə and içəcək ki, mən vətənimi müqəddəs bilirəm. Ona görə də iman gətirib and içirəm.

**Sədr**-Söz hökumət üzvlərindən Aslan bəy Səfikürdlünündür.

**Aslan bəy** Səfikürdlü (ədliyyə naziri) - Mən necə, ki keçən səfər ərz elədim ki, bu qanun çox zillətlə, çox çətinliklə keçir. Başqa vaxtlarda da, mədəni hökumətlərdə qanun layihələrinə irad tutmaq olardı. Hər bir qanunun vaxtı var. Hər vaxtın yaşayışına, adətinə görə qanun düzəlir. Və necə yaxşı qanun olsa 100 il-sonra yaramayır. O, gərək dəyişilsin. Əlalxüsus bu, bizim qanunlar ki, parlamanda görür ki, nenormalnı vaxt yaşayır. hamısına irad ola bilər. hər vaxt işlər öz yoluna düşəndə o vaxta görə qanun dəyişəcəkdir. Qonşu hökumətlər bu yol ilə kedə bilər. O cümlədən 10-cu punkt ki, Əhməd deyir ki, bütün xarici təbəəsi, məsələn İran və başqa bir dövlət təbəəsi ikən Azərbaycan təbəəsi olsa, arvadı da Azərbaycan təbəəsi olur. Necəki qonşular eyləyirlər. Yoxsa biz təbəəmizi azaldarıq. Bir ər bir dövlət təbəəsi arvadı isə başqa dövlət təbəəsi ola bilməz, hər gah onlar bir evdə yaşayır, bir-birinə ömür yoldaşdırlarsa, vətəndaş nöqteyi-nəzərincə də bir kişi evdə Azərbaycan təbəəsi olsa, arvadı da olacaq. Gərək də olsun. Yoxsa kişi Azərbaycan təbəəsi, arvad ingilis təbəəsi, atası İran təbəəsi böylə şey qeyri-mümkündür. Əlalxüsus indiki Denikinin üzərimizə gəldiyi bir vaxtda biz öz təbəələrimizin qədərini azaltsaq nə qədər zərər görmüş olarıq. Buna parlaman fraksiyalarından bəzi tərəfdar ola bilərsə də...

**Sədr**-Natiq əfəndi, parlamanda öylə fraksiya yoxdur.

**Aslan bəy** (davamla) - Bu saat adam özünə də inanmayır. Hər bir şeydən şəklənirsən. Mümkündürmü ki, kişi özü Azərbaycan [925 - 926] təbəəsi, arvadı isə rus təbəəsi olsun. Çünki bizim aramızda çoxu erməni, rus, yəhudi qızları alırlar. Fəqət bunda da kişi başqa dövlət, arvad isə başqa bir dövlət təbəəsi ola bilməz. Əlbəttə bu mümkün deyildir. Ondan sonra bu and məsələsi ixtilaflı bir məsələdir. Bu barədə Əhmədin sözü dürüstdür. Dedi və sübut da göstərdi ki, andın heç bir əhəmiyyəti yoxdur. Tarix, inqilab da bunu göstərdi ki həqiqətən də andın əhəmiyyəti olmadı, necə ki Nikolayın çörəyi ilə dolanan generallar and içmişdilər və soldatlar da hamısı and içmişdilər döndülər cəmaət tərəfinə, generallar da çoxu soldatlar tərəfinə keçib, Nikolayı yıxdılar, öldürdülər. Tarix özü göstərir ki, andın əhəmiyyəti yoxdur. Ancaq bir təfavüt var ki, and üçün ya söz verən adamın tənbehi başqa olur, çox olur. And içənin qanun 3 ayacan getməsini izləyir. Yoxsa 2 ay and da içirsən, söz də verirsən qol da çəkirsən, sonra da dönürsən. Demək hökuməti aldadırsan, ona görə də tənbeh almalısan, çünki bu gün belə, sabah belə. Doğrudur vətəndaşlıq qanunu mejdunarodnı konqresdə müzakirə edilir, o vaxt, əlbəttə Azərbaycan hökuməti öz məxsusi qanunun dəyişib ümumi beynəlmiləl qanuna tabe olar. Necə ki, keşiş əfəndi dedi ki, baş-qa millətlərlə gərək əlaqəmiz olsun və bu qanun da əlaqədən asılıdır. Düzdür, fəqət o, gələcəkdə olacaqdır. İndiki bu barədə ümumi bir qanun yoxdur. İndi bu qanunu qoyun gələcəkdə əlbəttə dəyişə bilir.

**Sədr**-Səz Əhməd Cövdət Pepinovundur.

**Əhməd Cövdət**-Yoldaşımız Aslan bəyin fikrində iştirak edə bilmərəm. Əvvəla arvad məsələsi. Deyirlər ki, bir ailənin kişisi Azərbaycan təbəəsi olursa arvadı da onun dostu və yoldaşıdır gərək Azərbaycan təbəəsi olsun. Görün, kişi Azərbaycan təbəəsi olmaqla arvadı da Azərbaycan təbəəsi olması məcburidir. Bir-birinə söz

vermişlər ki, məhəbbət edib, bir-birini sevsinlər. Nəinki birinin olduğu dövlət təbəəsini o birisi də qəbul etsin. Məsələn, mən bəhayüllah təbəəsiyəm, gərək sən də olasan. Madam ki, siz qəbul edirsiniz kişi və arvad hüquqda bərabərdirlər, onda arvad bir dövlət təbəəsi olsa kişinin də borcudur ki, olsun. Əgər bunu qəbul edəcək olursanız, biz razıyız, çünki onda kişi və arvad üçün də bir qanun olur. [926 - 927]

**Əhməd bəy Pepinov** - Azərbaycan təbəəsi olacaq bir kişinin övrətinə Azərbaycan təbəəsi hesab edilən məsələsi heç bir zaman camaatin fikrinə uyğun olaraq camaat saxlaya bilməz. Ona görə mən zənn edirəm ki, bunun bir hüquqi əhəmiyyəti vardır. Həmişə bu nəzərlə baxılsın. İkinci bu and məsələsi ki, Aslan bəy ondan bir şey çıxacağını söylədi. Mən onun fikrinə razıyam. Doğrudan da andlar içildi, tənbeh verildi, içindən bir şey çıxmadı. İnsanların məişətinin xüsusi qanunları vardır. Məişət and filan tanımaz. Hər and içindən bir xəbər gəlir mən də sizinlə bərabərəm. Bunun nəticəsi nə olur. Birisi and içəndə andından döndüyü zaman, nə məsciddən, nə də kilsələrdən çıxarıldığına şimdiyə qədər heç görmədik. Andını pozub da pis iş yapanlar ya həbs edilir, yaxud hüduddan xaricə çıxarılır. Bunlarla başqa daha başqa bir müamilə ediləməz. Mən deyirəm ki, hökumət heç bir vaxtda andlara istinad etməsin, məntiqə və fikrə istinad etsin ki, nə ki and haqqında Mustafa bəy böyük bir məsələdir, deyir, ortalığa çıxar, doğrudan böyük məsələdir. And institutu burada saxlana bilməz. Başqa dövlətlər Rusiya imperatoru, Almaniya imperatorluğu ki, əski zamandan bunlarda bir allah tərəfindən ruhaniyyət məsələsi vardı. Çünki o deyirdi ki, mən Allah tərəfindən gəlmişəm. Biz bunlara, heç bir şeyə istinad edəməriz. Çünki cümhuri hökumətimizdə bu andları qoymaq doğru olamaz.

**Sədr** - İkinci babın üçüncü bəndini komisyonun əlavə şərtlərilə bərabər səsə qoyuram. Kim tərəfdarıdır, rica edirəm əllərini qaldırsın. Kim əleyhinədir? Kim səs vermir? Mən başa düşürəm ki, böylə şey olmaz, üçüncüsü də özgə bir təklif yoxdur. Mən də komisyonda təklif olduğu kimi səsə qoyuram. Müttəhüdəl rəy qəbul edilir.

4-cü babı oxuyunuz.

Ürək və vicdan və Allah qorxusu ilə and edilirsə, qıra bilməz, əl qolu bağlanır. Əsasən and içən adam deyir ki, mən Azərbaycan vətənində yaşayacağam və öz vətənimi satmayacağam.

Beş dəqiqə tənəffüsdən sonra saat 1.50 dəqiqə.

**Sədr**-İclas davam edir. Səsə qoyacağım ikinci babın, ikinci bəndinin, beşinci qisminin, axırıncı surətini ayrı-ayrı səsə qoyacağam. Əhməd bəy türkcəsini oxuyunuz.

**Əhməd Cövdət** - Oxuyur. [927 - 928]

**Sədr** - Ayrı-ayrı oxuyunuz. Ayrı-ayrı səs qoyacağam. (Oxuyur).

**Səslər** - Təshih (Əhməd Cövdətin türkcəsi böylədir. Vəzifə və əxlaqca)

**Sədr** - Səsə qoyuram. Kim bunun tərəfdarıdır, rica edirəm ayağa qalxsın, kim səs verməyir? Əleyhinə olanlar ayağa qalxsın. Lehinə 16, əleyhinə 25, Səs verməyən 1. Əksəriyyət rəylə ixrac olunur.

**Sədr** - Mən son sətirləri səsə qoyuram. Kim tərəfdardır, rica edirəm əllərini qaldırsın. Təklif var ki, bu iki maddə qalsın. Kim tərəfdardır, ayağa qalxsın. Kim əleyhinədir? Kim səs verməyib? Lehinə 17, əleyhinə 24, səs verməyən 1. Əksəriyyət rəy ilə buda ixrac olunmur. Deməli sosialist fraksiyası tərəfindən göstərilən təkliflər də qəbul edilməyir. Şimdi ikinci maddəni komisyonun təklif və təshihlərilə bərabər səsə qoyuram. Kim bunun əleyhinədir, rica edirəm ayağa qalxsın. Kim səs verməyir, rica edirəm ayağa qalxsın. Kim tərəfdardır, əllərini qaldırsın. Lehinə 36, Səs verməyən 11, əleyhinə yoxdur. Əksəriyyət rəylə ikinci babın, ikinci maddəsi komisyonun təklif və təshihləri ilə bərabər qəbul edilir. Üçüncü bəndi oxuyunuz.

**Katib** - Oxuyur.

**Muxtar Əfəndizadə** - Mən ikinci məsələyə tamamən Əhməd bəyin fikrinə iştirak edirəm. Bu and məsələsi əski çarizm zamanından qalma bir şeydir. Bu da cahilliyə istinad edilərək qoyulmuş bir şeydir. Şimdiki zamanda isə buna əhəmiyyət verilməz, çünki camaatimiz bir o qədər əvam deyildir. Bu yeni əsrdə mən bilirəm ki, camaat o qədər əvam olmasın. Anda istinad edilmək doğru deyildir. Vətənə olacaq xəyanətin qarşısını and ilə almaq istəyirlər. Vətənə sadiq olanlar, hər halda sadiq olur. Xain olanlar, xain olur. Bu barədə də Əhməd Cövdətin fikrinə şərikəm. Gərək and məsələsi heç bir hökumətdə qəbul olunmasın. Ələlxüsus bizim kimi yeni bir cümhuriyyətdə. Övrət məsələsində mən tamamilə iştirak etməyirəmsə də qismən iştirak edərik. Cəmi işlərimizdə zikir və ünası bərabər tutmuşuq. Bu təbiyyət məsələsində bunları ayırd etmək doğru deyildir. Nə üçün təbəəliyindən ari olsun, heç bir vaxt qəbul olunmaz. Bunların arasına bir taqım şərtlər qoyulmaq istənilir. Bu şərtlər [928 - 929] öylə olmalıdır. Hər kəsin həqiqi intixaba malikdir, 20 yaşında olmalıdır.

Sonra bir də bu qanunu bu gün üçün qoymayarız. Məsələn gələcəkdə azərbaycanlı bir cavan, Avropadan, Fransadan, yaxud Türkiyədən bir qız almaq istərsə, bu şərt üzrə övrətini Azərbaycan təbəəliyinin qəbulunu [tələb etməsi] doğru olamaz. Övrət o kişini aldıqdan sonra istərsə təbəə olmaq ərizəsi ilə müraciət edər və təbəəliyi qəbul edər.

**Sədr** - Rza bəy Ağabəyov.

**Rza bəy Ağabəyov** - Muxtar əfəndi danışarkən and üstündə məsələyə toxundu. Qorxulu məsələ mövcuddur. Mən öz arzum ilə Azərbaycan təbəəliyini qəbul edirəm. Razılıqla gedib müraciət edirəm. Mənə deyirlər ki, and iç, mən də öz arzumla təbəəliyi qəbul etdiyim üçün and içirəm. Böylə güclə and götürmürəm. And içirəm, özüm üçün. Əhməd bəy cənabları buyurdular ki, məişət ailəsi hər işi qırar. And ilə iş olmaz. And ilə adam kəndisini

saxlaya bilməz. Mən deyə bilmərəm ki, Əhməd bəy bizim dinə, imana, islamlığa nəzər götürmür. And məsələsi müsəlmanlıqda mühüm məsələdir. Müqəddəs bir məsələdir. Budur, daha o deyil ki and içsin, hər zaman hökumətin lehinə olub, əleyhinə olmasın. And içməyi vətən və millətə xəyanət etməmək üçündür. Bunu yekdikərinə qatmaq olmaz. Buna görə mən deyirəm, and məsələsi layihədə olan kimi qalsın.

**Sədr** - Söz Əliheydər Qarayevindir.

**Qarayev** - Əfəndilər! Burada danışan natiqlərin ikisi Mustafa Vəkilov və Rza bəy Ağabəyov and haqqında söylədilər. And içən adamlar Azərbaycan vətəndaşı olacaq, vətəni sevəcək, onun məhəbbətində baqi qalacaqdır. Məncə vətəndaşları bununla həqiqi vətəndaş etmək olmaz. Öylə bilirəm ki, onlara Azərbaycanda bir çox hüquq və ixtiyar verilərsə və onların həqiqi paymal edilməzsə, onlar özlərinə borc bilirlər ki, vətənlərini müdafiə etsinlər. Götürəlim Gürcüstanı. Orada fəhlə və kəndçilər vətənləri uğrunda hər bir fədakarlığa gedirlər. Çünki Gürcüstan kəndçisi yerini, türk fəhləsi isə hüququnu alıb. Ona görə Gürcüstan ilə əlaqədar olduğundan, onun yolunda çalışır. Əgər bizdə də Azərbaycan vətəndaşlarına kəndçi və fəhlələrinə ixtiyar versələr, onda hər kəs vadar olar ki, hər zaman onu müdafiə etsin. Əhməd bəyin dediyi nəzərə [929 - 930] alınmazsa, onda gərək iki milyona kimi cəmaət məscid qabağına toplamalıdır.

**Məmməd Əmin** (yerindən) - Öylə şey yoxdur, qanunu yaxşı oxuyunuz.

**Qarayev** (davamla) - Gərək vətəndaşlıq könüllü surətdə olsun. O adam ki, vətəndaşlığı qəbul edir, onun üçün elə etməlidir ki, mən Azərbaycanda yaxşı yaşamaq istəyirəm. Ancaq bununla cümhuriyyət müdafiə oluna bilir. Yoxsa and ilə filan ilə kimsə cümhuriyyəti müdafiə etməz.

**Sədr** - Təklif var ki, müzakirə bitsin. Qoy çəkənlər. Mehdi bəy Hacıbababəyov, Əli bəy Zizikski, Muxtar əfəndi, Abdulla əfəndi.

**Səslər** - Faktiçeski, popravka...

**Sədr** - Təklif var ki,. müzakirə bitsin. Bunun lehinə və əleyhinə kim danışmaq istərdi? Etiraz yoxmu? Təklif qəbul edilir. Son söz məruzəçinindir.

**Mehdi bəy** - Vallah, bu qanun barəsində, "yek bam, dö həva var". İş buradadır ki, qanun düzəldən də sosialist, mənimlə komisyonda baxan da sosialist, burada əleyhinə danışan da sosialist. Bunu, anlaya bilmirəm. O ki, qaldı Muxtar əfəndiyə, mənimlə o da səs vermişdir. And barəsində, bunu deyə bilərəm ki, bu qətiyyən olmalıdır. Mən burada Əhməd bəyə cavab verəcəyəm. Əhməd bəy buyurdular ki, arvadlar hüquqdan məhrum edilər. Vəhalanki, onların öz təklifləri ilə arvadlar səsdən məhrum olurlar. Çünki, iqtidarları olmayır səs verməyə. Əhməd bəy burada özünü və ailəsini saxlamağa haqq iqtidarı olmayanların barəsində olan maddənin götürülməsini təklif etdi. Bir adam ki, işləməyə hüququ olmaya, özünü, ailəsini saxlaya bilməyə, o necə Azərbaycanlı olacaq. Ona görə komisyon öz rəyində baqi durub o əlavələr ki, ediblər, ondan başqa haşiyə ola bilməz.

**Sədr** - İkinci babı səsə qoyuram.

**Əhməd Cövdət** - Mən təklif edirəm, çünki 2-ci babı Mehdi bəy birdən-birə oxudu. Xahiş edirəm səsə qoyanda maddə bə maddə oxunsun ki, o surətdə maddələrə əlavə etmək mümkün olsun.

**Sədr** - Mən 2-ci babın 3 hissədən ibarət mətnini səsə qoyuram. Kim buna səs verir, rica edirəm əlini qaldırsın. Təklif var oxunsun. Oxuyunuz, Mehdi bəy.

**Mehdi bəy** - Oxuyur. [930 - 931]

**Səslər** - Heç şey eşidilmir.

**Sədr** - Bu ikinci babın əvvəlinci maddəsi. Kim bunu qəbul edirsə, rica edirəm əlini qaldırsın. Əvvəlinci maddə müttəhidül rəy qəbul olunur. Məruzəçi əfəndi veriniz katib 2-ci maddəni oxusun. Əhməd bəy oxuyunuz.

**Əhməd bəy -** 2-ci maddəni oxuyur.

**Sədr** - Təklif var isə veriniz.

**Katib** - Bizim tərəfimizdən əlavə olunan budur: 5-ci maddənin "b" və "v" hissələri ixrac edilsin.

**Sədr** - Mən səsə qoyuram. Çünki sosialistlər tərəfindən daxil olan təshihi komisyon qəbul etmir. Ona görə də bunu əlahiddə səsə qoyuram. Kim sosialistlərin təklifini qəbul edirsə, rica edirəm, əlini qaldırsın. Kim bunun əleyhinədir? Kim səs verməyibdir? Mən məcburam tənəffüs elan edəm. Çünki 45 adamdan 40 nəfər iştirak edir. Bir məsələ olmiyor ki, xüsusi söhbəti buraxıb da ciddiyyətlə iştirak edilsin. Bu, parlamanın da şərəfinə toxunur. Əgər xüsusi söhbətiniz varsa tənəffüs elan edək, siz də mən də bir qədər xüsusi söhbət edək. Mən rica edirəm, məsələlər səsə qoyulanda iştirak edəsiniz.

**Sədr** - Dübarə səsə qoyuram. Sosialistlər fraksiyası tərəfindən edilən təklifi eşitdiniz. İkinci babdan 5-ci bəndin son qismi "b" və "v" ixrac olunsun. Türkcə və rusca oxundu. Kim bu təklifə tərəfdardır, rica edirəm əlini qaldırsın. (Əllər qalxır). Kim bunun əleyhinədir? (Əllər qalxır). Rica edirəm, əlinizi hündürə qaldırasınız. Səs verməyən? Çünki imkanım yoxdur, dəxi bacarmıram. Ona görə 10 dəqiqəlik tənəffüs elan edirəm. Tənəffüsdən sonra səsə qoyacağam. 45 adamdan 40 adam səsdə iştirak edir.

Tənəffüs elan olunur.

**Tənəffüsdən sonra.**

**Katib** - 4-cü bəndi oxuyur.
**Sədr** - 4-cü bəndi səsə qoyuram. Kim dördüncü bəndi qəbul... Xocayev buyurun.
**Xocayev** - (Gəlib, rusca təklif verir).
**Katib** - Xocayevin təklifini rusca oxuyur.
**Sədr** - Türkcəyə döndərin. (Biri tərcümə edir). [931 - 932]

**Əhməd bəy** - O sözlər ki, daxiliyyə naziri haman müraciət edən adama bir şəhadətnamə verə bilər, bu sözlər ilə təshih edilsin: Daxiliyyə naziri müraciət edənlərə şəhadətnamə verir, əkər yuxarıdakı, 5-ci maddədəki şərtlərə haiz isə.

**Sədr** - Mən səsə qoyuram. Xocayev tərəfindən varid olan təshihi. Kim bunun tərəfdarıdırsa, rica edirəm əlini qaldırsın. (Əllər qalxır). Kim əleyhinədir? (Əllər qalxır). Kim səs verməyib? (Əllər qalxır). Lehinə 5, Əleyhinə 27, səs verməyən bir. Əksəriyyət rəy ilə təklif qəbul edilmir. 4-cü maddəni eyni surətdə səsə qoyuram. Kim əleyhinədir? (Əllər qalxır). Lehinə ağa əlinizi qaldırınız ya yox? Kim səs verməyib? (Əllər qalxır). 43 nəfərdən 2 əleyhinə, birisi də səs verməyib. Əksəriyyət rəylə 4-cü maddə qəbul edilir. 5-ci maddəni oxuyunuz, Əhməd bəy.

**Katib** - 5-ci maddəni oxuyur.

**Sədr** - 5-ci maddəni səsə qoyuram. Kim əleyhinədir? Rica edirəm əlini qaldırsın. (Əllər qalxır). Kim səs verməyib? (Əllər qalxır). 43 şəxsdən əleyhinə olan yoxdur. Səs verməyən bir. Maddə 42 səslə qəbul edilir. 4-ünü oxuyunuz.

**Katib** - 4-ünü oxuyur.
**Sədr** - 4-cü maddəni səsə qoyuram.
**Səslər** - Popravka var.
**Sədr** - Təshih var. Səsə qoyuram. Oxuyunuz.
**Katib** - Təshihi oxuyur.

**Sədr** - Kim təshihi qəbul edirsə, əlini qaldırsın. Kim bunun əleyhinədir? (Əllər qalxır). Kim səs verməyib? Kim əleyhinədir? (Əllər qalxır). Məsələ keçməyir. Lehinə 21, əleyhinə 21, səs verməyən 1. Yenidən səsə qoyuram.

**Sədr** - Keçmir. 21,21... Təzədən səsə qoyuram. Əhməd bəy, bir də oxuyunuz. Rica edirəm diqqət edəsiniz.

**Katib** - 4-cü maddəni oxuyur.

**Sədr** - Səsə qoyuram bu təshihi. Təshih eşitdiniz. Bu təshih 4-cü maddəyə təklif olunur. Bu təshihi kim qəbul edirsə rica edirəm əlini qaldırsın. Kim əleyhinədir? Kim səs verməyibdir? Lehinə 23, əleyhinə 23, çünki məsələ keçməyir, mən növbədən götürürəm, bir də səsə qoyuram. Hər kəs bu təklifin tərəfdarıdır, rica edirəm ayaq üstə qalxsın. Kim əleyhinədir ayağa dursun. Lehinə 24, əleyhinə 25. Məsələ keçməyir. 4-cü [932 - 933] maddəni səsə qoyuram. Kim əleyhinədir, rica edirəm əlini qaldırsın. Kim səs verməyibdir? 41-dən 9 əleyhinə, 2 səs verməyən. Əksəriyyət rəylə 4-cü maddə qəbul olunur. 7-ci maddəni oxuyunuz.

**Katib** - 7-ci maddəni oxuyur.

**Sədr** - 7-ci maddəni səsə qoyuram, nə cür təklif edibsə, o cür səsə qoyuram. Kim bunun əleyhinədir? Kim səs verməyibdir? 7-ci maddə müttəhimi rəy qəbul olunur. 8-ci maddəni oxuyunuz.

**Katib** - 8-ci maddəni oxuyur.

**Sədr** - 8-ci maddəni səsə qoyuram, kim qəbul edirsə, rica edirəm, əlini qaldırsın. Mustafa bəy Vəkilov rica edirəm xüsusi söhbətə məşğul olmayasınız! Kim bunun əleyhinədir? Kim səs verməyib. Lehinə 33, əleyhinə yoxdur. Səs verməyən 9. Əksəriyyət rəy ilə 8-ci maddə komissyon təklif edən üzrə qəbul olunur. 9-unu oxuyunuz.

**Katib** - Layihənin 9-cu maddəsini oxuyur.

**Sədr** - 9-cu maddəni komisyonun təshihi ilə bərabər səsə qoyuram. Kim buna etiraz edir, rica edirəm əlini qaldırsın. Kim səs verməyib? (Əllər qalxır). 48 səslə qəbul edilir. Səs verməyən-1; əleyhinə yoxdur. Lehinə 48. Əksəriyyət ilə maddə qəbul olunur. 10-cu maddəni oxuyunuz.

**Katib** - (10-cu maddəni oxuyur).
**Əhməd Cövdət** - Bizim təklifimiz var.
**Sədr** - Buyurunuz.
**Əhməd Cövdət** - Biz, 10-cu maddənin bütün-bütünə ləğv edilməsini təklif edirik.

**Sədr** - Təklif var ki, 10-cu maddə ləğv edilsin. Əvvəl bu təklifi səsə qoyuram. Kim bu təklifi qəbul edirsə ki, 10-cu maddə ixrac edilsin, rica edirəm əlini qaldırsın. (Əllər qal-xır). Kim əleyhinədir? (Əllər qalxır). Kim səs verməyib? (Əllər qalxır). Təklif lehinə 10, əleyhinə 29, səs verməyən 4. Əksəriyyət rəy ilə təklif qəbul edilmir. 10-cu maddəni səsə qoyuram. Kim 10-cu maddəni qəbul edirsə, rica edirəm əlini qaldırsın. (Əllər qalxır). Kim əleyhinədir? (Əllər qalxır). Kim səs verməyib? (Əllər qalxır). Lehinə 29, əleyhinə 14, səs verməyən 2. Əksəriyyət rəy ilə 10-cu maddə qəbul edilir. 11-ci maddəni oxuyunuz. [933 - 934]

**Katib** - 11 -ci maddəni oxuyur.

**Sədr** - 11-ci maddəni səsə qoymadan qabaq, varid olmuş təklifləri səsə qoyuram. Birinci təklif sosialistlərin tərəfindəndir ki, and olmasın. Digəri də Bayram Niyazi tərəfindəndir ki, o da 11-ci maddənin ləğvini təklif edir.

**Sədr** - Əvvəla mən bu təklifləri səsə qoyuram. Kim təkliflərin tərəfdarıdır, rica edirəm əllərini qaldırsın. Kim əleyhinədir? Kim səs verməyir? Lehinə 13, əleyhinə 32, səs verməyən 2. Əksəriyyət rəylə təklif qəbul edilmir.

11-ci maddəni qeydlə səsə qoyuram. Kim qəbul edir, rica edirəm əllərini qaldırsın. Kim əleyhinədir? Kim səs verməyir? Lehinə 30, əleyhinə 13, səs verməyən 2. Əksəriyyət rəylə 11-ci maddə qeydlə bərabər qəbul edilir. 3-cü babı oxuyunuz.

**Katib** - Yalnız babımı oxuyum? Yoxsa axırına qədər maddə-maddə oxuyum.

**Rəis** - Maddə, maddə oxuyunuz.

**Katib** - Oxuyur, birinci maddəni.

**Rəis** - Əvvəlinci maddə xüsusunda kim danışmaq istər. Səsə qoyuram. 3-cü babın birinci maddəsini səsə qoyuram. Kim əleyhinədir? Rica edirəm əlinizi qaldırın. Müttəhidül rəy maddə qəbul edilir. İkinci maddəni oxuyunuz.

**Katib** - İkinci maddəni oxuyur.

**Rəis** - İkinci maddə xüsusunda kim danışmaq istərdi? Səsə qoyuram, 3-cü babın ikinci maddəsini, kim əleyhinədir? Rica edirəm əlini qaldırsın, kim səs verməyir? Maddə oxundu, kim maddənin tərəfdarıdır, rica edirəm ayağa qalxsın. Sayınız!

**Qara bəy** - Oturaqmı?

**Rəis** - Əyləşiniz. Lehinə 32, əleyhinə 14, səs verməyən 3. Əksəriyyət rəylə üçüncü bəndin ikinci maddəsi qəbul edilir. Üçüncü maddəni oxuyunuz.

**Katib** - Üçüncü maddəni oxuyur.

**Əhməd bəy Pepinov** - Bu maddə xüsusunda mənim bir qeydim var. Beş sənə əvəzinə, iki sənə olsun. Madam ki, öz rəyilə təkrar Azərbaycan təbəəliyini qəbul edir. Bu beş sənə müddət çoxdur. Biz təklif edirik ki, müddət iki sənə olsun.

**Rəis** - Sırada başqa natiq olmadığından söz məruzəçinindir. [934 - 935]

**Mehdi bəy Hacınski** - Bu heç vaxt ola bilməz. Çünki bir şəxs ki, əvvəlcə təbəəliyə giribdir, sonra qaçmaq istəyir, beyliləri üçün iki il azdır, gərək beş il olsun.

**Rəis** - Səsə qoyuram. Sosialistlər tərəfindən beş sənə olmayıb da, bu müddət iki sənə olsun deyə edilən təklifi səsə qoyuram. Kim bunun lehinədir? Rica edirəm ayağa qalxsın. Kim səs verməyir? Ayağa qalxsın. Kim bitərəfdir əllərini qaldırsın. Lehinə 10, əleyhinə 31, səs verməyən 10. Əksəriyyət rəy ilə təklif qəbul edilmir. Üçüncü maddəni komisyonun təklifi üzrə səsə qoyuram. Kim əleyhinədir? Rica edirəm əllərini qaldırsın.

**Rəis** - Əlli bir üzvdən əleyhinə Q, səs verməyən 9, 41 səslə maddə keçir. Dördüncü maddəni oxuyunuz. **Katib** - 4-cü babı oxuyur.

**Rəis** - 4-cü bab xüsusunda kim danışmaq istərdi.

**Əhməd bəy Pepinov** - Mənim burada bir qeydim vardır. Biz şimdiyə qədər öz işlərimizdə tarixi-hicrini qəbul eyləməmişik. Və həmişə rusca tarix qəbul eyləmişik. Buna binaən mən təklif edirəm ki, tarix yenə əskisi kimi 1918 olaraq miladi tarix qəbul edilsin.

**Sədr** - Daha danışmaq istəyən yoxdur. 4-cü maddəni mən səsə qoyuram. Kim buna etiraz edir rica edirəm əlini qaldırsın. Kim səs verməyir. Kim maddənin tərəfdarıdırsa rica edirəm, əlini qaldırsın. Lehinə 23, əleyhinə yoxdur. Səs verməyən 12. Əksəriyyət rəylə 4-cü maddə tamamən qəbul olunur. Keçirəm layiheyi-qanuniyyənin 3-cü qiraətinə. Buyurunuz.

**Katib** - Birinci babı oxuyur.

**Sədr** - Layiheyi-qanuniyyəni bab-bab səsə qoyacağam. Əvvəlin-i babı səsə qoyuram. Kim bunun əleyhinədir, rica edirəm əlini qaldırsın. Kim səs verməyir, rica edirəm əlini qaldırsın. Kim əvvəlinci maddənin tərəfdarıdırsa rica edirəm əlini qaldırsın. Kim səs verməyir, rica edirəm əlini qaldırsın. (Səmədağaya müraciətlə). Səmədağa - rica edirəm. Əyləşəsiniz, çünki get-gedə kvorum azalır. Rica edirəm getməyəsiniz. Təkrar edirəm, getməyəsiniz, qorxuram, layihəni keçirə bilməyim. Lehinə 26, əleyhinə yoxdur. Səs verməyən 10. Əvvəlinci bab əksəriyyətlə qəbul edilir. 2-ci babı oxuyunuz.

**Katib** - Oxuyur. [935 - 936]

**Sədr** - Onun qeydi var, onu da oxuyunuz.

**Katib** - Qeydini də oxudum.

**Sədr** - 2-ci babı səsə qoyuram. Qəbul olunmuş təshih və əlavələr ilə kim bunun əleyhinədir. Kim səs verməyib? Lehinə 29, Əleyhinə yoxdur. Səs verməyən 13. Əksəriyyət rəylə 2-ci bab əlavələri və təshihləri ilə bərabər qəbul olunur. 3-cü babı oxuyunuz.

**Katib** - 3-cü babı oxuyur.

**Sədr** - 3-cü babı səsə qoyuram, kim bunun tərəfdarıdır. Rica edirəm əlini qaldırsın, kim səs verməyibdir. Lehinə 30, əleyhinə 3, səs verməyən 10. Əksəriyyət rəy ilə 3-cü bab tamamən qəbul edilir. 4-cü babı oxuyunuz.

**Katib** - 4-cü babı oxuyur.

**Sədr -** 4-cü babı səsə qoyuram. Kim bunun tərəfdarıdır, rica edirəm əlini qaldırsın. Kim bunun əleyhinədir, kim səs verməyibdir? Lehinə 31, əleyhinə yox, səs verməyən 12. Əksəriyyət rəy ilə 4-cü bab qəbul edilir. Layihəyi-qanuniyyəni tamamən səsə qoyuram. Kim layihəyi-qanuniyyəni tamən qəbul edirsə, rica edirəm əlini qaldırsın. Kim bunun əleyhinədir? Kim səs verməyibdir? Ləhinə 32, əleyhinə yox, səs verməyən 13. Əksəriyyət rəy ilə layiheyi-qanuniyyə tamamən qəbul olunur. Layiheyi-qanuniyyə verilir təshih komisyonuna. Vaxt gec olduğu üçün bir çox təklif var ki, iclas qapansın. Lakin mən fraksiyalardan rica edirəm, öz üzvlərinin nəzərini bir şeyə cəlb etsinlər. Bəzən, bir çoxları gəlib, özlərini yazdırıb gedirlər. Keçən dəfə böylələrini biz iki qat cərimə etdik. Lakin yenə bəzi üzvlər öz gəlməməklərində davam edirlər. Mən sizin nəzərinizi buna cəlb edirəm.

**Qarayev** (yerindən) - Sualı oxuyunuz.

**Sədr** - Əhməd bəy, sualı oxuyunuz.

**Katib** (oxuyur) - Məclisi-Məbusan rəyasəti-aliyyəsinə. hökumət rəisinə işbu sualımızın əvvəlinci iclasda qoyulmasını rica ediyoruz. Bu axır günlər içərisində daxili və xarici bir çox mühüm vaqiələr zühur etmişdir ki, onların dövlətə və camaatimizin hüquq və hürriyyətinə çox böyük təsiri ola bilər. Bunların cərgəsindən olaraq bu axır həftələr içərisində Kaspi dənizində ingilislərin təhti-komandasında bulunan hərb gəmiləri könüllü ordu komandalığına verilmişdir ki, [936 - 937] bizim sahillərimizin və xüsusən paytaxtımızın müdafiəsi üçün bunun çox böyük təsiri vardır. 2-ci ingilis əsgərləri mətbuatda verilən xəbərlərə görə bu ayın ortasında Zaqafqaziyanı tərk edəcəklər. Bizim üçün əsgəri nöqteyi nəzərdən əhəmiyyətli olan bir çox tədbirlər ittixaz edilməsi lazım gəlir ki, bundan dövlətin təmamiyyəti-mülkiyyəsinə bir xələl gəlməsin. 3) Zaqafqaz cümhuriyyətlərini, xüsusən Azərbaycan cümhuriyyətini Şimaldan gələn imperialist və əksinqilab qara qüvvələrindən mühafizə etmək üçün İngiltərə hökumətindən gələn və rəsmən tərəfinə bildirilən xətti-hərb bizim hökumət tərəfindən qəbul edilmişdi. Fəqət, axır vaxtlarda yenə İngiltərə hökuməti haman xətti eşitdiyimizə görə təzədən dəyişdirmiş və Petrovski əvəzinə şimdi Yalama stansiyasına qədər yendirmişdir. Bu vaqiə əlbəttəki hərbi xətlərin bir diploması oyun olduğunu və bundan naşı düşmənin cərgəsinə yadlaşmasına heç bir müvaniət edilmədiyini pak gözəl isbat edir.

4) Düşmən dənizdən böyük qüvvə aldığı kimi indiyə qədər Dağıstanda əhəmiyyətli bir qüvvə saxlamadığı halda indi artıq Dərbənddə olan qüvvəsini pak çox artırır, sərhəddə fəaliyyət göstərir və bununla Azərbaycan əleyhinə düşmənin nə fikirdə olduğunu göstərir.

5) Xaricdə təhlükə belə artdığı halda daxildə də könüllü ordu nümayəndələri açıqcasına Yekaterinodardan aldığı dəsturüləməl üzərinə mətbuatda könüllü ordu nəfinə propaqanda yapırlar, təşkilatlarını möhkəmləndirirlər. Zabit və [əsgər] nəfərlərini qeyd edirlər ki, xaricdəki təhlükəyi nəzərə alanda bunun nə qədər böyük başımıza müşkülat çıxara biləcəyi aydın olsun gərək.

İştə bu göstərdiyimiz vaqiələr məmləkətin təmamiyyəti-mülkiyyəsi və səlaməti üçün və cəmaətin əldə etdiyi inqilab qənimətləri üçün nə qədər böyük əhəmiyyəti olduğu aşkar olunduğundan hökumətin bu yolda nə fikir etdiyini və nə iş gördüyünü və görmək istədiyini bilmək istərdik.

Sosialistlər fraksiyonu tərəfindən Əhməd Cövdət.

"Əmin olmaq üçün hökumətdən qəti və müəyyən cavab almalıyıq. Çünki qəzetlərdə, küçələrdə şayiələr gedir. Hər kəs parlamandan çıxanda kəndçi də bir ağırlıq hiss edir. Əksinqilabın [937 - 938] Bakıya gələcəyi günü, hətta müəyyən deyirlər ki, məsələn, filan gün hökumət təslim olacaq. Cəmaət də təşvişə düşmüş, bir çoxları buradan getmək istəyirlər. hökumət gərək camaata təskinlik versin. hökumət vaxtilə demişdi ki, Azərbaycana gələn düşmən ancaq meyitimiz üzərindən keçə bilər. Bu sözləri yenə təkrar etsin. Siyasətin və vəziyyətimizin nə yolda olmasını cəmaətə bəyan eyləsin. Cəmaət başına bir çarə qılsın. Əgər hökumət bir tədbir görmək istəmirsə, o vaxt cəmaət özü-özünə bir tədbir görsün. hökumətin borcu idi ki, böylə ağır vaxtda özü əhvali-hazirədən məlumat verə idi və sorğuya da ehtiyac qalmaya idi. Madam ki, sorğusuz demədi, ona görə biz sorğu verməyə məcburuq. Bir həftə içərisində xalqın arasında olan təşvişi bərtərəf etmək üçün hökumət nə yapdığını, nə tədbir gördüyünü söyləsin".

**Sədr** - Hökumət tərəfindən cavab olmadığı üçün sual qalar gələn iclasa.

**Mustafa Mahmudov** (yerindən) - Sual hökumətə bildirilmişdirmi?

**Sədr** - Xeyr! Xəbər verilməyibdir. Növbədən xaric söz verilir Əliheydər Qarayevə. Həbsxanada aclıq elan etmiş məhbuslar haqqında bəyanat verəcəkdir.

**Sədr** - Söz Əhməd Cövdətindir.

**Əhməd Cövdət** - Əfəndilər! O məsələ ki, burada müxtəsərcə söylənildi və fraksiya tərəfindən oxudum. haman bu məsələnin nə qədər mühüm olduğu məlumdur. Lakin, son vaxtlar, bir ayın içərisində flotun bir hissəsinin "Dobrovol" ordusuna verilməsini söylədilər. İndi isə məlum olur ki, hamısını verirlər. Əvvəl bu kürsüdən söyləmiş ki, ingilis hökuməti şimaldan gələn qüvvə üçün xətt çəkmişdir. Gərək dobrovol ordusu Petrovskidən bu tərəfə keçməsin. Hərçəndi bu xüsusda xəritə və qeyri kağızlar da gəlmişdi. Fəqət, dobrovol ordusu o xəttə riayət etmədi. Bu gün də yeni bir xəritə gəlmiş və göstərirlər ki, parlamandadır. Demək bu da bir şey deyildir. Bu gün Petrovski, sabah Dərbənd, o biri gün Yalama, o biri gün Bakıda olacaqdır. Bu düşmən tərəfindən edilən təkliflər məlumdur. Dağıstan içərisində indiyə qədər Dərbənddə 3-4 yüz əsgər olduğu halda indi 4-5 minə qədər artmış. Və bizim xüsusda [938 - 939] hərb yanında fəaliyyətə keçmişdir. Bunlar göstərir ki,

düşmənin Azərbaycan və Zakafkaziya cümhuriyyətləri haqqında xainanə fikirləri vardır. Ona görə gərək hökumət bunu gözünə ala, madam ki, bütün millət, məmləkət öz müqəddəratını onların əlinə tapşırmışdır. Ona görə lazımı tədbirlər və hazırlıqlar görməlidir ki, dövlətə camaata xətər gəlməsin. Neçə ay müddətində əksinqilabı görmürük. Düşmən bizim daxildəki qüvvələrdən də istifadə edir. Bu gün burada qəzetlər çıxır ki, açıqdan açığa buraya dobrovol ordusunun gəlməsinin lazım olduğu haqqında təbliğat yapırlar. O nümayəndələr ki, gah yerli adillə, digəri başqa bir bəhanə ilə Yekaterinadara gedib gəlirlər. İşləyirlər. Könüllü orduya zabitlər, nəfərlər qeyd edirlər. Burada normalnı başport verəcəyik. Bilməm nə yapacağıq. Bəhanələr ilə adam yığırlar yazıla. Madam ki, xaricdən təhlükə gəlir, bu adamlar da burada otura, bu çətindir. Biz öz içimizdən əmin deyilik. Bəlkə burada heç yüz zabit, əsgər tapılar ki, düşmən ordusuna mənsubdurlar. Ona heç bir vaxt təhlükədən əmin olmayın.

**Sədr** - Söz Əliheydər Qarayevindir.

**Əliheydər Qarayev** - Əfəndilər! On iki gündür ki, Bakı mərkəzi həbsxanasında aclıq elan edilmişdir. 90 nəfərə kimi məhbuslar aclıq elan etmişlərdir. Onlar tələb etmişlər ki, təqsirləri üzlərinə oxunsun, müqəssir olmadıqda azad edilsinlər. Aclıq davam edir. hökumət tərəfindən heç bir tədbir görülməyir. Onların üzünə təqsirnamələri oxunmayır. Bəziləri aclıqdan naxoş olmuşlardır. Həbsxanada deyirlər ki, orada aclıq elan edənlər arasında siyasi firqələrin nümayəndələri vardır ki, yerlərindən tərpənə bilməyirlər. Nikolay zamanında belə iş yox idi. Nikolay zamanında qalodovka elan edənlərin təqsirləri üzlərinə oxunurdu. Amma şimdi 12 gündür ki, qalodovka elan edilmişdir. Cümhuriyyətli bir məmləkətdə bu qeyri mümkün bir şeydir. Hökumətdən biz tələb edirik ki, məhbusların təqsirləri üzlərinə oxunsun. Müqəssir olmayanlar buraxılsın.

**Sədr** - Mərkəzi intixab komisyonuna Zəngəzurdan qaçqınları müavinət edici komisyona birər üzvlər seçilməlidir. Bunlar rəsmiləşməmişdir. Gələcək iclasda üzvlər intixab edilməyincə [939 - 940] məclisi açmayacağam. Məclisi qapayıram. Saat 3-35 dəqiqədə məclis qapanır.

**Arxiv: f. 895, siy. 1, iş 126, vər. 1-26.**

**№ 65**
**Altmış beşinci iclas**

*14 avqust 1919-cu il*

**Rəis** - doktor Həsən bəy Ağayev.

**Katib** - Əhməd Cövdət Pepinov. Müzakireyi-yomiyyə:

1 - Sülh məhkəmələrinin cinayət işlərində daireyi-nüfuzunun tövsi və sülh hakimləri hökmünün təqviyəsilə əmvali-xassəyə qarşı icra edilən bəzi cinayətlərə keçiləcək qanunların təbdil və təğyiri haqqında. Məruzəçi - Rzayev Bağır; 2 Azərbaycan hökuməti sərhədində mühafizə bölüyü təsisi haqqında. Məruzəçi - Ağabəyov; 3 - Spirt məhsulatından alınan aksiz vergisi miqdarlarının artırılması haqqında. Məruzəçi - Ağabəyov; 4 - Tövci vergisinin artırılması ilə bərabər torpaq gəlir və məxaric smetasının və torpaq vergisi miqdarlarının təmdidi haqqında: məruzəçi - Ağabəyov; 5 - Nəşr elan haqqında; 6 - Maliyyə naziri şurası haqqında; 7 - Fabrika inspeksiyasına dair qəvaidin müvəqqətən təğyiri haqqında; 8 - "İttihad" fraksiyasının hökumətə sualı; 9 - Ümumi əyləncə və tamaşaxana yerlərindən alınan müvəqqəti verginin hökumət məbləği - müstəhfizəsinə idxalı haqqında; 10 - həmin sənə üçün İrəvan ümuri-xeyryyə naziri vəkilinin maaşı və onun idarə məsarifatı üçün məzkur nazirə 177.000 rubla kredit açılması haqqında. Məruzəçi - Ağamalov; 11 - Tamğa rüsumatı qanunnaməsinin bəzi maddələrinin təbdili və rüsum miqdarlarının təzayidi haqqında. Məruzəçi - Rüstəmbəyov; 12 - Şəhadətnaməsiz olan içki ticarətindən alınan cərimələrin qüvvələnməsi haqqında. Məruzəçi - Hacınski; 13 - Bakı xəzinə palatası müdiri müavinliyi vəzifəsinin ləğvi haqqında. Məruzəçi Muxtar Əfəndizadə; 14 - Azərbaycan cümhuriyyəti ümuri-xeyriyyə nəzarətin ştata siyahisi və maaşlarının artırılması haqqında [məruzəçi] Vəkilov Mustafa; 15 - Sosialistlər fraksiyasının hökumətə sualı; 16 - Daxil olmuş kağızlar. O cümlədən: üzüm, meyvə və xırda meyvə şirələrindən alınan aksiz vergisi miqdarlarının təbdili haqqında;

**Sədr** - Yomiyyeyi - müzakirata etiraz yoxmu? Qəbul edilir. "İttihad" fraksiyonu hökumətə verdiyi sualı geri götürür. Və, yenə müzakireyi-yomiyyəyə keçmədən qabağ [xahiş edirəm] o iki seçki məsələsini bu gün qurtarasınız: 1) Mərkəzi komitəyə üzvlər intixabı; 2) Zəngəzur uyezdindəki fərarilərə müavinət etmək üçün gedəcək olan heyətə bir üzv intixabıdır.

**Məmməd Əmin Rəsulzadə** - Tərtib haqqında müsaidə etsəydiniz.

**Sədr** - 21 üzv seçiləsi idi.

**Qara bəy** - Nə surətlə olsun, acıqmı olsun?

**Sədr** - Böylədə eləmək olar. Nakazda bir şey yoxdur. Seçkini aşkarda yapmaq olur. Qapalı seçkiyə ehtiyac yoxdur.

**Məmməd Əmin** - Rica edirəm.

**Sədr** - Buyurunuz.

**Məmməd Əmin Rəsulzadə** - Bu Mərkəzi Komitəyə üzv seçilməsi haqqında fraksiyaların ayrı-ayrı qərarları vardır və fraksiyalar daha öz aralarında uluşamamışlar və namizədləri göstərməmişlərdir. Komitənin intixabı üçün əsnayi-tənəffüsdə vərəqələr tövzi edilib, hər fraksiya öz kandidatını göstərməli və seçməlidir.

**Rəis** - Etiraz yoxmudur? 2) İntixab məsələsi: Zəngəzur mühacirlərinə müavinət edəcək ya parlaman tərəfindən bir üzv intixabi.

**Əhməd bəy Pepinov** - Qanun layihəsində böylə bir maddə yazmışdı ki, mühacirlərə müavinət edəcək ya parlaman tərəfindən bir üzv intixab edilsin. Üzvün getməsi doğru deyildir. Çünki göndərilən heyət bir qüvvəyi-icraiyyədir və məsuldur. Halbuki göndərilən üzv qüvveyi-təşriyyəyə tabe olduğu üçün irəlidə parlaman üzvünün də məsul edilməməsi və işin qarışdırılmaması üçün mən təklif edirəm ki, üzv getməsin.

**Sədr** - Məclis əvvəlcə qərar verməmiş və arzu etmişdi ki, parlaman tərəfindən də məzkur heyətə bir üzv seçilsin. Və layihə ilə bərabər bu üzrə də qəbul edilmişdi. Hökumətdən komissiyaya daxil olacaq üzvün tezliklə seçilməsi üçün dəfəatla [941 - 942] məktub gəlmişdir. nın vaxt ilə işə başlaması üçün üzvün tezliklə intixabi və məsələnin tezliklə sərəncamı lazımdır.

**Əhməd bəy Pepinov** - Əvvəlcə parlaman tərəfindən deyilmişdiki seçiləcək üzv ictimai müəssisə tərəfindən seçilsin; yoxsa doğrudan-doğruya parlaman tərəfindən olsun. Söz yoxdur.

**Sədr** - İstərsə ki bu məsələ tənəffüsdən sonraya qalsın.

**Məmməd Əmin** - Əsas məsələ nəyə qərar verildi? İntixab olacaq, ya yox?

**Sədr** - Bu bir arzudur. Əsasən, əvvəlcə parlaman tərəfindən artıq dərəcədə xahiş edilmişdi.

**Sədr** - Parlamanın qərarını oxuyunuz.

**Katib** - Qərarı oxuyur.

**Sədr** - Bu qərar üzrə hökumət tərəfindən dəfaət ilə məktub yazılıb, xahiş ediblər ki, bir nəfər göndərək. Əgər parla-man seçmək istəyirsə onda bir qərar çıxartsın ki, bu nümayəndə müəssisələrdən olacaq. Söz Məmməd Əmin Rəsulzadənindir.

**Məmməd Əmin** - Əhməd bəyin bu təklifi pak müvafiq və münasibdir. Çünki bu kimi məsələlərdə parlamanın iştirakı bir adam intixabilə olsa da, orada hesab məsələsi var və parlaman özü də hesab çəkən bir müəssisədir. Öylə olduqda o vaxt parlaman müşkül mövqedə qalar. Deyərlərsə ki, bu işdə parlamanın özüdə iştirak etmişdir. Ona görə əsaslı bir nəzəriyyə var ki, qüvveyi-icraiyyə ilə qüvveyi-qanuniyyə yek digərindən ayrı olmalıdır. Əkər bu barədə bir qərar olmuşsa təbiidir səhvən olmuşdur. Orada cəmaət müəssisələri məsələn cəmiyyəti-xeyriyyə ki, təşkilatların iştirakı arzu edilir. Bizə öylə gəlir ki, parlamanın iştirakı - münasib deyildir.

**Sədr** - Buna etiraz yoxdur ki? Növbədəki məsələ sülh məhkəmələri qanunun bəzi maddələri tağyir və təbdili haqqında layihədir. Məruzəçi Bağır Rzayev.

**Bağır Rzayev** - Ədliyyə nəzarəti tərƏfindən sülh məhkəmələrində sülh hakimləri hökmünün tağyir və təbdili haqqında bir qanun layihəsi təqdim edilmişdir. Məhkəmə qanunlarına görə bəzi cinayət işlərində oğurlanmış malların qiyməti 25 manatdan üç yüz manata kimi olursa sülh məhkəməsinə verilməsi söylənir. Bu qanun indiyə kimi davam edir. Hal-hazırda manatın kursunun bir neçə dəfə aşağı düşməsi, bəlkə bir neçə [942 - 943] qəpiyə enməsi sülh məhkəməsi işlərinin pərişanlığına movcib olmuşdur. Lazım gəlir ki, bu qərarı dəyişək və bunun sayını iki-üç dəfə artıraq. Qanunda Ədliyyə Naziri söyləyir ki, bu əşyanın qiyməti üç yüzdən 10 min manatadək artsın. Sülh məhkəmələrinin vergisi isə 4 yüz manatdan artıq olmasın. Kursun getdikcə düşəcəyi gözlənildiyinə görə bu qiyməti on dəfə artırmaq təklif olunur. Bir neçə cinayət işləri var ki, qanun hadisat üzərində olur. Məsələn: yanğın, qapı sındırmaq və sair bu kimi şeylər ki, təcili surətdə baxılmasına, sülh məhkəməsinə verilməsi qanun layihəsində söylənir. Komisyon əsasən bunu qəbul etmiş və bir neçə təshihlər vermişdi. Onlar da bundan ibarətdir: Birinci maddədə deyilir ki, cinayət on min manata qədər olursa verilir sülh məhkəməsinə, artıq olarsa cəza qanunlarının sülh hakimləri lazım bildiyi maddələrinə müraciət olunur. Bu aşkar olmadığı üçün ləvayehi-qanuniyyə komisyonu daha da aşkar etmək üçün qərar qoymuşdur ki, bu kimi şeylər ümumi məclisə verilsin. 4-cü fəsildə cərimələrin miqdarı haqqında ləvayehi-qanuniyyə komisyonu bu fəsildə ləğv edir. Parlaman qanun müəssisəsi olduğu üçün onu da parlamanın öhdəsinə qoyur. Nəinki vükəla şurası ixtiyarına. Bu barədə layihə gələrsə parlaman qəbul edər. Sonra bir təshih də vardır. O da bundan ibarətdir: (oxuyur) Bu maddədə söylənir ki, dörd ildən 5 ilə kimi ləvayehi-qanuniyyə komisyonu bunu iki yerə bölmək istədi, bunu təqsim edib böylə qərara aldıq 1-2 ildən 2 1/2 qədər. 2 1/2 3 sənəyə qədər olsun. Komisyon bu təshihləri qəbul ilə parlamandan bu surətdə təsdiqini rica edir.

**Katib müavini Kiçikxanov** - Oxuyur birinci və ikinci maddələri.

**Bağır Rzayev** - Rusca həmin maddələri oxuyur.

**Sədr** - Layiheyi-qanuniyyə əsasları üzrə kim danışmaq istər-di? Rza bəy Ağabəyov.

**Ağabəyov** - Bu qanun layihəsi çox gec gəlib təqdim olub, ha-man sülh məhkəmələri ki, doğrudan doğruya 3 yüz manatadək olan işlərə baxırdı, bu o idi ki silistçilərin işləri çox olurdu bu barədə danışmaq istəmirəm, mən bir qədər bu qanun ətrafında danışmaq istəyirəm. Qayda budur ki, mətni sudlar gərək o dildə ola ki, cəmaət onu başa düşə. Təəssüflər olsun ki, bizim sud işlərimiz yenə rus dilində gedir. Bu barədə deyəcəklər [943 - 944] ki, türkcə işləri aparmağa adamlarımız yoxdur. Amma bilmək lazımdır ki, hökumət Gəncədə olanda böylə qərar var idi ki, dəftərxana işləri rusca olsa da danışıqlar türkcə olsun, halbuki, rus məmurlarının çoxusu köhnə qulluqçu olduqlarından yenə əski qayda ilə perevodçik vasitəsilə danışılır. Deməli mətləb odur ki, təhrirat türkcə çətin isə lakin türkcə danışıq mümkündür. Buna da biz cəhd etməliyik. Bir də cinayət işlərində qanunnan bir para fəsillərini dəyişmək lazımdır. Biz gərək onları bütün bütünə dəyişək. Çünki o fəsillər 3 yüz ya 4 yüz il bundan qabaq tərtib edilmişdir və bu da hal-hazırda milli məişətimizə müvafiq gəlmir. Amma biz isə indi də onları işlədirik. Hərçənd qəzetlərdə oxuyuruq ki, bu barədə komissiyalar əmələ gəlib işləyirlər, lakin biz onların işlərini görmürük. Sülh məhkəmələri üçün on min manatadək iş kifayətdir, çünki keçənlərdə 3 yüz manatadək olan işlərə baxırlardı, indi isə on min manatadək işə baxılacaqdır, bunu da artırıb onlara mühüm işlər vermək olmaz. Bu qanun təcili surətdə keçilir. Sülh məhkəmələrinə 10 min manata qədər olan işləri vermək kifayət edər, əvvəlləri 300 manat idi. İndi isə 10 min manat qabili kifayətdir. Bundan çox işləri ona vermək olmaz. Bu barədə ehtiyatlı olmalıdır.

**Sədr** - Daha kim bu barədə danışmaq istərdi? Söz Əhməd bəyindir.

**Əhməd Cövdət Pepinov** - Ağabəyovun buyurduqları xüsusda onu demək istərdim ki, hökumətimiz iki il müddətində tamamilə ana lisanilə işlərini aparamadı, çox təəssüf olunur. Zaqafqaziya konfransında, Zaqafqaziya komissarı Babacanov İrəvan məscidinə gəlib əhaliyə elan etdi ki, bundan sonra sülh məhkəmələri ana dilində, yəni hər millətin - müsəlman, erməni öz dilində gedəcəkdir. Zaqafqaziya [seymi] vaxtında bu olmadı, məhkəmələr xalqın öz dilində aparılmadı. Orada olmadı isə gərək bu iş araya çıxmalı idi. Azərbaycan içərisində çıxdı. Fəqət Gürcüstan içərisində keçmişdir. Adamlarımızda türkcə bilən çox yox isə də, sülh məhkəmələrimizdə xalqa bir qolaylıq olmaq üçün türk dilində olması lazımdır. Doğrudur, bizim çox yuristlərimiz yox, hazırlanmış adamlarımız yox, təzə kurslar açaraq hazırlamalıyıq. Yoxsa hər saatda adamlarımız yoxdur demək olmaz. Ədliyyə yoxdur ki, cavab versin. [944 - 945] hələlik biz bu qanunları məcburən qəbul etməliyik. Sonra isə bu qanunları dəyişməli. Madam ki, biz yeni həyata başladıq onun üçün də yeni qanunlar düzəltməmiz lazımdır. Fəqət şimdiyə qədər ədliyyə nəzarətində bir komissiyon yoxdur ki, ümumi

qanunları qayırsın və tədqiq edib yeni qanun layihələri hazırlayacaq kimsə yoxdur. Və sülh məhkəmələrinin də ana dilində aparılmasını mən də rica edərdim.

**Sədr** - Danışmaq kim istərdi. Bu barədə yoxsa layiheyi-qanuniyyənin ikinci qiraətinə keçilsin. Səsə qoyacağam. Etiraz yoxmu? İkinci qiraətə keçirəm. (Oxuyunuz).

**Katib** - Birinci maddəni oxuyur.

**Sədr** - Əvvəlinci maddə xüsusunda kim danışmaq istərdi. Natiq olmadığından əvvəlinci maddəni səsə qoyuram. Komissiyonun qərarı budur ki, əvvəlinci babdan dördüncü maddə götürülsün. Səsə qoyacağam. Kim komisyonun qərarını qəbul edirsə rica edirəm əlini qaldırsın. (Əllər qalxır). Əksəriyyət rəy ilə əvvəlinci bab komisyonun rəyilə, komisyon qərarı ilə qəbul olunur.

**Sədr** - İkinci babı oxuyunuz.

**Katib** - İkinci babı oxuyur.

**Sədr** - İkinci bab xüsusunda kim danışmaq istərdi? 2 maddədən ibarət olan ikinci babı səsə qoyuram. Kim ikinci babı komisyonun qərarı üzrə qəbul edər. Rica edirəm əllərini qaldırsın. İkinci bab əksəriyyəti rəy ilə qəbul edilir. Üçüncü babı oxuyunuz.

**Katib** - Üçüncü babı oxuyur.

**Sədr** - Üçüncü bab xüsusunda kim danışmaq istərdi?

Natiq olmadığından səsə qoyuram. Kim üçüncü babı komisyonun qərarı üzərinə qəbul edər, rica edirəm əllərini qaldırsın. Layiheyi-qanuniyyənin üçüncü qiraəti qalır gələn iclasa.

Növbədəki məsələ Azərbaycan hüdudunda mühafizə polkunun təsisidir. Məruzəçi Ağabəyov.

**Aqabəyov** - Bir neçə qanun parlamandan keçibdir. Deməli sərhədlərdə gömrükxanaları mühafizədən ötəri maliyyə nəzarəti mühafizə bölüyü təsis etmək istəyir. O polk 992 nəfər-dən ibarətdir. Bunların 332 nəfəri süvari, 660 nəfəri piyada olacaqdır. Bunlar bölünürlər 99 posta. Zaqatalada 12 post olacaq, bunların 102 piyadəsi olacaq. Gəncədə 28 postda 280 [945 - 946] strajnik olacaq. Qarabağda 18 postda 180, Lənkəranda 20 postda 220 nəfər, Bakı quberniyasında 20 postda 220 nəfər strajnik olacaqdır. Bu təşkilatı idarə etmək üçün maliyyə nəzarəti ümumilikdə bir idarə təsis olunur. O idarə də bu cürdür: bir müdir, bir kargüzar, iki müavin, bir maşında yazan, bir də reqistrator. İki də kyuster. Təşkilatı düzəltmək üçün iki dürlü xərc göstərilər. Biri ilk dəfə (518000) manat, digəri həmişəlik (890000) manatdır. Böyük xərc 992 adamı saxlamaq üçündür. Bunun 5 milyon 272 min manatı o işə gedir. Maliyyə nəzarəti bunu təqdim edib, maliyyə büdcə komisyonunda qəbul ilə parlamana təqdim edilir.

**Katib** (Bayram Niyazi) - Qanun layihəsini türkcə oxuyur.

**Ağabəyov** - Layihəni rusca oxuyur.

**Sədr** - Layihənin əsasları üzrə kim danışmaq istər? Danışmaq istəyən yox isə səsə qoyacağam... Hacı Kərim Saniyev buyurun.

**Hacı Kərim** - Bu qanun layihəsilə təklif olunur ki, min nəfərə yavuq bir bölük maliyyə nəzarəti ixtiyarında olsun. Gömrükxanaları mühafizə etsin. Böyük bir xərcdir ki, neçə milyonlara çatır. Bu qədər xərc ilə əmələ kələn qüvvə necə ki, lazımdır, sərhədi saxlaya bilməyəcəkdir. Yenə kandraband gedəcək. Biz öylə bilirik ki, hər uyezd naçalniki ixtiyarında olan milisiya bu bölüyün işini görə bilər. Hər uyezd naçalniki əgər istəsə kandrabandçılığın qabağını ala bilər. Qazax uyezdi əvvəlinci kandrabandçılar yeri idi. Amma həqiqət göstərdi ki, əgər polis məmurları xahiş etsələr lazım olan qədər bunun qabağını ala bilərlər. Ona görə biz öylə bilirik ki, uyezd naçalnikləri ixtiyarında olan qüvvə kafidir ki, hüdudu kandraband keçirməkdən saxlasın. Bundan əlavə bu saat uyezd naçalniklərindən öylə məmurlar da vardır ki, bunların başqa bir işləri yoxdur. Onları düzəltmək olar ki, hüdudu saxlasın. Bunlardan başqa biz müvəqqəti olaraq gömrükxana qanunu qəbul etdik və xahişimiz oldu ki, qonşu dövlətlər ilə danışığa kirişib gömrükxana ləğv edilsin. Əgər məqsəd sərhəddi düşmən hücumundan saxlamaq isə o zaman böylə bölüyün olmasını artıq bilirəm. Çünki öylə bir vaxtda böylə bölüyə ehtiyac hiss etmədən sərhədlərimizi qoşun hissələrinə tapşırmaq olar ki, o da hərbiyyə nəzarətinə tabe olar. Bunları [946 - 947] nəzərə alaraq böylə bir bölüyün maliyyə nəzarəti altında olmasını artıq bilib, xərci də artıq zənn edirik.

**Sədr** - Rəhim bəy Vəkilov.

**Vəkilov** - Hacı Kərim Saniyev əfəndi poqroniçni milisiya barəsində dovod gətirdi mən zənn edirəm ki, bu fikir yanlışdır. Yoldaşımız buyurur ki, bu mühafizə dəstəsi əvəzinə hüdudlarımızı administrasiya hifz etməlidir. Bu fikrini sübuta yetirmək üçün Qazax məsələsini zərbülməsəl götürür ki, onun naçalniki sərhədi gözəl surətdə hifz etməkdədir. Bu fikir düz dəyil, o məsələ bağlıdır naçalnikin əxlaqının düzlüyünə və ciddiyyətinə. Bir də Hacı Kərim Saniyev dedi ki, lazım olsa hüdudu saxlamaq üçün başqaca sərhəd mühafizəsi bölüyü əmələ gətirib, hərbiyə nəzarəti təhti-idarəsinə verilsin. Buna biz razıyıq, fəqət büsbütün naçalniklərə hüdudları tapşırmaq düz deyildir. Biz edə bilmərik ki, sərhəd mühafizəsini uyezdni naçalniklərin əlinə verək. Buna görə yoldaşlarımız sosialistlərin fikrinə şərik ola bilmərik.

**Sədr** - Muxtar Əfəndizadə.

**Muxtar Əfəndizadə** - Mənə elə gəlir ki, bu nəzərlərin hər ikisində yanlışlıq vardır. Əgər doğrudan da biz bu işləri maliyyə nəzarətinə versək xəyanət daha da artacaqdır, çünki böylə işləri yuxarıdan təftiş edən yoxdur.

Sonra, deyirlər ki, bu mühafizə dəstəsi xərcləri fəzlədir. Halbuki, xərc məsələsini biz gömrükxanalar qanunları içərisində qəbul etmişik. Ona görə deyirəm ki, təklif olunan qanun eynilə qəbul olsun. Fəqət sərhəd və gömrük məmurları uyezdin naçalniklər ilə bərabər hamısını məcbur etməliyik ki, hüdudun mühafizəsi üçün nəzarət sifəti ilə hər kəs məsul olsun.

**Sədr** - Əhməd bəy Pepinov.

**Əhməd bəy** - Əfəndilər! Bizim 5 milyon yarım xərc və mühafizə bölük dəstəsi tərəfdarı olmağımızı yoldaşımız Saniyev söylədi, mən də öz fikrimi ərz edirəm. Biz ələlümum gömrükxanalara bərəksik, çünki cümhuriyyət qanunları ilə gömrükxanalar bərtərəf edilməlidir. Bu xüsusda keçənlərdə öz arzumuzu fraksiyalarımız tərəfindən parlamana ərz etmişik və qeyri qonşu cümhuriyyətlər ilə etilaf əmələ kələnədək müvəqqəti olaraq bu gömrükxana qəbul edilmişdir. İndi bu şeylər ki nəzarət tərəfindən təklif olunur, biz bunu qəbul etsək, gömrükxananı əsasən qəbul etmiş olarıq. İkincisi budur [947 - 948] ki, sərhədlərimiz onsuz da administrasiya tərəfindən mühafizə edilməkdədir. Məsələn, Qazaxda uyezdni naçalnikin təhti-nəzarətində beşaltıyüz adam var. İndi gərək 100 nəfər adam təyin edək. Qarabağda general qubernatorumuz var ki, ona milyonlarla pullar buraxılır, yenə artıq qüvvə saxlamaq üçün milyonlar verməliyik. Qubada da həmçinin. Bu qədər xərc vermək ilə bərabər, dübarə təklif olunan sərhəd mühafizəsi bölüyünə beş milyon yarım təxsisat buraxmağımız fəzlə və xəzinəmizin boşalmasına səbəb olacaqdır. Məəttəəsüf gömrük varidatı-mızı bilmək üçün qanunlara baxanda, nəzarətlərdən burada kimsə olmayır ki, sərhəd və gömrük barəsində bizə izahat ver-sinlər, biz də ondan istifadə edək. Gürcüstanın 1919-cu il büdcəsində gömrükxanalardan on səkkiz milyon gəliri vardır. İndi gərək bizim nəzarət ki, beş milyon yarım xərc istəyir, bunun müqabilində nə qədər gəliri olacaqdır. Zənnimcə bizim o qədər gəlirimiz olmayacaqdır ki, bu xərcləri ödəsin. Ona binaən ümidvaram ki, parlaman da buna bərəks gedib bu layihəni qəbul etməyib rədd edir.

**Sədr** - Rəhim bəy Vəkilov.

**Rəhim Vəkilov** - Əvvəla sosialist yoldaşlar ilə bizim ara-mızda bu məsələ düz deyildir. Necə ki, sərhəddi mühafizə tərəfdarı deyillər. Amma iş oradadır ki, bu məsələ hələlik spekulyasiyanın önünü almaq üçündür. Mən güman eləmirəm ki, bundan pis nəticə olsun. Mən nümunə üçün Qazax uyezdini götürürəm. Deyirlər ayrı olmasın. Sərhəddi mühafizə etmək uyezd naçalnikinə qalarsa, şəhərdən qənd, çay, neft və bu kimi şeyləri almağa qoymayacaq. Şəhərin önündə qabağını kəsib, hər şeyi kontraband eyləyəcəkdir. Amma ayrı olsa uyezd naçalniki kəndçinin qabağını kəsib, eşşəyin yükünü almayacaqdır. Ona görə biz bir olmağın əleyhinəyik. Sosialist yoldaşlarla biz ancaq bir nöqtədə birləşə bilərik ki, bölük idarəsi hərbiyə nəzarətinin idarəsində olsun. Heç bir vaxt bu məsələdə uyezd naçalnikinə tabe olması tərəfdarı deyilik. Onlara nə də səs verə bilərik.

**Sədr** - Sırada natiq olmadığından son söz məruzəçinindir.

**Vəkilov** - Möhtərəm əfəndilər! Biz qəbul eylədik ki, müəssisələr tək qalırsa olmaz, hərəkətdən bir şey çıxmaz. Gərək biz onlara qüvvə verək. Hacı Kərim əfəndi dedi ki, bundan bir şey çıxmaz. Niyə çıxmır? Çıxar. Demək sübutsuz bir şey olmaz. [948 - 949] Əksinə işə başlayarkən bir şey çıxacağına ümid daha çoxdur. hacı Kərim əfəndi danışarkən sözlərini o yerə gətirirdi ki, böylə idarələrə biz para verməyəlim. Sosialist qardaşlar qəzetlərində yazırlar. Bunlar bəzən doğrudur. Bununla mübarizə lazımdır. Fəqət, bir naçalniki götürüb başqasını qoymaqla iş düzəlməz. Onun ixtiyaratını artırmaq lazımdır. hər dərd üçün yanına getməyəndə, camaat yanında onun qədi azalar. Hətta gərək bir qədər azaldasan. Sosialistlər böylə deyəndə mən təəccüb edirəm. Bir də bilirik ki, bu işlər üçün nə qədər pul qoyulmuşdur ki, bunlar düzəlsin. Maya qoyub qazanc aparmalıdır. Keçirəm Muxtar əfəndinin dediyinə. Muxtar əfəndinin dediyindən mən özüm də çətinlikdə qalıram. Deyir ki, bölüyün yarı ixtiyarı maliyyə nəzarətinə, yarı ixtiyarı hərbiyə nəzarətinə verilsin. Bu nə olur? Bu olur dvoyevlasti, troyevlasti. Bölük arada qalır. Heç bir bölük bilinməz. Əhməd bəy deyir ki, bunun nə qədər xərci və xeyri olacaq, bilinmir. Biz bununla (poşlini) deyil malımızın başqa yerə getməsinə qoymayacağıq. Heç bir mədaxili olmasa da istəyirik ki, başqa yerlərə getməsin. İstəmədiyimiz mallar getsin. Ona görə də mən bu məsələdə məruzədə olduğu kimi olmasının tərəfdarıyam.

Bir də bu 992 adam olur ki, bir polk olur. İndi lazım gəlsə hərbə də kedə bilər. Bu özü də bir qüvvədir.

**Sədr** - Camalbəyov diqqətlə söylədim, səs salmayasınız. Layihənin ikinci qiraətinə keçilməsini səsə qoyuram. Kim ikinci qiraətə keçilməsi tərəfdarı isə əlini qaldırsın? Kim əleyhinədir? (Əllər qalxır). Kim səs verməyib (Əllər qalxır). Rica edirəm, layihənin ikinci qiraətinə tərəfdar olanlar əllərini qaldırsın. (Əllər qalxır). Kim əleyhinədir? (Əllər qalxır). Kim səs vermir? (Əllər qalxır). Lehinə 27, əleyhinə 7, səs verməyən 5. Məsələ qəbul edilir. İkinci qiraətə keçməmiş tənəffüs elan edirəm.

**Tənəffüsdən sonra**

**Sədr** - İclas davam edir. Parlamanın qərarı ilə növbədəki məsələlərə keçmədən əvvəl mərkəzi komitənin intixabına keçirəm. Tənəffüs əsnasında etiraf hasil olub. Siyahı verilmişdir. Mehdi bəy, oxuyunuz.

**Katib** - Siyahını oxuyur. [949 - 950]

**Sədr** - Ayrı bir təklif də "Əhrar" fraksiyası tərəfindən var. Oxuyur. "Əhrar" firqəsi iki üzvündən məəda, bir üçüncü çlen olursa Hacı Hüseyn əfəndinin namizədliyini təklif edər.

**Səslər** - Əsasən iki üzv vardır.

**Sədr** - Seçkini açıq surətdəmi istəyirsiniz? Qapalımı?

**Səslər** - Açıq.

**Sədr** - Açıq da mümkündür. Çünki bu daimi deyil, müvəqqəti bir komisyondur. Siyahını bir daha oxuyuram. Oxuyur.

Əlavə olaraq Hacı Hüseyn Əfəndizadə "Əhrar" firqəsi tərəfindən üçüncü olaraq göstərilir.

**Bayram Niyazi** - Tənəffüs əsnasında biz böylə hesab elədik. 88 üzvdən hər dörd adama bir səs düşür. Müsavat firqəsi bir partiya üç səs əlavə edib 28 aldılar. Buna görə biz də sosialist firqəsilə birləşib üç üzv təklif etdik.

**Məmməd Əmin Rəsulzadə** - Burada bilirsiniz ki, Məclisi -Məbusanın qərarına görə bir ənənə vardır. Bu kimi komisyalar Məclisi-Məbusandakı məbus qruplarının ədədinə nisbətlə təşkil olunur. Ona görə tənəffüs əsnasında hər dörd adama bir nümayəndə verməklə bu surətlə tənasüb hasil oldu. Bunun üzərində uzundan üzünə etiraz etmək doğru deyildir.

**Sədr** - Bayram Niyazi.

**Bayram Niyazi** - Burada söyləndi ki, tam ədəd olmazsa kəsirli miqdar nəzərə alınmaz. Bu həddi, halbuki kəsirli digər firqələrdə vardır. Madam ki, o kəsirli firqələrdə vardır. Madam ki, o kəsirli firqələrin səsi qəbul edilir. Bizim də kəsrimiz gərək nəzərə alınsın.

**Sədr** - Səsə qoyuram. Əvvəl siyahiyə "Əhrar" tərəfindən göstərilən 3-cü namizəd əlavə edilsin, ya yox.

**Hacı Hüseyn Əfəndizadə** - Burada, hərçənd dedilər ki, "Əhrar" fraksiyası iki siyahı göstərəcək. Lakin biz bunu bilməligik. Biz üç nəfərlik bir siyahi göstəririk. Madam ki, siyahı gecikibdir. Mən öz namizədliyimi geri götürürəm.

**Sədr** - Hacı Hüseyn əfəndi namizədliyini geri götürdüyü üçün siyahı olduğu kimi qəbul edilir. Hacı Hüseyn əfəndi namizədlikdən imtina edir. Mən müştərək siyahını səsə qoyuram. Bu siyahıdan şübhəsiz "Əhrar"ın xəbəri vardır. Hər gah olmasa idi, namizədləri olmazdı. Kim siyahının tərəfdarıdır, rica edirəm, əllərini qaldırsın? Kim əleyhinədir? Kim səs verməyir? Siyahının lehinə 36, əleyhinə 4, səs verməyən 1. Əksəriyyət rəylə siyahıda adları olan şəxslər mərkəzi intixab komisyonuna üzv seçilirlər.

**Sədr** - Azərbaycan hökuməti sərhədi boyunda qaragül bölüyü təşkili haqqındakı qanun layihəsinin 2-ci qiraətinə keçirəm. (Katibə) Oxuyunuz.

**Katib** (Bayram Niyazi) - Türkcə oxuyur.

**Ağabəyov** - Rusca tərcümə edir.

**Sədr** - Əvvəlinci maddə xüsusunda kim danışmaq istər? Danışmaq istəyən olmadığından birinci maddəni səsə qoyuram. Əvvəlinci maddəyə etiraz yoxdur? Əvvəlinci maddə qəbul olunur. 2-ci maddəni oxuyunuz.

**Katib** - Türkcə oxuyur.

**Ağabəyov** - Rusca tərcümə edir.

**Sədr** - İkinci maddə xüsusunda kim danışmaq istər? Natiq olmadığından ikinci maddə ş səsə qoyuram. 2-ci maddəyə etiraz yoxdur? Yoxsa ikinci maddə qəbul olunur. 3-cü maddəni oxuyunuz.

**Katib** - Türkcə oxuyur.

**Sədr** - Bir təklif varid olub. Çünki təkliflər ələlümum maddələrə aid deyil əsasə aiddir. Bir növ 3 maddəyə ayırır. Onu səsə qoyacağam. (Oxuyur). "Bölük nə daxiliyə, nə maliyyə nəzarətində olmayıb hərbiyə nəzarətinə verilməlidir. "Əhrar". 2-ci təklifi oxuyur. "Bölük hərbiyə nəzarətinin ixtiyarında olmalıdır. İmza edənlər Rəhim Vəkilov. Mehdi bəy..."

Təkliflər ikisi də bir olduğundan, biri lehinə, biri əleyhinə olmaq üzrə iki nəfərə söz verəcəyəm. Kim danışmaq istəyir? Danışmaq istəyən yoxsa, son söz məruzəçinindir.

**Ağabəyov** - Məsələ böylədir. Mənə böylə gəlir ki bunlar ki, fikir edirlər bu bölük hərbiyə nazirinə verilsə intizam yaxşı olar. Mən öylə başa düşürəm. Təklif edənlər danışsa idi bəlkə məlum olardı. Mən indi böylə düşünürəm. Mən onu demək istəyirəm. Bu bölükdə intizam olacaq. Hər uyezdə bir zabit təyin ediləcək. Onunla bərabər hər quberniyada bir zabit olacaq. Bunların da ümumən başında bir zabit bulunacaq. Bunlara təlim veriləcəkdir. Bundan keçəndən sonra məsələ bir intizamda deyil ki, bunlar yaxşı əsgəri nizam alsınlar. Ondan [951 - 952] ötəri təşkil olunmuş ki, onlar kandrabanda mane olsunlar. Bu işdə maliyyə nəzarətinə aiddir. Sərhəd boyunda təşkil olunmuş gömrükxanalar var. Onların hamısı maliyyə nəzarətinə tabedir. Əkər bölük hərbiyə nəzarətinə tabe olsa, onda öylə olacaqdır ki, sərhəd boyundakı müəssisələrin və məmurların bir qismi maliyyə nəzarətində olub, bir qismimdəki, qüvvə var, o da başqa idarə olacaq. Ona görə sizdən soruram bu qanuna müvafiqdirmi? Budur ki, təklif [var] bölük maliyyə nəzarətində qalsın.

**Sədr** - Təklifləri səsə qoyuram. Hər kəs hüdudların mühafizəsini deyilənlərə vermək tərəfdarı isə rica edirəm əlini qaldırsın. Bəlkə məni başa düşmədiniz: İki təklif var, ikisinin də məzmunu budur ki, sərhəd mühafizə

bölüyü əmələ gətirib hərbi nəzarətin təhtinə verilsin. O biri təklif də budur ki, haman bölük əmələ gətirilib daxili nəzarətinə verilsin... Söz Rəisi-Vükəlanındır.

**Rəisi-Vükəla Nəsib bəy** - Möhtərəm məbuslar! Öylə güman edirəm ki, məqsəd dissiplina üstündədir ki, işlərimiz yaxşı getsin. Lakin qorxuram ki, bu işin nəticəsi pis ola və hərbiyə naziri axırda razı olmaya ki, əsgərlər gedib maliyyə nazirinə xidmət edələr. Cəmi məmləkətlərdə bu böylədir. O cəhətcə mən təklif edirəm ki, mühafizə bölüyü maliyyə nazirinə tapşırılsın, çünki məzkur bölük maliyyə nəzarəti ilə əlaqədar olacaqdır. Əkər qoşun artırmaq lazım isə sərhədi xarici düşmənlərdən mühafizə etsin. Onu da hərbiyə nazirinə tapşırmalıdır ki, əsgərlərin miqdarını artırsın.

**Sədr** - Söz Mehdi bəy Hacıbababəyovundur.

**Mehdi bəy Hacıbababəyov** - Mən bilən o dəstə sərhədləri saxlamaq üçündür. Köhnə zamanlarda xaricdən quldur dəstələri gəlib, bizim tərəflərdən nə qədər mallar aparırdı və kontrabandaçılar da az rol oynamayırdı. O vaxt poqraniçni strajniklər sərhədləri quldur dəstələrindən hifz etməklə bərabər kontrabandaçılardan tutduqları malları da çinovniklərə quldurlar ilə mübarizə edib və kontraband malı tutmaq ilə məşğul olacaqdır. Bəlkə qarşımıza gələn böyük düşmənin də hücumuna mane olacaqdır, əgər deyirlər ki, bu iki hökumətlik olar, mən də deyirəm ki, naloq ki maliyyə nəzarəti hesabına gedir, yenə o naloqu polis yığır.[952 - 953] **Sədr** (Mehdi bəy Hacınski) - İstər sabiq, istər təzə Rusi-yada poqraniçni straja maliyyə nəzarətinə tabedir. Ola bilsin ki, keçmişdə poqraniçni strajda bu nizamlıq olub. Lakin bu bölüyün hərbiyə nəzarətinə tabe olması xilaf adətdir. Bütün hökumətlərdə bu bölük maliyyə nəzarətinə tabe olduğu kimi burada da gərək maliyyə nəzarətinə tabe olsun. Məncə bu barədə təzə qanun yazmaq fəzlə və xilaf adətdir.

**Sədr** - Abdulla bəy Əmircanov.

**Abdulla bəy** - Mehtərəm məbuslar! Bu hüdud qarovulları həmişə maliyyə nəzarətində olub. Mən heç bir vaxt bilmirəm ki, bu qarovullar hərbiyə və yaxud daxiliyə nəzarətində olsunlar. Hüdudda ki, əsgərlər maliyyə işlərindən ötəridir və tomojna ilə bunların rabitəsi var. Məsələn, bir iş olduqda əfəndilərin dediyinə görə, onda gərək hərbiyə qulluqçuları maliyyəni buraxıb, hərbiyyəyə xəbər versinlər, sonra hərbiyə nəzarəti də maliyyəyə xəbər versin. Bu isə bizim işlərimizi çox geri salar. O səbəbə təklif edirlər, sərhəd mühafizə bölüyü hərbiyə nəzarətinə tabe olmayıb maliyyəyə tabe olsun.

**Sədr** - Qara bəy Qarabəyov.

**Qara bəy** - Bu verilən təklifin nə dərəcə mənası var. Bu mülahizələr ilə sübut olmaz. Bu qanunun iki yüz illik tarixi var. Bunlar istibdad zamanında yazılmışdır ki, o vaxt tomojna işlərinə böyük əhəmiyyət verilirdi. İndi əsr və fikir dəyişilib. hamı firqələr deyir ki, gərək tomojnalar rədd olsun. Tamojna məsələsindən başqa bir də bizim hüdudu saxlamaq məsələsi var ki, o da gərək nizami əsgərlər əlində olsun. Biz bilirik ki, keçmişdə könüllü hüdud qarovulları bir qədər qulluq edib, milyonlar qazanırdı. Çünki onlar dəyişilməksizin hüdudda dururdular, hər işə aşina olur, xəyanətlər yapırlardı. Böylə bir qüvvə saxlamağa bizə lüzum yoxdur. Ona binaən rəisi-vükəlanın söylədiyini təqdir etməklə mən təklif edərdim ki, mühafizə bölük məsələsini götürüb, hüdudlar büsbütün nizami əsgərlərimizə tapşıraq, çünki müsəlləh və nizami əsgərlərimiz olar isə, əvvələn xərcdən bir qədər azad olarıq, saniyən o əsgərlər daha da öz vəzifələrini gözəl ifadə edərlər, vaxtlı-vaxtında dəyişərlər, hər ayda bir dəstə gedib o sərhədləri mühafizə edə bilər. Buna görə biz də təklif edirik ki, bu mühafizə hərbiyə nəzarətinə verilsin. [953 - 954]

**Məmməd Əmin Rəsulzadə** - Bu məsələnin lehinə də, əleyhinə də söz söyləmək mümkündür. Hərbiyə nəzarətinə verilməsinin lehinə onu demək olar ki, hüdudlarımızı müdafiə etmək hərbiyə nazirinə mütəlliq bir məsələ olduğu üçün bu da ona verilməlidir. İlk nəzərdə bu müvafiq görünür. Fəqət hüdud mühafizəsi başqa bir əsgər olacaqdır. Xaricdən bizim hüdudlarımıza bir qüvvə təcavüz edərsə, haman hüdudun müdafiə və mühafizəsi üçün əsgəri təşkilat lazımdır. Hüdudda bu əsgəri qoymağın əsgəri təşkilata və hərbiyə nəzarətinə dəlaləti var. Fəqət demək olmaz ki, şəhərin içərisində əsgər varsa administrasiya lazım deyildir. Xalqı quldurlardan mühafizə etmək üçün əsgər lazım olduğu kimi kontrabandanı qorumaq üçün bu təşkilat lazımdır. Deyirlər ki, bu istibdad zamanından qalmışdır. Hər bir şey, istibdad zamanından qalmışdır. Hər bir şey, istibdad zamanında polis də vardı, qradovoy da var idi. Lazım deyil hərbiyyə də verək, demək olmaz. halbuki, şimdi gömrükdə sui-istemal əndazəyə girmişdir. Əvvəl mal mübadiləsi yox ikən, ticarət yolunda ikən, kandraband çox olduğu halda böylə bir hüdud-əsgəri təşkilatına lüzum görülmüş idi. Şimdi isə hər bir şey cığırından çıxdığı halda, bu məsələni də hərbiyə nəzarətinin üzərinə buraxsanız o zaman vəzifəsi ancaq vətən müdafiəsi məqsədimüqəddəs ikən, onu bir kandraband və daxili quldurlarla uğraşmağa alışdırasınız, onun əsgəri şərəfini təhqir etmiş olursunuz. Əsgərin vəzifəsi istiqlaliyyəti müdafiə etməkdir. Bunu təqrir etməli, yoxsa şərəfinə müğayir qaçaqçılıq bu kimi şeylərə onu sövq etmək, şərəfi əsgəriyyəni ixlal edər.

Hüdudda gömrük məsələsi üzərində bir fənalıq baş verərsə, o ilk şikayət maliyyə nəzarətinə gələcək, maliyyə nəzarəti də hərbiyyə nəzarətinə yazacaqdır ki, sizin əsgərləriniz bu şeyləri yapmış, o da yazacaqdır ki, bizim əsgərlərimiz deyil, sizin adamlarınızdır. O deyəcək sizin çinovniklərdir. Ertəsi yox deyəcək, müqəssir sizin əsgərlərdir. Beləliklə ixtilaf iki nəzarət arasında gedəcəkdir. Və bu arada bu qarışıqlıqda qaçaqçılıq, kandraband daha çox olacaqdır. İstibdad vaxtı bu hüdud əsgərləri ayrı təşkil olunduqda istibdad gücü ilə deyil, o vaxt da bu

fikirlə meydana gəlmişdir. Əski zamanda Rusiyanın hüdudları böyük və müntəzəm general orduları tərəfindən mühafizə edilirkən, yenə bu kandrabant məsələsinin böylə zəif bir qüvvəyə verilmişdi. Bu kandraband üzərində ola biləcək bir mübahisəyə maliyyə naziri məsul ikən qüvvət hərbiyə nəzarətinin olur. Deməк vəzifə ayrı, məsuliyyət də ayrı adamda olur. Beləliklə işin içindən ixtilaf çıxa biləcəyindən o vaxtda maliyyə nəzarətinə verilirdi.

**Sədr** - Aşurov.

**Aşurov** - Mən söyləmək istəmirəm.

**Sədr** - Sırada natiq olmadığından son söz məruzəçinindir.

**Rza bəy Ağabəyov** - Möhtərəm əfəndilər! Burada bu təklif qanunun əsasına aiddir. Əsasən qanunun əsasları müzakirə və təsdiq olunduqdan sonra, təkrar maddə-maddə səsə qoyuldu. Bunu gərək biz əvvəlcə səsə qoya idik. Və yenə Qarabəy bir takım cərəyanlardan, müəssisələrdən bəhs buyurdular, halbuki mən təklif edərdim ki, biz məsələnin əsasına gedəlim. Bizə hüdud mühafizə bölüyü lazımdır, ya yox? Bir paraları deyirlər ki, hüdud gərək açıq olsun, sərbəst ticarət olsun, biz hürriyyət pərvərik, mühafizə bölgü olmasın. Fəqət biz bir kərə qərar qoymuşuq ki, gömrükxanalar kimi müəssisələr olsun. Madam ki, bunu qəbul etmişsiniz. O halda onlara qüvvə də verməliyik. Mən başa düşürəm əgər məsələ qanunun əsası üzərinə danışılsa idi. Yoxsa əsas qanunu maddə-maddə oxuyanda yerindən bir şəxs etiraz edir. Bir maddə xüsusunda bir çox danışıq olur və nəticədə bütün məsələ əsasilə geri qalır. Və yenə dedilər ki, bu müəssisə hərbiyə nəzarətinin əmrinə verilsin. Bakalım, hərbiyə naziri bu təklifə razı olacaqmı, ya yox... Deməyəcəkmi "Bən alış-verişçi deyiləm". hər halda onun rəyini sormalıyıq. Burada polisdən bəhs edildi və söyləndi ki, polisə icabında maliyyə nəzarətinə naloqları, vergilərin toplanmağı xüsusunda kömək edir. Halbuki, bu da doğru deyildir. Çünki polisyanın vəzifəsi başqa. Vergi toplamağa məxsusi maliyyə nəzarətinin intizab edəcəyi məmurların vəzifəsi başqadır. Bunun üçün biz gərək hər bir işi öz müəssisəsinə və öz əhlinə verək ki, arzu edilən eyni nəticə olsun...

**Sədr** - Mən təklifi səsə qoyuram, kim tərəfdardır rica edirəm əllərini qaldırsın. Kim əleyhinə, kim səs verməyir? Lehinə 10, əleyhinə 27, səs verməyən 5. Əksəriyyət rəy ilə təklif qəbul edilməyir. [955 - 956] Üçüncü maddəni səsə qoyuram. Kim üçüncü maddəni komisyonun təklif eylədiyi kimi qəbul edir, rica edirəm əllərini qaldırsın. Kim bunuu əleyhinədir? Kim səs verməyir?

Lehinə 26, əleyhinə 8, səs verməyən 9. Əksəriyyət rəylə maddə qəbul edilir. 4-cü maddəni oxuyunuz.

**Katib** - Dördüncü maddəni oxuyur.

**Sədr** - 4-cü maddə xüsusunda kim danışmaq istərdi? 4-cü maddəni səsə qoyuram. Etiraz yoxmu? Etiraz olmadığından qəbul edilir. 5-ci maddəni oxuyunuz.

**Katib** - 5-ci maddəni oxuyur.

**Sədr** - Beşinci maddə xüsusunda kim danışmaq istərdi? 5-ci maddəni səsə qoyuram. Etiraz yoxmu? 5-ci maddə qəbul edilir. 6-cı maddəni oxuyunuz.

**Katib** - Oxuyur.

**Sədr** - 6-cı maddə xüsusunda kim danışmaq istərdi? Səsə qoyuram, etiraz yoxmu? 6-cı maddə qəbul edilir. 7-ci maddəni oxuyunuz.

**Katib** (Bayram Niyazi) - 7-ci maddəni oxuyur.

**Ağabəyov** - Rusca tərcümə edir.

**Sədr** - 7-ci maddə xüsusunda kim danışmaq istərdi? Danış-maq istəyən yoxdursa səsə qoyuram. 7-ci maddəyə etiraz yoxdur ki? Yoxdursa qəbul edilir. 8-ci maddəni oxuyunuz.

**Katib** - 8-ci maddəni oxuyur.

**Ağabəyov** - Eyni maddəni tərcümə edir.

**Sədr** - 8-ci maddə xüsusunda danışmaq istəyən yoxdur ki? Yoxsa səsə qoyuram. Etiraz yoxdur? Onda 8-ci maddə qəbul edilir. Birinci maddəyə əlavə cədvəli oxuyunuz.

**Katib** - Oxuyur.

**Sədr** - Əvvəlinci maddəyə aid cədvəl xüsusunda kim danış-maq istərdi? Rusca oxuyunuz.

**Ağabəyov** - Rusca oxuyur.

**Sədr** - Kim danışmaq istərdi, əvvəlinci maddənin əlavəsi xüsusunda? Səsə qoyuram. Etiraz yoxdur ki? Əvvəlinci maddəyə əlavə olunan məmurun cədvəli qəbul edilir. Üçüncü maddəyə əlavə edilən cədvəli oxuyunuz.

**Katib** - Oxuyur.

**Ağabəyov** - Tərcümə edir.

**Sədr** - 3-cü maddənin əlavəsi xüsusunda kim danışmaq istərdi? Danışmaq istəyən yoxdur ki? Səsə qoyuram. Etiraz yoxdur ki, buna? Etiraz olmadığından üçüncü maddəyə əlavə olunacaq cədvəl qəbul edilir. Müsaidə verəsiniz növbədəki məsələlərə keçək. Yoxsa bir təklif var ki, məclis qapansın. Buna etiraz yoxdur ki?

İclas qapanır.

İclas qapanır saat 3.10 dəqiqə.

**Arxiv, f. 895, siy. 1, iş, 128, vər. 1-22.**

**№ 66**
**Altmış altıncı iclas**

*18 avqust 1919-cu il.*

İclas saat 11.35 dəqiqədə açılır.

**Sədr** - Həsən bəy Ağayev. **Katib** - Mehdi bəy Hacınski.

**Sədr** - İclas açılır. (Katibə) Yomiyyeyi-müzakiratı oxuyunuz.

**Katib** – Müzakiratia-yomiyyə: 1 - Daxil olmuş kağızlar. O cümlədən: a) Ağdamda təsis olunacaq xəzinənin ştatası haqqında; b) Gömrük idarələrində alınan vergilər barəsində maliyyə naziri hüququnun genişləndirilməsi haqqında. 2) Sülh məhkəmələrinin cinayət işlərində daireyi-nüfuzunun tovşəsi və sülh hakimlərinin təqviysilə əhvali-xassəyə qarşı icra edilən bəzi cinayətlərə biçiləcək qanunların təbdil və təğyiri haqqında qanun layihəsinin 3-cü qiraəti. - Məruzəçi Rzayev Bağır; 3) Azərbaycan sərhədində mühafizə bölüyü təsisi haqqında. 3-cü qiraət. Məruzəçi - Ağabəyov; 4) Azərbaycan darülfünunu təşkili haqqında; 5) Azərbaycan hökumət bankası təşkili haqqında. - Məruzəçi Ağabəyov; 6) Spirt məhsulatın-dan alınan aksiz vergisi miqdarlarının artırılması haqqın-da. Məruzəçi - Ağabəyov; 7) Tövcü vergisinin artırılması ilə bərabər torpaq gəlir və məxaric smetasının və torpaq vergi miqdarlarının təmdidi haqqında. Məruzəçi - Ağabəyov; 8) Nəşri-elan haqqında; 9) Maliyyə nəzarəti şurası haqqında; 10) Fabrika inspeksiyasına dair qəvaiddin təğyiri haqqında.

11) Ümumi əyləncə və tamaşaxana yerlərindən alınan müvəqqəti [957 - 958] verginin hökumət məbaliği-müstəhfizəsinə idxalı haqqında. Məruzəçi - Ağabəyov; 12) həmin sənə üçün İrəvan ümuri-xeyriyyə naziri vəkilinin maaşı və onun idarəsi məsarifatı üçün nazirə 177.000 rüblə kredit açılması haqqında. Məruzəçi - Ağamalov; 13) Tamğa rüsumatı qanunnaməsinin bəzi maddələrinin təbdili və rüsum miqdarlarının təzyidi haqqında. Məruzəçi - Rüstəmbəyov; 14) Şəhadətnaməsiz olan içki kartından alınan xərclərin qüvvələnməsi haqqında. Məruzəçi -Hacinski; 15) Bakı xəzinə palatası müdiri-müavinliki vəzifəsinin ləğvi haqqında. Məruzəçi - Muxtar Əfəndizadə; 16) Azərbaycan cümhuriyyəti ümumi-xeyriyyə nəzarətinin ştatının siyahısı və maaşlarının artırılması haqqında. Məruzəçi -Mustafa Vəkilov; 17) Hökumət fraksiyasının hökumətə sualı.

Ağdamda təsis olunacaq xəzinənin ştatı haqqında qanun layihəsi verilir ləvayehi-qanuniyyə komissiyonuna (rusca).

**Sədr** - Yomiyyeyi-müzakirata etiraz yoxdur? Yomiyyeyi-müzakirat qəbul edilir.

Növbədəki: Sülh məhkəmələrinin cinayət işlərində daireyi-nüfuzunun tövsi və sülh hakimləri hökmlərinin təqviyəsilə əmvali-xassəyə qarşı icra edilən bəzi cinayətlərə biçiləcək qanunların təbdili və təğyiri haqqında qanun layihəsinin üçüncü qiraəti. (Katibə) Layihəni oxuyunuz.

**Katib** - Layihənin birinci babını oxuyur.

**Sədr** - Əvvəlinci bab xüsusunda kim danışmaq istərdi. Danışmaq istəyən yoxsa, səsə qoyuram. Əvvəlinci babdan gərək ki, yadınızdadır, keçən dəfə parlamanın qərarı üzrə dördüncü maddə ixrac edilmişdir. Ona görə 3 maddədən ibarət birinci babı səsə qoyuram. Etiraz yoxdur. Qəbuluna etiraz yoxdur? Etiraz yoxdur. Üç maddədən ibarət əvvəlinci bab qəbul edilir.

**Katib** - Layihənin 2-ci babını oxuyur.

**Sədr** - İkinci bab xüsusunda kim.danışmaq istərdi? Danışmaq istəyən yoxsa səsə qoyuram. İkincini layiheyi-qanuniyyə komisyonunun qərarı üzrə kim qəbul edirsə, rica edirəm əlini qaldırsın. Əksəriyyət rəy ilə ikinci bab komisyon qərarı üzrə qəbul edilir. (Katibə) Üçüncü babı oxuyunuz.

**Katib** - Layihənin üçüncü babını oxuyur.

**Sədr** - 3-cü bab xüsusunda kim danışmaq istərdi? Səsə qoyuram. Üç maddədən ibarət üçüncü babı səsə qoyuram. Etiraz yoxdur [958 - 959] buna. 3-cü bab qəbul edilir. Layiheyi-qanuniyyəni tamamən səs qoyuram. Etiraz olmadığından layiheyi-qanuniyyə tamamən qəbul edilir. Layiheyi-qanuniyyə veriləcək təshih komisyonuna. Növbədəki məsələ Azərbaycan sərhədində mühafizə bölüyü təsisi haqqında qanun layihəsinin 3-cü qiraətidir. (Katibə) Oxuyunuz.

**Katib** (Bayram Niyazi) - Oxuyur.

**Sədr** - Bunun əlavəsini də oxuyunuz, cədvəlini. Əvvəlinci maddəyə əlavə cədvəl var, onu oxuyunuz.

**Katib** - Cədvəli oxuyur.

**Sədr** - Əvvəlinci maddə xüsusunda kim danışmaq istərdi? Danışmaq istəyən olmadığından səsə qoyuram. Əvvəlinci maddəni və ona aid cədvəli səsə qoyuram. Bunun qəbuluna etiraz yoxmu? Səsə qoyuram. Kim bunu qəbul edirsə, əvvəlinci maddəni qəbul edirsə rica edirəm əlini qaldırsın. (Əllər qalxır). Sayınız. Kim bunun əleyhinədir? Kim səs verməyib? Lehinə 32, əleyhinə 7, səs verməyən 3. Əksəriyyət rəylə əvvəlinci maddə və ona aid cədvəl qəbul edilir. 2-cini oxuyunuz.

**Katib** - 2-ci maddəni oxuyur.

**Sədr** - 2-ci maddə xüsusunda kim danışmaq istərdi? Səsə qoyuram. İkinci maddəni kim qəbul edirsə rica edirəm əlini qaldırsın. Kim əleyhinədir? Səs verməyənlər? Bir də səsə qoyuram. 2-ci maddənin kim əleyhinədir

əlini qaldırsın. Kim səs vermir? 42 adamdan yerdə qalanı şübhəsiz qəbul edirlər. Biri səs verməyib. Yeddi əleyhinədir. Əksəriyyət rəylə maddə qəbul edilir. 3-cü maddəni oxuyunuz.

**Katib** - 3-cü maddəni oxuyur.

**Sədr** - 3-cü maddə xüsusunda kim danışmaq istərdi. Üçüncü maddəni cədvəl ilə bərabər səsə qoyuram. Kim etiraz edirsə, rica edirəm əlini qaddırsın. Kim səs verməyib. 42 əzadan 2-si səs verməyib, 7 əleyhinə, 33 lehinə əksəriyyət rəy ilə 3-cü maddə qəbul edilir. 4-cü maddəni oxuyunuz.

**Katib** - 4-cü maddəni oxuyur.

**Sədr** - Dördüncü maddə xüsusunda danışmaq istəyən yoxdursa, səsə qoyuram. Kim etiraz edirsə əlini qaldırsın. Səs verməyənlər? 33 lehinə, 7 əleyhinə, səs verməyən 2. Əksəriyyət rəy ilə 4-cü maddə qəbul edilir. 5-ci maddəni oxuyunuz.

**Katib -** 5-ci maddəni oxuyur. [959 - 960]

**Sədr -** 5-ci maddəni səsə qoyuram. Kim etiraz edirsə əlini qaldırsın. Səs verməyənlər? 31 lehinə, 7 əleyhinə, 3 səs verməyən. Əksəriyyət rəy ilə 5-ci maddə qəbul edilir. 6-cı maddəni oxuyunuz.

**Katib -** 6-cı maddəni oxuyur.

**Sədr -** 6-cı maddəni səsə qoyuram. Kim etiraz edirsə rica edirəm əlini qaldırsın, səs verməyənlər? Lehinə 32, əleyhinə 7, səs verməyən 2. Əksəriyyət rəy ilə 6-cı maddə qəbul edilir. 7-ci maddəni oxuyunuz.

**Katib -** 7-ci maddəni oxuyur.

**Sədr -** 7-ci maddəni səsə qoyuram. Kim etiraz edirsə rica edirəm əlini qaldırsın, səs verməyənlər? Lehinə 33, əleyhinə 7, səs verməyən 2. Əksəriyyət rəy ilə 7-ci maddə qəbul olunur. 8-ci maddəni oxuyunuz.

**Katib -** 8-ci maddəni oxuyur.

**Sədr -** 8-ci maddəni səsə qoyuram. Kim etiraz edirsə rica edirəm əlini qaldırsın, səs verməyənlər? Səs verməyən 2, əleyhinə 7, lehinə 32. Əksəriyyət rəy ilə 8-ci maddə qəbul olunur.

Layiheyi-qanuniyyəni tamamən səsə qoyuram. Kim bunun əleyhinədir? Səs verməyənlər? Lehinə 32, əleyhinə 7, səs verməyənlər 2. Layiheyi-qanuniyyə təmamən qəbul olunur, verilir təshih komisyonuna.

Növbədəki məsələ Azərbaycan daralfünunu haqqında layiheyi-qanuniyyə.

**Mahmudov Mustafa** (yerindən) - Müsaidə veriniz.

**Sədr** - Nə xüsusda?

**Mustafa** - Darülfünün xüsusunda.

**Sədr** - Söz Mustafa Mahmudovundur.

**Mustafa** - Hərçəndi müzakirati-yomiyyəyi qəbul etmişik. Lakin darülfünun barəsində bizim fraksiyanın müzakirə olmayıb və natiqimiz bu gün bu barədə danışacaq idi. Burada olmadığından mən təklif edirəm ki, darülfünun məsələsi qal-sın kələn iclasa. Ondan daha mühüm məsələlər var ki, çoxdan bəri müzakirati-yomiyyəyə daxil olmuş isə də məattəəsüf bu vaxta qədər onlara baxılmamışdır. Məsələn yer məsələsi və Azərbaycan hökumət bankı məsələsidir ki, darülfünundan daha lazımlıdır. Mən təklif edirəm darülfünun məsələsi qalsın kələn iclasa. [960 - 961]

**Sədr** - Təklifə etiraz yoxdursa qəbul olunur.

Təklifi səsə qoyuram. Kim bu təklifi qəbul edirsə, rica edirəm əlini qaldırsın. Kim bunun əleyhinədir? Səs verməyənlər. Lehinə 21, əleyhinə 15, səs verməyən 9. Əksəriyyət rəy ilə qəbul olunur. Darülfünun məsələsi qalır gələn iclasa.

**Sədr** - Növbədəki məsələ Azərbaycan hökumət bankının təsisi haqqında. Məruzəçi - Rza bəy Ağabəyov.

**Bağır Rza** - Bank xüsusunda danışmaq istərdim.

**Sədr** - Buyurunuz.

**Bağır Rza** - Yomiyyəyi-müzakirə, yeni darülfünun məsələsində maarif naziri burada bulunmadığından dolayı etiraz edildi və geri buraxıldı. halbuki bank təsisi haqqında da hənuz ətraflı məlumatımız olmadığından biz də təklif edərdik ki, bu məsələ də dala götürülsün.

**Ağabəyov** - Bank məsələsini bu gün axıra qoymaq olmaz. Çünki maliyyə naziri müavininin verdiyi xəbərə görə ayın 25-də bank açılır. Halbuki bank açılmadan əvvəl tərtib edilən qanun layihəsi məclisdən keçməlidir. Baxüsus komisyonda qanun layihəsi baxıldı, hətta sosialist arkadaşlar da iştirak etdi. Hər halda bu məsələni təcili surətdə həll etmək lazımdır.

**Səslər** - Fraksiyalara verəlim.

**Sədr** - Xəbər verə bilmərəm. Çünki biri təklifin əleyhinə, digəri lehinə danışdı. Kim tərəfdardır, rica edirəm əlini qaldırsın. Kim əleyhinədir? Kim səs verməyir? Lehinə 20, əleyhinə 23, səs verməyən 2. Əksəriyyət rəy ilə təklif qəbul edilmir, məsələyə bu gün baxılır.

**Ağabəyov** - Maliyyə nəzarəti bank məsələsini meydana gətirib, bu xüsusda layiheyi-qanuniyyə də tərtib etmişdir. Maliyyə naziri bank xüsusunda olan bəyanatında buyurdu ki, bank bizə lazımdır. Çünki camaat əmanət sandıqlarına əmniyyət edib də pul təslim etməyir. Və kassalar da işləmir və camaatin əllərində kağız pullar bu surətlə bir bankı olursa, o zaman camaat pulunu verər. Pullar bir yerə yığılır və daima ortalığa çoxlu kağız pulda buraxmaqda olmaz.

2-ci səbəb, bank açılırsa, bu bank kredit açar, xüsusi şirkətlərə pul buraxır. Pulları əksəriyyətlə rus banklarında olan bu şirkətlərin halı çox pisdir və çətindir. Əgər hökumət [961 - 962] bankı açılır, bu şirkətlərə pul buraxılırsa, onlar da işləyə bilir. Nəticədə ticarətimiz də çoxalar.

3-cü səbəb. Əgər bank olursa və əlaqə başlarsa çek artar, pulun miqdarı da əksik olar. həm kağız pula da o qədər lüzum qalmaz. Maliyyə nəzarəti bu dəlilləri deyir ki, bizim içimiz-də də bank müamilərinə aşna məmurlar vardır. Ona görə biz də bu nizamnaməni yazanda əski rus nizamnaməsini gözdən keçirib, müəyyən məhəllələrini dəyişdirməklə qəbul etdik. Rusiya zamanında bank müamiləsinin artırılıb əksilməsi məsələsi maliyyə nazirinin əmrilə olurdu. Biz bunu dəyişdirdik. Məzkur məsələ Məclisi-Məbusanın əmrilə olacaqdır.

Və yenə Azərbaycanın dikər şəhərlərindəki otdelenyaların, istiqraz sandıqlarının qurması da bu surətdə olub ayrı-ayrı olmayacaqdır.

Ərz edilən bu nizamnamələri maliyyə nəzarəti qoymuşdur. Layiheyi-qanuniyyənin tamamən 144 maddədən ibarətdir. Maddələrin çoxu bankın təsisindən, qulluqçuların miqdarından, idarəsindən, müamiləsindən bəhs edir. Bundan başqa smeta da nizamnaməyə daxildir və varidat məsarifat burada göstərilmişdir. Məmurları saxlamaq üçün 917.000 manat, bankın düzəlməsi üçün 490.000 manat xərc göstərilir. O yerlərlə ki, maliyyə-büdcə komisyonu hökumət qanunu ilə razı olmayıb, onu ərz eylərəm. Qanun layihəsi budur.

Sədr - Layihənin əsasları üzərinə kim danışmaq istərdi. Söz Ağamalı oğlunundur.

**Ağamalı oğlu** - Bundan qabaq mən söz istəyəndə ki, bu qanuna bu gün baxılmasın çünki bizim fraksiyanın vədəsi olmayıb və bu rəy verə bilməmişdir. Onda natiq bunun əleyhinə gedib dedi ki, bu lap tələsikdir ki, hökumət özü 3-4 günə bank açacaq. Siz hirslənib bunu keçirməsəniz də buna gərək bu gün baxıla. Parlaman gərək baxsın. Siz bu qanunu keçirsəniz də, keçirməsəniz də bank açılacaq. Amma biz deyəndə ki, bu qanuna bu gün baxılmasın, buna vaxt lazımdır və bu.onun üçündür ki, biz bu qanuna artıq fikir və qiymət veririk. Bu, o xırda qanunlardan deyildir ki, yanından çapaq gedək. Çünki bank tək bir nazirin ixtiyarında deyil ki, açsın. Parlaman üzvləri gərək bunun üçün dərin fikrə getsin. İş buradadır ki, gərək bu qosudarstvenni banka pul getsin. Qosudarstvenni xoznaçeystvo ki [962 - 963] deyirlər gərək həmişə ora pul gedə ki, oradan da banka gedə. Bu pulda xəzinəyə haradan yığılır. Göydən gəlmir. Bu yerdən yığılır camaatdan, znaçit gərək camaatin nəfinə olsun. Əgər bu camaatin hamısının nəfinə isə o zaman hər bir idarə buna qol qoyar. Amma keçmişdə qosudarstvennıy, bank hansıki qosudarstvenni xəzinə ilə dolanardı ümum camaatin nəfinə getmirdi.

Ancaq sərmayədarlar üçün qulluq eyləyirdi. Ondan əlavə nəinki ora tək alışverişçilər, hətta ora cürbəcür canavarlar yığılırdı, şəkər başına çibin yığılan kimi. Bunlar bankın şirəsini çəkirdilər. Axırda bank batırdı. Ziyan dəyirdi, o adamlara ki, əməyinin axırıncı pulunu gətirib banka qoymuşdu. Bu şey yalnız Rusiyada deyil böyük məmləkətlərdə, Frənkistanda, İngiltərədə görünübdür. Belə ki, bank batıb gedibdir. Biz deyirik ki, bizim cümhuriyyət bankı elə bir bank olsun, nəfi getsin camaatin çoxluğuna dəysin. Bizim fəhlə firqəsinə, əkinçilərə; kəndə də olanların əsəri dəysin. Bəs haçan onlara əsəri dəyəcəkdir? Yoxsa onların pulunu bir fənd ilə, bir kələk ilə cəm edəsən, camaata lazım olmayan adamların cibinə dola. Biz bu bankın dərin fikrinə getməmişik. Amma onun bir neçə yeri var, göstərir ki, bizim camaat bankdan kənar qalasıdır. Camaatin nəfinə deyil. Amma bankı onlar saxlayacaqdır. Bir öylə yeri də var ki, deyir. Çünki bankın pulu batdı qosudarstvenni kaznaçeystvodan pul açılacaq. Bir elə yeridə var. Bankın nəfi gedəcək xəzinəyə. Ziyan da çəksə xəzinədən ora axacaq. Biz bilmək istəyirik ki, bu necə olacaqdır. Keçmişdə, tarix göstərir ki, bunun ziyanı nəfindən çox olur. Azərbaycan xəzinəsi kanov qayırıb axıdıb yeridir. Əlbəttə, əgər bank nizam ilə aparılsa və alış-verişə həqiqət kömək edərsə, onda heç kəsin sözü olmaz. Bu yerləridə var ki, deyəsən ticarət o sağlığında olmayacaq, bir qədər azarlı olacaq. Onda da nəfi olmaz. Oranı kim idarə edəcək, sovet, o sovetin adamları da ona fitil verəndə bankın heç bir xeyri olmayacaqdır. Biz bu layihənin barəsində dərin fikir eyləmişik. Layihənin hamı maddələrinə baxsaq çox şey tapmaq olar. Məsələn, bir yerdə deyilir ki, borc götürənin pulu olmasa, o vaxt Sovetin ixtiyarı var bağışlasın. Əvəzində xəzinədən oraya pul axacaq. [963 - 964]

Biz buna fikir vermək istədik ki, bəlkə bir yol ilə bu balaca deşikləri örtə bildik. Bu fikir ilə biz istəyirdik ki, bu qanunnaməyə artıq dərəcədə fikir verilsin və burada böyük obsujdeniya olunsun. Çünki buna bizə izin verilmədi. Ona görə də biz bu qanunun nə əleyhində və nə də ləhində səs verməyəcək olacayıq... Düzdür saniyə...

**Sədr** - Söz Ağa Aşurovundur.

**Aşurov** - Bu qanunun əleyhinə, əlbəttə, bu vaxt getmək olmaz. Əgər biz istəyirik bizim məmləkətdə normanlı həyat olsun. Gərək axtaraq o şeyləri ki, onlar normanlı həyata kömək edər. Məmləkətin normanlı həyatına kömək edən şeylərin birisi də ticarətdir: Bunun üçündə ticarət aparatını gərək dirildək. Buda banklar ilə ola bilər. Bu barədə danışmaq istəmirəm. Ancaq bir şey istərdim, dokladçıdan soruşam. Bizim köhnə bank ilə və başqa banklar ilə əlaqəmiz nə cür olacaq. Köhnə bankların köhnə borcları barəsində bizim fikrimiz nədir? Biz köhnə borcları verəcəyikmi? Və alçaqları ala biləcəyikmi? Çünki bunlar məlum olandan sonra bilmək olar ki, bu bank yaşayacaq, ya - yox. Bu əsaslı bir məsələdir. Əgər bizim köhnə banklar ilə bir əlaqəmiz olsa idi, onda ayrı cür olardı. Mən bunu bilmək istərdim.

**Sədr** - Danışmaq istəyən daha yoxmu? Əhmədzadə Yusif.

**Əhmədzadə Yusif** - Bank açmaq barəsinə öylə bilirəm ki, heç danışıq olmamalıdır. Müstəqil səltənətin nişanələrindən birisi də bank təsisidir, Çünki varidat və ticarət ondan asılıdır. Bir millətin mədaxil və məxaricini xəzinədən, bankdan bilmək olar. Bank özü öylə şeydir ki, hökumətə müavinətdən başqa siyasi əhəmiyyəti var. Qonşu məmləkətlər ilə neçə əlaqə və müamiləsi var. Bankın bir əhəmiyyəti də var ki, şöbələri ola bilir ki, onlar da Kerenski bank və ya ziraət və ya torpaq banklarıdır. Bu şöbələrdə yenə məmləkətin ticarət tərəfini nəzərdə tutub, onun irəli getməsinə səbəb olacaqdır. Bank nə yolda olacaq, nə təhərdə olacaq, onlar açıldıqdan sonra düzələn şeylərdir. Bank barəsində o qədər danışmaq lazım deyil, lakin müxtəsərdə olsa deyək. Məsələn, ola bilər ki, bir tacirə, bir iş sahibinə bir məbləğ lazımdır. Özündə yoxdur, lakin etibarı var. Ona kağız vasitəsilə bank müəyyən bir məbləğ buraxar. O adamın [964 - 965] ticarəti vüsət tapar, işi düzələr. Bank da bundan istifadə etmiş olar. Bir də ticarət bir adamdan ibarət deyil. Ondan fəhlə qismi də, sərmayədar da məmləkətdə istifadə edir. Ticarət vasitəsilə hər bir sinfin özünə görə mədaxili olur. İndi əgər işləri yaxşı aparmırlarsa, bundan demək olmaz ki, bank yaxşı deyildir. Mən güman edirəm bütün nöqsanlar gələcəkdə düzələr, islah edilər. Bizim indi yaşadığımız əsr cümhuriyyət əsridir. Biz bir cümhuriyyət daxilində yaşayırıq. Cümhuriyyət isə boş sözdən, quru kağızdan ibarət deyildir. İndidən əyləşib danışmaq ki, bəzi işlərdə nöqsanlar və qanunsuzluqlar olduğundan bank nə lazımdır. Doğru mülahizə deyildir. Mən deyə bilərək ki, qabaqkı Rusiyanın istibdad idarəsi zamanında onun qoyduğu qanunlar, həp kağız üzərində olardı. Hər kim öz xahişi ilə iş görüb qanunları nəzərə almaz idi. Əgər o hakimlər kağız üzərindəki qanunları nəzərə alsa idi yenə bir şey idi.

Polis bizim gözlərimizin qarşısında öylə bir şey idi ki, onlarda qırmancdan başqa ayrı bir şey görmək olmaz idi. hər qanun çıxırdı, o ancaq kağızda qalıb nəzərə alınmayırdı. halbuki, qanun özü hər nə oldu yaxşı bir şey idi.

Bank barəsində təfsil ilə burada danışmaq mən öylə bilirəm ki, artıqdır. Əgər komisyon buna baxıb qəbul edibsə biz də gərək [qəbul] edək. Ola bilər ki, bəzi tağyir və təbdili olsun.

**Sədr** - Kim danışmaq istərdi? Hər kim danışmaq istər isə rica edirəm vərəqə yazıb versin. İbrahim Əbilov.

**Əbilov** - Biz burada bankın olub-olmaması barəsində danışmadıq və əsasən bankın ziddinə getmədik, əlbəttə bankları ondan ötəri təşkil edirlər ki, onların əhəmiyyəti çoxdur. Biz, ancaq bu qanunun bir paralarına etiraz edirik ki, bu qanun layihəsi bizim fraksiyamıza gəlmədiyindən məsələnin gələn iclasa qalmasını rica etmişdik. Dedilər ki, kömək lazımdır. Əlbəttə polis əhəmiyyətlidir. Darülfünun məsələsi də lazımlıdır. Lakin, yalnız "Müsavat"ın natiqi burada olmadığından...

**Sədr** - Rica edirəm sözünüzə davam edib, parlamanın qətnaməsinə toxunmayasınız.

**İbrahim Əbilov** - Ərz etdiyim kimi bankın açılmasına zidd deyilik. Lakin dediyim səbəblərə görə gələn iclasa qədər təxir olmasını təklif etdik. [965 - 966]

**Sədr** - Təklifinizi səsə qoydum keçmədi.

**İbrahim Əbilov** - Şimdi kəndi təklifimizdə baqi qalıb ərz edirik ki, hər gah təklifimiz qəbul olunmasa biz bu məsələdə nə müzakirəyə iştirak və nə də ləhinə, ya əleyhinə səs verməyəcəyik.

**Sədr** - Sırada natiq olmadığından axırıncı söz məruzəçi Rza bəy Ağabəyovundur.

**Rza bəy** - Bu bank məsələsi bilməlidir ki, iki aydan çoxdur komissiyaya gəlib, bir çox çətinlik ilə yığılıb buna baxmışıq. Bu layihə də fraksiyalara göndərilibdir. Əyər sosialistlər bu bank məsələsinə əhəmiyyət verib baxmaq istəsəydilər imkan var idi. Daha hökumətin qollarını bağlamaq olmaz. Bu məsələ bizim finansın əsl əsası olduğu üçün daha gözləyə bilmərik. İndi mən Ağamalı oğluna cavab vermək istərdim. Hərçəndi burada söylənən sözləri komissiyada da deyib və cavab da almışdır. Lakin yenə də ona cavab verməyə, məcburam. Buradan Ağamalı oğlu dediyi bu bank ətrafında çox xəyanətlər ola bilər. Və məsəl gətirdi ki, şirin şey ətrafına milçəklər yığışan kimi, bir para xainlər də bu banklardan istifadə etmək üçün oralara yığışacaqlar. Bunu da deyə bilərəm ki, əski zamanlarda doğrudur bir çox xəyanətlər olur idi. Bu xəyanətlərin önünü almaq üçün bir heyət əmələ gəlib və aksiz obşestva fürsət tapıb get-gedə eyibləri düzəltdilər və bir də xainlərdən qorxub işdən əl çəkmək olmaz. Ola bilər ki, bizim banklardan milyonlar və daha çox alıb, sonra verməyəcəklər. Lakin qəpikcilik etmək olmaz. Ola bilər ki, bizim bankımız on min manat itirib əlli min qazansın. Bir də dedilər ki, bu kapital camaatin cibindən çıxacaqdır və bundan da sərvətdarlar mənfəətbərdar olacaqlar. Doğrudur, fəqət hökumət əlli milyon sərmayə vermək ilə camaati də bir çox ehtiyacdan qurtaracaq. Bu pul xəzinədən götürüləcəkdir. Əlbəttə, bu pul da camaat puludur. Bundan əlavə məmləkətin kəndlərində bir çox suda şöbələri açılacaqdır ki, onların da ümdə fikri camaatin halını yaxşılaşdırmaq üçündür. Bir də dedilər, bank şurasında oturanlardan bir çox xəyanətlər zühur edir, onlara inanmaq olmaz. Bu şuraya obşestvenni elementlər daxil olacaqlar, bu məsələ də keçib şuraya bələdiyyə idarəsi kooperativ [966 - 967] zemstvolar və qeyrilərdən nümayəndə olacaqdır, buda ki, əlbəttə faydasiz deyildir.

Əsasən beşinci maddədə bu xüsusda vardır. Fəqət bu o qədər qorxulu deyildir. Və aldatmaqda olmaz. Bankın olması millətin xeyrinədir. İki adam həm xeyrə, həm də zərərə yoldaş olur. Bu qorxulu bir şey deyildir. Məsələlərin çoxunu burada söylədim və cavab olaraq danışdım. Burada Ağa Aşurov buyurdular ki, yeni bank, köhnə hesablarla nə kimi əlaqədə olacaq. Bu məsələ komisyonda ətraflı danışılmadı. Yalnız maliyyə nazirinin müavini bizə dedi ki, hökumətin camaatə 20 milyona qədər borcu vardır. Bunu birdən vermək olmaz. Həftədə, ayda qərar üzrə veriləcəkdir. Aşurov cənabları deyirlər ki, bu bəhanədir. Odur ki, öyrənilməmiş məsələdi. Öylə

isə bu məsələni təxirə salaq. Ancaq bu bəhanədir. Məsələ mühüm olduğu üçün gərək keçirək. Çünki bu bank hər dövlətdə vardır. İstər olsun kapitalist üsulu bir dövlət, istərsə sosialist üsulu - hamısında vardır. Bunun üçün bizdə də olmalıdır.

**Sədr** - Ümumi müzakirə olmadığından layiheyi-qanuniyyənin maddə-maddə müzakirəsinə keçəlim. Kim ikinci qiraətə keçilməsi tərəfdarıdır? Kim əleyhinədir? Kim səs verməyir? Mövcud qırx adamdır, təzədən səsə qoyuram (zəng çalır). Layiheyi-qanuniyyənin ikinci qiraətinə keçməyi səsə qoyuram. Kim qəbul edir, rica edirəm əllərini qaldırsın. Kim əleyhinədir? Kim səs verməyir? Lehinə 30, əleyhinə 9, səs verməyən 0.

Əksəriyyət rəy ilə layiheyi-qanuniyyənin ikinci qiraətinə keçilir. Əvvəlinci maddəni oxuyunuz.

**Katib** - Bayram Niyazi oxuyur.

**Sədr** - Danışmaq istəyən olmadığından səsə qoyuram. Kim birinci maddəyə etiraz edir? Etiraz yoxdur. Əvvəlinci maddəni kim qəbul edirsə, rica edirəm, əlini qaldırsın. Kim əleyhinədir? Kim səs verməyir? (Zəng çalınır, üzvlər qeyd olunur). Əvvəlinci maddəni səsə qoyuram. Kim qəbul edirsə, rica edirəm əlini qaldırsın. Kim əleyhinədir? Səs verməyən? Möhtərəm üzvlər görünür ki, yorulublar, o vaxt beş dəqiqə tənəffüs elan edirəm. Səsin nəticəsi olmadı.

Beş dəqiqə tənəffüs elan olunur. [967 - 968]

**(Tənəffüsdən sonra)**

**Sədr** - İclas davam edir. Divani-rəyasətə böylə bir təklif varid olub. (Katibə) Oxuyunuz.

**Katib** - (Oxuyur).

**Sədr** - Söz Qara bəy Qarabəylinindir. Əvvəlinci imza sizindir, buyurunuz.

**Qarabəyli** - İş buradadır ki, bu layihə bizim fraksiyaların çoxuna gəlməyib. Ona görə layihəyə layiqincə aşna deyildik. Bu bir, ikinci odur ki, burada bir çox örtülü, qaranlıq məsələlər vardır. Məsələn, köhnə bank ilə bu bankın əlaqəsi necə olacaqdır. Köhnə bankın ki, nə qədər borcu var görək kimin boynunda olacaqdır. Gərək maliyyə naziri burada olsun, bu barədə ətraflıca izahat versin. Bu məsələni böylə keçirmək olmaz. Bu qaranlıq bir işdir. Ona görə təklifimiz budur ki, bu məsələ bu gün qalsın, nazir gəlsin. Hər bir qaranlıq suallarımıza cavab verilsin. Bu cür böyük bir qanunu beləliklə keçirmək mümkün deyildir. Bu qanun gələn iclasa və ya başqasına qalsın, o vaxta qədər də layihəyə layiqincə bələd olaq.

**Sədr** - Təklifin əleyhinə kim danışmaq istərdi? Natiq olmadığından təklifi səsə qoyuram. Buna etiraz yoxdursa təklif qəbul edilir. Layiheyi-qanuniyyənin ikinci qiraəti gələn iclasa buraxılır. Növbədəki layihələrin hamısının məruzəçisi Rza bəy Ağabəyovdur. Məsələn: Spirt məhsulatından alınan aksız vergisi miqdarlarının artırılması haqqında, Tövci vergisinin artırılması ilə bərabər torpaq gəlir və məxaric smetasının və torpaq vergisi miqdarlarının təmdidi haqqında və i. a. Lakin məruzəçi növbədə böyük layihələr, məsələn darülfünun küşadi, bank məsələsi olduğunu təsəvvür edib ki, bunların hamısı keçib qurtarmaz. Ona görə qalan layihələrin türkcəsini özü ilə gətirməmiş. İndi olmamış ki, bunlara baxılıb qurtarsın. Əgər icazə versəniz Qalanlar xırda layihələrdir, ruscasilə keçərik. Türkcə tərcüməsi bura da yoxdur.

**Səslər** - Qətiyyən olmaz. 10 dəqiqəlik tənəffüs elan edək, gedib evdən gətirsin. Yoxsa istəsəniz bununla iclası qapayaq. Məclisin qapanmasına etiraz yoxdursa qapayaq. Etiraz yoxdur. Lakin növbədən kənar olaraq Eyezenşmidt zavodunda olan tətil münasibətilə söz Əliheydər Qarayevə verilir. [968 - 969]

**Qarayev** - Əfəndilər! 18 gündür ki, dəmiryol təhti nəzarətində Eyezeşmidt zavodu əmələləri tətil etmişlər. əmələlər məsai nəzarəti tərəfindən dekreti dəstaviz etmişlər. Çünki bu əmələlər iki firqəyə bölünüb bir dəstəsi Moskovski dekret eylədiniz, digər dəstəsi kollektivin doqovor (müqavileyi-müştərəkə) ilə maaş alırlar. Məsai-nəzarəti tərəfindən verilən kollektivni doqovorda olan vacibli bir maddə var isə o da sanitarnı pomoşdur (səhiyyə yardımı), hökumət bu maddədən boyun qaçırır və dəmiryol nəzarəti bunu qəbul etməyir. 18 gündür ki, ayda 6 yüz manat maaş alan binəva və sahibsiz fəhlələr küçələrdə sərgərdan gəzməkdədirlər. Məsai naziri yanında bu barədə bir komissiya təşkil olmuşdur. Məsai naziri dəmiryol nazirinə xəbər verib ki, nümayəndə göndərsin, bu məsələni sülh ilə [həll] etsinlər. Bu iclasa əmələlər ittifaqı nümayəndələri gəlib, lakin dəmiryol nəzarəti nümayəndəsi gəlməmişdir. Və bu barədə dəmiryol nəzarətindən məsai nazirinə böylə rusca bir məktub göndərilmişdir. (Rusca məktubu oxuyur). Hamısından ciddi budur ki, dəmiryol müdiri prikazında yazılmışdır ki, hərgah əmələlər işə şürü etməsələr onların başçıları həbs olunub Azərbaycandan nəf ediləcəklər. Siz görürsünüz ki, əmələlər iqtisadi tələb edirlər, dəmiryol nəzarətidə öz əməllərini məsai nazirinə tabe eyləyib, onun əmrlərinə əhəmiyyət vermir. Deməli, bir də dəmiryol respublikası. Yenə bu gün həbs etmək ehtimalı vardır. Biz deyirik ki, böylə işlər olacaq isə bu davam edər isə nə normanlıdır bunun qabağını almalıdır. Əgər biz böylə işləri çastnı predpriyatiyada görsə idik təəccüb etməz idik. Ayda altı yüz manat alan cibi boş, qarnı ac fəhlələrin halına qalınmalıdır. Biz deyirik ki, gərək onların tələbləri verilsin və nəf olanlar Azərbaycana gətirilsin.

**Sədr** - İclas qapanır.

**İbrahim Əbilov** (yerindən) - Bizim suala cavab nə oldu.

**Sədr** - Əhməd bəy dedi ki, mənim danışmaq imkanım yoxdur. Mən də onu növbəyə qoymamışam.

**Əhmədbəy** - Mən böylə demədim, mən dedim ki, mən dolkladçik ola bilmərəm.

**Sədr** - Təklif var ki, sosialistlər tərəfindən keçən ictimaidə sorğuya hökumət cavab versin. Hökumət gəlmişdir. Və [969-970] cavab verməyə hazırdır. Etiraz yoxdurmu? Etiraz yoxsa, söz Əhməd bəy Pepinovundur.

**Pepinov** (yerindən) - Söyləyəcək söz yoxdur.

**Sədr** - Məlumunuz ki, sual vərəqəsini beş adam imza etmişdir. Əvvəla söz daima birinci imza atanındır. Əvvəla imza atanda sizsiniz.

**Əhməd bəy Pepinov** (Kursayi-xitabında) - Keçən səfər sosialist firqəsi tərəfindən hökumətdən sorulan sual məlumdur. Sədrin icazəsilə fikrimi söyləməmiş və sualı firqə tərəfindən sormuşduq. Biz haman sualın cavabını gözləyirik. İkinci dəfə sormuyarıq.

**Sədr** - Söz xariciyyə naziri Məmməd Yusif Cəfərovundur.

**Cəfərov** - Sosialist fraksiyası tərəfindən sorulan sualdan əvvəl əsasən hökumət istərdik məclisi-məbusana bu xüsus haqqında cavab versin. Sosialistlər tərəfindən sorulan sualların birincisi flot məsələsi, ikincisi xətti-hərb məsələsi, üçüncüsü Azərbaycan daxilində denikinçilərin işləməsi və daha bir neçə məsələ, mən istərdim ki, bu xüsusda məlumat verməmdən qabaq fikrinizi dala qaytarım. Məlumdur ki, Denikin Dağıstanı dağıdıb bizim hüduda gəldi. Və hökumət də, bu vaqiəni vaxtilə xəbər verdi. Protestoda bulundu. İngiltərə komandanlığı protestolarımıza görə bir xətti-hüdud yapdı. Ona görə Denikin yenə Dağıstanda qaldı, çıxmadı. Və niyə biz İngiltərə komandanlığı ilə yapdığımız söhbətlərdə və verdiyimiz notalarda daima Denikinin dala çəkilməsini tələb göstərilən hüduda qədər olan yerin təxliyəsini söylədik. İngilis komandanlığı ilə danışanda bizə söz verirdi ki, biz bunu təshih edər, bu məsələyə sərəncam eyləriz. Axır vaxtlarda biz Gürcüstan xariciyyə naziri Kiçiqori ilə birlikdə general Qorinin yanına getdik. Orada eyni təklifdə bulunduq. Lakin sonradan biz anladıq ki, Denikin göstərilən hüduda çəkilmək istəmir və Dağıstana təxliyə etmək istəmir. Bu məsələ üzərinə biz ingilislərə dedik ki, bu təklifi yapan və bu hüdudu göstərən sizsiniz. Və məsələni yenə siz həll edəsiniz. Məsələ sərəncamsız qaldı, avqustun 4-nə qədər. Əsasən bütün məlumatları qəzetlər eynilə yazır. Denikinin istədiyi təkliflər ehtimal yadınızdadır. Birinci təklif, Denikin deyir ki, hüdud Qızılburun olsun. İkinci təklif isə Samur xətti [970 - 971] olsun. Bunlar cümlənin məlumu olduğu üçün oxunmayacaq. Ayın 4-də bir məktub gəlmişdir. Rus dilindədir. Məclisin müsaidəsilə bunu rusca oxuyacağam. (Rusca oxuyur). Məzkur teleqrafı hökumət ingilis komandanlığından almışdır. Məktubda göstərilir ki, hüdud təkrar dəyişdirilsin. Hüdud Samurdan başlayacaq, ta Suxuma qədər. (Xəritədən qırmızı cizgili hüdudu göstərir). Biz buna da bu təklifə də protesto etdik və hökumət heç bir vaxt buna razı deyildi. Və biz təkrar israr etdik. Denikin Dağıstanı kamilən boşaltsın. Və komandanlıqdan rica etdik ki, bizim bu təklifimizi İngiltərə hökumətinə bildirsin və tezliklə cavab verilməsini rica etdik. Elan bir cavab yoxdur. Hökumət əlindən gələn vəzifəni ifa edir. Daima məktublarla protestolar düşmənın Dağıstandan təmizlənməsi tələb edilir. Bizim əsasən Denikinlə bilavasitə əlaqəmiz olmadığından ingilis komandanlığının vasitəsilə protesto edirik. Biz yenə bir taqım protestolar hazır eyləmişik. Bunlarıda yaxınlarda qəzetnən elan edəcəyimizdən, burada oxuyub da fəzlə başınızı ağrıtmayacağam.

Bu məlumatı da qəzetlərə verirəm, oxuyasınız. Əgər xahiş edən olsa oxuyaram. Lakin uzundur, baş ağrısı vermək istəmirəm. Gürcüstan, Azərbaycan, Şimali Qafqaziya mürəxxisləri bir protesto yapıb sülh konfransına verdilər. Onlar təklif edirlər ki, Denikin Dağıstanı boşaltsın. Ondan başqa bir Fransız sosialistinin təşəbbüsü ilə gürcü nümayəndələri və bizimkilər bu barədə bir protesto vermişlər. Protestonun məzmunu qəzetlərdə olacaqdır. "Zarya" qəzetində var idi. O ki, qaldı flot məsələsinə, o vaxt ki, hökumətə məlum oldu ki, flotun bir hissəsi Denikinə verilibdir, hökumət nota ilə ingilis komandanlığına müraciət etdi. Demək olmaz ki, bu hökumətin bu barədə addımı idi. hətta Tomson Bakıda, Tiflisdə olanda hökumət onunla müzakiratda idi. Hökumət həmişə deyirdi ki, flotun bir hissəsi Azərbaycanın olsun, tainki, sərhədlərini, paytaxtını müdafiə etsin. hökumət razı olmaz ki, paytaxtımız dəniz kənarında ola-ola dava gəmiləri bir adamın əlində olsun. O adam kim olursa-olsun Azərbaycan özünü müdafiə etməkdən ötəri gərək onun əlində olsun.

General Tomsonun yerinə Kuri yeni dəlmişdi. hökumətin təklifinə görə onunla müzakiratda bulundum. Qəti bir cavab almadım. [971 - 972] May ayının ortasında İtaliya heyəti Tiflisə gəldi. Polkovnik Qabba ilə bu məsələni müzakirə etdim. Qabba söz verib dedi ki, İtaliya komandanlığı Azərbaycana gəlib flotu qəbul edən kimi flotu bizə verəcək. Bundan əlavə də bizə müəllimlər, instruktorlar da verəcəkdir ki, atmağı və qeyrini bizimkilərə öyrətsinlər. İş belə oldu ki, italyanlar da gəlmədi. Flot qaldı İngiltərədə. İngilislər deyir ki, flot özümüzdə qalacaq, heç [kəsə] verilməyəcək. Amma axırda aldığımız rəsmi xəbərə görə flotun bir hissəsi dobrovol ordusuna verildi. Əvvəl "Rossiya" qəzetəsində flotun dobrovol ordusuna verilməsi haqqında qeyri rəsmi xəbər yazılmışdı. hökumətin əmrinə görə yazıb İngiltərə komandanlığına bu barədə xəbər aldım. Cavab gəldi ki, flotun bir hissəsi verilib dobrovol ordusuna. Çünki flot bolşeviklər əleyhinə düzülüb, indi ki biz gedirik və Denikin də bolşeviklər ilə müharibə edir, ona görə flotun bir hissəsi Denikinə verilir ki, bolşeviklər ilə müharibə eyləsin. O ki qaldı Denikinə verilən flotun Azərbaycan əleyhinə işləyə biləcəyinə, bu barədə rəsmi surət-də məktub var. Denikin özü demiş və yazmış. Və ingilislərdə dəfəatla xəbər verib demişlər ki, biz flotu Denikinə vermirik ki, Azərbaycan əleyhinə işləsin. Biz flotu ona veririk ki, bolşeviklər ilə müharibə etsin. Qəti surətdə əmin edirik ki, bu flot Azərbaycan əleyhinə işləməyəcəkdir. Bu barədə dəfələrlə söz deyilib. Biz də

hökumət dəfələr ilə İngiltərə komandanlığına yazdıq ki, flotdan bir hissəsini də bizə verin. Axırıncı dəfə yazdıq ki, o qədər ki, Denikinə verilib, o qədər də bizə verilsin. Və İngiltərə komandanlığına təklif etdik ki, bizim bu xahişimizi İngiltərə hökumətinə xəbər versin. Amma, ştabdan xəbər almışıq, indiyə qədər cavab yoxdur.

Bundan əlavə 5-6 gün bundan irəli, hökumət ingilislərin getməsi, flot və xətti-hərb barəsində Parisə, nümayəndələrimizin rəisinə bir teleqram çəkdik ki, bu barədə özləri tərəfindən lazımı təşəbbüsatda bulunsunlar. 3-cü məsələ ingilislərin getməsidir. Məlumunuzdur ki, ingilislər gələn gündən deyirlər ki, biz müvəqqəti gəlmişik, vəzifəmizi görüb gedəcəyik. Buna bir paraları inanırdı, bir paraları inanmırdı. Axırda iş ora gəldi ki, rəsmi surətdə, səbəbi nə oldu [972 - 973] deyə bilmərik, ehtimal ki, İngiltərənin daxili işləri olsun hər halda ingilislər Azərbaycandan, Gürcüstandan və Ermənistandan gedirlər. Əlbəttə böylə mühüm vaxtda ki, bir yandan könüllü ordu gücləşir, bir yandan flot onlara verilir. Böylə bir vaxtda Azərbaycan və Gürcüstan lazım bilmədi ki, xeyrimizin əleyhinə getsin. İngilislərin getməyinə görə Azərbaycan və Gürcüstan hökuməti Tiflisdə olan komandanlığa işarə elədi ki, sülh konfransı Zaqafqariya cümhuriyyətlərinin işlərinə baxana qədər, ingilislər getməsinlər. Dedilər ki, bundan bir şey çıxmaz. Qət olub gərək gedək. Amma sizin bu xahişinizi hökumətimizə məlum eylərik. Bu vaxta qədər də hələ ondan cavab yoxdur. Ancaq əmir alıblar ki, getsinlər. Ona görə də gedirlər. O ki, qaldı qeyri məsələlər, hərbi, siyasi, daxili işlər ki, sualda xəbər alınır.

Məndə olan məlumata görə hökumət lazımı iş görür. Nəinki Denikin, sağdan da, soldan da cümhuriyyətimiz əleyhinə olanların hökumət əleyhinədir. Əlbəttə xariciyyə nəzarətində olan işlər barəsində sizə bir çox məlumat verə bilərəm. hərbiyyə işləri haqqında mən məlumat verə bilmərəm. Bu hərbiyyə nazirinin işidir. Ancaq bu qədər deyə bilərəm, hökumət var qüvvəsilə çalışır. Vətənin müdafiəsi üçün istər hərbi cəhətdən, istərsə siyasi cəhətdən nə lazımdır edir. Əlbəttə, demək olmaz ki, Azərbaycan üçün təhlükə yoxdur. Biz gərək hər zaman bu təhlükəni nəzərdə tutaq. Onun üçün birləşək ki, Azərbaycan milləti bir adam kimi öz hüququnu, öz azadlığını, öz istiqlaliyyətini müdafiə etsin. Mən burada sizə məlumatları verdim ki, onları açıq məclisdə deyə bilirik. Bəzi məlumat var ki, onları açıq məclisdə demək olmaz.

**Sədr** - Sual müəllifindən bilmək istərdim ki, işbu verilən cavabdan qənaət hasil etdilərmi?

**Əhməd Cövdət** (yerindən) - Əgər hökumət tərəfindən başqa cavab olacaqsa...

**Sədr** - Yoxdur.

**Əhməd Cövdət** - Bizim sorğumuzda 4-5 məsələ qoyulmuşdu. Və bunun da haqqında hökumətdən cavab istəmişdik. Onlar mühüm məsələlər olduqlarından güman edirdik ki, lazımı etina olunub cavab veriləcəkdir. Lakin onlara lazımı cavab verilmədi. Ancaq yeni demokrasiyon xətti haqqında ingilislərin getməsi [973 - 974] barəsində burada söyləndi. Xariciyyə naziri o sözləri söylədi ki, onsuz da onları bilirdik. Bunların hamısı olan faktlardır: Necə nota verildi. Necə xəritə gəldi. Xəlvəti verəcəklərdi, lakin verdilər. Biz hökumətdən bunları sual etmirdik. Biz bunları göstərib onların nəticəsində hasil ola biləcək təhlükələrin bərtərəf edilməsi üçün tədbirlər görünməsini eşitmək istərdik. Onda deyə bilərdik ki, cavab bizi qane edir, ya yox. İndi isə mane olmayırıq.

**Sədr** - Çünki hökumətin bəyanatı sual sahiblərini qane eləmiyor. Onda sual nakaz üzrə istizah surətini alır. Və gələcək iclasa qalar. Suallar sahibləri də o vaxta kimi necə ki lazımdır. İstizahı yazıb verərlər. İndi məclis qapanır.

Məclis qapanır. Saat 2.20 dəqiqədə.

**Arxiv: f. 895, siy. 1, iş. 130, vər. 1-23.**

**Rəssamı Zaur Əliyev**
**Texniki redaktoru Elmira Tağıyeva**

---

**Çapa imzalanmış 22.05.98. Kağız formatı 60x90 1/16.**
**Şərti çap vərəqi 61,0., Uçot nəşr vərəqi 60,3. Tirajı 1000.**
**Sifariş 1378. Müqavilə qiyməti ilə.**

---

**"Azərbaycan" nəşriyyatı. 370146 Bakı, Mətbuat prospekti, 529-cu məhəllə.**